# AZƏRBAYCAN TARİXİ

T3(2A)
A 99

BAKI DÖVLƏT UNİVERSİTETİ

# AZƏRBAYCAN TARİXİ

253846

*Uzaq keçmişdən 1870-ci ilə qədər*

İkinci nəşri

«ÇIRAQ» NƏŞRİYYATI
BAKI – 2009

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

**Redaktor:**
*tarix elmləri doktoru, professor,*
*əməkdar elm xadimi **Süleyman Əliyarlı***

**Rəyçilər:**
*t.e.d. prof.* ***Elmira Muradəli***
*t.e.d. prof.* ***Şahin Fərzəlibəyli***

**Nəşrə məsul:**
*t.e.n.* ***Əliağa Cəfərov***

**Azərbaycan tarixi.** Bakı, «Çıraq», 2009, 872 səh.

«Azərbaycan tarixi» kitabı Bakı Dövlət Universitetində işlənməkdə olan tədris proqramı əsasında yazılmışdır. Kitabın ilk cildində tariximizin izlənməsi ən uzaq keçmişdən 1870-ci illərə qədər davam etdirilmişdir. Kitabda Azərbaycan tarixinin konseptual məsələləri önə çəkilmiş, qaynaqların və bugünkü araşdırmaların imkan verdiyi ölçüdə xalqımızın yaranışı və etnoqrafiyası ilə bağlı problemlərə geniş yer verilmişdir. Siyasi tarixə ayrılan bölmələrin çoxu yeni elmi qavrayış biçimindədir və konyuktur ehkamçı təhriflər tilsiminin qırılmasına yönəlmişdir. Müəlliflər sadəcə tarixi hekayətlərin sayını çoxaltmağı qarşıya qoymamışdır. Daha çox tariximizdə olub bitənlər üzərində oxucunun düşüncəsinə yük verməyə çalışmışlar. Bunun uğurlu və ya uğursuz bir çalışma olduğunu oxucular söyləyə biləcəkdir.

A $\frac{4804000000-01}{067}$ 2009.

© «Azərbaycan» nəşriyyatı, 1996.
© «Çıraq» nəşriyyatı, Süleyman Əliyarlı, 2009.

## İÇİNDƏKİLƏR

Ön söz .......... 3

Birinci bölüm. İCMA YAŞAYIŞI

1. İnsan yaşayışının ulu çağı .......... 8
   İlkin daş alətlər. Ulu icma. Ulu od. Odyandırma vərdişi. Orta Paleolit dövrü.
2. Qəbilə icmasının istehlak təsərrüfatı. .......... 14
   Qəbilə icması. Anaxaqanlıq. İstehlak təsərrüfatı.
3. İstehsal təsərrüfatı. Qəbilə icmasının çiçəklənməsi. .......... 17
   «Neolit inqilabı». İcma quruluşunun çiçəklənməsi. Metal ilə tanışlıq.Quzey Mesopotamiya ilə ilk əlaqələr. Ataxaqanlığına doğru.
4. İbtidai icma cəmiyyətinin dağılması. .......... 22
   Erkən tunc dövrü təsərrüfatının yeni sahələri. Əmlak bərabərsizliyi. İlkin tayfa birlikləri. Orta Tunc dövrü. Sənətin ayrılması. Son Tunc - Erkən Dəmir dövrü. İcma yaşayışının pozulması.

İkinci bölüm. UZAQ KEÇMİŞDƏ AZƏRBAYCANDA ETNO-SİYASİ TOPLUM VƏ BİRLİKLƏR

1. M. Ö. III-II minilliklər .......... 34
   Tarixi durum. Kutilər. İkiçayarasında kuti hökmranlığı. Lullube. Su tayfaları. Turukkilər. Hurrilər.
2 Yeni minillik, yeni toplumlar. .......... 43
   Kimmerlər, iskit-sakalar, massagetlər. Yeni toplumların soykök məsələsi. Kaspilər və başqaları.

Üçüncü bölüm. MANNA DÖVLƏTİ

1. Tarixi axarın başlanğıcı. .......... 51
   İlkin arayış. Kiçik dövlət qurumları.
2. Manna dövlətinin yaranması.
   Assur və Urartu çarları ilə ilk qarşılaşma. Mannaya urartuların yeni basqınları.
3. Mannanın yüksəlişi .......... 55
   Mannanın güclənməsi. Assuriya ilə yaxınlaşma. Mannada çəkişmələr. II Sarqonun Mannaya yürüşləri. Manna dövlətinin genişlənməsi. Manna dövlətinin süqutu.
4. Dövlət quruluşu. Təsərrüfat, mədəniyyət. .......... 65
   Dövlət quruluşu. Mannada əkinçilik. Maldarlıq və atçılıq. Sənət. Mənəvi mədəniyyət. Midiya və Əhəməni imperatorluqları tərkibində.

Dördüncü bölüm. ATROPATEN VƏ ALBAN DÖVLƏTLƏRİ


1. Atropaten dövləti. . . . . . . 77
Atropaten dövlətinin yaranması. Ərazisi və təsərrüfatı. Əhalisi.
2. Siyasi tarix. . . . . . . 82
Atropaten dövləti ellinizm dövründə. Parfiya, Roma və Ermənistanla münasibətlər. Mədəniyyət.
3. Alban dövləti. . . . . . . 91
Alban dövlətinin yaranması. Ərazi. Əhali. Təsərrüfat. Sənət işləri. Ticarət. İctimai quruluş. Şəhərlər.
4. Siyasi tarix. . . . . . . 102
Roma işğalçılarına qarşı mübarizə. Alan basqınları. Mədəniyyət.


Beşinci bölüm. AZƏRBAYCAN ERKƏN ORTA ÇAĞDA


1. Alban dövləti III-VI yüzillərdə. . . . . . . 110
Təsərrüfat həyatı. Yeni ictimai münasibətlər. Ərazi və inzibati bölgüsü. Xristianlığın yayılması.
2. Siyasi tarix. . . . . . . 117
Sasanlı imperiyası və Azərbaycan. Quzey bölgələrin siyasi durumu. 450- 451-ci illərin üsyanı. Yeni üsyanlar. III Vaçaqanın hökmdarlığı. Məzdəkilər hərəkatı. Feodal cəmiyyətinin inkişafı. Köçərilərin yürüşləri. Mədəniyyət.


Altıncı bölüm. AZƏRBAYCANDA XİLAFƏT AĞALIĞI VƏ ONA QARŞI MÜBARİZƏ (VII YÜZİLİN BAŞLANĞICI - IX YÜZİLİN BİRİNCİ YARISI)


1. Ərəb işğalları. . . . . . . 130
Azərbaycan ərəb yürüşləri qarşısında. Ərəb yürüşlərinin başlanması. Aqvan hökmdarı Cavanşirin siyasəti. Sasanlılar. Xilafət ya Bizans? II Konstantinlə razılaşma. Aqvan üzərində «Güney hökmranlığı». Cavanşirin Güney hökmdarının hüzuruna ikinci dəfə getməsi. Aqvan knyazlığının aradan götürülüb yox edilməsi. Azərbaycan ərəb-xəzər savaşlarında.
2. Ərəb ağalığı . . . . . . . 138
İdarəçilik. Köçürmə siyasəti. İslamlaşma. Vergilər, ödənclər. Torpaq siyasəti. Mülk, vəqf və icma torpaqları.
3. Xilafətə qarşı xalq hərəkatı. . . . . . . 147
İlkin döyüşlər. Xürrəmilik. Savaşın yüksəlişi. Savaşın gedişində dönüş. Bəzzin çökməsi. Bizans köməyinin gecikməsi. Babəkin öldürülməsi. Azadlıq savaşının tarixi yeri.




Yeddinci bölüm. ETNOGENEZİS


1. Yaranış probleminin qoyuluşu . . . . . . . 156
Azərbaycanlıların kimliyindən yazılanlara bir baxış. Tarixçilik imperializmi. Ön Asiya, Aralıq və Qara dəniz bölgələri uzaq keçmişdə türklərə yad deyildi. «Təbii dərinləşdirmə» üsulu.
2. Yaranışımızın alt qatları . . . . . . . 164
Uzaq keçmişdə soykökümüzün izləri. Bulqarlar. Buntürklər. Albanlar. Qarqar və tərtər icmaları. Antropoloji və leksikoloji yanaşma. «İskit çağı» yonma daş heykəlləri.
3. İlkin orta çağda türk toplumunun yayılıb güclənməsi . . . . . . . 177
Kəngərlər. «Masaha hunları». Bersil-Barşalı-Borçalı. Suvar bulqarları. «Türküstan» sol sahil dövləti. İslamın ilkin yayılma çağı.
4. Türk törəyiş əfsanəsi xalqın etnotarixi yaddaşında . . . . . . . 191
Kitabi-Dədəm Qorqud. Qurddan törəyiş əfsanəsi. Törəyiş əfsanəsi «Dədəm Qorqud» boylarında. Törəyiş əfsanəsi söz sənətinin başqa örnəklərində. Ümumiran kültür yaradıcılığına qoşulma «nəzəriyyəsi». Özünü dərk etmə, özünü oğuz bilmə. Dil, yaranışın qaynağı kimi. «Soykök birliyi» nəzəriyyəsi və Qorqud dədənin dili.


Səkkizinci bölüm. AZƏRBAYCAN IX YÜZİLİN İKİNCİ YARISINDA - XIII YÜZİLİN ƏVVƏLLƏRİNDƏ


1. Feodal dağınıqlığı. IX yüzilin ikinci yarısı - XI yüzilin ortalarında Azərbaycan dövlətləri. . . . . . . 206
Şirvanşahlar dövləti. Sacilər dövləti. Salarilər dövləti Rəvvadilər dövləti. Şəddadilər dövləti. Rusların Azərbaycana basqınları.
2. Səlcuq türkləri və Azərbaycan . . . . . . . 216
Oğuz-Səlcuqlu toplumu və ilkin yürüşlər. Səlcuq imperatorluğu və Azərbaycan.
3. Azərbaycan dövlətləri XII-XIII yüzilin başlanğıcında . . . . . . . 219
Şirvanşahlar dövləti. Eldənizlər dövləti.
4. İqtisadi həyat . . . . . . . 227
Kənd təsərrüfatı. Torpaq mülkiyyəti və vergilər. Sənətkarlıq, ticarət, şəhərlər. Bərdə. Ərdəbil. Dərbənd. Marağa. Urmiya. Təbriz. Muğan. Varsan. Şəhərlərin quruluşu. XII-XIII əsrin əvvəllərində iqtisadi yüksəliş, şəhərlərin tərəqqisi. Karvan yolları və Beynəlxalq ticarət əlaqələri.
5. Mədəniyyət . . . . . . . 253
Mədəniyyət tarixinə ümumi baxış. Elm və məktəb. Ədəbiyyat. Qətran Təbrizi. Məhsəti Gəncəvi. Xaqani Şirvani. Nizami Gəncəvi. Memarlıq. Vahid dilin yaranması.

Doqquzuncu bölüm. MOĞOL BASQINLARI. İQTİSADİ DAĞINTILAR

1. Moğol yürüşləri və onlara qarşı mübarizə . . . . . 271
Birinci yürüş. Birinci yürüş çağdaş tarixçinin gözü ilə. Gürcü feodallarının və Xarəzmşah Cəlaləddinin Azərbaycana soxulması. İkinci yürüş. İkinci yürüş çağdaş tarixçinin gözü ilə. Şirvanşah III Fəriburzun siyasəti. Hülaku ulusunun yaranması.
2. Dinc əhalinin qırılması . . . . . 279
«Örüş siyasəti». Qaynaqlar soyqırımı haqda.
3. Torpaq və vergi siyasəti . . . . . 282
Divan torpaqları və incu. Mülk, ikta, vəqf. Vergilər, vergi toplama üsulu. Mükəlləfiyyətlər.
4. Qazan xanın islahatları . . . . . 286
İki siyasət düşüncəsinin qarşılaşması. Əsgəri iqta yarlığı. Başqa islahatlar.
5. Moğol ağalığının ümumi nəticələri . . . . . 292
Şəhər təsərrüfatı. Oturaq əkinçilik, suvarma. Dövlət xəzinəsinin qazancı nə oldu? Elxanlı hökmranlığının sonu. Yeni köçkün axınları. Çobanilər zülmü. Cəlair ağalığı.

Onuncu bölüm. QURTULUŞ HƏRƏKATI. FEODAL DÖVLƏTLƏRİ

1. XIV yüzilin sonu – XV yüzilin başlanğıcında xalq utopiyaları və bid'ətçi hərəkat. Siyasi birlik meyli . . . . . 300
Hürufilik. Dərviş, Abdal, Qələndər, Dədə. Hürufilərin haqq işi. Şirvanşah İbrahim. Əlincəqala müdafiəsi.
2. Ölkənin ictimai-iqtisadi həyatı. Torpaq sahibliyi və onun Mərkəzi hakimiyyətə təsiri . . . . . 307
İqtisadi dirçəliş. Şəhərlər və ticarət. Torpaq sahibliyi. Əhməd Ağqoyunlu islahatı.
3. Sabitliyə doğru çətin yol. Şirvan Qaraqoyunlu və Ağqoyunlu dövlətləri . . . . . 312
Temurilərə qarşı xalq üsyanı. Qaraqoyunlu ulusu. Təbriz uğrunda mübarizə. Qaraqoyunlu dövləti. Qaraqoyunlu-Şirvan münasibətləri. Temurilər ilə savaşın yeni səhifəsi. Ağqoyunlu dövləti. Səfəvi şeyxləri Ərdəbildə.
4. Xarici siyasət . . . . . 326
Dövlət quruluşu. Trabzon irsi üstündə çəkişmə. Venesiya, Vatikan və Krallıqlar ilə bağlaşma. II Mehmet Fateh ilə savaş. Venesiya ilə yeni anlaşma cəhdi. Moskva knyazlığı ilə əlaqələr.



On birinci bölüm. XIII-XV YÜZİLLƏRİN MƏDƏNİYYƏTİ

1. Elm . . . . . 333
Bilik dünyamız tarixinə bir nəzər. Marağa rəsədxanası. Nəsirəddin Tusi bilik məktəbi. Dar üş-şəfa. Fəlsəfi görüşlər. Mahmud Şəbüstəri. Şihabəddin Əbu Həfs Sührəverdi. Şəms Təbrizi. Fəzlullah Nəimi. Təbiət və fəlsəfi biliklər şamının sönük işıltısı. Tarixi biliklər.
2. Bədii söz sənəti. Musiqi . . . . . 344
Həsənoğlu. Qazı Bürhanəddin divanı. İmadəddin Nəsimi. Bədr Şirvani. Şah Qasım Ənvar. Cahanşah Həqiqi. Musiqi. Səfiəddin Urməvi. Əbdülqadir Marağai.
3. Tətbiqi sənətlər . . . . . 350
Saxsı. Oymalar, qabartmalar. Bədii metal. Toxuculuq. Xalçaçılıq.
4. Memarlıq . . . . . 354
Şəhərsalma işi. Qorunma tikililəri. Xatirə tikililəri. Məqbərələr, türbələr. Camelər, məscidlər. Mülki tikililər.

On ikinci bölüm. SƏFƏVİ İMPERATORLUĞU (XVI-XVII YÜZİLLƏR)

1. Səfəvilərin hakimiyyətə gəlməsində sosial-siyasi bid'ətçiliyin yeri. Qızılbaş təlimi . . . . . 364
Şeyx Heydər oğullarının gizlədilməsi. Kiçik İsmayılın ilk siyasi addımı. Fərrux Yasərə qarşı yürüş. Bakının tutulması. «İstəyiniz nədir – Azərbaycan, yoxsa Gülüstan qalası?» Qızılbaşlığın baş ideoloqu qızılbaş işini necə dəyərləndirirdi? Qızılbaş hərəkatına dirək və arxa olan zümrələr.
2. I İsmayıl və imperatorluğun yaradılması. Şirvan və Şəkinin tam tabe edilməsi . . . . . 371
Ağqoyunlu Əlvənd Mirzə ilə sonuncu savaş. İmperatorluğun yaradılmasında ilk uğurlar. Zülqədər oğulları ilə çəkişmələr. Xorasan uğrunda savaş. Şahqulu baba Şərqi Anadoluda mürid toplayır. Çaldıran savaşı. I Şah İsmayılın Gürcüstan yürüşləri. Şirvan və Şəkinin tabe edilməsi. Şah İsmayılın ölümü və yeni çəkişmələr. I Təhmasibin hakimiyyətə keçməsi. Səfəvi-Osmanlı savaşları. Şirvanda Əlqas Mirzə və Burhan Mirzənin qiyamları. Sultan I Süleyman ordusunun yeni yürüşləri. Səfəvilərlə Şeybanilər arsında çəkişmələr. Səfəvi imperatorluğu və moğol dövləti. XVI yüzilin ortalarında Azərbaycan Avropa münasibətləri. II İsmayıl. Məhəmməd Xudabəndə. Daxili çəkişmələr. XVI Yüzilin 70-ci illərində Türkiyə ilə yeni savaşlar. Mələkə ilə bağlı çəkişmələr dövləti zəiflədir. Yalançı İsmayıllar hərəkatı. Osmanlıların yeni yürüşləri. Təbrizin tutulması

3. Azərbaycan XVI yüzilin sonu - XVII yüzildə ....................399
Şah I Abbasın hakimiyyətə gəlməsi. 1590-cı il barışığı. Daxili çəkişmələrə son qoyulması. Şah I Abbasın islahatları. Türkiyə ilə yeni savaş (1603-1612). XVII yüzilin 20-30-cu illərində Səfəvi-Osmanlı münasibətləri. Qərbi Avropa ölkələri ilə münasibətlər. İran körfəzi uğrunda savaşlar
4. Dövlət quruluşu və ordu ....................409
İctimai-iqtisadi həyat. Dövlət quruluşu. Ordu. Kənd təsərrüfatı. Sənətkarlıq və ticarət. Torpaq sahibliyi. Hakim zümrə. Kəndlilər. Vergi və mükələfiyyətlər.

On üçüncü bölüm. XVI-XVII YÜZİLLƏRDƏ AZƏRBAYCAN MƏDƏNİYYƏTİ

1. Ədəbi türkcənin, ədəbiyyatın yüksəlişi ....................425
Azərbaycan türkcəsi. Ədəbiyyat. Şah İSmayıl Xətai. Füzuli. Ədəbi mühitin ümumi səciyyəsi. Saib Təbrizi. Aşıq sənəti, dastan ədəbiyyatı. Maarif və məktəb.
2. Elm ....................437
Tarixçilik. Başqa bilik sahələri. Təbabət.
3. İncəsənət ....................445
Təsviri sənət. Memarlıq. Musiqi. Kitabxana. Xəttatlıq.

On dördüncü bölüm. AZƏRBAYCANIN BEYNƏLXALQ ÇƏKİŞMƏ MEYDANINA ÇEVRİLMƏSİ

1. Şirvan bölgəsinin etnocoğrafi durumuna baxış ....................460
Tarixi qaynaqlar Şirvan haqqında. Ölkənin daxili vəziyyəti. Mərkəzi hökumətə qarşı üsyanlar.
2. Xəzəryanı vilayətlər və çarlıq Rusiyası ....................466
Ruslar nədən Xəzər üzərinə qoşdular? İrana «böyük elçilik» göndərilməsi. Hacı Davudun Rusiyaya arxalanmaq istəməsi. Hacı Davud Şamaxıda
3. I Pyotrun Xəzəryanı bölgələrə yürüşü ....................472
Pyotrun manifesti. Xəzəryanı bölgələrin tutulması. Bakı qalasının müdafiəsi. Bakıda rus idarəçiliyi. Yürüş Səfəvi dövlətinin gözü ilə. Türkiyə-Rusiya diplomatiya çalışmaları. İstanbul bağlaşması. İlk yarımmüstəqil xanlıq. Türkiyənin Güney Azərbaycanı tutması. Rusiyanın tutduğu torpaqların gerçək durumu.
4. Azərbaycan üstündə dövlətlərarası savaşlar ....................487
Çəkişmələrin güclənməsi. Azərbaycan uğrunda savaşın qızışması. 1732-ci il Rəşt bağlaşması. Nadirin yeni savaşı. Şamaxı və Gəncə üzərinə yürüşlər. 1735-ci Gəncə bağlaşması. «Şah seçkisi». Yeni şah idarəçiliyi. Türk-İslam dünyasında dərinləşən ayrılığa Nadirin son qoymaq istəməsi



5. Azərbaycanda xalq azadlıq hərəkatı. Şəki xanlığının yaranması......496
Şah seçimi xalqa nə verdi? 1738-ci il Car üsyanı. Nadirin Azərbaycana yeni yürüşü. I Sam Mirzə üsyanı. II Sam Mirzə üsyanı. Üsyanın tarixdə özümlü yeri. Səfi Mirzənin üsyan oyunu. Sonuncu dalğa. Şəki xanlığının yaranması. «Gələsən-görəsən» müdafiəsi.

On beşinci bölüm. AZƏRBAYCAN XANLIQLARI. DÖVLƏT MÜSTƏQİLLİYİ UĞRUNDA MÜBARİZƏ

1. Xanlıqların yaranması ....................508
Xanlıqların meydana gəlməsinin səbəbləri. İmperiyanın dağılması. Güney Azərbaycan xanlıqları. Quzey Azərbaycan xanlıqları
2. Azərbaycanın birləşdirilməsi uğrunda mübarizə ....................511
Ara çəkişmələrindən mərkəzləşməyə doğru. Güneydə mübarizə. İranda ali hakimiyyət davası. Qarabağ xanlığının asılı vəziyyətə salınması. Kərim xan Zəndin Urmiya xanlığını tutması. Şiraz «Qonaqları». Güney Azərbaycan XVIII yüzilin 60-80-ci illərində. Quzey Azərbaycan xanlıqları. Şəki xanlığı. «Bayat savaşı». «Qızıl qaya xəyanəti». «Nə məsləhət verirsiniz verin, ancaq Kürü keçmək içində olsun». Qarabağ xanlığının güclənməsi, Bayat qalası. Pənah xanın tanınması. Məliklərin bölüşdürücülük istəyi və onların xanlığa tabe edilməsi. Qarabağ xanlığı sərhədlərinin genişləndirilməsi. Şuşa. Qarabağ xanlığına basqınlar. Qarabağ xanlığı 60-80-ci illərdə. Separatçı məliklərlə mübarizə. Quzey-Gündoğar Azərbaycanın birləşdirilməsi. Qubalı Fətəli xan. «Nikah diplomatiyası». Şamaxı xanlığı üstündə savaş. Şəki xanlığı ilə ittifaqın pozulması. Muğanın birləşdirilməsi. 1769-cu il Şamaxı qiyamı. Azərbaycanın birləşdirilməsi uğrunda mübarizənin həlledici dönümü. Dərbənd müharibəsinin sonu, itirilmiş torpaqların geri qaytarılması. Birləşdirmə siyasətinin davam etdirilməsi. Fətəli xanın ölümü.
3. Azərbaycan xanlıqlarının xarici siyasəti ....................532
Xarici siyasətin əsas istiqamətləri. İranla münasibətlər. Osmanlı İmperatorluğu ilə münasibətlər. Rusiya ilə münasibətlər. Fətəli xanın elçisi Moskvada. 1783-cü il Georgiyevsk müqaviləsi və Azərbaycan. Azərbaycan-Gürcüstan münasibətləri
4. Azərbaycanın birləşdirilməsinin uğursuzluğu. Güney Azərbaycan torpaqları İran tabeliyində ....................541
Ölkənin siyasi vəziyyəti. Qacarların İranda hakimiyyətə gəlməsi. Güney Azərbaycan Torpaqlarının Qacarın hakimiyyəti altına düşməsi. Quzey Azərbaycan torpaqları XVIII yüzilin 90-cı illərində. Xanlıqların xarici siyasət xətti. İran və Rusiyanın Quzey Azərbaycana müdaxilə üçün diplomatik hazırlığı. Qacarın Quzey Azərbaycana soxulması. Şuşanın 33 günlük müdafiəsi. Qacarın Tiflisi tutması. Qacar Muğanda. Rusiyanın quzey Azərbaycana işğalçı yürüşü.

Quzey Azərbaycan xanlarının Rusiyaya qarşı ittifaqı. İşğal olunmuş torpaqlarda Rusiyanın siyasi-iqtisadi tədbirləri. Ağa Məhəmməd şahın ikinci yürüşü. Onun qətlə yetirilməsi
5. Xanlıqların iqtisadi vəziyyəti. Sosial-silki quruluş və idarəçilik .......557
İqtisadi vəziyyət. Sosial-silki quruluş. İdarəçilik.
6. XVIII yüzildə Azərbaycan mədəniyyəti .......564
Mədəni inkişafın dayaqları. Maarif, elm. Ədəbi dil və ədəbiyyat. Azərbaycan kitabı. İncəsənət.

On altıncı bölüm. RUSİYANIN QUZEY XANLIQLARI İŞĞAL ETMƏSİ. XANLIQ DÖVRÜNÜN SONU

1. XVIII yüzilin sonu - XIX yüzilin başlanğıcında Azərbaycanda daxili vəziyyət .......570
Qacarın öldürülməsindən sonra olanlar. Ara müharibələrinin qızışması. Sosial-iqtisadi durum.
2.Azərbaycan beynəlxalq münasibətlərdə .......872
Beynəlxalq münasibətlərin durumu. Rusiya-İran münasibətləri və Azərbaycan. Şərqi Gürcüstanın Rusiyaya birləşdirilməsi və Azərbaycan. 1802-ci il Gorgiyevsk müqaviləsi.
3. Rusiya işğalının başlanması .......577
Baş komandan general Çiçianov. Balakən-Car torpağının işğalı. Gəncə yürüş qarşısında. Çiçianovun Cavad xana ilk məktubu. Rusiyanın Gəncəyə göz dikməsi nədən irəli gəlirdi? Çiçianovun Cavad xana ikinci məktubu. Cavad xanın cavabı. Çiçianovun Gəncə ermənilərinə məktubu. Daha dörd ultimatum. Gəncə döyüşçülərinin igidliyi. Çar hökuməti Gəncə qırğınına necə baxırdı? Gəncə qətliamı keçmiş yazarların gözü ilə.
4. 1804-1813-cü illər Rusiya-İran savaşı. Quzey Azərbaycan xanlıqları uğrunda mübarizənin yeni dönəmi .......587
Savaşın başlanması. İlk döyüşlər. Qarabağ xanlığının Rusiyaya tabe edilməsi. Kürəkçay andlaşması. Şəki xanlığının Rusiya tabeliyinə keçməsi. Rusiya-İran müharibəsinin 1805-ci il döyüşləri. Şirvan xanlığının tabe edilməsi. Bakı yürüşü. Çiçianovun sonu. 1806-cı il Qarabağ Döyüşləri. İbrahim xanın öldürülməsi. Böyük facia Mirmehdi Xəzani yazısında. Mehdiqulu xanın «hökumətə» gətirilməsi. Bakı və Quba xanlıqlarının tutulması. İlk idarəçilik tədbirləri. İngiltərə-İran yaxınlaşması. Əsgəran danışıqları. Quzey Azərbaycanda çar ordusuna qarşı çıxışlar. Son diplomatiya çatışmaları, son döyüşlər. Gülüstan müqaviləsi.
5. Xanlıq dövrünün sonu .......607
Yeni savaş qarşısında. Gülüstan sövdələşməsinin uğursuzluğu. Azərbaycan xanlıqlarının ləğv edilməsi. Asılı xanlıqların ləğv edilməsinin iqtisadi səbəbləri.



6. 1826-1828-ci illər Rusiya-İran savaşı .......611
Türkmənçay müqaviləsi. Savaşın başlanması. Şuşanın mühasirəsi. Quzey Azərbaycanda «Ümummüsəlman üsyanı». Şəmkir döyüşü. Gəncə döyüşü. Savaşın Güney Azərbaycana keçirilməsi. Rusiya ilə İran arasında danışıqlar. Türkmənçay müqaviləsi. 1828-1829-cu illər Rusiya-Türkiyə müharibəsi.

On yeddinci bölüm. ÇARLIQ RUSİYASININ TORPAQ SİYASƏTİ. MÜSTƏMLƏKƏ ZÜLMÜNƏ QARŞI ÜSYANLAR

1. Quzey Azərbaycanın Rusiya tərəfindən işğalı ərəfəsində aqrar quruluşun səciyyəsi .......625
Torpaq mülkiyyəti və sahibliyi. Torpaqdan istifadə qaydaları. Sosial zümrələr. Vergi münasibətlərinə ümumi baxış.
2. Torpaq haqqında ilkin buyruq və fermanlar .......631
Bəylər ilə hökumətin münasibətləri ilkin çağda. Bəy və ağaların torpaq hüquqlarını «yoluna qoymaq» tədbirləri. Azərbaycan feodalları və ikinci Rusiya-İran savaşı
3. Müstəmləkə və feodal zülmünün qovuşması .......636
Xalq hərbi sümürgəçlik boyunduruğu altında. Vergi iltizamları. Yeni vergiyığma «üsulları». Qanunsuz üsulların qanunauyğun sonu
4. Müstəmləkə zülmünə qarşı üsyanlar .......642
Çar-Balakən azad camaatlarında ilk üsyan. Payız üsyanı. Talış üsyanı.
5. 1837-ci il Quba üsyanı. Şəkidə hərəkat .......648
Qubada əyalət komendant idarəçiliyi. Şeşpər mahalı kəndlilərinin general-mayor Reutta şikayəti, iyul 1837-ci il. Naiblərin və iltizamçıların zülmü. Üsyanın başlanması. Üsyanın ikinci dalğası. Quba uğrunda döyüşlər. Şəki əyalətində hərəkat.
6. Çarizm və yerli feodallar (20-ci illərin sonu – 1846-cı il) .......657
Bəylərin torpaq üzərində hüquqlarına rəsmi baxış. Layihələr, təkliflər. 13 iyul 1830-cu il buyruğu. 10 aprel 1840-cı il islahatının hazırlanması. 1840-cı il islahatının boşa çıxması. Çarizmin yerli feodallarla ittifaqa girməsi. 6 dekabr 1846-cı il qanunu. Kəndli əsasnamələri. Dövlət kəndində yeni ödəniş qaydası.

On səkkizinci bölüm. GÜNEY AZƏRBAYCAN TÜRKMƏNÇAY MÜQAVİLƏSİNDƏN SONRA

1. Rusiya-İran müqaviləsinin doğurduğu yaxın problemlər .......669
«Yüksək tərəflər» arasında hüdud bölüşməsi. Təbəə alış-verişi. On beşinci maddə. O taydan ermənilərin köçürülməsi. Kəngərlilər o taya nədən köçdülər? Erməni köçürülməsinin say göstəriciləri. İranda qeyri-bərabər üstünlüyə yiyələnmək cəhdi. Təbriz müctəhidi çar qulluğunda. Darülirşadın yağmalanması. Rus tarixçisi V.Potto Darülirşadın yağmalanmasından nə yazır?

2. İqtisadi durum. ....................................................681
İlkin arayış. Kənd təsərrüfatı, sənətkarlıq. Daxili və xarici siyasət. Əcnəbilərə ticarət üstünlükləri verilməsi. Güney və Quzey Azərbaycan İran-Rusiya ticarətində.
3. İctimai-siyasi quruluş ....................................................688
Tiyul, ilat. Mülk, vəqf, xırdamalik. Vergilər. Şəhərlərdə ictimai münasibətlər. İnzibati-siyasi quruluş. Əyalətdə və yerlərdə idarəçilik.
4. Azərbaycanda babilər hərəkatı ....................................................696
Babilik görüşləri. Hərəkatın genişlənməsi. Zəncan üsyanı.

On doqquzuncu bölüm. İQTİSADİ İRƏLİLƏYİŞ. KAPİTALİST İSTEHSALININ YARANMASI VƏ İNKİŞAFI

1. İqtisadi mənimsəmə məsələsinə iki baxış ....................................................699
1821-ci il ticarət qanunu. «Rusiya ticarət şirkətinin» layihəsi. Dövlət sümürgəclik siyasəti. İqtisadi sümürgəclik özünə uyğun idarəçilik tələb edirdi. Yerli sərvətlərin öyrənilməsi.
2. Kənd təsərrüfatı ....................................................706
Taxılçılıq, bağçılıq, üzümçülük. Heyvandarlıq, baramaçılıq, texniki bitkilər
3. Yeyinti istehsalı və sənət işi. Kapitalist istehsalının yaranması ......711
Yeyinti istehsalı. Sənətkarlıq. Manufaktura. Kapitalist istehsalının yaranması

İyirminci bölüm. XIX ƏSR AZƏRBAYCAN MƏDƏNİYYƏTİ

1. Maarif ....................................................719
Məktəb və mədrəsələr. Qəza məktəbləri. Müsəlman məktəbləri. Qadın təhsili. Orta məktəblər. Dərsliklər. Azərbaycan türkcəsi dövlətlər və millətlərarası ünsiyyət dili kimi.
2. Ədəbiyyat ....................................................726
Ədəbiyyatın yeni durumuna ümumi baxış. Siyasi sarsıntılar və ədəbiyyat. Gəncə savaşı söz sənətində. Əbdürrəhman Ağa Dilbaz oğlunun müxəmməsi. Poeziya. Nəsr. Dramaturgiya. Tənqid və ədəbiyyatşünaslıq. Ədəbi əlaqələr
3. Elm ....................................................744
Tarixçilik. Fəlsəfə.
4. Mətbuat və nəşriyyat ....................................................759
Mətbuat. Kitab çapı. Kitabxanalar.
5. İncəsənət ....................................................763
Teatr. Musiqi. Rəssamlıq. Memarlıq. Tətbiqi sənətlər.
BİBLİOQRAFİYA ....................................................772
AD DÜZÜMÜ (İNDEKS) ....................................................795
XRONOLOJİ CƏDVƏL ....................................................841
QISALTMALAR ....................................................860



## ÖN SÖZ

*Oxucunun ələ aldığı bu kitab Bakı Dövlət Universitetində hazırlanmış, ilk «Azərbaycan tarixi» dərsliyidir. Kitab artıq yazılmışdır. Bundan sonra onun müəlliflərdən asılı olmayan ömür mərhələsi başlayır. Bu ömrün çox, ya az olacağını artıq bir kimsə söyləyə bilməz. Bunu yalnız zaman göstərəcəkdir.*

*Kitabın başlanğıcında qaynaqlar haqqında ayrıca bölmə verilməmişdir. «Azərbaycan tarixi üzrə qaynaqlar» (Bakı Dövlət Universiteti, 1989 və 2007) toplusunun çapdan çıxması ilə buna lüzum qalmamış, ancaq bəzi dəyəri çox olan qaynaqların adı çəkilən topluya qatılmadığını təəssüflə bildirməyə məcburam.*

*Belə qaynaqlar sırasında 1940-cı ildə* ***Parisdə*** *çap olunmuş antik mətnləri toplusunun adını birinci çəkmək gərəkdir[1]. Topluda m.ö. VI yüzilin sonundan başlayaraq miladdan sonrakı V əsrə kimi, yəni min illik bir zaman ərzində oğuz boylarından üçünün (əfşarların, kayıların və qarkınların) adı çəkilir. Bununla yanaşı Dədəm Qorqud boylarında «Ayqır gözlər suyu» adlı kiçik bir çay burada Hippopotamos (Ayqır Suyu) yazılışında qarşıya çıxır. Tarixçiliyə bu toplu indiyə kimi bəlli deyildi.*

***Məhəmməd Aqdaşinin [Əvvabi]*** *qələmindən çıxmış «Dərbəndnamə» də dəyərli qaynaqlardan biridir. XIX əsr tarixçiliyində bu orta çağ qaynağı böyük yer tuturdu.* ***Abbasqulu Ağa Bakıxanovun*** *«Gülüstani-İrəm»,* ***Həsən Əfəndi əl-Qədarinin*** *«Asar-i Dağıstan»[2] kitablarının yazılmasında «Dərbəndnamə» böyük yer tutur. Artıq prof.* ***Mirzə Kazım bəyə*** *«Dərbəndnamə»nin altı türkcə (Paris, Berlin nüsxələri, iki Sankt-Peterburq kütləvi kitabxanası və Moskva Rumyantsev muzeyi nüsxələri, bir də alimin öz nüsxəsi), iki farsca əlyazması bəlli idi.*

---

1. **Alexandre Baschmakoff.** La Sunthese des Periples. Paris, 1948. Toplunun bir qaynaq kimi dəyərləndirilməsi üçün baxın:

M.Fahrettin Kırzıoglu. Yukarı-Kür və Çoruk boylarında Kıpçaklar, Ankara, 1992, s. 201, 205-206.

Birbaşa toplumun özü ilə tanış olmaq imkanı yaratdığı üçün Prof. Dr. Fahrettin Kırzıoğlu qarşısında minnətdar və borclu olduğumuzu bildiririk.

2. «Asari-i Dağıstan» V.F.Minorskinin fikrincə, «yerli türkcədə», yəni Azərbaycan türkcəsində yazılmışdır (bax: *V.F.Minorskiy.* «İstoriya Şirvana i Derbenda». M., 1963, s. 26. Orijinalın dilində kitab şəklində Bakıda 1902-ci ildə, rusca isə 1929-cu ildə çap edilmişdir.

Abbasqulu Ağa və Mirzə Kazım bəy türkcə əlyazmalarını orijinal sayıb onlara üstünlük vermiş, farscanın isə yanlışlıqla dolu çevirmə olduğunu bildirmişdilər. «Dərbəndnamə»nin iki bölməsini ilkin olaraq Abbasqulu Ağa «Tiflisskie Vedomosti» qezetində rusca çap etməyə başlamış, ancaq bu işi başa vurmamışdır [3]. «Dərbəndnamə»nin üç tam çapı var. Biri Avropa şərqşünası **Y.Klaprotun** fransızca 1829-cu il çapıdır. İkincisi on iki il sonra prof. **Mirzə Kazım bəyin** türkcə faksimile ilə birlikdə ingiliscə çapıdır [4], elmdə çox yüksək dəyərləndirilməkdədir. Üçüncüsü, ötən əsrin sonunda Qori seminariyasının müəllimi **Səfərəli Bəy Vəlibəyovun** rusca çevirməsidir. **M.Əlixanov-Avarlının** redaktəsi ilə buraxılmışdır [5].

Göründüyü kimi, XIX əsrdə «Dərbəndnamə» üzərində Azərbaycanın üç elm adamı çalışma aparsa da, əlyazmanın Azərbaycan çapı hələ yoxdur. Onun tezliklə çapa hazırlanması dəyərli bir iş olardı.

Son illərdə oxucuya ingiliscədən ruscaya çevirmədə çatdırılan qaynaqlardan biri **Oruc bəy Bayatın** kitabıdır [6]. Qızılbaş **Bayat** boyundan olan Oruc bəy **Şah Abbasın** tapşırığı ilə böyük bir heyət tərkibində Xəzər dənizindən Rusiyanın quzey limanı **Arxangelskə**, oradan dənizlə **Quzey Almaniyanın Emden** şəhərinə, buradan da İtaliya ilə İspaniyaya getdi. 1601-ci ildə buraya çatan Səfəvi elçisi tezliklə dönüb katolik oldu (711-ci ildən İspaniyaya gətirilən islam, 1502-ci ildə kral **Ferdinand** və kraliça **İzabellanın** ayrıca bir fərmanı ilə yasaq altına alınmışdı). Varlı ispan əyanlarından birinə çevrilən «**İranlı Don Xuan**» 1604-cü ildə yazdığı «Hekayələr»i ispan dilində çap etdi. Bu kitab Azərbaycan və İranın orta çağ tarixi üzrə dəyərli qaynaqlardan biri sayılmaqdadır. Onun 1926-cı ildə **Londonda** ingiliscə, 1946-cı ildə **Madriddə** yenidən ispanca və 1959-cu ildə **Tehranda** farsca çap olunması təsadüfi deyildir.

Farsca əlyazması ingiliscəyə, ingiliscədən isə ruscaya çevrilən qaynaqlardan biri də **Fəzlullah ibn Ruzbihan Xünəcinin** «Tarix-i aləm-ara-yi Əmini» əsəridir [7]. Müəllif Ağqoyunlu tarixçisidir. Onun kitabı Ağqoyunlulara həsr olunan yazılar içərisində bəlkə də çox dolğun bilik verə bilən qaynaqlardan biridir. Dövlətçilik qurumlarının öyrənilməsi baxımından kitabdakı bilgilər çox maraqlıdır. Farsca yazılmış bu kitabda Azərbaycan türkcəsindən alınmış onlarca anlayış və sözcüklər işlənmişdir (**Qızılbörk, yuriş, ordu, qışlaq, yaylaq, yurd, Qara ulus, ölkə, gəngəş, qoşun, tuq, elçi, baş, qul, toy və başqaları**). Görünür, müəllif Ağqoyunlu Sultan Yaqubun qulluğunda olarkən yerli dilə yaxşıca yiyələnə bilmişdi. Kitabda Səfəvi dövləti haqqında da geniş bilgi verilir. Ancaq bu dövlətin tarixini boyalı səpkidə işıqlandıran tarixçilərdən fərqli olaraq Xünəci, Səfəvilərə yağı gözü ilə yanaşmaqdadır. Ağqoyunluların süqutundan sonra Orta Asiyaya köç edən Xünəci, Şeybani xanı Səfəvilərə qarşı cihad savaşına səsləməkdən çəkinmir («Sizə yaraşarmı, qeyrət qılıncını qınında saxlayasınız?»), 1514-cü il **Çaldıran** döyüşünə görə Sultan Səlimi alqışlayırdı. Bütün bunlar **Fəzlullah Xünəci** «Tarix»inin XV-XVII yüzilliklərin qaynaqları sırasında özünəməxsus bir yer tutduğunu göstərməkdədir.

Farsdilli qaynaqlar sayının sezilləcək bir ölçüdə böyüməsi nəzərə çarpır [8]. Mühazirə və seminarlarda Azərbaycan tarixini öyrənənlər yuxarıda adları çəkilən və «Azərbaycan tarixi üzrə qaynaqlar» kitabında olmayan başqa qaynaqlar üzərində də çalışmalı olacaqlar. Bu baxımdan yenicə çapdan çıxmış «Qarabağnamələr» [9] ayrıca qeyd olunmalıdır.

Kitabın yazılması başa çatmaqda ikən Türkiyə Cümhuriyyəti Dövlət Arxivləri Müdirliyi Osmanlı-Azərbaycan bəlgələrinin böyük bir toplusunu Ankarada çap etdi [10]. Yalnız xanlıqlar tarixi üçün deyil, ümumən Osmanlı-Azərbaycan münasibətləri tarixinin çox böyük bir zaman içərisində (1575–1918) öyrənilməsi üçün bu dəyərli ikicildlik toplunun mühüm rol oynayacağına ümid bəsləyirik. Toplu üçün seçilmiş dövlət sənədlərinin fotofaksimile ilə birlikdə çap edilməsi mənbəşünaslıq elminin müasir tələblərinə tam uyğun gəlir.

---

3. **Bakixanov A.A.** Soçineniya, Zapiski, Pisma. Sost. E.M.Axmedov, Baku, 1983 s. 322; Minorski, a. ç. ə., s. 21-24.

4. Derbend-nameh, of Historu of Derbend, from a selekted Turkish version and Published with the texts and with notes illustrative of the Historu, geographi by Mirza Kazem-beg, SPB, 1881.

5. Tarix-i Derbend-name. Per. s tyurkskoqo, arabskoqo, persidskoqo i franzuzskoqo, Tiflis, 1898.

6. Kniqa Oridj-beka Bayata-Don Juana Persidskoqo. Per. s anqliyskoqo O.Efendieva i A.Farzalieva. Baku, 1988.



7. **Fazlullax ibn Ruzbixan Xundji.** Tarix-i alam-ara-i Amini. Per. s persidskoqo na anqliyskiy V.F.Minorskoqo, per. s anqliyskoqo na russkiy T.A.Minorskoy, Baku, 1987.

8. Bax: **Əbubəkr əl-Qütbi əl-Əhəri.** Tarix-e Şeyx Uveys. Farscadan tərcümə edənlər M.Kazımov və V.Piriyevdir. Bakı, 1984; Həmdullah Mustovfi Qəzvini. Zeyl-e tarix-e qozide. Farscadan tərcümə M.Kazımov və V.Piriyevindir. Bakı, 1986; Zeynəddin bin Həmdullah Qəzvini. Zeyl-e tarix-e qozide. Farscadan tərcümə M.Kazımov və V.Piriyevindir, Bakı, 1990.

9. Qarabağnamələr, 1-ci cild. Tərtib edəni A.Fərzəliyev, Bakı, 1989; 2-ci cild, tərtib edəni N.Axundov, Bakı, 1991.

10. Osmanlı devleti ile Azerbaycan Turk hanlıkları arasındakı munasibetlere dair Arxiv belgeleri. T.C.Başbakanlık Devlet Arxivleri Genel Müdürlüğü. I (1578 - 1914), Ankara, 1992, 425 s, II (1575–1918), Ankara, 1993, 483 s.

Azərbaycan tarixinin mühüm problemləri, ən çox da XVIII-XIX yüzilliklərin problemləri üzrə başlıca qaynaqlar və sənədlər uzun illər ortaya çıxarılmamış, bilərəkdən gizlədilmişdir. Bunu nəzərə alaraq biz bir sıra belə qaynaqları kitabın uyğun bölmələrində bütövlükdə və ya qısaltmalarla verməyi gərəkli saymışıq. Ola bilsin buna görə bizi qınayanlar olacaq. Gələcək dərsliklərimizdə buna ehtiyac qalmayacaqdır, ancaq bu gün belə bir üsula əl atmadan keçinmək olmaz.

«Azərbaycan tarixi üzrə qaynaqlar» kitabında olduğu kimi, dərsliyin birinci cildində tariximizin izlənməsi 1870-ci ildə dayandırılmışdır. Çünki XIX əsrin 70-ci illərindən başlayaraq çağdaş fabrik sənayesi yarandı və sənaye çevrilişi baş verdi. Azərbaycan kəndi yeni sosial özül üzərində irəliləmə yoluna çıxdı. Yeni bir mənəvi yüksəliş başlandı. «Yeni üsul» («Üsuli-cədid») məktəbləri, ilk demokratik milli qəzet, milli dram teatrı, demokratik ziyalılar təbəqəsi, yaradıcı bir tarixi qüvvə olmaqla milli sənayeçilər zümrəsi yarandı. Sənaye və kənd təsərrüfatında muzdlu işçilər sinfi ortaya çıxdı. Milli hərəkat başlandı. Bununla da ölkə öz tarixinin yeni dönəminə keçmiş oldu.

Birinci cildin zəhmətini çəkib yazanlar adları çəkilən müəlliflərdir:

Ön söz – prof. **Süleyman Əliyarlı,**

1, 2, 3-cü bölümlər – dos. **Fərman Mahmudov**

4, 5-ci bölümlər – t. e. d. **İlyas Babayev** (bu bölmələrə dos. F.Mahmudov bir sıra köklü əlavə və düzəlişlər etmişdir).

6, 7-ci bölümlər – **Süleyman Əliyarlı,**

8-ci bölüm – prof. **Yaqub Mahmudov,**

9, 10, 11-ci bölümlər – **Süleyman Əliyarlı,**

12-ci bölüm – **Süleyman Əlityarlı** (1), dos. **Zabil Bayramlı** (2, 3, 4),

13-cü bölüm – t. e. d. **Seyidağa Onullahi,**

14-cü bölüm – **Süleyman Əliyarlı,**

15-ci bölüm – dos. **Kərim Şükürlü,**

16-cı bölüm – **Süleyman Əliyarlı, Kərim Şükürlü,**

17-ci bölüm – **Süleyman Əliyarlı,** t. e. n. **Mehman Abdulla,**

18-ci bölüm – **Süleyman Əliyarlı** (1), prof. **Şövkət Tağızadə** (2, 3)

19-cu bölüm – **Süleyman Əliyarlı,**

20-ci bölüm – t.e.d. **Vilayət Muxtar oğlu** (bu fəsildə «Azərbaycan türkcəsi dövlətlər və millətlərarası ünsiyyət dili kimi», «Siyasi sarsıntılar və ədəbiyyat», «Gəncə faciəsi söz sənətində», «Əbdürrəhman ağa Dilbaz oğlunun müxəmməsi» başlıqlı parçaları **Süleyman Əliyarlı** yazmışdır).

«Azərbaycan tarixi» kitabının yazılmasında tarixçilərimizin bütün nəsillərinin çalışma və araşdırmalarının böyük xidməti olmuşdur. Bu kitabın gözə dəyə biləcək üstünlükləri də, onlardan sayca çox olan gerçək



çatışmazlıqları da müəyyən ölçüdə tarixçiliyimizin bugünkü durumu ilə bağlıdır. Təbii, bölümlərdən hamısının bir səviyyədə olmaması diqqətli oxucunun gözündən qaçmayacaqdır. İntellektual gücümüzün ölçüsü baxımından biz araşdırmaçılarımızın imkanlarını, sözün yaxşı mənasında kimin kim olduğunu bilməliyik. Gələcəkdə bugünkündən daha üstün bir kitab yazılması üçün bu qaçılmaz bir şərtdir.

Başqa ölkələrdə çıxan dərslikləri örnək alaraq, kitabın sonunda (tam bitkin olmasa da) adlar indeksi verməyi biz çox gərəkli sayırıq. Tanınmış Almaniya tarixçisi, Nobel mükafatı laureatı **A.Mommzenin** bu sözlərinə haqq qazandırırıq: Das Buch ohne index nicht das Buch (İndeksi olmayan kitab, kitab deyildir).

Qaynaqların və araşdırmaların siyahısını bölümləri yazanlar özləri tutmuşlar. Bölümlərin mətnini, ad və terminləri son yazılışda t.e.n. **Xavər Qambayzadə** yoxlamışdır. Bütün köməkçi işlərin yerinə yetirilməsində Azərbaycan tarixi kafedrasının əməkdaşları **N.Cavanşir, R.Hüseynli, S.İsmayılova, K.Məmmədli, Ə.Həsənli** və **L.Əliyeva** bizə dəyərli yardımçı olmuşlar.

Kitabın bütün nəşrlərinin ana türkcəmizdə və rusca işıq üzü görməsi üçün biz, dəyərli iş adamı və böyük vətəndaş, Azərbaycanın Hacı Zeynalabdin Tağıyevdən gələn təmənnasız xeyriyyəçilik ənənələrini qeyrətlə yaşatmaqda olan Nuru Yaşaroğluna borcluyuq. Görkəmli metsenatımıza son 15 ilin aramsız maddi və mənəvi dəstəkləri üçün içdən gələn sonsuz təşəkkürlərimizi bildiririk.

*BİRİNCİ BÖLÜM*

# İCMA YAŞAYIŞI

## 1. İNSAN YAŞAYIŞININ ULU ÇAĞI

**İLKİN DAŞ ALƏTLƏR.** İcma quruluşu bəşər cəmiyyəti tarixində ilkin yer tutur. O, istehsal vasitələri üzərində ilkin mülkiyyətlə, məhsuldar qüvvələrin zəif inkişafı şəraitində birgə istehsal və məhsul bölgüsü ilə səciyyələnir. Əmək alətləri ibtidai, istehsal texnikası aşağı səviyyədə və cəmiyyətin təsərrüfat fəaliyyəti çox vaxt ekoloji mühitdən birbaşa asılı olduğu üçün bu quruluş Azərbaycanda da uzun sürmüşdür. Mürəkkəb, ziddiyyətli inkişaf yolu keçən ibtidai cəmiyyət insanın yarandığı vaxtdan sinifli cəmiyyətin başlanmasına qədərki keçmişi əhatə edir.

İbtidai icma istehsal üsulunun inkişafında üç ardıcıl mərhələ gözə çarpır:

ibtidai insan sürüsü və ya ulu icma;

qəbilə icması;

İbtidai icma quruluşunun dağılması. Sinifəqədərki cəmiyyət tarixinin ümdə məsələləri bu üç mərhələ üzrə öyrənilir.

Birinci problemlə bağlı mühüm məsələlərdən biri Azərbaycanda insan cəmiyyətinin yaranma yaşının müəyyən edilməsidir. İnsan əmək aləti düzəltdiyi çağdan təbiətə təsir göstərməyə başlayır. Deməli, cəmiyyətin yaradıcısı olan insanın yaranışının başlıca göstəricilərindən biri qədim əmək alətləridir.

Azərbaycanda ən qədim daş alətlər Azıx mağarasında* tapılmışdır. Mağaranın girişi səviyyəsindən 12-14 m dərinlikdə yerləşən alt qatlarda çoxlu çay daşlarından düzəldilən kobud çapma alətləri, o sıradan ağzında itiləyici qopartmalar aparılmış protoçopper, protoçoppinq və ərsinlər, bunlarla yanaşı nüvəvari və ya bir ucu şişlənmiş kubvari alətlər, qəlpələr, iri ölçülü, 4-5 kq-da ağır çopper və çoppinqlər tapılmışdır. İşlənməkdən çoxunun səthi sürtülüb pardaqlanmışdır. Burada tapılan bəzi alətlər tipoloji baxımdan aşağı paleolitin səciyyəvi aləti əl çapacaqlarının prototipi

* Füzuli şəhərindən 17 km şimal-şərqdə, Quruçay dərəsinin sol yamacında, dəniz səthindən 1000 m yüksəkdə yerləşir. Qafqazın ən iri karst mağaralarından olub, içinin birbaşa uzunluğu 230 m-dir. Mağara uzunmüddətli yaşayışı əyaniləşdirən çox qatlı daş dövrü abidələrindəndir. Onun alt mədəni qatları Quruçay mədəniyyətinə (1,5 mln. il–730 min il əvvəl), VI-V qatları Aşel dövrünə (700 min il–200 min il əvvəl), III (IV qatda tapıntı hələ yoxdur) qatı erkən Mustye dövrünə (120–90 min il əvvəl) aiddir.



sayıla bilər. Həmin qatların daş məmulatına istehsal tullantıları (alətlərin mağarada düzəldilməsini sənədləşdirirlər) və alət hazırlamaq üçün Quruçay dərəsindən yığılıb mağaraya gətirilən təbii çay daşları da daxildir.

Bu əmək alətləri həm forma və hazırlanma (qəlpələnmə) texnikasının ibtidailiyi baxımından, həm də təbəqələrin geoloji və arxeoloji stratiqrafiyası baxımından ***Avrasiya*** ərazisində ən qədim alətlərdir. «Quruçay mədəniyyəti» adı ilə bəlli olan bu alətlər Avropada son vaxtlaradək ən qocaman sayılan ***Vallone*** mağarasının (***Fransanın*** güneyindədir) «çay daşları mədəniyyəti»nə aid məmulatı ilə qismən uzlaşır. Sonuncu bizdən bir milyon il qabaq olmuşdur. Ancaq «Quruçay mədəniyyəti» bundan əvvəldir. Onlar texniki-tipoloji cəhətdən ***Şərqi Afrikadakı Olduvay*** düşərgəsinin* əmək alətləri ilə müqayisə olunur və Azərbaycanda təxminən 1,5 mln. il bundan əvvəl homo habilis** tipli insanların yaşamasından xəbər verirlər. Bu insanlar hələ mağaraya keçməzdən qabaq Quruçay dərəsində yaşayırlarmış. Quruçay mədəniyyətinə aid çay daşı alətləri sübut edir ki, Avrasiya ərazisində ilkin insan yurdu yalnız Azərbaycanda tapılmışdır.

Quruçay mədəniyyəti dövründə insanlar kvars və çaxmaqdaşı tipli çay daşlarından kobud alətlərlə kəsmək, çapmaq və doğramaq işi görə bilirdilər. Heyvan sümüklərinin itiağızlı alətlərlə çapılıb qırılması müşahidə olunur. Alt qatlarda sümük yanığı və kömür qırıntılarının tapılması göstərir ki, Azıx mağarasının ilkin sakinləri təbii oddan istifadə edə bilirdilər. Onlar ovçuluq və toplayıcılıqla məşğul olur, vaxtaşırı öz mağaralarına qayıdır, ondan daimi yaşayış məskəni kimi istifadə edirdilər.

**ULU İCMA.** «İnsan sürüsü» və ya ulu icma alt və orta paleolitdə (Quruçay mədəniyyəti, Aşel və Mustye – təqribən 1,5 mln. ildən 40 min il bundan əvvələ kimi) yaşamışdır. İbtidai icma quruluşunun ən uzun davam etmiş bu mərhələsi dördüncü geoloji dövrə – ***antoropagenə***, yəni insanın fiziki tipinin yarandığı çağa uyğundur.

Ulu icma 20-30 nəfərdən çox deyildi. Hər belə icma başqalarına yovuşub qovuşmayan, bir-birinə instinkt ilə isinişən insanlar birliyi idi. Onun üzvlərini öz əcdadlarından ayıran başlıca cəhətlər alət hazırlamaq bacarığı, yırtıcı heyvanlar içində yaşayaraq birgə əməklə məşğul olmalarıdır. Arxeoloji materiallar sübut edir ki, belə ilkin insan birlikləri ***Qarabağın*** dağlıq bölgəsində (Azıx və ***Tağlar*** mağaraları), ***Aveydağda*** (***Damcılı və Daş-***

* ***Olduvay*** – Tanzaniyanın quzeyində Eyasi gölündən 36 km şimal-şərqdə dərə. Burada ingilis arxeoloqları (ər-arvad Likilər) uzun illər qazıntı aparmış, insanın yaranma tarixinin 2 mln. ilə yaxın olmasını sübut etmişlər.

** ***Homo habilis*** (lat. *«bacarıqlı»* və ya *«qabil adam»*) – əmək aləti hazırlaya bildiyi üçün belə adlandırılır. Avstralopiteklərin varisi sayılan Homo habilis Olduvay dərəsində 1,75–1,85 mln. il bundan əvvəl yaşayıb, sonra onu pitekantrop tipli adam əvəz etmişdir.

***salahlı*** mağaraları) və ***Qazax*** yörəsindəki açıq düşərgələrdə (***Şiş qüzey, Qayalı*** və s.) yaşamışdır. Mağaralarda nəhəng yırtıcı heyvanların ovlanmasını göstərən qalıqlar, mədəni təbəqələrin daş alətlərlə zənginliyi ilk insanların birlik halında yaşamasına sübutdur. Bütün alt və orta paleolit boyu daş alətlərin hazırlanma texnikası getdikcə yüksəlməkdə idi. Bu tərəqqi nəsildən-nəslə ötürülən ictimai istehsal təcrübəsi özülündə baş verirdi.

Yem əldə etmək ibtidai insanın başlıca qayğısı idi. O, nisbi oturaq yaşayışı keçirmiş, bir yerdən başqasına yalnız yem ərazisini dəyişmək üçün keçmişdir. Ovçuluq və toplayıcılıqdan ibarət ilkin qapalı təsərrüfat ulu icma üzvlərinin acından ölməmək instinktinə çətinliklə xidmət etmişdir. ***İstehlak təsərrüfatı*** adlanan bu yaşayış yem ehtiyatı toplamağa imkan vermədiyi üçün ilk insanların taleyi çox halda ovçuluğun uğurundan asılı olurdu. Ovçuluq toplayıcılığa nisbətən daha az vaxt aparır, daha məhsuldar olurdu. Quruçay mədəniyyətindən başlayaraq qədim Paleolit adamları yem ardınca geniş əraziləri dolaşır (Azıx mağarasında uzaqdan gətirilən daşların tapılması təsadüfi deyil), ov ilə birlikdə vaxtaşırı düşərgəyə dönürdülər. Azıx mağarasında Quruçay mədəniyyəti təbəqələri arasındakı fasilələr də ovçuluq imkanlarının çətinlikləri üzündən ulu icmanın vaxtaşırı öz yerini dəyişməsi ilə bağlıdır.

Azərbaycanın alt paleolit çağı əmək alətlərinin tipoloji təkamülü ilə bağlı, ovçuluq da inkişaf edirdi. Azıx mağarasının Quruçay mədəniyyəti təbəqələrində bəsit formalı alətlər yalnız bir neçə heyvan sümükləri (maral, antilop, qaban, quş) ilə müşaiyət olunur. Görünür, o dövrdə Ovçuluq təsərrüfatı yenicə yaranırdı. Erkən Aşel dövrü (700–500 min il əvvəl) daş məmulatı daha təkmil texnika ilə hazırlanmışdı; onlar çaxmaqdaşı, felzit və bazaltdandır, həm də tipoloji baxımdan alt təbəqələrin daş alətləri ilə uzlaşır. Burada çopperlər və çoppinqlərlə yanaşı yeni alətlər: əl çapacaqları, dişli-gəzli, bizburun və başqaları meydana çıxır. Ovlanan heyvanların da çeşidi genişlənir. Mağara ayısı, qonur ayı, Zyusenberqin atı, Merka gərgədanı, mağara kaftarı, Şotenzak bizonu, Qafqaz maralı, Mesopotamiya maralı, nəhəng maral onların sırasına keçir. Daşlaşmış sümüklər erkən Aşel dövründə oturaq həyat tərzi keçirən pitekantrop tipli Azıx adamının daşla və uzun ağac nizələrlə nəhəng yırtıcı heyvanları ovlaya bilməsini göstərir. Yəni ibtidai icma cəmiyyətinin başlanğıc çağında istehlak təsərrüfatı başlıca olaraq iri heyvan ovuna əsaslanan kollektiv ovçuluq idi. Sümüklərin çoxu iliyi çıxarmaq üçün daş alətlərlə qırılmış, həm də çoxunda yanıq izləri qalır. Deməli, əti odda bişiriblər.

Azıx mağarasının orta Aşel dövrü (400–200 min il əvvəl) alətləri daha çeşidli, hazırlanma texnikası isə daha yüksəkdir. Çox halda alətlərin bütün səthi boyu qopartmalar apararaq, onların ölçülərini azaltmış, elə yatımlığını, davamlılığını və kəsərliyini artırmışlar. İtiuclu, mişarlayıcı alətlər, burğular və bizlər kimi yeni alətlər yaranır. Heyvanın lülə sümüyünün burğu ilə deşilməsi arxeoloji gerçəklikdir. Bu çağda insanların təsərrüfat həyatında ovçuluq böyük yer tutmuşdur. Erkən Aşelə düşən qatda tapılan sümüklər ayrı-ayrı 11 növ heyvana aiddirsə, orta Aşel qatında onların sayı 35-ə çatır. İri heyvan sümüklərinin (ayı, maral) çoxluğu azıxlıların birgə ovçuluğa üstünlük verdiyini göstərir. O çağın güclü, qıvraq adamının sürətli qaçışı olub. Ola bilsin ki, canavar, çaqqal, tülkü, vaşaq, ceyran, cüyür, dağkeçisi kimi itiqaçan heyvan sümüklərinin tapılması bununla bağlıdır.

Orta Aşel adamının quruluşca tipini müəyyən etmək üçün Azıx mağarasının V qatından tapılan insan qalığı çox mühümdür. O, təxminən 400 min il əvvəl yaranmış insanın alt çənə sümüyüdür. Bu çənə Qafqaz və qonşu regionlarda insanın ən qədim qalığı olub, təxminən 20-25 yaşlı qadına aiddir. Tapıldığı yerin adına uyğun olaraq, ona ***azıxantrop*** (Azıx adamı) adı verilmişdir. Azıxantrop, insan təkamülü şəcərəsində ***arxantropla (pitekantrop-sinantrop-alantrop-heydelberq) paleantrop (neandertal)*** arasına düşdüyündən ***preneandertal*** sayılır. Bu tapıntı Azərbaycanın yer üzündə insanın yarandığı ocaqlardan biri olması göstəricisidir.

**ULU OD. ODYANDIRMA VƏRDİŞİ.** İlk insanların yaşayışında od misilsiz rol oynayıb. Yırtıcı heyvandan, soyuqdan qorunmaqda, ov ovlamaqda insanın güclü silahı olub. Od, ət və başqa yem məhsullarını bişirməklə yeməyin bədəndə yaxşı mənimsənilməsinə kömək etmiş, çənənin çeynəmə yükünü azaltmışdır. Bişmiş ətin yeyilməsi bədəndə biokimyəvi dəyişmələrə təsir göstərməklə insanın bioloji inkişafını sürətləndirmişdir. Od, insanı «heyvan padşahlığından» kəskinliklə ayıran böyük bir amil, onun süni şəkildə alınması isə «ilkin nüvə əsri» sayılır.

Azıx mağarasının Aşel qatlarında 4 yerdə ocaq (tonqal) qalığı üzrə çıxarılıb. VI təbəqədə (erkən aşel) açılan ən qədim ocağın yaşı 700 min ilə yaxındır. Ocaqlardan biri daşla hörülən dairəvi yaşayış tikintisinin içərisində idi. Ocağın böyürlərinin daşla götürülməsi ocaq qurmağın ilk təcrübəsi sayıla bilər. Bu ocaqlar azıxantropun süni şəkildə od ala bilməsi ehtimalını yaradır. O çağla bağlı, kökü çox uzaq keçmişə dayanan görüş və deyimlər qalmışdır. Azərbaycanda qədim ibadət yerləri olan pirləri «ocaq» sayırlar. Bəzən dağı, yolu, hətta suyu, müalicə əhəmiyyətli bulağı da «ocaq» adlandırırlar. Görkəmli din adamı, kənd ağsaqqalı haqqında «ocaq kimi adam» söyləyirlər. Evə, ailəyə bədbəxtlik üz verdikdə «ocağı qaraldı», «ocağı söndü» deyirlər. Görünür, «ocaq» sözü, ocağın müqəddəs sayılması insanın uzaq keçmişdə yaşayışının, onun görüşlərinin bizə gəlib çatan izləridir.

Azıxantropun öz sələflərinə nisbətən daha düşüncəli və bacarıqlı olmasını başqa arxeoloji dəlillər də göstərir. Bu baxımdan V qatdakı ocaqlardan biri yaxınlığında divar hörgüsünün açılması diqqəti özünə çəkir. Yastı əhəngdaşları parçaları və maral buynuzları ilə hörülən divar 4 m uzunluqda, 30 sm hündürlükdə qalmışdır və 15 kv.m-lik dairəvi tikintinin özülüdür. Başqa sözlə, azıxantrop soyuqdan qorunmağın yeni bir yolunu tapmış, bunun üçün süni tikinti quraşdırmışdır.

Ocaqlardan 10 kv. m. sahə tutan birində 150 kq-a yaxın kül qalığı var. Bu, uzun zaman aramsız od yanmasının qalıntısıdır. Odu daimi yandırmaq, onun sönməsinə yol verməmək üçün azıxantrop günlərin sayına uyğun gələn qədər ağac odunu tədarük etməli, yanacaq ehtiyatı tükənməmiş gözəyarı hesablama aparmalı, ola bilsin, saymağı bacarmalı idi. Mağaranın güney qaya divarı çatında gizlədilmiş 4 ayı kəlləsindən biri bu baxımdan maraqlıdır. Kəllənin üstünə dişli daş alətlə 8 çəp xətt çəkilib. Bu, hər hansı bir say əməliyyatının işarələri də ola bilər. Tapıntı həm də azıxantropun təsviretmə bacarığının bir nümunəsi kimi onun incəsənətin astanasına yaxınlaşması təsəvvürünü yaradır. Ayı kəllələrinin seçilib gizlədilməsi isə heyvana ilkin tapınmanın, o sıradan totemçiliyin yaranmasına göstərici sayıla bilər.

Beləliklə, ulu icmanın milyon ildən artıq yaşamı boyunca əmək alətləri getdikcə yaxşılaşmış, ovçuluq təsərrüfatı yüksəlmişdir. Getdikcə insanın özü də inkişaf etmiş, onun beyni böyümüş, əl-qolu bərkiyib çevikləşmiş, düşüncəsi, danışığı açılmışdır. O, təbiət qüvvələrini getdikcə dərk etməyə, onlara qarşı durmağa başlamışdır. İbtidai insan odu qoruyub saxlamağı, sürtmə yolu ilə onu almağı öyrənmiş, yaşayış evi tikmək üçün ilk addım atmış, sayma vərdişi qazanmış, ilkin tapınma-totemçilik anlayışları yaratmışdır.

**ORTA PALEOLİT DÖVRÜ.** Orta Paleolit və ya Mustye (təxminən 100 – 40 min il qabaq) izləri Azıx, Tağlar, Damcılı və Daşsalahlı mağaralarında çoxdur. Bu çağa aid maddi-mədəniyyət qalıqlarının Buzeyir və Qazma mağaralarında*, Urmiya gölü ətrafında da tapılması Azərbaycanda paleantrop adamının geniş ərazidə yaşadığını göstərir.

Orta Paleolit çağının böyük uğurlarından biri levallua texnikası* ilə çoxsaylı əmək alətlərinin hazırlanmasıdır. Bu üsul ilə çaxmaqdaşı və dəvəgözü (obsidian) nüvələrindən nazik, uzun qəlpə və lövhələr qoparılması alətlərin iş yararını artırdı. Mustye mədəniyyəti çevrə şəkilli, üçbucaqvari nüvələr, dişli gəzli ərsinlər, lövhəvari bıçaqlar, mişarlayıcı alətlər və bizlərlə təmsil olunur. İtiuclular və qaşovlar isə Mustye üçün səciyyəvi olan alətlərdir. Tağlar mağarasında bütün alətlərin 9/10-u itiuclu və qaşovlardır. Mustye itiucluları nizə ucluğu kimi istifadə edilmişdir. Deməli, bu dövrdə ixtisaslaşmış ov silahı yaranır. Bu silah birgə edilən ovçuluqla yanaşı fərdi ovçuluğa yol açmış oldu. Orta paleolit adamları 25-dən çox müxtəlif heyvan və quş ovlamışlar. Başlıca ov heyvanları maral, dağkeçisi, mağara ayısı, ibtidai at, qaban olmuşdur. Bu dövrdə ovçuluq təsərrüfatı çoxsahəli olub özünün yüksək səviyyəsinə çatdı. İnsan birliklərinin yemlə təchizatı nisbətən yaxşılaşdı.

Hər ibtidai insan dəstəsi il boyu 500-ə kimi heyvan ovlamalı idi. Bu, ətdən başqa geyim, daldalanmaq üçün xammal – gön-dəri və xəz deməkdir; sonuncular qaşovlar ilə emal edilirdi. Görünür, cinslər arasında əmək bölgüsü də bu vaxt yaranır. Kişilər ovçuluqda, qadınlar isə ev işləri, toplayıcılıqla məşğul olurmuşlar.

Tağlar mağarasının Mustye ocaqları üst-üstə 14 laydır. Bu, insanın süni od əldə etmək üçün texnikasına bütünlüklə yiyələnmiş olduğunu göstərməkdədir.

Şüurun inkişafında bir keyfiyyət yeniliyi də paleantropların rəngləri, rəng çalarlarını qavraya bilməsidir. Alət hazırlamaq üçün insanlar artıq sadəcə daşları deyil, rəngli daşları seçib mağaraya gətirirdilər. Tağlar mağarasında qırmızı, sarı, qara, qəhvəyi, boz, yaşıl, ağ və bu rənglərin iyirmidən artıq çalarını saxlamış olan daş məmulatı tapılmışdır. Deməli, Mustye adamının mənəvi dünyası zəngin olub. Bunu Avrasiyanın bir çox düşərgəsində tapılan neandertal qəbirləri də dolayısıyla sübut edir. Ən qədim dəfn mərasimlərini sənədləşdirən bu qəbirlər icmada qarşılıqlı sosial əlaqələrin mövcudluğundan, cəmiyyət üzvlərinin bir-birinə qayğı göstərməsindən xəbər verir.

Birgə əmək, uzunmüddətli birgəyaşayış paleoantroplara icmanın xəstə üzvünün qayğısına qalmaq hissləri aşılamış, qarşılıqlı əlaqə institutu yaratmışdı*. Buna görə ibtidai icma quruluşunun yaranış göstəricisi sayı-

---

* Buzeyir mağarası Lerik kəndinin 3 km-liyində qeydə alınıb. Burda alt qatın mustye alətləri 60-80 min il bundan əvvələ aid edilir. Qazma mağarası Şərurda Tənənəm kəndinin 3 km-liyindədir. Dəvəgözündən hazırlanmış Mustye alətləri və ocaq qalığının yaşı 55 – 60 min ildir.

* Paris yaxınlığında Levallua-Perredən tapılan daş alətlərin düzəldilməsində işlənmiş üsul.

* Deşikdaş mağarasının (Özbəkistan, Surxan-dərya vilayəti) mustye adamları dağkeçisini ovladıqları yerdə onun az bir hissəsini yemiş, ən yaxşı, ətli parçalarını mağaraya gətirmişlər. Bu fakt ilkin kollektivdə təbii meydana çıxan həmrəylik və qarşılıqlı kömək hisslərinin ifadəsi kimi qiymətləndirilir. Quzey İraqdakı Şanidar mağarasının Mustye təbəqəsində yaşlı neandertal adamının skeleti tapılıb; məlum olub ki, sağlığında həmin adamın sağ qolu dirsəkdən kəsilibmiş. Belə ciddi əməliyyatdan sonra o, sağalmış və kollektivdə yaşayışını davam etdirmişdir.

lan qəbilə icmasının orta paleolit dövründə yaranması tamamilə yəqindir. Şüurun inkişafı sayəsində, instinktiv meyllərin artıq ictimai cəhətdən dərk edilə bilən davranış qaydaları ilə əvəz olunması da cəmiyyətin inkişafına böyük təkan verdi. Nəhayət, insanın bədən quruluşunun öz şəklini alması başa çatdı, neandertal adamının təkamülü nəticəsində Mustye dövrünün sonunda çağdaş insan (Homo sapiens) dünyaya gəldi.

## 2. QƏBİLƏ İCMASININ İSTEHLAK TƏSƏRRÜFATI

**QƏBİLƏ İCMASI. ANAXANLIQ.** Qəbilə icmasında ibtidai yaşayış daha böyük, sabit, davamlı şəkil aldı. ***Üst paleolit*** çağında qan qohumluğuna görə bir neçə qəbiləni birləşdirən tayfa yarandı. Tayfa birgə təsərrüfat aparırdı, öz ərazisində bütün heyvanların, bitkilərin, xammal ehtiyatlarının sahibi idi. İstehsal vasitələri, məhsul üzərində ümumi mülkiyyət, birgə əmək və birgə yaşayış, qarışıq nikahdan yeni nikah münasibətlərinə keçilməsi və nəslin bir xəttlə müəyyən edilməsi qəbilə icmasının başlıca göstəricisidir.

Qəbilə icmasının inkişafında yeni nikah böyük rol oynayır. Buna kimi iki qəbilə arasında «böyük qrup nikahı» mövcud idi. Bir qəbilə ilə başqası arasında, ekzoqamiya qaydasında həyata keçirilən belə nikahda ər-arvad münasibətləri vaxaşırı olur, uzun çəkmirdi. Onlardan hər biri öz qəbiləsində, öz düşərgəsində yaşayırdı. Belə dislokal düşərgələr uzun müddət qalmış, bəzən sinifli cəmiyyət dövrünə gəlib çıxmışdır.* Qrup nikahların getdikcə aradan çıxması ilə bağlı yeni nikah, bir qadınla bir kişini birləşdirən «qoşa ailə» yarandı. Bişlanğıcda ailənin özündə əski nikahın bir çox izləri qalırdı. Həm də «qoşa ailə» qəbilə daxilində hələ iqtisadi özək olmamışdı. Kişi ilə qadının birgə mülkiyyəti hələ yox idi, onlar hələ birgə təsərrüfat aparmırdılar, uşaqlar anaya və onun qəbiləsinə məxsus idi.

Qəbilə icmasının erkən çağlarında təsərrüfatda, ictimai həyatda qadın aparıcı rol oynayır. Kişi yalnız ovçuluqla (sonra həm də balıqçılıqla) məşğul olduğundan, düşərgə-və ailə qayğıları, toplayıcılıq, ev işləri ananın üzərinə düşürdü. Qrup nikahda ata bəlli deyildi, uşaqlar ananın qəbiləsində böyüyürdü. Buna görə qəbilədə ana üstün yer tutur, nəsil ana xəttilə seçilirdi. Bu tarixdə ***anaxanlığı*** – ***matriarxal*** çağıdır.

«Dədəm Qorqud» kitabında «***qadın ana***», «***ana haqqı Tanrı haqqı***» kimi anlayışlar və deyimlər anaxanlığı qalığıdır. «Ana dili», «ana vətən» anlayışları da o çağın yaddaşı ilə səsləşməkdədir.

---

* Dislokal məskənlərin sorağına Strabonun qarqarlarla amazon qadınlar arasındakı nikah haqqında yazdığı rəvayətlərdə rast gəlirik. Belə nikahın «qalıqlarını» orta əsr tarixçilərindən Əbu Müzəffər İsfəhani xürrəmilərin davranışında da qeydə almışdır.



**İSTEHLAK TƏSƏRRÜFATI.** Anaxanlıq çağı üst Paleolit (təxminən 40 min – 14 min il əvvəl), ***Mezolit*** (e.ə. XII–VIII minilliklər) və ***Neoliti*** (e.ə. VII–VI minilliklər) əhatə edir. Üst Paleolit abidələri nisbətən zəif öyrənilib. Onun izlərinə Damcılı və Tağlar mağaralarında, Yataq yeri adlı açıq düşərgədə rast gəlirik. Tağlar mağarasının yuxarı qatında Mustye tipli itiuclularla birlikdə üst Paleolitin başlanğıcı üçün səciyyəvi olan uclu qaşovlar, kəsicilər, bizlər, saplaqlı alətlər, biz formalı kiçik itiuclular, prizmaşəkilli nüvələr tapılıb. Bu göstərir ki, üst Paleolit alətləri Mustye texnikasının sonrakı təkamülü üzərində yaranmışdır. Damcılı mağarasında belə alətlərdən başqa tonqal qalığı və tünd qırmızı rəngli oxra (meyitləri rəngləyirdilər) tapılmışdır. Üst Paleolitdə ən geniş yayılmış alətlər çaxmaqdaşı və dəvəgözündən düzəldilmiş uclu qaşovlar, kəsicilər və bizlər olub. O vaxt iri onurğalı heyvanların bəzilərinin (mağara ayısı, kərgədan və s.) nəsli kəsilmişdi. Başlıca ov heyvanları Qafqaz maralı, dağkeçisi, öküz, cüyür idi.

Üst Paleolitdən başlayaraq alətlərin kiçik ölçüdə hazırlanması diqqəti özünə çəkir. Mezolit-Neolit dövrlərində də davam edən bu ən'ənə texnika və təsərrüfatda (o cümlədən ovçuluqda) baş verən dəyişikliklərlə bağlıdır. Mezolit texnikası üçün kiçik həndəsi fiqurlar (üçbucaq, seqment, trapes və b.) şəklində mikrolit alətlərin istehsalı səciyyəvidir. Karandaşvari nüvələrdən qoparılmış bu lövhəcikləri ağac və ya sümük sağanağa geydirib qətranla bərkitməklə istənilən quraşdırma alət hazırlanırdı. Qobustanın Firuz düşərgəsində və qayaaltı sığınacaqlarda tapılan Mezolit və Neolit alətləri, həmçinin Damcılı və Şuşa mağaraları daş məmulatının bir hissəsi mikrolitlərdən ibarətdir.

Bu Mezolit alətləri çaxmaqdaşı və sümükdəndir. Cürbəcür qaşovlar, bizlər, kəsicilər, bıçaqlarla yanaşı mikrolövhəciklərdən hazırlanmış quraşdırma alətlər (biçin bıçaqları), silahlar (ox ucluqları, nizələr), də diqqəti cəlb edir.

Beləliklə, Damcılı və Qobustan tapıntıları Mezolit dövrünün böyük ixtirası olan ***ox ilə yayın*** ortaya gəlməsini sənədləşdirir. Bu baxımdan Qobustanın Mezolitə aid qayaüstü rəsmləri içərisində ox-yayla silahlanmış təbii böyüklükdə insan təsvirləri böyük maraq doğurur. Ox ilə yayın kəşfi fərdi ovçuluğa, düzənlərdə və meşələrdə insanın ovu uzaqdan ovlaması, quş vurması üçün geniş yol açmış oldu. Bu çağdan yay və ox insanın əlində başlıca silah oldu.

Mezolit dövründə Qobustanda tələ ilə ov edilməsi (qovma ovçuluğu), qulan, ceyran, dağkeçisi, at, öküz tutulması hələ qalırdı. Biçin bıçaqları, daş sürtkəclər toplayıcılıqda yabanı dənli bitkilər yığımına keçilməsindən xəbər verir. Mezolit təsərrüfatının mühüm uğurlarından biri də ***balıqçılıqdır.*** Qayaüstü rəsmlər içərisində balıq və balıq toru təsvirləri var. Qazıntılardan tortoxuyan sümük alətlər, balıq və suiti sümüklərindən düzəldilən

qursalar, harpunlar tapılmışdır. Bunlarla yanaşı, burnunda günəş və içərisində adamlar təsvir edilmiş qayıq rəsmləri balıq ovunun artıq geniş yer tutduğunu göstərir.

Qobustan rəsmləri ibtidai sənət əsərləri olmaqla, Azərbaycanın bir neçə minilliyi (o cümlədən Mezolit və Neolit) əhatə edən tarixini qayalar üzərində əbədiləşdirmişdir. Bunlardan Mezolitə aid rəsmlər içərisində təbii böyüklükdə insanın siluet təsvirləri çox maraqlıdır. Ox-yayla silahlanmış olan bu ovçuların bud və baldırları başqa bədən üzvlərinə nisbətən yoğun və qabarıq cızılmışdır. Qədim sənətçi bununla bu insanların ovçuluqda lazım olan güc və qaçış bacarığını bildirmək istəmişdir. Öküzün təbii böyüklükdə kontur təsviri bəzi qayalarda vəhşi at sürülərini ovlayan insanların kiçik təsvirlərinə qarışıb. Maral, at və keçinin profil təsvirləri, naviqasiyanın doğuluşuna göstərici sayılan qayıq təsvirləri, yallı səhnəsi isə Neolitə düşür. Bu, erkən qayaüstü rəsmlərin başlıca mövzusu qədim qobustanlıların düşərgəsi yaxınlığında otlayan ov heyvanları ilə bağlıdır. Keçi və maral təsvirləri üzərində onların yaralanması, onlara nal şəkilli daşla zərbə endirilməsi bildirilir. Rəsmlərin bir çoxunda heyvan gövdəsinin ortasına yaxın şaquli xətlə zərbə yeri cızılıb. Bunun ovdan qabaq heyvanı ovsunlamaq inancı yaratmağa yönəlməsi etnoqrafiya biliklərindən bəllidir. Son zamanlara kimi Oğuz rayonunda ovçular dağkeçisinin ayaq yerinə (ləpirinə) mıxça və ya mismar çalır, bununla ovun uzağa getməməsi üçün ovsunlama təşkil etmiş olurdular. Bütünlüklə götürüldükdə Qobustan petroqlifləri ibtidai insan yaşayışı ilə bağlı olan görüşlərin öyrənilməsi üçün misilsiz bir qaynaqdır*.

Qobustandakı neolit daş məmulatın çoxu tipoloji və morfoloji baxımdan mezolitdəki kimidir. Belə oxşarlıq Qobustan sakinlərinin tarixi-mədəni inkişafındakı ardıcıllığı, eyni tayfaların, ola bilsin, kökcə bir-birinə yaxın etnik toplumların orada minillər boyu yaşadığını göstərir. «Firuz» düşərgəsində açılmış son mezolit qəbirindəki insan skeletləri diqqəti özünə çəkir. Burada on nəfər yaşlı və bir uşaq bir yerdə bükülü vəziyyətdə dəfn edilmişdir. Sümüklərin yanında daş muncuqlar, qaban dişindən, xırda daşlardan düzəldilmiş asmalar və həmayillər, tortoxuyan alətlər, harpunlar tapılmışdır. Antroloji baxımdan bu insanlar çağdaş azərbaycanlılar kimi dolixokran (uzunbaşlı) avropoid olmuşlar. «Kənizə» düşərgəsində tapılan Neolit dövrü kəlləsi də eyni antropoloji quruluşdadır. Bəzi məlumatlara görə o dövrdə Azərbaycanda və İranın quzeyində yaşayan toplumlar soykök baxımından qohum idilər.

---

*Qayada, daş üzərində rəsm çəkmə ən'ənəsi həm Qobustanda, həm də Azərbaycanın başqa yerlərində (Şüvəlan yaxınlığında, Kəlbəcərdən yuxarı Dəlidağda, Ordubad yaxınlığında Gəmiqaya adlı yerdə),sonrakı dövrlərdə (tunc, dəmir) də davam etmişdir.



## 3. İSTEHSAL TƏSƏRRÜFATI. QƏBİLƏ İCMASININ ÇİÇƏKLƏNMƏSİ

**«NEOLİT İNQİLABI»**. Ovçuluq, toplayıcılıq və balıqçılıqla məşğul olan istehlakçı icmanın istehsal imkanları az olduğundan, o yalnız bitki və heyvanların yayıldığı bölgələrdə yaşaya bilərdi. Təbiətin hazır yemini, suyunu, məhsullarını yeni ərazilərə köçürməyi insan hələ bacarmırdı. Bu isə qəbilə-tayfa birliklərinin çoxalmasına, geniş ərazilərə yayılmasına, aralarında əlaqələrin güclənməsinə mane olurdu. Mezolitdə əmək alətlərinin təkmilləşməsinə, yem toplamaq üsullarının yeniləşməsinə baxmayaraq, iqtisadiyyatı nizamlamaq mümkün olmadı. İstənilən qədər ərzaq əldə etmək üçün onun təkrar istehsalına keçmək zəruriyyəti qarşıya çıxdı.

İstehsal təsərrüfatının, onun aparıcı sahələri olmaqla əkinçilik və maldarlığın meydana çıxması Neolit dövrünün ən böyük uğuru, əsl çevriliş oldu. «Çoban tayfalar»ın icmanın qalan kütləsindən ayrılması üçün istehlak təsərrüfatına keçilməsi ilə başlanğıc qoyuldu. Məhsuldar qüvvələrin inkişafında, təbiət və cəmiyyətin kökündən dəyişdirilməsi işində aparıcı rol oynayan bu irəliləyiş «Neolit inqilabı» adlanır. Bəşər tarixindəki bu «birinci inqilab insan iqtisadiyyatının görünüşünü dəyişdirdi, insana öz yem ehtiyatı üzərində nəzarət etmək imkanı verdi» (Q.Çayld).

253846

Bu iqtisadi çevrilişin zəmini Azərbaycanda Mezolit dövründə hazırlanmışdı. İnsanlar bitkilər və heyvanlar haqqında minillər boyu təcrübi biliklər toplamış, dənli bitkiləri cücərtidən məhsul verənə kimi müşahidə edərək, buna uyğun iş görmək, heyvanları əhliləşdirmək vərdişləri qazanmışdılar. Azərbaycanda əkinçilik və maldarlığın yaranması üçün ekoloji şərait də çox əlverişli idi. Burada artıq Neolit ərəfəsində zəngin heyvanlar aləmi, o cümlədən iri və xırdabuynuzlu heyvanların (qoyundan başqa) vəhşi növlərinin olması Qobustanın erkən qayaüstü rəsmləri ilə sənədləşir. Əkinçiliyin ortaya çıxmasında mühüm rol oynayan ikicərgəli arpa indi də ***Beləsuvar-İmişli*** bölgəsində bitməkdədir. Onun altıcərgəli mədəni arpaya keçid növünün ***Mərəzəyə*** yaxın dağlıq bölgədə tapılması elm üçün ikiqat dəyər kəsb edir. Buğdanın Azərbaycanda yabanı növləri günlərimizə kimi qalmaqdadır.

Azərbaycanda istehsal iqtisadiyyatına keçid Neolitin əvvəllərində (m.ö. VII minillik) başlandı. Qobustanın Neolit qatlarında tapılan daş toxalar, dən daşları, sürtgəclər. Quraşdırma biçin bıçaqları və çin dişləri erkən əkinçilik alətləridir. «***Ana zağa***»nın Neolit tapıntıları içərisində əhliləşdirilmiş keçi sümükləri var. Bu tapıntılar Azərbaycanda əkinçilik və maldarlığın Yaxın Şərq vəÖn Asiyadan, o cümlədən qonşu ***Zaqros*** bölgəsindən sonra meydana çıxdığını göstərir.



M.F.Axund...

Yeni təsərrüfat təbii olaraq «köhnə»ni birdən-birə aradan qaldırmadı. Neolitin başlanğıcında Qobustanda ovçuluq, balıqçılıq və toplayıcılığın ənənəvi rolu hələ qalırdı.

İstehsal təsərrüfatı ilə bağlı əkin üçün yararlı düzən torpaqların məskunlaşması başlandı. Əhalinin tam oturaqlığa, «kənd təsərrüfatı» yaşayışına keçməsi üçün imkan yarandı. Cənubi Azərbaycanda, Təbriz yaxınlığındakı ***Yanıqtəpə və Sulduz*** düzündəki ***Hacı Firuz*** abidələri son Neolitin (m.ö. VI minillik) əsl oturaq əkinçi-maldar təsərrüfatının, kənd tipli məskənlərin qalıqlarıdır. Bu zaman möhrə və ya çiy kərpiclə hörülmüş evlərdən kəndlər salınır, qoyun və keçi saxlanılırdı. Yeni təsərrüfat yaşayış üçün zəruri olan məhsul istehsalını böyütdü, bununla tayfalararası alış-veriş yaranıb genişləndi.

Təcrübi biliklərin çoxalıb genişlənməsi, təbiətin sirlərinə insan oğlunun yiyələnməsi, onun düşüncə və dünyagörüşünə, təsviri sənətinə yeniliklər gətirdi. Qobustan Neolit rəsmlərində öküzün boğazına artıq çatı salınıb, yəni insan ona artıq yalnız bir ovçu kimi deyil, bir «oturaq» maldar gözü ilə də baxmağa başladı. Rəsmlərdə insanlar yalnız ox-yayla deyil, vaxt keçdikcə çin və xışla təsvir edilməyə başlayır. İstehlak təsərrüfatına nisbətən istehsal təsərrüfatı daha az vaxt tələb edir, bu isə insanın iş dairəsinin genişlənməsinə imkan verirdi. Artıq qalan vaxtı texnikanı təkmilləşdirməyə, yeni istehsal yolları axtarmağa doğru yönəltmək olurdu. ***Gəncə-Xanlar*** bölgəsində arxeoloqların açdığı 78 №-li emalatxana və 133 №-li düşərgənin tapıntıları göstərir ki, neolit adamı daşı burma üsulu ilə deşmək, novçalı etmək və cilalamaq texnikasına yiyələnmişdi.

Neolitin başlıca qazanclarından biri ***dulusçuluq***, saxsı qab istehsalı oldu. Gil qabları əl ilə istənilən şəklə salıb qurutmuş, odda bişirmişlər. Halbuki o çağa kimi yağış suyu yığmaq, yemək bişirmək üçün Qobustanda qaya üstündə qazılmış konusvari daş oyuqlardan istifadə edilirdi. İlkin saxsı qablar da oyuq şəklində hazırlandığı üçün qabarıq və ya şiş oturacaqlıdır («Ana zağa», 133 №-li düşərgə). Neolitin sonunda saxsı qablar daha münasib görünüşdə hazırlanmış, müxtəlif üsullarla, o cümlədən boya ilə naxışlanmışdır (Yanıqtəpə, Hacı Firuz). «Ev peşələri» anlayışına daxil olan toxuculuq, hörməçilik, tikinti işi və başqaları da öz başlanğıcını neolitdən götürmüşdür.

İstehsal iqtisadiyyatına keçilməsi, insan toplum və birliklərinin öz təsərrüfatları ilə geniş ərazilərə yayılması, yem çatışmazlığının getdikcə aradan qalxması əhali artımını sürətləndirirdi. Abidələrin say nisbəti də dolayısı ilə bunu göstərir: yüz minilliklər boyu hökm sürən istehlak təsərrüfatının paleolit-mezolit abidələri barmaqla sayılarsa, Neolit-Eneolit yaşayış məskənlərinin sayı 150-yə çatır. Yeni iqtisadiyyatın cəmiyyətdə yarat-



dığı bu köklü dəyişmələr arxasında icma quruluşunun dağılmasına aparan yollar başlanırdı.

**İCMA QURULUŞUNUN ÇİÇƏKLƏNMƏSİ.** Neolit kəşfləri özülündə qəbilə quruluşunun çiçəklənməsi sonrakı Eneolit dövründə (m.ö. V-IV minilliklər) daha dolğun gözə çarpır. Azərbaycanda Eneolit dövrü üçün uzunmüddətli oturaq əkinçilik və onunla bağlı ev maldarlığı səciyyəvidir. Yaşayış yerlərindəki mədəni təbəqələrin 10 m qalınlığında olması (***Naxçıvan*** yaxınlığında Kültəpə, Qazax rayonundakı ***Qarğalar təpəsi***) bunu sübut edir, çoxtəbəqəli belə kəndlər yüzillər (bəzən min il) boyu yaşayış yerləri olmuşlar. Bu yaşayış yerləri başlıca olaraq çay qıraqlarında salınırdı.

***Mil düzündə Şahtəpə*** yaşayış yeri yaxınlığında qədim suvarma arxının izləri, yaşayış yerlərində tapılan iri dənli taxıl qalıqları Eneolit dövründə ***suvarma əkinçiliyinin*** olmasını təsdiq edir. Ancaq ***dəmyə əkinçiliyi*** daha geniş yayılmışdı. Torpağı qaramalın kürək sümüyündən və maral buynuzlarından hazırlanmış toxalarla şumlayırdılar. Toxa əkinçiliyinin texniki imkanları məhdud olsa da, Azərbaycanda on növə kimi arpa, buğda, vələmir, darı, çölnoxudu becərilməsi əkinçilik mədəniyyətinin yüksəlişdə olduğunu göstərir. Taxıl biçinində ağac və ya sümük sağanağa çaxmaqdaşı, dəvəgözü «dişləri» geydirib qətranla bərkidilmiş quraşdırma çinlərdən (***Şomutəpə və Teyrətəpədə*** bütövləri tapılıb), həmçinin qaramalın kürək sümüyündən düzəldilən, diş-diş edilmiş qövsvari çinlərdən (Əlikömək təpəsi) istifadə edilmişdir. Dəni əzmək, üyütmək üçün dən daşları, sürtgəclər, daş həvəng-dəstələr işlənməkdə idi. Taxılı çiy kərpicdən tikilən kiçik anbarlarda, quyularda, çəlləkvari iri saxsı qablarda saxlayırdılar.

Bir sözlə, Eneolit tapıntıları yerin şumlanmasından taxılın yığılıb saxlanması və istifadəsinə qədər bütöv bir istehsal-istehlak dövrəsini qapayırdı. Şomutəpə və Əlikömək təpədə toplanan üzüm çəyirdəkləri isə üzümçülüyün öz başlanğıcını Eneolitdən götürdüyünü sübut edir.

Yaşayış yerlərindən toplanmış sümüklərin müqayisəsi göstərir ki, Azərbaycanın günbatar bölgələrində maldarlıq təsərrüfatında davarın, Muğan düzündə isə qaramalın saxlanmasına üstünlük verilmişdir. İndiki ev heyvanlarının demək olar hamısı: qaramalın iki növü, qoyun və keçinin isə üç növünün bəslənməsi Eneolit maldarlığının yüksək səviyyədə olduğunu göstərir. Bundan başqa Muğan düzündə (Əlikömək təpəsi) iki növ ev atının çoxlu sümükləri tapılmışdır. Atçılığın 6 minillik tarixini sənədləşdirməklə yanaşı, bu tapıntı Azərbaycanı bütün Avrasiyada atın ev heyvanı kimi bəslədildiyi ən qədim ocaqlardan biri saymaq üçün tutarlı göstəricidir.

Eneolit maldarlıq təsərrüfatının başlıca məqsədi ət istehsalı idi. Ovçuluq bu istehsala yalnız yardımçı ola bilir, lakin ət ehtiyatının 1/10-dən azını

ödəyirdi. Maral, ceyran və quşu (həmçinin su quşları) təkcə ox-yayla deyil, sapandla da ovlayırdılar. Balıqçılıq ərzağa olan tələbatın bir qismini ödəyirdi. Nərə tipli balıqların onurğa sümükləri Əlikömək təpəsində çoxdur.

Ev peşələri çoxsahəli olmuşdu. Daşişləmə və sümükişləmə öz ən'ənəvi rolunu saxlayırdı. Daşı və sümüyü burma üsulu ilə deşərək toxa, çəkic, balta, toppuz (biri dəvəgözündən) hazırlamaq, daşın səthini parıltı verənə kimi cilalamaq texnikası təkmilləşir, təsərrüfatın inkişafına uyğun olaraq yeni əmək alətləri istehsal olunurdu. Onların içərisində xarratlıqla bağlı alətlər də var. Gön-dəri emalı və paltartikmə yaşayış məskənlərində tapılan çoxlu sümük bizlər, qoyunun kürək sümüyündən düzəldilən qaşovvari bıçaqlar, köşə qalıqları ilə sənədləşir. Saxsı qablardan ikisi hazırkı keçə çəkmələri xatırladır və gön-dəri ayaqqabıların tikilməsini əyaniləşdirir. İy başlıqları (Kültəpə, İlanlıtəpə, Leylatəpə), saxsı qablarda parça izləri (Əlikömək təpəsi) toxuculuğun göstəriciləridir. Yun istehsalı toxuculuğu qiymətli xammal ilə təmin edirdi. Hörməçiliyə aid materiallar daha çoxdur: evlərin döşəməsində həsir qalıqları, ölünün həsirə bükülməsi dəfələrlə qeydə alınıb. Gil qab altlıqlarının, səbətlərin hazırlanmasında qarğı, qamış, əyilən çubuq və lifli otlardan geniş istifadə olunurdu.

Artmaqda olan yaşayış tələbatı saxsı qab istehsalını genişləndirməyi və təkmilləşdirməyi tələb edirdi. Əlikömək təpəsi, Çalağantəpə və Leylatəpədə həm sadə, həm də mürəkkəb quruluşlu – ikiyaruslu dulus kürələri tapılmışdır. Kürələrin yaşayış yeri yaxınlığında toplu yerləşməsi (Əlikömək təpəsi) Eneolitin sonunda sənət emalatxanasının, sənətkarlığın rüşeymi sayıla bilər. Erkən Eneolit saxsı qabları bəsit görünüşdədir, gilinə saman, çınqıl və ya saxsı ovuntusu qatılıb. Eneolitin sonunda görünüş dəyişir, qablara qulp qoyulur, səthi şüyrələnir. Monoxrom boyalı qabların (Urmiya gölü, Muğan) buraxılması genişlənir. Sonuncular keyfiyyətcə yaxşıdır, qırmızı və ya qara boya ilə həndəsi naxışlanmışdır. Naxışlarda Quzey ***Mesopotamiyadakı Übeyd*** mədəniyyətinin təsiri gözə çarpır. Bəzi qablar isə oradan gətirilmədir.

**METAL İLƏ TANIŞLIQ. QUZEY MESOPOTAMİYA İLƏ İLK ƏLAQƏLƏR.** Eneolit qəbilə icması qabaqkı çağlardan metalla ilkin tanışlığı ilə ayrılır. Daha davamlı əmək aləti və silah düzəltmək tələbatı metal axtarışı doğurdu. Transqafqazda ən qədim mis məmulatı Azərbaycanda (Kültəpə, Qarğalar təpəsi, Əlikömək təpəsi, Çalağantəpə, Leylatəpə) tapılmışdır. Onların içində 20-dək kiçik alət: dördtilli biz, qıyıq, barmaqlıq, nazik bilərzik, bıçaq tiyəsi, ox ucluğu var. Çoxu ***soyuqdöymə*** üsulu ilə hazırlanmışdır. Leylatəpədə mis ərintisi, Kültəpədə mis-mərgümüş qatışıqlı əşyalar, Əlikömək təpəsində mis məftil tökmək üçün qəlib və saxsı çömçələrin



tapılması göstərir ki, Eneolit dövründə Azərbaycanda yaşayan toplumlar metaləritmə işini artıq bilirdilər. İnsan zəkasının böyük uğurlarından olan metal istehsalı burada m. ö. V-IV minilliklərdə başlamışdır.

Azərbaycan erkən əkinçi-maldar mədəniyyəti Ön Asiyanın qonşu bölgələri ilə əlaqəli yaranıb inkişaf etmişdir. Mədəni oxşarlıqlar, gətirmə tapıntılar bütün Eneolit boyu dəyişmə alış-verişinin Mesopotamiya yönümündə olduğunu göstərməkdədir. Kürün orta axarındakı abidələrin və Şimali Mesorotamiyada Xələf mədəniyyəti (m. ö. V minillik) yaşayış evlərinin eyni şəkildə (dairəvi) olması, eyni tipli (bir üzü qabarıq) kərpiclə hörülməsi bu baxımdan diqqəti özünə çəkir. Kültəpənin alt təbəqəsindən Xələf boyalı qablarının tapılması da təsadüfi deyil. M. ö. IV minilliyin birinci yarısında Şimali Mesopotamiyadakı Übeyd mədəniyyəti ilə bağlılıq daha qabarıq izlənilir. Güney Azərbaycanın Eneolit abidələrində (Piştəlitəpə, Göytəpə, Yanıqtəpə) həmin mədəniyyətlə bağlı monoxrom boyalı qabların çoxluğu orada Übeyd mədəniyyətinin yerli variantının yayılması fikrini ortaya gətirmişdir. Əlikömək təpəsində də belə boyalı qablar çox tapılıb. Yaşayış evləri görünüşcə də oxşardır. Ağdam yaxınlığındakı Leylatəpədə və qonşu təpələrdə (Xındırıstan kəndi) Übeyd mədəniyyəti üçün səciyyəvi tapıntılar üzə çıxarılıb. İkiyaruslu dairəvi dulus kürələri, dulus çarxında hazırlanmış saxsı qablar, boyalı naxışlı keramika, evlərin quruluşu Mil-Qarabağ düzünün yerli Eneolit göstəricilərindən kəskinliklə ayrılır. Həmin tapıntılar Übeyd boylarının Şimali Mesopotamiyadan növbəti axınlarından birinin Mil-Qarabağ düzünə düşdüyünü, bu boyların bir zaman burada yerləşib yaşamasını sənədləşdirir.

**ATAXAQANLIĞINA DOĞRU.** Eneolit dövrü yaşayış məskənləri özünəməxsus görünüşdə idi. Çiy kərpicdən hörülən dairəvi və ya dördkünc yaşayış evləri (hər birində ocaq, döşəməsində həsir) və təsərrüfat tikililəri kiçik həyətlə birlikdə hasar içərisinə alınırdı. Bu yaşayış tikililəri bütövlükdə kişinin başçılıq etdiyi «qoşa ailə»yə məxsus idi. Bu ailə icma daxilində az-çox müstəqilliyə meyl edən yeni təsərrüfat vahidi kimi önə çıxaraq, getdikcə qəbilə icmasının dağılmasında fəal rol oynadı. Sonralar qohumlardan ibarət böyük ailə icması yaranmasına başlanğıc oldu.

İstehsal təsərrüfatının əsas sahələrində kişinin üstünlük qazanması onun ailəni və icmanı idarə etmək hüququnu ələ alması ilə sona yetdi. Anaxanlığı öz yerini ataxanlığına (patriarxat) verdi. Ancaq bu, «ananın öz şərəfli mövqeyini itirməsi» demək deyildi. Eneolit abidələrində (Qarğalar təpəsi, Çalağantəpə, Əlikömək təpəsi) tapılan saxsı və gil qadın heykəlcikləri göstərir ki, ana, ocaq qoruyucusu və məhsuldarlıq rəmzi kimi ehtiramını, öz yerini saxlamaqda idi.

ictimai quruluşu, mənəvi dünyagörüşü öyrənmək üçün qəbir abidələri qiymətli məlumatlar verir. Qədim Şərqin bir çox bölgələrində olduğu kimi, Eneolit dövründə Muğan, Mil-Qarabağ düzləri, Naxçıvan və Güney Azərbaycanda ölünü yaşayış yerində – otağın döşəməsi altında və ya divar dibində basdırmışlar. Mərhumu qırmızı oxra ilə boyayıb həsirə bükərək. Sağ və ya sol böyrü üstə qoymaq, onun üstünə qırmızı oxra tozu səpmək və sifəti qarşısına su qabı (cam) qoymaq adəti Əliköməк təpəsinin bütün qəbirləri (20-dək) üçün eynidir.

Yaşayış yerində gömmə və qırmızı boyama adəti mərhuma pərəstişlə, itki əvəzinin qaytarılması, ailənin artıb-böyüməsi görüşü ilə bağlı idi. Davarın, ov heyvanının kəlləsini boyamaq, ağzını oxra ilə doldurmaq adəti də bu görüşdən doğurdu. Kültəpədə isə (85 qəbir) tək gömmə ilə yanaşı birgə dəfnetmə* qeydə alınıb. Buradakı iki qəbirdə mərhumun yanına it qoyulması totemçilik, bu heyvana pərəstiş bildirirdi. Bir neçə qəbirdə mərhumun başı altına yastı daş və ya saxsı qab parçası qoyulub.

Saxsı küplərdə ölügömmə adəti yalnız Leylatəpədə qeydə alınıb. Bu, Eneolit dövründə Übeyd tayfalarının Azərbaycana gətirdiyi ötəri mərasimdir. Ümumiyyətlə, Eneolit qəbirlərinin avadanlığı cəmiyyətdə hələ varlı-kasıblıq, ictimai bərabərsizlik olmadığını bildirir. Yalnız bəzi qəbirlərdən tapılan cilalı daş toppuz başlığı hakimiyyət rəmzi kimi qəbilə başçısını və ya ağsaqqalını başqalarından ayıran ilkin əlamət kimi sayıla bilər.

İnsan dünyagörüşündə ovsunçuluğun öz yeri var idi. Qarğalar təpəsindən tapılan qadın heykəlciyində saçın dağınıq halda çiyinə tökülməsi (dalğalı cızıqlar) quraqlıq ayları «yağışçağırma» mərasiminə uyğun gəlir. Tonqal hisi ilə örtülmüş ələ yatımlı daşların topaları (Qarğalar təpəsi, Əliköməк təpəsi) da quraqlığa qarşı ovsunlama ilə bağlı idi. Ovçuluqla bağlı olan ovsunçuluq da geniş yayılmışdı.

Əliköməк təpəsində yarımqazma tipli dairəvi otağın divarı suvanıb ağardılmış, sonra qırmızı boya ilə çəkilən dairə və nöqtələrlə naxışlanıb bəzədilmişdir. Qalan bütün otaqlardan kəskinliklə ayrılan bu otaq, görünür, ibadət evi olmuşdur.

## 4. İBTİDAİ İCMA CƏMİYYƏTİNİN DAĞILMASI

**ERKƏN TUNC DÖVRÜ TƏSƏRRÜFATININ YENİ SAHƏLƏRİ.** Təsərrüfat və cəmiyyətdə böyük irəliləyişlər, yerli metal istehsalının getdikcə təkmilləşməsi m. ö. IV minilliyin sonunda Azərbaycan əhalisinin yaşayışında Tunc dövrünün başlanğıcını qoydu. Tunc – misla mərgümüş, nikel, sürmə, qurğuşun və qalay qatışığından alınan ərintiyə deyilir. Tunc dövrü m. ö. II minilliyin sonuna kimi davam etmişdir. Bu iki min il içərisində məhsuldar qüvvələrin yüksəlişi, iqtisadiyyatın aparıcı sahələrində, ictimai həyatda köklü dəyişmələr baş verdi. Qəbilə icmasının dağılması və erkən sinifli cəmiyyətə keçid bu zaman oldu.

Erkən Tunc dövrü (m. ö. IV minilliyin sonu – II minillik) yaşayışında baş verən dəyişmələr Azərbaycanın bütün ərazisini bürüyən Kür-Araz arxeoloji mədəniyyəti abidələri üzrə öyrənilir. Bu zaman Eneolitə nisbətən iqlimin qurulaşması üzündən bir sıra kiçik çaylar, qaynama bulaqlar qurudu. İnsanlar sıx yaşayış yerlərindən əkinçilik və yaşayış üçün daha əlverişli olan vadilərə, dağ ətəklərinə yayılıb səpələndi. Bununla bağlı erkən Tunc dövründə yalnız tək-tək Eneolit kəndlərində (Qazaxda ***Baba Dərviş***, Naxçıvanda ***Kültəpə*** və ***Ovçular*** təpəsi, Güney Azərbaycanda ***Göytəpə*** və ***Yanıqtəpə***) yaşayış davam edirdi.

Əkinçi və maldarlar yeni yaşayış məskənlərində yerləşməyə başladılar. Kür və Araz üstündə (***Mingəçevir, Sultanbud***), Quruçay və Köndələnçay vadisində (***Qaraköpəktəpə, Günəştəpə, Meynə təpələri***), Mil-Qarabağ düzünün bəzi yerlərində (***Şortəpə, Cüttəpə, Qarahacılı***), Muğanda (***Mişarçay I, III***), Quba-Xaçmaz bölgəsində (***Gövdişantəpə, Təpəyatağı, Qəflə təpələri, Böyüktəpə***) kəndləri çoxu qabaqlar yaşayış olmayan torpaqlarda salınmışdı. Yüksək dağlıq yerlərdəki (***Kəlbəcər, Şəmkir, Cəlilabad***) məskənlər də bu qəbildəndir. Ancaq yaşayış və təsərrüfat tikililəri Eneolit ən'ənələri üzərində qurulurdu. Dairəvi, ya düzbucaqlı (bəzən küncləri yarımdairə şəklində) evlər kərpic və möhrə ilə tikilib. Binalar sıx yerləşir. Tikililərin özülü çox vaxt daşla götürülüb. Bəzi otaqların divarları çubuqla hörülüb suvanmışdır. Evləri qızdırmaq, çörək və yemək bişirmək üçün iri saxsı manqallar, yeri dəyişdirilə bilən gil ocaqlar və ya dördkünc möhrə sobalardan (Kültəpə, Yanıqtəpə) istifadə olunub.

Kür-Araz mədəniyyəti yaşayış yerlərində əkinçilik texnikasının yüksək səviyyədə olması müşahidə edilir. Sümük və buynuz toxalar artıq sıradan çıxmışdır. Qoşqu heyvanı olan öküzün saxsı heykəlcikləri, araba təkərinin saxsı modelləri çoxdur. Bütün bunlar m. ö. III minilliyin birinci yarısında ***toxa əkinçiliyindən xış əkinçiliyinə*** keçildiyini göstərməkdədir. Bu yeni əkinçiliyin yaranıb sonrakı inkişafında iribuynuzlu heyvanın qoşqu kimi «kəşf olunması», bununla bağlı təkərli nəqliyyatın ortaya çıxması, görünür, böyük rol oynadı. Xış əkinçiliyi dağətəyi-dağdibi bölgələrdə qırılan meşələrin yerində əkinlərin genişlənməsinə imkan verdi, əmək məhsuldarlığını yüksəltdi.

Düzən yerlərdə ***süni suvarma***, dağətəyi və dağlıq yerlərdə dəmyə əkinçiliyi yayıldı. Buğdanın yumşaq növünün becərilməsi üstün yer tutdu.

* Hacı Firuz və Yanıqtəpədə birgə dəfnetmə (13 nəfər) hələ Neolit dövründə olub. 125 №-li Xankəndi kurqanının Eneolit qəbirində 7 nəfər bükülü halda gömülmüş, üzərlərinə çoxlu oxra tökülmüşdür.

Arpa, darı, noxud, kətan əkilməsi də arxeoloji qazıntılar üzrə sübuta yetir. Dəni saxlamaq üçün yaşayış yerlərində xüsusi quyulardan, ayrıca kərpic tikililərdən istifadə olunurdu. Babadərvişdə açılan 22 quyunun çoxunda taxıl saxlanırmış. Yanıqtəpədə içərisi kərpic divarla dörd bərabər hissəyə bölünmüş dairəvi otaq, taxıl anbarıdır. Çaxmaqdaşından quraşdırma çin dişləri, qayıqvarı dən daşları, həvəngdəstələr kimi oturaq əkinçilik alətləri eneolitdən sonra da işlənirdi.

Yaşayış yerlərində tapılan sümüklər Eneolit üçün ən'ənəvi ev heyvanlarının (öküz, inək, keçi, qoyun, ev donuzu) qaldığını göstərir. M. ö. III minilliyin başlanğıcında ***ev maldarlığı*** mövcud idi. Bir az sonrakı abidələrdə iribuynuzluya nisbətən xırdabuynuzlu heyvan sümüklərinin çoxalması, eyni zamanda Kür-Araz mədəniyyətinin dağlıq bölgələrə yayılması nəzərə çarpır. Görünür, xırdabuynuzlu heyvanın artımı üçün yaşayış evləri yaxınlığındakı örüşlər, artıq yetmirdi, qoyunçuluğu genişləndirmək üçün yay aylarında yeni bol otlaqlar, yaylaqlar lazım idi. qoyunçuluq yerli iqlim şəraitində alp çəmənliklərinə çıxarılmadan keçinə bilməzdi.

M. ö. III minilliyin birinci yarısında ev maldarlığından ***köçmə, yaylaq maldarlığına*** keçildi. Əhalinin alp çəmənlərinə doğru yayılıb yerləşməsi buranın qoyunçuluğun inkişafındakı mühüm rolu ilə bağlı idi. Bir sıra yaşayış məskənlərinin (Cəlilabadda ***Cinlitəpə*** və ***Xudu təpəsi***, Kəlbəcərdə ***Dəlidağ*** abidəsi) və kurqanların (Xankəndi, ***Xaçbulaq***) yaylaqlara yaxın olması bununla bağlıdır. Minik atı, qoşa çarxlı araba köçmə işində, aranla dağ arasındakı bağlılığın yaranıb bərkiməsində mühüm yer tutdu.

Saxsının simmetrik ölçüdə, yüksək ustalıq və bədii zövqlə hazırlanması, səthinə cilalamaqla parıltı verilməsi, relyef, cızma, oyma naxışlarla bəzədilməsi, çox nazik (qalınlığı 2-3 mm) süfrə qablarının işlənməsi dulusçuluğun artıq bir müstəqil sahə kimi irəliləmədə olduğunu göstərir. Köçmə (yaylaq) maldarlığına uyğun olaraq saxsıdan köçürmə ocaqlar, nalşəkilli sacayaqlar (bəzi yerlərdə indi də qalmaqdadır), süd və ağartı emalı üçün işlənən qab-qacaq istehsalı da bu dövrə düşür. Qafqazda ilk saxsı nehrələr Azərbaycanda kəşf edilmişdi. «Nehrə» sözünün özü də Azərbaycanda yaranmış, sonra Qafqaz dillərinə keçmişdir.

Təsərrüfatın yeni yaranmış sahələrindən biri də metal istehsalı idi. III minillikdə mis filizinin əridilməsi, mis-mərgümüş (arsen) qatışıqlı ən qədim tunc ərintisinin alınması, onu qəliblərə töküb hazır məhsul almaq texnikasının tam mənimsənilməsi tapılan misəritmə kürələri və əmək alətləri (saxsı kötük ucluqları, puta, çömçə və qəliblər) ilə sübuta yetmiş sayılır. Misdən daha möhkəm, asan emal edilə bilən tunc əldə etməyin sirlərini öyrənməklə, ustalar bu sahədə bütöv təcrübi biliklər sistemi yaranmasının başlanğıcını qoydular. Mis və arseni tanıyıb üzə çıxarmaq, filizi saflaşdır-



maq, kömürlə qarışdırmaq, kürə qurmaq, zəruri istilik rejimi yaratmaq (kürəyə körük vasitəsilə hava üfürmək), bu metalları hansı fiziki-kimyəvi nisbətdə bir-birinə qarışdırmaq yolunda ilkin metalçılar artıq yaxşı vərdiş qazanmışdılar. Metalişləmə sənəti üçün zəruri olan xammal (filiz) yataqlarının açılıb istismara verilməsində sürü arxasınca yaylağa gedənlərin rolu böyük olmuşdur. Oksidləşmiş mis filizləri çox olan ***Gəncə-Gədəbəy***, ***Dağlıq Qarabağ*** yataqlarının, həmçinin ***Dəridağ*** (***Culfa***) mərgümüş yatağının istismara başlanması o çağa düşür.

Kür-Araz mədəniyyəti geniş ərazidə yayılmışdı. Bu mədəniyyətə xas olan metal tapıntıların çoxu ilə qonşu ölkələrdəki metal tapıntılar arasında bənzəyiş var. Bu, eyni təsərrüfat sahələrinin tələbinə uyğun olan alət və silahların (tunc baltalar, metal çinlər, nizələr, xəncərlər) Transqafqaz mühitində yaranması, əkinçilik-maldarlıq məhsulları ilə aparılan tayfalararası alış-verişin genişlənməsi, bəzən isə etnomədəni yaxınlıq ilə bağlı ola bilərdi.

**ƏMLAK BƏRABƏRSİZLİYİ. İLKİN TAYFA BİRLİKLƏRİ.** Təsərrüfatda yaranmış bütün bu dəyişmələr ictimai quruluşa da təsir göstərirdi. Xırdabuynuzlu heyvan sayının sürətlə artmasına gətirən yaylaq maldarlığı var-dövlətin ayrı-ayrı əllərdə yığılıb toplanmasına gətirib çıxarırdı. Qohum ailələrə aid qəbilə kurqanlarında bəzi ailələrin daha tavanalı olması nəzərə çarpır. Astara ərazisində bu kurqanda gömülən kişinin «axirət dünyası» üçün yanına zəngin avadanlıq (6 tunc silah alətlər və b.) qoyulmuşdur. Görünür, mərhum icmada öz mülki və ictimai mövqeyi ilə seçilən bir kimsə, ola bilsin tayfa başçısı olmuşdur. Bəzi qəbirlərdə tapılan şarşəkilli cilalı toppuz başlıqları hakimiyyət rəmzi sayılır. Beləliklə, m. ö. III minilliyin ortalarında icma yaşayışında mülki-ictimai bərabərsizlik yarandı, qəbilə quruluşu onu yoxluğa aparan yola çıxdı.

Artıq qəbilə icmasının qapalı yaşayışı sarsılmaqda idi. Bu baxımdan Mil düzündəki nəhəng ***Üçtəpə*** kurqanlarından 15 m hündürlüyü, 130 m en dairəsi olan biri diqqəti özünə çəkir. Burada kurqanaltı qəbir çalasının böyüklüyü 36 kv. metrdir, qəbirin üstü uzaqdan gətirilən 100-dən artıq böyük ardıc tirləri; 50 min kubmetrə qədər daş-torpaq töküntüsü ilə örtülmüşdür. Bütün bunlar göstərir ki, kurqan tayfa başçısının imiş. Ancaq Üçtəpədə bundan böyük kurqan da var. 21 m hündürlüyü, üzərindəki örkü töküntüsü isə birincidən iki dəfə çox olan başqa kurqan ***tayfabirləşməsi*** başçısı şərəfinə ucaldıla bilərdi. Bu kurqanlar m. ö. III minilliyin ortalarında Kür-Araz vadisində tayfa birliyinin yarandığını göstərir.

Həmin vaxt Azərbaycanın güneyində ***quti*** tayfa-birliyinin olması akkaddili çivli yazı mətnlərindən bəllidir. Bu tayfa birləşməsinin, görünür,

böyük hərbi gücü var idi. O, Mesopotamiyanı tutub buradakı quldar dövlət üzərində yüz ilə yaxın hökmranlıq etmişdir. Qutilərlə qonşuluqda ***Iullube*** tayfa birliyinin yaşaması da çivli yazılarla sənədləşib. Urmiya gölünün cənub sahilindəki Göytəpə yaşayış yerinin müdafiə divarı ilə əhatə edilməsi üçün külli miqdarda işçi qüvvəsindən istifadə olunub. Təbriz yaxınlığındakı 9 hektarlıq Yanıqtəpəni dövrələyən 5 m qalınlıqda daş hasarı yalnız tayfadan daha böyük olan ictimai birlik qura bilərdi.

Quti tayfa birləşməsinin başçısı az müddətə seçki yolu ilə qoyulurdu. Bu tayfanın siyasi quruluşu, görünür, tarixin «hərbi demokratiya» adlanan çağına uyğun gəlirdi.

**ORTA TUNC DÖVRÜ. SƏNƏTİN AYRILMASI.** Orta Tunc dövrü m. ö. III minilliyin sonu II minilliyin birinci yarısına düşür. Bu zaman təsərrüfat, sənət işi daha çoxsahəli oldu, mülki və ictimai təbəqələşmə dərinləşdi. Yaxın Şərq dövlətləri ilə alış-veriş artdı.

Kür-Araz mədəniyyəti bütövlüyünün hələ m. ö. III minilliyin ikinci yarısında pozulması Transqafqazda böyük tayfa birlikləri yaşayan əraziyə uyğun gələn arxeoloji mədəniyyətlər, o sıradan Quzey Azərbaycanda Üzərliktəpə və Qızılvəng mədəniyyətləri yaranmasına gətirib çıxardı. Yaşayış yerlərinin çoxu Kür-Araz mədəniyyətləri təbəqələri üstündədir (Kültəpə, Naxçıan yaxınlığında II Kültəpə, Göytəpə, Yanıqtəpə, Mişarçay I, Qaraköpəktəpə və b.). İqlim dəyişmədiyi üçün yaşayış, əkin-biçin yerləri də dəyişilmədən qalırdı.

Orta Tunc dövrü Kür-Araz mədəniyyəti, onun memarlıq ən'ənələri yeni inkişaf mərhələsinə qədəm qoydu. Dairəvi evlərin yerini düzplanlı, çoxotaqlı evlər tutdu. Lakin orta Tunc dövrü yaşayış yerlərinin bir çoxu daha böyük idi. Qarabağda ***Çinartəpə*** 7 ha, ***Yanıqtəpə*** 9 ha, II Kültəpə 10 ha, Cəlilabad yaxınlığında ***Cəfərxanlı*** yaşayış yeri də o böyüklükdədir. Uzunmüddətli yaşayışı göstərən qalıntəbəqəli məskənlər ətrafında möhtəşəm müdafiə divarları yarandı. ***Üzərliktəpənin*** (Ağdam) çiy kərpiclərlə 2 m qalınlıqda hörülən kvadrat müdafiə divarı dayaqlarla (kontrfors) bərkidilib. ***Həftəvantəpənin*** (Urmiya gölünün quzeyi) müdafiə hasarının salamat qalmış hündürlüyü 3,3 m-ə çatır. Burada kvadrat biçimli kərpiclərlə hörülən evlər küçə boyu, hər iki tərəfdə sıra ilə tikilmişdir. ***Qaraköpəktəpədə*** (Füzuli) də müdafiə divarı olub. II Kültəpənin narınqalası (3 ha) daş kvadrat kərpiclə hörülən bürclü qala divarları ilə dövrələnib. Küçələrinə daş döşənmiş 2 – 3 otaqlı evləri planla tikilmişdir. Memarlıq baxımından orta Tunc dövrü yaşayış yerlərinin bəziləri şəhər görkəmi almağa başladı.

Dağlıq yerlərdə möhkəmləndirilmiş məskənlər – siklop tikililəri də orta Tunc dövründə salınmağa başladı. Naxçıvan Muxtar Respublikasındakı



***Oğlanqala, Qalacıq, Çalxanqala, Govurqala*** siklopları nəhəng qaya parçalarından qurulmuş meqalit tikililərdir. Həm düzəndəki çay vadilərində, həm də dağlıq yerlərdə belə «zəhmli hasarlar» tayfa birləşməsinin, tayfa əsilzadələrinin sərvətini, taxılını və sürülərini qorumaq üçün ucaldılırdı.

Şəhərsayağı belə məskənlərin yaranması sənətkarlıqla da bağlı idi. Əlikömək təpəsində tayfa başçısının dəfn olunduğu zəngin qəbirdə 140-a qədər tunc məmulat: döyüş baltası, iskənəvari alətlər, xəncər tiyələri, saplaqlı və tıxaclı nizə ucluqları, ox ucluqları, qarmaq, pilək və düymələr, barmaqlıq və s. tapılmışdır. Onun yanındakı başqa qəbirdə qızıl, gümüş, tunc və sürmə bəzəklər üzə çıxarılıb. Qızıl və tunc bəzəklər Şəki yaxınlığındakı kurqanlarda da tapılmışdır. Bütün bunlar m. ö. II minilliyin başlanğıcında metalişlətmə sənətində ixtisaslaşma getdiyini, silahsazlıq, misgərlik və zərgərliyin ayrıca sənət sahələri kimi yarandığını göstərir. Bir sənət içində belə şaxələnmə sənətkarlığın özünün kənd təsərrüfatından tamamilə ayrılması şəraitində gedə bilərdi. Deməli, orta Tunc dövründə yeni ictimai əmək bölgüsü baş vermiş, sənət əkinçilikdən ayrılmışdı.

Metalişləmədə bu dəyişiklik ilk əvvəl istehsalat texnologiyasının təkmilləşməsi: mis-qalay qatışıqlı «klassik tunc» və başqa tunc ərintilərini almaq üsullarının tətbiqi, metaltökmə işinin genişlənməsi, ümumi istehsalın birə on qat artması ilə bağlı idi. Sənət işinin yüksəlişi qalayın əldə edilməsi (gətirilməsi), sürmə, qurğuşun, qızıl və gümüş yataqlarının açılması, bu metalların alınması və qatışdırılması üsullarının mənimsənilməsi, yeni dəb axtarışları ilə yan-yana gedirdi.

Dulusçuluq da sənət sahəsi kimi ayrılmışdı. II Kültəpədə 120 kv. m sahədə dörd kürəsi olan dulus emalatxanası bunu sübut edir. Burada əl dulus çarxı işlədilir, saxsışəkilli nəfis, üzəri zəngin naxışlar, rəsmlərlə bəzədilmiş qara və boz rəngli cilalı qab-qacaq, boyalı qablar hazırlanırdı. Qızılvəng və II Kültəpə çoxrəngli boyalı qablarında rəqs edən və ya əllərini yuxarı qaldırmış kişilər, ***Nəhəcirdən*** tapılan kuzədə boğazına ip bağlanmış keçini aparan adam təsvir olunub. Kültəpədən tapılan qab üzərində heyvanlar başlarını qorxu olan səmtə çevirmiş halda hərəkət edirlər. Şahtaxtı küpəsinin yuxarı hissəsində qu quşu rəsmləri, orta hissəsində keçi və qulan təsvirləri və onların üstünə basqın edən vəhşi heyvanlar, quşlar çəkilib. Həftəvantəpədən tapılan qab üzərində ov səhnəsi daha ustalıqla verilib: ovçu iki at qoşulmuş arabadan yırtıcı heyvana oxlar yağdırır. Bir sözlə, boyalı qabların çoxu əsl bədii sənət nümunələridir. Onlar, rəssam bacarığına yiyələnmiş peşəkar ustaların əlindən çıxmışdır. Eyni sözləri Qızılvəngdən tapılan mütənasib bədən quruluşlu kişi heykəlciyi (saxsıdan) haqqında söyləmək olar.

Boyalı qablar üzərindəki insan təsvirləri o dövrün geyimi haqqında da təsəvvür yaradır. Qazıntılar zamanı tapılan gil tağalaqlar, tunc əyircəklər, bizlər, iynələr toxuculuğun sonrakı inkişafını sənədləşdirir. Üzəliktəpədə tapılan dörddişli əşyanın toxucu qurğusunun qalığı olması sözsüzdür. Toxucu qurğusu ustaların sənət texnikası inkişafı yolunda böyük uğuru idi. Toxuculuq inkişafının həlledici şərtlərindən biri onun əsas xammal mənbəyi olan qoyunçuluğun heyvandarlıqda üstün yer tutması olmuşdur.

Sənətkarlığın ayrıldığı çağda istehsal olunan məhsullar getdikcə əmtəəyə çevrilirdi. Orta Tunc dövrünün axırlarında «ticarət dəfnələri» yaranıb yayılır. Lovain dəfinəsindən (Astara) tamamilə eyni çeşidli 50 balta və balta-iskənə tapılmışdır. Alış-verişin genişlənməsi «tacirlər sinfinin» yaranmasına doğru aparırdı.

Alış-verişin inkişafı əmtəəni əvəz edə bilən bir qarşılıq vahidi yaratdı; uzaq keçmişdə bugünkü pul yerinə xırdabuynuzlu heyvan – davar işlənirdi. Dilimizdəki bu sözcük əski türkcədə, o sıradan Orxon yazılarında «tavar» şəklində yazılırdı. ***Mahmud Kaşğari*** «Divanı»nda tavar alqı-satqı vasitəsi kimi verilmişdir. Əski çağlardan Türk və Slavyan dünyaları arasında gedən alış-veriş ilə bağlı bu anlayış olduğu kimi slavyan dillərinə keçmiş və bu günə kimi öz ilkin semantikasını saxlamışdır*.

Orta Tunc dövründə süni suvarmaya əsaslanan xış əkinçiliyi tətbiq edilməklə buğda (yumşaq, bərk, xırda), arpa (ikicərgəli, altıcərgəli), darı becərilirdi. Taxıl döyümündə daş vəl tətbiq edilməsi çox mühüm texniki yenilik oldu. II Kültəpədə saxsı saclar, Üzərliktəpə ocaqlarından birində çörək bənzəyişli gil kökə, yanmış arpa, qadın heykəlciyinin birlikdə tapılması orta Tunc dövründə dənin üyüdülməsi və çörək bişirilməsini sənədləşdirir.

Kənd təsərrüfatında üzümçülük xüsusi yer tutmağa başladı. Mədəni üzüm tumları, şirəsıxan daş təknələr şərabçılığa doğru ilkin addım atıldığını bildirir.

Yaşayış yerlərindən toplanan osteoloji qalıntılar, qəbirlərdəki iri və xırdabuynuzlu heyvan şaqqaları, qab-qacaqdakı yemək qalıqları maldarlığın «canlı» izləridir. Öküz, qoyun, keçi, ev donuzu və at sümükləri çoxdur. Maral və ceyranla yanaşı xəzli heyvan (ayı, qamış və meşə pişikləri, vaşaq) ovu da çox yer tutub. Sümük qalıqlarının öyrənilməsi maldarlığın, ən çox da qoyunçuluğun üstün olduğunu göstərməkdədir. Atçılıq yaranır, atla uzunqulaq həm minik, həm qoşqu və yük heyvanı olur.

---

* Avrasiyanın bir çox bölgəsində əmtəə əvəzçisi qaramal olub. Homer «İliada»sında Afina qızıl bəzəklərinin 100 öküz dəyərində olması bildirilir. Latın dilində qaramal «pekus», pul isə «pekuniya» adlanıb. Qədim Hind dilində «rupa» qaramal deməkdir, «rupi» isə pul vahidi.



Orta Tunc dövründə Ön Asiya ilə də alış-veriş yarandı. Bu alış-verişin ilkin müjdəçisi m. ö. III minilliyin sonundan başlayaraq Azərbaycana qalay gətirilməsi oldu. Qafqazda və Yaxın Şərq ölkələrində qalay yataqları yoxdur. Görünür, bu metal Ön Asiya vasitəsilə Cənub-Şərqi Asiyadan (***Hind-Çindən***), ya ola bilsin Böyük Britaniya ərazisindən çoxpilləli mübadilə yolu ilə gətirilirmiş.

Boyalı qabların naxışlanma üslubunda da Qədim Şərq ən'ənələrinin təsiri görünür. Əlikömək təpəsindəki qəbirlərdə tapılan qızıl asma, tıxaclı nizə ucluqları və mis qazanın oxşarlarının Aralıq dənizinin gündoğar bölgələrində (Suriya, Fələstin, Livan) tapılması təsadüfi deyil.

Təsərrüfatın yüksəlişinə uyğun olaraq tayfa başçısı və əyanlarının, böyük ailə icmasının əlində artıq məhsulun, qızıl-gümüş əşyaların, silahın toplanması xüsusi mülkiyyətə doğru aparırdı. Xüsusi mülkiyyət sırasına sürülər, otlaqlar, əmək alətləri də daxil idi.

O çağın cəmiyyəti varlılar zümrəsi ilə yanaşı sənətkarlara və icmaçı kütləyə bölünürdü. Onlar cəmiyyətin başlıca istehsalçı toplumu idi. Suvarma arxlarının çəkilişi, müdafiə qalalarının tikintisi kimi ağır işlərin yerinə yetirilməsi, tayfa ərazisinin, varının qorunması da onların üzərinə düşürdü.

**SON TUNC – ERKƏN DƏMİR DÖVRÜ. İCMA YAŞAYIŞININ POZULMASI.** Son Tunc – erkən Dəmir dövründə (m. ö. XIV-VII əsrlər) təsərrüfatın və alış-verişin sonrakı inkişafı tayfa başçıları və əyanların icmaçı kütlədən ayrılmasını, ailələr arasında əmək bərabərsizliyini dərinləşdirdi. İbtidai icma quruluşunun dağılması son mərhələyə çatdı. Xüsusi mülkiyyət artdıqca asan yolla qazanc əldə etmək ehtirası böyüyür, «Hərbi demokratiya» əyanlarının yağmaçı savaşları daimi peşəyə çevrilirdi. Son Tunc – erkən Dəmir dövrü yaşayış məskənlərinin bir çoxunda (Qazax rayonunda ***Sarıtəpə, Töyrətəpə*** və ***IV Babadərviş***, Xanlar rayonunda 1 №-li yaşayış yeri) yanğın-dağıntı nəticəsində həyatın kəsilməsi, görünür, bununla bağlıdır. Belə savaşlar ilə bağlı hərb texnikası, müdafiə yolları və vasitələri genişlənirdi. Təsərrüfatın üstün sahəsi olan köçmə maldarlıq bölgələrində, dağla düzənlərin qovuşuğunda yaşayış yerlərinin çoxunun hasarlara alınması bunu göstərir. Nəhəng sal daşlardan, qaya parçalarından qurulan siklop tikililəri (xalq arasında «qalaça» adlanır) Daşkəsən, Gədəbəy (***Daşlıtəpə, Nağaradağ, Çobandaşı, Molla Abdulla bulağı, Pir Qalaçası, Baş qalaça, Böyük qalaça, Azor qalaçası*** və s.) və Naxçıvanda çoxdur. İri yaşayış məskənlərindən ***Xanlarda*** 1 №-li yaşayış yeri, Ağdamda Qaratəpə daşla və ya daş özül üzərində çiy kərpiclə hasara alınmışdır. M. ö. II minilliyin ortalarından ixtisaslaşmış hücum və ya müdafiə silahlarının: qılınc, xəncər, nizə, yay-ox, hərbi balta, yaba, qalxan,

dəbilqə, zirehli geyim istehsalının genişlənməsi də savaşların aramsızlığı haqqında təsəvvür yaradır. Tayfa başçısının, əyanların qəbirlərində silahların sayca bir neçə qat artması ilə yanaşı, sıravi qəbirlərin də çoxunda silah tapılır. Arxeoloji qazıntılarda ayrıca «döyüş meydanı» adlanan yerlər üzə çıxarılır. Dəmir istehsalı Azərbaycanda da başlanğıcdan (m. ö. XII – XI əsrlər) cəmiyyətin silahlanmasına xidmət etmişdir.

Tunc dövrünün sonunda cəmiyyətdə basilevs və əyanlar ilə yanaşı bu sonuncuların dayağı olan döyüşçülər toplumu artıq yaranmış idi. Öz silahları və atları ilə birlikdə gömülmüş süvari kurqanları (Gəncə, Xanlar, Ballıqaya, Borsunlu, Sarıçoban, Xocalı, Mingəçevir), buna göstərici ola bilər.

Zəngin avadanlıqlı qəbirlərin bir çoxunda birgə dəfnetmə qaydası başqa bir ictimai təbəqəni də qeydə almağa imkan verir. Bir qayda olaraq qəbirin ortasında uzanmış və ya bükülü halda, dəbdəbə ilə qəbirin sahibi gömülmüş, ətrafında isə oturdulmuş halda onu «müşaiyət edən» adamlar (3-dən 10-14 nəfərə kimi) gömülmüşlər. Sahibinə «o dünyada qulluğu davam etdirmək üçün» öldürülüb basdırılanların çoxu, onun döyüşçüləri və qulları, bəzən isə qadınları olmuşdur. Gədəbəy daş qutularının birində, Gəncə, Xanlar, Qarabulaq, Dovşanlı və Borsunlu kurqanlarında, Talış dağlarındakı iri daş sərdabələrdə belə ölügömmə adəti qeydə alınmışdır. Bir sıra kurqanlarda qəbirin sahibi (dolixokran) ilə onu müşayiət edənlər (braxikran) arasında antropoloji ayrılıq gözə çarpır; görünür, sonuncular qula çevrilmiş hərbi əsirlərdir. Öz sahibini axirət dünyasına müşayiət edənlər Tunc dövrünün sonunla cəmiyyətin ən hüquqsuz üzvləri olmuşlar. Başqa sözlə, ağalıq-tabeçilik münasibətləri geniş yayılmışdı; Qadınlara əvvəlki münasibətin dəyişməsi, onların kəniz-kölə halına salınması da patriarxal ailənin həmin cəmiyyətdəki üstünlüyü ilə bağlıdır. Bu dövrdə qadın heykəlcikləri daha yoxdur. Əksinə, kişi təsvirləri və heykəlcikləri, sənət məhsulları içərisində kişi üçün hazırlanan silahlar, tunc kəmərlər, at əslihəsi, başqa atributlar onun say-sanbal üstünlüyünün göstəricisidir.

Qulların istehsala cəlb olunması cəmiyyətin özəyi olan istehsalçılara yeni zümrə əlavə etmişdi. Bununla bağlı iqtisadiyyat, əmək məhsuldarlığı yeni bir yüksəliş keçirməkdə idi. Bu yüksəliş əkinçilikdə qabarıq şəkildə gözə çarpırdı. Yaşayış yerlərində yalnız arpa və buğda qalıqları deyil, həm də saxsı üzərində dən, sünbül təsvirləri tapılır. Sarıtəpədə üzə çıxarılan bir anbarda taxıl saxlamaq üçün 15 küp vardı. Xanlar kurqanlarında tapılmış ağac vəllər son zamana qədər taxıl döyümündə işlədilən vəllərlə eyni şəkildədir. Gədəbəy və Talış qəbirlərindəki tunc çinlər, Quzey Azərbaycanda ***Marlıqtəpədəki*** «cüt»ün – bir cüt öküzün qoşulduğu kotanın tunc modeli m. ö. II minilliyin sonunda əkinçilik mədəniyyətinin yüksək səviyyədə olduğunu göstərir. Naxçıvan, Qarabağ və Şəmkir tərəflərdə qədim



suvarma arxlarının izləri açılıb. ***Maku*** tərəfdə ***Bistam*** qalası yaxınlığındakı suvarma kanalının uzunluğu 12 km-dir. Görünür, Muğar və Mil düzlərindəki «Govurarx»ların çəkilişi bu dövrdən başlanmışdır.

Suvarmanın genişləndirilməsi bağçılıq, bostançılıq və üzümçülüyün inkişafına təkan verdi. Sarıtəpədə açılmış məbəddəki bir qabda yanıb kömürlənmiş üzüm salxımı, Xanlar yaşayış yerində mədəni üzüm, gilas və şaftalı çəyirdəkləri, badam və nar tumları tapılmışdır. Badam tumlarına ***Bəylmsarov*** kurqanında da təsadüf edilib. Sarıtəpənin dar boğazlı iri küplərində 5 kq-a qədər quruyub-bərkimiş çaxır qalıqları tapılmışdır.

Yaylaq maldarlığının sürətli inkişafı ilə Azərbaycanın dağlıq bölgələrində alp çəmənliklərinin təsərrüfat məqsədilə istifadə edilməsi Tunc dövrünün sonunda başa çatdı. Bunu dağlarda tapılan at, dəvə, uzunqulaq, it, xüsusilə qoyun və keçi tunc heykəlciklərinin, zomoorf saxsı qabların çoxluğu sübut edir. Gəncə kurqanlarının yalnız birində 11 qoyun skeleti, 2 №-li Mingəçevir kurqanlarından birində 34 ev heyvanının (inək, at, qoyun, keçi və başqalarının) skeleti tapılıb. Davar sümükləri üstün yer tutur.

Atçılığın izləri olduqca çoxdur. Döyüşçü qəbirlərində at skeleti və ya əslihəsi hər yerdə tapılır. Xanlar kurqanında 3, Urmiya gölünün güneyində ***Həsənli*** qəbirində 4, Gəncə kurqanında 5, Borsunlu kurqanında 8, Mingəçevir kurqanlarının birində 14, Ağdamın Sarıçoban kurqanında 16 at skeleti var idi. bununla yanaşı dəvəçiliyə aid tapıntılar (Qarabulaq kurqanı, Xanlar, Mingəçevir, Xaçbulaq) köçmə maldarlığın genişləndiyini göstərir. Atçılığın misli görünməmiş inkişafı həm də atın minik vasitəsi kimi hərbi yürüşlərdə əvəzolunmaz rolu ilə bağlı idi. Mingəçevirdə tapılmış təkərli arabaların saxsı modelləri maldarların köç arabalarında yerləşdirdikləri evciklər haqqında təsəvvür yaradır. Sarıtəpə qabları üzərində dəndəli təkər təsvirləri var. ***Xaçbulaq*** tunc kəməri üzərində iki at qoşulmuş dəndəli təkərləri olan hərbi araba təsvir edilib.

Son Tunc – erkən Dəmir dövründə metallurgiya və metalişləmə sənəti yerli xammal hesabına yüksəliş yolunda idi. Mingəçevirin metaləritmə kürələri və misgər dəfinələri, Şəmkirdə, Gədəbəydə tapılan təbərzin, yastı balta və nizə ucluğunun daş qəlibləri, qəbirlərdən çıxan silahlar, qabqacaq, bəzək əşyaları metaləritmə, silahsazlıq, misgərlik və zərgərlik işinin gözəl nümunələridir. Metalişləmə emalatxanaları həm daxili tələbat, həm də alış-veriş üçün işləyirdi. ***Məşrif*** dəfinəsində 7, Kərkicahan dəfinəsində isə 6 təbərzin balta vardı. Qalay (həmçinin sürmə, mərgümüş, qurğuşun) qatışıqlı tunc məmulatın hazırlanmasında daş qəliblərdən və mum modellərdən geniş istifadə olunurdu. Bununla yanaşı metaltökmə, isti və soyuq döymə, bənd vurma, qaynaqlama, kəsmə, oyma, həkk etmə, minalama və başqa üsullar işlənirdi. Tunc əşyalar bədii baxımdan gözəl idi.

Tunc dəstəkli dəmir qılıncların hazırlanmasında, metaltökmə zamanı qılıncın çiyninə rəngli daşlar geydirilməsində çətin texnoloji üsullar işlənirdi.

II minilliyin sonunda soyuqüfürmə texnikası əsasında dəmir istehsalı başlandı. Dəmir nizələr, xəncər və qılınclar eyni tunc silahların qəlibində hazırlanırdı. Tunc və dəmir metallurgiyası arasında olan varislik sonuncunun yaranmasında böyük amil idi. dəmirləşmə bölgələri içərisində Qərbi Azərbaycan, Talış-Muğan və Urmiya gölü ətrafı seçilirdi.

Dulusçuluq işində böyük irəliləyiş vardı. Saxsı qab hazırlanmasında ayaqla hərəkət etdirilən dulus çarxının geniş tətbiqi istehsalın həcmini, buraxılan məhsulun keyfiyyətini və standartlaşmasını artırdı. Qabların səthi şüyrələnmiş, müxtəlif üsullarla həndəsi, nəbati naxışlar, məişət və dini görüşləri əks etdirən süjetlərlə bəzədilmişdir. Gəncəçay bölgəsində xüsusi tərkibli ağ maddə ilə inkrustasiya edilən qara və boz rəngli qab-qacaq hazırlanması üstün yer tuturdu. Qarabağ dulusçuları qaracilalı, həndəsi naxışlı qablar düzəldirdilər. Naxçıvan və Urmiya gölü bölgələrində insan, heyvan, quş təsvirləri olan birrəngli və çoxrəngli boyalı qablar geniş dəbdə idi. Bu bölgələrdə və Muğanda Qədim Şərq ən'ənəli «çaydan» biçimli qablar da çox istehsal olunurdu. Saxsı nehrələr də çox idi. Bədii saxsı məmulatlar: zoomorf, uzunboğaz çəkmə şəkilli və qoşaçatlı qablar bu çağ üçün səciyyəvidir.

Dulus kürələri qurmaq işində isə bitkinləşmiş qədim ən'ənələr minillər boyu dəyişilməz qalmışdı. Mingəçevirin ikiqatlı dulus kürələri özündən 3 min il qabaqkı kürələrlə (Əlikömək təpəsi) eyni şəkildədir. Quruluşuna və istifadə qaydasına görə onların çağdaş dulus kürələri ilə oxşarlığı var.

Bədii daşyonma sənəti də yüksəlişdə idi. Çəhrayı tufdan düzəldilən cam, nimçə, tayqulp qablar (Xocalı, Mingəçevir, Goranboy, Yuxarı Alabaşlı) əsl sənət inciləridir. Belə qabların qulpları çox halda burma buynuzlu qoç başı şəklində yonulub. Bəzilərinin üzərində oyma nöqtələr gümüş zərrələri ilə doldurulub. Bütöv daşdan zərif yonulmuş bu qablar oyma naxış və metalla inkrustasiya zərgər üsullarının gözəl örnəkləri sayılmaqdadır.

Dabbaqlıq, toxuculuq da geniş yer tuturdu. Mingəçevirdən boyanmış yun və kətan qalıqlarının tapılması sənətin daha bir növündən, boyaqçılıqdan xəbər verməkdədir.

Son Tunc – erkən Dəmir dövründə təsərrüfatın sürətli inkişafı ilə bağlı həm tayfalararası, həm də uluslararası alış-veriş daha da gücləndi. Maldar tayfalar daxili əlaqələrdə daha fəal idilər. Alış-veriş davar və qaramal, yun, əkinçilik, maldarlıq, sənətkarlıq məhsulları ilə edilirdi. Davarla yanaşı, müəyyən çəkisi olan kəsilmiş və ya əridilmiş metal parçası, silah, kauri və s. alqı-satqı vahidi idilər. Qərbi Azərbaycan mənşəli tunc kəmərin Şüvəlanda, Talış-Muğan bölgəsi qılınclarının Abşeronda, Güney Dağıstanda,



Ərdəbil yaxınlığında xəncərlərin isə həm Mingəçevir və Gədəbəydə, həm də Azərbaycanın güneyində (Marlıqtəpə, Həsənli) tapılması təsadüfi deyil. Həsənli qızıl camı üzərində çəkilmiş xəncərlərin iki tipi Kiçik Qafqaz və Talışdakı abidələr üçün daha səciyyəvidir. Qərbi Azərbaycan mənşəli tunc kəmər və qalxan döşlüyü ***Kiyev*** səmtinə, təbərzin balta və yabalar ***Tehran*** və ***Kaşana*** qədər getmişdir.

Azərbaycanın Ön Asiya dövlətləri ilə əlaqələri müntəzəm şəkil aldı. Mitanni istiqamətli əlaqələr özünü Azərbaycanda tapılan möhürlər (Marlıqtəpə, Talış, Şahtaxtı, Mingəçevir) və «Ön Asiya tipli» xəncərlərdə (Həsənli, Talış, Qızılvəng, Mahmudavar, Uzuntəpə) göstərir. II minilliyin ortalarında bu əşyalar ***Dəclə*** çayının yuxarı axını və Urmiya gölünün güneyindən keçən yollarla gətirilirdi. Assuriya ilə erkən alış-veriş silah nümunələri (Həsənlidən tapılan toppuz üzərində m. ö. XIV əsrdə yaşamış ***Aşşur-Uballitin*** adı var), həmçinin qızıl, pasta və mədən daşlarından hazırlanmış muncuqlarla (Xocalı muncuğu üzərində ***Adad-Nirarinin*** adı yazılıb) təmsil olunmudur. II-I minilliklərin ərəfəsində Assuriyadan gətirilən məmulat: silindrik möhürlər, ilk şirli qablar, şir və ya ilan başı çəkilmiş bilərziklər, şirli və şüşə muncuqlar bu alış-verişin genişləndiyini göstərir. Fil sümüyü, sədəf, dəniz ilbizi çanağından bəzəklər, balıqqulağı, qalay isə Azərbaycanın daha uzaq yerlərlə birbaşa və ya çoxpilləli qarşılıqlı əlaqələrdə olduğunu göstərir.

Beləliklə, qəbalə-tayfa quruluşunu dağılmağa doğru aparan amillər: mülki bərabərsizliyin meydana çıxması, cəmiyyətin xüsusi mülkiyyətə yönəlməsi, ictimai təbəqələşmə, sənətkarlığın ayrılması Tunc dövrünün uzaq çağlarında baş verməkdə idi. Azərbaycanda qəbilə icmasının dağılmasını yalnız Tunc dövrünün sonu – Dəmir dövrünün başlanğıcı, yəni m. ö. XIII-VIII əsrlərin dar çərçivəsində yerləşdirmək doğru deyil. Bu böyük dəyişmə çox uzun sürmüş, son Tunc – erkən Dəmir dövründə isə qəbilə icmasının dağılması, əsasən başa çatmışdır. Artıq II minilliyin sonu – I minilliyin başlanğıcında Assuriya və Urartu çivli yazılarında Azərbaycanın güneyindəki siyasi birləşmələrin torpaqları «ölkə», onu idarə edənlər isə «hökmdar», «çar» adlanırdı.

*İKİNCİ BÖLÜM*

# UZAQ KEÇMİŞDƏ AZƏRBAYCANDA ETNO-SİYASİ TOPLUM VƏ BİRLİKLƏR

## I. M. Ö. III-II MİNİLLƏR

**TARİXİ DURUM.** M.ö. III minillikdə əkinçilik-maldarlıq təsərrüfatının yeni sahələrinin yaranması məhsuldar qüvvələrin və ictimai münasibətlərin inkişafına təkan verdi. Köçmə maldarlığın ön plana keçməsi, onun genişlənməsi prosesində dağ-mədən zənginliklərinin üzə çıxarılması, bu zəmində sənətin müstəqil istehsal sahəsinə çevrilməsi əhalinin artmasına, qəbilə icması daxilində maddi sərvətin ayrı-ayrı əllərdə toplanmasına gətirib çıxardı. Qədim Şərq dövlətləri ilə iqtisadi və siyasi bağlılıq gücləndi. Mülki və ictimai təbəqələşmənin dərinləşməsi icma daxilində tayfa başçılarının, əyanların ayrılması, getdikcə onların cəmiyyətdə başlıca siyasi qüvvəyə çevrilməsi ilə sona yetdi. Varlanmaq hərisliyi əhalinin məşğuliyyətinə soyğunçu savaşları da əlavə etdi; savaşları apara bilmək, yağılara qarşı durmaq üçün ilkin tayfa birlikləri yarandı.

Bu dəyişmələr ilə bağlı olaraq m. ö. III minillikdən şumer-akkad çivli yazılarında indiki Güney Azərbaycanda yaşayan etnik toplumların adları çəkilməyə başlanır. Bu yazılardan aydın olur ki, m. ö. III-I minilliklərdə Azərbaycan əhalisi soykök-dil baxımından vahid deyildi.

M. ö. III minilliyin ikinci yarısında Azərbaycanda ilkin tayfa birləşmələri artıq mövcud idi. Belə birliklər həm Azərbaycanın güneyində, həm də quzeyində (Mil düzündə) qeydə alınmışdır.

**KUTİLƏR. İKİÇAYARASINDA KUTİ HÖKMRANLIĞI.** Qədim akkad yazıları ***Urmiya gölü*** bölgəsində, ***Zaqros*** dağının quzey və quzey-gündoğar ətəklərində hələ m. ö. XXIV-XXIII yüzillərdə kuti (və ya quti) tayfa birləşməsinin yaşamasından xəbər verirlər. Elam yazısı isə kutilərin «dağlıq Kutium ölkəsi»ni xatırladır. Urmiya gölünün güney sahilindəki Göytəpənin «D» təbəqəsi tapıntıları, yaşayış yerini dövrələyən möhtəşəm müdafiə hasarı ilə birlikdə kutilərin sayılır.

Kutilər köçəri maldarlıqla, qismən əkinçilik və sənətlə məşğul olan qüdrətli tayfa birliyi idi. onlar İkiçayarası əhalisi, xüsusilə şumerlər ilə iqtisadi-siyasi əlaqələr saxlayır, lakin qaramal, davar və hərbi əsirlər (qul etmək üçün) ələ keçirməyə can atan Akkad çarlarının vaxtaşırı təcavüzünə məruz qalırdılar. O vaxt kuti və lullube qulları İkiçayarasında yüksək qiymətləndirilirdi. Qaynaqlarda «açıq rəngli kutilər»in xüsusi qeyd olunması təsadüfi deyil. Bəzi yazılarda Kutium (və Lullubum) ölkəsinin hələ Akkad çarı ***Sarqon*** (m. ö. 2316-2261) tərəfindən tutulması bildirilir.



Urmiya gölü bölgəsi və qonşu torpaqlarda yaşayan tayfalara qarşı təcavüzü Sarqonun nəvəsi ***Naram-Suen*** (Naramsin, m. ö. 2236-2201) daha da gücləndirdi. Buna cavab olaraq quzey tərəfdə yaşayan tayfaların 70 başçısı, o sıradan Güney Azərbaycan tayfaları hərbi ittifaq yaratmalı oldular. Müttəfiqlərə qarşı üç dəfə göndərilən Akkad orduları məğlub edildilər.

Naram-Suenin hakimiyyətinin son illərində Akkad dövləti daxili böhranı keçirirdi. Aramsız savaşlar, suvarma şəbəkələrinin dağılması üzündən ölkəni aclıq bürümüş, çarın siyasəti əyanların və kahinlərin narazılığını artırmışdı. Beləliklə, akkadların aramsız soyğunçu yürüşlərinə son qoymaq üçün öz döyüşkənliyi, sayının çoxluğu ilə tarix səhnəsinə çıxan kutilərin əks istiqamətdə hücumuna əlverişli şərait yaranmışdı.

M. ö. XXIII yüzilin sonunda kutilər ***Enridavazir*** başda olmaqla İkiçayarasına hərbi yürüşə başalyıb, Akkad çarının qoşunlarını darmadağın etdilər. Naram-Suen öldürüldü. Kutilər Güney Mesopotamiyaya qədər gedib, şumerlərin müqəddəs şəhəri ***Nippuru*** ələ keçirdilər. Enridavazir bu qələbə ilə bağlı orada ucaltdığı yazılı abidədə özünü «Kutiumun və dünyanın dörd tərəfinin çarı» adlandırırdı (bu titulu ondan qabaq Naram-Suen qəbul etmişdi). Akkadlılar üzərindəki uğur İkiçayarasındakı kuti ağalığının başlanğıcını qoydu. Sonrakı Akkad çarı ***Şarkalişarri*** (2201-2177) kuti başçıları ***İmta, İnqeşuşşu, Sarlaqab*** və ***Yarlaqaşın*** ardıcıl hücumlarını dəf etməli olmuşdu. ***Elulumeş*** isə (2178 - 2173) İkiçayarasında kutilərin siyasi hökmranlığını qorumağı başa çatdırdı. Kutilərin zərbələrinə davam gətirə bilməyən Akkad dövləti çökdü.

Kuti sülaləsi 91 illik hakimiyyəti zamanı İkiçayarasında əvvəlki idarə sistemini dəyişmədi, çünki dövlət aparatında inzibati vəzifələr daşıya biləcək adamları yox idi. onların başçıları öz ölkəsində və ***Arraphada*** qalmağı üstün tutur, İkiçayarasını isə yerli Şumer və akkad quldar əyanlarından qoyulan canişinlər vasitəsilə idarə edirdilər. Şumer şəhər hakimləri «ensi» rütbəsi daşıyır, demək olar ki, müstəqil daxili siyasət yeridirdilər. Kutilərin içərisində gedən mülki təbəqələşmə onları və İkiçayarasını əyanlarını yaxınlaşdırmışdı. Kuti başçısı Enridavazirin Akkad çar titulunu qəbul etməsi, Şumerdə kuti çarı və ya sərkərdəsi ***Laerab*** şəhərinə yazılı abidələr qoyulması, bu yazılarda kuti allahları yerinə Akkad allahı ***İştarın*** yad edilməsi, kuti əyanlarının öz uşaqlarına akkad adları verməsi kimi dəlillər kutilərin İkiçayarasının elitası ilə qaynayıb qovuşduğunu göstərir. Bəzi məlumatlara görə kutilər Şumerdə məbəd tikintisi aparmış və ya onların

bərpasını davam etdirmişlər. Ümumiyyətlə, kutilərin Şumerlə münasibətləri daha dinc, barışıq ruhunda olmuşdur.

Kutilərin İkiçayarasında topladığı vergilər başlıca olaraq ərzaq, sənət məmulatları və qiymətli metallardan ibarət idi. Orada kuti hökmranlığına qarşı üsyanlar qeydə alınmamışdır. Bununla yanaşı kuti ağalığı çağında İkiçayarasının üçüncü bir basqın və ya kənar müdaxiləyə məruz qalmaması da bəllidir.

Lakin m. ö. XXII yüzilin sonunda kuti başçısı ***Trikan*** yalnız 40 gün hakimiyyətdə qala bildi. Uruk şəhər «ensi»si ***Utuhenqal*** kutilərə olan baxışı dəyişdirə bildi. Görünür, o vaxt kutilər öz hakimiyyətini ***Uruk*** və ***Ur*** şəhərlərində yaymışdılar. Utuhenqal öz kitabəsində kutiləri «dağların zəhərli ilanı, Allahlara qarşı zorakılıq edən, Şumer çarlıq idarəetməsini dağlara aparan, Şumeri düşmənçiliklə dolduran, arvadı ərindən ayıran, balanı ata-anadan məhrum edən, ölkədə ədavət və zorakılıq törədən» bir toplum adlandırmışdı. Bu cür düşmən siyasət, əslində kuti hakimiyyətini gözdən salıb ona savaş elan etməyi, onların yadelli işğalçı olmasını hamıya bildirməyi və ağalıqlarına son qoymağı nəzərdə tuturdu. M. ö. 2109-cu ildə Ur şəhəri müxalifəti ilə gücləndirilən Uruk müqavimətçiləri Utuhenqalın başçılığı altında Tirikanın kuti dəstələrini əzdilər. İkiçayarasında böyük hərbi qüvvələr saxlamayan, həm də oradakı kuti dəstələrinə başçılığı yeni şumer və akkadlıların üzərinə buraxan Tirikanın, onunla birlikdə bütün kutilərin hökmranlığına son qoyuldu.

Bundan sonra kutilər öz torpaqlarına qayıtmalı oldular. Bəzi məlumatlara görə onlar öz ölkəsində lullube tayfaları tərəfindən sıxışdırılmış, torpaqlarının xeyli hissəsini itirmiş və quzey-gündoğara – Transqafqaz səmtinə çəkilməli olmuşdular. Lakin m. ö. XXI yüzilin ikinci yarısında ***Laqaş*** canişini ***Urdunanna*** Kutilər ölkəsinin və Su xalqının «ensi»si rütbəsini də daşıyırdı. Əslində kutilər və onların ölkəsi çivli yazılarda arabir olsa da, bütün m. ö. II minillik boyu xatırladılmaqda davam etmişdir. Bu zaman onlar İkiçayarası üçün artıq gerçək təhlükə deyildilər.

Kutilərin ictimai quruluşunu Şumerin çar siyahısı üzrə təsəvvür etmək olur. Siyahının tərtibçisi əvvəlcə «kuti tayfasının çarı yoxdur» yazır. Ancaq bunun ardınca İkiçayarasında ağalıq edən 21 kuti çarının adları çəkilir. Siyahıda onların başlıca olaraq 3 ildən 7 ilə qədər hakimiyyət sürməsi bildirilir. İlk altı çar (birincidən başqa) 6 il, sonuncu üç çar isə 7 il hakimiyyətdə olub. Bu ən'ənəni təkcə 8-ci çar ***Yarlaqab*** pozaraq 15 il hökmranlıq etmişdir. Görünür, o, İkiçayarası qayalarına uyğun olaraq çar hakimiyyətini ömürlük əlində saxlamaq istəmişdi. Kutilər üçün yad olan bu davranış onlar tərəfindən mənfi qarşılandığı üçün, ən'ənəvi altı illik çarlıq müddəti bundan sonra yarıbayarı azaldılmışdı. Yarlaqabdan sonrakı səkkiz çarın



hər birinin hakimiyyəti 3 ildən çox olmayıb. Beləliklə, qaynaqda «kuti tayfasının çarı yoxdur» yazılması, həmçinin çarlıq üçün şəraitə uyğun olaraq 6, 3, 2 və 7 il vaxt qoyulması göstərir ki, kuti «çar»ları əslində icma şurası tərəfindən qısa müddətə seçilən tayfa birliyi başçıları idilər. Kutilər dövlət qurmağın astanasına gəlsələr də, İkiçayarasında idarəetmə işinə yaxından qoşulub alışmamış, böyük dövlətçilik təcrübəsi qazana bilməmişdilər.

**LULLUBE.** Güney Azərbaycan və Gürcüstan tərəfdə kutilərlə qonşuluqda yaşayan və qədim Şərq qaynaqlarında adları çox vaxt onlarla yanaşı çəkilən lullu tayfaları* haqqında ilkin məlumatlar m. ö. XXII yüzilə aiddir. Bu tayfalar. ***Diyala*** çayının yuxarı axarında Urmiya gölünə (və daha quzeyə) doğru torpaqlarda, kutilərdən güney və gündoğar səmtlərdə yaşayırdılar.

Akkad yazılarının birində Naram-Suenin ***Sippar*** şəhərində qoyulmuş «Qələbə sütunu»nda oranın çarı «Lullubum dağlarını» öz ətrafında toplayan ***Sidur*** və ***Satuni*** üzərində çaldığı qələbəyə görə öyünür. ***Boğazköy*** yazısında ***İmmaşqun*** Lullu ölkəsinin «çarlar çarı» kimi göstərilib. Yazıdan aydın olur ki, Lullu ölkəsini çoxlu «çar» idarə edirmiş. Əski ***Babil*** sənədlərində də Lullu çarlarının çoxluqda olması bildirilir. Aydındır ki, «çoxlu çarlar» əslində tayfa başçıları ola bilərdilər.

***Zohab*** şəhəri yaxınlığında, ***Səri pul*** qayasındakı yazılı relyefdə lullube çarı ***Anubanini*** (m. ö. XII yüzil) və ona əsirlər gətirən (doqquz əsirin səkkizi şumer-akkad başlığında verilib) gətirən İstar ilahəsi təsvir edilmiş, yazı isə akkad dilindədir. Yazıda deyilir: «Anubanini, qüdrətli çar, Lullubum çarı öz təsvirini və İştar ilahəsinin təsvirini Vatir dağında çəkdirdi». Bu yazı üzrə müəyyən edilib ki, Anubaniniyə tabe olan torpaqlar Urmiya gölündən Diyala çayının orta axarınadək (yazı oradadır) uzanırmış. Yazıda «Yuxarı dəniz və Aşağı dəniz»in qeyd olunması göstərir ki, Anubanini İran körfəzinə qədər əraziyə iddia edirmiş. Bəlkə də əvvəllər kutilərin əlində olan torpaqların bir hissəsi lullu «çarının» əlinə keçibmiş. Yazıda şumer-akkad allahlarının (***Anu, Anatum, Bel, Belit, Adad, İştar, Sin, Şamaş***)** adları sadalanıb; ən'ənəyə görə onlar yazıya qəsd edənləri cəzalandırmalı idilər.

* Akkad yazılarında həmin tayfalar lullu, lullubi (lullubə) adlandırılıb. Burada – bi/be cəm şəkilçisidir. Arrapha (indiki Kərkük) hürriləri qul etdikləri dağlılara lullu (və ya nullu) demişlər. Het yazısında o tayfaların yaşadığı ölkə «lullu» kimi göstərilir. Urartu dilində lulu «yadelli», «yağı» mənasını verirdi. Görünür, «lullu» adı bu tayfalara başqa xalqlar tərəfindən verilmişdir.

** Anu – Göy allahı, Bel – Yer allahı, Adad – Tufan allahı, İştar – Məhsuldarlıq və məhəbbət ilahəsi, Sin – Ay allahı, Şamaş – Günəş allahı sayılırdı. Görünür, lullu tayfalarının həmin allahlara uyğun öz allahları olmuşdur.

Lullu tayfaları ilə bağlı qaynaqlardan aydın olur ki, m. ö. III minilin sonunda onlar Şumer və Akkadın nüfuz dairəsində olublar. M. ö. XXI yüzildə III Ur sülaləsinin çarı ***Şulqi*** (2093–2046) lullubuma və qonşuluqdakı torpaqlara dəfələrlə talançı basqınlar etmişdi. Onun yürüşləri zamanı həm lullube, həm də kutilərin əsir edilməsi haqqında məlumatlar var. Öz növbəsində lullu tayfaları İkiçayarasına qarşı yürüş edən birləşmələr tərkibində, o sarıdan kutilərlə birgə dəfələrlə çıxış etmişdilər.

İkiçayarası çarlarının Lullube haqqında verdikləri məlumatlar təxminən min beş yüz illik dövrü əhatə edir. M. ö. II minildə lullu tayfaları və onların ölkəsi haqqında aşşur, het, hurri, akkaddilli, m. ö. I minilin başlanğıcında isə Urartu mətnlərində ötəri də olsa, məlumatlar qalıb. Lullu tayfaları Ön Asiyada qoçaqlığı və döyüşkənliyi ilə seçilməklə, bəzi qonşuları arasında vahimə törətmişlər. Arrapha hurriləri və ururtulular arasında lullu etnoniminin mənfi, alçaldıcı («barbar», «yadelli», «yağı» və s.) çalarlarda işlənməsi təsadüf sayıla bilməz. Ola bilsin ki, m. ö. II minilin başlanğıcında lullu sülaləsi hətta Assurun taxt-tacını ələ keçirmişdi. M. ö. II minilin ortalarında ***Mitanni*** hurriləri ilə lullube arasında baş verən savaşlar zamanı bu və ya o biri tərəfin hərbi əsirlər ələ keçirməsindən danışılır. Lullube qulları, xüsusilə qul edilmiş qadınlar İkiçayarasının quzeyindəki Hurri şəhərlərində (Arrapha, Nuz) yüksək qiymətləndirilirdi. Ümumiyyətlə, lullube ilə hurrilər arasındakı münasibətlərdə düşmənçiliyə meyl daha güclü olmuşdur.

Lakin lullu tayfaları İkiçayarası ilə iqtisadi-mədəni əlaqələrdə də olublar. Oranın quzeyindəki Qasur şəhəri ilə lullube alış-veriş aparır, qaramalı taxıla dəyişirdilər. Görünür, lullu tayfalarının təsərrüfatında maldarlıq üstün yer tuturmuş. Onların bir qismi hurri və het dövlət idarələrində qulluq edir, muzdlu döyüşçü sifətilə hərbi xidmətdə olurdular.

Sonrakı tarixdə lullu tayfalarının adı kuti və turukkilərlə yanaşı dönə-dönə çəkilməkdədir. M. ö. XIV-XII yüzillərdə ***Assuriya*** və ***Yeni Babil*** çarları Lullume* ölkəsi və ya lullu tayfaları üzərində qələbə çalmaları ilə öyünməkdə davam edirdilər. M. ö. II minilin sonu – I minilin başlanğıcında Lullume torpaqları Zamua ölkəsi adı altında bəlli idi və Urmiya gölü ilə Diyala çayının yuxarı axarı arasındakı torpaqları tuturdu. Həmin ölkənin İç Zamua adlanan quzey tərəfi bir qədər sonra Manna dövləti tərkibinə daxil olsa da, «Lullume» adını hələ itirməmişdi.

---

* Lullubium və ya Lullu ölkə kimi m. ö. II minilin sonunda Lullume adlanırdı. Astara rayonunun dağlıq Hamoşam kəndi yanında «Lulum yeri» adlı toponim qalmaqdadır. Görünür, II minilin sonu – I minilin başlanğıcında lullu tayfalarının bir qismi Talış dağlarında yaşayırmış.



**SU TAYFALARI.** M. ö. III minilin sonunda çivli yazılarda Urmiya gölü bölgəsindəki «Su adamlarının ölkəsi»ndən də bəhs edilir. Laqaş canişini Urdunanna Su xalqının «ensi»si idi. Onun bu titulu daşıması göstərir ki, Su ölkəsi m. ö. XXI yüzilin ikinci yarısında İkiçayarasındakı III Ur sülaləsinə tabe olubmuş. Burası da bəllidir ki, Su tayfaları elamlılarla birlikdə həmin sülalənin idarə etdiyi Şumer-Akkad çarlığının m. ö. 2003-cü ildə darmadağın edilməsində fəal iştirak etmişlər. Su və Quzey Mesopotamiyada yaşayan subir (subar) etnonimlərini bir çox halda eyniləşdirirlər. Lakin III Ur sülaləsi sənədlərində və şumer ədəbi mətnlərinin əski babil surətlərində Su, Zaqroş dağlarının gündoğar və quzey-gündoğar yerlərində yaşayan tayfaların (o sıradan lulluların) ümumi adıdır. M. ö. II minilin ikinci yarısına aid assuri yazıları su (subar) tayfalarını kutilər və lullularla bir sırada sadalayır. «Su (a) ölkəsindəki lulu» ifadəsinə əsaslanıb söyləmək olar ki, həmin ölkədə lullu tayfaları da məskun imişlər. M. ö. I minilliyin başlanğıcına aid mətnlərə görə su tayfaları Urmiya gölünün güney-günbatan yörələrində yaşayırdılar. Onların Subi vilayəti, lullube ölkəsi Zamuada yerləşirdi. Assuriya çarı ***II Sarqonun*** (m. ö. 722-705) bir yazısında bildirilir ki, «Subi ölkəsi... əhalisini Urartu adamları mannalı adlandırır».

**TURUKKİLƏR.** Güney Azərbaycanın ən qədim əhalisinə turukki adlı etnik birlik də daxil idi. Son assur qaynaqlarında turukki tayfa adı hələ akkadlı Sarqonun (m. ö. XXIV yüzil) dövlətinin hüdudları təsvir edilərkən çəkilmişdir. Naram Suenə qarşı quzey tərəfdə 17 hökmdarın yaratdığı koalisiyada isə tourki ölkəsinin ***III uşumel*** adlı hakiminin adı var. Bu qaynaqlardan aydın olur ki, turukki tayfa birliyi tarix səhnəsinə kutilər və lullularla eyni vaxtda çıxıblar.

M. ö. II minilin başlanğıcından etibarən turukkilər Mesopotamiyanın quzey-gündoğar yörəsində baş verən siyasi hadisələrdə fəal iştirak edirdilər. M. ö. XVIII-XIII yüzillərin assur yazılarında bu tayfa birliyinin adı dəfələrlə çəkilib. Bir assur mətnində onlar «Turukki ölkəsinin adamları» kimi təqdim olunur və orada kutilərin də yaşaması bildirilir. Lullube kimi turukkilər də Zaqros dağlarından Raniyə düzənliyinə* keçməklə hurrilərlə əlaqə saxlayır, İkiçayarası hüdudlarına daxil olurdular. M. ö. III minilin birinci yarısında turukkilərin bəzən kutilər və ya lullularla bir sırada (həm də müttəfiq kimi) xatırladılması bu tayfanın bir-biri ilə qonşuluqda yaşadığını göstərir. Turukkilərə aid Zazi və Lidaya adlarının hurri kökündən olması ehtimalı söylənib. Lakin gələcək Manna dövlətinin güney-gündoğar

---

* Süleymaniyyədən quzey-günbatar tərəf, Aşağı Zab çayının yuxarı axarında, çayın sağ sahilində yerləşir (indiki Dəşt-i Batvaln).

hüdudları boyunca yerləşən ***Qızılbunda*** vilayətinin bəzi başçıları da belə (daha doğrusu, Zizi və Zalay) adlar daşıyıblar. Buna görə də turukki tayfalarının Urmiya gölündən güneydə və güney-gündoğarda, indiki Zəncana qədərki torpaqlarda yaşadığını yəqinliklə söyləmək olar.

M. ö. XVIII yüzildən başlayaraq turukkilər İkiçayarasının quzeyindəki Assuriya dövlətinin hüdudlarında təhlükə yaradırdılar. Assur çarı ***I Şamşi-Adad*** (1813–1783) onlara qarşı yürüş keçirilsə də, assurilərin nəzarəti altında olan Şuşarra (indiki Şemşara) vilayətinə turukkilərin sonrakı axınlarının qarşısını ala bilmədi. Assur çarı ***I İşmə-Daqan*** (1797–1757) təhlükəni sovuşdurmaq üçün «nikah diplomatiyası»na əl atıb, turukki başçılarından olan ***Zazinin*** qızını öz oğluna aldı. Lakin turukkilərin başqa bir başçısı ***Lidaya*** assurilərə qarşı dəfələrlə çıxış edərək, Aşağı Zab çayının yuxarı axarındakı Nurruqum və Ahazim torpaqlarını ələ keçirmiş, Şuşarranı qopara bilmişdi.

Mari şəhərində (xarabalığı Suriya-İraq hüdudunda, Fərat çayının sol sahilindədir) qazıntılar zamanı tapılan akkaddilli gil yazıların 14-ü turukkilərin Assur çarlarını tez-tez narahat etməsini sənədləşdirir. Buna görə I İşme-Daqan ordusu ilə Ahazim vilayətinə yürüş edərək onu turukkilərdən təmizlədikdə, atası I Şamşi-Adadin sevinc keçirməsi təbii idi (hətta gil kitabədə «Sevin» sözü yazılıb). Lakin o biri kitabəyə görə az sonra turukkilər qonşuluqdakı Kakkulatimi tutmuş, çoxlu öküz və başqa qənimətlər ələ keçirmişdilər. Bu yazıda I İşme-Daqan turukkilərin saysız olmasından, onların getdikcə çoxalmasından şikayətlənir. Şuşarra vilayətinin alınması bu çarı çox məyus etmişdi. O, yazırdı: «Mənə haqqında bəhs etdiyin və əldə saxlaya bilməyəcəyimizi bildirdiyin Şuşarra diyarını İşar-Lim sənə anlatsın. Başçıları Lidaya ilə birlikdə turukkilər savaşa girdilər və iki yaşayış məntəqəsini məhv etdilər. Mən qoşunla köməyə gəldikdə, onlar dağlara çəkildilər. Biz anladıq ki, bu diyarı geri almaq üçün [vaxt] əlverişli deyildir».

Mari şəhərindəki çar arxivi mətnlərində 20-dən çox yerdə adı çəkilən turukkilər qorxmaz, döyüşkən xalq kimi təqdim olunurlar. M. ö. XVIII yüzildə onların ələ keçirib hökmranlıq etdiyi torpaqların sırasına yuxarıda adları çəkilənlərdən başqa Qabra, Katanum, Tiqunanim, Amursakim, Zal, Hirbazanim, Nithim diyarları da var idi.

Şuşarra və ətrafındakı torpaqlara kutilər və lulluların öz iddiaları vardı. Doğrudur, kuti başçısı ***Enduşşe*** I Şamşi-Adadla ittifaqda olduğu üçün «atamın ölkəsinə daxil olan Şuşarra ətrafına yaxınlaşmaram» deyib, bu vilayətə açıq müdaxilə etməkdən çəkinmişdi. Lakin yeri gəldikdə kutilər turukkilərin tərəfində dayanırdılar. Adı çəkilən Enduşşe assurilərin əsir etdikləri turukki başçılarının ailələri ilə birlikdə azad olunmasını tələb etdikdə, I İşmə-Daqan o tələbi yerinə yetirməli olmuşdu. Şuşarra səhnə-



sindən lullube təhlükəsi də sovuşmurdu. Bir məktubda Şuşarra hakimi İşmə-Daqana məsləhət görmüşdü ki, indi artıq rəqibə çevrilmiş lullube hökmdarları ona sülh təklif etsələr və bu barədə allahlara sədaqət andı içsələr, onların təklifini qəbul etsin. Görünür, I Şəmsi-Adaddan sonra Assuriya dövlətinin geriləməsi assur çarlarını məcbur edir ki, turukki, kuti və lullu tayfaları ilə barışıq axtarmağa çalışsınlar.

Bu tayfaların arasıkəsilməyən təzyiqi Assuriya dövlətinin çökməsində az rol oynamadı. Bundan istifadə edən Babilistan hökmdarı ***Hammurapi*** (m. ö. 1792–1750) əvvəlcə Subartu və Kutium ölkələri ordularını, sonra isə ayrılıqda kutilərin qoşunlarını məğlub etdi. Turukkilərin münaqişəyə qoşulması və m.ö. 1755-ci ildə Subartu-Kakmum-Turukkum hərbi ittifaqının yaranması da hadisələrin Hammurapinin xeyrinə gedişini dəyişdirə bilmədi.

M. ö. XIV yüzildən başlayaraq Assuriyanın hərbi qüdrətinin yenidən artması ilə Ön Asiyada siyasi vəziyyət dəyişməyə başladı. Həsənlidən tapılan toppuz üzərindəki Aşşur-Uballitin (1365–1330) yazısı göstərir ki, Urmiya gölünün güney yörəsi bu çarın təcavüzündən kənarda qalmayıb. Bir kitabədə ***I Adad-Nirari*** (1307–1275) özünü «kassi, kuti, lullube və şubarların qüdrətli tayfalarını qırıb-çatan» adlandırır. Sonra yazır ki, atası ***Arikdenil*** «Turukki və Niqimhi ölkələrini hüdudları boyu», həmçinin «kutilərin geniş torpaqlarındakı dağları və təpələrin bütün hakimlərini» tabe etmişdi. Bu yazıdan görünür ki, I Adad-Nirari kuti, lullube və turukkiləri Assuriya ağalığını tanımağa məcbur edə bilmişdi. Kutilər sonra yenə üsyan qaldırmış, bu üsyanı ***I Salmanasar*** (1274–1245) yatırmalı olmuşdu. Kitabədə qeyd olunur ki, «göydə ulduz kimi saysız olan, vurub çapmağa adət etmiş kutilər mənə qarşı üsyan qaldırdılar, mənə yağı kəsildilər... Uruatrinin hüdudlarından Kutmuh ölkəsinə kimi... mən onların çoxlu qoşununun qanını tökdüm, döyüşçülərinin meyiti ilə geniş çölü doldurdum». Başqa bir yazıda o, Lullube ölkəsini fəth etməsini də xatırladır, lakin turukkiləri yada salmır.

Görünür, turukkilər bir müstəqil siyasi qüvvə kimi artıq tarix səhnəsindən çıxmaqda idilər. Çünki XIII-XI yüzillərdə Assur çarları da turukkilərin adlarını çəkmirlər. Yalnız kutilərin ordusunu əzib hökmdarlarını qırmaq (***I Tukulti-Ninurta***), onların dağlıq ölkəsini tabe etmək (***Aşşurreşiş***), lullube ölkəsini də tutaraq oradan yerli allahların 25 heykəlini aparmaq ilə (***I Tiqlatpalasar***) öyünməkdə davam edirdilər.

Kuti, lullu, su və turukki tayfaları Qədim Şərqin tarix səhnəsində görkəmli rol oynamışlar. Azərbaycanın qədim tarixində, xalqın yaranışında onların iştirakı şübhəsizdir; hər şeydən əvvəl Azərbaycan torpaqlarında m. ö. I minilin başlanğıcında ilkin dövləti yaradan mannalılar, adları çəkilən tayfaların varisi və törəməsi sayılırlar.

Kuti-lullube dillərinin sözlüyü bəlli deyil. Tək-tək sözlər belə qalmayıb. Buna baxmayaraq, bəzi alimlər o tayfaların dillərini «elam», «zaqro-elam», «zaqros», hətta «qafqaz-hurri» dil qruplarına aid etməyə, bu sonuncu «dilləri» isə Qafqaz dillərinə yaxınlaşdırıb «qohum etməyə» çalışırlar. Lakin artıq sübut olunub ki, kuti-lullube dillərinin elam dilləri ilə qohumluğu yoxdur. Əslində kuti və lullube dil materialı yalnız şəxs adlarından ibarətdir. Onların bir yarısı akkadlaşıb, o biri yarısı elamlıların və başqa qonşu xalqların (şumer, hurri, kassi və b.) onomastikasından tamamilə ayrıdır. «Su» etnonimi isə həm kuti və lullular içərisində, həm də sonrakı Manna çağında işlənmişdir. Bütün bu tayfaların dillərinin Qədim Şərq dilləri içərisində xüsusi yeri olmuşdur.

Assur və Urartu çivli yazılarında təsadüf olunan Manna toponimləri adları çəkilən tayfaların dilləri haqqında təsəvvür əldə etmək imkanı verir. Doğrudur, Manna onomastikası çox vaxt ən'ənəvi irançılıq konsepsiyası mövqeyindən izah edilmiş, orada hələ m.ö. IX-VII yüzillərdə guya İran soyköklü ünsürlərin üstün olması bildirilmişdir. Azərbaycan xalqının söykökündə dayanan erkən turkdilli toplumların tarixi rolunu inkar etməkdə olan həmin konsepsiya bu səpkidə axtarışlar aparmağa uzun zaman əngəl törətmişdir. Lakin son illərdə Mannadakı yer adları üzrə aparılan araşdırmalar oradakı əhalinin dili haqqında yeni dəlil-sübutlar üzə çıxarmışdır.

Urartu çarı ***I Argiştinin*** Mannaya yürüşü haqqındakı yazıda Urmiya gölündən güneydə dağlıq «Alateye ölkəsi» xatırladılır. Alateye sözünün altay-türk coğrafi nomenklaturasında işlənməkdə olan sözlərlə (Altay, Alatau, Alatava, Aladağ və s.) bağlılığı şübhə doğurmur. Yeni araşdırmalarda Mannadakı ***Uişdiş*** vilayəti adını vişdiş, beşdiş, yəni «beşdiş dağ» (müqayisə et: Beşbarmaq dağı)* kimi mənalandırılır. Assur çarı ***II Sarqon*** həmin vilayətdəki ***Uşkaya*** qalası özülünün qaya üzərində qoyulmasını xəbər verir. Təbrizin günbatar tərəfindəki ***Uşkaya*** (indiki Üsküyə) adı «Üç qaya» və ya hazırkı adına uyğun olaraq («üs» qədim türk dilində «yuxarı» mənası verir) «Yuxarı qaya» kimi oxunub izah edilməkdədir. ***Qızılbunda*** vilayəti adının ***qırmızı və bunda**** («təpə», «dağ») sözlərindən düzəldilərək «Qırmızı dağ» mənasında işlədilməsi ağlabatandır. Eləcə də ***Qantau*** sözünü «Qandağ»,*** ***iştatti*** sözünü isə «İsti yer» kimi anlamaq gərəkdir. Bunlardan başqa ***Surikaş, Sirdakka*** və ***İştaraura*** yer adlarında müvafiq olaraq kaş (qaş), sırt (yastı dağ), işta (isti) sözcüklərinin işlənilməsi nəzərə alınmalıdır.

---

* Həmdullah Qəzvini (XIV yüzil) Qızılüzən çayının yuxarı axarında Beşbarmaq dağının olduğunu yazmışdır.

** Bunda (buda) sözcüyünü Culfa bölgəsindəki Sultanbud dağı və Beyləqan ərazisindəki Sultanbud təpəsi adlarındakı «bud» ilə müqayisə etmək olar.

*** Balakən və Şərur bölgələrində dağ silsilələri belə adlanır.



Açımı türk dillərində olan yuxarıdakı adlar kimlərdən qalıb? Bir sıra şəxs adları Mannanın Qızılbunda vilayətində turukkilərin yaşamasını sənədləşdirir. Turukki tayfa adı isə türk etnoniminin ilkin yazılış şəkli sayıla bilər. Bəlli olduğu kimi, «türk» sözü erkən türk qaynaqlarında türkü, türük şəklində yazılırdı. Deməli, turukki əslində türk/türkü sözünün assur qaynaqlarında işlədilən yazılışıdır. Görünür, Manna ərazisində türkcə anlaşılan yer adları turukkilərin, həmçinin lullu tayfalarının dilindən qalmışdır. M. ö. I minilin başlanğıcında lullube torpağı olan Zamuadakı adların çoxunun iran kökündən olmadığını, hətta iranpərəst tarixçilər də etiraf edirlər. Bu baxımdan Zamuanın ***Arzizu*** əyaləti hakiminin m. ö. IX yüzilin başlanğıcında ***Ata*** adlanması diqqəti özünə çəkir. Əski türk dillərində «ata», «baba», «əcdad», «müqəddəs» anlamına gələn bu söz türk xalqları içərisində şəxs adı kimi yayılmışdı. Oğuz xanın nəticəsinin adı Ata olub, ***Panilli Priskos*** Avropaya gələn hunlarda ***Atakam*** kişi adı olduğunu yazmış, ***Atay*** şəxs adı orta çağda uyğurlarda qeydə alınıb. Maraqlıdır ki, Atadan 160 il sonra Arzizi əyalətində ***Dada*** adlı birisi hakim olmuşdur (çivli yazılarda «ə» səsini bildirən işarə yoxdur). Dada/Dədə sözünün «ata», «baba» (müqayisə üçün: Dədə Qorqud) yerinə işləndiyini sübut etməyə ehtiyac yoxdur. bu səpkidə gələcək araşdırmalar Güney Azərbaycanda 3 min il bundan qabaq turukki və lullu tayfalarının tarixi kimliyinin öyrənilməsinə imkan verəcəkdir.

**HURRİLƏR.** Manna dövləti çağında Urmiya gölünün günbatarında (başlıca olaraq Gilzan vilayətində) hurri dilində danışan boylar da yaşayırdı. Ön Asiyanın qədim xalqlarından olan hurrilər artıq m. ö. II minilin başlanğıcında Suriya və Quzey Mesopotamiyadan Urmiya gölünədək yayılmışdılar. İkiçayarasının quzey-günbatarında m. ö. XVI-XIII yüzillərdə hurrilərin yaratdığı Mitanni dövləti var idi. Bu yüzillər həmin dövlətin çiçəklənmə çağı sayılır. Bəzi biliklərə görə o vaxt Mitanni çarları öz ağalığını kutilər və lullular üzərinə də yaya bilmişdilər. Mitanni hurrilərinin istehsal etdikləri sənət məmulatı (silindrşəkilli möhürlər, Ön Asiya tipli xəncərlər) mübadilə yolu ilə Azərbaycanın quzeyinə qədər yayılmışdı. Hurrilər Mannanın başqa vilayətlərində də yaşayırdı. Güman edilir ki, ***Marlıqtəpə*** padşah nekropolundakı bəzi qəbirlərdə hurri başçıları dəfn olunublar. ***Herodot*** «Tarix»indəki matiyenləri hurrilərlə eyniləşdirirlər. Lakin özbəklər və qaraqalpaqlar arasında moyten, mitan, mütten türk soy adları matiyenləri hurrilərlə eyniləşdirməyə mane olur. Bu müddət Urmiya gölü Mantiana adı ilə tanınırmış.

Hurri dilinin Ön Asiyada geniş yayılması şəxs və yer adları əsasında müəyyən edilib. Manna onomastikasında da hurri mənşəli adlara təsadüf olunur. Hurri dilinin Urartu dili ilə qohumluğu sübut edilmişdir.

## 2 YENİ MİNİLLİK, YENİ TOPLUMLAR

**KİMMERLƏR, İSKİT-SAKALAR, MASSAGETLƏR.** M. ö. VIII yüzildə kimmerlər Qara dənizin quzeyində, Quzey Qafkazın günbatar yaxasında, həmçinin ***Krım*** və ***Kerçdə*** yaşayırdılar. VIII yüzilin sonunda onlar Asiyadan Qara dənizin quzeyinə doğru axışan ***iskitlər*** (***skiflər***) tərəfindən sıxışdırılıb, öz torpaqlarından qovuldular. Kimmerlərin bir hissəsi Qara dənizin gündoğarı (Meot-Kolx yolu) ilə Anadoluya, o biri hissəsi, görünür, Dəryal keçidi ilə Transqafqaza və Ön Asiyaya yayıldılar. M. ö. 715-ci ildə kimmerlər Urartuya yürüş edib I Rusanın qoşunlarını əzmiş, Gündoğar Anadolunu tutaraq Assuriya hüdudlarını təhlükə altına almışdılar. Kimmerlərlə bağlı bir sıra yer adları (Zaqatala yaxınlığında ***Qımır*** və ***Qımırlı***, Qazax-Borçalı bölgəsində ***Kəmərli, Kəmərqaya, Qəmərli***) göstərir ki, onlar Azərbaycanın günbatarında uzun müddət yaşayıblar. Güney Azərbaycanda isə ***Komar, Kəmər, Kəmərdaran*** kimi yer adları kummerlərin bir vaxt Mannada yaşaması haqqında söylənən fikirləri qüvvətləndirir.

Kimmerlərin ardınca iskitlərin axınları Azərbaycan və Ön Asiyada etno-siyasi vəziyyətə təsir göstərdi. Onlar Transqafqaza Herodotun yazmasına görə Dərbənd keçidindən daxil olublar. Çivli yazılarda işquz (aşquz) adlanan iskitlər m. ö. VII yüzilin 70-ci illərində Assuriyaya qarşı mübarizədə mannalıların müttəfiqi kimi çıxış edirdilər. Assur çarı ***Asarhaddonun*** (680-669) «mannalılar ölkəsinin adamlarını, ram edilməz kutiləri pərən-pərən saldım, onları xilas edə bilməyən müttəfiqlərini – iskit ***İşpakayın*** qoşunlarını silahımla əzişdirdim» – deyə öyünməsi çox çəkmədi. Bir az sonra (m. ö. 674) həmin çar Assuriyanın başı üzərindən təhlükəni sovuşdurmaq üçün «İşquz çarı» ***Partatuanı*** öz tərəfinə çəkmək üçün qızını ona verməklə, diplomatik nikah bağlamaq arzusunu bildirdi. İskitlərin hərəkətini narahatlıqla izləyən asarhaddonun belə bir yazısı da bəllidir: «...Manna vilayətində yaşayan və Manna ölkəsinin hüdudlarına gəlmiş işquz ordusu, görəsən bir qəsd hazırlayırmı, bir şey fikirləşirmi, ***Hubuşkiya*** şəhərinin keçidini... aşıb gələcəkmi, Assuriya sınırlarından böyük qənimət, əsirlər aparacaqmı?»

Bu yazılar «İşquz çarı»nın idarə etdiyi torpaqların Manna ərazisində və onun qonşuluğunda yerləşdiyini göstərir. Lakin o vaxt Mannanın qüdrətli bir dövlətə çevrilməsi, öz torpaqlarını hətta Assuriyaya doğru genişləndirməsi «İşquz ölkəsi»nin Manna ərazisində olmasını şübhə altına alır. Həm də Tovratda («İyeremiyanın kitabı») m. ö. 593-cü ilin hadisələrindən bəhs edilərkən «Aşkenaz (İşquz) ölkəsi» Urartu və Manna ilə bir sırada xatırladılır. Deməli, həmin ölkə Mannadan kənarda olmalı idi. Bu biliklərə arxalanan tarixçilər İşquz ölkəsi və ya İskit çarlığının gah gündoğar Transqafqazda, gah da Midiya ərazisində yerləşdiyini bildirirlər. İkinci güman daha ağlabatandır. Midiyanın müstəqillik qazanmasına iskit toplumunun kömək göstərməsi (m.ö. 673-cü il), sonra isə ***Xşatritanın*** qoşunlarını əzərək Midiya üzərində 28 il ağalıq etməsi (652–624), hətta burada ***Kiaksar*** tərəfindən darmadağın edildikdən sonra onların Midiyanı Kiçik Asiyadakı Lidiyaya qarşı savaşa təhrik etməsi (m.ö. 585/84) bəllidir. Bütün bunlar İskit çarlığının bilavasitə Midiya torpaqlarında yerləşməsi ehtimalına üstünlük verməkdədir.



Bəzən İskit çarlığını antik müəlliflərin gündoğar Transqafqazda ***Sakasena*** adlandırdıqları Alban vilayəti ilə də eyniləşdirirlər. Bundan ötrü iskitlərin Dərbənd keçidini aşaraq qədim Alban torpaqlarına daxil olması, Herodot ilə Strabonun «İranlılar iskitləri saka adlandırır» demələri əsas götürülür. Sakasena tərəfdə «iskit tipli» ox ucluqları və tunc güzgü tapılıb, uzadılmış halda dəfn edilən 21 insanın kəlləsi də (Mingəçevir) enlisifət görünüşünə görə yerli kəllələrdən ayrılır. Doğrudur, «iskit tipli» ox ucluqları və başqa tapıntılar yerli maddi qalıqlarla birgə, həm də Transqafqazın müxtəlif yerlərindən, o cümlədən Abşeron, Cəlilabad, Ağcabədi, Xankəndi, Ağdərə, Qalakənd, Qazax və Naxçıvanda üzə çıxarılmışdır. Başqa sözlə, onlar konkret ərazi və etnos göstəricisi sayıla bilməz.

Strabon yazır ki, öz yürüşlərinin birində «sakalar... Ermənistandakı ən yaxşı torpağa yiyələnib, ora öz adlarına uyğun olaraq Sakasena adı verdilər». Deməli, Strabonun buranı Ermənistan adlandırması təsadüfi yanlışlıqdır. Ancaq sakalar onun göstərdiyi bölgədə həqiqətən yerləşib yaşamışlar. Monqoloidlik bildirən enlisifət kəllələr də sakalara şamil edilə bilər. Mingəçevirdə tapılan bir üzük möhür üzərində şişpapaq saka döyüşçüsünün təsviri də bu baxımdan tutarlı göstəricidir.

Əslində iskit və sakalar asiyalı qohum tayfalar sayılsa da, tarix səhnəsindən silinənə kimi öz adlarını saxlayıblar. Qədim assur yazıları işquza və saka kimi göstərməklə onları bir-birindən ayırırlar. Bu yazıda ***Tuqdamme*** «saka və kutium» çarı kimi göstərilir. Orta Asiya və Qazaxıstanın yerli əhalisi sayılan sakaların bir hissəsi m.ö. VII yüzilin ortalarında Kaspi dənizinin güneyinin dolanıb Transqafqaza daxil olmuş, Sakasena vilayətində, qonşuluqdakı torpaqlarda uzun müddət yaşamışlar. Alban çağı qaynaqlarındakı ***Bilasakan, Sisakan*** vilayət adlarında saka etnoniminin olması şübhəsizdir. Bu söz ***Şəki, Zaqatala***, həmçinin ***Sakandərə*** (Qax), Sakantala (Zaqatala) yer adlarında da iz buraxmışdır. ***Arrian*** (II yüzil) Qavqamel savaşında sakasinlərin albanlarla birgə iştirak etdiyini yazır. Miladın ilk yüzillərində isə onları Albaniyada Strabondan başqa ***Plini*** və ***Ptolemey*** yazıya almışlar.

İskitləri Asiyadan savaşla sıxışdıran massaget tayfalarının günbatara doğru axını tarixi gerçəklikdir. Güman edilir ki, Orta Asiya və Qazaxıstan sakalarının bir qolu olan massagetlər iskitlərin ardınca Dərbənd keçidini aşıb, Alban torpaqlarına gəlmişlər. Herodot, Əhəməni şahı ***II Kuruşun*** (550 - 530) massagetlərin qadın başçısı ***Tomirisi*** tabe etmək üçün Araz çayı üzərinə qoşun yeritməsi, savaşın İran ordusunun darmadağın edilməsi və şahın öldürülməsi ilə bitdiyini yazır.*

Massagetlərlə bağlı sonrakı biliklərin araşdırılması həmin tayfaların ***Gilgilçayla*** Dərbənd arası torpaqlarda uzun müddət yaşadığını söyləməyə əsas verir. Miladın ilk yüzillərinə aid qaynaqlarda massagetlərin hələ də orada yaşaması yad edilməkdə idi. ***Pomponi Mela*** (I yüzil) massagetlərin adını kadusilərlə yanaşı çəkir. Plini Albaniya ilə yanaşı Massagetlərin ölkəsini xatırladır. ***Dion Kassi*** (III yüzil) albanların kökcə massagetlərlə qohum olduğunu bildirir. ***Ammian Marsellin*** (IV yüzil) isə Roma sərkərdəsi ***Qney Pompeyin*** m. ö. 65-ci ildə Albaniya üzərinə yürüşündən danışarkən göstərir ki, albanların və massagetlərin ölkəsindən keçərək, Kaspi dənizinə çatdı. Bir qaynaqda da «massagetlərin keçidi» xatırladılır (onu Çola keçidi ilə də eyniləşdirirlər). Massagetlərin yaşadığı torpaqlarda III-VI əsrlərdə ***Maskut*** və ***Masaha-Hun*** hökmdarlığı vardı. IV-V yüzillərdə o, «Massagetlər ölkəsi» kimi tanınmaqda idi. Massagetlərin orta çağlarda daşıdığı adlara uyğun bir sıra toponimlər indi də qalmaqdadır. ***Müşkür*** düzü (bir hissəsi məskətər adlanır). Məskət qalası, Mastırqa dağı, Maştağa kəndi və başqa adlar massagetlərin yaşadıqları yerlər haqqında təsəvvürləri dəqiqləşdirə bilir **.

**YENİ TOPLUMLARIN SOYKÖK MƏSƏLƏSİ.** İskit, saka və massagetlərin etno-dil mənsubluğu ətrafında mübahisələr uzun müddət getməkdədir. Hind-Avropaçı «konsepsiyaya» görə kökcə Orta Asiya, Qazaxıstan, Ural, Altay, Güney Sibirdən olan bu tayfalar guya başdan-başa irandilli imişlər. Guya tarixən türk xalqlarının vətəni olmuş bu regionlarda qabaqlar

* Bu hadisə ilə bağlı hekayətdə deyilir: döyüşkən massagetləri tabe etmək üçün Kuruş Tomirisə elçi göndərib, onunla evlənmək istədiyini bildirir. Tomiris onun istəyini düzgün yozub boyun qaçırır. Kuruş rədd cavabı aldıqda Araz çayı üzərinə qoşun göndərir, massagetlərin üçdə birini qırıb Tomirisin gənc oğlunu əsir alır. Oğlan əsirliyə dözməyib özünü öldürür. Qoşunun və oğlunun faciəsini eşidən Tomiris massagetləri İran ordusu üzərinə yeridib, döyüşə özü başçılıq edir. Herodotun yazdığına görə, döyüşdə bütün İran ordusu qılıncdan keçirilir. Kuruş isə öldürülür. Sağ ikən qan tökməkdən doymayan Kuruşun başı Tomirisin əmri ilə, qan ilə doldurulmuş tuluğa salınır.

** O torpaqların xeyli hissəsi IX-X yüzillərin ərəbdilli qaynaqlarında Məskət, daha sonra Müşkür adı ilə qeyd olunub. Massaget və maskut etnonimlərinin kökcə bağlılığı şübhəsizdir. Başqa sözlə, maskutlar və ya masaha-hunlar Tomiris massagetlərinin varisləri sayıla bilərlər.



yalnız irandilli xalqlar yaşayırmış, miladın başlanğıcına doğru bu «arilər» nədənsə itib getmiş, yerlərini ilkin orta çağda türkdilli tayfalar (osetinlərdən başqa) tutmuşlar. Belə bir baxış bir çox keçmiş tarixçinin «skif» toplumları içərisində türklərin olması barədə tutarlı yazılarını tamamilə unutmuşdur.

Halbuki Herodotun özünün iskitlərin yaşayışı və adətləri haqqında söylədikləri onların hamısının guya irandilli olması barədə Hind-Avropa baxışını alt-üst edir. Herodot adlarını çəkdiyi 15 iskit tayfasının yalnız beşini «əsil iskit» sayır, qalanlarının isə dilinin fərqli olduğunu yazmışdır. Aqrippa adlı iskit tayfasından danışanda Herodot göstərir ki, onların hamısı dazbaş, yastıburun və enliçənəlidirlər, ayrı dildə danışırlar, yalnız iskitlər kimi geyinirlər. Deməli, Aqrippa «iskit dilində» yox, öz dilində danışırdı. «Öz dilində» danışan bu tayfanın gilas növlərinin birindən hazırladığı içkini Herodot «ashi» adlandırır. Araşdırmaçıların çoxu bu sözü əski türkcədəki ***acuq*** (acı) sözü ilə bağlayır.

Herodotun ***iirk*** adı ilə tanıdığı «iskit» tayfasını I yüzildə Böyük Plini tirk, Pomponi Mela isə türk adlandırmış, onların ***çılpaqbaş*** olduğunu yazmışlar (erkən orta qaynaqları bulqar və xəzər türklərini ***başıqırxıq*** xalq kimi tanıyırlar). Herodot bir iskit tayfasını da ***budin*** adlandırır. Bu adın əski türkcədə ***budin*** («tayfa», «xalq») sözü ilə eyniliyi göz qabağındadır. Nevr tayfasından danışanda Herodot bildirir ki, «Hər bir nevr ildə bir neçə gün canavara çevrilir, sonra yenə insan görkəmini alır». Burada qurd ilə bağlı türk törəyiş əfsanələrinin, uzaq keçmişdə türklərdə qurd totemçiliyi görüşlərinin izi aydın görünməkdədir.

İskitlərin «irandilli» olması, şəxs və allah adları, bir sıra dil bilikləri ilə də uzlaşmır. ***Atasas*** adını Atasız, ***Saraqas*** (saraqur hun tayfasının adını xatırladır) adını Sarıqaş, Atey adını Ata kimi açmaq daha doğru olardı.

İskitlərin ulu əcdadı sayılan ***Tarqitay*** 583-cü ildə Bizans imperatoru yanına göndərilən avar elçisi ***Tarqitiy*** ilə eyni adı daşıyır. Eləcə də onların baş allahı ***Papay*** «baba», yer ilahəsi ***Api*** isə «apa» (ana) sözlərinə uyğundur; günəş allahı ***Qoytosir*** isə «Göydeşir» mənasına gəlir.

At südündən hazırlanan iskit yeməyini Herodot ***ippak*** adlandırır. Bu söz qədim türkcədəki ipi (çörək, yemək) və dilimizdəki ***əppək*** sözü ilə eyni çalar daşıyır. Bir məlumata görə iskitlər Azov dənizinə ***Karbalıq*** deyirmişlər. Bu söz kar (böyük) və balıq (şəhər) kimi əski türk sözlərinin birləşməsindən yaranıb. Herodot iskitlərin amazon qadınları ***oyorpata*** (eorpata) adlandırmasını söyləyib göstərir ki, bu söz yunanca «əröldürən» (və ya kişiöldürən) mənası verir. Bu sözün də 2500 il əvvəlki yunancada təhrif olunmasına baxmayaraq, qədim türk oyr, er (kişi, ər) və pata (öldürmək) sözlərindən ibarət olması şübhə doğurmur.

İskitlərin etnoqrafiyası haqqında biliklər də onların türk yaşayışını üzə çıxarır. ***Homer*** kimmerləri, ***Hesiod, Esxil, Hippokrat, Miletli Hekatey,***

***Herodot, Strabon*** və başqa antik yazıçılar isə iskitləri «madyansağan», «at əti yeyən», «qumıs içən» adlandırmışlar. Bu yaşayış qanunu keçmişdə də, indi də yalnız türk xalqlarında olmuş, yalnız onların kültür ənənəsi sayılmışdır. İskit məişətində keçə üstün rol oynamış, ondan giyəcək, baş geyimi hazırlanmış, onunla arabaların üstünü örtmüşlər. Altay türkləri və hunlardan bəri keçə hazırlamaq və geniş istifadə etmək qırğız, qazax, balkar, qaraçaylı və başqa xalqların daimi peşəsi olub. Bu xalqlarda iskitsayağı ət bişirmə vərdişi hələ də qalmaqdadır. Herodot yazır ki, iskitlər qazan olmayanda əti sümükdən ayırır, malın qarnına doldurub bişirirlər. Azərbaycanda qoyunun ətini dərisi içərisinə doldurub təndirdə, ya ocaq külündə bişirmə adəti bu iskit davranışına bənzəyir. İskitlərin adət və mərasimləri haqqında Herodotun dediklərinin çoxu Dağlıq Altaydakı m.ö. VIII-VII yüzillərə aid abidələrin dəfn mərasimlərində öz uyğunluğunu tapır.

Beləliklə, iskit tayfalarının başdan-başa irandilli olması barədə Hind-Avropaçı nəzəriyyənin elmi əsası yoxdur. Onların içərisində türkdilli toplumların varlığı şübhə doğurmur. Görünür, vaxtilə Ön Asiya və Azərbaycana gələn köçəri iskitlərin tərkibində türk qolları çox olmuşdur*. Assur qaynaqlarının onları işquz/aşquz adlandırması da, görünür, təsadüf deyildi. Bir sıra tədqiqatçılar bu anlayışın İç quz/İç Oğuz ulu etnonimi ilə bağlı olduğunu yazırlar.

Skit, saka və massagetlərin etnik qohumluğunu antik müəlliflərdən ***Strabon, Diodor, Solin*** və başqaları təsdiq edirlər. Bu qaynaqlarda «qoyungüdən sakalar əslən iskitlərdir» yazılıb. Deməli sakalar və massagetlər içərisində də türk boyları olmuşdur. Sakaların irandilli olduğunu göstərən dil bilgisi yoxdur. Amma saka/şaka adı daşımaqda olan türkdilli boylar qazaxların (şaqa), özbəklərin (şakay, şekey), qırğızların (sake, saka), türkmənlərin (sakar, şaklar), xakasların (sakay) içərisində indi də yaşamaqdadır. M.ö. VII yüzildə, Orta Asiya sakalarının bir qolu «şişpapaqlı» adlanırdı. Konusvarı baş geyimi olan börk qazax, qırğız, özbək və tatarlarda indi də qalır. XIX yüzildə Azərbaycanda yaşayan tayfalardan biri şişpapaqlar adlanırdı.

Onu da unutmaq olmaz ki, kimmer, iskit, saka və massagetləri erkən orta çağ müəllifləri çox vaxt türk mənşəli hunlarla eyniləşdirirlər. ***Aqafangelin*** IV əsrin başlanğıcındakı hadisələrlə bağlı «masahahunlar» ifadəsi işlətməsi, Kayserili Prokopinin «indi hun adlanan massaget xalqı» yazması, hunların keçmişdə kimmer adlandırılmasını söyləməsi bu baxımdan maraqlıdır. ***Feofilakt Simokatta*** türkləri iskitlər kimi təqdim edir, Menandr isə türklərin keçmişdə saka adlandığını yazmışdır.

---

* Tovuz-Qazax tərəfdə «skifli», «skifli dəlisi» deyimi indi də işlənməkdədir.



**KASPİLƏR VƏ BAŞQALARI.** M.ö. III-I minillərdə Azərbaycanın quzey tərəfi Qədim şərq dövlətləri təcavüzündən kənarda qaldığı üçün burada yaşayan bir çox tayfa birliklərinin adları çivili yazılarda çəkilmir. Buna görə m.ö. II minilin sonu – I minilin başlanğıcında Xocalı-Gədəbəy, Muğan-Talış və Naxçıvan arxeoloji mədəniyyətlərinin sahibləri olmuş yerli tayfa birliklərinin adları bəlli deyil. Lakin ibtidai icma quruluşunu keçərək sinifli cəmiyyət astanasına çatmış bu birliklər antik dövrdə «alban» adı daşıyan müxtəlif tayfaların ulu babaları olmuşlar. Bunu III-I minillər boyu Quzey Azərbaycanda maddi mədəniyyətin ardıcıllığı və arasıkəsilməzliyi, son Tunc – erkən Dəmir dövrü mədəniyyətləri ilə ilkin alban Yaloylutəpə mədəniyyətinin bağlılığı sübut edir.

M.ö. VI yüzildə Əhəməni imperiyası siyasi təsirinin Qafqaz dağlarınadək yayılması nəticəsində quzey Azərbaycan tafaları da tarix səhnəsinə çıxmağa, antiq dövr qaynaqları üfüqlərindən görünməyə başlayırlar. İlk yad edilən tayfalardan biri ***kaspilərdir***. Onları Qədim Şərqin görkəmli xalqlarından biri olmuş ***kassilərlə*** etnik baxımdan qohum sayırlar. Herodot kaspi tayfalarının başqa qonşu tayfalarla birlikdə əhəmənilərin XI canişinliyinə daxil olmasını, onların xəzinəsinə 200 talant bac vermələrini xatırladır. O, həm də m. ö. V yüzilin başlanğıcında Əhəməni şahı ***Kserksin*** ordusunda piyada və atlılardan ibarət kaspi döyüşçü dəstəsinin iştirakını bildirir. Güman edilir ki, Herodot «kaspilər» dedikdə, dəniz sahilində yaşayan başqa tayfaları, o cümlədən albanları da nəzərdə tuturdu. Qavqamel döyüşündə (m. ö. 331-ci il) isə həm kaspilər, həm də albanlar (kaduslar və sakasenlərlə birgə) iştirak etmişlər. M.ö. I minilin sonuna doğru alban tayfalarının birləşməsi gedişində kaspilər albanlara qarışıb getdikcə ərimiş, Strabonun yazdığı kimi: «İndi itib getmişlər»*. Onun yazdığına görə kaspilərin adı yalnız dənizin və yaşamış olduqları vilayətin adında saxlanmışdır. ***Kaspiana*** vilayəti Albaniyanın güney-gündoğarında Kürdən sağdakı dənizsahili torpaqlarda (Muğan, Lənkəran ovalığı) idi. Bu, bir vaxt Muğan-Talış mədəniyyətinin yayıldığı əraziyə uyğun gəlir. Həmin vilayət «Kaspi torpağı» və ya «kaspilərin vilayəti» adı ilə erkən orta yüzillərdə yad edilməkdə idi.

Antik dövr qaynaqlarında kaspilərin təsərrüfat işləri haqda məlumatlar az deyil. Bir qaynaq məlumat verir ki, kaspilərin torpağında «üzüm tənəkləri bol məhsul verir; deyirlər ki, əncir o qədər məhsul verir ki, bəzi ağaclardan 60 medimn (medimn – 52, 2 litr) qədər əncir toplanır. Bağçılıq

---

* Strabondan sonrakı bir sıra müəlliflər (Pomponi Mela, Böyük Plini, Klavdi Ptolomey, Dionisi Perieket) kaspilərin Albaniyada yaşamasını söyləməkdə idilər.

haqqındakı bu biliklər kaspilərin oturaq yaşadığını göstərməkdədir. Klavdi Elian m. ö. IV əsr qaynağına istinadla bildirir ki, «Kaspi torpaqlarında çoxlu öküz və at ilxıları var və onlar saysız-hesabsızdır». Qısaboy və dümağ kaspi keçilərinin, gözəl və zərif yunlu dəvələrin çoxluğu haqqında məlumatlar isə kaspilərdə maldarlığın səviyyəli olduğunu göstərir. Elian 8 qulaca qədər (attikalılarda qulac – 0,46 m) uzunluqda «şişburun» adlı balıq yetişdirilən böyük gölü xatırladır. Onun yazdığına görə, kaspilər nərə tipli o balıqları tutub duzlayır və ya qurudur, sonra dəvələrə yükləyib, satmaq üçün Ekbatana aparırdılar. Balıq yağından məlhəm, içalatından isə «hər şeyi çox bərk yapışdıran» şəffaf yapışqan hazırlanırdı. Elianın yazdığına görə dəvə yunundan hazırlanmış geyimləri «kahinlər, habelə ən varlı və adlı-sanlı kaspilər» geyirdilər. Qaynaqlarda kaspi sənətçilərinin toxuduğu yun parçaların keyfiyyətli olması və yaxşı satılması da yada salınır.

Kaspilər gəmi inşaatına və dəniz gəmiçiliyinə yaxşı bələd olublar. Bunu Əhəməni şahı ***Kambizin*** m.ö. 525-ci ildə Misirin quzeyinə köçürdüyü kaspilər və onların hərbi düşərgəsi haqqında arami yazılarındakı məlumatlar sübut edir. Həmin sənədlərə görə kaspilər Memfisdə gəmi inşaatı ilə məşğul imişlər. O yazılardakı kaspi şəxs adlarını İran və Babil dilləri kökündən sayıblar. Ancaq son vaxtlar bu şəxs adlarından bir neçəsini əski türkcə anlaşıla bilməsinin mümkünlüyü göstərilir*.

***Kaspi*** etnonimi ***kas*** kökü və ***-pi*** cəm şəkilçisindən yaranıb. Bunu Böyük Plininin Albaniya çaylarından birini «Kas» adlandırması da təsdiqləyə bilər. Maraqlıdır ki, qədim uyqurların bir tirəsi «kas» adlanırmış. Sibir və Altaydakı bir neçə türk tayfası ***kas, kaç, kaş*** adları daşıyıblar. Transqafqaz kaspilərinin etnodil mənsubluğunu araşdırmaq üçün bu dəlillər nəzərə alınmalıdır.

Əhəmənilər vaxtında Azərbaycanda yaşayan tayfalardan birini Mileti Hekatey «miklərdən Araz çayına qədər» ifadəsi ilə yad etmişdir. Onun ardınca Herodot Əhəməni İmperiyasının XIV canişinliyinə daxil olan tayfalar sırasında ***miklərin*** və ***utilərin*** adlarını çəkir. Kserksin Yunanıstana yürüşündə iştirak edən ordunun bir dəstəsi ***mik*** və ***uti*** döyüşçülərindən ibarət idi. Bu tayfalar o vaxt Arazsahili torpaqlarda bir-biri ilə qonşuluqda yaşayırdı. Mik etnoniminin Muğan düzünün adında qalmasını söyləyirlər. Qafqaz albanlarının tanınmış tayfaları olan utilərin yaşadığı Uti (Otena) vilayəti Kaspiana ilə qonşuluqda idi və görünür, Araz üzərindən Atropaten sərhədlərinə kimi uzanırmış.

---

* Atarli («Atar»-örüş – il, li isə səciyyəvi şəkilçi), Darqa (altayca tarqa-«knyaz», «xalqın başçısı») ippuliya (ip – «bacarıqlı», bulla – «dayı»), Azari, Misday, Bazu və başqa adlar.



*ÜÇÜNCÜ BÖLÜM*

# MANNA DÖVLƏTİ

## 1. TARİXİ AXARIN BAŞLANĞICI

**İLKİN ARAYIŞ.** M.ö. I minilin başlanğıcında Güney Azərbaycanda yaşayanların çoxu *mannalılar* adlanırdı. Onlar başlıca olaraq ***Urmu*** gölünün güneyində və gündoğarında yaşayırdılar. Başlanğıcda «mannalı» adını oradakı hərbi baxımdan güclü tayfa birliklərindən biri daşıyırdı. Sonra bu adla bağlı yaranan dövlətin torpaqları genişləndikcə adın coğrafi hüdudları da böyüdü. Mannalılar hələ m. ö. III-II minillərdə o yerlərdə yaşamış ***quti, lullu, turukki, su*** və başqa soyların varisləri sayılır. Zaman keçdikcə həmin ad Güney Azərbaycanda məskun olan ***teurla, kumurdi, hurri, dali*** və başqa tayfa birliklərinə də keçmişdir. Manna dövləti bu tayfaların, ayrı-ayrı vilayətlərin və şəhər-dövlətlərin birləşməsi özülündə yarandı.

İbtidai-icma quruluşunun dağılması və erkən dövlətin yaranması Güney Azərbaycanda tez baş verdi. Çünki Urmu gölü bölgəsi yaxın Assuriya və Urartu kimi qədim Şərq dövlətləri ilə sıx qarşılıqlı əlaqələrdə idi. Həm də iqtisadi və mədəni baxımdan öz qonşularından irəli getmişdi. Burada süni suvarma tələb etməyən, lakin yüksək səviyyəli kotan əkinçiliyi üstün yer tuturdu. Suvarma arxlarından az yağıntılı torpaqlarda istifadə edilirdi. Tövratda «minit» adlanan və «Manna buğdası» kimi başa düşülən taxıl növü qonşu ölkələrdə yaxşı tanınır, Finikiyanın Tir şəhəri ilə alış-verişdə başlıca yer tuturdu. Assur çivli yazılarında Urmu gölü bölgəsində saysız anbarlarda saxlanılan arpa və buğda taylarından, taxıl zəmilərindən dönə-dönə danışılır.

Təsərrüfatın aparıcı sahələrindən biri də yaylaq maldarlığı idi. Yazılı qaynaqlar Güney Azərbaycanda mal-qara və davar sürülərinin, at-dəvə ilxılarının bol olmasını sənədləşdirir. Assur və Urartu çarları yürüşlər zamanı oradan on minlərlə qaramal və davarı qənimət aparmalarından söz açırlar. Bir sıra vilayətlərdə bəslənən cins atlar işğalçılara yaxşı bəlli idi. Onlar çox zaman bacın at ilxıları ilə ödənilməsini tələb edirdilər.

Urmu gölü bölgəsində hələ m. ö. II minilin sonunda sənətin yüksək inkişafı yaxşı sənədləşib. Burada zəngin faydalı qazıntılar, qızıl, gümüş, mis, dəmir, qurğuşun və başqa metal yataqları vardı. Bu, metalişləmə ilə bağlı sənətlərin: zərgərlik, silahsazlıq, misgərlik və dəmirçiliyin inkişafına imkan verirdi. Arxeoloji qazıntılar ***Həsənlidə*** sənətkar emalatxanasının qalıqlarını üzə çıxarıb. Həsənli, ***Malıqtəpə, Ziviyə*** və başqa yerlərdə tapılan qızıl, gümüş və mis qab-qacaq, zərgərlik məmulatı mannalı ustaların

yüksək bədii zövq və vərdişlərinin məhsuludur. Mannanın ***Puluadi*** vilayətinin adını «polad» sözü ilə bağlayırlar; orada dəmir və polad silahlar hazırlanması üstün yer tuturdu. Sənət ustalarının şöhrəti geniş yayılmışdı. Assur çarı ***II Aşşurnasirapalın*** (883–859) güney vilayətlərdən sənətçi ustaları öz paytaxtı Kalxu şəhərinə köçürüb aparması təsadüfi deyil. Yüksək keyfiyyətli sənət məhsulları ticarətin, o sıradan beynəlxalq ticarətin inkişafının, sənət sahələri isə şəhərlərin böyüməsi və çoxalmasının zəruri şərti idi. Manna dövlətinin yaranması ərəfəsində Urmu gölü bölgəsində çoxsaylı şəhərlər və şəhər-qalalar vardı.

M.ö. II-I minillər ərəfəsində Güney Azərbaycanda yüksək inkişaf tapmış iqtisadiyyat orada dövlətin yaranmasının mühüm şərtlərindən biri idi.

**KİÇİK DÖVLƏT QURUMLARI.** M. ö. II minilliyin sonunda Güney Azərbaycanda iqtisadi-mədəni yüksəliş icma cəmiyyətinin dağılmasının başa çatması ilə müşaiyət olunurdu. Bunun nəticəsində m. ö. X yüzildən gec olmayaraq həmin torpaqlarda kiçik siyasi birləşmələr yarandı. Assur qaynaqlarında belə qurumlar «ölkə», onların hakimləri isə çar adlanır. Belə «ölkə»lər sırasında ***Zamua, Gilzan, Allabria, Karalla, Buşti, Messi, Surikaş, Alateye, Qızılbunda, Andia, Uişdiş, Zikertu, Subi, Sanqibutu, Puluadi*** və başqaları daxil idi.

Urmu gölündən Kiçik Zab çayına qədər uzanan güney torpaqlar ***Zamua*** və ya oranın köklü əhalisinin adına uyğun olaraq Lullu adlanırdı. İlk dəfə ***II Adadnerarinin*** (911–891) yazısında bu ölkənin, oradakı ayrı-ayrı siyasi qurumların adları çəkilir; onların «çar» tərəfindən idarə edilməsi bildirilir. Zamua «çar»ları işğalçıları dəf edə bilmədiyindən «ölkə»ləri talan edilir, ya da bac verməli olurdu.

Zamua torpaqlarını m. ö. IX yüzilin 80-ci illərində Dahara hakimi ***Nur-Adad***, onun ardınca Zamri şəhəri (Zamuanın paytaxtı) hakimi Ameka birləşdirməyə çalışdılar. Bu çalışmalar nəticəsiz qaldı. II Aşşurnasirapal çoxlu şəhər, qala və yaşayış məntəqəsini qarət edib ***Arzizu*** ölkəsinə yönəldi. Oranın hakimi ***Ata*** öz torpaqlarını qoruya bilmədi, yenə də çoxlu qala və yaşayış yeri dağıdılıb oda tutuldu. Sonrakı dağıntıların qarşısını almaq üçün, bir yazıda deyildiyi kimi, «Zamua ölkəsinin bütün hökmdarları» assur çarının yanına gəldilər. İtaət edib qızıl, gümüş, qurğuşun, tunc məmulat, əlvan geyimlər, at, qaramal, davar və şərabdan bac verməli oldular. Zamua «ölkə»ləri üzərində yeni vergilər qoyuldu. Beləliklə, Aşşurnasirapal Zamuanın bir hissəsini tutub öz əyalətinə çevirdi.

Zamuanın Urmu gölünün güney ətrafı ilə birlikdə ***Cağatu*** çayı hövzəsində yerləşən torpaqlarını assurlar İç Zamua adlandırırdı. M. ö. IX yüzilin ortalarında orada qüvvətli qurumlardan biri ***Nikdiaranın*** hakimiyyəti altındakı İda (bir mətndə *Mazamua*) ölkəsi idi. O, Nikdime ilə birlikdə assurlara ciddi müqavimət göstərdi. Lakin Nikdiara m. ö. 856-cı ildə geri çəkilərək, söyüd çubuqlarından hörülmüş qayıqlarda Urmu gölünün o biri sahilinə keçərkən ***Ş.Salmanasar*** [m.ö. 859-825] onu yaxaladı. Assur çarı bir yazıda öyünür ki, «dəniz döyüşünü mən yapdım, onları mən əzdim, dənizi onların qanına yun [parça] kimi mən boyadım». Bu yazı Urmu gölündə o zaman kiçik gəmiçiliyin olmasını sənədləşdirir.



Assur çarlarının yürüşləri haqqında yazılardan aydın olur ki, m. ö. IX yüzildə ***Udakinin*** hökmranlıq etdiyi ***Manna***, Ondan güneydə Cağatu çayının yuxarı axarındakı ***Messi*** və ya ***Missi*** [məşhur ***Meişta*** şəhəri də bu ölkədə yerləşirdi], ***Harruna, Şurdira, Aridu*** və başqa kiçik dövlətciklər İç Zamuaya daxil idi. IX yüzilin 30-cu illərindən assur yazılarında İç Zamua «***Mannalılar ölkəsi***» adlanmağa başladı. Yəni oradakı dövlət qurumlarını birləşdirmək istəyi Manna dövləti özülünün yaranması ilə sona yetdi.

M.ö. IX yüzil 90-cı illərin assur qaynaqlarında Urmu gölünün qərb sahillərində müstəqil Gilzan vilayətinin yerləşməsi bildirilir. II Aşşurnasirapalın Zamuaya yürüşü zamanı Gilzan, Hubuşka və başqa ölkələrin elçisi assur çarına at, gümüş, qızıl, qalay, mis və tunc məmulatdan rəhmәgətirici bəxşişlər vermişdilər. M. ö. 856-cı ildə Gilzan hakimi ***Asau*** öz qardaşları və oğulları ilə birlikdə III Salmanasara qarşı çıxdı. Lakin gilzanlılar at, qaramal, davar, dəvə və şərabdan bac verib, ölkəni assurların talanından qoruya bildilər. M. ö. 827-ci ildə assurlar Gilzana soxulub, bir də bac aldılar. IX əsrin sonunda Gilzan Urartu tərəfindən tutuldu.

Adları çəkilən çarlıqlarla yanaşı, m. ö. IX yüzilin qaynaqlarında Güney Azərbaycanda yerləşən başqa «ölkə»lər də xatırladılır. Kiçik Zab çayının yuxarı axını və qolları yaxasında Assuriya yaxınlığında Allabria və Karalla vilayətləri yerləşirdi. III Salmanasar m. ö. 843-cü ildə Allabria çarı ***Yanzini*** tabe etmiş, oradakı Şurdirra qalasını ələ keçirib, xəzinəsini talamışdı. Sonralar Allabria və Karalla uğrunda Assuriya ilə Manna arasında uzun sürən mübarizə getmişdi. Mannanın gələcək Midiya ilə hüdudunda, indiki ***Qaflantıdağ*** silsiləsi bölgəsində ***Qızılbunda*** ölkəsi yerləşirdi. M. ö. 820-ci ildə assur çarı ***V Şamşi-Adad*** (823-811) oradakı qalaları ələ keçirmiş, Qızılbunda hökmdarı ***Pirişatinin*** qoşununu qırmışdı. ***Qızılüzən*** çayının aşağı və qismən orta axınında yerləşən ucqar sərhəd vilayəti ***Andia*** adlanırdı. M.ö. 827-ci ildə assurlar bu ölkədən bac almışdılar. Andia torpaqları «böyük dəniz» (Kaspi dənizinə) qədər uzanırdı.

M.ö. VIII yüzilin qaynaqlarında Manna dövlətinin tərkibində və ya ondan asılı olan daha bir neçə vilayətin adı çəkilir. Zikerti vilayəti indiki ***Miyanə-Ərdəbil*** bölgəsində yerləşirdi. Vilayətin paytaxt şəhəri ***Parda*** (bu ad sonrakı Bərdə şəhərinin adı ilə səsləşir) idi. Uişdiş vilayəti ***Marağa*** ətrafı torpaqlarda yerləşirdi. Ondan quzeyə doğru, Urmu gölünün gündoğar tərəfində ***Subi*** və ***Bari*** adlanan daha iki qonşu vilayət vardı: yaxşı möhkəm-

ləndirilmiş ***Tarui*** və ***Tarmikisa*** (indiki ***Təbriz***) adlı zəngin qalalar Bari vilayətində idilər. Bu qalalarda assurlar arpa ilə dolu anbarlara, çoxlu at tövlələrinə rast gəlmişdilər. Urmu gölünün quzeyindəki ***Qotur-Xoy-Mərənd*** torpaqları ***Sanqibutu*** adlanırdı; bu vilayətin baş şəhəri ***Ulxu*** idi. Onun gündoğar səmtində indiki ***Qarabağ*** bölgəsində ***Puluadi*** vilayəti paytaxtı ***Libiluni*** şəhəri ilə (hazırkı ***Varsağan*** inzibati mərkəzi yaxınlığında) yerləşirdi. Pulluadi Azərbaycanın çivli yazılarda adı çəkilən ən quzey ölkəsidir. Bütün bu vilayətlər dəfələrlə Urartu çarlarının təcavüzünə məruz qalmışdılar.

Beləliklə, m.ö. X əsrin sonu – IX əsrin birinci yarısında İç Zamuada və Urmu gölünün başqa yerlərində kiçik siyasi qurumlar hələ bir-birindən ayrı yaşamaqda idilər. Onlar Assuriya və Urartu kimi böyük təcavüzçü dövlətlərə qarşı dura bilmirdilər. İşğalçılara qarşı bu qurumların təkbaşına müqavimət gücü və dözümü yetərli deyildi. Öz şəhər və qalalarını dağıdıcı talanlardan qorumaq üçün həmin «ölkə»lərin «çar»ları çox vaxt bac verməyə məcbur olurdular. Urmuətrafı siyasi qurumlar Assuriya və Urartu ağalığına qarşı tez-tez üsyan qaldırıb bac verməkdən boyun qaçırırdılar. Bəzən əhali əlçatmaz dağlarda tikdikləri qalalarda sığınacaq tapırdı. Bu zaman düşmən əhalinin daimi yaşayış yerlərini, şəhərləri asanlıqla talan edir, yandırıb dağıdırdı. Qorxunc yağıların basqınlarından qurtulmaq üçün «ölkə»ləri birləşdirə biləcək dövlətin yaradılmasına getdikcə böyük ehtiyac duyulurdu.

## 2. MANNA DÖVLƏTİNİN YARANMASI

**ASSUR VƏ URARTU ÇARLARI İLƏ İLK QARŞILAŞMA.** Manna adı ilk dəfə m. ö. 843-cü ilin assur yazısında «Munna» şəklində qarşımıza çıxır. Sonralar bu ad bir qayda olaraq Manna və Mannalılar ölkəsi (bir yerdə – Mannaş) kimi yazılırdı. Urartu mətnlərində bu dövlətin adı Mana, Tövratda isə Minni kimi verilib. Həm assur, həm də urartu yazılarında dövlətin eyni ad daşıması göstərir ki, «Manna» sözü yerli sözdür. Bu ad Urmu gölünün güneyində, İç Zamuada yaşayan və mannalılar adlanan böyük bir tayfanın soyadı ilə bağlıdır. Urmuətrafı siyasi qurumların birləşdirilməsinə uyğun olaraq Manna dövləti böyüdükcə, «mannalılar» adının coğrafi hüdudları da genişlənmişdir.

Assur çarı III Salmanasarın m. ö. 843-cü ildə Urmu gölü bölgəsinə etdiyi yürüşlə bağlı yazısında bildirilir ki, o, İç Zamuada yaşayış yerlərini ələ keçirib Munna ölkəsinə kimi getdi. Savaş salnaməsi olan assur yazılarında yürüş hədəfi olan hər bir ölkə, bir qayda olaraq tutulub soyulur, əhalisindən bac alınırdı. Yalnız bu yazıda Manna ilə bağlı belə arayış verilməyib. Görünür assurlar Manna hüdudlarından içəri girə bilməmiş, dönüb qonşu Allabria ölkəsinə getmişdilər. Təbii, mannalıların ciddi müqaviməti ilə qarşılaşdıqları üçün yürüşün yönünü dəyişməli olmuşdular.



Yalnız 14 il sonra 829-cu ildə Mannanın assurlar tərəfindən tutulub, qarət edilmiş ölkələr arasında adı çəkilir. Bu barədə III Salmanasarın bir yazısında deyilir: «Mannalı Udakinin yaşayış yerlərinə mən yaxınlaşdım. Mannalı Udaki mənim yarağımın parıltısından qorxuya düşdü və öz həyatını qurtarmaq üçün öz hökmdar şəhəri Zirtanı qoyub getdi. Mən onu təqib etdim; onun qaramalını, davarını, onun saya gəlməyən varını mən apardım. Onun şəhərlərini mən viran qoydum, dağıtdım, oda yaxdım».

Bu yazıda Manna hökmdarı Udakinin və dövlətin paytaxtı Zirta (sonralar İzirtu) şəhərinin adı ilk dəfə çəkilir. Lakin yazıda Mannanın qonşu Allabria və ya Harruna kimi tabe edilərək bac boyunduruğuna qoşulmasından söz getmir. Görünür, assurlar ölkəni soyub, ələ keçirilən var-dövləti aparmaqla kifayətlənməli olmuşdular.

Beləliklə, m.ö. IX əsrin ortalarında Manna dövləti yaranmağa başlayır. İç Zamua torpaqlarındakı kiçik siyasi qurumların birləşdirilməsi Manna dövləti özülünün yaranması ilə nəticələndi. M.ö. IX əsrin 30-20-ci illərinə düşən assur yazılarında isə İç Zamua bütünlüklə «Mannalılar ölkəsi» adlanır. Deməli, Urmu gölünün güney və güney-gündoğar tərəflərindəki «ölkə»lərin çoxu Udakinin vaxtında «Mannalılar ölkəsi»ndə birləşdirilmiş, Manna dövləti artıq yaranmışdı. Assurların m.ö. 829-cu ildəki yürüşü zamanı Udakinin onlara boyun əyməyərək «dağlara çəkilməsi» təsadüfi deyildi.

Lakin m. ö. IX yüzilin sonunda Assur və Urartu yazılarında Urmuətrafı bölgədə Manna ilə yanaşı çoxlu kiçik siyasi qurumların adları sadalanmaqda idi. Oradakı bütün torpaqları Manna dövlətində birləşdirmək hələ mümkün olmamışdı. Çünki mannalılar iki yandan qorunmalı olurdular. Qərbdən Assuriya çarları ora vaxtaşırı hərbi yürüşlər edir, şəhər, qala və yaşayış yerlərini talayıb oda tutur, əhalini qırır və əsir edirdilər. Şimal-qərbdən isə qüvvətlənmiş Urartu çarları Mannaya qarşı təcavüz edir, Urmu gölünün qərb və şimal sahillərindəki torpaqları ələ keçirməyə çalışırdılar.

M.ö. IX əsrin 20-ci illərində Assuriyadakı daxili çəkişmələrdən bacarıqla istifadə edən Urartulular şərq və şimal-şərq istiqamətdə işğallara başladılar. 827-823-cü illər arasında Assuriyada vətəndaş müharibəsi gedərkən Urartu çarı İşpuhi Urmu gölünün qərb tərəfindəki Gilzan hökmdarlarını tutub öz dövlətinə birləşdirdi. Lakin assur çarı ***V Şamşi-Adad*** vahid hakimiyyəti bərpa edib, m.ö. 821-ci ildəki yürüşünü İç Zamuadakı Siqris ölkəsinin «çarı» ***Şarsinaya*** (Nikdiaranın oğlu idi) və İşpuiniyə qarşı yönəltdi. Şarsinanın ölkəsi talan edildi. Assur çarı həmçinin İşpuininin əlindəki 11 qalanı və 200 yaşayış məntəqəsini dağıdıb çoxlu döyüşçü qırdı, xeyli əsir apardı. Görünür, bu yerlər Mannadan idi və Urmu gölünün güneyində yerləşirdi. Urartulular Mannadan uzaqlaşmalı oldular. Onların Urmu gölü bölgəsinə yürüşləri ara verdi. M.ö. 820-ci ildə Midiyaya qarşı yürüş zamanı assurlar Mannada müqavimətə rast gəlmədilər. Mannalılar, sun-

bilər, Şarsina və başqaları Şamsi-Adadı atlardan ibarət bacla qarşılayıb yerli əhalini assur qırğınlarından qoruya bildilər. Yalnız Messi vilayətinin əhalisi assurlara tabe olmadı. Yürüş haqqındakı yazıda bildirilir ki, «messililər qaçdılar və göydən bulud kimi sallanan üç dağ zirvəsində gizləndilər». Assur çarı messililəri təqib etdi, 500 yaşayış məntəqəsini dağıtdı, çoxlu qaramal, qoşqu atı, dəvə, qatır ələ keçirərək, əsirlərlə birlikdə hamısını qənimət apardı. Bunun ardınca Şamşi-Adad Qızılbunda ölkəsinə keçib, oradakı Kinaki qalasını tutdu. ***Sasiaşu*** və ***Kar-Sibutu*** qalalarının başçıları assur çarına qoşqu atlarından bac göndərməli oldular. Qızılbundalı ***Pirişati*** və ***Uraş*** qalasında möhkəmlənib müqavimət göstərdi. Qanlı vuruşda o, 6000 döyüşçü itirdi, özü və 1200 döyüşçüsü, külli sayda atları, yun, gümüş və saf qızıl məmulatlar assurların əlinə keçdi. ***Sibare*** qalasının başçısı ***Enqur*** da assur çarına tabe olduğunu bildirdi. Şamşi-Adad «dənizə» (Kaspi dənizinə) kimi torpaqlarda yaşayan əhalini vahiməyə saldı. Bu kimi torpaqlara anası ***Semiramida*** ilə birlikdə ***III Adadnirari*** (810-783) də sahib durmaq istəyirdi. Onların m. ö. 807-806-cı illərdə tabe etdikləri ölkələr sırasında Messi, «bütün» Qızılbunda, Munna, Allabria, Andianın adı çəkilir.

Assurların Mannaya və ona tabe vilayətlərə ardıcıl yürüşləri m.ö. IX yüzilin sonuna kimi davam etdi. Manna hökmdarı və vilayət hakimlərinin müqaviməti uğur qazanmadı. Onlar bac verməklə Assuriya ağalığını tanımağa məcbur oldular.

**MANNAYA URARTULARIN YENİ BASQINLARI**. M.ö. IX yüzilin sonunda Urartu Ön Asiyada Assuriyanın qorxulu rəqibinə çevrildi. Bu yırtıcı dövlət Manna və qonşuluğundakı «ölkə»ləri tutmaq, Assuriyaya yürüşlər keçirmək üçün o yerlərdə dayaq məntəqəsi yaratmağa çalışırdı. Urartu çarı ***Menua*** (810-786) Manna tərəfə azı iki yürüş etdi. Bir yazıda bildirildiyi kimi, o, «Manna ölkəsinə doğru getdi, ölkəni dağıtdı, yandırdı». Başqa bir yazıda deyilir: «Xaldi allahının böyüklüyü ilə İşpuinin oğlu Menua bu qalanı tikdi; o, Meişta şəhərini işğal etdi, oradan Manna ölkəsini tutdu». Bu yazı Urmu gölünün 30 km-liyində indiki ***Mianduab*** yaxınlığındakı ***Daştəpə*** adlı yerdə tapılıb (Gölün cənub-qərb tərəfindəki Əjdaha bulağı adlı yerdə tapılan kitabə Menuanın «bu bulağı qurmasından» xəbər verir).

Bu kitabədə bütün Manna ölkəsi deyil, yalnız Messi vilayəti nəzərdə tutulurdu. Menua orada qala tikdirib piyada döyüşçülər yerləşdirməklə, görünür, həm Messi vilayətinə nəzarət etmək, həm də ondan Assuriyaya yürüşlər üçün istifadə etmək niyyəti güdürdü. Lakin m. ö. VIII yüzilin ilk onilliklərinə aid Urartu salnamələrində Mannanın adı çəkilmir. Görünür, Manna öz müstəqilliyini qoruyub saxlaya bilmişdi.

M. ö. VIII yüzilin birinci yarısında Assuriyanın siyasi böhran keçirməsi ilə bağlı Ön Asiyada hegemonluq az vaxt üçün Urartuya keçdi. Urartu



Mannanın təhlükəli düşməninə çevrildi. I Argişti m. ö. 779-773-cü illər arasında hər il Manna torpaqlarına soxulurdu.

O, Urmu gölünün güney səmtinə basqınlar edir, Mannanın Assuriya hüdudundakı ***Buşti*** vilayətini ələ keçirib, oradan Assuriya əyalətlərinə soxulmağa çalışırdı. M.ö. 775-ci ildə Urartu çarı Buştu vilayətini tutub çoxlu qənimət ələ keçirdi. Bir yazıda Argişti deyirdi: «Xaldi allahı... Manna ölkəsinə qalib gəldi. Mən Buştu ölkəsinə getdim. ***Aşkaya*** ölkəsinin vadisini tutdum. ***Uqişti*** ölkəsinin ***Şatiraraqa*** vilayətinə mərhəmət göstərdim. ***Uşni*** ölkəsini tutdum. Mən ***Alateyə*** dağlıq ölkəsinə çatdım, ölkəni dağıtdım, şəhərlərini oda yaxdım, kişi və qadınlarını apardım.»* Urartu çarı Alateyə ölkəsi haqqında onu da deyir ki, «bir il müddətində mən 7873 adamın bir qismini öldürdüm, qalanını diri apardım, 290 atını, 101 dəvəsini, 4909 qaramalını, 19550 davarını apardım».

Bu yazıda Mannanın bir-birindən aralı 5 müxtəlif vilayəti sadalanıb. Onlar Urmu gölünün gündoğarı, güneyi və güney-batı tərəflərində yerləşirdi. M. ö. 774-cü ildən Manna və Urartu arasında toqquşmalar Urmu gölündən quzeydəki torpaqlara keçdi.

Artıq bu zaman Manna Urartu basqınlarına yalnız bir seyrçi kimi baxıb qalmır, yeri gəldikdə özü əks hücuma keçirdi. Manna hökmdarı m. ö. 776/775-ci ildə Urartu üzərinə yerimişdi. Bir yazıda argişti, «Manna ölkəsi gəldi, (yürüşünü) mən dəf etdim», söyləyir.

Atasının işğalçılıq siyasətini davam etdirən ***II Sarduri*** m. ö. VIII yüzilin ortalarında Manna üzərinə yeridi. Narınqala ilə möhkəmləndirilmiş ***Darba*** şəhərini ələ keçirdi, o vilayəti canişinliyə çevirərək, «öz torpaqlarına birləşdirdi». Darba qalası Urmu gölünün quzeyində, Urartunun qonşuluğunda idi. m.ö. 747-ci ildə Sarduri Urmu gölünün quzeyindən keçərək Güney Azərbaycanın indiki Qaradağ (və ya Arazbaran) vilayətinə soxuldu. Qaradağın ***Sakindel*** kəndi yaxınında tapılan kitabədə Urartu çarının dağlıq Puluadi ölkəsini, onun 45 şəhər və 21 qalasını «bir gün içində tutması», Libliun** adlı «hökmdar şəhəri»ni döyüşlə alması bildirilir.

Argişti və Sardurinin işğalları keçici uğurlar idi və Mannanı Urartudan asılı edə bilmədi. Urartular Urmu gölünün güneyində möhkəmlənə bilmədilər. Bir az sonra onların tutduqları torpaqları mannalılar geri aldılar. Buna baxmayaraq, Mannanın siyasi birliyi hələ tam deyildi. Ondan asılı olan bəzi vilayət hakimləri dövlətdən ayrılıb bölücülük yolunu tutdular. Buna görə Urartu basqınlarının qarşısını hər zaman almaq olmurdu. Soyğunçuluq, dağıntı, qırğın və əsirlik gətirən bu basqınlar Mannanın təsərrüfatına, onun demoqrafik vəziyyətinə böyük ziyan vururdu.

* Mətndəki «Aşkaya» və «Uqişti» yer adları assur yazılarındakı Uşkaya və Uişdiş sayılır. «Uşni» Urmu gölünün güney-batı tərəfindəki Uşni/Uşnuyənin adına uyğun gəlir.

** Şəhərin xarabalığı həmin kitabənin yanındakı təpədədir.

## 3. MANNANIN YÜKSƏLİŞİ

**MANNANIN GÜCLƏNMƏSİ. ASSURİYA İLƏ YAXINLAŞMA.** Assur çarı ***III Tiqlatpalasarın*** (745-727) hakimiyyətə gəlməsi Ön Asiyada siyasi vəziyyəti dəyişdirdi. Onun inzibati və hərbi islahatları Assuriya dövlətini möhkəmləndirdi, ordusunu dövlətin işğalçılıq alətinə çevirdi. O, Assuriyanın beynəlxalq nüfuzunu qaldırmaq üçün ənənəvi hərbi yürüşlərə yenidən başladı. M. ö. 743-cü ildə assurların Urartu qoşunlarına ağır zərbə endirməsi ilə Urartu çarlarının Manna üzərinə yürüşləri kəsildi. Sonrakı illərdə Urartu torpaqlarında onlara vurulan yeni zərbələr urartuların bəzi Manna vilayətlərinə (Messi, Sanqibutu, Puluadi) göz dikməsinə son qoydu.

Manna hökmdarlarının əl-qolu açıldı. Dövlətin çiçəklənmə çağı başlandı. Manna hökmdarı ***İranzu*** (təxminən 740-719) yaranmış vəziyyətdən bacarıqla istifadə etdi. O, Assuriyanın Urartunu üstələdiyi bir zamanda assur çarı ilə yaxınlıq yaratdı. Bundan istifadə edib, Urartunun tutduğu Manna vilayətlərini geri aldı. Manna hərbi-iqtisadi vəziyyətinə görə artıq Urartudan çox geri qalmırdı. Tiqlatpalasar m. ö. 737-ci ildə Midiya yürüşü zamanı Mannanın yalnız güney dağlıq hüdudlarından keçmiş, Cağatu düzü və Qızılüzən çayı vadisindəki Manna torpaqlarına enməmişdi. Qaynaqlarda Tiqlatpalasarın işğal etdiyi ölkələr içərisində Mannanın adı çəkilmir. Görünür, Assuriya Urartu ilə savaşda daha bir güclü düşmən qazanmaq istəmirdi. Əksinə, Assuriya ilə Manna Urartuya qarşı birgə mübarizədə təbii müttəfiq sayılırdılar. II Sarqonun yazılarında Tiqlatpalasarın İranzu ilə şəxsi görüşünə işarə edilməsi də bunu göstərir.

İranzunun vaxtında Güney Azərbaycanın demək olar ki, bütün torpaqları onun hakimiyyəti altında idi. Ucqar bölgələr: Karall, Allabria, Andia, Zikertu Mannadan asılı olub, onun canişinlikləri sayılırdı. İranzu Manna vilayətlərini mərkəzi hakimiyyətə tabe edib, ölkədə canişinlik sistemi yaratdı. Onun vaxtında Mannanın quzey hüdudları Araz çayına, güneydə Parsua və Midiya hüdudlarına çatırdı. Urmu gölünün günbatarında yerləşən Gilzan vilayəti də, görünür, Mannaya qatılmışdı. Bkləliklə, Manna gələcək Atropaten dövləti hüdudlarında yerləşə bilmiş, qədim Şərqin dörd qüdrətli dövlətindən biri olmuşdu.

İranzunun zamanında Manna dövlətinin güclənməsi bəzi asılı ucqarları narazı salırdı. Onlar Mannadan ayrılmağa çalışırdılar. Mannanın xarici siyasəti ilə bağlı ikitirəlik yaranmışdı. Assuriya ilə yaxınlıq siyasətini müdafiə edən vilayətlər çoxluqda idi. Bu siyasi yönüm Mannanın dövlət bütövlüyünü qoruyur, Urartunun Urmu gölü bölgəsində işğalçılıq istəklərini boşa çıxarırdı. Bu qüvvələrin başında İranzu özü dururdu. O, Assuriyanın hərbi-siyasi qüdrətinə üstünlük verir, onunla müttəfiq münasibətlərini qoruyub saxlayırdı.



Andia, Zikertu, Uişdiş kimi bölgələr isə Urartunun fitnəsinə uyur, onun təhriki ilə birləşməyə çalışırdılar. Bu canişinliklərin ayrılma meylləri Mannanın bütövlüyünü parçalaya bilərdi.

Urartu çarı ***I Rusa*** Zikertu canişini ***Metattini*** İranzuya qarşı qaldıra bildi. M. ö. 719-cu ildən Mannanın ***Şuandahul*** və ***Durdukka (Zurzukka)*** şəhərləri Metattinin piyada və atlılarının köməyinə arxalanıb üsyan etdilər. Assur çarı II Sarqon (722-705) Manna ilə ittifaqı pozmadı. O, İranzunun xahişi ilə işə qarışdı və hakimiyyətinin son illərində zəifləmiş Manna hökmdarının köməyinə qoşun göndərdi. İranzu üsyanı yatıraraq, həmin şəhərləri yenidən özünə tabe edə bildi. Qədim ittifaq ən'ənəsinə uyğun olaraq, bu şəhərlərin əhalisi tərpənən mülkiyyəti ilə Assuriyaya göndərildi. Bundan başqa, Urartu çarı ilə müqavilə bağlayan Sukka, Bala və Abitikna şəhərlərinin əhalisi Suriyaya köçürüldü.

**MANNADA ÇƏKİŞMƏLƏR. II SARQONUN MANNAYA YÜRÜŞLƏRİ.** Qoca İranzu öləndən sonra böyük oğlu ***Aza*** (təxminən 718-716) taxta çıxdı. Onun qısa hakimiyyəti zamanı Mannada çəkişmələr artdı, tabe vilayətlərdə bölücülük gücləndi. Aza Assuriya ilə yaxınlığı davam etdirirdi. Bu siyasəti bəyənməyən Zikertu canişini Metatti, Andia canişini ***Telusina*** və Uişdiş canişini ***Baqdatti*** Urartu fitnəsinə uyub Azaya qarşı qiyam qaldırdılar. Manna dövləti parçalanma təhlükəsi qarşısında qaldı. Aza «əlçatmaz Uauş dağında» yer seçsə də, Urartudan kömək alan düşmənləri ilə bacarmadı; Aza öldürüldü, meyiti Uauş dağına atıldı.

M. ö. 716-cı ildə Azanın qardaşı ***Ullusunu*** Manna taxtına çıxdı. Assur yazısı bildirir ki, «öz atasının taxtına oturan mannalı Ullusunu urartulu Rusaya arxalandı və özünün 22 qalasını ona təslim etdi». Deməli, Ullusunu Urartu çarı I Rusanın köməyi ilə hakimiyyətə gəlmiş, əvəzində 22 Manna qalasını ona bağışlamışdı. Ullusunu Allabria hakimi ***İtti*** və ***Karalla*** hakimi ***Aşşurleni*** Assuriyaya qarşı çıxmağa sövq etdi. Bu, Ullusunu başda olmaqla Mannada Urartuya meyl edən qüvvələrin hakimiyyətə keçdiyini göstərir.

Mannanın Urartu ilə ittifaqa girib Assuriyaya qarşı çevrilməsi II Sarqonu narahat etməyə bilməzdi. O, Assuriyanın Manna kimi müttəfiqini itirmək istəmədiyi üçün tezliklə işə qarışdı, m. ö. 716-cı ildə Mannaya qoşun yeritdi. Ullusunu İzirtu şəhərini tərk edib əlçatmaz dağların birində gizləndi. Sarqon İzirtunu, həmçinin qala ilə möhkəmləndirilmiş ***İzibia*** və ***Armed*** şəhərlərini ələ keçirib yandırdı. Metatti öz dəstələri ilə birlikdə meşəlik dağa qaçıb, assur çarının gözündən yayına bildi. Sarqon Baqdattinin dərisini soydurdu. İtti ailəsi ilə birlikdə Assuriya vilayətlərindən birinə sürgün edildi, Aşşurlenin isə diri-diri dərisi soyuldu. Beləliklə, Mannada Assuriyaya qarşı yaranmış müxalifət başçılarının çoxu cəzalandırıldı. Assur çarının qələbə-

lərindən xəbər tutan Ullusunu mannalılarla birlikdə onun yanına gəlib, mərhəmət dilədi. Bir yazıda Sarqon bildirir ki, «onun saysız günahlarını mən bağışladım, onun cinayətlərini unutdum, ona mərhəmət etdim və onu öz hökmdar taxtına oturtdum». Assur çarı, həmçinin Mannanın nəzarətinin zəiflədiyi güney bölgələrə soxulub, Qızılüzən çayının yuxarı axarındakı ***Kişessu*** qalasını tutdu. Qızılbunda dağının güney ətəklərində və Əlvənd keçidi yamaclarındakı bir sıra qalalar Mannadan qoparılmış oldular.

Urartu çarı I Rusa Mannaya qarşı fitnələr davam etdirməkdə idi. bu dəfə o, Messi vilayətinin canişini ***Dayaukkunu*** Assuriya ilə ittifaqa qayıtmış Ullusunuya qarşı qaldırdı.

M.ö. 715-ci ildə II Sarqon Mannadakı müxalifətə qarşı yürüşə çıxdı. Urartuların tutduğu 22 Manna qalasını ələ keçirib, Assuriyaya birləşdirdi. Sonra Dayaukkunu ailəsi ilə birlikdə əsir alıb Suriyaya sürgün etdi; Messi Mannaya tabe edildi. Sarqon Qızılüzən çayının aşağı axarı ilə Andiaya girdi. Oradan 4200 əsir, çoxlu qaramal sürüsü apardı. Sarqon bundan sonra yürüşünü Midiyaya keçirdi. Yürüşün başlanğıcından Sarqonun müttəfiqinə çevrilən Ullusunu Urartuya qarşı mübarizədə ona kömək edirdi.

Urartuya arxalanmaq istəyən Zikerti və Andia canişinləri hələ tabe edilməmişdi. Manna hökmdarının təhriki ilə Sarqonun yeni yürüşü Urartuya qarşı çevrildi.

Sarqon başlanğıcda ***Surikaş*** (indiki ***Saqqız*** bölgəsi) adlı Manna vilayətinə girdi. Ullusunu onu «öz əyanları, ağsaqqalları, müşavirləri, nəslinin üzvləri, canişinləri və başqaları ilə birlikdə» ***Sihini*** qalasında qarşıladı. Manna üzərinə qoyulmuş bac ödənişi burada verdi. Sarqon yürüşün başlıca məqsədini gizlədib Allabriya, oradan öz əyaləti Parsuaya keçdi. Burada ona Midiyanın 26 «yaşayış məntəqəsi» hakimindən bac verildi; bunların arasında ***Andirpatianu*** qalasının (Qəzvin yaxınlığında) hakimi ***Maşdakku*** da vardı.

Assur çarı Parsuadan Mannanın Messi vilayətinə keçdi. Orada Manna hökmdarı yürüşü təmin etmək üçün ərzaq, qaramal və davar tədarük etmiş, atlar saxlamışdı.

Sarqon Ullusunu və mannalıların şərəfinə ziyafət verdi. O, Assuriya-Manna ittifaqını uca tuturdu. Bir yazıda assur çarı deyir ki, mannalıların «ağası hökmdar Ullusunun qarşısında mən fəxri süfrə açdım, onun taxtını atası, valideyni İranzununkundan daha yüksəyə mən qaldırdım, onları assurlarla bir süfrəyə mən oturtdum».

Assur çarı buradan Qızılbundaya yeridi. Qızılbunda yaşayış məskənlərinin başçıları onun Urartu yürüşünə kömək üçün «saysız iri və xırda (buynuzlu) heyvan apardılar». Qızılbunda haqqında Sarqonun bir qeydi də maraqlıdır: «bu dağlarda yaşayan adamlar öz güclərinə güvənir və üzərlərində başqasının hakimiyyətini tanımırlar; mənə qədər heç bir çar onların evlərini görməyib, adlarını eşitməyib, onlardan vergi almayıb».



I Rusa ilə savaşı tezləşdirmək üçün Sarqon Zikertuya yollandı. O, Mannada urartupərəst müxalifət ocaqlarını dağıtmaq istəyirdi. O, İştaraura çayını keçib, ***Parda*** şəhərində oturan Metatti üzərinə gəldi. Çünki sonuncu öz hərbi qüvvələrini kömək üçün I Rusanın sərəncamına göndərmişdi. Sarqon ***Uaşdirikka*** dağındakı düşərgəni dağıdıb, Zikertunun 13 qalasını talan etdi. Buradan, Mannanın Uişdiş vilayətinə yürüş etdi. Bu tədbirlər Rusa ilə Metattinin planlarını iflasa uğratdı. ***Uauş (Səhənd)*** dağı yanında qanlı döyüşdə Urartuya yardım edən qüvvələr darmadağın edildi. Sarqon bildirir: «qəddar düşmənin ayağını Manna ölkəsindən kəsdim, onların ağası Ullusununun ürəyini razı saldım». Sarqon iti yürüşlə Urmu gölünün gündoğarı ilə Quzeyə hərəkət edib, Mannanın ***Subi*** vilayətindəki ***Uşkaya*** (Təbrizə yaxın indiki ***Üski***) qalasına gəldi. ***Subi*** vilayətini (və ondan quzeydəki torpaqları) çəkişmələr zamanı I Rusa ələ keçirmiş, oranı Urartu üçün at bəsləmə yerinə çevirmişdi. Sarqon Uşkayanı döyüşsüz alıb, 4 m qalınlıqda qala divarlarını özülünədək dağıtmağı əmr etdi, qalaya yaxın 115 yaşayış məskənində bütün evləri yandırdı. Assurlar dalilər tayfası ölkəsindəki ***Tarui*** və ***Tarmakisa*** (indi Təbriz) kimi zəngin qalaları da beləcə dağıtdılar.

Bundan sonra Sarqonun yürüşü Urmu gölünün quzeyindəki Sanqibutu vilayətinə yönəldi. Sanqibutu urartuların əlində idi. oranın baş şəhəri Ulxu, onun ətrafındakı bağlar, üzümlüklər və otlaqlar, şəhərlə birlikdə bütün bu zənginliklər talan edildi, tapdaq altında qaldı, yandırıldı.

I Rusanın zəifləmiş ordusu o biri qalaları əldə saxlamağa belə cəhd göstərmədi. Əhalinin tələsik tərk etdiyi həmin qalaları assurlar döyüşsüz tutur, onlardakı ərzaq ehtiyatı və başqa sərvətləri ələ keçirirdilər. Onlar dağlara qaçan əhalini izləyərək, bir qismini qırdılar, yaşayış yerlərini yandırdılar. Nəhayət, assur qoşunu ***Qotur*** aşırımından («Arsabia və Ertia dağları arasındakı») Urartunun öz ərazisinə soxuldu. Sarqon Urartunun çoxlu şəhər və yaşayış yerlərini talan edib dağıtdı. I Rusa özünü öldürdü.

**MANNA DÖVLƏTİNİN GENİŞLƏNMƏSİ.** Sarqonun 714-cü il yürüşü Manna dövlətinin quzeyə doğru genişlənib bübün Güney Azərbaycan torpaqlarına yayılması, Urartu təcavüzündən yaxa qurtarıb tam müstəqil dövlətə çevrilməsi üçün şərait yaratdı.

Manna hökmdarı ilə müqavilə üzrə assur çarı Urartudan alıb Assuriyaya qatdığı 22 qalanı, üstəlik bərkidilmiş Uşkaya və Parda şəhərlərini Mannaya qaytarmalı oldu. Manna tabeliyindən çıxan Qızılbunda, Andia və Zikertu, həmçinin Urartunun əlinə keçən Uişdiş, Subi, Sanqibutu vilayətləri ona qatıldılar.

Sarqonun yürüşləri zamanı keçici olaraq urartuların əlinə keçən Manna torpaqlarında bir çox amansızlıqlara yol verilirdi. Bu, yalnız Assuriya ilə Urartu arasındakı ən'ənəvi düşmənçiliklə bağlı deyildi. Assurların çarı bu torpaqları qarət etmədən, şəhər və yaşayış məskənlərini yaxıb yandırmadan, əhalisini qırmadan, bir sözlə, o abad yerləri xarabalığa çevirmədən ittifaq müqaviləsi üzrə Mannaya qayıtmaq istəmirdi. O, qalaları (Uşkaya, ***Aniaştaniya, Tarmakisa*** və b.) alanda özülünədək dağıdır, evlərə, at tövlələrinə, taxıl anbarlarına, əkin sahələrinə, otlaqlara od vururdu. Geri alınan abad vilayət, şəhər və ya qala Mannanın iqtisadi və hərbi-siyasi qüdrətini artıra bilərdi. Nəticədə Manna dövləti Assuriya ilə ittifaqı pozub, Yaxın Şərqdə onun rəqibinə çevrilə bilərdi. Assuriya bunu istəməzdi.

Manna dövləti 714-cü ildən sonra xeyli möhkəmləndi və öz müstəqilliyini təmin etdi. Həmin ildə Ullusunu Assuriyaya bac vermişdi, lakin bundan sonra uzun müddət belə məlumatlara təsadüf edilmir. M. ö. 713-cü ildə Ullusunu Sarqonu bacla deyil, hədiyyələrlə qarşılamışdı; Sarqon isə Manna ilə ittifaqa uyğun olaraq Ulusunuya kətan və yundan toxunmuş rəngli geyimlər, xəncər və üzüklər bağışlamışdı. Lakin Sarqon ölkədən çıxan kimi, Ullusunu Assuriyanın siyasi üstünlüyünü tanımaqdan boyun qaçırdı. O, Assur çarının Midiyadakı vilayətləri tutmağa başı qarışmasından istifadə edib, Mannada öz hakimiyyətini gücləndirdi.

Manna dövlətinin hərbi-siyasi qüdrəti daha da böyüdü. II Sarqonun varisləri zamanında Manna hökmdarı Assuriyadan tamamilə üz döndərdi. Hətta ona qarşı çıxıb, Assuriya yaşayış yerlərini ələ keçirmək istədi. Görünür, assur çarı ***Sinaxerib*** (705-681) Mannaya buna görə yürüş etmişdi. Ancaq bu yürüş uğurlu olmadı, assurlar yalnız əsirlər ələ keçirib geriyə döndülər.

Urartu çarı isə Urmu gölünün quzeyindəki torpaqlardan gözünü çəkmir, fürsət düşən kimi oraya basqın edirdi. ***II Argiştinin*** (714-685) Savalan dağı ətəklərinə tərəf yürüşü buna misal ola bilər. Sərab şəhəri yaxınlığında tapılan eyni məzmunlu iki kitabədə yazılıb ki, Urartu çarı ***Arxi*** ölkəsinə yürüş etmiş, ***Uşulu*** və ***Buku*** ölkələrini talan etmiş, geri dönərkən ***Qirduni, Qituxani, Tuişdu*** ölkələrini də əzib onların üzərinə bac qoymuşdu. Lakin qarət məqsədli bu yürüş m. ö. VII yüzilin sonunda Urartu-Manna münasibətlərində bir epizod sayıla bilər. Bu ötəri uğur idi, Manna dövlətinin siyasi xəritəsini dəyişdirə bilməzdi.

M.ö. VII yüzilin 80-70-ci illərində Assuriyaya (həmçinin Urartuya) qarşı uğurlu mübarizə aparan Manna dövləti öz ərazisini qərb və cənubda genişləndirdi. O zaman Urmu gölünün günbatarında yerləşən Gilzan vilayəti də Mannaya qatılmışdı.

M. ö. 674-cü ildə Manna dövləti ilə Assuriya arasındakı savaşla bağlı yazılardan aydın olur ki, Mannaya tabe olan torpaqlar ***Hubuşkia*** çarlığı



(Van gölünün güneyində) və Urartu hüdudlarına kimi uzanırdı. Böyük Zab çayının yuxarı axınına kimi yerləşən torpaqlar Mannanın əlində idi.

Assur çarı ***Asarhaddon*** (680-669) mannalıların qarşısını almaqda çətinlik çəkirdi. Manna döyüşçüləri Assuriyanın bir neçə qalasını və yaşayış məskənlərini ələ keçirmişdilər. Adı çəkilən Assur çarı, Şamaş allahının rəmmalına üz tutub soruşdu: «Görəsən mannalılar ***Şarruikbi*** və ***Dur-Ellil*** qalalarını ələ keçirəcəklərmi?» bir qədər sonrakı yazılardan aydındır ki, mannalılar Şarruikbi qalasını başqa qalalarla (***Birua, Qusune*** və s.) bir sırada həqiqətən ələ keçirmişdilər; ***Asarhaddon*** hakimiyyətinin sonunadək bu qalaları geri ala bilmədi. Manna öz ərazisini Assuriya torpaqları hesabına genişləndirmədə idi.

Asarhaddonun rəmmallara müraciətlərində mannalılar təklikdə (müttəfiqsiz) xatırladılır. Başqa sözlə, mannalılar Assuriya hüdudlarındakı uğurların çoxunu kimmerlər və iskitlərlə ittifaqa girməzdən əvvəl qazanmışdılar.

M.ö. 674-cü ildə Manna hökmdarı ***Ahşeri*** «mannalıların ölkəsindəki vilayətə» gəlib məskunlaşan iskitlərlə Assuriyaya qarşı ittifaqa girdi. Bu ittifaqa midiyalılar da qoşuldu. Öz yürüşləri ilə Ön Asiyanı qorxu içində saxlayan iskitlər ilə müqavilə bağlanması Manna üçün çox xeyirli ola bilərdi. Ancaq olmadı.

Asarhaddon o ittifaqı pozmağı qarşısına qoydu. Təxminən 672-ci ildə «İşquz (iskit – *Red.*) ölkəsinin çarı» ***Partatua*** ilə yaxınlaşıb danışığa başladı. Danışıqlar nəticəsində assurlarla iskitlər arasında sülh və ittifaq bağlandı. Buna uyğun olaraq Asarhaddon öz qızını Partatuaya ərə verdi. İskitlər Assuriyanın sadiq müttəfiqi olub, Mannaya arxa çevirdilər. Bu, Mannanın sonrakı siyasi vəziyyətinə böyük təsir göstərdi.

**MANNA DÖVLƏTİNİN SÜQUTU**. Assuriya öz torpaqlarında Mannanın çaldığı qələbələr ilə barışa bilmirdi. Assur çarı ***Aşşurbanipal*** (669-627) Mannanın 674-cü il savaşında tutduğu torpaqları davasız geri qaytarmağa çalışırdı. O, Rəmmala belə bir sorğu ilə üz tutmuşdu: «(Assur ordusu) mannalıların ələ keçirdikləri Assuriya qalalarını geri qaytarmaq üçün getsə, ya xeyirxah sözlə, ya dostluq müqaviləsi ilə, ya döyüşlə, ya da adamların hər hansı bir hiyləgərliyi ilə, fərqi yoxdur, o, bu qalaları qaytaracaqmı, sənin böyük ilahiliyin bilir».

Assur torpaqları davasız qaytarılmadı. Buna görə də Aşşurbanipal Manna üzərinə yeridi. M. ö. 660/59-cu ildə ***Ahşeri*** Assur ordusunu Zaqros dağlarında yaxalasa da, uğur qazana bilmədi. Manna qoşunu geri oturduldu. Assurlar Mannanın güney hüdudu ilə İzirtu arasındakı 8 qalasını talayıb yandırdılar, sonra İzirtunu mühasirəyə aldılar. Ahşeri öz iqamətgahını ***İştattu*** (və ya ***Atranu***) qalasına keçirdi. Düşmən İzitrunu, ***Uzbia (Ziviyə)***

və *Urmeyate (Armait)* qalalarını 15 gün mühasirədə saxlasa da tuta bilmədi. Assur ordusu yaxın yaşayış yerlərini soyub əsirlər götürməklə, at, ulaq, qaramal qovub aparmaqla kifayətlənməli oldu.

Geri döndükləri zaman assurlar mannalıların 674-cü il savaşında ələ keçirdikləri assur qalalarını almağa başladılar. Mannanın Assuriyadan qopartdığı torpaqlar iki bölgədə yerləşirdi. Bunlardan biri ***Kiçik Zabın*** yuxarı axarındakı ***Şurdira*** qalası və Manna ilə ***Parsua*** arasındakı Allabria idi. Urmu gölündən günbatar hüdudlarda olan qalalardan isə assurlar hərbi sürsat və atlar ələ keçirdilər. Assuriya və Urartu üzərinə Manna hücumları üçün strateji dəyəri olan bu qalalar assurların əlinə keçdi.

Ahşerinin basılması onun özünə baha oturdu. Mannada daxili çəkişmələr kəskinləşdi. Aşşurbanipalın bir yazısında deyilir ki, Mannada «ölkə adamlarının» (azad icmaçılar və əkinçi qullar) üsyanı başladı. Üsyançılar Ahşerini öldürdülər, meyitini ayaq altına atıb «onun qardaşlarını, ailəsini, nəslini silahla qırdılar».

Görünür, sıravi əkinçi-maldar əhalinin həm dözülməz istismarı, həm də assurların yürüşü zamanı amansızlıqlara məruz qalması onları acıqlandırmış, xarici siyasətdə uğursuzluqdan fəallaşan assurmeylli qüvvələr bundan bacarıqla istifadə edə bilmişdilər. O zaman iskitlərin Mannada yerləşdirilməsi, həm də assurların yürüşü ilə bağlı yerli torpaq sahiblərinin öz mülklərini itirməsi də üsyanın qalxmasına səbəb olmuşdu.

Ahşerinin oğlu ***Ualli*** tezliklə Assuriya ilə ittifaqı bərpa etdi. Oğlu ***Erisinini*** kömək üçün və girov kimi, qızını isə kəniz kimi Aşşurbanipalın yanına göndərdi. Assur çarı isə bunun qarşılığında öz elçisini Mannaya göndərdi. Yəqin ki, öz qoşunu ilə ***Ualliyə*** kömək etdi. Hər halda Manna çarı axıra kimi Assuriyaya sadiq qaldı. Aşşurbanipal Manna üzərinə bac qoyub, onu özündən asılı etdi. Ualli, ödənilməmiş qalan bacı da, assurların tələbi ilə üstəlik 30 at da verməli oldu.

Mannalılar m. ö. VII yüzilin sonunadək Assuriya ilə ittifaqda qaldılar.

M.ö. 616-cı ildə ***Babilistan*** ilə savaşda Manna döyüşçüləri Assuriyanın tərəfində vuruşurdular. ***Qablin*** şəhəri yanındakı döyüşdə assur qoşunu məğlub oldu, mannalı döyüşçülər isə əsir edildi.

Bu savaşdan sonra (590-cı ilədək) Mannanın taleyi haqqında məlumat yoxdur. Görünür, Manna öz üzərində Midiya hakimiyyətini tanımalı olmuş, bununla öz daxili müstəqilliyini qoruyub saxlamaq imkanı tapmışdı. M. ö. 590-cı ildə Manna torpaqlarını Midiya ordusu bütünlüklə işğal etdi. İki yüz əlli il yaşamış Manna dövləti süqut etdi.



## 4. DÖVLƏT QURULUŞU. TƏSƏRRÜFAT, MƏDƏNİYYƏT

**DÖVLƏT QURULUŞU.** Manna dövlətini İzirtu şəhərində taxta oturmuş hökmdar – ***yanzu**** idarə edirdi. M.ö.VIII-VII yüzillərin assur yazılarından aydın olur ki, Mannada hakim sülalənin hakimiyyəti irsi idi. İranzunu böyük oğlu Aza, sonra o biri oğlu Ullusunu əvəz etmişdi; Ahşeridən sonra oğlu Ualli taxta çıxmışdı.

Manna Hökmdarının hakimiyyəti yəqin ki, qeyri-məhdud və təkbaşına idi. Hökmdarın yanındakı ağsaqqallar şurası gənəşmə qurumu idi, əslində süzerenin verdiyi hökmü təsdiqləməyə məcbur olurdu. Dövlətin xarici siyasətini hökmdar özü seçir, istədiyi zaman özü də siyasəti dəyişdirirdi. Manna hökmdarlarının tutduğu daxili və xarici siyasət yolunu dəyişdirmək üçün onlara qarşı sui-qəsdlər olurdu. Siyasi qüvvələr onlardan birini yıxıb, başqasını taxta çıxarırdı. Müxalifətçilərin etdiyi saray çevrilişlərinə hökmdarın Assuriya və Urartu dövlətləri ilə bağlı olan oğlu, ya qardaşı başçılıq edirdi. Manna əhalisi ölkənin həyatında fəal iştirak edirdi. Əhali xarici işğalçılara qarşı vilayət başçılarının qaldırdığı üsyanlarda qoşunla birgə çıxış edir, yadellilərin basqınlarına qarşı ölkənin müdafiə işlərinə qoşulur, yeri gələndə öz yaşayış məskənlərini kütləvi halda tərk edib, əlçatmaz sığınacaqlara çəkilirdi. Sıravi adamlar, hətta Ahşeriyə qarşı üsyan qaldıraraq, onu öldürmüşdülər. Qədim Şərq dövlətləri tarixində belə çıxışlar çox az baş verirdi.

Əhalinin ictimai fəallığı və ağsaqqallar şurasının olması tarixçilikdə bəzən Mannada qəbilə-tayfa quruluşunun izləri sayılır. İcma yaşayışını yenicə tərk etmiş siyasi qurumda o yaşayışın izləri qalmalı idi. Görünür, bu dövlətin Assur yazılarında çox vaxt «Mannalılar ölkəsi» adlandırılması da təsadüf deyil. Doğrudan da Manna dövləti tərkibində əsil mannalılarla yanaşı çivi yazılarda, teirla, messi, dali, sunbi, kumurdi kimi soyların adları çəkilir. Erkən sinifli cəmiyyətlər üçün dövlətin qarışıq soy tərkibi səciyyəvi hal idi. Bu, mərəkəzi hakimiyyət qurulması işini çətinləşdirirdi. Görünür, buna görə də İranzuya qədər dövlət hakimiyyətini mərkəzləşdirmək mümkün olmamışdı.

Manna dövlətinin ərazisi vilayətlərdən ibarət idi; onları hökmdarın qoyduğu canişinlər idarə edirdi. Manna inzibati idarəsində canişinlik qurumu vacib yer tuturdu. Canişin vəzifəsinə vilayətin nüfuzlu adamı təyin olunur, onların bəziləri irsi hakimlik edirdi. Bir sıra canişinlər mərkəzi haki-

---

* «Yanzu» kassilərdə hökmdar olub, hərfən «çar» deməkdir. Assurlar Midiya başçılarına da assurca «şarru» (çar) deyil, «yanzu» deyirdilər. M. ö. IX yüzildə Allabria hakimlərinin biri Yanzi adlanırdı. İranzu adı da «yanzu» hökmdar titulu ilə bağlı yarana bilərdi. «Yanzu» Mannada da yerli titul sayılır.

miyyətə tabe olmaq istəmir, dövlətdən ayrılmağa çalışırdılar. Onların Manna dövləti nəzarətindən yayınıb özbaşına hökmranlığa çalışması bu və ya başqa xarici dövlətə üstünlük qazandırırdı; yadelli işğalçıların (Urartu və ya Assuriyanın) təcavüzünə yol açırdı. Mannanın ucqar vilayətlərində (Messi, Qızılbunda, Andia, Zikertu) qabarıq görünən bu mərkəzdənqaçma meyli güclü despotik dövlət yaratmağa mane olurdu.

Manna idarəçiliyinin səciyyəvi cəhətlərindən biri idarəetmə işinə «məskən hakimləri»nin də cəlb edilməsidir. Bu adı yaşayış yerlərinin, oradakı soy və ya ərazi icmasının başçısı daşıyırdı. Qaynaqlarda «Məskən hakimləri» Ullusunu illərində ölkəni idarə edən başçılar sırasında xatırlanır. Onlar Ağsaqqallar Şurasının üzvü idilər.

Ullusunu II Sarqonu öz «ölkəsini idarə edən əyanları, ağsaqqalları, müşavirləri, nəslinin üzvləri, canişinləri və başçıları ilə birlikdə» qarşılamışdı. Bu sadalamadan aydın olur ki, dövlətin idarəetmə işində əyanlar (mətndə: «böyüklər»), müşavirlər və hökmdar ailəsinin üzvləri də iştirak edirdilər. Bu yazı Mannada saray və ola bilsin, idarəetmə iyerarxiyası haqqında təsəvvür yaradır.

Dövlət siyasəti daha çox Assuriyaya meylli idi. Bu, Assuriya ilə Urartu arasında savaşlarda üstünlüyün çox vaxt birincidə olması ilə bağlıdır. Həm də Urartu Mannaya qarşı çox kəskin, çılpaq təcavüz siyasəti yeridirdi. Buna görə Manna hökmdarı dövlətin ərazi bütövlüyünü qorumaq üçün Assuriya ilə ittifaqa daha çox meyl edir, bəzən ona bac da verirdi. Ancaq Assuriyanın zəifləməsi sezilən kimi Manna hökmdarı (Ahşeri) ona qarşı çıxır, torpaqlarının bir qismini ələ keçirir, Assuriya əleyhinə (iskitlərlə və b.) ittifaqa girirdi. Bir sözlə, Manna hökmdarları dövlətin bütövlüyünü çevik siyasət ilə qorumağa çalışırdılar.

Manna dövlətçiliyinin qorunması işində ordunun rolu böyük idi. Assuriya və Urartuya qarşı mübarizə gedişində Mannada güclü qoşun yaradılmışdı. Qoşun hökmdarın sərəncamında olub, hərbi yürüşlərə çıxarılır, Mannanın hüdudları boyu tikilən əlçatmaz qalalarda yerləşdirilirdi. İzirtu və başqa «hökmdar şəhərləri»ndəki (məs. ***Həsənlidə***) sarayları qoruyan ayrıca bölüklər vardı. Manna döyüşçüləri ox-yay, xəncər, qılınc, nizələrlə silahlanır, tunc lövhələr tikilmiş əlcəklər və dəbilqə geyir, döyüş arabalarından istifadə edirdilər.

**MANNADA ƏKİNÇİLİK**. Manna torpaqları dağlardan, dağlararası düzənlərdən, məhsuldar çay vadilərindən ibarət idi. Əlverişli təbii şərait orada təsərrüfatın aparıcı sahələrinin inkişafına imkan vermişdi.

Güney Azərbaycanın Qızılüzən, Cağartu, Qarasu, Əhər kimi çay vadilərində, Solduz və Muğan düzlərində, Ərdəbil ovalığında əkinçiliyin kökləri çox qədimdir. Orada dəmyə əkinçiliyi (indi olduğu kimi) geniş yayılmışdı. Az yağıntılı torpaqlarda süni suvarma arxlarından istifadə olunurdu. Çivili



yazılarda Mannanın Sanqibutu vilayətində suvarma arxlarının olması bildirilir; oradakı Bastam qalası (Maku bölgəsindədir) yaxınlığında 12 km uzunluqda əski suvarma arxı bəllidir. Həsənli qazıntılarında bir taxıl anbarından iki və altıcərgəli arpa, bir neçə növ buğda və darı qalıqları üzə çıxarılıb. Dəmir toxalar və oraqlar (Həsənli), bir cüt zebu qoşulmuş kotanın tunc modelləri (***Marlıqtəpə***) və başqa tapıntılar mannalılarda əkinçilik mədəniyyətinin yüksək olduğunu göstərməkdədir.

Assur çarlarının yürüşləri ilə bağlı yazılarında Mannanın zəmilərindən, taxıl anbarlarından dönə-dönə danışılır. Hələ m. ö. IX yüzilin başlanğıcında II Aşşurnasirapalın «Zamua ölkəsinin bütün hökmdarları» üzərinə qoyduğu ilik vergilər sırasında taxıl və saman vergisi xatırladılır. II Sarqonun yürüşü ilə bağlı yazılar üzrə Mannalılar assur çarının qoşununu ərzaqla təmin etməli idilər. Bundan ötrü ***Zirdakka*** qalasında Ullusunu bu yürüşün ərzaq mərkəzini yaratmış, oradakı anbarları un və çaxırla doldurmuşdu. ***Panziş*** qalasındakı ehtiyat zirzəmilərinə çoxlu yağ, taxıl, çaxır və hərbi sursat doldurulmuşdu. Uişdiş vilayətində Sarqon «məhsulu yandırmış, dolu anbarları açıb, saysız arpa ilə qoşununu yedirtmişdi». O, başqa bir yazıda: «ölkənin və əhalisinin yaşaması üçün onun uzun müddət anbarlara doldurduğu böyük arpa və buğda ehtiyatını atlarla, qatırlarla, dəvələrlə və ulaqlarla daşımağa bütün qoşunumu mən məcbur etdim və düşərgəmdə təpəciklər halında yığdırdım»-söyləyir. Bu yazılar Manna vilayətində taxıl toplayıb ehtiyat anbarlarında saxlamaq işinə dövlət nəzarəti qoyulmasını göstərir. Mannalılar taxıl və başqa məhsulların daşınmasında təkərli nəqliyyatdan (iki və dörd təkərli arabalardan), yük heyvanlarından istifadə ediblər.

Mannada bağçılıq, üzümçülük və şərabçılığın inkişafını göstərən biliklər də az deyil. Həsənlidə açılmış bir təsərrüfat binasındakı saxsı qablarda əncir və üzüm qalıqları tapılıb, II Sarqon Sanqibutu vilayətində meyvə bağları və üzümlüklərin çox olduğunu bildirirdi. II Sarqon Ulxu şəhərində çaxır zirzəmilərinə enməsindən, onun qoşununun «böyük və kiçik tuluqlardakı keyfiyyətli çaxırı çay suyu kimi içməsindən» ağızdolusu danışır. Çaxır ehtiyatı ***Zirdakka*** və ***Panziş*** qalalarında da yaradılmışdı. Arxeoloji qazıntılar zamanı Həsənli şəhərində iki cərgə ilə döşəməyə basdırılmış çoxlu iri çaxır küpləri zirzəmisi tapılıb. Bastam qalasında da nəhəng çaxır küpləri basdırılmış böyük bir zirzəmi qalıqları üzə çıxarılıb.

**MALDARLIQ VƏ ATÇILIQ**. Manna dağlıq ölkə idi. savalan, ***Bağro*** və ***Buzgüş*** silsilələrinin yaylaqları, ***Səhənd*** dağının çəmənlikləri maldarlıq üçün əlverişli idi. Qaradağ silsiləsi ətəklərinin Muğanla qovuşduğu torpaqlar faydalı qışlaqlar sayılır. Zaqros dağları yaylaqlarında ayaqaltı yem milyonlarla heyvan bəsləmək üçün yetərli idi.

Buna görə Mannada əkinçiliklə yanaşı maldarlıq aparıcı təsərrüfat sahəsi olub. Çivli yazılarda Manna torpaqlarında iri və xırda buynuzlu heyvanların, at ilxılarının bəslənməsi bildirilir. Əhali oturaq olduğu üçün Mannada yaylaq maldarlığı yayılmışdı. Urartu çarları öz yürüşlərində bunu nəzərə alırdılar. Onlar daha çox qənimət ələ keçirmək üçün ya sürülər dağlara aparılmamış, ya da yaylaqdan endikdən sonra yürüş edirdilər. Görünür, Həsənliyə yürüşün (nəticədə qədimi qala dağıdılmışdı) payızın başlanğıcına düşməsi təsadüf deyildi.

Assuriya və Urartu işğalçılarının Mannada ələ keçirdikləri başlıca qənimət qaramal, davar və at idi. yürüşlər yazıya alınarkən bir qayda olaraq heyvanların qovulub aparılması bildirilir.

Hələ m. ö. IX əsrin başlanğıcında II Aşşurnasirapal Zamua Hakimləri üzərinə «atlardan, iri və xırda buynuzlu heyvanlardan bac» qoymuşdu. III Salmanasar isə Mannada «saysız iri və xırda buyunuzdu heyvan» ələ keçirmişdi. I Argişti təkcə m. ö. 780-ci ildə Mannadan 22529 qaramal, 36830 davar, 100 dəvə; 779-cu ildə isə 6257 qaramal, 33302 davar, 606 at və 184 dəvə qovub aparmışdı. II Sarduri Puluadi ölkəsindən bir yürüşdə 1400 at, 1200 böyük və 18 min xırda buynuzlu heyvan, 115 dəvə sürüsü ələ keçirmişdi.

Həsənli qızıl camı üzərində allahların minmiş olduqları arabaya qoşulmuş qatırlar və öküzlər təsvir olunub; allahların qarşısına qurbanlıq qoyunlar gətirilib. Həsənlidə açılmış bir sıra qəbirlərdə keçi və qoyun sümüklərinin tapılması göstərir ki, Manna əhalisi, Quzey Azərbaycanda olduğu kimi, davarı ölüləri üçün qurban vermişlər.

Mannada atçılığın inkişafı qabarıqlığı ilə sezilməkdədir. Bu, təsərrüfatda və hərbi işdə atın üstünlüyü ilə bağlı idi, At yaylaqda daimi yaşayış yeri arasında başlıca hərəkət vasitəsi idi, həm də atlı qoşun üçün gərək olurdu. Buna görə bir sıra Manna vilayətində çoxlu at bəslənirdi.

Assur yazılarında Urmuətrafı bölgələrdə alınan bac sadalandıqda çox halda at birinci yerdə gedir. Bəzi bölgələrdə isə bac əsasən atla alınırdı. Zamua, Gilzan, Messi, Qızılbunda vilayətləri Assur çarlarına qoşqu atları göndərirdi. Ullusunu özü də II Sarqona «öz əsləhələri ilə birlikdə qoşqu atları» vermişdi. Subi əhalisi at yetişdirməkdə daha səriştəli idi. II Sarqon bildirir: «atlı (qoşun) üçün atları öyrətmək işində bacarığına görə bu vilayətdə yaşayanların bütün Urartuda tayı-bərabəri yoxdur». Bu yazılardan Subi atlarının iti qaçışlı olması bildirilir. Uşkaya ilə Tarmakisa arasındakı Aniaştania adlı bir yaşayış yerini II Sarqon «at ilxısı evi» adlandırmışdı.

Həsənli tapıntıları üzərindəki təsvirlərdə atdan həm minik vasitəsi kimi, həm də döyüş arabalarına qoşqu üçün istifadə edilib. Bu təsvirlərə görə bir və ya iki at qoşulmuş iki növ döyüş arabası varmış. İkiatlı arabaların



birində 3 döyüşçü var: arabanın ardınca iki döyüşçü yəhərli at aparır. Manna döyüş arabalarının ilkin Assur arabaları kimi 6 dəndəli təkərləri vardı.

Həsənlinin m. ö. IX əsr təbəqəsində ağac parçası üzərində yonulmuş atlı relyefi tapılıb. Bu, bütün İranda ən qədim atlı təsviridir. Arxeoloji tapıntılar arasında at başı şəklində saxsı ritonlar* da var. Burada qoşqu bəzəkləri və yüyənlərlə birgə dəfn olunmuş at qəbiri tapılıb. Atı döyüşçüdən ayrı basdırma mərasimi Marlıqtəpədə də gözə dəyir. Orada daşla səliqəsiz hörülmüş bəzi qəbirlərdə ancaq atın dişləri və yüyən tapıblar. Qonşu ***Kaluraz*** abidəsinin bir neçə qəbirlərində 3 at öz əsləhəsi ilə birgə dəfn olunub. Ata pərəstiş əlamətləri Naxçıvan bölgəsində də qeydə alınıb. Şahtaxtının bir neçə qəbirlərində atı insan kimi qab-qacaqla gömmüşlər.

Mannada dəvəçilik də yayılmışdı. Urartunun Mannadan apardığı qənimətlər sırasında dəvə sayca atdan təxminən üç dəfə azdır. Azərbaycanın quzeyində olduğu kimi, güney bölgələrdə də dəvəçilik maldarlıq təsərrüfatında yeni sahə idi, atçılıqdan sonra gəlirdi və başlıca olaraq yük daşınması ilə bağlı idi.

**SƏNƏT.** Güney Azərbaycan dağlarının faydalı qazıntılarla zənginliyi Mannada dağ-mədən işinin, sənət sahələrinin yüksəlişi üçün şərait yaradırdı; Qaradağ və Elbrusda mis, Zəncan ətrafında mis, dəmir və qızıl, Miyanə və Təbriz bölgələrində qurğuşun yataqları var. ***Əfşar, Xoy*** və ***Astara*** bölgələrində də qızıl yataqları qeydə alınıb. Ərdəbil yaxınlığında isə qədim mis mədənləri bəllidir. Çivli yazılar, arxeoloji tapıntılar Mannada çoxsahəli sənətin yüksəlişdə olduğunu göstərir. Assurların oradan aldıqları qənimət və bac siyahılarında həm metal qab-qacaq, həm də saf halda əlvan metallar xatırladılır. Hələ II Aşşurnasirapal Zamuali ***Amekanın*** sarayından «çoxlu mis avadanlıq, mis bardaqlar, mis camlar, mis sinilər» yağma etmiş, Zamua sənətkarlarını işləmək üçün öz paytaxtı ***Kalxu*** şəhərinə aparmışdı. III Salmanasar Gilzandan mis qab-qacağı, gümüş, qızıl və qurğuşunu bac kimi götürmüş; ***V Şamsi-Abad*** Qızılbunda yürüşündə gümüş qablar, saf qızıl və mis ələ keçirmişdi. Bir sözlə, m. ö. IX yüzildə Mannada metal qab-qacaq istehsal edən sənətin olması göz önündədir.

Həsənli və Marlıqtəpə tapıntıları çivli yazıların verdiyi bilikləri daha da dolğunlaşdırır; Burada tapılan qızıl və gümüş qab-qacaq, zərgərlik məmulatı qiymətli metalların bədii emalının, zərgər sənətçiliyinin çox yüksək səviyyədə olduğunu göstərir. Həsənli qızıl camı (m. ö. IX yüzil) gözəl sənət nümunəsidir. Camın üzərində allahlara qurban verilməsindən, xalq arasında yayılmış dastanlardan səhnələr verilib. O sıradan dirilik ağacı yanında qanadlı öküzlərin təsviri diqqəti özünə çəkir. Cam üzərində çəkilən üç xən-

* **Riton** – heyvan başı şəklində düzəldilən və buynuzu xatırladan qədəh.

cərin ikisi Muğan-Talış bölgələri arxeoloji mədəniyyəti üçün səciyyəvidir. Bu camın həmyaşıdı olan gümüş güldan üzərində qələbə səhnəsi: qalibin döyüş arabası ardınca məğlub olanların sıra ilə getməsi verilib. Marlıqtəpədə tapılan çoxlu metal qab-qacaq sırasında tunc qazanlar, qızıl və gümüş camlar, güldan var. Qızıl qabların üzərində rəsmlər çəkilib. İki qoyun üstündə qanadlarını gərmiş qartal, dirilik ağacının hər iki yanında qoyun, yatmış dağkeçilərinin iki sıra ilə düzülüşü, qanadlı öküzlər və qrifonlar (qartal başlı aslan), aslanın xallı maralı ovlaması, dal ayaqları üstündə arxa-arxaya söykənmiş keçilər, əfsanəvi atlar bu qabların başlıca bədii surətləridir. Zəngin rəsmi geyimdən düzəldilən qızıl insan heykəlciyi də dəyərli sənət əsəridir.

Marlıqtəpədən quzeydəki ***Kaluraz*** qəbiristanından qızıl və gümüş qədəhlər tapılıb. Onların üzərində aslanın maral, dağkeçisi və ya qanadlı aslan üstünə hücum etməsi verilib. Beləliklə, Marlıqtəpə qızıl qablarındakı relyef təsvirlərin bir qismi Həsənli camının təsvirlərinə, bir qismi isə Kaluraz qədəhləri üzərindəki relyef rəsmlərinə bənzəyir. Bu qabların hamısı hazırlanma və təsviretmə üslubuna görə bir-biri ilə bağlıdır. Qızıl və gümüş qablar üzərində bu çeşiddən olan rəsmlər Ön Asiya və İkiçayarasında geniş yayılmışdı. Bu, Assuriya, Babilistan, Mitanni və Elam bədii sənətinə xas olan göstəricidir.

Manna qab-qacağı üçün iki qiymətli metaldan istifadə edilməsi mürəkkəb texniki bilik, peşəkarlıq tələb edirdi. Həsənli gümüş güldanı üzərində relyef təsvir elektra (qızılla gümüşün qarışıq ərintisi) ilə çəkilib. Marlıqtəpə qablarından birinin gövdəsi gümüşdən, lüləyi isə qızıldan düzəldilib. ***Ziviyə*** dəfinəsindən olan bir gümüş qab üzərindəki təsvirlər qızılla inkrustasiya edilib. Həsənli ritonları (buzov, at və qoç başları görünüşü) sırasında da beləleri var. Qoç başı biçimli kiçik mis ritonun ağız kövbəsi heyvan təsvirləri çəkilmiş gümüş haşiyəyə alınıb; buynuzları gümüş təbəqəciklə örtülmüşdür. Dəmir xəncərin dəstəyi qızıl təbəqəciyinə bürünmüşdür və s.

Həsənli, Marlıqtəpə və Kaluraz zərgərlik məmulatına mis, tunc, gümüş və qızıl boyunbağılar, sırğalar, bilərziklər nümunə sayıla bilər. Qızıl, gümüş və əqiq muncuqlar da çoxdur. Zərgərlik işində burma qızıl teldən geniş istifadə olunub. Manna sənətçiliyində döymə, qəlibə tökmə, bəndvurma, həkketmə, oyma, lehimləmə, cilalama və başqa iş üsulları geniş yer tutur.

Manna sənətinin yüksəlişi zirvəsi m. ö. VIII-VII yüzillərə aid ***Ziviyə*** (Sarqonun yürüşündə xatırladılan Zibie qalası) dəfinəsi tapıntılarında özünü qabarıq göstərir. ***Saqqız*** şəhərindən 40 km gündoğara açılan bu dəfinənin 341 tapıntısının 43-ü qızıldan, 71-i gümüşdən, 103-ü fil sümüyündəndir. Dəfinə m. ö. VIII yüzildə vilayət hakiminin iqamətgahı kimi tikilən kiçik, lakin möhtəşəm divarlı qalanın içindən tapılıb. Ziviyə üslubu bir çox



tapıntı, o sıradan qızıl və gümüş ritonlar bu abidədən bir qədər aralıda ***Qaflantı*** adlanan qədim şəhər yerində* də üzə çıxarılıb.

Ziviyənin fil sümüyündən düzəldilən bəzəkləri saray mebelini (qoltuqlar, taxt, yataq dəsti, mücrü və b.) bəzəyirmiş. Üzərlərindəki təsvirlərin mövzusuna görə onların bir qismi Assuriya saraylarındakı mebel bəzəklərinə bənzəyir və «assuriya əyalət işinin» nümunəsi sayılırlar. Ancaq başqa bir qismi üzərində olan təsvirlər Ziviyə qızıl lövhələrindəki təsvirlərlə eynidir, yəni yerli kökdəndir. Qızıl və gümüş bəzəklər rəsmlərinə görə «qarışıq üslub»dan yaranmışlar. Burada Assuriya, Urartu, Kiçik Asiya və Suriya mövzuları yerli mövzularla qovuşmuş haldadır.

Ziviyə dəfinəsinə aid qızıl döşlük (pektora) hakimiyyət rəmzi sayılan tapıntılar sırasındadır. Belə döş bəzəkləri Urartu çarları və allahlarının heykəlciklərində, sonralar iskit qəbirlərində də tapılır. Döşlük üzərindəki təsvirlər (iki sırada əfsanəvi varlıqlar, dirilik ağacı yanında dal ayaqları üstündə qalxmış keçilər və qanadlı öküzlər) lövhəvari bəzəklər üzərinə çəkilənlər ilə (dirilik ağacı yanında qoyunlar, yenə əfsanəvi varlıqlar – qanadlı öküzlər) bir-birinə oxşardır. Bunların hər ikisinin kökü Həsənli və Marlıqtəpə sənətindəndir. Ucluğun ağzı gen açılmış aslan başı şəklində düzəldilən Marlıqtəpə və Ziviyə qızıl bilərzikləri bir-birinin eynidir. Yüzillər boyu yaşayan ən'ənəvi sənət biliklərinin ustadan şagirdinə ötürülməsi göz önündədir. Bir sözlə, Ziviyə sənətçiləri Həsənli və Marlıqtəpə ustalarının varisləri idilər.

Ziviyə bədii təsvirlərində bir «yeni təbəqə» gözə çarpır. Burada iskit heyvan təsviretmə üslubunun başlanğıcı izlənməkdədir. Döşlük uclarındakı bəbir, dovşan rəsmləri, qızıl kəmər və gümüş disk üzərində maral, bəbir, qrif başı, qoyun və dovşan təsvirləri bu baxımdan diqqəti özünə çəkir. Ayaqları yığılmış və iri şaxəli buynuzları olan maral, stilizə edilmiş bəbir, başını geri döndərmiş heyvan surətləri Qədim Şərq sənəti üçün yaddır. Ziviyə dəfinəsi isə həmin surətlərin yayıldığı İskit abidələrindən daha qədimdir. Deməli, ziviyəlilərin özünəməxsus təsviretmə üslubu m.ö. VII yüzilin 70-ci illərində Mannaya gələn iskitlər tərəfindən mənimsənilmiş, getdikcə «iskit heyvanı üslubu»na keçmişdir.

Mannada sənət sahələri üzrə (dəmirçi, misgər, silahsaz, zərgər və b.) emalatxanalar olmuşdur. Həsənlidə açılan sənətkar emalatxanası, oradan tunc bülöv və balta tökmək üçün daş qəliblər, bəzək şeyləri hazırlamaq üçün qəliblərin tapılması bir daha bunu sübut edir.

Mannada memarlıq, daşyonma və bənnalıq sənətləri də yüksək səviyyədə idi. Assuriya və Urartu təcavüzündən qorunmaq üçün orada çoxlu müdafiə istehkamları, gözətçi məntəqələri və qalalar tikilmişdi. İzirtu, Parda və başqa şəhərlər hasarlanmış, bir çox qalalar (Buştu, Zirdakka,

* Bəzi alimlər onu *İzirtunun xarabalığı* sayırlar.

Zible, İştatti, Uşkaya, Tarmakisa, indiki ***Bastam*** və ***Əqrəbtəpə***) möhtəşəm divarlarla əhatə olunmuşdu. II Sarqon Uşkaya qalasını belə xatırladır: «Güclü silahımın zərbilə mən bu qalaya qalxdım, onun bolluca varını yağmaladım və düşərgəmə aparmağa məcbur etdim. Onun qaya üzərində 8 dirsək qalınlıqda özülü olan möhkəm divarını diş-diş ucundan başlayıb özülünə qədər, bir dəfəyə mən dağıdıb yerlə bərabər etdim. Onun içərisindəki evləri mən yıxdım və onlardakı uzun tirləri mən oda tutub yandırdım».

Həsənli qalasının özülü iri daş plitələrlə 3,2 m qalınlıqda hörülmüş, hündürlüyü 10 m-ə çatırdı; qala divarı boyu hər 30-35 m-dən bir kvadrat şəkilli bürc tikilmişdi. Qala içərisində zəngin saray və məbədin, iki və üç mərtəbəli evlərin qalıqları var. Çoxotaqlı binalardan birində sütunlu salonun qalığı 18x24 m ölçüdədir (432 kv m). salonun tavanını 4 cərgə ilə düzülmüş ağac sütunları (7 m hündürlükdə) saxlayırmış. Bəzi otaqların divarlarına şirli kərpiclə üzlük çəkilməsi onlara assursayağı görkəm verirdi. Zibie (Ziviyə) qalasının divarı daha möhtəşəm – 7,5 m qalınlıqda olub. Hər iki qalanın tikilməsində kvadrat şəkilli çiy kərpiclərdən (34x34x9 sm; 38x38x16 sm) istifadə edilməsi qədim yerli ən'ənə göstəricisidir. Belə kərpiclər m. ö. II minilin birinci yarısında Üzərliktəpə, II Kültəpə və ya ***Həftəvantəpə*** qalalarının hörgüsündə işlədilmişdi.

Həsənlidə dulusçu kürəsi qalıqları üzə çıxarılıb. Manna dulusçuluğu Quzey Azərbaycanın dulusçuluq ən'ənələri ilə sıx bağlı olduğu üçün bir sıra qabların (məs. «çayniklər») forma və hazırlanma üsullarında eynilik gözə dəyir. Toxuculuq sənəti də geniş yayılmışdı. Həsənli və Marlıqtəpədən tapılan zərif və kobud parça qalıqları qoyun yunu və keçi qəzilindən toxunub. Hələ m. ö. IX yüzildə II Aşşurnasirapal Zamua vilayətindən yun və rəngbərəng yun geyimlərdən bac aldığını bildirirdi. Görünür, Mannada boyaqçılıq da varmış. Arxeoloji tapıntılar üzərində təsvirlərə görə Həsənli adamlarının üst geyimi dabana kimi uzanırdı, ancaq qısaqol idi. Geyimin ətəyi və qollarının ucları saçaqlı olurdu. Geyimə enli kəmər və ya qurşaq bağlanırdı. Manna döyüşçülərinin də uzun, aşağıya doğru genələn qırçınlı parça və dəri geyimləri olub. Döyüşçülər bəzən dizə çatmayan gödək köynək geyiblər. Döyüşçünün kürəyini sol çiyinə bərkidilmiş dəri örtürdü. Marlıqtəpə sakinləri də gödək libas geyir, enli kəmər bağlayırdılar. Bir qəbirdə sıra ilə düzülmüş qızıl düymələr tapılıb; onlar paltarın önünə tikilibmiş.

**MƏNƏVİ MƏDƏNİYYƏT.** Mannalıların dini görüşləri haqqında çivli yazı bilikləri azdır. II Aşşurnasirapal Zamuanın paytaxtı Zamri şəhərində bütləri ələ keçirməsini xəbər verir. II Sarqon bildirir ki, Mannalılar öz hökmdarı Ullusunu ilə birgə «Aşşur və öz allahları qarşısında mənim çarlığıma xeyir-dua verdilər». Buradan aydınlaşır ki, mannalılarda bütpərəstlik,



çoxallahlılıq yayılmışdı. Manna şəhərlərində allahların heykəlləri saxlanan məbədlər vardı. Həsənli qazıntısında böyük bir sütunlu salon-məbəd üzə çıxarılıb. Salonun ortasında kərpiclə hörülmüş 1 m hündürlükdə meydança qurban yandırılan mehrab imiş.

Allahlara itaət etmə və qurban vermə mərasimi Həsənli qızıl camı üzərində təsvir edilib. Qatır və öküz qoşulmuş üç arabanı saçları kürəyinin ortasına çatan, uzun geyimli, qanadlı allahlar sürürlər. İki kahin onları qarşılayıb ibadət edirlər, arxadan isə iki xidmətçi qurbanlıq qoyun gətirir. Öküz arabasındakı tufan və müharibə allahı (Assur allahı Adadın müqabili), qatır qoşulmuş arabadakılar isə Günəş və Ay allahları (İkiçayarasındakı ***Şamaş*** və ***Sinin*** müqabilləri) sayılıblar. Onlar birlikdə təbiətin xeyirxah qüvvələrini təmsil edirlərdi.

Mannalıların məişətində atın böyük rolu onun ilahiləşdirilməsinə gətirib çıxarmışdı. Atın ayrıca qəbirdə insansayağı (avadanlıqla birlikdə) dəfni bu baxımdan diqqəti özünə çəkir. Sənət nümunələri üzərində atın əfsanəvi çalarla verilməsi də təsadüf deyil.

Mannalıların mənəvi aləminə başqa totemlər də daxil olub. Ayı sifətli qadın, heyvan başlı kişinin saxsı heykəlcikləri (Marlıqtəpə), gümüş və qızıl qablar üzərindəki təsvirlər arasında öküzün insan sifətli və ya qoyun və keçilər kimi qanadlı verilməsi bəllidir.

Mannalıların dini inamında «Həyat ağacı»nın ayrıca yeri vardı. Həsənli, Marlıqtəpə, Kaluraz, Ziviyə və başqa abidələrin sənət məmulatı üzərində onlarca «Həyat ağacı» təsviri, yanında dik dayanmış və ya diz çökmüş heyvanların rəsmləri çəkilib. Yaxın Şərq sənətində geniş yayılmış dirilik ağacı mövzusu təbiətin gəlimli-gedimli olmasını göstərməklə yanaşı, insanların yaranışa və axirət dünyasına inamını ifadə etmişdir.

Mannalıların yaratdığı əfsanə və dastanlar onların dünyagörüşündən doğulurdu. Metal qab-qacaq və möhürlər üzərindəki təsvirlərin çoxu mövzu baxımından həm Manna, həm də qonşu ölkələrlə bağlı idi. Qartal başlı aslan (qrifon), qanadlı öküz, qanadlı qoyun, buynuzlu və qanadlı aslan, adamsifət öküz, qadın sifətli qanadlı sfinks və başqa aparıcı mifoloji surətlərin çoxu assurlar, hurrilər, kassilər və başqa xalqların əsatiri görüşləri üçün də səciyyəvidir. Görünür, Mannanın şifahi xalq yaradıcılığı Qədim Şərq mifoloji qaynaqlarından qidalanmaqda idi.

Marlıqtəpədən tapılan (m. ö. IX yüzil) böyük qızıl qədəh üzərində dörd sırada verilmiş təsvirlər mövzu baxımından bir bütövlük yaradır, bütöv bir hekayəti «oxumaq» imkanı verir. Bu hekayət «keçi həyatının tarixi» adlanır. Aşığı sıra doğuluş mövzusundadır: keçi öz balasını əmizdirir. İkinci sırada bala, artıq, buynuz çıxarmış çəpişdir, dirilik ağacının yarpaqlarını yeyir. Üçüncü sırada sıra ilə düzülüb gedən canavarlar, uçan yırtıcı quş

göstərilib, yəni yeni varlıq üçün ölümcül qorxu yaranmışdır. Yuxarıdakı dördüncü sırada isə keçinin cəmdəyini iki çalağan sökməkdədir. Bu təsvirlər ayrı-ayrılıqda assur, kassi və het dini-təsviri səhnələrinə bənzədilir. Mannalı usta sanki yerli əfsanə və ya nağılı qonşu xalqların dini mövzularından aldığı «iqtibasla» qab üzərində bəzəmiş, ancaq «öz sözləri ilə» səsləndirmişdir. Canlının taleyi haqqında bu Manna hekayəti indilərə kimi qalmış olan «keçi nağılı»nı xatırlatmaqdadır («Bir qurd çıxsa qarşına, sən nə edərsən ona?...»).

**MİDİYA VƏ ƏHƏMƏNİ İMPERATORLUQLARI TƏRKİBİNDƏ.** Bir-birinə qohum sayılan ***mad*** (midiya) və ***fars*** tayfaları İran yaylasına m. ö. I minilin başlanğıcında gəlmişdilər. Midiyalılar Mannadan güney-gündoğar səmtdə, İranın mərkəzində məskulaşdılar. Farslar isə urartuların və mannalıların təzyiqi altında güneyə doğru hərəkət edib, ***Elamın Anşan*** bölgəsində, indiki ***Fars*** əyalətində (assur qaynaqlarında Parsumaş, yunan müəlliflərində Persida) yerləşdilər.

M. ö. IX-VIII yüzillərdə midiyalıların yaşadığı torpaqlar kiçik vilayətlər və şəhər-dövlətlərdən ibarət olub, tayfa başçıları tərəfindən idarə edilirdi. Assur çarları Midiyaya vaxtaşırı basqınlar edib, oranın çoxsaylı hakimlərini özlərindən asılı hala salırdılar. M. ö. VIII yüzilin sonunda onlar Assuriyaya tabe edildilər. II Sarqon Midiyanın 45 hakimindən bac alırdı.

İskitlərin Ön Asiyaya gəlməsi və Midiyada məskunlaşmaları midiyalıları Assuriyaya qarşı mübarizədə fəallaşdırdı. Bu mübarizəyə ***Kaştariti*** başçılıq edirdi. Mannalılar və iskitlər midiyalılara kömək edirdilər. M. ö. 673-cü ildə Assuriya ağalığına qarşı uğurlu üsyan müstəqil Midiya dövlətinin yaranması ilə bitdi.

Assuriya ilə müttəfiq olan iskitlər sonradan gözlənilmədən midiyalılar üzərinə hücum etdilər. Kaştariti döyüşdə öldürüldü. M. ö. 653-625-ci illərdə Midiyada iskitlər ağalıq etdilər. Onların 28 illik ağalığına Kaştaritinin oğlu ***Kiaksar*** (624-584) son qoya bildi. O, iskitlərin başçılarını qonaq çağırıb qılıncdan keçirmiş, Midiyanı asılılıqdan qurtarmışdı. Kiaksar bütün midiyalı tayfaları paytaxt Ekbatan (indiki Həmədan) olmaqla vahid dövlətdə birləşdirdi. O, tezliklə güclü nizami ordu yaratdı, ordunu silah növlərinə uyğun (nizəçilər, oxatanlar və atlılar) dəstələdi, Assuriyaya qarşı müharibəyə hazırlaşdı.

M. ö. 616-cı ildə Yeni Babilistan çarı ***Nabopalasar*** Assuriyanı və onun müttəfiqi mannalıları əzdi. M. ö. 614-cü ildə isə midiyalılar Assuriyanın ***Aşşur*** şəhərini dağıdıb, əhalisini qırdılar. Şəhər tüstülənən xarabazara çevriləndə Nabopalasar ora gəldi. Midiyalılar və babillər ittifaq bağladılar. M. ö. 612-ci ildə müttəfiqlər ***Ninəva*** şəhərini birdəfəlik məhv edib, əhalisini



qırdılar. M. ö. 605-ci ildə ***Karxemiş*** qalasının alınması Assuriyanın süqutunu tamamladı. Assuriya torpaqları Midiya və Babilistan arasında bölüşdürüldü.

Manna sonuncu dəfə m. ö. 593-cü il hadisələri ilə bağlı Bibliyada (İeremiyanın kitabında) Urartu və İskit çarlıqları ilə bir sırada xatırladılır. O zaman Manna hələ dövlət olaraq qalırdı. M.ö. 590-cı ildə Manna torpaqları Midiyaya qatıldı. Bundan sonra tarixçilərin dediyi kimi, Manna Midiyanın iqtisadi və mədəni özəyinə çevrildi.

M. ö. 593-cü ildən sonra Mannanın adı qaynaqlarda artıq, çəkilmir. Araz çayından quzeydəki Azərbaycan torpaqları isə Midiyaya qatılmamışdı.

Midiya qurama imperatorluq idi. ***Herodot*** yazır ki, Midiya ağalığı çağında «bir xalq başqası üzərində, midiyalılar isə hamısı üzərində, xüsusilə öz yaxınlığında olanlar üzərində, bu sonuncular isə öz qonşuları üzərində, onlar da öz hüdudlarındakı xalq üzərində hökmranlıq edirdilər». Midiya iqtisadi özülü olmayan, bir fatehin uğurları sayəsində yaranan hərbi-inzibati birləşmə idi. ***Kiaksar*** oğlu ***Astiaqa*** (584–550) qüdrətli dövlət qoyub getmişdi. Onun zamanında Midiya zəiflədi. ***Parsumaş*** hakimi ***II Kuruş*** (Kir) fars tayfalarını birləşdirib, Midiya ilə savaşda (553 – 550) qalib gəldi və bütün Midiyaya yiyələndi. Keçmiş Manna torpaqları da Əhəməni dövləti tərkibinə keçdi və sonralar ***Kiçik Midiya*** adlanmağa başladı.

II Kuruş quzey Azərbaycan torpaqlarının tabe edilməsinə çalışdı. M. ö. 530-cu ildə o, ***massagetlərə*** qarşı yürüş etdi. Herodot yazır ki, «bu xalq çoxsaylı və olduqca cəsur xalqdır, Araz çayının o tayında yaşayır». O bildirir ki, «Araz çayı matienlərin ölkəsindən axır». Matienlər Urmu gölünün günbatarında yaşayırdılar, yəni burada söhbət Azərbaycandan gedir. ***Pomponi Mela, Böyük Plini, Dion Kassi*** və başqalarının yazılarından aydınlaşır ki, massagetlərin ölkəsi Dərbəndlə Gilgilçay arasındakı torpaqlarda yerləşirdi. Beləliklə, II Kuruş massagetləri ram etməklə Alban torpaqlarına yiyələnmək istəmişdir. Onun bu istəyi baş tutmadı. ***Tomirisin*** başçılıq etdiyi ikinci döyüşdə İran ordusu darmadağın edildi, Kuruş döyüşdə öldürüldü. Əhəmənilərin Arazdan quzeydəki torpaqları işğal etməyə yönələn ilk yürüşü boşa çıxdı.

Əhəmənilər Alban torpaqlarının coğrafi-strateji dəyərini nəzərə almalı idilər. Onlar bü zaman iskitlərin Dərbənd keçidini aşıb Ön Asiyanın bir çox ölkəsini sarsıtmasını, 28 il Midiyada hökmranlıq etdiyini yaxşı bilirdilər.

Buna görə Əhəmənilər ilkin alban torpaqlarını ələ keçirmək niyyətindən əl çəkmirdilər. Buna ***I Dara*** (522–486) nail oldu. Herodota görə, həmin şahın vaxtında Əhəməni dövlətinin hüdudları quzeydə Böyük Qafqaz dağlarınadək uzanırdı. O yazır: «Hətta kolxlar və onların Qafqaz silsiləsinə

qədərki qonşuları (axı fars dövləti bu dağlara qədər uzanır, Qafqazdan quzeydəki vilayətlər farslara tabe deyillər) könüllü hədiyyələr verməyi öz üzərlərinə götürüblər. Bu xalqlar(ın hər biri) indi də şaha 100 oğlan və 100 qız göndərirlər».

Alban torpaqlarını tutarkən I Dara «*şişpapaqlı*» sakaların (Herodotda ortokoribantilərin) daha ciddi müqavimətinə rast gəlmişdi. ***Bisütün*** yazısına görə o, sakalara qarşı getmiş, ordusu ilə çayı keçib onları əzmiş, sağ qalanları əsir tutmuşdu. Dara sakaların ***Skunxa*** adlı başçılarını devirib yerinə başqasını qoymuş, ölkələrini tabe etmişdi.

Herodotun yazdığına görə I Dara İmperiyanı 20 satraplığa (canişinliyə) və ya inzibati vergi dairəsinə ayırmışdı. ***Kaspilər*** (onların tərkibində yəqin ki, albanlar da olub) bir sıra tayfalarla XI satraplığa daxil idilər və Əhəməni xəzinəsinə 200 talant vergi verirdilər. ***Utilər*** və ***miklər (muqlar)*** XIV satraplıqdakı tayfalarla birgə 600 talant, «şişpapaqlı» sakalar və ya Alban sakasenləri, midiyalılar, kadusilər (Ksenofonta görə) və başqaları ilə birgə 450 talant ödəməli idilər.

Fars-yunan savaşları zamanı ***Kserksin*** (486 – 465) ordusunda Azərbaycanda yaşayan bu tayfaların hərbi dəstələri iştirak etmişdilər. Utilər və muqlar I Daranın o biri oğlu ***Arsamenin*** komandanlığına tabe idilər. Piyada və atlılardan ibarət olan kaspi döyüşçüləri Herodota görə, qamışdan qayrılmış oxlar və akinaklarla silahlanmışdılar. Beləliklə, Quzey Azərbaycanda yaşayan tayfalar Əhəmənilərə vergi verməklə yanaşı hərbi mükəlləfiyyət də daşıyır, İran ordusunu döyüşçülərlə təmin edirdilər.

Azərbaycanın quzeyində Əhəməni hakimiyyətinin izləri başqa şəhərlərdə də gözə dəyir. Qazax şəhərindəki ***Sarıtəpə*** yaşayış yerində qazıntılar zamanı m. ö. V-IV yüzillərə aid saray tipli bina qalığı üzə çıxarılıb. Orada daşdan yonulmuş zəngvari iki sütun altlığı tapılmışdır. Bu tapıntılar Suz və ya Persepoldakı sütun altlıqları ilə eyni görünüşlüdür. Sarıtəpədəki binanı tikən ustalar ya həmin şəhərlərdəki sarayları öz gözləri ilə görməli, ya da Əhəməni memarlığına dair rəsmlərdən faydalanmalı idilər. Ola bilsin, bu sütun altlıqlarını düzəldənlər bir zaman Əhəməni saraylarının tikintisində iştirak edən yerli ustalar imiş. Bəzi tədqiqatçıların fikrincə, Sarıtəpə binası Qafqazdakı Əhəməni satraplarından birinin iqamətgahı olub.



*DÖRDÜNCÜ BÖLÜM*

# ATROPATEN VƏ ALBAN DÖVLƏTLƏRİ

## 1. ATROPATEN DÖVLƏTİ

**ATROPATEN DÖVLƏTİNİN YARANMASI.** Miladdan əvvəl I minilliyin ortalarında Azərbaycan ərazisi İran ***Əhəmənilər*** imperiyasının tərkibinə daxil idi. Əhəmənilər sülaləsindən olan şahlar yaratdıqları nəhəng imperiyanı satraplıqlara (əyalətlərə) bölmüşdülər. Ayrı-ayrılıqda bu satraplıqların özləri də geniş əraziyə malik idilər. Bir qayda olaraq İran padşahının qohumları və ya başqa yüksək nüfuzlu İran əyanlarından təyin edilən satraplar bu satraplıqlara başçılıq edirdilər. Bəzi hallarda, xüsusi ilə ucqar əyalətlərdə yerli əyanlardan da satraplar təyin olunurdu.

***Makedoniyalı İskəndərin*** Şərqə yürüşü nəticəsində Əhəmənilər imperiyası süqut etdi. Az sonra, m. ö. 323-cü ildə Makedoniyalı İskəndərin vəfatı ilə bağlı onun yaratdığı imperiya dağıldı. Nəticədə Azərbaycan ərazisində iki böyük dövlət – şimalda ***Alban***, cənubda isə tarixdə ***«Kiçik Midiya», «Atropat Midiyası», «Midiya-Atropatena»*** adları ilə tanınan Atropaten dövləti yarandı.

İndiki ***Azərbaycan*** adının dildə baş verən fonetik dəyişikliklər nəticəsində Atropaten adından əmələ gəlməsi ehtimal olunur. Atropaten dövlətinin öz adını isə, bir qayda olaraq, axırıncı Əhəməni padşahı ***III Dara Kodomanın*** (m. ö. 336-330) dövründə Midiyanın satrapı, görkəmli dövlət xadimi və sərkərdə ***Atropatın*** adı ilə bağlayırlar. Sözün yazılışı ərəbdilli qaynaqlardan gəlmədir, əvvəllər isə «Adurbaqdan», «Adərbaqdan» yazılışı işlənmişdir. Azərbaycan adının bu izahı Strabon «Coğrafiya»sındakı yazıya, yəni Yunan-Roma coğrafiya düşüncələrinə uyğundur. Ancaq orta çağlarda bəzi tarixçilər bu adın ölkədəki atəşgah, od anlayışları ilə bağlı olaraq yarandığını yazmışlar. Onların fikrincə, «Azər», «Atr»-pəhləvicə od, «Pat»-qoruyucu, «qan» isə yer bildirici və ya şəkilçidir. ***Təbəri*** «Tarix»i bu baxımdan başlıca nümunə sayılmaqdadır. Bu tarixçiliyə görə pəhləvicə atəşə «azər» deyirlərmiş və «ibadət edilən atəşin ən böyüyü burada olduğundan məmləkətə əcəmilər Azərbaycan demişlər». ***Həmdullah Qəzvini*** və başqa müəlliflərə görə də adın ikinci kökü Əzərbaz/Azərbad adlı peyğəmbərlik iddiasında olan (guya ***Nuh*** peyğəmbərin oğlu) birisinin od məbədi tikdirməsi ilə ortaya çıxmışdır. Bir neçə tarixi qaynaqda isə sözün türk kökündən yaranması bildirilməkdədir. Bunların arasında ***Rəşidəddinin*** «Cami ət-Təvarix» (1305) və ***Təbrizli Məhəmməd Hüseyn bin Xələfin***

*Hindistanda* yazdığı (1652) «Burhan-i Qatı» əsərləri var. Bü müəlliflərin fikrincə, *azər* – türkcə «yüksək yer», *bayqan* isə «böyüklər» deməkdir. «Azərbaycan» sözünün əski türk boylarından biri olan «Az» xalqı (***Kültigin*** abidəsində adı çəkilir) ilə bağlı olduğunu yazan alimlər də var; belə olduqda sözün kökündə duran «Azər» parçası «Az (xalqı) kişiləri və ya döyüşçüləri» kimi mənalandırıla bilər.

Antik müəlliflərin verdiyi məlumata görə, Əhəməni imperiyasının taleyini həll edən məşhur ***Qavqamel*** döyüşündən əvvəl Atropat, III Dara tərəfindən Makedoniyalı İskəndərə qarşı göndərilən atlı kəşfiyyat dəstəsinə başçılıq edirdi. II yüzil yunan tarixçisi ***Flavi Arrianın*** yazdığına görə, həmin döyüşdə «kadusilər, albanlar və sakasinlər də midiyalılarla (madalılarla) birləşmişdilər». Bu yazıdan aydın olur ki, adı çəkilən etnoslar Qavqamel döyüşünə təbəə kimi deyil, Atropatın müttəfiqləri kimi qatılmış idilər. Albanlar və sakasinlərin Atropatla müttəfiqliyi göstərir ki, hələ Əhəmənilər çağında ***Mada*** satrapı olarkən Atropat müstəqil siyasət yeritmiş, öz təsirini Quzey Azərbaycan torpaqlarının çox hissəsinə yaya bilmişdir.

M. ö. 331-ci il oktyabr ayının 1-də ***Dəclə*** çayından şərqdə, ***Arbela*** şəhəri yaxınlığındakı Qavqamel kəndi yanında baş vermiş döyüşdə Atropatın komandanlıq etdiyi mədalılar İran ordusunun sağ cinahında, kadusilər sol cinahda yerləşirdilər. Bu döyüşdə də İskəndər qələbə çaldı. Makedoniyalılar Şərqin böyük şəhərləri olan ***Suz, Persepol, Pasarqadı***, bütün İranı tutdular. Əhəməni imperatorluğu süqut etdi.

Başlanğıcda İskəndərlə Atropat arasında, təbii, düşmənçilik qalırdı. Döyüşkən kadusilərə, quzey müttəfiqləri albanlar və sakasinlərə arxalanan Atropat, görünür, əvvəlcə İskəndərə qarşı mübarizəni dayandırmamışdı. Strabon buna işarə edərək yazır ki, Atropat «bu ölkənin (gələcək Atropatenanın – Red.) makedoniyalılara tabe olmasına yol vermədi». Atropat İskəndərin görüşünə getmədiyi üçün Mada satrapı vəzifəsindən kənar edilmiş, bu vəzifəyə ***Oksodat*** təyin olunmuşdu.

Lakin tezliklə Atropat makedoniyalılarla yaxınlaşmağı bacardı. İskəndərin Madaya yürüşü zamanı Atropat onun görüşünə gedib, sədaqət bildirdi. Bununla Atropat m. ö. 328-ci ildə Mada satrapı vəzifəsini özünə qaytarmış oldu. Ancaq bu dəfə Atropatın hakimiyyəti yalnız Kiçik Mada torpaqlarını əhatə edirdi.

Atropat uzaqgörənliklə İskəndər və makedoniyalılarla yaxınlaşma, dostluq siyasəti yolunu seçmişdi. O, nəhəng imperatorluq ilə qarşıdurmanın faydasız olduğunu yaxşı anlayırdı. Bu imperatorluğun qonşuluğunda müstəqil bir dövlət yaratmaq üçün çox çevik siyasət gərək idi. Bu yolda Atropat bir sıra diplomatik addımlar atdı. İskəndərlə birlikdə 80 nəfərə yaxın silahdaşı və 10 min Makedoniya döyüşçüsünün Şərq qadınlarına evlənməsinə həsr olunmuş Suz toylarında Atropat öz qızını ***Perdikkaya***



ərə verdi. Perdikka İskəndərin müşayiətçisi, ən nüfuzlu Makedoniya sərkərdələoindən biri idi. Makedoniyalılarla bu qohumluq Atropatın mövqeyini möhkəmləndirdi, ona Asiyanın yeni sahibləri sırasına daxil olmaq imkanı verdi. M. ö. 324-cü ilin yayında daha bir təşəbbüs göstərdi.

***Bariaks*** adlı birisi makedoniyalıların hakimiyyətinə qarşı üsyan qaldırıb, özünü Parsa və Madanın çarı elan etdi. Atropat öz gücü ilə Bariaksın üsyanını yatırdı, üsyançını əsir edib, makedoniyalılara verdi. Bariaks Pasarqadda qətlə yetirildi. İskəndər ***Madadakı Nisay*** çölündə olanda da Atropat ora yollanmış, Şərqin yeni hökmdarının yaxın adamları sırasına qoşulmuşdu. Burası da bəllidir ki, İskəndər təntənəli siyasi toplantı və mərasimləri çox xoşlayırdı. ***Flavi Arrianın*** yazdığına görə ***Ekbatanda*** keçirilən belə şənliklərin birində (m. ö. 324-cü ilin payızı) Atropat İskəndərə kişi geyimli və yaraqlı 100 atlı qızdan ibarət süvari dəstə bağışlamışdı. Bu nadir «hədiyyə» də İskəndəri razı salmalı idi.

Deyilənlərlə bağlı antik müəllitflərin Atropaten və Atropat haqqında bəzi yazıları izah etmək gərəkdir. M. ö. II yüzil tarixçisi Polibi yazmışdır: «bu çarlığı makedoniyalılar ***gözdən qaçırmışdır***». Strabon isə bildirmişdir ki, Atropat «bu ölkənin Böyük Midiya kimi makedoniyalılara tabe olmasına ***yol vermədi***. Doğrudan da, təntənə ilə çar elan edilən Atropat ***öz hökmü ilə*** bu ölkəni müstəqil etdi...» Aydın olur ki, Atropat öz uzaqgörənliyi, çevik siyasəti ilə ölkəsini makedoniyalıların gözündən (nəzarətindən) yayındıra bilmiş, onların bu ölkəyə ayaq basmasına yol verməmişdi.

Buna görə də İskəndərin vəfatından sonra onun imperatorluğu m. ö. 323-cü il Babil toplantısında diadoxları arasında bölünəndə Atropat bu bölgüdə iştirak etməmişdi. Həmin toplantıda Atropatın kürəkəni Perdikka dövlət regenti və ya qaynaqlarda deyildiyi kimi, «çarlığın himayəçisi» oldu. Atropatın ölkəsi bu toplantıda yad edilmədi, Polibinin dediyi kimi, «gözdən qaçırıldı». M.ö. 321-ci ildə Perdikka öləndən sonra imperatorluq Triparadis şəhərindəki toplantıda yenidən bölüşdürüldü. Kiçik Mada bu bölüşmədən yenə kənarda qaldı. Ba vaxtdan Kiçik Mada artıq müstəqil dövlət vəziyyətinə gəlmişdi. Yeni dövlət, Strabona görə, onun ilk çarının adı ilə «Atropatena» və ya «Atropat Midiyası» adlanırdı.

**ƏRAZİSİ VƏ TƏSƏRRÜFATI.** Atropaten dövləti əsasən Cənubi Azərbaycan və İran Kürdüstanı torpaqlarını əhatə edirdi. Sonralar mövcud siyasi vəziyyətə uyğun olaraq dövlətin ərazisi dəyişikliyə uğramaqda idi. Məsələn, Polibinin verdiyi məlumata görə, m. ö. III yüzilin 20-ci illərində bu dövlət Kaspi dənizindən ***Rioni*** çayının yuxarı axarınadək torpaqları əhatə edirdi. Yəni o vaxt ***Ermənistan*** və ***İberiya*** torpaqlarının bir hissəsi Atropaten hüdudlarına daxil idi. ***Selevkilər, Parfiya*** və Ermənistanla münasibətlər Atropaten hüdudlarının böyümə-kiçilməsi ilə nəticələnirdi. Strabon

yazır ki, «atropatenlilərin güclü qonşuları vardır: ermənilər və parfiyalılar tez-tez onların ölkəsini viran edirlər. Lakin onlar müqavimət göstərir və zəbt edilmiş torpaqlarını geri alırlar».

Güney Azərbaycan torpaqlarında Mannadan 270 il sonra müstəqil Atropaten dövlətinin yaranması burada iqtisadiyyatın inkişafına təkan verdi. Kiçik Mada (Atropaten) iqtisadi və coğrafi baxımdan Böyük Mada ilə bağlanmayan, öz iqtisadi özülünün olması ilə, İran yaylası tarixində aparıcı iqtisadiyyatı ilə fərqlənən bir ölkə idi. Strabon yazır ki, «bu ölkənin bütün vilayətləri məhsuldardır, şimalı isə dağlıqdır..».

Çay vadilərində, xüsusilə Urmiya gölü ətrafındakı məhsuldar torpaqlarda əhali əkinçilik, bağçılıq və üzümçülüklə məşğul olurdu. Ən çox buğda və arpa becərilirdi. Antik müəlliflərdən Strabon, ***Yevstafi*** və başqaları bu ərazinin məhsuldarlığından bəhs edərək yazırdılar ki, burada bir üzüm tənəyindən 1 metret (təxminən 40 litrə yaxın) çaxır hazırlamaq olur, bir əncir ağacı isə 60 medimn (1 medimn – 52,53 litr) məhsul verir. Bu ərazidə nar və bir çox başqa meyvələr də yaxşı yetişirdi.

Alp çəmənlikləri ilə zəngin dağlar ölkədə köçmə maldarlıq üçün əlverişli şərait yaradırdı. Antik dövr müəllifləri (Polibi, ***Elian*** və b.) Atropatendə çoxlu xırda və iribuynuzlu heyvan sürülərinin, at ilxılarının olması haqqında məlumat verirlər.

Atropaten iqtisadiyyatının inkişafına şərait yaradan amillərdən biri də ölkənin ərazisinin bir sıra faydalı qazıntı yataqları ilə zəngin olması idi. Burada dəmir, mis, qurğuşun, gümüş, qızıl və başqa faydalı yataqlar mövcud idi. Bu xammal yataqları ölkədə müxtəlif sənət sahələrinin inkişafı üçün şərait yaradırdı. Arxeoloji qazıntılar zamanı tapılan bilərziklər, sırğalar, üzüklər Atropaten zərgərlərinin yüksək ustalığını sənədləşdirir. ***Miyanə*** tərəfdəki ***Qale Zöhaq*** və ***Ərdəbil*** yaxınlığındakı «***Qala***» adlı yerdə arxeoloji axtarışlar zamanı tapılan boyalı, naxışlı və şirli qablar, zoomorf qab-qacaq Atropatenin özünəməxsus dulusçuluq məktəbinin olmasını bildirir. Əsas yeraltı sərvətlərdən biri neft idi. Nefti çox vaxt «Midiya yağı» adlandırırdılar. Ondan hərbi işdə də istifadə olunurdu. Urmu gölünün suyundan duz istehsal edirdilər.

Sənətkarlıq və ticarət şəhərlərdə daha çox inkişaf etmişdi. Atropaten sənətkarları yüksək keyfiyyətli metal və gil qablar, müxtəlif silah növləri, toxuculuq məmulatı, bəzək şeyləri, təsərrüfat və məişətdə işlənən başqa məhsullar istehsal edirdilər. Ölkənin ərazisindən beynəlxalq ticarət yollarının keçməsi daxili və xarici ticarətin inkişafına, şəhərsalma işinə müsbət təsir edirdi. Ellin dövlətlərini birləşdirən mühüm ticarət yolları Atropaten ərazisindən keçirdi. ***Baktriya, Hindistan*** və ***Çin*** malları Ekbatan şəhərinə, oradan ***Qazakaya*** gətirilir, buradan isə ***Pont*** (Qara) dənizinə, Kiçik Asiya vasitəsilə ***Aralıq*** dənizinə aparılırdı. Ekbatandan Qazakaya gələn ticarət



yolunun bir şaxəsi Kaspi sahili ilə Alban ölkəsinə, oradan quzeyə doğru gedirdi. Strabon yazır ki, bu yolla dəvə karvanları Hindistan və Babilistan malları daşıyırdı. Ticarətdə puldan geniş istifadə olunurdu. Atropaten ərazisində tapılan ən qədim pullar Makedoniyalı İskəndərin adından kəsilmişdir. Orada Parfiya pullarından da geniş istifadə etmişlər. Atropaten ərazisində hələlik yerli hökmdarlar adından kəsilən sikkələrə rast gəlinməmişdir.

**ƏHALİSİ.** Atropaten tarixinə dair son illərdə bir sıra əsərlərin nəşr olunmasına baxmayaraq, ölkənin etnik tərkibi və əhalisinin dili hələ tam aydın deyildir.

Bu ərazidə qədimdən yaranan Manna dövlətinin sonralar Midiya tərəfindən işğal olunması, daha sonra həmin ərazinin Əhəmənilər imperiyasına qatılması, şübhəsiz, yerli əhalinin etnik tərkibinə təsir göstərmişdir. Atropaten əhalisi o zaman başqa qonşu ölkələrdə olduğu kimi, yeknəsəq olmamışdır. Antik dövr müəlliflərinin məlumatlarına görə bu ərazidə ***matienlər, saqartilər, kadusilər, gellər, utilər, anariaklar, pavsiklər, mardlar, maqlar, azərilər*** və başqaları yaşamışlar. Güman ki, antik müəllif tərəfindən adları çəkilən ***miklərin, kaspilərin*** də müəyyən hissəsi Atropaten ərazisində yaşamışdır.

Mateinlərin qədim huri tayfası mitannilərə, saqartilərin burada qədimdə yaşamış zikertularla bağlı oluqları söylənilir.

Atropaten ərazisində yaşayan tayfalardan biri də kadusilər idi. Qaynaqlarda onlar midiyalıların, kaspilərin, albanların, matienlərin qonşuları kimi göstərilirlər. Onlar 20 min peltast (yüngül silahlı piyada) və 8 min atlıdan ibarət hərbi qüvvə çıxara bilirdilər. Strabon yazır ki, kadusilər yaxşı mizraq atır, dağlıq yerlərdə çox yaxşı döyüşərək suvariləri əvəz edirlər. Güman edilir ki, onlar Xəzərin cənub-qərb sahillərində yaşayan gellər və kaspilərə yaxın idilər.

Midiya tayfaları arasında maqlar xüsusi yer tuturdular. Onlar ***Zərdüşt*** dini ayinlərinin əsas icraçısı olub, xalq içərisində böyük nüfuza malik idilər. Maq dedikdə təkcə bu adı daşıyan tayfa deyil, eyni zamanda Zərdüşt dininin kahini nəzərdə tutulurdu. Maqlar Zərdüştün varisləri sayılırdı. Lakin maqların təlimində hakim Zərdüşt inamından fərqli cəhətlər də var idi.

Ərəbdilli qaynaqlarda (***Məs'udi, Yaqut, Müqəddəsi, İbn Havqəl, Bələzuri*** və b.) ilk orta əsrlərdə Cənubi Azərbaycan əhalisinin böyük bir hissəsinin azərilərdən ibarət olduğu göstərilir.

Çox güman ki, göstərilən dövrdə Azərbaycanın həm cənub (Atropaten), həm də şimal (Alban) bölgələrində türkdilli tayfalar da yaşamış və onlar Azərbaycan türkcəsinin yaranmasında mühüm rol oynamışlır. Belə ki, bu ərazidə m.ö. VII-VI əsrlərdən başlayaraq iskit-saka tayfaları da məs-

kunlaşmışlar. Bir sıra tədqiqatçılar hesab edirlər ki, iskit və sakalar içərisində türkdilli tayfalar da olmuşdur. Kaspiləri də türkmənşəli sayanlar vardır.

Əhəmənilər dövründə Mada satraplığı kimi tanınan inzibati birləşməni Strabon Kiçik Madaya və Böyük Madaya ayıranda, yəqin ki, Atropaten əhalisinin etnik baxımdan madalılardan fərqli olmasını nəzərdə tuturdu. Ola bilsin Polibi və Strabon «atropatilər» və ya «atropatenlilər» ifadələrini bu mənada işlədirdilər. Burası da bəllidir ki, Böyük Madanın əhalisi ellinləşmə təsirinə davam gətirməyib, öz etnik simasını itirmişdi. Belə bir etnosun Böyük Mada ilə iqtisadi və hətta coğrafi birliyi olmayan Kiçik Madaya «nisbətən kiçik qruplar, hətta tək-tək ailələr halında köçməklə» oranın yerli əhalisini «iranlılaşdırması» fikri tarixi gerçəkliyə uyğun deyildir. Bu cür «iranlılaşma» baş versəydi, orada yaşayan və «Əhəmənilər dövründə madalılar tərəfindən assimilyasiyaya uğramamış saqartalılar, müklər, utilər, parikanlar, ortokoribantlar, kadusilər, dareytlər, pantimatlar, pavsiklər, kaspilər, matienlər, mardlar, anariaklar və digər tayfalar» (baxın: Azərbaycan tarixi, Bakı, 1993, səh. 75) öz etnik adlarını itirmiş olardılar. Proses baş vermədiyi üçün həmin tayfaların adları miladın başlanğıcına qədər qalmaqda idi. Yəni antik dövrdə Atropaten əhalisi etnodil baxımından vahid deyildi.

## 2. SİYASİ TARİX

**ATROPATEN DÖVLƏTİ ELLİNİZM DÖVRÜNDƏ.** Makedoniyalı İskəndərin Şərqə yürüşü ilə Yaxın və Orta Şərqdə Yunan mədəniyyətinin təsiri gücləndi. Əlbəttə, Şərq mədəniyyəti də Yunan mədəniyyətinə öz təsirini göstərirdi. Bu qarşılıqlı təsir ellinizm adı almışdır. Makedoniyalı İskəndərin yaratdığı nəhəng imperiyanın dağılması ilə Yaxın və Orta Şərqin siyasi xəritəsində əsaslı dəyişikliklər baş vermiş, burada bir sıra ellinçi (ellinləşmiş – yunanlaşmış) dövlətlər yaranmışdı. Atropaten dövləti də bu dövlətlərdən biridir. Şərqdə ən böyük ellinçi dövlət Kiçik Asiyadan başlayaraq Hindistana qədər bir ərazini əhatə edən ***Selevkilər*** dövləti idi. m. ö. III yüzilin ortalarında bu dövlətdən Parfiya (buna Arşakilər dövləti də deyilir) və ***Yunan-Baktriya*** dövlətləri ayrıldı. Heç şübhəsiz, Atropaten bu dövrdə baş verən çox mürəkkəb siyasi hadisələrdən kənarda qala bilməzdi. Lakin IV yüzilin 20-ci illərindən I yüzilin əvvəllərinə kimi Atropaten haqqında yazılı qaynaqlarda məlumat yox dərəcəsindədir. Bu dövr ərzində qaynaqlarda Atropaten adı bir neçə dəfə çəkilir.

Ancaq müstəqil bir dövlət olan Atropaten Böyük və ya Aşağı Midiyadan tamamilə ayrı idi. Aşağı Midiya bütünlüklə makedoniyalıların nəzarəti altına düşdü. Yunanlar Şərqlə əlaqəni əsasən bu ərazi vasitəsilə saxladıqları üçün oraya xüsusi fikir verirdilər. Burada şəhərlər salınır və onlarda Makedoniya döyüşçüləri yerləşdirilirdi. Bu, Midiyada ellin mədəniyyətinin yayılması üçün şərait yaradırdı. Beləliklə də, Böyük Midiya özünün siyasi müstəqilliyini, ərazi bütövlüyünü, etnik kimliyini itirirdi.



Kiçik Midiyada isə əksinə, siyasi, inzibati, iqtisadi və etnik birləşmə prosesi gedirdi. Ancaq ellin mədəniyyətinin təsiri Atropaten ərazisində də yayılırdı. Atropaten siyasi tarixi haqqında qaynaqların az olmasına baxmayaraq, ehtimal olunur ki, Atropatın varisləri – Atropatilər öz dövlətlərinin siyasi və iqtisadi qüdrətini möhkəmləndirməyə və artırmağa çalışmışlar.

Ellinizm dövründə, ətraf ölkələrdə olduğu kimi, Atropatilər ölkənin iqtisadi və mədəni inkişafını təmin etmək üçün şəhərsalmaya çox fikir verirdilər. Yazılı qaynaqlarda Atropatendə ***Qazaka, Fraaspa, Fanaspa, Anqazana*** adlı iri yaşayış yerlərinin adları çəkilir. Ölkənin mərkəzi şəhəri, Atropaten hökmdarlarının olduğu yer Qazaka idi. sonralar ərəb qaynaqlarında ***Cənzə*** kimi adı çəkilən bu şəhər indiki Marağanın yaxınlığında, Urmiya gölünün cənub-şərqində yerləşirdi. Atropaten şəhərləri arxeoloji cəhətdən hələlik yaxşı tədqiq olunmamışdır. Lakin aparılan arxeoloji qazıntılar həmin şəhərlərdə müdafiə tikililərinin, böyük ictimai binaların memarlıq baxımından yüksək məharətlə ucaldılmasını, əhalinin müxtəlif sənətkarlıq sahələri və ticarətlə məşğul olmasını göstərir.

Atropaten hökmdarları öz mövqelərini möhkəmləndirmək üçün Selevki, Ermənistan və Parfiya hökmdarları ilə əlaqələrə girir, qohumluq münasibətləri yaradırdılar.

M. ö. IV əsrin sonu – III əsrin əvvəllərində I Selevk və I Antioxun dövründə Selevkilər dövləti uğurlu müharibələr nəticəsində çox güclənmişdi. Müxtəlif xalqların yaşadığı belə bir dövlətin bütövlüyünü uzun müddət saxlamaq çətin idi. Selevkilər dövlətindən Parfiya və Yunan Baktriya dövlətlərinin ayrılması bununla bağlı idi. Selevkilər daha vacib saydıqları ərazilərdə müharibələr apardıqlarından Atropaten və Albaniya ərazisinə çox diqqət edə bilmirdilər. Hələ Makedoniyalı İskəndərin dövründə ***Heraklidin*** başçılığı ilə Xəzər dənizini və onun ətrafını tədqiq etmək üçün ekspedisiya təşkil olunmuşdu. Lakin Makedoniyalı İskəndər öldüyü üçün ekspedisiya baş tutmadı. Yalnız 40 il sonra, 283-282-ci illərdə I Selevk və onun oğlu Antiox Xəzəri və onun qərb sahillərini tədqiq etmək üçün ***Patroklun*** başçılığı ilə ekspedisiya təşkil edə bildilər. Lakin Selevkilər dövlətindəki mərkəzdənqaçma qüvvələr və başqa qonşu dövlətlərlə ölüm-dirim müharibəsi onlara bu əraziyə daha çox diqqət göstərməyə imkan vermədi. Makedoniyalı İskəndərin imperiyasının dağılması nəticəsində əmələ gələn dövlətlər, o cümlədən Selevkilər dövləti m. ö. bütün 3-cü yüzil boyunca dağılmış imperiyanın siyasi xəritəsini öz xeyirlərinə dəyişdirmək üçün müharibələr aparırdılar. Görünür, Atropaten müəyyən səbəblərə görə bu hadisələrdən

kənarda qalırdı. Yalnız III əsrin 20-ci illərində qaynaqlarda yenidən Atropaten haqqında məlumata rast gəlinir. Bu barədə Polibi xəbər verir. O vaxt geniş ərazini əhatə edən Atropaten dövlətinin hökmdarı ***Artabazan*** idi.

M.ö. 223-cü ildə Selevkilər dövlətində hakimiyyət başına ***III Antiox*** (223 - 187) gəldi. Onun dövründə Selevkilər dövlətinin müəyyən hərbi müvəffəqiyyətləri oldu. III Antioxun dövründə Selevkilər Aralıq dənizinin şərq sahillərində ilk dəfə güclənmiş Roma ilə toqquşdu.

III Antiox Midiya satrapı Molonun üsyanını yatırdı. Görünür, Atropatenlilər Molonu müdafiə etmişdilər. Bu da III Antioxa Atropatenə hücum etmək üçün əsas verdi. Bu müharibədən sonra III Antioxla Artabazan arasında bağlanan sülhə görə Artabazan Selevkilərdən asılı vəziyyətə düşdü. III Antiox Şərqə uğurlu yürüş etdi. Selevkilər itirdikləri əyalətləri müvəqqəti olaraq qaytardılar. Ekbatanda Anahita ilahəsinin məbədini talan edib çoxlu varidat əldə etdilər. Yunan-Baktriya dövləti də Selevkilərdən asılılığını qəbul etməli oldu. III Antioxun daha sonra Hindistana, İran körfəzinə doğru yürüşləri müvəqqəti olaraq Selevkilər dövlətinin qüdrətini artırdı. Buna görə də III Antiox «Böyük» titulunu qəbul etdi. Bu yürüşlər Selevkilər dövlətinin tamamilə dağılmasının qarşısını aldı. III əsrin axırı Selevkilər dövlətinin çox güclü dövrü sayılır.

Lakin m. ö. 190-cı ildə Antiox ***Maqneziya*** döyüşündə romalılar tərəfindən məğlub edildi. Selevkilər dövlətinin parçalanma prosesi yenidən gücləndi. Bununla bağlı Atropaten dövləti də yenidən müstəqil oldu.

M. ö. II əsrin ortalarına yaxın Selevkilər bütün Şərqdə satraplıqlarını itirdilər. Bu vaxt Qərbi İranda və ətraf ərazidə bir sıra xırda dövlətlər yarandı. Bunlardan biri də Ermənistan padşahlığı idi. Onun padşahı I Artaşeş Selevkilərə tabe olmayaraq öz sikkəsini zərb etdi. I Artaşeş əvvəllər çox kiçik olan ölkəsini bəzi ətraf əraziləri işğal etməklə genişləndirdi.

Bu zaman Parfiya dövləti getdikcə güclənirdi. M. ö. 141-ci ildə Parfiya padşahı ***I Mitridat*** Böyük Midiyanı, daha sonra Mesopotamiyanı (İkiçayarasını) işğal etdi. II əsrin axırlarında Parfiya nəhəng dövlətə çevrildi. Lakin qaynaqlarda parfiyalıların Atropateni tutmaları haqqında məlumat yoxdur. Görünür, atropatilər o zaman öz dövlətlərinin müstəqilliyini qoruyub saxlaya bilmişdilər. Strabon m. ö. I əsrin axırlarında yazırdı ki, Atropatendə hələ də Atropatın varisləri hökmranlıq edirlər.

Ellinizm dövründə bütün Yaxın və Orta Şərq ölkələrində yunan mədəniyyəti və yerli xalqların mədəniyyətləri bir-birinə qarşılıqlı təsir göstərirdi. Yunan mədəniyyətlərinin təsiri yunan dili və yazısının yayılmasında, təsviri incəsənət və memarlıqda bəzi yunan ünsür və ən'ənələrinin, dini görüşlərinin yayılmasında özünü göstərirdi. Lakin bu təsir bütün ölkələrdə eyni deyildi. Böyük Midiyada Atropatenə nisbətən yunan mədəniyyətinin təsiri daha güclü idi.



**PARFİYA, ROMA VƏ ERMƏNİSTANLA MÜNASİBƏTLƏR.** M. ö. II əsrin ikinci yarısı, I əsrin birinci yarısında o dövrün iki böyük dövləti olan Parfiya ilə Roma Ön Asiyada ağalıq uğrunda bir-biri ilə mübarizə aparırdılar.

Parfiya yüksək inkişaf etmiş Şərq və Qərb mədəni ölkələri arasında vasitəçi rol oynayırdı. M. ö. II əsrin ortalarında Roma Karfageni darmadağın edib Ellin ölkələrini bütünlüklə özünə tabe etdi, Aralıq dənizinin şərq sahilləri ölkələrinin də işlərinə qarışmağa başladı.

Bu zaman Ön Asiyada siyasi vəziyyət çox qarışıq idi. Selevkilər dövləti gücdən düşmüş, bir sıra ellin mədəni mərkəzləri dağılmışdı. Ancaq yeni yaranan xırda dövlətlərin yuxarı təbəqələri Romanı qullar üsyanına və başqa xalq hərəkatına qarşı dura biləcək bir qüvvə sayırdılar. Bununla yanaşı İran və Trançqafqaz ölkələri, o cümlədən Atropaten üçün Roma, müstəqilliklərini əllərindən ala biləcək, təhlükəli bir düşmən idi.

Yunan-Makedoniya işğalçılarına qarşı başlanan mübarizə indi Romaya qarşı yönəlmiş idi. Şərq xalqları çox vaxt yunanlarla romalılara eyni gözlə baxırdılar.

Parfiya və Atropaten təbii olaraq yunanlara və romalılara qarşı mübarizədə müttəfiq idilər. Hər iki ölkədə ***Zərdüşt*** dininə inanırdılar. Parfiya hökmdarı II Mitridat (m. ö. 128-37) Ermənistanı məğlub edərək özünə tabe etdi və şahzadə ***Tiqranı*** girov götürdü. Tiqran uzun müddət Parfiya hökmdarları Arşakilərin sarayında girov saxlandı. Parfiya hökmdarı onu II Tiqran adı ilə Ermənistan taxtında oturtdu (m. ö. 95-55-ci illər). Bunun əvəzinə II Tiqran vəd etdiyi iki dövlət arasında mübahisəli olan 70 vadini Parfiyaya verdi.

Ancaq sonralar geniş işğalçılıq siyasəti yeridərək Parfiyaya qaytardığı vadiləri yenidən tutdu. O, güclü ***Pont*** dövlətinin hökmdarı ***VI Mitridat Yevpatorun*** qızına evlənmiş, öz qızını isə Atropaten hökmdarı Mitridata ərə vermişdi. II Tiqran şəraitdən istifadə edərək ***Kappadokiya*** və ***Suriyanı*** işğal etmiş, Ermənistan ərazisini xeyli genişləndirmişdi. Lakin az sonra ***Lukull*** və ***Pompeyin*** başçılığı ilə romalıların şərqə yürüşü nəticəsində (m. ö. 69-65) II Tiqran bütün işğal etdiyi ərazini itirdi, xəzinəsində toplanan var-dövləti tamamilə romalılara verməli oldu.

M. ö. 69-cu ildə birinci toqquşmada Roma sərkərdəsi Lukull Ermənistanın mərkəzi Tiqranakert yanındakı döyüşdə üstünlük qazandı. Qaynaqların məlumatına görə bu döyüşdə II Tiqranın tərəfində onun kürəkəni Atropaten padşahı ***Mitridat*** da böyük atlı dəstəsi ilə iştirak edirdi. Sonra Şərqdəki müharibədə bəzi uğursuzluqlara görə Roma senatı ***Lukullu*** geri çağıraraq onu yerinə ***Gney Pompeyi*** təyin etdi. Pompey Parfiya ilə müqavilə bağlayaraq Ermənistana hərəkət etdi. 66-cı ildə II Tiqran Pompeyin təklif etdiyi şərtlərlə onunla sülh bağlamağa məcbur oldu; işğal etdiyi

ərazilərdən əl çəkdi, Romaya böyük məbləğdə təzminat verməli oldu, Romadan asılı vəziyyətə düşdü.

Ola bilsin bu dövrdə Atropaten xarici işğalçılara qarşı mübarizədə öz müstəqilliyini saxlaya bilmişdi. Strabonun verdiyi məlumata görə o zaman Atropaten dövləti 10 min atlı, 40 min piyadadan ibarət ordu çıxara bilirdi.

M. ö. I əsrin ortalarında Şərqdə Romanın ən güclü rəqibi Parfiya dövləti idi. Parfiya 53-cü ildə Şimali Mesopotamiyada ***Karr*** döyüşündə romalıları böyük məğlubiyyətə uğratdı. Bu döyüşdə 20 min Roma döyüşçüsü məhv edildi, 10 min döyüşçü isə əsir alındı. Döyüşdə atropatenlilər parfiyalılarla eyni cəbhədə idilər. Bu zaman Atropaten hökmdarının ***I Ariobarazan*** olması güman edilir.

Lakin Parfiyanın bu uğuru uzun sürmədi. 38-ci ildə ***Gindar*** döyüşündə parfiyalılar ağır məğlubiyyətə uğradılar. Bu zaman Roma triumviri ***Mark Antoni*** böyük ordu ilə Şərqdə öz təcavüzkar planlarını həyata keçirməyə çalışırdı. O, İskəndərin imperiyasına bənzər iri Asiya dövləti yaratmaq arzusunda idi. bundan ötrü əvvəlcə Parfiyanı, onun müttəfiqlərini əzmək gərək idi. M. ö. 36-cı ilin yayında Antoni çoxsaylı ordu ilə* hərbi əməliyyatlara başladı. Romalılara qarşı Parfiya və Atropaten müttəfiq kimi birgə mübarizə aparırdılar. Antoni Romanın əyaləti Ermənistandan keçib, ***Xoy-Mərənd*** yolu ilə Atropatendə ***Fraaspa*** şəhərinə (qalıqları indiki Marağa yaxınlığındadır) doğru hərəkət etdi. O, 300 mühasirə maşını və qalauçuran qurğular ilə dağ yollarından keçdi. Ordunun bir qismini öz leqatı ***Oppi Statianın***, erməni çarının və Pont çarı ***Polemonun*** mühafizəsinə buraxıb Fraaspanı mühasirə etməyə tələsdi. ***Plutarx*** onun bu səbirsizliyini müharibə taktikası baxımından səhv addım sayır. Doğrudan da, ordu yollarda uzun məsafəyə səpələnmiş halda idi. Təxminən 50 minlik parfiya-atropaten atlısına başçılıq edən Parfiya çarı ***IV Fraat*** bu vəziyyətdən istifadə edərək «güclü atlı dəstəsi göndərdi və bu dəstə Statianı mühasiryə alaraq 10 min roma döyüşçüsünü məhv etdi. Statianın özü də həlak oldu. Barbarlar onun maşınlarını sındırdılar. Onların əlinə xeyli əsir keçdi. Əsirlərin arasında ***Polemon*** da vardı» (Plutarx). Bu döyüşdə erməni çarı öz atlıları ilə birlikdə döyüş meydanından qaçmışdı. Aryerqardın məhv edilməsi və erməni çarının qaçması hərbi əməliyyatların taleyini həll etdi. Antoni Fraaspanın mühasirəsindən əl çəkmirdi, o, şəhərin mühasirəyə və uzun müddətli müdafiəyə yaxşı hazırlanmasını gözləmirdi. Bir tərəfdən də parfiya-atropaten atlıları romalıların geri çəkilmə yolunu kəsmiş, onları mühasirəyə almışdılar.

Fraaspada mühasirədə olan əhalinin inadlı müqaviməti, Antoninin ərzaq üçün göndərdiyi dəstələrin məhv edilməsi, düşərgədə aclıq başlanması Roma qoşunlarında ruh düşkünlüyü yaratmışdı. Fraaspanın mühasirəsi uzanırdı. Bir tərəfdən də mühasirədə olan şəhərlilər qala darvazalarını gözlənilmədən açıb romalıların düşərgələrinə ağır zərbə vururdular. Belə vəziyyət bir dəfə Antonini çox əsəbiləşdirmiş, mühasirənin yarıldığı yerlərdəki döyüşçülərinin hər 10 nəfərindən birini edam etdirmişdi.

Qışın yaxınlaşması hər iki tərəfi qorxuya salmışdı. Antoninin qış mənzilləri yox idi, 50 minlik parfiya-atropaten qoşununu isə çöl düşərgəsində saxlamaq çox çətin idi. Plutarx yazır: «Müharibə hər iki tərəf üçün ağır idi, onun gələcəyi isə daha dəhşətli görünürdü». Birinci olaraq Antoni dözmədi. O, IV Fraatın yanına elçilər göndərib, qənimət kimi götürdükləri Roma bayraqları və əsirlərin verilməsi şərti ilə geri çəkiləcəyini vəd etdi. Dion Kassinin yazdığına görə Fraat bu təklifi rədd etdi. Bildirdi ki, romalılar şəhərin mühasirəsindən əl çəkib tezliklə ölkəni tərk etsələr, onlara mane olunmayacaq, arxayınlıqla çıxıb gedə bilərlər. Ancaq əslində belə olmadı.

Antoni barışıq vədinə əmin olub mühasirə qurğularını atdı, bəzi döyüşçülərin dediyinə əhəmiyyət verməyib, mühasirədən əl çəkdi. O, Marağa-***Səhənd*** dağları – ***Təbriz*** – Mərənd – ***Əhər*** yolu ilə Arazı keçərək Ermənistana dönmək fikrində idi. 27 günlük çətin yol, qış, aclıq, parfiya-atropaten atlılarının təqibləri, 20-dək toqquşma öz işini gördü. Təkcə bir toqquşmada romalılar 3 min döyüşçü itirmiş, 5 min döyüşçü isə yaralanmışdı. Antoni Ermənistana çatıb ordusuna baxış keçirəndə məlum oldu ki, Atropaten torpağında 35 min Roma döyüşçüsü məhv edilmişdir. Beləliklə, Antoninin Atropaten və Parfiyanı tutub, İskəndər kimi yeni «dünya dövləti yaratmaq» arzusu boşa çıxdı. Bunun başlıca səbəblərindən biri atoropatenlilərin döyüş əzmi olmuşdur. Romalılara qarşı mübarizə Atropatendə ümumxalq işinə çevrilmişdi.

Atropaten çarı Atrabazd bu qələbəni böyük təntənə ilə qeyd etdi. Onun əlinə Roma bayraqları, Pont çarı ***Polemon***, başqa hərbi əsirlərdən ibarət çoxlu qənimət keçmişdi. Bu qənimət Atropaten çarının nüfuzunu artırmalı idi. Az sonra guya qənimətlərin bölüşdürülməsi üstündə Parfiya və Atropaten çarları arasında ixtilaf yarandı; əslində Parfiya çarı Atropateni tabe etməyi qərara almışdı.

Buna görə də ən'ənəvi parfiyapərəst siyasətdən əl çəkən Artabazd m. ö. 35-ci ildə əsiri ***Polemonu*** sülh və dostluq təklifi ilə Antoninin yanına, İskəndəriyyə şəhərinə göndərdi. Atrabazd triumviri Atropatenə çağırır, bütün qoşunu ilə romalılar tərəfində vuruşacağını vəd edirdi. Bu təklif Antonidə köhnə arzusunu həyata keçirməyə yeni ümidlər doğurmuşdu. Plutarx yazır: «Əgər keçən dəfə parfiyalılara qalib gəlmək üçün onun yalnız bir şeyi – çoxsaylı atlı qoşunu çatmırdısa, indi o (yəni belə qoşun – *Red.*) onun sərəncamında idi». Bu cümlə ilə qədim tarixçi həm də Atropaten atlı qoşununu yüksək dəyərləndirməkdədir. Onun fikrincə, həmin qoşun Antonidə olsaydı, parfiyalılara qalib gələ bilərdi.

---

* Antoninin ordusuna 60-70 minlik Roma legionerləri, 40 minə qədər köməkçi qoşunlar, 10 min ispan və qall atlısı, 6 min erməni atlısı daxil idi.

M. ö. 34-cü ilin yazında Antoni Ermənistana yürüş edib, paytaxtı ***Artaşatı***, xəzinəsini ələ keçirdi və keçən dəfə ona xəyanət etmiş erməni çarını ailəsi ilə birlikdə əsir götürdü. O, Ermənistanı işğal olunmuş elan etdi. Yeni erməni çarı ***Artaşeş*** Parfiyaya qaçmalı oldu. Dünənki barışmaz düşmənlər indi əlbir olub, gələcək üçün yeni planlar hazırlamağa başladılar. İndi Parfiya və Ermənistan bir cəbhədə, Antoni ilə Atrabazd əks cəbhədə birləşdilər. Yeni ittifaqa uyğun olaraq Atropaten çarı Roma bayraqlarının Antoniyə qaytardı və qızı ***İotapanı*** (***Yutbanı***) Antoninin ***Kleopatradan*** olan oğlu ***Aleksandr Heliosa*** verməyə razı oldu. 34-cü ildə rəsmi nişanlanma mərasimi keçirildi. Antoni isə Parfiya ilə müharibənin davam etdiyini bildirdi. Lakin əvvəlcə o, qərbdəki rəqibi ***Oktavian Avqusta*** həlledici zərbə vurmağı qərara almışdı. Atrabazdın Parfiya çarı ilə münasibətinin pisləşdiyini bilən Antoni 33-cü ildə Atrabazdla görüşdü, ona kiçik bir yardımçı qoşun verdi. M. ö. 31-ci ildə ***Aksiya*** döyüşündə Atropaten çarı öz növbəsində Antoniyə köməkçi dəstə göndərmişdi*. Ancaq bu döyüşdə Antoni basılıb məhv oldu.

Az sonra Atrabazd qalib gəlmiş Oktavian ilə də yaxınlıq yarada bildi. Oktavian ona Ermənistanı da idarə etməyi tapşırdı. M. ö. 20-ci ilədək Atrabazd eyni zamanda Ermənistana hakimlik etdi. Beləliklə, Atrabazdın Romaya ardıcıl meyl göstərməsi Atropaten dövlətinə çox xeyir verdi.

M. ö. 20-ci ildə Atrabazdın oğlu ***II Ariobarzan*** Atropaten taxtına oturdu. O, 10 il Romada yaşamışdı. Tatsit onu «xarici gözəlliyi və mənəvi keyfiyyətləri ilə fərqlənən midiyalı» adlandırır. Romalılara dost gözü ilə baxdığı üçün o, erməni taxtına da yiyələnə bildi. Daha doğrusu, m. ö. 20-ci illərdən sonra Ermənistanda Pafiyaya meyl və Roma əleyhinə çıxışlar gücləndiyi üçün ora Avqustun oğulluğu Hay Sezarın başçılığı altında qoşun göndərdilər. Tatsit yazır ki, «ermənilərin razılığı və tədbiri ilə o, Atrabazanı, soykökcə midiyalını... onlara hökmdar təyin etdi». Beləliklə, Sezarın fəth etdiyi Ermənistan m. ö. 1-ci ildə Atropaten çarına verildi. II Ariobarzan həm də Ermənistan çarı olud. Miladın 2-ci ilində ermənilərin müstəqillik uğrunda üsyanı Roma və Atropatenin birləşmiş qüvvələri tərəfindən yatırıldı, II Ariobarzan yenidən Ermənistan çarı elan edildi. Bu hadisələr zamanı Atropaten çarı hələ m. ö. II əsrdə ermənilərin Atropatendən qopardığı Albaka bölgəsini (Van və Urmu gölləri arasındakı dağlıq yer) geri qaytara bilmişdi.

II Ariobarzan ölümündən sonra Oktavian Avqust və Roma senatı Ermənistan taxtına onun oğlu Atrabazdı oturtdular. Bu hökmdar bir neçə il Ermənistan taxtına sahib oldu. Oktavian Avqustun ölümündən (m. ö. 14-

* Antoninin ordusuna 60-70 minlik Roma legionerləri, 40 minə qədər köməkçi qoşunlar, 10 min ispan və qalla atlısı, 6 min erməni atlısı daxil idi.



cü il) az əvvəl Atrabazd sui-qəst nəticəsində öldürüldü. Üzərinə Avqustun təsviri və arxasında «Böyük hökmdar Atrabazda» yazısı olan gümüş sikkə Atrabazdın Avqustla əlaqələrindən xəbər verir.

Atropatenin Atorpatilər sülaləsindən olan axırıncı hökmdarı II Ariobarzanın oğlu ***Ariovast*** oldu. Eramızın 20-ci ilində Ariovastın ölümündən sonra Atropaten Parfiyanın Arşakilər sülaləsinin hökmranlığı altına düşdü. Parfiya dövlətinin süqutuna qədər Atropaten bu dövlətin tərkibində qaldı.

**MƏDƏNİYYƏT.** Atropaten ərazisində olan qədim abidələr kifayət qədər öyrənilməmişdir. Lakin bu ərazidə aşkar edilən xeyli qəbir abidələri və bir sıra yaşayış yerlərində aparılan arxeoloji qazıntılar Atropaten əhalisiniin mədəniyyəti haqqında müəyyən təsəvvür yaradır. Atropatenin mədəniyyəti haqqında Yunan-Roma müəlliflərinin əsərlərində bəzi məlumatlar vardır.

Antik dövr müəllifləri Strabon, Plutarx, Ptolemey, Kassi, Dion Atropatenin bir sıra şəhərlərinin adlarını çəkirlər. Onlardan ən başlıcası ölkənin mərkəzi şəhəri Qazaka idi. Bu şəhər arxeoloji cəhətdən nisbətən yaxşı öyrənilmişdir.

Atropaten ərazisində arxeoloji qazıntılarla öyrənilən şəhər tipli böyük yaşayış yerlərindən hansı şəhərlərin qalıqları olduğu hələlik bəlli deyildir. Lakin bu abidələr o dövrdə ölkənin şəhərləri, mədəniyyətinin ayrı-ayrı sahələri, o cümlədən, şəhərsalma, memarlıq, əhalinin dini görüşləri, məişəti haqqında xeyli təsəvvür yaradır.

Atropaten dövlətinin mövcud olduğu dövrdə qonşu ölkələrdə şəhərsalma məsələsinə xüsusi fikir verilirdi. Atropaten bu cəhətdən ətraf ölkələrdən seçilmirdi. O zaman şəhərlər müxtəlif yollar, o cümlədən mühüm ticarət yolları üzərində yerləşən oturaq yaşayış yerlərinin inkişafı nəticəsində, bəzi böyük məbədlərin ətrafında yaranır və hökmdarlar tərəfindən seçilən yerdə salınırdı. Şəhərlər ölkənin inzibati, iqtisadi və ideoloji mərkəzləri idi. Şəhər əhalisi kənd təsərrüfatı, sənətkarlıq və ticarətlə məşğul olurdu.

Şəhərlər başqa yaşayış yerlərindən ərazilərinin böyüklüyü, əhalinin çoxluğu, möhtəşəm müdafiə istehkamları, böyük ictimai binaları ilə seçilirdi. Arxeoloji qazıntılar göstərir ki, Atropaten memarları möhtəşəm tikintilər inşa edə bilirdilər. Cənubi Azərbaycan ərazisində Qanzak, Qalayi Zöhak, Naxçıvan Muxtar Respublikası ərazisindəki Oğlanqala və başqa şəhər tipli yaşayış yerlərində müdafiə istehkamları, böyük ictimai bina, yaşayış evləri və təsərrüfat tikililərinin qalıqları aşkar olunmuşdur. Tikinti materialı kimi yerli daş, çiy və bişmiş kərpic və ağacdan istifadə edirdilər.

Böyük ictimai binaların tikintisi zamanı sütunlardan geniş istifadə olunurdu. Bir çox hallarda sütunlar möhkəm ağacdan düzəldilərək monolit

daşlardan məharətlə yonulub düzəldilən sütunaltlıqlarının üstünə qoyulurdu. Qazıntılar zamanı şəhər tipli yaşayış yerlərində belə daş sütunaltlıqlarına çox təsadüf olunur. Binaların üstü yastı və tağ şəklində örtülürdü. Yastı dam örtüyündə ağacdan istifadə edirdilər. Bəzi ictimai binaların üstünü örtmək üçün saxsı kirəmitdən də istifadə etmişlər. Arxeoloji qazıntılar göstərir ki, Atropaten memarları antik dünya və qonşu Şərq ölkələrindəki memarlıq bilikləri ilə yaxından tanış idilər.

O dövrdə başqa qonşu ölkələrdə olduğu kimi Atropaten mədəniyyətinə də Yunan mədəniyyətinin təsiri aydın müşahidə olunur. Bu təsir memarlıqda, əhalinin məişətində və dini görüşlərində də nəzərə çarpır. Yerli əhali yunan yazısı və dilindən də istifadə edirdi. Bu cəhətdən Kerifto adlı yerdə aşkar edilən qayada oyulmuş möhtəşəm memarlıq abidəsi diqqəti özünə cəlb edir. Abidənin giriş yerinin üstündə yunan dilində yazı həkk olunmuşdur. Burada yunan əsatirinin qəhrəmanı Herakla həsr olunmuş məbədin olduğu göstərilir. Makedoniyalı İskəndərin Şərqə yürüşündən sonra Yaxın və Orta Şərqdə ***Herakla*** inam geniş yayılmışdı.

Atropatendə yunan dilinin və yazısının yayılmasını göstərən başqa tapıntılar da vardır. Belə tapıntılardan biri Zaqros dağlarında daş qab içərisində dəri üzərində üç əlyazmadır. İcarə müqavilələrindən ibarət olan bu əlyazmaları yunan dilində olsa da, iştirakçı şəxslər yunan adları deyil, yerli adlar daşıyırlar.

Atropaten ərazisində əhali Zərdüşt dininə sitayiş edirdi. Bu dinə Atropatendən başqa İranda və Orta Asiyada sitayiş olunurdu. Zərdüşt dininin müqəddəs kitabı «Avesta» bu dini öyrənmək üçün ən yaxşı qaynaq sayılır. «Avesta»nın ilkin variantı, deyildiyinə görə, m. ö. 330-cu ildə Makedoniyalı İskəndər tərəfindən Persepolda Əhəmənilər dövlətinin sarayı yandırılarkən məhv olmuşdur. Hazırda «Zend-Avesta» adı altında bizə gəlib çatmış bu müqəddəs kitabın hissələri İranda sasanilər sülaləsinin hakimiyyəti illərində (III-VII əsrlərdə) yenidən toplanmışdır. Avropanı bu kitabla birinci dəfə fransız alimi ***Anketil Düperron*** tanış etmişdir. O, 1755-1761-ci illərdə Hindistanın Qucorat vilayətində Zərdüşt dininə inanan farslar arasında yaşayaraq, «Avesta» dilini kahinlərdən öyrənmiş, bu kitabın əlyazmasının bir neçə nüsxəsini alıb Fransaya gətirmiş, fransız dilinə tərcümə edərək 1771-ci ildə çap etdirmişdir. Bu kitab tədqiqatçıların böyük marağına səbəb olmuş və Qərbdə müxtəlif dillərdə dəfələrlə nəşr olunmuşdur. Od Zərdüşt dinində mühüm yer tutduğundan bu din atəşpərəstlik də adlanır. Zərdüşt dininə görə dünyada iki qüvvə: xeyir – ***Hörmüzd (Ahura Məzda)*** və şər – ***Əhriman*** daima mübarizə aparır. Bu mübarizədə, nə qədər ağır olsa da, xeyir üstün gəlir. Məbədlərin mehrabında daima od yandırır və onu sönməyə qoymurdular. Bu dinin ehkamlarına görə od, torpaq və su müqəddəsdirlər, onları murdarlamaq günahdır. Ona görə ölüləri yandır-



maq, torpağa basdırmaq və suya atmaq olmaz. Meyitlər xüsusi daxmalara qoyulur, onların əti quşlar və heyvanlar tərəfindən yeyildikdən sonra sümüklər xüsusi qablara yığılıb basdırılırdı. Zərdüşt dininə məxsus ən başlıca məbədlərdən biri Qanzakda yerləşirdi. Sasani hökmdarları tacqoyma mərasimini Novruz günündə bu məbəddə keçirirdilər. Bunun üçün onlar məbəddə xüsusi mehrab qurur və bu mehrabda od yanan andan qanuni padşah sayılırdılar.

## 3. ALBAN DÖVLƏTİ

**ALBAN DÖVLƏTİNİN YARANMASI.** Qədim çağda quzey Azərbaycan torpaqlarında albanlar və onlara qohum tayfalar yaşayırdı. Bu torpaqlar bir zaman Əhəməni imperatorluğunun tərkibinə daxil idi. Herodot Əhəmənilər imperiyası tərkibində olan xalqların sırasında albanların deyil, kaspilərin adını çəkir. Görünür, m. ö. V əsrin ortalarında alban tayfalarının vahid albanlar adı altında birləşməsi başa çatmamışdı. Şübhəsiz, o zaman Herodot kaspilər adı altında alban tayfalarını da nəzərdə tutmuşdu. Herodota görə kaspilər bir sıra başqa xalqlarla birlikdə Əhəmənilərin XI satraplığını təşkil edir və dövlətə ildə 200 talant (1 talant = 26,2 kq gümüş) xərac verirdilər. Kaspilər İran padşahları I Dara və Kserksin Yunanıstana hərbi yürüşlərində də iştirak etmişdilər. Kaspilərdən bu müharibələrdə həm piyada, həm də atlı döyüşçülər iştirak edirdilər.

Əhəmənilərin hakimiyyəti dövründə alban tayfalarının vahid bir ad altında birləşməsi başa çatdı. M. ö. 331-ci ildə Qavqamel döyüşündə İran ordusunun tərkibində Makedoniyalı İskəndərə qarşı alban döyüşçülərindən təşkil olunmuş hərbi dəstə də iştirak edirdi. Albanlar döyüşdə III Daranın şəxsi qvardiyasının yanında şərəfli yer tutur və bilavasitə Makedoniyalı İskəndərin başçılıq etdiyi hissəyə qarşı vuruşurdular. Bu fakt albanların yaxşı döyüş qabiliyyətinə malik olduğunu göstərir.

Arxeoloji tapıntılar göstərir ki, m. ö. I minilliyin ortalarında başqa ölkələrlə iqtisadi və mədəni əlaqələr daha da genişləndi. Qazıntılar zamanı burada çoxlu möhürlərə rast gəlinmişdir. Möhürlərdən belə geniş istifadə ancaq cəmiyyət və dövlət mövcud olan ölkələr üçün səciyyəvidir.

Makedoniyalı İskəndərin Şərqə yürüşü nəticəsində Əhəmənilər imperiyası süqut etdi. Alban torpaqlarında müstəqil dövlət yarandı.

Dövlətin mövcud olması üçün onun ordusu, inzibati orqanları, vergi sistemi və cəmiyyətdə müxtəlif sosial təbəqələr olmalıdır. Belə qurumların yaranması bu ərazidə hələ Əhəmənilər dövründə başa çatmışdı. Deyildiyi kimi, alban döyüşçüləri Əhəmənilər dövlətinin apardığı müharibələrdə iştirak etmiş, böyük qanlı döyüşlərdə vuruşaraq dəyərli hərbi təcrübə toplamışdır. Alban ərazisində sinifli cəmiyyət artıq yaranmış, bu cəmiyyəti idarə etmək üçün lazımi inzibati qurumlar yaradılmışdı.

Əhəmənilər İmperiyasının dağılmasından sonra Alban ərazisi o zaman baş vermiş siyasi hadisələrdən kənarda qaldı. Burada m. ö. IV əsrin axırıncı rübündə və III əsrin əvvəllərində müstəqil Alban dövləti yarandı. Bu dövlətin yaranma tarixini bir sıra dəlillər təsdiq edir. Qəbələ dəfinəsinə (1966-cı il) aid gümüş pulların 500-dən çoxu Makedoniyalı İskəndərin drahmalarına və tetradrahmalarına oxşadılaraq zərb edilən yeni alban pullarıdır və m. ö. III yüzilin birinci yarısına aiddirlər. Qəbələdə şəhər mədəniyyəti də o zaman artıq mövcud idi. Bundan başqa antik müəlliflərin (Böyük Plini, Yuli Solin və b.) əsərlərində «Alban çarının» Makedoniyalı İskəndərə köpək bağışlaması haqqında hekayət vardır. Bu hekayət Alban dövlətinin hələ İskəndər zamanında mövcud olması təsəvvürünü yaradır. Görünür, Nizaminin «İsgəndərnamə» poemasında Bərdə hökmdarı surəti də İskəndərin müasiri olmuş Alban çarı haqqında antik müəlliflərin verdikləri məlumatlara dayanır.

**ƏRAZİ.** Alban dövlətinin hüdudları haqqında antik dövr qaynaqlarında çoxlu, amma bəzən bir-birinə uyuşmayan məlumatlar verilib. Həmin uyğunsuzluqların bir səbəbi odur ki, dövlətin hüdudları siyasi hadisələr ilə bağlı olaraq bəzən dəyişilirdi. Strabon yazırdı: «...Əvvəlki dövrlərdə kiçik ölkə olmuş Ermənistanı Artaksinin və Zariadrinin savaşları genişləndirdi. Onlar ətrafdakı xalqların vilayətlirinin bir qismi hesabına öz torpaqlarını genişləndirdilər. Yəni onlar midiyalılardan (atropatenlilərdən – *Red.*) Kaspiananı, Favnitdanı və Baioropedanı... almıdılar». Söhbət mənşəcə madalı olan Ermənistan çarı Artaşesin əzəli Azərbaycan torpağı Kaspiana vilayətinin m. ö. II yüzildə müvəqqəti olaraq işğal etməsindən gedir. Bu məlumata əsaslanan bir sıra antik müəlliflər və erkən orta əsr erməni tarixçiləri Alban dövlətinin əsl hüdudlarını deyil, erməni təcavüzü nəticəsində ərazisi müvəqqəti kiçildilən ölkənin hüdudlarını göstərməklə əsl həqiqəti təhrif etmişlər. Həm də Alban dövləti haqqında yazan antik müəlliflərin çoxu Transqafqazda olmayıblar; onlar özlərindən xeyli qabaq yazan müəlliflərə və ya etibarsız mənbələrə (təsadüfi xəbərlərə) əsaslanıblar. Üstəlik, onların verdikləri məlumatları çağdaş tarixşünaslıqda bu torpaqlara göz dikənlər təhrif etməkdədirlər.

Alban dövlətinin şərq və qərb hüdudları barədə fikir ayrılığı yox kimidir. Strabon yazır ki, «albanlar iberlərlə Kaspi dənizi arasında yaşayırlar». Deməli, dövlətin şərq sərhəddi Kaspi dənizi olub. Qərb sərhəd İori (antik qaynaqlarda Kambis), bəzən Alazan çayı boyunca idi, yəni indiki Gürcüstanın şərqindəki Alazan vadisi də Alban torpaqları idi. Bu fikri həmin vadidə erkən alban mədəniyyəti olan Yaloylutəpə mədəniyyətinin yayılması da təsdiq edir.

Dövlətin şimal və cənub hüdudları tarixşünaslıqda daha çox mübahisə doğurmaqdadır. Strabon yazır ki, «Alban ölkəsinin... şimal (tərəfi)



Qafqaz dağları ilə əhatələnib (bu dağlar düzənliklər üzərində yüksəlir və onların, xüsusilə, dəniz yaxınlığındakı hissəsi Keraun dağları adlanır)». Klavdi Ptolemey Alban torpaqlarının quzeydə Soana çayına kimi uzandığını, Alban ölkəsini Sarmatiyadan ayıran dağlardan birinin Keraun dağları olduğunu bildirir. Soana çayının bir vaxt bəzi tarixçilər tərəfindən Sulakla, hətta Terek çayı ilə eyniləşdirilməsi Alban dövlətinin şimal hüdudları barəsində mübahisələri kəskinləşdirdi. Bundan istifadə edən Dağıstan tarixçiləri bütün Dağıstanı Alban dövlətinə daxil etməklə, sonuncunu Dağıstanın qədim dövləti kimi qələmə verməyə başladılar. Soana çayını çağdaş tarixçilərin çoxu haqlı olaraq Samur çayı ilə eyniləşdirir; Keraun dağları ilə Qafqaz dağlarının dənizə yaxınlaşan şimal-şərq tirəsi – Samur dağ silsiləsidir. Deməli, Alban dövlətinin şimal hüdudları Dərbənddən yuxarıdakı Samur dağ silsiləsi ilə başlayıb Böyük Qafqazın ətəkləri boyu İori çayının yuxarı axarınadək uzanırdı.

Plini və Ptolemeyin yazılarından aydın olur ki, Soanadan sonrakı çaylar Alban torpaqlarından axıb dənizə tökülən Herr, Kas (Ptolemeyə görə Kaysi), Alban və Kür çaylarıdır. Soana ilə Kür arasındakı bu çaylar indiki Qusarçay, Gilgilçay, Sumqayıt çayı və Pirsaat çayı ilə eyniləşdirilə bilər. Strabon yazır ki, Alban ölkəsinin «cənub tərəfi isə onunla həmsərhəd olan Ermənistandır». Sonra o, davam edir ki, albanlar Kambisena vilayətində (Alazanla Kür arasındakı torpaqlar) ermənilər və iberlərlə qonşudurlar. Deyilənlərdən belə nəticə çıxır ki, Alban dövləti ermənistanla yalnız cənub-qərb tərəfdən (indiki Şərqi Gürcüstan tərəfdən) həmhüdud idi. Strabon həm də qeyd edir ki, Kür çayı «Albaniyaya axır», «Albaniyadan keçən Kür çayı... Kaspi dənizinə tökülür»; albanların ölkəsinə «Kaspiana vilayəti də daxildir». Bu məlumatlardan aydın olur ki, Kür çayı Alban dövlətinin cənub hüdudu deyil; həm də albanlar Strabonun vaxtında Kaspiana vilayətini, artıq, ermənilərdən geri almışdılar. Kaspiana (erkən orta çağda Paytakaran) Kürün aşağı axarında, çayın sağ tərəfindəki Mil-Muğan düzlərini və dəniz sahili boyu uzanan torpaqları (Lənkəran ovalığını) əhatə edirdi.

Bu dəlillər bir sıra antik müəlliflərin (Plini, Appian, Plutarx, Dion Kassi) və erkən orta çağ erməni tarixçilərinin Alban ölkəsinin güney hüdudunun Kür boyunca keçməsi, Kürün sağ sahilinin isə guya Ermənistanın tərkibində olması haqqında söylədiklərinə ziddir. Sağ sahil torpaqlarının Alban dövləti ərazisinə daxil olmasını Strabonun bir məlumatı da təsdiqləyir. O, Araz çayının Alban ölkəsi hüdudlarına qədər axıb Kaspi dənizinə töküldüyünü xəbər verir. Deməli, Alban dövlətinin güney hüdudu Araz çayı ilə, daha doğrusu, onun aşağı axarı (həmçinin Talış dağları) ilə müəyyən edilməlidir. Bu fikir erməni tarixçisi Movses Horenlinin verdiyi məlumatla dolğunlaşır. O, I yüzil hadisələrindən danışarkən yazır: «Parfiyalı Valarş məşhur, cəsur Aranı hakim təyin etdi. Alban hökmdarına dağlıq hissəsi ilə

birlikdə Alban düzənliyi Erasx (Araz) çayından başlamış, Xnarakert adlanan qalaya (Xram çayının Kürə töküldüyü yerdəki şəhər) qədər miras qaldı. Aranın nəslindən utilər, qardmanlılar, sodeylər tayfası və Qarqar knyazlığı (qarqarlar - *Red.*) törəmişdir». Bu yazı parçasında da Araz çayı Alban dövlətinin cənub hüdudu sayılır; həm də aydın olur ki, adları çəkilən alban tayfaları Kürdən sağdakı torpaqlarda - Alban dövlətinin cənub vilayətləri Orxistena (Arsax), Uti (Otena), Sodey və başqa bölgələrdə yaşamışlar.

**ƏHALİ**. Alban dövləti antik qaynaqlarda əhalisi sıx olan ölkə kimi qələmə alınıb. Strabona görə ölkənin əhalisi 26 dildə danışan tayfalardan ibarət idi. Tədqiqatçıların fikrincə, bunların hamısı müstəqil dil deyildi, çoxu bir neçə dilin ayrı-ayrı ləhcələri idi. hər halda Qafqazın başqa bölgələrində olduğu kimi Alban əhalisi də vahid dildə danışmırdı. Strabonun yazdığı kimi, «onlar bir-biri ilə çətinliklə ünsiyyətə girirlər». Etnik ayrılıqlar əhalinin dəfn adətlərində və qəbir tiplərindəki fərqlərdə gözə dəyir. Burada erkən alban mədəniyyətləri - Yaloylutəpə və Küp qəbirləri mədəniyyətləri üçün aparıcı olan sadə torpaq qəbirlər, küp qəbirlər, həmçinin çiy kərpic sərdabələr, saxsı təknə qəbirlər, katakomba qəbirlər və s. yayılmışdı.

Alban tayfalarının hamısının adı elmə bəlli deyil. Bu tayfalardan ən böyüyü «alban» adı daşıyırdı, antik qaynaqlarda ölkənin Albaniya adlandırılması da təsadüf deyil. Qədim müəlliflərə görə albanlar iberlərlə Kaspi dənizi arasında yaşayırdı. Onların yayıldığı ərazi Samur dağ silsiləsinə, həmçinin Araz çayı və Talış dağlarına qədər uzanırdı. Strabonun yazdığına görə albanların bir qismi hətta Atropatendə, kaspilərlə kadusilər arasında yaşayırmış. Kaspi dənizinin antik çağda həm də Alban dənizi adlandırılması Quzey Azərbaycanda albanların başlıca soy olmasını sübuta yetirir. Bu soy dil, maddi və mənəvi mədəniyyətcə ona qohum soylara, ilk əvvəl Herodotun vaxtilə xatırlatdığı kaspilər, utilər və başqaları ilə birlikdə m. ö. I minilin ortalarında «albanlar» adı altında tayfa ittifaqı yaratmışdı. Bu tayfa birliyi m.ö. 331-ci il Qavqamel savaşında «albanlar» adı ilə təmsil olunmuş, az sonra Alban dövlətinin əsasını qoymuşdu. İri alban tayfalarından biri, çox zaman albanların özləri ilə eyniləşdirilən utilər idi. Onlar Kürün sağ sahilindəki Utiya (Otena) vilayətində yaşayırdılar. Pliniyə görə Araz çayı Otena ilə Atropaten arasından axırdı. Qarqarlarla bağlı yazılar və toponimlər onların Samurla Dərbənd arasında, həmçinin Kürdən cənubda, indiki Qarqarçayın sahillərində yaşamasını sənədləşdirir. Sağ sahildəki Kaspiana vilayətində kaspilər məskun idilər; Strabon onları «indi itib getmiş tayfa» adlandırsa da, sonrakı müəlliflər (Plini, Dionisi Perieget, Ptolemey) kaspilərin Alban ölkəsində yaşamaqda olduqlarını bildirirlər. Qardmanlılar, sakasinlər və sodeylər də Kürdən sağdakı torpaqlarda məskun idilər.

Bir sıra alban tayfaları Kürdən sol tərəfdəki ərazidə yerləşirdi. Plini udinlərin (Ptolemeyə görə udlar) Kaspi sahillərində yaşamasını söyləyib.



Deməli, udin/udilər indiki Qəbələ bölgəsinə ölkənin şimal-şərq yörəsindən gəlmədirlər.

Gellər, həmçinin leqlər Samur və Qudial çayları yaxasında yerləşmişdilər. Massagetlər Çola vilayəti ilə Abşeron tərəfdə, herlər və Lupenlər Kambisena vilayətində yaşamışlar. Bunlardan başqa antik çağda Alban torpaqlarında çilbilər (silvlər), didurlar (didoylar), aynianlar, anariaklar, mardlar, amardlar və başqa soylar da qeydə alınıblar.

Yazılı və leksik biliklərin azlığı üzündən alban tayfalarının hansı dillərdə danışmasını müəyyən etmək çətinləşir. Ümumiləşdirici əsərlərdə Alban ərazisində yaşamış tayfaların dilləri «şimal-şərqi Qafqaz dilləri ailəsi»nə aid edilməkdədir. Ancaq bu fikir sübut olunmayıb. «Alban» soy adı haqqında söylənən başqa fikir daha inandırıcı görünür. Məlumdur ki, qazaxlar, qırğızlar və türkmənlər içərisində alban adı daşıyan tayfalar qalmaqdadır. Hamısı da türkdillidir.

Yeni elmi araşdırmalarda «alban» etnik adını qədim türk «alp» (cəsur, igid) sözü ilə bağlayırlar. «Kitabi-Dədəm Qorqud»da bu etnosun «alpanlar» şəklində yazılışı, «alp» köklü toponimlərin Quzey Azərbaycanda (Alpan, Alpout və s.), həmçinin vaxtilə Alban dövlətinə daxil olan Cənubi Dağıstan və Şərqi Gürcüstanda (Alpanlar, Alpani) qalması yuxarıdakı ehtimalı daha da qüvvətləndirir. Alban hökmdarlarından Oroyzun adını «Kitabi-Dədəm Qorqud»dakı Uruz adı ilə müqayisə edirlər, Aran adı da yalnız türk dillərindən izah olunur. Albanların Ay ilahəsinə daha çox sitayiş etmələri haqqında Strabonun verdiyi məlumat qədim türklərin «Ay Tenqri»sinə uyğun gəlir və s. Belə dəlillər əsasında «alban» etnik adı daşıyanlar türkdilli sayılırlar. Bəzi tədqiqatlara görə, burada yaşayan sakesinlər (sakalar), onlarla qohum sayılan massagetlər (maskutlar), qarqarlar (və ola bilsin, Aranın nəslindən törəyən başqa soylar da) türkmənşəli olmuşlar. I yüzildən Alban ərazisində yayılan yeni qəbir tipi - katakombalar bu ölkəyə gəlmə etnosla bağlıdır. Katakombaların quruluşu, avadanlığı, mərhumun kəlləsinin deformasiya edilmə əlaməti, bu qəbirlərin Orta və Mərkəzi Asiya oxşarları onları qədim hunlara aid etmək imkanı verir. Silv, qel, leq, lupen və başqa boyların qafqazdilli olması güman edilir. Görünür, onlar Alban torpaqlarına Dağıstandan axan tayfalar imiş, Alban tayfalarının qalıqları sayılan indiki udinlər, qrızlar, xınalıqlılar və buduqlar da qafqazdillidirlər.

Strabon yazır ki, albanlar uca boylu, yaraşıqlıdırlar. I|I əsrdə yaşamış Roma müəllifi Yuli Solin isə albanların sarışın olduqlarını bildirir.

**TƏSƏRRÜFAT**. Antik qaynaqlarda göstərilir ki, Alban torpaqları çox bərəkətli, əhalisi isə sıxdır. Strabon yazır ki, Alban ərazisində «nəinki cürbəcür bostan məhsulları, həm də hər cür bitkilər yetişdirilir; həqiqətən orada hətta həmişəyaşıl bitkilər yetişir. Həm də torpaq heç bir qulluq tələb

etmir... Bir dəfə əkilən torpaq çox yerdə iki və ya üç dəfə məhsul verir və birinci məhsul, səpiləndən hətta 50 dəfə artıq alınır; həm də tarla dincə qoyulmur və dəmir kotanla deyil, ağac xışla şumlanır. Bütün bu düzənlik öz çayları və başqa suları ilə Babilistan və Misir torpaqlarından daha yaxşı suvarılır, buna görə də o, həmişə sıx otlu görünüşünü saxlayır və otlaqlarla boldur. Üstəlik, burada iqlim də o ölkələrdə olduğundan daha əlverişlidir».

Alban əhalisi taxılçılıq, tərəvəzçilik, bağçılıq, üzümçülük, maldarlıqla məşğul olurdu. Taxıl bitkilərindən buğda, arpa, darı yetişdirilirdi. Taxıl, dəmir oraqlarla biçilir və əsasən xırmanlarda altına xırda daş dişlər keçirilmiş ağacdan düzəldilən yastı vəllə döyülürdü.

Taxılı iri saxsı təsərrüfat küplərində və xüsusi quyularda saxlayırdılar. Arxeoloji qazıntılar zamanı Qəbələ, Mingəçevir, Şamaxı və başqa yaşayış yerlərində yanıb kömürləşmiş taxıl qalıqları, dəmir oraqlar, taxıl quyuları və çoxlu təsərrüfat küpləri aşkar olunmuşdur.

Antik dövrdə taxılı, əsasən, qayıqvari dən daşları ilə üyüdürdülər. Az hallarda əl dəyirmanlarından istifadə edirdilər. Eramızın ilk əsrlərindən başlayaraq burada su dəyirmanlarından istifadə olunduğu da güman edilir.

Əhali meyvələrin mədəni növləri ilə yanaşı onların meşələrdə bitən vəhşi növlərindən də istifadə edirdi. Strabon bu barədə yazır: «Bütün bu ölkədə yabanı meyvələr və insan tərəfindən becərilən ağacların meyvələri boldur. Burada həmişəyaşıl bitkilər və hətta, zeytun da bitir».

Ölkədə alma, armud, nar, əncir, fındıq, qoz, şabalıd və bir sıra başqa meyvələr yetişdirilirdi. Təsərrüfatda üzümçülük və şərabçılıq xüsusi yer tuturdu. Strabon Alban torpaqlarında üzümün məhsuldarlığını qeyd edərək yazırdı: «Üzüm tənəklərinin dibini orada heç vaxt axıradək belləmirlər və yalnız beş ildən bir budayırlar. Cavan tənəklər artıq ikinci il bar verir, yetkinliyə çatanda isə o qədər salxım gətirir ki, onların çox hissəsi yığılmadan tənəklərdə qalır». Bu fikri arxeoloji qazıntılar da sübut edir. Bu ərazidə üzümçülük və şərabçılıqla çox qədimdən məşğul olmuşlar. Antik dövrdə isə təsərrüfatın bu sahəsi daha çox inkişaf edir. Şamaxıda və Qəbələdə arxeoloji qazıntılar zamanı şərab istehsalı ilə bağlı emalatxanaların qalıqları, şərab saxlamaq üçün istifadə olunan çoxlu böyük küplər tapılmışdır. Arxeoloji qazıntılar zamanı yanıb kömürləşmiş üzüm gilələri və çəyirdəkləri də tapılır. Üzüm və başqa meyvələr bəzən qurudulur, onlardan bəkməz və başqa ərzaq məhsulları hazırlanırdı.

Yazılı qaynaqlar və arxeoloji tapıntılar göstərir ki, geniş miqyasda qarpız, qovun, qabaq və digər tərəvəz və bostan məhsulları yetişdirilirdi.

Alban ərazisində maldarlığın inkişafı üçün çox əlverişli təbii-coğrafi və iqlim şəraiti, bol otlaqlar vardı. Alp çəmənlikləri və qışı mülayim keçən geniş düzənliklər köçmə maldarlığın inkişafını şərtləndirirdi. Strabon yazırdı ki, «çöl heyvanları da onların ölkəsində yaxşı çoxalır». II – III əsrlərdə yaşamış yunan müəllifi Klavdi Elian isə Kaspi torpaqlarında çoxlu mal naxırları və at ilxılarının olması barədə məlumat verir. O yazırdı ki, kaspilər «düm ağ, buynuzsuz kütburun keçilər saxlayırlar». Onlar dəvə də saxlayırdılar. Bu dəvələrin yunu öz zərifliyi və yumşaqlığı ilə Milet yunundan geri qalmırdı. «Kahinlər, ən varlı və nüfuzlu kaspilər, bu yundan toxunmuş paltar geyirlər».

Alban ölkəsində çoxlu minik və yük atları yetişdirilirdi. Minik atlarından hərbi işdə də geniş istifadə olunurdu. Strabonun məlumatına görə Pompeyin yürüşü zamanı albanlar romalılara qarşı 60 min piyada, 22 min atlı qoşun çıxarmışdılar.

Arxeoloji qazıntılar zamanı tapılan külli miqdarda heyvan sümükləri Albaniyada heyvandarlığın inkişafı barədə antik dövr müəlliflərinin məlumatlarını təsdiq edir. Bu sümüklər iri və xırda buynuzlu mal, at, dəvə və başqa ev heyvanlarına məxsusdur.

Albanlar ev quşları da saxlamışlar. Əhali heyvanların ətindən, südündən, dərisindən istifadə etmişdir. Yardımçı təsərrüfat kimi ovçuluqla məşğul olurdular. Burada vəhşi heyvanların və quşların ovlanması barədə antik müəlliflər də məlumat verirdilər. Qazıntılar zamanı maral, ceyran, cüyür, qaban və başqa ov heyvanlarının sümüklərinə tez-tez təsadüf olunur. Strabon və Yuli Solin albanların ov itlərindən geniş istifadə etdiklər haqqında məlumat vermişlər.

Təsərrüfat həyatında balıqçılıq da böyük yer tuturdu. Bu barədə Elian yazırdı: «Mən eşitmişəm ki, Kaspilərin ərazisində böyük göl var, bu göldə böyük uzunburun balıqlar yaşayır. Onların uzunluğu hətta səkkiz qulaca çatır. Kaspilər onları tutur, duzlayır və ya qurudur, dəvələrə yükləyib Ekbatan şəhərinə aparırlar. Bu balıqların piyini kəsib ondan sürtgü yağı düzəldir və ya onu duzlayaraq satırlar, iyi olmayan bu balıq yağını bədənlərinə sürtürlər. Balıqların içalatını çıxarıb bişirir və ondan yapışqan hazırlayırlar. Bu yapışqan hər şeyi çox möhkəm yapışdırır, hər şeyə yapışır, şəffafdır. Bu yapışqan hər şeyi elə yapışdırır ki, on gün suda saxlayanda belə, ayrılmır. Hətta fil sümüyü ilə işləyən ustalar bu yapışqandan istifadə edir və çox gözəl şeylər düzəldirlər». Azərbaycanın Kür çayı boyunca yaşayan əhalisi son zamanlara qədər balıq içalatından yapışqan istehsal etmişdir.

**SƏNƏT İŞLƏRİ.** Mingəçevir, Qəbələ, Şamaxı, bir sıra başqa yaşayış yerləri və qəbir abidələrində aparılan arxeoloji qazıntılar zamanı minlərlə əmək alətləri, silahlar, məişət avadanlığı nümunələri, bəzək şeyləri və başqa tapıntılar əldə edilmişdir. Bu tapıntıların çox az hissəsi başqa ölkələrdən gətirilmişdir. Onların çoxu yerli sənətkarlar tərəfindən hazırlanmışdır. Bu tapıntılar göstərir ki, Alban şəhərlərində sənətkarlığın müxtəlif sa-

hələri inkişaf etmişdi. Sənətkarlığın bəzi sahələri ilə kənd yerlərində də məşğul olurdular. Yüksək ixtisaslı peşəkar sənətkarlar təkcə şəhər əhalisinin deyil, həmçinin kənd əhalisinin də sənətkarlıq məhsullarına olan tələbatını ödəyirdilər. Onların məhsulunun bir hissəsi qonşu ölkələrə də ixrac olunurdu. Bir qayda olaraq silahqayırma, qiymətli metallardan qab istehsalı, qiymətli parça növlərinin toxunması şəhər sənətkarlıq emalatxanalarında mərkəzləşmişdi.

Alban ölkəsində geniş yayılmış sənətkarlıq sahələrindən biri metalişləmə idi. Azərbaycan ən qədim metallurgiya mərkəzlərindən biridir. Sinifli cəmiyyətin, dövlətin, şəhərlərin yaranması, mədəni və ticarət əlaqələrinin genişlənməsi metalişləmə ilə əlaqədar sənət sahələrinin daha da inkişaf etməsinə imkan vermişdir. Metalişləmə sahəsində sənətkarlar arasında dərin ixtisaslaşma mövcud idi. Yalnız bu yolla ordunu müxtəlif silahlarla, əhalini təsərrüfat və məişət avadanlığı ilə təmin etmək mümkün idi. Ustalar metal əritmək, qəlibə tökmək, qaynaq etmək, kəsmə və döymə üsulu ilə ondan hər cür məmulat düzəldə bilirdilər. Onlar qızmış dəmiri suya salmaqla onu bərkitməyi, qaynaq etməyi və başqa üsulları yaxşı mənimsəmişdilər. Qazıntılar zamanı bütün bu texniki üsulları tətbiq etməklə hazırlanmış metal külçələri, silahlar (zireh, qılınc, xəncər, ox və nizə ucluqları), əmək alətləri (balta, bıçaq, oraq, qayçı və s.), bəzək əşyaları (üzük, sırğa, bilərzik, muncuq, müxtəlif asmalar və s.) tapılmışdır. Bu tapıntılar sənət növlərinin çoxluğundan, peşəkar vərdişli ustaların olmasından xəbər verir.

Antik dövrdə albanların təsərrüfat həyatında və məişətində saxsı məmulatı çox böyük yer tuturdu. Dulusçular gildən inşaat materialları (kirəmit və kərpic), gil qablar, gildən insan və heyvan heykəlcikləri hazırlayır və bu məmulatı dulus kürələrində bişirirdilər. Arxeoloji qazıntılar zamanı antik dövrə aid çoxlu dulus kürələri Mingəçevirdə aşkar olunmuşdur. Dulusçuluqla bütün böyük yaşayış yerlərində məşğul olurdular. Mingəçevir, Qəbələ, Şamaxı, İsmayıllı, Quba və başqa yaşayış yerlərində və qəbir abidələrində aparılan arxeoloji qazıntılar zamanı külli miqdarda kirəmit, bişmiş kərpic, bişirilərkən boz, qara və qırmızı rəng almış çeşidli gil qablar aşkar olunmuşdur. Saxsı qabların üstünə cızma, yapma və boyaq çəkmə üsulları ilə nəfis naxışlar vurulmuşdur. Qablar insan, heyvan, quş, sürünənlərin şəkilləri, həndəsi fiqurlar, nəbati rəsmlər ilə bəzədilmişdir. Heyvan və quş şəklində hazırlanan saxsı qablar daha çoxdur.

Saxsı qabların bir çoxu quruluşuna görə yerli ən'ənələrə əsaslanır. Lakin bu zamankı Alban saxsı məmulatında Yunanıstanın, Romanın, Yaxın Şərqin mədəni təsiri də yaxşı izlənir. Albanlarda kirəmit və bişmiş kərpiclərdən istifadə olunması, bir sıra saxsı qabların forması bilavasitə bu təsirin nəticəsidir.



Arxeoloji qazıntılar göstərir ki, eramızın ilk əsrlərindən başlayaraq albanlar şüşə istehsalına da başlayıblar.

Alban əhalisinin məişətində zərgərlik məmulatı geniş yer tuturdu. Yerli zərgərlər qızıl, gümüş və misdən üzük, sırğa, bilərzik asmalar hazırlayırdılar. Zərgərlər qonşu ölkələrin sənəti ilə tanış idilər. Bəzən yerli ustalar öz məhsullarını başqa ölkələrdən gətirilən zərgərlik məmulatına oxşadırdılar. Bir çox hallarda yerli zərgərlik nümunələri başqa ölkələrdən gətirilənlərdən ayırmaq böyük çətinlik törədir.

Xüsusi mülkiyyət və dövlətin yaranması ilə möhürlərə tələbat yarandı. Möhürlər çox zaman üzük şəklində düzəldilib, eyni zamanda bəzək əşyası kimi əl barmaqlarına keçirilirdi. Onların qaşında çox vaxt dini xarakter daşıyan rəmzlər həkk olunurdu. Möhür kimi istifadə olunan bu üzük qaşlarını rəngli daşlardan (əqiq, xalsedon, yaşma, pirop və b.), şüşə və bəzən metalın özündən hazırlayırdılar. Bu bərk materiallardan düzəldilmiş üzük qaşları üzərində müxtəlif rəsmlərin həkk olunması sənətkarlardan böyük məharət tələb edirdi. Bu sənət sahəsi qliptika adlanır. Qliptika sahəsində çalışan sənətkarlardan bir çoxu mahir rəssam idilər. Onların yaratdığı nadir sənət əsərləri Mingəçevir, Qəbələ və Şamaxıda çox tapılmışdır.

Alban ölkəsində toxuculuq da xeyli inkişaf etmişdi. Toxuculuqda qoyun, dəvə yunundan və bitki liflərindən istifadə olunurdu.

Bunlardan başqa boyaqçılıq, gönişləmə, dülgərlik, dərzilik, çəkməçilik və bir sıra başqa sənət və peşələr də geniş inkişaf etmişdi.

**TİCARƏT.** Alban ərazisinin coğrafi və iqlim şəraiti burada müxtəlif məhsulların istehsalına imkan verirdi. Bu da bölgələr arasında alış-veriş üçün şərait yaradırdı.

Alban dövlətinin yaranmasından sonra daxili ticarətin sürətlə inkişafı ilə yanaşı xarici ticarət əlaqələri genişləndi. İskəndərin yürüşündən sonra beynəlxalq ticarət əlaqələri görünməmiş ölçüdə genişlənərək dünyəvi miqyas aldı. Sürətlə inkişaf edən iqtisadiyyat, buradan keçən tranzit ticarət yolları tezliklə ölkənin dünya ticarətinə qoşulmasına səbəb oldu.

Alban ərazisindən keçən beynəlxalq ticarət yollarından biri Xəzər dənizi sahili boyu şimalla cənubu birləşdirirdi. Bu yol vasitəsilə sarmatalan tayfalarından olan aorsların ticarət əlaqələrindən bəhs edərək Strabon yazır: «Onlar (aorslar) dəvə karvanları ilə ticarət əlaqələri saxlayaraq Hind və Babil məhsulları ilə alver edir və bu malları mübadilə üsulu ilə ermənilərdən və midiyalılardan alırlar, firavan yaşayaraq qızıl bəzək şeyləri taxırlar».

Alban ərazisindən tranzit su yolu da keçirdi. Qaynaqlarda göstərilir ki, Oks çayı (Amudərya), Hirkan dənizi (Xəzər) və Kür çayı ilə, bir qədər də quru yolla Hindistan məhsullarını Qara dənizə çıxarmaq olur.

Strabon bu yollardan başqa Albaniya ilə İberiya arasındakı yolu da qeyd edir. Ölkənin intensiv xarici ticarət əlaqələrini arxeoloji qazıntılar zamanı tapılan başqa ölkələrdən gətirilmə külli məhsullar sübut edir. Gətirilmə məhsullar şirli gil, şüşə və metal qablar, bəzək əşyaları, pullar və bir sıra başqa tapıntılarla təmsil olunmuşdur.

Alban dövləti yaranana qədər yerli əhali ticarəti puldan istifadə etmədən, məhsul mübadiləsi üsulu ilə aparmışdır. Strabon bu vəziyyətin hətta m. ö. I əsrə qədər davam etdiyini qeyd edirdi: «Onlar (albanlar), adətən, zərb olunmuş puldan istifadə etmirlər... Ticarət sadə mübadilə üsulu ilə aparılır».

Lakin Alban ərazisində bir neçə pul dəfinələri və çoxlu miqdarda tək-tək tapılan pullar Strabonun bu məlumatının yanlışlığını sübut etdi. Bu tapıntılardan 1958-ci ildə Şamaxıda, xüsusilə 1966-cı ildə Qəbələdə tapılan böyük gümüş sikkə dəfinələri göstərirdi ki, hələ Strabondan bir neçə yüz il əvvəl albanlar nəinki ticarətdə puldan istifadə edirdilər, hətta özləri pul kəsirdilər.

Alban ərazisində tapılan ən qədim pullar Makedoniyalı İskəndərin adından kəsilmiş gümüş pullardır. Gətirilmə pullar daxili ticarətin daim artan tələbatını ödəmədiyindən, e. ə. III əsrin birinci yarısından gec olmayaraq İskəndərin pullarına bənzədilən pullar kəsdilər. Həm böyük dəfinələr şəklində, həm də tək-tək hallarda qədim Alban ərazisində yüzlərlə belə pul tapılmışdır. Bazarlarda yerli pullarla yanaşı Selevkilərin, Parfiya, Yunan, Baktriya, Roma və başqa ölkələrin pulları da işlənirdi.

**İCTİMAİ QURULUŞ.** Arxeoloji qazıntılar göstərir ki, Alban ölkəsində o dövrün başqa qonşu dövlətlərində olduğu kimi güclü mülki bərabərsizlik mövcud idi. Bunu cəmiyyətin varlı və yoxsul təbəqələrinin nümayəndələrinə məxsus yaşayış binalarının qalıqları, xüsusilə qəbir abidələri daha yaxşı göstərir. O zaman axirət dünyasına inamla əlaqədar qəbirlərə ölmüş adamın sağlığında işlətdiyi xeyli avadanlıq qoyurdular. Bu tapıntılar əsasında albanların ictimai quruluşu haqqında bəzi mülahizələr söyləmək mümkündür. Albanların ictimai quruluşu haqqında yazılı qaynaqlarda da müəyyən məlumat vardır. Strabon m. ö. 60-cı illərin hadisələrini şərh edərək yazır ki, hazırda bütün alban qəbilələrində bir padşah başçılıq edir. Əvvəllər isə burada hər qəbilənin öz padşahı var idi. padşahdan sonra ən hörmətli adam baş kahin idi. «O, böyük, sıx məskunlaşmış müqəddəs əyalətə başçılıq edir və məbəd qulları da onun ixtiyarındadır». Strabon qonşu İberiyanın ictimai quruluşu haqqında daha ətraflı məlumat verərək yazır ki, orada əhali dörd təbəqəyə bölünür. Ən yüksək təbəqədən padşahı, ordu başçısını və ali məhkəməni seçirlər, ikinci təbəqəni kahinlər, üçüncü təbəqəni hərbçilər və əkinçilər, dördüncü təbəqəni həyat üçün



lazım olan bütün məhsulları istehsal edən, padşaha qul kimi xidmət edən sadə adamlar təşkil edir. Qaynaqlarda olan məlumatların müqayisəli təhlili göstərir ki, Alban ölkəsində də cəmiyyətin ictimai quruluşu təxminən qonşu İberiyadakı kimi olmuşdur. Strabon Alban məbədlərinə məxsus qulların olmasını bildirir. Çox güman ki, burada padşaha və ayrı-ayrı adamlara məxsus qullar olmuşdur. Lakin klassik quldar dövlətlərdən fərqli olaraq burada qul əməyindən nisbətən az istifadə etmişlər.

Buna baxmayaraq, Alban erkən sinifli cəmiyyətini müəyyən mənada quldarlıq cəmiyyəti saymaq olar. Lakin bu cəmiyyətdə ibtidai icma quruluşu üçün səciyyəvi olan nəsli qəbilə münasibətlərinin qalıqları da güclü idi.

**ŞƏHƏRLƏR.** Sinifli cəmiyyətin yaranmasını göstərən əlamətlərdən biri də şəhərlərin əmələ gəlməsidir.

M. ö. I minilliyin ortalarında Alban ölkəsində sənətkarlığın və ticarətin inkişafı üçün əlverişli yerlərdə və ticarət yolları üstündə yaranan yaşayış məskənləri böyüməyə başladı. Ellinizm dövründə isə ölkə dünya ticarətinə qoşuldu və bəzi yaşayış yerləri şəhərlərə çevrildi.

Strabon ölkənin şəhərlərindən yalnız Uti vilayətində yerləşən Ayniana və Anariakananın adını çəkir. Strabon məlumatı Qafqaz yürüşündə Pompeyi müşayiət edənlərdən almışdı. Güclü müqavimətə rast gələn Pompey ölkənin daxili bölgələrinə girməmiş və heç bir şəhərini tutmamışdı. Ona görə də Pompeyi müşayiət edən şəxslər Alban şəhərlərini görməmiş, Strabon bu şəhərlər haqqında ətraflı məlumat ala bilməmişdi. Pompeyin yürüşündən sonra əlaqələr güclənir və antik dövr müəllifləri Alban ölkəsi haqqında yeni məlumatlar toplaya bilirlər.

Plini yazır ki, Alban dövlətinin başlıca şəhəri Kabalakadır (Qəbələ). Deməli, burada Qəbələdən başqa şəhərlər də var idi. doğrudan da II əsrdə yaşayan Klavdi Ptolomey ölkənin 29 şəhər və böyük yaşayış yerlərinin adını çəkir. Onlardan dördü şəhər: Teleba, Gelda, Albana və Qaytara şimaldan cənuba doğru Xəzər dənizi sahilində yerləşirdi. Ptolomey qalan yaşayış yerlərinin adlarını söyləyərkən hansının şəhər, hansının kənd olduğunu qeyd etmir. Onları, sadəcə olaraq, şəhər və kəndlər adlandırır. Görünür, bu yaşayış yerlərinin şəhər olmayanları da kifayət qədər böyük olmuşlar. Əks təqdirdə onların sorağı qədim Romaya çatmazdı.

Qaynaqlarda adı çəkilən şəhərlərin çoxunun harada yerləşdikləri dəqiq bəlli deyil. Antik qaynaqlarda adı çəkilən şəhərlərdən hələlik yalnız Qəbələnin (Kabalaka) və Şamaxının (Gemaxiya) yeri məlumdur. Bu şəhərlər arxeoloji cəhətdən də nisbətən yaxşı öyrənilmişdir. Yerləri məlum olan və arxeoloji cəhətdən qazıntılar aparılan bir sıra başqa yaşayış yerləri antik dövr şəhərləri haqqında müəyyən təsəvvür yaradır. Azərbaycanda Mingəçevir, Qəbələ, Şamaxı, Güney Dağıstanda Urseki, Tarqu, Torpaq-

qalada aparılan arxeoloji qazıntılar göstərmişdir ki, Alban şəhərlərinin çoxu daha qədim yaşayış yerlərinin inkişafı nəticəsində yaranmışdır. Güman etmək olar ki, bəzi şəhərlər, başqa ölkələrdə olduğu kimi hökmdarların göstərişi ilə tikilmiş, digərləri xalqın daha çox sitayiş etdikləri məbədlərin ətrafında əmələ gəlmişdir. Qədim şəhər yerləri başqa yaşayış yerlərindən tutduğu sahənin böyüklüyü, monumental tikintilərin (müdafiə istehkamlarının, böyük ictimai binaların) olması, müxtəlif sənət sahələrinin və ticarətin yüksək inkişafı ilə seçilirdilər.

## 4. SİYASİ TARİX

**ROMA İŞĞALÇILARINA QARŞI MÜBARİZƏ.** Makedoniyalı İskəndər imperiyasının dağılması nəticəsində Yaxın Şərqdə yaranan dövlətlər arasında öz ərazilərini genişləndirmək məqsədilə çox tez-tez hərbi toqquşmalar baş verirdi. Bunlardan Alban ərazisinə ən yaxını Selevkilər dövləti idi. Bu dövlətin hələ ilk padşahları I Selevk və I Antiox, Patroklun Xəzər ekspedisiyasından sonra buraya yürüşlər keçirə bilmədilər.

Ona görə I əsrin 60-cı illərinə qədər Yaxın Şərqdə baş verən siyasi hadisələrlə bağlı Alban ölkəsinin adı çəkilmir. Görünür, bu dövr albanlar üçün əmin-amanlıq dövrü olmuşdur. Arxeoloji materiallar göstərir ki, ellinizm dövrü adlanan bu dövrdə Alban dövlətinin xarici ölkələrlə əlaqələri genişlənir, ölkə daxilində iqtisadi və mədəni yüksəliş müşahidə olunurdu.

M.ö. II əsrdə Aralıq dənizi hövzəsində Roma ən güclü dövlətə çevrildi. Az sonra Roma Kiçik Asiyanı tutdu. Roma Ermənistan, İberiya və Alban ölkələrini də ələ keçirmək istəyirdi. Pont çarı ***VI Mitridatı*** əzdikdən sonra romalılar ***Lukullun*** başçılığı ilə Ermənistana girib Tiqranakerti tutdular.

Ordunun geri çəkilməsi ilə bağlı Roma senatı Lukullun yerinə ***Pompeyi*** təyin edib ona böyük səlahiyyətlər verdi. O, Ermənistan və İberiyadan keçərək ***Kolxidaya*** qaçan ***VI Mitridatı*** izləyərək 66-cı ildə yenidən II Tiqranı məğlub etdi. ***Mesopotamiya, Sofena*** və bir sıra başqa işğal etdiyi vilayətləri ondan geri aldı. Romalılara böyük təzminat verildi.

Pompey ordusuna dinclik verib və II Tiqranın xəzinəsini yağmalayıb Mitridatın ardınca düşdü. Alban ölkəsindən keçərkən İberiyaya hücum etmək qərarına gəldi. ***Tit Livi*** yazır ki, albanlar və iberlər Pompeyi öz ərazilərindən buraxmaq istəmədilər. Görünür, yolda əməliyyat planında dəyişiklik edilmişdi. Romalılar Hindistandan Alban ərazisinə və Qara dənizə aparan su ticarət yolunu ələ keçirmək istəyirdilər. Böyük Plini bu haqda yazmışdır: «Pompeyin yürüşü zamanı müəyyən olunmuşdu ki, yeddi günə Hindistandan ***Baktriyaya, Oks (Amudərya)*** çayına tökülən Baktr çayına gəlmək, daha sonra Kaspi dənizi ilə Kür çayına, oradan da beş günlük



quru yolla Hind mallarını ***Pontdan*** (Qara dəniz) ***Fasisə*** gətirmək olur». Bundan başqa Alban ərazisini tutmaq Romaya bu ərazidən Parfiyaya zərbələr endirmək və Asiyanın daxili ölkələrinə hərəkət etmək imkanı verirdi.

Qışın başlanması ilə Pompey Kür vadisində qışı keçirməyi qərara aldı. Bunun üçün o, ordusunu üç hissəyə ayıraraq üç məntəqədə düşərgə saldı. Bu ordu hissələrindən birinə Pompey özü başçılıq edirdi. Qalan hissələrə komandanlığı öz yaxın köməkçiləri ***Lutsi Flakka*** və ***Metell Selerə*** tapşırmışdı. ***Plutarx, Dion Kassi*** yazırlar ki, alban padşahı ***Oroys*** Kürü keçərək eyni zamanda romalıların hər üç düşərgəsinə hücum etməyi qərara aldı. Plutarxın məlumatına görə bu zaman albanların ordusu 40 min əsgərdən ibarət idi. Pompeyin ordusunun sayı bizə məlum deyil. Bu hücum romalıların 17 dekabrdan (7 gün) keçirilən saturnaliy bayramı günündə oldu. Lakin romalılar üçün bu hücum gözlənilməz olmadı.

Oroys özü bir dəstənin başında ***Metell Selerin*** üstünə getdi. Qalan ordu hissələrini isə Pompeyin və Lutsi Flakkın üstünə göndərdi. Oroys güman edirdi ki, belə halda Roma ordusunun hissələri bir-birinə kömək edə bilməz.

M. ö. 66-cı ilin dekabrında Kürün sahilində qanlı döyüş oldu. Plutarx, Dion Kassi bu döyüşü ətraflı təsvir etmişlər. Bu müəlliflər göstərirlər ki, güclü həmlə ilə Seler Oroysu geri oturtdu. Flakk isə bütün düşərgə boyu müdafiyənin mümkün olmadığını görüb, düşərgədə geniş xəndək qazaraq onun arxasına çəkildi. Albanlar birinci xəndəyi keçdikdən sonra romalılar iki xəndəyin arasında onları qarşılayıb məğlub etdilər. Bu fakt göstərir ki, döyüş bir gündən artıq çəkib.

Plutarx yazır ki, Oroysun hücumu Pompey üçün gözlənilməz deyildi. O, albanlara Kürdən keçərkən bilərəkdən mane olmadı. Sonra döyüşə girib onları məğlub etdi. Beləliklə, albanlar daha güclü və təcrübəli Roma ordusu ilə vuruşmada üstün gələ bilmədilər.

Pompey albanlarla sülh bağlayıb iberlərin üstünə hərəkət etdi. O, iberləri məğlub edib Kolxidaya keçdi. Lakin orada VI Mitridatı yaxalaya bilmədi. Mitridat artıq Kolxidadan ***Bospora*** keçmişdi. Pompeyin yenidən 65-ci ildə albanların üzərinə yürüşü oldu. Çünki, romalılar İberiyaya yürüş edərkən albanlar arxadan romalılara qarşı hərəkət edib onlar üçün təhlükəli vəziyyət yaratmışdılar. Plutarx yazır: «Pompey qəzəb və intiqam ehtirası ilə onların üzərinə hərəkət edərək, çətinliklə və təhlükəli şəraitdə Kür çayını keçdi. Barbarlar (albanlar – *Red.*) böyük məsafədə çayda yolu kəsmək üçün iti payalar vurmuşdular: qarşıda susuz ərazidə uzun, çətin yolun keçilməsi durduğundan, o, (Pompey – *Red.*) 10000 tuluq su götürülməsini əmr etdi». Romalılar albanlara gözlənilməz zərbə endirmək üçün dolayı yolla İora ilə Alazan çayı arasındakı susuz çöllə hərəkət etdilər. Romalılar bir neçə albanı əsir alaraq ölüm təhlükəsi ilə onlardan bələdçilik

etməyi və ordunu ən qısa və rahat yolla aparmağı tələb etdilər. Lakin əsirlər ölümdən qorxmayaraq düşmənləri çox uzun və çətin yolla apararaq xeyli ləngitdilər. Bu susuz çöldə albanlar romalılara hücum etməyərək onları Alazan çayı yanında qarşıladılar. Plutarx yazır ki, burada albanların 60 min piyada və 12 min atlıdan ibarət qoşununa alban padşahı Oroysun qardaşı ***Kozis*** başçılıq edirdi. Albanlar burada romalıların qarşısını kəsib onları ölkənin iç vilayətlərinə buraxmaq istəmirdilər. Alban ordusunun güclü hissəsi süvarilər, romalıların isə piyadalar idi. Pompey burada da hərbi hiylə işlətdi. Döyüş başlanana qədər öz kiçik atlı dəstəsini irəliyə çıxararaq piyadalara əmr etdi ki, arxada gizlənsinlər. Dion Kassinin yazdığı kimi Pompeyin məqsədi albanları döyüşə çəkmək idi. Görünür, Pompey bilirdi ki, albanların əsas qüvvələri Oroysun başçılığı altında arxadadır. Pompeyin hiyləsi baş tutdu. Albanlar qarşısında ancaq romalıların kiçik atlı dəstəsinin olduğunu güman edərək cəsarətlə hücuma keçdilər və onları sıxışdırdılar. Romalılar isə düşünülmüş plan əsasında geriyə qaçaraq albanları öz arxalarınca apardılar. Roma qoşunları geri çəkilən atlılarına öz aralarından keçməyə yol verərək və hücum edən albanları araya alaraq onları qırmağa başladılar. Dion Kassi yazır ki, şiddətli döyüş vaxtı Kozis kiçik bir dəstə ilə qılıncla özünə yol açaraq Pompeyin dayandığı yerə keçə bildi, cəsarətlə Pompeyin üstünə hücum edib ona nizə ilə zərbə endirdi. Pompeyin möhkəm zirehi onu ölümdən xilas etdi. Pompey cavab zərbəsi ilə Kozisi ölümcül yaraladı. Bu döyüşü ***Yuli Frontin*** ətraflı təsvir edir.

Qaynaqlarda göstərilir ki, mühasirəni yarıb çıxa bilən alban süvariləri və piyadaları yaxındakı meşəyə çəkildilər. Romalılar meşəni mühasirəyə alıb yandıraraq albanların çoxlu döyüşçüsünü qırdılar.

Antik müəlliflərdən ***Appian*** yazır ki, romalılara qarşı kişilərlə birlikdə qadınlar da vuruşurdu. O yazır: «Girov götürülmüşlər və əsirlər arasında kişilərdən az yara almayan çoxlu qadın var idi». Alban qadınlarının cəsarəti romalılara xüsusi təsir bağışlamışdı. Müəyyən dərəcədə alban qadınlarının döyüşkənliyi, antik dünyada albanlardan şimalda döyüşkən amazonkaların yaşadığı və romalılarla mübarizədə onların albanlara kömək etməsi barədə əfsanənin geniş yayılmasına səbəb olmuşdu.

Döyüşdən sonra albanların əsas qüvvələri Oroysun başçılığı altında ölkənin içərilərinə – dağlara çəkildi.

Bu döyüşdən sonra Pompey düşərgə salıb ordusuna istirahət verərək, Albaniyanın içərilərinə doğru hərəkət etmək istəyirdi. O, Alban padşahından tələb etdi ki, romalıların düşərgəsinə gəlsin. Lakin Oroys Pompeyə məktub və hədiyyələr göndərməklə kifayətləndi. Məktubda barışıq təklif olunurdu. ***Flora*** görə, Pompeyə Oroysun göndərdiyi hədiyyələrin içərisində qızıl çarpayı var idi.



Pompey «hədiyyələri həvəslə» qəbul etdi, barışığa gəlmək və tabe olmaq haqqında Oroysun vədləri ilə kifayətləndi. Görünür, Oroys məktub və hədiyyələrlə yanaşı Alban zadəganlarından bir neçə kişini girov kimi göndərmişdi. Appian və Plutarx yazırlar ki, Pompeyin sonra Romada keçirdiyi, qələbəyə həsr olunmuş rəsmi keçiddə Albaniyadan iki ***hegemon*** da iştirak edirdi.

Oroysla barışdıqdan sonra Pompey Xəzər dənizi sahilinə qədər irəliləmək istədi. Plutarx yazır ki, Pompey ölkənin içərilərinə doğru hərəkət etdi. Lakin zəhərli sürünənlərin çoxluğundan Kaspi dənizinə üç mənzil qalmış geri döndü. Şübhəsiz ki, əsas səbəb zəhərli ilanlar deyil, albanların güclü müqaviməti idi. ona görə çox ehtiyatlı olan Pompey yürüşün təhlükəli olduğunu nəzərə alaraq öz son məqsədindən əl çəkməli oldu.

Romalılar sonralar da dəfələrlə Xəzər dənizi sahillərinə yürüşlər etmişlər. Lakin müxtəlif səbəblərdən məqsədlərinə çatmayıblar. Onlar Alban ölkəsinin nominal asılılığı ilə kifayətlənməli olublar.

M. ö. 53-cü ildə Roma sərkərdəsi ***Krassın*** Parfiya yürüşü Transqafqaza toxunmadı. Xeyli zaman rolmalılar bu bölgəyə yürüş edə bilmədilər.

M. ö. 36-cı ildə Roma sərkərdəsi ***Antoni*** Ermənistana girib Artaşatı tutdu. Antoni öz sərkərdələrindən birini İberiya və Alban ölkələrini itaətə gətirmək üçün burada qoydu. Plutarx yazır: «Ermənistanda saxlanmış ***Kanidi*** ermənilərin, iber və albanların padşahlarına qalib gələrək Qafqaza qədər çatdı».

Dion Kassi yazır ki, bu zaman albanların hökmdarı ***Zober idi***. Bu yürüşdən sonra İber və Alban ölkələri romalılardan asılı olduqlarını bildirdilər. Lakin, bu asılılıq tamamilə nominal səciyyə daşıyırdı.

M. ö. 20-ci ildə ***Oktavian Avqust*** Parfiya yürüşü zamanı İber və Alban ölkələrini yenidən tabe etmək istəyirdi. Bu fakt göstərir ki, həmin ölkələr artıq Roma asılılığından çıxa bilmişdilər.

Bu dövrdə Ermənistan taxtında Roma əlaltıları biri digərini əvəz edirdi. Roma Ermənistan və Atropatendə güclü müqavimətə baxmayaraq özünün hakim mövqeyini saxlaya bilirdi. Lakin Alban ölkəsinin coğrafi mövqeyi ona daha çox müstəqil siyasət yeritməyə imkan verirdi. Ermənistan və İberiyada Roma qarnizonları durduğu halda, burada onların yerləşdirilməsi haqda məlumat yoxdur.

Buna baxmayaraq Alban hökmdarları Roma ilə diplomatik əlaqələri kəsmir, siyasətdə Romaya müəyyən dərəcədə meyl etmiş olurdular. Avqustun adından onun hökmranlığının axırıncı illərində tərtib olunmuş məşhur ***Ankir*** kitabəsində yazır: «Bizimlə dost olmağı elçiləri vasitəsilə... həmçinin albanların, iberlərin, medlərin hökmdarları istəmişlər». Bu yazı göstərir ki, eramızın I əsrinin əvvəllərində ölkəni Alban hökmdarları özləri idarə edirdilər və onlar Roma ilə dinc əlaqələr saxlayırdılar. Kitabədə al-

banların birinci göstərilməsi ola bilsin, onların Qafqazda o zaman aparıcı mövqe tutmaları ilə bağlı idi.

34-cü ildə Ermənistanda ağalıq etmək üstündə yenidən Parfiya ilə Roma arasında mübarizə başladı. Parfiyalılar Ermənistana hücum edərək onu tutdular və Ermənistan taxtında Parfiya padşahının oğlunu oturtdular. Lakin az sonra Roma imperatoru ***Tiberi*** onu İberiya padşahı ***Farasmanın*** qardaşı ilə əvəz etdi.

İosif Flavi yazır: «Tiberi böyük məbləğdə pul verməklə Albaniya ilə İberiya hökmdarlarını təxirə salmadan Atrabanla müharibəyə başlamağa sövq edirdi. Onlar isə özləri müharibədən çəkinərək Kaspi qapılarını açır, iskitlərə icazə verirlər ki, ərazilərindən keçərək Artabanın üstünə getsinlər».

***Tatsit*** isə yazır ki, iberlər ermənilərlə müharibədə Artaşatı tutdular. Parfiya padşahı öz oğlu Orodun başçılığı ilə Ermənistana kömək üçün ordu göndərdi. İberiya padşahı albanlarla birləşərək alanları da köməyə çağırdı. Tatsit iberlərlə albanların parfiyalılarla döyüşünü təsvir edərək göstərir ki, albanların və iberlərin süvari və piyadaları döyüşdə parfiyalıları məğlub etdilər. Lakin, az sonra Alban dövləti ilə İberiya arasında münasibətlər pisləşərək hərbi toqquşma dərəcəsinə çatdı. Görünür, bu zaman Alban dövləti yenə tam müstəqil siyasət yeridirdi.

68-ci ildə Roma imperatoru ***Neron*** (54-68-ci illər) Alban dövlətinə qarşı böyük yürüş hazırlayırdı. Tatsit yazır ki, bu məqsədlə Britaniya, Almaniya və İlliryadan seçmə ordu hissələri Romaya gətirildi. Lakin, Neronun ölümünə görə bu yürüş baş tutmadı.

Bu əsrin sonrakı onilliklərində Alban dövlətinin Roma ilə münasibətləri qaynaqlarda yaxşı əks olunmamışdır. Yalnız Bakının yaxınlığında Qobustanda bir qaya üzərində latın dilində olan kitabədə bu haqda yığcam bir məlumat vardır. Kitabədə deyilir: «İmperator Domisian Sezar Avqust Germanikin dövründə XII legion Fulminatın senturionu Lutsiy Yuli Maksim». Məlum olduğu kimi, Domisian 81-96-cı illərdə Roma imperatoru olmuşdur. Germanik titulunu isə 83-cü ilin axırında qəbul etmişdir. Deməli, Qobustan kitabəsi 84-96-cı illərə aiddir. Romada senturion yüzlüyə başçılıq edən şəxsin hərbi rütbəsi idi. Başqa yazılı qaynaqlarda göstərilən dövrdə Roma ordusunun 84-96-cı illərdə albanlara qarşı yürüşü və onun Xəzər dənizinə qədər hərəkət etməsi əks olunmamışdır. Xəzər dənizi sahilinə romalıların belə hərbi yürüşü olsa idi, bu böyük bir hərbi müvəffəqiyyət kimi qaynaqlarda əks olunardı. Bu yazı, ola bilsin kiçik bir hərbi dəstənin hansısa nümayəndəliyi müşayiət etdiyini göstərir. O zaman Alban dövləti Roma ilə siyasi, mədəni və ticarət əlaqələri saxlayırdı. Belə əlaqələrin olduğunu yazılı qaynaqlar və arxeoloji tapıntılar sübut edir. ***Eli Spartian*** yazır ki, Roma imperatoru ***Adrian*** (117-138-ci illər) albanların və iberlərin



padşahları ilə sıx dostluq əlaqələri saxlayır, onlara qiymətli hədiyyələr göndərirdi. Roma ilə bu əlaqələr III əsrin ortalarına qədər davam etmişdir. Lakin Roma Alban ölkəsini heç vaxt işğal etməmiş, yalnız zaman-zaman onu öz təsir dairəsinə ala bilmişdi.

**ALAN BASQINLARI.** İosif Flavi və Tatsit yazırlar ki, iberlər ilə albanlar sarmat-alan tayfalarına öz ərazilərindən keçərək güneyə hərəkət etməyə imkan verirdilər. Albanlar ilə iberlər Ermənistan və Parfiya ilə 34-cü ildə vuruşarkən özləri alanları köməyə çağırmışdılar. Alanların artıq bu yürüşü onları çağıran ölkələrdə böyük dağıntılar yaratdı. Sonralar onlar özləri buraya yağma yürüşlərinə çıxdılar.

Alanların güneyə ən böyük yürüşlərindən biri 72-74-cü illərdə olmuşdu. İosif Flavi yazmışdır ki, «alanlar böyük qüvvə ilə gözlənilmədən midiyalılar üzərinə basqın etdilər, onların sıx əhalisi, hər cür qaramalı olan ölkələrini talan etməyə başladılar. Belə ki, heç kəs onlara müqavimət göstərməyə cürət etmirdi». Müəllif söyləyir ki, Atropaten hakimi Pakor (Parfiya hökmdarı ***Voloqesin*** qardaşı) qorxuya düşərək öz ölkəsini düşmənə buraxıb qaçmışdı. O, əsir düşən arvadını və kənizlərini 100 talant verərək çətinliklə geri ala bilmişdi. Bu yürüş zamanı Alban torpaqları da dağıntılara məruz qalmışdı. Sarmat-alan tayfaları talançılıq məqsədi ilə sonralar da (135 və ya 136-cı ildə) Alban ölkəsinə və başqa ölkələrə yürüşlər keçirmişlər*.

**MƏDƏNİYYƏT.** Qədim Alban şəhər yerlərində və onların qəbiristanlıqlarında: Qəbələ, Şamaxı, Mingəçevir və Molla-İsaqlıda, Cənubi Dağıstanda aparılan arxeoloji qazıntılar zamanı müxtəlif tikinti qalıqları, qəbir abidələri, məişət və təsərrüfatın ayrı-ayrı sahələrində işlənən minlərlə maddi mədəniyyət nümunələri aşkar olunmuşdur. Bu arxeoloji tapıntılar və Yunan-Roma müəlliflərinin verdiyi bilgilər albanların antik dövr mədəniyyətinin başlıca qaynaqlarıdır.

Arxeoloji tapıntılar I minilliyin ortalarından başlayaraq bütün Alban ərazisi üçün səciyyəvi mədəniyyət yaranmağa başladığını göstərməkdədir. Alban tayfalarının vahid inzibati bölgüdə birləşib bir-biri ilə yaxınlaşması Alban dövlətinin ortaya gəlməsi üçün özül yaranması ilə bağlı idi. Alban dövlətinin yaranması ilə bu proses güclənir, onun bütün ərazisi üçün mədəniyyət birliyi əmələ gəlirdi. Təbii, bu ümumi mədəniyyətin ayrı-ayrı vilayətlər üçün səciyyəvi olan lokal göstəriciləri də qalmaqda idi.

---

* Alan basqınları heç zaman uzun sürməmiş, heç zaman onlar burada illər boyu oturub daimi yaşayış yerləri qurmamışlar. Buna baxmayaraq alanların dağıdıcı at üstü basqınlarına «yaradıcı» don geydirmək istəyən, 700 illik bir tarixi olan Mingəçevir katakomba (yeraltı sərdabə) qəbir mədəni qalıqlarını onların adına çıxan yerli tarixçilər var.

Alban memarları şəhərlərin ətrafında müdafiə istehkamları qurur, böyük ictimai binalar tikə bilirdilər. Ölkənin mərkəzi şəhəri Qəbələnin ətrafında tikilən müdafiə istehkamlarından möhtəşəm torpaq sədd və xəndəyin qalıqları indi də 1 km uzunluğunda yaxşı izlənir. Torpaq səddin qalınlığı 6-8 metrdir. Səddən xaricdə yerləşən xəndəyin eni 10 metrdən çox olmuşdur. Mil düzündəki Təzəkənd şəhər yerində, Cənubi Dağıstanda Torpaqqalanın ətrafında da belə istehkamların qalıqları var.

Şəhərlərin ətrafında bir sıra hallarda müdafiə istehkamları daşdan tikilmişdir. Belə müdafiə istehkamlarının qalıqları Cənubi Dağıstanda Tarqu və Urseki şəhər yerlərinin ətrafında izlənmişdir.

Alban şəhərlərində memarlar yaşayış, istehsalat və ictimai binaların tikintisi üçün inşaat materialı kimi yerli xammal ehtiyatlarından asılı olaraq daş, çiy və bişmiş kərpic, ağac və kirəmitdən istifadə edirdilər.

Qədim Qəbələ şəhəri yerində aparılan arxeoloji qazıntılar zamanı antik dövrə aid yaşayış evlərinin, böyük ictimai binaların qalıqları aşkar olunmuşdur. Çox vaxt bu binaların özülü çay daşlarından, divarları isə çiy kərpicdən hörülmüşdür. Bəzən ictimai binaların divarları bütünlüklə çiy kərpiclərdən tikilirdi. Qəbələdə eramızın ərəflərinə aid belə ictimai binalardan birinin içərisinin ümumi sahəsi 584 kv. metrdir. Onun üç böyük salonu, iki otağı və iki çox böyük dəhlizi vardır. Hər salonun orta hissəsində monolit daşlardan hazırlanmış iki sütun altlıqları qoyulmuşdur. Sütunların özləri isə ağacdan olmuşdur. Binanın üstü iri ölçülü yüksək keyfiyyətli kirəmitlərlə örtülmüşdür. Alban memarları ictimai binaların üstünü örtmək üçün kirəmitlərdən m. ö. III əsrdən başlayaraq istifadə etmişlər. Kirəmit istehsalı yunan mədəniyyətinin təsiri ilə ortaya gəlmişdir.

Arxeoloji tapıntılar göstərir ki, miladın I əsrindən başlayaraq antik mədəniyyətin yayıldığı ölkələrdə divar hörgüsündə əhəng məhlulundan istifadə etməyə başlamışlar. Həmin dövrə aid bişmiş kərpic və əhəng məhlulu ilə tikilən binanın qalıqları Qəbələdə aşkar olunmuşdur.

Alban sənətkarları çox zərif, xüsusi zövqlə müxtəlif naxışlarla bəzədilmiş gil və metal qablar istehsal edirdilər. Bəzi qablar müxtəlif quş, heyvan və insan fiqurları ilə bəzədilmişdir. Əsasən, yerli ən'ənələr əsasında hazırlanan bu qabların forma və naxışlanmasında antik dünyanın və qonşu ölkələrin də mədəni təsiri hiss olunur. Arxeoloji tapıntılar əsasında albanların da qonşu ölkələrə mədəni təsir göstərdiyi aydın izlənilir.

Alban sənətkarları qızıl, gümüş, mis, rəngli daşlar və şüşədən istifadə etməklə bir çox bəzək şeyləri istehsal edirdilər. Bunlar bilərziklər, sırğalar, alın, boyun, yaxa bəzəkləri və üzüklərdən ibarət idi. Yerli zərgərlərin bəzi məhsulları gözəl incəsənət əsərləri sayılır.

Bir çox üzüklər möhür kimi də istifadə olunurdu. Belə üzüklərin qaş hissəsində yüksək məharətlə müxtəlif süjetlər: insan, heyvan, quş, bitki



rəsmləri həkk olunurdu. M. ö. V-III əsrlərdə əridib tökmə üsulu ilə yapıldıqdan sonra oval şəkilli yastı qaş hissəsində müxtəlif rəsmlər həkk olunan metal möhür-üzüklərdən daha geniş istifadə olunurdu. Belə möhür-üzüklər o vaxt qədim Yunanıstan və İranda geniş yayılmışdı. Alban möhürlərinin süjetləri müəyyən dərəcədə Əhəmənilər İranında yayılmış möhürləri xatırladır. M.ö. III əsrdən isə Alban möhürlərinin şəkli və süjetləri yunan dünyasının möhürlərini çox xatırladır. Bu möhürlər çox vaxt gümüş və misdən hazırlanmış, qaşı rəsmli və rəngli kiçik üzüklərdən ibarət idi. Bu zaman yunan ustaları tərəfindən hazırlanmış gətirilmə möhürlərlə yanaşı, yerli ustaların əlindən çıxan möhürlərdən də istifadə edirdilər. M. ö. I əsrin ortalarından sonra Alban torpaqlarında Roma imperiyasında geniş yayılmış möhürlərdən çox istifadə olunurdu. Yerli ustaların hazırladıqları möhürləri Roma möhürlərinə bənzədirdilər. Bu möhürlərdən III əsrin ortalarına qədər geniş istifadə etmişlər. Başqa ölkələrdə olduğu kimi Alban möhürlərinin üzərindəki süjetlər də əsasən dini əqidələrlə bağlı idi. qədim cəmiyyətlərdə yüksək mədəniyyətin, dövlətin mövcudluğunu göstərən əlamətlərdən biri də yazıdır. Alban əhalisi hələ m. ö. I minilliyin ortalarından yazı ilə tanış idi. antik müəlliflər m. ö. I əsrin 60-cı illərində Alban hökmdarı Qroysla Roma sərkərdəsi Pompeyin bir-birinə məktub göndərmələri haqqında məlumat verirdilər. Bəzi saxsı məmulatının üzərində hərfləri xatırladan işarələrə təsadüf olunmuşdur. 1902-ci ildə Şəkinin Böyük Dəhnə kəndində üstündə yunanca yazı olan daş tapılmışdır. Daşın üstündə yazılmışdır: «Elly Yason xeyirxah Evnona xatirə olaraq». Yazıda göstərilən hər iki ad gəlmə yunanların adlarıdır. Bu qəbirüstü yazı miladın II əsrinə aiddir.

Qobustanda aşkar olunmuş latın dilli kitabədə Roma imperatoru Domisianın (81 – 96-cı illər) və XII Roma legionunun yüzbaşısı Lutsi Yuli Maksimin adları çəkilir. Antik dövrdə albanlar aramey, yunan, latın və ola bilsin Yaxın Şərqdə istifadə olunan başqa yazılarla tanış idilər.

Xristianlığın yayılmasına qədər albanlar bütpərəst idilər. Göy cisimlərinə sitayiş geniş yer tuturdu. Strabon yazırdı ki, albanlar Heliosa, Zevsə, Selenaya sitayiş edirlər. Helios günəş, Zevs göy, Selena isə ay allahları sayılırdı. Strabon albanların Aya daha çox sitayiş etməsini ayrıca bildirir. Bu allaha həsr olunan məbəd İberiyanın yaxınlığında yerləşirdi. Onun baş kahini ölkədə padşahdan sonra ən nüfuzlu şəxs idi. Alban ərazisində aşkar edilən çoxlu gil qadın heykəlcikləri ay ilə bağlı olan məhsuldarlıq ilahəsinə inam bildirirdi. Göstərilən dövrdə əcdadlara inam və totemizm əqidələri də mövcud idi. Belə inamların qalıqları IV əsrin əvvəllərində xristianlığın qəbulundan sonra da xeyli müddət qalmışdı.

## BEŞİNCİ BÖLÜM

# AZƏRBAYCAN ERKƏN ORTA ÇAĞDA

## 1. ALBAN DÖVLƏTİ III-VI YÜZİLLƏRDƏ

**TƏSƏRRÜFAT HƏYATI.** Arxeoloji qazıntılar nəticəsində əldə olunan tapıntılar və yazılı qaynaqlar ilk orta əsrlərdə Azərbaycan əhalisinin təsərrüfat həyatı haqqında tam təsəvvür yaradır. Bu dövrdə ölkənin siyasi tarixində, cəmiyyətin ideologiyasında baş verən dəyişikliklər həyatın bütün sahələrinə, o cümlədən təsərrüfat həyatına öz təsirini göstərdi.

Azərbaycan ərazisinin məhsuldarlığı, yeri əhalinin əkinçilik, bağçılıq, üzümçülük, maldarlıqla məşğul olması haqqında hələ antik dövr qaynaqlarında xeyli məlumat vardır. VII yüzillikdə yaşamış alban tarixçisi ***Moisey Kağanqatlı*** və IX-X əsrlərdə yaşamış ərəb müəllifləri Azərbaycanda kənd təsərrüfatının inkişaf etməsindən çox yazmışlar.

Arxeoloji qazıntılardan təsərrüfatın müxtəlif sahələrində işlənən əmək alətləri, taxıl və meyvə qalıqları bəllidir. Mingəçevirdə ağac kotana keçirilərək istifadə olunan gavahın tapılmışdır. Əmək alətləri içərisində dəhrə, balta, oraq, bel və toxalar var.

Bu tapıntılar ilk orta əsrlərdə kənd təsərrüfatının müxtəlif sahələrində təkmilləşmiş əmək alətləri işləndiyini göstərir.

Əkinçilikdə taxıl bitkilərindən buğda, arpa və darı yetişdirilməsi üstün yer tuturdu. Burada çoxlu üzüm, bostan bitkiləri, meyvələr də yetişdirilmiş, şərabçılıqla məşğul olmuşlar. Qazıntılar zamanı yanıb kömürləşmiş taxıl qalıqlarına, şərab saxlanan küplərə, bir neçə növ üzüm, ərik, şaftalı, nar, qarpız, qabaq, digər meyvə və bostan bitkilərinin toxumalarına təsadüf olunur. Moisey Kağankatlı yazır: «Böyük Kür çayı bu ölkənin düz ortasından sakitcə axaraq, iri və xırda balıqlar gətirir... Çayın sahilləri boyu münbit çöllərdə külli miqdarda taxıl və üzüm, neft və duz, ipək və pambıq, çoxlu zeytun ağacları var». Ərəb tarixçisi ***İstəhri*** Bərdə yaxınlığında başqa meyvələrlə yanaşı qoz, şabalıd, zoğal yetişdiyini bildirir. Ümumiyyətlə, ərəb qaynaqlarında Arran və Azərbaycan bağ-bağatlı ölkə kimi təsvir olunur. Ərəb müəlliflərindən yenə İstəhri, ***İbn Hövqəl*** və ***Yaqut*** Alban ölkəsində zəfəran yetişdirilməsini yazıya almışlar.

Əvvəlki dövrlərdə olduğu kimi, təsərrüfat həyatında maldarlıq böyük yer tuturdu. Yerli qaynaqlardakı məlumatlar, arxeoloji qazıntılar üzrə öyrənilən heyvan sümükləri heyvandarlıq təsərrüfatında köklü dəyişiklik olmadığını göstərir. Bu dövrdə də Azərbaycanda qaramal, davar, at, uzunqulaq, dəvə, qatır saxlamışlar. Yaylaq və qışlaqların olması köçəri maldarlıq üçün



şərait yaratmışdı. Heyvanların südündən, ət, yun və dərisindən istifadə olunmuşdur. Onlardan yük, qoşqu, minik heyvanları kimi də istifadə etmişlər. At yadelli işğalçılara qarşı aparılan savaşlarda böyük rol oynamışdır.

Təsərrüfat həyatında balıqçılıq da geniş yer tutmuşdur. Moisey Kağankatlı Kür və Araz çaylarında çoxlu balıq olduğunu yazır. ***İbn Hövqəl*** və ***İbn Əl Əsir*** isə bu çaylarda tutulan şamayı balığını ayrıca qeyd edirlər.

Erkən orta əsrlərdə Azərbaycanda çox qədim zamanlardan mövcud olan sənətkarlıq daha da inkişaf etmiş, onun yeni sahələri yaranmış, sənətkarlıqda işlənən əmək alətləri daha təkmil olmuşdu.

Sənətkarlar dəmirdən müxtəlif əmək alətləri, silahlar, əlvan metallardan zərif bəzək şeyləri (bilərziklər, kəmərlər, sırğalar, üzüklər, asmalar, yaxa bəzəkləri və s.) hazırlayırdılar. Arxeoloji qazıntılar zamanı onların nümunələri çox tez-tez tapılır.

Ölkədə dulusçuluq və toxuculuq da inkişaf etmişdi. Dulusçular məişətdə işlənən müxtəlif ölçülü gil qablar istehsal edirdilər. Bu gil qablar dulus kürələrində bişirilirdi. Erkən orta əsrlərə aid belə dulus kürələri Mingəçevirdə və Azərbaycanın başqa yerlərində aşkar edilmişdir.

Yerli sənətkarlar yun, kətan, pambıq və ipək parçalar toxuyurdular. İlk orta əsrlərdə ipəkçilik meydana gəldi. Toxucu qurğularından istifadə edilməyə başladı. Ağacdan hazırlanan bir toxucu qurğusunun qalığı Mingəçevirdə katakomba (yeraltı sərdabə) qəbirlərdən birində tapılmışdır. Yenə Mingəçevirdə Küp qəbirlərdən iki min əvvəl belə toxuculuq qurğusunda toxunmuş kətan parça qalığı tapılmışdır.

Toxuculuq isə Bərdə, Dərbənd, Qəbələ və Şəkidə daha çox inkişaf etmişdi. Erkən orta əsrlərdə natural təsərrüfatın inkişafı ilə bağlı kənd yerlərində də sənətkarlıq yayılmağa başlamışdı. Lakin yüksək məharət tələb edən sənət işləri (silahqayırma, zərgərlik, zərif parçaların toxunması) əsasən şəhər emalatxanalarında inkişaf etmişdi. Qazıntılar zamanı tapılan müxtəlif rəngli daşlardan və metallardan hazırlanan möhürləri də şəhərlərdə çalışan sənətkarlar hazırlayırdı. Çox bərk, rəngli daşlardan yüksək ustalıqla hazırlanan kiçik möhürlərin üstündə insan, heyvan, quş, bitki rəsmləri həkk olunurdu. Bu süjetlərin çoxu o dövrün dini görüşləri ilə bağlı idi. Belə möhürlərə Mingəçevirdə, Qəbələdə, Şamaxıda Azərbaycanın başqa ilk orta əsr abidələrində tez-tez təsadüf olunmuşdur.

Yazılı qaynaqlar və arxeoloji qazıntılar o zaman Azərbaycanda daxili və xarici ticarətin geniş yayıldığını göstərməkdədir. Arxeoloji qazıntılarda başqa ölkələrdən gətirilən bəzək şeyləri, möhürlərə və pullara çox təsadüf olunur.

**YENİ İCTİMAİ MÜNASİBƏTLƏR.** Qulçuluq, ağa-qul münasibətləri Şərq, o sıradan Azərbaycan tarixində ictimai istehsalın özülü, aparıcı amil olmamışdır. Lakin ilkin orta dövrdən burada da inkişafın yeni mərhələsi

başlandı. Bu inkişafın başlıca göstəricisi torpaq münasibətləri idi. Torpaq, yəni məmləkətin başlıca yararlı və yararsız torpaq sahələri üzərində ali hökm hüququ istər islamdan əvvəl, istərsə də islamdan sonra dövlətə məxsus idi. Dövlət mülkiyyəti üstün olduğu üçün heç bir böyük torpaq sahibi belə burada dövlət ilə rəqabət aparacaq qüvvə deyildi. Ancaq dövlətlə torpaq arasında dövlətə qulluq edən hakim zümrə və ya zümrələr, bir də torpağı öz əllərilə əkib-becərən kəndlilər dururdu.

Dövlət özünə etibarlı dayaq yaratmaq üçün mülki və hərbi işlərdə yüzlərlə və minlərlə qulluq adamlarının xidmətindən istifadə edirdi. Bu, əslində dövlətin hakim, yüksək zümrəsi idi. Dövlətin onlarsız yaranması və yaşaması mümkün deyildi.

Dövlət qulluğu qarşılığında belə adamlara torpaqdan gəlir götürmək, vergi toplamaq hüququ verilir, yəni hakim zümrə daimi yaşayış və qazanc mənbələri ilə təmin edilirdi. Ancan Avropadan, Bizansdan, bir sıra başqa bölgələrdən fərqli olaraq, burada torpaq və onu becərən kəndli sahibin tam və hüquqsuz malına çevrilmirdi. Torpaq ilk zamanlar yalnız keçici olaraq (qulluq müddətinə, çox az halda ömürlük) verilirdi. Kəndli isə heç bir zaman sahibin «ağzıbağlı» quluna çevrilmir, yalnız ona torpaqdan ödənc verir, onun qarşısında bəzi mükəlləfiyyətlər daşıyırdı.

Belə bir ictimai münasibətlər haqqında Moisey Kağankatlının «Alban tarixi»ndə, başqa tarixi əsərlərdə tutarlı yazılar var. Bu zaman bəzi yerlərdə hələ ibtidai-icma və quldarlıq üsul-idarəsinin qalıqları da qalmaqda idi. Moisey Kağankatlının bildirməsinə görə artıq V əsrdə ayrı-ayrı Alban əyanlarının torpaqlarında minlərlə kəndlilər işləyirdi. Hökmdar özü böyük torpaq sahibi idi. qaynaqlarda göstərilir ki, V əsrin ortalarında Alban hökmdarı II Vaçe hakimiyyətdən əl çəkərkən hələ uşaqlıqda atasının ona bağışladığı min ailəni özünə götürmüşdü. Beləliklə, ilkin orta çağda torpaq sahibliyi dəyişikliyə uğradı. Torpağın çox böyük qismi dövlətin əlindən tədriclə kübar ailələrin, dövlət qulluq adamlarının əlinə keçdi. Hökmdarın əlindəki torpaqların hakim sülalə üzvləri arasında bölüşdürülməsi də xüsusi torpaq sahibliyinin inkişafına təkan verdi. Yeni torpaq sahibləri zümrəsi yarandı. Lakin bununla yanaşı bəzi kəndlilərin və sənətkarların öz əməyinə əsaslanan mülkü də olurdu. Bizans qaynaqları üzrə Alban dövlətində bir zaman böyük torpaq sahibləri ***patriklər***, kiçik torpaq sahibləri isə ***azatlar*** adlanırdı.

İlk orta çağda Azərbaycanda, bütün Yaxın Şərqdə yaranmaqda olan ictimai münasibətlər Avropada «feodalizm» kimi bəlli quruluşdan xeyli seçilirdi. Burada torpaq üzərində mütləq hökm hüququ dövlətə məxsus idi, kənd icması bir qurum olmaqla böyük yer tuturdu. Avropa ölkələrindən fərqli olaraq, burada kəndlini hüquqi baxımdan tam qula çevirən təhkimçilik yayılmamışdı. Feodal adlandırıla biləcək zümrə torpağa deyil, daha



çox at və qılınca bağlı olan dövlət qulluqçusu (hərbçisi) idi. Buna görə çox vaxt torpaq sahibi olan bu qulluqçular özləri təsərrüfat işlərinə qarışmır, təsərrüfat yaratmırdılar. Onlar kəndlilərdən məhsul və pulla vergi almağı üstün tuturdular. Şərqdə, o cümlədən Azərbaycanda, torpaq sahibləri daha çox torpağı becərən kəndlidən məhsulla vergi yığırdılar. Çünki, onlara birbaşa torpaq üzərində sahiblik hüququ deyil, bu torpaqda oturub onu becərən kəndlidən vergi almaq hüququ verilirdi. Başqa sözlə, onlar kəndlini istismar edə bilirdilər, ancaq onu tam hüquqsuz bir qul, bir əşya kimi alqı-satqıya qoya, ailə üzvləri üzərində, Avropada olduğu kimi, istədiyi rəzilliyi edə bilməzdilər.

Qaynaqlarda Alban ölkəsində ilk orta çağa aid torpaq mülkiyyət formalarından bəhs olunarkən «***dastakert***», «***xostak***» kimi anlayışlardan istifadə olunmuşdur. Dastakertin sahibləri padşah və əsilzadələr – azatlar olurdu.

Aquen yığıncağının qanunlarına görə, dastakert azatların vərəsəliklə keçən torpaq sahəsi sayıla bilər. Bu qanunların 20-ci maddəsində deyilir ki, «azatlar öz dastakertlərindən yepiskopun xəbəri olmadan keşişi qova bilməzlər». Xostak sahibləri isə xırda hərbi əyanlar, dövlət məmurları, kilsə xadimləri olurdu. Xostak müəyyən xidmətə görə verilirdi. O geri alına bilərdi. Aquen yığıncağının qərarlarında göstərilir ki, «rahib vəngdən (monastrdan) bir şey oğurlayır və bu əhvalat açılsa, həmin adam mühakimə olunmalı və öz yerindən qovulmalıdır, ona ayrılan xostak isə kilsənin xeyrinə alınmalıdır».

Qaynaqlarda ***aqaraq*** və ***yerdumard*** anlayışları da işlənmişdir. Alban ölkəsində aqaraq dedikdə yerdumardlara məxsus torpaq sahələri nəzərdə tutulurdu. Yerd, görünür, ayrı-ayrı ailələrə (evlərə) paylanmış torpaq sahələri, mard isə adam mənasında işlənmişdir. Qaynaqlarda göstərilir ki, «azatlar öz yerdlərini və mardlarını (adamlarını) böləndə... yerdlərə vergi qoyurdular». Bu bölgü həm də yerdlərdən alınacaq torpaq rentasının istehsalçılar arasında bölünməsi demək idi. yerdumard anlayışını torpaqla bağlı, torpaq payı alan adam kimi də başa düşmək olar.

Erkən orta çağda əhalidən natura halında vergilər yığılırdı. Alban dövlətində kilsə üçün alınan vergilər Aquen yığıncağının qanunlarında qeydə alınmışdır. Has adlı can vergisini başlıca olaraq əyanlar (azatlar, çar nəslinin üzvləri) verirdi. Aquen yığıncağı qanununda göstərilir ki, «azat və çar nəslindən olan şəxs ömrü boyu öz əli ilə öz canı üçün bir yəhərli-yüyənli at... verməlidir». İmtiyazlı kütlə üçün bu vergi könüllü idi. Kilsənin xeyrinə yığılan ***onda bir*** vergisi geniş yayılmışdı, bu vergini bütün xristian əhali ödəyirdi. Onda bir vergisi kənd təsərrüfatı məhsullarından (meyvə, tərəvəz, sürü və b.) alınırdı. Feodal üçün də məhsul vergisi yığılırdı. Aquen yığıncağı qanunlarında deyilir: «xalq tərəfindən keşişə gətirilən torpağın

bəhrəsi aşağıdakı qaydada verilməlidir: varlı adam 4 cərib (1 cərib 29,5 litr və ya 22,825 kq) buğda, 6 cərib arpa və 16 bardaq şirin çaxır. Kasıb isə varlı verən taxılın yarısını, çaxırdan isə bacardığı qədər. Kimin ki, nə bağı var, nə də əkin yeri, ondan heç bir şey alınmasın». Bu vergilərdən başqa Aquen qanunları «ölənin ruhunun rahat olması üçün» qohumlarının ildə bir dəfə ayrıca bir vergi verməli olduğunu qeydə alıb: «... azat, kəndli və ya başqa bir adam... rəhmətə gedən şəxsin atları var idisə, onlardan kilsə payı olaraq istədiyi bir at, əgər qaramalı var idisə, istədiyi bir öküzü verməlidir». Qaynaqlara görə, bu kilsə vergilərinin dünyəvi müqabilləri var idi, onlar torpaq sahibi olan feodalın xeyrinə də toplanmışdır.

***Şinkanlar*** kilsə istismarından başqa Alban dövlətinin və Sasani imperiyasının ikiqat zülmü altında idilər. İcmaçı kəndlilər can vergisi ***gezitlə*** yanaşı məhsulun 1/5-dən ibarət torpaq vergisini, sənətkar və tacirlər isə gömrük haqqı olaraq bac verirdilər. Atropatendə isə 20 yaşından 50 yaşınadək bütün kişilər həm can vergisi, həm torpaq vergisi ***xaraq (xərac)*** ödəyirdilər. Bunlardan başqa orada əhalidən şəhər divarlarının tikilməsi və təmiri, kanalların çəkilməsi üçün vergilər toplanırdı.

**ƏRAZİ VƏ İNZİBATİ BÖLGÜSÜ.** Antik dövrdə olduğu kimi, erkən orta çağda da Alban dövləti geniş ərazini əhatə edirdi. Güneydə Araz çayından başlayaraq quzeydə Qafqaz dağlarına qədər, qərbdən İberiyadan şərqdə Xəzər dənizinə qədər ərazi onun tərkibinə daxil idi. Bu ərazi təbii sərhədlərlə bir-birindən ayrılan bir sıra vilayətlərə bölünürdü. Qaynaqlara görə təkcə sol sahil Alban torpaqlarında Çola, Lpina, Kambisena və başqa vilayətlər var idi.

***Çola*** vilayəti Dərbənddən Beşmarmağa qədər Xəzər sahilini tuturdu. Buranın başlıca şəhərləri Çola və Dərbənd idi. Bölgənin böyük strateji əhəmiyyəti var idi. Quzeylə güneyi birləşdirən çox mühüm keçid burada yerləşirdi. Bu keçidin İran və Bizans üçün də böyük əhəmiyyəti var idi. Dəfələrlə quzeydə yaşayan köçəri xalq və tayfalar bu keçidi aşıb Ön Asiyanın içərilərinə soxulur, şəhər və kəndləri dağıntılara məruz qoyurdular. Bununla bağlı ilk orta çağda Sasani hökmdarları burada Beşbarmaq, Gilgilçay və Dərbənd müdafiə sədlərini tikdirmişdilər.

Bu vilayətdə üzümçülük, meyvəçilik və taxılçılıqla məşğul olurdular.

Ərazidə, əsasən, türkdilli və Dağıstan dilli xalqlar yaşayırdılar. Erkən orta çağda bu ərazidə İrandilli tayfalar da yerləşmişdi.

Çola ilə Şəki arasında ***Lpina*** vilayəti yerləşirdi. Burada çoxlu meşələr vardı. Qoz, fındıq və başqa meyvələr yaxşı yetişirdi. Qaynaqlara görə bu vilayətdə lpinlər, leqlər və albanlar yaşayırdılar. İlk orta çağda burada türkdilli əhali çox idi. alban dövlətinin başlıca şəhəri Qəbələ bu vilayətdə yerləşirdi.



Ölkənin şimal-qərbində ***Kambisena*** vilayəti yerləşirdi.

Bu vilayət Alazan və İori çaylarının orta axarından bu çayların Kürə qovuşduğu yerə qədərki torpaqlarda yerləşirdi. Alban tayfalarından erlər, lpinlər, türkdilli (sabirlər və b.) və irandilli tayfalar, ola bilsin sivlər burada yaşayırdı. Burada taxılçılıq, balıqçılıq, üzümçülük və şərabçılıqla məşğul olurdular. Bundan başqa əhali kətan becərir, heyvandarlıqla, bağçılıqla, toxuculuqla və sənətkarlığın başqa sahələri ilə məşğul olurdu.

Kürdən güneydə ***Paytakaran, Arsax, Uti, Sünik*** vilayətləri yerləşirdi.

Bu dövrdə indiki Azərbaycan Respublikasının cənub-şərqi, Mil və Muğan düzlərinin bir hissəsi Paytakaran vilayəti adlanırdı. Bu vilayət qədimdə ***Kaspiana***, daha sonra isə ***Balasakan*** kimi də bəlli idi. Vilayətin mərkəzi Paytakaran (Beyləqan) şəhəri idi.

İlk orta çağda burada pambıqçılıq, üzümçülük, taxılçılıq, maldarlıqla məşğul olmuşlar. Qışda buradakı geniş düzənlərdə heyvan sürüləri saxlanırdı. Yayda isə bu sürülər yaylaqlara çıxarılırdı. Burada qədim suvarma qurğusu olan Gavurarxın qalıqları indi də yaxşı izlənir. Təsərrüfatda balıqçılıq da mühüm yer tuturdu. Kür və Araz çaylarında ovlanan balığı tutulan kimi yeməkdə istifadə edir və duzlayıb qaxac edərək uzun müddət saxlayırdılar.

Qaynaqların məlumatına görə burada albanlar, türk soykökündən olan başqa tayfalar yaşayırdılar.

Kürün sağ sahilində ***Uti*** (Otena) vilayəti yerləşirdi. Bu vilayət Kür çayı, Paytakaran və Arsax arasında idi. Qaynaqlara görə hələ antik dövrdə burada Aynlana və Anarakia şəhərləri salınmışdı. İlk orta çağda isə Alban knyazlığının mərkəzi Bərdə burada idi. Uti vilayətində utilər, qarqarlar, hun boylarından bolqarlar, sabirlər, başqa tayfalar yaşayırdı. Əhali, əsasən, maldarlıqla, taxılçılıq, pambıqçılıq, bağçılıqla məşğul olurdu. Burada kətan becərir, zeytun yetişdirirlər. Zeytundan yağ çəkirdilər.

Böyük vilayətlərdən biri də ***Girdman*** idi. bu vilayətin ilk vaxtlar Ağsu-Girdmançay və ya Şəmkirçay üstündə yerləşdiyini söyləyirlər. Görünür, Girdman vilayəti ilk zamanlar Alban ölkəsinin şimali-qərbində yerləşmiş, Mehranilər dövründə ərazisi qonşu vilayətlərin, o cümlədən Kür çayının sol sahili vilayətlərinin hesabına xeyli genişlənmişdir. Bu ərazidə alban tayfaları yaşayırdılar. İlk orta çağda Mehr ailəsi ilə birlikdə buraya iranlılar da köçüb gəlmişdilər. Əhali maldarlıq, əkinçilik, bağçılıq və sənətkarlıqla məşğul olurdu. Dəmir və mis mədənlərinin olması metalişləmə sənət sahələrinin burada inkişafı üçün şərait yaratmışdı.

İndiki Yuxarı Qarabağ və Mil düzünün bir hissəsi ***Arsax*** vilayəti adlanırdı. Burada əhali maldarlıq, arıçılıq, əkinçilik, bağçılıq, sənətkarlıqla məşğul olurdu. Burada yetişdirilən Qarabağ atları çox məşhur idi. Vilayətdə qarqarlar, utilər, hunnlar, xəzərlər, basillər yaşayırdılar.

İlk orta çağda ***Sünik*** vilayəti də Alban dövlətinin tərkibində idi. Bu vilayət Sisakan da adlanmışdır. Sünik Ermənistanla albanların Arsax vilayəti arasında yerləşirdi. Buranın təsərrüfatı qonşu vilayətlərdən seçilmirdi. VIII əsrdə yaşamış yerli müəllif Sünikli ***Stefan*** yazırdı ki, burada sünik və arsax dillərində danışırdılar.

**XRİSTİANLIĞIN YAYILMASI**. Alban dövlətində rəsmi olaraq xristian dini IV əsrin başında alban hökmdarı ***Urnayrın*** buyruğu ilə qəbul olunmuşdur. Lakin burada xristianlığın yayılması, onun rəsmən tanınmasından çox qabaq başlanmışdı. Xristianlıq yəhudi dini özülündə, miladın I-II yüzillərində yaranıb ortaya gəlmişdir. Alban tarixçisi Moisey Kağankatlı yazır ki, Alban ölkəsində xristianlıq Ermənistan və Gürcüstandan əvvəl Müqəddəs ***Yelisey*** tərəfindən təbliğ edilmişdir. ***İsa*** peyğəmbərin qardaşı və ***Qüdsün*** birinci patriarxı ***İskov*** ona rüsxət verib, xristianlığı Şərqdə yaymağı tapşırmışdı. Müqəddəs Yelisey Qüdsdən İrana, oradan da maskutların yanına gedərək Çolada xristianlığı təbliğ etməyə başladı. Daha sonra Yelisey Çoladan Uti vilayətinə, oradan isə Qisə (Giş) gedib kilsə bina etdi. Bu kilsə, Moisey Kağanqatlıya görə quzey kilsələrinin ən qədimi, biz şərqlilərə xristianlığın qəbul edilməsi mənbəyi idi. Alban tarixçisi yazır ki, Müqəddəs Yelisey xristianlığı yalnız quzey Alban bölgələrində yaydı. Bu, Alban ölkəsində xristianlığın başlanğıcı sayıla bilər. Albanlar ikinci dəfə əsaslı şəkildə xristianlığı hökmdar Urnayrın göstərişi ilə 313-cü ildə qəbul etmişlər. Urnayr xristianlığı ölkənin dövlət dini olduğunu bildirdi, onu güclə yaymağa başladı. Əski bütpərəst məbədlərinə aid olan torpaqlar, əmlak alınıb xristian kilsələrinə verildi. Kilsənin xeyrinə kəndlilər üzərinə ayrıca vergi qoyuldu (məhsulun 1/10 qədərində) Xristian dinini ilk zamanlar cəmiyyətin yuxarı zümrəsi qəbul etmişdi.

Adı çəkilən tarixçi bildirir ki, Alban hökmdarları Urnayr, ***II Vaçe*** və xüsusilə ***III Vaçaqan*** bütpərəstlik dini görüşlərini bütünlüklə aradan çıxarmaq üçün çox ciddi səy göstərirdilər. III Vaçaqan «kahinləri», «cadugərləri», «sehrbazları» suda boğdurmuş, ölkədən qovmuş və ya qula çevirmişdi. Bütpərəstlik ilə mübarizə Aquen kilsə qanunlarında öz əksini tapmışdı. Bu qanunlara görə bir çox hallarda bütpərəstlər edam olunurdular. Buna baxmayaraq xristianlıq albanlar arasında yayılmamışdır. Burada bütpərəstliyin qalıqları uzun müddət yaşayırdı. Moisey Kağankatlının yazdığına görə VII əsrdə də ölkədə bütpərəstliyin qalıqları qalmaqda idi.

İlk orta əsrlərdə Sasanlı hökmdarları Alban əhalisi arasında zərdüşt dinini yaymaq üçün səy göstərirdilər. Lakin bu din burada daha çətin yayılırdı. Alban ərazisində indiyə kimi zərdüştlüyə aid abidələrin aşkar olunması təsadüfi deyildir. Bu dövrə aid xristian kilsələrinin qalıqları isə Mingəçevirdə, Qax (Ləkit və Qum məbədləri), Qəbələ (Kilsədağ), Ağdam (Boyəhmədli məbədi) və başqa yerlərdə var. Sonrakı dövrlərə aid xristian məbədlərinin qalıqları da bir sıra bölgələrdə indiyə kimi qalmaqdadır.



Alban kilsəsi tam müstəqil idi. Alban kilsə başçısı katalikos adlanırdı. Kilsə mərkəzi IV əsrdə Qəbələ, V əsrdən isə Bərdə idi. III Vaçaqan 487-488-ci ildə Aquendə kilsə yığıncağı çağırdı. Bu yığıncaqda 21 maddədən ibarət qanunlar qəbul edildi. Bu qanunlar ilə kilsə xadimlərinin hüquq və vəzifələri, ruhanilərlə qalan adamlar arasında münasibətlər, xalis hüquqi məsələrər açılmış oldu.

Ölkə vilayətlərində yepiskopluqlar mövcud idi. İnzibati əyalətlərin ərazisi çox vaxt yepiskopluqların ərazisinə uyğun gəlirdi. V-VIII yüzillərdə 12 Alban yepiskopluğu var idi.

XIII əsrin ortalarından Alban kilsəsinin mərkəzi ***Gəncəzər*** məbədi oldu. Bu vaxtdan katalikos bir qayda olaraq vərəsəliklə ***Həsən Cəlalın*** nəslindən seçilirdi. Alban kilsəsi yalnız 1836-cı ildə çar I Nikolayın fərmanı ilə ləğv edilmişdir. Bu zamandan Alban kilsəsi yox edildi, Onun yerini erməni kilsəsi tutdu.

Alban ərazisində müsəlmanlığın yayılmasından sonra Ermənistana yaxın olan xristian albanlar erməniləşməyə, Gürcüstana yaxın olan xristian albanlar gürcüləşməyə başladılar.

## 2. SİYASİ TARİX

**SASANLI İMPERİYASI VƏ AZƏRBAYCAN**. 224-cü ildə Parfiya dövləti süqut etdi. İranda Sasan nəslindən olan ***I Ərdəşir*** hakimiyyəti ələ keçirərək, Sasanlı (Sasani) sülaləsini dövlət başına gətirdi. Sasanlı hökmdarları özünü ***şahənşah*** adlandırırdı. Dövlətin əyalət başçısı şəhrdar, V yüzillikdən isə mərzban adlanırdı. Mərzbanların səlahiyyəti çox geniş idi. 4 ən böyük mərzbanlığın başçısı şah titulu daşıyırdı. Bu «şahlar» mərkəzi dövlətin baş hökmranı şahənşaha tabe idilər. Sasanlı idarəçiliyi tarixdə canişinlik və ya «yaxşı idarə olunan əyalət sistemi» adlanır. Ərdəşir və ondan sonra gələn ***I Şapur*** (241-272-ci illər) geniş işğalçılıq siyasəti aparırdılar. Roma imperatorluğunun zəifləməsi gənc Sasanlı dövlətinin Yaxın və Orta Şərqdə ən böyük siyasi qüvvəyə çevrilməsi ilə bir vaxta düşdü. İran ordusu döyüşlərdə Roma ordusuna qalib gəldi. 260-cı ildə ***Edes*** döyüşündə imperator ***Valerian*** başda olmaqla Roma ordusu məğlub oldu. I Şapurun bu uğuru ilə bağlı ***Nəqşi-Rüstəm*** adlanan yerdə ***Kəbəyi-Zərdüşt*** abidəsində (böyük relyef və yazı) ona tabe olan ölkələrin sırasında Atropaten, Ermənistan, İberiya və Alban ölkələrinin adları var. Yazıda Qafqaz dağlarına və Alban qapılarına qədər torpaqların Sasanilərə tabe olması bildirilir.

Sasanlı dövründə Atropaten torpaqları İranın mühüm əyalətlərindən birinə çevrilmişdi. İran canişininin iqamətgahı ***Təbrizdə*** yerləşirdi. Sasanlılar Atorpatendə yayılmış olan Zərdüştlüyü özlərinin dövlət dini elan etdi-

lər. I Şapur zərdüştlüyü dövlətin bütün əyalətlərində yaymaq üçün fərman verdi. Bu dinin yayılmasına mane olanlar təqib olunudular.

Zərdüştlük kahinləri dövlətdə çox böyük nüfuza və hüquqlara malik idilər. Məhkəmə işləri də onların əlində idi. Onların geniş torpaq sahələri vardı. Atropatenin mərkəzi Qazakadakı baş məbəd kahinlərin geniş torpaq sahələrində minlərlə kəndli işləyirdi. Yeni hakimiyyətə keçən şahənşah novruz günü piyada Qazakaya gəlməli, oradakı məbəddə öz mehrabını qurmalı idi. Bu mehrabda od yanan andan onun rəsmi padşahlığı başlanıdı.

**QUZEY BÖLGƏLƏRİN SİYASİ DURUMU**. Moisey Kağanqatlı Alban tarixinin III-V yüzillərindən danışarkən 10 yerli hökmdarın adını çəkir. ***I Vaçaqan, I Vaçe, Urnayr, II Vaçaqan, Mirxavan, Satey, Asay, Asuagen, II Vaçe, III Vaçaqan***. Tarixçi onların parfiyalı olan Arşaklı sülaləsi ilə qohumluğunu ayrıca qeyd etmişdir.

Nəqşi-Rüstəm yazısı gerçək sayılarsa, III yüzilin 60-cı illərində Alban dövləti Sasanlı imperiyasının nüfuz dairəsinə qatılmış, müəyyən ölçüdə asılı vəziyyətə düşmüşdü. Lakin bu asılılıq nominal səciyyə daşıyırdı. Burada yerli hökmdarlar İrandan asılı vəziyyətə düşsələr də, öz hakimiyyətlərini saxlaya bilmişdilər. Albanların öz padşahları vardı. Onlar bir çox hallarda İrana tabe olmur, müstəqil davranırdılar.

IV əsrdə Atropaten, Alban ölkələrini, İberiya və Ermənistanı ələ keçirmək üçün İranla Roma arasında müharibələr gedirdi. Bu ölkələr ümumi düşmənə qarşı bir çox hallarda birgə mübarizə aparsalar da, onların öz aralarında da toqquşmalar olurdu. Belə hallarda barışmaz rəqiblər olan İran və Roma bu və ya digər tərəfə kömək edirdi. Bu toqquşmalara quzeydən axışan köçəri tayfalar da cəlb olunurdu.

Romalıların köməyi ilə Ermənistan hökmdarı ***II Arşak*** IV yüzilin ortalarında hunları və alanları da öz tərəfinə çəkərək Sasanlı dövlətinə basqın etdi. Onlar Təbriz şəhərinə qədər irəliləyərək Atropateni talan etdilər və oradan külli sayda (***Favstos Bizanslıya*** görə «ulduzlar qədər çox») əsirlər apardılar. Lakin az sonra İran padşahı ***II Şapur*** Atropatendə böyük qüvvə toplayaraq öz düşmənlərini sıxışdırıb ölkədən çıxardı. Atropaten İranla Roma imperiyası arasında döyüş meydanına çevrilmişdi.

Sasanlı hökmdarı II Şapur Ermənistan üzərinə yürüş edərkən Alban padşahı Urnayr bir müttəfiq kimi ona qoşulmuşdu. Urnayr İran şahının bacısına evlənmişdi. Moisey Kağanqatlı bu yürüşlə bağlı yazır ki, Alban padşahı Urnayr Ermənistanda qələbə bayrağı qaldırdı. Bu haqda Roma tarixçisi ***Ammian Marsellin*** də yazır ki, ***Amid*** (indiki ***Diyarbəkr***) qalası qarşısında II Şapuru müşayiət edən Alban padşahını görmüşdür. Favstos Bizanlı isə Alban padşahı Urnayrın öz ordusu qarşısında çıxış edib, aşağıdakıları söylədiyini yazır: «İndi mən sizə xəbərdarlıq edirəm ki, yadınızda



saxlayasınız, biz yunan döyüşçülərini əsir alarkən onların çoxunu sağ saxlamaq lazımdır. Biz onların əl-qolunu bağlayıb Albaniyaya aparır, dulusçu, şəhərlərimiz, saraylarımız və başqa ehtiyaclarımız üçün daşyonan, bənna kimi işləməyə məcbur edərik». Ancaq 371-ci ildə Baqavan yaxınlığında ***Drizav*** çölündə baş verən döyüşdə Sasanlılar uğur qazanmadılar.

İranla Roma arasında savaşlar uzun sürdü. 387-ci ildə onların arasında sülh bağlandı. Ermənistan Roma ilə İran arasında bölüşdürüldü. Onun qərb hissəsi Romanın tərkibinə, qalan dörddə üç hissəsi isə İrana qatıldı.

Sasanlı hökmdarları həm təbii sərvətləri, həm də strateji mövqe baxımından Alban ölkəsinə çox fikir verirdilər. Quzey köçəriləri Alban torpağından keçərək İran vilayətinə soxulurdular. Ona görə də Sasanlılar quzeydən qorunmaq üçün Dərbənd keçidini bağlamaq istəyirdilər.

III əsrdə hunlar və sabirlər Dərbənd keçidini aşıb Alban və Atropaten ərazisini qarət etmişdilər. Bu qarətçilik basqınları sonralar da davam edir, İran və Bizansa böyük zərər vururdu. V əsrin əvvəllərində quzeydən basqınlar daha da gücləndi. Onların qarşısını almaq üçün 422-ci ildə İran və Bizans dövlətləri müqavilə bağladılar. Dəryal keçidini qorumaq üçün Bizans dövləti İrana hər il müəyyən xərc verməyi üzərinə götürdü.

Sasanilər Xəzər sahili boyu bütöv bir qorunma tikililəri silsiləsi (Güneydən quzeyə Beşbarmaq, Gilgilçay (Şabran) və alınmaz Dərbənd tikilisi) yaratdılar.

Tikinti işləri hələ ***II Yəzdigərdin*** (438–457-ci illər) hakimiyyəti illərində başlandı. Bu padşah Alban, Ermənistan və Gürcüstan torpaqlarında İran ağalığını bərkitmək üçün çox amansız siyasət yeridirdi. Dərbənd tikilisi VI əsrin birinci yarısında başa çatdı. Onun divarları qərbdən dağlara dirənir, şərqdən isə dənizin içərisinə girərək keçidi bütünlüklə qapayırdı. Qala da, çox uzun və qalın olan divarlar da yerli əhalinin gücü ilə tikilirdi. Bunun üçün çoxlu vergilər toplayır, əhalini ağır fiziki işləri görməyə məcbur edirdilər. Bu ağır işlərdə on minlərlə adam çalışırdı. Alban tarixçisi Moisey Kağankatlı yazırdı: «İran şahları Qafkaz dağı ilə böyük Şərq (Xəzər) dənizi arasında böyük tikilini ucaltmaq üçün memarları yığıb aparmaq, müxtəlif (tikinti) materialları toplamaqda ölkəmizi gücdən saldılar». Sasanilər bu keçidi müdafiə etmək üçün böyük hərbi hissələr də saxlayırdılar. Ölkənin içəri bölgələrində də qalalar tikilir, onlarda qoşun yerləşdirilirdi. Bu qoşunların xərci yerli əhalinin üzərinə düşürdü.

Sasani şahları özlərinə dayaq yaratmaq üçün ölkənin strateji əhəmiyyəti olan yerlərində irandilli tayfaları yerləşdirirdilər. Başlıca olaraq bu tayfalar quzey İranın ***Deyləm (Təbəristan)*** bölgəsindən köçürülüb gətirilirdi. Onlar Abşeron yarımadasından Dərbəndə kimi uzanan dəniz sahili boyunca daha çox yerləşmişdəlir. Bu tayfaların qalıqları olan ***tatlar*** indi də burada yaşamaqdadırlar.

Sasanlılar əhalidən ağır vergilər toplayırdılar. Ərəb tarixçisi ***Təbərinin*** yazmasına görə bunlardan ən ağırı torpaq vergisi ***xərac*** idi. Bu vergi məhsulun beşdə bir hissəsini təşkil edirdi. Əhali vergiləri verib qurtarana qədər öz əməyinin məhsulundan istifadə edə bilməzdi. Bundan başqa hər bir kəndli və sənətkar can vergisi ***gezit***, sənətkar və tacirlər ***bac*** ödəməli idilər. Əhali kar (iş) adlanan mükəlləfiyyət də daşıyırdı. Bütün bu vergiləri toplamaq üçün xüsusi ayrılan İran məmurları əhali ilə amansız rəftar edirdilər. II Yəzdigərdin hakimiyyəti illərində əhali sayımı keçirilmiş və vergilərin miqdarı iki dəfə artırılmışdı. Onun dövründə Şərqdən İrana ***kuşan*** tayfaları basqınlar edirdi. Bu basqınların qarşısını almaq üçün çoxlu maliyyə vəsaiti və insan qüvvəsi tələb olunurdu. Bu ağır yükün böyük bir hissəsi güney Qafqaz xalqlarının üzərinə düşürdü.

V əsrdə yaşamış erməni müəllifi ***Yedişe*** yazırdı ki, iranlılar əhalini əsl mənada talayırdılar. İranlıların özləri də təəcüb edirdilər ki, bu qədər var-dövlət haradan gətirilir və onu itirən ölkə necə yaşayır.

**450-451-Cİ İLLƏRİN ÜSYANI.** Sasanlı zülmü asılı xalqların böyük narazılığına səbəb olurdu. Xalqın müqavimətini qırmaq üçün İran şahları müxtəlif vasitələrdən istifadə edirdilər. Onlardan biri, əli silah tuta bilən kişilərin orduya çağırılaraq imperiyanın uzaq ucqarlarına göndərilməsi idi. Onların çoxu Orta Asiya çöllərində köçərilərlə toqquşmalarda ölürdü.

Bundan başqa İran hər vasitə ilə özlərindən asılı olan ölkələrdə Zərdüşt dinini qəbul etdirmək və bununla da bu ölkələrdə İranın təsirini gücləndirmək istəyirdi. Qaynaqlarda göstərilir ki, II Yezdigərd 450-ci ildə Ermənistan, İber və Alban ölkələrinə fərman göndərib onların hakim dairələrinin nümayəndələrini Zərdüşt dinini zorla qəbul etdirmək üçün ***Ktesifon*** şəhərindəki sarayına çağırdı. Bu ölkələrin knyazları məsləhətləşib vaxt qazanmaq, özlərini və ailələrini ölümdən, ölkələrini dağıntıdan xilas etmək üçün yalandan Zərdüşt dinini qəbul etmək qərarına gəldilər. Bundan sonra İran şahı onlara qiymətli hədiyyələr verdi, onları padşah paltarları ilə geyindirib Zərdüşt dinini yaymaq üçün 700 maq və atlı qoşunların müşayiəti ilə öz ölkələrinə yola saldı. Maqlardan 300-ü Alban bölgələrinə gəlmişdi.

Gəlmə maqlar yerli əhalini müxtəlif hədiyyələrlə, o cümlədən qiymətli qablarla, vergilərin azaldılması vədi ilə Zərdüşt dinini qəbul etməyə çağırırdılar. Əks təqdirdə kilsələri atəşgahlara çevirəcəkləri, arvad və uşaqları qula çevirəcəkləri, kişiləri isə öldürəcəkləri ilə hədələyirdilər.

Çox keçmədən belə də oldu. Erməni tarixçisi ***Lazar Parapli*** (V əsrin sonu – VI əsrin əvvəli) yazır ki, maqlar gələn kimi zorla xristian kilsələrini atəşgahlara çevirir, müxtəlif yerlərdə öz memarlıq üslubu ilə seçilən yeni atəşgahlar tikirdilər.



Bu da kəndlilərin, xristian din xadimlərinin, xalqın yüksək zümrəsinin böyük narazılığına səbəb oldu. Xalq üsyan qaldıraraq maqları öldürdü. Üsyanı yatırmaq üçün İran ordu göndərdi. Kürün sağ qolu ***Zəyəm*** çayı üstündə albanlar, iberlər və ermənilərin birgə qüvvələri düşməni əzdilər.

İran ordusu ilə alban, iber və erməni qoşunlarının böyük toqquşması alban hökmdarlarının qış iqamətgahı olan ***Xalxal*** şəhəri yaxınlığında baş verdi. İran ordusunun böyüklüyünə baxmayaraq üsyançılar bu dəfə də onu əzdilər. Alban tarixçisi yazır ki, döyüş çox qızğın idi. Hər kəs öz rəqibini yerə yıxıb öldürürdü, meyitlərin çoxluğundan çayın suyu qana boyanmışdı. İran ordusu bütünlüklə məhv edildi. Bu ordudan yalnız bir əsgər qaçıb meşədə gizlənərək xilas oldu. O, bir at tapıb Kür çayını üzüb keçdi, məğlubiyyət xəbərinin iranlıların baş düşərgəsinə çatdırdı. Alban ölkəsinin böyük hissəsi düşmənlərdən təmizləndi. Üsyançılar Dərbənddəki İran qoşununu da məhv edib şəhəri aldılar. Hər yerdə Sasanlı məmurları öldürülür, həbsxanalar dağıdılır, məhbuslar azad edilirdilər.

II Yəzdigərd üsyançıların üstünə vəzir ***Mihr Nersehin*** komandanlığı ilə böyük ordu göndərdi. Bu ordu ilə müqayisədə üsyançı bölükləri az, həm də pis silahlanmışdı. İkinci böyük döyüş 451-ci il may ayının 26-da indiki Maku və Xoy şəhərləri arasında ***Avaray*** düzündə oldu. Üsyançılar az olsalar da, öz azadlıqları uğrunda vuruşduqlarından böyük igidlik göstərirdilər. Onlar şahın seçmə bölüyünü əzişdirdilər. Lakin sayca çox üstün olan düşmən sonra üsyançıları sıxışdırdı. İran tərəfindən döyüşə yeni qüvvələr qoşuldu, döyüşə fillər yeridildi. İran bu döyüşdə çox böyük itki bahasına qalib gəldi.

Döyüşdən sonra II Yəzdigərd Alban, İber və Ermənistan ölkələrinə cəza dəstələri göndərdi. Onlar əhaliyə amansız divan tuturdular. Sasanlılar bu ölkələrdə yenidən ağalıqlarını bərpa etsələr də, yerli əhalinin azadlıq uğrunda mübarizəsini tamamilə yatıra bilmədilər.

**YENİ ÜSYANLAR.** 457-ci ildə Alban əhalisi yenidən üsyan etdi. Üsyana Alban hökmdarı ***II Vaçe*** başçılıq edirdi. Onun anası II Yəzdigərdin qızı idi, arvadı da Sasanlı hökmdarı nəslindən idi. Üsyançılar Dərbəndi tutub Dağıstan qəbilələri ilə ittifaq bağladılar. Sasanlılar şimaldan hunları öz tərəflərinə çəkdilər. Hunlar Dərbəndi keçərək ölkəni qarət eiməyə başladılar. Qaynaqlarda göstərilir ki, hunlar bir il alban padşahı ilə vuruşdular. Vaçenin ordusu məğlub olsa da, o, tabe olmaqdan boyun qaçırdı. Ölkə bu döyüşlərdə böyük zərər çəkdi, tələfat və talançılıq çox oldu.

II Yəzdigərd öldükdən sonra oğlanları ***Hörmüz*** və ***Firuz*** arasında hakimiyyət uğrunda mübarizə başlandı. Az sonra eftalit (ağ hun) tayfalarının köməyi ilə Firuz qələbə çalıb hakimiyyəti ələ keçirdi.

Vaçe yenidən üsyan qaldırdı, özü Zərdüşt dinindən imtina edərək xristianlığa döndü. Anasına və arvadına da xristian dinini qəbul etdirdi. Sonra Vaçe Sasanlı hökmdarlarının təzyiqilə anasını və arvadını İrana göndərdi, özü hakimiyyətdən əl çəkdiyini bildirdi. Bu, Sasanlı dövlətinin Alban hökmdarlığını ləğv etmək qərarı ilə bağlı idi. Çünki yerli Alban hökmdarları Sasanlı asılılığından çıxmaq istəyərək xalq üsyanlarına başçılıq edirdilər. Vaçe, şah Firuzdan xahiş etdi ki, uşaqlıqdan atasının ona bağışladığı min ailəni öz ixtiyarında saxlamağa ona icazə versin. İran şahı Vaçenin bu istəyini yerinə yetirdi. Beləliklə də, 461-ci ildə Alban hökmdarlığı, yəni yerli şah hakimiyyəti ləğv edilərək İran mərzbanlığı yaradıldı. Ölkə İranın əyalətinə çevrildi. Əyalət idarə edən mərzbanın (canişinin – *Red.*) iqamətgahı Bərdədə yerləşirdi. Moisey Kağankatlı ağrı ilə yazır ki, Vaçedən Mömin Vaçaqana qədər Alban ölkəsi padşahsız qaldı. Ancaq İran albanların və qonşu xalqların müqavimətini tamamilə qıra bilmədi. 481-484-cü illərdə bu xalqlar yenidən İrana qarşı üsyana qaxdılar. İran şahı Firuz eftalitlərlə vuruşmada öldürüldü. İranda hakimiyyətə ***Valarş*** gəldi. Arası kəsilməyən savaş və üsyanlar sasanlı xəzinəsini boşaltmışdı. Mərkəzi dövlət zəifləmişdi. Ona görə də İran güzəştlərə getməyə məcbur oldu. Albanlar üzərindən mərzban hakimiyyəti götürüldü, yerli padşah hakimiyyəti bərpa edildi.

**III VAÇAQANIN HÖKMDARLIĞI.** Alban ölkəsində ***III Vaçaqan*** hakimiyyətə gəldi (487–510-cu illər). Bu, siyasi yoxluqdan asılı dövlətçiliyə qayıtmaq demək idi. Ancaq III Vaçaqan qətiyyətli siyasət yeritməyə başladı, ölkə işlərini öz əlinə aldı. Mərzbanlıq məmurlarının təqibindən dağlara çəkilmiş alban kəndlilərini öz yaşayış yerlərinə qaytardı. III Vaçaqan hər tərəfə xəbər yaydı ki, artıq heç kəs təqib olunmayacaq; kəndlilər, sənətkarlar öz evlərinə qaydıb dinc əməklə məşğul olsunlar. Tezliklə ölkədə canlanma başlandı, kənd təsərrüfatı, sənətkarlıq və ticarət dirçəliş yoluna çıxdı.

Sasanlılara qarşı çıxış etdikləri üçün bir çox yüksək zümrə və qulluq adamlarının torpaqları işğalçılar tərəfindən zəbt olunmuşdu. III Vaçaqan onların torpaqlarını özlərinə qaytardı. Sasanlılarla yaxınlıq edib onlara qulluq göstərənlərin isə hüdudları məhdudlaşdırılır və bəzən onlar məhv edilirdilər.

Alban kilsəsi də padşah hakimiyyətinin möhkəmləndirilməsinə kömək edirdi. III Vaçaqan xristian kilsəsinin nüfuzunu qaldırır, zərdüşt dininə qarşı mübarizəni gücləndirirdi. Padşahın göstərişi ilə yeni xristian kilsələri tikilir və onların nəzdində məktəblər açılırdı. Bu məktəblərdə yüksək zümrə uşaqları təhsil alırdı.

III Vaçaqan 487-488-ci ildə Aquen kəndində (indiki Ağdam rayonunda) kilsə yığıncağı çağırdı. Yığıncaqda yüksək rütbəli din xadimləri və böyük torpaq sahibləri iştirak edirdi. Bu yığıncaqda bir sıra mühüm qərarlar qəbul edildi. Kilsənin, ruhanilərin və torpaq sahiblərinin hüquqları genişləndirildi. Yığıncaq 21 maddədən ibarət qanunlar toplusu qəbul etdi. Bu qanunlar kilsə xadimlərinin vəzifə və hüquqlarına, ruhanilərlə dünyəvi zadəganlar arasındakı münasibətlərə, xalis hüquq məsələlərinə həsr olunmuşdu.



III Vaçaqan çağında Alban dövləti mərkəzləşmiş halda idi. Kilsə hələ müstəqil deyildi, amma buna çalışırdı. Aquen kilsə yığıncağını hökmdar özü çağırmış, yığıncağın qanunlarına o, öz möhürünü vurduqdan sonra onlar qüvvəyə minmişdi. Moisey Kağankatlı həmin qanunları «Vaçaqanın elan edilən qanunları» adlandırır.

Alban dövlətində hökmdarın hakimiyyəti getdikcə güclənirdi. Ölkənin dünyəvi və dini başçısı kimi III Vaçaqanın qanunvericilik hüququ vardı, hökmdar məşvərət orqanı olan divanxana yığıncağının başçısı idi; əslində bu yığıncaq hökmdarın qanunlarını təsdiq edirdi.

**MƏZDƏKİLƏR HƏRƏKATI.** V əsrin 80-ci illərində güclü xalq hərəkatı başlandı. Hərəkatın başında Məzdək dururdu. O, öz təlimini Həmədanda təbliğ etməyə başladı. Bu hərəkat orta əsrlərin bütün xalq hərəkatları kimi dini pərdə altında çıxış edirdi.

Məzdəkilər hərəkatına hələ II əsrdə İranda, Orta Asiyada və başqa qonşu ölkələrdə geniş yayılan maniçiliyin təsiri olmuşdu. Rəsmi Zərdüşt dininə qarşı çevrilən bu hərəkat ona başçılıq edən Maninin adı ilə adlanmışdır. Maniçilikdə zərdüştlüyün, buddizmin və xristianlığın ünsürləri var idi. Mani təbliğçilərinə görə bu din bütün dinləri əvəz etməli idi. Bu din asketizmə, nikahsızlığa çağırırdı. Maniçilikdə, zərdüştlükdə olduğu kimi, ikili (dual) dünya anlayışı başlıca yer tuturdu. Dünya işıq və qaranlıq başlanğıcların mübarizəsi səhnəsi sayılırdı. Bu din eyni zamanda varlıların cah-cəlalına qarşı çevrilmişdi. Maninin təliminə görə insan çox sadə yaşamalı, özü kimisini, canlıları öldürməməli, ət yeməməlidir.

İlk vaxtlar Sasanlı hökmdarları maniçilikdə özləri üçün təhlükə görməyərək onun təbliğinə mane olmurdular. Lakin hərəkat dövlətə və hakim dinə qarşı çevrildikdə onun tərəfdarları təqib olunmağa başladı. Maninin özü İrandan qaçmalı oldu. İllər ötdükdən sonra o İrana qayıtdı. Burada tutulub həbsxanaya salındı və təxminən 277-ci ildə işgəncə ilə öldürüldü. Maniçiliyi yaymaq qadağan edildi. Mani tərəfdarlarının çoxu öldürüldü, bir çoxu başqa ölkələrə mühacirətə getdi. Onlar Mani təlimini bu ölkələrdə yayırdılar.

Məzdəkilər hərəkatı ***I Qubadın*** hakimiyyəti illərində (488–531) İranda və ona tabe olan Atropatendə başlandı. Xalq kütlələri istismara, Sasanlı hakimiyyətinə qarşı ayağa qalxdı. Uzun sürən quraqlıqla bağlı baş verən

aclıq çıxışları daha da gücləndirdi. Bu hərəkat Transqafqaz ölkələrində geniş azadlıq üsyanları ilə bir vaxta düşdü. ***Məzdəkin*** deməsinə görə, Allah öz nemətlərini hamının bərabər istifadə etməsi üçün yaradıb. Lakin insanlar ədalətsiz davranır, biri o birinin payını ələ keçirərək bərabərliyi pozurlar. Ona görə varlıların əmlakı alınıb yoxsulların arasında bölüşdürülməlidir.

Məzdəkilik yaşayış vasitələrinin ədalətlə bölünməsini, qeyri-bərabərliyi ləğv etməyi təbliğ edirdi. Bu, məzdəkiliyin geniş xalq kütlələri arasında yayılmasına səbə oldu. Hərəkata yoxsul kəndlilər, qullar, sənətkarlar, şəhər yoxsulları, bəzi xırda və orta torpaq sahibləri qoşuldular. Amma çoxu kəndlilər idi. Onlar silahlanaraq iri malikanələrə, varlı tacirlərin evlərinə basqın edib onların əmlakını öz aralarında bölürdülər. Varlı torpaq sahiblərindən bir çoxu öldürüldü, çoxları ölkədən qaçdı.

I Qubad mərkəzi hakimiyyəti möhkəmləndirmək üçün bu hərəkatdan istifadə etdi. O, məzdəkilər hərəkatına qoşularaq iri topaq sahiblərinə qarşı mübarizəyə başladı. Ona görə də onlar şahı hakimiyyətdən devirib onun qardaşını taxtda oturtdular. I Qubad Orta Asiya eftalitlərinin köməyi ilə taxt-tacını özünə qaytara bildi. Məzdəkilər hərəkatının çox genişləndiyini, hakim quruluş üçün təhlükəli ölçü aldığını görən I Qubad hərəkatdan ayrıldı. 529-cu ildə məzdəkilər hərəkatı amansızcasına yatırıldı, başçıları və Məzdəkin özü qətlə yetirildi. Sonra isə hərəkat iştirakçılarına kütləvi divan tutularaq 80 minə qədər adam öldürüldü.

Ancaq buna baxmayaraq məzdəkilər hərəkatı cəmiyyətə böyük təsir göstərdi, yüksək rütbəli kahinlərin mövqeyini zəiflətdi. Hərəkat iri torpaq sahiblərinə də böyük zərbə vurdu. Şah hakimiyyəti onlara qarşı mübarizədə məzdəkilər hərəkatından bacarıqla istifadə etdi. Hərəkat yatırılandan sonra orta torpaq sahibləri olan azatların mövqeyi gücləndi. Onlar şah hakimiyyətinin dayağına çevrildilər.

Məzdəkilər hərəkatı sonrakı xalq çıxışlarına da öz təsirini göstərmişdir.

**FEODAL CƏMİYYƏTİNİN İNKİŞAFI.** Məzdəkilər hərəkatı yatırıldıqdan sonra ***I Xosrov Ənuşirəvanın*** hakimiyyət illərində (531 – 579) İranda və onun təsiri altında olan ölkələrdə torpaq sahibliyi möhkəmləndi. Məzdəkilər hərəkatı illərində ölmüş torpaq sahiblərinin torpaqları şahənşahın ixtiyarına keçdi. Bu torpaqların çoxu yüksək rütbəli hərbçilər arasında bölündü. I Xosrov Ənuşirəvan dövründə İranda torpaq mülkiyyətçiliyi çox gücləndi. Lakin iri torpaq mülklərinin sayı azaldı, orta torpaq sahibliyi isə artdı. Azatlar və kahinlərin hüquqları genişləndi. Atropatendə çoxlu kəndlər onların ixtiyarına keçdi.

Məbədlərin əlində çoxlu torpaq sahələri toplandı. Qazakada atəşpərəstlik məbədi torpaqlarında külli sayda kəndlilər çalışırdı.



İranda və Atropatendə əhali müxtəlif zümrələrə bölünürdü. Hər zümrənin özünün müqəddəs odu var idi. Bu zaman cəmiyyətdə ən yüksək mövqe tutan zərdüşt dini xidmətçiləri öz yerlərini dünyəvi torpaq sahibləri və hərbçilərə verirdilər. Ancaq kahinlər hələ də yüksək zümrə sayılırdılar. VI əsrə aid İran dilli ***«Tansarın məktubunda»*** Sasanlı dövlətində əhali 4 zümrəyə bölünür. Birinci və ikinci yerlərdə kahinlər və hərbçilərin, 3-cü yerdə sənədləri tərtib edənlərin, yazıçı, şair, hesabdar, hüquqçu, həkim və başqa əqli əmək adamlarının, 4-cü yerdə isə əkinçi, tacir və sənətkarların adı çəkilir.

Bu dövrdə Alban torpaqlarında da feodal üsul-idarəsi güclənməkdə idi. Burada torpaqlar padşaha və onun ailə üzvlərinə, sərkərdələrə, dövlət məmurlarına, vilayətin hakimlərinə və yüksək zümrədən olan başqalarına məxsus idi. Şəhər əhalisinin çoxu sənətkarlar və tacirlər idi. V əsrdə az sayda qullar var idi. Qulların çoxu hərbi əsirlər idi. III Vaçaqan Arşaklı sülaləsindən olan sonuncu Alban hökmdarı idi. Onun hökmranlığı ölkənin tarixində yeni siyasi və mədəni dirçəliş dövrü oldu. Alban hökmdarı mütləq hakimiyyət sahibi kimi çıxış edirdi.

Alban ölkəsinin strateji mövqeyini nəzərə alan Sasanlı dövləti burada VI əsrin başlanğıcına qədər padşah hakimiyyətini (V əsrin ikinci yarısında 30 illik dövr nəzərə alınmazsa) ləğv edə bilməmişdi. Sasanlılara qarşı xalq üsyanları yatırıldıqdan və İranda vəziyyət sabitləşəndən sonra asılı olan ölkələrin, o cümlədən albanların yerli padşah hakimiyyəti ləğv edildi. İnzibati islahat nəticəsində sasanlı imperatorluğu 4 mərzbanlığa bölündü. Alban, Atropaten, İber və Ermənistan ölkələrinin idarəçiliyi birləşdirilərək «Quzey canişinliyi» yaradıldı. Bu canişinliyin başlıca şəhəri Qazaka oldu.

Mərzban vəzifəsinə bir qayda olaraq İran hökmdarlarının yaxın qohumları qoyulurdu. Mərzbanlar inzibati, hərbi və məhkəmə hakimiyyətlərini öz əllərində saxlayır, vergiləri öz məmurları vasitəsilə toplayırdılar. Mərzbanlar yerlərdə Zərdüşt dininin yayılması qayğısına qalmalı, mərkəzi hakimiyyətə qarşı ola biləcək üsyanların qarşısını almalı idilər.

Sasanlılar insan yaşayışı üçün gərək olan hər şeyə vergi qoyurdular. Xalq var-yoxdan çıxır, hakim zümrə isə görünməmiş ölçüdə varlanırdı.

Ağır vergilər, külli sayda insanların böyük tikinti işlərinə cəlb olunması, bu məqsədlə onların uzaq yerlərə göndərilməsi 571-572-ci illərdə Alban, İber və Ermənistan ölkələrində yeni böyük üsyana səbəb oldu. Bu üsyan amansızcasına yatırıldı, ona başçılıq edən yerli əsilzadələr imperatorluğun ucqarlarına sürgün olundular.

**KÖÇƏRİLƏRİN YÜRÜŞLƏRİ.** IV-VI əsrlərdə Dərbənd keçidi vasitəsilə türk dilli tayfalar dəfələrlə cənubə yürüş etmişdilər. Nə yerli Alban hökmdarları, nə də Sasanlı dövlətinin göndərdiyi hüdud qoşunları bu yürüşlərin qarşısını ala bilmirdi.

Quzey Qafqaz çöllərinə türkdilli hun boylarının gəlməsi haqqında II əsrdə yaşamış ***Dionisi Perieget*** və ***Klavdi Ptolomey*** məlumat verirlər. III yüzilin başlanğıcından hunlar Qafqaz dağ silsiləsindən güneydə yerləşən ölkələrə yürüş edirdilər. Bu dövrdən başlayaraq yürüş edənlərin sırasında ***xəzərlərin*** və ***basillərin*** (barsillərin) adları çəkilir. 395-396-cı illərdə hunların Azərbaycana böyük yürüşü oldu. Onların arasında xəzərlərin də adları çəkilir. Ərəb tarixçisi ***Təbəri*** xəzərləri «türklər» adlandırır. Xəzərlər bir az sonra oturaq həyata keçib qüdrətli xaqanlıq yaratmışdılar.

V əsrin əvvəllərində Quzey Qafqazda böyük hun-bulqar tayfa birliyi əmələ gəlmişdi. Erməni tarixçisi ***Yegişe*** onları ***haylandurlar*** adlandırır. Bir çox hallarda albanlar, iberlər və ermənilər İrana qarşı mübarizədə keçidləri aşaraq quzey türklərini ölkəyə buraxır və onların gücündən istifadə edirdilər. Bəzən İran da onları öz tərəfinə çəkə bilirdi. 457-ci ildə Alban padşahı Vaçenin başçılıq etdiyi üsyanı yatırmaq üçün hun ordularının gücündən istifadə edilmişdi. Hunlar bir il boyu üsyanın yatırılmısında iştirak etmişdilər.

Belə yürüşlərdən biri də VI yüzilin başlanğıcında olmuşdu. Yürüşə qoşulan boylardan birinin başçısı ***Teofil*** adı daşıyırdı. Görünür, Moisey Kağanqatlıya görə xristianlığa keçmiş hun boyları da bu yürüşdə iştirak etmişdilər.

552-ci ildə Xəzər Kağanlığı qoşunlarının yürüşü oldu. Bu yürüşlə bağlı Alban katalikosunun iqamətgahı Dərbəndin yaxınlığındakı ***Çola*** şəhərindən ***Bərdəyə*** köçürüldü. Az sonra albanlar külli sayda xəzərlərin yeni yürüşü ilə qarşılaşdılar. İran şahı ***I Xosrov*** (531-579-cu illər) onların bir qismini qırdı, 10 min nəfərini isə əsir alaraq Qəbələ şəhəri yaxınlığında yerləşdirdi. Az vaxt içərisində bu xəzərlər yerli albanlarla qaynayıb qarışdılar. Bizans qaynaqları üzrə 576-cı ildə Bizans-İran müharibəsi zamanı xəzərlərin albanlarla birgə bizanslara qarşı çıxması bir təsadüf deyildi.

Xəzərlərin alban torpaqlarına axını VII yüzildə də davam etmişdir. Bu zaman ölkənin bəzi vilayətlərində türk topluluğu çox sıx yerləşmişdi. Belə vilayətlərdən biri Qəbələ şəhəri və onun ətrafı idi. Ərəb dilli qaynaqlarda bu şəhərin adı həm Qəbələ, həm də Xəzər kimi çəkilir.

Bu zaman alban ölkəsində çox geniş yayılmış türk dili artıq ayrı dillərdə danışan başqa tayfalar arasında qarşılıqlı anlaşma, ünsiyyət vasitəsinə çevrildi.

**MƏDƏNİYYƏT**. Erkən orta çağda Alban əhalisi yaşayışının bütün sahələrində, o cümlədən maddi və mənəvi mədəniyyətində mühüm dəyişikliklər baş verirdi. Burada iqtisadiyyatın inkişafı, xristian dininin qəbul olunması, Sasanlı dövlətinin Zərdüşt dinini zorla yaymağa çalışması, bütpərəstlik görüşlərinin qalıqları mədəni həyata təsir göstərmişdi.



Antik dövrdə meydana gələn Alban şəhərləri ölkənin tarixində inzibati, iqtisadi və mədəni mərkəzlər kimi fəaliyyət göstərirdilər. Erkən orta çağda Bərdə, Dərbənd, Şirvan, Şabran, Şəmkir, Gəncə, Beyləqan kimi yeni böyük şəhərlər yarandı. Bu şəhərlərdən Bərdə siyasi və dini mərkəz kimi ölkəni həyatında mühüm rol oynayırdı.

İlk orta çağa aid Alban şəhər yerlərində aparılan arxeoloji qazıntılar yaşayış evlərinin, dini və başqa ictimai binaların, böyük müdafiə tikililərinin qalıqlarını üzə çıxarmışdır. Bu qalıqlar Alban memarlığının gözəl nümunələridir. Alban memarları tikintidə daş və ağacdan, bişmiş və çiy kərpicdən, əhəng məhlulundan istifadə edirdilər. Bəzi binaların üstü kirəmitlə örtülürdü.

Alban sənətkarları zərif bəzək şeyləri, nəfis gil, şüşə və metal qablar istehsal edirdilər. Bu sənətkarların çoxu şəhərlərdə yerləşən sənətkarlıq emalatxanalarında çalışırdı. Albanların bu dövrdə öz yazısı, məktəbləri və təqvimi var idi.

Albanların yazı ilə tanışlığı miladdan əvvəl I minilliyin ortalarına düşür. İlk orta çağda isə 52 hərfli Alban əlifbası var idi. Erməni qaynaqlarında bu yazının V əsrin başında ***Mesrop Maştos*** tərəfindən yaradılması bildirilir.

Ancaq V əsrdə yaşamış erməni yazıçısı ***Koryuna*** görə, Mesrop Maştos Alban ölkəsinə gələrək albanların əlifbasını bərpa etdi. Başqa sözlə, bu əlifba əvvəlcədən var idi, Mesrop isə yalnız onu yenidən işləmiş, olsa-olsa, «əl gəzdirmişdir». Qaynaqlara görə Mesrop, Alban kilsə başçısı ***lerimi*** və tərcüməçi ***Benyaminin*** köməkliyi ilə «boğaz səsləri ilə zəngin olan» qarqar ləhcəsinə uyğun əlifba işləyib hazırladı. Burada Benyaminin bacarıqlı dilmanc olduğu bildirilir. Qarqarlar o zaman yuxarı Qarabağda və ona qovuşan düzən yerlərdə yaşayırdılar. Qarqar çayı bu toplumun adı ilə bağlıdır.

V əsrdə Albaniyada məktəblər var idi. Bu məktəblərdə zadəganların, ruhanilərin uşaqları bilik alırdı. Moisey Kağanqatlı yazır ki, padşah Vaçaqanın əmri ilə ölkədə çoxlu məktəblər açılmışdı. Bu məktəblərdə uşaqlar oxuyurdular. Vaçaqan kəndlərə gələrkən məktəblərə girər, uşaqları başına toplardı. Uşaqların əllərində kitablar, yazı lövhələri olardı. Hökmdar «hamının bərkdən oxumasını əmr edər, özü isə buna xəzinə tapan adam kimi sevinərdi». Bu məktəblərdə uşaqlar xristianlıq ruhunda təhsil alırdılar. Alban tarixçisi bir yerdə Arsax vilayətində bir rahibin «aylıq almaqla» uşaqlara dərs dediyini bildirir. Qaynaqlarda V əsrin sonunda hətta kənd yerlərində məktəblərin açılması bildirilir. Görünür, bu zaman bir sıra dini kitablar alban dilinə çevrilmiş idi. Lakin bu kitablar bizə gəlib çatmamışdır. Bu, bir çox səbəblər, başlıca olaraq erməni kilsəsinin işbazlığı ilə bağlıdır. Belə kitabların qalmaması ilk orta çağda albanların dini haqqında fikir söyləməyi çətinləşdirir. Alban yazısı bizə V-VI əsrlərin bir neçə kitabəsindən, əlifba

isə XV-XVI əsrlərə aid erməni əlyazmalarından bəllidir. Bu əlyazmalarda 52 işarəli alban əlifbası və bu işarələrin səsləri ifadə etməsi göstərilmişdir.

Azərbaycan və Dağıstanda aparılan arxeoloji qazıntılar və başqa təsadüfi tapıntılar zamanı bir neçə kiçik kitabəyə təsadüf olunmuşdur. Bu kitabələr ya çox pis mühafizə olunmuş və ya tam qalmamışdır. Ona görə də kitabələrin oxunması böyük çətinlik doğurmuşdur. Onların hansı dildə yazılması bu günə kimi açılmamış qalır.

Kitabələrin ən böyüyü Mingəçevirdə kilsə tikilisi yerində tapılmışdır. Bu tapıntı düzbucaqlı şəklində yonulmuş daşdır. Onun bir yan üzündə boyunlarına lent bağlanmış iki tovuzquşu, relyefdən yuxarıda daşın karniz şəklində yonulmuş bütün yuxarı üzündə bir sətir yazı həkk edilmişdir. Mətn 70-ə yaxın hərfdən ibarətdir.

Başqa alban kitabələri bundan da kiçikdirlər. Mingəçevirdə tapılan kirəmit parçasının, bir neçə gil şamdanın üstündə, Dərbəndin qala divarlarında 10 işarəli yazılar və bir neçə başqaları sonuncuların sırasındadır.

Alban bölgələrində Sasanlı dövlətinin rəsmi dili olan pəhləvi kitabələri də bəllidir. Dərbəndin qala divarları üzərində olan bu yazılar VI əsr tarixi ilə bağlıdır. Bu yazılardan birinin oxunuşu belədir: «Bu «tikilini» və buradan yuxarını Aturpatkan (Azərbaycan – *Red.*) vergi toplayanı ***Bərznlş*** tikdirmişdir».

Albaniyanın vaxt ölçmə sistemi də böyük maraq doğurur. Çox qədim zamanlardan insanlar gecə ilə gündüzün bir-birini əvəz etdiyini müşahidə edirdilər. İlk vaxt ölçüsü yerin öz oxu ətrafında fırlanması ilə baş verən bir gecə-gündüz olmuşdur. İnsanlar günlərin sayını yadda saxlamaq üçün ağacın üstündə kəsiklər edir və ya iplə düyünlər vururdular. Bundan başqa, insanlar göydə ayın görünüşcə dəyişdiyini də müşahidə edirdilər. Ayın görünüşcə dəyişməsinin hər biri bir dönüm sayılırdı. Ayı izədikcə insanlar onun iki dönümü arasındakı vaxtın sabit, 29,5 gecə-gündüzə bərabər olduğunu görüdülər. Bu vaxt içində ay yerin başına bir dəfə dolanıb tam dövrə vurur, 12 ay ərzində isə fəsillər bir-birini əvəz edirdi, çünki yer günəş ətrafında bir tam dövrə vururdu. Bir çox xalqlar vaxtı ayla ölçürdülər. Belə vaxt ölçüsü ay təqvimi adlanırdı. Ay təqvimi ilə il 12 aya bölünür. Bu təqvimlə ilin uzunluğu 354 gecə-gündüz olurdu. Həqiqi günəş ilinin uzunluğu isə 365 gecə-gündüz və 6 saata bərabərdir. Ona görə ay təqvimi ilə ilin ayları ildə 11 gün yerini dəyişirdi. Təsərrüfat işlərinin tələbatını nəzərə alaraq insanlar sonralar ay təqvimini günəş təqvimi ilə uyğunlaşdırdılar. Belə təqvim ay-günəş təqvimi adlanır. Bütünlüklə günəşlə hesablanan təqvim daha dəqiqdir.

Ay təqvimini ilk dəfə e.ə. IV-III minilliklərdə Mesopotamiyada işlətmiş, artıq e.ə. XVIII əsrdə ay-günəş təqvimine keçmişlər. Günəş təqvimi ilə ay təqvimi arasında fərqi aradan götürmək üçün müəyyən illərə 30 günlük



13-cü ay əlavə edir və belə ilin uzunluğu 384 gecə-gündüzə bərabər olurdu. Sonralar vaxtı ayla hesablayan xalqların çoxu bu üsulu tətbiq etmişlər.

Uzaq keçmişdə ay təqvimindən Azərbaycan ərazisində yaşayan tayfalar da istifadə etmişlər. Qədim albanlar xristianlığa keçənə qədər aya güclü inam bəsləyirdilər. Ay məbədinin baş kahini hökmdardan sonra ikinci adam sayılırdı.

Sonralar albanlar günəş təqviminə keçmişlər. Günəş təqvimini birinci dəfə e.ə. IV minillikdə Misirdə tətbiq etmişlər. Misirlilər hər il yayda eyni vaxtda ***Nil*** çayının daşdığını görürdülər. Bu zaman həm də yerin günəşlə yay qarşıdurması baş verir, günəş doğmazdan əvvəl üfüqdə Sotis ulduzu görünürdü. Lakin misirlilər, əsasən, Nil çayının daşmasını izləyirdilər. Yeni ilin başlanması Nil daşqınından sayılırdı.

İlk orta çağ yazılı qaynaqlara görə albanların öz təqvimləri də var idi. O dövrdə yaşamış müəlliflər bu təqvimin Misir günəş təqvim sisteminə uyğun olduğunu yazır, alban aylarının adlarını da bilirdilər.

Günəş təqvimi ilə aylar hər il eyni vaxta düşdüyündən bir qayda olaraq onlara təbiət mövsümlərinə uyğun gələn adlar verilirdi. İl 12 otuz günlük aydan ibarət idi. İl günlərinin sayı 360 gün sayıldığından ilə daha 5 gün əlavə edirdilər. Bu 5 gün, bir növ, ilin 13-cü ayı adlanırdı.

Qaynaqlarda albanların IV əsrin ortalarından İsgəndəriyyə məktəbi üçün səciyyəvi olan təqvimdən istifadə etmələri bildirilir. Bu təqvim sisteminə görə ilin başlanğıcı avqust ayının 29-dan götürülürdü. 284-cü il avqustun 29-da Roma imperatoru ***Diokletian*** taxta çıxmışdı. Ona görə belə tarix hesablaması Diokletian erası adlanır.

Ümumiyyətlə, eralar həqiqi və ya əfsanəvi başlanğıclı olur. Həqiqi başlanğıclı eralara m.ö. 776-cı ildən sayılan olimpiya, adı çəkilən Diokletian, 662-ci ildən sayılan hicri tarixləri nümunə göstərmək olar. Əfsanəvi eralar dünyanın və ya Adəm peyğəmbərin Allah tərəfindən yaranmasından, İsa peyğəmbərin anadan olmasından (miladi tarixi) hesablanan tarixlər ilə bağlıdır. Eyni vaxt ölçmə (tarix sayma) sistemindən istifadə edilməsi xalqlar arasında mənəvi yaxınlaşmanı və əlaqələri asanlaşdırır.

Antik dövrdə Alban ölkəsində müxtəlif dini əqidələrin olduğunu göstərən əlamətlərdən biri də qəbir abidələrinin müxtəlifliyidir. Burada ölüləri torpaq, quyu, küp qəbirlərində, ağac və saxsı tabutlarda, çiy kərpicdən hörülmüş qəbirlərdə və katakombalarda (yeraltı sərdabələrdə) dəfn edirdilər. Bir qayda olaraq eyni dövrə aid müxtəlif qəbirlərə şəhər qəbiristanlıqlarında təsadüf olunur. Bu da şəhərlərdə müxtəlif etnik tərkibə və dini görüşlərə aid əhalinin yaşaması ilə əlaqədar idi. Kiçik yaşayış yerlərinin və qəbirlərin müxtəlifliyi müşahidə olunmamışdır.

*ALTINCI BÖLÜM*

# AZƏRBAYCANDA XİLAFƏT AĞALIĞI VƏ ONA QARŞI MÜBARİZƏ (*VII yüzilin başlanğıcı – IX yüzilin birinci yarısı*)

## 1. ƏRƏB İŞĞALLARI

**AZƏRBAYCAN ƏRƏB YÜRÜŞLƏRİ QARŞISINDA.** Siyasi baxımdan Sasanlı imperatorluğuna tabe edilmiş Azərbaycan, onun quzey sıralarında çox mühüm strateji yer tuturdu. Buna görə VII yüzilin birinci rübündə ölkənin viranedici İran-Bizans-Xəzər savaşlarına meydan olması təbii idi. Böyük bir ordu ilə hücuma keçən Bizans imperatoru II İrakli Dvin və Naxçıvanı talan edib Azərbaycanın paytaxtı Gəncəni (Qanzakı) tutdu. Atəşpərəstlərin buradakı baş məbədini dağıdıb on min əsir aldı. Albaniyaya soxuldu, Bərdə yaxınlığında mühasirəyə düşdüyü üçün Xəzər xaqanını köməyə çağırdı. Savaşın son iki ili Bizans-Xəzər qoşunlarının böyük üstünlüyü ilə keçdi. Sasanlı paytaxtı Mədain də tutulub yaxıldı. İranla Bizans arasında uzun sürən müharibə (603-625-ci illər) bitdikdə Azərbaycan Bizans-Xəzər blokunun nüfuz dairəsinə çevrildi. Xəzər ordusunun Bizansa göstərdiyi kömək qarşısında Quzey Azərbaycan xəzərlərin nəzarəti altına keçdi.

Bu, görünməmiş bir dövr idi. Qafqaz ölkəsinin də, bütün Yaxın Şərqin də siyasi xəritəsi ildırım sürətilə dəyişirdi. Güclü, yenilməz sayılan Sasanlı imperiyası Transqafqazdakı uğursuzluqdan hələ özünə gəlməmiş, o çağa kimi «mədəni» dünyanın tanımadığı ərəblər ilə qarşılaşdı. Ərəb dünyasında baş verən daxili proseslərə nəzər salsaq, Sasanlı İranı üçün belə qorxunc düşmənin meydana çıxması və onun üzərində ərəblərin gurultulu qələbələrinin nədən irəli gəlməsi aydın olar.

VI yüzilin sonu – VII yüzilin başlanğıcı üçün Ərəbistan yarımadasının siyasi birləşməsi, müstəqil ərəb dövlətinin yaranması meyli güclənməkdə idi. Yəməndən keçən beynəlxalq tranzit ticarətin, bu yolda yerləşən iqtisadi mərkəzlər: Məkkə və Yasrib (Mədinə) şəhərlərinin keçmiş şöhrətini qaytarmaq istəyən ərəb yuxarı təbəqələri, ticarət-sənətkarlıq dairələri belə bir birliyə can atırdılar. Siyasi birləşmə meyllərinə Həbəş yürüşləri, Sasanlı İranın yaratdığı təhlükə də böyük təkan verirdi. Həbəşlərin qovulması



ərəblərin oyanmaqda olan milli hissinin birinci təzahürü idi, az qala Məkkəyə kimi gəlib çatan iranlıların quzey basqınları isə bu hissləri coşdurub təlatümə gətirirdi.

Artıq VII yüzilin başlanğıcında bədəvi ***bakrit*** tayfaları sasanlıların işğal etdikləri ərəb ***Hirə*** vilayətində Xosrov II Pərvizin ordusunu əzdi. Farslar bu gözlənilməz uğursuzluğu düzgün qiymətləndirə bilmədilər. Bu saymazlıq onlara çox baha başa gəldi. Sasanlılar Bizans və Xəzər dövlətlərinin siyasətini özləri üçün başlıca təhlükə sayırdılar. Ancaq bu iki dövlətlə uğursuz sülh bağlayan Sasanlı imperiyası (628-ci il) ərəblərlə yenidən üz-üzə gəldikdə onların zərbəsi altında asanlıqla dağıldı. 635-637-ci illərə düşən ***Boveyda*** və ***Qadisiyyə*** döyüşlərindən, xüsusilə 642-ci il ***Nəhavənd*** döyüşündən sonra bir zaman dünyaya meydan oxuyan bu imperiyanın yalnız quru adı qaldı.

Farslar quzeydə ağır müharibələr aparırkən, ərəb qəbilələrinin siyasi birləşməsi yeni dünyəvi təkallahlılıq (monoteist) dini olan ***İslamın*** bayrağı altında sona yetişməkdə idi. Lakin bu din, onun yaradıcısı olan Həzrət Məhəmmədin ilk xələfləri illərində artıq ərəb yuxarı təbəqələrinin təcavüzkar istəklərinin silahına çevrildi. Başqa ölkələrə qarşı yürüşlər də, bu ölkələrdə yaşayan «küffar» xalqların «gerçək, düzgün yola» gətirilməsi də bu çağdan hər bir müsəlman üçün yüksək mənəvi borca, müqəddəs bir işə çevrildi.

**ƏRƏB YÜRÜŞLƏRİNİN BAŞLANMASI. İLKİN BAĞLAŞMA VƏ ÜSYANLAR.** Ərəb yarımadasının birləşdirilməsi peyğəmbərin Mədinədə ölümündən (8 iyul 632-ci il) sonra, ilk xəlifə ***Əbu Bəkrin*** ikiillik hakimiyyəti vaxtı bərkiyib sabitləşdi. İslam bütün ərəblərin dini oldu. ***Ömər ibn Xəttabın*** onillik (634-644) xəlifəliyi isə islamın və bir dövlət olmaqla Xilafətin (peyğəmbərin xələfləri tərəfindən idarə olunduğu üçün belə adlanırdı) yer üzünə yayılma çağı başlandı. İraq, Suriya, Misir tutuldu, Bizans və Sasanlı imperiyalan ilə savaşlar keçdi.

Kəşfiyyat xarakterli ilkin yürüşlər Azərbaycana da çatdı. IX-X yüzil tarixçiləri ***Təbəri*** və ***Bəl'əmiyə*** görə ***Ər-Rəiş, Tubba, Haris ibn Şəddad*** kimi ərəb başçıları hələ 30-cu illərin birinci yarısında (VII əsr) Azərbaycana soxulub burada hakim olan türklərlə döyüş aparmışdılar.

639-cu ildə ərəb qoşunu Urmiya gölü tərəfdən Azərbaycana soxuldu. ***Nəhavənd*** döyüşündən sonra isə ərəblər baş şəhər Ərdəbil üzərinə gələrək, ölkəni tabe etməyə girişdilər. Yerli mərzban ***İsfəndiyar*** qardaşı ***Bəhramla*** birlikdə güclü müqavimət göstərdi. Müqavimət uzun çəkdi. ***Bukeyr*** və ***Utba*** adlı ərəb sərkərdələrinin qoşunları da buraya yeridildi. Mərzban basılıb barışığa gəldi. Azərbaycan əhalisi tabe olub torpaq və can vergisi ödəməyi, «hər kişi» bir ərəb əsgərini evində saxlamağı üzərinə götürdü.

Ərəblər isə onların dini görüşlərinə – etiqad, ayin və adətlərinə toxunmayacaqlarına söz verir, ölkəni tərk etmək istəyənlər aman alır, ərəb qoşununa öz istəyi ilə girmək arzusunda olanlar bir il vergilərdən azad edilirdi. Ərəb qoşunu buradan Muğana yollandı. Ancaq Azərbaycan əhalisi üsyana qalxıb bağlaşmanı yerinə yetirməkdən boyun qaçırdı. 646-cı ildə ***əl-Valid ibn Ukbanın*** başçılığı ilə buraya göndərilən yeni qoşun üsyanı yatırdı. Yeni bağlaşma üzrə ərəblərə ildə 800 dirhəm vergi ödənilməli idi.

639-640-cı illərdə ərəb qoşun başçısı ***Bukeyr*** Muğanda güclü bir müqavimətlə qarşılaşdı. Muğan tabe edilərək eyni şərtlərlə bağlaşma yapmalı oldu. Ərəblər Şirvana soxuldular, yerli hökmdar ***Şəhriyar*** aman istəyib xərac və cizyə verməyi öz üzərinə götürdü. A.Bakıxanova görə «xəlifə Ömər ibn Xəttab bu şərtlə razılaşdı». Sonra o, ***Əbdürrəhman ibn Rəbiə əl-Bəhilini*** Dərbənd yaxınlığındakı qoşunlara başçı qoyub, xəzərlərə qarşı vuruşmağı buyurdu. Əbdürrəhman Bukeyin qoşunu ilə birləşsə də, 643-cü ildə Bələncər yaxınlığında öldürüldü. Bizansa qarşı savaşda olan qardaşı ***Salman ibn Rəbiə*** 646-cı ildə Aran yürüşünə başçılıq etdi. O, Naxçıvan-Şəki-Gorus yolunu keçib Beyləqan üzərinə gəldi. Əl-Kufi yazır: «Beyləqan əhalisi onun qarşısına aman xahişi ilə çıxaraq, ordusu üçün düşərgə yeri ayırdı, pul ödəmək şərtilə onunla barışıq bağladı... Bundan sonra o, Bərdə qalasına basqın etdi». Sonra başqa şəhər və vilayətlərdən Şəmkürü, Qəbələni, Şəkini, Şirvanı, Şabranı tutdu. Dərbəndə çatıb xəzərləri buradan çıxara bildi. Ancaq 653-cü ildə Bələncər yaxınlığında o da məğlub olub 4 minlik qoşunla qətlə yetirildi. 650-ci ildə Qarabağda vergilərdən narazı olan əhali yenə ərəblərə qarşı üsyan etdi. Bu üsyan da yatırıldı.

Göründüyü kimi, ilkin ərəb yürüşləri keçirilərkən, Quzey və Güney Azərbaycan torpaqlarında köklü sosial-siyasi-mənəvi sarsıntılar həyata keçirilməsi nəzərdə tutulmuşdu. Ərəblər hələ yerli dini görüşlər üzərində qadağa qoyub İslamın sözsüz qəbul edilməsini tələb etmirdilər. Ələ keçirilən bölgələrdə onlar ilk əvvəl Xilafət ağalığını hərbi-siyasi baxımdan qəbul etdirmək, bir də yendirilən xalqı torpaq (xərac) və can vergisi (cizyə) ödəməyə məcbur etmək istəyirdilər. Buna görə də Xilafət ağalığı «ikitərəfli» razılaşma və barışıq şəklində yazılı olaraq sənədləşdirilirdi. Ərəblər öz yürüşlərinin hələ «yumşaq» (liberal) dövrünü yaşayırdılar.

**AQVAN HÖKMDARI CAVANŞİRİN SİYASƏTİ. SASANLILAR.** Aranın bir hissəsi olan Qarabağ bu çağlar «Aqvan» adlanırdı (sonrakı ortaçağ qaynaqlarında bu torpağa «Arran Qarabağı» deyilirdi). Bu ərazidən günbatarda yerləşən Girdman bölgəsi (Kiçik Qafqazın Azərbaycan hissəsi) də Aqvanda idi. Girdman hakimləri ***Varaz Qriqor*** (628-ci ildə hakimiyyətə gəlmişdir) və onun oğlu Cavanşir (638-680) ilk zamanlar xəzər asılılığından çıxmaq üçün Sasanlı İranı ilə yaxınlıq saxlayırdılar. Alban tarixçisi Moiseyin yazdığına görə, hakimiyyətə keçməzdən əvvəl gənc Cavanşir sasanlılarla birlikdə 7 il ərəblərə qarşı «ağır savaşlarda» iştirak etmişdir. İran ordusu Qadisiyyə yaxınlığında əzildikdən sonra o, vətəninə qayıtdı. Sasanlı III Yəzdigərd Cavanşirə qiymətli bəxşişlər verib başına tac qoydu. Ancaq Sasanlılarla yaxınlığı artıq yersiz sayan Cavanşir, görünür, müstəqil davranmağa çalışırdı. Moisey yazır ki, «Cavanşirin (İrana qarşı) ***qiyama qalxması*** səbəbindən İran döyüşçüləri ölkəmizə basqın etdilər». Cavanşir qoşunla silaha qurşanıb iki dəfə döyüşdü, İran qoşun başçılarından birini özü şəxsən öldürdü, «Tanrı ona uğur verdi». Bu zaman başqa bir Sasanlı qoşunu Bərdəyə soxulub onun anasını qardaşları ilə birlikdə əsir aparmışdı. Üçüncü döyüşdə başından yaralanan Cavanşir İber sərhədinə çəkilməli oldu. Moiseyə görə, «orada Atnersex, çox hörmətli olan bir ər, Yunan qeysərindən üçmərtəbəli titul almış ölkə hakimi onun görüşünə gəldi və qazandığı qələbəyə sevindiyi üçün onun yaralarını öz əli ilə sardı». İran ordusunun başçısı qoşunlarının uğursuzluğunu eşitdikdə Sünik knyazı (Cavanşirin qaynatası) vasitəsilə barışıq məktubu göndərdi. Aqvan hökmdarının anası və qardaşları vətənlərinə qaytarıldı.

**XİLAFƏT, YA BİZANS?** Cavanşir və qoca Varaz Qriqor, güclü bir dövlətə arxalanmadan Aqvanı qorumağın mümkün olmayacağını yaxşı anlayırdılar. Aqvan tarixçisinin sözlərinə inansaq, «güneylilərin (ərəblərin – *Red.*) amansızlığını görən Cavanşir bir müddət onları aldadırdı». Əslində isə burada aldatmadan söhbət gedə bilməzdi. 639-cu ildən Muğan və Şirvan artıq ərəb atlılarının oylağına çevrilmişdi. Salman ibn Rəbiənin 646-cı il yürüşü Arranın baş şəhərləri Beyləqan və Bərdəni, Arranda «qədim şəhər sayılan» (əl-Bəlazuri) Şəmkürü, Şakaşen (Gəncə), Uti kimi yerləri qarsıb keçmişdi. 50-ci illərin başlanğıcından ərəb qoşunlarının diqqəti bütünlüklə Dərbənd-Bələncər üzərinə yönəldiyindən, Cavanşir azacıq bir fasilə əldə etmiş oldu.

Çox savaş və sınaqlar görmüş olan Varaz Qriqor, Moisey Kağanqatlıya görə ərəb asılılığına meyl göstərdi: «könüllü şəkildə özü düşmənlərin (ərəblərin – *Red.*) görüşünə getdi». Cavanşir atasının tutduğu işə qoşulmayıb başqa yol seçdi. O, Bizans qeysəri II Konstantinə belə bir məktub göndərdi: «Hökmü sonsuz olan, güclü və mərhəmətli Yunan hökmdarı Konstantin, göyün dənizlər və quru üzərində qoyduğu hakim, Aqvan sparapeti və knyazı Cavanşir sidq ilə səni alqışlayır, sənə baş əyərək öz gündoğar ölkəsi ilə sənə itaət bildirir. Qoy sənin xaç sevən dövlətin lütf edib uzaq bir xalqı da təbəəliyə götürməyə razılıq versin ki, bizim göstərdiyimiz itaət qarşısında sənin ulu şöhrətinin ulu xeyirxahlığı bizə də bağışlanmış olsun».

**II KONSTANTİNLƏ RAZILAŞMA.** Bizans hökmdarı məktubu çox razılıqla qarşıladı, andlaşma bağlamağı buyurub Cavanşirlə «səmimi ittifaqa girdi». Bunun başlıca səbəbi genişlənməkdə olan ərəb yürüşləri idi. Güneydən baş qaldıran qorxu, Ermənistanın artıq Xilafət asılılığına düşməsi Konstantini gündoğar Qafqazda yeni siyasi dayaq axtarmağa sövq edirdi. O, Cavanşirin məktubu ilə bağlı verdiyi fərmanda yazırdı: «...sənin öz gündoğar ölkənlə bizə tabe olmağı öz üzərinə götürməyin bizi sevindirdi. Buna görə də biz və bizdən sonra gələn uşaqlarımız səninlə və sənin nəsli varislərinlə səmimi, pozulmaz sevgi və nəsildən nəslə yüzillər boyu mərhəmətlə davranacaq».

Bu fərman Aqvan ölkəsinin Bizans asılılığına keçməsi ilə bağlı onun siyasi statusunu müəyyənləşdirdi. Fərmanda bu ölkənin başçısı «***Girdman hakimi və Aqvan knyazı*** sparapet və ***proton – patrisi hökmdar Cavanşir*** adlandırılır». Bununla Cavanşir də (İber hökmdarı Atrnersex kimi) Bizansdan «üçqatlı titul» almış olurdu. Alban tarixçisi, II Konstantin Cavanşirə «***proton-patrisi rütbəsi***» ilə yanaşı «söykənəcəyi qızıla tutulmuş bəzəkli gümüş taxt» verdiyini ayrıca qeyd etmişdir. Bundan başqa 1200 «Aqvan ərlərinə» ***patrisi*** və sair yüksək feodal rütbəsi bağışlanmışdı.

Bizansla bağlaşma kəsərsiz xarici siyasət göstəricisi deyildi. Bu bağlaşma Cavanşir siyasətinin ərəblərə qarşı yönəlməsindən irəli gəlirdi. Bu, dövlət sərhədlərinin bərkidilməsinə də imkan verirdi. 662-ci ildə Cavanşir Aqvana soxulan xəzər qoşunlarını əzib geri oturtdu. («Get, Çola qapılarından geri qayıt və bir də buralara gəlmə»). Aqvan tarixçisi, Cavanşir hakimiyyətinin bu illərini sonsuz aludəçiliklə qələmə alıb yazır: «O, Qafqazın (hələ) vəhşi kimi yaşayan tayfalarını ağıl və haqq yoluna gətirirdi... İber sərhədlərindən Hun qapılarına və Araz çayına kimi parlaqcasına mütləq hökmranlıq edirdi». Əslində isə bu illər üçün «Hun qapılarına» kimi uzanıb gedən «mütləq hökmranlıqdan» danışmaq yersizdir. Bu illərdə Kürün quzeyində («Sol sahil Azərbaycanı») yerləşən «Türküstan» dövlətinin qoşunu Cavanşirin hakim olduğu ***Aran Qarabağını*** yağmalayıb Araz üzərinə və Ararat vadisinə çıxdı. Burada istədiyini edən Hun hökmdarının təklifi ilə «qardaşlıq və dostluq birliyi» yarandı, Cavanşir onun qızı ilə evləndi. O çağda «ata-oğul» münasibətinin yaranması ikincinin vassal asılılığına düşməsi demək idi.

**AQVAN ÜZƏRİNDƏ «GÜNEY HÖKMRANLIĞI».** 50-ci illərdə Xilafətdə baş verən daxili çəkişmələr sonuncu iki ***raşidi*** xəlifənin: ***Osman ibn Əffanın*** (644-656) və ***Əli ibn Əbu Talibin*** (656-661) öldürülməsi ilə başa çatdı. ƏMƏVİLƏR sülaləsinin (661–750) banisi, Suriya hakimi birinci Müaviyə hökmranlığı ələ keçirdi. Beşinci xəlifə paytaxtı Quzeyə, Bizans və Qafqaza yaxın olan Dəməşqə köçürdü. Aqvanın vəziyyəti kəskin şəkildə



pisləşdi. Bizans özü ağır günlər yaşadığı üçün Cavanşirə əl uzatmaq iqtidarında deyildi. Cavanşir «Güney hökmranlığına», yeni xilafət «zülmünə tabe olmağı qərara aldı». O, 667-ci ildə Dəməşqə gedib danışıqlar apardı. Yaxşı qəbula baxmayaraq, I Müaviyənin ağır şərtləri ilə razılaşıb, xəzinə gəlirinin üçdə ikisini Xilafətə verəcəyini üzərinə götürdü. Bu birtərəfli güzəştlər qarşısında Cavanşir knyaz titulunu, daxili hakimiyyətini saxladı, başlıcası isə ölkəsini ərəb qoşunlarının gözlənilən basqınından qurtardı. Cavanşirin siyasi uzaqgörənliyi özünü doğrultdu. Onun ərəblərə qarşı Yunan birliyindən çıxması, Kürlə Araz arasında ərəblərdən asılı bir knyaz kimi hakimiyyətdə qalması Müaviyəni də təmin edirdi. Düşmənləri arasındakı siyasi düyünlər Cavanşirə özünə gəlib Xilafətdən güzəştlər qoparmağa, öz nüfuzunu artırmağa imkan verdi. Alban tarixçisi 670-ci ildə onun Dəməşqə ikinci gedişini belə təsvir edir.

**CAVANŞİRİN GÜNEY HÖKMDARININ HÜZURUNA İKİNCİ DƏFƏ GETMƏSİ.** «Güney hökmdarı ikinci dəfə gündoğar knyazı şərafətli Cavanşiri öz hüzuruna çağırmışdı..., çünki Konstantinopol şəhərinin əyanları da onun hüzuruna gələrək Aqari oğullarının (ərəblərin – *Red.*) hakimiyyətini öz üzərlərinə götürüb bac verməyə razı olmuşdular.

...Şərafətli hakim (Cavanşir – *Red.*) birinci dəfə olduğu kimi, oraya (Dəməşqə – *Red.*) gəldi. Xəlifə onun üçün öz doğma qardaşının sarayını hazırlamağı əmr etdi; o, axşam yeməyinə onunla birlikdə oturdu. Sonra o, Konstantinopoldan gəlmiş əsilzadə ərlər ilə sülh danışığı aparmağı Cavanşirə əmr etdi. Xəlifə onun dərin biliyinə heyrət etdi. Yunan hökmdarının elçiləri də ondan sox razı idilər. Çünki o, hər vechlə xəlifənin fikrini onların xeyrinə yönəltməyə çalışırdı.

...Bunlardan sonra o, (Cavanşir – *Red.*) öz ölkəsinin üzərinə qoyulmuş ağır verginin yüngülləşdirilməsini xahiş etməyə başladı. Güney hökmdarı buna ürəkdən razılıq verdi. O, bu verginin ikiqat azaldılmasını əmr edərək, (yalnız) üçdən birinin ödənilməsini istədi...»

**AQVAN KNYAZLIĞININ ARADAN GÖTÜRÜLÜB YOX EDİLMƏSİ.** Lakin, görünür, Cavanşirin öz hakimiyyətini saxlamaq üçün çalışması bütün Arran əyanlarının ürəyindən deyildi. 680-ci ildə o, sui-qəsd nəticəsində aldığı ağır yaradan öldü. Onun xələfləri arasında çəkişmə başladı. Ərəblər, xəzərlər və bizanslılar bundan istifadə etdilər. VII yüzilin 80-ci illərində Bizans imperatorluğu Transqafqazda öz nüfuzunu bərpa edə bildi. Müaviyənin ölümündən sonra hakimiyyət uğrunda mübarizənin yenidən kəskinləşməsi üzündən Xilafət bu işlərə hələ çox qarışmırdı.

704-cü ildə Alban kilsə taxtının sahibi patriarx Nerses Bakur (688 – 704) öz dualarında Bizans imperiyasının adını çəkməyə başladı. Bununla

o, öz ölkəsinin pravoslav məzhəbində qalmaqda olduğunu, Xilafət hökmünü rədd etdiyini, Cavanşirin siyasətinə və Bizans himayəsinə döndüyünü bildirirdi. Belə bir siyasi dönüş Bizans-Aqvan birliyini qaytarmağa yönəlmişdi. Bu, nə Xilafətin, nə də onun qulluğunda duran erməni-Qriqorian kilsəsinin mənafeyinə uyğun gəlirdi. Aqvan patriarxı Bakurun siyasəti haqqında Ermənistan katalikosu İlya Xilafətə aşağıdakı məktubu göndərmişdi:

«Əbdülməlik Əmr əl-Mö'minə erməni katalikosu İliyadan: Allah-təalanın buyruğu ilə bizim müti ölkəmiz üzərinə sizə qulluq etmək və Aqvanlarla birlikdə İsanın ilahiliyinə inanıb bir dinə qulluq etmək borcu qoyulmuşdur. Partavada oturan indiki Aqvan katalikosu yunanların imperatoru ilə sözü bir yerə qoyub oxuduğu dualarda onun adını çəkir və ölkələrimizi onunla bir dində birləşməyə məcbur edir.

Qoy bu hadisədən sizin xəbəriniz olsun və bu hadisəyə siz biganə qalmayın, yünki o, əyan bir qadınla (Varaz Trdatın arvadı Əspram ilə – *Red.*) əlbir hərəkət edir. Əmr edin, sizin böyük hökmünüz ilə, Allaha qarşı işlətdikləri günahlara uyğun olaraq onlara cəza verilsin».

Belə bir məktub Əməvilər sarayında böyük narahatlıqla qarşılandı. Xəlifə Əbdülməlik gecikmədən Azərbaycana cəza qoşunu göndərərək erməni katalikosuna aşağıdakı cavabı göndərdi: «Mən sənin məktubunu oxudum, Allah bəndəsi olan İliya, erməni xalqının katalikosu və sənə mərhəmət olaraq, öz sadiq nökərlərimdən birini çoxlu qoşunla göndərdim. Biz, bizim ağalığımıza qarşı qiyama qalxmış ***Aqvanları sizin dini qanunlara tabe etməyi ona əmr etmişik***. Bizim qul (Xəlifənin göndərdiyi qoşun başçısı – *Red.*) bu hökmü Partavda sənin iştirakınla yerinə yetirəcək: o, Nersesle onun əlbir olduğu qadını bir zəncirlə sarıyaraq xəlifə sarayının qarşısına gətirəcəkdir ki, qoy onların (cəzası) bütün qiyamçılar üçün biabırçılığa çevrilsin».

VIII yüzilin başlanğıcında Xilafətdə mərkəzi hakimiyyətin sabitləşməsi ilə bağlı ərəblərin Transqafqazı tabe etmək uğrunda mübarizəsi gücləndi. Xilafət Aqvan knyaz hakimiyyətini ləğv etməyə nail ola bildi. 705-ci ildə Mehrani knyaz sülaləsinin (aranşahların) varlığına son qoyuldu. Sülalənin sonuncu nümayəndəsi Dəməşqə aparılıb orada gizlicə edam edildi. Ərəblərin planı müqavimətə rast gəldi, üsyan başlandı. Əl-Belazuriyə görə üsyan xəlifə Əbülməliyin qardaşı sərkərdə ***Məhəmməd ibn Mərvan*** tərəfindən böyük qəddarlıqla yatırıldı. Onun əmri ilə yeni üsyan hazırlanmasında şübhə edilən 800 alban və erməni əyanı diri-diri yandırıldı.

**AZƏRBAYCAN ƏRƏB-XƏZƏR SAVAŞLARINDA.** Ermənistan canişini olan ***Məhəmməd ibn Mərvan*** qardaşı xəlifə Əbülməliyin oğlu ***Məsləməni*** Xəzər sahili vilayətlərin tutulması üçün döyüşlərə göndərdi (707-708-ci illər). Bizansa qarşı döyüşlərdə ad çıxarmış Məsləmə «Azərbaycan ərazisində olan türklər» üzərinə yürüş etdi, qalalar və şəhərlər alıb Dərbəndə (əl-Bab) çatdı. «Sağ divarları» bir neçə yerdən uçurduqdan sonra bu qalanı da alıb əmisinin yanına döndü. O biri il Dərbənd üzərinə yeni yürüş keçirdi. Məsləmə ibn Əbülməlik iki fasilə ilə 709-732-ci illərdə Xilafətin Quzey canişini olmaqla onun iki böyük düşməni – Xəzər və Bizans dövlətlərinə qarşı müharibələrə başçılıq etdi.

Ərəb yürüşləri görünməmiş həddə çatdı, Məsləmə Dərbəndlə Bələncərin, həm də Kostantinopolun qala divarları üzərində, Ət-Tarik – uzaq günbatar ölkələrdə, Kuteyba isə Orta Asiyada savaşlar aparırdı.

Hicri 104-cü ildə (722/23) xəlifə ***Yezid ibn Əbdülməlik***, əməvi olmasa da, daha çox inandığı ***əl-Cərrahı***, qardaşı Məsləmənin yerinə Ermənistan və Azərbaycana canişin qoydu. O, Bərdə şəhərində ordusuna dinclik verdikdən sonra Kürü keçib Dərbəndə, sonra isə Bələncərə kimi olan bölgələrdə xəzər türklərilə vuruşdu. Buradan Şəki vilayətinə qayıtdı. Üç il sonra xəlifə ***Hişam ibn Əbdülməlik*** onun yerinə yenidən qardaşı Məsləməni qoydu. Sonuncu döyüşlərə Kiçik Asiyada ***Kayseri*** şəhərini tutmaqdan başlayıb, Transqafqaz-Dərya yolu ilə xəzərlərin arxasına çıxdı, xəzər xaqanını əzib «Zü-l-qəmeyn yolu ilə» (tarixi rəvayətlərdə Dərbənd şəhərinin salınması Makedoniyalı İskəndərin adına çıxılır) geriyə döndü. Hicri 111 (729/30)-cu ildə xəlifə Hişam onu geri çağırıb yenidən əl-Cərrahı canişin göndərdi. O, Şəki-Beyləqan-Varsan-Bəcirvan yolu ilə Ərdəbilə çatıb burada yerləşdi. Əl-Kufiyə görə, «burada çoxlu müslim qoşunu var idi». o biri yandan «Xəzərlərin hökmdarı Xaqan» oğlu Bars Bəyin başçılığı ilə böyük (əl-Kufiyə görə 300 minlik) bir ordunu Azərbaycana göndərdi. Savaş əl-Cərrahın düşərgəsi yaxınlığında, Savalan dağı ətəyində baş verdi. Əl-Kufi canişinin aşağıdakı sözlərlə öz öz döyüşçülərinə üz tutmasını yazır: «Cənnətə qovuşmağa çalışın, cəhənnəmə yox! Rəhmdil (Allahın) iltifatına sığınmağa tələsin, ancaq şeytana uymağa yox! Cənnət bağına tələsin, ancaq cəhənnəm oduna düşməyə yox!» çılğın çağırışa baxmayaraq, ərəb ordusu qırılıb pozuldu, əl-Cərrah özü də öldürüldü. Yalnız 700 döyüşçü sağ qalıb Savalan dağına sığındı.

Yeni Xəzər-Bizans bağlaşması, imperator Konstantinin öz oğlu Levi xəzər xaqanının qızına (imperatriça İrina) evləndirməsi Məsləməni bir də canişinliyə qaytardı. O, Dərbənd qalasında bərkiməyi qarşısına qoydu. Qalanı dörd yerə bölüb hər birinə ayrı-ayrı ərəb bölgələrindən olan əsgəri alaylar yerləşdirdi. Qoşun başçısı ***Mərvan ibn Məhəmmədə*** «əl-Bab şəhəri müsəlman ümmasını idarə etməyi» tapşırdı.

Qocalmış Məsləmə buranı tərk edən kimi xəzərlər Dərbəndi geri aldılar. Mərvan ibn Məhəmməd cavab olaraq öz «çirkli yürüş»ünü (yağmurun və palçığın çoxluğundan ərəb döyüşçüləri bütün atların quyruqlarını kəsməli olmuşdular) uğurla başa vurub Bələncər şəhərini tutdu. 737-ci ildə

Mərvan Qazax (Kasak) – «Alan qapıları» (Bab alan) yolu ilə xəzərlərə qarşı böyük yürüş keçirərək, «Slavyan çayına» (Nəhr əs-Sakaliba) kimi irəliləyə bildi. Əsir aldığı xəzər xaqanını islam dininə keçməyə məcbur etdi. Mərvan böyük qənimət və təntənə ilə Qazax düşərgəsinə döndü. Xəlifə II VALİDİN öldürülməsindən sonra Mərvan ibn Məhəmməd hakimiyyət uğrunda çəkişmələrə girişib sonuncu Əməvi xəlifəsi oldu (744-750).

Abbasilər (750-1258) də Transqafqazı strateji baxımdan çox dəyərli sayırdılar. İlk Abbasi xəlifəsi ***Əbu-l-Abbas əs-Səffah CƏZİRƏ***, Ermənistan və Azərbaycan canişinlik vəzifəsini öz qardaşı ***Əbu Cəfərə*** vermişdi. Sonuncu əl-Mənsur adı ilə xəlifə olduqda (754-775), ***Yezid əs-Sülamini*** buraya canişin qoydu. 763-764-cü illərdə o, iki dəfə xəzər qoşunları ilə qarşılaşdı. 775-ci ildə o, yenidən canişinliyə qaytarıldı. Canişin vəzifəsi Sülami nəsli üçün irsi oldu. Yalnız xəlifə ***Harun ər-Rəşid*** illərində (786-809) ərəblər Qafqazın güney ölkələrində bütünlüklə sabit idarəçilik sistemi yaratdılar.

## 2. ƏRƏB AĞALIĞI

**İDARƏÇİLİK**. Ərəblər ölkəni işğal etdikdə burada rast gəldikləri inzibati və idarəetmə aparatına toxunmadılar. Onlar bizanslılar və sasanlılardan görkəmli qoşun başçılarının idarəsinə verilən canişinlik sisteminə yiyələnib geniş istifadə etməyə başladılar. Canişinlər ***əmir*** (ilk zamanlar: amil), canişinlik isə əmirlik adlanırdı. Xilafət əmiri onun hakimiyyətinə verilən torpaqları xəlifənin fərmanı ilə, ixtiyarında olan orduya arxalanaraq idarə edirdi. Əməvilərin hökmranlığı illərində 5-9, Abbasilərin hökmranlığı illərində isə 14 canişinlik yaranmışdı. Hər bir əmirlik fəth olunmuş bir sıra ölkənin torpaqlarını əhatə edən geniş ərazini birləşdirir, bu birləşmiş ərazi ***əyalət*** adlanırdı. Azərbaycan, Arran, Ermənistan, Kiçik Asiyanın gündoğar bölgələri ***əl-Cəzirə*** adlanan dördüncü canişinliyə daxil idi. Əl-Cəzirə əmirinin iqamətgahı ilk illər ***Dvin*** şəhəri idi, Abbasilər taxta çıxdıqdan sonra Alban paytaxtı ***Bərdə*** şəhərinə köçürüldü. «Alban tarixi»ndə bununla bağlı deyilir ki, Abbasilərin hakimiyyətə gəlməsi «Vətənimiz üçün böyük bədbəxtlik oldu, çünki taciklər (ərəblər – *Red.*) knyazlardan Alban paytaxtı Bərdəni aldılar və burada torpağımızın varını sümürmək üçün öz iqamətgahlarını yaratdılar».

Əyalətin başında duran xəlifə canişini eyni zamanda ərəb ordusunun komandanı idi. Xüsusi tapşırıqlar üzrə məmurlar, vergi yığma və məhkəmə idarələrinin rəisləri: amil və qazi əmirin rəhbərliyi altında çalışırdı. Əmirə tam mülki və hərbi hakimiyyət verilirdi. Ərəblər başlıca olaraq Ərdəbil, Beyləqan, Dərbənd, Bərdə, Naxçıvan, Marağa və başqa şəhərlərdə, yəni başlıca ***mahal*** mərkəzlərində tam hazır saxlanılan qoşunlara arxalanır-



dılar. Yerli əyanlar öz imtiyazlarını itirmiş, əsgəri və inzibati qulluqdan uzaqlaşdırılmış olduqlarından çox narazı idilər.

**KÖÇÜRMƏ SİYASƏTİ**. Xilafət savaşları yalnız döyüşən ordular tərəfindən aparılmırdı. Savaşların gedişində köçürmə siyasəti də böyük yer tuturdu. Möminlər uzaq ölkələrdə savaşmaqla bərabər, həm də hicrət edib burada yerləşməli idilər. Onlar üçün bu müqəddəs borc işi sayılırdı. Qur'ani-Kərimdə buyrulduğu kimi: «Allah yolunda hicrət edən kişi yer üzündə çox bərəkətli yer və geniş yer tapır. Evindən Allaha və Peyğəmbərinə (xidmət üçün – *Red.*) hicrət edərək çıxan kişiyə ölüm gələrsə, onun əcrini vermək Allaha düşər» (IV, 100).

Öz hərbi-siyasi ağalığını bərkitmək üçün Xilafət Azərbaycan bölgələrinə ərəb kolonistlərini köçürməyə başladı. Suriya, Kufə, Bəsrə və başqa yerlərdən qoparılıb köçə qoşulmuş ərəb mühacirləri bölük-bölük bütün Araz-Kür ovalıqlarına axışırdılar. Onlar bərəkətli torpaqları asılı kəndlilərlə birlikdə tutur, oturaq yaşayışa keçirdilər. Xilafət kolonistlərin buraya köçürülməsini alqışlayıb dəstəkləyirdi. Çünki xəzinəni əsgəri qulluq adamlarına dövlət təqaüdü ödəməkdən azad etməyə, ələ keçirilmiş bir ölkədə öz ağalığını saxlamaq üçün hərbi dayaq yaratmağa can atırdı. Mühacir ərəblər yerli əhaliyə yuxarıdan baxır, imtiyazlı zümrə kimi davranırdılar.

Azərbaycana ərəblərin köçürülməsi ilk ərəb yürüşlərinə qarşı üsyanlar zamanı başladı. Bəlazuriyə görə, ərəb qoşunu başçısı əl-Əş'əs azərbaycanlıları bağlanmış müqaviləyə əsasən «itaətə gətirdi, sonra təqaüd (ə'ta) alan və divan hesabında sayılan ərəbləri oraya köçürdü və onlara əmr etdi ki, əhalini islama də'vət etsinlər». İlk olaraq quzey tayfalarından nizarilər köçürülüb Ərdəbildə yerləşdirildi. Quzey Azərbaycan uğrunda savaşların kəskinləşməsi buraya bütöv ərəb tayfalarının köçürülməsinə, köçkünlərdən bərkidilmiş əsgəri düşərgələrin (rəbatların) və qalaların yaradılmasına gətirib çıxardı. Adı çəkilən tarixçi Məsləmənin Dərbənd şəhərinə 24 min əsgər köçürdüyünü yazmışdır. Tezliklə əsgərlərin ailələri də onların yanına köçürülərək, əhalinin hesabına yaşamağa başladı. Bərdə, Beyləqan, Şamaxı, Kasal (Qazax), Şəmkürlə yanaşı Aran, Muğan və Şirvanın kənd yerlərində on minlərlə ərəb yerləşdirildi. Bəlazuri köçürmə siyasəti ilə bağlı yazırdı: «Ərəblər Azərbaycanı tutduqdan sonra iki mahaldan (Kufə və Bəsrədən) və Suriyadan ərəb tayfaları oraya yollandılar və onlardan hər biri bacardığı qədər torpaq tutdu. Bəziləri isə ərəb olmayanların torpağını satın alırdılar. Bununla yanaşı kəndləri onlara tapşırıb güzəşt etdilər, beləliklə də o kəndlərdə yaşayanlar onların işçilərinə çevrildilər».

Abbasilər güney ərəb tayfalarını quzeydən köçürülənlərə qarşı qoyurdular. Onlar Təbrizdən Bəzzə və Mayanicə kimi uzanan torpaqlardan

nizariləri çıxarıb yəmənli ərəbləri yerləşdirdilər. Ancaq qalan bölgələrdə dəyişiklik çox olmadı.

Köçürmə siyasətinin başlıca məqamı strateji dəyəri olan ölkələrdə Xilafət hakimiyyətinə dayaq yaratmaq, xəzərlərə qarşı sıralan bərkitmək, yerli əhalini itaətdə saxlayıb vergilərin aramsız toplanmasını və islamın yayılmasını təmin etmək idi. Bu siyasət son nəticədə Azərbaycanda demoqrafik vəziyyətin dəyişməsinə, yerli əhalinin ərəbləşdirilib assimilyasiya edilməsinə, bir sözlə, buranın bir ərəb yurduna çevrilməsinə yönəlmiş idi. Ən çox ərəb köçürülmüş olan Dərbənd ətrafı haqda *əl-İstəxri* yazır: «Orada yaşayan adamlara (ərəb əsgəri rəbatlarına – *Red.*) tapşırılmışdı ki, xəzərlərin islam torpaqlarına keçə biləcəyi yolları qorusunlar. Belə qalalar on dörddür, burada Mosul, Diyar Rəbi və Suriyadan olan adamlar yaşayır, bu qalalar da həmin tayfaların (adı ilə) tanınır. (Burada) dil (ərəb dili – *Red.*) nəsildən nəslə keçir».

Harun ər-Rəşidin illərində ərəb qəbilələrinin Azərbaycana köçürülməsi dayandı. Buna baxmayaraq, köçkünlərin yaşayış yerləri olduqca çox idi. Görünür, 150 il çəkən ərəb-xəzər müharibələri bunu tələb edirdi (Quzey Azərbaycan bölgələrində adların tərkibində indi də «ərəb» sözü olan onlarca kənd var).

Lakin ərəb köçkünləri üzərinə qoyulan bir vəzifə həyata keçirilmədi. Ərəb dilinin «nəsildən-nəslə» keçməsini təmin etmək mümkün olmadı. İşğalçı köçkünlər Ərəbistanın mədəniyyət mərkəzlərindən ayrı düşdülər. Quzey Azərbaycandakı ərəb yaşayış «adacıqları» oturaq yaşayışa keçərək, yerli əkinçilik mədəniyyətinə və ən'ənələrinə bağlandılar. Ərəb köçkünləri azərbaycanlıların arası kəsilməyən mədəni təsiri altında getdikcə onların dilinə, geyim, yemək adətlərinə, bütün yaşayış və davranış dünyasına qovuşaraq türkləşdilər, bir sözlə, özləri assimilyasiyaya uğradılar. ***Akademik Y.E.BERTELSİN*** yazdığına görə artıq XII yüzildə Azərbaycanda kök salmış olan ərəblər «xeyli dərəcədə» öz dillərini itirmiş, yəni yerli əhaliyə qaynayıb-qarışmışdılar. İndi Orta Asiya, Əfqanıstan və bəzi başqa yerlərdən fərqli olaraq Azərbaycanda ərəbcə danışığı qalan bir kənd belə yoxdur.

**İSLAMLAŞMA.** Xilafət yerli torpaqlar ələ keçirərkən çoxlu vergi, natural mükəlləfiyyətlər qoymaqla yanaşı, kafirlər arasında islamı yaymağa çalışırdı.

Azərbaycanın zərdüştlük yayılan bölgələrində (Güney Azərbaycan, Muğan) islam dini nisbətən tez, təqribən bir yüzildə yayıldı. Bu, başlıca olaraq zərdüştlüyün təqib edilməsi ilə bağlı idi. Ərəblər bu dindən olanlara islamı zor gücünə qəbul etdirirdilər. «Kitab əhli»nə (əhl-ül-kitab), yəni yəhudi və xristian xalqlarına gəldikdə isə, onlardan ayrıca can vergisi – cizyə almaqla kifayətlənirdilər. Azərbaycanın güney torpaqlarında (həmçinin İran və Orta Asiyada) islamın tez yayılması uzun sürən Sasanlı zülmü ilə bağlı idi. Bu zülmün rəmzi olan zərdüştlük dini Sasanlı ağalığı ilə qarşılaşan xalqlar arasında nüfuzdan düşmüşdü. Hələ III-IV yüzillərdə aşağı təbəqələr hərəkatının (maniçilik və b.) sasanlı dövlət dininə qarşı çevrilməsi təsadüf deyildi. Xalq islamın qəbul edilməsinə İran və Bizans əsarətindən, Hakimlərin, məmur və əyanların zülm və özbaşınalığını təmsil edən zərdüştlükdən azad olmaq vasitəsi kimi baxırdı. Xilafət illərində müsəlmanların bərabərliyi, vergilərin ağırlığının azaldılması və s. haqqında elan edilmiş şüarlar da burada rol oynayırdı.



Abbasilərin «təcqoyması» ilə Güney Azərbaycanın müsəlmanlığa keçməsi başa çatdı. Ərəbdilli qaynaqlardan birində deyilir: «Hakimiyyət... Əməvilərdən Abbasilərə keçən (vaxt) maqların dini dehqanlardan (Azərbaycan feodallarından – *Red.*) uzaqlaşdı və onlar islamı qəbul etdilər».

Yalnız kiçik xalqların deyil, hətta müqəddəs kitabları olan böyük məmləkətlərin «imana gətirilməsi» artıq Məhəmməd peyğəmbərin zamanında başlamış idi. o, Həbəşistan, Bizans və İran hökmdarlarına yazılı müraciət edib islamı qəbul etməyi buyurdu. Qur'ani-Kərimdə deyilir: «O halda Allahu-təalaya və onun ümmü nəbisi olan Rəsuluna iman edin, ona tabe olun ki, doğru yolu tapmış olasınız» (VIII, 158); «Kim Allahu-təalaya və Peyğəmbərinə iman gətirməsə, (bilsin ki) biz kafirlər üçün cəhənnəm odu hazırlamışıq!» (XLVIII, 13). İlkin çağda bu buyruqların özündə də, onların yerinə yetirilməsində də bir əxlaqi yumşaqlıq, dözümlük vardı: «Sizinlə savaşanlarla Allah yolunda siz də savaşın, ancaq təcavüzkarlıq etməyin [həddi aşmayın]. Axı Allah təcavüzkarları sevmir!»; «...onlar sizinlə vuruşmayınca, siz də orada onlarla vuruşmayın! Əgər (orada) sizinlə vuruşarlarsa, onda onları öldürün. Kafirlərin cəzası bax belədir! Yox, əgər onlar (bundan) əl çəksələr, (bilin ki), Allah bağışlayandır, rəhmlidir! (II, 190, 191, 192). Bu illər ikitərəfli bağlantı olan yerlərdə dini etiqada görə cəza tədbirləri çox az keçirilir, yalnız silahlı üsyanlar qılınc gücünə yatırılırdı. Amma atəşpərəst məcuslar, bütünlüklə çoxallahlılar ilk illərdən təqib olunurdular. İslam ibadət üçün canlı varlığın təsvir olunması (bütlər) üzərinə yasaq qoymuş, bütpərəstlik və çoxallahlığın bütün növləri ilə mübarizədə olduğunu bildirmişdi. Bundan başqa, hələ xəlifə Ömər zimmilər («kitab əhli» sayıldıqları üçün öz dinlərində qalan kafirlər) haqqında təhqiredici buyruq vermişdi: onlar öz etiqadlarında qala bilərdilər, ancaq can vergisi ***cizyənin*** ödənildiyini bildirmək üçün üst geyimi üzərində qurğuşun möhür gəzdirməli idilər. Əməvilərin yüksəlişi ilə «qılınc siyasəti» önə keçdi.

Ölkənin quzeyində, xüsusilə Aqvanda islamın yayılması uzun sürən, ağır bir iş oldu. Xilafət başqa ölkələrdən fərqli olaraq Aranın xristian kilsəsinə qarşı VIII yüzilin ilk illərindən amansız davranırdı. Çünki bu kilsə

feodallar ilə birlikdə «dindaş» Bizansa arxalanmaq istəyirdi. Yuxarıda göründüyü kimi, Aqvan katolikosu Bakurun Bizansla yeni birliyə çalışması Xilafətdə açıq qarşıdurmaya çevrilirdi. Xəlifə Əbdülməlikin buyruğu ilə katolikos və knyaz qadını 704-cü ildə edam edildi; «bizim (yəni Xilafətin) ağalağımıza qarşı ayağa qalxdığına görə» ***Aqvan kilsəsi ərəblərin müttəfiqi olan qriqorian kilsəsinə tabe edildi. Kilsə işləri, ibadət və yazı alban dilində deyil, qrabarda aparılmağa başlandı.*** Salnaməçilərin sözlərinə görə bu vaxtdan kim Albaniyada kilsənin müstəqil olmağına çalışırdısa, «qılınc və əsarətlə yox edilməli» idi. Misilsiz abidələrin-salnamələrin, qanunlar toplularının məhv edilməsi başlandı. Katolikos Bakurun üsyanı yatırıldıqdan və Mehrani knyaz nəslinin varlığına son qoyulduqdan sonra (704-705-ci illər) ***alban yazısı rəsmən qadağan edildi***, sonralar unudulub aradan çıxdı. Nəticədə, xristianlığın mövqeyi sarsıldı. Əslində, buradakı kilsələrdən yalnız qriqorianlığa keçənlər qaldı, qalanları yox oldu, əhalinin isə böyük əksəriyyəti islam dinini qəbul etdi.

Yenicə «iman etmiş», «dinə gəlmiş» Azərbaycan əhalisinin mənəvi durumu və davranışı «Kitabi-Dədəm Qorqud» boylarında qabarıq iz buraxmışdır. Bu boylarda oğuzlar dönə-dönə müsəlman adlandırılsa da, oğuz cəmiyyəti islam, şəriət qanunları ilə hələ çox üzdən tanışdır. Onların görüş və dünyaduyumunda əski türk Tanrısı böyük yer tutmaqdadır. Bu oğuzların dilində «Allah» yerinə daha çox, daha tez-tez «Tanrı» (Tenqri) sözü işlənir. Boylarda birincinin adı yalnız 54, ikincisinin adı isə 73 dəfə çəkilir. Bir neçə yerdə Qur'andakı «Allah-təala» yerinə «Tanrı-təala» yazılması da islamdan qabaqkı görüşlərin hələ sarsılmadığını göstərməkdədir. «Min Bəkdüz başları» Əmən bəy Ərəbistana «varuban Peyğəmbərin yüzünü görən, Gülübənü Oğuzda ***səhabəsi*** olan» bir alp sayılsa da, Oğuz bəyləri, bütün oğuzlar hələ ruhani xidmət nə olduğunu bilmirlər. Müəzzinləri yoxdur, haradansa gəlmiş bir «saqqalı uzun ***tat*** əri» onlar üçün əzan banlamaqdadır». Anadan doğulan körpəciklərə bu oğuzlar ad qoymurlar. Göytürk kağanlığında olduğu kimi, yalnız 15 yaşa dolduqdan, bir «ərlik işlədikdən» sonra onlara ad verirlər. Bu adlar islamdan çox əvvəl Oğuz dədələrin yaşatdığı türk adlarıdır. Şəriətə görə isə ad doğuluşdan sonrakı günlər verilməlidir, körpələr Allahın, Peyğəmbərin və imamların adlarını daşımalıdırlar. Oğuz ərləri toplandıqda ortaya «ağ üzümdən» sıxılmış çaxır gətirirlər; yeniyetmə oğlanlara ad verəndə (başqa xalqlardan fərqli olaraq dilimizdə «doğum günü» deyil, «ad günü» deyiminin işlənməsi tarixən bununla bağlıdır), yürüşə çıxdıqda «yemə-içmə» olur, «yigidlərlə yeyib-içirlər». Belə bir davranış yalnız islamın yayılma çağında ola bilərdi, çünki V.V.Bartoldun yazdığı kimi, Dədə Qorqud oğuzlarının yaşayışı «islamın ilk yüzilinə», coğrafiya baxımından isə Güney Qafqaz sərhədlərinə düşür.



**VERGİLƏR, ÖDƏNCLƏR.** Ərəblər vergi siyasətində də öz sələflərinin, Sasanlı və Bizans dövlətlərinin yolu ilə gedirdilər. Köhnə vergi siyahıları dəyişiklik edilmədən qüvvədə saxlanırdı. İlkin dövrdə vergi ayrı-ayrı adamlardan deyil, ikitərəfli bağlaşma üzrə tabe edilmiş ölkə və ya vilayətdən bütövlükdə toplanırdı. Vergi siyasətində köklü dəyişiklik Əməvilərin hakimiyyətə keçməsindən sonra nəzərə çarpır. Xəlifə Əbdülməlikin illərində ayrıca buyruq verildi: kəndliyə onun vergi siyahısına alındığı kəndi tərk etmək qadağan edildi. Təsərrüfatın, bağların, üzümlüklərin sayımı keçirildi. Müsəlman olmayanlardan müntəzəm olaraq ***cizyə*** (can vergisi) ilə yanaşı ***xərac*** (torpaq vergisi) alınmağa başlandı. Müsəlmanlar isə onda bir vergi ***uşr*** və ayrıca vergi olan ***xums*** ödəyirdilər. Xums yeni əmlakdan, qızıl, gümüş, neft, duz mədənlərindən, dəniz nemətlərindən ödənilirdi. Müharibələr zamanı ələ keçirilən qul və əsirlər də sayılmaqla bütün hərbi qənimət də buraya düşürdü. ***Zəkat*** vergisi ehtiyac içində yaşayan müsəlmanların xeyrinə məhsulun və əmlakın onda birindən az yığılırdı (10-14 baş dəvə üçün iki quzu, 30-39 qaramaldan bir dana, 40-120 qoyundan bir quzu və sairə). ***Sədəqə*** kasıblara, dilənçilərə verilirdi. İlk on illər vergi Sasanlı dövründəki ölçüdə toplanırdı. VIII əsrin 20-ci illərindən Əməvilər xristianlar üçün xəracı artırdılar. Keçmişdən fərqli olaraq, hətta rahiblər və monastr torpaqları üzərinə də vergi qoyuldu. VIII əsrin ortalarına yaxın vergi yükü çox ağırlaşdı. Xəlifə Hişamın göstərişi ilə 725/6-cı ildə Azərbaycanda əhalinin, torpağın, mal-qaranın və hər növ mülkiyyətin yeni bütöv sayımı keçirildi. Bu illərdə xəzinəyə daha çox gəlir gətirən xərac vergisi mərkəzi yeri tutdu. Bundan başqa əhali üzərinə sənətkarlıq məmulatına, nikah bağlanmasına görə də vergi qoyuldu. Əski Sasanlı vergilərindən ***Novruz hədiyyəsi*** adlanan vergi və başqaları bərpa olundu. Əməvilərin hakimiyyətinin sonunda hər bir canişin istədiyi kimi ağalıq edir, yalnız əhalini soyub var-yoxdan çıxarmağa çalışırdı.

Abbasilərin çevrilişi ötəri yüngüllük gətirdi, verdikləri vədlərə baxmayaraq, onlar vergilərin sayını azaltmadılar. Onların etdiyi dəyişiklik başlıca olaraq Xilafətin fəth etdiyi ölkələrin yüksək zümrəsi ilə bağlı idi. Öz sələflərindən fərqli olaraq, Abbasilər yalnız ərəblərə deyil, ***mövliya*** təbəqəsinə, yəni islamı qəbul edən yerli adamlara (feodallara) da arxalanmağa başladılar. Lakin bu yenilik qorxunc «xarici» amil ilə – tutulmuş ölkələrdə Xilafətə qarşı gündən günə güclənən çıxışlar ilə bağlı idi. Mövliyalara ərəb feodalları ilə bərabər hüquq verilməsindən hələ danışmaq olmazdı. O zaman ərəblər arasında belə bir kəskin deyim gəzirdi: «İt ilə mövliya nəyə və kimə toxunsa, murdardır». Bu alçaldıcı hal, əpəblərin təhqiri yerli əsilzadələrin üsyana qalxmasının başlıca səbəblərindən idi.

Abbasilərin sümürgəcliyi ölçüsü aşdı, Əməvilərin zülmünü geridə buraxdı. Torpağın sahəsinə görə xərac əhalidən nəqd pulla (***Misahə xəracı***)

yığılırdı, amma bu torpağın əkilib-əkilməməsi nəzərə alınmırdı. Qaynaqlardan birində yazılıb: xəlifə əl-Mənsur zorakılıq və sıxışdırmaları ilə hamını təngə gətirmiş, hətta ölülərdən də vergi tələb etməklə adamları dilənçi kökünə salmışdı. O, dul qadınlara və yetim uşaqlara dəhşətli zülm edirdi... hər cür işgəncə verir, biabırcasına döyür, vurur və onlardan ölənlərin adı və ailələri haqqında arayış yığırdı». Ondan sonra gələn xəlifə Mehdi isə məhsul ilə ödənilən vergiyə (***müqasimə xəracı***) qayıtsa da, meyvə ağacları, zeytunluq və üzümlüklər üzərinə də xərac qoydu. Xilafət vaxtında təsərrüfatın, demək olar ki, bütün sahələri, taxıl, alaf, meyvə, duz və neft çıxarılması, balıq tutulması, dağ-mə"dən işləri, pul kəsilməsi və sairə üzrə gəlirin 1/10 qədərində vergi qoyulmuşdu. Amansızlığı ilə seçilən ***Harun ər-Rəşid*** və onun xələfləri illərində Azərbaycan, Muğan və Aran əhalisindən bir ildə alınan vergilərin miqdarı 8 mln. dirhəmə çatırdı.

IX yüzildən Azərbaycan, Mərkəzi Asiya, İran kimi ölkələr artıq iqtisadi və siyasi yüksəlmə yoluna çıxmış oldular. Ancaq Xilafət ağalığı saysız dağıntı gətirmiş, uzun zaman sağalmayan yaralar vurmuşdu. ***İbn Hövqəl*** yazırdı: «Arazın sahilləri ilə Varsan şəhərindən keçib gedən (adam) dağılmış və batmış – bunlardan bəzisi xarabalıqdır, şəhərlərin izlərini görər». Onun fikrincə, Araz, Allah-təalanın zikr etdiyi çaylardan idi, ancaq bura xalqının başına bu müsibət dinsizliyinə görə gəlibmiş. ***Əl-Müqəddəsi*** də keçmişdə Araz boyunca «min şəhərin» olmasını qeyd etmişdir. Daha bir X əsr alimi ***Əbu Duləf İsə Balasacan*** düzü (***Balasakan:*** Bərdə ilə Xəzər dənizi və Kür çayı ilə Bərzənd arasında yerləşirdi. – *Red.*) haqqında yazırdı: «Bu düzdə beş min kənd var, çoxu xarabadır... Deyirlər bu kəndlər Allah-təalanın Qur'anda zikr etdiyi Arrasın sahiblərinindir». Müəllifə görə bu «sahiblər» (Əshab-ər-Ras) guya Cəlutun (Bibliyada Qoliaf) döyüşçüləri olub, Davud və Süleyman əleyhissəlam «onları xəracdan imtina etdiklərinə görə qətlə yetiriblər». Buradan aydın olur ki, onların da müsibəti eyni cəza tədbiri ilə bağlı olmuşdur; xəracdan boyun qaçıran – ilkin çağların «iki tərəfli» barışıq müqaviləsini pozan, İslamdan üz döndərən kimsələr çox ağır cəza ilə qarşılaşmalı olurdular.

**TORPAQ SİYASƏTİ.** Xilafətin torpaq siyasəti vergi sistemi ilə bağlı idi. Güclü vergi sistemi, ilk növbədə xərac, bu böyük imperiyanın varlığı üçün bir özül idi. ***A.Y.Yakubovskiyə*** görə, Xilafətin üstündə qərar tutduğu xərac sistemi, «Feodal münasibətlərinin sonrakı inkişafının baş verdiyi yollardan» biri idi.

İmperiyanın bütün torpaqlarının ali mülkiyyətçisi mərkəzi hakimiyyət, daha doğrusu, dövlətin teokratik başçısı – xəlifə idi. Ələ keçirilən ölkələrin torpaqları «***xərac torpaqları***» sayılır, Bağdaddakı mərkəzi xərac divanında və əyalət divanlarında qeydə alınırdı. Oradan yığılan gəlir (***beyt ülmal***)



xilafət xəzinəsinə göndərilirdi. Ərəb köçkünləri də xeyli torpaq ələ keçirə bilmişdilər. Bundan başqa, şəhər və ya vilayət ərəblərə silahlı müqavimət göstərmişdirsə, oradakı torpaq ordu arasında bölünür, bəzən isə onu ərəb ordusunun vəqfi kimi öz sahibində saxlayırdılar.

Sosial-iqtisadi baxımdan torpaqlar beş növə ayrılırdı. ***Xəlifə mülkləri*** (sonralar ***Sultan torpaqları***) bütünlüklə onun şəxsi ixtiyarında olmaqla yanaşı, məzmunca dövlət (divan) torpaqları bölməsinə yaxın idi. Əməvilər hökmranlığından başlayaraq çox genişlənmiş olan bu torpaqların idarə olunması üçün bir neçə divan yaradılmışdı. Bütün VII-IX yüzillər boyunca ölən və vəzifədən götürülən məmurların torpaqlarını müsadirə etmək, qismən də nəqd pulla almaq yolu ilə Xəlifə mülkləri böyük miqyas almışdı.

***İqta torpaqları*** Xilafətin sosial-siyasi qurumunda aparıcı yer tuturdu. Xilafətdə hakim sinif, ordu və qoşun başçıları, dövlət məmurları, hətta bütövlükdə ordu özü iqta (hərfən ***kəsik*** deməkdir) torpaqları hesabına saxlanıb yaşayırdılar. ***Əl-Xarəzmiyə*** görə, «Sultan (Xəlifə) adama torpaq verir və həmin torpaq üzərində nəzarəti ona tapşırırdı». Çox geniş yayılmış olan ***mülki (şəxsi) iqtalar*** *vəzifəyə yeni qoyulan məmurlara verilirdi.* Sonuncu tutduğu vəzifədən götürüldükdə, iqta torpağı da geri alınaraq, yeni qulluq adamına verilirdi. ***Hərbi (əsgəri) iqta da icarə edilən***, yəni irsi olmayan, birdəfəlik verilməyən torpaqlara deyilirdi. Hərbi iqtalar xəlifə, xass (xüsusi, vergilərdən azad edilmiş) və xəzinə torpaqlarından kəsilib ayrılır, əsgəri qulluq adamlarına paylanırdı.

Özəl ***(xüsusi və ya xass) iqtalar*** Xilafət qarşısında çox böyük xidmətlərə görə verilirdi. İqtanın bu növü irsi səciyyə daşıdığı üçün, iqta alan yüksək nüfuzlu qulluq adamı (ordu baş komandanları, canişin, əmirlər və başqaları) torpağın tam səlahiyyətli sahibinə çevrilirdi. Buna görə belə iqta qulluğa görə veerilən torpaq deyil, ***bağışlanan*** irsi torpaq idi. Bununla yanaşı, xüsusi (xass) iqta ərazicə çox böyük olub, bəzən bir, ya bir neçə vilayəti, hətta ölkəni əhatə edə bilirdi. Babək hərəkatının boğulmasında fövqəladə xidmətinə görə xəlifə Mö'təsim Azərbaycan, Arran və Ermənistanı baş komandan Afşinə iqta vermişdi. İqta torpaq təsisatı, əslində xərac sistemi əsasında yaranmışdır. Çünki iqtanın verilməsi (şəxsi və əsgəri iqta) və ya bağışlanması (özəl xass iqta) bir qayda olaraq iqta sahibi ***Müqtanı*** (XI yüzildən – ***iqtadar***) torpaq vergisi (xərac) toplamaq hüququ ilə təmin edirdi. Xərac hüququ həm də ona aldığı torpaqda oturub onu becərən kəndliləri ayrı-ayrı mükəlləfiyyətləri yerinə yetirməyə məcbur etmək imkanı verirdi. Abbasilər çağından başlayaraq iqta şərti torpaq (benefis) cizgilərini get-gedə itirir və irsi feodal şəklinə keçirdi. Bu uzun, yüzillik təkamülün başlıca göstəricisi iqta sahibinə verilən xərac toplamaq hüququnun birbaşa torpağın özü üzərində mülkiyyət hüququna keçməsi idi. İqtanın məzmunca bu istiqamətdə dəyişikliyə uğraması işğal olunmuş

ölkələrdə ayrı-ayrı mülklərin (Azərbaycanda ***Rəvvadilər*** nəslindən olan ərəb feodallarının Təbriz mülkü, ***Məzyədilərə*** verilmiş olan Şirvan və Gəncə malikanələri, ***Haşimilərin*** Dərbənd mülkü və başqaları) yüksəlməsinə gətirib çıxardı. Böyük qoşun başçıları – canişinlər xəlifə buyruğunu gözləməyərək, bəzən özləri belə tələb irəli sürürdülər. Xilafətə xidmət edən türk soylu ***Əbu Sac Subuk*** xəlifəyə məktub yazaraq, Azərbaycanı iqta kimi ona verməyi tələb edirdi. Sonralar ***Sacoğulları*** (Əbu Sacın övladları) da, Rəvadilər və Məzyədilər də Xilafətin tabeliyindən çıxaraq Azərbaycan dövlətlərinə başçılıq etmişlər. İqta torpaq təsisatından irəli gələn mərkəzdən qaçma hərəkatı Xilafət hökmranlığının siyasi baxımdan dağılması ilə sona yetdi.

**MÜLK, VƏQF VƏ İCMA TORPAQLARI.** Xilafətin ağalığı yerli mülklərin tutulub müsadirə olunmasına, onların ərəb xəzinə torpaqlarına qatılmasına gətirib çıxardı. Ancaq torpaq mülkü bir tarixi anlayış olmaqla aradan çıxmadı, yalnız onun yeni hüquqi daşıyıcıları yarandı. ***Xəlifə iqtası*** adlanan torpaqların bir qismi əslində mülk olaraq müxtəlif şəxslərə və icmalara bağışlanırdı. Bataqlıqların qurudulub yararlı hala salınması, dövlət torpaqlarının (xəlifə mülklərinin) satın alınması yolu ilə də mülklər yaranırdı. Mülk torpaqlarının sahibi qeyd-şərtsiz, mütləq sahiblik hüququ qazanırdı. O, dövlət qulluqçusu, o cümlədən hərbi qulluqçu olmaya bilərdi. Öz mülkünü alqı-satqı obyekti edib onu «özgələşdirə», girov qoya və bağışlaya bilərdi. Mülk torpağı, bir qayda olaraq atadan oğula və ya başqa hüquqi varisə keçirdi.

Xilafətdə, xüsusilə qılınc gücünə tutulmuş bir ölkə olan Azərbaycanda ***vəqf*** torpaqları böyük idi. Burada vəqf torpaqlarının gəliri yalnız Xilafətin müqəddəs şəhərləri, müxtəlif dini müəssisə və tikintilər (məscid, türbə və b.) üçün işlənmirdi. Azərbaycanda və onun hüdudlarında saxlanılan qoşunların əsgərləri ***qazilər (qəzavat, cihad*** adamları) sayıldığından onların da xərci vəqf torpaqlarından ödənilirdi. Məsələn, Şirvanın (Bakının) neft və duz mədənləri VIII-IX yüzillər boyunca «Dərbənd əhalisinə»-əslində buradakı ərəb qarnizonuna vəqf verilmişdi. Ayrılmaz (müsadirə olunmaz) sayılan vəqf torpaqları müsəlman ruhani idarəsinin ixtiyarında idi. Bu torpaqlardan xəzinə üçün xərac yığılmır, vergi ödənilmirdi, onların alqı-satqıya qoyulması da qadağan idi.

Kəndlərdə əhaliyə məxsus olan torpaqlar, biçənəklər, qaramal, davar, at ilxıları otlayan örüşlər ***icma*** torpaqları sayılırdı. Meşələr, qəbiristanlıqlar, əhalinin yanacaq əldə etdiyi yerlər də icmaya məxsus idi. Bu torpaqlardan xəzinəyə xərac ödənilməsi başlıca şərt idi.

Xilafət xəzinələrində, Dəməşq, Kufə, Bağdad saraylarına, bir-birini əvəz edən əmirlərin qəsrlərinə Azərbaycandan axıdılan gəlir nə qədər çox



olsa da, məram yalnız iqtisadi sümürgəçilik deyildi. Başlıca məram həm də xalqın yadelli ağalığa qarşı döyüş əzmini, onun siyasi və iqtisadi gücünü qırmaqdan ibarət idi. Ancaq xalqın daxili müqavimət gücünü, azadlıq istəyini Xilafət qıra bilməmişdi.

## 3. XİLAFƏTƏ QARŞI XALQ HƏRƏKATI

**İLKİN DÖYÜŞLƏR.** VIII yüzilin ortalarında xalq kütlələrinin Xilafətə qarşı nifrəti açıq üsyanlar şəkli aldı. Daxili böhranın kəskinləşməsi, bununla bağlı olaraq yuxarıların hakimiyyət uğrunda mübarizəsi ona əlverişli şərait yaradırdı. 748-ci ildə yerli hakim ***İbn Səfvanın*** başçılığı ilə Beyləqanda üsyan baş verdi. Üsyan Ərdəbilə və başqa yerlərə də yayıldı. Xilafət tərəfindən mənafeyi tapdalanan yerli əyanlar ***İbbən İbn Mənsur və Xatib İbn Sədəq*** Beyləqan üzərinə yürüş etdilər. Aran üsyançıları Beyləqan qalasını aldılar, tutulanları buraxıb əmirini əsir götürdülər. Onlar bu uğurdan ruhlandılar, Bərdəyə doğru irəliləyib ərəb qarnizonunu dağıtdılar. Bu qoşunun başçısı, Xilafətin Bərdədə oturan canişini ***Asim İbn Yezid*** öldürüldü. Əməvilər tərəfindən göndərilən cəza ordusu da onları üstələyə bilmədi.

Azərbaycandakı üsyan ərəblər tərəfindən itaət altına alınmış xalqların VIII yüzilin 40-50-ci illərində olan azadlıq mübarizəsi: Orta Asiyada ***Əbu Müslimin*** üsyanı, Gürcüstan və başqa yerlərdəki üsyanlar ilə bir silsilə yaratmış oldu. Xilafətin böhranı sülalə çevrilişi ilə sona yetdi. Abbasilər öz siyasi rəqiblərini aradan götürdükdən sonra Xilafətə qarşı üsyanları amansızlıqla yatırtdılar. Beyləqanlılar darmadağın edildilər, üsyançılara divan tutuldu.

752-ci ildə Şəmkirin yerli kəndliləri şəhərlərdə onların hesabına yaşayan ərəb mühacirlərinə qarşı üsyana qalxdılar. İşğalçılara nifrət o qədər böyük idi ki, üsyançılar Şəmkiri tutub dağıtdılar. Abbasilər bu üsyanı da yatırtdılar. Xilafət üsyan ocaqlarını yatıraraq Azərbaycanda uzun müddətli sabitləşmə yaratmağa çalışırdı. Lakin VIII yüzilin 90-cı illərinin başlanğıcında Ərdəbildə, Şirvanda və Aranda (Bərdə və Beyləqan) yeni üsyanlar başlandı. Harun ər Rəşid üsyançılara qarşı böyük ordu göndərdi. Ordu Cənubi Azərbaycanda üsyan ocaqlarını yatıraraq, Beyləqana doğru irəlilədi. Ərəblər qala divarını uçuraraq şəhər sakinlərinə amansız divan tutdular.

**XÜRRƏMİLİK.** IX yüzilin başlanğıcında Azərbaycanda Xilafətə qarşı hərəkat gücləndi. Genişlənməkdə olan xalq hərəkatı ***Xürrəmilik*** bayrağı altında birləşməkdə idi. ***Məs'udi, Yaqut*** və başqa ərəb müəllifləri bu anlayışı Ərdəbil yaxınlığındakı «Xürrəm» yer adı ilə bağlayırlar. ***İbn ən-Nədim, Səm'ani*** və başqa müəlliflər isə bu sözü əhlikef, əxlaqsız mənasında

işlədərək xürrəmiləri məcus sayırdılar. Anlayışı belə yozan ərəb alimləri Xilafətin siyasi mövqeyindən çıxış edir, İslamı tanımaq istəmədikləri üçün xürrəmiləri dinsiz, əyyaş adlandırırdılar. Ancaq gününü əyyaşlıq və sərxoşluqda keçirən adamlar, Xilafət kimi böyük bir dövlətə qarşı mütəşəkkil mübarizə apara bilməzdilər. Onların ideologiyası da 20 ildən artıq bir dövrdə bütün xalqı mübarizəyə qaldırıb birləşdirə bilməzdi.

Ərəb tarixçilərinin yazıları Babəkin öz daxili aləmi olan bir insan olduğunu göstərir. Babək oğlunun düşmənlərə təslim olmaq təklifini qızğınlıqla rədd etmiş, xəlifədən aman diləmək istəməmişdi. Səmərraya ölümə göndərilməzdən qabaq Afşin onun son arzusunun nə olduğunu soruşduqda, «mən öz şəhərimə baxmaq istərdim» demiş, Bəzzin uçuq evləri qarşısına cəsədləri qalanmış döyüş yoldaşları ilə vidalaşmağı hər şeydən üstün tutmuşdu. Sonra o, Afşinin onun üzərinə gözətçi qoyduğu əsgəri başqası ilə dəyişdirməsini xahiş edərək, «onun əlləri iylənmiş ət qoxusu verir» demişdi.

İbn əl-Əsir xürrəmiləri oda sitayiş edən maq icmalarından biri sayırdı. Görünür, «xürrə» sözü od, günəş (Xur, Horena) anlamı ilə bağlı olmuşdur. Görkəmli Azərbaycan filosofu ***Şihabəddin Sührəvərdi*** və onun davamçısı ***Qütbəddin Şiraziyə*** görə, bu söz «mənəvi, ilahi işıq» bildirirdi. Tarixi baxımdan xürrəmilik məzdəkilik və odpərəstlik təlimlərinə gerçəkdən yaxın olmuşdur. İndiki ***Horadiz, Horovlu*** kimi yer adları buna sübut ola bilər. Çünki Güney Azərbaycanda Qarasu çayının Araz çayına töküldüyü yerlər xürrəmilər hərəkatının başlıca özəyi olmaqla, Bəzz qalasına çox yaxın idi. arazın bu tayında Bəzzə çox yaxın olan Horadiz yaşayış yerinin adı «Horlar qalası», yəni oda sitayiş edənlər yurdu deməkdir. «Horovlu» da bu kökdəndir. Əl-Məs'udinin «Babək əl-Xürrəminin işi ər-Ran ölkəsindəki Beyləqanda yayılmışdır və həmin ölkədə onun qoşunu çoxalmışdır» yazması, görünür, təsadüfi deyildir.

Babək hərəkatı dini görüşləri bütünlüklə rədd etmirdi və edə də bilməzdi. Bu hərəkatın başlıca qayəsi xalqın siyasi azadlıq qazanması idi. Xilafət ağalığı hərəkatın başlıca məramı ilə bir yerə sığmırdı. Buna görə Babəkin İslama qarşı davranışı Xilafətlə barışmaz siyasi qarşıdurmadan irəli gəlirdi. O, 837-ci ildə üzük qaşı kimi çevrəyə alınmış Bəzz qalasından Bizans imperatoru Teofilə yazmışdı: «Əslində mən xaçpərəst oğluyam və gizlicə bu dinə bağlıyam. Mən (gələcəkdə) bütün ardımca gələnləri xristian dininə gətirəcəyəm. Ancaq (indi) onlara: «Bu dini qəbul edin» söyləmək olmaz, çünki onların boyun qaçıracağını mən bilirəm. Mənim indiki təlimim onların ürəyincədir, çünki onları İslam dinindən uzaq saxlayır. Onların (ərəblərin – *Red.*) üzərində qələbə çaldıqdan sonra onlar hamısı, xəlifə də mənim təlimimi qəbul edərək, göstərdiyim yolu gedəcəklər. Bax, onda mən onları xristianlığa səsləyəcəyəm, onlar da xristian olacaqlar». Tarixi



qaynaqlarda ***(Bar Həbrəüs, Suriyalı Mixail)*** Bizansda sığınacaq tapmış Babək tərəfdarlarının, o cümlədən qoşun başçısı Nasirin xristianlığı qəbul etməsi yazılmışdır. Babək xristianlıq sektalarından biri olan nestorilərə yaxın idi. Bu, xristianlığın o zamankı dayağı sayılan Bizans dövləti ilə ərəblərə qarşı vahid cəbhə yaratmaq istəyindən irəli gəlirdi.

Xürrəmi görüşlü adamlar ruhun əbədiliyinə inanarmışlar. Bunu ölümcül yaralanmış ***Cavidanın*** vəsiyyəti aydın göstərir: «Mən bu gecə öləcəyəm. Mənim ruhum bədənimdən çıxaraq Babəkin varlığında onun ruhuna qovuşacaqdır. Mən onu öz yerimə yoldaşlarım üzərində başçı qoyub gedirəm». Qədim və orta çağ dünyasında bu görüş geniş yayılmışdı: ***Əbu Əli İbn Sina***, Bəhmənyar kimi elm adamlarının yaradıcılığında onun izləri qalmışdır. ***Qay Yuli Sezar*** «Qalliya savaşları haqqında qeydlər»ində yazır: «Onların (Qalliya döyüşçülərinin – *Red.*) inamına görə, ruh ölməzdir və (bir varlıqdan) o birinə keçir». Beləliklə, ruhun ölməzliyinə inam Qall tayfalarında olduğu kimi, Babək döyüşçülərinə qorxmazlıq, ölümə qarşı saymazlıq aşılaya bilirdi. Xilafətlə ölüm-dirim mübarizəsinə qaxmış bir xalq saysız qurbanlar vermək üçün psixoloji baxımdan hazır olmalı idi. Burada mistik bir görüş əsl mübarizə vasitəsinə çevrilmiş olurdu.

Hərəkatın ideoloji gücü bərabərlik tələbləri ilə bağlı idi. Onun başçıları işğalçıların və Azərbaycana köçürülmüş ərəb tayfalarının ələ keçirdikləri torpaqları geri almağa çağırırdılar. Təbərinin yazdığına görə, Babək ərəblərin «Mülk və evlərinə basqın edib onların varını ələ keçirməyi» əmr etmişdi.

Başqa bir ərəb müəllifi İbn ən-Nədim yazmışdır: «O (Babək – *Red.*), torpağı ələ keçirəcək, zülmkarı məhv edəcəkdir. (Ömür boyu) əzilib alçaldılmışlar ona səcdə edəcək, adını göylərə qaldıracaqlar».

Xürrəmilərin mərkəzi Bəzz və ya Bəzzeyn vilayətinin Bəzz qalası idi. Yeni araşdırmalar bu şəhərin Ərdəbil yaxınlığında deyil, Araz vadisində yerləşdiyini müəyyən etmişdir. Xürrəmilərin əfsanəvi başçısı Babək qarşısına ərəbləri qovmaq, öz vətənini azadlığa qovuşdurmaq məqsədini qoymuşdu. Dünyada xeyir və şər başlanğıclarının qarşılaşması haqqındakı bəşəri görüşlər xürrəmi anlayışında kəskin sosial-siyasi məna alırdı: vergilər, zülm, mülkiyyət şər işin törəməsi olduğu üçün məhv edilməli idi. Xürrəmilər bütün yararlı torpaqların kənd icmasının istifadəsinə verilməsi yolu ilə torpağı hamının varı etmək istəyirdilər.

Xürrəmilərin öz amallarını necə yerinə yetirməsi haqqında qaynaqlarda çox az məlumat var. Ancaq bir şey aydındır: xürrəmi hərəkatının özülündə xalqın ümidi və düşüncələri, onun yadelli ağalığından qurtuluş bulmaq istəyi dururdu. Bununla yanaşı, xürrəmi amallarının qalın dini dumana büründüyünü də görməmək olmaz. Xürrəmi görüşlərində ərəblərin ölkədən qovulması başlıca yer tuturdu. Ancaq Xilafət ağalığını inkar et-

məklə, bu ağalığın örnəyi, ideoloji dirəyi olan dinə də qarşı durmaq lazım gəlirdi. Nəzərə almaq lazımdır ki, bu hələ doğma olmamış, yadellilərin gətirdiyi bir din, onların savaşlarına və ağalığına qulluq edən bir din idi.

**SAVAŞIN YÜKSƏLİŞİ**. Xürrəmilərin ilk çıxışları 808-ci ildə Savalan dağlarında, Qaradağda, Ərdəbildə və Muğanda oldu. Xəlifə, Harun ər-Rəşid Abdullah ibn Malikin komandanlığı altında üsyançılara qarşı 10 minlik qoşun göndərdi. Üsyan yatırıldı, üsyançıların çoxu həlak oldu, döyüşçülərin və sakinlərin çoxu əsir alındı. Ərəb müəllifi İbn əl-Əsir göstərir ki, xəlifə öz qoşun başçısına bütün hərbi əsirləri öldürməyi, dinc əhalini, o sıradan qadın və uşaqları bazara çəkib qul kimi satmağı şəxsən əmr etmişdi. Xürrəmilərin bir çoxu əlçatmaz dağlarda gizlənə bildi. 816-cı ildə xürrəmilərin başçısı Cavidan, yüksək dağ qalası Bəzzin sahibi öldürüldü. Hərəkatın başçısı onun gənc silahdaşı Babək oldu.

Azərbaycanın bu görkəmli adamı haqda tirixi qaynaqlarda çox az bilgi qalmışdır. Bu bilgiləri xürrəmi savaşını barışmaz düşmən gözü ilə «işıqlandırmağa» çalışan ərəb tarixçiləri yazıya almışlar. Təbəri, Məs'udi, İbn əl-Əsir kimi ərəb müəllifləri, bir qayda olaraq xürrəmilər haqqında çox kəskin fikir söyləyirlər. Babəkin özünü isə heç bir əxlaqi yasaq tanımayan və bilməyən dinsiz quldur kimi təsvir edirlər.

Babəkin kasıb bir ailədə doğulduğu bəllidir. O, hələ uşaq ikən yoxsul həyatın bütün acısını görmüş, özünü öz əməyi ilə saxlamışdır. O, ticarət dəvə karvanında çarvadar olduğu üçün çox gəzmiş, öz vətənini yaxşı öyrənmişdi. Və hər yerdə zorakılıq, kədər və göz yaşı görmüş, yadellilərə qarşı nifrət onun varlığına dolmuşdu. Babək xürrəmilər ilə Təbrizdə tanış oldu və bu tanışlıq onun həyat yolunu seçdi. Cavidana qoşulan Babək tezliklə öz yoldaşları arasında böyük nüfuz qazandı. Babəkin kəskin proqramla siyasi mübarizə səhnəsinə çıxması çağdaş cəmiyyətə böyük təsir göstərdi. Onun adı dildən-dilə gəzərək dastanlara düşdü. Belə dastanlardan biri ***Seyyid Battal*** dastanıdır. Türk epik sənət əsəri olmaqla yanaşı, bu dastan o çağın qaynaqlarından biri sayılır; dastanda Battal adı ilə çıxış edən real tarixi şəxsiyyət – ordu komandanı ***Heydər ibn Kavus Afşinin*** Babəklə bağlı ilkin düşüncələri aşağıdakı sözlərlə verilmişdir: «Battal... öyrənir ki, bir nəfər xəlifəliyi təhlükə altına alıb özünü peyğəmbər adlandırır. Bu adam ***Xürrəm Keşiş*** ləqəbi qazanmış Babəkdir. O, möcüzəli bir adamdır: bədənini silah kəsmir, özü adamların fikrini oxuya bilir, gələcəyi görür, yer altında gizlədilmiş xəzinələri tapa bilir. Onun sitayiş etdiyi din şərab içməyə, donuz əti yeməyə. Yaxın qohumla evlənməyə icazə verir».

Babək xalq hərəkatının başçısı kimi böyük bacarıq göstərdi. O, ölkənin hər yerinə öz adamlarını göndərdi. Onlar xalqı mübarizəyə səsləyərək,



piyada və atlılardan ibarət könüllü qoşunlar yaratdılar. Tezliklə atlı alayların döyüşçüləri 20 minə çatdı. Bu alaylarda qoşunlar kəndlilər, sənət adamları və şəhər yoxsulları idi. Bununla yanaşı, 830-cu ilə kimi savaşda yerli feodallar da iştirak edirdi.

819-cu ilədək xəlifə ordusunun xürrəmilərlə elə bir ciddi toqquşması olmadı. Xilafət ilk illər xürrəmiləri saymırdı. Ancaq üsyançıların ilk uğurları, onların bir bölgəni o birinin ardınca azad etməsi xəlifə ***əl-Mö'munu*** (813 – 833) onlara qarşı nizami ordu göndərməyə məcbur etdi. Bu ordu dağıdıldı. Bu döyüşdən sonrakı on il (819–829/30-cu illər) Babəkə parlaq hərbi uğur gətirdi. 822-ci ildə Babək Bərdə yaxınlığında xəlifənin ***İsa ibn Məhəmmədin*** komandanlığı altında göndərdiyi ordunu darmadağın etdi, İsa ibn Məhəmməd öldürüldü. 823/24-cü ildə Babək yeni bir ərəb ordusunu əzib onun başçısı ***Əhməd ibn Güneydi*** əsir aldı. Bərdə, Ərdəbil, Naxçıvan, Beyləqan və Şirvan azad edildi. Babək öz silahdaşı ***Rüstəmi*** Arana hakim qoydu. Onun yoldaşları ***Asim, Müaviyə, Tərxan, Abdulla*** bu döyüşlərdə igidlik göstərdilər. 828-ci ildə baş verən döyüşdə sərkərdə ***Məhəmməd ibn Hamid ət-Tusinin*** komandanlıq etdiyi 30 minlik ordu məhv edildi. Babək onu aldadıb Marağa yaxınlığında dağ dərəsinə çəkdi və pusqudan zərbə endirdi. Ordu dağıdıldı, ibn Hamid öldürüldü. 829/30-cu illərdə Xilafətin sayca beşinici ordusu da məğlub edildi.

Demək olar ki, bütün Azərbaycan ərəblərdən təmizləndi. Babəkin ən böyük qələbəsi 830-cu ildə baş vermiş Həmədan döyüşü oldu. Xürrəmilər hücumla şəhəri tutdular. Bağdadı (Abbasilər paytaxtı Dəməşqdən Bağdada köçürmüşdülər) Orta Asiya və Qafqaz ilə birləşdirən çox mühüm strateji yol üsyançıların əlinə keçdi.

Üsyançıların gücü xalqın geniş köməyində idi. Üsyanda 300 minə yaxın adam iştirak edirdi. Üsyan Azərbaycanın azad edilməsindən sonra qonşu ölkə və vilayətlərə keçdi. Xorasan, əl-Cibəl, Təbəristan, Gurğan, Deyləm, Həmədan, İsfahan kimi əyalətləri həyəcan bürüdü. Xürrəmilər hərəkatı böyük şöhrət qazandı, hətta Xilafətin hakim və əmirlərindən bu üsyana qoşulanlar oldu. Təbəristan hakimi ***Məzyar***, Mərənd hakimi ***əl-Kurdi***, Ermənistan canişini ***Xatim ibn Harsama*** onların sırasında idi.

**SAVAŞIN GEDİŞİNDƏ DÖNÜŞ**. Xürrəmilərin döyüş uğurları Xilafətdə hökmranlıq edən yuxarı təbəqələri görünməmiş çaşqınlığa saldı. Bu uğurlar Abbasilərin hakimiyyət başına gəlməsi ilə soyumuş daxili çəkişmələri yenidən alovlandırdı. Xürrəmilərə öz nifrətini gizlətməyən və Xilafəti qızğınlıqla müdafiə edən ərəb müəlliflərinin yazıları bunu aydın göstərməkdədir. Tarixçi əl-Təbəri yazır: xürrəmilərin fövqəladə qələbəsi xəlifəni «qorxuya saldı», ***Dinəvəriyə*** görə «Babəkin işi böyük vüsət aldı və

adamlar (ərəblər nəzərdə tutulur – *Red.*) ondan qorxmağa başladılar. (Onlar) onunla vuruşur, ancaq ona qalib gələ bilmirdilər. Babək onları dağıdır və başçılarını öldürürdü». ***Əl-Kindiyə*** görə «Bu savaş ağamız və hökmdarımız Əmirəlmö'minin üçün çox təhlükə və rahatsızlıq doğurdu». Məs'udi (956-cı ildə ölmüşdür) isə yazır: «Babək hərəkatı əzəmətli ölçüyə çatdı, onun təsiri çoxaldı, qoşunlarının sayı o qədər artdı ki, az qalmışdı Abbasilər səltənətini məhv etsin».

Xəlifə əl-Mö'munun iyirmi illik hökmranlığı xürrəmilərə qarşı savaşda ona üstünlük gətirmədi. 830-cu ilin avqustunda ölüm ayağında o, öz qardaşı ***Əl-Mö'təsimin*** vəliəhd qoyulduğunu buyuraraq, onun üçün geniş bir vəsiyyət yazdı. Vəsiyyət Xilafətin bütün gücünü xürrəmilərə qarşı mübarizəyə yönəltməyi tələb edirdi. Burada deyilirdi: «Xürrəmilərə gəlincə, onlara qarşı mübarizədə qətiyyətli və amansız bir adam göndər, ona səbrlə, pul, silah, atlı və piyada qoşunla kömək et. Əgər onların vaxtı (yəni savaşı – *Red.*) uzun çəkərsə, sən özün öz yaxın və sadiq adamlarınla birgə onların üstünə get».

Əl-Mö'təsim taxta çıxıb, gecikmədən hazırlıq görməyə başladı. O, qardaşının buyruğunu ardıcıl yerinə yetirərək, böyük xərc və güc hesabına savaşın gedişində dönüş yarada bildi. 834-cü ildə Həmədan yaxınlığında baş verən ikinci döyüşdə xürrəmi qoşunlarını əzdi. Xürrəmilər böyük itkilər verdilər. Ərəb komandanlığı təşəbbüsü ələ aldı.

Azadlıq mübarizəsinin gedişində dönüş yaranması təsadüfi deyildi. Babəkin artıq iüirmi ilə yaxın başçılıq etdiyi bu savaş qanlı, lakin qeyri-bərabər idi. Onlara qarşı duran ilkin orta çağların ən böyük imperatorluğu idi. Azərbaycan üsyançılarının sıraları günbəgün seyrəldiyi halda, Xilafət tükənməz əsgəri gücə malik idi, ikiyüz ilə yaxın idi ki, onlarla ölkənin var-yoxunu talayaraq, sonsuz maliyyə potensialı yaratmışdı. Babək belə bir azmanla savaşa girmişdi.

Xürrəmilər hərəkatının özündə də dəyişikliklər baş verməkdə idi.

Yerli əyanlardan azadlıq mübarizəsinə qoşulanların bir çoxu öz imtiyazlarını geri qaytarmağa, torpaq mülklərini böyütməyə çalışırdı. Torpağın kənd icmasına verilməsi şüarı onların ürəyincə deyildi. Savaşın son qayəsi: «əzilib alçaldılmışların» yüksəlib ağalığa qovuşması da keçmiş ağaların ürəyincə ola bilməzdi. Bu sonuncular azadlıq mübarizəsinin uğurla sona yetəcəyi halda öz üstünlüklərini itirə bilərdilər. Buna görə onların çoxu dönüklük və xəyanət yolunu seçdi. Babəkin arxasına «Troya atı» keçirməyə çalışan xəlifə Mö'təsim belə adamları öz tərəfinə çəkir, xürrəmilərin sirlərini öyrənərək, onlara ağır zərbələr endirirdi. Deyilənlərə örnək ola biləcək bir hadisə ***Məhəmməd ibn Bəislə*** bağlıdır. İbn əl-Əsir onu «Azərbaycan torpağında» – Təbrizdə və Şahi adasında (Urmu gölündə) qalaların yiyəsi adlandırır. O, Babəklə uzun illər yaxınlıq edir, yürüş və döyüşlər olduqda qalalarını onun ixtiyarına verirdi. O, Babəkin silahdahı əl-Kurdinin qızına evlənmişdi. 30-cu illərdə ibn Bəisin üzü döndü, ərəb komandanlığı ilə əlaqəyə girərək xürrəmilərə xəyanət etdi. Babəkin ***İsmət*** adlı bir sərkərdəsini də xəyanətə çəkib, bütöv bir xürrəmi bölüyünü öz qalasına gətirdi və xaincəsinə məhv etdi. Bu bölüyün başında olan qayınatası əl-Kurdiyə də aman vermədi. Bundan başqa, İsmət vasitəsilə xürrəmilərin tutduğu şəhərlər, onları mühasirəyə almaq üçün gizli yollar barədə arayış əldə edildi.

835-ci ildə bacarıqlı ***Afşin Heydər ibn Kavus*** xürrəmilərlə vuruşan ərəb ordusuna baş komandan qoyuldu. O, Bizans qoşunları ilə savaşan Misir cəbhəsindən Azərbaycana gəldi. Afşin gecikmədən xürrəmilərin işini bitirmək istəyirdi. O, özünün 10 minlik və yardımçısı ***«Böyük Buğanın» (Buğa əl-Kəbir)*** 5 minlik qoşunu ilə xürrəmilər üzərinə yürüş etdi. 836-cı ildə Babək ***Həştadsər*** dağında düşünülmüş gözəl əks-zərbə ilə sonuncuya dərs verdi. O, iki minlik dəstə ilə gözlənilmədən Buğanın qarşısına çıxıb qapalı bir dərədə onu əzdi. «Böyük Buğa» çətinliklə qaçıb qurtara bildi. Bu, Babəkin son uğuru oldu. Xürrəmilərin gücü tükənməkdə idi.

**BƏZZİN ÇÖKMƏSİ. BİZANS KÖMƏYİNİN GECİKMƏSİ.** 837-ci ildə Afşin Babəki sıxışdıraraq, Bəzz qalasını qapadı. Ərəblər od püskürən və mühasirə qurğularından istifadə edirdilər. Ərəb komandanlığı dəfələrlə Babəkə xəlifə Mö'təsim tərəfindən bağışlanacağını vəd edirdi. Babək təslim olmaq barədə bütün təklifləri rədd etdi; artıq Afşinin əlində əsir olan oğlunun təslim çağırışına isə qəzəblə belə cavab göndərdi: «Sən mənim oğlum deyilsən... Bir gün azad yaşamaq, qırx il qul kimi yaşamaqdan yaxşıdır». Ərəblər qalaya soxuldular, tarixdə ən qanlı və amansız döyüşlərdən biri başlandı. Xürrəmilərin heç biri döyüşdən çəkinmədi, ərəblər onları bütünlüklə qırdılar. 837-ci il avqustun 26-da Bəzz qalası süqut etdi.

Ərəb baş komandanı Afşinin tam üstünlük qazanması Babəkin Abbasilər imperatorluğuna qarşı təkbətək, yəni müttəfiqi olmadan mübarizə aparması ilə də bağlı idi. Bizans – Xilafət hüdudlarında yaranmış dördillik (833 – 837-ci illər) sakitlik sonuncuya bütün gücünü xürrəmilərə qarşı yönəltməyə, mühəndis-texniki, maliyyə və ərzaq baxımından yaxşı döyüş hazırlığı keçirməyə imkan verdi. Bütün bünları nəzərə alan Babək, imperator Teofili ərəblərə qarşı savaşa qatmaq üçün onunla yazışmaya girdi. Məktublarının birində kinayə ilə bildirirdi ki, «Mö'təsimin öz şəxsi aşpaz və dərzisini də ona qarşı göndərmiş və onun qapısında daha heç kəs qalmamışdır»; buna görə Bizans imperatoru savaşa başlarsa, asanlıqla uğur qazanacaqdır. Teofil 100 minlik ordu ilə döyüşə qoşuldu, Zibatra və bir

sıra ərəb qalalarını tutub yerli əhaliyə amansız divan tutdu. Ancaq Babəkə nə yüngüllük, nə də qurtuluş gətirmədi. Artıq iş işdən keçmişdi.

## BABƏKİN ÖLDÜRÜLMƏSİ. AZADLIQ SAVAŞININ TARİXİ YERİ.

Babək bir neçə döyüşçüsü, qardaşı, arvadı və anası ilə birlikdə Azərbaycan və Ermənistan arasındakı «cəngəllik vadidə» gizləndi. Ona sonuncu zərbəni də köhnə «dostlardan» biri olan ***Səhl ibn Sunbat*** vurdu.

Səhl, Aqvanın Şəki vilayətində (Zəngəzurda) hakim idi. o, aclıq çəkən Babək və onun yoldaşlarının yerini öyrəndikdən sonra, onu ərəblərə satmaq fikrinə düşdü. Babəkin başı üçün xəlifənin qoyduğu milyon onun ağlını azdırmışdı. O, Babək gizlənən yerə gəlib onun əlini öpdü, onu «özünün ağası» adlandırdı. Onu dilə tutaraq öz qalasına gətirdi, amma «o biri qapıdan» Afşinin yanına çapar göndərdi. Gəlib çıxan ərəb əsgərləri Babəki tutdular. Səhl, «zəhməti» müqabilində vəd olunan milyon dirhəmi aldı. Afşin ona iri brilyantlı kəmər və patrik tacı bağışladı. Səhlin oğlu ***Müaviyə*** də xəyanətdə iştirakına görə 100 min dirhəm aldı. Ərəb baş komandanı isə sözün əsl mənasında, qızıla tutuldu. Mö'təsim ona 20 mln dirhəm bağışladı.

Babəkin başqa bir qalada gizlənən qardaşı ***Abdullanı*** da tutub Afşinə verdilər (onun yerini səhl ibn Sunbata Babək özü demişdi). Mö'təsim onların hər ikisinin ona çatdırılmasını əmr etdi. Təbəriyə görə, İraqa yola çıxmağa hazırlaşan Afşin, Babəki yanına gətirib ona söylədi: «Mən səninlə birlikdə yola düşmək niyyətindəyəm... de görüm, Azərbaycan torpağında son istəyin nədir?» Babək cavab verdi: «Mən öz şəhərimə baxmaq istərdim»... Aylı bir gecədə (837-ci il sentyabrın 15-də-*Red.*) Afşin onu adamları ilə Bəzzə göndərdi. O, şəhərin yan-yörəsini dolaşıb səhərə kimi qırılanlara və (uçub dağılmış) evlərə tamaşa etdi, sonra isə Afşinin yanına qayıtdı.

Ayfşin Babəki Səmərraya gətirdi. o, qısa sorğudan sonra 838-ci il mart ayının 14-də şaqqalandı. Babək ölüm ayağında da igid kimi davrandı, xəlifədən aman diləməkdən boyun qaçırdı. Birinci qolu kəsildikdə o biri qolu ilə qanını üzünə sürtərək bildirdi ki, yağıların onun bənizinin solğunluğunu görməsini istəmir. Edamdan sonra Babəkin başı əhalini qorxutmaq üçün Xorasana göndərildi. Bədəni isə Səmərrada asıldı. Ərəb coğrafiyaçısı əl-Müqəddəsi sevinclə yazır ki, Babək üzərində qələbə bütün islam dövlətitin (Xilafətin) əzəmətli qələbəsi, onun yenilib yox edilməsi isə bütün müsəlmanların böyük bayramı oldu.

Tarixi qaynaqlarda, ilk növbədə ***Vakid ibn Amar ət-Tamaninin*** «Əxbar-i Babək» kitabı ilə səsləşən «Seyyid Battal» dastanında Babəkin son günləri bir qədər başqa boyalarla verilmişdir. «...Şeytan Babəki Rum



ölkəsinə gətirdi. Burada Babəkin Nestor adlı bir müttəfiqi vardı, İstanbulun* hakimi idi və gizli bir dinə sitayiş edirdi. Babək onun köməyi ilə yenidən qoşun toplaya bildi. Hücum edib Meliten** şəhərini dağıtdı. Battal (Afşin-*Red.*) ...xəlifə ordusu ilə yenidən Tərsusa gəldi. Tam məğlubiyyətə uğramış Babək Gürcüstan səmtə qaçdı, Kəndabad məliki Süheyl (Səhl - *Red.*) bin Sumbatdan sığınacaq istədi. Ancaq gecə vaxtı Battal qalaya girib yağısını əsir aldı. Süheyl bin Sumbat isə müsəlmanlığı qəbul edib, Battal və onun əsirini Bağdada kimi müşayiət etdi. Ancaq ən ağır gündə Babəkin öz dininə inamı azalmadı» əl-ayağı zəncirli olanda da öz dinini təbliğ edir, özünü peyğəmbər adlandırırdı. Battal əvvəl onun dilini, sonra iki əlini kəsdirib, daha sonra gözlərini çıxartdırdı...»

Azərbaycanda azadlıq savaşının tarixi əhəmiyyəti böyükdür. Bu savaş azərbaycanlıların, Xilafət ağalığı altına keçən xalqların düşüncəsində dərin iz buraxdı. Ərəb tarixçilərinin öz yazılarına görə xürrəmilərin 20 illik mübarizəsi Xilafətin yarım milyona kimi əsgəri qüvvəsinin itirilməsi ilə sona yetdi. Bu itkilər üzündən Xilafət daxili sabitliyi yarada bilmədi, başqa ölkələrdə arası kəsilməyən usyanların kökünü kəsməyə nail olmadı. Xürrəmilər hərəkatı IX yüzilin ikinci yarısında Azərbaycanın Xilafət ağalığı boyunduruğundan çıxmasını hazırlayan bir tarixi amil oldu.

* Battal dastanının Rum səlcuqları çağında, yəni XI-XII yüzillərdə yaranması bəllidir. Buna görə «İstanbul» sözü burada dastanın XV yüzil və ya sonrakı katibləri tərəfindən işlənə bilərdi. Eynilə Dədə Qorqud boylarının əlyazmasında bu sözün işlənməsi XV-XVI yüzillər katiblərinin gətirdiyi yeniliklər ilə bağlıdır.

** Meliten şəhərinin alınması tarixi həqiqət deyildir.

*YEDDİNCİ BÖLÜM*

# ETNOGENEZİS

## 1. YARANIŞ PROBLEMİNİN QOYULUŞU

**AZƏRBAYCANLILARIN KİMLİYİNDƏN YAZILANLARA BİR BAXIŞ. TARİXÇİLİK İMPERİALİZMİ.** Dünyanın bir çox ölkələri kimi Azərbaycan da tarixən çoxmillətli bir məmləkətdir. Burada uzaq keçmişdən başlayaraq Qafqaz-İber dillərində danışan (udinlər, ləzgilər və b.) və İran-dilli (tatlar, talışlar və b.) toplumlar çoxluqda olan türk soykökü bir xalq ilə yanaşı və birlikdə yaşamışlar. Və indi də yaşamaqdadırlar. Yüzillər boyunca onlar bir-birinin yaşayış və mədəni ənənələrindən yararlanmış, bir birindən oğul, qız evləndirərək qohum olmuşlar. Bu kitabın bölmələrində keçmişin ayrı-ayrı dövrlərində bunu sübuta yetirən bir çox biliklərə yer verilmişdir. Ancaq dünya tarixində kökcə bir-birinə yaxın olan və ya olmayan hər bir xalqın öz etnogenezisi, öz yaranış yolu vardır.

Azərbaycan türklərinin bir xalq kimi tarix səhnəsinə çıxması elmdə böyük maraq doğuran mövzulardan biridir. Ancaq bu günə kimi bir sıra tarixçilər bu mövzuya elmi baxımdan deyil, ənənəvi imperiya siyasəti «baxımından» yanaşmaqdadırlar. Bütöv bir xalqın yaranışını imperatorluq mərkəzindən aşılanan göstərişlərlə uzlaşdırmağa çalışmaqdadırlar. Azərbaycanlıların yaranış problemi sanki Sankt-Peterburq və Moskva alimlərini yerli bilik adamlarından daha çox narahat edirdi. Bu, heç də təsadüfi deyildi. Öz «böyük siyasətini» bütün sahələrdə yeritmək istəyən Mərkəz, üzərində ağalıq etdiyi xalqların uzaq və yaxın keçmişinə yalnız özünün «ölçüb-biçdiyi» bir qəlib vurmağa çalışırdı. Belə bir manqurtluq qəlibindən sonra hər bir Azərbaycan yeniyetməsi özünün türk soykökündən deyil, İran-Qafqaz soykökündən törəyib doğulduğuna inanmalı idi. Qan yaddaşını, etnik varlığını itirərək soy kökündən dönmüş, özgələşmiş bir toplumun oğlu olduğunu duşunməli idi. Əski türkcədə belələrinə «bozuq» deyərdilər.

Bu «məktəbin» başçılarından biri olan ***Y.P.Alekseyevin*** yazdığına görə, bu günkü azərbaycanlılar ***Hind-Əfqan*** kökündən törəmişlər, onlar guya «Sovetlər birliyində saçları və üzləri ən çox qara rəngdə olan adamlardır». Bu yolla xalqı İran-Hind kökünə «bağladıqdan» sonra o, Mingəçevirdə tapılan azsaylı insan sümüklərinə üz tutur. Yazır ki, sümüklər bugünkü azərbaycanlıların quruluşuna uyğun gəlirsə, deməli Qafqaz albanları da onların «babaları və dədələridir». Bu yolla da xalqın soykökü Qafqaz-İber dünyasına calaşdırılır, İran-Qafqaz soykök qavrayışı üçün az qala bir körpü salınmış olurdu.



Həqiqətən də, Qafqaz albanlarının bir sıra boyları Azərbaycan türklərinin ulu babaları olmuşlar. Buna söz yox. Ancaq adı çəkilən bir xalqın dəri rəngi (piqmentləşmə) göstəricisi üzrə ***Hind-İran***, sümük qalıntılarına görə isə ***Qafqaz-İber*** kökündən yaranması elmi baxımdan bütünlüklə heç bir tutarı olmayan söz quramasıdır. Çünki, Qafqaz albanları əski ***Yunan*** qaynaqlarına görə sarısaç, bəyaz üzlü idilər. Belə isə onlar, guya günlərimizə kimi Hind-İran antropoloji görünüşünü, «öz» qara rəngini saxlamış azərbaycanlıların ulu əcdadı ola bilməzdilər.

Azərbaycan tarixçisi ***Ə.S.Sumbatzadə*** bundan irəli getmək istəmiş, ancaq bu «rəng-dəri meyarı»nın burulğanında yeni yanlışlığa yol vermişdir. O, «türkmən boylarının» Aran və Muğanda (Quzey Azərbaycanda) yerləşib, «çəyirtkə kimi qaynaşmaqda» olduqlarını bildirsə də, «ancaq ölkənin başqa geniş vilayətlərində» vəziyyətin belə oldmadığını yazır. Və ***Yaqut əl-Həməvinin*** (1179-1229) aşağıdakı sözlərinə üz tutur: «Azərbaycanda yaşayanlar gülərüz adamlardır, üzləri al, dəriləri bəyazdır. Onlar azəriyyə dilində danışırlar, bu dili başqaları anlamırlar». Mərhum tarixçi sübuta yetirmək istəyir ki, Aran və Muğanda «qara üzlü» türkmənlər, Güney Azərbaycanda isə «başqa» irqi görünüşdə olanlar: «üzləri al, dəriləri bəyaz» iranlılar yaşamaqda idilər.

Burada müəlliflərdən birincisi dərinin qara, ikincisi isə bəyaz (ağ) olmasını Hind-İran göstəricisi kimi anlatmaq istəmişdir. İkisinin də görüşü yanlışdır. İkisi də tarixi qaynaqlardakı türklərlə bağlı yazıları nəzərə almamış, ya da almaq istəməmişlər.

Halbuki Azərbaycanda yaşayanların «al üzlü, bəyaz dərili» olması haqqında Yaqut əl-Həməvi yazısının ilkin qaynağı iranlılar ilə deyil, birbaşa türklər ilə bağlıdır. Şəriqn böyük alimi ***Əbu Osman Əmr ibn Bəhr Cahiz*** (775–868) özünün «Mənaqibi-t Türk»* adlı risaləsində türklərin antropoloji görkəminə toxunaraq onların ***«kürən saçlı, bəyaz dərili»*** olduğunu yazmışdır. Nizami yaradıcılığında da, «Türk» sözü ***ağlıq, bəyazlıq və gözəllik*** çalarında işlənməkdə idi. İlk dəfə buna M.Ə. Rəsulzadə özünün «Nizami» kitabında göz yetirmişdir. Orta çağın böyük tarixçilərindən ***Həmdullah Qəzvininin*** «Nüzhətül-qülub» əsərində bu barədə çox tutarlı yazılar var. Onun bilgisinə görə, Xoy şəhərində «yaşayanların ***üzlərinin rəngi ağdır***, kökcə xətayi və görkəmcə gözəl adamlardır. Xoy türk yurdu kimi bəllidir». Qəzvini, ***Marağa*** və ***Sərab*** şəhərlərində yaşayanlar barəsində də «***bəyaz üzlü*** adamlardır», «buranın xalqı ***ağ bənizlidir, türkdür***» yazmışdır. XIX yüzil müəlliflərindən ***İ.Şopen*** tarixi qaynaqlara əsaslanaraq, Azərbaycanın çox qədim boylarından olan kəngərlilərin də «göygöz, sarısaç» olduqlarını

* Əsərin bütöv adı belədir: Mənaqib Cund əl-Xilafə və fəzail əl-Ətrak (Xilafət ordusunun dəyərləndirilməsi və türklərin üstünlükləri).

bildirir. Bütövlükdə götürülsə, Quzey və Güney Azərbaycanın bir sıra bölgələrində yaşayanların antropoloji cizgilərinin məhz belə olması hər hansı doğruçu tarixçiyə yaxşı bəllidir. Buna görə sarısaç albanların necə, hansı möcüzəli yolla «saçları və üzləri tünd qara rəngdə olan» azərbaycanlılara çevrilməsi Moskva alimlərinin və onların Bakıdakı dəstəkçilərinin ortaya gətirdikləri bir «Kəşf-ül-Qərayib» olaraq qalmaqdadır.

Ön Asiyada tarixin ulu çağlarında yaşamış olan ***şumerlərin, iskitlərin*** və başqa toplumların öyrənilməsinin bu günkü vəziyyəti Azərbaycan tarixinə də dolayısı ilə öz təsirini göstərir. Şumer tarixinin etnomədəni və etnodil baxımından türklərin ulu keçmişi ilə səsləşməsi yaxın zamana kimi Avropa elmində açıq etiraf olunmaqda idi. Tanınmış çex oriyetalisti ***B.Hrozni*** 1940-cı ildə yazırdı: «Görünür... çox uzaq keçmişdə, eramızdan əvvəl VI minillikdə və daha qabaqlar şumerlər hardasa Türküstan və ya Qazaxıstanda (Qırğızıstanda) və buradan gündoğarda yaşayırdılar... Cəhənnəmin və «dünyanın o başının»-allahların doğulduğu yerin... adı kimi şumercədəki «***Arali***», akkad dilində «***Aralli***», bizim fikrimizcə, çox ehtimal ki, ***Uralın*** şumerlərdəki adıdır; A və U saitləri şumer dilində tez-tez bir-birinin yerini tutur. ***Arali*** dağlarına assuriyalılar da «qızıl dağları» deyir, həmçinin ***Kabchüsi*** dağlarının adını çəkirdilər, bu adda isə mən Qafqazın Assuriyaca işlənən adını görürəm. Uralda da, Qafqazda da qızıl çıxarılır. Əksinə, Aral gölünün adı, deyəsən qırğız kökündən olub, «adalar gölü» deməkdir... Şumer dili bir tərəfdən bəzi Altay və türk-tarar cizgiləri (məsələn, aqqlyutinativlik və saitlərin harmoniyasına uyarlılıq), bir tərəfdən isə bəzi Hind-Avropa cizgiləri, misal üçün şəxs adlarında daşımaqdadır. Şumer dili elə bil Hind-Avropa və türk-tatar ünsürlərinin qarışığından ibarətdir».

Şumer dili ilə hətta bugünkü türk dilləri arasında bir sıra ortaq söz və anlayışların olmasına baxmayaraq, şumer-türk dil «bənzəyişlərinin» öyrənilməsi də keçmiş Sovet İttifaqında «türkçülük», «pantürkizm» adlandırılıb damğalanırdı. «Tarixçilik imperializmi» əslində bu problemin öyrənilməsi üzərinə qadağa qoymuşdu. SSRİ Elmlər Akademiyasında ***Oljas Süleymenovun*** «Az i ya» kitabının necə qarşılanması buna örnək ola bilər.

İskit (skif) tarixinin öyrənilməsi də belə bir gündədir. XIX yüzildə Herodot «Tarix»ində adı çəkilən «Çar iskitləri» türk, «əkinçi iskitləri» isə Hind-Avropa soykökündən sayılırdı (***F.M.Mişçenko, V.F.Miller, V.V.Latışev*** və b.). Bütün iskit mədəniyyətinə yiyələnmək, onu bütünlüklə mənimsəmək yolunu tutan tarixçilər isə iskitlərin və onlarla birlikdə sarmat və alanların guya başdan-başa irandilli olduğunu bildirirlər. Balkar tarixçisi ***İ.M.Miziyev*** haqlı olaraq yazır ki, Ön Asiyada və Avro-Asiyada (Sayan-Altay dağlarından Karpatlara kimi bütün ölkələrdə) m.ö. VII-II minilliklərdə, yəni beş min il boyunca yaranmış bütün arxeoloji mədəniyyətlər, insan ağlının yaratdığı nə varsa, hamısı Hind-Avropa xalqlarının adına yazıldı. Nəzərə alınmadı ki,



«ən qədim zamanlarda Hindavropalıların Ön Asiyada olmaları barədə heç bir gerçək göstərici yoxdur» (***İ.M.Dyakonov***).

«Yenidənqurma» illərində bundan da irəli gedən bəzi tarixçilər iskit tarixində türk kültür göstəricilərindən danışmağı belə qadağan etməyə başladılar. Halbuki ciddi araşdırmaçı alimlər 30-80-ci illər boyu yazırdılar ki: «yunanların və romalıların «skiflər» adı ilə tanıdıqları bütün tayfalar üçün vahid, bütöv və bölünməz sayılan skif dili uydurma bir şeydir». Və: «hələ də «gerçək skiflərin» kimliyi məsələsi həll olunmamışdır... çağdaş tarix elmində bu məsələ günlərimizə kimi mübahisəli olaraq qalmaqdadır» (***K.M.Kolobova, A.A.Neyxart, A.P.Smirnov, İ.V.Kuklina***).

**ÖN ASİYA, ARALIQ VƏ QARA DƏNİZ BÖLGƏLƏRİ UZAQ KEÇMİŞDƏ TÜRKLƏRƏ YAD DEYİLDİ.** Bütün yasaq və qadağanlara baxmayaraq iskit mədəniyyətinin bütöv bir sıra göstəriciləri yalnız türk xalqlarının dil və yaşayışında kirecləşib qaldığı üçün dünya tarix elminin malına çevrilmişdir. M.ö. IV minillikdən başlayaraq çöl-düzənlik dəfn qaydasının sabit, ənənəvi etnokültür göstəricisi olan ***kurqan*** anlayışı Hind-Avropa, Hind-İran və Qafqaz dillərinin heç birində yoxdur. bu anlayışın kökü yalnız türk dillərindədir, bu dillərdəki qur (tikmək, düzəltmək, torpaq tökməklə yaratmaq) və qan (ata, soy, nəsil) sözcüklərinin birləşməsindən yaranmışdır. M.ö. VII-III minillərdə Ön və Mərkəzi Asiyada onlarca yaşayış yerlərinin adlarında bir qayda olaraq ***təpə*** sözü var, bu söz isə, bütün dünya dilçilərinin bildiyi kimi, ümumtürk kökündəndir.

Bir sıra Hind-Avropaçı alimlər atın bir ev heyvanı kimi ilkin olaraq hind-avropalı tayfalar tərəfindən ram edildiyini yazırlar (***T.Qamkrelidze, V.İvanov*** və b.). Ancaq, əksinə, akad.***N.Y.Marr*** hind-avropalı şərqi slavyanların dilində bu adın (loşad, merin) türkcədən alınma olduğunu bildirirdi. Herodat iskit dilində işlənən achu sözünü yazıya almışdır. ***Müllenqof, Erman, Tomaşek*** kimi Hind-Avropa düşüncəli alimlər də onun türkcədəki acı anlamında işləndiyini bildirməli olmuşlar. Nart dastanında və osetin dilində «dəniz» anlayışı bildirən Hind-İran sözü yoxdur, amma türkcədən alınmış tengiz sözü var. Nə üçün m. ö. VII-V minillərdə tarix səhnəsinə gələn bugünkü iranlı və slavyanların ulu babaları tarix boyu işlətdikləri doğma yaşayış sözlərini atıb unutdular? Nədən, hansı səbəbdən onlar, guya tarixə 70-50 yüzil sonra çıxan Hun-Oğuz türklərinin dilindən ***kurqan/qurqan, təpə, alaşa*** («loşad» sözü buradandır), ***merin, acı, tengiz*** kimi yad anlayışlar alıb işlətməyə başladılar?

Bu göstəricilər həm də türklərin Ön Asiyada və Aralıq dənizi üzərində tarixin ulu çağlarından yerləşib oturduqlarını sübuta yetirir. Dünya elmində türkoloqların yalnız bir yarısı Altay bölgəsini türklərin ilkin vətəni sayırsa, qalanları onların bu bölgəyə Ön Asiyadan sonralar gəldiyini yazmaqda-

dırlar. Tarixi qaynaqlarda bu barədə çox tutarlı biliklər qalmışdır. Yuxarıda xatırladılan *təpə* sözünün beş min illik yazı ənənəsi var. Yunanların bu günkü vətənlərinə gəlişindən min il əvvəl, yəni Yunanıstan olmamışdan on əsr qabaq (m. ə. III minilliyə yaxın) orada yaşayan Pelasq xalqının dilində kiçik dağlar *təpə* (sonralar latınca: *tepae*) adlanırdı*.

Yenə yuxarıda xatırladılan tengiz sözünə Miladdan əvvəlki VI yüzilə aid olan bəzi coğrafi xəritələrdə (***Atlante storico, Boloqna, 1966; Atlas Historique, Paris, 1968***) Atlantik okean ilə Cəbəlüttariq qovşağı yaxınlığında, indiki Mərakeşin quzeyində tinqiş şəklində rast gəlirik (fransızca yazılışı: ***Tanger***). Əski türkcədəki r – z səs keçidi nəzərə alınarsa, sözün tengiz olması söz önündədir. Türk «***tenqiz***»ini buraya gətirərək fransızlardan qabaq ona ***tenger/tanger*** donu geydirən xalqın etrusklar olduğu təxmin edilir. M. ö. VI-V yüzillərdə onların İspaniyanı və Cəbəlüttariqi keçib okeana çıxmaları bəllidir.

Bu günün elmində hər hansı bir xalqın bu və ya başqa bölgədə hansı vaxtdan yaşamasını bilmək üçün 5-10 sözün üzə çıxarılması yetərli saylmaqdadır. Misal üçün, Rusiya tarixçisi ***L.A.Gindin, Kayserilli Prokopinin*** əsərində yalnız beş sözü əsas alaraq, slavyanların V yüzildən Balkanlarda yerləşib yaşadığını yazmışdır.

Heç bir ayrı seçkiliyə yol verilmədən eyni elmi üsul qədim türklərin də tarixinə tətbiq oluna bilər (birtərəfli yanaşma elmə yalnız diskriminasiya gətirir). M.ö. III minillikdə Şumer çivli yazılarında işlənmiş onlarca sözlər və ya onların töərəmələri türk dilində indiyə kimi yaşamaqdadır.

| ŞUMERCƏ | TÜRKCƏ |
|---|---|
| ***ada*** – ata | ***ata*** |
| ***ama*** – ana | ***ana*** |
| ***amar*** – körpə | ***əmər, südəmər*** (uşaq, buzov, quzu) |
| ***e*** – ev | ***ev*** |
| ***eş*** – ev | ***eşik*** (qapı-baca, məhlə) |
| ***eğer*** – aşağı, alçaq | ***əğər*** (nəyi isə əyib qatlamaq, bir kimsəni büküb alçaltmaq mənasında) |
| ***eren*** – döyüşçü, igid | ***ərən*** (Dədə Qorqud boylarında və başqa əski türk qaynaqlarında: ər, ərən, alp ərən) |
| ***kunkal*** – quyruqlu qoyun | ***qoyun*** (əski türkcədə qon + kəl (in) |

* Pelasq dilli etruskcaya çox yaxın bir dil idi. Türk dilləri kimi aqqlutinatir olmaqla, Hind-Avropa dillərindən tamamilə ayrılırdı. Pelasq dili 2500 ildən çox yaşamış, sonra yunan dili tərəfindən sıxışdırılıb ölmüşdür. M.ö. V yüzildə Trakyada, Mərmərə dənizinin güneyində, İmros və Limni adalarında yaşayanlar hələ bu dildə danışırdılar (*Adile Ayda*. Türklerin ilk ataları. Ankara, 1987, s. 21; 183-184).



| | |
|---|---|
| ***qaq*** – vurmaq | ***qaq*** Dədəm Qorqud boylarında: ***göz qaqdı*** (vurdu) və ya ***qaqdığın*** qəhr edən, qəhhar Tanrı; Nəsimidə: Müddə'i tə'nilə başuma ***qaqar*** eşqüni; Bakı ləhcəsində: qəmbəri ***qaxaram*** başuva; ocaq üçün doğranılan kiçik ağac parçalarına «***qaxma***» deyilməsi də buradandır |
| ***Dingir*** (demer) – Göy | Tenqir, Tenqri (əski türk yazılarında ***Gök Tenqri***) |

Bənzəyiş və eyniliklərin sayını uzatmaq olar. Ancaq buna heç bir ehtiyac yoxdur. belə söz və anlayışların elmə bəlli olan toplu sayı 160-dan çoxdur. Öz-özünə aydındır ki, türklərin çox uzaq keçmişdə izlərini üzə çıxarmaq üçün yeni bir elmi üsul ortaya gətirmək lazım deyildir. Sadəcə, elmdə çoxdan işlənməkdə olan üsula üz tutmaq, onu tərəfsiz bir qavrayışla işlətmək gərəkdir.

Yuxarıdakı dil bənzəyişlərinə arxalanıb, türklərin şumerlərlə kökcə qohum olduqlarını söyləmək hələ tezdir. Ancaq bənzəyişlər silsiləsi təsadüfi yarana bilməzdi. Bu dil bənzəyişliyinin tarixi baxımdan gerçəkliyi bu xalqların artıq m.ö. III minillikdə ən azı bir-biri ilə «yaxın» olduqlarını, mənəvi «yaxınlıq» tapmış qonşular kimi ortaq bir danışma-düşünmə dünyasına qovuşduqlarını göstərir. «Zaman» və «məkan» onları bu «yaxınlığa» sürükləməsə idi, bu bənzəyişlər sistemi də yarana bilməzdi.

Türk tarixinin uzaq köklərinin Ön Asiya ilə bağlı araşdırılmasına qarşı duran sovet tarixçiləri (***S.Tixvinski, İ.Əliyev*** və b.) yazırlar ki, guya Türkiyə alimləri «bir zaman» bu mövqedən çıxış etmiş, sonralar axtarışları buraxıb onlardan imtina etmişlər; Azərbaycan tarixçi və dilçiləri isə guya pantürkizmə qapılaraq indi bu «yanlış» yolu tutub getməyə başlamışlar.

Yalnız Türkiyənin çağdaş bilik dünyası ilə tanış olmayan adamlar bunu yaza bilərlər. 20-30-cu illərdə başlıca olaraq Avropa alimləri türklərin izlərini Ön Asiyanın uzaq keçmişində axtarmaqda idilər. Şumercənin türkcə ilə «əqrəba» olması haqda ilk dəfə alman professoru ***Fritz Hommel*** yazmışdır. Ankara universiteti dil və tarix-coğrafiya fakültəsində şumerologi kafedranı professor ***Beno Landsberqer*** açmış, m.ö. 2150–1950-ci illərdə Mesopotamiyada hökm etmiş ***kutilər*** barəsində: «türklərlə ən yaxın münasibətdə olan, hətta bəlkə də eyniyyət göstərən qəbilə budur» yazan ilk dəfə yenə o olmuşdur*. Türkiyənin bu günkü elmi isə bu problemlərə büsbütün arxa çevirməmişdir. ***Emin Bilqiç (1982), Kazım Mirşan (1985),***

* *Nommel Fritz*. Etnologue und Qeoqraphye des Alten Orienta, Munchen, 1925-1926; Landsberqer, Beno. Ön Asya Kadim Tarihinin esas meseleleri, II Turk Tarih Konqresi (20-25 Eylül, 1937) Tebliqleri. Türk Tarih Kurumu yayınları. İstanbul, 1943.

***Ekrem Memiş (1988), Kurşad Demirci (1986), Adile Ayda (1974, 1987, 1992), Sadi Bayram (1988, 1989), Osman Nedim Tuna (1990)*** və başqa araşdırmaçıların yazıları bunun əksini göstərməkdədir.

Sonrakı Yunan-Roma qaynaqlarında da türklərin adı Ağ (Aralıq) və Qara dəniz bölgələrində yaşayan xalqlar ilə yanaşı çəkilməkdədir.

***Təpə, Tingis*** kimi anlayışlardan yuxarıda danışıldı. ***Karyandlı Skulaks***, miladdan əvvəl 500-cü ildə əski oğuzlardan ***Afşar*** (yunanca yazıda: ***Apşaros Potamos***) və ***Kayı (Kaikos)*** boylarını qeydə almışdır. Həm də bu sözlərdən birincisi başqa yunan qaynaqlarında miladın V yüzilinə kimi, yəni min il boyu təkrar olunur. Yenə miladın V yüzilinə düşən «Anonim»də isə üçüncü bir Oğuz boyunun – karkınların (***Karknıtin*** söz birləşməsində) adı çəkilir. Sonuncu qaynaqda, Karyandlı Skulaksdan başlayaraq adı çəkilən «***Afşar suyu***» (çayı) ilə yanaşı «***Ayqır suyu***» ***(Hippopotamos)*** deyilən kiçik bir çay da qeydə alınmışdır. Bu isə Dədəm Qorqud kitabında iki yerdə qarşımıza çıxan «Ayqır gözlər suyu» anlayışına uyğun gəlir.

Antik qaynaqların türklərin tarixindəki yeri əslində öyrənilməmişdir. Çünki onların izinin bu qaynaqlarda axtarılması son yüz il boyu yersiz sayılmaqda idi

**«TƏBİİ DƏRİNLƏŞDİRMƏ» ÜSULU**. Hər bir xalqın tarixində olduğu kimi, Azərbaycan türklərinin də yaranışı ilk əvvəl tarixi problemdir. Buna görə bu yaranışın açımı üçün həm tarixi bilgilərin – yazılı qaynaqların, arxeoloji tapıntıların, etnoqrafiyanın, toponomiyanın, həm də dilimizin və onun şivələrinin, yəni tarixi filologiyanın bu səpkidə bütövlükdə öyrənilməsi gərəkdir. Yaranış mövzusunun öyrənilməsində tarix və dil araşdırmaları arxeoloji araşdırmalardan öndə gedir. Etnoqrafiya isə bütövlükdə susmaqdadır. Arxeoloji tapıntılar (çox gec və çətinliklə dəyişikliyə uğrayan dəfn qaydaları, bütpərəstlik abidələri, əşyalar üzərindəki həndəsi cizgi ornamentlər) Azərbaycanın soykök tarixi səpkisində demək olar öyrənilməmişdir.

Xalqımızın yaranışı 80-ci illərə kimi bütünlüyü ilə tarixi araşdırmaların mövzusu olmamışdır. Tarixi qaynaqlarda olan tutarlı yazılar, zəngin toponimiya və dil bilikləri tutarsız sayılaraq öyrənilməmişdir. Dünya xalqlarının yaranışı üzrə Avropa və Amerika ölkələrində aparılan araşdırmalar elmi baxımdan örnək alınaraq istifadə edilməmişdir.

Xalqın yaranışının açımı yolunda bir axarda götürülən tarixi-filoloji araşdırmaların dəyəri və yeri olduqca böyükdür. İngilis, fransız, bolqar, türk (Anadolu türkləri), rumın xalqlarının yaranışı başlıca olaraq bu axarda öyrənilməkdədir. Bu günkü ingilis xalqının yaranmasında quzey german (cermen) boylarının rol oynaması nəzərə alınaraq, bu xalq german soykökündən sayılır. Halbuki onun yaranışında Britaniya adalarında uzaq keçmişdən yaşayan britlər və Avropadan oraya köçmüş roman dilli normanlar da iştirak etmişlər. İngilis dili sözlüyündə roman köklü söz və



anlayışların çoxluğu da bununla bağlıdır. Fransız xalqı romandilli ***Qall*** tayfalarının birləşməsindən yarandı. Ancaq aparıcı rol oynayan romandilli boylarla yanaşı, bu xalqın ortaya çıxmasında germandilli franklar da iştirak etmişlər. Bu günkü ***Balkanlarda*** yaşayan bolqar xalqının yaranışında aparıcı yer bu xalqın dilini, bütün mənəvi mədəniyyətini vermiş olan slavyanların payına düşür. Ancaq sonuncularla yanaşı bu xalqın yaranışında bulqar türkləri də geniş iştirak etmişdir. Elmi-tipoloji baxımdan bəzən yaranmaqda olan bu və ya başqa xalq hətta aparıcı ünsürün deyil, ikinci («müşayiətedici») boyun adını qəbul edə bilir. Roman soykökündən olan fransızların german köklü frankların, çağdaş slavyan bolqar xalqının bulqar türklərinin adını daşıması buna canlı göstəricidir.

Bu günkü elmdə qəbul olunmuş fikrə görə, xalqın yaranışının, bu yaranışın özümlü gedişinin başlıca göstəricisi həmin xalqın dilidir. Belə isə Azərbaycan türkləri, Anadolu türkləri, türkmənlər və qaqauzlar ilə birlikdə oğuz kökündən yaranıblar. Çünki onların hər birinin dili təbii ayrılıqlara baxmayaraq oğuz dilidir. Sovet tarixçilərinin yazılarında isə elmdə ümumi qanunauyğunluq kimi qəbul olunmuş bu meyar Azərbaycan türklərinə aid edilmirdi. Onlar türk xalqı deyil, olsa-olsa «türkdilli» xalq, yəni Qafqaz-İber köklü albanların və İran köklü Güney Azərbaycan əhalisinin son 7 yüzil içərisində «türkləşmiş» törəməsi sayılırdılar.

Yeni araşdırmalar bu xalqın XI-XIII yüzillərdən sonra deyil, qat-qat əvvəllər yarandığını sübuta yetirdi. Ancaq mötədil tarixçilər belə araşdırıcılara savaş elan etdilər. Onların «zərərli» bir yol tutması, pantürkçülüyə, millətçiliyə varması barədə Moskva və Bakı jurnallarında yazılar verildi. Yazıldı ki, Azərbaycanda bir sıra tarixçilər guya heç bir əsas olmadan öz xalqının tarixini uzaq keçmişə aparmağa, bu tarixi olduğundan daha dərinliklərə çəkməyə çalışmaqdadır.

Halbuki yeni qaynaqlar üzə çıxarıldıqca biliklərin «dərinliklər»ə enməsi tarix elminin öz təbiətindən irəli gəlir. Balkanlarda tapılan düz xətli «V» yazısının M.Ventris tərəfindən oxunması burada yazı ənənəsinin tarixini miladdan əvvəl VIII yüzildən miladdan əvvəl XIV yüzilə çəkib apardı. Yəni Balkanlarda yazı tarixi 600 il «dərinliyə çəkirdi». ***L.A.Gindinin*** yalnız beş sözə və «təbii dərinləşmə» üsuluna arxalanaraq, Balkanlarda yerli əhalinin artıq V yüzilin ortasında slavyan olmasını yazması yuxarıda bildirilmişdir. Bir zaman Rusiya tarixçiləri «bəlli olan arxeoloji mədəniyyətlərdən heç birinin» miladın VI-VII yüzillərindən qabaq slavyanlara aid olmadığını yazırdılar. Ancaq ***B.A.Rıbakov*** m.ö. XV-XII yüzillərə düşən ***Tşinet-Komarov*** arxeoloji tapıntılarını slayanların adına çıxdı, başqa sözlə, slavyan kültürünü 19-21 yüz il «dərinliyə çəkdi».

Akad. V.Bortald 1926-cı ildə İstanbul universitetində oxuduğu mühazirələrdə Ptolomey «Coğrafiya»sından (m. II yüzil) aldığı ***Daiks*** sözünü

yaşı bəlli olan ilkin türk sözü sayırdı (Ptolomeydəki Daiks, Yaik – indiki Ural çayının adıdır). Zaman ötdükcə Bartoldun bildiyindən çox «dərinlərdə», yəni tarixin daha dərin qatlarında onlarca yeni türk sözləri elmə bəlli oldu. Çivil yazılarda ***Tourki (Türki), Turukku, Dingir (Tengir, Tengri), ada, ama, eren, gag, pelaskların dilində tepae (təpə), etruskcada tingis (tengiz), yunancada achu (acı), Apşaros, Kaikos, Karkınitis*** kimi türk sözləri üzə çıxdı. Bu sözlər yaşca Vartoldun bir zaman bulduğu «Daiks»dən ən azı 700 il, ən çoxu isə 3000 il qocamandır.

Türklərin tarixi üzərinə çəkilmiş böyük qadağa sistemi qırılmalıdır. «Təbii dərinləşdirmə» üsulu onların tarixində Avrasiya xalqları tarixindəki ölçüdə dünya elminə faydalı ola bilər.

## 2. YARANIŞIMIZIN ALT QATLARI

**UZAQ KEÇMİŞDƏ SOYKÖKÜMÜZÜN İZLƏRİ.** İlkin orta çağlarda Azərbaycan öz etnik tarixinin mühüm dönümünü yaşamaqda idi. Bu çağlarda burada yaşayan soyları tarixçilər şərti olaraq Quzey Azərbaycan xəritəsi üzrə «albanlar», Güney Azərbaycanda isə «atropatenlilər» adlandırırlar. Bunların içərisində ayrı-ayrı kökdən olan müxtəlif tayfalar, o sıradan türk və Qafqaz köklü boylar yaşayırdılar. Burada gəlmə irandilli tayfalar da var idi.

Mesorpotamiyanın quzeyində, Azərbaycan və Anadolu hüdudlarında ilkin türk boylarının uzaq izləri çivli qaynaqlardan bəllidir. Bunlardan biri Şartamhari mətninin (surəti İraqda ***Babəldə***, Misirdə ***Tel əl-Amarnada*** və Türkiyədə ***Boğazköydə*** saxlanılmaqdadır) 16-cı sətridir. Sətirdə m.ö. 2200-cü illərdə Akkad çarı ***Naramsin*** ilə savaşan 17 «Quzey» hökmdarı xatırladılır. Tanınmış arxeoloq professor ***Louis Delaporte*** 1936-cı ildə onlardan birinin adını Tourki kralı ***İlloushoumail***, alman professoru ***N.G.Guterbock*** isə 1938-ci ildə ***Turki kralı İlşu Nail*** oxumuşdur. Çağdaş araşdırmaçılardan biri bu «Türki (və ya Türük: Türküstan türkləri özlərini «türük» adlandırırlar) kralın» kimliyi sualına haqlı olaraq belə cavab verir: «Əksi isbatlanmadıqca türklərdir». ***Georges Dossi, Jean F.Carles*** tərəfindən Luvr Muzeyində çap edilən Assuriya Saray Arxivi çivli yazılarında isə m.ö. 1800-cü illərdə ***Turukku*** adlı «xalqın» adı çəkilir. 13 çivli tabloda çar ***I Şəmşiadadın*** iki qalabəyisi 22 dəfə bu «turukkular»dan söz açırlar. «O, bu məmləkətin ordularının öncüllərini və onların ətrafında toplaşan Turukkuları yox etdi»; «bu akından bəri ***Turukkuların*** sayı çox görünməyir, fəqət arta bilər»; «başçıları ***Li-daya*** ilə birlikdə ***Turukkular*** savaşa qoşuldular və iki şəhəri məhv etdilər» və s. Kimlər idi soykökcə turukkular? Yenə cavab vermək olar: «Əksi isbata yetirilməyincə türklərdir».

***I Argiştinin*** (786–764) Manna dövləti üzərinə keçirdiyi yürüşlə bağlı yazısında ***Alatei*** ölkəsinin adı çəkilir və burada deyilir: «Alatei dağlıq ölkə-



dir». Söhbət Urmu gölünün güneyində yerləşən dağlıq bir bölgədən gedir. Buna görə yeni araşdırmalarda bu anlayış Azərbaycan və başqa türk məmləkətlərinin etnocoğrafik xəritəsində tez-tez rast gəldiyimiz ***Alatau, Alato, Alata, Alatava, Aladağ*** anlayışı ilə yanaşı qoyulur.

Çivil yazılarda ***Uşkaya*** (sonralar Üçqaya), ***Uişdiş*** (Bişdiş, Beşdiş), ***İştatti*** (İstiyer), ***İştaraura*** («isti çay»–əski farscada raura «çay» deməkdir), ***Qantau*** («Baba dağ»–əski türkcədə «qan» sözcüyü ata-baba anlamında işlənir) və bu kimi anlayışlar diqqəti özünə çəkir. Avropa tarixçiliyində işlənməkdə olan «Təbii dərinləşdirmə» üsuluna dayanaraq, miladdan öncə son üç minillik boyunca Güney Azərbaycanda Urmu gölü hövzəsində prototürk boyların yerləşib yaşamasını söyləmək üçün az-çox tutarlı göstəricilər var. Nəzərə almaq lazımdır ki, m.ö. V yüzil yunan tarixçisi Herodotun ***İürk*** və ***Türriqet*** (Strabonda – ***Ürk***?) adlandırdığı etnos, Böyük Plini və Pomponi Mela yazılarında tirklər, türklər (turcae) kimi yad edilir. Adı çəkilən üç tarixçidən götürülən bu bilgi ***Dionisi Periyegetin*** aşağıdakı arayışı ilə səsləşir: «Kaspi dənizi mənsəbinə yaxın skiflər, sonra ***hunlar***, onlardan sonra ***kasplılar***, daha sonra isə döyüşkən albanlar və kadusilər... yerləşmişdilər».

**BULQARLAR.** Uzaq keçmişdə ***Transqafqazda*** yaşamış böyük türk toplumu bulqarlar olmuşdur. Bulqar türklərinin (protobolqarların) Transqafqazda yerləşməsi haqda ilk yazı IV yüzil süryani müəllif ***Mar Apas Katinanın*** qələmindən çıxmışdır. Onun yazdığı «Ermənistanın ilkin tarixi» kitabı çox tez yox olmuşdur. Ancaq sonralar erməni tarixçisi ***Horenli Movses*** bu kitabın bölümlərini mənimsəyib öz əsərinə qatmış, bununla da bölümlər günlərimizə kimi gəlib çatmışdır. Bu kitabdan Horenlinin gətirdiyi bir neçə parça birbaşa bulqar türklərinin tarixinə toxunur. Bunlardan birində yazılır ki, ***Ermənistan çarı Vaharşak*** (m.ö. 153-131) Böyük Qafqaz dağının ətəyində yaşayan «gəlmələri» öz ölkəsinə çağırdı. Vaharşak, «***Şaray*** hüdudları yaxınlığındakı çəmənli torpaqlara enib gəldi. Bu yerləri əski yazarlar ***Yuxarı – Ormansız Basen*** adlandırırdılar. Sonralar ***Vxndr Bulqar Vəndin*** gətirdiyi köçkünlər yerləşən (bu torpaqlar), onun adı ilə bağlı olaraq ***Vənənd*** adı almışdır. (Bu köçkünlərin) kəndləri bu günə kimi onun (Bulqar Vəndin. – *Red.*), qardaşlarının və sonrakı soy xələflərinin adlarını daşımaqdadır». Mar Apasdan gətirilən ikinci parça Vaharşakın oğlu ***Arşakın*** hakimiyyəti ilə (m.ö. 131-118) bağlı olub birincini tutarlı şəkildə tamamlamaqdadır. Burada deyilir: «O, (Arşak – *Red.*) çar olan günlərdə bulqarların Qafqaz dağı silsiləsindəki torpaqlarında böyük qarışıqlıq düşdü. Onların bir çoxu ayrılıb bizim torpağa gəldilər. ***Kox*** güneyindəki varlı, çörəkli torpaqlarda uzun illər boyu yerləşib yaşadılar».

Mar Apasın kitabında qalmış olan bu parçaların elmi dəyəri böyükdür. Birincisi, burada bir-birinin ardınca iki erməni hakiminin dövründə bulqar

türklərinin iki çoxsaylı toplusunun Transqafqaza axışıb gəlməsi və burada yerləşməsi göstərilir. İkincisi, bu türklərin «varlı», «çörəkli» yerlərdə (şübhə yox ki, Ağrı dağın ətəklərində, başlıca olaraq Araz vadisində – *Red.*) «uzun illər boyu» yaşamasını yazmışdır. Deməli, bulqar türkləri burada Mar Apasın yaşadığı IV yüzilə, bəlkə də Horenli Movsesin yaşadığı VII yüzilə kimi, yəni 500-700 ildən çox yaşamışdılar. Bununla bağlı olaraq bu yerlər həmin yüzillər boyu Vxndr (Vexendur) Bulqar Vəndin özünün, qardaşlarının və soy xəlifələrinin vətəninə çevrilərək Vənənd və başqa türk adları daşımışdır. Üçüncüsü, ilkin suryani qaynaqda adı çəkilən etnotoponimlər Transqafqaz xəritəsində, özü də məhz Araz vadisində: Azərbaycanın ***Ordubad*** və ***Zəngilan*** bölgələrində günümüzə kimi yaşamaqdadır. Burada ***Vənənd*** və ***Vənədli*** kəndləri var. Doğu Anadoluda ***Bulqar*** dağı oronimi tarixçilərə çoxdan bəllidir. Bundan başqa, Azərbaycan xəritəsi üzrə bulqar türklərinin adı ilə bağlı müxtəlif etnotoponimlər və onların qalıqları ilə üzləşirik. ***Mil-Qarabağ*** düzündə ***Qarvənd*** (yuxarıda adı çəkilən Bulqar Vənd adındakı başlanğıc «bul» kökü bilmədiyimiz səbəbdən itirilmiş, qalan iki hissəcik isə günümüzə kimi yaşamışdır), ***Yağlavənd, Xocavənd, Papravənd*** kimi kənd adları buna canlı misaldır. Muğan bölgəsində ***Bolqarkənd, Bulqargöytəpə, Bolqarçay, Oğurkənd, Oğurbulaq*** kimi yer adları da qədim bulqarların bu yerlərdə geniş yayılıb yaşadığını göstərir. Nəzərə almaq lazımdır ki, bu adlar ilkin olaraq onları Transqafqaza gətirilmiş olan bulqar türk boylarından yaşca ən azı 1500 il böyükdür. Çünki artıq V yüzilin II yarısında bulqar türkləri Qafqazda suvar-sabir türkləri tərəfindən tabe edilərək sonunculara qarışmış, sonralar isə əriyib itmişdilər. Başqa sözlə, ötən 1500 il içərisində bulqar etnosu tarixdə öz müstəqil yaşamını itirdiyi üçün onun adı ilə bağlı olan yer adlarından yalnız bir neçəsi günümüzə kimi yaşayıb gəlmişdir.

Son illərə kimi Mar Apas Katinanın Transqafqaz bulqarları haqqında yazısı böyük inamsızlıqla qarşılanmaqda idi. Əslində tutarlı dəlil gətirilmədən. Bu yazıya inanmayan tarixçilər yalnız belə bir «dəlil» irəli sürürdülər: nə üçün başqa erməni tarixçiləri (***Yegişe, Paraplı Qazar, Buzand***) «Hunlardan» danışarkən bulqarların, xəzərlərin və basenlərin adlarını çəkməmişlər? Elm belə bir «məntiqə» arxalanmış olsa, onda Transqafqaz xəritəsində «Alban» ölkəsi və burada yaşayan albanlar üçün yer qalmır. Çünki nə ilkin orta çağ gürcü, nə də müsəlman qaynaqlarında bu adları daşıyan ölkə və xalq yoxdur. gürcülər bu ölkənin «Rani», «Ran», müsəlmanlar isə «Arran» kimi tanımışlar.

Əski bulqarların Qafqaz dağı ətəklərində IV yüzilin ortalarında yaşamasını yalnız Mar Apas Katina deyil, 354-cü ilin adsız latın tarixçisi (***Cgronographus Anmi 354***) də qeydə almışdır. Nəzərə almaq lazımdır ki, ***Bizans*** və erməni tarixçiləri Qara dəniz və Xəzər dənizi bölgələrində yaşayan xalqlar haqqında qiymətli bilgilər vermişlərsə, birbaşa Transqafqaz torpaqlarında yerləşib yaşayan bulqar türkləri haqqında onlar qat-qat daha tutarlı yazılar qoyub getmişlər. Çünki Qara və Xəzər dənizləri bölgələrinə nisbətən onlar Ermənistandakı hadisələri qat-qat yaxşı bilir, bə'zən isə gördüklərini yazırdılar. İndi tarixçilərin bir çoxu bulqarları hun yürüşlərindən əvvəl Transqafqaza gəlmiş türk etnosu saymaqdadırlar. Sonrakı yüzillərdə bulqar boyları soyca onlara qohum olan ***buntürklər*** və ***onoqurların*** (hər ikisi bulqar soylarındandır) hesabına artıb böyümüşdülər. Bununla yanaşı Quzey Qafqazda ***Sulak*** və ***Terek*** çayları arasında yerləşən bulqar türklərinin qolları Gündoğar Transqafqazda, Dərbənd keçidi ilə Kür çayı arasındakı bölgələrdə də yerləşmişdilər. Onoqurlar isə Quzey Qafqaz bulqarları tərkibində güclü bir siyasi birlik yarada bilmişdilər. «Onoqur» adı, türk dilində olan r-z səs keçidi ilə bağlı olaraq türkoloji ədəbiyyatda «Onoquz» oxunur.

XI yüzilin böyük türk dilçisi ***Mahmud Kaşqarlı bulqar və qıpçaq*** dillərinin Oğuz dilinə çox yaxın olduğunu, bulqar boyundan olan ***suvarların*** oğuzlar kimi danışdığını bildirirdi: «Kəlmənin başında bulunan **m** hərflərini suvarlarla oğuzlar, qıpçaqlar **b**-ya çevirirlər. Türklər «mən bardum», suvarlar, qıpçaqlar, oğuzlar «bən bardum» derlər. Türklər «çorba»ya «mün», bunlar «bün» derlər». Sonra o, «Oğuzlarla onlara yaxın olanların (bulqarlarla qıpçaqların) T hərfini D və əksinə D hərfini T-yə çevirdiklərini yazaraq örnəklər gətirir:

***dövəy – təvəy (dəvə),***
***bükdə – büktə (xəncər),***
***öt – öd (dəlik)*** və s.

Bulqar boyundan olan xəzər türkləri də Azərbaycan oğuzlarına «yaxın olanlar» sırasında idilər. Çünki ***İstəxri*** və ***İbn Havqəl*** kimi böyük ərəb tarixçiləri xəzər dili ilə bulqar dilinin eyni oluğunu yazmışlar.

Buradan həm də aydın olur ki, Mahmud Kaşqarlı «türklər» dedikdə Orhun yazılarındakı metropoliya türklərini («Gök türkləri») nəzərdə tuturdu.

Uzaq babalarımız olan bulqar türklərinin adı «Kitabi-Dədəm Qorqud» boylarında da qalmışdır. ***Qazılıq Qoca oğlu Yegenek*** boyunda kitabın əlyazmasında belə bir parça ilə qarşılaşırıq: «...Altı başı ***balqar*** bir ər gördüm... ol ərə baqdum. Dayım Əmən imiş».

Paleoqrafiya və onomasitika baxımından «balqar» boy adının burada qarşıya çıxması qanunauyğundur. Bu adın oğuz qəhrəmanlıq kitabı «Dədəm Qorqud» boylarında qalması, Dədə Qorqud oğuzlarının «balqar bir ər» Bəkdüz Əmənin elini özlərinə doğma «qövm» bilib onunla birlikdə yağılar üzərinə yürüş etməsi təbii haldır. Çünki bu boylarda «balqar bir ər» ilə bağlı olan başqa bir anlayış da işlənmişdir: ***Dügər bəy***. Mahmud Kaşqarlı Divanında Dügər, 24 oğuz tayfasından birinin adıdır. Bu adı daşıyan bulqar qolu Quzey Qafqazda, ***Balkar*** dərəsində də yerləşmişdi. Görünür, digərlərin bir qolu osetinlərin babalarına qaynayıb-qarışmışdır. Bu günkü

Quzey Qafqaz balkarlarının dilində osetinlərin bir qolunun Düger, Diqor adlanması təsadüfi deyildir. Yeni araşdırmalara görə, bu sonuncuların danışığında çoxlu əski türk söz və deyimləri qalmışdır. Onlar əslində əski bir türkcə ilə danışırlar. Dədə Qorqud boylarındakı Düger bəy adı bir eponim olmaqla, Quzey Qafqazın balkar yer adları ilə qırılmaz tellərlə bağlıdır.

Dədə Qorqud kitabının III boyunda üç dəfə ***Basen, Pasin*** yer adı çəkilməkdədir. ***V.V.Bartolda*** görə bu, haçansa «qalası olmuş Basin bölgəsinin adıdır». Bölgənin bu adı yuxanda Mar Apas Katina parçasından gətirilən «yuxarı-ormansız ***Basen***» adına tamamilə uyğundur. Başqa sözlə, Dədə Qorqud kitabındakı yer adı olduğu kimi Mar Apas Katina – Horenli Movses mətnində də yazıya alınmışdır. Mənəvi dünyası ayrı olan bu iç qaynaqda Basen bölgəsinin adı əski bulqarların Güney Qafqaza axışıb yerləşməsi ilə bağlı olaraq çəkilir. Bu adın açımı isə gürcülərin coğrafiya anlayışına əski yunanlardan keçmiş ***Faslana*** sözü ilə bağlıdır. ***D.Y.Yeremeyevin*** yazdığı kimi, «qədim bulqarların buraya axışıb yerləşməsi ilə bağlı Balkar dərəsində yaşayan türkdilli balkar xalqı gürcü qaynaqlarında «Basiani» adlanırdı...»

**BUNTÜRKLƏR.** Böyük bulqar xalqının bir qolu da buntürklər sayılırdı. Onların da adı Transqafqaz qaynaqlarında m.ö. I minillik hadisələri ilə bağlı çəkilir. X yüzil gürcü salnaməçisi «***Mokçevay Kartilsay***» («Kartlinin dinə gəlməsi») və XI yüzil salnaməçisi ***Leonti Mrovelinin «Kartlis sxovreba»*** («Kartli çarlarının həyatı») kitabında buntürklərin Kartlidə ***Makedoniyalı İskəndərin*** yürüşlərindən, hətta Babil hökmdarı ***Novuxodonosor*** tərəfindən ***Yerusəlimin (Qüdsün)*** dağıdılmasından əvvəl yaşamaları yazılmışdır. İkinci hadisə m. ö. 586-cı ilə düşür. Salnaməçilər bu toplumu həm buntürk, həm də sadəcə türk adlandırırlar. Mroveli bir səhifədə «türklər ***Mtsxeta*** yaxınlığında özlərinə yer seçərək, oranı abadlaşdırdılar, güclü hasar içinə aldılar və bu yerə ***Sarkine**** deyilməyə başlandı» yazır; o biri səhifədə isə «Sarkinedə buntürklər yaşayır» söyləyir. Bu salnaməni 1900-cü ildə çap edən gürcü tarixçisi ***S.E.Takayşvili*** buradakı «buntürklərin» və «türklərin» bir soykökdən olduğunu, onların «başqa sözlə turanlı» olduğunu yazmışdı. Bu «turanlılar» gürcü tarixşünaslığında «Kartlinin ən qədim sakinləri» sayılır. Salnamə əlyazmalarının birində buntürklərin 28 min ev olması yazılmışdır (orta hesabla hər ailə 5 nəfər götürülsə, 140 min edir). Onların sayca böyük toplum olduğunu salnaməçi Mrovelinin aşağıdakı sözləri də göstərir: «Bir-birinə qarşılıqlı yardım üçün onlar (Kartli əhalisi – *Red.*) gəlmə türklərlə birləşib bunları bütün şəhərlərdə yerləşdirdilər. ... Bu türklər Kartli əhalisi ilə dinc yaşayırdılar, iranlıların yürüşü gözləndiyi üçün qala və şəhərləri bərkidirdilər».

* P.Uvarovun (1894), Ş.Mesxianin (1959), Q.Lomtadzenin (1965) araşdırmalarında arxeoloji qazıntılar üzrə bu şəhərin həqiqətən miladdan qabaq olması bildirilir.



Transqafqaz buntürklərinin gerçək tarixi barədə müxtəlif fikirlər var. Onların m.ö. VI-IV yüzillərdə Gürcüstanda yerləşib yaşaması haqda salnamə yazılarını anaxronizm sayan tarixçilər az deyil. Bu tarixçilər buntürklərin Gürcüstanda yerləşməsini düzgün saysalar da, onu miladdan əvvəlki dövrə deyil, miladdan sonrakı V yüzillə bağlayırlar. Belə olduqda hadisə min il geriyə çəkilmiş olur. Söz yox, türk-Qafqaz münasibətlərinin fəal iştirakçısı olan türklərin «Hun hegemonluğu» çağında, xüsusilə V yüzildə kartlilər ilə birlikdə Sasanlı ağalığına qarşı ittifaqı başqa qaynaqlardan da bəllidir və tarixdə gerçəkdən olmuşdur. Ancaq, görünür, kartvellərin türk dünyası ilə qarşılaşması çox uzaq keçmişdə başlanmışdır. Bunu gürcü alimlərinin yeni araşdırmaları sübut edir. ***B.İ.Kilanava*** Gürcüstanın aparıcı etnotarixi leksemləri olan İber-i və ***Eger-i (Egr-i)*** sözlərinin türk mənşəli olduğunu, onların semantika baxımından ***Kartvel-i*** ilə bir məna daşıdığını müəyyən etmişdir. Bu anlayışlar mifoloji görüşlər üzrə müqəddəs nikah yerində doğulan kimsə, tarixi məişət çalarında isə «bərkidilmiş yer», akropolis və ya şəhərdə doğulan adam, məskun, vətəndaş deməkdir. Çox uzaq keçmişdə əski türklər kartvellərlə birlikdə yaşamasaydılar, Gürcüstanın uc (ulu) etnotoponiminin ikisi türk kökündən olmazdı. İndiyə kimi Kartvel soy adlarının öyrənilməsində qədim şərqin ölü dilləri ilə yanaşı, başlıca olaraq İran-erməni leksemlərindən istifadə olunurdu. Sami və türk dillərinə çox az yer verilir, gürcü-yəhudi, gürcü-ərəb və gürcü-türk tarixi, tarix-coğrafi və dil əlaqələri nəzərə alınmırdı. Gürcü salnamələrində ***Makedoniyalı İskəndərin*** yürüşü çağında Gürcüstanda, Kür çayı vadisində buntürklərin oturaq yaşaması, Xəzərlərin Quzey Qafqaza uzaq keçmişdə gəlməsi haqda yazıların dərindən öyrənilməsini gərəkli edir.

**ALBANLAR.** Gündoğar Transqafqazda «Albaniya» adlı ölkənin adını ilk dəfə yunan coğrafiyaçısı ***Strabon*** çəkmişdir. Bu müəllif miladdan öncə yaşamış bir sıra alimlərin bilgilərinə arxalanmışdır. Sonrakı antik müəlliflər də ölkəni bu adla tanımışlar. Bu ölkədə yaşayan müxtəlif boy və tayfaların adı isə «albanlar» şəklində m.ö. 331-ci il ***Qavqamel*** döyüşü ilə bağlı olaraq ***Flavi Arrian*** tərəfindən yazıya alınmışdır. Çağdaş tarixşünaslıqda bu ad «Alban ölkəsində yaşayanlar», «albaniyalılar» anlamında deyil, Alban ölkəsinə öz adını vermiş etnosun adı sayılmaqdadır. ***Böyük Plini*** və ***Klavdi Ptolomeyin*** yazıları üzrə burada «Alban» adlı şəhərin və çayın olması bunu göstərir. «Alban» adı ilə bağlı olan bir sıra toponimlər Azərbaycanın və Qafqazın xəritəsində günlərimizə kimi qalmışdır: ***Murov*** dağı ətəyində, ***Xaçın*** çayı üzərində «***Alban divarları***», Şuşa rayonu ***Malıbəyli*** kəndi yaxınlığında «***Ağvan çayı***» və «***Ağvan kənd***» xarabalığı, ***Martuni*** (keçmişdə ***Honaşen***) rayonu ***Avdur*** kəndində «***Alvan qapısı***» qala xarabalığı, ***Qaxda Ləkit*** kəndi yaxınlığında «Alvan qala», ***Qəbələ*** ilə ***Göyçay*** arasında «***Alvandərə***», ***Quba*** rayonunda və ***Dağıstanın Aqur*** rayonunda

***Alpan*** kəndləri, Şəki şəhərində «***Aqvanlar məhəllәsi***» və b. Bununla yanaşı keçmiş ***Zəngəzur*** qəzasında «***Ağvanlı***» kəndi, Yardımlı yaxınlığında «Alban kəndi», Dərbənd yaxınlığında VI yüzildə tikilmiş «Alpan» qalası («Tarix-i Dərbəndnamə»də) və başqaları XIX yüzildə qeydə alınmışdır. Alban etnosunun qolu və ya qolları Atropatendə – Güney Azərbaycanda yerləşmişdi. Strabona görə «Kaspi dənizinin ***Madiya*** dağlarına... toxunduğu yerdə... dənizdən başlayaraq bu dağ silsiləsi boyu ta yüksəkliklərə kimi böyük olmayan bir ərazidə albanların bir hissəsi yaşayır». Görünür, burada söhbət Astara və Qarasu çayları arasında yerləşən ***Baqrou*** (Savalan) silsiləsindən gedir. Strabonun «dənizə yaxın çevrədə girkanlardan sonra» yazması, albanları girkanlılarla kaspilər arasında yad etməsi bunun aydın göstərir. «Albanlar» dedikdə coğrafiya elminin atası, görünür Atropaten ərazisində yaşayan qeyri-müəyyən «albanları» deyil, birbaşa «alban» adını daşıyan bir etnik toplumu nəzərdə tuturdu.

Bəs, Alban ölkəsinə öz adını vermiş olan alban etnik toplumu kökcə kim idi? hansı soykök üzərində yaranmışdı? Tarixi ədəbiyyatda albanların, hətta bütün Albaniya əhalisinin ya İran dillərinə, ya da Qafqaz dillərinə, daha dəqiq desək, «Qafqaz dillərinin ləzgi qrupu»na mənsub olması fikri geniş yayılmışdır. Güney Azərbaycana gəldikdə isə, orada uzaq keçmişdə yaşayan mannalılar da başlıca olaraq hürrit, yəni quzey Qafqaz dil ailəsinə (bu günkü Dağıstan, çeçen, inquş dillərini birləşdirən ailəyə) aid edilir. Fərq guya yalnız bundan ibarət olmuşdur ki, Alban əhalisi birbaşa türkləşməyə uğramış, mannalılar isə m.ö. VII yüzildən başlayaraq Midiya tərkibində iranlılaşmış və yalnız sonralar (hər iki halda XI-XII yüzildən sonra) ikinci bir assimilyasiya dəyişikliyinə uğrayıb türkləşmiş, türkdilli olmuşlar. Ancaq albanların da miladdan sonrakı I minillikdə iranlılaşmasını yazan müəlliflər var.

Halbuki tarixi qaynaqlarda albanların irandilli və ya qafqazdilli olması haqda bilgi yoxdur. Nə irandilli, nə də qafqazdilli xalqların içərisində alban adını daşıyan toplum bəlli deyildir və olmamışdır. Bu adı daşıyan toplumlar yalnız türk xalqları: qazaxların, qırğızların və türkmənlərin içərisində ötən yüzillərdə qeydə alınmışdır. Tyan-Şan dağının ətəklərində Qazax xalqının «alban» adlı boyu günlərimizə kimi yaşamaqdadır*.

Türkmənistanda indi də iki «alban» yer adı (toponimi) bəllidir.

Alban adını daşıyan etnos, tarixi qaynaqlar üzrə Transqafqaza saka tayfalarının içərisində gəlmişlər. Strabonun «madyan sağanlar» adlandırdığı ***sak/saka*** tayfalarının albanlar ilə bağlılığını göstərən aşağıdakı epik bilgi diqqəti özünə çəkmədədir. «Dədəm Qorqud» boylarından birinin qəh-

* Çinlilər bu qazax albarllarını Azebay-jen adlandırırlar. Rusca-Çincə lüğət kitabında «alban» sözünün çin dilində Azebay-jen şəklində tələffüz olunması bildirilir.



rəmanı ***Uşun (Usun) Qocadır***. Qazax xalqının tərkibində isə albanlar ***Uysun*** tayfasının başlıca qolu olmuşdur. Çox uzaq keçmişdən bəlli olan bu uysunlar öz növbəsində sakaların törəməsi olmuşlar. Tanınmış altayşünaslar ***N.Y.Biçurin, Q.E.Qrumm-Qrjimaylo*** usunları sakaların törəməsi sayırdılar. Sonuncu müəllif yazmışdır: «Sonralar qazaxların, özbəklərin və başqa xalqların tərkibinə keçmiş olan usunlar soykök baxımından sakaların qollarından biri idi». ***A.N.Bernştam*** kanqlı və usun mədəniyyətini saka mədəniyyətinin davamı saymışdır. Beləliklə, tarixi qaynaqlar «alban» adının kökünü «Qafqaz-İber dünyası» xəritəsində və ya Avropada ***Alp*** və ***Şotland*** dağlarının xəritəsində axtarmağın perspektivsiz bir iş olduğunu göstərməkdədir.

«Kitab-i Dədəm Qorqud» boylarının tarixi baxımdan araşdırılması Azərbaycanın uzaq keçmişinin albanlarla bağlı yeni bir axarını üzə çıxarmışdır. IV boyda qonşu Gürcüstan taqavorunun casusu, oğuz bəylərbəyisi Qazan xan haqda belə bir xəbər gətirir: «Hey, nə oturursan, itünqi ulatmıyan, çətüginqi molatmayan ***alpanlar başı*** Qazan oğlancuq ilə sərxoş olub yaturlar». Kitabın VII boyunda «alpanlar» soy adı ilə yenidən qarşılışırıq: «Ağ boz atlar çapdurur ***alpanlar*** gördüm. Ağ işıqlı ***alpları*** yanıma soldım». Burada «alpanlar» sözünün boy adı (etnonim) kimi işlənməsi şübhə doğurmur. Çünki ikinci parçada «alpanlar» və «alplar» anlayışları bir-birinin ardınca, lakin hər biri ayrıca çalarda verilmişdir. Bununla yanaşı, alp və alpan sözləri, görünür, kökcə bir-biri ilə bağlılıqdadır. Məhmud Kaşqarlı «Divan»ında birinci sözcüyün son samit səsi «b» hərfi ilə yazılmışdır: kitabın özündə də bir neçə yerdə alb yazılışı ilə üz-üzə gəlirik. Elik Qoca oğlu Alb Ərən, ***Alb*** Ərdən adın yaşurmaq eyib olur. Fonetik baxımdan *b-p* samitləri ümumən gah cingiltili, gah kar yazılışda işlənmişdir: parmaq, tobuq və b. Bununla bağlı olaraq qorqudşünaslıqda baylardakı ***Baypura*** şəxs adı ***Baybura/Baybure, Paypiçən*** adı isə Baybican oxunur. Hələ XIX yüzildə A.A.Bakıxanov Quba əyalətindəki ***Alpan*** kəndinin adını əski qaynaqlardakı «alban» adı ilə bağlamaqla ənənəvi *b-p* səs keçidinə göz yetirmişdir.

Fonetik və semantik baxımdan alb/alp anlayışının bir sözcük olması Mahmud Kaşqari «Divan»ında və «Dədəm Qorqud» kitabında hifz olunmuşsa, -an şəkilçisinin köməyilə bu özüldə alban/alpan boy adının yaranması qanunauyğundur. «Kutadqu bilik» poemasında «Bayat berdi davlat ay türkan quti» (Tanrı səadət verdi, ey ulu türklər) deyimi *-an* şəkilçisini «türk» sözünə qoşmaqla çoxluq bildirilməsi deyilənlərə klassik örnək sayıla bilər. Azərbaycanda olan Türkan və bu qəbildən olan başqa yer adları da həmin qayda ilə yaranmışdır. Yuxarıda göstərilən ***ərən*** sözü də belədir: Mahmud Kaşqaridə ***ər*** «adam», «kişi», ***ərən*** isə «adamlar», «kişilər» deməkdir.

Tarixi keçmişdə bir sıra xalqların boy adlarının sosial-əsgəri anlayışlar üzərində yaranıb ortaya çıxması bəllidir. V.V.Bortold «türk» sözünü Orhun abidələrində tez-tez işlənən *türü* sözü ilə bağlayırdı, bu sonuncu isə «qanun», «adət», «qanuna arxalanan toplum» çalarında işlənirdi. ***Döyüşçü, kişi*** anlamında işlənmiş olan «qazax» və «Uzbek» sözləri də orta çağlarda boy adlarına çevrilmişdir. Tarixdə boy adları ilə sosial-əsgəri anlayışların əks münasibətləri də olmuşdur. Uzaq keçmişdə olan ***Kimeri*** (Assur çivli qaynaqlarında: ***Kimeray, Gimirri***), xalqının – əsgəri həyat sürən, igid sayılan bir xalqın adı əsgi ruscada komir (yeni ruscada kumir), osetincədə qumiri, qumeri (alp, güclü kişi), gürcü dilində isə qmiri (bahadur, qəhrəman alp) şəkli almışdır. Belə isə «igid», «döyüşçü» anlamında olan əski türk sosial-əsgəri anlayışı üzərində «alban» boy adının yaranması da, «Dədəm Qorqud» oğuzlarının bir qolu kimi Qafqaz albanlarının yad edilməsi də bütünlüklə qanunauyğun sayılmalıdır.

Burada iki mühüm cəhət nəzərə alınmalıdır. Birincisi, Dədəm Qorqud kitabında qarşımıza çıxan oğuz toplumu, oğuz soy birliyi əslində qohum tayfaların birliyindən başqa bir şey deyildir. Bu toplumun içində yad, yabançı boylara yer yoxdur. Oğuzların döyüş-əsgəri qurumu yağılarla qarşılaşarkən sağ qolda Daş oğuzlar (Aruz Qocanın və «Balqar bir ər» Bərkdüz minbaşısı Əmən bəyin bölükləri), sol qolda Qazan xanın qardaşı oğlu ***Dəli Budağın*** bölükləri, mərkəzdə isə İç Oğuz bəylərinin bölükləri ilə bəylərbəyi Qazan xan özü yer tuturdu. Və Qazan xan burada alban döyüşçülərinin də başçısı («Albanlar başı») kimi çıxış edirdisə, deməli, onlar ordunun başlıca, mərkəz gücü sayılan İç Oğuz döyüşçülərinin içində yer tuturdular. İç Oğuz döyüşçüləri Oğuz elinin bütün əsgəri təşkilatında aparıcı yer tuturdu. Beləliklə, bütün Oğuz, «Qalın Oğuz» birliyinin metropolisi olan İç Oğuz, həm də albanların vətəni idi. Tarixi-coğrafi araşdırmalar «Kitab-i Dədəm Qorqud» boylarındakı İç Oğuzun da, xanlar xanı ***Bayandur*** xanın və Bəylərbəyi Qazan Alpın divanlarının da Qafqaz Albaniyasının mərkəzi torpaqlarında: Kür ilə Araz çaylarının əmələ gətirdiyi təbii üçbucaqda yerləşdiyini aydın etmişdir.

İkincisi, miladdan sonrakı III yüzillikdən tarixi qaynaqlarda adı çəkilən Aran – ərəb yazılışında Arran ölkəsi Albaniyanın əski yerli adıdır. Bununla yanaşı, Aran yalnız ölkə adı deyil, həm də boy adı, dil mənsubluğu bildirmişdir, çünki orta çağ tarixçi və coğrafiyaçıları «Aran dili» anlayışı tanımışlar. X yüzil müəllifi ***Əl-Müqəddəsi*** yazmışdır: «Ermənistanda ermənicə, Arranda isə Aran dilində (mətndə: aranca – *Red.*) danışırlar». Eyni bilgiyə X yüzilin başqa iki müəllifi ***Əl-İstəxri*** və ***İbn Havqəlin*** yazılarında rast gəlirik.

***Əl-İstəxri*** həm də yazır ki, Bərdədən «Hind ölkələrinə və başqa yerlərə qırmız ixrac edilir». Burada qırmız böcəyindən alınan al qırmızı boyaqdan söhbət gedir. İndi də Azərbaycan dilində işlənməkdə olan



«qırmızı»* sözü ərəb dilində və türk dillərinin çoxunda yoxdur. Aydındır ki, ***Əl-İstəxri*** bu sözü adını çəkdiyi «Aran dilindən», «arrancadan» almışdır.

O zamankı Transqafqazın ən böyük şəhəri Bərdə VIII yüzilin ikinci yarısından Xilafət canişini oturan paytaxt olmuşdu. Ərəb tarix-coğrafi elmi onun haqqında, ***Aran*** ölkəsi və orada yaşayan etnik toplumlar haqqında çox geniş biliklər toplamışdı. Buna görə «Aran», «Qırmız» kimi anlayışlar ilə bağlı yazılar gerçək biliklərdir. ***Sara xanım Aşurbəylinin*** fikrincə «Aran» sözü əski türk dilindən başqa heç bir şərq dilində işlənməmişdir. O yazır ki, «Aran dili» dedikdə «X yüzilə kimi yaranmış olan Azərbaycan türk dili» nəzərdə tutulurdu. Deməli, «Aran» sözünün «Alban» sözü ilə sinonim olması, aranlıların isə dil baxımından türkcə danışması Qafqaz Alban əhalisinin başlıca kütləsinin soykök baxımından hansı dünyaya mənsub olmasının açımı üçün çox mühüm göstəricidir. Burada «əhali» dedikdə Alban ölkəsində yaşamış olan uti, İpin və başqa tayfalar deyil, birbaşa «alban», «qarqar» və «tərtər» adını daşıyan boylar nəzərdə tutulur.

**QARQAR VƏ TƏRTƏR İCMALARI.** Tarixçilikdə yer almış olan yanlış yanaşma: Qafqaz Albaniyasını qədim türklərin tarixinə «yaxın buraxmamaq» mərəzi adı çəkilən boyların öyrənilməsinə də mənfi təsir göstərmişdir. «Kavkazion məktəbi»nin təmsilçiləri (İ.Əliyev və tərəfkeşləri) öz istəklərinə uyğun gəlməyən tarixi qaynaqların varlığını heç bir vəchlə qəbul edə bilmirdilər.

Belə qaynaqlardan biri ***Ahsıkəndi*** qələmindən çıxmış olan «Məcmu ət-təvarix» əlyazma mətnidir. Bu mətndə ***«qarqar qıpçaqları»*** etnonimi ilə qarşılaşırıq. Belə bir ikili ad daşıyan etnos daha iki qaynaqda : «Hüdud əl-aləm» və ***əl-İdrisinin*** «Nuzhət əl-müştaq» əlyazmalarında da qeydə alınmışdır. Və bu orta çağ əlyazma mətnlərinin üçündə də qarqarlar qədim türk qıpçaq xalqının tərkib hissəsi kimi verilmişdir. Hətta mətnlərin birincisində türk qəhrəmanlıq dastan sənətinin personajı ***Manasın*** kökcə qarqar

---

* qermez, qermezi sözünün kökü ilə bağlı dilçilikdə böyük bir anlaşılmazlaq hökm sürməkdədir. Sözü Hind-Avropa və fars dilləri ilə bağlamağa çalışan dilçilər az deyil. Ancaq onlar bu sözün klassik fars ədəbiyyatında işlənmədiyini, yalnız Səfəvilər dövləti yarandıqdan sonra farsdilli ədəbiyyatda işlənməyə başladığını nəzərə almamışlar. Çağdaş fars bilik adamlarından Mütərcimülmülk sözün finikiyalılar, Məliküşuəra aramilər, başqa sözlə samilər tərəfindən ortaya gətirildiyini yazırlar. Fransız dilinin və Anadolu türkcəsinin bu günkü sözlüklərində yenə sözün ərəb dilindən alınması bildirilməkdədir. Halbuki ərəbcə sözlüklərdə yabancı (alınma) sözlər sırasında bu sözün kökü göstərilmir, çünki o, latın dilindən alınmış və «ərəbləşmiş» bir anlayış sayılır. Yalnız S.E.Malov sözün türk dillərinə aid olduğunu, onun qır (qız) (universal *r-z* səskeçidi nəzərə alınarsa, qızıl anlayışı da buradandır) kökü üzərində yarandığını yazmışdır (baxın: *Zərinəzadə H.* Fars dilində Azərbaycan sözləri, Bakı, 1962, s. 353-355).

qıpçaqlarından olması bildirilməkdədir. Belə isə, Qafqaz Albaniyası şəxs adları siyahısının daha bir sirri: 488-ci il Aquen kilsə qanunlarına Alban hökmdarı ilə bərabər imza atmış yepiskopun nə üçün əski türk adı (Manas!) daşıması açılmış olur.

«Kavkazionçu» müəlliflərin yazılarında yuxarıda adı çəkilən tarixi qaynaqlara heç bir istinad yoxdur. Nə üçün yoxdur – bunu anlatmağa lüzum qalmır. Ancaq Qafqazşünaslıq üçün müstəsna dəyəri olan bu üç qaynağı araşdırma orbitinə elm korifeyləri ***V.Bartold, V.Minorski*** və ***S.Abramzon*** gətirmişlər. Elə onlar da mövzuya ilkin «kəşfiyyat lağımı» atmış, «qarqar qıpçaqları» etnonimini qədim türk tarixi kontekstində açıqlamağa çalışmışlar.

Dionisi Periegetə görə (II əsr), qarqarlar Emod dağından Qanq çayına qədər ərazidə, yəni Mərkəzi Asiyada yaşamışlar. Tarixin eyni kəsimində qarqarların Qafqaz Albaniyasında başlıca etnoslardan biri olması da yaxşı bəllidir. Bu etnosun varlığı Güney Azərbaycan bölgələrində də izlənilməkdədir. Güney yer adlarına bağlı antroponimlər («Qarqar», «Qarqar-Nasir», «Qarqarak»,«Karkara») bunu göstərir. ***Zeynəddin Qəzvini*** «Zeyle tarix-e qozide»sində Mərənd ilə Naxçıvan arasında «Qarqar qala» qeydə alınmışdır. Bir sözlə, qıpçaq yaşayışı olan çox yerdə qarqar etnosunun izi var.

«***Tərtər***» etnoniminə gəldikdə isə, yenə «möcüzəvi» bir durumla üzləşirik: bu ad ilə bəlli olan qədim etnosun izlərinə də yalnız Qafqaz Albaniyasının deyil, «Dəşti Qıpçaq» xəritəsində də rast gəlirik. Və yenə qıpçaq xalqının bir boyu kimi, «Tertrobiçi» şəklində! Məlumatın ilkin qaynağı isə «Polnoe sobranie russkix letopisey» toplusudur. Və inanmaq istəməyən opponentlərimizə həmin qaynağın bütöv toplusuna üz tutmağı tövsiyə edirik.

**ANTROPOLOJİ VƏ LEKSİKOLOJİ YANAŞMA.** Keçmiş SSRİ və post-sovet zamanında azərbaycanlıların bir etnos olaraq kavkazion antropoloji tipinə aid olması fikri son nəticədə məhz antropoloji biliklərin işığında tam iflasa uğramışdır. Bu fikri yaymağa çalışan Bakı müəllifləri aparıcı sovet antropoloqlarının tədqiqatları haqqında sanki heç bir şey eşitməmişdilər. Bu, səbəbsiz deyildi. ***Q.F.Debets, V.V.Bunak, V.P.Alekseev*** kimi tanınmış mütəxəssislər Azərbaycan əhalisini kavkazion tipinə aid etmək cəhdlərini elmi baxımdan qəbul etmirdilər. Q.F.Debets 1951-1952-ci illərdə Azərbaycan SSR-də özəl bir ekspedisiyaya başçılıq etmiş, Azərbaycan və Türkmənistan əhalisinin antropoloji baxımdan tarix boyunca dəyişməz qaldığını sübuta yetirmişdir. Onun almış olduğu nəticəyə görə, bu insanlar quruluşca İran və kavkazion deyil, ***kaspi*** antropoloji tipinə mənsubdurlar. O yazır: «Ən qədim zamanlardan Şərqi Zaqafqaziyada və Orta Asiyanın güney bölgələrində indiki azərbaycanlı və türkmənlərdən,



demək olar fərqlənməyən, insanlar yaşayırdılar. Bu biliklərə dayanaraq həm də belə bir nəticəyə gəlmək olar ki, çağdaş azərbaycanlı və türkmənlərin ecdadları həmin ərazidə yaşamış və həmin (kaspi) cizgiləri daşımış olan qədim tayfalar idilər.»

Qonşu Gürcüstanda (***M.Q.Abduşelişvili***) və Dağıstanda (***Q.F.Debets, A.T.Hacıyev***) aparılan tədqiqatlar ilə də azərbaycanlılarda kavkazion antropoloji quruluşu və ya cizgiləri üzə çıxarılmamışdır. M.Q.Abduşelişvili Borçalıda (Kvemo Kartli), yəni gerçək Qafqaz-İber əhalisi əhatəsində kompakt yaşayan Azərbaycan türklərini də öz araşdırma orbitinə almışdır. Ancaq nəticə eynidir: Gürcüstanda yaşayan bu türklər də ***kaspi*** antropoloji cizgiləri daşımaqdadırlar.

***Leksikoloji*** yanaşma ilə də nəticə eyni. Sovetlər zamanından belə bir fikir qalmışdır: guya azərbaycanlılar türk kökənli deyil, türkləşmiş bir xalqdır. Bu, əsası olmayan, kökündən yanlış bir fikirdir. Bu fikrə dəstək verən müəlliflərcə, Quzey və Güney Azərbaycan əhalisi XI-XIII yüzillərə qədər guya Qafqaz-İber dillərindən birində (?!) və farsca danışırdılar. Ancaq gerçək tarix belə olmuşdusa, əski danışıq dilləri yeni, yəni qalib gəlmiş (türk) dildə iz buraxmadan ölüb yox ola bilməzdilər. İranist ***V.I.Abayev***, belə olan halda «qalib» dildə «ölü» dildən «Leksik substrat» layının qalmasını labüd qanunauyğunluq saymaqdadır. Əks halda, yəni «ölmüş» dildən substrat qalıntısı (layı, qatı) yoxdursa, problemin özü də, qoyuluşu da elm üçün mövcud deyildir.

Bütün məsuliyyəti ilə bildirmək olar ki, sovet ideologiyası («Tarixçilik imperializmi») xidmətində duran müəlliflərin israrlı səylərinə baxmayaraq, Azərbaycan türkcəsi sözlüyündə heç bir Qafqaz-İber substrat qalıntısı üzə çıxarmaq onlara müyəssər olmamışdır. Çünki yoxdur.

Mövzuya əks yanaşma da mümkündür. Dünya dillərinin çoxu son min il ərzində öz ***təməl sözlüyünün*** 18-20 faizini dəyişmiş və ya qeyb etmişdir. Bu baxımdan məlum konservativliyi ilə seçilən (N.Y.Marr) türk dillərində isə durum başqadır. İngilis alimi ***C.Klousona*** görə («Klouson konstantası»), son min il kəsimində türk dillərində təməl sözlüyün yalnız 1 faizi dəyişikliyə uğramışdır. Beləliklə, XI-XIII yüzillərdə Azərbaycan məkanında köklü dil sarsıntılarının guya baş verməsi haqda on illər boyu bəzi müəlliflərin yazdıqları əsassızdır.

**«İSKİT ÇAĞI» YONMA DAŞ HEYKƏLLƏRİ.** Miladın V yüzilinə kimi yaşamış türk toplumları Azərbaycanın arxeoloji xəritəsində dərin iz buraxmışlar. Bunların sırasında yonma daş heykəllər böyük yer tutur. İndiyə kimi 120-dən çox belə heykəl tapılmışdır (o sıradan Güney Azərbaycanda). Bunların bir qismi boyca insan ölçüsündə, bəziləri isə yalnız dizə kimidir. Çoxu başsızdır. Xristianlığın, xüsusilə islamın yayıldığı çağda tapınma bütü sayıldığından başları vurulmuşdur.

Heykəllərin «duruşu» eynidir. Başsız olanların sağ əli döşün üzərində, sol əli sağ böyürə (qılınc, xəncər asılan yerə) doğru uzanmışdır. Tipoloji baxımdan burada əllərin çəkilişi Qara dənizin quzeyində miladdan əvvəl VI-V yüzillərə aid edilən «skif» heykəllərinə tam uyğundur. Bununla yanaşı, Azərbaycanda bütöv qalan heykəllərin və Qara dəniz abidələrindən bəzilərinin görünüşü bir az başqadır: hər ikisində sol əl döş, sağ əl isə azacıq aşağıda göbək üzərindədir.

Azərbaycan heykəlləri çox arxeik görünüşdədir. Bir neçə heykəldə güclü sezilən qabartma qurşaq yeri nəzərə alınmazsa, heykəl yonan usta üst geyimi, əldə tutulan içki buynuzunu və ya camı cızmamışdır. Yaş, quruluş baxımından bizim heykəllərə ən çox yaxın olanı yenə Qara dənizin quzey yerlərində, habelə Ermənistanda tapılan «Skif (İskit – *Red.*) çağı» heykəlləridir.

Azərbaycan heykəlləri tək-tək deyil, başlıca olaraq toplu ilə tapılır. Onlardan bir qrupu ***Xınıslıda***, 10-dan çoxu isə ***Pirsaat*** çayının sol üstündə, Çıraxlı kəndi yaxınlığındakı ***Çaxnax*** adlı yerdə tapılmışdır. Bura əski məbəd yeridir. Xınıslı və ***Dağkolanıda*** (hər ikisi Şamaxı yaxınlığında) tapılan heykəllərdən ikisi uzun saç hörüyü ilə təsvir edilmişdir. Bu türk mədəniyyətinin başlıca atributlarından biridir. Alban tarixçisi Kağanqatlı Moisey türkləri «hörüklü xalq» adlandırır.

Yonma daş heykəllərin coğrafiyası çox genişdir. ***Altayda, Qazaxıstanda, Uralda***, rus və başqa qaynaqların «***Qıpçaq Çölü***» (Dəşti Qıpçaq), «Poloves torpağı» adlandırdığı ***Volqa-Dneprarası*** bölgələrdə onlar olduqca çoxdur. Yalnız Altayda 250-dən çox belə heykəl bəllidir.

Mütəxəssislər Altay heykəllərinin türk sənətindən doğulduğunu, türk xalqları tərəfindən yarandığını yazırlar. Güney Rusiya düzənlərində, əski «Qıpçaq çölündə» tapılanlar isə birbaşa Qıpçaq türklərinin sayılır. Bəlli olduğu kimi, ***Nizami Gəncəvi*** də «qıpçaqların büt (heykəl) qarşısında bel bükdüyünü», ona tapındığını yazmışdır. Altay heykəlləri VII-X, Qıpçaq heykəlləri isə XI-XIII yüzillərə aid edilir. Deməli, «Skif çağına» düşən Altay, Transqafqaz və Qara dəniz heykəlləri yaşca ilkindir.

Elmdə belə bir fikir yaranmışdır ki, Altay-Qıpçaq heykəlləri «Skif çağı» heykəlləri ilə genetik bağlılıqdadır: onların çoxu bütöv daş sütunlardan və ya «maral daşı» deyilən parçalardan yonulmuşdur; Altaydakı erkən İskit daşları da, Altay-Qıpçaq yonmaları da Xınıslıda və Pirsaat çayı üzərində olduğu kimi, bir yerdə bir ədəd deyil, 4-5 və bəzən bundan da çoxdur (görünür, məbədin ya qəbristanın qarşısında qoyulduğu üçün); üzləri bir yönədir; təsviretmə, demək olar ki, eynidir; bir xatirə abidəsi olmaqla erkən iskit yonmaları da, əski türk heykəl və sütunları da qoşadır, başqa sözlə: ər ilə arvad abidələri yan-yanadır.

İskitlərin adına çıxılan yonma heykəllər bu iskitlərin kökcə və dilcə iranlı deyil, türk olduqlarını bir daha üzə çıxarmış olur. Bununla bağlı xatırlatmaq olar ki, ***Hesiod, Esxil, Hippokrat, Miletli Hekatey, Herodot, Strabon*** kimi antik Yunan yazıçıları iskitləri «***at əti yeyən***» (Hippofaq), «madyan sağan» (Hippomolq), «***at südü içən***» toplum kimi tanımış, onların at südündən hətta pendir tutduqlarını yazmışlar. İrandilli xalqların nə etnoqrafiyasında, nə onların uzaq keçmişinə toxunan tarixi qaynaqlarda farsların, əfqanların, bəluclərın, taciklərin, kürdlərin, habelə əski «alan-iskitlərin» törəməsi sayılan osetinlərin at əti yeməsi, at südü içməsi barədə iz qalmamışdır. Farsların «Şahnamə»sində, osetinlərin doğma saydıqları nart dastanlarında da buna azacıq bənzəyişi olan bir bilgi yoxdur. Halbuki türk qəhrəmanlıq dastanlarından birini ələ alan kimi, «at əti yeyənlər», «qımız içənlər» dünyası ilə qarşılaşırıq. «Dədəm Qorqud» kitabının artıq birinci boyunda xanlar xanı xan Bayandır «toy edib ***atdan ayğır***, dəvədən buğra, qoyundan qoç qırdırmışdı»; Dirsə xan isə «Ulu toy elədi»... «Dəpə kibi ət yığdı. ***Göl kibi qımız sağdırdı***». Bu biliklərin tutarı qarşısında Hind-Avropaçı mövqedə duran tarixçilər gücsüzdür.

Yonma daş heykəlləri miladdan əvvəl və miladın ilk yüzillərində Quzey Azərbaycanda, geniş ölçüdə Transqafqazda yaşamaqda olan İskit-Saka-Alban, Hun-Bulqar (o cümlədən onoqur/onoquz) və başqa türk boyları yaratmışlar. Bu, sadəcə bir sənət toplusu deyil, türk varlığının heykəlləridir. Onları gəldi-gedər bir etnos yarada bilməzdi, çünki hər biri ayrı-ayrı yüzillərin damğasını daşımaqdadır. Atüstü yürüşə çıxan xalqlar, bəlli olduğu kimi, yad ölkələrdə illərlə oturub heykəl yonqusuna qapılmazdılar.

Alban torpaqlarında (***Mingəçevir*** gölünün yerində) bir vaxt üzə çıxarılmış katakomba qəbirləri, el arasında «oğuz qəbirləri» adlanan daş qutu qəbirləri, bütünlüklə Azərbaycanın kurqan mədəniyyəti də düzgünlüklə, heç bir qərəzçiliyə yol vermədən araşdırılsa, xalqımızın yaranış tarixinə tutarlı yenilik gətirə bilər.

Uzaq keçmişdən başlayaraq miladın IV-V yüzillərinə kimi Azərbaycanda bulqar, buntürk, saka, alban /aran/, dondar, tərtər və bu kimi onlarca türk soyköklü boy və toplumlar yerləşib yaşamaqda idi. Onların çoxunun adlarına antik ədəbiyyatda rast gəlirik. Yeni araşdırmalar üzrə bu toplumların, demək olar hamısı həm Quzey, həm də Güney Azərbaycan torpaqlarında yerləşmişdilər. Bununla yanaşı, onların bir qismi Güney Qafqazın başqa bölgələrində, indiki Gürcüstan və Ermənistan ərazisində yaşayırdı. Azərbaycan türklərinin bir xalq kimi yaranışı başlanğıcdan yalnız bu ölkələrin bugünkü torpaqlarında deyil, qonşu Transqafqaz bölgələrində də baş verməkdə idi.

## 3. İLKİN ORTA ÇAĞDA TÜRK TOPLUMUNUN YAYILIB GÜCLƏNMƏSİ

**KƏNGƏRLƏR.** Əski bulqarların və buntürklərin xələfi ***kəngər*** toplumu oldu. Türk toplumlarının Transqafqazda sayca artaraq buranın siyasi

həyatında fəal yer tutması kəngərlər ilə bağlıdır. 482-ci ildə ***Sasanlı*** İrana qarşı üsyandan yazan tarixçi ***Paraplı Qazar*** kəngər türkləri yaşayan ayrıca bir əyalətin adını çəkir: qavarn kanğaraç. Bu tarixçinin yazdığına görə, İran qoşunu ilə döyüşdə basılan ***Vaxtanq Qorqasalın və Vahan Mamikonyanın*** döyüşçüləri Albaniya ilə İberiya hüdudlarında Kəngər dağlarından (Ermənistanın bir rayonunda indi də bu Kəngər dağı oronimi qalmaqdadır) enərək «Kəngər elinə» gəlib «qonşu hunların» köməyini gözləməyə başladılar. Bu hadisədən 60-70 il sonra (542, 552-ci illər) həmin xalqın adı ***hanqaraye*** şəklində suryanı qaynaqlarında çəkilir. Bu dəfə kəngərlərin ***Ağrı*** dağdan başlayaraq Araz üzərində yaşadığı bildirilir. Suryani qaynaqlar da kəngərlərin adını Transqafqaz xalqlarının Sasanlılara qarşı mübarizəsi ilə bağlı olaraq Xosrov ***Ənuşirəvanın*** yağıları kimi çəkirlər. Bu bilgilər buntürklərlə yanaşı, kəngər türklərinin də Sasanlı zülmünə qarşı Transqafqaz hərəkatında fəal iştirak etmələrini göstərir.

1500 il bundan öncə Transqafqazda vətən tapmış olan kəngər türklərinin izi Dədə Qorqud boylarında ***Kanqlı Qoca*** adında iz buraxmışdır. Oğuzların soykök tarixinin başlıca qaynaqları olan uyğur «Oğuznamə»sində, ***Rəşidəddin*** «Oğuznamə»sində, ***Əbülğazi*** xan «Şəcərə»sində ***qıpçaq, karluk*** və ***xalac*** kimi eponimlər ilə yanaşı ***kanqlı*** eponiminin yazıya alınması qanunauyğundur. «Kəngər» və «kanqlı» sözləri kökcə birbirinə doğmadır. Birinci halda Kəng erləri, yəni Kəng çayı üzərində yaşayan kişilər, ikinci yazılışda isə ənənəvi -li şəkilçisi ilə yenə həmin yerlərdə yaşayanlar nəzərdə tutulur. Bununla yanaşı elmi ədəbiyyatda kəngər soy adı şumer-türk qarşılıqlı dil əlaqələrinin göstəricisi sayılır: ***kəngər*** və ya ***kənər***, uzaq keçmişdə şumerlərin öz adı, ***Sumeru*** isə sami akkadların onlara verdiyi yanlış ad olmuşdur.

Kəngər xalqının əski adı türk Orhun yazıları silsiləsində ***Kül Tigin*** şərəfinə yonulmuş abidə 712-713-cü illər savaşları ilə bağlı olaraq Kəngərəs şəklində çəkilmişdir. Bununla yanaşı Firdovsi «Şahnamə»sində onların adı Kanqlı, Çin qaynaqlarında isə Kanqyuy yazılmışdır. Ancaq bu yazıların heç biri, görünür, ilkin deyildir. Yuxarıda Paraplı Qazardan gətirilən bilgi Kül Tigin yazısından 230 il qabaqdır. Başqa sözlə, Transqafqaz kəngərlərinin adı tarixi qaynaqda daha tez və buranın daimi sakinləri kimi çəkilməkdədir. Bizans və Transqafqaz qaynaqlarında kəngər, Orhun yazılarında kəngərəs adlandırılan bu xalqın Qafqaz üzərinə yürüşləri I-IV yüzillər ilə bağlıdır. Sonrakı yüzillərdə kəngərlilərin yaşayış yerləri Kür ilə Araz arası bölgələrdə və Azərbaycanın başqa ellərində çox idi. Bunu həmin bölgələrdə «Kəngər», «kəngərli» adını daşıyan kəndlərin günlərimizə kimi qalması sübut edir. XIX yüzilin ortasına yaxın yalnız ***Naxçıvan*** əyalətində qafqazşünas İ.Şopen kəngərlilərin aşağıdakı adları daşıyan 33 qol və tirəsini qeydə almışdı: ***Yurçi. Qızılı, Sarbanlar, Xalxallı, Pirhəsənli, Salahi, Ağabəyli, Həmayi, Qarabəylər, Cağatay, Qaraxan, Hacılar, Cəmşidli,***



***Billici, Qızılqışlaq, Tutlar, Qaradolaq, Şabanlı, Kəlfir, Arabsaklı, Qaracalı, Qarahasarlı, Pənahlı, Əlxanlı (Alxanlı), Sofulu, Beqdili, Ələkbərli, Didavarlı, Bolqarlı, Kürdmahmudlu, Əliyanlı, Ziyadlı və Bərgüşadlı.***

Adı çəkilən qaynaqda əyalətdə 1433 ailəni birləşdirən 6473 kəngərli qeydə alınmışdı. Halbuki ***Məmmədhəsən Baharlının*** 1920-ci ildə çıxan araşdırması üzrə Naxçıvan qəzasında onların yalnız üç kəndi qalmışdı (ikisi «Kəngərli», biri «Şahtaxtı» adlanırdı). Kəngərli kəndləri ***Göyçay (2), Cavanşir (4), Şuşa (3), Şamaxı (2), Qazax (1)*** qəzalarında da yerləşirdi. Yəni bu zaman 15 kəngərli kəndi bəlli idi. Ancaq nəzərə alınmalıdır ki, XIX əsrin 30-cu illərində kəngərlilərin çoxu çar Rusiyasının vergi siyasətinə dözməyib Güney Azərbaycana və Türkiyəyə köçüb getmişdi. Azərbaycanın ***Qazax-Qaramanlı*** bölgəsində, yəni rahib Paraplı Qazarın yad etdiyi Gürcüstan hüdudlarında kəngərlilər bütün orta əsrlər boyu toplum halında yaşamış, yalnız XVIII yüzildə ***Kaxet-Kartli*** çarlığının sıxışdırması ilə bağlı onların çoxu ***Qarabağ xanlığı*** və qismən də Şirvan xanlığı ərazisinə köçməli olmuşdur. Qonşu Transqafqaz ellərində də kəngərlilərin yaşaması tarixi qaynaqlarda iz buraxmışdır. VII yüzildə yazılmış «Ermənistan coğrafiyası» kitabında İber ölkəsində «Kanqark» adlı əyalət, XI əsr «Kartli salnaməsində» isə «Kanqari» adlı yaşayış yerinin adı çəkilir. Böyük hün qollarından biri sayılan kəngərlər ayrı-ayrı toplumlar şəklində, görünür, Transqafqaz oğuzlarına və peçeneqlərinə qovuşmuşdular. Tanınmış Bizans müəllifi ***Konstantin Porfirogenet*** X əsrin 40-50-ci illəri ilə bağlı olaraq peçeneqlərin bir bölüyünün – yalnız üç əyalət xalqının «Kəngər» adlandığını yazmışdır.

**«MASAHA HUNLARI».** Bulqar, buntürk alban türk toplumları ilə yanaşı Azərbaycan ərazisində başqa hun boyları da yaşamaqda idi. Bu hunlar, görünür, yuxarıda Dionisi Periegetdən (II yüzil) gətirilən yazıda Xəzər sahilində yaşayan skif, kaspi və alban toplumlarına qonşu idilər. Sonralar əski erməni qaynaqlarına görə bu hunlar quzey Albaniyada, Çola şəhərində maskutlar ilə qarışıb onlarla birgə yaşayırdılar. Moisey Kağanqatlı isə bu hunların xaçpərəstliyə keçdiyini yazır. Onun söylədiyinə görə, Çola şəhərinin patriarxı ***İoan*** bütün bu hunların yepiskopu idi. Sonralar Dərbənd keçidi ilə ***Beşbarmaq*** dağı arasında ayrıca bir hökmranlıq yarandı. Bu kiçik dövlət tarixdə «Masaha hun dövləti» adlanırdı. Onun hökmdarı Alban və Ermənistan hökmdarları kimi, İran arşaklıları soyundan idi. 330-cu illərdə Masaha hun hökmdarı ***Sanatruk*** öz hökmdarlığını Kür çayı hövzəsinə kimi yaymağa çalışırdı. Moisey Kağanqatlı yazır: «... Paytakaran şəhərində Sanatruk adlı birisi aqvanlar üzərində hökmdar oldu». Bu tarixçinin kitabının XII-XIII fəsillərində Sanatrukun albanlardan hətta 30 minlik qoşun toplaması, «Quzey xalqlarının Albaniyada yaşayıb dörd il buranı sıxıntıya salması» haqda yazısı bu hadisənin ötəri bir yürüş olmadığını göstərir.

K.V.Treverin fikrincə, qədim müəlliflər ***Aqafangel*** və ***Kayserili Prokopinin*** yazılarında adları çəkilən «Masaha» (Maskut) və «Hun» soy adları eyni bir çalarda işlənmişdir. «Masaha hun dövləti»ndə yaşayan əhali irandilli alanların, türkdilli hunların və qafqazdilli tayfaların qarışığından ibarət olmuşdur. Bu baxımdan adı çəkilən hökmdarın daşıdığı adın hər iki yazılışı (Sanatruk, Sanesan) çox maraqlıdır. hər iki adın tərkibində olan sarı sözü əski türkcədə bədən, gövdə çalarında işlənmişdir. Görünür, sanatruk adı mənasına görə, səslərin yerdəyişməsi (metatezası) nəzərə alınarsa, «gövdəli türk», «gövdəcə türk» anlamında işlənirdi. Erməni tarixçilərinin bu hun hökmdarını «heybətli bahadur» adlandırması bu oxunuşa bütünlüklə uyğun gəlir. Adın Sanesan yazılışına gəldikdə isə, bu sözün ikinci yarısı (esen) əski türkcədə «sağlam», «xəstəlik bilməyən adam» bildirməklə, yenə yuxarıdakı mənaya tam uyğun gəlir. Sanesan «canıbərk», «gövdəcə sağlam» deməkdir. Təsadüfi deyil ki, uzaq keçmişdə türk alpları ***Esənbuğa, Esənqaya, Esəntigin, Esəntəmur*** kimi adlar daşıyardı. Mahmud Kaşqaridə «əsənmü-sən?» sualı bu günkü «salam» yerində işlənirdi. Eyni «salamlaşmanı» Dədəm Qorqud kitabının III boyunda görürük: «Sağmısan, əsənmisən, canım Bamsı?»*

Bu hadisədən 120 il ötdükdən sonra, Transqafqaz xalqlarının Sasanlılara qarşı 450-451-ci il üsyanı ilə bağlı olaraq yenə Masaha hunlarının adına rast gəlinir. Moisey Kağanqatlının yazdığına görə, onlar «göyün (Tanrının – *Red.*) buyruğu ilə ittifaqa girib and verdilər, onlar ilə (ermənilər ilə–*Red.*) barışıq və dinc yaşayış saxlayacaqları barədə xaçpərəst andı içdilər». Bu yazıdan Transqafqaz xalqlarının İrana qarşı azadlıq hərəkatında əslində bütün Quzey Azərbaycan əhalisinin: bulqarların, albanların, buntürklərin, kəngərlilərin və masaha hunlarının fəal iştirak etməsi aydın olur.

**BERSİL-BARŞALI-BORÇALI.** Bulqarlar ilə Qafqaza gələn və onların qollarından biri olan Basil/Barsil toplumu da Azərbaycanda güclənməkdə idi. İlkin orta çağ qaynaqlarında bu xalqın adı ilə bağlı olan Bersil-Berzil-Barşilə ölkəsinin adı çəkilir. Bu ölkə ***İ.Markvart, V.Minorski*** və başqa alimləirn fikrincə indiki Quzey Dağıstan ərazisində yerləşirdi. Ancaq ***əl-Bəlazurinin*** «Kitab fütuh əl-buldən» əsərində onun hüdudlarının ən azı «Alban keçidləri»nə kimi uzanıb getdiyi aydınlaşır. Əl-Bəlazuri yazır ki, Sasanlı hökmdarı Nuşirəvan Xəzər hökmdarına məktub göndərib onunla dost olmaq fikrinə gəldi: «Onu özünə yaxınlaşdırmaq üçün onun qızına evlənmək, ona kürəkən olmaq istədiyini bildirdi... Türk (Xəzər kağanı – *Red.*) öz qızını Nuşirəvana verdi, sonra özü də onunla görüşə gəldi. Onlar Barşilədə görüşüb bir neçə gün qonaq qaldılar». Buradan anlaşılır ki, İran şahı işğal etdiyi torpaqlardan çıxıb Xəzər dövləti ərazisinə keçməmişdi. Başqa sözlə, görüş, harada isə Beşbarmaq dağı ilə Dərbənd keçidi arasında olmuşdu. Bəlazuri mətninin sonrası bunu aydın göstərməkdədir. İşğal etdiyi yerlərin yuxarı hüdudlarında böyük, keçilməz qala tikmək fikrinə düşən Sasanlı hökmdarı kağana belə bir təklif verir: «Mən düşünürəm (yaxşı olar ki, səninlə mənim torpaqlarım) arasında bir sədd tikib orada keçid qapıları qoymaq üçün mənə izin verəsən ki, səninlə mən buraxmaq istədiyimiz adamlardan başqa bir kimsə sənin tərəfindən bizə doğru və bizim tərəfdən sizə doğru keçə bilməsin. (Türk) buna ürəkdən razı olub sonra da ***öz ölkəsinə döndü***». Bersil-Berzil-Barşilə Dağıstanın yalnız quzeyində olsaydı, Xəzər kağanı görüşdən sonra «öz ölkəsinə» dönməli olmazdı. Çünki Quzey Dağıstan o zaman bütünlüklə Xəzər kağanlığının tərkibində idi. Başqa iki ərəb müəllifi olan ***İbn Rüstə*** və ***Qərdizi*** Barsil türklərini ***Bərçölə*** adı ilə tanıdıqlarını yazmışlar. Başlıca məsələ isə Xəzər sahili Barşiləsi ilə yanaşı Transqafqazın mərkəzi bölgələrində, Azərbaycan ilə Gürcüstan ağzında ikinci bir «Barşilə»nin olmasıdır. Bu, orta çağlarda ***Borçalı-Borşalı-Bozçalı*** adlanan bölgədir. İlk əvvəl oxşar yazılışlı analayışın açımı barədə: sözün hər üç yazılışı bir-biri ilə sıx bağlıdır. Əski türkcədə «boz» anlayışı ulu totem ***börinin (qurdun)*** sifətini bildirir. Tarixi semantika baxımından görünür, «boz» sözü «bör», «bor» kökündən yaranmışdır (ənənəvi r-z səs keçidi qanunu ilə bağlı olaraq «göz» sözünün «gör» kökü üzərində yaranması kimi). Deyilənlərlə bağlı olaraq, «Borçalı-Borşalı-Bozçalı»ya yaxın bölgələrdə ***Borsunlu, Bozanlı*** kimi yaşayış yerləri adları da qurddan törəyiş əfsanələrinin yadigarlarıdır.

Gündoğar Gürcüstanda Azəri türklərinin yüzillər boyu yaşadığı bir bölgənin adı İbn Rüstə və Qardizidə keçən ***Bərçölün*** təkrarıdır. Semantika baxımından Bərçölə və ya Borçalı «Qurd çölü», «Qurd oğulları yaşayan yer, bölgə» deməkdir. Başqa sözlə, türk törəyiş əfsanəsi ilə bağlıdır. Göründüyü kimi, Azərbaycanla Gürcüstan sınırlarında yerləşən bu ikinci ***Börçələ – Borçalı*** «qurd oğulları» üçün, yəni qurd törəyiş əfsanəsini yaşadan bir toplum üçün bir «metropoliya» dəyəri qazana bilmişdi. Bu baxımdan Yaqut əl-Həməvinin sözləri maraqlıdır. Onun yazdığına görə, «Barşilə» adı İran şahlarının salnamələrində çəkilən Arranda bir yerdir. Bəlli olduğu kimi, orta çağ qaynaqları üzrə Aran ölkəsinin günbatar sınırları Gürcüstana, hətta Tiflis şəhərinin özünə gedib çatırdı.

**SUVAR BULQARLARI.** Quzey Qafqazda bulqarların suvar (sabir) qolu əvvəl yaranmış olan qohum Onoqur/Onoquz (Haylandur) əsgəri birliyini çökdürüb onun yerini tutdu. Onoqurların yerləşdiyi torpaqlar Terek və Sulak çaylarından güneyə doğru uzanaraq, görünür, «Masaha Hun dövləti»nin də yarısını tuturdu. Onoqur boyları ilkin zaman, ola bilsin Beş-

* Əsən/esen sözünün klassik ədəbi qaynaqlarımızda XVI yüzilə kimi işlənməsi bəllidir. Xətai «Divan»ındakı «Həm söylə nigar sağ əsənmi?» buna tutarlı örnək ola bilər. Sonralar dilimizin verdiyi qurbanlar içərisində bu söz də unudulub itmişdir.

barmaq dağı önündə yerləşən «Hun qapılarını» əllərində saxlayırdılar. Sonra onlar güneyə yayılaraq Muğanı da ələ keçirmişdilər. V yüzildə «ən böyük türk tayfa birliklərindən biri» sayılan onoqurlar Azərbaycanda yerləşmiş idilər və burada yaşayırdılar. V yüzilin 60-cı illərində onoqurları onlara qohum olan suvar türkləri üstələdilər. Onlar öz adlarını itirib suvar boylarına qovuşdular. Yüz il ötdükdən sonra suvarlar özləri də Quzey Qafqazda avar türkləri tərəfindən basılaraq Azərbaycana doğru sıxışdırıldılar. Onların on minlik bir kütləsi Azərbaycanda, o cümlədən Gəncəbasarda (Şakaşendə) yerləşdi. Muğan düzündə bütün orta çağ boyunca yad edilən ***Beləsuvar***, XIV yüzildə Güney Azərbaycanda Həmdullah Qəzvininin qeydə aldığı ***Tutsuvar***, XIX yüzildə Quba qəzasında olan ***Qaleyi Suvar*** xarabalığı ilə ***Qalasuvar*** kəndinin adları suvar bulqarlarının tarixi izləridir.

Qusar, Balakən, Bərdə və Ağdamda, Naxçıvan əyalətində ***Qullar*** adı daşıyan kəndlərin, onlarca ***Qazançı*** kəndlərinin, ***Qazanbulaq, Qazangöl*** kimi yer adlarının İmişli, Göyçay, Masallı və Cəbrayılda, habelə Güney Azərbaycanda ***Çaxırlı/Çaqirlu*** kənd adları da uzaq keçmişdən burada yerləşib yaşayan protobulqarların qul, qazan, çakar boylarının izlərini saxlamaqdadır.

**«TÜRKÜSTAN» SOL SAHİL DÖVLƏTİ.** Suvar bulqarlarının böyük axınla Azərbaycana gəlişindən yüz il ötməmiş Qafqazın quzey ətəklərində siyasi hərbi üstünlük Xəzər türklərinə keçdi. Bu, Quzey Qafqazda Qərbi türk kağanlığının hökmranlığı çökdükdən sonra baş verdi. Buna görə VII yüzilin 30-40-cı illərindən Azərbaycana türk boylarının yeni axını oldu. Artıq VI yüzilin ortalarında bu boyların sıx toplumları bütün Azərbaycanda, o sıradan Savalan dağının güney ətəklərində, Arazın sağ sahil bölgələrində yaşamaqda idilər. VII yüzilin birinci yarısında isə yeni axınlar onların xüsusi çəkisini gücləndirdi. Kürün sol sahilində, Kağanqatlı Moiseyin sözləri ilə desək, «Hun dövləti» yarandı. «Aqvan tarixi»nin ikinci kitabının 26-cı fəslində bu tarixçi yazır: «İgid Cavanşir öz taxtında arxayın oturduğu vaxt, qışda gündüzlə gecənin bərabər olduğu zaman hunların Hökmdarı saysız atlı qoşunla basqın edib gəldi. Cavanşir öz ölkəsinə ehtiyatlı və hazır olmağı əmr etsə də, Hunlar Kürün bu tayına və Araz sahilinə keçərək, təkcə yerli adamları deyil, həm də Ararat vilayətindən və Sünik ölkəsindən qışlağa gəlmiş adamları, qoyun və mal-qaranı yağma edib öz düşərgələrinə əsir apardılar. Bundan sonra hunların hökmdarı Cavanşirin üzünü görmək istədiyindən, qardaşlarını onun yanına göndərərək onunla görüşməyi, qardaşlıq və dostluq birliyi yaratmağı təklif etdi. Ancaq igid və ər knyaz qorxmaq fikrində deyildi.

Deyin, İran şahlarından hansı ***Türküstan*** hökmdarını üzbəüz görə bilərdi? Ancaq o (Cavanşir - *Red.*) qorxmadan qurtuluşçu xaç qarşısında diz çöküb söylədi: «Mən ölümün gözünün içinə baxacağam, çünki Sən, Tanrı, mənimləsən».





Qobustan təbii görünüş



Qobustan qayaüstü rəsmləri





Xudafərin körpüsü

Bundan sonra o, hökmdar görkü ilə onların qarşısına çıxdı. Ancaq hunların hökmdarı da onu qarşılamağa çıxaraq, gəmi ilə çayın bu tayına üzüb gəldi və burulğan, dərin sularda (onunla görüşdü). Onlar qarşılıqlı narazılığı kəsmək və ikitərəfli dostluq yaratmaq üçün bir-biri ilə gənəşdilər. Barışıq bağlayıb hər biri çayın bir tərəfinə qayıtdı. O biri gün mənim hökmdarım nə etsə yaxşıdır? O, on yeddi ər ilə birlikdə çayı keçib hunların düşərgəsinə gəldi və orada hun hökmdarının qızı ilə evləndi və həmin gün də 120 min davar və mal-qara, 7 min at və əsir alınmış 1200 kişini geri qaytardı...»

Bu yaxınlaşma 665-ci ildə oldu. Burada adı çəkilən «Hun dövləti» tarixi kitablarda indiyə kimi Xəzər kağanlığı ilə qarışdırılmaqda idi. Ancaq belə bir eyniləşdirmə üçün elmi əsas yoxdur. «Alban tarixi»nin boy adları sistemi olduqca aydındır. Bu əsərin birinci kitabının 12, 14, 29, 30-cu və ikinci kitabının 1, 2, 26-cı və başqa fəsillərində hun ***(hon) boy*** adı, habelə hun ölkəsində ***Barsil (Basil)*** xalqının çarı və «***Favel (Eftalit)*** alaylarını» başına toplamış ***Rosmosok*** hökmdarının adları çəkilir. «Xəzər ölkəsi» anlayışı isə yalnız ikinci kitabın başlanğıcından yad edilməyə başlayır. İkinci kitabın IV fəslində «ölkəni talayan yırtıcı ***xəzərlərin*** əlinə keçməsin deyə Aqvan patriarx taxtının Çoqadan qədim Partav şəhərinə köçürülməsi», II fəslində – Albaniya hakiminin 628-ci ildə «xəzərlərə qarşı müqaviməti», 23-cü fəsildə – «***xəzərlərin*** yürüşü və onların Cavanşir tərəfindən yenilməsi» haqda yazılar verilmişdir. Üçüncü kitabın 16-cı fəslində «***Xəzər*** ölkəsinə ərəb sərkərdəsi ***Əl-Cərrahın*** yürüş etməsi», o biri ildə isə «***Xəzər*** hökmdarı oğlunun yürüşə çıxıb Cərrahı öldürməsi» bildirilir. Bütün bunlar «Aqvan tarixi»ndə hunlar ilə xəzərlərin ayrı-ayrı xalqlar kimi və hər birinin öz adı ilə verilməsini sübuta yetirir. Deməli, ikinci kitabın 23-cü fəslinin «Xəzərlərin basqını və çayın o tayında Cavanşirin onları əzməsi», 26-cı fəslin isə «Cavanşirin ***hunlar*** ilə qohum olması və yağılarla dostluğa girməsi» adlandırılması onun eyni bir dövlət ilə deyil, ayrı-ayrı iki dövlət ilə münasibətdə olduğunu göstərir.

Sırf tarixi baxımdan Xəzər kağanı nə Girdman hökmdarı Cavanşirin torpaqlarına soxulub Araz üzərinə axına çıxa bilər, nə də onunla Kür sularında gəmidə diplomatik danışıqda tərəf müqabili ola bilərdi. Xəzərlərin, Göy türk kağanlığının, oğuzların və qaraxanlıların tarixində «əski türk ikihakimiyyətliliyi» («Ciftə krallıq») qanunları üzrə «Ulu kaqan» (ərəb qaynaqlarında: Xaqan əl-Kəbir, əl-Məlik-əl-Kəbir) nə akınlara çıxır, nə də özündən aşağı, ya yuxarı duran bir hökmdarın görüşünə gəlib onunla danışıq aparırdı. Onun statusu üzrə bu yolverilməz bir iş idi. başqa ölkələr üzərinə savaşları da bir qayda olaraq Ulu Kaqan deyil, «Kağan bəy» - onun Cebu adlanan canişini aparmalı idi.

921-922-ci illərdə Volqa bulqarları ölkəsinə Xəlifə elçisi kimi gələn ***İbn Fədlan*** bu barədə yazmışdır: «Xəzərlərin kağan titulu daşıyan hökmdarına gəldikdə isə, inanın, o yalnız hər dörd ayda bir dəfə adamların gözünə görünür... Ona Ulu Kağan deyirdilər, onun müavinini Kağan bəy adlandırırlar. Bu sonuncu, ordunu ardınca apararaq ona başçılıq edir, dövlət işlərinə rəhbərlik edir və onları yerinə yetirir, (xalqın qarşısına) çıxır, yürüşlər keçirir, yaxın ölkələrin hökmdarları da ona itaət göstərirlər. Və hər gün o, Ulu Kağanın hüzuruna gəlir, qul kimi qarşısında alçalıb dinməz-söyləməz dayanır». İbn Fədlanın müasiri olan Məs'udiyə görə isə, «kağan özü nə bir fərman verə, nə bir qadağa qoya bilir. Dövlət işlərində isə heç bir hökm çıxarmayır». Onun yazısından belə çıxır ki, kağan, hətta at minməyin nə olduğunu bilməyir. Belə bir qapalı həyat sürən, dövlət işlərinə qarışmayan, hətta tabe edilən ölkələrin hakimlərini qəbul etməyə və dörd ayda bir dəfə, yəni bir ildə yalnız üç dəfə «xalqın» gözünə görünən Ulu Kağan öz ölkəsindən uzaq yürüşə çıxıb Kür-Araz bölgələrində akına vara bilməzdi. Əski türk «ciftə krallıq» törəsi bunu qadağan edirdi. Bütün yürüş və savaşlar onun «yardımçısı» «Kağan bəy (Cebu) tərəfindən edilirdi. «Ağvan tarixi» kitabında, doğrudan da, Transqafqaz ölkələri üzərinə yürüş və savaşları «Quzey hökmdarının canişini» Cebu Kağan (kağanın cebusu: göründüyü kimi, burada da şəxsi ad deyil, titul verilmişdir) və sonuncunun «Şat» titulu daşıyan oğlu aparırdı. Bəlkə Cavanşir xəzərlərin Cebu Kağanı ilə görüşüb qohum olmuşdu? Ancaq bu da mümkün deyildi. Çünki Xəzər dövlətində baş vermiş daxili çəkişmələr Cebu Kağanın vəziyyətini sarsıtmışdı. Savaşların birində basıldığı üçün o, hələ Cavanşir Ağvanda hakimiyyətə gəlməmişdən əvvəl başını götürüb uzaq bir ölkəyə qaçmışdı. Kağanqatlı Moisey yazır ki, xəzərlər «yırtıcı aslan balası Şatın başçılığı ilə Ermənistan, İber və Ağvan üzərinə yürüşdə ikən «aslan kimi nərildəyən» Cebu Kağandan qorxunc bir məktub gəldi. Bu məktubda yazılmışdı: «yırtıcılar mənim üzərimə gəldilər, sən bir də mənim üzümü görə bilməyəcəksən, çünki mən artıq bu yerlərdə qala bilmərəm, mənim üçün belə etmək layiq olmasa da, yad bir dövlətə qaçıb gedirəm. Məni qürur göylərə qaldırmışdı, ancaq mən bu yüksəklikdən düşüb yenildim. Sən yanında olan xalqı (qoşunu və qoşun başçılarını – *Red.*) gecikmədən qılıncdan keçir və onlar baş verən fəlakəti eşitməmiş və sənə ölüm hökmü verməmiş onlardan yaxa qurtarmağa çalış; vay mənə... balalarımı itirib məhv oldum».

Bu yazının sirri Xəzər ikihakimiyyətlik qanunlarından biri ilə bağlıdır. Bu qanuna görə basılıb döyüş yerini tərk edən ordu başçısı – kağanın cebusu dərhal ölümə məhkum edilir, ailəsi isə dağıdılırdı. Bu qanunun necə yerinə yetirildiyini İbn Fədlan dolğun boyalarla təsvir etmişdir: «O (kağan – *Red.*) yürüşə qoşun göndərirsə, bu qoşun heç bir vəchlə və heç bir vaxt geri çəkilməməlidir və əgər çəkilərsə, onda qoşundan kim geriyə, onun (kağanın – *Red.*) üstünə qayıdarsa, hökmən öldürülür. Ordu başçısına və onun müavininə gəldikdə onlar da qaçmağa üz qoysalar, onların

özlərini tutub gətirir. Habelə onların arvad və uşaqlarını da tutub gətirir və onların gözü önündə sonuncuları başqalarına bağışlayırlar... bəzən o (kağan – *Red.*) onların hər birini iki yerə parçaladıb ağaca mıxladır, bəzən isə onları boğazlarından asdırır».

Beləliklə, Ağvan hökmdarı Cavanşir Xəzər Kağanı ilə deyil, məhz Kür çayının sol sahil torpaqlarında yaranmış olan hun-bulqar dövlətinin başçısı ilə qohum olmuşdu. Kürün sağ sahil torpaqları, daha doğrusu Kür-Araz üçbucağında yerləşən torpaqlar isə Cavanşirin hökmü altında idi. «Ağvan tarixi»ndə söhbət Quzey Azərbaycanın iki dövlətinin münasibətlərindən gedir. Görünür ki, bu iki dövlətin hüdudlarında yerləşib yaşayan əhali bir-birindən başlıca olaraq dinə görə ayrılırdı: Cavanşirin hökmdar olduğu Ağvanda yaşayanlar xaçpərəst, hun hökmdarının təbəəsi olan sol sahil sakinləri isə bütpərəst idilər. Və bu bütpərəst türklərin hökmdarının təşəbbüsü ilə «qarşılıqlı narazılığı kəsmək», «qardaşlıq və dostluq birliyi yaratmaq» üçün tərəflər bir-biri ilə görüşüb danışmış, barışığa gəlib qohum olmuşdular. Bu sol sahil hun-bulqar dövlətinin tarixi hələ öyrənilmədiyi üçün bu gün də qapalı bir kitab olaraq qalmaqdadır.

«Ağvan tarixi»nin 32-ci fəslində Kağanqatlı Moisey, Ağvan ölkəsi əsilzadələrinin «bütpərəstlər» ilə nikah bağladıqları üçün lənətləndirilməsindən danışır. Ağvan əsilzadələrinin bütpərəst qızlar ilə «evlənməsi» pravoslav Ağvan kilsə başçıları arasında böyük narazılıq doğurmuşdu. Kilsə qanunları belə nikahlar üzərinə yasaqlar qoyurdu. Bu yasaq yalnız VII əsrin 80-ci illərində aradan götürüldü. Bu haqda «Ağvan tarixi»nin üçüncü kitabında yazılmışdır: «İnadcıl ***Məhəmmədin*** Güney dövlətinin 62-ci ili (684) gəlib çatdıqda Ağvan hökmdarı ***Varaz Trdat*** ona yurddaş olan knyazlar və katalikos ***İlizar*** ilə məsləhətləşib söylədi: «Tacik (ərəb – *Red.*) xalqının üzərimizə qoyduğu vergilər bizi sıxışdırıb bütünlüklə əzməkdədir; o biri bədbəxtlik budur ki, hun qoşunları hər il ölkəmizə yürüş edir və (bunların ucbatından) ölkəmiz iki tərəfdən yağıların əlindən yağmalanıb talan olur. Mənim simsar və sevgili adamlarım, gəlin əmin-amanlığımız üçün ölkəmizdən bir yepiskop (elçi – *Red.*) seçək. Allahın rəhmi ilə (hun ölkəsinə – *Red.*) yola düşüb hər iki ölkə başbilənlərini barışıq və qırılmaz sevgi telləri ilə bir-birinə bağlasın, qoy bu gündən onlarla qohumluğa girmək bizə rüsvayçılıq sayılmasın».

Azərbaycandakı etnik proseslərin gedişində, bütünlüklə xalqın yaranışında bu, çox əhəmiyyətli bir yenilik oldu. Ölkənin başlıca iki toplumu: xaçpərəst alban və bütpərəst hun toplumları arasında kilsə qanunlarının yaratdığı mənəvi-əxlaqi çəpər aradan götürüldü. İcmaarası münasibətlər yeni tarixi məzmun qazandı. Dini qanunların qoyduğu qadağanın aradan götürülməsi, icmaarası, ikitərəfli nikahların qanuniləşməsi vahid islam dininin yayılması şəraitində yaxın yüz il ərzində ümumxalq davranışı yaratdı. Ölkə öz etnomədəni tarixinin yeni çağına keçdi.



**İSLAMIN İLKİN YAYILMA ÇAĞI.** Xəzərlərin Quzey Qafqazda hakim qüvvəyə çevrilməsi Xilafətin Transqafqaz bölgələrinə yürüşləri ilə qarşılandı. 200 ilə kimi sürən ərəb-xəzər qarşıdurması Azərbaycanın sabitliyini pozaraq siyasi durumuna böyük təsir göstərdi. Xilafətin köçürmə siyasəti ölkənin etnotarixi xəritəsinə yeni axınlar gətirdi. Bütün bunlara baxmayaraq, türk toplumunun güclənməsi davam etmədə idi. Yeni türk boyları, o sıradan islamı qəbul edən boylar ölkənin müxtəlif vilayətlərində yerləşirdi. 735-737-ci il yürüşünü uğurla başa vurduqdan sonra ərəb sərkərdəsi (sonralar xəlifə) ***Mərvan ibn Məhəmməd*** 40 min və ya ondan da çox dinsiz (türkləri) ***Nəhr əs-Samur*** adlanan yerdə... və ***Əl-Kür*** çayına yaxın düzənlərdə yerləşdirdi. 854-cü ildə Azərbaycan və Ermənistana hakim qoyulmuş Buğa ***əl-Kəbir*** «onun himayəsinə sığınaraq islamı qəbul etmək istəyən xəzərlərin bir hissəsini ***Şimşadda (Şəmkürdə**– Red.*) yerləşdirdi».

Quzey bölgələrindən fərqli olaraq Güney Azərbaycana türk axınını XI yüzilin 20-ci illərindən o yana görmək istəməyən tarixçilər burada farsların yaşaması haqqında yazan orta çağ müəlliflərinə üstünlük verirlər. Doğrudan da, ***əl-Yəqubiyə*** (897-ci ildə ölmüşdü) görə: «Azərbaycan şəhərləri və onların ətrafı əl-Azəri və əski əl-Cavidaniyyə farslarının qarışığıdır. ***Babək*** isə yaşadığı ***Bəzz*** şəhərinin hakimidir. Onun fəthindən sonra orada ərəblər yerləşmişlər». («Azərbaycan» dedikdə burada Güney Azərbaycan nəzərdə tutulur). Ancaq başqa tarixi qaynaqlar bunun əksini yazmışlar. Onlar Azərbaycanı bir türk ölkəsi kimi tanıdıqlarını yazırlar. Yəqubidən əvvəl yaşamış ***Əbu Məhəmməd Əbdül Məlik ibn Hişam*** (828-29-cu ildə ölmüşdür) «Kitabül-ticari fi mülük himyər» («Himyər hökmdarları barədə taclar kitabı») adlı tarixi əsərində ilkin ərəb yürüşləri çağında qoşunların Azərbaycanda türklər ilə qarşılaşdığını bildirir. Onun yazısı belədir: «Yəmən padşahı ***Raiş*** zamanında onun sərkərdələrindən biri ***Şimr ibn əl-Qəttaf ibn əl-Müntab***... yüz minlik ordu ilə türklərlə döyüşə-döyüşə Azərbaycana girdi. Döyüş nəticəsində türklər məğlub oldular. Şimr ibn əl-Qəttaf həmin döyüşün və keçdiyi yolların keyfiyyətini iki daş üzərinə yazdırdı». İbn-Hişamın ***Əl-Cürhumi*** adlı Xəlifə müşavirinin dilindən qələmə aldığı bu məlumatı ***ət-Təbəri*** də (838-923) təkrar edir. O, hələ peyğəmbərin sağlığında ər-Rəiş adlı Yəmən hökmdarcığının Şimr (Şəmmar) adlı qoşun başçısının Azərbaycanda türklər ilə savaşı, «Azərbaycan ölkəsində bəlli olan» iki daş üzərində yazı həkk edilməsi barədə ***Qəhdani*** rəvayətini kitabına almışdır. Burada həm də Yəmən Hakimi ***Tubbanın Mosuldan*** Azərbaycana soxularaq türklərlə qarşılaşması söylənilir. Deməli, ibn Hişamın kitabında gətirilən bu bilginin artıq IX-X əsrlərdə sabit tarixşünaslıq ənənəsi yaranmışdı. Bu ənənəni yaşadan qədim kitablar sonrakı yüzillərdə yaxşı tanınırdı. XV əsrdə yaşamış şair ***Ənvarinin*** «Dəsturnamə» adlı poemasında ikinci Xəlifə ***Ömər ibn əl-Xəttabın*** (634-644) sərkərdəsi ***Sə'd*** və ***Qasımın*** yürüş zamanı Azərbaycanda «bir ulu şəhərdə» və onun ətrafın-

da 100 mindən çox oğuz evləri gördüyü yazılmışdır: «Anda qonmuşdu oğuzlar blədəd, obalar başdan-başa yox ana hədd, qara evləri ilə yüz bin artıq ev...»

İbn Hişamın yuxarıda adını çəkdiyi ***Übeyd ibn Şəriyyə əl-Cürhumi*** zamanının bilikli adamı idi. İti ağlı, kəskin düşüncəsi ilə seçilirdi; ibn Hişamın özü kimi, ərəb himyar tayfasının başbilənlərindən biri idi. Bütün buna görə Yəməndən ***Hərəmə (Məkkəyə)*** çağırılaraq beşinci Xəlifə ***I Müaviyənin*** yaxın müşavirlərindən biri olmuşdu. Azərbaycana yeni yürüş keçirmək fikrində olan I Müaviyə, qoşunlarının qarşılaşa biləcəyi çətinlikləri düşünərək əl-Cürhumidən bu ölkə haqqında arayış istəmişdi. Əl-Cürhuminin «Əxbar»ına istinad edən İbn Hişam tərəflərin söhbətini olduğu kimi verməyə çalışır: «Müaviyənin Übeyd ibn Şəriyyə ilə söhbətləri buraya (Şimrin Azərbaycan yürüşü haqqında iki daş üzərində yazıya – *Red.*) çatdıqda Müaviyə Übeydə müraciət edərək Azərbaycan haqqında onun fikrini öyrənmək istəyərək dedi: «Sən allah, Azərbaycan (haqqında) ələqəniz, tələşınız və xatirəniz nədir?» Übeyd ibn Şəriyyə belə cavab verir: ***«Ora türk torpağıdır. Onlar oraya toplaşaraq bir-biri ilə qarşmış və təkmilləşmişlər»***.

Bu yazı Azərbaycanın etno-tarixi keçmişi ilə bağlı tutarlı qaynaqlardan biridir. Qaynaqda Azərbaycan türklərinin soy birliyinin yaranması artıq bir tarixi gerçəklik kimi qələmə alınmışdır. «Kitabi-Dədəm Qorqud» boylarında bu birliyin özümlü tarixi adı ilə rastlaşırıq: ***Qalın Oğuz***.

«Qalın Oğuz» kitabda iki böyük inzibati bölükdən: «İç Oğuz» və «Daş Oğuz»dan («üç Ok», «Boz Ok»dan) ibarətdir. Ancaq bu sonuncular özləri də ayrı ayrılıqda əski «qohum tayfaları» təmsil edən boy və qolların birliyidir. «Oğuz» etnotarixi toplumu və onun əsgəri alayları ayrı-ayrı belə qollara bölünür: dövlətin bəylərbəyisi Qazan xan həm İç oğuzun başbiləni, həm də «Albanlar başı», yəni albanlardan yığılan qoşun başçısıdır. Əmən bəy Bəkdüz-Balqar döyüşçülərinin minbaşısı («Min Bəkdüz başları»), Dügər bəy «qovum» Dügər döyüşçüləri («Min qovum başları») minbaşısıdır. Bununla yanaşı, Kanqlı Qoca və Dondar bəy eponimləri arxasında kəngərlərin və Strabonun alban tayfalarından biri saydığı dondarların adları çəkilir. Əl-Cürhumi «Əxbar»ındakı parçadan aydın olur ki, Azərbaycanda yaşayan bütün bu boylar ***«bir-birinə qarışıb təkmilləşmiş», inkişaf edərək etnik birlik yaratmışdılar***. «Kitabi-Dədəm Qorqud»un sonuncu boyunda Oğuz eli birliyinin qızğın müdafiə edilməsi məhz bununla bağlıdır.

Göstərilən səpkidə azərbaycanlıların bir xalq kimi yaranış problemi ilkin olaraq Azərbaycan Demokratik Cümhuriyyəti tərəfindən irəli sürülmüşdür. 1919-cu ildə bu Cümhuriyyətin təmsil etdiyi millət haqqında tarixi arayış yazılmış və Böyük dövlətlərin Paris konfransına verilmişdi. Bu arayışda deyilirdi: «Ən qədim zamanlardan başlayaraq Xəzər sahili boyunca Qafqazın güneydoğu torpaqlarında qismən türk, qismən də tatar dilində (görünür, bulqar-barsil-sabir boylarının dili nəzərdə tutulurdu – *Red.*) danışan



tayfalar yerləşmişdi. Bu tayfalar müxtəlif çağlarda müəyyən ölçüdə iranlılarla, eləcə də sayca daha çox, qüdrətli və güclü olan türklərlə ***qaynayıb-qarışmışlar***. Bu qaynayıb-qarışma ilə bağlı Qafqazın həmin yerli sakinləri ***Azərbaycan türkləri***, yaxud da yaşadıqları ölkənin adına uyğun olaraq sadəcə ***azərbaycanlılar*** adlanırlar». Yuxarıda araşdırılan tarixi qaynaqlar bu arayışın bu gün üçün də düzgün, gerçək və aktual olduğunu sübuta yetirir.

Tarixi ədəbiyyatda bu və ya başqa xalqın yaranışının göstəricisi, onun soykökündən olan toplumun sayca çox və sabit olaraq bir ərazidə yerləşib yaşaması sayılır. Azərbaycan türklərinin yaranışına toxunan müəlliflər (***A.P.Novoseltsev*** və b.) yazırlar ki, guya «Azərbaycanda az-çox sabit türk toplumu, onun sayı haqda konkret qaynaqlarda heç bir məlumat yoxdur».

Yuxarıda «konkret qaynaqlardan» belə bir toplumun Azərbaycanda ilkin orta çağda artıq yaşadığını göstərən tutarlı dəlillər gətirilmişdir. Bu dəlillərdən aydın olur ki, islamın ilk yüzillərində Azərbaycanda etnosun yaranması üçün türk toplumunun çoxluğu artıq təmin olunmuşdu. Bununla bağlı olaraq iki tarixi qaynaqda ölkə Türküstan adlandırılır: «Ağvan tarixi»ndə Sol sahil Hun dövlətinin başçısı ***«Türküstan hökmdarı»***, Dədə Qorqud kitabında isə Oğuz eli üçün «Ulu Kağan» («Xanlar xanı») yerini tutan Bayandır xan və onun «Kağan bəyi» («Bəylərbəyisi») Qazan xan ***«Türküstanın dirəyi»*** titulu daşımaqdadırlar.

Azərbaycanda türk çoxluğunu ayrı-ayrı adacıq (anklav) şəklində olan kiçik boylar deyil, ***bulqarlar*** (onoqurlar, suvarlar, börçöllər, şiraklar, kotayklar və bu kimi başqa boylar da sayılmaqla), ***buntürklər, albanlar*** (tərtərlər, dondarlar, qarqarlar və başqaları ilə birlikdə), kəngərlər, Masaha və Sol sahil hunları, nəhayət xəzərlər kimi böyük etnoslar yaratmışlar. Nəzərə almaq gərəkdir ki, o zamankı Quzey və Güney Azərbaycanda bir neçə yüz min adam yaşaya bilərdi. XIX yüzilin başlanğıcında Avropanın sayca böyük olan xalqları sayılan fransızlar və ruslar 20 milyondan bir az çox, Böyük Britaniyanın əhalisi 10 milyona yaxın, Quzey Azərbaycanınkı isə 551 min idi. 1000 – 1500 il öncə bu xalqların sayca nə qədər olmalarını göz önünə gətirmək çətin deyil.

## 4. TÜRK TÖRƏYİŞ ƏFSANƏSİ XALQIN ETNOTARİXİ YADDAŞINDA

**KİTABİ-DƏDƏM QORQUD.** Bu adı daşıyan kitab ortaçağ tarixi qaynaqlarında ara-sıra izi görünən böyük epik abidədir. Əlyazmasının qorunub saxlanılması, sonralar isə dünya elminin malına çevrilməsi Avropa bilik ərənlərinin xidməti sayılmalıdır. ***Drezden*** Kral kitabxanasında əlyazmasını tapıb üzə çıxaran ***H.O.Fleyşer*** oldu (1802-ci il). O, kitabxana üçün tutduğu Şərq əlyazmaları kataloqunda belə bir ilkin arayış vermişdir: «152 yar-

paqlıq türkcə məcmuə, ... nəsih yazılı, əski Doğu türkcəsi və ya Oğuz şivəsi ilə yazılmış Kitabi-Dədə Qorquddur. İç Oğuz və Daş Oğuz qəbilələrinin Məhəmməd dövründəki macəralarının hekayətləridir. Kitabın adı bütün hekayələrdə Qorqud adında birinin böyük rolu olmasından irəli gəlməkdədir. Qorqudun dindar, ağıllı və oğuz qəbilələri mənsubları (sayılanları - *Red.*) arasında böyük etibar sahibi olduğu rəvayət edilir». Sonrakı 15 il içərisində əlyazması üzərində araşdırma aparıldı. ***H.F.Fon Dits***, «Basatın Təpəgözü öldürdüyü boyu» alman dilinə çevirib çap etdi; Təpəgöz ilə Homer «Odissey»indəki ***Polifemi*** qarşılaşdıraraq, yunanlara bu mövzunun Şərqdən keçdiyini söylədi.

Aradan 150 il ötdükdən sonra (1950) İtalyan oriyentalisti ***Ettore Rossi Vatikan*** kitabxanasında ikinci əlyazmasını tapdı. 1952-ci ildə Vatikan əlyazmasına geniş bir araşdırma qoşaraq çap etdi.

Əlyazmanın «***Kitabi-Dədəm Qorqud əla lisan-i taife-i Oğuzan***» adlanan Drezden nüsxəsi 304, «***Hekayət-i Oğuzname-i Qazan bəg və qeyri***» adlanan Vatikan nüsxəsi 98 səhifə tutur. Birinci 12, ikinci 6 boydur. Qazan bəy ilə birbaşa əlaqəli olan boyları əhatə edir.

Kitabi Dədəm Qorqud Azərbaycan tarixinin ana qaynağı, onun uzaq keçmişinin və ortaçağ yaşamının ensiklopediyasıdır. İndiki yunanların uzaq keçmişini «İlliada»sız, «Odisseya»sız, avropalıların tarixini Nibelunqlar dastanı, Roland dastanı olmadan araşdırmaq mümkün olmadığı kimi, oğuz türklərinin də yaranışını, bütünlüklə uzaq keçmişini Kitabi-Dədə Qorqudsuz öyrənmək mümkün deyildir. Kitabın boylarında yazılanların «Azərbaycan və Gürcüstanda» baş verdiyini bildirən ***A.Y.Yakubovski*** belə bir fikir söyləmişdir: «Kitabda olan bilgiləri moğollardan və hətta ***İslamdan öncəki*** oğuzların ictimai yaşayışını quraşdırmaq üçün istifadə etməyə bizim tam haqqımız var».

Dədə Qorqud kitabının bir tarixi qaynaq olaraq araşdırılması yenicə başlanmışdır. Buna baxmayaraq yazılı tarixi qaynaqların indiyə kimi heç-birində olmayan tutarlı biliklər üzə çıxanlmışdır. Təkcə uzaq keçmiş, əsatiri tarix göz önünə gətirilsə, Dədə Qorqud boylarında əski türk törəyişi əfsanələrinin, totemçiliyin güclü izləri qalmışdır. Kitabın baş qəhrəmanı bütün Oğuz elinin ikinci hökmdarı Qazan Alp özünü və deməli bütün oğuzları əski qurddan törəyiş əfsanəsi ilə bağlayır.

Kitabda olan anaxanlıq (matriarxat) qalıntıları elm üçün olduqca dəyərlidir. ***Qadın Ana*** boylarda ilahiləşdirilən bir varlıq, «Tanrı haqqının» daşıyıcısıdır. Bir ağır suç işləmiş olsa belə, toxunulmazdır: «***Ana haqqı Tengri haqqı deyilmişsə qara polad üz qılıcım dartdaydım, ğafillicə görklü başınq kəsəydim, alca qanınq yer yüzünə tökəydim***».

Buradakı «***Ana haqqı***» anlayışı dünya xalqlarının böyük abidələri silsiləsində yalnız Dədəm Qorqud kitabında, ***Homer «Odisseya»sında***, bir



də ***Esxilin «Oresteya»*** faciəsində gözə dəyir. Bəlli olduğu kimi, sonuncu əsərə isnad edən ***İohan Yakob Bahofen*** 1861-ci ildə ***Sürixdə*** «Ana haqqı» (Das Mutteracht) adlı bir araşdırma çap etmiş, bu anlayışın anaxanlıq tarixini öyrənmək üçün başlıca açar olduğunu yazmışdır.

Dədə Qorqud boylarında ikili (dual) qəbilə quruluşunun da izləri görünməkdədir. Uzaq keçmişdə oğuzların ***Boz ok*** (Boz uk) və ***Üç Ok*** (Üç Uk) adlanan iki fratriyaya bölünməsi uyğur «Oğuznaməsi» və ***Rəşidəddin*** «Oğuznaməsi» mətnlərindən bəllidir. Dədə Qorqud boylarında bu iki etnonimlə yanaşı, daha geniş, daha universal biçimdə İç Oğuz və Daş Oğuz bölgüsü ilə rastlaşırıq. Kitab Boz Ok-Üç Ok və İç Oğuz-Dış Oğuz ulu etnonimlərinin qan qohumluğunu üzə çıxaran, onların eyni tarixi yük daşıdığını göstərən çox tutarlı qaynaqdır.

Kitabda hərbi demokratiya çağına xas olan Basileus, Ağsaqqallar Şurası, Xalq yığıncağı kimi təsisatlar, «çox demokratik şəkildə» üç ildə bir dəfə aparılan ***qənimət bölgüsü*** ənənəsi öz əksini tapmışdır. Bununla yanaşı Dədə Qorqud oğuzlarının siyasi yaşamında əski Türk «Ciftə krallığı» çox böyük yer tutur. Yuxarıda bildirildiyi kimi, boylarda xanlarxanı ***Bayandur xan*** əski türk kağanlıqlarındakı Ulu Kağan, Bəylərbəyi ***Qazan Alp*** isə onun yardımçısı və ya cinişini Kağan bəy sifətilə çıxış edir.

Boyların hər biri bir Oğuzname adlanır. Bu oğuznamələrin başlıca mövzuları yüzillər boyu ozan sənətinin kürəsindən keçmiş, artıq VI-VII yüzillərdə yazıya alınmış, sonrakı iki yüz il içərisində fars (pəhləvi) və ərəb dillərinə «Oğuznamə» adı ilə çevrilmişdir. XV yüzil Drezden əlyazmasının özündən əvvəlki əlyazmalarında surət kimi çıxarılması bəllidir. Bir sözlə, «Kitab-i Dədəm Qorqud» minillik yazılı keçmişi olan bir qaynaqdır. Halbuki «Manas», «Alpamış», «Koroğlu», «Sasunlu David» kimi dastanlar yalnız XIX və ya XX yüzildə yazıya alınmışdır. Bununla yanaşı, XV yüzildən bəri kitabın başlıca əlyazmasındakı biliklər heç bir dəyişikliyə uğramamış, tirixi biliklər günlərimizə sanki donuq şəkildə gəlib çatmışdır. Əlyazma üzərində heç bir təftiş, «yeniləşdirmə», «yaxşılaşdırma» və ya «pisləşdirmə» işi görülməmişdir. Belə bir özəllik əlyazmanın böyük üstünlüyü sayılır.

**QURDDAN TÖRƏYİŞ ƏFSANƏSİ.** Türk xalqlarının törəyiş (geneoloji) əfsanələri içərisində Göktürklərə aid olan elmi ədəbiyyatda çox dəyərli sayılır. Əfsanənin ilkin orta çağ Çin qaynaqlarından alınmış mətni aşağıda mərhum Prof. ***Dr. Bahəddin Ögəlin*** «Türk mifologiyası» əsəri üzrə verilir:

«Gök türklər əski hunların soylarından gəlirlər və onların bir qoludurlar. Özləri isə Aşina adlı bir ailədən törəmişlərdir (Sonralar çoxalaraq), ayrı oymaqlar halında yaşamağa başladılar.

Daha sonra ***Lin*** adını daşıyan bir məmləkət tərəfindən məğlub edildilər (Məğlubiyyətdən sonra Gök türklər), bu məmləkət tərəfindən soyca öldürüldülər.

(Tamamən öldürülən Gök türklər içində), yalnızca 10 yaşında bir çocuq qalmışdı. (Lin məmləkətinin) əsgərləri, çocuğun çox kiçik olduğunu görüncə, (ona acımışlar və) onu öldürməmişlərdi. Yalnızca çocuğun ayaqlarını kəsmşlər və bir bataqlıq içindəki otlar arasına buraxaraq (getmişlər).

(Bu sırada) çocuğun ətrafında dişi bir qurd peyda oldu və ona ət verərək (çocuğu) bəslədi. Çocuq bu şəkildə böyüdükdən sonra dişi qurdla ər-arvad həyatı yaşamağa başladı. Qurd da çocuqdan bu yolla boylu oldu.

(Gök türkləri məğlub edən və həpsini qılıcdan keçirən Lin məmləkətinin) hökmdarı, bu çocuğun hələ yaşadığını duydu və onun da öldürülməsi üçün əsgərlərini göndərdi. Çocuğu öldürmək üçün gələn əsgərlər, qurdla (çocuğu) yan-yana gördülər. Əsgərlər qurdu öldürmək istədilər. Fəqət qurd (onları görüncə) həmən qaçdı və ***(Turfan)*** məmləkətinin quzeyində dağa getdi. Bu dağda dərin bir mağara vardı. Mağaranın içində də böyük bir ova bulunurdu... Dörd yanı çox dik dağlara dirənirdi. Qurd qaçaraq bu mağaranın içinə girdi və və orada on çocuq doğurdu.

Zamanla bu on çocuq böyüdülər və dışarıdan qızlar gətirərək onlarla evləndilər. Bu surətlə evləndikləri qızlar da boylu oldu və bunların hər birindən bir soy törədi. (İştə Gök türk dövlətinin qurucularının gəldikləri) Aşina ailəsi də (bu on boydan) biridir.

Onların oğulları və nəvələri çoxaldılar və yavaş-yavaş 100 ailə halına gəldilər. Bir neçə nəsil keçdikdən sonra həp birlikdə mağaradan çıxdılar. Ju-julara (yəni Juan-juan dövlətinə) tabe oldular, ***Altay*** ətəklərində yerləşdilər. Bundan sonra da Juan-juan dövlətinin dəmirçiləri oldular...»

Bu törəyiş əfsanəsi artıq VI yüzilin ortalarında Çin qaynaqlarında yazıya alınmışdı. Əfsanə türk xalqalrı yaşayan bütün torpaqlarda: Böyük Çin hasarından başlayaraq Mərkəzi Avropaya, Qıpçaq çölündən (Dəşti Qıpçaqdan) Aralıq dənizinə kimi yayılmışdı. Orta çağlarda təkcə Çin qaynaqları deyil, ərəb və suryani qaynaqları da bu əfsanə ilə bağlı olaraq türk xalqlarını «Qurd oğulları» adlandırırdı. Türklərin qurddan törəyiş əfsanəsinin izləri ***İslandiyada*** da üzə çıxarılmışdır.

Türk törəyiş əfsanəsinin yaşadıqca dəyişilməsi və unudularaq yaddaşlardan silinməsi barədə müxtəlif fikirlər var. Mete kağanın imperatorluğu çağında (m.ö. III-II yüzillər) ən çox yayılmış olan qurd kultu bəzi araşdırmaçıların fikrincə artıq I Gök türk kağanlığı çağında qeyb olmaq üzrə idi, bir ulu totemdən daha çox sayımlı bir rəmzə çevrilmişdi. Ancaq bəzi bölgələrdə qurd totemçiliyinin çox güclü izlərini hətta XI yüzildə də görə bilirik. Belə qaynaqlardan biri qədim Rus dövlətinin İpati salnaməsidir. Bənzəri olmayan bilgiləri özündə saxlamaqdadır. Salnaməçi 1097-ci ildə veqrlər (macarlar) ilə döyüş gözləyən qıpçaq knayazı ***Bonyak Burçeviçin*** (Böricik, yəni qurd ənügi oğlunun) qəribə bir davranışını qələmə almışdır.



«I yako bı polunoşçi i vstav Bonyak otexa ot rati i vıti volçski. O otvısya emu volk i naçaşa mnozi voltsi vıti. Bonyak je priexa poveda Davıdova yako pobeda nı est na Veqri». Çevirməsi: «Gecə yarısına doğru Bonyak [ata minib] əsgərlərdən uzaqlaşdı və qurd kimi ulamağa başladı. Bir qurd onun səsinə səs verdi, sonra çoxlu qurd ulaşdı. Onda Bonyak geriyə dönüb veqrlər üzərində uğur qazanacağını Davidə bildirdi».

Qaynaqdakı bu yazı XI yüzildə qurd ilə bağlı görüşlərin hələ quru bir rəmzə çevrilmədiyini göstərir. Gerçək tarixi şəxs rəmzə deyil, canlı qurdun özünə söz söyləyib istəyini bildirir. Və ulu ana qurd sürüsü ilə birlikdə «istənilən cavabı» verdiyi üçün Bonyak sabahkı döyüşdə uğur qazanacağına inanıb rahatlıq tapır. Burada Bonyakın qurd ilə birbaşa ünsiyyətə girməsi hələ yaşamaqda və işləməkdə olan totemçilik deyilsə də, onun çox güclü qalığıdır. Bu, insan həyatında mühüm yer tutan, öz funksional dəyərini itirməmiş olan gizli bir kamlıq yapısıdır.

**TÖRƏYİŞ ƏFSANƏSİ «DƏDƏM QORQUD» BOYLARINDA.** Geniş yayılmış türk törəyiş əfsanəsi Azərbaycan türklərinin etnotarixi yaddaşında iz buraxıbmı? Və bu yaddaşın bərpa edilib öyrənilməsi işinə kömək edə biləcək qaynaqlar bəllidirmi? Hər iki sualın açımı yolunda Dədə Qorqud boylarının müstəsna yeri vardır.

«Dədəm Qorqud» kitabında qurd bir soykök olmaqla dönə-dönə yad edilir. belə yazılardan ən dəyərlisi «Salur qazanın dustaq olub oğlu Uruz çıxardığı boy»dur. Yağılar əlinə əsir düşən Qazan xan öz nəsil ağacının keçmişini öyərək belə bir «arayış» verməyi lazım bilir: «***Azvay qurd ənigü erkəgində bir köküm var***, ağca yunlu tümən qoyununq gəzdürməyə».

Salur Qazanın evinin yağmalandığı ikinci boyda Qazan xan qurda üz tutub, onunla «xəbərləşir». «Qurd yüzi mübarəkdir» söyləyərək, ona bir ulu varlıq kimi ehtiram bildirir, onun döyüşçü-ər təbiətini oxşayıb deyir:

«Qaranqu axşam olanda güni toğan
Qar ilə yağmur yağanda ər kibi turan
Qaraqoç atları kişnəşdirən
Qızıl dəvə gördügində bozlaşdıran
Ağca qoyun gördügində quyruq çarpub qamçılayan
Arqasını urub bərk ağlın ardın sökən...
Ordumın xəbərin bilürmisən degil mana
Qara başım qurban olsun, qurdum, sana».

Dədə Qorqud boylarında özünə yer tapmış olan bu totemçilik bilgisinin tarixi dəyəri sözsüzdür. Çünki «Oğuznamə» adı daşıyan başqa qay-

naqlarda: Rəşidəddin və ***Yazıcıoğlu Əli*** «Oğuznamə»lərində, habelə ***Xivəli Əbülğazi xan Bahadurun*** «Şəcəreyi-tərakimə» əsərində totem qurd surəti yoxdur. Mənbəşünaslıq baxımından «Dədəm Qorqud» kitabına yaxın olanı yalnız uyğurca yazıya alınmış «Oğuznamə»dir. Bu kitabın elmə bəlli olan yeganə ***Paris*** nüsxəsi XIII-XV yüzillərə aid edilsə də, islam təsiri görməmiş yeganə bir mətn sayılır. Burada çıxış edən «Gök Böri» - Göy Qurd, artıq oğuzlar üçün bir hərbi başbilən kimi çıxış etmədədir. Oğuz kağan yarlık verib öz elini döyüşlərə qaldırarkən qurdun onlar üçün yol göstərən bir alp olacağını qabaqcadan bu sözlərlə bildirir: «Tamğa bizge bolsun buyan, Gök Böri bolsunğıl uran». Sonrakı səhifələrdə «Gök yallı, gök tüklü» bir erkək qurd oğuz qoşununun önünə çıxıb onu yağılar üzərinə dəfələrlə yürüşə aparır. Burada qurd alpdır. İgidlik, ərlik, güc və bilginlik daşıyıcısıdır. Dədə Qorqud boylarında da qurd alpdır. Basılmaz döyüşçü, bütün oğuz döyüşçülərinin oxşamaq istədikləri igiddir. Əmən bəyin VII boyda söylədiyi kimi: «Yeddi bayırın ***qurduna bənzərdi yigidlərim***». Deyimin kökü tarixin alt qatlarındadır. Artıq Göktürk kağanlığı rəsmi ənənəsində (Orhun yazılarında) müzəffər dövlət qoşunu qurd xislətli sayılmada idi. Kül Tigin şərəfinə yonulmuş böyük yazıda belə bir parça var: «Tanrı güc verdiyi üçün kağan atamın qoşunu ***qurd (kimi)***, yağısı isə qoyun (kimi) olmuşdu». Kağanlığın imperator qvardiyası birbaşa «Böri» adını daşımışdır.

«Dədə Qorqud» boylarında qurddan törəyiş inancı ulu ana qurd və ulu ata qurd surətlərini sanki çulğaşıq bir şəkildə hifz etmişdir, yəni burada həm Göktürk, həm də hun - Kao-çi təsəvvürlərinin izləri qalmışdır. Görünür, bunun səbəbi Qafqazın güney hüdudlarında IV-V yüzillərdə Onoqur, Onoquz hunlarının («Atilla hunlarının»), VI-VII yüzillərdə isə (bulqar) barsil hunlarının nüfuz etməsi ilə bağlıdır. Ancaq Dədə Qorqud boylarındakı törəyiş inancı Gök türklərin ana qurd əfsanəsi ilə birbaşa səslənməkdədir. Qazan xan, «qurd ənügi erkəgində bir kökürn var» söyləməklə, Göktürk kağanlarının Aşina nəsil kimi, özünü ulu ana qurdun oğlu sayır. Bu sonuncudan doğulan 10 oğlancıqdan hər biri, yuxarıda gördüyümüz kimi, Göktürk törəyiş əfsanəsi üzrə qurdun erkək çocuğu - «qurd ənügi erkəgi» olmuşdur. Çünki oğlancıqları qurd ana doğmuşdur və insan ata deyil, qurd ana bəsləyib böyütmüşdür.

Qorqud boylarında Göktürk törəyiş inancının (ulu ana qurd surəti) geniş iz buraxması bu boylardakı ana aslan surətində də özünü göstərir. Bu baxımdan Aruz Qoca oğlu Basatın soy kök arayışını alaq: «Atam adın sorar olsan, Qaba Ağac, anam adın deyirisən Kağan Aslan, mənim adım sorarsan, Aruz oğlu Basatdır».

Bu arayışın arxasında Azərbaycan dastanlarında bir növ universal yer tutmaqda olan bir mövzu: «düşmüş», itirilmiş oğuz oğlancığının bir yırtıcı



tərəfindən tapılıb bəslənməsi, böyüdülüb başa çatması mövzusu dayanmaqdadır. Basatın soykök arayışı boyun başlanğıcında verilmiş olan hekayətlə bağlıdır. Kitabın VIII boyu bu sözlərlə başlayır: «Məgər xanım, bir gün Oğuz otururkən üstünə yağı gəldi. Dün içində ürkdi, köçdi. Qaçıb gedərkən Aruz Qocanınq oğlancığı düşmiş, bir aslan bulub gətirmiş, bəsləmiş. Oğuz yenə əyyamla gəlüb yurdına qondu. Oğuz xanınınq ilqıçısı gəlüb xəbər gətürdi aydır: Xanım, sazdan bir aslan çıqar, at urar, apul-apul yürüyişi adam kibi. At basuban qan sumurər. Aruz aydır: Xanım ürkdigimiz vəqtin düşən mənim oğlancığımdır bəlkə? - dedi. Bəglər bindilər. Aslan yatağı üzərinə gəldilər. Aslanı qaldırıb oğlanı tutdılar. Aruz oğlanı alub evinə götürdi...»

***V.M.Jurmunskinin*** fikrincə Basat və Qazan xan (o da «ağ saz aslanını» qurd ənügi ilə yanaşı özünə soykök sayırdı) kimi alpların aslan (qaplan) ilə «qohumluğu», onların törəyiş «tarixçəsi» bir rasional quramadır; Təpəgöz kimi qorxunc və yenilməz bir yağıya oğuz alpının üstün gəlməsinə inam yaratmaq üçün düşünülmüşdür. O yazır: «Basatın uşaqlıq hekayəti bilavasitə «totemçilik əfsanəsindən» deyil, daha çox belə görüşlərdən yaranmışdır». Məsələ göründüyü kimi sadə deyil.

Basatın böyüdülüb bəslənilməsi ilə bağlı arayış ulu əcdad ana kultunun qalıqlarından başqa bir şey deyildir. Çünki güc və haqq daşıyıcısı olmaqla soykök ana xətti burada açıq-aydın ata xəttinə qarşı qoyulmuşdur. Görünür, bu kimi görüşlərlə bağlı olaraq oğuz alpı əcdad ana bətnindən doğulmuş varlıq ilə qarşılaşıb duruşmamalı idi. II boyda yağılar Qazan xana: «Qarıcıq ananı götürmişüz bizimdir. Sana verməriz. Yayxan (?) keşiş oğluna verərüz, Yayxan keşiş oğlundan oğul toğar, biz anı sana qırım qoruz dedilər». Oğuzlar, oğuz anasından doğulacaq varlığın onlara qarşı «qırım qoyulmasına» heç cür razı olmayıb başqa təklif irəli sürürlər: «Şöklü Məlik, qaragözlü qızın var isə, Qazana ver, mərə kafir, sənin qızından oğlı toğsun. Siz anı Qazan bəgə qırım qoyasız dedi». Aydındır ki, belə bir nikahdan doğula biləcək yağı nə qədər güclü olsa da, Təpəgöz kimi sonda ölümə qovuşacaqdı.

Boylarda aslan surəti ilə oxucu bir yerdə deyil, dəfələrlə qarşılaşır. Boyları yaradan xalq üçün aslan təsadüfi bir personaj deyil, ulu soykökdən biridir. XI boyda «Azvay qurd ənügi erkəgində bir kökürn var» söyləyən Qazan xan, həm də ***Ağ qayanın qaplanında, Ağ sazın aslanında və Ağ sunqur quşunda*** «bir kökürn var» deyir. Beləliklə, bu döad varlığı oğuzlar özlərinə ulu əcdad sayırdılar. Aydındır ki, ulu sayılan varlığın dördü də: aslanla yanaşı qurd, qaplan və sunqur quşu da yalnız bir «rasional düşünüşdən» yarana bilməzdilər.

Oğuzların aslana qarşı totemçilik ehtiramı «rasional» deyil, dərin və sonsuzdur. I boyda atası Dirsə xanın oxundan ölümcül yaralanmış Buğac

bəy, anasının aslan ünvanına qarğış etməsinə razı ola bilmir: «Aslan ilə Qaplanına qarğamağil, Qazılaq dağınunq (Qazılıq dağı burada müqəddəs ulu yurd – vətən anlamında işlənir, Orhun yazılarındakı «*Ötükən yış*» söz birləşməsinə uyğun gəlir – *Red.*) suçi yoqdur». Basat boyunda isə, yuxarıda gördüyümüz kimi, ulu ana aslana qovuşmaq, ondan qopub ayrılmaq duyumu bildirilir. «Bəglər bindilər, aslan yatağı üzərinə gəldilər. Aslanı qaldırıb oğlanı tutdular, Aruz oğlanı alub evinə gətürdi. Şadlıq etdilər. Yemə-içmə oldu. ***Amma oğlanı nə qədər götürdilərsə, turmadı***, gerü aslan yatağına vardı». «Av avlamaq» ustası olan Oğuz bəyləri ana aslan üzərinə gəlsələr də, onunla bir yırtıcı kimi davranmamış, onu ancaq «yatağından qaldırmışlar».

Basatın soykök arayışında «Kağan aslan» analayışı ayrıca yer tutur. Arayışın açımı üçün bu anlayış böyük məna yükü daşımaqdadır. ***O.Ş.Gökyay*** və ***V.V.Bartold*** kimi görkəmli qorqudşünaslar «Kağan aslan» söz birləşməsini «kükrəmiş», «qızmış», «öfkələnmiş» mənasına yozmaq istəmişlər. Əslində isə bu anlayış aslanın psixoloji vəziyyətini deyil, onun güclülər güclüsü, ovçular ovçusu, saz-orman hökmdarı olduğunu bildirmək üçün işlənmişdir. Güc dünyasında birinci olan aslan əsatiri çağlardan Böri (Qurd) ilə yanaşı qəbilə soykök totemi, dövləti cəmiyyət yarandıqdan sonra isə kağan rütbəli mifoloji əcdad kimi düşünülməkdə idi. Uyğur «Oğuznamə»sində də Oğuz kağanın anası ***Ay Kağandır***, yəni oğuzları dünyaya gətirən kosmik əcdad da kağan sayılırdı. İlkin əfsanəvi əcdadımız ***Böri Tiginin*** adı da «Böri kağanın oğlu» deməkdir («tigin» sözünün çevirməsi «kağan oğlu», «şahzadə»dir). «Dədəm Qorqud» kitabında aslanın soykök ehramının yuxarı qatına, kağanlıq şərəfətinə ucaldılması təbii sayılmaqdadır. Oğuz dilində Orhun abidələrini yaradan Göktürk imperatorları da özlərini dünya xalqlarına «Böri (qurd) oğulları» kimi tanıtmağa çalışıblar. Bununla onlar türk törəyiş əfsanəsindən kağanlıq üçün bir «hüquqi vəsiqə» kimi istifadə etmək istəyirdilər. Çünki ulu ana qurdun doğub bəslədiyi Aşina soylu oğlancıq Böri Tigin kağan titulu daşıyan bir varlıqdır. Belə isə ***Kağan Aslan*** söz birləşməsi bu ulu totemin «acıqlı», «kükrəmiş», «öfkələnmiş» vəziyyətini deyil, onun kağanlığını, şahlığını bildirir. Bütün bunlara görə boylardakı ana aslan ilə bağlı görüşləri Təpəgöz bəlasından qurtulmaq üçün oğuzların sonrakı quraması kimi qələmə vermək elmi baxımdan düzgün deyildir.

Mürəbbi ana aslan inancı ulu soykök ana qurd əfsanəsi (Aşina soyunun qurddan törəyiş əfsanəsi) üzərində «bəstələnib» yaranmış olmalıdır. «Kağan Aslan»-mürəbbi ana «Saz Aslanı» anlayışı ulu ana qurd surətindən proyeksiya edilərək yaranmışdır. Bir sözlə, ulu ana qurd surəti əcdad totem olmaqla yanaşı, Oğuz görüşlərində totemlər totemi kimi çıxış etmədə idi.



**TÖRƏYİŞ ƏFSANƏSİ SÖZ SƏNƏTİNİN BAŞQA ÖRNƏKLƏRİNDƏ.** Qurddan törəyiş əfsanəsi yalnız Dədə Qorqud boylarında iz buraxmamışdır. Bu əfsanənin mövzusu, ayrı-ayrı motivləri Azəri türklərinin başqa dastanlarında, bütünlüklə epik sənətində silinməz iz buraxmışdır. «Koroğlu» dastanının «Koroğlu və Aypara» qolundan qurd törəyiş əfsanəsinin sorağı gəlməkdədir. Koroğlunun da yeni doğulmuş oğlu, kiçik Basat kimi, «itirilmiş», onu da bir dişi qurd taparaq öz südü ilə bəsləmişdir. Hekayət eynidir, ancaq «Koroğlu» dastanında oğlancığı aslan yox, qurd tapmışdır (bu, ana qurd əfsanəsinin birinci olduğunu aydın göstərir).

Tək Koroğlu yox, dəliləri də ana qurd törəyiş əfsanəsinə bağlıdırlar. Onlar da Qazan xan kimi qurd kökündən doğulub yarandıqlarını söyləyib öyünürlər: «***Koroğlunun qurd oğluyam***», «tülkü nədi pəncə vura aslana, gərək budu ***qurddan olan qurd olu***», «dava günü ***qürd dəlilər***, Balıcaya səfərim var...»

Azərbaycan xalq ədəbiyyatında Dədə Qorqud boylarından gələn bir etnotarixi yaddaş ənənəsi yaşamaqdadır. Dədə Qorqud boylarında Oğuz alpı «yüzi mübarək» qurdla ***xəbərləşib***, «ordumun xəbərin bilürmisən, degil mana» söyləyirsə, «Əsli və Kərəm»in qəhrəmanı da qurdla «xəbərləşir». «Qoyunları yeyən qurdlar, qurdlar, Əslimi gördüzmü?» soruşur. Dədə Qorqud boylarında ulu qurd «ağca qoyun gördügündə quyruq çarpub», «ögəc simizin» qarmaladığı kimi, Koroğlu da «sürüsündən quzu qapdım ***uladım***» söyləyir; Oğuz yeniyetməsi Yegenək babasına çatıb qovuşarkən, «***ıssuz*** yerün qurdu kimi ***uluşursa***», Koroğlu da «ağ sürüdən əmlik quzu qopardım, yeyib qurdlarınla ***ulaşım***, dağlar» söyləyir, «ac qurd kimi düşmən üstə ***ularam***» deyir. Və bu deyimlər qıpçaq knyazı Bonyakın döyüşdən qabaq ***ulayıb*** qurdla «***xəbərləşməsi***», Mahmud Kaşqarlıda «Ərənlər ulaşıb bozlayırlardı» (türklərin ilk kağanı Alp Ər Tunqa öldüyü üçün) ağısı ilə yanaşı qoyulduqda, qurddan törəyiş əfsanəmizdən gələn bütöv bir silsilə üzə çıxmış olur.

**ÜMUMİRAN KÜLTÜR YARADICILIĞINA QOŞULMA «NƏZƏRİYYƏSİ».** Qarşılıqlı etnotarixi, etnomədəni və dil əlaqələrinin öyrənilməsi son illərə kimi türk xalqlarına qarşı çox birtərəfli aparılmaqda idi. 1983-cü ildə Moskvada çıxan «Orta Asiya, İran və Azərbaycan xalqları dastan sənətinin qarşılıqlı əlaqələri» (Müəllif X.Koroğlu) kitabı buna örnəkdir. Guya Azərbaycanda və Orta Asiyada əski çağlarda ilk öncə «yalnız (?) irandilli tayfalar yaşamışdır». Minillər boyunca mədəni dəyər və imarətləri: əski dastanları, sonralar isə «dövlət dastanları»nı yalnız iranlılar yaratmış, türk xalqları isə bu işə yaramayıb kənarda seyrçi kimi durmuşlardı. Guya yalnız Orta Asiya və Azərbaycan torpaqları türkdilli tayfalar tərəfindən koloni-

zasiya edildikdən sonra «regionun etnik quruluşu köklü dəyişikliyə uğradı və dastan sənətinin inkişafında yeni mərhələ açıldı». Və yalnız bundan sonra «türklərin ümumiran kültür yaradıcılığına qoşulması» baş verdi, «türk xalqlarının yeni epik abidələri yarandı».

Əslində isə türk xalqlarının söz sənəti, bütün epik yaradıcılığı tarixin adı çəkilən keçidlərində «lal seyrçi» olmamış, dəyəri ölçülməz ulu əsərlər ortaya çıxarmışdır. «Əski» və «dövlət» dastanları bölgüsünə gəldikdə, onların bir-birinə qarşı qoyulması yersizdir. Kitabi-Dədəm Qorqud boylarından hər biri ayrıca bir «Oğuznamə», yəni ayrıca bir dastandır. Bunların çoxu qəbilə quruluş çağları ilə də (Anaxaqanlıq – «Ana haqqı, Tanrı haqqı», ikili qəbilə təşkilatı və s.), totemçilik görüşləri (qurd, aslan, sunqur), qamlıq, şamançılıq inancları (Qazılıq dağı, görklü su və b. k.), əsatiri fövqəlbəşər varlıqlar mövzusu (Tanrı, Təpəgöz) ilə də qırılmaz bağlılıqdadır. Bütün bunlar sözün bütöv anlamında «əski dastan» deyilmi? Bununla yanaşı bu oğuznamələrin bir neçəsi «dövlət dastanı» biçimindədir, çünki əski türk hökmdarları Oğuz kağan (Alp Ər Tunqa), Atilla tarixinin izlərini, Bayandur xan – Qazan xan dövlət idarəçiliyi ilə bağlı türk «ciftə krallığı» mövzusunu yaşatmaqdadır.

Türk söz sənətinin bir-birini əvəz edən bu dönümləri ümumiran kültur yaradıcılığına, iranlıların «əski» və «dövlət» dastanları mövzularına qoşulmadan baş vermişdir. Başlıcası isə, «sonrakı türkləşmə» çağında deyil, qat-qat əvvəl yaranmışdır. Z.M.Bünyadov bir zaman haqlı yazmışdı: «Bəzi araşdırmaçılar kimi, türkləşmənin XI-XII əsrlərdə baş verdiyini qəbul etmək yanlışlıq olardı. Türklərin Azərbaycan ərazisinə kənardan gəlmiş bir ünsür sayılması da yanlışdır, çünki belə olduqda yerli böyük və çox yığcam türk tayfa birliklərinin varlığına göz yumulur».

V.V.Bartold qorqudşünaslıqda ilkin olaraq «Qorqud» kitabının başlıca mövzularının süni «cavanlaşdırılmasına» qarşı çıxmış, bundan çəkinməyə çağırmışdır. Bu kitabı «Əski türk poeması» adlandıran Bortoldun fikrincə, «Qorqud mövzusu» kökcə çox əskidir və oğuzlar onların yayılma yürüşlərinin başlanğıc çağında onunla artıq tanış idilər. Bartolda görə boylarda adı çəkilən «Ol zaman», «Oğuz zamanı», yəni kitabın qəhrəmanlarının yaşadığı çağ «uzaq keçmişə, islamın ilk yüzilinə düşür». Minillər əvvəl yaranmış olan əsatiri türk qurddan törəyiş inanışı «Ol zamanda», «Oğuz zamanında» da, indi də Oğuz soyköklü toplumların etnotarixi yaddaşında yaşamış və yaşamaqdadır. Belə isə oğuz soykökündən olan xalqların yaranış tarixini nə İran, nə də Qafqaz-İber dünyası ilə bağlamaq üçün tutarlı dəlil-sübut var. Çünki bu xalqların tarixinin «Kitabi-Dədəm Qorqud», «Oğuznamə», Orhun yazıları kimi ana qaynaqlarında Qafqaz mifologiyasının heç bir qalıntısı yoxdur. İran cəngavərlik dastanlarının aparıcı qəhrə-



manları olan ***divlərin*** və ***Simurq*** quşunun da, ***Huşəng, Keyumərs, Cəmşid, Feridun*** kimi əfsanəvi İran şahlarının da adları, az-çox duyula biləcək «qoxusu» belə yoxdur. Bununla irandilli və qafqazdilli toplumların bu və ya başqa ölçüdə bir xalqın yaranışında iştirak etməsini kimsə danmaq fikrində deyil. Bu, yersiz bir iş olardı. Ancaq söhbət Azərbaycan türklərinin hansı kökdən yaranmasından, bu yaranışda hansı kökün aparıcı rol oynamasından gedir. Bu kök əsatiri türk tarixindədir.

**ÖZÜNÜ DƏRK ETMƏ, ÖZÜNÜ OĞUZ BİLMƏ.** Dədəm Qorqud boylarında «Oğuz» anlayışının çox geniş etnosiyasi və etnomədəni çalarda işlənməsi diqqəti özünə çəkməkdədir. Burada «Oğuz» bu adı daşıyan xalqın elidir, yəni dövlətidir; həm bu xalqın özünün, həm də onun yaşadığı ölkənin adıdır. Bu üç çalarda «Oğuz» anlayışı, Orhun yazılarında ilkin olaraq işlənməyə başlamışdır. Orada Gök türklər «Oğuz»la beş dəfə vuruşmalı olmuşlar. Orada «Oğuz», konfederasiya birliyinə bənzəyişi olan Göktürk kağanlığı tərkibindədir və bu birlikdən çıxmaq durumunda olan bir toplumdur. Kül Tiginin böyük yazısı bunu aydın göstərməkdədir: «Doqquz oğuz xalqı mənim öz xalqım idi. Göy, Yer qəzəbləndiyi üçün bizə yağı kəsildi. Bir ildə beş dəfə süngüləşməli olduq». Bununla yanaşı, bu kağanlıq özü etnosiyasi və etnomədəni baxımdan «Oğuz elidir», bu elin xalqı Oğuz xalqı, bəyləri də oğuz-türk bəyləridir. Yenə Kül Tigin yazılarındakı: «Doqquz ***Oğuz bəyləri, xalqı***, bu nitqimi yaxşıca eşidin», «ey ***türk oğuz bəyləri, xalqı***, eşidin» sözləri bununla bağlıdır. Qəhrəmanın «oğuz xalqı mənim öz xalqım idi» (Oğuz budun kentu budunum erti) deməsi də bununla bağlıdır.

Dədə Qorqud boylarında Oğuz, «Qapılar Dərbəndi» ilə «Doqquz tümən Gürcüstan» və güney-batıda Trabzon-Bayburt xəttinə yaxın olan bölgələrdə yerləşən bir ölkədir. Azərbaycan türklərinin etnotarixi keçmişində «Oğuz» anlayışı ilkin doğma boy adı (etnonim) olmuşdur. Bu ad altında kitabda Quzey və ya Güney Azərbaycanın, Şirvan və Aranın əyalət müstəqilliyi deyil, «Oğuz» xalqı yaşayan torpağın bütünlüklə mədəni-siyasi birlik fikri, bu birliyin qorunması fikri irəli sürülür. Oğuzların bir xalq kimi varlığı, Oğuz elinin bütövlüyü və bölünməzliyi səpgisində düşünülür. Bu bütövlüyə qarşı yönəlmiş olan «iç yağıların» mərkəzdənqaçma çıxışları kəskinliklə pislənir. Dirsə xanın bəyləri xəyanət etdikdə: «Eldə yağı yox ikən baban üstünə yağı gəldi» söylənilir. «Qalın Oğuz» anlayışının bildirdiyi etnosiyasi birlik üçün qorxu yarandıqda, «Daş Oğuz İç Oğuza asi oldu» deyə bütün oğuzlar Aruz Qoca kimilərinə qarşı savaşa çağırılır.

Dədə Qorqud boylarında «Oğuz» anlayışının etnonim çalarında işlənməsini bu anlayışın «türkmən» sözünə qarşı qoyulması da aydın göstərir. Altıncı boyda Qanturalı bəy atası Qanqlı Qoca ilə öcəşərək, «cici-bacı türk-

mən qızı»na evlənməkdən boyun qaçırır. Doqquzuncu boyda isə oğuzların yağıları «Oğuzun arsızı, türkmənin dəlisi» deyimini işlətməklə bu iki adı daşıyan xalqların etnik varlığını bir-birindən seçirlər.

Kitabda «oğuz» və «türkmən» anlayışlarının ayrı-ayrı etnonim kimi işlənməsi Dədə Qorqud boyları üçün «özünü dərk etmə», «özünü oğuz bilmə» damğasıdırsa, oğuzlara qarşı duran yağıların düşüncəsində oğuzları başqa toplumlardan «ayırıb tanıma» vasitəsidir. Tanınmış türkoloq ***Xalıq Koroğlu*** yazır: «Qorqud kitabı»ndakı ayrı-ayrı leksik-qrammatik ünsürlərin bugünkü türkmən dilində qalması heç də abidənin dil tərkibinə görə Azərbaycan mühitinə mənsub olması fikrini, onun yaranıb qəlibə düşməsi, şəksiz olaraq bugünkü azərbaycanlıların oğuz əcdadları arasında baş verməsi fikrini inkar etmir. Sözün daha doğrusunu söyləsək, «Qorqud kitabı»nda olan türkmən ünsürləri, bu qohum xalqların bütün türkoloqlar tərəfindən qeyd olunan uzaq keçmişdəki yaxınlığını bir daha nəzərə çarpdırır».

Beləliklə, «Oğuz» çox tutumlu bir anlayışdır. Bu anlayış boyları yaratmış olan, Dədə Qorqud dünyasını yaşatmaqda olan xalqın öz adıdır. Özünü dərk etmək damğasıdır. Bu anlayışın belə geniş çalarda işlənməsi həm də özünü başqa xalqlardan, hətta özü ilə bir kökdən olan qohum xalqlardan seçmə, ayırma vasitəsidir. Bir çox tarixçilər «Bizlər» – «Onlar» antitezasını özünü dərketmənin başlıca göstəricilərindən biri sayırlar. Belə bir özünüdərketmə Dədə Qorqud boylarında çox güclü bir iz buraxmışdır.

**DİL, YARANIŞIN QAYNAĞI KİMİ**. X-XI yüzil Oğuzları Azərbaycana gəldikdə bura türklər üçün «kəşf olunmuş», artıq «Ötükən Yış» olmuş bir ölkə idi. Burada vətən bulmuş, sıx toplum halına gəlmiş türklər Transqafqazın başqa bölgələrində, Ermənistan və Gürcüstanda da artıq yerləşib yaşamaqda idilər. Miladdan sonrakı I minilliyin ortalarında erməni kilsə dilində yazılmış kitablarda ***tel, hot (ot), pərdi, aruq*** kimi azəri türkcəsindən alınma sözcüklərin işlənməsi yalnız bununla bağlı idi. XIX əsr alman şərqşünası A.D.Mordtman yazırdı ki, burada söhbət «eramızın IV, V, VI və VII yüzillərində yazılı erməni dilində işlənmiş türk sözlərindən gedir, halbuki o zaman bir kimsə Səlcuqlar, Osmanlılar və başqaları haqda heç bir şey eşitməmişdi». Qədim erməni kitabları kilsə ruhanilərinin düşüncəsi və əli ilə yaradılırdı. Onlar isə xristian kitablarına bütpərəst «barbar dünyası» dillərindən hər hansı bir sözcüyün gətirilməsini böyük qısqanclıqla qarşılayırdılar. Amma, görünür, qonşu xalqlar arasındakı gündəlik dil anlaşması üstqurum yasaqlarına güc gəlirdi. Nəinki IV-VII yüzillərdə və bu yüzillərdən öncə türk toplumu Transqafqaz vətənində oturub yaşamasa idi, onun dilindən alınma sözlər qonşu xristian yazılı qaynaqlarında yer tuta bilməzdi.



IV-VII yüzillərin kitablarında Mordtmanın üzə çıxardığı sözcüklər sadəcə türk sözləri deyil, ***Oğuz sözləridir.*** Transqafqaz bulqarları, buntürkləri, albanları, kəngərləri içərisində heç bir oğuz və ya oğuz-qıpçaq dil ünsürü yox idisə, bu oğuz sözcüklərini külək və ya yağışmı gətirmişdi əski erməni kitablarına?

Dədə Qorqud boylarının dili ***Göktürk*** oğuzlarının dilinə çox yaxındır. Hər iki qaynaq ilə tanış olduqda yazılışca və ya semantika baxımından bütünlüklə eyni çalar daşıyan anlayışlar, deyimlər qarşıya çıxır:

| ***Kitabi-Dədəm Qrqud*** | ***Əski Türk run abidələri*** |
|---|---|
| Qadınım ana | Ögim qatun |
| Qadın ana | Anası qadın |
| Ana haqqı Tanrı haqqı | Umay teq ögim qatun |
| Xan baba, qadın ana | Qanım kağanığ, ögim qatunığ |
| Anam kişi (qız kişi) gəlin kişi | Dişi kişilər |
| Qız oğlan | Qız oğlan |
| Qızım-gəlinim | Qız-gəlinlərim |
| Qaza bənzər qızım-gəlinim bunqlu oldu | Silik qız oğlın kün boltı |

Boyların sözlüyündə əski türkcədən, başlıca olaraq Orhun yazılarındakı Oğuz türkcəsindən qalma arxaik sözlər təbəqəsi yaşamaqdadır. ***İssu/İssi*** (sahib, başbilən), İssız (bir kimsəsiz, sahibsiz), uyluk, oyluk (bud, bacaq), bukac (buxaq), qancarı (hancarı) kimi anlayışlar Orhun yazılarında və Dədə Qorqud əlyazmasında var, qədim türk dillərinin böyük qaynaqları olan Mahmud Kaşqarlı «Divan»ında və «Kutatqu bilik» poemasında isə yoxdur. Bir düzüm sözcüklər ortaçağ klassiklərimizdən ***Nəsimi, Xətai, Füzuli*** «Divan»larında da işlənməmişdir. Buna görə Dədəm Qorqud kitabının əlyazması bütün əski türkcənin başlıca qaynaqlarından biri sayılmalıdır.

Azərbaycan türk toplumunun əski dili ***qərbi hun***, başlıca olaraq bulqar-qıpçaq özülü üzərində yaranmışdır. Əski türkcənin bu qolu böyük yazı keçmişi olan oğuz türkcəsinə yaxın idi. İlkin orta çağda oğuz türkcəsi etnoslararası bir ünsiyyət vasitəsi kimi çox geniş yayılmışdı. ***V.V.Bartoldun, A.N.Kononovun, E.R.Teniçevin, N.A.Baskakovun*** fikrincə, Orhun abidələrinin dili Oğuz türkcəsidir, onların sırasında Tonyükük yazısının dili isə «təmiz oğuz türkcəsi biçimindədir».

N.Y.Marr yazmışdır: «Türklərin əbədi fəallığı VI yüzildən bəllidir. Və əgər çinlilər onları təxminən min il ondan qabaq tanıyırdılarsa..., mütəxəssislər isə bizə «türk dilləri öz mühafizəkarlığı ilə seçilir, məsələn, VI yüzil

kitabələrinin (dili) indi də mövcud olan dialektlərdə qalmaqdadır» söyləyirlərsə, onda belə çıxır ki, (bu dialektlər) 1300 il pozulmadan yaşayıb qalmışdır; deməli, çinlilər hələ o zaman bunu bildirməyi gərəkli sayırlardı».

Dədə Qorqud boylarının başlıca, aparıcı mövzuları tariximizin alt qatları ilə səsləşməkdədir. Bu boyların iki yüz ilə yaxın öyrənilmə tarixində böyük payı olan rus türkoloqu V.V.Bartoldun yazdığı kimi, Kitab islamın ilk yüzilində Qafqazda Dərbənd keçidi ilə Ermənistan yaylası arasındakı bölgələrdə bəstələnib yaranmışdır. Ancaq Qorqud kitabı Güney Qafqazla yalnız tarixi coğrafiya baxımından bağlı deyildir. Onun sözlüyü, bütün qrammatik quruluşu Azərbaycan türklərinin bir xalq kimi yaranışının göstəricisi sayıla bilər. Boydan boya keçən xalq danışığı, söyləm və deyimləri Oğuz türkcəsinin, bir sıra hallarda birbaşa Orhun yazılarının maddi özülünə dayanmaqdadır. Bununla yanaşı, bu dil keyfiyyətcə aotıq yeni, analitik quruluş halındadır. Bu dildə danışanlar islamdan qabaqkı protooğuz toplumları deyil, aydın coğrafi hüdudlarda yaşamaqda olan, artıq yaranmış olan bir xalqdır. Görkəmli türkoloq – qorqudşünas Mühərrəm Ergin bununla bağlı yazmışdır: «Dədə Qorqud kitabı bir kəsə Azəri sahəsinin əsəridir. İçində keçən yer və kavım adları bunu açıqca göstərməkdədir. Fəqət, bunun, yəni əsərin dili də bu sahənin damğasını daşımaqdadır... Dədə Qorqud kitabının yalnız qramer yapısı, dil yapısı deyil, üslubu da Azəri sahəsinin havasını daşır. Məcazi ifadədən mümkün olduğu qədər uzaq, məfhumları özlərinə ən yaxın əsil kəlmələriylə qarşılayan gerçəkçi, özlü və yalın anlatış Azəri ifadəsinin bariz vəsfini təşkil edər. Dədə Qorqud kitabında da eynən boylə bir üsluba, boylə bir ifadə tərzi ilə, bu çeşid bir üslub ilə qarşı-qarşıya qalırız».

**«SOYKÖK BİRLİYİ» NƏZƏRİYYƏSİ VƏ QORQUD DƏDƏLƏRİN DİLİ.** Azəri türklərinin bir xalq kimi yaranışı boyunca həm «qohum» boyların bir toplum halında birləşməsi, həm də türk-fars-ərəb tarixi və mədəni ənənələrinin sintezi baş verməkdə idi. Ancaq Moskvanın və Tehranın bəzi alimləri türklərin sonradan ümumiran kültür yaradıcılığına qoşulması «nəzəriyyəsi»ndən çıxış etməyə çalışırlar. Onlar, dilimizin sözlüyündə fars sözlərini əsas tutaraq, Azəri türklərinin farslarla «bir soykökdən olmasını», birincilərin yaranışında iranlıların «aparıcı» rol oynadığını yazırlar.

«Dədəm Qorqud» boyları sözlüyünün araşdırılması bu fikrin bütünlüklə yanlış olduğunu göstərir. Bu boyların dilini Orhun yazıları ilə qarşılaşdırsaq, sonuncuların sözlüyü daha «təmizdir». Boylarda isə kiçicik bir fars-ərəb sözcükləri qatı vardır. Görünür, bu sözcüklər Azəri türkcəsinə islamın birinci 300 ili boyunca keçmişdir. Ortaq türk-fars, türk-ərəb sözləri (əzizləmək, ədəblənmək və bu kimiləri) sayılmazsa, 136 fars, 350-yə yaxın ərəb sözü işlənmişdir. Dədə Qorqud boylarının sözlüyü 4530 söz tutur, deməli



bu sözlüyün yalnız yüzdə üçü (3%) farscadan alınmışdır. Azəri türkcəsinin XVI-XIX yüzil qaynaqlarında: ***Füzuli, Xətai, S.Ə.Şirvani*** «Divan»larında isə sözlüyün yarıdan çoxu ərəb, fars sözləridir.

Farslar və azərbaycanlıların «soykök birliyi» nəzəriyyəsi üçün buradan aşağıdakı nəticələr çıxır.

Birinci, bu «soykök birliyi» gerçəkdən var olsa idi, elmdə Azərbaycan türkcəsinin ana qaynağı sayılan Qorqud boylarında fars sözcükləri çox, XVI-XIX yüzillər «Divan»larında isə nisbətən az olmalı idi. Amma durum əksinədir. Aydındır ki, bu dillər bir kökdən yaranmamışlar. Onların hər biri öz soykökündən doğulmuş, yalnız sonralar tarixi-mədəni əlaqələr sayəsində bir-birinə sözcüklər «bəxş etməyə» başlamışlar. Unutmaq olmaz ki, Azərbaycan türkləri tarix boyu farslar ilə arasıkəsilməyən siyasi-hərbi və mədəni əlaqədə olmuşlar; Sasanlı, Xilafət, Səlcuqlu, Atabəylər, Qaraqoyunlu və Ağqoyunlu, Səfəvi, Afşar və Qacar səltənətlərinin tərkibində birgə yaşamışlar.

İkinci, Dədə Qorqud boylarının dilində ərəbcədən alınma sözlər fars sözlərindən çoxdur. Sual ortaya çıxır: buna dayanaraq türklərin sami ərəblərlə də «soykök birliyi»ndən danışmaq olarmı? Yuxarıda IV-VII yüzillərin erməni kitablarında Mordtmanın türk sözləri aşkar etməsindən danışıldı. Yalnız öz tarixini istəməyən adamlar bu sözləri türk-erməni «soykök birliyi» üçün göstərici saya bilər. Bununla yanaşı, Tehranda çap olunmuş beş cildlik fars dili sözlüyünün yüzdə altmışdan çoxu ərəb dilindən alınmadır. O biri yandan fars sözlüklərində çoxlu türk sözləri var. VI əsr ərəb mənzum parçalarında, «Qur'ani-Kərim»in sözlüyündə belə bir sıra türk sözləri işlənmişdir. Bütün bunları bu üç xalqın uydurma «soykök birliyi» deyil, onların arasında min illər boyu gedən qarşılıqlı faydalanma əlaqələri, başqa sözlə: tarixin mütərəqqi «alış-veriş»i doğurub ortaya gətirmişdir.

# AZƏRBAYCAN IX YÜZİLİN İKİNCİ YARISINDA – XIII YÜZİLİN ƏVVƏLLƏRİNDƏ

## I. FEODAL DAĞINIQLIĞI. IX YÜZİLİN İKİNCİ YARISI – XI YÜZİLİN ORTALARINDA AZƏRBAYCAN DÖVLƏTLƏRİ

IX yüzildə Ərəb xilafətinin hərbi-siyasi qüdrəti xeyli zəifləmişdi. Əyalət hakimlərinin müstəqilliyi artmış, işğal olunmuş torpaqlarda xalq azadlıq hərəkatı geniş vüsət almışdı. Getdikcə artmaqda olan ara çəkişmələri mərkəzi hakimiyyəti sarsıtmaqda idi. İmperiyanın ucqarlarında xırda dövlətlər–***əmirliklər*** yaranırdı. Bu dövlətləri ayrı-ayrı sərkərdələr–keçmiş ərəb canişinləri idarə edirdilər. Onların əsasını qoyan nəsillər zaman keçdikcə yerli xalqlara qarışırdılar. Abbasilər xilafətinin dağılması yaxınlaşırdı.

Abbasilər imperiyasına qarşı xalq azadlıq hərəkatının başlıca mərkəzlərindən biri olan Azərbaycanda müstəqillik meyli daha güclü idi. Ərəb əsarətinə qarşı mübarizənin gedişində geniş torpaq mülkləri, habelə müxtəlif imtiyazlar ələ keçirmiş iri torpaq sahibləri, əslində müstəqil yerli hakimlərə çevrilmişdilər. Onların Abbasilər xilafətindən asılılığı formal şəkil almışdı. Azərbaycanın ayrı-ayrı vilayətlərini, əslində müxtəlif sülalələr idarə edirdilər. Təbriz, Mərənd, Miyana, Urmiya, Muğan, Aran, Şirvan, Beyləqan, Şəki, Sənariyə, Qəbələ, Dərbənd ayrı-ayrı nəsillər tərəfindən idarə olunurdu. Bu sülalələrin bəziləri ərəb mənşəli olsalar da, onlar artıq yerli əhali ilə qaynayıb-qarışmışdılar.

**ŞİRVANŞAHLAR DÖVLƏTİ.** Abbasilər xilafətinin dağılmasının gedişində Azərbaycanda yaranmış müstəqil dövlətlərdən biri ***Şirvanşahlar*** dövləti idi. Şirvan əvvəllər Azərbaycanın quzeyində kiçik bir vilayət idi. Dərbənddən Kür çayına doğru Xəzər dənizi sahillərindəki Azərbaycan torpaqlarını əhatə edirdi. Həmin vilayətin mərkəzi Xəzər sahilində – Şamaxı-Dərbənd ticarət yolunun üstündə yerləşən ***Şirvan*** şəhəri idi. Sonralar Şirvanşahların özlərinə tabe etdiyi geniş ərazilər də «Şivan» adlanmağa başladı. Bu dövləti ***Məzyədilər*** sülaləsi idarə edirdi. Şirvanşah Məzyədilər sülaləsi tarix ədəbiyyatında bəzən ***Şeybanilər*** və ya ***Yezidilər*** sülaləsi də adlanır.



Məzyədilər kökcə ***Rəbiə*** adlı ərəb tayfasından idilər. Hələ xəlifə ***Osmanın*** (644-656) zamanında Aranı işğal edən ***Salman ibn Rəbiə*** bu tayfanın nümayəndəsi idi. Rəbiə tayfasının Şeybanilər nəslindən olan Məzyədilər Azərbaycanda hələ o zamandan yerləşməyə başlamışdılar. Məzyədilərin görkəmli nümayəndəsi olan ***Yezid ibn Məzyəd*** xəlifə ***Harun ər-Rəşid*** zamanı ***Güney Qafqaz*** vilayətlərinin, o cümlədən Şirvanın hakimi idi. Yezid ibn Məzyəd ərəblərin Azərbaycanda möhkəmlənməsində mühüm rol oynamış, bu yerlərdə gedən döyüşlərdə görkəmli bir sərkərdə kimi ad çıxarmışdı. O, Azərbaycanda Xilafətə dayaq yaratmaq məqsədilə buraya Rəbiə tayfasından, həmçinin Misirdən və Suriyadan çoxlu ərəb köçürmüşdü. Ərəblər, əsasən, Aran, Şirvan və Dərbənddə yurd salmışdılar. Yezid ibn Məzyədin özü də burada çoxlu torpaq mülkləri ələ keçirmişdi.

Məzyədilər ilk dəfə Aranda paytaxtı ***Bərdə*** olan yarımmüstəqil əmirlik yaratmışdılar. O zaman Bərdə bütün Güney Qafqazda ərəb idarəçiliyinin mərkəzi idi. Azərbaycan torpaqlarını, o cümlədən, Aran, Şirvan, Dərbənd, həmçinin Ermənistan ərazisini idarə edən ərəb canişini Yezid ibn Məzyədin iqamətgahı da Bərdədə idi. Bütün bu torpaqları o, Şirvan valisi kimi idarə edirdi. Ömrünün sonunadək Azərbaycanda yaşayan Yezid ibn Məzyəd 801-ci ildə Bərdədə ölmüş və burada da dəfn olunmuşdu. Yezid ibn Məzyədin ölümündən sonra onun oğulları ***Əsəd, Xalid*** və ***Məhəmməd*** Güney Qafqaz valisi təyin edildilər. 859-cu ildə ***Məhəmməd ibn Yezid*** Gəncəni bərpa etdirib öz iqamətgahını bura köçürdü. Məzyədilərin müstəqilliyi artdı, onlar Azərbaycanda da möhkəmləndilər.

Zaman keçdikcə ərəb məzyədilər soyu yerli əhali ilə qaynayıb qarışdı. IX əsrin sonlarında Aran, o cümlədən Bərdə ***Sacilərin*** əlinə keçdiyindən məzyədilərin buradakı nümayəndələri də Şirvana köçdülər; türkləşməkdə olan ərəb nəsilləri, əsasən, Şirvan torpaqlarında cəmləşdilər.

861-ci ildə Məzyədilər sülaləsindən olan ***Heysam ibn Xalid*** Şirvanı müstəqil elan edərək «Şirvanşah» titulu götürdü. 917-ci ildə qonşu ***Lahicanşahlıq*** Şirvanşahlar dövlətinə birləşdirildi. Bununla bağlı olaraq Şirvanşah ***Əbu Tahir*** (917-948) 918-ci ildə hərbi-strateji baxımdan çox əlverişli mövqedə yerləşən qədim Şamaxını bərpa etdirib paytaxtı Xəzər sahilindəki Şirvan şəhərindən bura köçürdü. Bundan sonra Şirvanşahlar dövlətinin paytaxtı ***Yezidiyyə*** adlanmağa başladı. Şirvanşahlar dövlətinin müstəqilliyi daha da artdı, ərazisi genişləndi.

Əbu Tahirin və sülalənin sonrakı nümayəndələrinin hakimiyyəti illərində Azərbaycanın şimalındakı xırda mülklərin Şirvan ətrafında birləşdirilməsi davam etdirildi. Şirvanşahın qoşunları Qəbələ (981-982), Bərdə (982) və ***Şabranı*** (983) ələ keçirdi. Xilafətin zəiflədiyi dövrdə Azərbaycan ərazisinin çox əhəmiyyətli bir strateji məntəqəsində – Qafqaz dağları ilə Xəzər dənizi arasındakı keçiddə yaranmış və ərəb mənşəli ***Haşimilər*** tərəfindən idarə olunan ***Dərbənd əmirliyinin*** Şirvanşahlar dövlətinə birləşdirilməsi-

nin (988) böyük əhəmiyyəti oldu. Azərbaycan türklərinin ellikle yaşadığı və buna görə də əski qaynaqlarda «*Dəmir qapı*» adlandırılan Dərbənd Azərbaycanın qədim vilayətlərindən biri idi. Şirvanşahlar Dərbəndi ələ keçirdikdən sonra Dərbənd səddini və şəhərin qala divarlarını təmir etdirib möhkəmləndirdilər. Dərbənddən başqa ***Xursan*** və ***Təbərsaran*** da Şirvanşahlar dövlətinə qatıldı. Ayrı-ayrı vaxtlarda Şəki və Sənariyə hakimləri də Şirvanşahlardan asılı vəziyyətə salınmışdılar.

Abbasilər xilafətinin zəiflədiyi dövrdə Azərbaycanın quzey torpaqlarında müstəqil Şirvanşahlar dövlətinin meydana gəlməsi mütərəqqi tarixi hadisə idi. Bu dövlətin yaranması Azərbaycanın başqa yerlərində də qədim dövlət ənənələrinin dirçəlməsinə təsir göstərdi. Bundan başqa, Şirvanşahlar dövlətinin güclənməsi və Dərbənd keçidinin bərkidilməsi quzeydən Azərbaycan torpaqlarına hücum edən ***alanlar, sərirlər, ruslar*** və başqa yadellilərin basqınlarına qarşı mübarizəni də asanlaşdırdı.

**SACİLƏR DÖVLƏTİ**. Ərəb əsarətinə qarşı mübarizə dövründə Azərbaycanda yaranmış güclü dövlətlərdən biri də Sacilər dövləti idi. Azərbaycan Sacilər dövlətini türk sülaləsi olan ***Sacilər*** (879-941) yaratmışdılar. Bu sülalənin nümayəndələri bir qayda olaraq, ***Afşin*** ləqəbi daşıyırdılar. Sacoğulları kökcə Orta Asiyanın ***Əşrusən (Usruşana)*** vilayətinin qədim türk nəsillərindən idilər. Ərəb ordusunun bir çox məşhur sərkərdələri, o cümlədən ***Afşin Heydər ibn Kavus*** bu nəsildən çıxmışdılar.

Azərbaycan Sacilər dövlətinin meydana gəlməsi real etnik-siyasi zəminə əsaslanırdı. Kiçik Asiyanın gündoğar bölgələri, İran və Güney Qafqaz Xilafətin əlinə keçdikdən sonra bu yerlərdə islam dinini qəbul etmiş türk tayfalarının mövqeyi daha da möhkəmləndi. Xilafətlə Bizans arasında uzun sürən müharibələr, ərəb xəlifələri ***Mehdi*** (775-785), ***Harun ər-Rəşid*** (786-809), ***Mə'mun*** (813-833), ***Mö'təsim*** (833-842), xüsusilə, ***Mütəvəkkilin*** (847-861) hakimiyyəti illərində Xilafət-Bizans sərhədlərini möhkəmləndirmək məqsədilə Orta Asiyadan Azərbaycana və Şərqi Anadoluya yeni türk tayfaları köçürüldü. Türk alpları Xilafət ordusunda mühüm qüvvəyə çevrildi. Ərəb xilafətinin zəifləməsi nəticəsində fəallaşan Bizans imperiyası və onunla əlbir hərəkət edərək Azərbaycan torpaqlarını ələ keçirməyə çalışan erməni və gürcü hakimlərindən ibarət vahid xristian blokuna qarşı mübarizədə islam-türk birliyi, o cümlədən Azərbaycan türkləri mühüm rol oynadı. Xilafətin Bizansa qarşı apardığı hərbi əməliyyatlara ***Vasif ət-Türki, Fərəc -ət-Türki, Fərqanəli Xələf, Toqanoğlu Əhməd, Əbu Sabit ət-Türki, Yazman, Busr Afşini, Kayı oğlu Əhməd, Burdu oğlu Rüstəm, Munis*** və başqaları kimi görkəmli türk sərkərdələri başçılıq edirdilər.

Sacilər sülaləsinin banisi ***Əbu Sac Divdad*** da Xilafət qoşunlarına xidmət edən məşhur türk sərkərdələrindən biri idi. O, dəfələrlə ərəb qoşunlarının hərbi əməliyyatlarına başçılıq etmiş, Xilafətdə bir sıra mühüm vəzi-



fələr tutmuşdu. Dövlət qarşısındakı xidmətlərinə görə Xilafətin böyük və ən zəngin əyalətlərindən biri olan Azərbaycan iqta olaraq Sacilərə verilmişdi. Azərbaycanı müstəqil idarə edən Sacilər Xilafət xəzinəsinə ildə 120 min dinar bac göndərirdilər. Əbu Sac Divdadın oğulları ***Məhəmməd ibn Əbu Sac*** və ***Yusuf ibn Əbu Sac*** da Xilafətin görkəmli sərkərdələrindən idilər.

Sacoğullarının hakimiyyəti dövründə (879-941) Azərbaycanın Güney bölgələri müstəqil dövlətə çevrildi. Xilafətin tabeliyindən çıxmış Sacilərin öz pulları vardı. XI əsrin sonlarında (898, 900) Məhəmməd ibn Əbu Sacın adından pul kəsilməsinə başlanmışdı.

Məhəmməd ibn Əbu Sacın ölümündən sonra onun qardaşı Yusuf ibn Əbu Sacın dövründə Sacilər dövləti daha da qüvvətləndi. 912-ci ildən etibarən Xilafət xəzinəsinə illəil bac göndərilməsi tamamilə dayandırıldı. Yusuf ibn Əbu Sac erməni və gürcü hakimlərinin qoşunlarını ağır məğlubiyyətə uğratdı. Ermənistan ərazisini, Tiflis və Kaxeti ələ keçirdi. Azərbaycan torpaqları hesabına genişlənməyə çalışan erməni və gürcü hakimləri özləri Azərbaycan Sacilər dövlətindən asılı vəziyyətə düşdülər. Sacoğulları Şirvanşahlar dövlətini də özlərinə tabe etdilər.

Beləliklə, Azərbaycan Sacilər dövləti X əsrin əvvəlləri üçün Zəncandan Dərbəndə qədər bütün Azərbaycan torpaqlarını əhatə edirdi. Sacilər dövlətinin şərq sərhədləri Xəzər dənizi sahillərindən başlanır, qərb sərhədləri Ani və Dəbil (Dvin) şəhərlərinə qədər uzanıb gedirdi.

Yusuf ibn Əbu Sac dövlətin şimal sərhədlərini möhkəmləndirmək üçün Dərbənd səddini təmir etdirdi: səddin dənizin içərisində olan, uçub dağılmış hissəsini yenidən qurdurdu. Yusuf ibn Əbu Sacın adından Bərdə, Marağa və Ərdəbildə pullar kəsilməsi o zaman Azərbaycanın müstəqil bir dövlət kimi Abbasilər xilafətindən asılı olmadığını göstərir. Azərbaycan Sacilər dövlətinin paytaxtı əvvəllər Marağa. Sonra isə Ərdəbil şəhəri idi.

IX əsrin 80-ci illərindən X əsrin 40-cı illərinədək, yəni yarım əsrdən çox bir tarixi dövr ərzində bütün Azərbaycan torpaqlarının Azərbaycan türk dövlətinin – Sacilər dövlətinin tərkibində olması bütün ölkə miqyasında iqtisadi və mədəni əlaqələrin daha da dərinləşməsinə Azərbaycan türk xalqının etnik özülünün güclənməsinə müsbət təsir göstərdi.

**SALARİLƏR DÖVLƏTİ**. Yaxın və Orta Şərqdə yaranmış siyasi hərcmərclik şəraitində Sacilər dövləti də uzun zaman davam gətirə bilmədi. Azərbaycanda çəkişmələrdən istifadə edən ***Deyləm*** (Gilan) hakimi ***Mərzban ibn Məhəmməd*** axırıncı Saci hökmdarı Deysəmə (Sacilər dövlətində hakimiyyəti ələ keçirən qulam) 941-ci ildə qalib gəlib ölkənin paytaxtı Ərdəbili ələ keçirdi. Mərzban ibn Məhəmməd (941-957) ***Salarilər*** (941-981) sülaləsindən olduğu üçün bu dövlət Azərbaycan tarixində Salarilər dövləti kimi tanınır. ***Salarilər*** dövlətinin də paytaxtı Ərdəbil şəhəri idi.

Salarilər çox keçmədən, Azərbaycanın şimal-qərb torpaqlarını və Şirvanşahlar dövlətini də özlərindən asılı hala saldılar, Dərbəndi ələ keçirdilər. Bundan başqa Mərzban ibn Məhəmməd Ermənistan ərazisini də öz dövlətinə qatdı, Şərqi Gürcüstanı tabe etdi.

Beləliklə, Salarilər dövləti quzeydə Dərbənd keçidindən başlayaraq, güneydə Dəclə və Fərat çaylarının yuxarılarına qədər, şərqdə Gilan da daxil olmaqla Xəzər sahillərindən, qərbdə Ermənistan və Şərqi Gürcüstan da daxil olmaqla geniş əraziləri əhatə edən bir dövlətə çevrildi. Bununla, sacilərdən sonra Salarilər sülaləsinin hakimiyyəti illərində yenidən bütün Azərbaycan torpaqları vahid dövlət daxilində birləşdi. Bu da obyektiv olaraq, bütün ölkə miqyasında iqtisadi əlaqələrin inkişafına, sənətkarlıq və ticarətin tərəqqisinə, xarici ticarət əlaqələrinin genişlənməsinə müsbət təsir göstərdi.

Salarilərin hakimiyyəti illərində Xəzər dənizində Azərbaycanın ticarət gəmiləri üzməyə başladı. Azərbaycanın bütün Yaxın və Orta Şərqdə iqtisadi və hərbi-siyasi rolu daha da artdı. Müxtəlif etnik boyların Azərbaycan xalqı ilə qaynayıb-qarışması sürətləndi. Bununla belə, Mərzban ibn Məhəmmədin ölümündən sonra (957) onun oğulları ilə qardaşı ***Vəhsudan*** arasında hakimiyyət üstündə gedən ara savaşları mərkəzi hakimiyyətin zəifləməsinə səbəb oldu. Xəzərsahili Azərbaycan vilayətlərinin tez-tez rusların basqınlarına məruz qalması, 944-cü ildə Bərdənin qarət olunması və şəhər əhalisinə dəhşətli divan tutulması Salarilər dövlətinin süqutunu daha da sürətləndirdi.

**RƏVVADİLƏR DÖVLƏTİ.** Salarilər hakimiyyətinin zəiflədiyi dövrdə qüvvətlənən Təbriz, Marağa və Əhər hakimi Əbülhica 981-ci ildə axırıncı salari hökmdarı ***İbrahim ibn Mərzbanı*** (962–981) taxtdan salıb ***Rəvvadilər dövlətinin*** əsasını qoydu.

Bu sülalənin soykökü qədim ərəb nəsillərindən birinə bağlanırdı. Xilafət işğalları zamanı Azərbaycanın Güney bölgələrinə də çoxlu ərəb köçürülmüşdü. Ərdəbil, Təbriz, Marağa, Qaradağ və Əhər bölgələrində müxtəlif ərəb nəsilləri yurd salmışdılar. Onlardan biri də ***əzdilər*** nəsli idi. Bu nəslin banisi əslən yəmənli olan ***ər-Rəvvad əl-Əzdi*** idi. Azərbaycanda məskən salmış başqa ərəb nəsilləri kimi rəvvadilər də yerli əhali ilə qaynayıb-qarışmışdılar. Hələ VIII yüzilin sonlarında yarımmüstəqil dövlətə çevrilmiş Rəvvadi əmirliyi zaman-zaman tamamilə müstəqilləşir, az qala Azərbaycanın bütün güney torpaqlarını öz nəzarəti altında saxlayırdı.

Salariləri məğlubiyyətə uğratdıqdan sonra Rəvvadilər Azərbaycanın Güney torpaqlarını qəti olaraq öz hakimiyyətləri altında birləşdirdilər. Bundan başqa Rəvvadilər Muğan hakimi ***Sipəhbudu*** məğlub edib özlərindən asılı vəziyyətə saldılar.



Rəvvadilərin hakimiyyəti dövründə Azərbaycanda Oğuz türklərinin mövqeyi daha da möhkəmləndi. 1028-ci ildə Mahmud Qəznəvinin Xorasan oğuzlarına vurduğu ağır zərbədən sonra təqribən 2000 oğuz ailəsi Azərbaycana köçdü və rəvvadi hökmdarı ***Vəhsudanın*** (1020-1059) icazəsi ilə burada məskən saldı. Onlar öz soydaşları olan Azərbaycan türklərinə qovuşdular. Bundan çox keçməmiş oğuz boylarının Azərbaycana yeni-yeni axınları baş verdi. Azərbaycan türklərinin mövqeyi qüvvətləndi.

Rəvvadilər ölkənin paytaxtını Ərdəbildən Təbrizə köçürdülər. Bu, mütərəqqi bir addım idi. Çünki Təbriz bütün Azərbaycan torpaqlarının iqtisadi, siyasi və mədəni baxımdan birləşdirilməsi üçün çox əlverişli mövqedə yerləşmişdi. Müxtəlif Şərq ölkələrini Aralıq dənizi və Qara dəniz sahilləri ilə, həmçinin Dərbənd keçidi vasitəsi ilə Volqaboyu və Şərqi Avropa ilə birləşdirən beynəlxalq karvan yollarının qovşağında yerləşən Təbriz Rəvvadilərin hakimiyyəti illərində böyüyüb abadlaşdı.

**ŞƏDDADİLƏR DÖVLƏTİ.** X əsrin 70-ci illərində Azərbaycanın quzeyində ***Şəddadlər dövləti*** meydana gəldi. ***Şəddadilər***, əvvələr Salarilər dövlətinin tərkibində olan ***Dəbil*** (Dvin) ətrafında yaşayırdılar. Salarilər dövlətinin zəifləməsindən istifadə edən ***Məhəmməd ibn Şəddad*** 951-ci ildə Dəbili ələ keçirib müstəqil ***Dəbil*** (Dvin) ***əmirliyini*** yaratmışdı. Soykökünə görə kürd olan Məhəmməd ibn Şəddad və onun varislərinin idarə etdiyi bu Azərbaycan əmirliyi tarixdə Şəddadilər dövləti adı ilə tanınır. Sonralar Şəddadilər Salarilər dövlətinin zəifləməsindən istifadə edib 971-ci ildə Gəncəni ələ keçirdilər və Azərbaycan Şəddadilər dövlətinin əsasını qoydular. Çox keçmədən Şəddadilər Gəncə ətrafında olan Bərdə, Şəmkir və b. torpaqlarda möhkəmləndilər. Ermənistanın şərq hissəsini ələ keçirdilər.

***Fəzl ibn Məhəmmədin*** (985-1030) hakimiyyəti dövründə Şəddadilər dövləti qüvvətləndi. O, Gəncə ətrafındakı bütün xırda mülkləri aradan qaldırıb mərkəzi hakimiyyəti gücləndirdi, Şəddadilərin ata-baba mülkləri olan Dəbili də öz dövlətinə birləşdirdi. Erməni hakimi Şəddadilər dövlətinə bac verməyə məcbur oldu. Bundan başqa Fəzl ibn Məhəmməd gürcülər və xəzərlərə qarşı uğurlu savaş apardı. Onun hakimiyyəti illərində hərbi məqsədlə Araz çayı üzərində salınan ***Xudafərin körpüsü*** (1027) Azərbaycanın quzey və güney bölgələri arasında iqtisadi və mədəni əlaqələrin genişlənməsində mühüm rol oynadı. Fəzl ibn Məhəmmədin hakimiyyəti illərində Şəddadilərlə Şirvanşahlar arasında da sıx əlaqə yaranmışdı. Hər iki sülalə arasında qohumluq münasibətləri vardı. Şəddadilər digər Azərbaycan hakimləri ilə Güneydə hökmdarlıq edən Rəvvadilərlə və ***Tiflis əmiri Əbülfəzl Cəfər ibn Əli*** ilə də dostluq münasibətləri saxlayırdılar.

XI əsrin 30-cu illərində Arazdan quzeydəki Azərbaycan torpaqlarında yeni-yeni Oğuz boylarının məskən salması Şəddadilərin hərbi qüdrətini daha da artırdı. Dəbili ələ keçirməyə çalışan Bizans-erməni qoşunlarına

ağır zərbə vuruldu (1037). Bizans və Gürcüstanın birləşmiş qüvvələrinin Tiflis müsəlman əmirliyini aradan qaldırmaq cəhdi də baş tutmadı (1038). Bütün bu qovğalarda oğuz döyüşçüləri fəal iştirak etdilər.

Şəddadilər dövləti ***Əbu-l-Əsvar Şavurun*** (1049-1067) dövründə Gürcüstanla və onun müttəfiqi olan Şirvanşahlar dövləti ilə müharibələr apardı. Şəddadilər dövlətinin qüvvətlənməsindən qorxuya düşən və bu zaman ***Cəfərilər*** sülaləsinin idarə etdiyi ***Tiflis əmirliyini*** tutmağa çalışan gürcü çarı ***IV Barqat*** alanlarla ittifaq bağladı. 1062-ci ildə alanların ***Dəryal keçidini*** aşıb Gürcüstan vasitəsi ilə Azərbaycana hücum etməsinə şərait yaratdı. Bu zaman Şavur Gəncənin yadellilərə qarşı müdafiəsini möhkəmləndirdi. Bu məqsədlə onun ətrafına hasar və xəndəklər çəkdirdi, şəhərə möhkəm qala qapıları düzəltdirdi (1063). Şəddadilər bu zaman Dəbili əldən verməmək, habelə onlardan asılı olan ***Ani əmirliyini*** müdafiə etmək üçün ermənilərə və onlara kömək edən Bizans İmperiyasına qarşı da uğurla mübarizə aparırdılar. Kiçik Asiyanın şərqində Bizansa qarşı vuruşan Şəddadi qoşunlarının vurucu qüvvəsi oğuz türkləri idi. Bu mübarizədə Şəddadilərin daha qüdrətli müttəfiqi sonralar Səlcuq türkləri oldu.

**RUSLARIN AZƏRBAYCANA BASQINLARI.** Siyasi qarışıqlıq Azərbaycanın ardı-arası kəsilməyən yadelli basqınlarına qarşı mübarizəsini çətinləşdirirdi.

IX yüzilin sonlarından başlayaraq Azərbaycan yeni xarici basqınlara məruz qalmağa başladı. ***Don-Volqa-Xəzər*** vasitəsilə Azərbaycanla və Azərbaycan torpaqlarından keçərək Xilafətlə, o sıradan Bağdadla ticarət əlaqələri yaratmış ruslar* çox keçmədən Xəzərsahili vilayətlərə soyğunçuluq yürüşlərinə başladılar. Ərəb qaynaqlarında Xəzər sahillərinə və Azərbaycana yürüşlər edən ***Kiyev Rus*** dövlətinin hərbi drujinaları vahid adla – «ruslar» kimi qeyd edilir**. O zaman Kiyev knyazlarının hərbi drujinalarının

---

* Yə'qubi (892-ci ildə ölüb) rusların Sevilyanı (İspaniya) yağma etmələrini bildirir. Aydındır ki, burada söhbət slavyanlardan deyil, Skandinav vikinqlərindən getməkdədir, Məs'udi (X yüzilin birinci yarısı) isə yazır: «Ruslar ayrı-ayrı qollara ayrılan çoxlu tayfalara bölünür. Onlardan sayca ən böyüyü əl-Ludzqana adlanır, onlar Əndəlüs, Roma, Konstantinopol və Xəzər ölkələrinə ara vermədən alış-verişə gəlirlər». Buradakı əl-Ludzqana yazılışını rus şərqşünası V.F.Minorski əl-Urmana şəklində oxuyaraq, bu sonuncu sözün rusların «Ötən illərin hekayəsi»ndəki (X yüzil) norman soyadına uyğun olduğunu bildirir. Ancaq ərəb qaynaqlarında «rus» və «sekilab» (cəm halda: sekaliba) bəzən bir-birinə qarışdırılır, həm də bu sonuncu ad slavyanlarla yanaşı nemcin (german) və türk xalqlarına da aid edilirdi – *Red.*

** Ruslar qədim Kiyev dövlətində də yalnız orduda (drujinada) çoxluqda idilər, qoşun başçılığı bütünlüklə onların əlinə keçmişdi. Əkinçilikdə, alış-veriş işlərində onlar azlıqda qalırdılar. İbn Xordadbeh (922/3-cü ildə ölüb) rus tacirlərinin «slavyan cinsindən» (cins min əs-Sekaliba) olduğunu yazırdı. V.F.Minorski «Xəzər dənizinə ilkin yürüşləri güney rus düzənliklərindən gələn piratların» işi adlandırır. Sonralar bu «piratlar» slavyan toplumu içində əriyib itdilər. Bütün bunlara görə bu yürüşlərlə bağlı tarixi qaynaqlarda işlənən «ruslar» adını olduğu kimi saxlamaq lazımdır – *Red.*



üzvləri «rus» adlanırdılar. Kiyev dövləti hərbi qüvvələrinin xeyli hissəsi norman cəngavərlərindən – Skandinaviya mənşəli varyaqlardan ibarət olurdu. Zaman keçdikcə knyaz drujinasının əsasını, sonralar isə hamısını slavyanlar içərisindən toplanmış döyüşçülər təşkil etməyə başladılar.

Kiyev knyazının drujinaları ilk zamanlar hərbi qənimətlər, işğal olunmuş ərazilərdən toplanan xərac hesabına saxlanırdı. Buna görə də bu drujinalar daim qarətçi yürüşlərdə olurdu. Rusların Xəzərsahili Azərbaycan torpaqlarına IX əsrin ikinci yarısında başlanan basqınları X əsrin əvvəllərindən daha da genişlənib aramsız şəkil aldı. 909-cu ildə onlar 16 gəmi ilə Xəzərə daxil oldular, Xəzərin güneyindəki ***Abeskun*** adasını ələ keçirdilər və sahil məntəqələrini qarət etməyə başladılar. Lakin doğma torpağının müdafiəsinə qalxan yerli əhali drujinaları ağır məğlubiyyətə uğratdı. Ertəsi il sayca daha çox olan ruslar yenidən bu yerlərə basqın etdilər, ***Sarı adada*** (Sara adasında) və sahil məntəqələrində yanğınlar, talanlar törətdilər. Ələ keçirdikləri əsirlər və qənimətlərlə birlikdə Xəzərin İran sahillərinə hücum etdilər. Lakin ***Gilanşahın*** hərbi qüvvələri ilə toqquşmada məğlub oldular. Geri çəkilərkən bu dəfə Şirvanşah qoşunu tərəfindən darmadağın edildilər.

Qədim Rus dövlətinin Xəzərsahili ölkələrə marağı artmaqda idi. Slavyan tacirləri bu zaman Xəzər xaqanına «onda bir» vergisi verib, bu dövlətin ərazisindən keçərək Xəzər sahillərinə ticarətə gəlirdilər. Onlar Azərbaycandan gedən ticarət karvanlarına qoşularaq Şərqin başqa ticarət mərkəzlərinə, yuxarıda qeyd olunduğu kimi, Bağdada qədər gedib çıxırdılar.

914-cü ildə rusların Xəzər sahillərinə daha bir yürüşü oldu. Əvvəlkilərdən fərqli olaraq böyük bir hərbi səfər xarakteri daşıyan bu hücum zamanı hər birində 100 döyüşçü olan 500 gəmi Xəzərə daxil oldu. Xəzər xaqanlığının ərazisindən keçib gəldikləri üçün onlar Xəzər sahillərindən ələ keçiriləcək qənimətin yarısını Xəzər xaqanına və'd etdilər. Beləliklə, Xəzər dənizindən hücuma məruz qalmayan dinc əhali gözlənilmədən 50000 nəfərlik böyük bir hərbi qüvvənin dəhşətli talanlarına məruz qaldı. Rus drujinaları Bakı sahillərinə gəlib çıxdılar və sahilə yaxın adalarda düşərgə saldılar. Onlar, adətən, Bakı ətrafında və Xəzərin Azərbaycan sahillərində olan ***Pirallahı, Sahilan (Şəhilan), Zirə (Qumrizə), Kiçik Zirə, Böyük Zirə, Zənbilə (Duvannı), Xirə, Zirə, Sarı*** adalarında möhkəmlənir və burdan sahil məntəqələrinə basqınlar edirdilər.

914-cü il yürüşü zamanı piratlar aylarla Azərbaycanın Xəzər sahilindəki yaşayış məntəqələrinin əhalisinə divan tutdular. Qadınları və uşaqları əsir alıb apardılar. Geri qayıdarkən onlar ələ keçirdikləri külli miqdarda qənimətin bir hissəsini, şərtləşdikləri kimi, Xəzər xaqanına göndərdilər. Lakin Xəzərin şimal sahillərində təqribən 15000 nəfərlik müsəlman-türk qoşunları ilə qarşılaşdılar. Şiddətli vuruşma baş verdi. Mənbələrin məlumatına görə Xəzər xaqanlığının müsəlman əhalisi xaqana müraciət edib bildirdi:

«İzn ver, bu xalqla haqq-hesabı çürüdək. Onlar bizim müsəlman qardaşlarımızın torpaqlarına basqın etdilər, onların qanını tökdülər, arvadlarını və uşaqlarını əsir aldılar». Ərəb tarixçisi Məs'udinin məlumatına görə üç gün davam edən bu vuruşmada drujinalar darmadağın edildi, onlardan ancaq beş minə qədər döyüşçüdən ibarət kiçik bir dəstə qaçıb canını qurtara bildi. Bu vuruşmada xarəzm, xəzər, ***burtas (mordva)*** və ***bulqar*** türkləri fəal iştirak etmişdilər. Vuruşmadan sonra otuz il Azərbaycana yeni yürüşlər olmadı.

944-cü ildə rus drujinaları yenidən Xəzər sahillərində göründülər. Bu zaman onlar Yaxın və Orta Şərqin ən böyük, zəngin ticarət və sənətkarlıq mərkəzlərindən biri olan, «Qafqazın ən böyük şəhəri», «Arranın baş şəhəri» kimi şöhrət qazanmış Bərdəni ələ keçirmək üçün gəlmişdilər. ***Kiyev knyazı İqorun*** (912-945) drujinaları və muzdlu qoşunlar gəmilərlə Kürün mənsəbinə yetişib, buradan Bərdə istiqamətində hərəkətə başladılar. Ərəb tarixçisi ***İbn Miskəveyhin*** yazdığına görə onlar Bərdə yaxınlığında, Kürə yaxın ***Mübarəki*** adlı yerdə düşərgə saldılar. Gəmilərin burada 300 nəfərlik mühafizə dəstəsinin ixtiyarına buraxaraq, Bərdəyə hücum etdilər. Bu zaman Salarilər dövlətinin tərkibində olan Bərdə hakiminin təqribən 5.600 nəfərlik hərbi qüvvəsi sayca on qat artıq olan yadellilərə müqavimət göstərə bilmədi. Bərdə yağıların əlinə keçdi. Çox adam qılıncdan keçirildi və şəhər amansızcasına qarət olundu. Lakin bərdəlilər doğma şəhəri düşməndən azad etmək üçün yadellilərə müqavimət göstərməkdə davam edirdilər. Bərdəliləri itaətdə saxlamağın mümkün olmayacağını yəqin edən ruslar Bərdə əhalisindən tələb etdilər ki, üç gün ərzində şəhərdən çıxıb getsinlər. Göstərilən vaxt başa çatdıqdan sonra yadellilər doğma şəhəri tərk edib gedə bilməyən Bərdə əhalisini qılıncdan keçirdilər. Sağ qalanları, şəhər varlılarını məscidə toplayıb canlarını satın almaq üçün adambaşına 20 dirhəm pul tələb etdilər. Həmin məbləğdə pulu olan qurtula bildi, pulu olmayanlara isə divan tutuldu. Şəhərdə yeni qarətlər, qırğınlar başlandı. Qadınlar və uşaqlar əsir alındı. Mənbələrin məlumatına görə bu zaman Bərdədə 20.000 nəfərə qədər adam öldürülmüşdü.

Bərdənin ağır günlərində 30 minlik qoşunla özünü yetirən Salari hökmdarı Mərzban ibn Məhəmməd şəhəri mühasirəyə aldı, hərbi fənd işlədərək düşmənə ağır zərbə vursa da, şəhəri azad edə bilmədi. Elə bu zaman ***Mosul hakimi Əbu Məhəmməd Nəsirəddövlənin*** hərbi qüvvələrinin Azərbaycanın sərhədlərini pozaraq ***Xoy*** və ***Salması*** ələ keçirməsi xəbərini alan Mərzban ibn Məhəmməd özünün əsas hərbi qüvvələri ilə birlikdə Güneyə doğru hərəkət etməli oldu. Salarilərin 4.000 nəfərlik kiçik bir hərbi qüvvəsi isə Bərdənin mühasirəsini davam etdirdi. Vaxt uzandıqca daha çox tələfat verən, yoluxucu xəstəliklərdən qırılmağa başlayan ruslar şəhəri əldə saxlaya bilmədilər. Gecələrdən birində qarət etdikləri qiymətli



şeyləri götürüb, qalanını isə yandıraraq şəhərdən çıxdılar. Sonra Mübarəkidə onları gözləyən gəmilərə doluşub Xəzərə çıxdılar və öz ölkələrinə qayıtdılar.

944-cü il basqınından sonra Bərdə şəhəri bir daha özünə gələ bilmədi. Yarım ildən çox rusların əlində qalan şəhər dəhşətli dağıntıya, sənətkarlıq və ticarət tənəzzülə uğradı. Məşhur Bərdə bazarı əhəmiyyətini itirdi. Şəhərdə pul kəsilməsi dayandırıldı. Salarilər şəhərin bərpasına fikir vermədilər. 944-cü il faciəsindən bir qədər sonra Azərbaycanın şimal torpaqlarında müstəqil dövlət yaradan şəddadilərin Gəncəni özlərinə paytaxt seçməsi bununla bağlı idi.

Rusların Azərbaycana basqınları sonralar da davam etdi. Azərbaycan hakimləri düşmənə qarşı birləşmək əvəzinə öz aralarındakı ixtilafları həll etmək üçün rus drujinalarını köməyə çağırır, bununla ölkənin yadellilərin tapdağı altına düşməsinə şərait yaradırdılar. 987-ci ildə Dərbənd hakimi əmir ***Maymun ibn Əhməd*** onu hakimiyyətdən salmağa çalışan yerli əyanlara qarşı, bu zaman 18 gəmi ilə Dərbəndə hücum etməyə hazırlaşan ruslardan kömək istədi. Hakimiyyətini möhkəmləndirdikdən sonra da o, öz yanında onlardan mühafizə dəstələri saxlayırdı. 1030-cu ildə buna bənzər başqa bir hadisə baş verdi: 38 gəmidə yenidən Xəzər sahillərinə hücum edən drujinalar Bakı yaxınlığında və Kürlə Arazın qovuşduğu yerdə Şirvanhşahın qoşunlarını məğlub etdikdən sonra Arazla yuxarı qalxmağa başladılar. Bu zaman Şəddadi hökmdarı ***Fəzl ibn Məhəmmədin oğlu Musa*** Beyləqanda qiyam qaldırmış qardaşı ***Əskuyəni*** məğlub etmək üçün çoxlu pul verib rusları köməyə çağırdı. Qardaşına qalib gəlib Beyləqan əhalisinə divan tutduqdan sonra onlara çoxlu hədiyyələr verdi. Onlar Bizans ərazisindən keçib öz ölkələrinə qayıtdılar.

1032-1033-cü illərdə Şirvan daha bir dağıdıcı basqınla qarşılaşdı. ***Alanlar, sərirlər*** və onlarla ittifaqda olan ruslar Şirvanşahların paytaxtı ***Yezdiyyə (Şamaxı)*** şəhərini ələ keçirib on gün ərzində amansızcasına qarət etdilər. Bu basqın zamanı 10.000-ə qədər şirvanlı qılıncdan keçirildi. Dərbənd hakimi əmir ***Mənsur ibn Maymun*** Şirvanı talan edib qayıdan alanlar, sərirlər və rusları ağır məğlubiyyətə uğratdı. Ertəsi il – 1033-cü ildə Dərbənd hakimindən qisas almaq üçün hücum edən alanlar və ruslar yenidən məğlubiyyətə uğradılar.

Göründüyü kimi, IX əsrdən Azərbaycan özünün bütün tarixi ərzində, ilk dəfə olaraq, Xəzər dənizindən təhlükəli təcavüzlərə məruz qalmağa başladı. Azərbaycanın siyasi varlığı üçün son dərəcə təhlükəli olan dəniz basqınları getdikcə artmaqda idi. Lakin Azərbaycan hökmdarları Xəzərsahili torpaqların xarici basqınlardan qorunması üçün Xəzər dənizində hərbi donanma yaradılmasına, Azərbaycanın dəniz dövlətinə çevrilməsinə qayğı göstərmədilər.

## 2. SƏLCUQ TÜRKLƏRİ VƏ AZƏRBAYCAN

**OĞUZ-SƏLCUQLU TOPLUMU VƏ İLKİN YÜRÜŞLƏR.** IX yüzilin ortalarında Yaxın və Orta Şərqin tarixində mühüm dönüş dövrü başlandı. Orta Asiyadan Aralıq dənizi sahillərinə və Dərbənd keçidindən İran körfəzinə qədər əraziləri əhatə edən Böyük Səlcuqlu imperatorluğu yarandı. Bu dövlət, ümumiyyətlə səlcuq türklərinin axınları ümumdünya tarixinin gedişinə fəal təsir göstərmiş, Yaxın və Orta Şərqin etnik, hərbi-siyasi və ictimai-iqtisadi tarixində dərin iz buraxmışdı.

Səlcuqlular oğuz türkləri idilər. Ümumtürk tarixində mühüm rol oynamış səlcuq türklərinin adı məşhur türk sərkərdəsi ***Səlcuqun*** adından yaranmışdır. Səlcuq özü oğuz-türk tayfalarından biri olan ***qınıq*** tayfasının başçısı olmuş, X əsrdə islam dinini qəbul etdikdən sonra oğuz-səlcuq tayfalarına başçılıq etmişdir. Səlcuq türkləri ***Sır Darya*** boyundakı torpaqlarda yaşayırdılar. Lakin burada ***Qaraxanlılar*** və ***Qəznəvilər*** tərəfindən sıxışdırıldıqları üçün çox keçmədən qərbə doğru axınlara başladılar. Özlərindən əvvəlki başqa türk tayfaları kimi səlcuq türklərinin də əsas hücum hədəfi Bizans torpaqları oldu. Səlcuq türklərinin başçısı ***Toğrul bəyin*** göstərişi ilə onun qardaşı ***Çağrı bəy*** 1015-ci ildə Bizansa qarşı ilk kəşfiyyat yürüşünə çıxdı. Səlcuqlu atlıları İran və Azərbaycan torpaqlarını aşaraq Bizans ərazisinə daxil oldular. Çağrı bəy Bizans qoşunlarına qalib gələrək Van gölü hövzəsini ələ keçirdi. Naxçıvan və onun ətrafındakı Azərbaycan torpaqlarını nəzarət altına aldı. Lakin təqribən 5-6 min atlıdan ibarət kiçik bir qüvvə ilə Bizansa qarşı hərbi əməliyyatı davam etdirə bilməyən Çağrı bəy, 1021-ci ildə ***Məvəraünnəhrə*** dönüb səfəri barədə qardaşı Toğrul bəyə məlumat verdi. O, Qaraxanilər və Qəznəvilər kimi qüdrətli qoşunlarla toqquşmaqdansa, siyasi dağınıqlıq dövrü yaşayan İran, Güney Qafqaz istiqamətində və Bizansa qarşı hücuma keçmək təklifini irəli sürdü. Kiçik Asiya istiqamətində yeni yürüşlərə başlamaq qət olundu. Bununla səlcuq türklərinin qərbə doğru kütləvi axınları başlandı. Onlar əvvəlcə Qəznəvilərin hakimiyyəti altında olan Xorasanda məskən saldılar. Elə burada da 1038-ci ildə paytaxtı ***Nişapur*** şəhəri olan ilk ***Səlcuqlu dövləti*** meydana gəldi. Səlcuqun nəvəsi ***Toğrul bəy*** (1038-1063) sultan elan olundu.

Sultan Toğrulun hakimiyyəti illərində səlcuq türkləri daha da qüvvətləndilər. 1040-cı il ***Dəndənəkan*** vuruşmasında Qəznəvilər dövlətinin hərbi qüvvələri darmadağın edildi. ***Mərv*** şəhərində toplanan Böyük qurultayda Şərqdə və Qərbdə yeni işğallara başlamaq qət olundu. Dövlətin paytaxtı Nişapurdan ***Reyə*** – Tehran yaxınlığına köçürüldü (1043). Səlcuq qoşunları buradan üç istiqamətdə – Həmədan-İsfahan, Gilan və Azərbaycana doğru yürüşə başladılar. Həmədan-İsfahan səmtində hücuma keçən səlcuqlu qoşunlarına ***İbrahim Yınal***, Gilan üzərinə yürüş edən qüvvələrə



***Kutalmış*** və ***Rəsultəkin***, Azərbaycanın güney bölgələrinə doğru hərəkət edən qoşunlara isə ***Həsən*** və ***Yaquti*** başçılıq edirdilər. Bundan qabaq Azərbaycan, İran, Güney Qafqaz və Şərqi Anadoluda möhkəmlənmiş oğuz-türk tayfaları səlcuqlu yürüşlərində fəal iştirak edirdilər. Çox keçmədən Həmədan və İsfahan da daxil olmaqla bütün Qərbi İranı ələ keçirən İbrahim Yınalın başçılıq etdiyi səlcuqlu qoşunları ***Dəclə*** sahillərinə çıxdı. Gilan da daxil olmaqla Xəzərin Güneyindəki torpaqları ələ keçirən Kutalmış isə Arazı adlayıb Arana girdi. Azərbaycanın quzeyində möhkəmlənən səlcuqlular şəddadilərin hərbi qüvvələri ilə birləşərək Bizans, erməni və gürcülərin birləşmiş qüvvələrinə ağır zərbələr endirdilər. Azərbaycanın güney bölgələri isə səlcuq sərkərdəsi Həsənin nəzarəti altına keçdi. Bundan sonra Şərqi Anadoluda hərbi əməliyyata başlayan Səlcuq-Azərbaycan qoşunları 1048-ci il sentyabrın 18-də Bizans, erməni və gürcü qoşunlarını birlikdə darmadağın etdilər. Bizans səlcuqlularla sülh bağlamağa məcbur oldu. Beləliklə, sultan Toğrulun hakimiyyətinin ilk illərində bütün Xorasan (1038-1044), Xarəzm (1043), Qərbi İran (1042-1051) səlcuq türklərinin əlinə keçdi. 1055-ci ildə Bağdad da daxil olmaqla İraq işğal olundu. Abbasilər Xilafəti səlcuq türklərindən asılı vəziyyətə düşdü. Abbasilər sultan Toğrulu bütün «Şərqin və Qərbin hökmdarı» kimi tanımağa məcbur oldular.

***Sultan Alp Arslanın*** (1063-1072) və ***Məlik şahın*** (1072-1092) hakimiyyəti illərində səlcuq türkləri daha geniş əraziyə yayıldılar. ***Malazgird*** vuruşmasında (26 avqust 1071-ci il) Bizans imperiyasının hərbi qüvvələrini darmadağın edən və imperator ***Roman Diogeni*** əsir alan Alp Arslan, demək olar ki, bütün Kiçik Asiyanı işğal etdi. Sonralar Suriya, Fələstin, Ermənistan və Gürcüstan, Orta Asiyada isə Məvəraünnəhr – Amu Dərya ilə Sır Dərya çayları arasındakı torpaqlar səlcuq türklərindən asılı vəziyyətə düşdü. Nəticədə Yaxın və Orta Şərqin siyasi xəritəsində Böyük Səlcuq imperatorluğu kimi qüdrətli dövlət yarandı. XI yüzilin ikinci yarısında bütün Orta Asiya, İran, Güney Qafqaz, İraq, Suriya, Kiçik Asiya və Ərəbistan yarımadası səlcuq türklərinin hakimiyyəti altında idi.

**SƏLCUQ İMPERATORLUĞU VƏ AZƏRBAYCAN.** Səlcuq türkləri Azərbaycanı asanlıqla ələ keçirdilər. Azərbaycan türkləri, o cümlədən burada yaşayan oğuz tayfaları səlcuq türklərinin soydaşları idilər. Onlar, habelə bütün Güney Qafqazın müsəlman əhalisi Bizans və erməni-gürcü təcavüzünə qarşı səlcuqlulara özlərinin təbii müttəfiqi kimi baxırdılar. Bundan başqa bir-biri ilə didişməkdə olan Rəvvadilər, Şəddadilər və Şirvanşahlar dövlətləri səlcuq qoşunlarına qarşı birləşə bilmədilər. 1054-cü ildə sultan Toğrulun ordusu Təbrizə yaxınlaşdı. Rəvvadi hökmdarı Vəhsudan müqavimət göstərməyin əbəs olduğunu görüb səlcuq sultanına tabe oldu.

Sultan Toğrul Təbrizdən sonra Gəncəyə hücum etdi. Şəddadi hökmdarı ***Əbu-l-Əsvar Şavur*** da müqavimət göstərmədən səlcuqlara təslim oldu. Bu zaman Səlcuq sultanı ilə Şəddadi hökmdarı arasında bir anlaşma bağlandı. İki hökmdar öz aralarında belə bir razılığa gəldilər ki, onlar Bizans imperatoruna və onun təhriki ilə tez-tez Azərbaycan torpaqlarına hücum edən erməni-gürcü qoşunlarına qarşı birgə hərəkət edəcəklər.

1066-cı ildə səlcuq türkləri ***Qaratiginin*** başçılığı ilə Şirvana hücum etdilər. Şirvanşah ***I Fəriburz*** qızğın müqavimət göstərsə də, səlcuq sultanına tabe oldu. Şirvan hökmdarları «şirvanşah» ləqəbi daşımaqdan məhrum edildilər. Şirvanşahlar dövlətinin asılı hala salınması ilə Azərbaycan bütünlüklə Böyük Səlcuqlu imperatorluğuna qatılmış oldu.

Səlcuq türkləri onların hakimiyyəti altına düşən bütün xalqların və ölkələrin sonrakı tarixi inkişafında eyni rol oynamadılar. Qonşu ölkələrdən və xalqlardan fərqli olaraq Səlcuq dövrü Azərbaycanın və Azərbaycan xalqının tarixi müqəddəratında böyük yer tutur.

Böyük Səlcuq imperiyasının meydana gəlməsindən çox qabaq Azərbaycan qədim türk tayfalarının, o cümlədən oğuz türklərinin yaşadığı ümumi əraziyə daxil idi. Sasanlıların və Ərəb xilafətinin hökmranlıq etdiyi təqribən altı yüz illik bir tarixi dövr ərzində bütün bu türk boylarının, habelə qeyri-türk tayfaların vahid xalq halında qaynayıb-qarışması prosesi getmişdi. Sasanlı və ərəb zülmkarlarına qarşı birgə mübarizə bu prosesə müsbət təsir göstərmişdi.

Azərbaycanın Böyük Səlcuq imperatorluğunun tərkibinə qatılması buranı Türkiyənin başlıca etno-siyasi dayaqlarından birinə çevirdi. Səlcuq axınları zamanı türk boylarının yeni toplumları Azərbaycanda yerləşdilər. Eyni kökdən olan və islamı qəbul etmiş səlcuq türkləri ilə Azərbaycan türkləri tez bir zamanda qaynayıb-qarışdılar. Azərbaycan türk xalqının yaranışı başa çatdı.

Səlcuqlu axınları nəticəsində oğuz türkləri bütün Güney Qafqazda və Ön Asiyada başlıca etno-siyasi amilə çevrildilər. Bu amil Yaxın və Orta Şərqin bütün sonrakı tarixində mühüm rol oynadı. Avropa feodallarının Şərq torpaqlarını işğal etmək məqsədilə təşkil etdikləri soyğunçu Xaç yürüşləri zamanı səlibçilərə sarsıdıcı zərbələr endirən səlcuq türkləri o zaman Yaxın və Orta Şərqin siyasi xəritəsinin Qərbi Avropa dövlətlərinin xeyrinə dəyişməsinə imkan vermədilər.

Səlcuq türklərinin axınları Bizans imperiyasının Güney Qafqazda möhkəmlənmək siyasətini və qəsbkarlıq planlarını da puça çıxardı. Türklük və islam amilləri Güney Qafqazda qəti olaraq möhkəmləndi.

Orta əsrlərin başqa imperiyaları kimi Böyük Səlcuq dövləti də uzun zaman yaşamadı. Bu geniş türk imperatorluğu natural təsərrüfatın hökmranlığı şəraitində yaranmışdı. Əmtəə-pul münasibətləri hələ başlıca iqtisadi əlaqə forması deyildi. Ölkənin iri sənətkarlıq və ticarət mərkəzləri ara-



sında əlaqələrin xeyli geniş olmasına və imperiyanın ərazisindən çox mühüm beynəlxalq karvan yolları keçməsinə baxmayaraq, Böyük Səlcuq imperatorluğunun əhatə etdiyi torpaqların və xalqların vahid iqtisadi və siyasi mərkəz ətrafında sıx birləşməsi, mərkəzləşmiş dövlətə çevrilməsi o zaman mümkün deyildi. Buna görə ilk zamanlar, başqa ölkələr və dövlətlər üzərinə aramsız yürüşlər dövründə oğuz-səlcuq cəmiyyətinin möhkəm hərbi-siyasi birliyinə dayanan Səlcuq dövləti XI yüzilin sonlarında – işğallar ara verdikdə çökməyə başladı.

Vaxtilə hərbi xidmət müqabilində səlcuqlu sultanlarının bütöv vilayətləri, mahalları ***iqta*** olaraq bağışladığı ayrı-ayrı sərkərdələr – əyalət hakimləri artıq mərkəzi hakimiyyətə tabe olmaq istəmirdilər. Əsarət altına salınmış ölkələrin, xalqların azadlıq mübarizəsi genişlənməkdə idi. Bundan əlavə, Birinci Xaç savaşı (1096-1099) dövründə Qərbi Avropa səlibçilərinin kütləvi yürüşlərinə qarşı mübarizə, Aralıq dənizinin Kiçik Asiya, Suriya və Fələstin sahillərində çox mühüm ərazilərin itirilməsi də Böyük Səlcuqlu imperatorluğunun süqutuna təsir göstərdi. Sultan Məlikşah və onun vəziri, məşhur «Siyasətnamə» müəllifi ***Nizaməlmülkün*** mərkəzi hakimiyyəti qüvvətləndirmək istəyi nəticəsiz qaldı. Sultan Məlikşahın oğulları sultan ***Mahmud*** (1092-1094), sultan ***Börküyarıq*** (1094-1104), sultan ***II Məlikşah*** (1104-1105) və sultan ***Məhəmmədin*** (1105-1118) hakimiyyəti illərində imperatorluğun süqutu daha da dərinləşdi. Səlcuqlu hökmdarı ***Sultan Səncərin*** (1118-1157) hakimiyyəti, demək olar ki, formal səciyyə daşıyırdı. İmperiya ayrı-ayrı müstəqil dövlətlərə parçalanmışdı. Bu dövlətləri səlcuqlu sultanları vəliəhdlərinin tərbiyəçiləri olan ***atabəylər*** idarə edirdilər.

Böyük Səlcuq imperatorluğunun parçalandığı dövrdə yaranmış ən qüdrətli dövlətlərdən biri Azərbaycan atabəylərinin idarə etdiyi ***Eldənizlər*** dövləti idi.

## 3. AZƏRBAYCAN DÖVLƏTLƏRİ XII-XIII YÜZİLİN BAŞLANĞICINDA

**ŞİRVANŞAHLAR DÖVLƏTİ.** Səlcuq türklərinin hakimiyyəti dövründə Azərbaycanın dövlətçilik ənənələri aradan qalxmadı. Azərbaycanın quzeyində Şirvanşahlar dövləti yenidən dirçəlirdi. Şirvanşah ***I Fəriburz*** (1063-1096) səlcuq sultanlarına tabe olsa da, Şirvanşahların hakimiyyətinə tamamilə son qoyulmamışdı. Böyük Səlcuq hökmdarı ***Məlikşahın*** hakimiyyətinin sonuna yaxın Şirvanşahlar yenidən qüvvətlənməyə başlamışdılar. Bu zaman I Fəriburz, daha sonra isə onun oğulları ***II Mənuçöhr*** və ***I Afridun*** ölkəni müstəqil idarə edirdilər.

Səlcuq türklərinə qarşı mübarizədə gürcü çarları Şirvanşahlarla yaxınlaşmağa çalışırdılar. Gürcü çarı ***Qurucu IV David*** (1089-1125) bu məqsədlə qızı ***Tamarı*** Şirvanşah ***I Afridunun*** oğlu ***III Mənuçöhrə*** vermiş-

di (1111). Şirvanşahlarla qohumluğun digər bir səbəbi də gürcü taqavorlarının Azərbaycanın qərb torpaqlarını ələ keçirmək istəyi ilə bağlı idi. Geniş xarici siyasət planlarına malik olan gürcü çarı başqa bir qızını Bizans imperatoru ***Aleksey Komninin*** oğluna ərə vermişdi. Çar Davidin özü isə Səlcuqlara qarşı güclü müttəfiq qazanmaq məqsədilə qıpçaq türklərinin hökmdarı ***Atrakın*** qızına evlənmişdi. O, səlcuq türklərinə qarşı qoymaq üçün Qafqazın şimalında Gürcüstana 45 min ailə və 225 min qıpçaq-türk döyüşçüsü köçürmüşdü*. Bütün bundan başqa Bizans imperiyasının vasitəçiliyi ilə, səlcuq türklərinə qarşı Qərbi Avropa səlibçiləri ilə də əlaqə yaranmışdı. Bu, olduqca məkrli bir siyasət idi: gürcü və erməni qoşunları Bizans imperiyasına, həmçinin Qərbi Avropa səlibçilərinə arxalanaraq türk-müsəlman əhalisini Qafqazdan sıxışdırıb çıxarmağa, Azərbaycan torpaqlarını öz aralarında bölüşdürməyə çalışırdılar. Bununla belə, ehtiyatlı siyasət yeridən Şirvanşahlar daha qüdrətli rəqib olan səlcuq türkləri ilə münasibəti pozmamağı üstün tutdular. Belə olduqda öz qoşunlarını qıpçaq-türk döyüşçüləri hesabına gücləndirmiş gürcü çarı, Şirvanşahların səlcuq türkləri əleyhinə onunla ittifaqa girmədiyini bəhanə edərək Azərbaycanın qərb torpaqlarını işğal etməyə başladı. 1117-ci ildə IV Davidin oğlu ***Demetre*** Şirvana hücum etdi. O, Şirvan qoşunlarını məğlubiyyətə uğradıb çoxlu qənimət və əsirlərlə Gürcüstana döndü. 1120-ci ildə isə IV Davidin özü qüvvətli ordu ilə Şirvana basqın etdi. Şirvanşah qoşunları yenə də məğlubiyyətə uğradı. Gürcü çarı ***Qəbələni*** və ətraf yerləri talan edərək, çoxlu qənimət, qızıl-gümüş ələ keçirib geri qayıtdı. IV David 1121-ci ildə Tiflis yaxınlığında ***Didqori vuruşmasında*** daha mühüm qələbə qazandı. Gürcülər, qıpçaq türkləri, osetinlər və Qərbi Avropa səlibçilərinin birləşmiş qüvvələri səlcuq qoşunlarına qalib gəldilər. 1122-ci ildə ***Tiflis müsəlman əmirliyi*** aradan götürüldü. Tiflis gürcülərin əlinə keçdi.

Gürcüstanın qüvvətlənməsi Şirvanşahların mövqeyinə təsir göstərdi. Şirvanşah III Məniçöhrün (1120-1160) zamanında Şirvan-Gürcüstan münasibətlərində dönüş yarandı. Bu dövrdə Şirvan-Gürcüstan əlaqələrinin yaxınlaşmasında Böyük səlcuqlu imperatorluğunun zəifləməsi ilə yanaşı III Məniçöhrün arvadı Tamar və onun güclü əhatəsi də mühüm rol oynamışdı. Gürcü çarı ilə birliyə bel bağlayan və onun Azərbaycanla əlaqədar siyasətinin mahiyyətini düzgün qiymətləndirməyən III Mənüçöhr Şirvanşahlar dövlətinin ənənəvi siyasətini pozaraq səlcuq türklərindən üz döndərdi. Nəticədə Şirvanşahlar dövləti Böyük Səlcuqlu imperatorluğuna 40.000 dinar məbləğində illik bac verməkdən imtina etdi. Buna cavab olaraq 1123-cü ildə səlcuq sultanı Şirvana hücum etdi. Lakin Şirvanşahın, IV Davidin və qıpçaq türklərinin birləşmiş qüvvələrinə qalib gələ bilməyən sultan, çox keçmədən Azərbaycanı tərk etməli oldu.

* Əvvəlki yüzillərdə də Gürcüstanda oğuz-qıpçaq boyları yaşayırdı. XII-XIII yüzil gürcü qaynaqları onları «əski qıpçaqlar» (naqiqıfçakara), çar Davidin gətirdiyi boyları isə axaliqıfçakara (yeni qıpçaqlar) adlandırırlar. XII yüzilin ikinci yarısında Gürcüstana üçüncü «qıpçaq» axını da olmuşdur. Gürcü tarixçilərindən bəziləri orada türk toplumlarının tarixi yerini danmağa çalışması, qıpçaqların «xristianlığa keçərək tezliklə gürcüləşməsi və sonrakı qıpçaq soylarından heç birinin qıpçaq olaraq qalmadığını» yazması tarixi gerçəkliyə uyğun deyildir – *Red.*



Səlcuq qoşunlarının geri çəkilməsi və Şirvanşahlarla Böyük səlcuq imperatorluğu arasında münasibətlərin pozulması Azərbaycan üçün ağır nəticələr verdi. Qərbi Azərbaycan və Şirvan torpaqlarını işğal etmək üçün fürsət gözləyən gürcü çarı üçün əlverişli şərait yarandı. IV David Şirvan torpaqlarını bütünlüklə Gürcüstana qatmaq qərarına gəldi və 1123-1124-cü illərdə dəfələrlə Azərbaycana yürüş etdi. ***Gülüstan*** və ***Buğurd*** qalalarını, Şamaxını ələ keçirdi. Mühüm şəhərlərdə və qalalarda güclü qarnizonlar qoyub geri döndü. Lakin gürcü qarnizonları Şirvanda beş aydan artıq qala bilmədilər. IV Davidin ölümündən (1125) sonra onlar Şirvanı tərk etməyə məcbur oldular. Gürcü çarının Şirvanı işğal etmək planı baş tutmadı. Şirvanşahlar taxtı yenidən III Mənuçöhrün əlinə keçdi.

III Mənüçöhr və I Demetrenin (1125-1155) hakimiyyəti illərində Şirvanşahlarla Gürcüstan arasında hərbi münaqişə baş vermədi. XII əsrin 30-60-cı illərində Şirvanşahlar dövləti özünün güclənmə dövrünü yaşayırdı. Azərbaycan Şirvanşahlar dövləti bütün Güney Qafqazda qüdrətli siyasi amilə çevrilmişdi.

1160-cı ildə III Mənuçöhrün ölümü ilə Şirvanda vəziyyət yenidən mürəkkəbləşdi. Şirvanşahın oğullara arasında taxt-tac mübarizəsi başlandı. Hələ III Mənüçöhrün sağlığında saray çevrilişi etməyə cəhd göstərmiş Şirvan əyanları yenidən fəallaşdılar. Sarayda yaranmış qarışıqlıqdan istifadə edən Tamar kiçik oğlu və bir qrup əyanla birlikdə qıpçaq türklərinə arxalanaraq Şirvanı Gürcüstana birləşdirməyə cəhd göstərdi. Lakin Azərbaycan ***Eldənizlər dövlətinin*** işə qarışması ilə bu plan pozuldu. Atabəy ***Şəmsəddin Eldənizin*** hərbi qüvvələrinin köməyi ilə III Mənuçöhrün böyük oğlu ***I Əhsitan*** (1160-1196) hakimiyyəti ələ keçirdi. Tamar özünün gürcü əhatəsi ilə birlikdə Azərbaycandan qaçdı və rahibliyə qapılaraq ömrünü monastrda başa vurdu.

I Əhsitanın hakimiyyəti illərində Şirvan dövləti daha da gücləndi. O, atası III Mənüçöhrün səhvini düzəldərək səlcuq türkləri ilə dostluq münasibətlərini bərpa etdi. I Əhsitan ömrünün sonunadək ona hakimiyyəti ələ keçirməkdə kömək etmiş Azərbaycan Eldənizlər dövləti ilə dostluq əlaqələri saxladı, ona arxalandı. Eyni zamanda Gürcüstan çarlığı ilə dostluq münasibətləri davam etdirildi. I Əhsitan Şirvan-Gürcüstan qohumluq ənənələrini davam etdirərək gürcü çarı ***III Georginin*** bacısı qızına evləndi. 1173-cü ildə Şirvanşahın hərbi qüvvələri Şəki ərazisindən keçərək Gür-

cüstana hücum etdi və mərkəzi hakimiyyətə qarşı çıxmış qiyamı yatırmaqda III Georgiyə köməklik göstərdi. Bundan başqa I Əhsitanın hakimiyyəti illərində Dərbənd hakimliyi yenidən Şirvanşahlardan asılı vəziyyət salındı. Atası III Mənuçöhr kimi, I Əhsitan və onun varisləri də Şirvan dövlətinin müdafiə qüdrətini artırdılar. Ölkənin ərazisində çoxlu müdafiə qurğuları – qalalar, qüllələr, sədlər tikildi və bərpa edildi.

1175-ci ildə Şirvanşahlar dövləti yenidən xarici təcavüzə məruz qaldı: rusların 73 gəmidən ibarət donanması Azərbaycana basqın etdi. Yadellilər Kürün mənsəbinə daxil olaraq ***Ləmbərana*** qədər hərəkət etdilər. Elə bu zaman quzeydən qıpçaq türkləri Dərbəndi və ***Şabranı*** ələ keçirdilər. Şirvanşahın hərbi qüvvələri rus donanmasını məhv etdi. Şabran və Dərbəndi qıpçaqlardan geri aldı. Hər iki qələbədə çar III Georginin başçılıq etdiyi gürcü qoşunları Şirvanşaha kömək göstərdilər. Yeri gəlmişkən, Bizans şahzadəsi Andronik Komnin də Azərbaycana köməyə gələn gürcü qoşunlarının ordugahında idi.

I Əhsitanın hakimiyyətinin sonuna yaxın güclü zəlzələ (1192) nəticəsində Şamaxı dağıldı. Şəhər əhalisinin xeyli hissəsi (o cümlədən şahın ailə üzvləri) tələf oldu. Bu hadisədən sonra Şirvanşahlar dövlətinin paytaxtı Bakıya köçürüldü.

Şirvanşah I Əhsitan və onun varislərinin hakimiyyəti illərində Azərbaycanın quzey torpaqlarında yaranmış siyasi sabitlik, Şirvanşahların Azərbaycan Eldənizlər dövləti və səlcuq türkləri ilə dostluq siyasəti, Gürcüstanla qonşuluq münasibətləri, Dərbənd keçidinin möhkəmləndirilməsi iqtisadi inkişafa və mədəniyyətin tərəqqisinə müsbət təsir göstərdi.

**ELDƏNİZLƏR DÖVLƏTİ.** Böyük Səlcuq İmperatorluğunun tənəzzülü dövründə meydana gələn müstəqil Azərbaycan dövlətlərindən biri də Azərbaycan atabəylərinin idarə etdiyi ***Eldənizlər dövləti*** idi. Eldənizlər dövlətinin ərazisi qabaqlar İraq Səlcuq sultanlığının tərkibinə daxil idi. Böyük Səlcuqlu imperatorluğunun parçalanması dövründə meydana gələn İraq Səlcuq sultanlığı (1118-1194) İraq, İran və Güney Azərbaycan torpaqları daxil olmaqla Güney Qafqazın bir hissəsini də əhatə edirdi.

Azərbaycan Eldənizlər dövlətinin yaranması atabəy ***Şəmsəddin Eldənizin*** adı ilə bağlıdır. Bu Azərbaycan hökmdarı çox maraqlı bir həyat yolu keçmişdi. Qaynaqların məlumatına görə, hələ uşaq ikən bir tacir onu Dərbəndin qul bazarından bir dəstə qulla birlikdə satın almışdı. Çirkin və çəlimsiz bir uşaq olan Eldənizi dərbəndli qul taciri təzə ağasına pulsuz vermişdi. O zaman qul ticarətində belə bir qayda vardı: əgər birisi bir yerdən 40 qul alsaydı, qulsatan tacir onlardan 39-nun pulunu alar, birini isə bəxşiş və ya üstəlik verərdi. Satılan 40 qulun ən kiçiyi olan Eldənizi də yeni ağasına pulsuz vermişdilər. Havalar çox isti olduğu üçün gecələr hərəkət



edən karvanla Dərbənddən İraqa aparılarkən balaca Eldəniz iki dəfə yuxulu-yuxulu arabadan düşmüş, onu təzədən arabaya mindirmişdilər. Üçüncü dəfə yıxılarkən ağası onu yolda qoyub getmişdi. Balaca Eldəniz səhər yuxudan ayılanda artıq karvan çoxdan getmişdi. Axşam düşənə yaxın fərasətli Eldəniz özünü yenidən həmin karvana yetirdikdə karvan sahibi heyrət içində qalmışdı. İraqa çatdıqda bütün bu qulları səlcuq sultanının veziri ***Əli əs-Süleyrəmi*** almış, ancaq Eldənizdən imtina etmişdi. Lakin kiçik Eldənizin ağlayıb-sızlamasından sonra rəhmə gələn vəzir onu da almışdı. Çox keçmədən gözüaçıq və düşüncəli uşaq olan Eldəniz ağasının diqqətini cəlb etmişdi. Bir qədər sonra səlcuqlu sarayında xidmətə başlayan Şəmsəddin Eldəniz at çapmaqda, ox atmaqda yaşıdlarını ötüb keçdi, nəhayət, görkəmli dövlət xadimi kimi şöhrət qazandı. Sultan ***II Toğrul*** (1132-1134) ona əmir titulu verdi və öz oğlu ***Arslan şahın*** atabəyi təyin etdi. Sultan II Toğrulun ölümündən sonra onun dul qadını ***Mömine Xatunla*** evlənən Şəmsəddin Eldənizin saraydakı nüfuzu daha da artdı. 1136-cı ildə o, Aran hakimi təyin olundu və Bərdəyə göndərildi. Bununla, müstəqil Azərbaycan Eldənizlər dövlətinin və bu dövləti idarə edən Eldənizlər sülaləsinin özülü qoyuldu.

Görkəmli sərkərdə və uzaqgörən siyasi xadim olan Şəmsəddin Eldəniz az vaxt içərisində bir çox xırda mülkləri aradan qaldıraraq, demək olar, bütün Azərbaycanı öz hakimiyyəti altında birləşdirdi. O, sultan sarayından iqta olaraq aldığı Arandan başqa Azərbaycanın bütün Güney bölgələrini, habelə Naxçıvanı müstəqil idarə etməyə və öz adından pul kəsdirməyə başladı. Eldənizlər dövlətinin ilk paytaxtı Naxçıvan şəhəri idi.

Müstəqil hökmdar kimi fəaliyyət göstərən Şəmsəddin Eldəniz (1136-1175) səlcuq sarayında böyük nüfuza malik idi və dövlətin idarə olunmasında yaxından iştirak edirdi. O, 1160-cı ildə «Böyük Atabəy» titulu aldı və oğulluğu Arslan şahın (1161-1176) sultan elan edilməsinə nail oldu. Bundan sonra Şəmsəddin Eldəniz bütün İraq Səlcuq sultanlığını özü idarə etməyə başladı. Ən yaxın adamlarını ali dövlət vəzifələrinə təyin etdi. Böyük oğlu ***Məhəmməd Cahan Pəhləvan*** sultanın hacibi oldu. Kiçik oğlu ***Qızıl Arslan*** isə sultan qoşunlarının ali baş komandanı qoyuldu. Beləliklə, İraq Səlcuq sultanlığı əslində Azərbaycan sultanlığına çevrildi.

Başlıcası isə, Kürdən Güneydəki bütün Azərbaycan torpaqları Eldənizlər dövlətinin tərkibinə yenidən birləşdirildi. Şirvanşahlar dövləti də Eldənizlərdən asılı vəziyyətə salındı. Bununla, Azərbaycan torpaqları əslində, vahid dövlət halında birləşdirilmiş oldu.

Yaxın və Orta Şərqin qüdrətli dövlətinə çevrilən Azərbaycan Eldənizlər dövləti qonşu ərazilər hesabına öz sərhədlərini genişləndirmək siyasəti yeridirdi. Dəbil (Dvin) şəhəri də daxil olmaqla Ermənistan torpaqları Eldənizlər dövlətinin tərkibinə qatıldı.

Şəmsəddin Eldəniz o zaman xeyli qüvvətlənən və tez-tez Azərbaycanın sərhədlərini pozan Gürcüstana qarşı dəfələrlə hərbi yürüşlərə çıxdı. Onun hakimiyyətinin ilk illərində baş vermiş zəlzələdən sonra gürcü çarı I Demetre Gəncəyə basqın edərək şəhəri qarət etmiş, Məşhur Gəncə qapılarını hərbi qənimət kimi Gürcüstana aparmışdı*. Azğınlaşmış gürcü qoşunları görünməmiş amansızlığa əl atdılar. 1161-ci ildə Eldənizlər dövlətinin tabeçiliyində olan Dəbil şəhərinə hücum edən gürcü qoşunları 10 minə qədər adamı qılıncdan keçirmiş, qadınları və uşaqları çılpaq halda Gürcüstana sürmüşdülər. Qaynaqda deyildiyi kimi, yalnız «gürcü qadınlarının etirazlarından sonra onların paltarları özlərinə qaytarılmışdı». Bütün bunları nəzərə alan Şəmsəddin Eldəniz Gürcüstan sərhəddinə diqqəti artırmış, gürcü qoşunları üzərində bir sıra qələbələr qazanmışdı. Onun hakimiyyəti illərində gürcü çarları Azərbaycan sərhədlərini tez-tez pozmağa cəsarət etmirdilər.

Şəmsəddin Eldənizin hakimiyyətinin sonuna yaxın Eldənizlər dövlətinin nüfuz dairəsi Dərbənd keçidindən İran körfəzinə çatırdı. Qaynaqların məlumatına görə, «Tiflis qapılarından Məkrana kimi» çox geniş ərazilər: Azərbaycan, o sıradan Aran və Şirvan, əl-Cibəl. İraq, Həmədan, Gilan, Mazandaran, İsfahan və Rey Azərbaycan Eldənizlər dövlətinin tərkibinə daxil idi. Xilat, Fars, Xuzistan, Mosul, Kerman və Təbəristan hakimləri də Şəmsəddin Eldənizdən asılı idilər. Onun illərində mərkəzi hakimiyyətə tabe olmaqdan boyun qaçıran əmirlərin əl-qolu yığılmış, mərkəzi hakimiyyət qüvvətləndirilmişdi. Mərkəzi hakimiyyətdən iqta – iri şərti torpaq mülkləri almış əmirlərin hərbi qüvvələrindən başqa hökmdarın özünün 50 min nəfərlik nizami atlı ordusu vardı. Şəmsəddin Eldənizin idarə etdiyi böyük Azərbaycan dövləti sənətkarlıq və ticarətin tərəqqisinə, kənd təsərrüfatının inkişafına, mədəni oyanışa səbəb oldu.

Eldənizlər dövləti Şəmsəddin Eldənizin oğlu Məhəmməd Cahan Pəhləvanın (1175-1186) hakimiyyəti illərində daha da gücləndi. O, Səlcuq sultanı ***III Toğrulun*** (1176-1194) atabəyi idi. Azyaşlı III Toğrul Azərbaycan hökmdarının himayəsi altında Naxçıvanda yaşayırdı. Məhəmməd Cahan Pəhləvan hakimiyyətə gələrkən paytaxtı Naxçıvandan Həmədana köçürdü (1175). Təbrizi ***Ağsunqurilərin*** əlindən aldı. Müstəqilliyə can atan iri səlcuq əmirlərinin müqavimətini qırdı.

Məhəmməd Cahan Pəhləvanın hakimiyyəti dövründə Azərbaycanı onun kiçik qardaşı Qızıl Arslan idarə edirdi. Qızıl Arslan həm də qardaşı oğullarının, yəni Məhəmməd Cahan Pəhləvanın oğulları ***Əbu Bəkrin*** və ***Özbəyin*** atabəyi idi. Qızıl Arslanın iqamətgahı Təbriz idi. Beləliklə, Təbriz bütün Azərbaycanın iqtisadi və siyasi mərkəzinə çevrilməyə başladı.

---

* Həmin qapıların bir layı Kutaisi yaxınlığındakı Gelat monastrında saxlanılır, digəri isə göstərilən monastr təmir olunarkən sərf edilmişdir.



Məhəmməd Cahan Pəhləvan bütün mühüm dövlət vəzifələrinə özünün ən yaxın adamlarını təyin etdi. Öz tərəfdarlarına çoxlu torpaq mülkləri paylamaqla mərkəzi hakimiyyəti xeyli qüvvətləndirdi. Atası kimi onun da 50 minlik güclü atlı ordusu vardı. Məhəmməd Cahan Pəhləvan dövlətin sərhədlərini daha da genişləndirdi. Azərbaycanın qərb torpaqlarını ələ keçirməyə çalışan gürcü qoşunlarını dəfələrlə məğlub etdi. Əhər melikləri, Şirvan, Xilat, Diyarbəkir, Fars hakimləri Eldənizlər dövlətindən asılı hala düşdü. Eldənizlər dövlətinin ərazisi Şərqi Anadolu hesabına xeyli genişləndirildi. Əsas diqqəti dövlətin qərb sərhədlərinin möhkəmləndirilmsinə yönəldən Məhəmməd Cahan Pəhləvan ***Xarəzmşah Təkəşlə*** (1172-1200) dostluq münasibətləri saxlayırdı. Azərbaycan hökmdarının yeritdiyi müdrik xarici siyasət nəticəsində Abbasi xəlifələri Eldənizlər dövlətinin işlərinə qarışa bilmirdilər. Məhəmməd Cahan Pəhləvan deyirdi: «Əgər xəlifə imamdırsa, onun peşəsi namaz qılmaq olmalıdır. Çünki namaz etiqadın əsasıdır və bütün işlərin ən yaxşısıdır. Həmin işdə öndə getmək və xalqa nümunə olmaq xəlifə üçün kifayətdir. Əsl səltənət də elə bundan ibarətdir. Xəlifənin hakimiyyət işlərinə qarışmasına ehtiyac yoxdur. Bu cür işləri sultanın ixtiyarına buraxmaq lazımdır». Məhəmməd Cahan Pəhləvanın ömrünün sonuna yaxın dövlətin ayrı-ayrı vilayətləri onun oğulları arasında bölüşdürülmüşdü. Azərbaycanın idarəçiliyi Əbu Bəkrə tapşırılmışdı.

Məhəmməd Cahan Pəhləvandan sonra hakimiyyətə keçən qardaşı Qızıl Arslan (1186-1191) uzun müddət taxt-tacı ələ keçirmək uğrunda mübarizəyə qalxan saray müxalifətinə və iri hakimlərə qarşı mübarizə aparmalı oldu. Sultan titulu daşıyan III Toğrul, narazı səlcuq əmirləri, Məhəmməd Cahan Pəhləvanın arvadı ***İnanc Xatun***, oğlu ***Qutluq İnanc*** və başqaları Qızıl Arslana qarşı vahid cəbhədə birləşdilər. III Toğrul ilə Qızıl Arslan arasında dəfələrlə qanlı vuruşmalar oldu. Azərbaycan hökmdarı saray müxalifəti və səlcuq əmirləri ilə münasibətləri sahmana salmaq məqsədilə Məhəmməd Cahan Pəhləvanın dul arvadı İnanc Xatunla evləndi. Qardaşı oğulları (həm də oğulluqları) Qutluq İnancla və ***Əmir Əmiran Ömərlə*** barışdı. Sonra isə 1990-cı ildə Həmədan vuruşmasında parlaq qələbə qazandı və sultan III Toğrulu oğlu Məlikşahla birlikdə əsir aldı. 1191-ci ildə Qızıl Arslan xəlifə ***ən-Nasirin*** razılığı ilə özünü sultan elan etdi. Beləliklə, əslində hələ Şəmsəddin Eldənizin vaxtından İraq Səlcuq sultanlığını müstəqil idarə edən Azərbaycan atabəyləri «sultan» titulunu ələ keçirdilər.

Sarayda mövqeyini bərkidən Qızıl Arslan, çox keçmədən, ara savaşları zamanı Eldənizlərin asılılığından çıxmış olan Şirvanşahları, Rey, İsfahan, Fars və Xuzistan hakimlərini yenidən mərkəzi hakimiyyətə tabe etdi. Ölkənin iqtisadi və mədəni tərəqqisi üçün əlverişli şərait yarandı.

Lakin Qızıl Arslanın cəsarətli daxili siyasəti nəticəsində yaradılmış siyasi sabitlik uzun sürmədi. Mərkəzi hakimiyyətin qüvvətlənməsindən na-

razı qalan hakimlər və arvadı İnanc Xatun onu sui-qəsdlə yatağında öldürdülər. Hakimiyyəti ələ keçirmək üstündə ara müharibələri başlandı. Azərbaycanda hakimiyyəti Qızıl Arslanın qardaşı oğlu, həm də onun tərbiyəsi ilə böyüyən Əbu Bəkr (1191-1210) ələ keçirdi. Qutluq İnanc və Əmir Əmiran Ömərin idarə etdikləri İsfahan, Rey vilayətləri və İraqın bir hissəsi Eldənizlər dövlətindən ayrıldı. Mərkəzi hakimiyyəti ələ keçirmək uğrunda mübarizə genişləndi. Ara savaşları və çəkişmələr dövlətin süqutunu sürətləndirdi. Eldənizlər dövlətinin zəifləməsindən istifadə edən Xarəzmşahlar, Əyyubilər, Abbasilər, Şirvanşahlar, gürcü çarları fəallaşdılar. 1192-ci ildə sultan III Toğrulun həbsdən qaçması vəziyyəti daha da mürəkkəbləşdirdi. O, az vaxt içərisində Rey, İsfahan və Həmədanı ələ keçirdi. III Toğrul tərəfindən məğlub edilən Qutluq İnanc kömək üçün Xarəzmşah Təkəşə müraciət etdi. Bundan istifadə edən Təkəş Xorasan, Rey və Həmədanı ələ keçirdi. III Toğrul Təkəş və Qutluq İnancın birləşmiş qüvvələrinə qarşı vuruşmada (1194) öldürüldü. Çox keçmədən işğal etdiyi əraziləri əldə saxlamağa çalışan Təkəşlə Qutluq İnanc arasında toqquşma baş verdi, bu mübarizədə Qutluq İnanc öldürüldü (1196). Yaxınlaşan xarici təhlükəni qabaqlamaq məqsədilə mübarizəyə qoşulan Əbu Bəkr Eldəniz, Xarəzmşahların hərbi qüvvələri üzərində bir sıra qələbələr qazansa da, dərinləşməkdə olan çəkişmələrin qarşısını almaq mümkün olmadı.

Yaranmış vəziyyətdən Şirvanşahlar və gürcü çarı istifadə etdilər. Şirvanşah I Əhsitan qızını Əmir Əmiran Ömərə ərə verdi və ona qardaşı Əbu Bəkrə qarşı hərbi qüvvə ilə yardım göstərdi. Əmir Əmiran Ömər gürcü çarı Tamardan da kömək istədi. Gürcü çarı yaranmış fürsətdən dərhal istifadə etdi. Gürcüstan və Şirvanşahların birləşmiş qoşunları Şəmkir və Beyləqan vuruşmalarında (1194) Əbu Bəkri ağır məğlubiyyətə uğratdılar. Bundan sonra Əmir Əmiran Ömər və gürcü sərkərdəsi ***David Soslanın*** hərbi qüvvələri Gəncəyə soxuldu. Gəncə əhalisi vətənə xəyanət edən Eldəniz şahzadəsinə qəti cavab verdi: «Əgər sən üstümüzə tək gəlsəydin, biz şəhəri sənə təslim edərdik. Lakin sən bir yığın kafirlə birlikdə gəlmisən. Ona görə də şəhəri təslim etməyəcəyik...» Lakin Əmir Əmiran Ömər Gəncəni hiylə ilə ələ keçirə bildi. Gürcü qoşunları Azərbaycanı tərk etdikdən sonra gəncəlilər Əmir Əmiran Öməri öldürdülər. Şəhər yenidən Əbu Bəkrin hakimiyyəti altına keçdi. Gəncə hadisələrindən xəbər tutan gürcü qoşunları yenidən Azərbaycan sərhəddini keçdilər. Sərxoşluğa qurşanmış Əbu Bəkr dövlətin müdafiəsini başlı-başına buraxaraq Naxçıvana, oradan da Təbrizə getdi. Gürcü qoşunları Gəncəni mühasirəyə aldılar. Çariça Tamar öz qoşunlarını ruhlandırmaq üçün Gəncə ətrafına gəldi. Ona sədaqətini nümayiş etdirən I Əhsitan da Gəncə yaxınlığına – Tamarın görüşünə gəldi. Lakin Gəncənin müdafiəçiləri təslim olmadılar. 25 günlük mühasirədən sonra Gəncəni ala bilməyən gürcü qoşunları Eldənizlərin hakimiyyəti altında olan Dəbili (Dvini) qarət etdilər (1203). Qərbi Azərbaycan torpaqlarının



Gürcüstana qatılması təhlükəsi yarandı. Şirvanşahlar Azərbaycanın qərb sərhədlərinin müdafiəsinə qalxmışdılar. Bundan istifadə edən gürcü qoşunları 1210-1211-ci illərdə Azərbaycan torpaqlarına dağıdıcı basqınlar etdilər. Naxçıvanı mühasirəyə aldılar, lakin ələ keçirə bilmədilər. Naxçıvandan sonra Təbriz mühasirə olundu. Şəhər hakimi ***Zahidə Xatun*** (Məhəmməd Cahan Pəhləvanın arvadı) çoxlu pul, daş-qaş və sənətkarlıq məhsulları verib şəhəri dağıntıdan qurtardı. Lakin şəhər ətrafı amansızcasına qarət olundu. Təbrizlilərin bütün mal-qarası sürülüb aparıldı. Miyanə də tutuldu. Lakin gürcü qoşunları geri çəkilən kimi miyanəlilər üsyan qaldırıb gürcü qarnizonunu qırdılar. Buna cavab olaraq yenidən şəhərə hücum edən gürcü cəza dəstələri şəhər hakimini ailəsi ilə birlikdə qılıncdan keçirdilər, dərilərini soyub minarənin başından asdılar, sonra isə şəhəri qarət edib yandırdılar. Zəncan, Qəzvin və Abxar əhalisinə də divan tutuldu. Təbrizdən Ərdəbilə hücum edən başqa gürcü qoşunu Uçan şəhərini qarət etdi. Ərdəbilin, demək olar, bütün varidatını karvanlarla Gürcüstana daşıdılar. 12 min ərdəbilli qılıncdan keçirildi. ***Zakare Mherqrdzelinin*** başçılıq etdiyi gürcü qoşunları qayıdan baş, müdafiəsiz qalan xalqa amansız divan tutdu, Azərbaycanın sərvətini talayıb apardı. Ölkənin müdafiəsinə başçılıq etməyə qadir olmayan Əbu Bəkr gürcü çarının qızına evlənməkdən başqa çıxış yolu tapmadı.

Əbu Bəkrin ölümündən sonra hakimiyyətə keçən qardaşı Özbəyin (1210-1225) hakimiyyəti illərində Eldənizlər dövlətinin çökməsi davam etdi.

Beləliklə, monqolların yürüşü qarşısında Azərbaycan dövlətləri ölkəni xarici təhlükədən qorumaq iqtidarında deyildilər.

## 4. İQTİSADİ HƏYAT

**KƏND TƏSƏRRÜFATI.** Azərbaycanın Xilafət zülmündən azad olması, müstəqil yerli dövlətlərin meydana gəlməsi iqtisadi inkişafın sürətlənməsinə səbəb oldu. Ölkənin rəngarəng, əlverişli iqlim şəraiti, münbit torpaqları, zəngin təbii sərvətləri, xalqın əsrlər boyunca toplanıb təkmilləşmiş əkinçilik və istehsal ənənələri Azərbaycanda olduqca müxtəlif təsərrüfat və sənətkarlıq sahələrinin tərəqqisi üçün özül oldu.

IX-XIII əsrlərin məşhur ərəb coğrafiyaçı və tarixçilərinin məlumatları təsdiq edir ki, o zaman Azərbaycan Yaxın və Orta Şərqin, bütün islam dünyasının ən inkişaf etmiş ölkələrindən biri idi. X əsrdə yaşamış ərəb coğrafiyaçısı ***əl-İstəxri*** özünün «Məmləkətlərin yolları kitabı»nda Azərbaycandan bəhs edərkən yazırdı: «Burada hər şey o qədər boldur ki, öz gözləri ilə görməyənlər belə bolluğa inanmırlar». Əl-İstəxrinin müasiri olan başqa bir ərəb səyyahı İbn Hövqəl isə qeyd edir ki, Azərbaycanın hər yeri «buğda zəmiləri ilə örtülüdür. Bu yerlərin heç biri çaylarına, bağlarına və

yaşayış məntəqələrinə görə o birisindən geri qalmır. Əksinə, hər cür malnemətlə zəngin və Allahın xeyir-bərəkəti ilə doludur. Meyvələri çox ucuz, yemək şeyləri isə, demək olar ki, müftədir».

Xilafət dövründə və ondan çox əvvəllər olduğu kimi Azərbaycan əhalisinin çoxu oturaq həyat sürür, başlıca olaraq, kənd təsərrüfatı ilə məşğul olurdu. Əvvəlki tarixi dövrlər ərzində Azərbaycan ərazisinin uzun sürən hərbi toqquşmalar meydanına çevrilməsi ölkənin Güney bölgələrində, Mil, Muğan və Aran düzlərində suvarma qurğularının dağıdılmasına səbəb olsa da, bu yerlərdə həyat yenidən canlanmağa başlayırdı. Kür və Araz, eləcə də Səfidrud çayı boyunca torpaqlarda, Şirvanda və Şəkidə dənli bitkilər əkini, taxılçılıq geniş inkişaf etmişdi. Mənbələr Azərbaycanda dənli bitkilərin, demək olar, bütün növlərinin (buğda, arpa, çəltik, darı və s.), müxtəlif texniki (pambıq, boyaqotu, kətan və s.) və bostan bitkilərinin becərilməsi barədə olduqca maraqlı məlumatlar verirlər. Bəzi yerlərdə, ildə iki dəfə məhsul götürülürdü. Kür çayının hər iki sahili taxıl zəmiləri və pambıq tarlalarından ibarət idi. Təbriz, Gəncə, Şəki, Şəmkir, Qəbələ, Bakı, Şabran ətrafında da əhali əkinçiliklə məşğul olur, başlıca olaraq taxıl becərirdi. Dərbənd ətrafında zəfəran, həmçinin kətan becərilirdi. Azərbaycan zəfəranı başqa ölkələrə də ixrac olunurdu. Lənkəran və Şəki bölgələrində qiymətli çəltik növləri əkilirdi. Bərdə vilayəti çox qiymətli qırmızı boyaq almaq üçün istifadə olunan qırmızıböcəyi ilə zəngin idi.

Əhalinin təsərrüfat həyatında bostan bitkiləri və tərəvəz əkini də mühüm yer tuturdu. Mənbələrdə o zaman Azərbaycanda qovun, qarpız, xiyar, kələm, lobya, noxud, mərci, badımcan, kudu, balqabaq, kahı, müxtəlif göyərtilər becərilməsi barədə maraqlı məlumatlar var. İbn Hövqəl Marağada uzunsov, içərisi qırmızı, bal kimi şirin olan boz qovunlar yetişdirildiyini yazır. O zaman Azərbaycanda oturaq əkinçiliyin yüksək inkişaf etməsi ilə bağlı təkcə Aran vilayətində 4000-ə qədər kənd vardı. Xilafətin apardığı uzunsürən müharibələr, Bizans imperiyasına arxalanan erməni və gürcü taqavorlarının aramsız basqınları nəticəsində dağılmış Azərbaycan kəndləri təzəcə dirçəlməyə başlayırdı. Ərəb coğrafiyaçısı Əbu Duləf (X yüzil) Araz çayının axıb keçdiyi ***Balasacan*** düzündə Beyləqan və Varsan şəhərləri iəl yanaşı «5000 və ya daha çox xaraba qalmış kənd olduğunu» yazırdı.

Zaman keçdikcə əhalinin əkinçilik mədəniyyəti yüksəlir, əmək alətləri təkmilləşirdi. Torpaq, bir qayda olaraq, bir cüt qoşqu heyvanı – öküz və ya kəl qoşulmuş xışla şumlanırdı. Buna görə də o zamanlar el arasında «cüt», «cütə getmək», «əkinçi» sözü müqabilində isə «cütçü» terminləri geniş yayılmışdı. Azərbaycanın bəzi yerlərində iki, üç, hətta dörd cüt qoşqu heyvanı qoşulmuş xışlardan istifadə olunurdu. Əl-Müqəddəsinin məlumatına görə Ərdəbil nahiyəsində yeri dörd nəfər cütçünün idarə etdiyi səkkiz öküzlə şumlayırdılar. Səyyah «bu cür şum torpağın bərkliyi iləmi bağlıdır?» – deyə maraqlandıqda, cütçülər: «Yox, qardan ötrüdür» – deyə dərin şumun sirrini ərəb səyyahına izah etmişdilər. Ata-baba ənənələrini yaşadan Azərbaycan kəndliləri quraqlığa qarşı torpağı dərindən şumlamağı üstün tuturdular. Bütün qışı qar örtüyü altında qalan və dərin qatlarına yağmur çökmüş əkinlər yayda quraqlığa davamlı olurdu. Bu dövrdə ölkədə su dəyirmanlarının sayı artmaqda idi.



Azərbaycanda yüksək inkişaf etmiş təsərrüfat sahələrindən biri də bağçılıq idi. Dünyanın bir çox ölkələrini gəzib dolanmış ərəb səyyahları göstərirdilər ki, Azərbaycanda olan rəngarəng, gözəl və dadlı meyvələr başqa yerlərdə yoxdur. ölkədə alma, armud, üzüm, nar, ərik, şaftalı, əncir, heyva, gilas, gavalı, alça, zoğal, qoz, fındıq, tut, şabalıd bağları çox idi. Bərdə yaxınlığında Suriya şabalıdından daha dadlı və məhsuldar şabalıd, Səmərqənd fındığından daha dadlı fındıq, həmçinin qoz, ağ tut, zoğal və başqa meyvələr yetişdirilirdi. Qəbələ, Şəki, həmçinin Qanıx (Alazan) çayı ilə Baş Qafqaz dağları arasındakı məhsuldar vadilər (indiki Balakən-Zaqatala-Qax torpaqlarında) qoz-fındıq bağları çox idi. Araz çayı boyunca yetişən nadir nar növünə başqa yerlərdə təsadüf olunmurdu. Təbriz, Marağa, Xoy, Salmas, Urmiya bağ-bağat içərisində idi. O zaman Təbriz bağlarını suvarmaq üçün şəhərdə 900-dən çox kəhriz qazılmışdı. Lakin Təbrizdə olan bağçaları suvarmaq üçün bu qədər kəhrizin suyu yetmirdi. Bütün bu yerlərdə, həmçinin Muğanda, Şirvanda bol üzüm yetişdirilirdi. İbn Hövqəlin yazdığına görə, Dərbəndlə Səməndər arasındakı üzümlüklərdə 40.000-ə qədər tənək vardı.

IX-XI əsrlərdə Azərbaycanda ipəkçilik yüksək inkişaf etmişdi. Şəki, Şirvan, Bərdə və başqa bölgələrdə əhali ipəkqurdu bəsləmək üçün çoxlu tut ağacı bağlar – toxmaçarlıqlar salmışdı.

Meşə örtüyü Azərbaycanın mühüm təbii sərvətlərindən biri idi. O zaman Azərbaycanın başqa yerləri kimi, Xəzər sahilləri də zəngin təbiətə malik idi. Əbu Duləf Azərbaycana səyahət edərkən «Xəzər sahili ilə Bakıya çatana qədər ağacların altı ilə 80 fərsəx (1 fərsəx 6-7 km-dir – *Y.M.*) yol gəlmişdi».

Kənd təsərrüfatının inkişaf etmiş sahələrindən biri də maldarlıq idi. Ucsuz-bucaqsız otlaqları, örüşləri, Mil, Muğan və Şirvan düzlərində geniş qışlaqları, Qafqaz, Savalan və Talış dağlarında, Qarabağda və Göyçə gölü ətrafında səfalı yaylaqları olan Azərbaycanın təbiəti burada iribuynuzlu mal-qara, qoyun sürüləri, dəvə və at ilxılarının saxlanılması üçün əlverişli şərait yaradırdı. Yaylaq-qışlaq maldarlığı başlıca yer tuturdu. Kür boyu yaşayış məntəqələrindən, Bərdə kəndlərindən mal-qaranın bir hissəsini gəmilərlə gətirib Kürün Xəzərə qovuşduğu yerdəki böyük adaya buraxır, kökəldikdən sonra qaytarıb aparırdılar.

Azərbaycanın əlverişli iqlimi burada bir çox vəhşi heyvanların, quşların, balıqların yaşayıb çoxalmasına şərait yaradırdı. XII yüzillikdə Azərbaycana səyahət etmiş ərəb coğrafiyaçısı ***Əbu Həmid əl-Qərnati*** Abşeron yarımadasının özündə belə çoxlu vəhşi heyvanlar yaşadığını, buranın ceyran ovlağı olduğunu qeyd edir.

Xəzər dənizi balıqlarla zəngin idi. Xəzərin sahilində, Kür və Araz çayları boyunca yaşayan əhali başqa təsərrüfat sahələri ilə yanaşı balıqçılıqla məşğul olurdu. İbn Hövqəlin yazdığına görə Kür və Araz çaylarından tutulan balıqlar Ərdəbil, Rey və İraqa göndərilirdi. İstəxri, Kürdən «əs-sürmahı» (şamayı), «əz-zəraqan», «əl-işubət» balıqları tutulduğunu, İbn əl-Fəqih isə Arazın balıqlarla zəngin olduğunu, bu çayda olan Şürmahı (şamayı) balığının başqa heç bir çayda olmadığını yazır. Həmin məlumatı təsdiq edən Yaqut əl-Həmavi göstərir ki, şamayı balığı Araza ildə bir dəfə, özü də müəyyən vaxtda daxil olur; Arazda hər ay yeni balıq növlərinə təsadüf olunur.

Arıçılıq, bal və mum ixracı da Azərbaycanın iqtisadi həyatında mühüm rol oynayırdı.

IX-XI yüzillərdə Azərbaycan müxtəlif növ kənd təsərrüfatı məhsulları istehsalına görə dünyanın zəngin ölkələrindən biri idi. Azərbaycan xalqı yüksək əkinçilik mədəniyyəti və kənd təsərrüfatı məhsulları istehsalı sahəsində böyük ənənələr yaratmışdı.

**TORPAQ MÜLKİYYƏTİ VƏ VERGİLƏR.** IX-XI yüzillərdə Azərbaycanda cəmiyyətin əsas istehsalçısı kəndlilər idi. Azərbaycan kəndliləri, başlıca olaraq, ***ülüclara*** və ***azad kəndlilərə*** bölünürdülər. Ülüclar asılı kəndlilər idilər. Bu kəndli toplumu hələ ərəb işğalları dövründə yaranmışdı. Ağır vergi siyasəti və dövlət məmurlarının özbaşınalığı nəticəsində öz torpaqlarını itirmək təhlükəsi qarşısında olan Azərbaycan kəndlilərinin bir hissəsi ayrı-ayrı ərəb varlılarının himayəsinə sığınmağa məcbur olurdu. Həmin kəndlilərə məxsus olan torpaqlar ərəblərin əlinə keçir və ***ilcə*** (yaxud ***hami***) torpaqları adlanırdı. İlcə torpaqlarında yaşayan kəndlilər ***ülüclar*** adlanırdılar. Ülüclar, əsasən, əkinçiliyin yüksək inkişaf etmiş olduğu düzən rayonlarında yaşayırdılar. Dövlətə vergi verirdilər. Azad kəndlilər isə, başlıca olaraq, dağ rayonlarında yaşayırdılar. Azərbaycan kəndlilərinin çoxu oturaq həyat sürürdü.

Torpaq üzərində (süni suvarmaya əsaslanan əkinçiliyin inkişaf etdiyi yerlərdə, həmçinin su üzərində) xüsusi mülkiyyət mövcud idi. Bütün münbit torpaqlar iri sahiblərin əlində idi. Torpaq mülkiyyətinin bir neçə növü vardı. Bunlardan ən geniş yayılanı **mülk** və ya ***əmlak*** torpaqları idi. Bu torpaqlar irsi idi, yəni nəsildən-nəslə keçirdi. Mülk sahibləri həmin torpaqları sata və ya bağışlaya bilərdilər. Mülk sahibi ***malik*** (məlik) və ya ***mülkədar*** dövlətə ***xərac*** vergisi verirdi.



Mülkdən başqa ***camaat (icma)*** torpaqları da vardı. Bu torpaqlar, əsasən, otlaqlar, örüşlər, meşələr, bataqlıqlar və sairədən ibarət olurdu. Camaat torpaqları içərisində bəzən əkin yerləri də olurdu. Camaat torpaqları dövlətin mülkiyyətində idi, buna görə də həmin torpaqlardan elliklə istifadə edən camaat bunun müqabilində dövlətə birgə vergi – xərac verirdi.

Mülk və camaat torpaqlarından başqa bilavasitə ayrı-ayrı hökmdarların (xəlifələr, sultanlar və s.) və sülalələrin də mülkiyyətində geniş torpaq sahələri vardı. Belə torpaqlar ***əmlaki-xassə*** adlanırdı.

Dövlətə məxsus olan, yəni gəliri birbaşa xəzinəyə axan torpaqlara ***divani***, başqa sözlə, ***divan torpaqları*** deyilirdi.

Bütün bu torpaqlardan başqa şərti torpaq mülkləri – ***iqta*** sistemi genişlənib inkişaf etməkdə idi. Ərəb xəlifələri Azərbaycanın işğalı zamanı burada özlərinə hərbi-siyasi dayaq yaratmaq məqsədilə hərbi xidmət müqabilində ömürlük istifadə üçün xeyli iqta torpaqları paylamışdılar. Sonralar, IX-XI əsrlərdə Azərbaycan hökmdarları da yaxın qulluq adamlarına iqta payladılar. Qoşunların əsasən muzdla toplandığı dövrlərdə hərbi xidmət müqabilində verilən iqta torpaqları geniş deyildi. Səlcuqlu dövründə onların sayı çox artdı. İqta sahibləri ***iqtadarlar*** təsərrüfatla məşğul olmur, bir qayda olaraq, öz iqtalarını icarəyə – ***müqatiəyə*** verirdilər. Zaman keçdikcə iqtalar xüsusi mülkə çevrilirdi.

Azərbaycanda ***vəqf*** torpaqları da yayılmışdı. Bu torpaqlar ayrı-ayrı ruhanilərə, dini və xeyriyyə müəssisələrinə, məscidlərə, mədrəsələrə verilirdi. Vəqf olaraq ancaq torpaq deyil, bağlar, dəyirmanlar, mə'dənlər, meşələr, otlaqlar da verilirdi. Vəqf torpaqlarında yaşayan kəndlilər vergini vəqf sahibinə və ya müəssisəsinə verirdilər.

Torpaqdan istifadə müqabilində kəndlidən alınan vergi ***uşr*** (onda bir), sonralar isə ***xərac*** adlanırdı. Xərac əvvəllər, əsasən, məhsulla alınırdı. Xərac toplamaq üçün ayrı-ayrı adamlara verilən icarə kağızına ***qəbalə*** deyilirdi. Xərac toplayan vergi məmurları ***mütəqəbbil*** və ya ***amil***, maliyyə müfəttişləri isə ***mütəsərrif*** adlanırdılar. Amillər xərac toplayarkən onu özbaşına artırırdılar, bu da kəndlilərin vəziyyətini ağırlaşdırırdı. Bəzən kəndlinin yetişdirdiyi məhsulun yarısı xərac olaraq onun əlindən alınırdı. Azərbaycan kəndliləri artıq X-XI yüzillərdə xəracın müəyyən hissəsini pulla ödəyirdilər. Bu, Azərbaycanda əmtəə-pul münasibətlərinin yüksək inkişaf etdiyini göstərir. Əl-Yaqubi 891-ci ildə yazdığı «Ölkələr kitabı»nda qeyd edir ki, o zaman ərəblər Azərbaycandan ildə 4 milyon dirhəm xərac alırdılar. Başqa bir coğrafiyaçı ***Qudamə ibn Cə'fər*** isə bu rəqəmin 4,5 milyon dirhəm olduğunu söyləyir. Azərbaycan dövlətlərinin meydana gəlməsindən sonra xərac vergisi bir qədər yüngülləşmişdi. İbn Hordadbehin yazdığına görə Sacilərin hakimiyyəti dövründə Azərbaycandan 2 milyon dirhəm xərac toplanmışdı. Salari hökmdarı İbrahimin dövründə də bu qədər xərac toplandığı məlumdur.

Xəracdan başqa müsəlman əhalisi öz əmlakına görə *zəkat* və ya *sədəqə* verirdi.

Müsəlman olmayan əhalidən can vergisi – *cizyə* alınırdı.

Böyük Səlcuqlu imperatorluğunun yaranması ilə bütün Yaxın və Orta Şərqin, o sıradan Azərbaycanın torpaq mülkiyyəti və vergi sistemində ciddi dəyişiklik baş verdi. Səlcuq sultanları mərkəzi hakimiyyətə hərbi-siyasi dayaq yaratmaq üçün imperatorluğa qatılan bütün torpaqları hərbi xidmət müqabilində iqta olaraq səlcuq əmirləri arasında bölüşdürdülər. Təkcə Sultan Məlik şah 46 min səlcuq atlısına iqta paylamışdı. Bəzən Aran, Şirvan, Dərbənd kimi böyük bölgələr də sultanın yaxın əmirlərinə iqta verilirdi. Beləliklə, səlcuq türklərinin axınları dövründə iqta Azərbaycanda, Bütün Yaxın və Orta Şərqdə olduğu kimi, başlıca torpaq sahibliyinə çevrildi. İqta eyni zamanda səlcuq türklərinin yurd saldıqları yerlərdə onların hərbi-siyasi hakimiyyətini gücləndirdi. İlk zamanlar iqtadarlar onlara verilmiş torpaqlardan vergi almaqla kifayətlənir, idarəçiliyə, kəndlilərin həyatı ilə bağlı işlərə qarışmırdılar. Lakin zaman keçdikcə iqta irsən keçməyə başlayır, demək olar ki, mülk torpaqlarından fərqlənmirdi. Böyük əraziləri əhatə edən iqta sahibləri müstəqil hakimlərə, onların idarəsinə verilən torpaqlar isə mərkəzi hakimiyyətdən asılı olmayan dövlətlərə çevrilirdi. Məsələn, sultan Məs'udun (1135-1152) 1136-cı ildə atabəy Şəmsəddin Eldənizə iqta olaraq verdiyi Aran torpaqları zəminində sonralar Eldənizlər imperatorluğu yarandı.

Səlcuq dövründə uc torpaqları genişlənmiş idi. Uc torpaqları imperatorluğun ucларını – sərhədlərini qoruyan səlcuq sərkərdələrinə paylanmış torpaqlara deyilirdi. Bu baxımdan səlcuqlu dövründəki uc torpaqları ilə ***Böyük Karl*** tərəfindən Frank imperiyasının sərhədləri boyunca yaradılmış markqraflıqlar–bərkidilmiş sərhəd məntəqələri arasında tarixi oxşarlıq var.

Əhalidən ənənəvi vergilərə əlavə olaraq səlcuq döyüşçüləri üçün silah və şərab tədarük etmək, onların atlarını nallamaq üçün mal-üs-silah, şərab-bahası, nal bahası kimi vergilər, şəhər sənətkarlarından isə onların hazırladıqları sənət məhsullarından natural pay alınmağa başlandı. Ümumiyyətlə, əhalinin bu dövrdə xərac, uşr (uşur), cizyə, haqq, alaf, nüzl, avarizat, qismət, təyyarət, daraib və bir çox başqa vergi, rüsum və mükəlləfiyyətlər ödədiyi bəllidir.

Bununla belə, səlcuqlu hakimiyyəti, Azərbaycan Eldənizlər və Şirvanşahlar dövlətləri dövründə ara savaşları və siyasi qarışıqlığın qarşısı xeyli alındı. Xalqın oturaq təsərrüfat ənənələrinin dirçəlişinə əlverişli şərait yarandı. Özünün tərəqqi dövrünü yaşayan Azərbaycan şəhərləri, sənətkarlığın yüksəlişi, getdikcə genişlənən daxili və beynəlxalq ticarət əlaqələri kənd təsərrüfatının ayrı-ayrı sahələrinin inkişafına müsbət təsir göstərirdi.



**SƏNƏTKARLIQ, TİCARƏT, ŞƏHƏRLƏR.** Ərəb zülmünün devrilməsindən sonra başlanan iqtisadi dirçəliş sənətkarlığın kənd təsərrüfatından ayrılmasını sürətləndirdi. Ölkə daxilində iqtisadi əlaqələr genişləndi. Azərbaycan şəhərlərinin xarici ölkələrə ticarət əlaqələri canlandı. Sənətkarlıq və ticarət mərkəzləri olan yeni şəhərlər meydana gəldi. Azərbaycan dünyanın çoxlu şəhərləri olan ölkələrdən birinə çevrildi. İbn Hordadbeh, əl-Yaqubi, İbn əl-Fəqih, Qudamə ibn Cə'fər və başqaları Azərbaycanda Bərdə, Gəncə, Ərdəbil, Təbriz, Şamaxı, Beyləqan, Dərbənd (Bab-əl-Əbvab), Naxçıvan (Nəşavə), Şəki, Qəbələ, Bakı, Zəncan, Marağa, Miyanə (Məyanic), Urmiya ilə yanaşı əlliyə kimi şəhər və iri yaşayış məntəqəsinin adlarını çəkirlər.

IX-X yüzillərdə Azərbaycanda şəhərlərin tərəqqisi, bir çox yeni şəhərlərin yaranması ilk əvvəl sənətkarlıq sahələrinin kənd təsərrüfatından ayrılması, ictimai əmək bölgüsünün dərinləşməsi ilə bağlı idi. Yerli dövlətlərin yaranması, məhsuldar qüvvələrin canlanması yeni sənətkarlıq sahələrinin meydana gəlməsinə və tərəqqi etməsinə əlverişli şərait yaradırdı. Başqa sözlə, siyasi müstəqillik iqtisadi tərəqqiyə, o sıradan sənətkarlıq və ticarətin inkişafına, şəhərlərin meydana gəlməsinə müsbət təsir göstərirdi.

Azərbaycanın olduqca zəngin bitki və heyvanlar aləmi, rəngarəng təsərrüfat sahələri – ipəkçilik, pambıqçılıq, kətan və boyaqotu becərilməsi, maldarlıq, xüsusilə qoyunçuluq, bağçılıq, balıqçılıq, arıçılıq, boyaqböcəyi (qırmız) ehtiyatları xammal baxımından müxtəlif peşələrin inkişafına çox əlverişli şərait yaradırdı.

Bundan başqa Azərbaycan çox zəngin yeraltı sərvətlərə malik idi. Bunun özü də bir çox nadir sənət sahələrinin tərəqqisinə səbəb olurdu. Əbu Duləf yazır ki, ölkənin cənubunda olan Şiz şəhərinin ətrafındakı dağlarda qızıl, civə, qurğuşun, gümüş, sarı arsen və cəmast adlı daş çıxarılan mə'dənlər var. Səyyahın yazdığına görə, Şizdə üç növ qızıl çıxarılırdı. Əbu Duləf Azərbaycan sənətkarlarının qızıl çıxarma texnologiyasını da müşahidə etmişdi: yerli sənətkarlar qızıllı torpağın üstündən su axıdır və bu işi o qədər davam etdirirdilər ki, su torpağı tamamilə yuyub aparır, yerdə ancaq toz halında qızıl qırıntıları qalırdı. Sonra isə onlar qızıl tozunu civə ilə yığışdırırdılar. Bu üsulla əldə olunan açıq qırmızı rəngli qızıl ağırlığı, saflığı, parlaqlığı, odadavamlı olması, yumşaq və elastikliyi ilə başqalarından seçilirdi. Əbu Duləfin yazdığına görə o zaman Şizdə külçə halında da qızıl çıxarılırdı. Şizin arseni də zinət və bəzək şeyləri düzəltmək üçün qiymətli xammal sayılırdı. İsfahan sənətkarları Şiz arsenini yüksək qiymətləndirirdilər. Şizin civəsi isə Xorasan civəsindən daha yaxşı, ağır və təmiz idi. Əbu Duləf Şizdən sonra onun dörd fərsəxliyində olan Arran şəhərinə səyahət etmiş, Azərbaycanın bu yaşayış məntəqəsində də ağ, gümüşü və qırmızı rəngli ağır qızıl çıxarılan mə'dənlər görmüşdü. Arran şəhərində qurğuşun

mədənləri də vardı. Ərəb səyyahı, burada kimyəvi təcrübələr də aparmışdı. O, burada «qurğuşun turşusu hazırlamaq» və həmin turşunun köməkliyi ilə qurğuşun mə'dənlərindən birində çıxarılan filizdən gümüş almışdı.

Azərbaycanın başqa yerləri də faydalı qazıntılarla zəngin idi. Ölkənin şimalında – Aran (Alban) dağlarında qızıl, gümüş, mis, oxra tapılırdı. Gəncə və Savalan ətrafında dəmir və mis çıxarılırdı. Savalan misi saflığı ilə məşhur idi. Təbriz ətrafında da mis mədənləri vardı. Mərəndlə Pişkin arasındakı Dərman mahalı mə'dənlərindən dəmir, mis, cürbəcür minerallar çıxarılırdı. Dizmar yataqları da qiymətli daşlarla zəngin idi. Ölkənin ayrı-ayrı yerlərində yaqut, qurğuşun, gümüş, arsen, civə və başqa faydalı qazıntı ehtiyatları vardı. Təbriz və Naxçıvanda daş duz çıxarılır, zəngin neft mə'dənləri olan Bakıda isə, həm də yüksək keyfiyyətli narın dəniz duzu emal olunurdu. Narın duz Urmiya yaxınlığından da çıxarılırdı.

İpək, yun, pambıq və kətandan növbənöv parçalar istehsal etmək, minbir naxışlı xalça-palazlar, kəlağayılar və başqa toxuculuq məmulatı hazırlamaq üçün xoşagəlimli, şux boyaqlar almaqdan ötrü də Azərbaycanın zəngin xammal ehtiyatları vardı. Bəzz qalasının ətrafındakı dağlarda qırmızı kvars (silisium oksidi) mə'dənləri vardı. Bu kvars təkcə yerli tələbatı ödəməklə qalmır, Yəmənə və İraqa ixrac olunur, orada yun sapın boyadılmasında istifadə olunurdu. Əbu Duləfin söyləməsinə görə Bəzz kvarsı Misir kvarsından daha davamlı idi. O zaman İraqın mühüm toxuculuq mərkəzi olan Vasit şəhərində hazırlanan yun parçalar ancaq Bəzz kvarsı ilə boyadılırdı. Bundan başqa, Urmiya gölü yaxınlığında yaşayan sənətkarlar qırmızı və sarı rəngli mineral boyaqlar düzəltməkdə mahir idilər. İbn Hövqəlin bildirməsinə görə bu nadir boyaqlar İraq, Şam və Misirə ixrac olunur, bundan böyük gəlir götürülürdü.

Azərbaycan həm də şux qırmızı rəng almaqdan ötrü nadir xammal olan boyaq böcəklərinin – qırmızböcəyinin vətəni idi. Bu böcəkdən alınan qırmızı boyağın özü də ərəbdilli qaynaqlarda «qırmız» adlanırdı. X əsr tarixçisi əl-İstəxri yazırdı ki, Bərdədən «Hind ölkələrinə və başqa yerlərə qırmız ixrac edilir». Bu müəllif Kürün Xəzərə töküldüyü yerin qarşısında böyük bir ada olduğunu yazırdı. Həmin ada qırmızböcəyi ilə çox zəngin idi. Bərdə boyaqçıları bura gəlir, qırmızböcəyi yığıb aparırdılar. İbn Hovqəl isə qırmızböcəyinin Azərbaycanda daha geniş yayıldığını göstərir, onun Hindistana ixrac olunması barədə əl-İstəxrinin yazısını təsdiq edir: «Varsan, Bərdə, Bab-əl-Əbvabın nahiyələrində və Xəzər dənizinin ortasındakı adada qırmız var. O, Xəzər dənizi ilə Curcana daşınır, oradan da quru yolu ilə Hind ölkəsinə göndərilir. Qırmız Bab-əl-Əbvabın hüdudlarından Tiflisədək bütün Arranda, Arras çayı yaxınlığından Cürzan (Gürcüstan) nahiyələrinədək hər yerdə vardır». Ərəb coğrafiyaçısı əl-Müqəddəsi qırmızböcəyini «ər-Rihab iqlimi»nin möcüzələrindən biri kimi təqdim edir, eyni



zamanda bu böcəklərdən boyaq alma texnologiyasını təsvir edir. Səyyahın yazdığından aydın olur ki, qırmızböcəyini mis qablara yığıb qaynadır və ondan qırmızı boya alırdılar. Əl-Müqəddəsi yazır: «Burada qırmız da vardır. O, yer qurdudur. Qadınlar buraya gəlir, qurdları seçib mis qablara toplayır, sonra isə çörək bişirilən təndirə qoyurlar».

Azərbaycanda gəmiçilik, balıqçılıq və bununla bağlı ola bir sıra peşələr də inkişaf etmişdi. Xəzər dənizi, gəmiçilik üçün əlverişli olan Kür və Araz çayları, Urmiya gölü, ölkənin zəngin balıq ehtiyatları buna əlverişli şərait yaradırdı.

Sənətkarlıq məhsullarına olan tələbat artdıqca sənətkarların öz əməklərinin nəticəsi ilə yaşaya bilməsi üçün əlverişli şərait yaranırdı. Azərbaycan sənətkarlarının məhsuluna təkcə yerli bazarlarda deyil, beynəlxalq miqyasda da böyük ehtiyac vardı. Bir tərəfdən Volqaboyu və Şərqi Avropanı Yaxın və Orta Şərqlə, habelə Hindistanla, digər tərəfdən, Orta Asiya, Çin, Hindistan və İranı Aralıq dənizi və Qara dəniz sahillərindəki məşhur ticarət mərkəzləri ilə bağlayan beynəlxalq karvan yollarının Azərbaycan torpaqlarından keçməsi sənətkarlıq və ticarətin inkişafına çox əlverişli şərait yaradırdı. Bütün bunlar Xəzər, Kür və Araz sahilləri boyunca karvan yolları qovşaqlarında çoxlu sənətkarlıq mərkəzlərinin meydana gəlməsinə səbəb olur, bir sıra yaşayış məntəqələri isə şəhərlərə çevrilirdi.

O zamanın tarixi coğrafiya kitablarında Azərbaycanın şəhər həyatından, duyğusuz, boyasız yaza bilmirdilər. Əl-Müqəddəsi Azərbaycan haqqında belə yazmışdır: «Bu vilayətin bütün şəhərləri gözəldir, ərzaq və mə'dənlərlə zəngindir; meyvə, hər cür ət bol və ucuzdur».

**BƏRDƏ.** Ərəb səyyahları o zamankı Azərbaycan şəhərləri içərisində Bərdəni ayrıca qeyd edirlər. Bu da təsadüfi deyil. Çünki uzun sürən ərəb ağalığı çağında Bərdə Xilafətin Güney Qafqazda yaratdığı böyük bir canişinliyin mərkəzi idi. Bütün Azərbaycan torpaqlarını və Ermənistan ərazisini idarə edən ərəb canişinlərinin iqamətgahı Bərdə şəhərində idi. Bu, Bərdənin bütün Güney Qafqazın siyasi mərkəzi olmaqla yanaşı ən böyük sənətkarlıq və ticarət mərkəzinə çevrilməsində müsbət rol oynamışdı. Əl-İstəxri 930-933-cü illər arasında yazdığı «Məmləkətlərin yolları kitabı»nda yazır: «...qaldı Bərdəyə, bu şəhər eni və uzunu bir fərsəng olan böyük, sağlam iqlimli, çiçəklənən və olduqca bol əkini olan bir şəhərdir. İraqda və Xorasanda Reydən və İsfahandan sonra öz yerinə və zəmilərinə görə Bərdə qədər böyük, çiçəklənən və gözəl bir şəhər yoxdur. Bərdədən çoxlu ipək ixrac olunur. İpək qurdlarını heç kimə məxsus olmayan tut ağaclarının yarpağı ilə bəsləyirlər. Oradan İrana, Xuzistana çoxlu ipək göndərilir...» Müəllif şəhərin xəzinə evinin (beyt ül-mal), Şamda olduğu kimi, Cümə məscidində yerləşdiyini bildirir. Yazır ki, xəzinə evinin dəmir qapısı, qurğu-

şunla bərkidilmiş yastı damı və doqquz sütunu var; hakimin sarayı şəhərdə, Cümə məscidinin yanında, bazarlar isə şəhər kənarındadır.

Əl-İstəxridən təxminən iyirmi il sonra (951) «Yollar və məmləkətlər kitabı»nı yazmış İbn Hövqəl də Bərdə haqqında maraqlı məlumatlar verir. İbn Hövqəl öz əsərini 944-cü ildə Bərdə faciəsindən sonra, yəni şəhər ruslar tərəfindən qarət olunub yandırıldıqdan sonra yazmışdı. O, əl-İstəxrinin Bərdə haqqında yazdıqlarını təkrar etsə də, bir çox hallarda onu tamamlayır. O, yazır: «Bərdə şəhərinə gəlincə o, ***Ummu-r-Ran*** («Arranın anası») və bu ölkələrin ən yaxşı bölgəsidir». Onun fikrincə, şəhər çox böyükdür. Bu isə onun saf havasından, məhsuldarlığından, əkin, meyvə, ağac və çayların çoxluğundan irəli gəlir. Bərdədə ipəkdən müxtəlif şeylər hazırlanır. Buradan İrana və Xuzistana çoxlu ipək göndərilir. Şəhərdə gözəl Cümə məscidi var. Əməvilərin dövründə Misir və başqa ölkələrdə olduğu kimi xəzinə burada idi. Bazarlar isə şəhərin kənarındadır. Ruslarla müharibə, hakim dairələrin təzyiqi və ölkəni ağılsız adamların idarə etməsi nəticəsində vaxtaşırı baş verən və bu günədək davam edən basqınların törətdiyi dağıntılara baxmayaraq, Bərdənin bazar, karvansara və hamamları çoxdur.

Əl-İstəxri və İbn Hövqəllə bir əsrdə yaşamış əl-Müqəddəsi də Bərdəni «***baş şəhər***», «böyük şəhər», «***bu vilayətin Bağdadı***» adlandırır. O, Bərdəni hətta ər-Rihab iqliminin, yəni bütün Azərbaycan torpaqlarının və bir sıra ölkələrin daxil olduğu geniş bir qurşağın (ər-Rihab ərəbcə «geniş ərazi» deməkdir) Bağdadı kimi qiymətləndirir. O, 986-cı ildə tamamladığı «İqlimlərin öyrənilməsi üçün ən yaxşı bölgü» əsərində yazırdı ki, Bərdə böyük şəhərdir. Quruluşuna görə düz dördbucaq şəklindədir. Ər-Rihab iqliminin başlıca şəhəridir. Düzənlikdədir. Əzəmətli qalası var. Bazalarının üstü örtülüdür. Cümə məscidi bazarın arxasındadır. Şəhərin evləri çox gözəldir. Evlər və Cümə məscidinin bəzi sütunları gips və kərpicdən, bəziləri isə ağacdandır. Şəhərin içindən çay axır. Kür çayı Bərdənin iki fərsəxliyindən keçir. Şəhərin yaxınlığından başqa çaylar da axır. Çox nəfis şəhərdir.

Lakin, bununla belə X yüzilin sonlarında Bərdə artıq öz əzəmətini itirməkdə idi. əl-Müqəddəsinin yazdığına görə şəhərin bayır tikililəri artıq dağılmış, əhalisi azalmış, qalası baxımsız bir vəziyyətə düşmüşdü.

**ƏRDƏBİL.** Bərdədən sonra Azərbaycanın ən böyük şəhərlərindən biri Ərdəbil idi. Sacilər və Salarilər dövlətlərinin paytaxtı olması Ərdəbilin böyük sənətkarlıq və ticarət mərkəzinə çevrilməsinə müsbət təsir göstərmişdi. Əl-İstəxri, İbn Hövqəl və əl-Müqəddəsi Azərbaycanın Arazdan cənubdakı torpaqlarından bəhs edərkən Ərdəbili bütün bu yerlərin «***ən böyük şəhəri***», «***ən mühüm vilayəti və böyük şəhəri***», «***bütün iqlimin əsas şəhəri***» kimi qiymətləndirir. ***Azərbaycanın*** (yəni Sacilər və Salarilər dövlətlərinin) ***paytaxtı olduğunu göstərirlər***. Saci və Salari hökmdarlarının sarayı, inzibati idarə binaları, dövlətin daimi hərbi qüvvələri Ərdəbildə



yerləşirdi. Şəhər möhkəm qala divarları ilə dövrəyə alınmışdı. Ərdəbil qalasının üç qapısı vardı. Şəhər tikintilərinin çoxu bişmiş və çiy kərpicdən idi. Şəhərlilərin çoxu aynabəndli evlərdə yaşayırdı. Şəhərin Bazar meydanında Cümə məscidi ucalırdı. Münbit torpaqları olan Ərdəbil bağ-bağat içərisində idi. Şəhərdə hər cür yemək şeyləri bol və olduqca ucuz idi. Bir orta əsr şəhəri kimi Ərdəbildə məişət mədəniyyəti də çox yüksək idi. Əl-Müqəddəsi o zaman Ərdəbildə «yaxşı hamamlar olduğunu» qeyd edir.

Ərdəbil şəhərinin ən geniş təsvirini İbn Hövqəl vermişdir. «Yollar və məmləkətlər kitabı»nda o yazır: «Hal-hazırda Azərbaycanın ən mühüm vilayəti və böyük şəhəri Ərdəbildir. Hərbi düşərgə və hökmdar sarayı buradadır. Bu şəhərin sahəsi ***otuz kvadrat fərsəxdir***. Tikililərin çoxu palçıq və bişmiş kərpicdəndir. Şəhərin ətrafında möhkəm qala divarları var. Şəhərin havası sağlam, satış qiymətləri ucuzdur. Yaxınlığında Savalan dağı ucalır. Bu dağ çox böyükdür və şəhərin qərb tərəfindən göyə yüksəlir, sanki şəhərin üzərindən asılmışdır. Savalanın zirvəsindəki qar yay-qış ərimir. Şəhər çox gözəldir. İçindən çaylar axır. Su quyuları var. Çörək həmişə boldur. Bir dirhəmə əlli lavaş almaq olar. ətin 1,5 manını bir dirhəmə verirlər. Bal, ərimiş yağ, qoz-fındıq, kişmiş və bütün başqa yemək şeyləri çox ucuzdur; demək olar ki, müftə verirlər. Ərdəbil insanın xətri istəyən hər bir şeyin bolluğuna və yaxşı yaşayış imkanına görə ucuzluqda şöhrət qazanmış və bir çox başqa yerləri arxada qoyur».

**DƏRBƏND.** IX-XI yüzillərdə Azərbaycanın böyük şəhərlərindən biri də Böyük Qafqaz sıra dağları ilə Xəzər dənizi arasındakı dar keçiddə, çox əlverişli coğrafi və hərbi-strateji mövqedə yerləşən Dərbənd şəhəri idi. Dərbənd ölkənin ən böyük liman şəhəri idi. Azərbaycan Dərbənd limanı vasitəsilə Xəzərsahili müsəlman ölkələri və bu dənizə çıxışı olan «kafir torpaqları» ilə geniş əlaqə saxlayırdı.

Əl-İstəxri Dərbəndin «Ərdəbildən daha böyük» şəhər olduğunu qeyd edir. Şəhər hər tərəfdən, xüsusilə quzey və güneydən olduqca möhkəm qala divarları ilə əhatə olunmuşdu. Əl-Müqəddəsinin məlumatına görə bu böyük şəhərin təkcə quzey divarlarında üç qala qapısı vardı. Dərbənd qalasının dəniz tərəfdən və güneydən – müsəlman torpaqları tərəfdən də bir neçə qapısı vardı. Dərbənd limanı hər iki tərəfdən – həm quzeydən, həm də güneydən möhkəm divarların, yəni məşhur Dərbənd sədlərinin içərisinə alınmışdı. Dənizin içərisinə uzanıb enən bu divarlar daşdan və qurğuşundan hörülmüşdü. İbn Hövqəlin məlumatına görə «girintili-çıxıntılı» Dərbənd limanının «girəcəyinə, Tir və Beyrutda olduğu kimi zəncir çəkilmişdi». Zəncir qıfıllanır, açarı isə liman nəzarətçisində olurdu. Nəzarətçinin icazəsi olmadan heç bir gəmi nə limana girə, nə də oradan çıxıb gedə bilərdi.

Dərbənd, həm də Azərbaycanın məşhur sənətkarlıq mərkəzi idi. Təkcə Azərbaycanda deyil, Güney Qafqazda ən yaxşı kətan parçaları Dərbənd sənətkarları toxuyurdular. Dərbənd bu şəhərdə bütün Güney Qafqazda yeganə toxuculuq mərkəzi idi. buradan xarici ölkələrə kətan parçadan tikilmiş cürbəcür hazır paltarlar, xüsusilə üst paltarları göndərilirdi. Dərbənd bazarı bütün Yaxın və Orta Şərqdə məşhur idi. Dərbənd bazarında qızğın qul ticarəti də gedirdi. «Qonşu kafir ölkələrindən gətirilmiş» qulları almaq üçün bura daim müxtəlif Şərq ölkələrindən tacirlər axışıb gəlirdi. Bazar meydanının ortasında böyük Cümə məscidi ucalırdı (Yanında bulağı olan bu məscid indi də ibadət yeridir – *Red.*). Şəhər binalarının çoxu daşdan idi. Azərbaycanın başqa orta əsr şəhərləri kimi Dərbənd də yüksək məişət mədəniyyəti ilə seçilirdi. Əl-Müqəddəsinin məlumatından aydın olur ki, şəhərin çirkab sularını kənara axıtmaq üçün, hələ X əsrdə Dərbənddə kanalizasiya sistemi yaradılmışdı. Şəhərətrafı yerlər başdan-başa əkin sahələri, üzümlüklər idi. İbn Hövqəl «əkin sahələrinə görə bu şəhərin Ərdəbildən daha zəngin olduğunu», burada «bol zəfəran əkildiyini» yazır.

**MARAĞA.** Ərəb səyyahları Azərbaycanın böyük şəhərləri arasında Marağa və Urmiyanı da qeyd edirlər. Əvvəllər kiçik bir yaşayış məskəni olan Marağa, Abbasi xəlifəsi Harun ər-Rəşidin dövründə möhkəm qalası olan orta əsr şəhərinə çevrilmişdi. Marağa həm də Xilafət qoşunlarının mühüm istinadgahlarından biri idi. Marağa bir müddət Azərbaycan Saclılar dövlətinin paytaxtı oldu və daha da böyüdü. Əl-İstəxri və İbn-Hövqəlin verdikləri məlumatlara görə X yüzildə Marağa artıq Güney Azərbaycanın Ərdəbildən sonra ikinci böyük şəhəri idi. İbn Hövqəl yazır: «Ərdəbildən sonra böyüklüyünə görə əl-Marağa gəlir. Qədim zamanlarda bura hərbi düşərgə və paytaxt idi. Xəzinə və hökumət idarələri də burada idi. Əbu Qasim ibn Divdad ibn əd-Divdad paytaxtı Marağadan Ərdəbilə köçürdü. Marağa sağlam havalı şəhərdir. Bağları, çayları, mə'dən suları, dadlı meyvələri, ərzaq və başqa şeyləri boldur».

**URMİYA.** Əl-Müqəddəsiyə görə Urmiya da Marağa kimi «sağlam havalı, bol nemətli, hər cür mal və ticarət şeyləri ilə zəngin, satış qiymətləri ucuz olan», bağlı-bağatlı axar bulaqları, çoxlu üzümlükləri və əkin sahələri olan bir şəhər idi. Lakin Urmiya Marağaya nisbətən kiçik idi.

Ərəb səyyahları Azərbaycandan bəhs edərkən, keçmiş Alban dövlətinin ərazisini «Aran» adı ilə təqdim edir, onun şəhərləri sırasına Bərdə və Dərbənddən sonra ***Tiflisi*** də qatırlar. Gürcüstanı isə «Azərbaycan hökmdarlarının idarə etdiyi dağlıq ölkə» kimi qələmə verirlər. Əl-İstəxri qeyd edir ki, «Aranda Bərdə, əl-Bab və Tiflisdən böyük şəhər yoxdur».



İbn Hövqəl də Tiflisi Aran şəhərləri sırasına daxil edir və göstərir ki, «bu şəhər hər tərəfdən düşmən əhatəsində olan mühüm sərhəd yeridir». O, Tiflis əhalisinin müsəlman olduğunu ayrıca qeyd edir. Yazır ki, onlar «qədim nəzəriyyələrə əsasən sünnilik tərəfdarlarının fikirlərini müdafiə edirlər. Onlar hədislər haqqında elmlərlə çox məşğul olur və bu elm ilə məşğul olanlara hörmət edirlər».

Əl-Müqəddəsi də Tiflisin Aran şəhərlərindən biri olduğunu yazmışdır.

**TƏBRİZ.** X yüzilin sonlarına doğru qabaqlar o qədər də böyük olmayan bir sıra Azərbaycan şəhərləri sürətlə tərəqqi etməyə başladılar. Bunlardan biri də Təbriz idi. Təbriz Azərbaycan Rəvvadilər dövlətinin paytaxtı olduqdan sonra sürətlə inkişaf etdi, ölkənin bir çox ənənəvi sənətkarlıq mərkəzlərini ötüb keçdi. Bütün Azərbaycanın ticarət hüdudlarını özündə birləşdirən və beynəlxalq karvan yollarının qovşağında yerləşən Təbriz X əsrin sonunda artıq Azərbaycanın ən iri şəhərlərindən birinə çevrilmişdi. Əl-Müqəddəsi Təbrizi Bağdadla müqayisə edir və onun Bağdaddan daha üstün şəhər olduğunu qeyd edir. Səyyah «gözəlliyinin həddi-hüdudu olmayan», qiymətləri ucuz, hər cür meyvəsi isə bol olan bu qədim Azərbaycan şəhərini «saf qızıla» bənzədir, «ağlasığmayan bir möcüzə» sayırdı.

**MUĞAN.** Azərbaycanda Muğan adlı iki şəhər vardı. Bunlardan biri Xəzər sahilində, Dərbənd-Ərdəbil ticarət yolunun üstündə idi. X əsrin sonuna doğru bu şəhər tənəzzül dövrünü yaşayırdı. Lakin əl-Müqəddəsinin qeyd etdiyi «iki çayla əhatə olunmuş» ikinci Muğan isə başdan-başa bağ-bağat içərisində olan bir şəhər idi. Muğanın şəhər meydanında da gözəl bağları vardı. O da Təbriz kimi «ər-Rihab iqliminin fəxri idi». Ərdəbillə Gilan arasında olan bu şəhərdən Bərdəyə səkkiz günlük yol vardı. Əl-Müqəddəsi yazırdı: «Muğan gözəl şəhərdir, ətrafları əkilib-becərilmişdir; buradan iki çay axır, adamlarının sifəti lə'l və mərcan kimi gözəldir. Çox səxavətli və hörmətcildirlər».

**VARSAN.** Bərdə-Ərdəbil yolunun üzərində, Beyləqan şəhərinin təqribən yeddi fərsəxliyində Varsan adlı böyük bir orta əsr şəhəri vardı. Hələ Xilafət dövründə Azərbaycanın möhkəm qalalarından biri olan Varsan, İbn Hövqəlin məlumatlarına görə, «Beyləqandan daha böyük, geniş, əhalisi, bazar və ticarət malları daha çox olan» şəhər idi. «Böyük şəhərlərdə olan hər şey Varsanda da vardı. Şəhərin ətrafına möhkəm qala divarları çəkilmiş, bazarları üçün xüsusi məhəllə ayrılmışdı».

**BAKI.** IX-X yüzillərdə Bakının da iqtisadi əhəmiyyəti artmaqda idi. Abşeronun zəngin neft «bulaqları» Bakını qonşu ölkələrə tanıtmışdı. Ərəb səyyahı əl-Məs'udi özünün «Qızıl yuyulan yer və cəvahirat mədənləri»

əsərində Bakını «Şirvan məmləkətinin neft çıxan torpağı və sahil şəhəri» adlandırır. O zaman Bakı bir liman şəhəri kimi məşhur deyildi və bu sahədə Dərbənddən çox geridə qalırdı. Əl-Məs'udi Bakının ağ neft mədənlərindən danışaraq yazırdı: «Allah bilir, dünyada buradan savayı ağ neft çıxan başqa yer varmı?» Əbu Duləf də Bakının «gecə-gündüz zanbaq yağı kimi ağ neft» axan mədənlərini öz gözləri ilə görmüşdü. Ərəb səyyahları Bakıda, həmçinin sahildən xeyli aralı – dənizin içərisindəki adalarda gecə-gündüz şölələnən qaz alovlarını heyrətlə təsvir etmiş, hətta Siciliyadakı məşhur Etna vulkanı ilə müqayisə edirdilər. Əl-Məs'udi bununla bağlı yazmışdı: «Həmin neft çıxan yerdə vulkan püskürür. Burada həmişə alovun dilləri göyə yüksəlir. Dənizdə, sahildə üzbəüz adalar var. Onlardan biri sahildən üç günlük yol qədər aralıdır. Orada ilin müxtəlif vaxtlarında rüskürən böyük bir vulkan vardır. Onun alovu ən uca dağ hündürlüyündə göyə yüksəlir, dənizin böyük bir hissəsini işıqlandırır. Həmin vulkan sahildən təxminən on fərsəx məsafədən belə, görünür. O, Siciliya ölkəsindəki əl-Burkan dağında püskürən vulkana bənzəyir».

**ŞƏHƏRLƏRİN QURULUŞU.** Azərbaycanın orta əsr şəhərləri zahiri görünüşcə bir-birinə bənzəyirdi. Sənətkarlıq məhsullarını satmaq üçün əlverişli yerlərdə – karvan yollarının üstündə, Araz və Kür boyunda, Xəzər sahillərində, müdafiə üçün əlverişli olan təbii-coğrafi mövqelərdə salınan bu şəhərlər, bir qayda olaraq möhkəm qala divarları ilə əhatə olunurdu. Yadelli basqınlarından qorunmaq üçün orta əsr şəhərlərinin ətrafına bəzən ikiqat hasar çəkir, sonra isə enli və dərin xəndəklərlə dövrələyib içərisinə su doldururdular. Qala divarları daşdan, bəzən də bişmiş və çiy kərpicdən hörülürdü. Ticarət karvanlarının hansı yolla gəlməsindən asılı olaraq şəhərin bir neçə yerdən möhkəm qala qapıları olurdu.

Şəhər əhalisi sənətkarlıq və ticarətlə yanaşı, özünü müxtəlif kənd təsərrüfatı məhsulları ilə təmin etmək üçün əkinçilik və balıqçılıqla da məşğul olur, mal-qara saxlayırdı. IX-XIII əsrlərin ərəb səyyahları Azərbaycanın, demək olar ki, bütün orta əsr şəhərəlrinin bağ-bağat içərisində olduğunu yazırlar. Orta əsr şəhərləri iki hissədən ibarət olurdu; içəri şəhər, bayır şəhər. Şəhərlilərin evləri, həyətyanı bağçaları, tövlələri və başqa təsərrüfat binaları içəri şəhərdə, yəni qala divarlarının içərisində olurdu. Əkin yerləri, taxıl zəmiləri, bostanlar, otlaqlar və örüşlər qala divarlarından bayırda olurdu. Zaman keçdikcə orta əsr şəhərlərinin bu ilkin görkəmi dəyişirdi. Əhali çoxaldıqca içəri şəhərdə sıxlıq da artırdı: keçmiş yaraşıqlı binalara artırmalar, mərtəbələr əlavə olunur, yuxarı mərtəbələrdən küçələrin üstünə doğru qarşı-qarşıya eyvanlar və aynabəndlər çıxarılır, şəhərin küçələri gün düşməyən tunelləri xatırladırdı. Uzaq keçmişin nadir yadigarı olan Bakıdakı İçərişəhər Azərbaycanın orta əsr şəhərlərinin quruluşu, görünüşü barədə aydın təsəvvür yaradır. Zaman keçdikcə, əmtəə-pul münasibətlərinin, daxili və xarici ticarət əlaqələrinin genişlənməsi nəticəsində iri sənətkarlıq və ticarət əlaqələrinin genişlənməsi nəticəsində iri sənətkarlıq və ticarət mərkəzlərinə çevrilən orta əsr şəhərlərinə keçmiş qala divarları darlıq edirdi. Qalanın xaricində, bayır şəhərdə evlər tikilir, iri sənətkar və tacir məhəllələri salınır, karvansaralar və başqa ictimai binalar inşa olunur, orta əsr şəhərinin görkəmi büsbütün dəyişirdi.

Şəhərin ən gur yeri bazar meydanı idi. Bazar meydanı, bir qayda olaraq, Cümə məscidinin yanında olurdu. Bura orta əsr şəhərinin mərkəzi hissəsi və ya əsas məhəlləsi sayılırdı. Şəhər hakimi, qazı, varlı tacirlər və hakimlərin imarətləri, örtülü bazar, şəhər idarəsi, mədrəsə, karvansara, hamamlar bu məhəllədə olurdu. İlk zamanlar şəhər əhalisinin əsas kütləsi sənətkarlardan ibarət idi. Sənətkarlar şəhərin mərkəzindən uzaqda, qala divarlarına yaxın olan məhəllələrdə yaşayırdılar. Gün çıxandan gün batana kimi öz kiçik emalatxanasında çalışan sənətkar, həm də hazırladığı məhsulu xırıd edən tacir idi. erkən orta əsr şəhərlərində tacirlik peşəsi hələ sənətkarlıqdan tamamilə ayrılmamışdı.

Eyni peşədən olan sənətkarlar, yəni həmkar sənətkarlar öz «qardaşlıq»larını (birliklərini) yaradırdılar. Şəhər sənətkarları bu birliklər üzrə də ayrı-ayrı məhəllələrdə yaşayırdılar. Azərbaycanın orta əsr şəhərlərində sənətkar qardaşlıqlarına məxsus olan zərgərlər, bəzzazlar, şirniyyatçılar, boyaqçılar, silahqayıranlar, dabbaqlar, qəssablar, papaqçılar, dulusçular, sərraclar, sandıqçılar, misgərlər, dəmirçilər, nalbəndlər məhəllələri var idi. Bu peşələrdən hər hansı biri ilə məşğul olmaq istəyən sənətkar hökmən müvafiq sənətkar qardaşlığına daxil olmalı idi. Sənətkar qardaşlığında əmək bölgüsü yox idi. Hər bir sənətkar yaraşıqlı bir papağı və ya bir yatağanı hazırlayıb ortaya çıxarmaq üçün bütün əməliyyatları özü edirdi. Sənətkar qardaşlıqlarında üç ictimai qüvvə çalışırdı: usta, köməkçisi, şagird. Qardaşlıq istehsal olunan məhsulun keyfiyyətinə ciddi fikir verirdi. Çünki pis mal müştərini qaçıra bilər, sənətkarları hörmətdən salardı. Qiymətlər və ya məhsulun kəmiyyəti üzərinə də nəzarət qoyulurdu. Qardaşlığın üzvü öz malını qabaqcadan müəyyən olunmuş qiymətə satmalı idi. artıq məhsul istehsal olunması da qadağan idi. Çünki bu, birdən birə qiymətlərin düşməsinə və sənətkarların müflisləşməsinə səbəb olardı. Sənətkar qardaşlıqları, müəyyən dövr üçün, yüksək keyfiyyətli sənətkarlıq məhsulları hazırlanması baxımından çox mühüm rol oynadı, məhsuldar qüvvələrin inkişafına güclü təkan verdi. Azərbaycan ustalarının əlindən çıxan sənətkarlıq məhsulları Şərq ölkələrindən başlamış uzaq Avropanın ticarət mərkəzlərinə qədər hər yerdə əldən ələ gəzir, tacirlərə böyük qazanc gətirirdi. Lakin zaman keçdikcə sənətkar qardaşlıqları öz əhəmiyyətini itirir, qapalı, mühafizəkar təşkilata çevrilirdilər. Bu və ya digər sənət sahəsini öz inhisarında saxlamağa çalışan sənətkar qardaşlıqları sənətkarlıq məhsullarına

artan tələbatı ödəyə bilmir, irəliləyiş yolunda əngələ çevrilirdilər. Ustad sənətkarlar illər boyunca yiyələnmiş olduqları peşə sirrini ancaq öz övladlarına və ya yaxın qohum-əqrəbalarına öyrətməyə çalışırdılar. Onların əli altında işləyən «yad» usta köməkçiləri və şagirdlər isə ustalığa keçirilmirdilər.

Orta əsrlərdə Azərbaycanda şəhərsalma mədəniyyəti yüksək inkişaf etmişdi. Azərbaycanın bəzi şəhərlərində, sənətkarlıq mərkəzləri olan iri kəndlərində belə, çirkab sularını saxsı borularla kənara axıtmaq üçün yeraltı kanalizasiya yaradılmışdı. Sənətkarlıq mərkəzlərinə ətraf bulaqlardan saxsı borularla yeraltı su kəmərləri çəkilməsi və həmin suyun eyni qayda ilə şəhərin məhəllələrinə paylanması sistemi də geniş yayılmışdı. Bundan başqa, şəhərin ayrı-ayrı məhəllələrində kişi və qadın hamamları tikilirdi.

Orta əsr şəhərləri, iri yaşayış məskənləri, bütün başqa şərtlərlə yanaşı, həm də bol su ehtiyatları, müalicə xassələrinə malik olan bulaqlarla əhatə olunmuş yerlərdə meydana gəlirdi. Bu barədə ilk mənbələrdə olduqca maraqlı məlumatlar vardır. X əsrdə Azərbaycana səyahət etmiş Əbu Duləf yazır ki, Ərdəbildə, Bəzzdə və bu yerlərin yaxınlığındakı dağlarda «qoturluğu müalicə edən isti bulaqlar vardır». Bəzz yaxınlığından axan çayda üşütmə-qızdırması olan adamlar çimdikdə onların xəstəlikləri keçib gedir. Səyyah Salmas yaxınlığında isti müalicə suyu çıxan Zərəvənd bulağını «ümumi fikrə əsaslanaraq dünyada yer altından çıxan ən yaxşı su» kimi dəyərləndirir. Əbu Duləf, «tanıdığı bir adamı» həmin bulağa aparmış və bu müalicə suyunun əczakar gücünü müşahidə etmişdi. Səyyahın məlumatına görə eyni zamanda qoturluq, xənazir, qulunc, dəmrov, oynaq ağrıları və qızdırmadan əziyyət çəkən bu adamın bədənində həm də ox ucluğu qalmışdı. Üç gün həmin bulaqda müalicə olunduqdan sonra ox ucluğu onun böyründən, bədənin yuxa yerindən bayıra çıxmış, həmin adam qalan xəstəliklərdən də xilas olmuşdu. Bu cür sular, həmçinin göz, boğaz, mədə-bağırsaq xəstəliklərinə əlac edən bulaqlar Azərbaycanın bir çox başqa orta əsr şəhərlərinin yaxınlığında vardı. Bütün bunlarla yanaşı şəhərlərdə təbabətin sirlərinə dərindən bələd olan alimlər də yaşayırdı. İbn Hövqəlin Azərbaycan haqqında ən maraqlı qeydlərindən biri belədir: «onların tibb elminə bələd olan bacarıqlı, bilikli həkimləri vardır».

**XII-XIII ƏSRİN ƏVVƏLLƏRİNDƏ İQTİSADİ YÜKSƏLİŞ, ŞƏHƏRLƏRİN TƏRƏQQİSİ.** Azərbaycan torpaqları Böyük Səlcuq imperatorluğunun tərkibinə qatıldıqdan sonra obyektiv olaraq, Yaxın və Orta Şərq ölkələri ilə ənənəvi ticarət münasibətlərinin yenidən canlanması üçün, ümumiyyətlə türk dünyası ilə qarşılıqlı əlaqələrin genişlənməsindən ötrü əlverişli şərait yarandı. Böyük Səlcuq imperatorluğunda tətbiq olunan vahid pul sistemi həm Azərbaycan daxilində, həm də xarici ölkələrdə karvan ticarətinin genişlənməsinə müsbət təsir göstərdi.



XII yüzildə Azərbaycan Eldənizlər dövlətinin yaranması, həmçinin Şirvanşahlar dövlətinin qüvvətlənməsi Azərbaycanda məhsuldar qüvvələrin inkişafını daha da sürətləndirdi. Kənd təsərrüfatı, sənətkarlıq və ticarət tərəqqi etdi. Şəhərlərin həm ölkənin daxili iqtisadi əlaqələrində, həm də beynəlxalq ticarətdə rolu daha da artdı. Bütün Azərbaycan vilayətlərinin və bir çox dünya ölkələrinin ticarət hüdudlarını özündə birləşdirən şəhərlər yurdun ictimai-iqtisadi yüksəlişinin özülündə durmaqla yanaşı, Azərbaycan intibah mədəniyyətinin formalaşması üçün də əlverişli zəmin yaratdı.

XIII əsrin əvvəllərində iki dəfə Azərbaycana səyahət edən və Təbriz, Marağa, Urmiya, Xoy, Sərab, Ərdəbil, Xunəc, Xalxal, Miyana, Ucan və başqa şəhərləri gəzib-dolaşmış olan ərəb səyyahı Yaqut əl-Həməvi özünün «Ölkələr haqqında lüğət»ində yazırdı: «Azərbaycan geniş ölkə və böyük bir dövlətdir. Bura, əsasən, dağlıq diyardır; çoxlu qalası, hədsiz sərvətləri və saysız meyvə ağacları var. Mən buradakı qədər bağ-bağat və bu qədər çoxlu çaylar və bulaqlar heç yerdə görməmişəm. Bu ölkəni gəzən səyyahın özü ilə su qabı götürməsinə ehtiyac yoxdur. Çünki burada hansı tərəfə gedirsənsə, ayağının altından buz kimi şirin və sağlam su axıb gedir».

XI əsrin ortalarından başlayaraq Azərbaycanın iqtisadi həyatında Gəncə, Naxçıvan, Beyləqan, Təbriz, Şamaxı kimi şəhərlərin rolu daha da artdı. Bu şəhərlərin hər birində on minlərlə, bəzən də 100 mindən çox adam yaşayırdı.

Eldənizlər hakimiyyəti dövründə Azərbaycanın ən böyük şəhərlərindən biri Gəncə idi. Araşdırmalar sübut edir ki, o zaman Gəncədə təxminən bir neçə yüz min adam yaşayırdı. Həm şərqdə, həm də qərbdə o zaman Gəncə kimi böyük şəhərlər olduqca az idi.

Qədim Gəncə hələ 859-cu ildə Məzyədilər sülaləsindən olan ərəb canişini Məhəmməd ibn Yezid tərəfindən bərpa edilib möhkəmləndirilmiş və Azərbaycanın qərbində mühüm hərbi-strateji məntəqəyə çevrilmişdi. Gəncə 944-cü ildə rusların Bərdəni dağıtmasından sonra sürətlə inkişaf etməyə başladı. Sonralar Azərbaycan Şəddadilər dövlətinin və Səlcuqlu canişinliyinin paytaxtı, habelə Eldənizlər dövlətinin paytaxtlarından biri olması, Aran vilayətlərinin baş şəhərinə çevrilməsi Gəncənin inkişafına müsbət təsir göstərmişdi. IX yüzilin ikinci yarısından başlayaraq, Azərbaycan hökmdarları, həmçinin səlcuq canişinləri Gəncənin möhkəmləndirilməsinə xüsusi fikir verirdilər. Şəhər hündür və möhkəm qala divarları, dərin xəndəklərlə əhatə olunmuşdu. Gəncəlilər gözlənilməz basqınlara qarşı həmişə silahla gəzirdilər. Gəncə cavanları ox atmaqda çox mahir idilər. Müsəlman ölkələrinin hər yerindən bura silah gətirilməsinə baxmayaraq Gəncənin özü də Güney Qafqazda mühüm silah istehsalı mərkəzi idi.

Gəncə yaxın yaşayış yerləri ilə birlikdə Azərbaycanın böyük ipəkçilik mərkəzlərindən biri idi. Gəncədən dünyanın bir çox ölkələrinə xam ipək, cürbəcür ipək və pambıq parçalar, hazır paltar, xəz çalmalar, keçə, başqa sənətkarlıq məhsulları ixrac edilirdi. Gəncə yaxınlığında dəmir və mis mə'dənləri vardı. Bu, şəhərdə metal emalı, misgərlik, silah istehsalı, habelə metalla bağlı bir çox başqa sənət sahələrinin inkişafına müsbət təsir göstərirdi. Gəncə o zaman Azərbaycanın həm də mühüm dulusçuluq mərkəzi idi.

Uzun müddət paytaxt şəhəri olan Gəncədə sultan sarayı, hökmdarlara, ruhanilərə, dövlət məmurlarına məxsus olan sarayların, imarətlərin, həmçinin məscid, mədrəsə, hamamlar və başqa ictimai binaların tikilməsi şəhərdə memarlığın və bir çox sənət sahələrinin inkişafına təkan vermişdi. Gəncə əhalisinin əsas kütləsi sənətkar və tacirlərdən ibarət idi. Hələ o zaman gəncəlilərin indiki Hacıkənd ətrafında yaylaq evləri də vardı. Onlar yay aylarında - havalar sərinləşənə kimi bu evlərdə yaşayırdılar. Gəncə meyvə bağları, üzümlükləri, əkin yerləri, bulaqları və səfalı meşələri olan bolluq şəhəri idi. lakin 1139-cu il sentyabrın 30-da bu böyük sənət və mədəniyyət mərkəzinə dəhşətli fəlakət üz verdi. Mənbələrin məlumatına görə cümədən şənbəyə keçən gecə baş verən zəlzələ nəticəsində Gəncə bütünlüklə dağılıb xarabalığa çevrildi. Gəncə əhalisinin təxminən 230 min nəfəri, digər məlumata görə 300 min nəfəri həlak oldu.

Şəhərin bu ağır günlərində Gəncəyə başqa bir müsibət üz verdi. Gürcü çarı Demetre və Azərbaycanın qərb sərhədlərini çapıb-talamaqda ad çıxarmış İvane Mxarqrdzelinin başçılıq etdikləri gürcü qoşunları dağılmış Gəncənin sərvətini talayıb aparmaq üçün şəhərə basqın etdilər. Matəm və çaşqınlıq içərisində olan silahsız Gəncə əhalisi qılıncdan keçirildi. Gürcü qoşunları qalaq-qalaq insan cəsədlərinin arasından qazıb qızıl-gümüş çıxarır, Gəncə xəzinələrini qarət edirdilər. Açıq döyüşlərdə gürcü qoşunlarının yaxın düşə bilmədikləri Gəncə qalasının məşhur qala qapıları da Gürcüstana elə bu zaman aparıldı. Gürcü qoşunlarının Gəncəni qarət etməsi xəbərini alan səlcuq canişini ***Qara Sunqur*** özünü Gəncəyə yetirib düşməni ağır məğlubiyyətə uğratdı. Gürcü qoşunları Azərbaycandan qovuldu. Şəhər və onun qala divarları bərpa olundu.

Səlcuqlular və atabəylərin hakimiyyəti dövründə böyük sənətkarlıq və ticarət mərkəzlərindən biri də ***Naxçıvan*** şəhəri idi. Naxçıvan Atabəy Şəmsəddin Eldənizin hakimiyyəti illərində Azərbaycan Eldənizlər dövlətinin paytaxtlarından biri oldu. Şəhərin yüksək tərəqqisi bu vaxta təsadüf edir. Araz sahillərində Azərbaycanın çox mühüm hərbi-strateji məntəqəsi olan Naxçıvan möhkəm qala divarları ilə əhatə olunmuşdu. Böyük sənətkarlıq mərkəzi idi. Naxçıvan ustalarının əlindən çıxan parçalar, çuxalar, cürbəcür qab-qacaq, xüsusilə kasa, piyalə, dəmirağacından hazırlanmış məmulat,



qızıl, gümüş və misdən düzəldilmiş sənətkarlıq malları təkcə daxili tələbatı ödəməklə qalmır, xarici ölkələrə də ixrac olunurdu. Şəhərdə atabəylərin iqamətgahı və dövlətxanadan başqa çoxlu saraylar, mədrəsələr, məscidlər, imarətlər, türbələr tikilmişdi. Bağ-bağat içərisində olan Naxçıvan, dadlı meyvələri ilə məşhur idi. Naxçıvan qalasını içməli su ilə qalanın içərisində olan bulaqlar təmin edirdi. Şəhərin yaxınlığında inşa olunmuş Əlincə qalası Naxçıvanın təhlükəsizliyini daha da möhkəmləndirirdi.

Eldənizlər dövləti illərində öz tərəqqi dövrünü yaşayan Azərbaycan şəhərlərindən biri də Beyləqan şəhəri idi. Gəncədən Azərbaycanın cənub rayonlarına gedən karvan yollarının üstündə yerləşən Beyləqan şəhəri də mühüm strateji məntəqə idi. Böyük Səlcuq imperatorluğunun süqutuna yaxın Beyləqan bir müddət səlcuqluların asılılığından çıxmış, müstəqil şəhərə çevrilmişdi. Sonralar Azərbaycan Eldənizlər dövlətinin tərkibinə daxil olan Beyləqan daha da abadlaşdırıldı. Karvansaralar, mədrəsə və məscidlər, çoxlu yeni imarətlər ucaldıldı. O zaman Beyləqanın əhalisi təxminən 40 min nəfərə çatırdı. Şəhərdə toxuculuq, boyaqçılıq, silahqayırma, bənnalıq, dulusçuluq, zərgərlik, misgərlik, dülgərlik, dabbaqlıq, sərraclıq, dərzilik kimi 30-dan artıq sənətkarlıq və peşə sahəsi inkişaf etmişdi, bir neçə bazar vardı. Ətraf yerlərlə yanaşı Dərbənd, Şirsan, Şabran, Bakı və başqa Azərbaycan şəhərlərindən də Beyləqana ticarətə gəlirdilər. Karvan yolu üzərində yerəşən Beyləqan, xarici ölkələrlə də ticarət əlaqəsi saxlayırdı. Eldənizlərin zərbxanalarından biri məhz Beyləqanda idi.

Atabəylərin hakimiyyəti dövründə ***Təbriz*** şəhəri də çox böyüdü. Beynəlxalq karvan yollarının qovşağında yerləşən Təbriz bu dövlətin paytaxtı idi. Şəhər möhkəm qala divarları ilə əhatə olunmuşdu. Dərbənddən İran körfəzi sahillərinə və Şərqdən Avropaya gedən beynəlxalq karvan yolları Təbrizdə qovuşurdu. Buna görə də Təbriz Asiya və Avropa arasında çox mühüm beynəlxalq ticarət mərkəzi idi. Təbriz bazarları əcnəbi tacirlərlə dolu olurdu. Buradan Asiyaya və Avropa ölkələrinə karvanlarla mal yola salınırdı. Təbriz ustalarının toxuduğu xalçalar, atlas, xətayi, tafta, siqlatu və növbənöv başqa ipək parçalar, geyimlər, örtüklər, pərdələr və bir çox başqa məhsullar dünya bazarlarında əlbəəl gəzirdi. Təbriz bütün Şərqdə mühüm elm və mədəniyyət mərkəzi idi. Təbriz xəttatları, cildçiləri hər yerdə tanınırdılar. Şəhərdə bir neçə mədrəsə fəaliyyət göstərirdi. Eldənizlərin əsas zərbxanalarından biri Təbrizdə idi.

XIII yüzilin əvvəlində Təbrizdə olmuş Yaqut əl-Həməvi yazırdı: «Təbriz Azərbaycanda ən məşhur şəhərdir. Bu şəhər kərpic və əhəng daşından yaxşı hörülmüş divarları, çox əhalisi olan gözəl bir şəhərdir. Şəhərin içərisindən çoxlu kiçik çaylar keçir; o, bağlarla əhatə olunmuşdur; burda meyvə ucuzdur... Təbriz evləri rənglənmiş qırmızı kərpicdən, əhəng daşından tikilmişdir və çox gözəl görünürlər... Təbrizdə əbalıq parça, siqlatu,

xətayi, atlas və başqa parçalar toxunur. Həmin parçalar buradan bütün Şərq və Qərb ölkələrinə ixrac olunur».

XI-XIII yüzilin başlanğıcında Azərbaycanın mühüm sənətkarlıq və ticarət mərkəzlərindən biri də ***Şamaxı*** şəhəri idi. Şirvanşahlar dövlətinin qüvvətlənməsi ilə bağlı onun paytaxtı Şamaxı Şərqin ən böyük ticarət mərkəzlərindən birinə çevrildi. Dərbənddən Gəncəyə və Bərdəyə, həmçinin Azərbaycanın güney bölgələrinə gedən karvan yollarının üstündə yerləşən Şamaxı həm də mühüm beynəlxalq ticarət şəhəri idi. Xarici ticarət əlaqələri getdikcə genişlənən Şamaxı sürətlə böyüyürdü. O zaman Şamaxıda 100 minə yaxın adam yaşayırdı. Şamaxı eyni zamanda, Azərbaycanın ipəkçilik mərkəzlərindən biri idi. Şirvanın xam ipəyini, növbənöv zərif ipək parçalarını, Quba-Şirvan xalçalarını almaq üçün dünyanın hər yerindən Şamaxıya tacirlər gəlirdi. Azərbaycanın xam ipəyi o zaman Şamaxıdan Şimali İtaliya şəhərlərinə, həmçinin Fransaya ixrac olunmağa başlamışdı.

Ölkənin qüzey sərhəddində yerləşən ***Dərbənd*** Azərbaycanın iqtisadi həyatında mühüm rol oynayırdı. Şərqi Avropa və Volqaboyu ölkələrinin tacirləri məhz Dərbənd vasitəsilə Azərbaycanla ticarət əlaqələri saxlayır, buradan keçib Şərq ölkələrinə gedirdilər. Ölkənin quzey qapısı olan Dərbənd, beynəlxalq ticarətdə mühüm rol oynayır, Azərbaycanın əsas kətan və pambıq parça, həmçinin hazır paltar istehsalı mərkəzi olaraq qalırdı. Dərbəndin ixracatında zəfəran mühüm yer tuturdu.

Dərbəndin qaynar ticarət həyatı ətraf kəndlərdə də sənətkarlığın inkişafına müsbət təsir göstərirdi. Əbu Həmid əl-Qərnati (XII yüzil) Dərbənd yaxınlığında Qafqaz dağlarının ətəyində olan iki kənd haqqında məlumat verərək göstərir ki, bu kəndlərin əhalisi, hətta qadınlar, qızlar, uşaqlar, qul və kənizlər də, hər cür döyüş silahları: qılınc, xəncər, dəbilqə, yay, ox və misdən olan başqa alətlər düzəltməyi bacarırlar.

XI-XIII yüzillərdə Dərbənddən sonra ikinci mühüm liman şəhəri kimi ***Bakının*** rolu daha da artdı. Bakıdan Azərbaycan şəhərlərinə, həmçinin qonşu ölkələrə neft ixracı genişləndi. Bakının ağ nefti böyük şöhrət qazanmışdı. Neftdən təkcə evlərin işıqlandırılması üçün deyil, hərb işində də istifadə olunurdu. Bakı, həm də mühüm duz istehsalı mərkəzi idi. İçərişəhərdə aparılan arxeoloji qazıntılar zamanı aşkar olunmuş müxtəlif sənətkarlıq məmulatı və pullar XI-XIII yüzillərdə Bakının mühüm sənətkarlıq və ticarət şəhərinə çevrildiyini göstərir. 1192-ci il zəlzələsi nəticəsində Şamaxı dağıldıqdan sonra Şirvanşahlar dövlətinin paytaxtı Bakıya köçürüldü.

**KARVAN YOLLARI VƏ BEYNƏLXALQ TİCARƏT ƏLAQƏLƏRİ.** Şəhərlərin tərəqqisi əmtəə-pul münasibətlərinin inkişafına və daxili iqtisadi əlaqələrin genişlənməsinə səbəb oldu. Azərbaycan şəhərlərini bir-birinə



bağlayan karvan yolları eyni zamanda ölkənin bütün vilayətləri arasında sıx iqtisadi əlaqə yaradır, daxili bazarın yaranmasına müsbət təsir göstərirdi.

IX-X yüzillərdə Azərbaycanın ayrı-ayrı şəhər və nahiyələri arasında iqtisadi əlaqələrin genişlənməsində Bərdənin mühüm rolu vardı. Əl-İstəxriyə görə Bərdədən dörd istiqamətdə: ***Bərdə-Ərdəbil, Bərdə-Dərbənd, Bərdə-Tiflis, Bərdə-Dəbil*** karvan yolu işləyirdi. Həmin karvan yolları Azərbaycanın Beyləqan, Varsan, Bəlxab, Bərzənd, Ərdəbil, Bərzənc, Şamaxı, Şirvan, Şabran, Dərbənd, Gəncə, Şəmkir, Xunan və başqa şəhərləri arasında iqtisadi əlaqə yaradırdı. Göstərilən ticarət yolları, eyni zamanda, Azərbaycanı Dərbənl vasitəsilə Volqaboyu və bütün Şərqi Avropa ilə, Tiflis vasitəsilə Qara dəniz hövzəsi ilə, Dəbil vasitəsilə Aralıq dənizi sahillərindəki ticarət mərkəzləri ilə, Ərdəbil vasitəsilə Orta Asiya və İran körfəzi regionu ilə bağlayırdı.

Azərbaycanın güney bölgələrində mühüm iqtisadi mərkəz olan Ərdəbil şəhəri ölkənin quzeyində yerləşən Bərdə və Dərbənd kimi mühüm ticarət mərkəzləri ilə geniş ticarət əlaqəsi saxlayırdı. Bundan başqa, Ərdəbildən Zəncan, Marağa və Amidə gedən daha üç karvan yolu keçirdi. Bu ticarət yolları həm ölkənin güneyindəki Sərab, Xoy, Zəncan, Miyanə, Xunəc, Gülsəra, Marağa, Dəhərraqan, Urmiya, Səlmas və başqa şəhərlər arasında əlaqə yaradır, həm də göstərilən sənətkarlıq və ticarət mərkəzlərini ***Ərdəbil-Bərdə*** və ***Ərdəbil-Dərbənd*** ticarət yollarının üzərində yerləşən Quzey Azərbaycan şəhərləri ilə bağlayırdı. ***Ərdəbil-Zəncan, Ərdəbil-Marağa, Ərdəbil-Amid*** karvan yolları, ölkənin güney bölgələrini Qara dəniz, Aralıq dənizi və İran körfəzi sahillərindəki ticarət mərkəzləri ilə, həmçinin Orta Asiya ilə qovuşdururdu. Bundan başqa, ***Marağa-Dəbil*** yolu Urmiya, Səlmas, Xoy və Naxçıvan şəhərlərinin ticarət əlaqələrində mühüm rol oynayırdı.

Azərbaycanın şimal-qərb bölgələrinin iqtisadi inkişafında ***Şəki*** mühüm yer tuturdu. O zaman Şəki geniş ticarət əlaqələrinə malik idi. Əl-Məs'udi hələ X əsrin ortalarına doğru Şəki əhalisinin ticarətlə məşğul olduğunu yazır. Ərəb səyyahının məlumatına görə «Şəki ölkəsinin hökmdarı Azər ibn Nəbih ibn Məhacir idi». o zaman Şəki hakimliyinin torpaqları indiki Balakən-Qax bölgəsi də daxil olmaqla Cə'fərilər sülaləsinin idarə etdiyi Tiflis müsəlman əmirliyinin sərhədlərinə kimi uzanıb gedirdi. Şəki, həmçinin onun qonşuluğunda yerləşən Qəbələ şəhəri, Şamaxı, Bərdə və Gəncə ilə geniş ticarət əlaqələri saxlayırdı. Şəki ilə Tiflis müsəlman əmirliyi arasında birbaşa ticarət əlaqəsi vardı.

Daxili iqtisadi əlaqələrin yaranmasında gəmiçiliyin də mühüm rolu vardı. Urmiya gölünün Qərb və Şərq sahilləri arasında daim gəmilər üzürdü.

İbn Hövqəl Urmiya gölündə çoxlu gəmilər olduğunu yazırdı. Onlar Urmiya, Marağa, Təbrizin əyalətləri və Dəhərraqan arasında üzürdülər. Əl-Müqəddəsiyə görə Urmiyanı yelkənli gəmi ilə bir gün bir gecəyə üzüb keçirdilər. Gəmilərin sahibləri öz ailələri ilə birlikdə gölün içərisindəki adalarda yaşayırdılar. Orta əsr ərəb səyyahları Kür və Araz çaylarının da gəmiçilik üçün yararlı olduğunu qeyd edirlər. Mənbələrin məlumatına görə Kür çayının Bərdədən Xəzər dənizinə qədər olan hissəsində gəmi gediş-gəlişi vardı.

Azərbaycanın xarici ticarət əlaqələrində Xəzər dənizi böyük rol oynayırdı. Dərbənd tacirləri Xəzər vasitəsilə İran və Orta Asiya ilə, Xəzər xaqanlığı və Volqaboyu xalqları ilə ticarət əlaqəsi saxlayırdılar. Külək gəmilərin gediş istiqamətində əsdikdə Dərbənddən Təbəristan sahillərinədək olan yolu bir həftəyə qət etmək olurdu. Dərbənddən Sərir padşahlığına üç günə, İdil şəhərinə isə dörd günə çatırdılar. İdildən sonra Səməndər şəhərinə yetişmək üçün daha səkkiz gün yol qalırdı. Xəzər dənizi o zaman Azərbaycanla, həmçinin başqa müsəlman ölkələri ilə Xəzər xaqanlığı arasında ticarət əlaqələri saxlanılmasında çox mühüm yer tuturdu.

Azərbaycanın Asiya və Avropa ölkələri arasında ticarət əlaqələrinin həyata keçirilməsi üçün çox əlverişli mövqedə yerləşməsi, quzeylə güneyi, şərqlə qərbi əlaqələndirən beynəlxalq karvan yollarının onun ərazisindən keçməsi xarici ticarət əlaqələrinin genişlənməsinə müsbət təsir göstərirdi.

Əl-Məs'udinin IX yüzilin birinci yarısına aid olan məlumatına görə Bakıdan müxtəlif yerlərə ağ neft daşıyıb aparırdılar. Əbu Duləfə görə Bakıda «ağ neft mə'dənlərindən birinin gündəlik icarə haqqı 1000 dirhəmə çatırdı».

İbn Hövqəlin yazdığına görə Kür və Araz çaylarından tutulan şamayı balığını Azərbaycan şəhərlərindən başqa «dadlı və ləzzətli olduğu üçün» Reyə və İraqa aparıb çıxarırdılar.

Azərbaycan ərazisində iki yerdə çox böyük beynəlxalq bazar vardı. İlin müəyyən aylarında, əsasən, son baharda, həmin bazarlara dünyanın bir çox yerindən tacirlər axışıb gəlirdilər. Bunların biri Bərdə şəhərinin məşhur əl-Kürkü bazarı idi. Əl-İstəxri, İbn Hövqəl və əl-Müqəddəsi bu bazar haqqında maraqlı məlumatlar verirlər. ***Əl-Kürki*** bazarı təxminən ***bir kvadrat fərsəx*** (altı-yeddi kvadrat kilometr) böyüklüyündə ərazini tuturdu. Bu izdihamlı bazarda İraqdan, dünyanın müxtəlif ölkələrindən gəlmiş tacirlər qızğın alver edirdilər. Əl-Kürkü bazarı xalq arasında çox məşhur idi. Camaat həftənin günlərini sadalayanda «bazar gününü» sadəcə olaraq «əl-Kürki günü» adlandırırdı. Əl-Müqəddəsinin yazdığına görə əl-Kürki bazarına bütün ölkələrdən tacirlər axışıb gəlirdi. Bu bazarda ipək parçalar və hazır paltarlar satılırdı. Bərdədən cürbəcür pərdələr ixrac olunurdu. Buradan çox yaxşı qatırlar da alıb aparırdılar. Səyyah yazır: «Onların qaytan-





Çıraqqala



Erkən orta əsrlər, bədii metal nümunələri





Erkən orta əsrlər, bədii metal nümunələri

ları, xalçaları, qırmız adlı boyağı, örtükləri, rəngləri, ***zoğal*** adlanan meyvələri, ***kəsbuviya*** və ***ət-tirrix*** adlanan balıqları, son dərəcə keyfiyyətli olan əncir və şabalıdlarının tayı-bərabəri yoxdur».

Azərbaycan ərazisində ikinci böyük beynəlxalq bazar Ərdəbil-Marağa ticarət yolunun üstündə, Xunəclə Marağa arasında idi. ***Gülsərə*** bazarı kimi məşhur olan bu ticarət mərkəzi əl-İstəxrinin məlumatına görə Xunəcdən üç, Marağadan isə on fərsəx aralı idi. «Gəncliyində burada olmuş» İbn Hövqəl yazır ki, Gülsərə «əzəmətli qalası olan böyük bir qəsrdir». İlin müəyyən vaxtında, adətən təzə ayın başlanğıcında açılan Gülsərə bazarına bir çox xalqların tacirləri gəlir, buradan Azərbaycanda, Hindistanda və başqa ölkələrdə toxunmuş ipək parçalar, qızıl, gümüş, misgərlik məmulatları, ətir, sirkə, yəhər-yüyən, at, qatır, mal-qara, qoyun-quzu və s. alıb aparırdılar. İbn Hövqəlin məlumatına görə Gülsərə bazarında ayrı-ayrı tacirlər arasında bir dəfəyə on minlərlə baş qoyun-quzu ticarəti gedirdi.

Əl-Kürki və Gülsərə bazarlarına bənzəyən beynəlxalq yarmarkalar sonralar Avropa ölkələrində (Fransada məşhur Şampan yarmarkaları və b.) də meydana gəldi.

Azərbaycanın xarici ölkələrlə ticarət əlaqələri çox geniş idi. İbn Hövqəl məlumat verir ki, Azərbaycandan Reyə gedən ticarət yolu üzərində Xunəc şəhərində gömrükxana var idi. Ölkədən xaricə çıxarılan müxtəlif ticarət məhsullarına görə təkcə bu gömrükxana xəzinəyə ildə 100 min dinardan 1 milyon dirhəmə qədər gəlir verirdi. Səyyah təəccübünü gizlətməyərək yazırdı ki, «dünyanın başqa heç bir ölkəsində buna bənzər şey yoxdur».

Azərbaycanın ölkələrarası mal alış-verişinə çıxması sənət işlərinin yüksək səviyyəsi ilə təmin olunurdu. Gəncə və Beyləqan dulusçuları (Aran dulusçuluq məktəbi) üzərinə boyalı kaşı çəkilmiş, bitki (nəbati) və insan şəkilləri, naxışlarla bəzədilmiş qablar, boyalı şüşələr istehsal etmək sirrinə yiyələnmişdilər. Ustalar qabı rəsmlərlə bəzəyir, nazik gil qatın üzərinə şəffaf mina çəkirdilər. Bu yüksək boyalı minalama sənətinə Avropa dulusçuları yalnız XIII yüzilin sonunda Şərq ölkələrindən götürüb yiyələnməyə başladılar.

Azərbaycanın dulus ustaları mina almaq üçün yerli yataqlardan: Daşkəsənin dəmir filizi və kobaltından, Molla Cəlilli marqanyaxacından, Xarılar polimetal filizindən alınan qurğuşundan, Gədəbəy misindən istifadə edirdilər.

Sənətkarlıq və ticarətin inikişafı yurdun müxtəlif yerlərində zərbxanalar açılmasına səbəb olmuşdu. Azərbaycan hökmdarları öz adlarından pul kəsdirirdilər. Tədavüldə qızıl və gümüş pullar işlənirdi.



## 5. MƏDƏNİYYƏT

**MƏDƏNİYYƏT TARİXİNƏ ÜMUMİ BAXIŞ.** IX yüzilin ortalarından başlayaraq Azərbaycan mədəniyyətinin tərəqqisi daha da sürətləndi. Bunun üçün əlverişli tarixi zəmin yaranmışdı. Altı yüz ilə qədər geniş ərazili Sasani və Xilafət imperiyalarının tərkibində qaldığı uzun tarixi dövr ərzində Yaxın və Orta Şərqin məşhur mədəniyyət mərkəzləri ilə saxlanılan sıx qarşılıqlı münasibətlər, yurdun ayrı-ayrı bölgələri arasında əlaqələrin canlanması, obyektiv olaraq, mədəniyyətin inkişafına müsbət təsir göstərmişdi. Azərbaycan mütəfəkkirləri Orta Asiya və Hindistan hüdudlarından Pireney yarımadasınadək çox geniş əraziləri əhatə edən Xilafət imperiyasının sərhədləri daxilində baş vermiş mədəni oyanışda – «müsəlman intibahı» adlanan mədəniyyətin yaradılmasında yaxından iştirak etmişdilər.

Yüzillər boyunca Sasani və ərəb işğalçılarına qarşı mübarizədə birləşmək zərurəti Azərbaycan ərazisində yaşayan müxtəlif türk, həmçinin qeyri-türk tayfalarının qaynayıb-qarşmasını sürətləndirdiyi kimi, vahid dilin və mədəniyyətin formalaşmasına da mühüm təsir göstərmişdi.

Ərəb Xilafəti ağalığının aradan götürülməsi nəticəsində Şirvanşahlar, Sacilər, Salarilər, Rəvvadilər, Şəddadilər dövlətlərinin meydana gəlməsi, xalqın yadellilərə qarşı inadlı mübarizəsi nəticəsində əldə olunan siyasi müstəqillik və mənəvi mədəniyyətin oyanışına əlverişli şərait yaratdı.

**ELM VƏ MƏKTƏB.** Xilafətin süqutu nəticəsində başlanan siyasi dirçəliş Azərbaycanda elmin inkişafına mühüm təkan verdi. Şirvanşahlar, Sacilər, Salarilər, Rəvvadilər və Şəddadilər sülaləsindən olan Azərbaycan hökmdarları öz dövlətlərini qüvvətləndirmək üçün elmin, maarifin inkişafına fikir verir, dövrün qabaqcıl adamlarını saraya toplayır, məscidlər, körpülər, möhtəşəm imarətlər ucaltmaqda bir-birilə yarışırdılar. Azərbaycanın bütün Şərqdə məşhur olan Gəncə, Bərdə, Marağa, Şamaxı, Dərbənd, Təbriz, Ərdəbil və başqa şəhərlərində mükəmməl təhsil verən çoxlu mədrəsələr vardı. Məscidlərin yanında fəaliyyət göstərən ibtidai məktəblərdə şagirdlərə Qur'ani-Kərim öyrədilir, müxtəlif bilik sahələrinə dair ilkin məlumatlar verilirdi. Hələ Sasanilər və Xilafət dövründən başlayaraq, xarici aləmlə geniş əlaqələr yaratmış Azərbaycan şəhərləri dövrün mühüm elm və mədəniyyət mərkəzləri idilər. Azərbaycan elmi vahid islam mədəniyyəti adlanan mədəniyyətin tərkib hissəsi kimi inkişaf edirdi. Daxili iqtisadi əlaqələr və beynəlxalq karvan ticarətinin genişlənməsi, həmçinin Azərbaycan şəhərlərində müxtəlif sənətkarlıq sahələrinin tərəqqisi ilə bağlı olaraq, ayrı-ayrı elm sahələrinə maraq getdikcə artırdı. Mədrəsələrdə və mollaxanalarda Qur'ani-Kərim, şəriət, məntiq, şərq dilləri ilə yanaşı müxtəlif təbiət elmlərinin öyrənilməsinə ehtiyac və maraq artmaqda davam edirdi.

Türk-islam xalqları ilə qarşılıqlı əlaqə və təsir şəraitində tərəqqi edən Azərbaycan mədəniyyəti ümumdünya mədəniyyətinin inkişafına müsbət təsir göstərirdi. Bu, təsadüfi proses deyildi. Dünya sivilizasiyasının ən qədim mərkəzlərindən biri olan Azərbaycanın Şimalla Cənubu, Şərqlə Qərbi əlaqələndirən beynəlxalq karvan yollarının qovşağında yerləşməsi, Sasanilər və Xilafət dövründə bu əlaqələrin daha da genişlənməsi mədəniyyətin inkişafına müsbət təsir göstərmişdi. Xilafətin süqutu ərəfəsində Azərbaycan bu geniş ərazili imperiyanın ən böyük mədəniyyət mərkəzlərindən biri idi. IX-XII əsrlərdə bütün Şərqdə, habelə Firəng* ölkələrində məşhur olan bir çox böyük mütəfəkkirlər: ***əl-Biruni, əl-Farabi, Rudəki, Firdovsi, Təbəri, Bəlazuri, Müqəddəsi, İbn Xordadbeh, Məs'udi, əl-Bəlxi, əl-İstəxri, Xarəzmi, İbn Hövqəl, Bəttani, Əbül-l-Vəfa, əl-Kindi, İbn Rüşd*** və başqaları Azərbaycanda yaxşı tanınırdılar. Onların bir çoxu isə Azərbaycandakı elmi-ədəbi mühitlə bilavasitə bağlı idilər.

Bəhs edilən dövrdə dünya mədəniyyətinə xaqanilər, nizamilər bəxş etmiş olan Azərbaycan «müsəlman intibahı» adlanan məşhur mədəni oyanışın ən mühüm mərkəzlərindən biri idi. Azərbaycan alimləri müxtəlif elm sahələrinin, o cümlədən təbabət, fəlsəfə, astronomiya, tarix, coğrafiyanın inkişafında dünya elminin önündə gedirdilər. O zaman Azərbaycanda ***Məkki ibn Əhməd əl-Bərdəyi, Səid əl-Əsdi, Əbdüləziz əl-Bərdəyi*** kimi böyük alimlər yaşayıb-yaradırdılar. İbn Sinanın tələbəsi olmuş böyük Azərbaycan filosofu ***Bəhmənyar ibn Mərzbanın*** əsərləri sonralar bir çox Şərq və Qərb dillərinə tərcümə edilmiş, dünya fəlsəfi fikrinin inkişafında mühüm rol oynamışdı. O, Şərq-islam və qədim yunan fəlsəfəsini dərindən öyrənmiş, bu istiqamətdə maraqlı araşdırmalar və ümumiləşdirmələr aparmışdı. Digər Azərbaycan filosofu ***Eynəlqüzzat Miyanəçi*** (1099-1131) idi. Panteist görüşlərinə görə 32 yaşında ikən ruhanilər tərəfindən qətlə yetirilən Eynəlqüzzat Miyanəçi bir çox qiymətli fəlsəfi əsərlərlə yanaşı çoxlu rübailərin müəllifi idi.

Dövrün parlaq şəxsiyyətlərindən biri də ***Xətib Təbrizi*** (1030-1109) idi. İlk təhsilini Təbrizdə aldıqdan sonra bir çox Şərq ölkələrini gəzib-dolaşmış, nəhayət, Bağdadda qərar tutub oradakı məşhur «Nizamiyyə» mədrəsəsində 40 ildən çox müddət ərzində dərs demiş Xətib Təbrizi fəlsəfə, dil, ədəbiyyat, məntiq və başqa elmlərə dair qiymətli tədqiqatlar aparmışdı. Öz dövrünün ***Əbu-l-Əla Məərri, Xətib Bağdadi, Əbu-l-Qasim Tənnuxi*** və başqaları kimi məşhur alimlərindən dərs almış Xətib Təbrizi bütün islam dünyasında ədəbiyyatşünaslıq və dilçilik sahəsində ensiklopedik biliyə malik olan ən görkəmli alimlərdən biri səviyyəsinə yüksəlmişdi. O, uzun sürən səyahətləri zamanı və qürbətdə yaşadığı dövrdə də öz doğma dilini unutmamışdı. Maraqlıdır ki, Suriyanın ***Məərreyi-ən-Nu'man*** məscidində müəllimi Əbu-l-Əla Məərridən dərs alarkən Təbrizdən qonşusu gəlir. Xətib



Təbrizi müəllimindən icazə alıb qonşusu ilə Azərbaycan dilində hal-əhval tutur, söhbət edir. Ərəb və fars dillərinin bilicisi olan Əbu-l-Əla Məərri bu dili başa düşməmiş və şagirdindən soruşmuşdu: «Bu, hansı dildir?» Xətib Təbrizi isə – «Bu, Azərbaycan əhalisinin dilidir» – deyə cavab vermişdi. Əbu-l-Əla şagirdinə bildirmişdi ki, «mən bu dili bilmirəm və başa düşmürəm, lakin sizin danışdıqlarınızın hamısını əzbərlədim». Xətib Təbrizi yazır ki, Əbu-l-Əla Məərri «qonşumla mənim danışdıqlarımın hamısını artıq-əskiksiz, olduğu kimi təkrar etdi. Mən onun başa düşmədiyi bir şeyi necə əzbərlədiyinə son dərəcə təəcüb etdim».

Xətib Təbrizinin dövründə Təbrizdə digər görkəmli alimlər də yaşayırdılar. Azərbaycanın başqa şəhərlərində də görkəmli alimlər yetişmişdi. Bunların arasında xoylu təbib və ədib ***Əbu Miaz Əbdayi***, şamaxılı hüquqşünas ***Əbu Bəkr Məhəmməd Şirvani*** və başqalarını göstərmək olar.

Gəncədə doğulub boya-başa çatmış, ilk təhsilini burada aldıqdan sonra Şərq ölkələrinə səyahətə çıxan ***Ömər Gəncəyi*** Nişapur, Həmədan, Mərv şəhərlərində müxtəlif elmi-ədəbi məktəblərlə tanış olmuş, Bağdadın «Nizamiyyə» mədrəsəsində təhsil almışdı. Dilçiliyə, ədəbiyyatşünaslığa dair qiymətli axtarışlar aparan, eyni zamanda gözəl şeirlərin müəllifi olan Ömər Gəncəyi ömrünü Mərv şəhərində başa vurmuşdu. Ömər Gəncəyinin müasiri, xoylu ədəbiyyatşünas ***Yusuf ibn Tahir*** dövrün məşhur ərəb şairi Əbul Əlanın divanına şərh yazmışdı.

XII əsrin məşhur astronomu ***Fazil Fəridəddin Şirvani*** bütün ömrünü səma cisimlərinin öyrənilməsinə həsr etmiş, astronomiyaya dair bir sıra qiymətli cədvəllər tərtib etmişdi. Azərbaycanın müxtəlif yerlərində aparılan arxeoloji qazıntılar zamanı aşkar olunmuş maddi mədəniyyət nümunələri də o zaman yurdumuzda astronomiyaya böyük maraq göstərildiyini sübut edir. Astronomiyanın inkişafı başqa amillərlə yanaşı, Azərbaycanın çox geniş xarici ticarət əlaqələri ilə, bilavasitə uzaq Şərq və Qərb ölkələri ilə karvan ticarətinin inkişafı ilə bağlı idi.

**ƏDƏBİYYAT.** IX-XII əsrlərdə ədəbiyyatda daha güclü oyanış baş verdi. Böyük Nizaminin və onu yetirən ədəbi mühitin timsalında Azərbaycan ədəbiyyatı ümumdünya mədəniyyətinin ən uca zirvələrindən birini fəth etdi. Ədəbiyyatın inkişafında, əsasən, iki cərəyan nəzərə çarpırdı: şifahi xalq yaradıcılığı; peşəkar yazıçıların qələmlərindən çıxan klassik ədəbi nümunələr.

Bəhs olunan dövrdə şifahi xalq ədəbiyyatının ən böyük nümunəsi «Kitabi-Dədəm Qorqud» dastanı idi. Möhtəşəm sənət abidəsi olan «Kitabi-Dədəm Qorqud» boyları Azərbaycanın bütün guşələrində, habelə oğuzların yaşadıqları bütün ərazilərdə yayılmışdı. El aşıqları – ozanlar Azərbaycanı və qonşu ölkələri qarış-qarış gəzib-dolanır, toy-düyünlərdə,

bayram şənliklərində, zorxanalarda minilliklərin dərinliklərindən baş alıb gəlmiş şifahi ədəbiyyat nümunələrini – xalqın mənəvi dünyasını, alp-ərənlik keçmişini öz müasirlərinə çatdırır, onu daha da zənginləşdirir, cilalayır, dildən-dilə, eldən-elə ötürə-ötürə gələcək nəsillərə ərmağan edirdilər. Oğuzların gündəlik həyatından, acılı-şirinli gün-güzəranından, məişətindən, yadellilərə qarşı qəhrəmanlıq mübarizəsindən doğan şifahi xalq yaradıcılığı nümunələri xalq üçün doğma və əziz idi. Belə ədəbi nümunələri xalq həm də ona görə sevirdi ki, onlar doğma türk dilində yaranmaqla xalqın real həyatını əks etdirir, dostu-dost, düşməni-düşmən kimi təqdim edirdi. Yeri gəlmişkən, «Kitabi-Dədəm Qorqud» boyları bugünkü nəsillərə həm də yazılı ədəbi abidə kimi yadigar qalmışdır. Məşhur qəhrəmanlıq dastanımızın hələ o zaman – erkən orta əsrlərdə konkret bir müəllif tərəfindən yazıya alınması Azərbaycan dilinin qədim yazılı ədəbiyyat ənənələrinə malik olduğunu sübut edir.

Xalq ədəbiyyatından fərqli olaraq, yazılı ədəbi nümunələr, əsasən, ayrı-ayrı feodal hökmdarlarının saraylarında, həmçinin iri şəhərlərdə formalaşan ədəbi mühitdə meydana gəlirdi. Odur ki, bu cür əsərlər xalq həyatını şifahi ədəbiyyat nümunələri qədər dolğun əks etdirmirdi. Digər tərəfdən, yazılı ədəbiyyat nümunələri, bir qayda olaraq, ərəb və fars dillərində yaranırdı. Azərbaycan Xilafət imperiyasının tərkibindən çıxdıqdan sonra ərəb dilində yaradılan yazılı ədəbiyyat tədriclə zəifləyir, fars dilində yazılan ədəbi nümunələr isə artmağa başlayırdı. Bu, bir tərəfdən, ərəb və fars dillərinə üstünlük verən Azərbaycan hökmdarlarının sifarişləri ilə, həmçinin feodal saraylarında hökmranlıq edən ədəbi mühitlə bağlı idisə, digər tərəfdən görkəmli Azərbaycan ədiblərinin ərəb və fars dillərinin dövlət dili olduğu Şərq ölkələrinin geniş ədəbi mühiti ilə sıx əlaqələr saxlamaq mənafeyindən irəli gəlirdi.

XI-XII əsrlərdə böyük Nizami zirvəsinə yüksələn Azərbaycan ədəbiyyatının ***Ömər Gəncəyi, Yusuf ibn Tahir, Eynəlqüzzat Miyanəçi, Əbülüla Gəncəvi, Fələki Şirvani, İzəddin Şirvani, Mücirəddin Beyləqani, Qivami Gəncəvi, Qətran Təbrizi, Xətib Təbrizi, Məhsəti Gəncəvi, Xaqani Şirvani*** və başqaları kimi görkəmli sənətkarlar nəsli yetişdi.

Öz dövrünün tanınmış dilçi və ədəbiyyatşünas alimi, istedadlı şairi olan Ömər Gəncəyi doğma Azərbaycandan başqa Bağdadda, Nişapurda, Həmədanda, Mərvdə – bütün Yaxın və Orta Şərqdə məşhur idi. Gözlərini qürbətdə – uzaq Mərv şəhərində həyata qapamış görkəmli Azərbaycan şairinin qəlbindən Vətən həsrətilə qopan aşağıdakı misralar bugünkü nəsillərə yadigar qalmışdır:

Sürüb dəvələrini mənim yurduma çatsan,
Dostlarıma, unutma, məndən yetir bir salam.
Bu dərdə dözməyimdən, ayrılıq əzabından



Danış bir-bir onlara mən necə xəstə-halam.
Söylə ki, onları mən hər yadıma saldıqca
Gəlir keçir gözümdən bir də o günlər tamam.
Ətirli meh əsdikcə səhər dost diyarından,
Qəlbim yarpaqtək əsir, tapmır bir zərrə aram.

XII yüzilin görkəmli filosof-şairlərindən biri də Eynəlqüzzat Miyanəçi (1099-1131) idi. Qısa ömründə bir çox qiymətli fəlsəfi əsərlər yaratmış olan bu nadir şəxsiyyət özündən sonra həm də olduqca şirin rübailər, incə fəlsəfi ruha malik olan şeir nümunələri qoyub getmişdir. Şairin aşağıdakı misraları buna nümunə ola bilər:

Eşqində gərək hasil ola, o yoxdur.
Ümmidə gərək sahil ola, o yoxdur.
Səbr eylə deyirsən ki, işin yaxşı olar,
Qəlb ola ona qabil ola, o yoxdur.

Görkəmli şair Nizaməddin Əbülüla Gəncəvi (1096-1159) dövrünün ustad şairlərindən idi. Gəncədə doğulmuşdu. Nizamiyə qədərki dövrdə şairlər arasında böyük nüfuza malik idi. Ömrünün son dövrünü Şirvanşahlar sarayında yaşayan şairə «məlikrüşşüəra» rütbəsi verilmişdi. Əbülüla Gəncəvi, həm də öz dövrünün ən qabaqcıl ziyalılarından idi. Əbu Əli ibn Sina və başqa böyük sənətkarların yaradıcılığı ilə yaxından tanış idi. Ustad sənətkarın «Andnamə» qəsidəsindəki aşağıdakı misralar şairin qüdrətli sənətindən xəbər verir:

Ürək bulud, sözüm inci, könülsə bir dərya,
Dilim bu gövhərə carçı, zəmanə isə baha.

Əbülüla Gəncəvinin müasiri olan digər görkəmli şair Fələki Şirvani də Azərbaycan İntibah ədəbiyyatının görkəmli nümayəndəsi idi. Şirvanşaha mədhiyyələr yazan şairin taleyi uğursuz olmuş, malı-mülkü əlindən alınaraq məhbəsə atılmışdı. Elə bu münasibətlə yazdığı məşhur «Həbsiyyə» qəsidəsi də şairə şöhrət qazandırmışdı:

Dərdimə kimsə mədədkar deyil,
Nə edim, bəxt mənə yar deyil,
Öldürüb səbrü intizar məni,
Bəs nədir çarəm, intizar deyil?

Fələki Şirvani yaradıcılığı humanizm ideallarının qüvvətli olması ilə səciyyəvidir.

XII əsr İntibah ədədiyyatının inkişafında Əbülüla Gəncəvi, Xaqani, Fələki və başqa sənətkarlarla yanaşı Əmir İzəddin Şirvaninin də mühüm xidməti olmuşdur. Şairin incə ruhlu poeziyasında insanla təbiətin vəhdəti əlvan lövhələrlə vəsf olunur.

XII əsr ədəbiyyatımızda özünəməxsus yer tutan Mücirəddin Beyləqani Eldənizlər sarayında xidmət etmiş, ömrünü Təbrizdə başa vurmuşdu. Mücirəddin Beyləqani böyük Xaqaninin təsiri altında yazdığı mədhiyyələrini Eldəniz hökmdarları Məhəmməd Cahan Pəhləvana və Qızıl Arslana həsr etmişdi. Zərif, səmimi və aşiqanə şeir nümunələri yaratmış Mücirəddin Beyləqani zamanın haqsızlıqlarına qarşı öz münasibətini bildirməkdən də çəkinməmişdir:

Zamanla kərtənkələ olub keçinnəm susuz,
Abrımı tökmərəm, yaşamaram duyğusuz.
Su təb'imin odunu söndürüb qoysa minnət,
Susuzluqdan ölərəm, suya baxmaram, əlbət.

XII yüzildə yaşamış görkəmli şairlərimizdən biri də Qivami Gəncəvi idi. Bəzi məlumatlara görə bu böyük sənətkar Nizami Gəncəvinin qardaşı və ya əmisi oğlu imiş. Həqiqətən də, demokratiklik, saray həyatına nifrət, sadə xalqa dərin məhəbbət və ehtiram, haqq-ədalətə çağırışla aşılanan humanizm idealları hər iki şairin yaradıcılığını doğmalaşdırır, qohumlaşdırır. Qivami də, Nizami kimi Şirvanşahlara deyil, Eldənizlərə rəğbət bəsləmiş, şeirlərində Məhəmməd Cahan Pəhləvanı və Qızıl Arslanı mədh etmişdir. İnsan, onun gözəlliyi, real qayğıları başqa humanist sənətkarlar kimi Qivami Gəncəvi yaradıcıdığı üçün də səciyyəvidir. Şair, yeri gəldikcə, onun humanist insan idealı yolunda əngələ çevrilən cahilliyə, ədalətsizliyə, riyakarlığa, natəmizliyə qarşı üsyan edir:

Əcəb zəmanədir türfə xəlayiq,
Cəhalət meyindən yoxdur bir ayiq,
Nə dindar zahid var, nə təmiz alim,
Nə adil bir şah var, nə doğru hakim.
Alıcı tək qaçar biri-birindən,
Məhşərdən qorxmazlar bilmirəm nədən,
İşlər belə getsə, çəkməz o qədər,
Göylər alt-üst olar, dünya çevrilər.

XI-XII əsrlər İntibah ədəbiyyatının görkəmli sənətkarları sırasında ümumdünya poeziyasının nadir incilərini yaratmış Qətran Təbrizi, Məhsəti Gəncəvi, Xaqani Şirvani, nəhayət, dahi Nizami xüsusi yer turur.



**QƏTRAN TƏBRİZİ** *(1012-1088).* Təbriz yaxınlığındakı Şadiabad kəndində dünyaya gəlmiş bu böyük sənətkar İntibah ədəbiyyatımızın ilk görkəmli nümayəndələrindən biri idi. Böyük şair insana məhəbbət, təbiətə vurğunluq nümunəsi olan nadir poeziya incilərini Təbriz və Gəncə saraylarında yaratmışdır. Qətran Təbrizi lirik şeirlər divanından başqa farsca «ət-təfasir» adlı izahlı lüğətin müəllifidir. Azərbaycan hökmdarlarına mədhiyyələr yazan Qətran Təbrizinin saray həyatı zahirən xoş keçsə də, doğulduğu kəndli həyatı, xalqın məşəqqətli güzəranı onu rahat buraxmır. Xalqın şair oğlunun bir gözü gülürsə, o biri qəm içindədir:

Bədən yarı oxdur, yarı kamandır,
Ürək yarı qoca, yarı cavandır.
Çoxlu əzab çəkdim süd bulağıyçün
Ordan süd yerinə ancaq çıxdı qır.

Humanist sənətkar yaşadığı feodal saraylarının zahiri dəbdəbəsi, təmtərağı ilə sadə xalqın çətin dolanışığı arasındakı təzadı görür, «sirrini içinə saldığı üçün», yaşadığı mühitlə zahirən də olsa, razılaşdığına görə aşağıdakı şeir nümunələrində sanki özünə qarşı üsyan edir:

Nə qədər sirrimi içə salım mən?
Nə qədər şadlığa həsrət qalım mən?
Yarın cəfasına nə qədər dözüm?
Nə qədər pis görüb yaxşı bilim mən?

Qüssə yeməkdən, sirləri saxlamaqdan
Gəncliyimdən tüklərim gümüş kimi ağardı.
Sözüm çoxdur, ancaq söyləyə bilmədiyim üçün
Vaxt-bivaxt öz barmağımı dişləməyə məcbur oluram.

Az danışıb çox eşitmək dərdindən
Kədərim artdı, sevincim azaldı.
Fikir, xəyalı ürəkdə saxlamaq, səbr etmək
Dağı öz belində saxlamaq kimidir.

Nəhayət, şair qəsidələrinin birində «oturub-durduğu», «sınaqdan çıxardığı», «vəzirlik gözlədiyi», «bəxşişlər aldığı» əyanlara, hakimlərə qarşı öz narazılığını açıqca bildirirdi.

Qətran Təbrizinin Azərbaycan hökmdarlarını mədh edən qəsidələri, eyni zamanda şairin dövrünü öyrənmək üçün qiymətli ədəbi qaynaqlardır. Şairin şahidi olduğu 1042-ci il Təbriz zəlzələsinə həsr etdiyi qəsidələrdə,

habelə bir çox başqa şeirlərində XI əsr tariximizi öyrənmək üçün çox qiymətli məlumatlar vardır. Qətran Təbrizi öz şeirlərində Azərbaycan hökmdarlarını dostluğa, birliyə çağırır, onların əl-ələ verib yadellilər üzərində çaldıqları qələbələri vəsf edir.

Şeirələrində tez-tez doğma türk sözləri işlədən, canlı xalq dilimizdə işlədilən müxtəlif ifadələri farscaya çevirən Qətran Təbrizi sanki bugünkü nəsillər qarşısında özünün Azərbaycan şairi olduğunu təsdiq etmək istəmişdir. Əslində, bu həqiqəti 1046-cı ildə Təbrizdə böyük şairimizlə görüşən görkəmli filosof-səyyah Nasir Xosrov da təsdiq edir. O, «Səfərnamə»sində yazır ki, Təbrizdə Qətran adlı bir şair gördüm. Yaxşı şeir yazırdı. Amma ***fars dilini yaxşı bilmirdi***. Mənim yanıma gəldi. Müncik və Dəqiqənin divanlarını gətirib oxudu. Onun üçün çətin olan sözlərin mənasını soruşdu, dedim, izahlarını yazdı. Oz şeirlərini də mənim üçün oxudu.

**MƏHSƏTİ GƏNCƏVİ.** Azərbaycan İntibah ədəbiyyatının ilk görkəmli nümayəndələrindən biri də Məhsəti Gəncəvi idi. İndiyədək şairin 200-dən çox rübaisi araşdırılmışdır. İntibah dövrünün başqa sənətkarları kimi Məhsəti Gəncəvini də, ilk növbədə, real insan, onun arzuları, duyğuları, məhəbbəti, sevinci, kədəri maraqlandırır. Məhsəti poeziyası məhəbbət poeziyasıdır – real, səmimi, adi insani münasibətlərdən doğan və onu tərənnüm edən, həm də dini ehkamlardan, tərkidünyalıqdan uzaq poeziya. Şair öz rübailərinin bir çoxunu müxtəlif peşə adamlarına – papaqçıya, çörəkçiyə, toxucuya, dülgərə, nalbəndə, müəzzinə, başmaqçıya, qəssaba, dərziyə və başqalarına həsr edir. Bu, bir tərəfdən, ümumiyyətlə İntibah mədəniyyəti sənətkarlarının yaradıcılığı üçün səciyyəvidirsə, digər tərəfdən, həmin mədəniyyətin formalaşdığı orta əsr şəhərlərinin, konkret halda orta əsr Gəncəsinin qaynar sənətkarlıq və ticarət həyatının real əksi idi.

Məhsəti Gəncəvinin əməyə məhəbbət tərənnüm edən poeziyası Nizami yaradıcılığında özünün zirvəsinə çatdı.

**XAQANİ ŞİRVANİ** *(1126–1199)*. İntibah ədəbiyyatımızın ən görkəmli şairlərindən biri də Əfzələddin Xaqani Şirvanidir. Xaqani Şirvani şeir-sənət ocağı Şamaxıda dünyaya göz açmışdı. Azərbaycan ədəbiyyatı tarixində ilk dəfə poema yazmış bu böyük sənətkar qəsidə janrını yüksək sənətkarlıq zirvəsinə qaldırmışdı. İntibah mədəniyyətinin digər nümayəndələri kimi Xaqani yaradıcılığının da mərkəzində insan və onu əhatə edən real həyat həqiqətləri, xeyirlə şərin mübarizəsi, dərin humanizm duyğuları durur. Bu da təsadüfi deyildi. Çünki yoxsul bir ailədə dünyaya göz açan Xaqani hələ kiçik yaşlarından həyatın acısını-şirinini dadmış, dövrünün savadlı adamlarından biri olan əmisi ***Kafiəddin Ömər ibn Osmanın*** himayəsi altında



Qur'anı, dilçilik, ədəbiyyat, fəlsəfə, riyaziyyat və başqa elmləri öyrənmişdi. Hələ kiçik yaşlarından şeir yazmağa həvəs göstərən Xaqani tezliklə Şirvanşahlar sarayına dəvət olunur. Elə bu vaxtdan da Xaqani («Xaqana məxsus olan») təxəllüsünü götürür. Çox keçmədən, saray həyatının sıxıntılarına davam gətirə bilməyən şair İraqa, Məkkəyə səyahət edir. Həbsxanaya düşür. Dərbənddə, Gəncədə yaşayır. Nəhayət, 1176-cı ildə Kə'bəyə ziyarət etdikdən sonra bir daha Şamaxıya dönmür. Təbrizdə yaşayır. Şair müxtəlif hökmdarların saraylarından göndərilmiş dəvətləri qəbul etmir. Bütün bunlar şairin yaradıcılığında dərin iz buraxır.

Xaqanidən bugünkü nəsillərə 17 min beytlik lirik şeirlər divanı, «Töhfət ül-İraqeyn» poeması və nəsrlə yazdığı məktublar yadigar qalmışdır. Təkcə Azərbaycanda deyil, bütün Şərqdə qəsidə janrı üzrə İntibah ədəbiyyatının ən uca zirvəsini Xaqani fəth etmişdir. Həmişə incidilmiş, lakin heç kəsi incitməmiş («Uşaqlıqdan adətim bu olmuşdur ki, inciyim, ancaq incitməyim») şairin yaradıcılığı üçün dərin humanizm səciyyəvidir. Şirvanşah Mənüçöhrə, Axsitana, Eldəniz hökmdarı Qızıl Arslana, habelə yaşadığı dövrün mühüm hadisələrinə, yadellilər üzərində qələbələrə bir sıra şeirlər həsr etmiş Xaqani öz yaradıcılığının bu səciyyəvi xüsusiyyətinə sadiq qalır.

Gəncliyində ayrı-ayrı hökmdarlara mədhiyyələr yazdığına görə

> Əvvəllər şahı mədh etdiyimçün,
> Dilim bulanmışdı çirkaba bütün –

deyərək, sanki xəcalət çəkən şair bir daha keçmişə dönmür, bundan sonra ancaq həqiqəti vəsf etdiyi üçün öyünür:

> İlhamım yalanla xarab olmuşdu,
> O, civə rəngində şərab olmuşdu.
> ***İndi hər sözümdə bir həqiqət var,***
> ***O, güzgü məhəktək olmuşdu me'yar.***

Ömrünün sonunadək insanlığa, haqqa, düzgünlüyə sadiq qalan, şahlardan, xaqanlardan, nəfsinin qulu olan acgöz, zülmkar hakimlərdən uzaqlaşıb alimlərlə, müdriklərlə ülfət bağlayan Xaqani zülmün, zalımların axırı olmadığını bildirir, bütün insanlığı humanizmə səsləyir. Bu baxımdan şairin «Mədain xəbərləri» qəsidəsi çox ibrətli bir öyüd-nəsihət xəzinəsidir:

> Hər bülbülü bir bayquş, hər nəğməni bir növhə
> İzlər bu cahan içrə, olma buna gəl heyran.
> Sordun, hara getmişdir indi o böyük şahlar,
> Bir hamilədir torpaq, çox udmuş o şah, xaqan.
> Udmuş nə qədər bilsən zalımları bu torpaq,
> Lakin yenə doymaz bu acgöz adam udmaqdan.

Haqq-ədalət eşqilə yaşayan humanizm amallı şair zülmün, zülmkarların səhnədən getmədiyini, hətta «günəşin də ögey-doğmalıq etdiyini» gördükdə özünün «Töhfət ül-İraqeyn» poemasında buna daha kəskin etirazını bildirir:

Dövlət nə qüdrətin, nə hünərindir,
Mənsəb də, sərvət də nakəslərindir.
Fələyin zatında qalmamış nişan
İgidlik, sədaqət və adamlıqdan.
Fələyin dövranı dəyişir artıq,
***Günəş də anlayır ögey-doğmalıq.***

Hər addımda «Şirvan şəri» ilə qarşılaşdığı zülm və zalımlar dünyasında şairin son ümidgahı yenə sadə insanlar olur. O, zəhmətkeş atasını, anasını, babasını, əmisini, onun üçün doğma və əziz olan sadə xalq həyatını yada salır, özünü, öz şairlik sənətini onlarla, onların sadə əməyi ilə müqayisə edir:

Sənətcə toxucu olmuşdur babam,
Mən də yavaş-yavaş söz toxuyuram,
Mənəm, bax, bu günün əziz insanı,
Mənəm söz toxuyan şair Xaqani.

İntibah ədəbiyyatımızın Nizami zirvəsinə yüksəlişi yolunda nadir hadisə olan Əfzələddin Xaqani yaradıcılığı, öz dövründə və bundan çox sonralar təkcə Azərbaycan poeziyasına deyil, bütün Yaxın və Orta Şərq şeirinə güclü təsir göstərmişdir. Xaqani poeziyasının qüdrətini böyük Nizaminin aşağıdakı beyti daha aydın sübut edir:

Hey deyirdim ki, mənə mərsiyə Xaqani yazar,
Heyf, Xaqaniyə mən mərsiyə yazdım axır.

**NİZAMİ GƏNCƏVİ** *(1141 – 1209).* Azərbaycanın İntibah ədəbiyyatı Nizami yaradıcılığı ilə özünün ən yüksək zirvəsinə ucaldı. Ümumdünya mədəniyyətinin ən nadir simaları sırasında əzəmətlə ucalan böyük Nizami Şərq və dünya poeziyasının inkişafına güclü təkan verdi. Yaxın və Orta Şərqin ən böyük sənətkarları belə yüzillərlə dahi Nizaminin tükənməz poeziya çeşməsindən bəhrələndilər, özlərinin ən yaxşı əsərlərini böyük ustadlarına ithaf etdilər.

Nizaminin Xilafətin süqutundan sonra siyasi və iqtisadi dirçəliş dövrünü yaşayan Azərbaycan mühiti yetirmişdi. Bu mühit Sasani və Xilafət imperiyalarının süqutundan sonra da uzun müddət Yaxın və Orta Şərq ölkələri ilə – Orta Asiya, İran, İraq, Misir və Suriyanın mədəni mərkəzləri ilə sıx əlaqədə idi. Nizami yaradıcılığının maya bağladığı Gəncə isə böyük sənətkarlıq, ticarət və mədəniyyət mərkəzi idi. Gəncə, həm də, bütün Şərqdə ən böyük elm və təhsil ocaqlarından biri idi. bütün türk-islam hökmdarları İslam dünyasının xristian sərhəddi yaxınlığında yerləşən ən böyük istehkamlarından biri olan Gəncənin tərəqqisinə mühüm diqqət yetirirdilər. Dünyanın hər tərəfindən ən nadir sənət inciləri, əlyazmaları Gəncəyə toplanmışdı. Gəncə ədəbi mühitində Əbülüla Gəncəvi, Məhsəti Gəncəvi kimi nadir sənətkarlar yetişmişdi. Buna görə də Nizami istedadının parlaması üçün Gəncədə əlverişli şərait vardı. Elə gənc İlyası da Nizami zirvəsinə məhz bu mühit ucaltmışdı. Doğma Gəncədə mükəmməl təhsil almış dahi mütəfəkkir hər bir yeni əsəri üzərində işləməzdən əvvəl müxtəlif dillərdə yazılmış qədir mənbələri dərindən-dərinə araşdırır, ancaq bundan sonra əlinə qələm alırdı. Şairin özü demişkən:

Hər nüsxədən bəhrə götürdüm,
Nəzmdən ona zinət verdim.
Yeni tarixlərdən əlavə
Yəhudi, nəsrani və pəhləvi (kitablarını oxudum).

Özündən əvvəl yaranmış elmi-fəlsəfi irsin dərinliklərinə baş vuran, müxtəlif elmləri və dilləri dərindən bilən, Gəncənin qaynar mühitində yaşayan Nizami dünya miqyasında humanist ədəbiyyatın ən böyük ustadlarından biridir. Nizami yaradıcılığının mayası insandır. Şairin gündəlik həyatda rastlaşdığı, adi qayğılar içərisində, xeyirlə şərin mübarizəsi şəraitində yaşayan, tərki-dünyalıqdan, «o dünya» haqqında dini ehkamlardan uzaq olan, bu dünyada yaşayan, çalışan-vuruşan, sevən, sevilən, gözəlliklə müdrikliyin vəhdətindən yoğrulmuş insan. Böyük humanistin şeir dünyasının əsasında məhz bu cür real insan durur, onun məhəbbəti dayanır. Yeri gəlmişkən, dünya İntibah ədəbiyyatının ən erkən nümayəndələrindən biri olan Nizami özünün humanist məhəbbət fəlsəfəsinə, təkrarsız lirikasına görə təkcə müasirlərini deyil, özündən sonrakı dövrlərdə yaşayıb-yaratmış bir çox görkəmli humanistləri də geridə buraxmışdır.

Nizaminin ölməz «Xəmsə»si («Sirlər xəzinəsi», «Xosrov və Şirin», «Leyli və Məcnun», «Yeddi gözəl», «İskəndərnamə») onu dünya mədəniyyətinin dahiləri sırasına çıxardığı kimi, şairi yetirən xalqa da dünya şöhrəti gətirmişdir. «Xəmsə» şairin ilk böyük əsəri olan «Sirlər xəzinəsi» ilə başlanır. Səlcuq hökmdarı ***Fəxrəddin Bəhram*** şaha həsr olunmuş bu əsəri Nizami 1175-ci ildə tamamlamışdır. Əsərdə həyatın müxtəlif sahələri, rəngarəng ictimai problemlər, insanın qarşılaşdığı çətinliklər, cəmiy-

yətdə hökmranlıq edən zülm və ziddiyyətlər barədə 20 hekayə verilir, daha doğrusu, bu dünyada yaşayan, çalışan-vuruşan insana real həyatın sirləri barədə bütöv bir xəzinə təqdim olunur. Bütün bu hekayə-söhbətlər bütövlükdə Nizami yaradıcılığı üçün səciyyəvi olan humanizm və demokratizmlə aşılanmışdır. «Sirlər xəzinəsi»ndə şairin həll etməyə çalışdığı başlıca problem xalq və hökmdar problemidir. Şair bu mövzunu qələmə alarkən feodal hakimlərə mədhiyyələr yazmış sələflərindən fərqli olaraq xalqa doğru kəskin dönüş edir. Əsərdəki bütün söhbətlərdə, xüsusilə «Nuşirəvan və bayquşların söhbəti», «Sultan Səncər və qarı» və başqa hekayətlərdə xalqın tərəfində duran böyük şair hökmdarları haqqa-ədalətə çağırmaqla kifayətlənmir, onların səhvlərini, zülmünü, cinayətlərini üzlərinə deyir. Şair hökmdarlara müraciətlə yazır:

Eylə zülm xəncərini sən kənar,
Oxlarına olmayasan ta düçar.
Şahlıq üçün şərtdir ədalət, fəqət,
Aləmə zülm oldu, yetər, bu sənət.

Humanist sənətkar «Bir şahzadənin hekayəsi»ndə daha da irəli gedir, haqqın, ədalətin zəfər çalması üçün zülm evinin dağıdılmasını tələb edir.

Ölməlidir mülkə pozuqluq salan,
Qovmalıdır olsa qoşun bədgüman,
Qol-budaq atmaz təzə şax, bil ki sən,
Köhnə budaqları əgər kəsməsən –

deyən şair yaratdığı gənc şahzadə obrazının zülm və haqsızlıq dünyasını uçurub-dağıdır, arzuladığı dünyanı qurur. Bununla böyük humanist real insanı ön plana çəkir, onun zəkasına, qüdrətinə inanır, sadə əmək adamlarına xüsusi hörmət bəsləyir. Bu baxımdan şairin humanizm fəlsəfəsi dərin demokratizmlə aşılanmışdır. O, öz zəhməti ilə yaşayan sadə əməkçi insana həmişə üstünlük verir, onun cəmiyyətdəki rolunu yüksək qiymətləndirir. Bu baxımdan «Sirlər xəzinəsi»ndəki «Süleyman və əkinçi», «Kərpickəsən qocanın dastanı» və başqa hekayətlər çox səciyyəvidir.

«Xəmsə»yə daxil olan ikinci əsər «Xosrov və Şirin» poemasıdır. Şairin 1181-ci ildə tamamladığı bu əsər dünya poeziyasının nadir incilərindəndir. «Xosrov və Şirin»də eşqi, məhəbbəti özünün ecazkar poetik ruhu ilə bütün kainatın inkişafının əsasına qoyan, onun aparıcı qüvvəyə malik olduğunu göstərən dahi sənətkar həm də ona dərin fəlsəfi məzmun verir:

İdrakı dinləsək, söyləyər o da,
– Hər şey eşq üstündə durur dünyada.



Şairin «Xosrov və Şirin»də bəyan etdiyi məhəbbət fəlsəfəsinin əsasında real tarixi proseslər, bu dünyada yaşamış, mübarizə aparmış tarixi şəxsiyyətlər durur. Bu baxımdan Nizami yaradıcılığı Qərbi Avropa intibahını yüzillərlə qabaqlamışdı. Başqa əsərlərində olduğu kimi, bu poemada da Nizami doğma Vətənin – Azərbaycanın tarixi keçmişini, onun qonşu ölkələrlə qarşılıqlı əlaqələrini diqqət mərkəzində saxlayır, yurdun özündən əvvəl yaşanılmış tarixini sənət süzgəcindən keçirib gələcək nəsillərə ərmağan edir.

Nizami 1188-ci ildə Şirvanşah Axsitanın sifarişi ilə özünün üçüncü poemasını – «Leyli və Məcnun»u yazır. Şair özünün bu ölməz məhəbbət faciəsini yaratmaq üçün ərəb və fars mənbələri üzərində dərin araşdırmalar aparır, qələmə aldığı mövzunun kökünü arayıb axtarır, ancaq bundan sonra işə başlayır. Nəticədə orta əsr cəhalətinə, nadanlığa, zülmə, dövranın əzici məngənəsinə tab gətirə bilməyən iki gəncin ilahi məhəbbət faciəsi yaranır, «Sirlər xəzinəsi», «Xosrov və Şirin» kimi nadir sənət nümunələrinə daha bir inci əlavə olunur – «Leyli və Məcnun».

«Xəmsə»yə daxil olan dördüncü əsər «Yeddi gözəl» poemasıdır (1197). Bu əsəri Nizami ömrünün kamillik çağında, qələmindən artıq üç böyük sənət incisinin çıxmış olduğu zəngin yaradıcılıq təcrübəsinə malik olduğu, elmi və yaradıcılıq axtarışlarının, insan və ələdətli cəmiyyət haqqında görüşlərinin zirvəsinə yetişdiyi bir dövrdə yazmışdır. «Yeddi gözəl» şairin intibah dövrü üçün səciyyəvi olan yeni insan axtarışlarında çox böyük uğurudur. Doğma yurda, xalqa bağlı olan, həmişə xalqdan öyrənən, onun qayğısına qalan, təkcə bir vətən övladının da acından ölməsində özünü günahkar bilib ona yas saxlayan, nəinki insanların, hətta quşların və heyvanların belə qədrini bilən Bəhram Gur həm yeni insan, həm də ədalətli hökmdar obrazıdır.

«Xəmsə» «İskəndərnamə» ilə tamamlanır. Nizami intibah mədəniyyətimizin zirvəsidirsə, «İskəndərnamə» də Nizami yaradıcılığının zirvəsi, onun əzəmətli və layiqli yekunudur. «Şərəfnamə» və «İqbalnamə» adlı iki kitabdan ibarət olan «İskəndərnamə» dövrün qiymətli tarix salnaməsidir. Bu da təsadüfi deyil. Çünki böyük mütəfəkkir əsəri yazmazdan əvvəl yüz minlərlə əhalisi olan qədim sənətkarlıq, ticarət və mədəniyyət mərkəzi Gəncəyə toplanmış müxtəlif dillərdə olan mənbələri dərindən-dərinə araşdırmış, qədim Azərbaycan, İran, Yunanıstan və başqa ölkələrin tarixini, elmi-fəlsəfi irsini, görkəmli filosofların, sərkərdələrin, hökmdarların həyat və fəaliyyətini öyrənmişdi. Doğma yurda – Azərbaycana bağlılıq böyük sənətkarın bu əsəri üçün səciyyəvidir. Adlı-sanlı sərkərdələri məğlub edən, ölkələr fəth edən və ən qanlı döyüşlərdən zəfərlə çıxan İskəndər Bərdə hakimi Nüşabə qarşısında çıxılmaz vəziyyətə düşür. Lakin Azərbaycan hökmdarı uzaqgörənlik və mərdlik nümayiş etdirərək İskəndəri öldürtmür.

Erkək tinətliyə, olsam da qadın,
Hər işi bəllidir mənə dünyanın.
Mən də bir aslanam, düşünsən bir az,
Aslanın erkəyi, dişisi olmaz.

Nizami poeziyasının, onun elmi-fəlsəfi dünyagörüşünün ən böyük qələbəsi bundan ibarət idi ki, onun yaratdığı adil hökmdar yalnız qılıncla, şəxsi şücaəti ilə deyil, elmlə, ağılla, zəka ilə qalib gəlir. İskəndər həmişə öz əhatəsinə alimlər toplayır, müxtəlif dillərdə olan kitabları yunancaya tərcümə etdirir, elmə qədr-qiymət qoyur, alimi hamıdan uca tutur.

Əmr etdi, verildi belə bir fərman:
«Alimdir gözümdə ən əziz insan!
Elmlə, hünərlə! Başqa cür heç kəs
Heç kəsə üstünlük eyləyə bilməz!
Rütbələr içində seçilir biri –
Hamıdan ucadır alimin yeri!»

Əsərin sonunda Nizami öz qəhrəmanını ideal cəmiyyətə – Xoşbəxtlər məmləkətinə aparıb çıxarır. Düzlük və bərabərliyin hökmranlıq etdiyi bu ölkədə heç kəs yalan danışmır, acizlərə, dara düşənlərə kömək göstərirlər, burada başqalarının bədbəxtliyinə sevinən, arxadan danışan, oğru, darğa, gözətçi yoxdur, naxırlar, sürülər çobansız otlayır, qapılara qıfıl vurulmur. Hamı əməklə məşğul olur, halallıqla yaşayır. Zorakılıq yoxdur. Nahaq qan tökülmür. Qızıl-gümüşün heç bir qiyməti yoxdur. Qarınqulular yoxdur. Xoşbəxtlər məmləkətinin sakinləri dünyanı dərindən dərk edirlər. Ölümə çarə olmadığını bildiklərindən ölən üçün ürəklərini sıxmırlar. Göründüyü kimi, ilk növbədə qədim Azərbaycanın, habelə başqa xalqların elmi-fəlsəfi irsindən bəhrələnən böyük mütəfəkkir insanların minillər boyunca arzuladıqları ədalətli cəmiyyət ideallarını ümumiləşdirərək Tomas Mor, Tomazo Kampanella və bir çox başqa Qərbi Avropa utopistlərindən nə qədər əvvəl – hələ XII-XIII yüzilliklərin qovşağında özünün ideal dövlət fəlsəfəsini yaratmışdı.

Orta əsr Şərq poeziyası və ictimai-fəlsəfi fikrinin inkişafına güclü təkan vermiş Nizamidən sonra onun yaradıcılığının güclü təsiri altında neçə-neçə görkəmli mütəfəkkirlər nəsli yetişdi. Ümumdünya mədəniyyəti tarixinin nəhəng simalarından olan dahi sənətkarın zəngin yaradıcılıq irsi dünyanın müxtəlif ölkələrində bu gün də öyrənilməkdədir.

**MEMARLIQ.** IX-XII əsrlərdə memarlıq sahəsində də intibah baş verdi. Bu zaman Azərbaycanda dünya memarlığının nadir inciləri yarandı.



İslam dini Azərbaycan me'marlığına yeni üslub gətirdi. Naxçıvan, Bərdə, Gəncə, Şamaxı, Şəki, Şəmkir, Dərbənd, Bakı, Ərdəbil, Təbriz, Marağa, Urmiya, Culfa və başqa şəhərlərdə, iri yaşayış məntəqələrində bir-birindən gözəl imarətlər, məscidlər, minarələr, türbələr, qalalar, bürclər ucalırdı. Ayrı-ayrı Azərbaycan hakimləri, iri feodallar və varlı tacirlər dəbdəbəli saraylar, möhtəşəm və gözəl imarətlər ucaltmaqda bir-biri ilə yarışır, həm də bu işə dövrün ən mahir sənətkarlarını cəlb edirdilər. Bütün Qafqazda islam memarlığının inkişafında mühüm rol oynayan Azərbaycan sənətkarlarının şöhrəti dünyaya yayılmışdı. Azərbaycan memarları Orta Asiya, İran və Ərəb ölkələrində, o cümlədən Bağdad, Səmərqənd, İsfahan və bir çox başqa sənətkarlıq mərkəzlərində nadir sənət nümunələrinin yaradılmasında yaxından iştirak etmişdilər.

İntibah dövrü Azərbaycan memarlığının ən görkəmli nümayəndəsi XII əsrdə yaşamış ***Əcəmi Əbubəkr oğlu*** idi. O, Azərbaycan Eldənizlər dövlətinin paytaxtı Naxçıvanda Yusuf ibn Küseyir türbəsi (1162), Mömünə xatun türbəsi (1186), Qoşaminarə (1187), Cümə məscidi, Darülmülk (Eldənizlər sarayı) və başqa nadir memarlıq abidələri ucaltmışdı. Əcəminin yaratdığı memarlıq incilərinin bir çoxu dövrümüzədək gəlib çatmamışdır. Böyük sənətkar özündən əvvəlki memarlıq ən'ənələrimizi daha da zənginləşdirmiş, təkmilləşdirmiş və riyazi hesablamalara əsaslanan mürəkkəb me'marlıq kompleksləri yaratmışdır. Yusuf ibn Küseyir və Mömünə xatun türbələrində kufi xətlə yazılmış kitabələrlə mürəkkəb həndəsi naxışlar arasında yaradılmış misilsiz bəzək ahəngi me'marlıq sənətinin çox böyük nailiyyətidir. Əcəmi hələ sağlığında «mühəndislər şeyxi» ləqəbi daşımış, özündən sonra Naxçıvan memarlıq məktəbi adlanan xüsusi memarlıq məktəbinin bünövrəsini qoymuşdu. Əcəminin memarlıq sənəti bütün Şərq me'marlığına güclü təkan vermişdi.

XII əsrin sonlarında Naxçıvan məktəbi üçün səciyyəvi olan memarlıq üslubunda Marağada (Göygünbəz), Urmiyada (Üçgünbəz) və Culfa yaxınlığında da sərdabələr ucaldılmışdı.

İntibah memarlığının ən möhtəşəm abidələrindən biri Şəddadilər sülaləsindən olan Azərbaycan hökmdarı Fəzl ibn Məhəmmədin (985 – 1030) Araz çayı üzərində saldırdığı məşhur Xudafərin körpüsü (1027) idi. 15 aşırımlı bu nadir sənət abidəsi yaradılarkın təbii şəraitdən məharətlə istifadə edilmişdir. Belə ki, çayın axarındakı qayalardan körpünün aşırımlarından ötrü dayaq kimi istifadə edilmişdir. Xudafərin körpüsü əsrlər boyunca Azərbaycanın şimalı ilə cənubunu iqtisadi və hərbi-siyasi baxımdan əlaqələndirməkdə mühüm rol oynamışdır.

IX-XII əsrlərə aid memarlıq abidələri içərisində qalalar, bürclər və müxtəlif müdafiə qurğuları xüsusi yer tutur. Qız qalası (Bakı), Gülüstan qalası (Şamaxı yaxınlığında), Qələybuğurd (Ağsu çayı sahilində), Əlincəqala,

Oğlanqala (Lerik), Mərdəkan qalası və şimallı-cənublu bütün Azərbaycan ərazisinə səpələnmiş onlarla orta əsr müdafiə tikililərinin hər biri dünya memarlığının nadir inciləridir.

Müdafiə xarakterli tarixi-memarlıq abidələri içərisində Bakıdakı Qız qalası daha çox diqqəti cəlb edir. Memar Məs'ud Davud oğlunun Xəzər sahilində – dalğaların döyəclədiyi böyük bir qaya üzərində ucaltdığı Qız qalası 28 m hündürlüyündədir. Orijinal quruluşa malik olan 8 mərtəbəli bu müdafiə qurğusunun divarları aşağı mərtəbələrdə 5 m, yuxarı mərtəbələrdə isə 4 m qalınlığındadır. Bütövlükdə Bakı-Abşeron müdafiə sisteminə daxil olan Qız qalasında eyni zamanda 200-300 döyüşçü uzun zaman müdafiə oluna bilərdi.

Maraqlıdır ki, orta əsrlərdə Bakıdan əlavə Azərbaycanın başqa yerlərində – Şamaxı, İsmayıllı, Qəbələ, Şəki, Qazax, Naxçıvan, Qarabağ və başqa bölgələrdə, habelə bütün Qafqaz, Qara dəniz sahilləri, Orta Asiya, İran, Şərqi Anadolu və başqa yerlərdə də qız qalaları ucaldılmışdı. Deməli ki, tamamilə eyni me'marlıq üslubunda tikilmiş bu tarixi-memarlıq abidələrinin oğuz-türk axınları ilə bağlı olması ehtimal edilir. Güman olunur ki, vaxtilə Quz qalaları (və ya oğuz qalaları) kimi məşhur olan bu möhtəşəm müdafiə qurğularının adları zaman keçdikcə dəyişikliyə uğramış, qız qalaları adlandırılmağa başlanmışdır. Yeri gəlmişkən, bir zamanlar elə Xəzər dənizinin özü də quzların (oğuzların) adı ilə Quz dənizi adlanmışdır.

Ümumiyyətlə, IX-XII əsrlərdə Azərbaycanda şəhərsalma mədəniyyəti, qala tikintisi, müxtəlif xarakterli müdafiə sistemlərinin yaradılması işi özünün yüksəliş dövrünü yaşayırdı. Maraqlıdır ki, hələ o zaman Azərbaycanın böyük yaşayış mərkəzləri, o cümlədən iri kəndləri yeraltı saxsı borular vasitəsilə su ilə təchiz olunur, çirkab suları borularla yaşayış məntəqələrindən kənara axıdılırdı.

Memarlığın tərəqqisi incəsənətin onunla bilavasitə bağlı olan bir çox sahələrinin inkişafına güclü təkan verdi. Daş üzərində yaradılmış oyma naxışlar, misli-bərabəri olmayan milli bəzək nümunələri, kitabələr, qəbir daşları və s. intibah incəsənətinin ən gözəl nümunələri idi. Azərbaycanın şimallı-cənublu, bütün guşələri IX-XII əsrlərə aid bu cür nadir sənət inciləri ilə son dərəcə zəngindir.

Azərbaycan ustaları metal məmulatları hazırlamaqda da çox mahir idilər. Üzərinə rəngarəng və təkrarsız ornamentlər əsasında bəzək vurulmuş müxtəlif növ qab-qacaq və silah nümunələrinin hər biri, eyni zamanda İntibah incəsənətinin qiymətli yadigarlarıdır. Belə sənət incilərinin biri qədim Gəncənin məşhur qala qapıları idi. Gəncə qapılarını hələ XI əsrin ortalarında Şəddadilər sülaləsindən olan Azərbaycan hökmdarı Əbü-l-Əsvər Şavurun (1049 – 1067) göstərişi ilə məşhur usta İbrahim Osman oğlu düzəltmişdi (1063). Bu nadir sənət inciləri 1139-cu il Gəncə zəlzələsi



zamanı qarət məqsədilə şəhərə hücum etmiş gürcü işğalçılarının diqqətini cəlb etmiş və qənimət kimi Gürcüstana aparılmışdı.

İntibah dövründə Azərbaycanda bədii sənətkarlığın bir çox sahələri yüksək inkişaf etmişdi. Həkkaklıq, zərbetmə, divar bəzəyi, oyma sənəti yüksəliş dövrünü yaşayırdı. Xalçaçılıq sənəti xüsusilə yüksək inkişaf etmişdi. Azərbaycanın müxtəlif yerlərində aparılmış arxeoloji qazıntılar zamanı aşkar edilmiş müxtəlif növ sənətkarlıq məmulatı, o cümlədən qızıl, gümüş və misdən hazırlanmış bəzək əşyaları, qab-qacaq, dulusçuluq məhsulları və s. incəsənət tariximizi öyrənmək üçün çox qiymətlidir.

«Kitabi-Dədəm Qorqud» dastanları, İntibah dövrü mütəfəkkirlərinin, şairlərinin əsərləri, xüsusilə böyük Nizaminin yaradıcılığı o zaman Azərbaycanda müxtəlif incəsənət sahələrinin, o cümlədən musiqinin yüksək inkişaf etdiyini göstərir. Xalq yaradıcılığı ənənələrinin yaşadılması və nəsildən nəslə ötürülməsində el sənətkarları – ozanlar, aşıqlar və onların iştirakı ilə keçirilən zorxanalar, toy-düyün, bayramlar, mərasimlər və başqa ümumxalq şənlikləri mühüm rol oynayırdı.

**VAHİD DİLİN YARANMASI**: İntibah dövrünün ən mühüm nailiyyəti türk dilinin – Azərbaycan türkcəsinin bütün ölkə ərazisində vahid ünsiyyət vasitəsinə çevrilməsi idi. Altı yüz ildən çox davam edən Sasanlı və Xilafət imperatorluqlarının hökmranlığı dövründə bütün Azərbaycan torpaqlarının vahid dövlət tərkibində olması ölkənin ayrı-ayrı bölgələri arasında mədəni-iqtisadi əlaqələrin genişlənməsinə müsbət təsir göstərmişdi. Sasanilərə və ərəb işğalçılarına qarşı uzun sürən birgə azadlıq mübarizəsi ölkənin türk və qeyri-türk əhalisinin qaynayıb-qarışması prosesini sürətləndirmişdi. Vahid xalqın yaranışında türk tayfaları mühüm rol oynayırdılar. Çünki başqa xalqlar və etnik qruplardan fərqli olaraq, türk tayfaları ölkənin bütün ərazisinə yayılmışdılar və çoxluq təşkil edirdilər. Bundan başqa, türk dili Azərbaycan ərazisində yaşayan azsaylı xalqlar və etnik qruplar arasında, xüsusilə şimalla cənub arasında, başlıca ünsiyyət vasitəsi idi.

İslamın qəbulu vahid xalqın və dilin formalaşması prosesini daha da sürətləndirdi. Yurdun türk və qeyri-türk əhalisi arasında dini ümumiliyin yaranması bütün ölkə miqyasında vahid islam adət-ənənələrinin təşəkkülünə, qohumluq əlaqələrinin genişlənməsinə, qaynayıb-qarışma prosesinin daha da dərinləşməsinə səbəb oldu.

IX əsrin ortalarında Xilafətin süqutu nəticəsində başlanan siyasi dirçəliş – müstəqil Azərbaycan dövlətinin meydana gəlməsi, ölkənin türk və qeyri-türk əhalisinin vahid türk-islam cəbhəsində birləşərək erməni-gürcü feodalları və Bizans imperiyasından ibarət xristian blokunun təcavüzünə, habelə rus basqınlarına qarşı azadlıq mübarizəsi vahid xalqın və dilin tə-

şəkkülünü daha da sürətləndirdi. Cənubi Qafqazda, o cümlədən Azərbaycanda islam-türk birliyi həlledici amilə çevrildi. Artıq İntibah dövrünün lap əvvəllərində, IX-X əsrlərdə, Azərbaycan şifahi xalq yaradıcılığının şah əsəri olan «Kitabi-dədəm Qorqud» dastanları Dəmirqapı-Dərbənddən Diyarbəkr hüdudlarına, Xəzərdən Qara dəniz sahillərindəki Trabzon və Abxaz elinə qədər geniş ərazidə yayılmışdı. Azərbaycan türkcəsi bu böyük ərazidə qüdrətli bir ünsiyyət vasitəsinə çevrilmişdi.

XI əsrin ortalarında Azərbaycanın Böyük Səlcuq İmperatorluğunun tərkibinə daxil olması, Cənubi Qafqaza, o cümlədən Azərbaycana yeni türk-oğuz axınları, habelə Bizans imperiyası və onun əlaltıları olan erməni-gürcü feodallarının hərbi qüvvələrinin darmadağın edilməsi nəticəsində Azərbaycan türklərinin vahid xalq kimi təşəkkülü prosesi qəti olaraq başa çatdı. Azərbaycan türkcəsi bütün Azərbaycan ərazisində yeganə ünsiyyət vasitəsinə çevrildi. Sadə və anlaşıqlı türk dili xırda məhəlli dilləri, həmçinin ərəb və fars dillərini sıxışdıraraq bütün ölkə miqyasında canlı ümumxalq dilinə çevrildi. El sənətkarlarının – ozanların, aşıqların oba-oba, oymaq-oymaq gəzib yaydıqları şifahi xalq yaradıcılığı nümunələri, çox keçmədən hamının başa düşdüyü doğma türk dilində – Azərbaycan türkcəsində nadir ədəbi nümunələrin meydana gəlməsinə zəmin yaratdı. Sonralar bu zəmin üzərində Şeyx İzəddin Həsənoğlunun xalq ədəbiyyatının «Kitabi-Dədəm Qorqud» çeşməsindən süzülüb gələn təkrarsız poeziya nümunələri yarandı.

Necəsən gəl, ey yüzü ağım bənim?
Sən əritdin odlara yağım bənim.
And içirəm səndən artıq sevməyim,
Sənin ilə xoş keçər canım mənim.

Beləcə, Azərbaycan türkcəsinin ərəb və fars dillərində yaranan saray ədəbiyyatını sıxışdıraraq ədəbi dilə çevrilməsi dövrü başlandı. Bu, İntibah dövrü tariximizin ən böyük uğurlarından biri idi





# MOĞOL BASQINLARI. İQTİSADİ DAĞINTILAR

## 1. MOĞOL YÜRÜŞLƏRİ VƏ ONLARA QARŞI MÜBARİZƏ

**BİRİNCİ YÜRÜŞ**. XIII yüzildə Azərbaycan xalqı böyük bir sarsıntı yaşamış oldu. Xarəzmşah dövlətini dağıtdıqdan sonra moğollar İranı keçib Azərbaycana soxuldular. Otuz minlik moğol ordusuna ***Çingiz xanın*** tanınmış sərkərdələri ***Cebe Noyon*** və ***Subutay Bahadır*** başçılıq edirdilər. Qoşun ***Rey, Həmədan, əl-Cibal*** vilayətlərindən keçib İraq sərhədinə çıxaraq qəzey səmtə yol aldı. İbn əl-Əsir yazmışdır: «Sonra Azərbaycan və Arran vilayətlərinə gəlib, bir ildən də az bir müddətdə onları misli görünməmiş bir surətdə dağıtdı və əhalisinin çoxunu öldürdü. Çox az miqdarda qaçıb qurtaran oldu. Sonra Azərbaycandan və Arrandan qurtarıb Dərbəndə və Şirvana gedərək, o tərəfdəki şəhərləri aldılar. Oranın padşahı yaşayan qaladan başqa heç bir yer salamat qalmadı».

Bu, Azərbaycana olan yürüşün ümumi təsviridir. 1220-ci ilin qışında moğollar Ərdəbili aldıqdan sonra Təbrizə soxulmaq istədilər. ***Atabəy Özbək*** onlara qarşı çıxmayıb savaşa girməkdən yayındı. Gecəsi, gündüzü ayıq olmayan Özbək adam göndərib barışıq bağladı, onlara çoxlu pul, paltar, at, qaramal və davar bağışladı. Moğollar buradan «soyuq az və heyvanlar üçün otlaq yeri çox olan» Muğana qışlağa getdilər. Amma dolayısına, İbn əl-Əsirin dediyi kimi, «yolda gürcü vilayətlərinə də baş çəkdilər». Onminlik gürcü qoşunu ilə qarşılaşıb vuruşdular. Gürcülər basılıb qaçdılar, çoxları öldürüldü. Bundan sonra gürcülər elçi göndərib Atabəy Özbəyə moğollara qarşı ittifaq bağlamağı təklif etdilər. Bu ittifaqa ***Xilat*** və ***əl-Cəzirə*** hakimi ***Məlik əl-Əşrəfi*** də qoşmağı nəzərdə tuturdular. Moğollar onları qabaqlayıb yenidən gürcülər üzərinə yürüş etdilər, qalalarından birini alıb Tiflisə kimi dağıntılar törətdilər. Çox adam qırıldı. Buradan Marağaya və yenidən Təbriz üzərinə gəldilər.

Moğol yürüşləri müqavimətə rast gəlməyən gəzinti deyildi. Azərbaycan şəhərlərində xalq onlarla mübarizəyə qalxmışdı. Onlar Marağanı mühasirə etdikdə şəhər əhalisi silahlanıb vuruşa girmiş, işğalçıları şəhərə buraxmamışdı. Onlar şəhəri mühasirəyə alıb divar dağıdıcı mancanaqlardan istifadə etdilər. Moğollar burada ənənəvi döyüş üsulu işlətdilər: Əllərində

olan müsəlman əsirlərini irəli keçirib şəhərə yaxınlaşdılar. Adətləri üzrə, əsirlər döyüşə girməkdən çəkindikdə onları öldürürdülər. Ona görə də ilk savaşı mühasirə edilən şəhərin öz əhalisi və yazıq əsirlər aparmalı olurdu. Bir neçə günlük mühasirədən sonra şəhərə soxulub saysız adam qırdılar.

Moğollar Təbriz üzərinə yenidən gəldikdə burada da keskin müqavimətlə qarşılaşdılar. Atabəy Özbək şəhərdən çıxıb Naxçıvana getmiş, ailəsini isə Xoy şəhərinə göndərmişdi. O, Gürcüstan çarı IV Georgi ilə andlaşma bağlayıb, birgə müqavimət göstərmək istəyirdi. Bu zaman Təbrizdə bütün hakimiyyət şəhər rəisi Şəmsəddin Tuğraninin əlində idi. Onun başçılığı ilə paytaxt əhalisi moğollara qarşı hazırlıq görüb qalanı bərkitmiş, barı və xəndəklər qurmuş, uğurla döyüşmək üçün birlik yaratmışdı.

Bunu görən moğollar döyüşə girmədilər. Hər iki tərəfin razılığı ilə təbrizlilərdən pul və paltar alıb oradan uzaqlaşdılar. Yenidən quzeyə dönüb Təbrizdən qabaq tutduqları Ərdəbilin yaxınından keçərək, Sərab şəhərini talan etdilər, orada yaşayanları bütünlüklə qırdılar. Cebe və Subutay Arazı keçib Beyləqanı mühasirəyə aldılar. Şəhər əhalisinin müqavimət göstərməsini, daha doğrusu, moğolların danışıq aparmaq üçün göndərdikləri adlı-sanlı bir elçinin öldürülməsini bəhanə edərək onların üzərinə basqın etdilər. Moğollar şəhəri güc ilə ala bildilər. Burada da əhalini bütünlüklə, yenicə doğulmuş körpələrə, qadın və qocalara ayrı-seçkilik qoymadan, qılıncdan keçirdilər. Beyləqanı və ətraf torpaqları dağıtdıqdan sonra Gəncə üzərinə yollandılar. Ancaq «şəhər əhalisinin çoxluğunu, şücaətini, gürcülərlə olan savaşda kişilik və qoçaqlıq göstərmiş olduqlarını və bu şəhərin olduqca möhkəmliyini bildikləri üçün» ona yaxın getməyib pul almaqla kifayətlənməli oldular.

Gürcüstan üzərinə zərbə endirdikdən sonra moğollar Dəryal dərəsi ilə Qafqazın quzeyinə çıxmaq fikrindən daşınıb yenə Azərbaycana döndülər. Şamaxı şəhərini mühasirəyə alıb əhali ilə vuruşmağa başladılar. Vuruşma üç gün çəkdi. Moğol əsgərləri öldürülən yerli döyüşçülərin və öz döyüşçülərinin cəsədlərini qala divarları yanında qalaqlayıb onların üzərindən keçərək şəhərə soxuldular. Şəhərin müqavimətini qırdıqdan sonra onlar burada bir çox böyük qırğın törətdilər, şəhəri qarət edib dağıtdılar. Nəhayət, Dərbənd əhalisindən birisinin vasitəçiliyi ilə qalanı sağda buraxıb gizli dağ aşırımı ilə quzeyə yollandılar (Dərbənd qalasının alınmazlığını bildikləri üçün onun üzərinə basqın etmədilər).

**BİRİNCİ YÜRÜŞ ÇAĞDAŞ TARİXÇİNİN GÖZÜ İLƏ.** «Tatarlar» adlandırdığı moğolların birinci yürüşünü öz gözləri ilə görən tarixçilərdən biri İbn əl-Əsirdir. Onun «Əl-Kamil fi-t-tarix» kitabında aşağıdakı iki parça Azərbaycanda nələrin baş verdiyi barədə çox dolğun, gerçək təsəvvür yaradır.



***«Tatarların Azərbaycana yürüşü, Ərdəbili və qeyri şəhərləri zəbt etmələri haqda.*** Tatarlar Həmədandan qurtarıb... Azərbaycana tərəf hərəkət etdilər və Ərdəbilə gəldilər. Ərdəbili alıb orada böyük qırğın etdilər və şəhərin çrx hissəsini dağıtdılar. Sonra oradan çıxıb Təbrizə tərəf yönəldilər.

O zaman Təbrizin hakimi Şəms əd-din Tuğrai idi. O, Təbriz əhalisi arasında ittifaq yaratmışdı.

Təbrizin əsl hakimi ***Özbək ibn Pəhləvan*** oranı buraxıb getmişdi. Çünki o, fəaliyyətsiz (ölkəni idarə etmək qeydinə qalmayan) bir əmir idi. Gecə-gündüz içki ilə məşğul idi. Bir-iki ay bayıra çıxmaz və kimsəyə görünməzdi. Birdən bir təhlükəli hadisə eşitdikdə, qorxudan əl-ayağı titrərdi. Azərbaycan və Aran tamamilə onun ixtiyarında idi. O isə ona qarşı gələn düşməndən ölkəni müdafiə etməkdə Allahın yaratdığı adamların ən acizi, bacarıqsızı idi.

Tatarların Həmədandan çıxıb gəlməkdə olduqlarını eşitdikdə, özü Təbrizi buraxıb ***Naxçıvana*** getmiş və arvad-uşaqlarını da, özündən uzaqlaşdırmaq üçün Xoya göndərmişdi.

Bundan sonra bu, Tuğrai deyilən adam şəhərin idarəsini öz əlinə almış, əhalini bir yerə toplamış, onların arasında ittifaq düzəltmiş və özlərini düşməndən müdafiə üçün onlarda ruh yüksəkliyi yaratmışdı; naümid və düşkün ruhlu olmanın pis nəticəsini onlara anlatmışdı. Odur ki, onun çalışması və bacarığı ilə şəhər möhkəmləndirilmişdi.

Tatarlar gəlib bu şəhərə yaxınlaşdıqda, şəhər əhalisinin onlara qarşı hazırlaşmış və onlarla vuruşmağa ittifaq etmiş, şəhəri möhkəmlətmiş, barıları və xəndəkləri düzəltmiş olduqlarını eşitdikdə, adam göndərib, onlardan pul və paltar istədilər. Təbrizlilər hər iki tərəfin razılığı ilə bir qədər pul və sairə ayıraraq onlara göndərdilər; onlar da bu sərvəti alıb oradan çıxdılar və Sərab şəhərinə gəldilər.

Sərab şəhərini qarət etdikdən və orada yaşayanları tamailə qırdıqdan sonra, oradan köçüb Aran şəhərlərindən olan Beyləqana getdilər. Oraya gedib çatana qədər , yol üstündə şəhərləri və kəndləri qarət etdilər, dağıtdılar və əhalidən gücləri çatanları öldürdülər. Gedib Beyləqana çatdılar, onu mühasirə etdilər. Beyləqan əhalisi sülh danışığı aparmaq üçün onlardan bir nümayəndə istədi. Onlar da öz böyüklərindən və pişdarlarından birini nümayəndə olaraq göndərdilər.

Nümayəndə gəldikdə şəhər əhalisi onu tutub öldürdü. Tatarlar dərhal onların üstünə gedib mühasirəyə başladılar və bir qədər vuruşduqdan sonra 618 (1221)-ci ilin ramazan ayında zorla şəhəri aldılar. Qılıncı sıyırıb kiçik, böyük və arvad buraxmadılar. Hamısını qırdılar. Hətta hamilə arvadları zorlayıb sonra öldürdülər. Onlar bəzən bir həyətin, yaxud bir evin qapısından girir, orada olan adamları bir-bir öldürür və arxayın olurdular. O adamlardan heç biri ona əl qaldırmırdı.

Tatarlar Beyləqanı və ətrafını qarət edib dağıtdıqdan sonra Gəncə şəhərinə tərəf hərəkət etdilər. Gəncə Aran vilayətlərinin anası (mərkəzi) idi. Ancaq tatarlar ora əhalisinin çoxluğunu, şücaətini, gürcülərlə olan müharibədə kişilik və qoçaqlıq göstərmiş olduqlarını və bu şəhərin olduqca möhkəmliyini bildikləri üçün oraya yaxın gedə bilmədilər. Ancaq şəhər əhalisinə adam göndərib onlardan pul və paltar istədilər. Şəhər əhalisi də onlara istədiklərini verdi; onlar da oradan çıxıb getdilər.

***Tatarların Şirvan Dərbəndinə gəlməsi ilə orada gördükləri işlər haqda.*** Tatarlar Gürcüstandan qayıtdıqda Şirvan Dərbəndinə getmək istədilər. Əvvəlcə gedib Şamaxı şəhərini mühasirə etdilər və onun əhalisilə müharibəyə başladılar. Şamaxılılar bir müddət bu mühasirəyə dözdülər. Sonra tatarlar nərdivanlar qayırıb şəhərin barıları üstünə qalxdılar. Bəziləri deyir ki, onlar dəvədən, qoyundan və başqa heyvanlardan, habelə özlərinin və özgələrin meyitlərini və başqa şeyləri toplayıb bir-birinin üstünə yığdılar, bir təpə düzəltdilər. Şəhər üzərində yüksələn bu təpənin üstünə çıxıb, şəhər əhalisilə atışdılar. Şəhər əhalisi yenə dözdü. Müharibə üç gün şiddətlə davam etdi. Şəhər əhalisinin basılmasına az qalmışdı.

Əhali öz-özünə dedi: «Qılınca sarılmaq lazımdır. Bizə qılıncdan qurtuluş yoxdur, səbr etmək və şərəflə ölmək hər şeydən yaxşıdır».

Bu gecə bu cür davam etdilər; (təpə kimi qalanmış) cəmdəklər iylənməyə başladılar, çürüyüb töküldülər. Tatarlar üstünə çıxacaq təpədən məhrum oldular və müharibə edə bilmədilər. Ancaq təzədən yenə barılara yaxınlaşdılar və müharibəyə başladılar.

Nəhayət, şəhər əhalisi bezib yoruldu və zəiflədi. Tatarlar şəhəri alıb çox adam öldürdülər. Çox mal, pul qarət etdilər və şəhər əhalisinin kökünü kəsdilər.

Buradan qurtardıqdan sonra, gedib Dərbənddən o tərəfə keçmək istədilərsə də, bacara bilmədilər. Ona görə də Dərbəndin padşahı Şirvanşaha bir adam göndərib, bunlarla öz arasında barışıq danışığı aparmaq üçün elçi göndərməsini təklif etdilər. Şirvanşah da öz yaxın əyanlarından on nəfərini bu məqsəd üçün bunların yanına göndərdi.

Tatarlar bu adamlardan birini öldürüb qalanlarına dedilər: «Əgər siz Dərbənddən keçəcək yolu bizə göstərsəniz, sizə aman veriləcək, yoxsa bunun kimi sizi də öldürəcəyik».

O adamlar (məcbur olub) dedilər: «Bu Dərbənddir, əlbəttə buraya başqa yol yoxdur. Ancaq buradan şimala keçmək üçün başqa yerlərə nisbətən daha asan bir yer vardır».

Sonra tatarlar o adamlarla gedib, onların göstərdiyi yerdən Dərbəndi keçərək, onu arxada qoydular».

Quzey Qafqaz düzənlərinə çıxdıqdan sonra moğollar qıpçaqlarla alanların hərbi birliyini pozaraq onları ayrı-ayrılıqda əzdilər. 1223-cü ildə



Kalka çayı üzərində qədim rus və onun müttəfiqlərinin qoşunlarını da əzib dağıtdılar. Orta Rus düzənliyindən gündoğar səmtə yürüş edərək Volqa Bulqar dövlətindən tutarlı zərbə aldılar və Qazax düzənliklərindən keçib Moğolustana qayıtdılar.

Bu, tarixi ədəbiyyatda moğolların günbatara doğru «kəşfiyyat yürüşü» adlanır. Ancaq məramından asılı olmayaraq, bu yürüş gələcək moğol basqınlarının «coğrafi xəritəsini», onlarca xalqları gözləyən zülmün mahiyyətini anlamaq üçün bir örnək sayıla bilər.

**GÜRCÜ FEODALLARININ VƏ XARƏZMŞAH CƏLALƏDDİNİN AZƏRBAYCANA SOXULMASI.** 1222-ci ilin fevralında gürcülər Arana soxularaq Beyləqanı tutdular. Moğol qılıncından sağ qalan beyləqanlılar qayıdıb gəlmiş, tikililəri düzəldib təmir etməyə başlamışdılar. İbn əl-Əsirinin yazdığına görə, bu yerlərin müsəlmanları «gürcülərə alışmışdılar». Ona görə nə müqavimət göstərdilər, nə də qaçdılar. Gürcülər isə şəhəri alıb əhaliyə qılınc qaldırdılar, «tatarlar kimi qırğın və soyğun törətdilər».

Hələ özünə gələ bilməmiş Azərbaycan şəhər və vilayətləri 1225-ci ildə Xarəzmşah Məhəmmədin oğlu ***Cəlaləddinin*** qarətçi qoşunları ilə qarşılaşdı. Əvvəlcə Cəlaləddin Marağa şəhərini tutub onu təmir etdirməyə başladı. Çağdaş qaynaqlarda söyləndiyinə görə, bu şəhər onun xoşuna gəlmişdi. Azərbaycan və Aran hökmdarı Özbək qorxudan Təbrizdən Gəncəyə qaçıb getdi. Cəlaləddin Təbriz üzərinə yürüyərək, oranı beş gün mühasirədə saxladı. Qızğın savaş oldu. Paytaxtın müdafiəsinə yenə rəis Tuğrai başçılıq etdi. Xəyanət nəticəsində şəhəri alan Cəlaləddin əhaliyə aman verdi. Atabəy Özbəyin Təbriz sarayındakı gözəl eyvanını gəzib dolaşdıqdan sonra o, «bu yer tənbəllərin yeridir, bizə yaramaz!» söyləmişdi. Görünür, torpaq tutmaq həvəsi hələ sönməmişdi. O, buradan qoşunlarını Gürcüstana yeritdi. Tiflisi tutduqdan sonra qalalarını dağıdıb Dvin şəhərini onlardan aldı. Gürcü qoşunlarının başçısı İvane basıldı. Bu zaman Şəmsəddin Tuğrai Təbrizdə xalqı Cəlaləddinə qarşı üsyana qaldırdı. Gürcüstandan qayıdan Cəlaləddin üsyanı amansızlıqla yatırdı. Tuğrai öldürüldü, tərəfdarları zindana salındı. Sonra Cəlaləddin Gəncə şəhərinə qoşun göndərib onu da tutdu, buranı öz iqamətgahına çevirdi.

Cəlaləddinin ağalığı altı il sürdü. Xərac vergisi əhalidən iki və üç qat artıq yığılırdı. Bu açıq talan siyasəti Şirvan dövlətinə qarşı da yeridilirdi. Şirvanşah xəzinəsindən Cəlaləddinə göndərilən bac bəzi illər yüz min dinara çatırdı. Azərbaycan Atabəylər dövləti məhz bu işğalın zərbəsi altında süquta uğrayıb yox oldu. Xarəzmşah qoşunlarının basqını xalqı ayağa qaldırdı. 1231-ci ildə Gəncə şəhəri ***Usta Bəndərin*** başçılığı ilə üsyan etdi. Cəlaləddinin sarayı dağıdıldı, məmurları qılıncdan keçirildi. Cəlaləddin şəhəri mühasirəyə alsa da, üsyançılar onun təslim olmaq tələbini rədd etdi-

lər. Usta Bəndər öz döyüşçüləri ilə birlikdə açıq döyüşdə basıldı. Düşmən atlıları şəhərə girib əhaliyə divan tutdular.

Üsyanın 30 başçısı Gəncə qapıları yanında dar ağacından asıldı. Bəndər isə tikə-tikə doğranıldı.

**İKİNCİ YÜRÜŞ**. Moğolların ikinci yürüşü 1231-1239-cu illərdə ***Çormağun Noyonun*** başçılığı altında baş verdi. Marağa və Təbriz düşmənin ilk qurbanları oldu. Gəncə isə yenə igidcəsinə müqavimət göstərdi. Moğollar divardələn qurğular ilə qala divarlarını dağıdıb içəriyə soxuldular. Qanlı qırğın oldu. Heç kəs qılıncdan yaxa qurtara bilmədi. Dağıntı və yanğınlar şəhəri uddu. Bu, 1235-ci ildə baş verdi.

Şəmkür, Tovuz, Bakı uğrunda döyüşlər də qanlı oldu. Şəmkür hakimi ***Bəhram*** düşmənlərə qarşı çıxmaqdan boyun qaçırsa da, əhali özü onlarla döyüşə girdi. 1239-cu ildə Dərbənd şəhərinin yenilməsi ilə Azərbaycanın tutulması başa çatdı. Azərbaycan 1256-cı ilə kimi Ali Moğol kaan hökumətinin canişini tərəfindən idarə olunurdu.

**İKİNCİ YÜRÜŞ ÇAĞDAŞ TARİXÇİNİN GÖZÜ İLƏ**. Gəncə şəhərinin alındığı ildə 34 yaşı olan ***Gəncəli Kirakos*** yazır: «...Birdən-birə tatar qoşunları şəhərə basqın etdilər. Onlar şəhəri hər tərəfdən mühasirəyə aldılar; onlar döyüşə başladıqda çoxlu maşınlardan* istifadə edirdilər. (Hər şeydən qabaq) şəhər ətrafında salınmış üzümlüklər məhv edildi. Sonra pilikvanlar vasitəsilə şəhər divarları hər yandan uçuruldu. Ancaq düşmənlərdən heç kəs şəhərə girmədi, onlar bir həftə içində yaraq altında şəhəri mühasirədə saxladılar.

Əhali şəhərin düşmənlərin əlinə keçdiyini gördükdə, hər kəs öz evində qapanıb özləri ilə birlikdə evlərini yandırdılar ki, barı yağıların əlinə düşməsinlər; bir başqaları yandırılası nə vardısa hamısını yandırdılar, özlərinə isə toxunmadılar.

Bunu görən yağılar daha da qəzəblənərək qılınclarını işə salıb, hamını doğradılar: kişiləri də, qadınları da, uşaqları da. Onlardan heç kəs canını qurtara bilmədi; yalnız yaxşı silahlanmış, tam hazırlıqlı döyüşçülərin kiçik bir dəstəsi gecə ilə divarları bir yerdən dəlib qaça bildi, qara camaatdan da kiçik bir dəstəni saxlayıb işgəncələr verdilər ki, qoy qızıl, gümüş gizlədilən yeri deyib göstərsinlər. Sonralar onların da bir qismini öldürüb qalanını əsir etdilər, özləri isə yanıb dağılmış evlərin külündə eşələnərək gizlədilmiş şeylərdən tapılanını qarət etdilər. Onlar bu işlə uzun-uzadı məşğul olduqdan sonra çəkilib getdilər.

---

* Çin üzərinə yürüş zamanı qalalara daş atıb dağıdan qurğularla tanış olan moğollar sonralar qərb yürüşlərində, o sıradan Azərbaycanda onlardan istifadə edirdilər.



Bundan sonra bir çox vilayətlərdən adamlar töküiüb bu şəhərə gələrək, varidat və qab-qacaq axtarırdılar, orada qızıl və gümüşdən, mis və dəmirdən hazırlanmış bir çox əşyalar, bununla yanaşı əlçatmaz yerlərdə və zirzəmilərdə gizlədilmiş müxtəlif geyimlər tapırdılar. Dörd il şəhər adamsız və dağıdılmış bir vəziyyətdə qaldı, sonra onun yenidən qurulması haqqında yasaq gəldi və şəhərə az-az adamlar gələrək, tikintiyə başladılar, ancaq şəhərin divarları hələ tikilməmiş qalırdı».

**ŞİRVANŞAH III FƏRİBURZUN SİYASƏTİ**. ***İbn əl-Əsirin*** «yaramaz davranışlı, pozğun və ədalətsiz» adlandırdığı şirvanşah ***I Gerşasp*** 1225-ci ildə devrildi. Taxta onun oğlu ***III Fəriburz*** (1225–1243) çıxdı. O, ilk əvvəl Gürcüstana qaçıb oradan üçminlik qoşunla öz torpağına savaşa gələn atası ilə qarşılaşmalı oldu. Fəriburz qoşun başçılarını yığıb söylədi: «Gürcülər bizi mühasirəyə alsalar, ola bilsin qalib gələcəklər; onda mənim atam bizlərdən kimsəni sağ buraxmayacaq, gürcülərin isə (belə olduqda) ölkənin yarısını, bəlkə də hamısını tutub ələ keçirmələri fəlakət olardı. Yaxşı olar bir həmlə ilə onlara qarşı çıxıb vuruşaq. Biz onlara üstün gəlsək, Allaha şükür olsun, onlar üstün gəldikdə isə mühasirə onsuz da bizimlə olacaq». Qoşun başçıları razı oldular. Fəriburz min döyüşçüsü olan atlı alayının başında yağıları əzib dağıtdı. Qaynaqlarda şirvanşah Fəriburzun bu uğurdan sonra qoşun və təbəələri ilə yaxşı davranması, qanunsuz yollarla xalqın əlindən alınmış torpaqları və pulları ona qaytarması yazılmışdır.

Cəlaləddinin və Çormağun Noyonun yürüşlərinin ağır zərbələri Şirvan dövlətini sarsıtmış, fəqət yoxluğa endirə bilməmişdi. 1225-ci ildə şirvanşahın adından kəsilən pulların üzərində yalnız onun öz ləqəbi «Əl-Malik əl-müəzzəm Fəriburz ibn Gerşasb», 1226-1242-ci illərdə kəsilən pulların üzərində isə «əl-Malik əl-müəzzəm Əla'əd-Dünya və-d-Din Fəriburz ibn Gerşasb» və Bağdad xəlifəsinin adı bildirilmişdir. Onun oğlu ***II Əhsitanın*** da ilk hakimiyyət illərini ***Zəkəriyyə əl-Qəzvini*** belə qiymətləndirir: «Şirvan müstəqil, asılı olmayan bir vilayətdir. Onun sahibi Əhsitan adlanır».

**HÜLAKÜ ULUSUNUN YARANMASI**. Ancaq yaxın iyirmi il içərisində bu vəziyyət köklü dəyişikliyə uğradı. Mərkəzi ulusda hökmranlıq edən ***Munke kaan*** «yeni torpaqlar» ələ keçirmək üçün qardaşı ***Hülakü xanı*** böyük ordu ilə Ön Asiyaya göndərdi (1256–1258-ci illər). İndi də İran və Azərbaycanı Hülakü xan ələ keçirdi. O, 1258-ci ildə Bağdad şəhərini alıb yaxdı, islam ölkələrinin xəlifəsi ***Mö'təsim*** qılıncdan keçirildi. Abbasilər xəlifəsinin 500 ildən çox sürən varlığına son qoyuldu. Əmu Darya çayı ilə Aralıq dənizi, Dərbənd ilə İran körfəzi arasında yerləşən ölkələr qılınc gücünə birləşdirilərək beşinci Moğol ulusuna çevrildi. Azərbaycan Gürcüstan və Ermənistanla birlikdə ***Cuçi ulusundan*** qopanlıb Hülakü hökmünə tabe

edildi. Siyasi xəritənin belə biçimdə qayçılanması Cuçi və Hülakü ulusları arasında düşmənçilik yaratdı. Artıq 1260-cı ildə Cuçilər ordusu quzeydən Azərbaycana soxulub Şamaxını tutdu. Hülakü xan onları geriyə atıb Dərbəndi tutdusa da, Terek çayı üzərində **Berke xandan** zərbə yeyib Şirvanı itirdi. 1265-ci ildə Berke xan yenə Şirvana soxulub Kür çayına kimi irəlilədi. Bu qayda ilə onların arasında yüz il boyu müəyyən fasilələrlə davam edən savaşlar Azərbaycan üçün fəlakətə çevrildi. Şəhər və qəsəbələr hər iki ulusun döyüşçüləri tərəfindən qarət edilib dağıdılır, əkin, zəmi, bağ və dirriklər moğol atlarının tapdağına çevrilib yox olurdu. Bu dağıdıcı savaşların başlıca səbəbi Hülakü ulusunun islama qarşı olan siyasəti deyildi (Cuçi ulusunda, yəni Qızıl Orda dövlətində islam artıq dövlət dini kimi qəbul edilmişdi). Başlıca səbəb Cuçi ulusunun Azərbaycanı itirməsi, bu ölkənin var və gəlirindən, ticarət və sənət işləri mərkəzi olan şəhərlərindən, bərəkətli kənd təsərrüfatından əlinin çıxması idi. Azərbaycanın itirilməsi strateji baxımdan da yolverilməz sayılırdı. Çünki Dərbənd keçidi vasitəsilə ***Qızıl Orda*** dövləti Yaxın və Orta Şərqə çıxışı da itirmiş olur, öz müttəfiqi olan ***Məmlük Misiri*** ilə əlaqələri kəsilir, tranzit ticarətdən alınan gəlirlərdən də məhrum olurdu.

Beşinci ulus, əslində, qılınc gücünə başqa xalqların torpaqlarında yaradılmış bir imperatorluq idi. Tarixi coğrafiya baxımından bu imperiya İç Moğolustana bağlı deyildi. Buna baxmayaraq, moğol əsgəri dövlət birliyi idi. Çünki bu dövlətin yerləşdiyi böyük ərazidə, tabe edilmiş bütün ölkə və vilayətlərdə siyasi-iqtisadi hakimiyyət məhz köçəri moğol hərbçilərinə, noyon və bahadırlara məxsus idi. Bu dövlət onun sərhədlərini, daxili və xarici siyasətini, bütünlüklə hərbi-siyasi və iqtisadi varlığını təmin etmiş olan qəsbkar moğol ordusunun süngüsü ilə yaradılmışdı. Hülakü imperatorluğunun siyasi-iqtisadi həyatının mərkəzi, bir növ metropoliyası Azərbaycan olmuşdu. Onun paytaxtı ilkin çağda Marağa şəhəri, bir az sonra isə Azərbaycanın baş şəhəri Təbriz seçilmişdi. Hülakülərin sarayı da, hərbçil mərkəzin dövlət idarəçiliyi də, xəzinə, vergi təsisatları da burada yerləşdirilmişdi.

Hülakü dövlət sistemində tabe edilən xalqların dövlətçilik qurumları məhv edilmişdi. Yalnız Quzey Azərbaycanın arasıkəsilməz dövlətçilik ənənələrini yaşatmaqda olan Şirvanşah dövləti kiçicik bir istisna idi. Şirvanşahlar babalarından qalan taxt-tacı, şahlıq adını saxlaya bilmişdilər. Ancaq müstəqil dövlət səlahiyyəti, siyasi-hərbi suverenlik, əslində, itirilmişdi. Şirvanşah Hülakü elxanlarının (Şərqdə moğol hökmdarları bu ləqəbi daşıyırdılar, «el xanı» sözündəndir) vassalına çevrilərək onların əlində bir oyuncaq olmuşdu. Onun səlahiyyəti kiçildilmiş, bütün fəaliyyəti üzərində mərkəzi hökumət məmurlarının nəzarəti qoyulmuşdu. Hətta yerli rəiyyətlərdən vergi toplamaq işi də moğol baskaklarının əlinə keçmişdi.



Artıq 1256-cı ildə şirvanşah ***II Əhsitan*** Rum, İraq, Azərbaycan, Gürcüstan hakimləri və adlı-sanlı əyanları ilə birlikdə «layiqli hədiyyələrlə» Hülakü xanın düşərgəsinə gəlib itaət bildirmişdi. Geriyə döndükdən sonra o, üz tərəfində «əl-adil, əl-ə'zim» Munke kaanın, arxasında isə xəlifə Mö'təsimin və özünün (titulsuz) adı vurulmuş pul kəsdirmişdi. 1258-ci ildə Hülakü xan həm Bağdadı yağmalayıb xəlifə Mö'təsimi qətl etdirdi, həm də Şirvan və Aranı tutub rəsmən özünə tabe etdi. Həmin ildə şirvanşah, üzərində «kaan əl-adil» (Munke kaan öldüyü üçün adı çəkilməmişdi), arxasında isə yenə öz şahlıq titulunu bildirmədən, sadəcə, «Əhsitan ibn Fəriburz» yazılmış pul kəsdirmişdi. Bu pulun üzərinə moğol damğası da vurulmuşdu. Bütün bunlar şirvanşahın hüquqsuz bir vəziyyətə düşdüyünü göstərir. 1260-cı ildə II Əhsitan Hülakü xanın əmri ilə öldürüldü. Onun nəvəsi ***III Əhsitan*** 80-ci illərdə hətta öz sarayını Kür çayının deltasına yaxın yerləşən ***Quştəsfi*** şəhərinə köçürdü. Şirvanşah «hakim olduğu torpaqların, görünür, yarıya kimisini itirmişdi. Bunun başlıca səbəbi Dərbəndlə Kür çayı arasındakı Şirvan torpaqlarının Hülakü-Cuçi savaşlarının tapdağına çevrilib dağıdılması, əhalinin az qala bütünlüklə qırılması idi.

## 2. DİNC ƏHALİNİN QIRILMASI

**«ÖRÜŞ SİYASƏTİ».** Çingiz imperatorluğu hərbçil köçəri moğol əyanlarının sə'yi ilə yaradılmışdı. Bu dövlət həmin əyanların mövqeyindən çıxış edirdi. Bu əyanların həyat şəraiti belə idi ki, başqa xalqlara, ölkələrə qarşı aparılan saysız savaşlar onlar üçün, bir növ, istehsal fəaliyyətini əvəz edirdi. Bu savaşlar əyanlara döyüş atları, qaramal və davar, silah, parça-paltar, qızıl, gümüş və daş-qaş, nəhayət saysız qullar gətirirdi. Beləliklə, moğol hakim sinfi elxanların hərbçil siyasətindən birbaşa asılı idi. Bu siyasət ilkin çağda Çingiz xanın başçılığı altında Moğolustanın özündə moğol tayfalarının (ağ tatarların, kereitlərin, naymanların, merkitlərin) özlərinə qarşı «sınaqdan keçirilmişdi». Aydın olmuşdu ki, savaş və davalar «özününkülərə» qarşı qoyulduqda belə mükəlləfiyyətli arat (Moğol cəmiyyətində aşağı zümrə – Red.) kütləsinin istismarından daha çox qazanc verə bilər.

Buna görə Moğolustanı birləşdirdikdən sonra Çingiz xan və onun əyanları bu siyasəti genişləndirərək başqa xalqlara qarşı çevirdilər. Başqa xalqların torpaqlarına keçirilən hərb siyasəti indi, həm də moğolların köçəri maldar təsərrüfatına və ilxılarına lazım olan örüş əldə etməyə imkan yaradırdı. Bununla yanaşı, başqa xalqlara qarşı aparılan savaşlar birə on qat artıq qənimət və var gətirirdi. Çünki moğol cəmiyyətinə nisbətən gündoğar və günbatarda, quzey və güneydə yerləşən ölkələr iqtisadi inkişaf, xüsusilə, şəhərlərin və oturaq əkinçiliyin inkişafı baxımından yüksəkdə daya-

nırdılar. Onlara qarşı aparılan savaşların açdığı qənimət axını o qədər böyük idi ki, bu qənimətin bir qismi, hətta, istismar olunan aratların da payına düşürdü. Qənimət ardınca qaçmaq, bütünlüklə hərbçil siyasət bütün moğol cəmiyyətini harınlaşdırıb yoldan çıxarmaq üçün kəsərli bir amilə çevrilmişdi.

Savaşla ələ keçirilən ölkələrin nə dinc əhalisi, nə də məhsuldar qüvvələrin və təsərrüfatın qorunub saxlanılması köçəri moğol əyanlarını düşündürüb rahatsız etmirdi. Bu ölkələr, onların əhalisi və iqtisadiyyatı gələcək xəzinə gəlirləri baxımından deyil, yalnız bu günün qənimət yığımı baxımından nəzərə alınırdı. Moğol əyanları ilk növbədə ələ keçirdikləri ölkənin müqavimət gücünü birdəfəlik qırıb heçə endirməyə çalışırdılar. Bu ölkənin hakim sinfinin siyasi və iqtisadi qüdrətini qırmağa çalışırdılar.

Bununla yanaşı moğol hakimləri ələ keçirilən ölkənin bütün sosial-iqtisadi yaşayışını öz ekstensiv köçəri maldar təsərrüfatının: sürü və ilxılarının mənafeyinə uyğunlaşdırıb tabe etmək istəyirdilər. Bu təsərrüfat moğol ordularının uğur dayağı idi. Sürülər və ilxılar birbaşa ordunun ardınca bu vilayətdən o birinə, bu ölkədən başqasına axışıb gəlirdilər. Sürülər moğol ordusuna yeyim və geyim verirdi, ilxılar isə bu ordunu qorxunc, çevik bir gücə çevirən döyüş atları yetişdirirdi. Bütün bunlara görə tutulub qəsb edilmiş ölkə iki başlıca tələbatı ödəməli idi: qənimət üçün yağmalanıb talan edilməli, moğol sürü və ilxılarını örüşlə, qışlaq və yaylaq otlaqları ilə təmin etməli idi. Köçəri maldarlıq oturaq əkinçi təsərrüfatı mədəniyyətinə və ənənələrinə, həm də şəhər təsərrüfatına qarşı qoyulurdu. Tarixi ədəbiyyatda belə bir «*günəmuzd*» siyasət haqlı olaraq «örüş siyasəti» adlandırılır.

«Örüş siyasəti»nin həyata keçirilməsi tarixi təcrübədə şəhər və oturaq təsərrüfatların məhv edilməsi ilə yanaşı, onları öz zəhməti ilə yaratmış olan dinc əhalinin kütləvi qırğınına gətirib çıxardı. Hələ 1211-ci ildə Çingiz ordusu Çinin quzey əyalətlərinə soxularkən moğol əyanları bu ölkənin oturaq əhalisini bütövlüklə qırmaq və buradakı torpaqları örüşə çevirmək haqda yasa verməyi ondan tələb etmişdilər.

***QAYNAQLAR SOYQIRIMI HAQDA.*** Moğol savaş təcrübəsini hər kəsdən yaxşı bilən ***Fəzlullah Rəşidəddin*** yazırdı: «Əgər şəhər müqavimət göstərirdisə, o zaman şəhəri tutduqdan sonra Çingizin sərkərdələri hər şeydən əvvəl, şəhəri yağmalamaq və dəyərli əşyaları aparmaq işğalçılara asan olsun deyə, əhalini 5-10 günlüyə qovub çölə çıxarırdılar. Şəhərin talanı başa çatdıqdan sonra işğalçılar çölə buraxılmış şəhərlilərə cəza verirdilər. Əvvəlcə hərbi (qulluq) adamlarını ayırıb öldürür, onların ailələrini isə qul edirdilər. Sonra sənətkarları və bacarıqlı ustaları seçərək, alətləri ilə birlikdə moğol şahzadələri, zadəganları arasında bölüşdürürdülər. Cavan qız və qadınları kəniz edir, əsgərlərə paylayırdılar. Sağlam gəncləri «xaşa-



ra», yəni yük daşıma, bənd çəkmə kimi ağır işlər üçün aparır və öz qoşunlarının önündə bir növ canlı sipər düzəldirdilər ki, döyüşən yerli əhalinin oxları onlara dəysin. Yerdə qalan şəhər əhalisini isə bütünlüklə soyulub talan edilmiş evlərinə qayıtmağa məcbur edirdilər».

Burada «Örüş siyasəti»nin doğurduğu bütöv bir dünyabaxış ifadə olunmuşdur. Dünyanın bütün varının yaradıcısı olan insan oğlu bu siyasət sistemində dəyərsiz, gərəksiz, sayılmaz bir varlığa çevrilmiş olurdu. Belə bir fəlsəfi baxış kütləvi qırğın üçün körpü idi.

Tarixdə insan qırğını çox olmuşdur. Ancaq moğol ağalığının təcrübəsində biz təsadüfi qırğın və amansızlıq ilə deyil, dinc əhalinin sistemli, təşkil olunmuş qaydada kütləvi qırğını ilə qarşılaşırıq. Beşinci ulusun yaradılması uğrunda Hülakü xanın yürüşləri açıqdan-açığa müsəlman xalqlarına qarşı yönəlmiş amansız bir siyasətlə bağlı idi. Avropa xaçlılarının Hülakü xanı özlərinə təbii müttəfiq sayması, onun Yaxın və Orta Şərqdə törətdiyi qanlı işlərin «sarı xaç yürüşü» adlanması təsadüfi deyildi.

Azərbaycanın şəhərləri və oturaq əkinçilik bölgələri «örüş siyasəti»nin amansızlığı ilə birbaşa üz-üzə gəldilər. Şəhərlərin və onların ətraf oturaq əhalisinin yağılara müqavimət göstərməsi böyük qırğınlar ilə sona yetdi. Qılınc götürüb yağılara qarşı çıxan döyüşçülər və kişilər ilə yanaşı uşaqlar, qadınlar, qocalar da öldürülürdü. Marağada, Ərdəbildə, Sərabda, Beyləqanda, Şamaxıda, Gəncədə olduğu kimi.

O çağın hadisələrini gözləri ilə görmüş İbn əl-Əsir sarsıntı içində yazmışdı: «Kaş, anam məni doğmamış olaydı, yaxud mən bu hadisədən əvvəl ölmüş və tamamilə unudulmuş olaydım!

Bütün xalqdarın, xüsusilə müsəlmanların düçar olduğu bu müsibət elə bir müsibətdir ki, gecələr və gündüzlər onun mislini doğmamışdır. Əgər bir adam «Allah-təala dünyanı yaratdığı zamandan indiyə qədər dünya bir belə bəlaya düçar olmamışdır!»-deyərsə, doğru demiş olar. Çünki bu çağa kimi tarixlər buna yaxın olan və buna bənzəyən bir hadisə görməmişdir».

Hətta moğol hakimlərinin qulluğunda olan, onların işlərindən ağız dolusu söz açan tarixçi ***Cüveyni*** də heyrətlə yazırdı: «Vilayətlərin çoxu, xüsusilə islam ölkələri, onu (Çingiz xanı) üsyan və nifrətlə qarşılayaraq, tabe olmaqdan boyun qaçırdıqları üçün hökmdarın ayağı dəyən hər yerdə ona qarşı çıxan bütün ölkə hakimləri və ya şəhər rəislərinin hər biri ailəsi, tərəfdarları, qohumları və xarici qonaqları ilə birlikdə məhv edilirdilər. Buna görə harada yüz min adam vardı, heç yüz adam da qalmamışdı».

İran, Orta Asiya, İraq, Şam, Rum kimi ölkələrin aqibəti belə olmuşdu. Azərbaycanda kütləvi qırğın xüsusilə böyük idi. Azərbaycanın Xəzər sahili vilayətləri, demək olar, bütünlüklə əhalisiz qalmış, burada «demoqrafik boşluq» yaranmışdı. Gizlənib sağ qalanlar da meşələrə qaçıb dağılmış, dağlara, kaha və mağaralara pənah gətirmişdilər. Rəşədəddinin yazdıqları

bunu aydın göstərir: «Ölkələr tutulan zaman çoxlu əhalisi olan böyük şəhərlərdə elə qırğın olmuşdur ki, tək-tük adam sağ qalmışdı. Bəlx, ...Mərv, Səraxs, Herat, Türküstan, Rey, Həmədan, Qum, İsfahan, ***Marağa, Ərdəbil, Bərdə, Gəncə,*** Bağdad, Mosul, İrbil və bu şəhərlərə aid olan vilayətlərin çoxu buna mısal ola bilər. Bir sıra vilayətlər sərhəd üzərində (burada Dərbənddən keçən dövlət sərhəddi nəzərdə tutulur – *Red.*) yerləşdiyindən və qoşunların buradan tez-tez keçməsi üzündən, ***Dərbənd və Şirvan vilayətlərində olduğu kimi, əhali bütünlüklə qırılmış, yaxud qaçıb dağılmış, əkinlər isə başlı-başına qalmışdı..»***

## 3. TORPAQ VƏ VERGİ SİYASƏTİ

**DİVAN TORPAQLARI VƏ İNCU.** XIII yüzilin sonuna kimi Hülakü dövlətinin torpaq siyasəti köçəri moğol əyanlarının arzu və istəyi ilə birbaşa bağlı idi. Bu əyanların başlıca məramı «örüş siyasəti»nin qorunub saxlanılması, diz üstə çökdürülmüş ölkələrin varının sorulub aparılması, yerli feodalların iqtisadi və siyasi gücünün yoxa endirilməsi idi. Çökdürülmüş yerli hökmdarların və feodalların torpaqları zəbt edilir, özləri isə çox zaman cismən məhv edilirdi. Bununla bağlı onların torpaqlarının böyük bir qismi: həm xüsusi mülk və bəxşiş torpaqları, həm divan torpaqları, hətta vəqf torpaqları yeni dövlətin ixtiyarına keçirdi. Bu torpaqlar ya hakimiyyətdə olan elxanın öz mülkünə, ya da hakim hülakü sülaləsinin əmlakına çevrilirdi. ***İncu*** adlanan sülalə torpaqları xüsusilə çox artmışdı. Yerli mülk və bəxşiş torpaqlarının çoxu hərbçi moğollar tərəfindən tutulmuşdu. Azərbaycanın Muğan əyalətində çağırılmış qurultayda 110 moğol noyonu Azərbaycan, Gürcüstan və Ermənistanın yararlı torpaqlarının öz aralarında bölüşdürülməsi barədə qərar çıxardılar. Bununla yanaşı hər hansı bir yürüşə bu və ya başqa ölkənin, ya vilayətin tutulmasına başçılıq etmiş sərkərdə istədiyi torpaqları öz malı kimi ələ keçirə bilirdi. Şəmkür şəhəri üzərinə moğol qoşununun yürüşünə başçılıq etmiş ***Molar Noyon*** məhz belə etmişdi. Şəmkür əhalisinin qəhrəman müqavimətini qırdıqdan sonra şəhər və onun ətraf torpaqları ona verilmişdi.

İlkin baxışda torpaq mülkü və sahibliyi sahəsində gözə çarpacaq dəyişiklik çox deyildi. Çünki son altı yüz ildə Yaxın və Orta Şərq üçün ənənəvi olmuş torpaq qurumlarının adları, demək olar, dəyişməmişdi. ***Divan*** torpaqları Hülakülər çağında da belə adlanmaqda idi. Ancaq bu torpaqlar üzərində mülkiyyət hüququ yüzillərlə mövcud olmuş yerli dövlətlərin ixtiyarından çıxmış, Hülakü dövlətinin xəzinə, hökmdar və sülalə torpaqlarına çevrilmişdi. Həm də geniş müsadirələr hesabına divan torpaqlarının ərazisi ilkin 60-70 il içində xeyli artmışdı. Ancaq 90-cı illərin ikinci yarısından başlayaraq çox geniş şəkildə bəxşiş kimi paylanmaqda idi. Bir



sıra hallarda bu torpaqlar moğol və türk köçəri əyanları tərəfindən tutulur, qismən də Elxani dövlətinin qulluğuna götürülmüş yerli mülkü məmurlar tərəfindən satın alınırdı. Bütün bunlara görə divan torpaqlarının ərazisi kiçilir, onun hesabına xüsusi mülklər və ***iqta*** (bəxşiş) torpaqları genişlənirdi. Qənimət verən dövlətlərarası savaşların daha olmaması moğol əyanları içərisində böyük narazılıq doğurmaqda idi, buna görə mərkəzi hakimiyyət güzəştli mövqe tutmalı olur, onlara yeni gəlir və qazanc gətirə biləcək torpaqları paylamalı olurdu. ***Divani*** və ***incu*** torpaqlarının əyanlara paylanılması Qazan xanın hakimiyyəti illərində də davam etməkdə idi.

İncu torpaqlarının birbaşa elxanın özünə məxsus olanları ***incu-yi xass*** və ya ***xass-incu*** adlanırdı*. Bu torpaqlar mahiyyətcə moğol çağından əvvəl olmuş ***mülki-padişah*** və ya ***xəlisə*** (xəzinəyə vergi ödəncindən azad edilmiş «təmiz torpaq» deməkdir) torpaqlarından seçilmirdi.

İncu torpaqları irsən keçə bilər, bəxşiş edilə, alqı-satqıya qoyula bilərdi. İncu sahibi bu torpaqdan vergi toplamaq hüququnu da birisinə bağışlaya, yəni mükatiyə verə bilərdi. Hülakü elxanları incu torpaqlarını moğol qoşun başçılarına müvəqqəti istifadə üçün verir, bəzən isə bağışlayırdılar. İncu torpaqları vəqf kimi də bağışlana bilərdi. Qazan xanın islahatı ilə incu torpaqlarının bir qismi moğol döyüşçülərinə iqta kimi paylanırdı, yəni hərbi qulluq üçün verilən şərti bəxşiş sahəsinə çevrilirdi.

**MÜLK, İQTA, VƏQF.** Feodalların və icmadan çıxmış kəndlilərin şərtsiz mülkiyyət torpaqları mülklərdən ibarət idi. Birinci halda mülk asılı olan kəndlilərin əməyi ilə, ikinci halda isə birbaşa azad sahibkar kəndlinin öz zəhməti ilə becərilirdi. Keçmişdə olduğu kimi, mülk torpaqları azad şəkildə alqı-satqıya qoyula bilir, bağışlanır və irsən atadan oğula keçirdi. Bu torpaqlardan bir qayda olaraq xəzinə üçün vergi ödənilirdi. Vergi «immuniteti» almış olan, yəni vergilərdən azad edilmiş mülklər çox az idi.

* İncu anlayışı döyüş atlarının belində Moğolustandan gətirilmişdi. İlkin çaları ərə gedən qadının ər evinə gətirdiyi cehizə və onun daimi qulluğunda olan nökər və ya xidmətçiyə aid idi. Moğol şahzadələrinin, bütünlüklə Çingizli evinin üzvlərinə xas olan əmlak və bu əmlakın saxlanılması ilə bağlı olan asılı adamlar da incu adlanırdı. Sonralar Yaxın və Orta Şərqdə bu anlayış buradakı ənənəvi xassə («məxsusi», «hökmdar soyunun malikanəsi») – hökmdar evi üzvlərinin əmlakı anlayışı ilə qarşılaşaraq eyni məna almış oldu. Göründüyü kimi, incu anlayışı yalnız torpaq sahələrinə deyil, həm də adamlara aid edilirdi. Moğollarda bu və ya başqa şəxs özünü elxan və ya şahzadə xatununun incusu edə bilərdi. Bununla o, incusu olduğu «kübar», «alimənsəb» yüksək şəxsin imtiyazlı «mərhəməti» altına keçmiş olurdu. İncu anlayışı geniş siyasi-hərbi çalarda da işlənə bilirdi. Hülakü xanın varisləri Qızıl Orda ilə savaşlar zamanı sonuncunun iddiasını rədd edərək, söyləyirdilər ki, Azərbaycan bizim incumuzdur, çünki atamızın qılıncı gücünə ələ keçirilib qazanılmışdır. Görünür, sonrakı elxanlar Azərbaycanı bütövlükdə özlərinin soy domeni sayırdılar.

Moğol çağında *iqta* torpaqlarının bir neçə yüz il davam etmiş olan daxili təkamülü başa çatdı. VII-VIII yüzillərdə irsən keçməyən şərti bəxşiş torpağı *iqta*, artıq XI yüzildə Səlcuqlu imperatorluğu çağında irsi məzmun qazanıb, feoda çevrildi; hərbi-köçəri türk əyanlarının kəndli kütləsi üzərində hökmranlığının özülü oldu. Ancaq iktanın bu daxili təkamülü öz hüquqi ifadəsini yalnız XIV yüzilin başlanğıcında: Qazan xanın 1303-cü ildə hərbi *iqta* torpaqları haqda verdiyi yarlıkda tapdı.

*Vəqf* torpaqları Elxanilər dövlətində çətin dəyişmələr ilə qarşılaşmışdır. Bütpərəst, islama düşmən olan ilk altı elxan çağında vəqf torpaqları, ümumən vəqflərin varı çox geniş ölçüdə zəbt olunmaqda idi. Yeddinci elxan Qazan xan islamı dövlət dini kimi qəbul etdikdən sonra bu torpaqların vəqflərə qaytarılması başlandı. Ancaq moğolların əlində hələ də çoxlu vəqf torpaqları qalmaqda idi. Vəqf torpaqları divan və ya hər hansı dövlət idarəsinin xeyrinə vergi ödəncindən bir qayda olaraq azad idi.

Torpaqların bir qismi kənd icmalarının əlində idi. Bunlara *camaat* torpaqları deyilirdi. Bu torpaqlar əslində icma mülkləri hüququ qazanmışdı, dövlət divanı və ya ayrı-ayrı torpaq sahibləri xeyrinə mükəlləfiyyət daşımırdı. Bununla yanaşı icma torpaqları daha çox dövlət divanının mülkiyyətində qalırdı. Kənd icması belə torpaqlarda yalnız istifadə hüququ ilə təsərrüfatçılıq edirdi. Belə halda torpaq mülkünün sahibinə icma üzvləri küll halında vergi ödəyir, otlaq və örüşlərdən də birgə istifadə edirdilər.

**VERGİLƏR, VERGİ TOPLAMA ÜSULU.** Vergilərin başlıcaları aparıcı sahələrə yüklənmişdi. ***Kalan*** ərazi və əmlak vergisi olmaqla ümumi vergi sayılır, əkinçilərdən (cütçülərdən) məhsulun 1/10 qədərində toplanırdı. ***Kopçur*** vergisi üçün köçərilər hər 100 qoyundan birini verirdilər, əhalidən adambaşına 7 dinar yığılırdı. Sonralar yoxsullar 1 dinar, vəsaiti 500 dinara çatan varlı isə 10 dinar kopçur ödəyirdi. ***Tamqa*** tacirlərdən və bazara gətirilən mallardan alınan rüsum idi. 240 dinarlıq malzamədən 1 dinar alınırdı. Sonralar iki dəfə artmış, hər 120 dinardan bir dinar olmuşdu. Yalnız böyük ticarət şəhərləri (Səmərqənd, Buxara, Təbriz, Sultaniyə, Ankara, ANİ) kalan və kopçur vergilərindən muaf (bağışlanılmış) sayılırdılar. Başlıca vergilərdən biri ***Uluğmal*** (moğolca ***Dalay***) adlanırdı. ***Nal vergisi*** hərbi təzminat idi, ***yam (poçt) vergisi*** isə yükdaşıma öhdəliyi şəkli ala bilirdi. ***Daruqalık, sabun pulu, köç pulu, tabkur*** (şəhər abadlığı işlərinə) və onlarca başqaları geniş yayılmışdı.

Hülakülərin gəlişi ilə vergilər çox artmış oldu. 1335-ci ildə (***Əbu Səidin*** ölümü və hülakü imperatorluğunun çökməsi zamanı), Həmdullah Qəzviniyə görə, Güney və Quzey Azərbaycanın üzərinə 2,8 milyon dinar (38717 kq gümüş) vergi ödənci qoyulmuşdu. Ancaq qarşıda görəcəyimiz kimi, ölkənin büdcə varidatı bu zaman 2 milyon 694 min dinara düşmüşdü, yəni ödənc məbləğindən az idi.



Vergilərin çoxluğu varidatı, bütün iqtisadi yaşayışı böyük sıxıntıya almışdı. Hətta moğolların bir zaman özlərinə paytaxt etmək istədikləri Sultaniyyə şəhərinin 1340-cı ildə tamqa varidatı, bu vergidən azad edilməsinə baxmayaraq, 300 min dinardan yuxarı deyildi.

Yalnız Elxanların paytaxt şəhəri Təbriz böyümə və yüksəliş yolunu tutub dururdu. ***Zəki Vəlidi Toqan*** haqlı olaraq yazmışdır: «Əski Təbriz moğollar zamanındakı şəhərin bir məhəlləsi kimi qalmışdı». 1340-cı ildə Təbrizin tamqa varidatı 1150000 dinar idi. ***V.V.Bartold*** o zamankı rəsmi kurs ilə (1 dinar = 13,8 qram gümüş) bu rəqəmin 3,5 milyon Fransa frankına bərabər olduğunu müəyyən etmişdir. Halbuki Fransanın 1311-ci ildə bütövlükdə büdcə varidatı 3 milyon frankdan çox deyildi.

Hülakü ağalığı ***vergi*** sistemini böyük dəyişikliyə uğratmışdı. Vergi və mükəlləfiyyətlər moğol ağalığının mühüm iqtisadi sosial ifadəsinə çevrilmişdi. Onların sayı 40-a çatırdı. 1254-cü ildə keçirilən sayım üzrə 10 yaşından 60 yaşına kimi bütün kişilər vergi dəftərlərinə salınmışdı. 30-40-cı illərdə ***xərac*** başlıca (universal) vergi kimi qalmaqda idi. Xərac, məhsulun 70 faizinə bərabər idi. Dövlət divanı bunun üzərinə 10 faiz artım qoymaq hüququnda idi. xərac natura ilə ödənilirdi.

Munkə kağanın yarlıkı ilə xəracın yerinə ***kopçur*** yığımına keçilməsi vergi siyasətində kəskin dönüş oldu. Kopçur əslində can vergisi idi. Xərac dövlətin vergi toplayan idarə və qurumlarını təsərrüfat işlərinin vəziyyətinə yönəldirdisə, kopçur vergi ödəyənlərin yalnız varlığını nəzərə alırdı. Yəni bir əkinçi və ya maldar olmaqla vergi ödəyənin işlərinin gedişi dövlət üçün artıq önəmli sayılmırdı. Mərkəzi dövlət idarəsi ancaq insanın özünün varlığını əsas götürərək, ondan istənilən miqdarda can pulu qoparmağı qarşısına məqsəd qoyurdu: sənin heç nəyin yoxdur, ancaq sən varsansa, nəfəs alırsansa, kopçur adlanan ***dinməveri*** ödəməlisən.

Kopçur əslində XIII yüzilin ikinci yarısında terrorçu «örüş siyasəti»nin çılpaq bir göstəricisi kimi çıxış edirdi. Bu vergi ağlasığmaz, bəlkə tarixdə görünməmiş bir qəddarlıqla toplanırdı. Vergi ödəyə bilməyənin özü, qadını, uşaqları əsir alınır, qul bazarına çəkilib satılırdı. Azərbaycan xalq yaradıcılığında tarixin bu ağır sınaq çağının izləri günlərimizə kimi qalmaqdadır:

Apardı tatar məni,
Qul edib satar məni.
Dostum vəfalı olsa,
Axtarıb tapar məni.

Xalq, ona olmazın əzab verən moğol ordusunu saxlamaq üçün ***tağar*** adlanan hərbi vergi ödəməli idi. Vergi 40 kq buğda, pul və başqa məhsullar ilə ödənilirdi. Tərəkəmələr bu vergini əllərində olan ev heyvanlarının

iyirmidən biri həcmində ödəyirdilər. Sənətkarlar və ticarət adamları *tamqa* ilə yanaşı, bir vilayətdən o birinə çıxarılan mallar üçün bac adlanan gömrük haqqı verirdilər. Meyvə bağı olanlar bağşümari (natura və ya pul ilə), ev, ailə saxlayanlar xaneşümari verirdilər. Moğol şahzadələrinin, xatunlarının, məmurlarının və başqalarının saxlanılması üçün ixracat və rüsum toplanılırdı.

**MÜKƏLLƏFİYYƏTLƏR.** Ağır mükəlləfiyyətlərdən biri *tərx* adlanırdı. Yaxşı istehlak dəyəri olan bu və ya başqa məhsul moğol ordusuna zəruri idisə, əhalidən icbari qaydada dəyər-dəyməzinə, yəni bazar dəyərlərindən qat-qat aşağı qiymətə alınırdı. Yaxud əksinə, xəzinə təsərrüfatlarında istehsal edilən bu və ya başqa məhsul (xurma, düyü, yüyən, yəhər və b.) yenə məcburi qaydada, ancaq bazar məzənnəsindən baha qiymətə əhaliyə satılırdı.

Belə mükəlləfiyyətlərdən biri də hərbi qulluqçulara və dövlət məmurlarına rəiyyətlərin evində gecələmə hüququ verilməsi idi. Bu mükəlləfiyyətin nə olduğunu anlamaq üçün moğol əsgəri bölüklərinin, habelə vergi toplayan silahlı baskak drujinalarının bütünlüklə bu və ya başqa kənd yerində gecələmə hüququ üzrə «yerləşdirilməsini» nəzərə almaq yetərli olar. Hər bir rəiyyətin evinə soxulan çağırılmamış «gecə qonaqları» onun evində istədiyini edirdi. Onun və ailəsinin insani şərəfini ayaq altına atırdı. Bütün bunlar az imiş kimi dövlət xəzinəsinin zabitlərə, məmurlara və döyüşçü yaşını ötmüş təqaüdçü əyanlara ödəyə bilmədiyi pul çatacaqları da rəiyyətlərin üzərinə qoyulur, *əvarizat* adlanan fövqəladə vergi yığılırdı.

Rəiyyət dövlət divanı qarşısında işləmə mükəlləfiyyəti də daşıyırdı. Elxanlardan ***hülakü, Abaqa, Arqun*** Azərbaycanın Aladağ, Urmiya, Aran kimi bölgə və əyalətlərində saraylar, qalalar tikintisi aparır, dövlət idarələri üçün binalar, həmçinin yol və körpülər saldırırdılar. Bütün bu işlər üçün kəndlilər məcburi olaraq biyara aparılırdı. Həm də onların iş heyvanları əllərindən alınır, səfərbər edilirdi. Vergi yığılarkən rəiyyətin heç bir hüququ gözlənilmirdi. Məmurlar zəmilər va bağlar hələ barını verməmiş, yaz aylarında onun miqdarını gözəyarı «müəyyən edərək» vergi qoyurdular. Qoyulan vergi ilə təsərrüfatın imkanı uzlaşdırılmadığı üçün yenə rəiyyətin soyulub var-yoxdan çıxarılması üçün şərait yaranırdı.

Dövlət divanı vergiləri ***baskak*** idarəsinin əli ilə toplayır, mükatiəni icarəçilərin üzərinə buraxırdı. Sonuncular bu və ya başqa kənd yerindən, qəsəbədən, mədəndən alınacaq verginin məbləğini qabaqcadan xəzinəyə ödəyir, sonra öz qohumlarından olan silahlı dəstənin köməyi ilə rəiyyətdən istədikləri qədər vergi qoparırdılar.



## 4. QAZAN XANIN İSLAHATLARI

**İKİ SİYASƏT DÜŞÜNCƏSİNİN QARŞILAŞMASI.** Moğol uluslarında iki siyasi axın bir-biri ilə qarşılaşırdı. Bu axınlardan biri birbaşa hərbçil moğol əyanlarının mənafeyi ilə bağlı idi, çöl örüş davranışını sürdürüb davam etdirmək məramında dayanırdı. Belə əyanlar oturaq həyatın, əkinçilik və şəhərlərin qənimi kimi çıxış edirdi. Kəndlilərin, sənətkarların və başqa zəhmət adamlarının amansız istismar ilə var-yoxdan çıxarılmasına, daimi təqib və terror altında saxlanılmasına çalışırdı. Bunlar oturaq təsərrüfata qayğı göstərmir, onun dirçəlməsini düşünmür, əksinə, bir vaxt yüksək inkişaf, çiçəklənmə yolu keçmiş olan əkinçilik yerlərini öz sürüləri üçün örüş və kövşənlərə çevirməyə çalışırdı. Məhz bu qrupun inadlı tələbi ilə Çingiz xan köçəri moğolların oturaq həyata keçməsini ayrıca bir buyruqla yasaq etmişdi. Bu hərbçil mürtəce əyanlar əslində Moğol dövlətinin də mənafeyinə düşmən idilər. Çünki dövlət, şəhər və kənd əhalisinin əməyi ilə yaşayırdı.

Bu axını təmsil edənlərin sırasında Çingiz xanın oğlu ***Cağatay, Cebe, Subutay, Xubilay, Celme*** kimi sərkərdələr var idi. Onların siyasi-mənəvi siması haqda taxt-tac uğrunda çəkişmədə Çingiz xanın rəqibi olan ***Camux*** belə söyləyirdi: «Mənim andam (süd qardaşım – *Red.*) Temuçin dörd köpəyi insan əti ilə yedizdirib dəmir zəncirlə bağlamaq fikrindədir... Bu dörd köpəyin alınları bürüncdəndir, sir-sifəti... dilləri mişar kimi, ürəkləri isə dəmirdəndir, qamçı yerinə qılınc gəzdirərlər, şeh ilə qidalanar, küləklərin qanadlarında at sürərlər. Ölüm-dirim döyüşlərində onlar adam əti yeyir, gələcək döyüşlər üçün yenə adam ətindən azuqə tuturlar. Budur, indi onlar zəncirlərini qıraraq sevinclə meydana atılmış, ağızları köpüklənə-köpüklənə yürüşə çıxmışlar. Kimdir onlar, bu dörd köpək – deyə Tayanq xan soruşdu. – Onlar iki cütdür, biri Xubilayla Cebe, biri də Subutayla Celme».

İkinci axının mövqeyi üçün güclü mərkəzi idarəçiliyin, xan hakimiyyətinin yaranması, hərbi-köçəri əyanların mərkəzdənqaçma meylinin dəf edilib aradan götürülməsi başlıca yer tuturdu. Bu məqsədə nail olmaq üçün tabe edilmiş ölkələrin oturaq yerli əsilzadələri və şəhərlərin yüksək zümrə və təbəqələri ilə yaxınlaşmaq zəruri idi. Yalnız «örüş» siyasətini rədd etmək, şəhər və kənd təsərrüfatına münasibəti kökündən dəyişmək yolu ilə bu məqsədə yetişmək olardı. Çingiz xanın böyük oğlu ***Cuçi xan*** və başqa bir oğlu ***Ugede*** öz atalarının qırğın siyasətini, tabe edilmiş ölkələrin tarmar və talan edilməsini açıqcasına pisləyirdilər. Cuçi narazılıqla söyləyirdi: «Çingiz xan bir çox xalqları məhv etməklə və bu qədər dövlətləri dağıtmaqla ağlını çaşmışdır. Mənə belə gəlir, atamı ovda öldürüb (Xarəzmşah) Sultan Məhəmmədlə yaxınlaşmaq, bu dövləti abad vəziyyətə gətirərək müsəlman xalqlarına kömək əli uzatmaq məqsədyönlü bir iş olardı».

XIII yüzilin 90-cı illərində «örüş siyasəti»nin həyata keçirilməsi moğol hakimiyyətinin özünü təhlükə qarşısında qoymuşdu.

Bütün Orta və Yaxın Şərqdə Hülakü İmperatorluğunun özülü sarsılmış olduğundan islahat ideyası ortaya çıxdı. Yeni xəttin başbiləni Fəzlullah Rəşidəddin idi. O, keçiriləcək islahatların fəlsəfi özülünü qoymağa çalışır; rəiyyətə, əslində xərac ödəyəsi olan bütün kənd və şəhər əhalisinə qarşı «ədalətli» siyasət yeritmək fikrini qızğın müdafiə edirdi. Rəşidəddinin fikrincə, hər hansı bir dövlətin mədaxil xəzinəsi («xəzineyi-daxl») rəiyyət özüdür, onun halal zəhməti və çalışqanlığıdır. Rəiyyət soyulub vardan çıxarılarsa, hökmdarlara və xəzinəyə heç bir qazanc qalmaz. O yazırdı: «Və işin kökünə baxsan, hər bir səltənətin özülü ədalətdir, çünki... dövləti ordu qazanır, – dövlətin ordudan başqa gəlir ağacı yoxdur, ordunu isə vergi (mal) hesabına saxlamaq olar, – vergisiz qoşun yoxdur, vergi isə rəiyyətdən alınır, – rəiyyətdən başqa vergi verən yoxdur, rəiyyəti isə ədalət hesabına saxlamaq olar; (deməli) ədalət yoxdursa, rəiyyət də yoxdur».

İndi artıq dinc əhaliyə, xüsusilə rəiyyətə qarşı dövlət siyasətini kökündən dəyişdirmək zərurətini moğol hakim dairələrinin düşünən nümayəndələri də anlayırdılar. Yeddinci hülakü hökmdarı Qazan xan (1295 – 1304) öz sahibi-divanı Rəşidəddinlə bir mövqedən çıxış edirdi. Onun fikrincə «bütün işlərimiz, gəlir və firavanlığımız rəiyyətin çalışqanlıq və əməyindən, əkinçilik və ticarət işlərindən asılıdır». Bununla o, hər hansı bir cəmiyyətin yaşayıb irəli getməsi üçün başlıca dayaq olan üç sosial təbəqənin (rəiyyətin, sənətkarların və tacirlərin), kənd və şəhərlərin iş adamlarının əməyinə qayğı ilə yanaşmağı tələb edirdi. Onlara qarşı davranışın «Örüş siyasəti» üzərinə deyil, bir «müdrik», yumşaq sümürgəçlik siyasəti üzərinə keçirilməsinə tərəf çıxırdı. Öz acgöz, hərbçil əmirlərinə üz tutaraq o söyləyirdi: «Əgər onların (kəndlilərin, bütün vergi ödəyənlərin – *Red.*) hamısının ucdantutma yağma edilməsi ağıllı bir iş sayılırsa, gəlin edək... Ancaq gələcəkdə rəiyyətdən taxıl [tağar] və süfrəniz üçün azuqə [aş]* yığmaq gümanında olsanız və bunun üçün mənə müraciət etsəniz, mən sizinlə amansız davranacağam. Siz gərək ağıllı-başlı düşünəsiniz: bir halda siz rəiyyəti incidərək onun qoşqu heyvanlarını və toxumunu əlindən alırsınız, çörək zəmisini tapdayıb yox edirsiniz, bəs onda gələcəkdə nə ilə dolanacaqsınız? Siz onların arvad və uşaqlarını döyüb işgəncə verirsiniz, bu barədə də gərək düşünəsiniz».

**ƏSGƏRİ İQTA YARLIĞI.** Qazan xanın Rəşidəddinlə birlikdə keçirdiyi başlıca islahatlardan biri əsgəri iqta torpaqları haqda 1303-cü il qanunudur. Bu qanuna görə qoşunda əsgəri xidmətdə olan bütün moğol kişilərinə irsən atadan oğula keçən iqta verilirdi. Sosial hüquqi baxımdan iqta torpaqları alan döyüşçülər kiçik torpaq sahiblərinə çevrilirdilər. İlkin

---

* Tağar və aş – Moğol çağında əhali üzərinə qoyulan 40-a yaxın mükəlləfiyyətlərdən idi.



elxanlar çağında iqta çox az adamlara, başlıca olaraq yüksək rütbəli qoşun başçılarına verilirdi. Sıravi döyüşçü kütləsinə torpaq paylanmırdı. Bu kütlə bir yarısı natura ilə, o biri yarısı pul ilə ödənilən dolanışıq xərci ilə yaşayırdı. Belə ödəniş daimi, aramsız səciyyə daşımırdı. Ancaq onun bu naqis cəhətləri yürüşlər zamanı yeni-yeni ölkə və vilayətlərdə ələ keçirilən qənimət hesabına ört-basdır edildiyindən sezilmirdi. Qazan xanın hakimiyyətə gəldiyi 90-cı illərdə saysız qənimət və qazanc verən yürüşlər artıq kəsilmişdi. Buna görə döyüşçülər, bütün ordu içərisində böyük narazılıq yaranmağa başlamışdı. Ordunun narazılığı Hülakü dövlətinin bütün varlığını təhlükə qarşısında qoyurdu. Çünki boş xəzinə orduya aylıq vermək gücündə deyildi.

Elxani dövləti əsgəri xidmətdə olanları daimi yaşayış mənbəyi ilə təmin etməli idi. Bununla bağlı bütün döyüşçülərə kiçik torpaq sahələri – iqta paylanırdı. Beləliklə, irsən keçən iqta torpaqları torpaq sahibliyinin ən geniş yayılmış, kütləvi növünə çevrilməkdə idi. İqta ölkənin və dövlətin sosial-iqtisadi və siyasi həyatında görünməmiş yer tutmağa başlamışdı.

Torpaq almaqla kiçik feodallara çevrilən döyüşçülər kütləsinə 1303-cü il qanunu ilə böyük üstünlük və imtiyazlar verilirdi. Birincisi, yeni iqta sahibinə əvvəllər dövlət xəzinəsi xeyrinə ödənilən renta ilə yanaşı bütün vergiləri kəndlildərdən toplamaq hüququ, yəni vergi immuniteti verilirdi. İkinci, iqta nəsli torpaq sahəsinə çevrilirdi, ancaq bir şərtlə: atanın bütün oğullarına deyil, yalnız ordu xidmətində onun yerini tutub qulluq edən oğluna çatırdı. Üçüncüsü, əkin yeri, suvarma qurğuları və s. ilə birlikdə həmin torpaqla bağlı olub, onu əkib-becərən rəiyyətlər də torpaq sahibinin ixtiyarına keçirdi. 1303-cü il yarlığında ayrıca göstərilirdi ki, keçmiş ***incu*** və ***divan*** torpaqlarında kopçur və başqa vergilər ödəyən rəiyyətlər indi bu mükəlləfiyyətləri öz ağalarına ödəməlidirlər. Yarlıkda yazılmışdı ki, moğol döyüşçülərinə paylanılan iqta torpaqlarının keçmiş rəiyyətləri başqa torpaqlara qaçıb-dağılmışsa və bu qaçqınlıqdan 30 ildən çox vaxt keçməyibsə, indi yeni sahiblərinə qaytarılmalıdırlar: «Kimin yanında olmalarına baxmayaraq, qoy onları geri qaytarsınlar».

Rəiyyətə qarşı «müdrik, yumşaq» istismar üsullarına keçməyə çağıran Qazan xanın, qorxu və vahimə içində səpələnib qaçqınlara çevrilmiş kəndlilərə qarşı bu amansızlığı təsadüfi deyildi. Döyüşçülərə səxavətlə paylanılan torpaq öz-özlüyündə onları dolandıra bilməzdi. Gəlir götürmək üçün torpağı becərən, əkib-biçən olmalıdır. «Örüş siyasəti» kəndlini torpağı atıb qaçmağa məcbur etdiyi üçün, «yeni siyasət» onları bir-biri ilə yenidən birləşdirməyi nəzərdə tuturdu. Başqa yolla ordunu daimi gəlir mənbəyi ilə təmin etmək, onun qorxulu narazılığını aradan götürmək olmazdı.

Beləliklə, iqta torpaqları haqqında verilən yarlık güzəştli fərman idi. Qazan xan dövlət hərbi maşını qarşısında güzəştə gedirdi. Çünki yalnız onun gücü ilə mərkəzi hakimiyyəti parçalamağa çalışan mürtəce «örüş

siyasəti» tərəfdarlarının qarşıdurmasını yox edə bilər, həm də ordunu xarici siyasət məsələlərinin həlli üçün öz ardınca apara bilərdi. Xarici siyasət sahəsində isə başlıca məsələ Qızıl Orda ilə savaşların davam etdirilməsi idi. Bu isə güclü ordu olmadan mümkün deyildi.

İqta torpaqlarının xüsusiyyətləri bununla bitmirdi. İmtiyazlarla yanaşı iqta sahibləri qarşısında ciddi tələblər qoyulurdu. Ölüm qorxusu altında dövlətin verdiyi torpağı satmaq, bağışlamaq və cehiz vermək ona qadağan olunurdu. Əgər iqtadar aldığı torpağın becərilib dirçəlişi üçün qayğı göstərmir, onu yaxşı saxlamırdısa, torpağın geri alınması nəzərdə tutulurdu. İqta sahiblərinin özbaşınalığı üzərinə nəzarət qoyulur, rəiyyəti qula çevirib onlarla əsir kimi davranmaq qadağan edilirdi; başlıca mükəlləfiyyət öhdəlikləri, yəni biyar ilə bağlı olmayan işlərin onların üzərinə qoyulması da qadağan idi. Vergilər müəyyən olunmuş bir vaxtda yığıla bilərdi, natura ilə, pul və biyarda ödəniləcək mükəlləfiyyətlərin müddəti dəqiq göstərilirdi. Rəiyyət üzərində sonsuz və amansız soyğunçuluq vasitəsinə çevrilmiş olan mükatiə sistemi (vergi yığımının icarəyə verilməsi) ləğv edilirdi. Bütün bu yeniliklər rəiyyəti «örüş siyasəti» üçün xas olan özbaşınalıqdan, qanunsuzluqdan qorumağa, rəiyyətin öz təsərrüfat işlərini arxayınçılıqla yerinə yetirməsi üçün şərait yaratmağa yönəlmişdi. Nəhayət, yarlık, yeni torpaq sahiblərinə başqalarının torpağını, arx, kəhriz və su hövzələrini tutub ələ keçirməyi, o cümlədən başqalarının gəlir və qazancına tamah salıb ortaq çıxmağı qadağan etmişdi.

Rəiyyət üçün, bütün kəndlilər üçün bu yeniliklərin əhəmiyyəti az deyildi. Dövlət divanı xeyrinə torpaq vergisinin (xəracın) və başqa vergilərin toplanma qaydasının dəyişdirilməsi onlar üçün tutarlı yenilik idi. Bu iş yeri torpaq sahibinin (iqtadarın) öz ixtiyarına verilsə də, qayda-qanun gözlənilirdi. Vergilərin qədəri və ödəniş vaxtı dəqiq bildirilirdi. Taxıl vergisi əkinçilərdən yalnız ildə iki dəfə: 21 mart - 11 aprel və 22 sentyabr-12 oktyabr arasında və ya ildə bir dəfə (yuxarıda birinci olaraq xatırladılan 20 gün içərisində) yığıla bilərdi. Göstərilən zaman xaricində və ya artıq vergi tələb etmək ağır cəzalarla qadağan edilmişdi. Taxıl vergiləri kəndlilərin (vergi mükəlləflərinin) öz yük heyvanları ilə dövlət anbarlarına daşınmalı idi. Hər bir kənddə metal və ya taxtadan tabaq vurulacaq, ödəniləcək verginin miqdarı burada yazılmış olacaqdı.

**BAŞQA İSLAHATLAR.** Elxanlılar ilk zamanlar 3,072 qramlıq gümüş ***dirhəm*** tətbiq edirdilər. Bunun altı misli bir gümüş ***dinar***, dinarın isə on min dənəsi bir ***tümən*** idi. Alış-veriş, bazar hesabları dirhəmlə aparılırdı. Kəsilən pulların mə'dən tərkibi qarışıq olduğundan çətinliklər yaranırdı. Qazan xan bu işə də qarışdı. Onun islahatı ilə dirhəmin gümüş dəyəri kiçildildi: bir dirhəm 2,304 qram saf gümüşə bərabər tutuldu. Dinar isə bunun altı misli ölçüsündə 13,827 qram saf gümüşə bərabər sayıldı.



Vergi sisteminə başqa mühüm yeniliklər də gətirilmişdi. Qoşunların və dövlət xəzinəsinin hərbi qulluqçulara, məmurlara və təqaüdçülərə borclu olduğu məbləğlərin kəndlilər üzərinə bir mükəlləfiyyət kimi qoyulması da ləğv edildi. Yam (bu və ya başqa yüklərin qoşqu heyvanları və arabalarla daşınması) və poçt mükəlləfiyyətləri kəndlinin üzərindən götürüldü. Vahid rabitə sistemi yaradıldı. Başlıca yollarda üç fərsəxdən bir yam (dayanacaq) açıldı. Yam əmirlərinin ixtiyarına istənilən sayda qulluqçu və atlar verildi. Ezam olunan dövlət elçiləri yol xərcini rəiyyətdən deyil, divandan almalı, kəndli evlərində deyil, karvansaralarda gecələməli, bir ölkəyə getmək üçün yalnız yam xidmətindən istifadə etməli idi.

Kəndli icmaları dövlətə məxsus işlənməmiş və ya sahibi tərəfindən tərk edilib başlı-başına buraxılmış torpaqları tutub onları becərmək hüququ almış oldular. Belə torpaq yararsız hala gəlmiş olduğundan (suvarma arxları pozulmuş, yabanı ot və kol-kos basmış və s.), ilk becərmə ili vergidən tam azad edildi. İkinci il taxıl vergisinin 2/6-sı ödəniləcəkdi. Üçüncü ildə çoxpilləli ödəniş sisteminə keçilirdi: yaxşı torpaq verginin 3/4, orta torpaq 2/3, pis torpaq isə yarısı qədərində ödəməli idi. Yalnız dördüncü ildə verginin tam ödənilməsi nəzərdə tutulurdu.

Dövlətin bütün bölgələri, əyalət və qəzaları daxil olmaqla hər cür ərazi və mülklərin yerini, ölçüsünü, hüdud və dəyərini qeydə alan ***kadastr cədvəlləri (dəfatiri-qanun)*** tutulmağa başladı. Dövlət kadastr dairəsi Təbrizdə yerləşdi. Əvvəllər vilayətlərə təftiş üçün arabir ədliyyə məmurları göndərildiyi halda, indi hər vilayət və qəza üçün baş müfəttiş sifətilə bir ***katib (Bitikçi)*** göndərildi. Bu katiblər bütün mülk, xasse əmlakı və xeyrat vəqflərini kadastr dəftərlərində qeydə almağa başladılar. Əmlak sənədinin tətbiqi üçün ən çox yarım dinar rüsum alına bilərdi. Bundan çox verib qanunu pozanlara, baskak və ya vali də olsa, ölüm cəzası qoyulmuşdu.

Təsərrüfatı canlandırmaq üçün əkinçilərə toxum, alət, iş heyvanı verilməsinə başlandı: Əlcəzairdən, Farsdan və başqa yerlərdən mal vergisi hesabına 20.000 baş öküz və başqa iş heyvanı toplanmış, bunların yem təchizatı Anadolu, Azərbaycan və Quzey İraq üzərinə yüklənmişdi.

Bütün bunlar ilə bağlı təsərrüfatda gözə çarpacaq bir irəliləyiş başlamış, Elxanlı dövlətinin vergi varidatı 17 milyondan 21 milyon dinara yüksəlmişdi.

Başlıca islahatlardan biri də dövlətin islam dininə münasibətinin dəyişməsi oldu. Say sırası ilə, əslində birinci olaraq din islahatı keçirilmişdi. Qazan xan əyanları və ordusu ilə birlikdə islamı qəbul etdi. Öz türk adına müsəlman adı əlavə edərək, ***Qazan-Mahmud*** oldu. İslam beşinci ulusun dövlət dininə çevrildi. Qazan xanın göstərişi ilə bütpərəst məbədləri, hətta atasının tikdirdiyi məbədlər də dağıdılır, yerinə məscidlər tikilirdi. Görünür, bu islahatla bağlı olaraq o, Moğolustanda oturmaqda olan kaan hakimiy-

yətini tanımaqdan imtina etdi. Bu, yerli torpaq sahibləri və ruhanilər ilə yaxınlaşmaq siyasətinə keçid idi. Bunsuz «yeni» siyasətin prinsiplərinə inam qazandırmaq mümkün deyildi. 1297-ci ildə Qazan xan Şirvana, Bakıya gəldi. Ola bilsin, bu gəliş onun Şirvan dövləti ərazisində tanınmış müsəlman ocaqlarından biri olan Bibi Heybət türbəsinin ziyarəti ilə bağlı idi. Qazan xanın varisi ***Olcaytu xanın*** illərində də yerli feodalların hüquqlarının bərpa edilməsi, Şirvanşah hakimiyyətinin get-gedə dirçəlişi baş verməkdə idi. Dövlətin baş vəziri Rəşidəddin də bu iki islahatçı elxandan geri qalmırdı. O, yeni siyasətə uyğun olaraq, şirvanşah ***Keykavus*** ilə qohumluğa girib, onun qızını öz oğullarından birinə almışdı.

Ancaq moğolların tutduqları yaxşı işlərə də artıq heç bir inam qalmamışdı. ***Nəsiminin***, görünür, Anadoluda olarkən dərin bir kinayə ilə: «Ruma gəlmiş kafəri Çin ğarəti iman için» yazması bu inamsızlıqla bağlı idi. «Çin dinsizi» (Kafəri Çin) dedikdə Nəsimi, ***Temur*** çağını deyil, Çin yürüşündən sonra Yaxın Şərqdə uzun illər islama yağı gözü ilə baxan Hülakülləri nəzərdə tuturdu. Başqa bir yerdə şair ünvanı açıq-aydın bildirərək yazırdı: «***Moğol hər qanda vararsa, düşər təracü yağmaya***».

## 5. MOĞOL AĞALIĞININ ÜMUMİ NƏTİCƏLƏRİ

**ŞƏHƏR TƏSƏRRÜFATI.** Moğol basqınları və sonrakı hökmranlıq çağı böyük iqtisadi dağıntılara gətirib çıxardı. Bu və ya başqa ölkələrdə moğol yürüşlərindən əvvəl şəhərlər nə qədər çox və şəhər təsərrüfatı nə qədər güclü yer tuturdusa, moğol ağalığının nəticəsi də o qədər fəlakətli olmuşdu. Azərbaycanın XII yüzil xəritəsində yüz mindən çox əhali yaşayan şəhərlər vardı, burada şəhərlərin sayı 50-dən çox idi. İnkişaf etmiş sənətkarlıq, ticarət, mədəniyyət mərkəzləri olmaqla, böyük şəhərlər moğol basqınlarına qarşı mütəşəkkil xalq müqavimətinə başçılıq etmişdilər. Bütün bunlara görə şəhərlər böyük dağıntıya məruz qaldı. Şəhərlərin dağıdılması isə təkcə demoqrafiya və sosial-iqtisadi baxımdan fəlakət deyildi.

Onları dağıtmaqla moğol hərbçiləri bu şəhərləri yaratmış olan xalqı mədəni vardan çıxarır, sivilizisiyadan məhrum edirdilər. XIII yüzilə kimi qazanılmış olan şəhərsalma tikinti ənənələri, saxsı su kəmərləri, kitabxanalar, camiyə və məscidlər, saraylar, körpü və karvansaralar – bunların hamısı uçurulub yox edilir, unudulub viran qalırdı. Xalq dağlara və meşələrə qaçışıb yeraltı qazma damlarda, mağara və kahalarda yaşayan ibtidai insan məişətinə qayıtmış olurdu.

**OTURAQ ƏKİNÇİLİK, SUVARMA.** Şəhərlərlə yanaşı ən çox dağıntıya məruz qalan sahə oturaq əkinçi təsərrüfatı və onun varlığını təmin edən suvarma qurğuları idi. Qədim suvarma qurğuları və vasitələrinin



korlanıb sıradan çıxarılması, bəzən bütünlüklə dağıdılması, kütləvi qırğınlardan sonra işçi qüvvəsi çatışmazlığı şəraitində əkinçi təsərrüfatını süquta uğradırdı. Suvarma işinin belə bir vəziyyəti oturaq əkinçiliyin müvafiq ölçüdə azalıb aradan çıxmasına və yüksəliş yolunda olan kənd təsərrüfatı yerlərinin örüş çöllərinə çevrilməsinə gətirib çıxarırdı. Yaxın və Orta Şərqin bütün keçmiş tarixində suvarmanın vəziyyəti ilə oturaq əkinçiliyin yüksəlməsi arasında təbii bir tənasüblük olmuşdur. Və bir qayda olaraq mərkəzi dövlət hakimiyyəti suvarma və əkinçilik işlərinə pul xərcləmirdisə, sadəcə laqeyd və biganə yanaşırdısa, yüzillər boyu çiçəklənmədə olan bərəkətli torpaqlar səhraya çevrilirdi. İlkin altı Hülakü elxanları çağında Azərbaycanın və başqa ölkələrin suvarma və əkinçilik təsərrüfatına moğolların yanaşması isə, sadəcə bir «laqeydlik və biganəlik» çərçivəsində qalmırdı. «Örüş siyasəti» bu şəhərlərə qarşı açıq və fəal düşmənçilik üzərində qurulmuşdu. Həm də bu siyasətin yerinə yetirilməsi Qızıl Orda ilə gah alovlanıb, gah sönməkdə olan böyük və kiçik savaşlarla müşayiət olunurdu. Bu iki dağıdıcı amillərin çulğaşması nəticəsində suvarma işləri, oturaq əkinçilik, bütünlüklə iqtisadi həyat tarixində görünməmiş tənəzzülə uğramışdı; kütləvi qırğın milli fəlakətə çevrilmişdi.

Nəticə etibarilə bir sıra Azərbaycan vilayətləri qırğınlardan sonra əhalisiz qalıb boşalmışdısa, başqa vilayətlər uzun keçmişi və böyük təsərrüfat dəyəri olan əkinçilik sahələrindən məhrum olub örüşə çevrilmişdi. Alban tarixçisi Kağanqatlı Moiseyin VII yüzildə yad etdiyi «saya gəlməz zeytun bağları», yəni çox qiymətli bir əkinçilik sahəsi dağıdılıb yox edilmişdi (yalnız ötən yüzilin başlanğıcında Kür çayı boyu yerləşən düzənliklərdə alimlər tərəfindən haçansa qırılmış yüzlərlə ağac kötükləri üzə çıxarıldı və Sankt-Peterburq Meşətexniki Akademiyasında onların iri zeytun ağaclarının qalıntısı olması müəyyən edildi).

O çağın yaşamını nisbətən düzgün işıqlandırmağa çalışan tarixçi Rəşidəddin yazırdı: «Əhali qırğınına, bir sıra yerlərdə əhalinin qılıncdan keçirilməsi üzündən boşalıb viranə qalmış vilayətlərə gəldikdə, misal üçün, Bağdad və Azərbaycanın boşalıb viran qalmış torpaqlarını və ya Türkistanın, İran və Rum ölkələrinin dağıdılmış şəhərlərini adamlar öz gözləri ilə görmüşlər; bütün bunlar heç bir qəlibə sığışmayan hadisələr idi. Bir sözlə, müqayisəli yanaşsaq, hər on malikanədən (əmlak) yalnız biri becərilmək üçün yararlı idi, bütün qalanları isə viran olmuşdu».

**DÖVLƏT XƏZİNƏSİNİN QAZANCI NƏ OLDU?** Suvarma qurğularının və oturaq əkinçiliyin, bütünlüklə ölkə iqtisadiyyatının görünməmiş dağıntısı özünü Azərbaycanın ayrı-ayrı əyalətləri üzrə dövlət xəzinəsi üçün yığılıb toplanan gəlirin azalmasında göstərdi. Həmdullah Qəzvininin «Nüzhət-ül-qülub» əsərində verilən rəqəmlərə görə, 1220 və 1340-cı illər ara-

sında indiki Cənubi Azərbaycanın (Naxçıvan əyaləti ilə birlikdə) dövlət xəzinəsinə verdiyi gəlir 20 milyon dinardan 2,160 min dinara enmişdi. Aran və Muğandan yığılan xəzinə gəliri 3 milyon dinardan 303 minə, Şirvandan toplanan gəlir isə 1 milyondan 113 min dinara enmişdi. Bir sözlə, «Atabəylər və Şirvan xaqanları çağında» (Həmdullah Qəzvini) Azərbaycanın dövlət mədaxil büdcəsi - birbaşa xəzinəyə çatan gəliri 25 milyon dinar odmuşdusa, XIV əsrin 40-cı illərində yalnız 2,7 mln. dinar idi. Göründüyü kimi, ölkənin dövlət gəliri on qat azalmışdı!

«Örüş siyasəti»nin və onun gətirdiyi dağıntıların göstəricilərini Yaxın və Orta Şərq ölkələri üzrə müqayisəli şəkildə qarşılaşdırdıqda aşağıdakı nəticə alınır (dinar ilə):

| | *XII yüzil* | *XIV yüzil* |
|---|---|---|
| Azərbaycan | 25 milyon | 2 milyon 694 min |
| İraqi-Əcəm | 25,2 milyon | 2 milyon 352 min |
| İraqi-Ərəb | 30 milyon | 3 milyon |
| Rum | 15 milyon | 3 milyon 300 min |
| Gürcüstan və Abxaz | 5 milyon | 1 milyon 202 min |
| Ərməniyyət əl-Əkbər | 2 milyon | 390 min |

Tarixi baxımdan bu göstəricilərin dəyəri ölçülməzdir. Birincisi, moğol yürüşlərindən qabaq Azərbaycan Orta Şərqin iki ən varlı dövləti olan İran (İraqi-Əcəm) və İraq ilə bir səviyyədə tutulurdu. Bu üç dövlətin hər birinin iqtisadi yüksəlişi və gücü ilk növbədə şəhər, suvarma və oturaq əkinçilik təsərrüfatlarının yüksəlişi ilə bağlı idi. Buna görə də tanınmış ərəb ensiklopediyaçısı Yaqut əl-Həməvinin XIII yüzilin başlanğıcında «Azərbaycan geniş ölkə və böyük dövlətdir» (Azərbaycan bələd kəbir və daulə əzim) yazması o çağın obyektiv durumunu əks etdirir.

İkincisi. Yuxarıda «sarı xaç yürüşü» adlandırılan Hülakü basqınları və ağalığı məhz adı çəkilən üç ən varlı Şərq ölkələrində çox böyük iqtisadi dağıntı yaratmış idi. Azərbaycan, İran və İraq üzrə dövlət xəzinəsi gəlirinin azalması min faizə çatırdısa, başqa ölkələrdə bu göstərici nisbətən belə böyük deyildi.

Üçüncüsü. Dövlət gəliri haqqındakı göstəricilər demoqrafiya və təsərrüfat göstəriciləri ilə uzlaşaraq bütöv bir silsilə yaradır. Cüveyninin yazdığına görə, «harada yüz min adam vardı, yüz adam da qalmamışdı»; Rəşidəddinə görə də «hər on malikanədən yalnız biri becərilmək üçün yararlı idi, bütün qalanları isə viran olmuşdu»; Həmdullah Qəzviniyə görə isə moğolların cəmi 120 illik ağalığı zamanı iqtisadi baxımdan yüksəlişdə olan ölkələrin dövlət gəliri eyni ölçüdə azalmışdı.



**ELXANLI HÖKMRANLIĞININ SONU.** Moğol ağalığının dağıdıcı nəticələri həm tabe olunmuş ölkələr, həm də onların özləri üçün burada üç dəfə təkrar olunan «10» rəqəmi ilə çox düzgün ifadə olunmuşdur.

Bu göstəricilərin arxasında duran sosial-iqtisadi fəlakət və dağıntı Hülakü imperatorluğunun özünü də dağılmağa aparırdı. Bunu Qazan xan və onun islahatlarının ideoloqu Fəzlullah Rəşidəddin yaxşı anlayırdılar. Onların hazırlayıb həyata keçirdikləri islahatların kəsərli olmasına baxmayaraq, bu dağıdıcı prosesi dayandırmaq mümkün olmadı. İslahat xətti öz ilkin müsbət nəticəsini verə bilmiş, iqtisadi dağıntı dayandırılmış, rəiyyətin və təsərrüfatın dirçəlişi üçün az-çox dözümlü şərait yaranmışdı. Bunun nəticəsində dövlət xəzinəsinə ödənilən gəlirin azalması da dayandırılmış, hətta 4 milyon dinar artım olmuşdu. Ancaq moğol yürüşlərindən əvvəlki çağla müqayisə etdikdə bu hələ çox kiçik artım idi. XII yüzil xəzinə gəlirlərinin səviyyəsindən Hülakü elxanları hələ çox-çox uzaq idilər. Çünki Hülakü imperatorluğunun tutduğu ölkələr üzrə 1220-ci ildə toplanan xəzinə gəliri 100 milyon dinardan çox idi.

İslahatların doğurduğu dirçəliş meyli, bununla bağlı olan ilkin gəlir artımı uzun sürmədi. Qazan xanın ölümündən sonra Olcaytu xan onun başladığı işi dəyişmədi. Fəzlullah Rəşidəddin də dövlətin sahibi divanı olmaqla islahat xəttinin davam etdirilməsinə çalışırdı. Ancaq 1318-ci ildə onun öldürülməsindən sonra hərbçil əyanlar yenidən bədnam örüş siyasəti üzərinə döndülər. Əhaliyə, xüsusilə rəiyyətə, sənətkar və tacirlərə divan tutmaq vərdişinə qayıtdılar. Mərkəzi dövlət siyasətindəki bu yeni mürtəce dönüş tezliklə iqtisadi göstəricilərə öz təsirini göstərdi. İmperatorluğun dövlət xəzinəsinə ödənilən gəlir 21 milyondan 19 milyon dinara endi. Bununla hərbçil əyanlar ağalığının, bütün imperatorluğun hökmü oxunmuş oldu, onun ömrünə son qoyuldu. Quzey ölkələrdə eyni dövrdə hökmranlıq edən Qızıl Orda dövlətindən fərqli olaraq, beşinci moğol ulusu çox tez, artıq XIV yüzilin 30-40-cı illərindən öz içindən dağılıb çökdü. ***Elxan Əbu Səidin (1317-1335)*** ölümü imperatorluğun da cismani yoxluğuna çevrildi.

**YENİ KÖÇKÜN AXINLARI.** Moğollar çağında Azərbaycan, İran, Anadolu və başqa ölkələrə yeni köç axını oldu. Sayı üç yüz minə yaxın hülakü ordusunun ardınca döyüşçülərin ailələri, bəzən bütün əqrəbası da gəlirdi. Yaxın və Orta Şərq ölkələrinə moğol çağında köçüb gələnlərin sayı 1 milyona çatırdı (bəzi tarixçilərin fikrincə bu rəqəm 2 milyona yaxın idi). Bunlardan yüz minlərlə yeni türk Azərbaycanda yerləşdi.

***Nəsəvi, Rəşidəddin, Vəssaf*** tarixlərinə görə gələnlərin çoxu ***moğol deyil, Uyrat (moğollaşmış uyğurlar), Qıpçaq, Sulduz, Cəlayir, Çoban, Tatar, Padar (Onoqur oymaqlarından biridir), Qaraqoyunlu, Ağqoyunlu, Cavanşir*** və başqa türk uruqları idi. Ağqoyunluların bir qismi Azərbaycanda daha əski zamanlardan - ***Ağ Hun*** (Eftalit) zamanından yaşayırdı.

Mərhum ***Zəki Vəlidi Toqanın*** «Ümumi türk tarixinə giriş» əsərində yazıldığı kimi, gələn moğol və türk oymaqları Azərbaycanda yerləşərkən «əhalini bəzən yerindən çıxararaq ərazi, mal və mülklərini müsadirə etmişlərdi». Bununla bağlı ***Mahmudabad*** şəhəri və bu adı daşıyan bir sıra yeni yaşayış yerləri, Urmu gölü ətrafında ***Sulduz*** məntəqəsi və başqaları yarandı. Muğanda bugünkü ***Salyana*** moğolca ***Dalan Navur***, Şamaxıya yaxın ***Ağsu*** çayına ***Çığan Moran*** adı verilmiş oldu. Şəki və Şamaxı bölgələrində Uyrat qəbiləsi yerləşib kök saldı. Əskidən muğanda yaşayan türklər isə torpaqlarının yaxşı qismindən, yaylaqlarından çıxarıldı. ***Zəkəriyyə Qəzvinidə*** bu haqda ayrıca yazı var.

İraqda Dəclə və Fərat çayları üzərində bir neçə böyük suvarma kanalları qazılıb işə salınmışdı. Bunlardan ***Nəhr Qazan-i Ulya*** adlanan biri ***Xillə*** və ***Kərbəla*** səhralarına həyat vermiş, hətta Bağdaddan Kərbəlaya qayıqla gəlmək mümkün olmuşdu. Burada 150 yeni kənd salınmışdı. Azərbaycanda moğollar tərəfindən sıxışdırılaraq bayıra atılan ailələrin böyük bir hissəsi bu yeni yaşayış bölgəsinə köçürülmüşdü.

ÇOBANİLƏR ZÜLMÜ. ***Əbubəkr əl-Qutbi əl-Əhərinin*** yazdığı kimi «Hülakü övladlarından bir adam qalmadığı üçün» ölkə ***Çobani*** əmirlərinin çəkişmə meydanına çevrildi. Bu əmirlərdən birincisi olan ***Arpa xan*** artıq açıq-aydın «moğol siyasətini və qanunlarını» əsas götürdü. ***Əşrəf Çoban*** isə on üç illik (1344-1356) ağalığı çağında «örüş əyanlarının» yerişini yeridi. Dinc əhalini soyub taladı, öz talançı əmirlərinə səxavətlə torpaqlar bağışladı. Onun hakimiyyətə keçməsinin başlanğıcında Təbriz əhalisi Çobani əmirlərinə qarşı üsyana qalxdı; onları şəhərdən qovub çıxardı. Təbrizlilər küçələrdə ağacları kəsib istehkam qurdular, xəndəklərə su doldurdular. İki gün vuruşma getdi. Nəhayət, Məlik Əşrəf şəhəri tutub qətl və qarətə başladı. Adı çəkilən tarixçinin yazdığına görə o, hər il yürüşə çıxır, hər dönüşü yeni fəlakətə çevrilirdi: «Çobanilər yenə də Təbrizə gəldilər və zülmün əsasını qoydular» (1344); «Təbrizə gəlib oturdu və zülm bayrağını göylərə qaldırdı» (1345); «Məlik Əşrəf gəldi və zülmü başdan aşdı, birini öldürdü, başqasını ucaltdı» (1346); «Ölkədə üç şey bol idi: zülm, bahalıq və vəba..., Məlik Əşrəf yenə də Təbrizə gəldi, yüz min ac qurdu Azərbaycana və Arana saldı, onlar nə istədilərsə, etdilər. Camaat cana gəldi, hamı vətənini tərk etdi. Bəziləri Gilana getdilər, bəziləri Şirvana, Dəşt-i Qıpçağa getdilər. Kimisi Gürcüstana getdi, Ruma, Şama, Bağdada səpələndi» (1347).

O çağın başqa bir tarixçisi Zeynəddin ibn Həmdullah Qəzvini Məlik Əşrəfin dolğun səciyyəsini vermişdir: «Məlik Əşrəf qorxunc təbiətli adam idi, hər bir vaxt əmirlərindən birini tutar, evini, əmlakını, heyvanatını zəbt edər, onun yerinə başqasına əmirlik verərdi. O, cavahir, qızıl, gümüş və qiymətli daş-qaşdan ibarət çoxlu xəzinə toplamışdı. Onun 17 xəzinəsi vardı. Öz ölkəsinin hər hansı bir yerində dövlətli bir adamın olduğunu bilsə





Sənət örnəkləri: Şərq silahları



Cavad Xan



idi, bəhanə ilə ona şər atıb töhmətləndirər, əmlakını ələ keçirər, özünü isə öldürər (ya da) qalada məhkum edərdi».

Belə bir siyasətin, «örüş siyasəti»nin sonu yalnız saysız xarabalıqlar ola bilərdi. Yuxarıda adları çəkilən hər iki tarixçi belə bir klassik əhvalatı yazıya almışlar. Məlik Əşrəfin Çobani qoşunu Bağdad üzərinə yürüş edib Dəclə çayına çatdıqda çayın o biri tayından bir əsgər soruşur: «Ey zalımlar, behişt kimi Azərbaycanı sizə verib bura gəldik, xaraba Bağdadı abad edib oturmuşuq. Bizdən nə istəyirsiniz?» ***Nədim (Əmir Əhməd)*** sözə başlayıb cavabında dedi: «Biz Rumda olduq, xaraba qoyduq, eşitdik Azərbaycan abadlaşmışdır, gəldik, sizləri (oradan) çıxardıq və o yeri xaraba etdik. Yenə gəlmişik ki, sizi qovaq və bu nahiyəni də xaraba edək».

Məlik Əşrəf zülmündən Ruma, Şama, İran və başqa ölkələrə baş götürüb gedən adamlardan biri də ***Mövlana (qazi) Məhiəddin Bərdəi*** idi. o, Berke Saray şəhərinə qaçıb orada vaizlik edirdi. Bir gün Qızıl Orda xanı ***Canı bəyin*** moizədə olmasından istifadə edərək Təbrizdə Məlik Əşrəfin zülmündən söz açdı. Elə danışdı ki, bütün Allah bəndələri kimi xan da ağladı. Canı bəy, bir ay içində qoşun hazırlamağı buyurub, «Təbrizə gedəcəyəm» söylədi. Bu zaman şirvanşah ***Keyqubad oğlu Kavus*** da başqa Azərbaycan əsilzadələri ilə birlikdə Məlik Əşrəfə qarşı çıxaraq, Canı bəydən yardım istədi. Canı bəy Azərbaycana gəldikdə, şirvanşah öz qoşunu ilə ona qoşuldu. Təbriz azad oldu. Kavusun və Mövlanə Bərdəinin təkidi ilə Məlik Əşrəf öldürüldü.

**CƏLAİR AĞALIĞI.** Qızıl Orda qoşunu geriyə döndükdən sonra Ərəb İraqının hakimi ***Sultan Üveys Cəlayirin*** əlinə keçdi (1358). O, güney torpaqları, Naxçıvan və Aranı öz hökmü altına aldı. Şirvanşah Kavus da onun hakimiyyətini qəbul edərək, ilk illər üzərində Üveysin adı yazılmış anonim (öz adı olmayan) gümüş pullar kəsdirdi. Ancaq 1364-cü ildə Cəlayirlərə qarşı üsyana qalxıb tabeçiliyi üzərindən atmağa çalışdı. Bir neçə il içərisində şirvanşahın Şamaxı, Bakı, Şabran, Quştəsfi şəhərlərində kəsdirdiyi pulların üstündə Sultan Üveysin adının olmaması bu üsyanla bağlıdır. Bu müstəqillik uzun sürmədi. 1368-69-cu illərdə Üveys Şirvana qoşun yeridib, Kavusu qalalarının birində qapadı. Sığınacaqdan çıxıb özünü təslim etdikdə ayaqlarına qandal vuruldu. Təbrizə gətirilərək, üç ay zındana salındı. Sonra əfv edilib, bac vermək şərtilə Şirvan taxtına qaytarıldı. Ölümünə kimi Sultan Üveysin itaətindən çıxmağa bir daha çalışmadı.

Elxanı imperatorluğunun siyasi qalıntısından ölkəni təmizləmək üçün uzun illərin keçməsi gərək idi.

Moğol ağalığı xalqın mədəni həyatına ağır zərbə vurdu. Onun mənəviyyatını sarsıtdı. Milli -mədəni irsin bir sıra görklü abidələri, saraylar, kitabxanalar, məscidlər dağıldı. Ancaq yadelli ağalığının bütün acılarına baxmayaraq mədəni həyat sönmədi.

*ONUNCU BÖLÜM*

# QURTULUŞ HƏRƏKATI. FEODAL DÖVLƏTLƏRİ

## 1. XIV YÜZİLİN SONU - XV YÜZİLİN BAŞLANĞICINDA XALQ UTOPİYALARI VƏ BİD'ƏTÇİ HƏRƏKAT. SİYASİ BİRLİK MEYLİ

**HÜRUFİLİK.** Moğol yürüşlərinin və «örüş siyasəti»nin yaratdığı iqtisadi dağıntı cəmiyyətin mənəvi varlığını sarsıtmışdı. Bu sarsıntının aradan götürülməsi üçün yeni amal və fikirlər irəli sürə bilən qüvvələr, axınlar yaranmalı idi. XIV yüzilin ortalarından başlayaraq güclənməkdə olan belə axınlardan biri hürufilik oldu. Hürufi təlimi dərviş zaviyə və təkyələrindən, xanəgahlardan çıxıb ədəbi məclislərə, bilik adamları arasına, hətta saray mədəni mühitinə yol aça bildi; şəhərlərə, vilayət, mahal, nahiyə və kəndlərə yayıldı.

Hürufi anlayışı ərəbcədə «Hərf» sözündəndir. Hürufi ideoloqları yazı sistemindəki işarələri müqəddəs sanırdılar. Onların fikrincə bu hərflər dünyanın yaranış sirlərini, gerçəkliyi özlərində hifz etmişdi. Hərflər də, onların əbcəd sayı ilə bildirdiyi rəqəmlər də müqəddəs sayılırdı. Əbcəd sayı hürufi başçılarının anlatmasında universal bilik və idrak vasitəsinə çevrilirdi. Müqəddəs kitablardan, klassik bilik ənənəsindən alınmış olan hər hansı bir yazı və ya deyim, «ənə-l-həqçilik» fəlsəfəsi qəlibinə salınırdı. ***Nəsiminin*** «kafu nundan vücudə gəldi cahan» misrası bu baxımdan nümunə ola bilər. «Qur'ani-Kərim»də: dünya Allahın «kun!» (ərəbcə «ol!», «yaran!») hökmündən yaranmışdır yazılmışsa, Nəsimi bu yazını anlatmağa çalışaraq onun «kafu nundan» yarandığını söyləyirdi. Bununla o, ərəb yazısındakı «kaf» və «nun» hərflərinin içərisində dünyanın yaranış sirlərinin saxlandığını sübuta yetirməyə çalışırdı. Çünki ərəb yazısında sait səs işlənmədiyi üçün Qur'andakı «kun» sözü yalnız iki hərfin, «kaf»la «nun»un birliyi şəklində yazılırdı. Bununla yanaşı əbcəd sayı ilə «kaf»la «nun» birləşməsinin toplaması 112 rəqəmi verir. Bu rəqəm öz növbəsində «əlif» sözündəki hərflərin əbcəd toplusuna bərabər çıxırdı. Çünki «əlif» sözündəki səslərin cəmi yüksək əbcəd sayı ilə 111 rəqəminə («əlif» – 1, «lam» – 30, «fi» – 80 = 111), kiçik əbcəd sayı ilə 1 rəqəminə bərabərdir, yəni bu sözün də say toplusu 112-dir. Böyük başlanğıc hərfi olan «əlif»in hürufi görüşlərincə «allah» anlayışını bildirməsi də nəzərə alınarsa, «kun» anlayışı ilə həm «əlif», həm «tanrı» mənaca bərabər anlayışlar olurdu.



Hürufilər Qur'andakı kəlamlara sığışmayan bütöv bir fəlsəfi görüş irəli sürdükləri üçün öz fikirlərini gizli söyləməli olurdular. Onlar gizli şifrə yaratmışdılar. Özlərini «cim ilə dal içində» sayan hürufi bilginləri «Sən bu Nəsimnin dilini anla, sözün bil kim, var bu dildən özgə bir lisanımız» söyləyirdilər. Bu gizli «özgə lisan», «quş dili» hürufiləri mö'tədil islamçıların hücumlarından qorunmaq üçün güclü bir vasitəyə çevrilmiş, kəskin siyasi-ideya qarşıdurmasında dönə-dönə özünü doğrultmuşdu. Bu, hürufi başçıları üçün öyünməyə əsas verirdi: «Bir kimsə Nəsimi sözünü fəhm edə bilməz, bu, quş dilidir, bunu Süleyman bilir ancaq». Hürufilər IX yüzil sufisi ***Mənsur Həllacın*** «ənə-l-həqq» («Mənəm yaradan», «Mənəm Tanrı») deyimini ifrat sufilərin «ət-tauhid» görüşünə yaxınlaşdırmaq istəyirdilər. Çünki ifrat sufilər «Lə-ilahə-illəllah» sözləri yerinə «Lə-ənə-illə-ənə» – «Məndən başqa mən yoxdur» deyimini qarşı qoyurdular.

XIII-XIV yüzillərin tarixi hürufi görüşlərinə siyasi direniş və çəkişmələrlə səsləşən yeni çalar gətirmişdi. Moğol çağının kütləvi qırğınları insan varlığı və mənəviyyatını dəyərsiz bir nəsnəyə, heçə endirmişdisə, hürufilik onu bu heçlikdən göy şərafətinə ucaldırdı. Onu dünyanı yaradan, tanrı xislətli varlıq sayırdı. İnsan canlı həyatın, bütün kainatın ən mükəmməl, ən gözəl varlığı kimi ülvilləşdirildi. Nəsiminin «Səni bu Hüsnü camal ilə, bu lütf ilə görən/qorxdular həqq deməyə, döndülər insan dedilər» beyti məhz bu ucalığın, bu ilahiləşdirmənin fəlsəfəsi kimi səslənirdi. Bu insansevərlik fəlsəfəsi artıq öz-özlüyündə «örüş siyasətinin» ürəkbulandırıcı qırğınlarına meydan oxuyurdu, onun mənəvi ölüm hökmünə çevrilirdi.

**DƏRVİŞ, ABDAL, QƏLƏNDƏR, DƏDƏ.** Hürufiliyin, bütünlüklə sufi görüşlərin geniş yayıldığı bir şəraitdə «dərviş» anlayışı, daha geniş ölçüdə sufi dərviş icmaları və onların birləşdirdiyi aşağı təbəqə XIV-XV yüzillərin yaşamında çox nüfuz qazana bildi. Radikal sufiliyin qolu olan hürufi birlikləri özlərini «dərviş», «dərviş-Qələndər» və ya «dərviş abdal» adlandırırdılar. Klassik fütuvətnamə çərçivəsində dörd sufi idrak mərhələsini (şəriət, təriqət, həqiqət və mərifət) mənimsəmiş elm və düşüncə adamlarını Nəsimi «abdal olubən bəglik edən» ariflər kimi yüksək qiymətləndirilirdi. Bu zaman yüksək intellekt səviyyəsində duran bilginlər özlərini «dərviş» adlandırmağı şərəf sayırdılar. Bunun izini yenə Nəsimidə görürük: «Qorxuram ***mən dərvişə*** sən deyəsən din tərkin et». Ölkənin xəritəsində onlarca «Dərviş», «Dərvişli», «Dərvişlər», «Baba dərviş», «Dərviş görünməz» (Güney Azərbaycanda Savalanın qərbindəki Ucarçay mahalında) kimi kənd və yer adları yaranmışdı.

Dədəli, Dədə Günəş (yerli əhali dilində: «Piri Sultan Dədəgünəş»), Əxi baba, Pir (Pirlər), Şeyx (Şıxlı) kimi onlarca kənd adları da tarixən «dərvişlik» mövzusu ilə bağlıdır. Təsadüfi deyildir ki, Şamaxının Dədə-

günəş kəndindəki xaraba məqbərə kitabəsinə görə kənd və məqbərə ***Dədəqulu oğlu Şeyx Məhəmmədə*** məxsus olmuş, Səfəvi qorçu başçılarından biri isə ***Abdal bəy Dədə*** adını daşımışdır.

***Abbasqulu Ağa Bakıxanov*** belə kəndlərdən birində yaşayan Şeyx ***Əbu Səid Abdal Bakuyinin*** həyatını təsvir etmişdir: «O, dərviş idi. Bakı şəhəri yaxınlığında yaşayırdı. Varı az olsa da, kasıblara qonaqsevərlik göstərməkdən və əl tutmaqdan imtina etmirdi. Bir sıra hökmdarların fərmanlarından görünür ki, Şubanı ətrafındakı neft quyuları və taxıl əkinlərinin gəliri onun ölümündən sonra da buraya gələn qonaqlara və onun məzarına qulluq edən rahiblərə xərclənirdi. Zaman ötdükcə Şirvanda baş vermiş müxtəlif qarışıq işlər ucbatından məscid və qonaq otaqları dağıdılmış, onun məzarı və hücrəsi isə torpaqla örtülmüşdür (indi isə «Xəlifə damları» adlanmaqdadır»). Sonra Abbasqulu Ağa bildirir ki, dərviş Əbu Səid Bakuyini Hülakü xanın nəvəsi ***Olcaytu Məhəmməd Xudabəndə*** (1304-1316) ziyarət etmiş və ona himayəçilik etmişdir. Bu, yalnız «dərvişlik» davranışı, dərviş icma və yaşayış yerlərinin çoxalması ilə bağlı deyildi.

Tarixən «dərviş» sözü farscadan «qapı-qapı dolaşan», «dilənçi» deməkdir. İslam ölkələrində bu söz «təirqət adamı», «təriqətə mənsub olan kimsə» mənası almışdı. Oturaq həyat keçirən dərvişlərlə yanaşı, onların müsafir həyat sürən «abdal-qələndər» qolları da vardı. Bu sonuncular da daimi yaşayış yerləri ilə bağlı idilər. Ancaq zaman-zaman mahal və vilayətləri, hətta ölkələri bir təriqət, yeni «yol» adamı kimi dolaşmalı, təriqət «sözünü» insanlara yetirməli idilər. XIV yüzildə dərviş icmaları, xüsusilə abdalqələndəri dərvişlər Azərbaycanın Ərdəbil əyalətində və Gündoğar Anadoluda dövlətə qarşı bir sıra təhlükəli çıxış və üsyanlar keçirərək böyük nüfuz qazanmışdılar. O zaman dərvişlər, sonralar (XVI yüzilin ortalarından başlayaraq) olduğu kimi, aşağı zümrə deyil, nisbətən yüksək yaşayış tərzi olan insanlardı. Abdal-qələndər və ya «dərvişi-qələndəriyyə» sufiləri həm də işıq adlanırdılar. XV yüzilin başlanğıcında Teymur dövlətinə göndərilən Kastiliya elçisi ***Rüi Qonsales De Klavixo*** Ərzrumdan sonra gecələdiyi «Dəllər kəndi», burada yaşayanların həyatı haqda yazmışdır: «Onlar dərviş kimi yaşayırdılar. Özlərini isə «karşik» («işıq» və ya «aşıq» sözlərinin təhrif olunmuş yazısıdır – *Red.*) deyə çağırırdılar. Bir çox mavr (burada yerli azəri türk əhalisi islam dininə görə belə adlandırılır – Red.) ibadət üçün onların yanına gəlir, çox adamları onlar xəstəliklərdən sağaldırlar. Onların çox ehtiram olunan bir başçısı vardı. Onun müqəddəs olduğunu söyləyirdilər. Tamur bəy (Axsaq Teymur – *Red.*) buralardan keçərkən bu Kaşiqi ziyarət etmişdi. Bu dərvişlər ayrıca bir toplum olduqları üçün insanlar onlara sədəqə verirlər. Onların başçısı isə bu kəndin sahibidir... Onlar cır-cındır geyimindədirlər. Gecə-gündüz dolaşaraq dəf çalıb oxuyurlar. Onlar yaşayan evlərin girəcəyində qara yun saplardan toxunmuş bay-



raq asılıdır. Onun üzərində ay çəkilmişdir, sancıldığı yerə isə maral, keçi və qoyun buynuzları keçirilmişdir...»

Beləliklə, o zaman dərviş icmaları asketlik, «tərki-dünyalıq» yaşayış qanunu ilə bağlı olsa da, hələ həqarət və miskinlik təcəssümü deyil, daha çox pərəstiş, inam, işıq ocağı idi. Çünki dərviş kamil insan toplumundandır. Bu topluma isə Məhəmməd peyğəmbərdən sonra kütüblər, müqəddəs pirlər, abdallar, dərvişlər və mürid-yoldaşlar daxil idilər. Bir kamil insan olmaqla dərviş içindəki kini, nəfsi, tamahı, acgözlüyü, ehtirası, amansızlığı, bir sözlə bütün pislikləri tərk etmiş, rəhmdil, xeyirxah, yazıqlara əl tutan bir dünya bulmuşdur. Nəsimi sözləri ilə söyləsək, abdal, aşıq «hərfi dal olmuş, vücudun tanımış», nəfsini bilmiş bir insandır. Mövlana ***Cəlaləddin Rumiyə*** görə də kamil dərviş ilahi həqiqətə varmış ürək sahibidir, onun qəlbinə nur çilənmişdir; o, Tanrının kamil surəti, ürəyinə Tanrı işığı süzmüş insandır. ***Yunus İmrəyə*** görə isə yol əhli olmaqla savaşdadır dərviş, göy vergisidir dərvişlik: «Hər kimə kim dərvişlik bağışlana, qəlbi gedə pak ola gümüşlənə». Və ya: «Bu dərvişlik yoluna eşq ilə gələn gəlsin/Ya dərvişlik nəydigin* bir zərrə bilən gəlsin».

**HÜRUFİLƏRİN HAQQ İŞİ.** Adı çəkilən yüzilliyin ortalarında Hülaku hökmranlığı çöksə də, Azərbaycan siyasi sabitlik qazana bilməmişdi. Üstünlüyü ələ almaq istəyən qüvvələrin qanlı çəkişmələri ölkəni məhvə aparırdı. Çobaniləri ***Cəlayirlər*** əvəz etmişdi. Sonuncuların daxili çəkişmələri Qızıl Orda xanı Toxtamışın, sonra isə Orta Asiyadan sürətlə irəliləyən Axsaq Teymurun qanlı savaşları ilə bir vaxta düşdü.

Belə bir şəraitdə ***Fəzlullah Əbülfəzl Nəimi əl-Hürufi*** (əsl adı ***Əbdür-rəhman***) hürufi başçısı kimi Güney və Quzey Azərbaycanda böyük fəaliyyət göstərdi. Ömrünün son illərində Şamaxı və Bakı şəhərlərində hürufi icmalarının işini yönəldib sahmana saldı. Onun başlıca fəlsəfi əsərləri «Məhəbbətnamə», «Ərşnamə» («Dünyanın taxt-tac kitabı») və «Cavidani-Kəbir» artıq Yaxın və Orta Şərqin bilikli adamlarına yaxşı tanış idi. Nəsimi onun yetişdirməsi, mənəvi oğlu idi. Bu əsərlərin, bütünlüklə hürufi fəlsəfəsinin siyasi qorxusu ilə bağlı Səmərqənddə çağırılan üləmə yığıncağı Fəzlullah Nəiminin qətl edilməsi barədə fitva verdi. Bunu eşidən Nəimi yazırdı: «Cumadi əl ulə ayının çərşənbə gecəsi mən yuxuda gördüm ki, Brucərd şəhərində topal bir adam (Temur – *Red.*) məni tutub qətlə yetirmək üçün bir adam göndərmişdir... Mən görürdüm ki, o kəs axırda məni tutub gətirərək öldürdü, ancaq mən görürdüm ki, sağ qaldım. Buna inanın, gerçək sözümdür... Görürdüm ki, əlimdə parlaq bir qılınc var. Hansısa bir münəccim öz biliklərinə arxalanaraq onun üzərində yazmışdı ki,

* Nə olduğunu – *Red.*

dəfələrlə üsyan olacaqdır. «Üsyan» sözündən sonra (qılıncın üzərində) bir neçə dəfə bu söz də yazılmışdı: «Fəzl»».

Bu hadisələrin çağdaşı olmuş ərəbdilli müəllif ***Makrizyə*** görə, Fəzlullah Nəimi öz asiliyi. Allahın Qur'anda təsvir edilmiş səciyyəsini tanımayıb, şəriətdə qadağan edilmiş iş və davranışa məqbul yanaşması ilə Cağatayların və başqa ərəb olmayan xalqların inamını sarsıda bilmişdi. Buradan aydın olur ki, Hürufi təbliğatı geniş yayılmış, «ərəb olmayan» Azərbaycan, Türkiyə, İran əhalisinin, hətta Temuri imperatorluğunun Cağatay əhalisinin düşüncəsində güclü yer tuta bilmişdi.

Hürufilik işinin böyük bir siyasi təhlükəyə çevrildiyini görən Temur, Səmərqənd Ülamə yığıncağının fitvasını dərhal yerinə yetirməyi Azərbaycanda olan oğlu ***Miranşaha*** əmr etmişdi. Miranşahın tələbi ilə Fəzlullah Nəimi Şirvan dövləti ərazisindən çıxarıldı, sonra isə tutulub Naxçıvan ölkəsində Miranşaha verildi. Artıq altı il Əlincə qalasını mühasirədə saxlayan, bu qalanın qəhrəman direnişini qıra bilməyən Miranşah 1393-cü ildə Fəzlullah Nəimini amansızcasına öldürtdü. Bu faciə hürufi şairlərdən birinin yazısında belə təsvir edilmişdir: «Temurləngin fitnə və fəsadı gündoğar və günbatar ölkələri bürüdü. Əmr gəldi: bütün insanların və mələklərin hadisi, heç kimsəyə bənzəri olmayan Fəzlullah Şirvan mülkünü tərk etsin. Bu zaman Yeziddən törəmiş məlun it, Miranşah adlı bir şeytan Əlincə qalasının ağzında idi. Pəncşənbə günü Zülqə'dənin 6-da Hicri tarixin 896-cı ilində Fəzlullah öldürüldü».

**ŞİRVANŞAH İBRAHİM.** Bu zaman – XIV yüzilin 80-90-cı illərində Azərbaycanın siyasi həyatında böyük dəyişikliklər baş verirdi. 80-ci illərin başlanğıcında Şirvanşah Kəsrani evi büsbütün nüfuzdan düşmüşdü. Elxanilər çağında olduğu kimi, Çobanilər və Cəlayirlər çəkişmələri illərində də bu sülalə xalqın dinc yaşayışını təmin edə bilmir, yeni hərbi-siyasi çəkişmə oyunçularının əllərində oyuncaq olurdu. Buna görə 1382-ci ildə Şirvan dövlətini narazılıq bürüdü. Kiçik feodallar və kəndlilər üsyana qalxdılar. Şirvanşah ***Huşəng*** öldürüldü. Şirvanşahlar sülaləsinin Dərbəndi qolundan olan ***İbrahim*** Şamaxıya dəvət edilərək Şirvanşah taxtına çıxarıldı. O, Hüşəngin əmisi oğlu idi, bir neçə il atası ilə Şirvanşahın təqibindən qaçıb Şəki kəndlərindən birində gizlənməli olmuşdu.

***Münəccimbaşı*** xalq çıxışları və ara çəkişmələrindən sonra yerli əyanlar tərəfindən I İbrahimin taxta çıxarılması barədə aşağıdakı rəvayəti söyləyir: «Onlar hökmdarlıq nişanəsi sayılan dövlət atları və elçiləri ilə İbrahimin yanına yola düşərək, onu əkin işindən sonra yorğun düşüb şumlanmış torpaq şırımı yaxınlığında bir ağac altında uyumuş gördülər. Onlar hökmdar qulluqçuları kimi davranaraq onun üzərinə çətir çəkdilər, kənarda dayanıb ayılmasını gözlədilər. Ayılarkın alqışlayıb qarşısında sədaqət andı



içdilər. Onu şəhərə (Şamaxıya) gətirib taxtda oturtdular, o da ölkələr fəth edib öz təbəələri içərisində ədalətlə hökm edərək, onların ürəklərini ələ aldı, səxavət göstərdi. O, güclü mövqe tutaraq, ad çıxarıb, şöhrət qazandı».

Tezliklə bütün Azərbaycan Temurilər ilə Qızıl Orda arasında barışmaz çəkişmələrin meydanına çevrildi. 1386-cı ildə Temurun yürüşünü qabaqlamaq istəyən Toxtamış xan 90 minlik ordu ilə Dərbəndi keçərək Şirvan dövlətini dağıntılara uğratdı, Təbrizə yaxınlaşıb onu mühasirəyə aldı. Səkkiz günlük mühasirədən sonra Təbriz əhalisindən 250 qızıl tümən bac aldı. Ancaq andını pozaraq açılmış şəhər qapılarından qoşunla içəri soxuldu, minlərlə adamı qılıncdan keçirdi. Marağa, Mərənd və Naxçıvanın da aqibəti belə oldu. 200 minə kimi adam əsir aparıldı. Toxtamışın tələsik ölkədən çıxması Temurun hərbi fəallığı ilə bağlıdır. Hələ 1385-ci ildə Cəlayir qoşunu ilə toqquşub onu əzən Temur bir il ötdükdən sonra Azərbaycana dönərək yenidən onları əzdi. Təbriz yeni dağıntıya uğradı. Yenə də bir çox günahsız adamlar öldürüldü, sənətkarlar, ustalar ailələri ilə birlikdə Səmərqəndin tikilib bəzədilməsi üçün əsir aparıldı.

**ƏLİNCƏQALA MÜDAFİƏSİ.** Naxçıvan yaxınlığında, özü ilə bir ad daşıyan çay üzərindəki sıldırım dağ başında yerləşən Əlincə qalası alınmaz sayılırdı. Hülakü, Çobani və Cəlayir basqınları sayəsində ələ keçirilən saysız xəzinələrin zaman-zaman Əlincəqalada saxlanılması bununla bağlı idi. Temuri sərkərdəsi ***İlyas Xoca*** 1387-ci ildə Naxçıvanı tutsa da, bu qalanı həmlə ilə ala bilmədi. Ayrıca bir qoşunla qalanı mühasirəyə alıb qalan gücü ilə Ermənistan və Gürcüstana yürüş etdi.

Cəlayirli ***Sultan Əhməd*** Əlincəqalanın müdafiəsinə başçılıq etməyi oğlu Məlik Tahirə və sərkərdə Əmir Altuna tapşırmışdı. Çünki Cəlayir sultanlığının xəzinəsini buraya gətirtmişdi. Qalada yalnız üç yüzə yaxın qorçu var idi. Əlincəqalanın başlıca müdafiəçisi xalq özü idi. Bu müdafiə getdikcə bütün Azərbaycan üçün bir yenilməzlik rəmzinə çevrilmədə idi. Hürufi başçısı Fəzlullah Nəiminin burada öldürülməsi xalqın nifrətini daha da artırmışdı. Temuri qoşunlarının irəliləməsinə yol verməmək üçün Əlincəqalanın müdafiəsində hətta gürcü döyüşçüləri də iştirak edirdilər. 1397-1398-ci ilin qışında Şəki hakimi ***Sidi Əli Orlat*** gürcü qoşunu ilə birlikdə qalanın köməyinə gəldi. O biri yandan vəziyyətin kəskinləşməsi ilə bağlı Temurun oğlu Miranşah Əlincəqala üzərinə Xorasandan yeni qoşun göndərdi. ***Şərafəddin Əli Yəzdi, Əbdürrəzzaq Səmərqəndi*** kimi orta çağ müəlliflərinin yazdığına görə, Əlincəqala qarşısında qanlı döyüşlər oldu. Şəki hakimi Əli döyüşdə şəhid oldu. Bununla belə Temurilər qoşunu üstünlük qazana bilmədi, ağır itki verib geriyə çəkilməli oldu. Yalnız o biri ildə onlar müdafiəni qıraraq, qalaya soxula bildilər. Beləliklə, Əlincəqalanın

qəhrəman müdafiəsi bəzi illər ara verməklə 1387-ci ildən 1399-cu ilədək, yəni 12 il davam etmişdir.

Şirvanşah dövləti böyük təhlükə qarşısında qalmışdı. Belə bir şəraitdə Şirvanşah I İbrahim öz qorxunc düşmənləri ilə silahlı mübarizəyə girməyi mümkün saymırdı. O, Temur və Toxtamış arasındakı barışmaz rəqabətdən istifadə etmək siyasətinə üstünlük verirdi. O, böyük hədiyyələrlə Temurun görüşünə gəlmiş, ona sədaqət bildirmişdi.

Bu zaman Qarabağda olan Temur Dərbənddən keçib Qıpçaq çölünə, Qızıl Orda üzərinə yürüşə hazırlaşırdı (1386). Şeyx İbrahim əvvəlcə Şamaxıda Temurun adına xütbə oxutdu. Onun adına sikkə kəsdirdi, sonra böyük bəxşişlə hüzuruna gəldi. Moğol xanlarının adəti üzrə bağışlanan hər pay 9 dənə, qul isə səkkiz idi. Səbəbi soruşulduqda, «doqquzuncu mən özüməm» söyləmişdi. Bu cavabdan məmnun qalan Temur, onu Şirvan hakimi kimi tanıdı, bəzi yeni torpaqları ixtiyarına verib ayrıca bir fərmanla öz varislərinə Şirvanşahın övladlarını da qorumağı buyurdu. Temurun yeddiillik (1399-1405) savaşı zamanı Osmanlı ***Sultan Bayezid*** üzərinə Kiçik Asiya yürüşlərində Şirvanşah İbrahimin iştirak etməsi, söz yox ki, Azərbaycanın dövlət mənafeyinə uyğun gəlmirdi. Ancaq bu yolla o, öz məmləkətini talan və dağıntılardan xilas edib, başqa vassallar kimi Temurilərə bac verməyərək, öz ölkəsini gerçəkdən idarə edən bir hökmdar kimi ad qazandı. Bunun sayəsində Temur ordusu Şirvan dövlətinə toxunmamış, təsərrüfata və dinc əhaliyə nisbətən az xəsarət yetirmişdi. Temurun vassalı olmaqla Şirvanşah İbrahim onun Toxtamışa qarşı sonrakı yürüşündə fəal iştirak etmişdi. 1395-ci ildə Terek çayı üzərində baş verən bu döyüşdə Temur ordusu Toxtamış üzərində qələbə çaldı. Bu həm də Şirvanşah İbrahimin qələbəsi sayıla bilərdi, çünki Azərbaycanı iki yandan məngənə kimi sıxan qorxunc düşmənlərdən biri o birinin gücü ilə aradan götürülmüşdü.

Savaşdan sonra Şirvanşah İbrahimin çəki və nüfuzu daha da artdı. Temur ilə «xüsusi» münasibətlərdən o, Şirvan dövlətinin güclənməsi üçün ustalıqla istifadə edirdi. «Arran Qarabağı», yeni bütün düzənlik və Dağlıq Qarabağ tezliklə Şivan dövlətinə qatıldı. Şəki əyaləti də bu dövlətə tabe idi. Şəki hakimi Sidi Əlinin Temur qoşunlarına qarşı Əlincə qalasının mühasirəsində iştirak etməsinə və orada qəhrəmancasına həlak olmasına baxmayaraq, Şirvanşah İbrahimin təklifi ilə onun oğlu ***Sidi Əhməd*** Şəki əyalətinə hakim qoyuldu. Beləliklə, Şəki əyalətinin Şirvanşah dövlətindən vassal asılılığı güclənmiş oldu. Şirvanşah I İbrahimin vasitəçiliyi ilə gürcü çarı ***VII Georgi*** də Əlincə qalası müdafiəsində azərbaycanlıların tərəfində iştirak etməsinə baxmayaraq Temurun vassalı kimi tanındı. Bu, Gürcüstanda siyasi sabitləşmə üçün çox dəyərli bir iş idi.



## 2. ÖLKƏNİN İCTİMAİ-İQTİSADİ HƏYATI. TORPAQ SAHİBLİYİ VƏ ONUN MƏRKƏZİ HAKİMİYYƏTƏ TƏSİRİ

**İQTİSADİ DİRÇƏLİŞ. ŞƏHƏRLƏR VƏ TİCARƏT.** Hülakü imperatorluğu dağıldıqdan sonra ölkənin iqtisadi yaşayışı dirçəliş yoluna birdən-birə çıxa bilməmişdi. Qazan xanın iqtisadi islahatları çoxdan dayandırılmışdı. «Örüş siyasəti» ilə bağlı olan vergi sistemi kənd və şəhərlərin, suvarma şəbəkəsinin və oturaq təsərrüfatın dirçəlişinə qarşı durmada idi. XIV yüzilin 40-90-cı illəri Azərbaycan tarixində siyasi hərbi çəkişmələr baxımından ən çətin çağlardan biri idi. Ancaq bütün bunlara baxmayaraq ölkənin iqtisadi durumu dəyişməyə başlamış, təsərrüfat həyatı dirçəlişə yönəlmişdi. Orta çağ qaynaqlarında, xüsusilə Avropa diplomat və səyyahlarının gündəliklərində Quzey Azərbaycan torpaqlarının (Şirvanın) dirçəlib inkişaf etməyə başladığı göstərilir. ***Ambroco Kontariniyə*** görə, bura «gözəl və bərəkətli düzənlik görünüşünə malikdir və Uzun Həsənin vilayətlərinə (Güney Azərbaycana) nisbətən daha yaxşı, daha varlıdır».

Suvarma arxlarının və kəhrizlərin çox olması, sıradan çıxanların bərpa olunub həyata qaytarılması istər Güney, istər Quzey torpaqlarda əkinçiliyin, ipəkçiliyin, pambıqçılığın, üzümçülüyün, bağ və bostanların inkişafına yol açdı. Azərbaycan ipəkçiliyi onu nəinki Yaxın və Orta Şərq şəhərləri, həm də Quzey Aralıq dənizi dövlətləri ilə sıx bağlayırdı. Şirvanşah dövlətində istehsal olunan ipək Venesiyada, Bursada, Dəməşqdə, Kaşanda, bir sıra başqa ölkələrdə satılır, burada ondan gözəl parçalar və məxmər toxunurdu. O zaman ipək Azərbaycanı «Böyük ipək yolu»na bağlayan bir vasitə, ölkə ixracının başlıca göstəricisi idi. Azərbaycan ipəyi Rusiyada da satılır, bu dövlət ərazisinə çıxarılan mallar içərisində görkəmli yer tuturdu. Azərbaycanın ipək təsərrüfatı beynəlxalq ticarətdə və dövlətlərarası əmək bölgüsündə mühüm iqtisadi amilə çevrilmişdi.

Yerli ipək baramasının bolluğu Şamaxını mühüm ipəkçilik mərkəzinə çevirmişdi. Kontariniyə görə, Şamaxı ipəyi Venesiyada Talaman ipəyi adı ilə tanınırdı. Şamaxıda saya çeşidli toxuma ipək parçalar istehsal edilirdi. Şirvanşah dövlətinin paytaxtı həm də beynəlxalq ipək ticarəti mərkəzlərindən biri olmuşdu. XV yüzilin başlanğıcında Temurun paytaxtı Səmərqənd yollarında səyahətdə olan Rüi Qonsales de Klavixo yazırdı: «Şamaxıda ipək lap çox istehsal olunur, ipək almaq üçün hətta Genuya və Venesiya tacirləri də bura gəlirlər». Çeşidli ipək parçaları qumaş, güləbətin, pambıq parça malları, daş-qaş və şəhər sənətkarlarının hazırladığı başqa mallar Şamaxı bazarına gətirilir, Şərq ölkələrindən, Avropa və Rusiyadan gələn tacirlərin alış-verişini təmin edirdi. Adı çəkilən Kontarini öz

gündəliyində yazmışdı: «Şamaxı Təbriz kimi böyük deyil. Ancaq mənim fikrimcə, hər baxımdan ondan daha yaxşı, yaşayış üçün zəruri olan hər şeylə doludur». Şamaxı şəhristanı təqribən 100-200 hektar sahə tuturdu. Tarixən yaranmış olan əhali sıxlığı nəzərə alınarsa, burada beş-on min ev və ya otuz-altmış min əhali yerləşirdi.

Ölkənin başqa qədim şəhəri olan Təbriz isə bütün Yaxın və Orta Şərqdə böyük sənət və ticarət mərkəzlərindən biri idi. XV yüzilin başlanğıcında Klavixo Təbrizdə 200 min ailə yaşadığını yazmışdır. Həmin yüzilin sonunda isə tarixi qaynaqlarda Təbriz şəhərində 200-300 min adam yaşaması göstərilir. Başqa bir avropalının müşahidəsinə görə, Miranşahın Təbriz şəhərindən topladığı gəlir Fransa kralının öz dövlətindən götürdüyü gəlirdən çox idi. 1460-cı ilə düşən bir məlumat üzrə Təbrizin ticarət və sənətkarlığından yığılan gəlirin (tamğanın) və gömrüklərin mükatiyə toplusu 60 min çervona çatırdı.

Ötən yüzillərdə olduğu kimi, Təbriz bütün Yaxın Şərqin həyatında öz iqtisadi yerini saxlayırdı. Artıq XIII yüzildən şəhər ipək toxuculuğunun mərkəzi idi. Qazan xanın hakimiyyəti illərində Təbriz tikintiləri böyümüş, şəhər Yaxın Şərqin siyasi və iqtisadi mərkəzinə çevrilmişdi. 1395-ci ildə Həştərxanın, 1400-cü ildə isə Bağdadın Temur qoşunları tərəfindən dağıdılması, tarixçilərin fikrincə, Təbrizin dəyərini daha da artırmışdı. Bakuvinin yazdığına görə: «Təbrizin güclü divarları və heyrət ediləcək binaları var. Bu, Azərbaycan ölkəsinin paytaxtıdır. Orada çaylar çoxdur, şəhər bağlar əhatəsindədir». Kontarini isə yazmışdır: «Burada hər cür ərzaq malları var. Ərzağın qiyməti bahadır. Şəhərdə bir neçə bazar vardır. Buraya çoxlu ipək gətirilir. Sonralar ipək karvan vasitəsilə Hələb şəhərinə aparılır». Hələb şəhəri isə Təbriz mallarının bir sıra ölkələrə, o sıradan su yolu ilə İtaliya şəhər respublikalarına çıxarılması üçün tranzit mərkəz idi. İpək və ipəkçiliklə yanaşı Təbrizdə pambıq və yundan toxunmuş parçalar, şal, gəbə, zərgər və zərbaf malları, silah və bəzək şeyləri istehsal olunurdu. «Dəra-yi qəssab» adlanan dörd rəngli Təbriz ipək parçası o zaman bütün Azərbaycan sənətkarlığının göstəricisi sayılırdı.

Təbriz və Şamaxı ilə yanaşı ***Sultaniyə*** şəhəri də alış-veriş mərkəzi kimi tanınırdı. Klavixonun yazdığına görə, xristian ölkələrindən, ***Kafa*** (Krım) və ***Trabzondan***, Türkiyə, Suriya və Bağdaddan tacirlər «Hər il bura ticarətə gəlirlər». Təbriz, Şamaxı, Sultaniyə, Marağa, Ərdəbil, Gəncə, Beyləqan və başqa şəhərlərdə pulkəsən zərbxanalar vardı. Bu, sənətkarlığın mühüm göstəricilərindən biri sayılırdı. Bakuviyə görə, Gəncə və Beyləqan Aranın başlıca şəhərləri idi. Gəncə də ipək toxuculuğu ilə tanınırdı. 1257-ci ildə Hülakü xan qoşunlarının dağıtdığı Beyləqan XIV yüzilin ortalarında dirçələ bilmişdi. Şəhərdə gümüş hülakü sikkələri kəsilirdi. Şərafətdin Yəzdiyə görə: «Temur Beyləqandan keçərkən bir gün orada



qalıb istirahət etdi. Beyləqanda o qədər bal var idi ki, qoşun istədiyi qədər götürdü, ancaq şəhərdə bal azalmadı». Başqa orta çağ qaynağında Temur tərəfindən şəhərin abadlaşdırılması, hamam, ibtidai ruhani məktəbi (dəbistan) tikdirməsi, məşhur «Beyləqan arxının» (uzaq keçmişdə «Gavur arx», XIX yüzildə «Xan qızının arxı» adlanırdı – Red.) işə salınması barədə əmr verilməsi bildirilir. XV yüzil müəllifi ***Fəzlullah bin Ruzbihan*** da Qarabağın Araz çayı ətrafında «çox gözəl arxların» olduğunu yazır. Ancaq sonrakı dövrdə şəhər tənəzzül edib xarabaya çevrildi.

XV yüzildə Xəzər dənizi üzərində başlıca liman kimi Bakı şəhərinin rolu artmış, Dərbənd isə öz əhəmiyyətini itirməyə başlamışdı.

**TORPAQ SAHİBLİYİ.** Yaxın Şərq ölkələrində olduğu kimi Azərbaycanda da ənənəvi «torpaq beşliyi» – müxtəlif torpaq sahibliyi qalmaqda idi. Dövlət torpaqları ***Ərazi-yi Divani*** və ***Ərazi-yi Xassə*** (padşah mülkləri) adlanan iki hissəyə bölünürdü. Bunların arasında tutarlı bir fərq yox idi. Hər ikisi şahın yüksək və bölünməz ixtiyaratında saxlanırdı. Yalnız bir fərqlə: divan torpaqlarının gəliri dövlətin ümumi xərclərinin, xüsusilə ordunun saxlanması ilə bağlı olan xərclərin ödənilməsi, xas torpaqlarının gəliri isə padşah ailəsinin və bütünlüklə sarayın saxlanması üçün işlənirdi. Mühüm yer tutan ***vəqf*** torpaqları da iki yerə bölünürdü. Dini müəssisələrin xüsusi torpaqları ***Vəqf-i xeyri***, ruhanilərin özlərinin torpaq mülkləri isə ***Vəqf-i əhli*** adlanırdı. Tarixçi ***İsgəndər bəy Münşi*** XV yüzildə vəqf torpaqlarının Güney Azərbaycanda, xüsusilə Təbriz mahalında çox olduğunu yazırdı.

Oturaq əyanların irsi torpaqları ***mülk*** adlanırdı. Bu torpaqlar sözsüz olaraq atadan oğula və ya başqa hüquqi varisə keçə bilir, alqı-satqıya qoyulur, istənilən zaman bu və ya başqa şəxsə bəxş edilə və hətta uduzula bilərdi. Aydındır ki, bu torpaqlarda oturub onu becərən kəndlilər mülk sahiblərinin tam asılılığında idilər. Mülk torpaqlarının böyük bir qismi kənd icmalarının istifadəsinə verilir, buna görə şərti olaraq «icma torpaqları» adlanırdı. Mülklərin ikinci qismi ayrı-ayrı parçalar şəklində kəndli ailəsinə icarəyə verilirdi. Birinci halda feodal istismarının özülü kəndli icmasının küll halında ödədiyi vergidən, ikinci halda isə tək kəndli təsərrüfatının ödədiyi vergidən ibarət olurdu. Hər iki halda ödənilən vergi, məhsulun yarısına qədərini, hətta yarıdan çoxunu mülk sahibinin ixtiyarına verirdi.

Torpaq sahibliyinin şərti forması sayılan «bağışlama torpaqları» XIV yüzilin sonlarında ***soyurqal*** adlanmağa başlamışdı. Soyurqal torpaqları keçmiş iqta torpaqlarının yerini tutmuşdu. «Soyurqal» anlayışı Moğolustandan gətirilmişdi, «bağışlama», «bəxşiş» demək idi. Hərbi bağışlama torpaqlarının bir növü olmaqla, soyurqal torpağı ilk dəfə XIV yüzilin sonuncu rübündə ortaya çıxmışdı. Qaraqoyunlu hökmdarı ***Qara Yusuf*** dövlət qulluqçularından birinə Ərdəbil və Xalxal mahallarını soyurqal

vermişdi. Sonralar bu şəxs dönüklük göstərib Qara Yusufa qarşı çıxdığı üçün onunla savaşa girmək lazım gəlmiş, soyurqal bəxşişi haqda fərman ləğv edilmişdi. Bu hadisədən sonra Ərdəbil mahalı Səfəvi dərviş təşkilatının başçısı ***Şeyx İbrahim Şeyxşahın*** ixtiyarına keçmiş, onun varisləri isə buranın irsi hakimləri olmuşdular. Soyurqal, dövlət tərəfindən divan torpaqları hesabına paylanırdı. Onun verilməsi üçün əyanların, tayfa və əyalət əmirlərinin dövlət qarşısında hərbi-inzibati qulluq daşıması gərək idi. Bu iki xüsusiyyət iqta-bəxşiş torpaqları timsalında da özünü göstərmişdi. İqta kimi, soyurqal torpaqları da irsən atadan sonra oğlunun, yəni hərbi-inzibati qulluq işində ilkin şəxsin yerinə keçən varisin ixtiyarında qalırdı.

Ancaq soyurqal torpaqları hərbi-inzibati qulluq əyanlarına yeni üstünlük və imtiyazlar verirdi: bu əyanlar soyurqal torpaqları üzərində inzibati və məhkəmə hakimiyyəti səlahiyyəti alır, dövlət xəzinəsinə gəlir verməkdən azad olunurdular. Mərkəzi hakimiyyət məmurlarının nəzarəti soyurqal torpaqlarına aid edilmirdi. Halbuki Hülakülər dövründə belə (Qazan xanın torpaq islahatı) dövlət qulluqçularına bu ölçüdə üstünlük və imtiyazlar verilmirdi. O zaman kiçik iqta sahibi olan hərbi qulluqçular vergilərdən azad edilsələr də, maafi – vergi immuniteti alsalar da, torpaqlar dövlət divanının ixtiyarında qalır, bu divanın məmurlarına isə iqta torpaqlarına nəzarət etmək və burada vaxtaşırı yoxlama keçirmək hüququ verilirdi.

Soyurqal hərbi-bəxşiş torpaqları XV əsr sosial tarixinin çox təzadlı təsisatlarından biridir. Bu torpaqlar sahəsinə görə bəzən çox da böyük olmurdu, iki-üç kəndi birləşdirirdi. Ancaq yuxarıda söylənildiyi kimi, bu və ya başqa halda hərbi köçəri əyanlara – əyalət və tayfa əmirlərinə bütöv mahal və ya əyalətlər də soyurqal adı ilə bağışlanırdı. Belə feodal, soyurqal torpağında yerləşən şəhər və kəndlər, onların əhalisi üzərində həm inzibati hakimlik hüququ, həm də mühakimə etmək hüququ almış olurdu. Əgər onun mərkəzi divan idarəsi məmurlarının nəzarəti altından bütünlüklə çıxarılması da nəzərə alınarsa, belə soyurqal torpağının, əslində «dövlət içində bir dövlətə» çevrilməsi aydın olar. Soyurqal torpağı alanlar mərkəzi hakimiyyətin başlıca sosial dirəyi, dayağı idilər. Ancaq belə geniş üstünlük və imtiyazlar verilməsi nəticəsində soyurqal sahibləri çox böyük siyasi-inzibati-maliyyə sərbəstliyi əldə edirdilər. Son olaraq onlar artıq mərkəzi hakimiyyətin hər hansı bir asılılığından çıxmağa çalışırdılar. Bununla da mərkəzi hakimiyyətin dayaq və arxası olan bir zümrə mərkəzdənqaçma axınına qoşulur, üstünlük və imtiyazlar aldığı mərkəzi hakimiyyəti öz əlində oyuncağa çevirmək üçün mübarizəyə girişirdi.

XV əsrin son rübü bu vəziyyəti tam çılpaqlığı ilə üzə çıxardı. Bu zaman soyurqal bəxşişlərinin sayı çox artmışdı. Ağqoyunlu ***Rüstəm padşah*** (1493-1496) xüsusilə «səxavət»li siyasət yeridirdi. O çağın bir qaynağında yazılmışdır: «O, öz adamlarına verdiyi qədər Ağqoyunlu və Qaraqoyunlu



sultanlarının heç birisi (soyurqal) paylamamışdı». İş o yerə çatmışdı ki, Ağqoyunlu şahzadələri də yaxın adamlarına soyurqal bağışlanması barədə fərman verirdilər. 1498-ci ildə şahzadə ***Qasım Mirzənin*** əyanlarından İsfəndiyar adlı birisinə verdiyi soyurqal fərmanı buna canlı misaldır. Nəticədə, ölkədə siyasi böhran yarandı. Əsrin son on ilində Ağqoyunluların Təbriz taxtında səkkiz sultanının bir-birini dəyişməsi bu böhranın mühüm göstəricilərindən biri idi.

**ƏHMƏD AĞQOYUNLU İSLAHATI.** 1497-ci ildə taxta çıxan bu səkkiz sultanın biri ***Əhməd Ağqoyunlu*** bu vəziyyətə son qoymaq siyasəti yeritməyə başladı. O, babası ***Uzun Həsən*** kimi şəhər əhalisinə, oturaq əkinçiliyi təmsil edən kəndlilərə, ziyalılara və ruhanilərə arxalanmağa çalışaraq hərbi-feodal əyanlara, əslində, savaş elan etdi. Soyurqal sahiblərinə «əbədi bağışlanmış» irsi torpaqlar haqqında o günə kimi verilmiş bütün fərmanların qüvvədən düşüb ləğv edildiyini bildirdi. Yalnız bir sıra üləma və ruhanilərin vergilərdən azad olunması (maafi) barədə fərmanlar verdi. Dövlətin sosial siyasətində belə bir köklü dönüş hərbi əyanların nifrət və qəzəbini doğurdu. Yeddicə ay sultanlıq taxtında oturan Əhməd Ağqoyunlu devrilib öldürüldü. Onun devrilməsindən vəcdə gələn və hərbçil əyanlara, görünür, bağlı olan yazarlardan biri bu hadisəyə kiçik bir həcv qoşmuşdu. Burada deyilirdi ki, dünya işlərini bir «Türkiyə kələmi»* idarə edirdi; çox heyif, payız düşən kimi (yəni kələm yetişib fayda verməmiş) yoxa çıxdı». Halbuki orta çağ tarixçilərindən Həsən bəy Rumlu, Əhməd Ağqoyunlunu «bilik adamları və yoxsulların himayəçisi» adlandırır. 1497-ci il islahatının uğursuzluğundan sonra hərbçil köçəri əyanların əl-qolu açıldı, mərkəzi hakimiyyət gücdən düşdü, 1499-cu ildə Ağqoyunlu dövləti iki yerə parçalandı.

Get-gedə dərinləşən siyasi böhranla yanaşı ölkədə xalqın narazılığı da artmaqda idi. Bunun başlıca səbəbi vergilərin ağırlığı, kəndlilərin cana doyması idi. Şahzadə Qasım Mirzənin yuxarıda adı çəkilən soyurqal fərmanı üzrə kəndlilər soyurqal sahibi qarşısında otuz bir vergi və mükəlləfiyyət ödəməli idilər. Fərmanda sadalanan bu vergi və ödənclərin başlıcaları aşağıdakılar idi: ***malcəhət*** (xərac) – başlıca torpaq vergisi, kəndli məhsulun xeyli hissəsini soyurqal sahibinə ödəyirdi; ***ailə*** və ***can vergisi*** – hər kəndli ailəsinə istisnasız olaraq adambaşına ödənilirdi; əsgəri qoşunların, inzibati idarə məmurlarının və ruhanilərin xeyrinə yığılan vergi. ***Tamğa*** –

* Əhməd Ağqoyunlu Uzun Həsənin və Sultan Mehmet Fatehin nəvəsi idi. Onun atası Uzun Həsənin oğlu Uğurlu Məhəmməd, anası isə Fatehin qızı Gövhərxan Sultan idi, həm də Sultan II Bayazidin qızı Aynaşah Sultana evlənmişdi. Bir sözlə, Türkiyədə böyümüş olması ilə yanaşı boyca kiçik və kök, əl-ayağı qısa idi. Bütün bunlara görə istəməyənləri ona «Türkiyə kələmi» və «Gödək Əhməd» ləqəbi vermişdilər.

sənətkarlar və tacirlərdən moğol çağından bəri yığılan xüsusi vergi. XV əsrdə bu vergini aradan götürmək cəhdləri boşa çıxmışdı; ***şilanbəha*** – hakimlərin mətbəx (aşxana) xərcləri üçüq toplanırdı; ***rəsmülsədarə*** – ruhani başçısının xeyrinə yığılırdı; rəsmül-vəzarə – vəzirin xeyrinə toplanırdı; ***darğalıq*** – yerli hökumət məmurları üçün yığılırdı; ***rüsumi-ümmal*** – maliyyə məmurları üçün yığılırdı; ***məvaşi*** – mal-qaradan, yaxud otlaqlardan yığılan vergi; ***tağar*** – taxılı olanlardan və çaxır çəkənlərdən yığılan vergi; ***avarizat*** – müxtəlif hadisələrlə bağlı yığılan ərzaq vergisi və b.

## 3. SABİTLİYƏ DOĞRU ÇƏTİN YOL. ŞİRVAN, QARAQOYUNLU VƏ AĞQOYUNLU DÖVLƏTLƏRİ

**TEMURİLƏRƏ QARŞI XALQ ÜSYANI.** Temurun ölümündən sonra onun yaratdığı imperiya parçalandı. Azərbaycanın siyasi xəritəsində nisbətən sabit dövlətçiliyi olan quzey torpaqlar Şirvanşah İbrahimin siyasəti nəticəsində müstəqillik qazandı.

Ölümündən bir az əvvəl (1404-cü ilin martında) Temur, «Hülakü xan ölkələri və ulusunun» hökmdarlığını nəvəsi ***Ömər Mirzəyə*** vermişdi. Azərbaycan, İraqi-Əcəm, Aran, Ərminiyyə, bütün Diyari Rum və Şam onun hökmü altına, Şirvan, Mardin, Gürcüstan hakimləri isə onun tabeliyinə keçdi. Ancaq Temurun «qızıl damğalı yarlığı» çəkişmələrə son qoya bilmədi.

Ömər, atası Miranşah və böyük qardaşı ***Əbubəkr*** ilə Azərbaycan torpaqları üstündə savaşda idi. Onun geri çəkilən qoşunu saysız azğınlıqlar edir, Güney Azərbaycan şəhərlərinin əhalisini soyub talayırdı. O, qardaşı Əbubəkr tərəfindən toqquşmada məğlub oldu. Ancaq Əbubəkr də onun talançı işini davam etdirdi. 1405-ci ilin oktyabrında Araz üzərində Naxçıvana yaxın yerdə Əbubəkrin qoşunu Azərbaycana yenicə qayıtmış ***Qara Yusuf Qaraqoyunlunun*** qoşunu ilə qarşılaşdı. Qara Yusuf Əbubəkrə: «Bizim şəxsi düşmənçiliyimiz üzündən bu qədər çox adam tələf olur. İgidlik və bahadırlıq ikimizin qarşı-qarşıya gələrək vuruşmamızı gərək söyləyir» desə də, Temurun nəvəsi təkbətək döyüşə gəlmədi. Cağatay ordusu üç günlük döyüşdə pozularaq qaçıb dağıldı. Əbubəkr bu uğursuzluqdan sonra Təbrizə gedib əsgərlərinə, şəhəri görünməmiş ölçüdə yağma etdirdi. Əhalidən yüz min qızıl pul tələb etdiyi üçün şəhər üsyana qalxdı. Bu üsyana Təbriz Əxi icmasının başbilənlərindən biri ***Şeyx Əxi Qəssab*** başçılıq edirdi. Əxi Qəssab şəhərdə tamğa vergisinin toplayıcısı idi. Sosial durum baxımından imtiyazlı zümrədən olsa da, əxilik amalları onu xalq azadlıq hərəkatına bağlamışdı. Təbriz üsyanı nəticəsində Temurilər hakimiyyətini təmsil edən qüvvələr devrilib qovuldu. Üsyan etmiş Təbriz əhalisi Quzey Azərbaycan hökmdarı Şirvanşah I İbrahimə üz tutub onu öz qoşunu ilə Təbrizə çağırdı. Şirvanşahın qoşunla Təbrizə gəlməsi



kiçik bir vaxt içində (may-iyun 1406-cı il) Azərbaycan torpaqlarını birləşdirə bildi. Bu, bir tərəfdən hürufilik və əxilik amallarının xalq içində geniş yer tutduğunu, o biri tərəfdən isə Azərbaycanda siyasi birləşmə meylinin real gücə çevrildiyini göstərirdi. Temurilərə qarşı azadlıq hərəkatında hürufilərin iştirak etməsini göstərən tutarlı qaynaqlar bəllidir. Bunlardan biri Nəiminin oğlu ***Nurullahın*** atasının davamçısı ***Həsənlə*** yazışmasıdır. Bu yazışmadan aydın olur ki, Temurilərin şəriət məhkəməsi Nəiminin oğullarına qarşı aşağıdakı ittihamları irəli sürmüşdü: a) Miranşaha və Şahruh Mirzəyə qarşı sui-qəsd təşkil edilməsi, sonuncunu yenidən öldürmək cəhdi; b) ***Damğan*** və ***Semnanda*** Şahruh Mirzəyə qarşı qoymaq üçün 30 min adamın hazırlanıb öyrədilməsi; c) Təbriz və Sultaniyyədə qiyam qaldırılması, Təbrizdə hakimiyyəti ələ keçirmək istəyi. Nurullah özü bildirmişdi ki, «mən lənətə gəlmiş Şahruhu bıçaqla öldürmək üçün ayrıca bir adam göndərmişdim. Temur, Miranşah, bütün cağataylar asidirlər, lənətə gəlmiş Miranşahı qətlə yetirən qılıncın üzərinə biz, qızıl çəkərək, onu öpüb qarşısında baş endirəcəyik».

**QARAQOYUNLU ULUSU.** Qaraqoyunlular əski oğuz toplumlarından biridir. XV əsr Osmanlı müəllifi ***Mövlana Şükrüllah***, Qaraqoyunlu elinin Oğuz xanın oğlanlarından biri olan Dəniz xanın törəməsi olduğunu yazır. ***Mirzə Cahan şahın*** söylədiyinə görə, atası Qara Yusuf Dəniz xanın 41-ci törəməsidir. Sonralar bu ulusa qarışıb qovuşan əski türk boylarının artıq VII əsrdən Azərbaycanda yerləşməsi bəllidir. Moğol basqınları onları Anadoluya sıxışdırdı. Bu çağdan da «Qaraqoyunlu» adlanmağa başladılar. Qaraqoyunlu ulusu bir neçə oymaqlara bölünürdü: ***Qaraqoyunlu*** (Qaraca qoyunlu), ***Sə'dlu*** (Sə'd – Saat Çuxuru), ***Baharlu, Duharlu, Qaramanlu, Alpavut, Çakirlu*** (Çakərlu), ***Ayınlu, Hacılu, Ağacəri, Dügər*** və ***Bayramlu***. Bunlardan birbaşa *Qaraqoyunlu* adı daşıyanların qalıntıları XV-XVI əsrlərdə ***Göycə*** mahalında, ***Maku*** nahiyəsində, ***Gəncəbasarda, Savə Şahsevənləri*** arasında, Xoy ilə Marağa arasındakı bölgələrdə yaşayırdı. Sonralar «Saatlı» adlanan kənd və obalar ***Sə'dlu – Saat Çuxuru*** oymağının qalığıdır. Ağqoyunlular çağında gözdən düşən ***Qaramanlu*** oymağı ***Şeyx Cüneyd*** və oğullarının tərəfinə keçərək Səfəvi dövlətinin qurulmasında iştirak etmiş, Şah İsmayılın əmirlərindən olan ***Bayram bəy Qaramanlu*** və sonrakı bir sıra əmirlər də buradan çıxmışlar. Alpavutlar Qaraqoyunluların ən mühüm qollarından biri sayılırdı. Səfəvilər çağında Saat Çuxuru və Şirvan dolaylarında yaşayırdılar. ***Sultan III Əhməd*** zamanında Osmanlı dövləti tərəfindən tutulmuş Gəncə vilayətinin vergi dəftərində dörd Alpavut kəndi qeydə alınmışdır.

Qaraqoyunlu başçısı ***Bayram Xoca*** (ölümü 1380) Cəlayirli ***Sultan Üveysin*** əmirlərindən idi. O, Qaraqoyunlu xanədanının özülünü qoydu. O

çağa kimi Qaraqoyunlu və Ağqoyunlu toplumları Azərbaycan, Gündoğar Anadolu və İraqda köçəri həyat sürürdülər (Onların qoşun bayraqları üzərində müvafiq rəngli qoç rəmzi olması barədə tarixi qaynaqlarda heç bir məlumat yoxdur). Bayram Xocanın oğlu ***Qara Məhəmməd*** mərkəzi Van şəhəri olan Qaraqoyunlu feodal hakimiyyətini yaratdı. O, Temurun 1387-ci ilə düşən ***Ərzurum-Çapaqçur*** yürüşü ilə qarşılaşmalı oldu. ***Metsoplu Tomanın*** yazdığına görə, Qara Məhəmməd əsgərləri ilə birlikdə görünməmiş bir igidlik göstərərək ona üstün gəlib qaçmağa məcbur etdi. Bundan ruhlanan Qara Məhəmməd 1388-ci ilin mayında Təbrizə girib Cəlayir əmirlərinin naiblərini yaxalayaraq şəhərə hakim oldu. Bununla Təbriz uğrunda sonrakı çarpışmalar üçün başlanğıc qoyuldu.

Qara Məhəmmədin oğlu ***Qara Yusuf*** (1389-1420) da 90-cı illərin başlanğıcında Təbrizi ələ keçirə bildi. Temur qoşunlarının yaxınlaşması onu Anadoluya geri çəkilməyə məcbur etdi. O, Cəlayir hökmdarı ***Sultan Əhmədlə*** birlikdə Türkiyə sultanı ***İldırım Bayezidin*** himayəsinə sığındı. Axsaq Temur «Qara Yusufun ölü, ya diri olaraq ona təslim edilməsini» istədi. Sultan Bayezid cavabında: «Ona sığınan birisinin təslim edilməyəcəyini» bildirdi (bu cavab Temurun Türkiyəyə yürüşünün səbəblərindən biri oldu). Temur basqını onların tutmaq istədiyi işi geriyə atdı.

Siyasi çəkişmə havası azacıq durulan kimi müttəfiqlər Bağdada döndülər. Burada aralarına pozuntu düşdü. Qara Yusuf Sultan Əhmədi Bağdaddan çıxmağa məcbur edərək şəhəri ələ keçirdi. Ancaq Temurilərlə savaşda yenilib bu dəfə də ***Məmlük*** dövlətinə sığındı.

**TƏBRİZ UĞRUNDA MÜBARİZƏ.** Sonuncu Bağdad qarşılaşmasından sonra Qara Yusuf və Sultan Əhməd Cəlayir ***Qahirədən*** alınan əmr üzrə Dəməşqdə həbs olundular. Bir ilin birgə dustaqlığı onları yenidən barışığa gətirdi. Əbədi dostluğa and içərək, Ərəb İraqının Sultan Əhmədə, Azərbaycanın isə Qara Yusufa çatacağı barədə qarşılıqlı razılığa gəldilər. ***Xondəmirin*** yazdığına görə: «Qara Yusufla Sultan Əhməd bir-birinə söz verdilər ki, həbsxanadan çıxdıqdan sonra da dost və müttəfiq olsunlar. Onların arasındakı danışığa görə Bağdadda Sultan Əhməd, Təbrizdə isə Qara Yusuf hökm sürməli idi». Bu razılaşmaya uyğun olaraq Temurun ölümündən sonra Sultan Əhməd Bağdad üzərinə yollanıb onu ələ keçirir, Qara Yusuf isə Van şəhərində güc toplayaraq Təbriz üzərinə yürüşə hazırlaşır. Ancaq Sultan Əhməd razılaşmanı pozaraq Bağdaddan Təbrizə yürüş etdi. Bu razılaşmadan xəbəri olmayan Şirvanşah I İbrahim Sultan Əhmədin İraqdan Azərbaycana yürüşünü qanuni hökmdarın dönüşü kimi qəbul etdi. «Məmləkət sahibsiz olduğundan xalq hər kəsin tamahından əziyyət çəkirdi. Gəldik və mühafizə etdik; indi məmləkətin ağası təşrif edir, biz də öz evimizə gedəyin» söyləyərək Ucandan Şirvana qayıtdı.



1406-cı ilin iyununda Sultan Əhməd heç bir müqavimət görmədən Təbrizi tutdu. Ancaq Temurilərin yeni hücumuna tablaşmayıb şəhərdən çıxmalı oldu. Təbriz yenidən Temurilərin əlinə keçdi.

1408-ci ilin yazında Qaraqoyunluların Təbriz və Azərbaycan uğrunda mübarizəsi son həddə çatdı. Temurilər ilə həlledici döyüş aprelin 21-də Təbriz altında, ***Şənbi Qazan*** yaxınlığındakı ***Sərdrud*** üzərində oldu. 20 minlik Qaraqoyunlu atlı qoşununun sağ qoluna ***Əmir Bistam bəy Çakirlu*** (qardaşları ***Mənsur, Rüstəm*** və oğlu ***Əxi Fərəc*** ilə), sol qoluna ***Hüseyn*** bəy Sə'dlu, mərkəzdə Qara Yusuf bəy özü komandanlıq edirdi. Əbubəkrin atası Miranşah ilə toplayıb başçılıq etdikləri böyük qoşun darmadağın edilib Azərbaycandan Həmədana kimi qovuldu. Bu döyüşdə xalqın nifrətlə «Maranşah» («İlanlar şahı») adlandırdığı Miranşah öldürüldü. Beləliklə, Temurilərin Azərbaycanda əzilib qovulmasında Qaraqoyunluların həlledici rolu olmuşdu. Ölkənin güney torpaqları onların hakimiyyəti altına keçdi.

**QARAQOYUNLU DÖVLƏTİ.** 1410-cu ilin yayında Ağqoyunlu birliyinin başçısı ***Osman Qara Yuluk*** Şərqi Anadluda ***Ərzincan*** üzərinə yürüşə qalxaraq Qara Yusufa qarşı çıxdı. Qara Yusuf başlıca qüvvələri ilə ona qarşı hərəkət etdikdə onun keçmiş müttəfiqi Sultan Əhməd Cəlayir Təbrizdə qoşun olmamasından istifadə edib yenidən şəhəri tutdu. Şirvanşah I İbrahim Cəlayirli – qaraqoyunlu ara çəkişmələrində birincilərin tərəfini saxladı. O, qorxulu düşmənlərindən zəifini müdafiə etməyi üstün tuturdu. Qara Yusuf Anadoludan qoşununu çəkib Təbrizə yola düşdükdə Şirvanşah İbrahim öz qoşununu Sultan Əhmədə kömək üçün Təbrizə göndərdi. Ancaq Qara Yusuf sürətlə yürüş edərək müttəfiqlərin birləşməsinin qarşısını aldı. 1410-cu il avqustun 30-da Şənbi Qazan yanında Sultan Əhmədin qoşunu ilə toqquşub onu darmadağın etdi. Sonuncu qaçıb canını qurtarmaq istəyəndə Qara Yusufun əlinə keçdi və Azərbaycanda və İraqda hakimiyyətdən əl çəkməsi haqqında yazılı iltizam verdi. Ertəsi gün o, Qara Yusufun əmri ilə öldürüldü. Qara Yusuf oğlu ***Məhəmmədi Bağdada*** canişin göndərdi. Beləliklə, 1410-cu ildə rəsmi bərqərar olan Azərbaycan Qaraqoyunlu dövləti Kür çayından qezeydə yerləşən Şirvanşahlar dövləti ərazisi çıxılmaqla bütün Azərbaycanı əhatə edirdi. İraqi-Ərəb, Kürdüstan və Ermənistan da bu dövlətin tərkibinə daxil idi. Qaraqoyunlular 1468-ci ilə kimi Təbriz taxtında oturaraq hökmranlıq etdilər. 1411-ci ildə Qara Yusuf bütün Azərbaycanın başbilən adamlarını və Qaraqoyunlu bəylərini Təbrizə toplayıb oğlu ***Pirbudağı*** (1418-ci ildə ölmüşdür) sultan elan etdi. O, Pirbudağı qızıl taxta oturtmuş, başına tac qoymuş, belinə qızıl kəmər qurşatmışdı. Özünü oğlunun vəkili kimi tanıdan Qara Yusuf bəy başqa Qaraqoyunlu əmirləri ilə ona təzim edirdi. Bu mərasimdən sonra dövlət fərmanlarında moğol ənənəsi üzrə: ***«Sultan***

***Pirbudaq Xan yarlığıdın Əbu-n-Nəsr Yusuf bahadır sözümüz»*** yazılırdı. Dövlət zərbxanalarında kəsilən tengə pulunun da üstündə hüquqi hökmdar kimi Pirbudağın adı, ləqəbi və ünvanı bildirilirdi: ***«Əs-Sultan ül-əzəm Pirbudaq xan»***. Ancaq yüksək idarəçilik hökmü Qara Yusufun özündə qalırdı. Onun adından da pul kəsilir, üzərində ***«Şah (və ya əmir) Yusuf bahadır»*** yazılırdı. Pirbudağın sultan taxtına çıxarılması isə moğol dövlətçilik ənənəsi ilə bağlı idi. Bu ənənəyə görə «sultan» və ya «xan» adını yalnız Çingiz soyundan və onunla qohumluğu olan bir kəs daşıya bilərdi. Pirbudaq Dəməşq dustaqlığı aylarında doğulmuşdu, atası, Sultan Əhməd Cəlayirlə «Əbədi dostluq» bağlaşmasına girdiyi üçün sonuncu onu «mənəvi oğulluğa» götürmüşdü. Buna görə doğuluşundan dolayısı ilə Çingiz xan soyuna «qohum» sayılırdı.

**QARAQOYUNLU-ŞİRVAN MÜNASİBƏTLƏRİ.** Şirvanşahlar dövləti ilə Qaraqoyunlu dövləti arasında münasibətlər Qaraqoyunlu hökmranlığının birinci iyirmi beş ilində gərgin idi. Şirvanşah İbrahimin iki aylıq «Təbriz hökmranlığı», oğlu ***Kəyumərsi*** Şirvan qoşununun başında Sultan Əhməd Cəlayirin köməyinə göndərməsi ikitərəfli qarşıdurma üçün başlanğıc oldu. Təbriz yaxınlığında gecəykən istirahət edən Kəyumərsi Qara Yusuf tutdu. Ancaq sonralar azad edərək, atası I İbrahimə Qaraqoyunlu ali hakimiyyətini qəbul etmək haqqında məktub göndərdi. Oğlunun Qara Yusufla sövdələşməyə girişdiyini düşünən, Şirvan dövlətinin müstəqilliyini hər şeydən uca tutan Şirvanşah oğlunun edam edilməsi üçün əmr verdi. Qara Yusufla müharibəyə hazırlaşmağa başlayıb öz vassalı şəkili Sidi Əhmədin və müttəfiqi Kaxet çarı II Konstantinin qoşunları ilə birləşdi. Təbrizdən Qarabağa gedən Qara Yusuf şeyx İbrahimə sülh təklif etdi... Bu təklifi düzgün anlamayan rəqibləri ürəklənib ona qarşı çıxdılar. Döyüş Kür çayı üzərində 1412-ci ilin dekabrında oldu. 60 yaşlı Şirvanşah, 7 oğlu, qardaşı, müşavirləri, habelə onun müttəfiqi çar Konstantin əsir alındılar. Sonuncunu qardaşları və 130 aznavuru ilə birlikdə Qara Yusuf qətlə yetirdi. Şirvanşah İbrahimi isə yaxın adamları ilə Təbrizə apardı. Qara Yusufun qoşun başçıları ***Bistam Çakirlu, Babaxacə, Şəmsəddin, Qaraman*** və başqaları, habelə Təbriz tacirlərinin xahişi ilə Qara Yusuf I İbrahimi başbahası ödənilmək şərti ilə azad etməyə razı oldu. ***Şərəfxan Bidlisi*** bu haqda yazır ki, Şirvanın qızıl, gümüş və s. sərvətinin baş haqqı kimi daşınıb Qaraqoyunlu xəzinəsinə verilməsi tələbi bildirilidikdə, Əxi Qəssabın başçılığı ilə Təbrizin tacir və sənətkarları 1200 tümən qədərində böyük bir məbləğ toplayıb Qara Yusufa təqdim etdilər. Bu, Şirvanşah I İbrahimin həm dövlət başçısı kimi şəxsiyyətinin, həm də onun siyasətinin Güney Azərbaycanda - Təbriz varlıları və sənət adamları arasında çox böyük nüfuza malik olduğunu göstərirdi. Şirvana qayıdan İbrahim şah sözdə, nominal olaraq Qara



Yusuf asılılığını tanımalı olmuşdu. Əslində isə o, ölümünə kimi (1417) Şirvan dövlətini müstəqil bir hökmdar kimi idarə edirdi. O, Azərbaycan torpaqlarını birləşdirə bilməsə də, dəyərli bir iş görə bildi: gərgin, dolaşıq bir siyasi şəraitdə Quzey Azərbaycan dövlətinin qorunub saxlanılmasını və güclənməsini təmin etdi. Onun oğlu ***II Xəlilullah*** (***Sultan Xəlil*** də adlanır: 1417-1462) və nəvəsi ***Fərrux Yasər*** (1462-1501) bu böyük sələflərinin vətənsevərlik siyasətini davam etdirdilər.

Şirvanşah I Xəlilullah Qaraqoyunlu hakimiyyətini sözdə belə tanımaqdan boyun qaçırdı. O, öz siyasətində Orta Asiya hökmdarı Temurun ikinci oğlu ***Sultan Şahruhla*** yaxınlaşıb ittifaq bağladı, həm də Qaraqoyunlu siyasi hakimiyyətini didən daxili çəkişmələrdən bacarıqla istifadə etməyə başladı.

Qaraqoyunlu dövlətinin əsgəri gücü hələ də temuriləri qorxuda saxlayırdı. Təsadüfi deyil ki, Şahruh günbəgün Allaha yalvarır, Qur'anın fətHə suresini hafizlərə bir gündə 12 min dəfə oxutdururdu. Şahruh bütün Azərbaycanı deyil, yalnız Əcəm İraqından sayılan Qəzvin və Sultaniyyə şəhərlərini geri istəyirdi. Bunun qarşılığında Azərbaycan və Ərəb İraqını Rum və Şama kimi Qaraqoyunlu dövlətinin öhdəsinə buraxacağını Qara Yusufa təklif edirdi. Qara Yusuf isə güzəştsiz mübarizə yolunu seçdi, xəstəliyinə baxmayıb ordusu ilə yürüşə çıxdı. Anacaq 1420-ci il noyabrın 13-də Ucan şəhərinə yaxın bir kənddə Qara Yusuf öldü. Təbrizdən ayrılarkın bütün xəzinə qızıllarını payladığı ordu da, sevgili qadını da, qoşun başçıları əmirlər də onu tərk edib Əlincə və Avnik qalalarında saxlanılan xəzinələrin ardınca getdilər. Yalnız ölümünün üçüncü günü Təbriz varlılarından ***Məhəmməd Keçəçi*** və başqaları onu paytaxta gətirdilər, buradan da ata-baba qəbiristanlığında dəfn olunmaq üçün Ercişə yola saldılar. Səfəvi tarixçisi ***Həsən bəy Rumlu*** Qara Yusufun şəxsiyyətinə belə qiymət vermişdir: «Döyüş meydanında qan içən aslan, əyləncə məclisində isə cövhər saçan bir bulud idi, ədalət və mərhəməti ilə tanınmış olub əxlaq yolunda hər kəsdən mümtaz idi. Zalımların təqibinə, məzlumların rifahına çalışmış, ziraətin inkişafına qeyrət etmiş, ölkəsində dirlik və düzlüyü saxlamışdı. Əsgərinin maaşı və azuqəsini müntəzəm olaraq verirdi».

Temuri qoşunu sultan Şahruh başda olmaqla Azərbaycana soxuldu. Sonra qışlamaq üçün Qarabağa gəldikdə Şirvanşah, qardaşı ***Mənüçöhr*** və bir sıra Azərbaycan əmirləri ilə görüşünə gəlib onunla hərbi ittifaq bağladı.

**TEMURİLƏR İLƏ SAVAŞIN YENİ SƏHİFƏSİ.** Lakin Azərbaycanda Temurilərin vəziyyəti sabit deyildi. Qaraqoyunluların hərbi gücü sarsıdılmamışdı. Onların birləşdirilməsi işini Qara Yusufun oğlu ***Qara İsgəndər*** öz əlinə aldı. Azərbaycanın başqa yerlərində də Temurilərə qarşı hərəkat

başlandı. Gəncə və Bərdə hakimi ***Əmir Yarəhməd Qaraman*** ayağa qalxdı. Qaraqoyunlu qüvvələri Temurilərlə savaşda 1421-ci ildə uğur qazanmadılar. Ancaq o biri ildə Qara İsgəndər Temuriləri əzib Təbrizi özünə qaytardı. Döyüşlərdə ər təbiətli, ancaq diplomatiyasız bir kişi olan Qara İsgəndər ölkədə sabitlik və arxayınlıq yarada bilmədi. O həm Temurilərlə, həm Şirvanşah Xəlilullah ilə, həm də öz qardaşı Cahanşah ilə rəqabət aparırdı (Cahanşah Temurilərin köməyinə arxalanmağa çalışırdı). Bir yandan da Şərqi Anadoluda Ağqoyunlu bəylərbəyinin Qaraqoyunlularla artıq ənənəvi olmuş rəqabəti davam etməkdə idi. Beləliklə, Qara İsgəndər quzeydə Şirvan dövləti ilə, gündoğarda Temurilər və qardaşı Cahanşah ilə, günbatarda isə Ağqoyunlular ilə savaşda idi. O, Şirvana qarşı üç yürüş keçirdi. Şahruhun Azərbaycana ikinci (1424) və üçüncü (1434) yürüşləri ilə bağlı olaraq Temurilərlə də daha iki savaşda oldu. 1435-ci ilin yayında baş verən sonuncu döyüşdə Şirvanşah və Temuri qoşunları birləşərək Təbriz yaxınlığında Qara İsgəndəri əzdilər. Həmin ilin sonunda Cahanşah hakimiyyətə gəlib Təbriz taxtında oturdu. Əlincə qalasına salınan Qara İsgəndər orada gecələrin birində öz oğlu tərəfindən öldürüldü.

Cahanşah, atasından və qardaşı Qara İsgəndərdən fərqli olaraq, yaxşı təhsil görmüş, bilikli bir adam idi. diplomatiyada çevik və tədbirli davranmağa çalışaraq, tez-tez dəyişmədə olan qüvvələr nisbətini izləyir, öz siyasətini bununla uyğunlaşdırırdı. O, Şahruhun ölümündən sonra (1447) Temuri asılılığını qətiyyətlə rədd etdi. Şirvan dövləti ilə kəskin hərbi rəqabəti yumşaltdı. İki Azərbaycan dövləti arasında münasibətlər bu zaman dostluğa çevrilməsə də, düşmənçilik qəlibindən çıxmağa başladı. Onların arasında savaş və çəkişmələrin arası kəsildi. Yalnız günbatarda Ağqoyunlu feodal hakimiyyəti ilə rəqabət qaldı.

Cahanşah Azərbaycanın bir sıra əyalətlərində mədrəsələr açdırdı. Onun sarayında keçirilən məclislərə bir sıra şair və ədiblər çağırıldı. 32 illik hakimiyyəti dövründə paytaxtı Təbrizdə abadlıq işləri aparmış, bir sıra gözəl binalar tikdirmişdi. Bunların içində Göy Məscid dünya şöhrəti qazanmışdı. Bu məscidin tikintisində çini və rəngarəng mərmərlərdən istifadə edilib. Mərmər lövhələr üzərində dövrün tanınmış nəqqaşı ***Ne'mətulla Bəvvab*** bəzəkli yazılar həkk etmişdi. Cahanşah ədəbi məclislərdə fəal iştirak edirdi, zəmanəsinin tanınmış şairi idi. Orta çağ tarixi əsərlərində Cahanşah «dinə hörmət etməyən», «şəriətə xor baxan adam» kimi səciyyələndirilir. Bu, Cahanşahın sufilik görüşlərinə yaxınlığı ilə bağlı idi. Ancaq o, radikal siyasi-fəlsəfi görüşlərdən uzaq bir insan idi. Səltənətin siyasi mənafeyi tələb etdikdə o, qabaqcıl adamlara və axınlara qarşı çıxıb, kütləvi qırğın keçirməkdən çəkinmirdi. Onun əmri ilə yalnız bir gündə 500-dən artıq hürufi, o sıradan Fəzlullah Nəiminin qızı qılıncdan keçirilmişdi.



**AĞQOYUNLU DÖVLƏTİ.** Qaraqoyunlu hökmdarlığı illərində Cahanşahın hakimiyyəti qismən sabitləşmə çağı sayıla bilər. Feodal ara çəkişmələri, soyurqal sahiblərinin özbaşınalığı və azğınlığı kütlələri cana gətirmişdi. Kəndlilərlə yanaşı şəhərlərin sənət və ticarət adamlarını da narazılıq bürümüşdü. Qaraqoyunluların Ağqoyunlu bəyliyi ilə rəqabəti də çoxlu güc və xərc tələb edirdi. Bu rəqabət hələ Qara Yusufun və Qara İsgəndərin illərindən üzücü bir amilə çevrilərək Qaraqoyunlu hökmranlığını güclənməyə qoymurdu.

Qaraqoyunlular kimi, Ağqoyunlu ulusunun da özək boyları Azərbaycanda islamın ilk yüzillərindən yaşamağa başlamış, tarix boyu «qohum» oymaqlarla birləşərək dövlətlər qurmuşlardı. XV yüzil tarixçisi ***Fəzlullah ibn Ruzbihan Xunəci*** yazır: «Ağqoyunlu soyunun əcdadı olan Bayandur xan bu soyu Oğuz xanın oğul və nəvə törəməsi sayırdı. Bayandur xandan bəri (Ağqoyunlu) hökmdarların soy ağacının düz xətti kəsilməmişdir». Ağqoyunlu oymaqları da aradakı düşmənçiliyə baxmayaraq, özlərindən əvvəlki Qaraqoyunlu və sonrakı Səfəvi dövlətlərinin yaradılmasında iştirak etmişlər. Ağqoyunlu dövlətini ortaya gətirən oymaqların adları bunu aydın göstərir: ***Pürnək, Qoca Hacılu, Süleyman Hacılu, Həmzə Hacılu, Mosullu, Tabanlu, əhmədlu, Çavundur, Dodurqa, Qarxın, Afşar, Bayat, Ağaçəri, Qaramanlu, Dügər, Bəgdili, Çepni, Qacar, Alpavut, Baharlu, Əmirlu, Çakirlu, Duharlu, İnallu, Sə'dlu*** və başqaları.

Ağqoyunlu ulusunun başçıları Diyarbəkir vilayətində irsi hakim idilər. XIV yüzilin ortalarında ulusun başçısı ***Tur Əli*** bəy (1363-cü ildə ölmüşdür) Bayandur oymağından idi. O, ***Uzun Həsənin*** babasının babası idi. Lakin ondan gerilərə doğru adı çəkilən ulus başçılarının tarixi şəxsiyyət olmaları bəlli deyildir. Döyüşkən ***Osman Qara Yuluk*** (1394-1434) ilə Qaraqoyunlu sultanları çox ciddi mübarizə aparırdılar. Onun qardaşı nəvəsi Uzun Həsən 1453-cü ildən ulus başçılığına keçərək, Ağqoyunlu birliyini gücləndirə bildi. O, öz savaşları üçün Cahanşahın oğullarını həm ona qarşı qoyur, həm də onların arasına didişmə salmağa çalışırdı.

1457-ci ildə Uzun Həsən Diyarbəkir yaxınlığındakı qarşılaşmada sayca çox üstün olan Qaraqoyunlu ordusu üzərində parlaq zəfər qazandı. Bu döyüşdən sonra Ağqoyunlu bəyləri onu özləri üzərində ***Ulubəg*** kimi tanıdılar. Kürdüstan və Ermənistan onun əlinə keçdi.

Başlıca hadisələr 1466-1467-ci illərdə baş verdi. Cahanşah əvvəlcə ***Bağdadda*** vali oturan oğlu ***Pirbudağın*** üsyana qalxması ilə bağlı buranı bir il yarım mühasirədə saxladı. Təslim olan oğlunu öldürtdü. Ata-oğul münaqişəsini izləyən Uzun Həsən bu beyti söylədi: «İki idi bir oldu/İgid idi pir oldu».

Cahanşah böyük bir ordu ilə ***Van*** gölü yörələrinə yürüş etdi. Əyləncə düşkünlüyü ona çox baha başa gəldi (Sultan Mehmet Fateh ona «Yarasa» adı vermişdi, çünki gecələr əyləncə toplantıları təşkil edib gündüzlər yat-

mağı sevərdi). Həsən bəyin qoyduğu gözətçi (casus) Mingəl sancağında Cahanşah və ordugahında olanların hamısının sərxoş olub yatdıqlarını bildirdi. Uzun Həsən 6 minlik seçmə Ağqoyunlu atlı ilə Qaraqoyunlu düşərgəsi üzərinə hücum edib, sayı on dəfədən çox olan qoşunu əzdi (noyabr, 1467). Qoca yaşlı Cahanşah qaçmaq istərkən öldürüldü. Uzun Həsən onun oğlu ***Həsənəlinin*** də direnişini qıraraq, 1468-ci ildə Təbriz şəhərinə girdi, hakimiyyətin Ağqoyunlulara keçdiyini bildirdi. Bu hakimiyyət 1501-ci ilə kimi sürdü.

Azərbaycan feodal dövlətində yeni sülalənin hakimiyyətə gəlməsi ölkənin siyasi qüvvələri içərisində narazılıqdan daha çox rəğbətlə qarşılandı. Ancaq xaricdə vəziyyət başqa idi. Xorasanda hökmranlıq edən Temuri ***Sultan Əbu Səid*** Cahanşahın oğlanlarını müdafiə etmək bəhanəsi ilə, 27 minlik qoşunla Azərbaycana yürüşə çıxdı. Güclü rəqiblə yeni savaşa girmək istəməyən Uzun Həsən, anası ***Sara xatunun*** başçılığı ilə Əbu Səidin yanına elçilərini göndərərək ona qiymətli bəxşişlər və sülh təklif etdi. Ancaq Sara xatun Əbu Səidi niyyətindən döndərə bilmədi. O, elçiləri hörmətlə qarşılayıb Uzun Həsənə tac və qızıl kəmərli qılınc göndərsə də, yürüşü dayandırmaq istəmədi. Nəzərə almaq lazımdır ki, Sara xatun oğlu Uzun Həsənin siyasi fəaliyyətində ilk illərdən fəal iştirak edirdi. Onun işə qarışması və bacarığı hələ 1435-ci ildə Anadoluda ***Mardin*** qalası uğrunda gedən mübarizədə on bir yaşlı Uzun Həsənə üstünlük qazandıra bilmişdi. Sara xatun ***Misir Məmlük*** dövləti ilə də danışıq aparmışdı. Abbasqulu Ağa Bakıxanov onu «mahir diplomat qadın» adlandırır.

Uzun Həsənin arvadı ***Məlikə Səlcuq Şahbəyim*** də siyasət ağıllı olan qadın, onun işlərində dəyərli yardımçısı idi. Oğlu ***Yaqub bəyin*** hökmranlığı illərində onun da baş sözçüsü olmuşdu. Gözüaçıq bir insan olan ***Səlcuq Şahbəyim*** özü haqqında söyləyirdi: «Dövlət işlərinin çoxluğundan həcc fərizəmi yerinə yetirə bilmirəm».

Temuri qoşunlarının Xorasandan çıxmasının iyulun sonuna kimi uzandığını görən Uzun Həsən, Azərbaycanda Qaraqoyunlu qüvvələri qalıqlarının ləğv edilib aradan götürülməsi ilə məşğul oldu. Öz qüvvələrini yenidən təşkil edərək müharibəyə hazırlaşdı. Temuri qoşunları Azərbaycana girib ilk dəfə Miyanədə yerləşdi. Payız soyuqlarının düşməsi üzündən bu qoşun buradan birbaşa Təbriz üzərinə deyil, Qarabağ düzənliyinə, oradan da yem və ərzaq çatışmazlığını bəhanə edərək Muğandakı ***Mahmudabad*** və ***Qızılağac*** qəsəbələrinə yollandı. Sultan Əbu Səidin dolayı yol seçib Xəzər sahilinə çıxması, Şirvan taxtına bir neçə il əvvəl oturmuş Fərrux Yasərin köməyini almaq fikri ilə bağlı idi. O, ***I Xəlilullah*** çağında Xəzərdən gəmilərlə Temurilərə hərbi qüvvə və ərzaq göndərildiyini bildiyi üçün, yeni Şirvanşaha ümid bəsləyirdi. Ancaq 60-cı illərin sonunda Azərbaycanda siyasi qüvvələrin mövqeyi və nisbəti başqa idi. Təbrizlə yanaşı Şamaxı da, Ərdəbil də ölkənin müstəqilliyi uğrunda döyüşmək əzmində idi.



Uzun Həsən Azərbaycandakı üç başlıca siyasi qüvvənin: Ağqoyunlu dövlətinin, Şivanşah dövlətinin və Səfəvilərin Ərdəbil hakimiyyətinin birləşərək bir cəbhə ilə Temurilərə qarşı çıxması fikrini ortaya atdı. O, Şivanşah Fərrux Yasərə öz elçisi ilə göndərdiyi məktubda yazırdı: «Cağataylar (Temurilər – *Red.*) gec-tez bu ölkədən gedəcəklər. Sən onların dostluğundan nə fayda görə bilərsən?» Müttəfiq qoşunları Əbu Səidin qoşununu mühasirəyə alıb onu çox ağır vəziyyətdə, qış aylarının soyuğu, ərzaq və yem çatışmazlığı şəraitində döyüşə girməyə məcbur etdilər. Əbu Səid barışıq yaratmaq istəsə də buna nail olmadı. Uzun Həsənin Temuri düşərgəsinə elçi kimi göndərdiyi Ərdəbil hakimi ***Şeyx Heydər Səfəvi***, geri döndükdə barışıq fikrinin yersiz olduğunu bildirdi. Onun fikrincə barışıq istəyi Sultan Əbu Səidin ağır vəziyyətindən irəli gəlir, gələcəkdə yeni qoşun toplayıb Azərbaycana yürüş keçirmək məqsədini güdürdü. Temuri qoşunu darmadağın edildi, Əbu Səid əsir düşdü. Uzun Həsənin əksinə olaraq müttəfiqlər və qoşun başçıları Əbu Səidin yağlı vədlərinin yalan olduğunu söylədilər. Şirvan qazisi isə qətiyyətlə ona ölüm hökmü verilməsini təklif etdi. Uzun Həsən «güzəştli» mövqedən çıxış etdi. Sultan Əbu Səidi onun qatı düşmənlərindən olan Xorasan şahzadəsi ***Məhəmməd Yadigara*** göndərdi. Bir vaxt Əbu Səid onun anasını öldürtdüyü üçün, o da intiqamını alıb Əbu Səidi e'dam etdi.

Fəzlullah ibn Ruzbihan bu savaşla bağlı yazır: «O (Uzun Həsən – *Red.*) uzaq ***Otrar*** və ***Kaşqardan*** yüz min əsgərlə gəlmiş Temuri Sultan Əbu Səidin yasəmənli bağını Qarabağda qara bağa çevirdi».

Tarixi qaynaqlarda Uzun Həsən ***«Sultan-ül-adil Həsən xan»***, ***«Sultan-ül-Qalib Həsən Padişah»*** adlandırılır. Daxili siyasətdə Uzun Həsən mərkəzi hakimiyyətin güclənməsinə, hərbi əyanların özbaşınalığına qanunla sədd qoyulmasına, xüsusilə rəiyyət üzərinə düşən vergi, ödənc və mükəlləfiyyətlərin azaldılıb nizama salınmasına çalışdı. Bu sonuncuların sayını aydınlaşdırmaq, vergi və ödənc toplayan əyanların və məmurların özbaşınalığına son qoymaq üçün Uzun Həsən ayrıca bir «Qanunnamə» buraxdı. XV-XVI yüzillərintarixində böyük yer tutan bu qanunlar toplusu yalnız vergi sisteminin deyil, dövlətin bütün daxili işlərinin qaydaya salınmasında dəyərli rol oynadı. Şərəfxan Bidlisi öz «Şərəfnamə»sində yazır: «O (Uzun Həsən – *Red.*) öz təbəələrinin himayəçisi idi. Haqq-ədalət yaratmışdı. O, rəiyyətdən vergi toplamaq üçün «Qanunnamə» vermişdi. İran, Fars və Azərbaycan padşahları indiyə kimi onu əldə rəhbər tuturlar». Osmanlı dövlətinin güney-doğu bölgələrində də bu «Qanunnamə»nin bir müddət işlənilməsi bəllidir.

Başqa bir tarixçi Xondəmir yazırdı: «Uzun Həsənin günbəgün artmaqda olan ədalətindən Arran, Azərbaycan, kürdüstan, Fars, Kerman, Əcəm və Ərəb İraqları abadlaşmağa başladı. Dövlət işləri qaydaya düşdü».

Uzun Həsən şəhər sənətkarlarının və tacirlərin də vəziyyətində dəyişiklik yaratmaq istədi. O, moğol çağından qalmaqda olan ağır tamğa vergisini bütün dövlətin ərazisində ləğv etməyə çalışdı. Ancaq «əmirləri buna razı olmadılar», yalnız tamğanın miqdarını yarı qat azalda bildi. Hərbçil əyanların nüfuzu böyük idi və qırılmamışdı.

Daxili siyasətin göstəricilərindən biri də hökmdarın elmə, biliyə, mərifətə verdiyi qiymət idi. Həsən bəy Rumlunun yazdığına görə, Uzun Həsən böyük şərafət sahibi, ölçüyəgəlməz dərəcədə ədalətli bir insan idi, məclislərdə alimləri və üləmələri öz başına yığardı. Onun saray kitabxanasında əllidən çox elm adamının çalışması bəllidir. Ruhani dairələrə yaxınlıq soyurqal siyasətində də özünü göstərirdi. Üləmələrə ayrı-seçkilik qoymadan çoxlu soyurqal payladı, bu isə vergilərin artmasına gətirib çıxarırdı.

Orta çağ tarixçilərinin Uzun Həsəni az, ya çox idealizə edən yazıları onun siyasətinin özündən qabaqkı çağlarla müqayisəsindən irəli gəlirdi. Elxanilərin, Çobanilərin, Cəlayirlərin, Qaraqoyunluların çağları xalq kütləsi və ziyalı təbəqəsi üçün qat-qat ağır olmuşdu. Uzun Həsənin illərində də xalqın narazılığı bütünlüklə aradan götürülməmişdi. 1473-cü ildə Təbrizin şəhər əhalisi üsyan edərək vergiləri ödəməkdən boyun qaçırdı. Dövlətin daxili təzadlarından biri də mərkəzdənqaçma meyli, hərbçil əyanların çıxışları idi. 1473-74-cü illərdə Uzun Həsənin böyük oğlu ***Uğurlu Məhəmmədin*** başçılığı ilə qiyam oldu. Qiyamçılar Təbrizin ətraf məhəllələrini qarət etdilər. Ancaq şəhərə soxula bilmədilər. Bu qiyama hökmdarın Bağdadda oturan oğlu ***Maqsud Mirzə*** də qoşuldu. Qiyam güclə yatırıldı. Uğurlu Məhəmməd Türkiyəyə qaçdı.

Uzun Həsənin ölümü ilə siyasi çəkişmələrin yeni ocaqları közərdi. Onun oğlu ***Sultan Yaqub*** (1478-1490) hakimiyyəti bütünlüklə ələ almaq üçün qardaşı ***Xəlilə*** qarşı top-tüfəng çıxarmalı oldu. Kütlələrin narazılığı ilə hesablaşmalı olan sultan Yaqub rəiyyətin ağır vəziyyətini yüngülləşdirmək üçün vergiləri 70 min tümən məbləğində azaltdı.

Fəzlullah ibn Ruzbihan 1488-ci ilin yayında və qışın başlanğıcında Təbrizin məhəllə və çöllərinə «qızıl üzlü ölüm» (taun) gəldiyini yazır. Ölkə çox ağır illərini yaşamaqda idi. Təkcə Ağqoyunlu sultanları deyil, əyalət hakimləri də güclü feodal başçılarının əllərində bir oyuncağa çevrilmişdilər. Sultan Yaqubun oğlu ***Baysunquru*** (1490-1492) tayfa başçılarından olan ***Sufi Xəlil*** Təbrizdə Ağqoyunlu taxtına çıxarmışdı və onun adından dövləti özü idarə edirdi. Bu zaman Bayandur oymaq başçısı ***Bayandur bəy*** Uzun Həsənin bir oğlunu Əcəmi-İraq, Qornək oymaq başçısı ***Şahəli bəy*** isə nəvələrindən birini (Uğurlu Məhəmmədin oğlu ***Mahmudu***) Həmədan «taxtına» oturtmuşdu. Ancaq sabit olmayan durum tez-tez dəyişirdi. Diyarbəkirdə hökmranlıq edən ***Süleyman bəy Bican*** oğlu 1491-ci ilin yaynda Van gölü yaxınlığında real hökmran Sufi Xəlilin qoşununu əzdikdən



sonra əmir-ül-ümarə sifətilə Ağqoyunlu dövlətini idarə etməyə başladı. O, diplomatiya işlədərək, Ağqoyunlu taxtında oturan Baysunqurun oyuncaq sultanlığını devirmədi. 1492-ci ildə siyasi çəkişmələrin önündə yeni bir adam – Osman Qara Yuluğun nəticəsi ***Əbih Sultan Dana Xəlil oğlu*** göründü. O, Ağqoyunlu evinin nümayəndəsi ***Rüstəm Mirzəni Əlincə*** qalasından çıxarıb onunla birləşdi. May ayında Bican oğlu-Baysunqur birliyinin qoşununu Bərdə yaxınlığındakı döyüşlərdə əzdi. Baysunqur babası Fərrux Yasərin yanına, Süleyman Bican oğlu isə Diyarbəkrə qaçdılar (sonuncu orada öldürüldü). Bu dəfə də «öz adamı» Rüstəm Mirzəni Təbriz taxtına çıxaran Əbih Sultan, əmir-ül-ümarə sifətilə Ağqoyunlu dövlətinə mütləq hakim kəsildi.

Beləliklə, Sultan Yaqubun ölümündən sonrakı on il içində Təbriz taxtında səkkiz Ağqoyunlu sultanı oturdu. Bunların arasında yalnız ***Gödək Əhməd*** islahat yolunu seçdi. Ancaq onun hökmranlığı yeddi aydan çox sürmədi. Bir-birini az qala ilaşın əvəz edən Ağqoyunlu şahzadələrin hakimiyyəti zamanı vəziyyət daha da ağırlaşdı. 1499-cu ildə Ağqoyunlu dövlətinin birləşdirdiyi ərazi ***Əlvənd Mirzə*** ilə ***Murad padşah*** arasında iki yerə parçalandıqda, tarixçi ***Miryəhya Qəzvini*** yazdığı kimi: «Bütün məmləkətdə qarışıqlıq, qarət, sıxıntı və zorakılıq başlandı. Yollar bağlandı... Rəiyyət qaçıb dağıldı. Xalq öz torpağını buraxıb getməli oldu və dünyanın işləri dəyişdi». Ağqoyunlu səltənətinin sonu uzaq deyildi.

**SƏFƏVİ ŞEYXLƏRİ ƏRDƏBİLDƏ.** Azərbaycanın XV yüzil tarixinin siyasi xəritəsində Səfəvilərin Ərdəbil hökmranlığı ayrıca yer tutur. Hələ moğol çağında irsi müqəddəs şeyx (dədə) kimi çıxış edən ***Səfiəddin İshaq*** (1254-1334) Səfəvilərin təriqət birliyini yaratdı. İlk əvvəl Səfəvi təriqətinin təbliğ olunub yayılması, sufiliyin başqa axınlarının tarixində olduğu kimi, şiəlik bid'əti ilə çuğlaşaraq kəndli çıxışlarının bir növ ideologiyası olmuşdu. XIII yüzilin sonunda Şirvanşah ***II Əhsitanın*** Səfəviyyə təşkilatını ittiham etməsi, kəndliləri öz mükəlləfiyyətlərini yerinə yetirməkdən çəkindirməklə suçlaması təsadüfi deyildi. Hərəkatın o çağında Səfəvi müridlərinin içərisində bir çox əxi vardı. Sonuncular hökmdarı göyün elçisi kimi tanımayaraq onun öldürülməsini məqbul sayırdılar.

XIV əsrin ikinci yarısında Səfəvi təriqət qurumunun ictimai siması dəyişikliyə uğradı, təriqət başçısı şeyx böyük torpaq sahibinə çevrildi. Şeyx Səfiyədinin oğlu ***Şeyx Sədrəddin*** (1392-ci ildə ölmüşdür) belə bir torpaq sahibi idi. XV yüzilin birinici yarısının sonuna yaxın təriqətin başçısı ***Şeyx İbrahim Şahənşah*** (1447-ci ildə ölmüşdür) Ərdəbil vilayətinin, artıq irsi feodal hakimi kimi çıxış etmədə idi. Bu zamandan təriqətin hərbi-siyasi təşkilatı bir ruhani dövlətə çevrildi. Yəni bu təriqət qurumu öz görüşlərini yaymaqla yanaşı ölkənin ayrıca bir vilayətində siyasi hakimiyyəti ələ aldı.

ruhani və dünyəvi hakimiyyət onun əlində birləşdi. Ərdəbil şeyxləri təriqət üçün mürid və ğazilər toplayaraq onlardan əsgəri birləşmələr yaradır, onları inzibati dövlətçilik təşkilatının dayağına çevirirdilər. Onlar «qəzavat» bayrağı altında quzey vilayətlərə yürüşlər keçirir, həm öz əsgəri gücünü sınaqlara salır, həm də sərvət və qənimət ələ keçirib güclənməyə çalışırdılar. Səfəvilərin ilk belə çıxışları ***Şeyx Cüneydin*** çağında oldu.

1447-ci ildən təriqət başçılığına keçən Cüneyd, Fəzlullah ibn Ruzbihanın yazdığına görə, Şirvanı tutmağa çalışır, ancaq öz istəyini «çərkəzlərə qarşı qazavat» ilə pərdələyirdi. O, «kafirləri dinə gətirmək» şüarı altında Şirvanşah dövlətinin razılığı ilə onun ərazisindən keçərək, Dağıstana yürüşlər keçirdi. Bu yürüşlərin genişlənməsi Şirvanşah I Xəlili Şeyx Cüneydlə qarşılaşdırdı. Samur çayının o tayında, Abbasqulu Ağa Bakıxanova görə, Kepçak kəndi altında Səfəvi döyüşçüləri basıldı, Şeyx Cüneyd öldürüldü*.

***Şeyx Heydər*** (1459-1488) atası Şeyx Cüneydin siyasətini davam etdirirdi. O, təriqətin əsgəri gücünü böyütdü. Azərbaycan, Anadolu və Şamda həyat sürən Afşar, Qacar, Zülqədər, Təkəlü, Ustaclu, Şamlu, Rumlu türk tayfalarına arxalanmağa başladı. Şamlu və Rumlu boyları Temurun Ankara yaxınlığındakı 1402-ci il döyüşündən sonra bütünlüklə Səfəvi şeyxi ***Xacə Əlinin*** ixtiyarına verildikləri üçün Azərbaycanda yaşayırdılar. Təkədü və Zülqədərlər də Anadoludan keçib burada yerləşmişdilər. Ustaclular Qars bölgəsində köçərilik edirdilər. Əfşarlar və Qacarlar İran və Orta Asiyadan Azərbaycana hələ moğol yürüşləri çağında gəlmişdilər. Bu tayfaların Azərbaycanda, Qonşu Transqafqaz bölgələrində yerləşən qolları Azərbaycan türklərinin etnik tərkibinə qovuşdu. Xorasan və Astarabadda qalan Qacarlar və Əfşarlar isə türkmən xalqının tərkibinə qoşuldu. İranın daxili bölgələrində qalanları ayrı-ayrı boylar kimi yaşamaqdadırlar (fars vilayətində Zülqədərlər, Kərmanda Əfşar və Qaşqaylar). Ancaq onların heç birisi günlərimizə kimi farslara qarışmayıb, ana dilində - Azərbaycan türkcəsində danışmaqda davam edirlər. Bu boylar istər bütövlükdə, istərsə də hər biri ayrı bir toplum kimi təriqət «sufiləri», «müridləri» sayılırdı. Səfəvi qoşununun özülü də onlardı.

Əsgəri təşkilat baxımından güclənmiş olan Şeyx Heydər tarixə ayrıca bir təriqət atributu gətirdi. Onun əmri ilə döyüşçü müridlər 12 qırmızı dilimli (12 şiə imamlarının şərəfinə) çalma geyməyə başladılar. Bununla bağlı olaraq sufi və müridlər, bütün Səfəvi təriqət adamları «qızılbaşlar», təriqətin sonra yaratdığı dövlət isə «Qızılbaş dövləti» adlanmağa başladı.

* Şeyx Cüneyd çayın bu tayında, indiki Xəzrə kəndində torpağa gömüldü. Sonralar Şah İsmayıl qəbrini Ərdəbilə köçürsə də, ilkin dəfn olunduğu yerdə 1544-cü ildə türbə və məscid tikilmişdi.



Tarixi qaynaqlara görə, qızılbaşlıq tərəfdarları Şeyx Cüneydi ilah (Tanrı), oğlunu isə «ibn Allah» adlandırmağa başladılar. Rumdan, Talış və Qaraca dağdan toplaşan müridlər gənc Heydəri bir mə'bud və qiblə bildikləri üçün namaz və ibadəti yersiz sayır, qaynaqlardan birində deyildiyi kimi, ondan «xürrəmi Babək təlimi» alırdılar.

Səfəvi şeyxləri siyasi mübarizə meydanında tək deyildilər. Siyasi bağlaşma və münasibətlərdə onlar təriqət təəssübkeşliyi ilə o qədər də hesablaşmırdılar. Şiəliyi dövlət dini edən Qaraqoyunlu Cahan şah ilə, özünü şiəlik təriqət carçısı sayan Şeyx Cüneyd siyasi-hərbi qarşıdurma içində idilər, çünki Qaraqoyunlular onun nüfuzunun genişlənməsinə qarşı çıxırdılar. Və bu qarşıdurmada tək qalmamaq üçün Şeyx Cüneyd sünniliyi dövlət dini sayan Ağqoyunlu hakimi Uzun Həsən ilə hələ 50-ci illərdə hərbi ittifaqa girmiş, onun bacısı ***Xədicə bəyimlə*** evlənmişdi. Sonralar onun oğlu Şeyx Heydər Uzun Həsənin qızı ***Aləmşah bəyimlə*** evlənmiş, sünni Ağqoyunlu dövləti ilə siyasi hərbi yaxınlığı gücləndirmişdi. Xondəmir yazır ki, Uzun Həsən Şeyx Səfiəddin ailəsinə böyük dostluq rəğbəti bəsləyirdi. Hətta öz bacısı Xədicə bəyimi Şeyx Cüneydə, qızı Həlimə bəyim ağanı* isə Sultan Heydərə verdi və onlarla dostluq əlaqəsini bərkitdi. Bu, şiəlik bayrağı altında birləşən Səfəvi ruhani başçılarının dini-konfessional davranışdan daha çox, siyasət düşüncəsi adamları olduğunu göstərir.

Uzun Həsənin ölümündən sonra Sultan Yaqub Mirzə Səfəvi hakimlərinin güclənməsini qısqanclaqla izləyirdi. O, yaranmış ikitərəfli yaxınlığı siyasi baxımdan artıq yersiz sayırdı.

Şeyx Heydərin davranışı bu şübhələrin düzgün olduğunu göstərdi. Onun Dərbənddən Kabardaya kimi gəlib çıxan ilk iki yürüşü Şirvanşah Fərrux Yasəri çox narahat etdi. Buna baxmayaraq sevimli anasını (validəyi mükərrəmə) işə qatıb dayısı Sultan Yaqubdan üçüncü yürüşə izn aldı. Ancaq «Çərkəzistan gavurları» əvəzinə, Qarabağda Bərdə vilayətinin Calpert (Craberd – indiki Ağdərə) nahiyəsini, oradakı zimmi (cizyə ödəyən xaçpərəst) icmasını yağmaladı. Bu hərəkət Təbrizdə böyük narazılıq doğurdu: nahiyə dövlətin Baş qazısına «ölkə» kimi bəxşiş verilmişdi (Qur'anda deyilir: «Kim zimmiyə toxunarsa, mənə (Allaha) toxunur»). Buradan Səfəvi qoşunu Şamaxı üzərinə yeriyərək onu da qana boyayıb yağmaladı. Şeyx Heydərin hərəkətini Fərrux Yasərlə Sultan Yaqub qiyam, təcavüz və quldurluq kimi qarşıladı. Süleyman bəy Bican oğlunun başçılığı altında

* Uzun Həsənin Trabzon şahzadəsi Teodoradan (Despina xatundan) doğulmuş olan bir qızının adı həm Həlimə bəyim, həm də Aləmşah bəyim kimi çəkilir. Görünür, sonuncu ad, onun Səfəvi sarayına gəlin gəlməsindən sonra işlənmişdir. Bununla yanaşı, Avropa qaynaqlarında onun adı Martadır. Ola bilsin, doğuluşundan sonra ona gizli xristian adı verilmişdi.

göndərilən 4 minlik Ağqoyunlu atlı qoşunu ilə Şeyx Heydərin qoşunu arasında 9 iyul 1488-ci ildə qanlı toqquşma oldu. Hətta qızılbaşları yağı sayan tarixçilər belə, Heydərin böyük igidliklə vuruşduğunu, rəqib qoşununun sol cinahına girərək bir çox döyüşçü qırdığını söyləyirlər. Ancaq o, boğazına dəyən oxla öldürüldü. Başı kəsilib sultan Yaquba, sonra anası Xədicə bəyimə göndərildi.

Səfəvilərin bu uğursuzluğundan sonra Sultan Yaqub Ərdəbili tutdu, təriqət qazilərinin Şirvandan canını qurtarıb qayıdan qalıqlarını dağıdıb məhv etdi. Şeyx Heydərin kiçik yaşlı üç oğlunu Van gölündəki Axtamar adasında erməni məbədinə saldırıb dünya işığını üzlərinə bağladı.

Rüstəm Ağqoyunlu hakimiyyətə keçdikdən sonra uşaqları azadlığa buraxdı. Şeyx Heydərin vilayətini və hakimliyini onun böyük oğlu yeniyetmə ***Sultan Əliyə*** qaytardı. Onu bir müstəqil hökmdar kimi tanıyaraq, «padşah» adlandırmağa başladı. Rüstəm Ağqoyunlunun Şirvanşah Fərrux Yasərlə münasibətləri ilk gündən korlanmışdı. Sonuncu, bacısının Yaqub Mirzə ilə nikahından doğulmuş Baysunqur bəyi Rüstəmə qarşı qoyub, onu taxtdan salmaq istəyirdi. Buna görə yeni Ağqoyunlu padşahı Səfəvilərə mülklərini və Ərdəbil hakimiyyətini qaytarmaqla onları öz rəqiblərinə qarşı qoymaq siyasəti yeridirdi. 1495-ci ildə yeniyetmə ***Sultan Əli Heydər*** oğlu, Səfəvi düşmənləri ilə çox kəskin mübarizəyə başladı. Onun göstərdiyi dönməzlik, əsgəri igidlik bir gələcək rəqib kimi Rüstəm Ağqoyunlunu qorxuya saldı. Rüstəm siyasət meydanına çıxardığı Sultan Əlidən üz döndərib döyüş meydanında tək buraxdı. Sultan Əli həlak oldu. Bu, XV yüzilin ikinci yarısında Ərdəbil Səfəvi şeyxlərinin siyasi hakimiyyət uğrunda savaşlarda üçüncü «eksperimenti» oldu. Hər üçü də hələlik uğursuzluqla bitdi.

## 4. XARİCİ SİYASƏT

**DÖVLƏT QURULUŞU.** Qaraqoyunlu və Ağqoyunlu hökmranlığı bir neçə ölkə üzərinə yayılmış olsa da, Azərbaycan torpaqları bu dövlətlərin mərkəzi olaraq qalırdı. Qaraqoyunlular çağında Təbriz hakimiyyəti Güney Azərbaycanla yanaşı Ermənistan, Kürdüstan və Ərəb İraqını əhatə edirdi. Ağqoyunlular hakimiyyətə gəldikdə Diyarbəkir, Əcəm İraqı, Luristan, Kerman və Fars da buraya qatıldı. Birləşmiş dövlət imperatorluğa çevrilmiş oldu. XV yüzil tarixi qaynaqları da, bu günün tarixçiləri də Azərbaycanın siyasi-iqtisadi-mədəni baxımdan bu dövlət üçün bir metropoliya olduğunu söyləməkdədirlər.

Azərbaycan dövlətləri quruluşca monarxiya idilər. «Sultan», «şah» (padşah) adlanan hökmdarların hakimiyyəti mütləq idi. Qara Yusufun, oğlu Pirbudaq ilə yeddi il sürən «ciftə krallığı» nəzərə alınmazsa, ali hakimiyyət heç bir yüksək vəzifəli dövlət adamı və dövlət qurumu ilə bölüşdürülmürdü. Quzey Azərbaycanda dövlətin sosial özülü olmaqla oturaq zadəganlar, Güney Azərbaycanda isə köçəri və yarım köçəri hərbçil əyanlar üstün yer tutur, dövlət idarəçiliyini və ordunu əllərində saxlayırdılar. Şirvanşah dövləti daxili quruluş və təsərrüfat yaşayışı baxımından daha sabit bir dövlət idi. Bu sabitliyin bərqərar olmasında üç böyük dövlət xadimi: İbrahim Dərbəndinin, I Xəlilullahın və Fərrux Yasərin ardıcıl siyasəti mühüm rol oynadı. Onların hər üçü böhranlı hərbi-siyasi çağlarda öz rəqib və düşmənləri arasındakı çəkişmələrdən ustalıqla istifadə edirdilər. Fərrux Yasərin də siyasəti bu baxımdan örnək sayıla bilər. O, 1488-ci ildə Yaqub Ağqoyunlunun köməyi ilə Şeyx Heydər Səfəvinin qorxulu şəkil almış yürüşünü dəf etdi. Bu köməyi almaq üçün o özünü Yaqub padşahın vassalı adlandırmaqdan belə çəkinmədi. Güclü rəqib olan Səfəvilər aradan götürüldükdən sonra siyasətdə 180 dərəcə dönüş edərək, tam müstəqil davranmağa başladı. Bununla yanaşı Şirvan dövləti yersiz lovğalıqla yeni torpaq iddiası irəli sürməkdən çəkinirdi. Başlıca olaraq bu dövlət öz nüfuzunu quzeydə bərkitməyə çalışırdı. XIV yüzilin sonunda Dərbənd vilayəti bütünlüklə onun tabeliyində idi. Şirvanşahlar da «sultan» titulu daşıyırdılar. Fərrux Yasər öz adından pul kəsdirirdi. Hər iki fakt Şirvanın kimsədən asılı olmadığının göstəricisi idi.

Qaraqoyunlu və Ağqoyunlu sülalələrinin hökmranlığı çağında Azərbaycanda hökmdardan sonra ən böyük vəzifə adamı qoşunların baş komandanı ***əmir ül-umarə*** idi. Bu vəzifə Qaraqoyunlu və Ağqoyunlu sultanlarının yaxın qohumlarına verilirdi. Mərkəzi inzibati idarəçilik və siyasət işləri ***vəzirin***, maliyyə işləri ***divanbaşının*** əlində idi. Vilayətlərdə hökmdarın qoyduğu ***canişinlər*** öz yanında əsgəri dəstələr saxlayır, məhkəmə və inzibati işləri idarə edirdilər. Çox hallarda bunlar soyurqal sahiblərindən qoyulurdu. Ağqoyunlular çağında dövlət ordusunun sayı 100 minə, Şirvanşah dövlətində isə 60 minə çatırdı.

XV yüzilin birinci yarısında xarici siyasətin məramı hələ gündoğar səmtə yönəlməmişdi. 1458-ci ildə uğurlu hərbi əməliyyatdan sonra Qaraqoyunlu Cahanşah bütün Xorasanı ələ keçirib Temuri sultanlarının mərkəzi Herata girmişdi. Səkkiz ay burada qaldıqdan sonra Cahanşah yeni hakimiyyətə gəlmiş Sultan Əbu Səidin xeyrinə Xorasan torpaqlarından əl çəkdi. Tərəflər arasında Heratda rəsmi bağlaşma imzalanmış, Əbu Səid Cahanşaha təzminat ödəmişdi.

**TRABZON İRSİ ÜSTÜNDƏ ÇƏKİŞMƏ.** XV yüzilin ikinci yarısında xarici siyasətin ağırlıq mərkəzi də, yönümü də dəyişdi. Uzun Həsənin Ağqoyunlu hökmranlığını Diyarbəkirdə ələ keçirməsi, İstanbulun II Mehmet tərəfindən tutulması ilə bir ilə düşür (1453-cü il). Bu böyük zəfərdən sonra bir sıra güney-batı Avropa ölkələrinə yürüşlər keçirildi. ***Serbiya, Bosna,***

***Herseqovina, Albaniya, Moreya, Yunanıstan*** torpaqları tutuldu. ***Moldova, Valaxiya, Krım*** Osmanlı dövlətinin vassal asılılığına keçdi. Belə bir şəraitdə Osmanlı sultanlığı Anadolunun quzey-gündoğar hüdudlarında öz təbii mənafeyini bərqərar etməyə başladı. 1461-ci ildə II Mehmet görkəmli sərkərdə ***Həmzə bəyin*** başçılığı ilə ərazicə kiçik, lakin «imperatorluq» adlanan Trabzon hökmdarlığı (1204-1462) üzərinə böyük qoşun göndərdi. Bu, gələcəkdə Təbrizlə İstanbul arasında uzun çəkişmələrə başlanğıc oldu. Ağqoyunlular XIV yüzilin Trabzon Yunan imperatorluğundan qız alıb qohumluq yaratmışdılar. ***Tur Əli bəyin oğlu Kutlu bəy*** (1389-cu ildə ölmüşdür) imperator ***III Aleksinin*** bacısı ***Mariya-Dəspinəyə*** evlənmişdi. Uzun Həsən isə Trabzon imperatoru ***İoann Komnenin*** qızı ***Teodora*** (Dəspinə) ilə evli idi. Trabzon şəhəri ona bir liman və tranzit ticarət dayağı kimi mühüm idi. ***Evliya Çələbiyə*** görə, bu şəhəri «Azərbaycan hökmdarı Sultan Uzun Həsən genuyalıların əlindən almış, burada «böyük daş körpü saldırmışdı». Bütün bunlara görə Uzun Həsən Osmanlı sultanlığı ilə qarşıdurmada olan ***qaraman*** və ***zülqədər*** tayfaları ilə əlaqə yaratdı, onları ayağa qaldırıb bir kömək qoşunu göndərdi. Ancaq «Qoyunlu Hisar» adlanan yerdə Osmanlılarla ilk döyüş uğursuz oldu. Uzun Həsən anası Sara xatunun diplomatiyasını işə salmağa qərar verdi. Onu II Mehmet Fatehin görüşünə göndərdi. Görüş Sultan ordusunun döyüşə bağladığı anda Bulqar dağı ətəyində Fatehin düşərgəsində oldu. Sonuncu, Sara xatuna böyük ehtiram göstərdi. Onlar bir-birinə «ana-oğul» deyə müraciət edirdilər. Ancaq Uzun Həsən burada uğur qazana bilmədi. Fateh, Sara xatunun israrına baxmayaraq, əməliyyatı dayandırmaqdan boyun qaçırdı. Trabzon Türkiyə dövlətinə qatıldı.

Trabzonu fəth etdikdən sonra II Mehmet, Uzun Həsəni «ovutmağa» çalışdı. Sara xatunu Osmanlı elçi heyəti ilə birlikdə böyük hədiyyələrlə oğlunun yanına göndərdi. Trabzon xəzinəsinin bir qismi də bu hədiyyələrə qatılmışdı. Osmanlı elçiləri Uzun Həsən ilə onların bağlaşmasını təzələdi, çünki Rumelidə görüləcək işlər sərhədlərdə sakitlik tələb edirdi. Bunun qarşısında Uzun Həsən də elçilik və hədiyyələr göndərib Trabzonun alınması ilə Fatehi təbrik etdi, anasına göstərilən ehtiram üçün təşəkkürünü bildirdi. Ürəyində isə təcavüz və qisas hissini söndürə bilməyib Avropanın xaçpərəst ölkələrinə üz tutdu. 60-cı illərin böyük uğurları, Qaraqoyunlu və Temuri qüvvələrinin yenilməsi, dövləti genişləndirib imperatorluğa çevirməsi onda mənəmlik güvəni yaratmışdı.

**VENESİYA, VATİKAN VƏ KRALLIQLAR İLƏ BAĞLAŞMA.** Bu zaman Osmanlı imperatorluğu ilə kəskin ticari rəqabətə və hərbi qarşıdurmaya girmiş olan Güney Avropa dövlətləri sırasında ***Venesiya respublikası*** öndə gedirdi. Bu respublika Trabzon «imperatorluğu» çökdükdən sonra



16 il Osmanlı dövləti ilə savaşda oldu. Ağqoyunlu dövlətinin və Venesiya Respublikasının 60-cı illərin başlanğıcında Osmanlı imperatorluğu ilə yaranmış gerçək münasibətləri bu iki dövləti bir-birinə yaxınlaşdıraraq təbii müttəfiqə çevirdi. 1463-cü ildən Venesiyanın Təbriz ilə anlaşması yarandı. Tezliklə ***Lazaro Kvirino Venesiyadan*** Təbrizə, ***Məhəmməd*** isə buradan Venesiyaya elçi göndərildi. Sonuncunun gəlişi ilə bağlı Venesiya Respublikasının senatı iki dövlət arasında ittifaq bağlaşmasını təsdiq etdi. O biri il İtaliyaya göndərilən Ağqoyunlu elçisi Həsən Əzən, Uzun Həsən və arvadı ***Dəspinə xatunun*** məktublarını Venesiya hökumətinə çatdırdı. İki dövlətin diplomatik əlaqəsini bərkitmək üçün Venesiyanın Hələbdəki konsulluğundan istifadə etmək qərara alındı. 1471-ci ildə isə Azərbaycan elçisi ***Murad bəylə*** danışıqlardan sonra Venesiya Respublikası Təbrizdə daimi elçi saxlamağı qət etdi. Uzun Həsənin inamını qazanmaq üçün onun bacanağı (Dəspinə xatunun bacısının əri) ***Katerino Zeno*** adlı diplomat 1464-cü ildə Təbrizə göndərildi. Üç il Təbrizdə qalan Zeno, Ağqoyunlu dövləti ilə Venesiya Respublikası arasında Osmanlı imperatorluğuna qarşı iki cəbhədə savaş aparmaq haqqında gizli bağlaşma yaranmasına nail oldu.

1471-ci ildə Uzun Həsənin Təbrizdən göndərilən elçiləri Avropa dövlətləri ilə danışıqlar aparır, Polşanı, Macarıstanı və Vatikanı da bu ittifaqa qoşmağa çalışırdılar. Vatikanla yaxınlaşma çox dəyərli görünmədə idi. Çünki ***Papa IV Sikst, Fransa, Almaniya*** və ***İspaniyaya*** öz elçilərini göndərərək, onları Türkiyəyə qarşı xaç yürüşünə səsləyirdi.

Elçiliklərin, onların apardıqları dövlətlərarası danışıqların sayəsində altı dövlət: ***Venesiya Respublikası, Vatikan, Neapol krallığı, Macarıstan, Kıbrıs (Kipr)*** krallığı ilə Ağqoyunlu sultanlığı arasında Osmanlı imperatorluğuna qarşı hərbi-siyasi birlik yaranmış oldu. Ancaq tərəflərdən yalnız bir neçəsi hərbi əməliyyatlarda iştirak edirdi, qalanları isə diplomatik yaxınlaşma ilə kifayətlənməli oldu.

1473-cü ilin mart ayında Venesiyadan Ağqoyunlu dövləti üçün ***Corc Barbaronun*** komandası altında göndərilən dörd gəmi Kipr adasına yan aldı. Bu gəmilər ilə 200 nizami döyüşçü, top və barıt göndərilmişdi. Göndərilən hərbi köməyi Venesiya elçisinin başçısı diplomat ***İosafat Barbaro*** (kapitan Corcun qardaşı), habelə Ağqoyunlu elçisi ***Hacı Məhəmməd,*** Roma papasının və Neapol kralının elçiləri müşayiət edirdilər. Venesiya hökumətinin ayrıca göstərişində deyilirdi: «Əlahəzrət hökmdar (Uzun Həsən – *Red.*) üçün toplar, çoxlu başqa silah, barıt, təcrübəli və bilikli toptökən ustalar göndəririk. Onlar tezliklə bu silahların dilini Uzun Həsənin adamlarına öyrədəcəklər...»

**II MEHMET FATEH İLƏ SAVAŞ.** Ağqoyunlu-Osmanlı savaşı bir il qabaq qaraman tayfalarının II Mehmet Fatehə qarşı üsyan qaldırması ilə

başlamışdı. Onların başçıları təbii olaraq Uzun Həsənlə ittifaqa girib ondan hərbi kömək istəmişdilər. Uzun Həsən 1472-ci ildə vəziri Ömər bəyin başçılığı ilə Anadoluya qoşun göndərdi. Qoşun qaramanlılarla birləşərək, Tokat şəhərini qarət edib yandırdı. Ömər bəy buradan Diyarbəkirə yönəldi, Uzun Həsənin oğlu ***Yusuf Mirzəni*** on minlik qoşunla Qaraman üzərinə yolladı. Onlar ***Kayseridən*** başlayaraq Qaraman və ***Hamid elini*** ələ keçirdilər. Həmin ilin qışında Uzun Həsən Fateh Sultan Mehmetə kağız göndərib Kapadokya və Trabzon torpaqlarını istədiyini bildirdi. Sultan ağır cavab yazaraq, sonunda «elçimiz ox, sözümüz qılıncdır» söyləmişdi. Fateh Ağqoyunlulara qarşı yüz minlik bir qoşun çıxardı. İlk döyüş 1473-cü il avqustun birinci günü Malatya yaxınlığında oldu. Murad paşanın başçılığı altında Osmanlı qoşununun öncül bölükləri Ağqoyunlu sərkərdəsi ***Uğurlu Məhəmmədin*** yalançı geriləməsinə aldanıb pusquya düşdü. Osmanlı qoşununun çoxu qırıldı, Murad paşa özü Fərat çayında boğuldu.

Uzun Həsən, oğlu Uğurlu Məhəmmədin təklifini qulaq ardına vuraraq, qələbədən sonra yeni hücuma keçmədi. Öz qüvvələrini toplayıb nizamlamaq imkanı alan Fateh, avqustun 11-də Tərcan yaxınlığında ***Otluqbeli*** döyüşündə qəti uğur qazandı. Ağqoyunlu ordusu böyük itkilər verdi. İlkin döyüşlərdə Yusuf Mirzə və daha iki oğlunu itirən Uzun Həsən bu dəfə oğlu ***Zeynal Mirzəni*** şəhid verdi. Osmanlı komandanı ***Mahmud paşanın*** Uzun Həsəni təqib etməkdən boyun qaçırması qoşunu bütünlüklə tarmar olmaqdan qurtardı. Fateh öz rəqibinin uğursuzluğunu onun haqsız davranışı ilə bağlayırdı. O, Xorsan hökmdarı ***Hüseyn Baykaraya Otluqbeli*** döyüşündən sonra yazmışdı: «Uzun Həsən bəyin əhd və peymanı (yalnız) dilində olub əhvalında yoxmuş, çünki diyar-i islama qarşı çıxmaq üçün qeyri-müslimlərlə məktublaşıb onları təhrik etmişdir». Doğrudan da, savaş zamanı Uzun Həsənin müttəfiqləri olan Venesiya, Vatikan, Neapol və Rodos donanmaları ***İzmir, Antalya, Midilli*** və başqa liman şəhərlərini ələ keçirib yandırmışdılar.

Mənəvi amillərlə yanaşı, uğursuzluğun başlıca səbəbi odlu silahın azlığı, kommunikasiya xətlərinin bir sıra hallarda özünü doğrultmaması idi. Təkcə bunu nəzərə almaq yetər ki, İosafat Barbaronun elçiliyi Uzun Həsənin qərargahına yalnız 1474-cü ilin başlanğıcında çata bildi. Uzun Həsən bu elçiliyi soyuq qarşıladı. Çünki Katerino Zeno elçiliyinin səyi ilə yaranmış hərbi ittifaq ona üstünlük qazandıra bilməmişdi.

**VENESİYA İLƏ YENİ ANLAŞMA CƏHDİ.** İki türk dövlətini bir-birinə düşmən edib qarşılaşdırmağa nail olmuş venesiyalılar bundan çox narahat oldular. Venesiya senatı Uzun Həsənin yanına ***Ambrocio Kontarini*** başda olmaqla fövqəladə elçilik göndərməyi qərara aldı. Bu elçilik Almaniya, Polşa, Rusiya və Krımdan beş ay yol keçib 1474-cü il avqustun 4-də



Təbrizə çatdı. Ancaq Ağqoyunlu paytaxtından İsfahana (Uzun Həsən orada idi) getmək üçün elçilik daha üç ay vaxt sərf etməli oldu.

Anadolu uğursuzluqlarından sonra mərkəzi hakimiyyətə qarşı çıxışlar baş vermiş, şahzadə Uğurlu Məhəmməd üsyana qalxmışdı. Buna görə elçilik Təbrizdən çıxa bilməmişdi. Həmin ilin sentyabrında Aralıq dənizi - Hələb yolu ilə göndərilmiş başqa bir Venesiya elçiliyi də ***Bartolomeo Lionpardonun*** başçılığı ilə Təbrizə gəlib çıxdı. Kontarini fövqəladə elçi hüququndan istifadə edib, Təbrizdəki ağır vəziyyət haqqında yazdığı məlumatı ikinci elçi vasitəsi ilə Hələbdən Venesiyaya göndərdi. Özü isə noyabrın 4-də İsfahana çatıb burada olan Venesiya elçisi İosafat Barbaro ilə birləşdi. Uzun Həsən hər iki elçini dəfələrlə qəbul edib danışıqlar apardı.

Geri qayıdarkən Təbriz yaxınlığında daha bir elçilik özünü Uzun Həsənə yetirdi. Bu, Burqund (Fransa) dövlətinin göndərdiyi altı nəfərlik elçiliyin başçısı Antioxiya baş ruhanisi ***Fiqaro Lüdviq*** idi. Uzun Həsən Burqund elçisi və hər iki Venesiya elçisi ilə 1475-ci ildə dəfələrlə görüşüb danışıqlar apardı. Yenidən avropalıların sözlərinə inanıb Osmanlı dövlətinə qarşı çıxmaq fikrinə düşdü.

Ambroco Kontarini öz gündəliyində yazır: «Padşah (Uzun Həsən - *Red.*) keşiş elçiyə Fransaya qayıtmasını təklif edib söylədi: get öz padşahına xəbər ver, mən öz sözümə əməl edib Osmanlılara qarşı savaş yapacağam. Və indi hazırlıq aparıram. Sonra məni də öz yanına çağırıb dedi ki, sən isə Venesiyaya qayıt, bu keşişlə birlikdə öz padşahının yanına gedib, savaşa hazırlıq işləri aparmağımı ona söylə (qoy) o, savaşa başlasın, bu haqda bütün xristian başçılarına xəbər versin... Yola çıxmazdan bir gün qabaq yenə Uzun Həsənin qulluğuna gəlmişdim. Uzun Həsənin yanına Rusiya dövlətinin elçisi ***Marko Rosso*** gəlmişdi. Həmin gün padşahın yanında iki nəfər yerli əyan var idi. Padşah bunlardan birini Rusiyaya, başqasını da Burqundiyaya elçi göndərmək istəyirdi. Padşah Burqund elçisinə (Fiqaro Lüdviqə - *Red.*) və mənə onun sözlərini xristian (dövlət) başçılarına yetirməyi tapşırdı».

Çalışmasına baxmayaraq Uzun Həsən Avropa dövlətləri ilə nə yeni birlik qura, nə də güclənib genişlənmədə olan Osmanlı imperatorluğuna qarşı yeni zərbələr vura bildi. Sonuncu Ağqoyunlu-Osmanlı qarşıdurması 1480-ci ildə oldu. ***Süleyman bəy Bican oğlunun*** komandanlığı altında Ağqoyunlu ordusu Osmanlı ordusuna üstün gəldi. ***Sultan II Bayezid*** Sultan Yaqub ağqoyunlu ilə sülh bağlamalı oldu.

**MOSKVA KNYAZLIĞI İLƏ ƏLAQƏLƏR.** XIV yüzilin ortalarında Azərbaycanın moğol yürüşləri çağında Böyük Moskva knyazlığı ilə kəsilmiş olan əlaqələri canlanmağa başlayır. Xəzər-Volqa su yolu ilə alış-veriş işləri dirçəliş yoluna çıxdı. Moskva knyazlığı «sevgi və dostluq elçiliyi»nin

iki tərəf arasında gediş-gəlişinə maraq göstərirdi. 1465-ci ildə Şirvanşah Fərrux Yasər özünün yaxın adamlarından ***Həsən bəyi*** ticari və diplomatik işləri qaydaya salmaq üçün hədiyyələrlə Moskvaya elçi göndərdi. Bundan sonra Ağqoyunlu dövlətinin elçisi də Moskvaya göndərildi. Hər iki elçilik uğurlu oldu. O biri Il Moskva Böyük knyazı ***III İvan*** (1462-1505) Şamaxıya ***Vasili Papinin*** başçılığı ilə böyük elçilik, 1475-ci ildə Təbrizə elçi «Marko Rosso»nu göndərdi. Elçi Vasili Papinlə bir ildə Tverli tacir ***Afanasi Nikitin*** də 6 ticarət adamı ilə birlikdə Azərbaycana yola düşdü. Sonuncu, Nijni Novqoroddan vətəninə qayıdan Şirvan elçisi Həsən bəylə görüşüb onunla birlikdə gəmilərlə hərəkət etmək barədə razılığa gəldi.

Afanasi Nikitin 1466-67ci illərdə Azərbaycan, Dərbənd, Şamaxı, Bakı, bir sıra başqa şəhər və yaşayış yerlərini gəzərək ölkənin iqtisadi-siyasi, mədəni həyatı ilə tanış oldu. O, Şirvanşah Fərrux Yasərin yardımı ilə Qaytaq hakimi ***Xəlil bəyin*** əsir aldığı rus tacir yoldaşlarını azad edə bildi. Bu hadisə ilə bağlı Şirvanşahın öz elçisi ***Yaxşı Məhəmməd*** vasitəsilə Qaytaq hakiminə göndərdiyi məktub onun Azərbaycan-Rusiya münasibətlərinə baxışına örnək ola bilər. Bu məktubda deyilirdi: «Mənim gəmim Tarku yaxınlığında qəzaya uğrayıb qırılmışdır (Görünür, elçi Həsən bəylə Afanasi Nikitini gətirən Şirvan gəmisi nəzərdə tutulur - *Red.*). Sənin adamların gəldilər, tacirləri (rus tacirlərini - *Red.*) tutdular, mallarını taladılar. Sən mənim xətrimə o adamları yanıma göndər və mallarını qaytar, əgər sənin mənə bunun qarşılığında bir işin düşsə, sevimli qardaş kimi mənə bildir. Mən də fərəhlə sənin üçün iş tutum». Afanasi Nikitin Bakıdan Hindistana yola düşmüş, vətəninə yenə Azərbaycandan qayıtdıqdan sonra «Üç dəniz arxasına səyahət» adlı kitab yazmışdır. Kitabla tanışlıq onun artıq Azərbaycan türkcəsinə yaxşı bələd olub yiyələndiyini göstərir. O, «Urus, yerin(i) tanrı saxlasın», «bu dünyada bunun kimi yer yoxdur», «Urus yerli bəyləri» kimi onlarca türk deyim və söyləmləri işlətmişdir.

XV yüzilin ikinci yarısında Quzey Azərbaycan vasitəsilə həm Rusiya, həm Avropa ölkələri ilə diplomatik elçilərin gediş-gəlişi, ticarət əlaqələri xeyli güclənmişdi. Tarixi qaynaqlardan Azərbaycan ərazisindən keçən elçi və alış-veriş yollarının nisbətən təminatlı və qorxusuz olması aydınlaşır. Məsələn, 1475-ci ilin yayında Ağqoyunlu dövlətindən Moskva knyazlığına göndərilən ikinci elçi, Venesiya fövqəladə elçisi Ambroco Kontarini, Burqund elçisi Fiqaro Lüdviq, Moskva elçisi Mark və başqaları Təbrizdən Moskvaya Tiflis-Kutais-Krım yolu ilə getməkdən imtina etməli oldular. Menqrelidə yaxşı qarşılanmayan və Krıma Türkiyə qoşunlarının çıxarıldığını eşidən bu elçilər Şamaxıya dönməli olmuş, Dərbənd-Həştərxan yolu ilə Moskvaya getmişdilər.



*ON BİRİNCİ BÖLÜM*

# XIII-XV YÜZİLLƏRİN MƏDƏNİYYƏTİ

## 1. ELM

**BİLİK DÜNYAMIZ TARİXİNƏ BİR NƏZƏR.** Moğol çağının gətirdiyi bütün sarsıntı, dağıntı və qırğınlara baxmayaraq Azərbaycan tutduğu mədəni yeri əldən verməmişdi. Xalqın yaradıcı intellektual gücü qırılıb heçə enməmişdi. Yüksək mədrəsələr başlıca öyrətmə ocaqları olmaqla, öz dəyərini saxlamaqda idi. Bir sözlə, X-XII yüzillərin mədəni yüksəlişi bu üzücü çağda da öz böyük potensiyasını itirməmişdi.

«Örüş siyasəti» ilə moğollar, özləri də sezmədən elmin, fəlsəfi görüşlərin azadlıq qazanması üçün bir növ şərait yaratmış oldular. O çağ tarixinin başlıca təzadlarından biri məhz bu idi. Yuxarıda bildirildiyi kimi, bu siyasət həm də islama qarşı yönəlmiş, «Sarı xaç yürüşü» donu geydirilmiş bir siyasət idi. Təkcə məscidlər, mədrəsələr, vəqflər deyil, islam ehkamçılığı, ülamələr və ülaməçilik də sarsıdılmışdı. Bununla bağlı olaraq moğol çağından sonrakı yaxın yüzildə din islahatçılığı, sufilik, hürufilik, əxilik görüşləri çox yayılmışdı.

Bununla həm də xalqın mənəvi varlığının itirilməsinə, islam dünyası içində özgələşib əridilməsinə qarşı yönəlmiş olan bir direniş hərəkatı başlandı. Hərəkatın başlıca mənəvi-siyasi istəyi islam dünyası içində yox olmaq deyil, əksinə, islam qanunlarını «özəlləşdirmək», «özününküləşdirmək» idi. Qaraman bəyliyi başçısı ***Mehmet bəy, Konyanı*** tabe etdikdən sonra 15 may 1277 (10 zilhiccə 675)-ci ildə belə bir buyruq vermişdi: ***«Şimdən gerü divanda, dərgahda, bargahda, məclisdə və meydanda türkcədən başqa dil kullanılmayacaqdır»***. Doğrudur, bu fərmandan sonra da Yaxın Şərq Türk dövlətlərinin rəsmi dili fars dili sayılırdı. Ancaq buna baxmayaraq Anadoluda başlanan dil intibahı genişlənmədə idi. ***Əhməd Cəfəroğlunun*** fikrincə, artıq Qaraqoyunlu və Ağqoyunlu saraylarının «gerçək dövlət və yazı dili Azərbaycan türkcəsi idi». Türkcənin dövlət dili ucalığına yüksəldilməsi istəyinin ortaya gəlməsi, ümumtürk mənəvi axarında düşünülərsə, böyük tarixi iş idi. Bu axar öz başlanğıcını ***Mahmud Kaşqarlıdan*** almışdı. Özü söylədiyi kimi o, 1072-ci ildə bitirdiyi ***Divani luğati-t-Türk*** adlı böyük əsərini ***«türk dili ilə ərəb dilinin atbaşı bərabər yürüdükləri bilinsin deyə»*** yazmışdı.

Bu zaman türkcənin, milli dilin ölməzliyi, böyüklüyü fikri getdikcə yayılmaqda idi. Hürufiçi mütəfəkkirlər arasında türk dili Qur'ani-Kərimin ərəb-

cəsi ilə yanaşı qoyulur, onun tarixdə ulu yer tutması bildirilirdi. Ustadı Fəzlullah Nəimiyə üz tutaraq, Nəsimi yazırdı: «*Ərəb nitqi dutulmuşdur dilindən/Səni kimdir deyən kim türkmənsən*. Açıqlamış olsaq: sənin ana türkcən qarşısında ərəb dili sarsılıb susmalı olur, amma kim söylər ki, bu dilin yiyəsi olan sən türksən (türkmansan)». Belə keskin söz deməyə Nəsiminin haqqı var idi. Çünki islamın yayılma çağında bir çox ölkələrdə bilik, sənət ustadları ana dilinə yuxarıdan baxır, ərəbcəni, ya da farscanı ondan üstün tuturdular. ***Əbu Reyhan əl-Biruni*** əsərlərinin birində yazırdı: «Təbiət məni bir ayrı dil dünyasında yaratmışdır, ancaq elmlərdən birini bu dildə (müəllifin burada öz doğma türkcəsini nəzərdə tutması sözsüzdür – *Red.*) səsləndirmək istəsən, elə bil dəvə yağış selində hərəkət etməkdədir və ya zürafə xəndəyə düşmüşdür. Sonralar mən (ana dilindən) ərəb və fars dillərinə keçdim; onların hər birində mən özümü onlara güclə yiyələnmiş bir yabançı (müsafir) sanıram. Fəqət mənə ərəbcə söyüş farsca söylənilən tərifdən daha xoş gəlir».

Sonralar ana türkcənin Nəsimidəki kimi yüksək dəyərləndirilməsi təbii olaraq Qar'ani-Kərimin bu dilə çevrilməsi, bu dildə oxunub öyənilməsi fikrini doğurdu. Söz yox, bu işi hər adam etdirə bilməzdi. Professor Dr. *Faruk Sumerin* araşdırmasına görə, Ağqoyunlu sultanı ***Uzun Həsən*** Qur'anı türkcəyə çevirdib hüzurunda oxutmağa başladı. Bu, müqəddəs kitabımızın tarixdə ilk türk çevirmələrindən sayılır.

Bəlli olduğu kimi, Avropa xalqları tarixində də dini islahatçılıq (reformasiya) hərəkatının gedişində müqəddəs kitabların Milli dilə çevrilməsi tələbi irəli sürülmüşdür. Uzun Həsənin ölümündən beş il sonra dünyaya gələn böyük alman din islahatçısı ***Martin Lüter*** (1483-1546) ilk dəfə ***İncili*** almancaya çevirərək, onu xalq qavrayışının malı etdi. O çağa kimi almanlarda yazıb oxuma bütünlüklə latın dilində aparılırdı (bizlərdə ərəbcə olduğu kimi). Din islahatçılığı burada gerçək tarixi işlər görmüş oldu: yaxın 100-150 il içərisində Almaniyada Milli təhsil yarandı. «Əkinçi» (1877, № 3) qəzeti bir vaxt yazdığı kimi: «...mirur ilə elm təhsil edib, indi öz dillərində oxumaq-yazmağı elə asanlığa çıxarıblar ki, qeyri millətlər onların (almanların – *red.*) dilində elm təhsil etməyə rəğib olub».

Qur'anın türkcəyə çevrilməsi, İncilin almancaya çevrilməsindən 70-80 il qabaq olub. Amma bu «öncüllük», təəssüflər olsun, böyük yeniçilik hərəkatı yarada bilmədi. Nə üçün?

Sualın açımı yenə «örüş siyasəti» üzərinə çıxır. Bu siyasət Yaxın Şərqdə geniş sosial-iqtisadi səpkidə bir çöküntü, tarixdə görünməmiş bir ölgünlük doğurmuşdu. Şəhər və oturaq kənd təsərrüfatında X-XII yüzillərdə olan böyük yüksəlişi dayandırıb heçə endirmiş, bəlkə də V-VII yüzillərin səviyyəsinə atmışdı. Bununla bağlı olaraq XV yüzildə Azərbaycan iqtisadiyyatı köklü dəyişiklik yoluna çıxa bilmədi. Elmi biliklər, xüsusilə təbiət



elmləri səviyyə, tutduğu yer baxımından moğol çağından irəli gedə bilməmiş, hətta gözə çarpacaq ölçüdə geriləmişdi. Sonralar qızılbaş ehkamçılığı və mərsiyəçiliyinin hakim yer tutması bu yüksəliş qarşısında yeni hasar çəkmiş oldu. Avropada isə şəhərlərdə, sənət və ticari işlərdə gedən yüksəliş (renessans) əslində, ara vermədən davam etmədə idi. Bu yüksəliş artıq XVI-XVII yüzillərdə Avropa xalqlarını yeni mədəni-iqtisadi ucalıqlara yetirdi.

Beləliklə, moğol çağı tarixdə ayrıca bir yer tutsa da, XIII-XV yüzillərin elmi, bütün mədəni yaşayışı bütövlükdə öyrənilməlidir. Bununla yanaşı, bu tarixin ümdə məsələlərini qalan dünya xalqlarının yaşayışında baş vermiş yeniliklərdən ayrılıqda düşünmək olmaz.

**MARAĞA RƏSƏDXANASI.** Bu rəsədxana XIII yüzil Azərbaycan elminin hansı yüksəkliyə ucaldığının başlıca göstəricisi sayılır. O, 1259-cu ildə tikilmişdir. Fəaliyyəti nisbətən qısa (50 il) olsa da, Yaxın və Orta Şərqdə, Orta Asiyada dərin iz buraxmışdır.

Marağa rəsədxanasına tikilişindən başlayaraq böyük Azərbaycan alimi ***Nəsirəddin Tusi*** başçılıq etmişdir. Onun ölümündən sonra yerini oğlu ***Sədrəddin*** tutmuşdur. Tikinti yerinin Hülakü xanın buyruğu ilə seçilməsi təsadüfi deyildi. Marağa şəhəri birinci elxanın paytaxtı, Yaxın Şərqin böyük mərkəzlərindən biri idi. ***İbn Bəttutə*** onu Şərqin «kiçik ***Dəməşqi***» adlandırırdı.

Marağa rəsədxanası sonralar dağıdılmışdır. Ancaq ***Rəşidəddin, Vəssaf*** kimi tarixçilərdən onun haqqında dolğun yazılar qalmışdır. Avropa alimlərindən ***A.Houtum-Şilder*** və ***A.Qodarın*** çalışması ilə onun ümumi ölçüsü, qaya üstündə ucaldılmış bir sıra tikintilərinin quruluşu aydın edilmişdir. Rəsədxana 137x347 m yer tuturdu. Yazılı qaynaqlara, ***Britaniya*** muzeyindəki bir XVI əsr miniatürünə görə başlıca cihaz və qurğular: böyük divar kvadrantı, armilyar sfera, ekliptikanın mailliyini, bərabərlik anını və tutulmanın ölçülərini təyin etmək üçün fırlanan kvadrant, I və II sinus-cihaz, mükəmməl cihaz və başqaları burada yerləşirdi. Bu cihazlar haqda rəsədxanada çalışan alimlərdən ***Müvəyəddin Ordinin*** əsərində tutarlı bilgi verilir (əlyazma Parisdə hələ 1609-cu ildə tapılmışdır). Burada düzəldilib işlədilən ulduz qlobusunun biri ***Drezdenin Riyaziyyat-Fizika*** muzeyində saxlanılır.*

Marağa rəsədxanasının minlərlə əlyazması olan böyük kitab evi var idi. Bu kitabxananın baxıcısı olmuş ***İbn əl-Füvati Bağdadi*** burada ayrıca

---

* Marağa rəsədxanası qlobusunun şəkli Azərbaycan Ensiklopediyasının VI cildində (s. 352), üstürlablardan birinin şəkli isə *Rasim Əfəndinin* «Azərbaycan dekorativ-tətbiqi sənətləri» kitabında (Bakı, 1976, rəsm 49) verilmişdir.

bir əsər yazmış, Azərbaycanda çalışan görkəmli alimlər, mühəndislər, memar və nəqqaşlar, şairlər haqqında geniş məlumat vermişdir.

Marağa rəsədxanasında bir çox ölkələrdən gəlmiş yüzdən çox alim çalışırdı. Bunların içərisində ***Fəxrəddin Marağai, Fəxrəddin Tiflisi, Nəcməddin Qəzvini, Qütbəddin Şirazi, Cəmaləddin Buxari, Fao Munçi (Çin), İsa (Moğolustan)*** və başqaları vardı. Rəsədxananın adlı-sanlı araşdırmaçılarından biri də ***Malatyada*** yəhudi ailəsində doğulmuş ***Qriqori Əbulfərəc İbn əl-İbri*** idi. O, Evklid və Ptolemey bilik irsini öyrənmək üçün Azərbaycana gəldikdən sonra burada «Tarix əd-düvəl» («Dövlətlərin tarixi») adlı məşhur tarixi əsərini yazmışdır.

Marağa rəsədxanası Şərq ölkələrində ilk akademiya idi. Rəsədxanada aparılan araşdırmalar və yazılan kitablar Avropa elminin inkişafına böyük dayaq olmuşdur. Alimlərin fikrincə, burada tutulan həndəsi cədvəllər indiki beşrəqəmli həndəsi cədvəllərdən daha dəqiq, altırəqəmlilərdən isə az dəqiqdir. Bu rəsədxananın elmi işləri ***Səmərqənddə Uluqbəy*** rəsədxanasının, ***Caypur, Pekin*** və bir sıra Avropa rəsədxanalarının çalışmalarında böyük yer tutmuşdur. ***V.V.Bartold*** Uluqbəyə həsr etdiyi araşdırmasında yazır ki, Səmərqənd rəsədxanası astronomiya elminin sonrakı inkişafına Marağa rəsədxanası qədər təsir göstərə bilməmişdir.

1300-1304-cü illərdə Azərbaycanda (Təbrizdə) ikinci bir rəsədxana tikilib işə başladı. Bu rəsədxana ***Qazan xanın*** yaratdığı «Allah evləri» (Əbvab-əl-Birr) silsiləsinə daxil idi. Onun tikintisində Marağanın iş təcrübəsindən geniş istifadə olunmuşdu. Təbriz rəsədxanası haqqında çox az məlumat qalmışdır.

**NƏSİRƏDDİN TUSİ BİLİK MƏKTƏBİ.** Orta çağ Azərbaycan elminin dağ zirvəsi böyük ensiklopediyaçı alim ***Nəsirəddin Tusidir*** (1201-1274). O, kökcə moğol basqınları zamanı dağıdılmış ***Savə*** (***Həmədan*** ilə Avə kəndi arasında yerləşirdi) şəhərindəndir. Ləqəbi Tus şəhərində doğulması ilə bağlıdır. İlkin biliklərini atasından, sonra isə ***Bəhmənyar*** və ***İbn Sina*** məktəbindən olan alimlərdən almışdır. 1230-cu illərdə ***Kuhistana*** gələrək burada İsmaili başçısı ***Nasirin*** təklifi ilə «Əxlaqi-Nasiri» əsərini yazdı. Tərbiyə, əxlaq, öyrətmə məsələlərinə həsr olunmuş bu kitab ona ad qazandırsa da, tezliklə tutulub ***Ələmut*** qalasına salındı. ***Hülakü*** xan bu qalanı aldıqdan sonra, artıq adlı-sanlı bilik adamı olan Nəsirəddin Tusini azad edib özünə dövlət müşaviri qoydu. Hülakünün ölümündən (1265) sonra ömrünün sonuna kimi onun oğlu ***Abaqa xanın*** vəziri oldu. O, minlərlə suçu olmayan bilik və sənət adamını moğol qılıncından qurtarmışdır.

Nəsirəddin Tusi hər iki elxanın vaxtında dövlət işlərilə yanaşı Marağa astronomiya rəsədxanasına başçılıq edirdi. Onun başçılığı altında bir sıra



dəyərli araşdırma işləri görüldü. Özünün ***«Zic Elxani»*** («Elxani cədvəlləri») kitabında planetlərin geosentrik orbitinin başlıca ünsürlərini, bütöv gecə-gündüzdə onların orta gedişini açdı. O çağdan XVII yüzilin sonuna kimi bu kəşf astronomiyada öz dəqiqliyini saxladı. Onun başçılığı ilə Yerin fırlanma oxunun illik prosessiya qiyməti 51'4 tapıldı. İndi bu rəqəm 51'2 sayılır.

«Elxani cədvəlləri» Avropa elminə çox tez yol açdı. ***Kolumbun*** müəllimi ***Toskanelli***, bu kitabdakı 256 böyük şəhərin coğrafi koordinatlar cədvəlindən istifadə edirdi. Bu cədvəl 1652-ci ildə ***Londonda***, 1711-ci ildə ***Oksfordda*** ərəb və latın dillərində çap olunmuşdur. Bu kitabın Paris Milli Kitabxanasında saxlanılan nüsxəsi müəllifin ikinci oğlu ***Əsiləddinin*** əlyazmasıdır.

Tusinin ***«Təhriri-Əqlidis»*** («Evklidin təhriri») kitabı həmən iki dildə XVI və XVII yüzillərdə Romada çapdan çıxmış, görkəmli fransız riyaziyyatçısı ***A.Lejandrın*** (1752-1833), habelə ingilis ***C.Vallisin***, italyan ***C.Sakkerinin*** işlərinə böyük təsir göstərmişdir. Ədəd anlayışı məsələsində o, Avropa riyaziyyat elmini 400 il qabaqlamışdı. Elmdə «Nyuton binomu» adlanan qanunauyğunluğu ondan 300 il öncə Nəsirəddin Tusi kəşf etmişdir.

***«Tam dördtərəfli haqqında»*** risaləsinin başlanğıcında Tusi yazır ki, kəsilməyən kəmiyyətləri ancaq diskret kəmiyyətlər və əksinə, diskret kəmiyyətləri kəsilməyənlər vasitəsilə qavrayıb anlamaq olar. Tanınmış Avropa həndəsəçisi ***Kavalyeri*** bu fikrə 362 il sonra ***Qalileyə*** yazdığı məşhur məktubunda gəlmişdir. Tusinin adı çəkilən risaləsi ilə ***Eylerə*** qədərki triqonometriya elmi yarandı, müstəvi və sferik triqonometriya ayrıca riyazi fənn şəkli almış oldu.

Tusinin yaradıcılığı humanitar elmlərin inkişafına da böyük dayaq olmuşdur. Adı çəkilən «Əxlaqi-Nasiri» yüzillər boyu Yaxın və Orta Şərq məktəblərində dərslik olmuşdur. Bir sıra orta məktəb proqramlarında orada bu kitaba indi də yer verilməkdədir.

Tusi yaradıcılığında fəlsəfə-sosiologiya məsələlərinin araşdırılması da geniş yer tuturdu. O, Əbu Əli ibn Sinanın fəlsəfi görüşlərini çox yüksək dəyərləndirirdi. ***«İbn Sinanın fəlsəfi və məntiqinə şərhlər», «Səhifələrində ər-Razinin qeydləri», «Teologiya və metafizikaya dair risalə»*** və başqa əsərlərində İbn Sina fəlsəfisinə tərəf çıxaraq, onu islam ilahiyyatçıları basqınlarından qoruyurdu. ***«İki mülahizə haqqında mülahizə»*** əsərində Tusi, ***əl-Qəzali*** ilə ***İbn Rüşd*** arasında fəlsəfi-peripatetik fikir ayrılığını ayrıca araşdırmışdır. Şərqdə peripatetik fəlsəfi görüşlərin inkişaf etməsində onun yeri olduqca böyükdür. Nəsirəddin Tusi 150-dən çox, o sıradan iqtisad, minerologiya, tibb problemlərinə həsr olunmuş elmi əsər yazmışdır. Bunlardan ***«Şəkl ül-Qita»*** («Kəsişmələr şəkli»), ***«Üstülab», «Cəvahirnamə», «Maliyyət barəsində»*** və başqalarının elmi çəkisi böyükdür.

**DAR ÜŞ-ŞƏFA.** «Sağlamlıq evi» anlamına gələn belə xəstəxana və ya tibb müəssisəsi ilk dəfə İbn Sina tərəfindən açılmışdır. Azərbaycanda da belə xəstəxanalar var idi. Ancaq XIII-XV yüzillərdə bu iş geniş yayılaraq yüksək elmi səviyyə qazandı. Elxanlı hökmdarların veziri, peşəsinə görə həkim olan ***Fəzlullah Rəşidəddinin*** göstərişi ilə bir çox vilayətlərdə xəstəxanalar açıldı. Yalnız Güney Azərbaycanda onların sayı 67-yə çatırdı. Onların içərisində ***Təbriz Dar üş-Şəfası*** böyük yer tuturdu.

Əslində bu, bir universitet şəhərciyi idi. Burada yerlilərlə birlikdə ***Çin, Misir, Suriya*** və ***Hindistandan*** çağırılmış 50 həkim çalışırdı. Bütün Yaxın Şərqdə adı dillərdə gəzən Təbriz Sağlamlıq evində minə kimi xəstə müalicə olunurdu. Bununla yanaşı, burada böyük kitabxana açılmışdı. Yerli kitablarla birlikdə burada adı çəkilən ölkələrdən, ***Yunanıstan*** və ***Krittən*** gətirilmiş dəyərli əlyazma kitabları toplanmışdı. Şərq ölkələrindən buraya oxumağa bir neçə min tələbə gəlirdi. Həkimlərin hər biri onlarca tələbə ilə ayrıca məşğələ aparırdı. «Ümumi fənlərə» gəldikdə, burada təbabətlə yanaşı astronomiya, məntiq, fəlsəfə, tarix, ilahiyyat keçilirdi.

Sağlamlıq evinin işinə Rəşidəddin özü nəzarət edirdi. O, Təbrizin quzeyində ***«Rəbi-Rəşidi»*** («Şəhristane-Rəşidi», «Rəşidiyyə») adlanan bir şəhərcik saldırmışdı. Dar üş-Şəfa bu şəhərcikdə yerləşirdi. Qaynar həyat yaşayan şəhərcik mühüm elmi-mədəni mərkəzə çevrilmişdi. Burada bütöv bir universitet silsiləsi yaranmışdı. Xəstəxana, həkimlər, müəllimlər, tələbələr üçün yaşayış evləri, tədris otaqları, əczaxana ilə birlikdə 30 min ev var idi. Bununla yanaşı 1500 dükan, 24 karvansara, zərrabxana, kağız hazırlayan bina, boyaqçılıq, toxuculuq karxanaları, yoxsullar evi açılmışdı. Rəşidiyyə tikililəri çox möhkəm idi. ***Dövlətşah Səmərqəndiyə*** görə, buradakı evlərin biri üzərində yazılmışdı: «Bu binanın dağıdılması başqa bir binanın tikilməsindən çətindir». Rəşidəddin öldürüldükdən sonra yağıları onun mülkü sayılan şəhərciyi dağıtdılar. Oğlu ***Qiyasəddin*** binaları təmir etdirdi. Sonralar Dar üş-Şəfa, ***Ağqoyunlu Sultan Yaqubun*** yaxınlıqda tikdirdiyi ***«Həştbehişt»*** («Səkkiz cənnət») sarayına qatılaraq ömrünü davam etdirdi. Yalnız 1651-ci il zəlzələsi onu da, bütün şəhərciyi də dağıdıb yox etdi.

Təbabət işi və biliklər üzrə çalışanlar o çağ Azərbaycanda çox idi. Tanınmış əczaçı alim ***Mahmud ibn İlyas*** 1260-cı ildə «Elmi-tibb», «Müxtəsər ət-tibb», «İnayət üt-tibb» («Müalicə elmi haqqında kitab»), dərslik səciyyəli əsərlər yazmışdı. Tibb və fəlsəfə üzrə çalışan ***Əbu Abdulla Məhəmməd Təbrizinin*** «Ədvar əl-həmiyyat» («Qızdırma dərmanları») əsəri də nüfuz qazanmışdı. Görkəmli riyaziyyat və tibb alimi ***Hümam Təbrizi*** «Kitab əl-irşad fi mə'rifat-ül-ə'dad» («Sayların öyrənilməsi üçün göstəriş kitabı») əsərini yazıb Şirvanşah I İbrahimə ithaf etmişdi.



**FƏLSƏFİ GÖRÜŞLƏR.** Ölkənin yalnız elm dünyası deyil, bütün düşüncəsi böyük yüksəliş, həm də çalxantı içində idi. Bu zaman böyük bir ***peripatetik*** görüşlü filosoflar məktəbi ilə yanaşı, bir çox ***təsəvvüf*** (sufi) mütəfəkkirləri və əxi görüşlü ***fütüvvələr*** (əxilərin «gənclik», «igidlik» birlikləri) yayılmışdı.

O çağın böyük fikir adamlarından biri ***Siracəddin Urməvi*** (1198-1283) idi. Filosof, məntiqçi, təbiətşünas alim olan Urməvi, gəncliyində Nəsirəddin Tusi ilə birlikdə ***Mosulda, Kəmaləddin İbn Yunisin*** məktəbində oxumuşdur.

Bir az ***Dəməşqdə*** yaşadıqdan sonra ***Konyaya*** köçmüş, ömrünün sonuna kimi buranın baş qazısı olmuşdur. Fəlsəfə, məntiq bilikləri üzrə ondan çox əsər yazmışdır. Bunlardan «Mətali əl-ənvar» («Nurların doğuluşları»), «Lətaif əl-hikmə» («Hikmət incəlikləri»), «Bəyan əl-haqq», «ər-Rəsail fi ilm əl-cədəl» («Dialektika elminə dair traktatlar») və başqaları onun adını Yaxın və Orta Şərqin elm aləminə tanıtmışdır. Adı birinci çəkilən əsərinin məntiq bölməsi ***Qahirədə Xədiviyyə kitabxanasında*** saxlanılır və özünün sağlığında üzü çıxarılmışdır. Bu əsər, XIV yüzil alimi ***Qütbəddin Razinin*** şərhləri ilə sonralar İstanbulda, Təbrizdə, ***Tehranda*** çap edilmişdir.

**MAHMUD ŞƏBÜSTƏRİ.** ***Sədəddin şeyx Mahmud*** (1284-1320) Təbriz yaxınlığındakı ***Şəbüstər kəndində*** doğulmuş, orada da torpağa tapşırılmışdır. Azərbaycanın görkəmli mütəfəkkiri Şəbüstəri gözəl təhsil almış, fəlsəfəni, məntiqi, etikanı, psixologiya, astronomiya, minerologiya və anatomiyanı dərindən öyrənmişdi. Azərbaycanın, İranın, Misirin, Suriyanın, ***Hicazın*** şəhərlərinə gedib yerli alimlər və ilahiyyatçılar ilə görüşmüşdü. Antik filosoflardan ***Aristotel*** və ***Platon*** yaradıcılığının bilicisi idi. Əsərlərində onlarla yanaşı İbn Sina, Məsirəddin Tusi, ***Qəzali, Mənsur Həllac, Bayazid Bistam, Vasil ibn Ata, Fəridəddin Əttar*** kimi bir çox alimlərin adlarını çəkib onlara istinad edir.

Şəbüstəri ***vəhdət ül-vücud*** (panteizm) fəlsəfi mövqeyində dururdu. Onun fikrincə, varlıq vəhdətdir: insan təkcə Allah ilə deyil, bütün təbiət ilə eynidir, insan və təbiət uzun aramsız inkişaf yolundadır; Allah və insan, yaxud Allah və təbiət eyni təzahürlərdir. Onun əsərlərində Allah substansiyasının təmiz ruhiliyi, qədərilik və cəbrilik anlayışlarının fəlsəfi səpkisi, insan zəkasının dayandığı əsas-dəlil silsiləsi ilə Qur'an kəlamlarının qarşılaşdırılması kimi məsələlər böyük yer tutur. Başlıca əsərləri «Gülşəni-raz» («Sirlər gülşəni»), «Şahidnamə», «Səadətnamə», «Mirat-ül-Mühəqqəqin» («Həqiqət axtaranlar güzgüsü») və başqalarıdır. Bu əsərlər bütün Şərqin sonrakı fəlsəfi görüş dünyasına nəzərəçarpacaq ölçüdə təsir göstərmişdir. Yalnız «Gülşəni-raz» əsərinə 18 müəllif farsca şərh yazmışdır. Bunların

sırasında XIV-XV yüzillərin tanınmış elm adamları ***Baba Nemətulla Naxçıvani, Əmin Əddin Təbrizi, Şah Nemətulla Vəli, Seyid Nizaməddin Şirazi, Seyid Yəhya Xəlvəti Şirvani, Kamaləddin Hüseyn Ərdəbili*** və başqaları var idi.

«Gülşəni-raz» ötən yüzilin başlanğıcından Avropa dillərinə çevrilməkdədir. 1821-ci ildə qısaltmalarla ***Berlində latınca***, 1838-ci ildə ***Leypsiqdə almanca*** (Fon *Hammer Purqştalın* çevirməsində farsca mətn ilə birlikdə), 1876, 1880-ci illərdə ***Kəlküttə*** və ***Londonda ingiliscə*** (Vinfildin çevirməsində), 1959-cu ildə ***Parisdə fransızca*** çap edilmişdir.

**ŞİHABƏDDİN ƏBU HƏFS SÜHRƏVƏRDİ.** Artıq öz sağlığında Müsəlman şərqində geniş şöhrət tapmış sufi alimlərdən biri ***Şihabəddin Əbu Həfs Ömər Sührəvərdi*** (1145-1234) olmuşdur. Şüurlu həyatı, yaradıcılığı və ictimai-siyasi çalışmaları həm XII, həm də XIII yüzilə düşür. Alim, bir zaman ***Bağdadın Baş şeyxi*** olmaqla yanaşı, ***Sührəvədiyyə*** sufi təsisatının yaradıcısı və başçısı idi. Böyük yaradıcılıq irsi: onlarca əlyazma kitabları, risalələr qoyub getmişdir. Bunların içərisində «Əvarif əl-Məarif» («Biliklərin töhfələri») kitabı ayrıca yer tutur. Bu kitab türk və fars dillərinə çevrilmişdir. ***Mehmet Fuad Köprülü*** onu «mükəmməl bir əxlaqi-sufiyyə məcmusu» kimi dəyərləndirmişdir. Başqa yazıları sırasında «Məqam əl-arifin» («Ariflərin məqamları»), «Risalə fi-lübs əl-xirqə» («Xirqə libası geymək risaləsi»), «Risalə fi-t-təsəvvüf» («Təsəvvüf risaləsi») və başqaları var.

Sührəvərdi sufi əxlaq görüşlərinə, davranış qaydalarına, daxili təmizliyə öz yazılarında geniş yer verir. O, sufiliyin monoteist baxış sistemini yaratmışdır. Onun fikrincə insan öz daxili aləmini, mənəviyyatını təmizləyib yüksəltdikcə haqqa (Allaha) yaxınlaşır. Ancaq o, insan ilə Allahın birliyini, eyniliyini irəli sürən panteist baxışları kəskinliklə pisləyirdi.

Sührəvərdi Bağdadda yaşasa da, fəlsəfi-siyasi baxımdan qonşu ölkələrlə sıx bağlı idi. O, dəfələrlə Konya sultanlığına gəlmiş, sultan ***İzəddin Keykavusun*** (1210-1219) qonağı olmuş, sonuncunun ölümündən sonra qardaşı ***Əlaəddin Keyqubad*** sultanlığa keçərkən, qanuniləşdirmə mərasiminə başçılıq etmişdir. Bu zaman o, 74 yaş içində idi. XIV yüzil türk tarixçisi ***Şəmsəddin Əflaki*** burada onun Mövlanə ***Cəlaləddin Ruminin*** atası ***Bahaəddin Vələd*** ilə görüşünü belə təsvir etmişdir: «Xəlifə tapşırığını çatdırdıqdan sonra Bahaəddin Vələd şeyxə böyük ehtiram göstərdi... Ona dedi ki, Sührəverdilər həm ətiq şeyləri sevəndilər, həm də bizə yaxın əqrabadılar». Görünür, burada Bağdadın Baş şeyxinin Azərbaycan türkü olmasına işarə edilirdi. ***V.A.Qordlevski*** də Sührəvərdinin kökcə azərbaycanlı olduğunu yazır.



**ŞƏMS TƏBRİZİ.** ***Şəmsəddin Məhəmməd ibn Əli Təbrizi*** haqqında çox az bilgilər qalmışdır. İndiki kitablarda da onun barəsində insafsızcasına az yazılır. O, XIII yüzil Azərbaycanında görkəmli bir şəxsiyyət, mütəfəkkir və şair olmuşdur.

Şəms Təbrizinin bütün həyatı sanki bir gizli kitabdır. Dövlətşah Səmərqəndi onun yüksək zümrədən doğulduğunu, şahzadə olduğunu bildirir. Şəms özü isə «Məqalət» kitabında səbəttoxuyan peşəsi ilə yaşadığını söyləyir. Davranışı da sirlə dolu idi. Tacir geyimlərində, çox zaman üzü örtüklü gəzərmiş. Ancaq təkyələrə, mədrəsələrə deyil, karvansaralara baş vurar, uzun müddət bir yerdə qalmayıb şəhərdən-şəhərə dolaşardı. Bütün bunlar üçün «Şəmsi-Pərəndə», «Kamili Təbrizi» adlanırdı.

Şəms Təbrizi ***Şuttar*** dərviş başçılarından («mürşidi-kamil») sayılırdı. «Məqalət»indən batini görüşlü adam olması bilinməkdədir.

Amma mötədil islam düşüncəsinə yad, bəlkə də yağı kəsilmişdi: ictimai yerlərdə şəriət qanunlarına bilərəkdən saymazyana yanaşar, ibadət, zikr və sitayiş ilə bağlı hər hansı bir davranışı tanımaq belə istəməzdi. O, «təmiz» bir dini inam aşılamayan fəlsəfəni də, elmi də rədd etdiyini söyləyərmiş. Fütüvvə adamı idi, amma sol (radikal) sufi görüşlərini yaymağı üstün tuturdu. Cəlaləddin Ruminin sözündən onun ***qələndəri*** olmasını düşünmək olar.

1244-cü ildə Şəms Təbrizi Konyaya gəlib çıxdı. Burada Cəlaləddin Rumi ilə görüşdü. Bu görüşə kimi günü ibadətdə, mədrəsədə dərs deməkdə, camidə və'z etməkdə keçən Mövlanə, ***Əbdülbağı Gölpınarlıya*** görə, 62 yaşlı «qüdrətli bir sufi», «Duası alınan bir şeyxdi». Şəms Təbrizi ilə görüş Mövlanənin yalnız görüşlərində deyil, bütün varlığında silinməz dəyişiklik yaratdı. Dərsi, və'zi buraxdı, Şəmsin buyruğu ilə musiqiyə, səmavi dərviş rəqsinə qoşuldu: məsnəvilərinə yeni fikir dünyası, duyum coşğunluğu gətirildi. İki fikir ərəninin görüşməsi ilə Mövlanə yalnız söz ustadı olmadı, Mövlanə Mövlanə oldu.

Mövlanənin ona ruhani vurğunluğundan bir çox adamların narazı olduğunu görən Şəms, 1246-cı ilin fevralında Konyanı gizlicə tərk etdi. Mövlanəni ələm götürdü, küskünlüklə bütün Konya cəmiyyətindən üz döndərdi. Axırda Şəmsin yerini öyrənib yenidən Konyaya gətirdi. Günlərini üzərinə Tanrı işığı çökmüş bildiyi ruhani dostunun yanında keçirdi. Rəvayətə görə onların məslək dostluğunu gözü götürməyənlər Şəmsi öldürüb gizli bir quyuya atdılar. Mövlanə ömür boyu bu itkiyə ağrıdı. Özünə «Şəms» təxəllüsü götürərək, bu ad altında ayrıca bir Divan yaratdı.

Şəms Təbrizinin «Məqalət» kitabı ölümündən sonra yaranmışdır. Müridləri onun söz və deyimlərini yazıya alıb bu kitabda toplamışlar.

**FƏZLULLAH NƏİMİ.** Azərbaycanın görkəmli mütəfəkkir və şairi ***Fəzlullah Nəimi Təbrizi əl-Hürufi*** (1339/40-1393/4) hürufiliyin yaradıcısıdır. Bu təlimin nəzəri özülü onun başlıca əsəri olan ***«Cavidani-Kəbir»*** («Cavidannamə» - əbədilik kitabı), ***«Məhəbbətnamə», «Ərşnamə»*** kitabları, şeirlər «Divan»ı ilə qoyulmuşdur.

«Cavidannamə»ni hürufilər dünya xalqlarının Tövrat, İncil, Qur'an kimi müqəddəs kitabları ilə bir sıraya qoyurdular. Onların başlıca fəlsəfi görüşü Allahın təbiətdə, əşyada, özəllikIə insanda təcəssüm etməsi ilə bağlıdır. Onların fikrincə, Allah Fəzlullahın şəxsində birbaşa təcəssüm etmişdi, buna görə də yer üzünə çökmüş haqsızlığı aradan qaldıra biləcək bir varlıq idi. Bu inanışı hürufilər şəhər və kəndlərdə, təkcə Azərbaycan bölgələrində deyil, başqa ölkələrdə də geniş yaymağa çalışırdılar.

Fəzlullah Nəimiyə görə, Allah eyni zamanda söz, kəlam şəklində təcəlli edir. Bu sonuncular hərflər, rəqəmlər vasitəsilə yazılıb ifadə olunduğundan, ərəb-fars əlifbasındakı işarələr də müqəddəs gözəllik və sevgi bildiriciləri sayılmalıdırlar. Dünyanın birliyi (vəhdəti) görüşünü üstün tutan Nəimi ardıcıl panteizm mövqeyində dururdu. Onun fəlsəfəsində insan «göy şərafətinə» ucaldılan, yetkin, gözəl bir ilahi varlıqdır. Bununla o, əslində islama, Qur'ani-Kərimdə verilmiş olan Allah anlayışına qarşı çıxmaqda idi. Bütün bunlara görə Temuri dövləti də, yerli hökmdarlar və üləmələr də onu və bütün hürufiləri amansız təqib edirdilər.

Nəiminin işləyib hazırladığı hürufilik fəlsəfi görüşlərini ***Nəsimi, Əli ül-Əla*** (Azərbaycan), ***Seyid İshaq*** (Türkiyə) və başqa mütəfəkkirlər dəstəkləyib inkişaf etdirmişlər.

**TƏBİƏT VƏ FƏLSƏSİ BİLİKLƏR ŞAMININ SÖNÜK İŞILTISI.** XIV-XV yüzillərdə bu bilikləri yaşadan qaynaqlar sanki qurumaq üzrə idi. Alimlər, hikmət adamları yox deyildi, ancaq əvvəlki yüzillərdəki kimi dünyəvi bilik problemləri üzrə dünyanın diqqətini özünə çəkə biləcək əsərlər yaranmayırdı. İşığının gücü, dənizlər aşıb uzaq ölkələrin, Avropanın bilik adamlarını heyrətə gətirən yeni araşdırmalar artıq yoxa çıxmışdı. Fəlsəfi biliklər isə başlıca olaraq «şərhçilik» səviyyəsinə enmişdi.

XIV yüzildə yaşayıb yaradanlardan biri ***Şəmsəddin Xətibi Xalxali*** idi. Qrammatika, hədis, fiqh məsələlərinə dair bir neçə kitab yazması bəllidir. Qaynaqlarda onu «nəqli və əqli elmlər sahəsində başçı», «çoxlu məşhur əsərlərin müəllifi» adlandıranlar var.

***Seyid Yəhya Bakuvi*** (ölümü: 1464) ***«Şərhi Gülşəni-raz», «Əsrar əttallibin»*** («Həqiqət axtaranların sirləri») adlı fəlsəfi risalələrin, astronomiya və tarixə dair yazıların müəllifidir. Adından göründüyü kimi, birinci risaləsi ***Mahmud Şəbustərinin*** «Gülşəni-raz» əsərinin şərhi üzərində



qurulmuşdur. Seyid Yəhya Bakuvi fəlsəfədə dini-mistik görüşlər təbliğ edirdi. Buna baxmayaraq «Xəlvəti» təxəllüsü daşıyırdı.

***Yusif Ziyəddin Şirvani*** onun yetişdirmələrindən biri idi. «Abad ül-İrşad» («Həqiqət yolunu tapmaq qaydaları»), «Silsilat ül-ərvah» («Ruhların silsiləsi») adlı kitablar yazmışdır. Fəlsəfi görüşlərin mövzusu getdikcə kiçilmədə idi. XV yüzildə yaşamış ***Şükrüllah Şirvani*** tibb elmində ad çıxarmışdı. İstanbulda işləyirdi. Onun «Raudat əl-ulüm» («Elmlər bağçası») kitabının bir əlyazması ***Ayasofya*** muzeyindədir. ***Məhəmməd Əli Tərbiyətin*** bildirdiyinə görə, əsərdə hesab, kosmoqrafiya, astronomiya, məntiq məsələləri başlıca yer tutur.

***Bədrəddin Əhməd Lələvi*** (1436-1507) qrammatikanı, sufilik anlayışlarını Şirvanda, məntiq, fəlsəfə, riyaziyyat və fiqhi Təbrizdə öyrənmişdir. «Əl-Lətaif» («İncəliklər»), «Abad əs-Salikin» («Saliklərin davranış qaydaları») adlı əsərlər yazmışdır.

**TARİXİ BİLİKLƏR.** Təbrizin elmi həyatında baş verən böyük hadisələrdən biri də ***Fəzlullah Rəşidəddinin*** başçılığı ilə «Cami ət-Tavarix» adlı çoxcildlik əsərin yaradılması idi. Farsca yazılmış olan bu sanballı əsər Azərbaycanın keçmişi, əsatiri mifolojisi, xalq yaradıcılığı ilə sıx bağlı olmuş, onlardan yararlanmışdır. Əsərin ikinci kitabına salınmış olan «Tarixi-oğuz və Türkan və hekayəti-Cahangiri» hissəsi (şərti olaraq Rəşidəddin Oğuznaməsi adlanır) Oğuz türkləri tarixinin ilkin çağlarının öyrənilməsi üçün tutarlı qaynaqlardan biri sayılır. Kitabı dünya elminə tanıtmış olan görkəmli şərqşünas ***Zəki Vəlidi Toqanın*** fikrincə, «Rəşidəddində tərcüməsi görülən Oğuznamə, gerçəkdən öncələri türkcə yazılmışdır». Sonra sözünə davam edərək yazır: «Rəşidəddin ona yazılı olaraq təsbit edilib verilən «Tarixi-Oğuzan»i dəyişdirməmiş, yalnız Qur'andan ayətlər, bəzi tarixi qeydlər, İran ədəbiyyatından və Şahnamədən şeirlərlə bəzəmişdir... Hər halda bu Oğuznaməni yazıb təsbit edənlər, ona bənzər Dədə Qorqud kitabını təsbit edən ravilər kibi, indiki Azərbaycanda, ümumiyyətlə Ön Asiyada yaşayan türklər olmuşdur». Bununla yanaşı, «Tarixi-oğuzan» mətnində Azərbaycan tarixinin ana qaynağı olan «Kitabi-Dədəm Qorqud» boylarından bütöv əxlaqi deyimlərin olduğu kimi farsca verilərək Rəşidəddin tərəfindən istifadə edilməsi dünya elminə bəllidir. Rəşidəddin «Oğuznamə»sində «göl kimi qımız sağdırdı, dəpə kimi ət yığdırdı. Atdan ayğır, dəvədən buğra, qoyundan qoç qırdırdı» kimi parçalar birbaşa «Dədəm Qorqud» boylarından alınaraq farscaya çevrilmişdir.

XIV yüzilin ikinci yarısında, XV yüzilin başlanğıcında yaşamış görkəmli alimlərdən biri ***Əbdürrəşid İbn Saleh əl-Bakuvidir.*** Həyatı, yaradıcılığı, hətta doğulduğu və öldüyü yer haqqında yazı qalmamışdır. Onun yazdığı «Kitab təlxis əl-əsar və əcaib əl-malik əl-qəhhar» («Abidələr»

kitabından qisaltmalar və qüdrətli hökmdarın möcüzələri») əsəri dünya tarixi coğrafiyası üzrə başlıca və tutarlı qaynaqlardan biridir. Əsər 1403-1404-cü illərdə ərəbcə yazılmışdır. Adından göründüyü kimi, Zəkəriyyə əl-Qəzvinin «Ölkələrdəki abidələr və (Allahın) qulları haqqında xəbərlər» kitabının qısaltması şəklində düşünülmüşdür. Bakuvinin *Qahirədə* ölməsi ehtimal edilsə də, Azərbaycan haqqında yaxşı bilikləri olmuşdur. Bunun səbəbini özü Bakı haqqında verdiyi arayışda anlatmışdır: «Bura mənim atam, alim, ləyaqətli keyfiyyətlərlə dolu... *Saleh ibn Nurinin* vətənidir». O, Bakı, Təbriz, Mərənd, Sultaniyyə, *Şabran, Naxçıvan* şəhərləri, Xəzər dənizinə çıxan yollar haqqında *Zəkəriyyə əl-Qəzvinidə* olmayan dolğun biliklər verir, yaxud ona dəyərli yeniliklər əlavə edir. Bakılıların yaşayışı, yayda «şəhərlilərin çoxunun» bağlara köçməsi, şəhərə yaxın «Alov püskürən» bir yer olması, burada əsən kəskin küləklər, gündə 200 dəvə yükündən çox neft çıxarılması, onun bir hissəsinin dənizlə ixrac edilməsi haqda yazıları orijinaldır.

«Kitab təlxis əl-əsər...»in bütöv qalmış yalnız bir əlyazması var, *Paris* Milli Kitabxanasında saxlanılır. 1789-cu ildə fransız şərqşünası *De Gin* onu qısaltmalarla fransızcaya çevirib Parisdə çap etmişdir.

XV yüzildə tarixi biliklərə yüksək dəyərləndirici gözlə yanaşırdılar. Uzun Həsən isfahanlı *Əbubəkr Tihraniyə* Ağqoyunlu ulusunun tarixini yazdırmışdır. İkicildlik bu kitabı Ankarada *Necati Luqal* və *Faruk Sumer* çap etmişlər. Uzun Həsən elm adamlarını çox uca tuturdu. O, görkəmli alim *Əli Quşçu* ilə yaxınlıq saxlayırdı. Ona etibar göstərib *Fatehin* yanına elçi göndərmişdi. Uzun Həsənin şəxsi kitabxanasında Mövlanənin məsnəvisi ilə *Aşıq paşanın* türkcə «Qəribnamə»si də vardı.

## 2. BƏDİİ SÖZ SƏNƏTİ. MUSİQİ

**HƏSƏNOĞLU.** XIII yüzil Azərbaycan türkcəsində bədii incilər yaradan bir çağdır. Onlardan zəmanəmizə kimi gəlib çatan ikisinin müəllifi ***Həsənoğludur.*** Doğumu və ölümü, yaşayışı haqda heç bir bilgi qalmamışdır. XV yüzilin tanınmış təzkirəçisi Dövlətşah Səmərqəndlinin yazdığına görə, Həsənoğlunun türkcə yazılmış Divanı olmuş, bu Divan Azərbaycan və Anadolu ədəbi mühitində böyük yer tutmuşdur. *Məhmət F.Körpülü* isə XVI yüzil təzkirələrində «Həsən oğlu türkülərinin» adı çəkildiyini yazmışdır: «Apardı könlümü bir xoş qəmər yüz, canfəza dilbər» misrası ilə başlanan qəzəl türk söz sənətinin bənzəri olmayan örnəklərindən biridir. Nəsimi, Anadolu şairləri *Tacəddin Əhmədi, Əhməd Dac, Özbək şairi Seyf Sərayi,* XVIII yüzil Azərbaycan şairləri *Nabi, Saleh* və başqaları bu qəzələ nəzirələr yazmışlar.



XIII-XIV yüzillərdə Azərbaycan türkcəsi bir ədəbi dil olmaqla artıq möhkəm yer tuturdu. Bu dil, millətlərarası yazıb yaratma və kültür alış-veriş vasitəsinə çevrilmişdi. Hətta xaç ölkələrində ***Bluz Hovanes, Erzinqatsi*** və başqa şairlər bu dildə yazıb yaradırdılar.

**QAZI BÜRHANƏDDİN DİVANI.** Bu baxımdan Həsənoğludan sonra Azərbaycan türkcəsində Divan ədəbiyyatının ilk böyük örnəklərindən birinin Anadoluda yaranması da diqqəti özünə çəkir.

***Qazı Bürhanəddin Əhməd*** 1344-cü ildə Kayseri qazısı ***Şəmsəddin Məhəmmədin*** ailəsində doğulmuşdur. İlk təhsilini evdə atasından almış, 14 yaşından ***Misir*** və ***Şama*** gedib orada təhsilini başa vurmuş, fiqh, məntiq, astronomiya, riyaziyyat və tibb elmlərini öyrənmişdi. 20 yaşında Kayseriyə dönən Bürhanəddin artıq o biri il burada ***Sivas*** qazısı vəzifəsinə yüksəldi (1365). Bu ildən siyasi çəkişmə və savaşlara qatıldı. 70-ci illərin ortalarında Sivas qazısı Kayserinin Qaraman oğullarından geri alınmasında həlledici rol oynadı. 1381-ci ildə Qazı Bürhanəddin vəzir, sonra isə naib oldu. Sivas sultanlıq dövlətini yaradıb, on səkkiz ilə yaxın ona başçılıq etdi. Qazının sultanlığı da kəskin siyasi çəkişmələrdə keçdi. ***Temur*** təhlükəsi yarandıqda o, 1394-cü ildə güclü bir ittifaq yaratdı. Bu ittifaqa iki il əvvəl ***Çorumlu*** çölündəki savaşda əzdiyi Osmanlı sultanı ***I Bayezid***, Məmlük sultanı ***Bərkuk,*** Ağqoyunlu başçısı ***Osman Qarayuluq*** və Qızıl orda xanı ***Toxtamış*** qoşulmuşdu. Toxtamışla Əmir Teymurun 1395-ci il Terek savaşından sonra da Sultan Qazı Bürhanəddin sonuncunun qarşısında əyilmədi. Onun elçisini öldürtdürərək, belə bir dönməz ruhlu tuyuq yazdı:

Əzəldə Haq nə yazılmış isə bolur,
Göz nəni ki, görəcək isə görür.
İki aləmdə Haqa sığınmışuz,
Toxtamış nə ola, ya Axsaq Temur.

Qazı Bürhanəddin 1398-ci ildə keçmiş müttəfiqi ***Osman Qarayuluq*** ilə savaşda öldürülmüşdür.

Şairin 608 səhifəlik türkcə Divanı (ərəb və fars dillərində yazılan çıxılmaqla) 17 min misra tutur. Burada 1319 qəzəl, 108 tuyuq və 20 rübai var. Divanın yalnız bir əlyazması bəllidir. 1393-cü ildə müəllifin sağlığında onun saray xəttatı ***Xəlil ibn Əhmədin*** yazıya aldığı bu Divan 1890-cı ildən Britaniya Muzeyində saxlanılır. Divanın İstanbul və Bakı çapları var. 1895-ci ildə ***P.Melioranski*** (Rusiya), 1900-cü ildə ***H.Gibb*** (İngiltərə) və 1922-ci ildə ***F.Qodsel*** (ABŞ) Divandan çevirmə parçalar çap etmişlər.

Bu günkü ədəbiyyatçılar Qazı Bürhanəddini «Azəri türkcəsinin bütün xüsusiyyətlərini yaşadan», «Tuyuğ ədəbi növünü bizə ilk tanıdan», «Azər-

baycan anadilli şeirinin ilk böyük nümayəndəsi» adlandırırlar. Onun bütün yaradıcılığı xalq ədəbiyyatı üslubuna çox yaxındır. Qəzəlləri əruzda yazılmış qoşma havası daşımaqdadır. Qazı Bürhanəddin «Dədəm Qorqud» boyundan olan əsən (*III boy*: «...əsənmisən, canım Bamsı?») sözünü işlədir; «***dağan aslanlar*** əgər anrar isə» deyimi ilə başlayan tuyuğu Qorqud kitabının VIII boyunda keçən «***Anam adın deir isən Qağan Aslan***» geneoloji arayış ilə yaxşı tanış olduğunu göstərir. Burada şair, ***kağan*** anlayışını bəzi ədəbiyyatçıların düşündüyü kimi, kükrəmiş (qızmış), öfkələnmiş mənasında deyil, kağan rütbəli mifoloji əcdad, Oğuz xanın anası ***Ay Kağan*** kimi düşünməkdədir.

Qazı Bürhanəddin odasına qapanıb ömrünü yalnız söz sənəti inciləri yaratmaqda keçirən ustad deyildi. Onun günləri savaşlarda, diplomatik çatışmalarda ötüşürdü. O, Azərbaycanda olmamışdı, soyağacı da «Azərbaycan sahəsi» ilə bağlı deyildi, ulu babaları ***Xarəzmdən*** gəlmişdilər. Bütün bunlara baxmayaraq belə bir böyük şair Azərbaycan türkcəsində yazıb yaradırdısa, bu türkcənin ədəbi nüfuz sahəsi çox böyük olmalı idi.

Başqa sözlə, ana türkcənin Azərbaycan və Anadolu qollarının bir yerdə yan-yana, çiyin-çiyinə Anadolu dədə yurdunda işlənilməsi bu iki qolun arxasında böyük ədəbi-tarixi ən'ənə durduğunu göstərir.

Azərbaycan və Anadolu sahələrinin ortaq abidələrindən biri də ***Dastani Əhməd Hərami*** adını daşıyır. Ədəbiyyat tarixçilərimiz bu dastanı Azərbaycanın «türkcə yazılmış ilk məsnəvisi» sayırlar. Dastan XIII yüzildə yaranmışdır, müəllifi bəlli deyildir.

**İMADƏDDİN NƏSİMİ.** Azərbaycanın söz sənəti bütün Yaxın və Orta Şərqin fikir dünyası ilə sıx bağlı idi. Sufilik, hürufilik fəlsəfi görüşlərinə bu və ya başqa şəkildə üz tutmayan şair çox az idi. Əksinə, XIII yüzildən sonra bu görüşlər başlıca olaraq ***Əvhədi Marağayi, Mahmud Şəbüstəri, Şah Qasım Ənvar, Fəzlullah Nəimi, İmadəddin Nəsimi, Cahanşah Həqiqi, Gülşəni Bərdəi*** kimi nəzm ustadlarının Divan və toplularında inkişaf edirdi.

XIV yüzil Azərbaycan söz sənətinin zirvəsi haqlı olaraq İmadəddin Nəsiminin yaradıcılığı sayılır. 1369-cu ildə Şamaxıda doğulan Nəsimi (əsl adı Seyid Əli) burada məntiq, riyaziyyat, astronomiya elmlərindən, din tarixi və ilahiyyatdan gözəl təhsil almışdı.

Çox gənc yaşlarından sufi, hürufi görüşlərinə yiyələnməyə başlamış, nüfuzu durmadan böyüyüb genişlənən hürufi təşkilatı ilə əlaqə yaratmışdı. İlk şeirlərini böyük sufi şəhidi ***Həllac Mənsur Hüseynin*** xatirəsi ilə bağlı «Hüseyni», Fəzlullah Nəimi qətlə yetirildikdən sonra isə onun təxəllüsünə uyğun səsləşən «Nəsimi» təxəllüsü ilə yazmışdır. Ustadının öldürülməsindən sonra onun «Vəsiyyətnamə»sini yerinə yetirmək üçün Təbrizə, oradan Anadoluya getmiş, hürufi görüşlərini yaydığı üçün dəfələrlə tutulub zindanlara salınmışdır. Ömrü ***Hələbdə*** sona yetmişdir. Burada ələ keçmiş, Misir sultanı və baş ruhanisinin hökmü ilə diri-diri dərisi soyulmuşdur.



Nəsimi Divanı, onu oxuyan hər kəsə böyük bir insansevərlik baxışı aşılayırdı. İnsan oğlunu «qiblə» adlandıran şair, «məndə sığar iki cahan, mən bu cahana sığmazam», «həqqi-təala adəm oğlu özüdür» yazmaqla onu Allaha bərabər tuturdu.

O, böyük panteist filosof idi. Onun görüşlərində bütün varlığın birliyi (vəhdəti) abstrakt yox, gerçək bir anlayış idi: «Allah, insan, 28 və ya 32 hərf, dörd ünsür (torpaq, su, hava, od)», altı cəhət, Günəş, Ay, Yer, Göy, can, ruh, substansiya, aksidensiya, bütün maddi və mənəvi dünya bu anlayışa yerləşirdi. Allahı mövcudatdan ayrı sanmayan mütəfəkkir «***zühur eylədi cümlə əşyada haqq***» (Tanrı) yazır, «***hər şeydə həqqi-Mütləqi***» görürdü. Bir sözlə, «Allah», «insan», «aləm» anlayışlarını bir anlayış kimi vəhdətdə, eyniyyətdə düşünürdü.

Nəsimi yaradıcılığı Azərbaycan türkcəsini yaradıb yaşadan sütunlardan biridir. Onun dili dolğun və təmizdir. O, çağdaş türkcənin əski türkcədən, öz ulu qaynaqlarından qopub ayrılmasını yolverilməz iş sayırdı. Qəzəl və məsnəvilərində ***əsrük*** (sərxoş), ***uçmağ*** (cənnət), ***sayru*** (xəstə), ***arı*** (təmiz), ***nəsnə*** (şey) kimi onlarca əski türk sözləri işlədirdi. Çünki onları çağdaş nəsil üçün də, sonradan gələcək nəsillər üçün də müqəddəs əbədi imarət bilirdi. Nəsiminin simasında «sufiyanə türk əbədiyyatı» ana türkcənin dövlətçilik və ədəbi çəkisinin artmasında böyük rol oynamışdır.

Nəsimi özündən sonrakı Azərbaycan ədəbiyyatında silinməz iz buraxmış, ***Cahanşah Həqiqi, Şah İsmayıl Xətai, Xəlili, Süruri, Tufeyli*** və başqa şairlərin yaradıcılığına böyük təsir göstərmişdir. Ümumtürk ədəbiyyatında da onun yeri böyükdür. Türk şairi ***Rəfin*** «Bəşarətnamə» əsərində onu özünün ustadı adlandırır. ***Əlişir Nəvai*** «Nəsayim ül-məhəbbət» yazısında Nəsimi yaradıcılığının yüksək dəyərini ayrıca bildirmişdir. Türkmən şairi ***Məhdumqulu*** da onun haqqında yüksək fikir söyləmiş, türkmən şairi ***Əndəlib***, özbək şairi ***Əsiri*** Nəsimiyə poema həsr etmişlər. Nəsimi Divanı bir sıra ölkələrdə çap olunmuşdur.

**BƏDR ŞİRVANİ.** Nəsimi ilə yanaşı Şamaxı söz sənətinin ikinci bir yetişdirməsi ***Bədr Şirvani*** (1387-1450) idi. Ana türkcədə yaratdığı incilərin birində Bədr, Azərbaycan poetik dühasının Milli hüdudlardan çox-çox uzaqlara işıq saçdığını qürurla söyləyirdi: ***Parsi sözüm Xorasan-ü İraqeyn zikridür. Beylə kim, Türki sözüm dutmuşdurur Çinu-Tətar.***

Bu sözlər sadəcə bir öymə, bir bəlağət deyildi. Şairə görə, milli «türki sözümüz» Çin və Volqaboyu dünyasına, «parsi sözümüz» (farsca yazılmış bədii divanlar) isə Xorasanla İraqı-Əcəm və İraqi-Ərəbə yayılmış,

burada özünəlayiq bir yer «dutmuşdur». Çox maraqlıdır ki, farsca yazılmış bir şeirində şair çox düzgün tarixi coğrafiya biliyinə yiyələndiyini göstərərək, «Tatar» yerinə «Bolqar» anlayışı işlədir. Bununla da Volqaboyu türklərinin əski türk Bulqar söykökü üzərində, Edil-Bulqar dövlətinin özülündə yarandığını bildirir: (Dər rahe əşq bəhre qəzəlhaye *torkiyəm* Səd mahru ze *Çin-o Bolğar* amədə) çevirməsi: Sevgi yolunda türkcə qoşduğum qəzəllərin (sorağına) Çin ilə Bolğardan yüz ayüzlü gəlmişdir.

Nəsimi və onun kiçik çağdaşı Bədrin, Şirvan torpağının bu iki böyük yetirməsinin yaradıcılığı bu bölgənin Azərbaycan-türk mədəniyyətinin başlıca beşiklərindən biri olduğunu göstərməkdədir.

**ŞAH QASIM ƏNVAR.** Güney Azərbaycanın ***Sarab*** şəhərində doğulan ***Şah Qasım Ənvar*** (1356-1434) Ərdəbildə, görkəmli alim və təriqət başçısı ***Şeyx Sədrəddinin*** yanında təhsil almışdır. Gəzintilərdə olmuş, Heratda ***Temuri Şahruh Mirzənin*** sarayında yaşayıb ona qulluq etmişdir. Başına müridlər toplayıb Şahruha qarşı siyasi qəsd hazırlaşmış, ancaq üstü açıldığı üçün 1426-cı ildə Səmərqəndə sürğün edilmişdi.

Türkcə, fasca şeirlər Divanı, «Ənis ül-arifeyn» («Ariflərin dostu»), «Məqamət ül-arifeyn» («Ariflərin məqamı») adlı məsnəviləri var. «Işıq şüaları saçan» anlamına gələn təxəllüs daşıyan Qasım Ənvarın dünyagörüşü, sufi, Hürufi, panteizm baxışlarından yaranmışdır. Onun fikrincə, insanla kainat «allah» anlayışı altında vəhdət yaratmaqdadır; Allah insani cizgilər daşıyır, onun kimi qüsurlara da yol verə bilirdi. Dini görüşlərində islamdan üz döndərmək dərəcəsinə çatırdı. Yazırdı ki: «***Qasimiyə baxanda Firəng, Rum, Tatar kafərləri daha yaxşı müsəlmandılar***» (Kafərane Firəngu Rumu Tatər həme əz Qasimi müsəlmane tər). Başqa sözlə, bu məmləkətlərin müsəlman olmayan xalqları Qasimi kimidirlər, kafər olsalar da, Allah adamlarıdırlar.

**CAHANŞAH HƏQİQİ.** Qara Yusufun üçüncü oğlu ***Cahanşah*** (1397-1467) Güney Azərbaycanın ***Xoy*** şəhərində doğulmuşdur. Görkəmli dövlət başçısı və şair idi. «Həqiqi» təxəllüsü ilə yazırdı. Temuri dövlətinin zəifləməsindən istifadə edən Cahanşah Təbriz taxtında yerini bərkitdikdən, az qala bütün İranı ələ keçirdikdən sonra «həqiqətsevən», qabaqcıl bir hökmdar kimi davranırdı. Sarayında şeir məclisləri toplaşardı. Özü də burada türkcə və farsca şeirlərini oxuyardı. Bu şeirlərdən yaranmış olan Divanı İstanbul saray kitabxanasında, sonralar isə Britaniya Muzeyində (indi Britaniya Milli kitabxanasında) qalmışdır. Divanın bu əlyazmasının müəllif tərəfindən yazılması düşünülür. Divanın başqa bir nüsxəsi ***Yerevanda Maştos*** adına qədim əlyazmaları institutunda saxlanılmaqdadır.

Cahanşah şeirləri hürufilik biçimindədir. Nəimi və Nəsiminin təsiri addımbaşı sezilməkdədir: ***Vüsalını bilirəm kam ilən zi Fəzlullah/Məni***



***şikəstə kami vüsal böylə gərək***. Şeirlərində insansevərlik təbliğ edirdi. Doğrudur, insanı Allaha bərabər tutmurdu, amma onu Allahın təcəllisi sayırdı: ***Təcəlla qıldı çamalında vahidi surət./ Bu mənadan sənə məzhəri Allah dedim***.

Cahanşah bir «yumşaq hürufi»çi kimi çıxış edirdi. Avropadakı anlayışlar ilə söylənərsə o, bir «kral islahatçısı» (reformasiya) davranışı bulmuşdu. Şahlar içində birinci və sonuncu «hürufiçi» şairdi. Amma siyasi mübarizə tələb etdikdə bir şair kimi deyil, şah kimi davranırdı. Onun buyruğu ilə Təbrizdə 500 hürufi bir gecədə edam edilmişdi. Bunların arasında Cahanşahın yazılarında adı dönə-dönə çəkilən Fəzulallah Nəiminin qızı da var idi. Şair Həqiqinin sözü ilə Qaraqoyunlu Cahanşahın əməli arasında dərin bir uçurum durmuş idi.

Həqiqi öz şeirlərində, hürufilərdə olduğu kimi, din adamlarını, zahidləri tənqid atəşinə tutur, onların «əhli səfa» olmadığını bildirirdi: ***Zahid bəğeyri zəhd çu bilməz təriqi eşq/Yoxdur səfası, mən ona əhli səfa deməm***. Ruhanilərin onu görən gözü yox idi. Onlar «dinsiz» şaha qarşı qiyamlar qaldıraraq, oğlu ***Pirbudağı*** da ona qarşı qoymağa çalışırdılar.

**MUSİQİ. SƏFİƏDDİN URMƏVİ.** Çağdaş musiqi sənətində çevriliş yaradan XIII yüzildə yaşamış ***Səfiəddin Əbdülmömin Urməvi*** oldu (1230-1294). Təhsilini Urmiya və Bağdad mədrəsələrində alan Urməvi sonuncu Abbasi xəlifəsinin nədimi olmuş, 16 il saray kitabxanasında işləmişdir. Onun bir xəttat kimi üzünü köçürdüyü kitablar gözəl yazılışına görə Şərqdə çox dəyərli sayılırdı.

1252-ci ildə Urməvi «Kitab əl-ədvar» («Musiqi məqamları haqqında kitab») əsərini yazdı. Kitab onun adını dünyaya tanıtdı. Şərq və Azərbaycan musiqisinin səslər sistemi nəzəriyyəsinin özülünü yaratmış oldu. Bu sistemə arxalanan Urməvi öz risalələrində not yazısı ilə 12 başlıca məqam və 6 törəmə məqamın səs düzümünü yaratdı. Həm də bəzi melodiyalardan parçalar verdi. Bir sıra musiqi alətləri (nüzhə, muğni) yaratdı. Urməvi ilk Azərbaycan musiqi bəstəçisi olmaqla yanaşı, gözəl ifaçı idi. Onun böyük istedad və biliklərinə vurulan Hülakü xan, Urməvini öz himayəsinə aldı. O, tezliklə Elxani sarayı vəziri ***Cüveyninin*** oğullarına müəllim qoyuldu, hətta onlardan birinə (Şərəfəddin ***Harun***) «Risaleyi-şərəfiyyə» adlı yazısını ithaf etdi. Ancaq bu da onu moğol çağının şərəfsiz ölümündən qurtarmadı. Böyük musiqiçi alim və bəstəçi tutulub həbsxanaya salındı və burada öldü.

Urməvi yaradıcılığı Şərq-Qərb dünyasında böyük yer tutur. XIII-XV yüzillərdə ***Qütbəddin Şirazi, Məhəmməd Cürcani, Əbdülqadir Marağai, Əbdürrəhman Cami*** onun əsərlərinə şərhlər yazmışlar. Türk musiqiçisi ***Şükrülla Əhmədoğlu*** «Kitab əl-ədvar»ı artıq XV yüzildə türkcəyə

çevirmişdir. ***R. d'Erlanje*** Urməvinin bu kitabını və «Risaleyi şərəfiyyəsi»ni çap etdirdiyi «Ərəb musiqiçisi» kitabının üçüncü cildində fransızca çap etmişdir. Onun əlyazmaları İstanbulda, Londonda (Britaniya muzeyi və ***Oksford*** universiteti kitabxanalarında), ***Nyu-Yorkda*** və başqa yerlərdə saxlanılır.

**ƏBDÜLQADİR MARAĞAİ.** Azərbaycanın görkəmli musiqi nəzəriyyəçisi, bəstəkar və xanəndəsi ***Əbdülqadir Marağai*** (1353-1435) Səfiəddin Urməvinin xələfi olmuş, onun başladığı işi davam etmişdir. Cəlairi hökmdarı ***Şeyx Üveys*** hakimiyyətinin son illərində saray məclislərində bir musiqi bəstəçisi və xanəndə kimi ad çıxarmışdı. O, başlıca əsəri «Came əl-əlhan» («Melodiyalar toplusu») ilə yanaşı, Urməvinin «Kitab əl-ədvar»ına şərh şəklində «Şərh əl-ədvar» risaləsini yazmışdır. Marağai, orta çağ musiqişünaslığında ilk dəfə 12 məqamdan törəmə 24 şöbə sisteminin nəzəri özülünü yaratmışdır. Bir çox musiqi mətnlərini özü yazmış, 20 yeni ritm yaratmışdır. Sonunculardan altısı sonrakı musiqişünaslıqda yüksək dəyərləndirilmişdir. Əbdülqadir Marağai doğma Azərbaycan türkcəsində şeirlər yazırdı.

Avropa alimlərindən ***R.Gizevetter, H.Farmer*** araşdırmalarında Marağainin yaradıcılığına yer vermişlər. Onun əlyazmaları İstanbulda ***Nuri Osmaniyyə***, Londonda ***Oksford***, Hollandiyada ***Leyden*** kitabxanalarında saxlanılmaqdadır.

## 3. TƏTBİQİ SƏNƏTLƏR

**SAXSI.** Azərbaycanın bədii-tətbiqi sənətində saxsı aparıcı yer tuturdu. Saxsı işləmə sənəti tarixi coğrafiya baxımından Təbriz, Gəncə, Mingəçevir, Qəbələ, Bakı şəhərlərində yüksək inkişaf etmişdi. Ancaq başlıca mərkəz kimi Beyləqan şəhəri çıxış edirdi. Saxsı məmulatı həm məişətdə, həm də memarlıqda çox geniş yayılmışdı. Gündəlik yaşayışda, evlərdə, karvansara, mədrəsə və başqa ictimai yerlərdə şirli və şirsiz saxsı qablar işlənirdi. Bəzəkli saxsı qablar içərisində küp, küzə sürahi (ayaqlı), kasa, nimçə, çıraq və başqaları çox idi. Böyük ölçülü küp, bardaq və çıraqlar isə şirsiz (boyaqsız) buraxılırdı.

Təbii, saxsı sənətinin yüksək zirvəsi şirli və boyalı saxsı ilə qazanılmışdı. Başqa ölkələrdə olduğu kimi, saxsını isti-soyuğa davamlı etmək üçün onun üstü şüşəyəbənzər şəffaf maye (şir) ilə örtülürdü. Ancaq hər hansı saxsı qab və ya başqa məmulat üzərinə şir çəkməmişdən ona boya ilə bəzək və ornamentlər vurulur, şəkillər çəkilirdi. Buna *şiraltı boya* deyilirdi. Şiraltı boya birbaşa gil qabın üzərində çəkilir, sonra şirlə örtülərək



(şüşə mayesinə batırılaraq) istənilən ölçüdə bərkimək üçün odda qızdırılırdı. Şiraltı boyalar (yaşıl, göy, qara, bənövşəyi) tərkibinə və keyfiyyətinə görə yüksək istiliyə davamlı, şir isə açıq olmalı idi. Yoxsa onun altından boyalı bəzək rəsmləri, ornamentlər yaxşı görünməzdi. Böyük ustadlar şirin özü üçün elə açıq rəng seçirdilər ki, şiraltı boyalı bəzəklər yeni bir rəng çalarları almış olurdu. Şiraltı boya vurmaqla yüksək bədii sənət əsərləri yaranırdı. Bir Beyləqan nimçəsinin üstündə gənc zadəgan oğlanın şəkli verilmişdir. Onun əynində yaşıl əba, başında tac var, gözəl bir at minmişdir. Atın tərkində bəbir çəkilməsi oğlanın ova çıxdığını göstərir.

Şirüstü boya isə nisbətən az yayılmışdı, çünki bədii tərtibatın başlıca göstəricisi olan boyalı rəsmlərin uzun illər qalmasını təmin edə bilmirdi.

Azərbaycan şəhərlərində evlərin çoxu bişmiş kərpicdən tikilirdi. Bu evlər kaşılarla bəzədilmişdi. Yerli kobalt filizinin çoxluğu firuzəvi kaşı istehsalına geniş yol açmışdı. Şəhərlərdəki bir çox evlər, məscid, türbə və hamamlar üçün işlədilmiş abı, göy, firuzəyi kaşıların ölməz nümunələri günlərimizə kimi gəlib çıxmışdır: ***Pirsaat çayı*** üzərindəki ***Pirhüseyn xanəgahı*** (XIII-XV yüzillə;), ***Bərdə türbəsi***, Təbriz ***Göy məscidi*** və başqaları. Bu abidələr içərisində *Pirhüseyn xanəgahı* yüksək və zəngin bədii tərtibatı baxımından başqalarından seçilir. Tikilinin bədii bəzəyi başlıca olaraq dördkünc kaşılardan, kiçik səkkizbucaq ulduzlardan, xaçabənzər rəsmlərdən ibarət idi. Bunların çoxu zaman-zaman sökülüb aparılmış olduğundan indii ***Sankt-Peterburq Ermitajında, Gürcüstan*** incəsənət muzeyində və Bakının ***Nizami adına*** Ədəbiyyat muzeyində saxlanılır. Gül, çiçək rəsmli kaşıların üzərində nəsx ilə Qur'andan götürülmüş ayətlər, Xaqani Şirvani və Mövlanə Cəlaləddin Rumi şeirlərindən parçalar yazılmışdır. 1465-ci ildə ***Nemətulla Bəvvab oğlunun*** tikdiyi Təbriz Göy məscidi də kaşı işinin gözəl yadigarı sayılır. Kaşı bəzəklərin elə bil göy boyalar dənizinə hopdurması tikilinin tarixi adını vermişdir. Göy məscidə xalq arasında «İslam Firuzəsi» də deyilirdi. Onu Qaraqoyunlu Cahanşahın qızı ***Saliyə bəyim*** tikdirmişdir. Deyilənə görə şahın arvadı ***Canbəyim xatun*** bu tikilidə iştirak etmişdir.

**OYMALAR, QABARTMALAR.** Tətbiqi sənətdə daş və gəc üzərində oyma işi geniş yer tuturdu. Həndəsi ornamentlərlə bəzədilmiş daş oymalar sırasında ***Cuğa*** kəndi yaxınlığındakı ***Gülüstan türbəsinin***, Bakı ***Şirvanşahlar sarayında*** qazıntı ilə üzə çıxarılmış pəncərə çərçivəsinin, bu sarayda saxlanılan ***Aliyə xatun*** sənduqəsinin adlarını çəkmək olar. Bu abidələr XIII-XV yüzillərə aiddir.

Nəbati ornamentlə bəzədilmiş daş oyma və qabartmaların ən böyük örnəyi, dəniz güzgüsünün enməsi ilə üzə çıxan ***Bayıl*** qəsrinin bəzəkləridir. Son 45 ildə Xəzərdən 700-dən çox daş təbəqələri tapılmışdır. Bu

memarlıq abidəsi XIII yüzilə düşür. Qabartmalarda memar ***Əbdürrəşid oğlu Zeynəddin Şirvaninin*** adı və bir sıra adlar oxunulmuşdur.

Bayıl daşları üzərində yazılarla birlikdə çoxlu insan və heyvan rəsmləri var. Bu rəsmlər bir sıra hallarda yazı hərflərinin hissəciyi şəklindədir. Ola bilsin dərin oyma ustası və ya memar bununla hürufi görüşlərinin gizli təbliğinə yol vermək istəmişdir. Burada on ikiyə kimi insan başı çəkilmiş oyma bəllidir. Azərbaycan alimləri bu oymalar üzərindəki baş təsvirlərinin, bir növ portret şəkli, yəni ayrı-ayrı tarixi şəxslərin olduğunu düşünməkdədirlər. Belə təsvirlərdən birinin üzərində ***Şirvanşah Fəriburzun*** adının, xaricən gürcü qadına bənzəri olan başqa birisinin üzərində isə «gürcü» sözünün oxunması bunu göstərir. Bəlli olduğu kimi, şirvanşahlar gürcülər ilə qohumluğa girmişdilər: ***III Menuçöhr*** gürcü çan ***Qurucu Davidin*** böyük qızı ***Tamar*** ilə, ***I Əhsitan*** isə çar ***III Davidin*** bacısı qızı ilə evlənmişdi.

Daş qabartmalardan birində elə bil kişnəməkdə olan bir at başı çəkilmişdir. Bir sıra qabartmalarda at ayağı, yüyən keçirilmiş at ağzı təsviri qalmışdır, atlardan birinin döşü üstündə qalxan var. Ayrı-ayrı hissəciklərdən bütöv pannonu bərpa etmək mümkün olmuşdur. Görünür belə pannolar qalanın mərkəzində quraşdırılmışdı. Deməli, Bayıl daşları yalnız yazı üçün deyil, şəhərin memarlıq tərtibatı üçün də işlənmişdir.

**BƏDİİ METAL.** XIII-XV yüzillərdə bədii-tətbiqi sənətin yüksək inkişaf yolunda olan sahələrindən biri metal işi idi. Metaldan çoxçeşidli silahlar, ev avadanlığı (çıraq, manqal və s.), bədii sənət nümunələri hazırlanırdı. Təbriz, Gəncə, Şamaxı, Naxçıvan metal işi mərkəzləri idi.

Şirvanda 1206-cı ildə tuncdan tökülmüş lüləyin bədii metal işinin gözəl nümunəsidir. Üzərindəki yazıların birində ustanın adı verilmişdir: ***«Məhəmməd oğlu Əli»***. Bu, əslində su qabı deyil, bitkin bir bədii sənət əsəridir. Çünki lüləyin heyvan heykəlləri toplusudur; burada bir inək, onun üstündə qabın qulpu yerinə montaj edilib bərkidilmiş aslan (inəyin qabaq süysün yerini ağzına alıb gəmirməkdədir), inəyi əmməkdə olan balası (buzov) təsvir edilmişdir. Abidənin üstünə gümüşdən bəzək və naxışlar vurulmuş, onların arasında insan, heyvan, quş rəsmləri, inəyin böyrü üzərində isə nərd oyunu, ov, yemə-içmə səhnələri çəkilmişdir. Usta Əlinin əlindən çıxan bu əsər, eyni yüzildə yaranmış olan Diyarbəkr ***Ulu Camesinin*** portalındakı qabartmaya məzmunca çox yaxındır. Bu misilsiz sənət əsərinə də Sankt Peterburq Ermitajı sahib durmuşdur.

Milli bədii metal işinin ən gözəl örnəkləri sırasında Londonda ***Viktoriya Albert*** muzeyində olan kassa və yenə Ermitajda saxlanılan tunc tiyan (qazan) böyük yer tuturlar. Bunlardan birincisini 1319-cu ildə usta ***Yusif Təbrizi***, ikincisini yenə təbrizli usta ***Əbdüləziz Şərəfəddin oğlu*** yaratmışlar. İkinci abidənin uzun bir tarixi vardır. Onun çəkisi 2 ton, diametri



2,45 metrə yaxındır, tarixdə bəlli olan ən böyük tunc tiyanlardan biridir. Qazanın bədii tərtibatı ölçüsünə tam uyğun gəlir. Üzərindəki yazıda bildirilir ki, onu Axsaq Temurun buyruğu ilə usta ***Əbdüləziz*** Təbrizdə 1399-cu ildə ***Qoca Əhməd Yasəvi*** məscidi üçün tökmüşdür. Üz tərəfdən qazan gözəl nəbati naxışlarla bəzədilmişdir. Naxışlar arasında yazılan «Dünya hökmdarı allahdır» sözləri 22 dəfə təkrar olunur. Çöl çevrəsi boyu gül bənzərli 10 qulpu var. Təbrizdən Türküstana aparılan bu qazan 500 ildən çox ***Yası*** (indiki ***Qazaxıstanın Türküstan***) şəhərində adı çəkilən məscidə qulluq etdikdən sonra Sankt-Peterburqa aparılmış, Rusiya Dövlət Ermitajına mal edilmişdir.

Yüksək bədii dəyəri olan metal örnəklərdən biri də ***Amerikada Hararinin*** şəxsi toplusunda saxlanan XV yüzil bürünc üsturlabıdır. O çağın yüksək texniki cihazı olmaqla yanaşı, çox gözəl və zərif sənət işidir. Üstündəki bəzəkli naxışlar Bakı Şirvanşahlar sarayı, ən çox Divanxana qapısı üzərindəki nəbati naxışları xatırladır. Görünür, ***Sultan Bayezidə*** bağışlamaq üçün yaradılmışdı. Çünki üstürlabın arxasında belə bir yazı var: «Sabit və səyyarə ulduzlarının uzaqlığı, yaxınlığı muşahidə ilə asanlaşa bilər, əgər əzəmətli Sultan Bayezidin nəzəri olsa. Elmi və əməli Şükrüallah ***Müxlis Şirvani***, sənə 891...» (1486-cı il). Sonuncu ad üsturlabı yaradan ustadındır.

**TOXUCULUQ.** Azərbaycanın orta çağlarda ipək ölkəsi kimi tanınması bəllidir. İpək işinin mərkəzi şəhərlər idi. Gəncədə zərlə işlənmiş atlas, diba, ipək parçalar, Təbrizdə yenə atlas, kişilər üçün əba, Beyləqanda ipək parça, Ərdəbildə qara zərif parça (Camə), ***Səlmas*** və ***Xoyda*** yenə diba, nazik kətan geyim, Bərdədə ipək istehsal edilirdi. Moğol basqınından gəncəlilər özlərini gözəl ipək parçalar verməklə qurtara bilmişdilər. Avropa müsafirləri heyrətlə yazırdılar: «Burada ipək parçalar o qələr çoxdur ki, yolüstü kiçik mehmanxanalardakı çarpayılar belə ipək yorğanlarla döşənilib» (***Marko Polo***); «bu ölkədə hətta atların çulları da ipəkdəndir» (***İosafat Barbaro*** və ***Katerino Zeno***).

Dünya muzeylərində olan nümunələr Azərbaycan toxuculuq işinin yüksək bədii səviyyədə durduğunu göstərir. ***Brunsviq*** şəhərində Hersoq ***Antuan Ulrix*** adına muzeydə saxlanılan parçanın üzərində bir-birinin ardınca tovuz quşları şəkli verilmişdir. Bu şəkillər qızıl, gümüş saplarla toxunmuşdur. Uzaq keçmişdə günəş, od tanrısının rəmzi kimi tanınan tovuz quşu türk xalqlarının başlıca toxuma və tikmə ornamenti olmuşdur (sonralar buta şəkli almışdır). «İskəndərnamə» poemasında Nizami Gəncəvi ***Nüşabənin*** Bərdə sarayında ipək parçalar üzərində tovuzquşu rəsmlərindən, onun türklər arasında yayılmasından söz açır.

***İtaliyanın Verona*** şəhərində ***Qastello Vekionun*** şəxsi toplusunda, Bakıda Azərbaycan tarixi muzeyində orta çağ Azərbaycan toxuculuq sənətinin gözəl örnəkləri saxlanılmaqdadır.

**XALÇAÇILIQ.** Xalça toxuculuğu Azərbaycan milli sənətinin başlıca qollarından biridir. Bədii tərtibat, texnoloji-tipoloji ayrılıqlar baxımından Azərbaycan xalçaçılığı dörd bölgəni birləşdirməkdədir; ***Quba-Şirvan, Gəncə-Qazax, Qarabağ*** və ***Təbriz***. Bu bölgələrdə xalça ustaları rəng çalarlarının seçilməsi işində əvəzsiz «gözəyarı» bacarıq qazanmışdılar. Xalq içində al qırmızıya «alışdım-yandım» deyilməsi, «ağ ilə yaşıl xoş yaraşır», «qırmızı sarı çığırma barı», «ağ ilə sarı, it yasarı» kimi deyimlərin işlənməsi bunu göstərir.

Artıq XIV-XV yüzillərdən başlayaraq Azərbaycan xalçaları alış-veriş yolu ilə dünya bazarlarına çıxdı. Çıxması ilə də təkcə kübar evlərə yol açmadı, Avropa boya sənətinə mövzu bitkinliyi verən bədii amillərdən birinə çevrildi. Sənətşünas ***Rasim Əfəndinin*** araşdırmasına görə, ***Holland*** rəssamı ***Hans Memlinqin*** (1433-1494) «Məryəm öz körpəsilə» boya əsərində Şirvan xalçası*, ***venesiyalı Karlo Krivellonun*** (1430-1493) «Müjdə» əsərində Gəncə-Qazax xalçası, başqa bir italiyalı ***Dominiko de Bortalonun*** «Findlinqin toyu» əsərində Qazax xalçası təsvir edilmişdir.

Berlin İncəsənət muzeyinin Şərq bölməsində «Şirvan» adlandırılan bir xalça ilə tamaşaçı iki dəfə üz-üzə gəlir. Birinci halda xalçanın özünü, ikincidə isə ***Hans Holbeyn*** adlı rəssamın «Məryəm körpəsi ilə» tablosunda eyni xalçanın təsvirini görür. Yerliyi tünd qırmızı olan bu XV yüzil xalçasını qızılı həndəsi naxışlar bəzəyir. Bu muzeydə daha bir XV yüzil xalçamız saxlanmaqdadır. Bu, ən qədim xalçalardan sayılan «Qazax» xalçasıdır. Günlərimizə kimi gəlib çıxan ən «yaşlı» xalça isə İstanbulun Türk və İslam muzeyindəki XIII-XIV yüzil «Şirvan» xalçasıdır.

## 4. MEMARLIQ

**ŞƏHƏRSALMA İŞİ.** Hər bir ölkənin tarixində olduğu kimi, Azərbaycan memarlığının da başlıca beşiyi şəhərlər idi. XIII yüzil savaşlarından sonra şəhər memarlığının dirçəlişi yavaş gedirdi. Yalnız Elxanlı səltənətinə paytaxt olmuş Təbrizdə tikinti işləri çox idi. Burada artıq XIV yüzilin başlanğıcından memarlıq məktəbi yüksəliş halına keçmişdi. Yüz il sonra

* Rasim Əfəndinin «Azərbaycan dekorativ-tətbiqi sənətləri» kitabında (s. 55) Hans Memlinqin adı çəkilən boyasında Məryəmin oturduğu kürsü üzərində sərilən bu xalça çox aydın görünür.



Təbriz tikililəri Miranşah tərəfindən «barbarcasına» (***Klavixo***) dağıntıya uğradılsa da, şəhər dünyanın ən böyük paytaxtlarından biri olaraq qalırdı.

Memarlıq tikinti texnikası baxımından quzey və güney bölgələrdə elə bir köklü ayrılıq gözə çarpmırdı. Ancaq Quzey Azərbaycanın böyük tikintilərində yerli əhəngdaşı, güneydə isə standart ölçülü (20x20x5 sm) bişmiş kərpic başlıca yer tuturdu. Burada mühüm yeniliklər var idi: bişmiş kərpicin üz tərəfinə şirə çəkməklə həm tikilinin görünüşünə bədii gözəllik verilir, həm də yağış, külək və günəşin təsirindən kərpicin ömrü uzadılmış olurdu. Artıq XIII-XIV yüzillərdə monumental tikililərin demək olar hamısının ön divarına göy, mavi, qırmızı kərpicdən üz çəkilirdi. Belə tikilini başlamazdan qabaq layihə tutulur, tikiləcək evin modeli kağız üzərində cızılırdı. Tikiliyə memarlıq yaraşığı vermək üçün standart ünsürlər geniş yer tutmağa başladı. Memar ilə ustanın üz hörgüsündə həndəsi xətlərlə ikirəngli kərpic işlətməsi tikiliyə görünməmiş gözəllik verirdi. Tikililərin üst örtüyü üçün ağac çox az işlənirdi, tağlı və ya gumbəzvari örtük geniş yer tuturdu. Bu işdə Azərbaycan memarları böyük uğur qazanmışdılar. Sultaniyə şəhərində Elxan ***Olcaytu Xudabəndənin*** nəhəng (uzunluğu 20 m, diametri 25,5 m) ellipsvari gumbəzi ***Florensiyada Santa Mariya del Fiore*** kilsəsinin məşhur gunbəzindən qabaq yaradılmışdı.

Şəhərsalma işi ölkənin baş şəhəri Təbrizdə çox geniş şəkil almışdı. Həmdullah Qəzviniyə görə Təbriz şəhər divarlarının uzunluğu 4,5 fərsəxə (17-18 km) çatırdı. Elxani paytaxtı olduğu vaxtdan buraya çoxdu əhali «axışıb toplandı», şəhərin kənarında «saysız evlər tikildi». Qazan xan şəhəri yeni hasarla əhatə etdi. Bu iş tam başa çatmasa da, yeni hasarın uzunluğu 25 min addım idi.

Ancaq tezliklə şəhərə bu yeni divarlar da azlıq etdi. Buna görə şəhərin dışarısında dörd böyük şəhərcik yarandı. Bunlardan birincisini Təbrizin günbatan səmtində «Şam» adlı yerdə ***Arqun*** xan saldırmış, möhtəşəm binalar tikdirmişdi. Bu şəhərcik ***«Arquniyə»*** adlanırdı. İkincisi oradan azacıq güneydə, geniş bir sahədə Qazan xan tərəfindən salındığı üçün ***«Qazaniyə», «Şam Qazan»*** («Şənb Qazan») adı daşıyırdı. Üçüncüsü yuxarıda adı çəkilən «***Rəb'i-Rəşidi***» idi, Dar üş-şəfa burada yerləşirdi. Dördüncü şəhərcik «***Əbvab əl-birr***» adlanırdı.

Həmdullah Qəzvini yazır: «...Şəhərdən aşağıda Şam adlanan yerdə, Qazan hasarının dışarısında Qazan xan bir şəhərcik saldı, özü üçün bir axirət yeri seçərək orada bütün İranda bərabəri olmayan möhtəşəm tikili ucaltdı. Şəhərin yuxarısında ***Vilyənkuh*** adlanan yerdə isə vəzir Səid Xacə Rəşidəddin, Qazan hasarı içərisində başqa bir şəhərcik salıb ona ***Rəb'i-Rəşidi*** adı verdi, burada geniş və möhtəşəm evlər tikdirdi; onun oğlu vəzir Qiyasəddin... isə bu şəhərciyi daha da genişləndirdi».

Sonuncu iki şəhərciyin hər birində onlarca böyük tikililər ucaldılmışdı. Rəb'i-Rəşidi haqda yuxarıda danışılmışdır. Qazaniyədə isə Qazan xan məqbərəsi, Cümə məscidi, Şafei və Hənəfi mədrəsələri, rəsədxana, Dar üş-şəfa, kitabxana, Qanun evi (Beyt ül-qanun), xanəgah, seyidlər evi, mütəvəlli evi, yaşayış binaları yerləşirdi.

XV yüzildə Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin paytaxtı olan Təbriz böyüyüb genişlənməkdə davam edirdi. Rəşidəddinə görə Təbrizdə 30 min ev (orta hesabla 150 min adam) var idi. Onun qala divarlarının uzunluğu artıq 25-27 km-ə çatırdı. Yeni tikilən «Həştbehişt» sarayı ona yeni gözəllik verirdi. Hələ Uzun Həsənin tikdirdiyi böyük və əzəmətli sarayı (***İosafat Barbaronu*** o, 1474-cü ildə burada qəbul etmişdi) Sultan Yaqub bir sıra gözəl tikililər hesabına genişləndirilib böyütdü. «Həştbehişt» adını da o verdi. Venesiya tacirlərindən birinin adsız yazısında bildirilir ki, şah sarayından başqa burada kitabxana, məscid, 1000 xəstə üçün nəzərdə tutulmuş xəstəxana açılmış, at çapmaq üçün cıdır və park salınmışdı.

XV yüzil milli memarlığının şah əsəri Bakıda ***Şirvanşah Sarayı*** tikililəridir. Onların içərisində ilkin tikili ikimərtəbəli Sarayın özüdür. Yuxarı həyətdə hündür yerdə ucaldılan Saray 1420, ona bitişik Divanxana isə 1450-ci illərə düşür. Bu iki tikilini bir-birindən ayıran 30 il içərisində aşağı həyətdəki türbə və minarəli Şah məscidi tikilmişdir.

Şirvanşah Sarayı tikililəri içərisində Divanxana görkəmli yer tutur. Divanxana Milli memarlıq irsimizin incilərindən biridir. Quruluşca bitkin, memarlıq düşünülüşü baxımından oynaq və işıqlı bir tikilidir. Əhəngdaşının yonqusu və hörgüsü də, Daş üzərində oyma bəzəklər (giriş baştağının yuxarısında olan nəbati bəzəklər və başqaları) də, sütunlu tağların və həyət divarlarının özləri də böyük sənətkarlıqla, yüksək usta düşüncəsi ilə yerinə yetirilmişdir.

Divanxanaya çıxan qapalı girişdə belə bir yazı vurulmuşdur: «Allah barışıq evinə çağırır və istədiyi kimsəni düz yola yönəldir. Xeyirxahlıq edənlər xeyir görəcəklər, özü də artıqlaması ilə. Nə toz, nə də şərəfsizlik onların üzünü örtəcəkdir, onların yeri cənnət olacaq, burada əbədi qalacaqlar». Bu yazı və bir sıra başqa göstəricilər üzrə Divanxananın Dövlət Şurası (Divanı), şahın qəbul verdiyi yer olması güman edilir.

Şirvanşah sarayının tikililərinin, görünür, qabaqcadan tutulmuş layihəsi olmuşdur. Bütövlükdə Şirvanşah sarayını tikən memarın adı bəlli olmasa da, 1435-ci il türbəsinin baştağındakı medalyonlarda memar ***Əlinin*** adı çəkilir.

Azərbaycanın tikinti ustaları bir sıra ölkələrdə şöhrət qazanmışdılar. Memarlardan ***Hacı Əli Hafiz Təbrizi Heratda*** gözəl bir mədrəsə, ***Əhməd Şəmsəddin Təbrizi Məşhəddə Məcnunşah*** məscidini tikmişlər. Temurun tarixçisi ***Şərəfəddin Yezdiyə*** görə, Səmərqənd ***Bibixanım*** məscidinin



bəzək işlərini «əsas etibarilə Azərbaycandan gətirilmiş həkkaklar görürdülər».

**QORUNMA TİKİLİLƏRİ.** Moğol çağında feodal qəsrləri yaşayış yerindən daha çox sığnacaq vəzifəsi daşıyırdı. ***Ramana, Mərdəkan, Nardaran, Bakı*** qəsrlərinin tipoloji baxımdan bir-birlərinə oxşaması bununla bağlı olmalıdır. Mütəxəssislərin fikrincə, XIII-XIV yüzillərin ***Abşeron qəsrləri*** bədii görünüşünə, memarlıq quruluşuna görə yeni deyildilər, əvvəlki yüzillərin eyni tikililəri ilə bir kökdən yaranmışlar. Ayrılıq yalnız bunda idi: ötən yüzillərin qəsrləri başlıca olaraq dənizdən gözlənilən varyaq-rus basqınlarına, sonrakı qəsrlər isə daha çox moğolların qurudan edilən basqınlarına qarşı tikilirdi.

Abşeron qorunma tikililəri Avropa feodal qəsrlərindən seçilirdi. Bu tikililər böyük deyildi, içərisində yaşayış, xidmət evləri yox idi; yalnız yerli feodala (ailəsi ilə birlikdə), ondan asılı olan yaxın adamlara sığınacaq ola bilirdi.

Nardaran qəsri düzgün olmayan dördbucaq daş hasar əhatəsinə alınmışdı. Hasar 5 m hündürlüyündədir. Qəsrin özü (donjon) 12 m hündürlüyündə qapalı dəyirmi tikilidir. İçəridən qəsr üç mərtəbəlidir, mərtəbələrdən bir-birinə dolama daş pillələr qalxır. Birinci pillə xeyli hündürdə yerləşir, yerdən oraya ayaq qoyub qalxmaq asan deyil. İşıq düşməsi və havanın təmizlənməsi üçün yan divardan bacalar qoyulmuşdur. Bu bacalar çöldən çox kiçik, içəridən genişdir. İkinci mərtəbədə məişət tullantıları üçün axar qoyulmuşdur. Birinci mərtəbədə yerdə daş hörgü ilə bərkidilmiş quyu ağzı görünür. Quyu yeraltı kəhrizlə bağlı olmuşdur. Üstündəki yazıda tikilinin tarixi 1301-ci ildir.

Mərdəkan qəsri dənizdən 2,5 km aralıdır. Qəsrin özünün 22 m hündürlüyü dənizə və quru yollarına nəzarət etmək üçün gözəl imkan yaradır. Möhkəm, düzgün dördbucaqşəkilli hasarla qorunurdu. Hasarın küncləri yarımdairəvi bürclərlə bərkidilmişdir. Onunla qəsr arasındakı həyətdə daşla hörülmüş quyular və su hovuzları var. Quyular quruluşca armudvarı şəkildədir: dibi enlidir, yuxarıya qalxdıqca eni armud boğazı kimi daralıb kiçilir. Qəsrin donjonu beşqatlıdır. Qatların birindən o birisinə divara yapışıq dolama pillələr qalxır. Birinci qatda ilkin pilə ilə torpaq döşəmə arasında 2 m boş məsafə var. Qatlarda bayıra axarı olan deşiklər, işıq və hava təmizlənməsi üçün (çöldən içəriyə gəldikcə böyüyən) bacalar qoyulmuşdur. Qəsr XIV yüzilin ikinci yarısında tikilmişdir.

**XATİRƏ TİKİLİLƏRİ. MƏQBƏRƏLƏR, TÜRBƏLƏR.** Xatirə tikililəri Güney Azərbaycanda nisbətən çox qalmışdır. Ancaq quruluş, memarlıq texnikası baxımından güney və quzey bölgələrin bu çeşidli abidələri bir-

birinə olduqca yaxındır. Bir çox hallarda onların arasında «söykök» bağlılığı var.

XIV yüzil məqbərələrinin çoxu qabaqlar olduğu kimi, qülləvari görünüşdə idi. Amma şirli kərpic və rəngli mozaikanın işlədilməsi qanun şəkli almışdı. Ornamentlər mürəkkəb şəkilə keçmiş, aydın həndəsi cizgiləri nəbati rəsmlər sıxışdırmış, həndəsi düzbucaqları xatırladan kufi yazısı nəsx xəttinin oynaq ilgəkləri ilə əvəz edilmişdi.

Orta çağ Azərbaycan məqbərələrinin ən zəriflərindən biri Qarabağlar kəndindədir. Kənd Zəngəzur dağlarının güney ətəyində yerləşir. Adını bir zaman ***İrəvan-Naxçıvan*** yolu üstündə yerləşən şəhərdən almışdır. ***Evliya Çələbi*** «Səyahətnamə»sində bu, 10 min evi, 40 minarəli və 30 minarəsiz məscidi olan iri şəhər kimi yad edilir.

Qarabağlar məqbərəsi XIV əsrin 20-30-cu illərində tikulmişdir. Hörgüsü incə zövqlə düşünülmüşdür: Firuzəyi şirli və şirsiz kərpiclər bir-birini əvəz edərək, sanki dikinə qoyulmuş dördbucaqlı yaratmaqdadır. Memar tikiliyə «qırçınlı» bir görünüş vermişdir. Məqbərənin iki minarəsi, dörd tərəfdən dördkünc qapısı, hər qapının isə gözəl oyma bəzəkləri olan qövsvarı tağları vardır. Məqbərənin üzərində onun tikilməsi barədə buyruğu və «...***Cahan Kudi Xatun***» adını içərisinə alan nəsx yazı qalmışdır. Bu adı daşıyan qadın Hülakü xanın arvadı olmuşdur.

Qarabağlar məqbərəsinin özümlü cizgilərini Azərbaycan memarları başqa yerlərdə də işlətmişlər. Təbrizli ***Bədrəddin*** 1273/74-cü ildə Konyada Cəlaləddin Rumi məqbərəsinin, yenə təbrizli ***Əhməd şah*** 1356/57-ci ildə Bağdadda ***Mircaniyə*** məscidi günbəzinin tikilməsində bu cizgilərdən istifadə etmişlər.

Quzey Azərbaycanda Qarabağlar tikilisinə quruluşca ən yaxını Bərdə məqbərəsidir. Bu məqbərə 1322-ci ildə tikilmişdir. Hörgüsündə dik qoyulmuş firuzeyi şirli və yastısına hamarlanmış şirsiz kərpiclər işlənmişdir. Burda da dörd səmtin hər birinə bir qapı açılır. Quzey qapının tağı quruluş və tənasüblük baxımından bütün Azərbaycan memarlığında çox gözəl sayılır.

Bərdə məqbərəsi üzərində ustad «imza atmışdır». Quzey qapı tacının üzərində memarın (əl-bənna) Naxçıvanlı ***Əyyub oğlu Əhməd*** olduğu yazılmışdır. Bu yazı Həmdullah Qəzvininin arayışı ilə səsləşərək göstərir ki, moğol savaşlarından sonra da Naxçıvan bir sənət, ticarət və tikinti mərkəzi kimi öz yerini itirməmişdi. Gerçəkdən XII yüzildə Naxçıvan ***Möminə Xatun*** və Marağa ***Günbədi-Kəbud*** məqbərələri arasında «heyrətamiz üslub yaxınlığını» ***A.Qodar, K.Lemon-Qaupt*** və başqa Avropa mütəxəssisləri ayrıca qeyd etmişlər. Ancaq savaşlardan sonrakı çağda da Naxçıvan memarlıq məktəbi öz təsir gücünü saxlamışdı. Buna görə də XIII-XIV yüzillərdə Xoyda, Salmasda, Ərdəbildə tikilmiş və günlərimizə kimi qalmış olan məqbərələrin Qarabağlar və Bərdə məqbərələrinə eyni ölçüdə bənzəyişi var. Konyada Mövlanə məqbərəsinin, Bağdadda məscid gümbəzinin həmin memarlıq məktəbinə «yaxınlığı» da tutarlı göstəricilərdir.



Qarabağlar və Bərdə məqbərələri timsalında bu qəbildən olan abidələrimizin mühüm yaradıcılıq məsələləri ortaya çıxır. Birinci məqbərənin səthi üzərində yüz dəfədən çox «La ilahə illəllah», ikincisinin üzərində isə 200 dəfə «Allah» sözü yazılıb. Amma sadəcə yazılmayıb. Elə yazılıb ki, bu müqəddəs kəlmələrin stilizə edilmiş bütün kufi hərfləri firuzeyi şirli kərpiclərdən hörülüb, şirsiz bəyaz kərpiclər isə yazını ancaq haşiyələyib. Bununla yanaşı bu sözlərin yazılışı hər iki məqbərə üzərində məxsusi bir naxış toplusuna çevrilmişdir. Bu yalnız bədii deyil, həm də həndəsi naxış toplusudur. Abidəni dolaşıb nə qədər baxsan da, yazıların haradan başlanıb harada qurtardığını sezmək olmur. Aşağıdan yazılar kəsilmir, sanki yerin təkinə keçir. Abidənin səthi dairə (silindr) şəklində olduğundan burada da yazılar kəsilmir, bütün dairə boyu təkrar olunur. Yuxarıdan isə abidə naxışları üzərindən qayçı ilə kəsilmiş parça təsiri bağışlayır. Bir sözlə, memarın yazılı naxışları sonsuzdur və bu sonsuzluq ilə o, «Allah» anlayışının sonsuz böyüklüyünü bildirmək üçün orijinal bir yol seçmişdir.

Ərdəbildə ***Şeyx Səfiəddin*** məqbərəsi də quruluşuna, üst yazılı naxışlarının düzülüşünə görə bu qəbildən olan tikilidir.

Aşağı Veysəlli, Babı (Şeyx Babalı), ***Əhmədalılar*** (Füzuli), ***Xaçın, Dərbatlı*** (Ağdam), ***Məmmədbəyli*** (Zəngilan), ***Dəmirçilər*** (Qubadlı), ***Buzovna*** (Bakı) və bir sıra başqa kəndlərdə XIII-XIV yüzillərdə məqbərə və ya türbə şəklində tikilmiş abidələr saxlanılmaqdadır. XV yüzildə ***Əhlətdə Bayandar*** (Bayandır) məqbərəsi, Bakıda (Şirvanşahlar sarayının həyətində) yuxarıda adı çəkilən alim Seyid Yəhya Bakuvinin türbəsi, Şamaxı yaxınlığında ***Diri Baba***, Ağsuda ***Şeyx Dursun Padar***, Qəbələnin ***Həzra*** kəndində ***Şeyx Bədrəddin*** türbələri yarandı.

XIII-XV yüzillərin xatirə tikililəri arasında Təbrizdə ***Qazaniyə*** (Şam Qazan) məqbərəsi və ondan bir neçə il sonra Sultaniyədə ucaldılan ***Olcaytu Xudabəndə*** məqbərəsi ayrıca yer tutur. Şam Qazan məqbərəsi bənzəri olmayan gözəlliyi ilə seçilirdi. Özülü 1297-ci ildə qoyulan bu məqbərənin tikintisinə tanınmış memar və mühəndislər çağırılmışdı. «Dünyada belə gözəl və ali tikilinin» olmadığını söyləyən tarixçi ***Vəssaf*** yazırdı: «Bu binanın tikilməsi üçün qonşu ölkələrin mahir mühəndisləri, bacarıqlı və təcrübəli ustaları Təbrizə gətirilmişdi. Onun özülü dəmir ilə bərkidilib yer səthi ilə bərabərləşdirildikdən sonra divarları hörülmüşdür. Divarın eni 33 kərpic, hər bir kərpicin ağırlığı 10 batman idi. Orada gündə 14000 adam işləyirdi».

Əslində belə tikililəri məqbərə deyil, xatirə və ya «əbədi sükunət sarayı» adlandırmaq düzgün olardı. Çünki ölçüsünə, memarlıq quruluşuna görə onların hər biri mürəkkəb tikili toplusudur.

**CAMELƏR, MƏSCİDLƏR.** Xatirə tikililərinə baxanda came və məscidlərdən bu günə kimi gəlib çıxanı çox azdır. XIII yüzildə onların dağıdılıb yox edilməsi geniş şəkil almışdı. Qazan xanın din islahatı vəziyyəti kökündən dəyişdirdi. İndi də bütxanələrin, zərdüşti məbədlərin, kilsə və sinaqoqların dağıdılması başlandı. İslam dua evlərinin tikilməsi dövlət siyasəti səviyyəsinə ucaldı. Rəşidəddin yazırdı: «Hökmdar (Qazan xan – *Red.*) səltənət fərmanı verib buyurmuşdu ki, kənd yerlərindəki bütün mülklərdə məscid və hamam tikilsin, tikməyənlər isə suçlu və günaha batmış sayılacaqlar».

Bununla bağlı olaraq XIV yüzilin başlanğıcında memarlıq baxımından çox dəyərli olan came (böyük yığıncaqlar, toplantılar keçirilən dua evləri) və cümə məscidləri tikildi. Bunların içində ən görkəmlisi 1311-ci ildə Təbrizin Mahad-Məhin məhəlləsində ucaldılmış ***Əlişah*** camesi idi. Hülakü elxanlarından Olcaytu və Əbu Səidin yanında vəzir yerini tutan ***Tacəddin Əlişah Təbrizi*** sənətinə görə görkəmli memar idi. Onun tikdirdiyi camenin hündürlüyü 25 m, tağının ucalığı 80 arşın idi. Ölçüsünün böyüklüyünə görə Dəməşqdə Əməvi camesinə bənzəyirdi. Tikintidə çoxlu mərmər və kaşı işlənmişdi. Keçici (konyuktur) siyasi düşünüşlə bağlı olaraq tikinti çox tələsik aparıldığından, sonralar tavanı ilə tağı uçub tökülmüşdü. Divarlarının qalınlığı 3 m olan bu abidəni təbrizlilər çoxdan bəri «Ərk qalası» adlandırırlar. Yaranışının ilk illərindən bu tikili əcnəbilərin qavrayışına güclü təsir etməkdə idi.

Onlardan biri Məmlük sultanı ***əl-Məlik ən-Nasirin*** 1322-ci ildə Təbrizə göndərdiyi elçiliyin dəvadarı (qulluqçusu) olmuşdur. Yazdığı budur: «O (Əlişah – *Red.*) Təbrizdə cami məscid tikdirmiş, elə bir tikili ucaltmışdır ki, kimsə buna oxşar bir şey tikdirə bilməzdi. O, yaxınlıqda iki heyrətedici hamam da tikdirmişdir ki, (dünyada) bunların tayı yoxdur... Bu məscidi tikdirmək fikrinə gəldikdə o (Əlişah – *Red.*), ata minib memarları da yanına alaraq, onlara Təbrizin «Xarbəndə (Olcaytu Xudabəndə – *Red.*) qapısı» ağzında tikməyi buyurdu; əmr etdi ki, məscidin memarlıq quruluşu, böyüklüyü və hündürlüyü üçün «Xosrov sarayı»* örnək götürülsün, amma ondan 10 dirsək uca və enli olsun. Onun (məscidin – *red.*) ortasında eni 150 dirsək olan dördbucaqlı su hovuzu tikdirdi... Hovuzda 4 qayıq saxlanırdı. Hovuzun bütün (dörd) böyründə əlamut adlanan mərmər vurulmuşdu.

Vəzir memara (məscidin) dörd tərəfinin hər birinə eyvan, bütün eyvanların arasında isə bütöv səkkizbucaqlı palma ağacından iki-iki sütunlar qoydurmuşdur. Onların özülü yəşəm daşından idi. Sütunların hər birinin uzunluğu 12 dirsəkdən çox idi; sütunlar üzərində bir-birinə keçirilmiş və

* Sasanlı şahlarının Mədain sarayı nəzərdə tutulur.



qızıl ilə bəzədilmiş tağlar atılmışdı. Onun (məscidin – *red.*) üzərində iki qüllə ucaldılmışdı. Hər birinin hündürlüyü 70, eni 5 dirsək idi. Bütün pəncərələrinə 200 iri şüşə salınmışdı, hamısına da qızıl və gümüşdən bəzək çəkilmişdi. (Məscidin) dörd qapısından hər biri yaxınlığında o, bazar və dükanlar açdırmışdı. İçərisində qızılı və gümüşü bəzək vurulmuş çıraqlar mis zəncirlərdən asılmışdı».

İkinci əcnəbinin də adı bəlli deyildir. Ancaq bu «adsız» venesiyalı tacirin yazısı da heyrət keçirən bir adamın qavrayışı ilə bağlıdır: «Müsəlmanların ibadət etdiyi (Əlişah camesinin) mehrab tərəfi çox böyükdür, hətta ox atsan, oraya çatmaz. Lakin məscidin bu yeri yarımçıq qalmışdır. Onun yan-yönəsində əla daşdan tikilmiş tağlar vardır, mərmər sütunlar üzərində dayanmışlar. Bu mərmərlər o qədər parlaqdır ki, büllur kimidir. Onun sütunları eyni ölçüdədir. Məscidin üç* qapısı var idi. Qapıların yuxarısı qövsi şəkildədir. Lakin onları mərmərdən deyil, rəngli daşlardan düzəltmişlər».

Yenə XIV yüzilin birinci yarısında tikilən Sultaniyə məscidi memarlıq gözəlliyi baxımından Əlişah camesindən üstün tutulur. Bu tikili də günlərimizə kimi qalmamışdır. Onun haqqında yalnız tarixi qaynaqlardakı yazılar və 1808-ci ildə ***Mişel Fransua Preonun*** çəkdiyi rəsmlər üzrə fikir yürütmək olur.

Belə abidələrdən biri də Bakı cümə məscididir. Bu tikili də bu gün yoxdur. Yalnız əski rəsmlər, bir də ötən (XIX) yüzildə aparılan araşdırma işi onun Əlişah camesi ilə yaxın olduğunu göstərir. Tapılan tikili yazısının parçasında məscidin 1309-1310-cu illərdə əski «Bütxanə» üzərində tikilməsi bildirilir. Bakı cümə məscidinin indi də qalmaqda olan minarəsi sonradan XV yüzildə tikilmişdir və Şirvan memarlıq məktəbində ən gözəl minarələrdən biridir. Minarə yüksəkliyə getdikcə incəlib nazilir, stalaktit şəbəkəli gözəl karniz üzərində yerləşdirilmiş müəzzin «şərəfəsi» (eyvanı) onun bütün quruluşuna böyük bədii bitkinlik verir. Cümə məscidinin minarəsi quruluşca yaxınlıqda olan ***Sınıxqala*** minarəsinə çox yaxındır. Ancaq bu sonuncu kimi Abşeron qorunma qüllələrinə bənzəyişi yoxdur. Sonuncu kimi «bəstə boy» deyildir, yerə «qısılmamışdır». Bütün memarlıq görünüşü zərifdir. Hətta üzərindəki yazıların da «dəsti-xətti» dəyişilmiş, qaba cizgili kufinin yerini bəzəkli nəsx tutmuşdur.

İslamın ilkin çağında tikilən ***Təbriz cümə məscidini*** Ağqoyunlu Sultan Yaqubun anası ***Səlcuqşah Bəyim*** bərpa etdirib abadlaşdırmışdı. Məscidin qibləyə baxan yerində hündür bir gümbəz ucaltdırıb kaşılarla bəzətmişdi. Şəhərin Sahibabad meydanından quzeydə Uzun Həsənin tikdirdiyi ***«Nəsriyyə»*** məscidinin divarlarına qızılı və firuzəyi kaşılar çəkilmiş-

* Məmlük elçisinin dolğun yazısında qapıların dörd olması bildirilir. Böyük məqbərələrdə də dörd qapı qoyulurdu.

di. Məscidin sağında və solunda Qoşa minarə ucalırdı. Hər iki məscidi, yuxarıda dönə-dönə adı çəkilən Göy Məscidlə birlikdə 1780-ci il Təbriz zəlzələsi uçurub dağıtdı.

***Dərbənd cümə məscidi*** günlərimizə kimi gəlib çıxmışdır. Bütün Güney Qafqazda ən böyük cümə məscidlərindən biridir. Görünür, İslamdan qabaqkı xristian məbədi üzərində tikilmiş, hələ VII yüzildə məscidə çevrilmişdir. Zəlzələdən sonra 1368-1369-cu illərdə yenidən tikilib bugünkü görkəmini almışdır. Üzərindəki yazı «ustad bənna» (memar) ***Tacəddinin*** Bakıdan olduğunu bildirir.

**MÜLKİ TİKİLİLƏR.** Mülki tikililərdən də günlərimizə kimi gəlib çıxanı çox azdır. Əslində tikililərin özündən deyil, qalığından danışmaq olar.

Orta çağ mülki tikililəri içərisində karvansaralar böyük yer tuturdu. Qazan xan islahatlarından sonra ölkədə qanun-qayda yaradılmış, ticarət yollarının qorunması ilə bağlı təkcə karvansaraların deyil, elçi və tamğaçı evlərinin, bazar və hamamların sayı durmadan çoxalırdı. Rəşidəddinə görə Qazan xan «buyruq vermişdi ki, Təbrizin hər yeni qapısı yanında içəridə, qapıya yaxın yerdə karvansara, bazar və hamam, karxana, yük heyvanlarını saxlamaq yeri tikilsin və (buyurmuşdu ki) ayrı-ayrı ölkələrdən gələn tüccar toplusu gəldiyi səmt üçün ayrılmış qapıdan girib müvafiq karvansarada yer tutsun, tamğaçı isə (orada) onların malını qəbul etsin. Sonra hamama gedib şəhərə girsinlər, yerlərini (işlərini – *red.*) ayırd edib, istəyirlərsə, çıxıb getsinlər. Eləcə də, Təbrizdən tacirlər bir ölkəyə yola çıxdıqda, tamğaçı tayları yoxlayıb onları yola salana kimi orada yer tutub qalsınlar».

Ticari işlərin, ölkələr və şəhərlər arasında gediş-gəlişin yaxşı getməsi karvansaralardan çox asılı idi. Bu tikililərin başlıca işi ticarət karvanlarının istirahətini, onların gətirdiyi malların qorunmasını təmin etmək idi. Tikilinin quruluşu bir qayda olaraq bu tələbata tabe edilirdi. İçəridə qonaq hücrələri, yük anbarları və yük heyvanları yemlənə və saxlana biləcək həyəti olan karvansaranı dışarıdan güclü hasar qoruyurdu. Bəzən hasarın eni 1 m-ə çatırdı. Karvansara qapısı qala qapılarına bənzəyirdi. Belə karvansaralardan ikisi elxan ***Əbu Səidin*** hakimiyyəti illərində tikilmişdi. Onlardan biri ***Sultaniyə-Təbriz*** yolunda (Miyanədən 8 ağac aralı), ikincisi isə ***Təbriz-Culfa*** yolu üzərində (Mərənd şəhərindən 13 km quzeydə) yerləşirdi. Hər ikisinin indiyə kimi qalan tağlı qapı hörgüləri dəyərli memarlıq əsərləridir.

XIII-XV yüzillərdən yalnız bir karvansara dağılıb uçmamış, bütövlüyünü saxlamışdır. Bu, ***İ.Lerx, İ.Berezin, B.Dorn*** kimi ötən (XIX) yüzilin şərqşünasları tərəfindən adı çəkilən ***Sanqaçal*** karvansarasıdır. Üzərindəki yazıda deyilir: «Bu (imarət) binasının tikilməsi barədə yüksək sultan



Xəlilullah buyruq vermişdir, qoy onun hökmranlığı əbədi uzansın. Səkkiz yüz qırx üçüncü ildə» (1439/40).

Quzey Azərbaycan ticarət yolları üzərində o zaman tikilmiş ***Beşbarmaq, Pirəkəşkül*** (Bakı-Şamaxı yolunda), ***Hilmili*** karvansaralırının yalnız uçuğu qalmışdır. Onları, əslində bir memarlıq məktəbi yaratmışdır. Pirəkəşkül tikilisi Sanqaçal karvansarasının kiçildilmiş şəklidir. Himili karvansarası isə bu məktəbin ən mükəmməl yaratmasıdır.

Kəhriz su qurğuları ilə bağlı olan ovdanlar mülkü tikililərin dəyərli bir qolu olmuşdur. Bakıda Şirvanşahlar sarayının ovdanı Azərbaycanda ən böyük su qaynaqlarından biri idi. Ovdanın gözünə bir pilləkanla enmək, başqa birisi ilə qalxmaq olurdu. Ovdan suyunu yeraltı kəhrizlər şəbəkəsindən alırdı. Yalnız Şirvanşah sarayı deyil, şəhərin yaxın məhlələri də suyu buradan işlədirdi.

Yalnız yaşayış yerlərinin deyil, karvansaraların da öz ovdan tikilisi olurdu. Sanqaçal karvansarasının girişi qarşısında bir-birindən eyni məsafə ilə ayrılan iki ovdanın olması bunu göstərir. Ovdan tikdirməyən karvansaraların quyusu, ya da bulağı olurdu.

Azərbaycanda qədim hamam tikilisinin qalığı XI yüzilə aiddir və Beyləqan şəhərində tapılmışdır. Sonrakı yüzillərdə hamam tikintisi şəhərlərdə çox geniş yayılmışdı. Hamamlar görünüşcə sadə, texniki baxımdan isə çox mürəkkəb quruluşda tikilirdi. İstinin gücünü itirməmək üçün (bəzən su axarının yerləşməsindən asılı olaraq) tikilinin yarıdan çoxu yerin təkində yerləşirdi. Yer üzərində yalnız hamam tikilisinin günbəzi gözə dəyirdi. Qazanxana tikilinin altında quraşdırılır, istilik isə döşəmənin altından və divarlardan keçən saxsı borular və ya gil lülələr ilə verilirdi. Quruluş baxımından Orta çağ Azərbaycan hamamları qədim Şərq və Ellin çağı ən'ənəsinə arxalanırdı. Onların sırasında 1388-ci ildə memar ***Quştəsif Musa oğlunun*** Nardaran kəndində tikdiyi hamamın, XV yüzildə Şirvanşahlar sarayındakı, Nardaranda ***Xan bağındakı*** və Mərdəkandakı ***Kazımbəy*** hamamlarının adlarını çəkmək olar.

*ON İKİNCİ BÖLÜM*

# SƏFƏVİ İMPERATORLUĞU (XVI-XVII YÜZİLLƏR)

## I. SƏFƏVİLƏRİN HAKİMİYYƏTƏ GƏLMƏSİNDƏ SOSİAL-SİYASİ BİDƏTÇİLİYİN YERİ. QIZILBAŞ TƏLİMİ

**ŞEYX HEYDƏR OĞULLARININ GİZLƏDİLMƏSİ.** Səfəvi şeyxlərinin hicri 900-cü (1494/95) ildə üçüncü çıxışı ***Rüstəm Ağqoyunlunun*** sərkərdəsi ***Eybə Sultan*** tərəfindən boğulduqdan sonra Şeyx Heydərin qalan iki oğlu: ***İsmayıl*** və ***İbrahim Ərdəbildə*** gizlədilmişdi. Səfəvilərin nüfuzunun geniş yayılmasından qorxan Rüstəm padşah Səfəvilərin bütün soyunu qılıncdan keçirib yox etmək istəyirdi. Ancaq Eybə Sultanın bütün axtarışları uğursuz oldu. Şeyx Heydərin yeddi yaşlı ortancıl oğlu İsmayılın və daha kiçik yaşlı İbrahimin Ərdəbildə ələ keçməməsində dörd igid xanımın: oğlanların anası ***Aləmşah Bəyim***, bibisi (Şeyx Güneydin qızı) ***Paşa xatun*** ilə yanaşı, ***Xancan*** və ***Uba Cərrah*** adlı yerli qadınların böyük rolu olmuşdur. Sonra Sultan Əlinin sağ qalan qazilərindən ***Rüstəm bəy Qaramanlu, Mənsur bəy Qıpçaq, Hüseyn bəy Lələ, Dədə bəy*** və başqa sufi başçıları oğlanları Ərdəbil yaxınlığında Savalan dağında gizlətdilər. Sultan Əli-Eybə Sultan döyüşündən sağ qalıb burada gizlənməkdə olan 80 sufi də onlara qoşuldu. Buradan isə uşaqları Rüstəm bəy Qaramanlının, ***Məhəmmədi bəy Türkmanın*** (Paşa Xatunun əri idi) və onun qardaşı ***Əhmədi bəy Türkmanın*** müşayiəti ilə Rəşt şəhərinə qaçırdılar, oradan da Lahıcan kəndinə keçirib Gilan valisi ***Biyəpiş Karkiya Mirzə Əlinin*** sarayında gizlətdilər. Sonuncu oğlanlara qayğı ilə yanaşdı; İsmayıl və onun qardaşına fars və ərəb dillərini öyrətmək üçün ***Şəmsəddin Lahici*** adlı birisini müəllim tutdu. Rüstəm padşahın göndərdiyi casusların və atlı dəstələrin axtarışlarına baxmayaraq, Şeyx Heydərin oğlanları altı il Lahicanda qala bildilər. Bu axtarışlar zamanı Uba Cərrah tutulub Təbriz bazar meydanında dara çəkildi. Məhəmmədi bəy və Əhmədi bəy qardaşlarının bütün əmlakı müsadirə edildi. Mirzə Əli Karkiya Təbrizdən dönə-dönə qorxuducu şah fərmanları aldı.

**KİÇİK İSMAYILIN İLK SİYASİ ADDIMI.** 1499-cu ilin avqustunda 13 yaşlı İsmayıl Lahıcanı tərk etdi. Onu ***Hüseyn bəy Lələ Şamlu, Əbdüləli bəy Dədə*** (Dədəbəy), ***Xadim bəy Xüləfa,*** Rüstəm bəy Qaramanlu, Bayram bəy Qaramanlu, ***İlyas bəy Xınıslu*** və ***Qarapiri bəy Qacar*** müşayiət edirdilər. Rumdan, Qaracadağdan, Əhərdən gələn qızılbaş müridləri də ona qoşuldular. Xalxala yaxınlaşarkən İsmayılın başına toplaşan qızılbaş döyüşçülərinin sayı artıq 1500-ə çatırdı. Burada («Şami-Qızılüzən» adlanan torpaqlarda) çoxdan bəri yaşayan şamlu tayfasından da müridlər gəldi. İsmayıl öz atlıları ilə birlikdə qışı Xəzər dənizi sahilində - Astara yaxınlığındakı Ərcivanda keçirdi. Bu, Güney Azərbaycan vilayətlərindən Səfəvi tərəfdarlarının gəlib çatmasına imkan verdi. 1500-cü ilin yazında Anadoludakı tərəfdarlarına qovuşmaq üçün buradan Ərzincana getmək qərara alındı. Ancaq qızılbaşlar oraya birbaşa deyil, Arazın quzeyinə keçərək Göyçə mahalından yollandılar. ***Ərəşlu*** və ***Zülqədərlu*** tayfaları da qızılbaşlara qoşuldu. Göyçə dağlarında Cahanşah Qaraqoyunlunun nəvəsi ***Sultan Hüseyn Baranlu*** da qızılbaşlara qoşulmaq istədiyini bildirdi. Onun sui-qəsd hazırlığında olduğunu bilən qızılbaş bəyləri çevik tərpəndilər. Gecə ilə oranı tərk edib Çuxursədə (İrəvan), oradan da ***Şürəkələ (Şirəküvəz)*** getdilər. Burada ***Qaraca İlyas Bayburtlu*** Anadolu Qızılbaşlarının böyük bir dəstəsi ilə İsmayılın tərəfinə keçdi. Ərzincana çatdıqdan sonra İsmayılın başına toplaşan döyüşçü müridlərin sayı çoxaldı. Payız aylarında İsmayılın artıq 70000 qazisi var idi. Bunlar ***Ustaclu, Şamlu, Rumlu, Təkəlü, Afşar, Qacar, Varsaq*** tayfalarından olan gənclər, habelə «Qaradağ (Qaracadağ) sufiləri» idilər.

**FƏRRUX YASƏRƏ QARŞI YÜRÜŞ.** Qızılbaş bəyləri arasında hərəkatın sonrakı gedişi barədə bir fikir yox idi. Onların bir qismi Ərzincanda daha çox qoşun yığıb yazda Ağqoyunlular üzərinə yürüş keçirməyi, başqaları isə Gürcüstan üzərinə cihad keçirməyi təklif edirdilər. Ancaq qışı gözləmədən dərhal Şirvanşah Fərrux Yasərə qarşı yürüş keçirmək istəyənlər üstünlük qazandılar. Kiçik İsmayıl da, ona yaxın olan qızılbaş bəyləri də Şirvanşahları onun babasının, atasının və böyük qardaşının şəhid düşməsində suçlu sayırdılar. Siyasi qüvvələrin vəziyyəti yürüş üçün çox əlverişli idi. Ağqoyunlu dövləti ötən il iki yerə parçalanmışdı. Şirvan dövləti meydanda tək qalmışdı. Şiəlik, onun bayrağı altında çıxış edən qızılbaş hərəkatı təkcə Azərbaycanda deyil, Anadoluda, Əcəm və Ərəb İraqında yayılıb güclənmiş, bu məmləkətlərdə yaşayan türk toplumları Səfəvi sülaləsinə güc və qoşun verən bir arxaya çevrilmişdilər.

Yürüşə 14 yaşlı İsmayıl özü başçılıq edirdi. O, Kür çayının «Qoyun ölümü» adlanan çətin keçidini at üzərində ilkin olaraq özü keçdi. Bununla tərəddüd edənləri ruhlandırdı. Qızılbaş qoşununun yaxınlaşmasını eşidən Şirvanşah Fərrux Yasər Qəbələdə əsgəri hazırlıq işinə girişdi. Şamaxı şəhərində yaşayan əhalinin çoxu paytaxtı tərk edib dağlarda gizləndi. Qızıl-

başlar şəhərdə qalmayıb ***Gülüstan*** və ***Buğurd*** qalaları arasında qoşunla irəliləyən Fərrux Yasər ilə döyüşə girdilər. Onlar Şirvanşaha Gülüstan qalasına girməyə macal verməyib ***Cabanı*** yaxınlığında onun qoşununu darmadağın etdilər. Buğurd qalasına qaçıb gizlənmək istəyən Fərrux Yasər qızılbaş döyüşçülərinin əlinə keçib öldürüldü. Bir neçə gün İsmayıl döyüş yerində qaldı. Şamaxıya qayıtdıqda şəhər varlıları onu qarşılamağa çıxdı, tabeçilik bildirdilər. Qızılbaşlar öldürülənlərin başlarından «minarə» qurdular. Çoxlu qənimət ələ keçirildi.

**BAKININ TUTULMASI.** Muğanda ***Mahmudabad*** yaxınlığındakı qışlağa gedən İsmayıl, Məhəmmədbəy Ustaclu və İlyas bəy Xınıslu başda olmaqla Bakını tutmaq üçün qoşun göndərdi. Şirvanşahların ikinci paytaxtı sayılan Bakı qalası qızılbaş elçilərinə xərac verməkdən boyun qaçırdı. Güclü qala divarları, ərzaq və döyüş ehtiyatı yaratmaq üçün qabaqcadan hazırlıq görülməsi Bakı əhalisinin müqavimət əzmini artırmışdı. Bakıda güclü müqavimət göstərilməsi İsmayılı başlıca qoşunla birlikdə 1501-ci ilin yazında Muğandan buraya yürüş etməyə məcbur etdi. O, qalanın qapıları, divar və bürcləri ilə tanış olub danışıq yolu ilə qalanın təslim edilməsinə çalışdı. Bakı qalabəyisi Fərrux Yasərin oğlu Qazı bəy idi. O, əlçatmaz bağ qalalarını döyüşlərə hazırlamaq üçün göndərildiyindən qalada deyildi. Bakının müdafiəsinə onun arvadı (tarixi qaynaqlarda adı çəkilmir) başçılıq edirdi. Döyüşçü ər təbiətli bu qadın, İsmayılın əmri ilə qalanın təslim olunması barədə tələb gətirən elçini öldürtdü. Onu bu işdən çəkindirməyə çalışan Bakı darğası ***Əbdülfərrah*** bəyi edam etdirdi.

Bakıda kəskin müqavimətlə bağlı İsmayıl, artıq bacarıqlı bir qoşun başçısı kimi tanınan, Xədim bəy Xüləfanı birbaşa oraya göndərməli oldu. Sonra özü də gəlib qoşun başçılarına qoşuldu. Onun əmri ilə qala bürclərinin birinin altından böyük lağım atıldı. Bürc uçsa da, yerli döyüşçülər uçqun yerinə yun keçələr təpib daha üç gün vuruşdular. Qızılbaşlar onların müqavimətini qırıb şəhərə girdilər. Bakı əyanlarından 70 nəfəri əllərində Qur'an İsmayılın ayağına gəlib şəhər üçün aman istədilər. Yalnız bundan sonra qətl və qarətə son qoyulması haqda əmr verildi. Qala qapıları bayırda dayanan qızılbaş qoşununun üzünə açıldı. Bütün şəhər əhalisinə aman verməsi ilə bağlı İsmayıl 1000 tümən «qan bahası» ödəməyi tələb etdi. Şirvanşahların Bakı sarayında saxlanılan zəngin xəzinəsini Xədim bəy ələ keçirib İsmayıla təhvil verdi. Burada olan qızılların, daş-qaşların, başqa pulların, qiymətli geyim və əşyaların bir hissəsi qızılbaş döyüşçülərinə paylanıldı. Fərrux Yasərin atası Şirvanşah I Xəlilüllahın sümükləri Xədim bəyin əmri ilə qəbirdən çıxarılıb yandırıldı. Çünki o, İsmayılın atası Şeyx Heydərin qatili sayılırdı. Saraya yaxın yerdə dəfn olunmuş başqa Şirvan hökmdarlarının qəbirləri də yox edildi.



**«İSTƏYİNİZ NƏDİR – AZƏRBAYCAN, YOXSA GÜLÜSTAN QALASI?»** Qızılbaşlar buradan ikinci başlıca müqavimət yuvası olan Gülüstan qalasını mühasirə edənlərin köməyinə yollandılar. Silahı yerə qoymayan Şirvan dövlət qoşunları burada idi. Bu qala ərzaq və yaraq ehtiyatı baxımından çox güclü olduğu üçün qızılbaşlar mühasirəni dayandırmalı oldular. Bunun başlıca səbəbi Təbrizdə oturan Ağqoyunlu padşahı Əlvənd Mirzənin böyük qoşunla quzeyə doğru yürüşə çıxması olmuşdu. İsmayılın başçılığı ilə qızılbaş döyüşçülərinin Quzey Azərbaycandakı əsgəri uğurları Ağqoyunlu sarayını qorxuya salmışdı. Ağqoyunlu yürüşünün başlanması barədə xəbər yetişən kimi İsmayıl, «səltənətin dirəkləri» sayılan beş qoşun başçısını (Hüseyn bəy Lələ, Qarapiri bəy Qacar, Məhəmməd bəy Ustaclu, Xədim bəy Xüləfə və Əbdi bəy Şamlu) Hərbi müşavirəyə çağırdı. Orta çağ Azərbaycan tarixçiləri Həsən bəy Rumlu və İskəndər bəy Münşinin yazdıqlarına görə, İsmayıl onlara üz tutub soruşdu: «Sizin istəyiniz nədir? Azərbaycan, yoxsa Gülüstan qalası?» Onlar söylədilər: «İstədiyimiz Azərbaycandır». Bu cavab Şirvandakı əməliyyatların dayandırılması və Ağqoyunlu yürüşünün qarşısının alınması barədə hökm verilməsi demək idi. Belə də oldu. Şirvanın tabe edilməsi işini yarımçıq buraxan qızılbaş sərkərdələri qoşunla Güneyə, Araz çayı üzərinə yollandılar. Çünki Ağqoyunlu qoşunlarının Şirvanda hələ çökdürülməmiş qalalarda yerləşmiş əsgəri qüvvələrlə birləşməsinə yol vermək olmazdı.

Sürətlə Kürü keçən qızılbaş qoşunu, 30 minlik bir ordu ilə Naxçıvana çatmış Əlvənd Mirzəyə qarşı yönəldi. Sonuncunun qızılbaşların çayı keçməsinə mane olmaq, habelə Gəncə, Qarabağ, Ərdəbil və Qaradağ bölgələrini İsmayıla qarşı ayağa qaldırmaq cəhdi baş tutmadı. Qızılbaşların irəliləməsini dayandırmaq üçün mosullu ***Osman bəyin*** tapşırığı ilə göndərilən Ağqoyunlu dəstəsi qızılbaş avanqardı tərəfindən əzildi. Qızılbaşlar itki vermədən Naxçıvan yaxınlığında Arazın quzeyinə keçdilər. Bu zaman İsmayılın buyruğu altında 16 minlik qoşun vardı (bunun 9 mini üç gürcü knyazının göndərdiyi döyüşçülər idi). Həlledici döyüş 1501-ci ilin yayında Şərur düzündə oldu. Ağqoyunlu ordusu basıldı. Əlvənd Mirzənin dörd sərkərdəsi döyüşdə öldürüldü. Ağır itkilərin təsiri altında ordu qaçıb dağıldı. Əlvənd Mirzə özü də Ərzincana qaçdı. Böyük qənimət ədə keçirən qızılbaşlar Təbrizə yol aldılar. İsmayıl təntənə ilə Təbrizə girib özünü şah elan etdi. Azərbaycan Səfəvi dövləti yaranıb rəsmən bərqərar oldu.

**QIZILBAŞLIĞIN BAŞ İDEOLOQU QIZILBAŞ İŞİNİ NECƏ DƏYƏRLƏNDİRİRDİ?** Hökmdar olduğu dövlətin yaranmasını ***Şah İsmayıl***, Səfəvi xanədanının son yüz illik çarpışmasının, bütünlüklə qızılbaş təlim və amalının təntənəsi kimi qələmə verirdi. 1500-1501-ci illərin döyüş uğurları ilə səsləşən qəsidələrindən birində o, Qızılbaş dövlətinin de-fakto yaranışını «Sahibi Zaman vədəsinin» yetişməsi, qızılbaşların və Səfəvi evinin

öz yağıları Mərvanilər (Əməvilər) üzərində «ulu məhşər divanı» qurması adlandırır. («İrişdi vədəsi Sahibi zamanun, ulu divan quruldu, məhşər oldu. Olar ki, tabei mərvənilərdür, sürüldü çıxdı dindən əbdər oldı»). «Adım Şah İsmayıl, haqqın səriyəm» misrası ilə başlanan başqa bir ilk yazısında Şirvanşah Fərrux Yasərin üzərində qələbəsinə işarə edərək yazırdı ki, «Atamun qanın aldım Yeziddən, yəqin bilgil ki, nəqd Heydəriyəm». O, təbliği yazılarında bildirirdi ki, sadəcə şahlığa çıxmamış, «haqqın səri» olmaqla 12 imamın biri kimi («On iki imamın mən dəxi biriyəm») zühur etmişdir. Bu zühur etməsi ilə də Əli ilahilik təlimi, «dövrani-Əli» qələbə çalmışdır. Çeşidli sufilik inanc və göyüşlərini özümlü bir qəlibdə birləşdirməyə çalışan Şah İsmayıl Xətai anlatmağa çalışırdı ki, tanrı Əlinin timsalında və onun özünün, Xətainin varlığında yeni imam ortaya gəlmişdir. Onun taxta çıxması ilə guya Mehdi örtüyü üzündən götürüb zühur etmiş, «Şahənşah» (Şah Əli), «dovrani Əli» yetişərək yer üzündə haqq və ədaləti bərqərar etmişdir («Sultan sərapərdə zühur oldu, çu Mehdi faş oldu şahənşah ki, dövrani Əlidür»). Bütün bunlarla yanaşı öz şəxsiyyətini ilahiləşdirmək üçün o, «rəfiqim ğazilər» adlandırdığı təriqət döyüçülərinə, bütün orduya və xalqına üz tutub: «Allah-allah deyin ğazilər/Gazilər deyin Şah mənəm» inanışına çağırırdı. Bu inanışa qarşı çıxmaq onun təbliği yazılarında dinsizlik, kafirlik və düşmənçilikdir. «Əzəldən Şah bizim sultanımızdır, pirimiz, mürşidimiz, xanımızdır; Xətai der məvali-sirri Heydər. Şahi-həqq bilməyən düşmanımızdır». Belə yazılar dövlətin və təriqət başçısının ruhani nüfuzundan daha çox onun dünyəvi hökmranlığına müqəddəslik möhürü vurmağa yönəlmiş idi.

Beləliklə, Səfəvi dövlətinin qurulması bir sıra daxili amillər, o sıradan Azərbaycan və bəzi qonşu ölkələri bürümüş qızılbaş hərəkatı sayəsində yaranmışdı. Bu hərəkət ideoloji baxımdan, sahlıq uğrunda mübarizə üçün uyğunlaşdırılmış şiəlik bid'ətçiliyi bayrağı altında çıxış etmişdi. Həmin hərəkatın siyasi uğur qazanması ilə yaranmış olan Azərbaycan Səfəvi dövlətini, onun qurucusu Şah İsmayıl mehdilik («Sahibi zaman») səltənəti kimi qələmə verirdi.

## QIZILBAŞ HƏRƏKATINA DİRƏK VƏ ARXA OLAN ZÜMRƏLƏR.

Qızılbaş hərəkatının uğurları və bunun nəticəsi olaraq Səfəvi dövlətinin yaranması geniş sosial özül üzərində qazanılmışdı. Burada yalnız Ərdəbil şeyxlərinin yürüşləri üçün müridlər verən və adları yuxarıda çəkilən «qızılbaş tayfaları» (Ustaclu, Afşar, Rumlu və s.) nəzərdə tutulmur. Sözün əsl mənasında bu dövlətin yaranmasına arxa olmuş sosial zümrələr çox idi. Onlar yalnız soy baxımından deyil, həm də sosial baxımdan çoxçeşidli dir kütlə yaratmış idilər. Xətainin aşağıdakı beyti deyilənlərə örnək sayıla bilər: «Şahın övladına iqrar edənlər ***əxilər, qazilər abdallar*** oldu».



XV-XVI yüzillərdə Azərbaycan şəhərlərinin siyasi həyatında əxi icmaları fütuvvə (sufi) təşkilatına qovuşmada idilər. Sufilər kimi onların da öz nizamnamələri (fütuvvanamələr) var idi. Sufilikdə olduğu kimi, hər bir əxi dörd əxlaqi-fəlsəfi mərhələ silsiləsində (şəriət, təriqət, həqiqət, mərifət) davranış və bilik xəzinəsinə yiyələnməli idi. Bütün bunlar əxiliyin içəridən dəyişməsini – bir yandan radikal hürufi qoluna, o biri yandan isə «özgələşib» dərviş-qızılbaş təliminə və hərəkatına qovuşmasını asanlaşdırırdı. Görünür, bu proses çoxdan baş verməde idi. Artıq XIV yüzildə Səfəvi təriqət dərvişlərinin öz çağırışları ilə Quzey Azərbaycanda kəndliləri əkinçilik işlərindən və vergilərdən çəkindirmələri, bu kəndlilərin içərisində padşaha əl qaldırmağı mümkün sayan əxilərin olması bunu aydın göstərir.

Şeyx Səfiəddin çağından bəri Səfəvi müridləri içərisində «əxi» adı daşıyan bir çox iş adamları bəllidir. Bunların sıralarında zərgərlər, toxucular, sabun bişirənlər, başmaqçılar, bəzzazlar, xarratlar və başqaları vardı. Şah İsmayıl hakimiyyətə gəldikdən sonra ayrıca bir fərmanla təriqət qarşısında böyük iş görmüş oldu. Bu fərmanla bütün dərvişlər müxtəlif sənətkar birliklərinə təhkim edildi. Bunun nəticəsində əxi sənətkar icmaları ilə sufi-dərviş (abdal-qələndər və b.) zümrəsi yaxınlaşıb bir-birinə qovuşdu. XVI yüzilyin başlanğıcında sufi-dərviş zümrəsinin Səfəvi dövlətində yüksək «status»u ilə bağlı qovuşma prosesi, görünür başa çatdı. Əski əxi icmalarının azlıqda olan yuxarı təbəqəsi feodallaşaraq ayrı-ayrı hallarda qızılbaş hərbçi əyanların, xidmət bəylərinin sırasına keçdi. Beləliklə, Səfəvi dövlətinin yaranmasında ona dayaq duran üç başlıca sosial zümrədən biri şəhər sənətkarlarını və oturaq əkinçiləri təmsil edən, sonralar isə sufi-dərviş zümrəsinə qovuşan əxilər olmuşdu.

Gənc dövlətə dirək olan ikinci zümrə qazilər adlanırdı. «Qazi» anlayışı hərfən «qəzvaya çıxan kişi», «kafirlərə qarşı savaş döyüşçüsü» bildirir. Hələ Xəlifə çağında Bizans imperatorluğu hüdudlarında türk döyüşçüləri savaş aparmağa başladılar. Bu döyüşçülər «Dədəm Qorqud» boylarında «ğazi ərənlər, alp ərənlər» (oğuz ərənlər) adlanırlar. «Alp ər», «alp ərən» sifəti sonralar «ğazi» şəklinə keçmişdir. Xilafət çağında türk-ərəb ortaq «alp-ğazi» söz birləşməsinin işlənməsi bununla bağlıdır. Türk xalqları yaşayan ölkələrdə – Azərbaycan, Anadolu, İraq və Xarəzmdə «ğazi» və ya «alp ğazi» islam işinin, «islam hüdudunun» qoruyucusu olan əsgəri qulluq adamlarına deyilirdi «Ərənlər asimanın dirəyidir» söyləyən Xətaiyə görə, ərən müqəddəslik, mürşidlik, ğazi (mürid) başçısı olan bir şəxsiyyətdir. Bir sözlə, uzaq keçmişdə ər, alp ər (alp ərənlər) adı daşıyan döyüşçü kişi sonralar xristian ölkələri «ağzında» («Dədəm Qorqud» kitabında: Bəkil bəy «doqquz tümən Gürcüstan ağzına varıb qondu, qaravulluq eylədi») xidmət çəkən islam əsgəri, «ğazi ərən» idi. Qızılbaş dövləti sistemində isə təriqət döyüşçüləri bütünlüklə «ğazi» adlanırdı. Yuxarıda söyləndiyi kimi

XIV-XVI yüzillər boyu əxi birlikləri bir növ «dərvişləşmə» yolu keçib sufiliyə qovuşdular. Türklərdəki «ər, ərən», «alp ərən» əsgəri ad daşıyan döyüşçülər isə xilafət çağında «alp-ğazi», «ğazi-ərən» ünvanı alaraq sonralar «ğaziləşmə» yolu keçdilər.

Qızılbaş ordusunda ğazilər başlıca bölüklərdən biri, onun öncül zərbə qüvvəsi idi. XVI yüzil tarixçisi Zeynalabdin Əli Əbdibəy «Təkmilat ül-əxbar əsərində Fərrux Yasər üzərində qələbəni məhz ğazilərin işi kimi təsvir edərək yazırdı: «Heydər (Qızılbaş – *red.*) təriqətinin ğaziləri... Əlinin qüdrətli qılıncı ilə Sasani soyundan olan Şirvan yezidlərini məhv etdilər». Şah İsmayıla görə bütün yağılar «Bahadur qazilərin» gücü ilə məğlub edilmiş, səltənət onların əli ilə qurulmuş, sonralar bir sıra ölkələr və torpaqlar da onların sayəsində tutulmuş, Səfəvilərin kiçik Ərdəbil feodal hakimliyi imperatorluğa çevrilmişdi. Buna görə «cahanı açdı Sultan Heydər oğlu, irişdi ğazilər kövnü məkana» söyləyən Xətai kimi, onun sarayında yaşayan hürufi şair ***Tüfeyli*** də onları bu sözlər ilə mədh edirdi: «Zahir oldu aləmə gənci-nihani Şah Səfi (Şah İsmayıl Xətai – *red.*), sərbəst tutdu cahanı ğaziyani Şah Səfi». Xətainin ölümündən 10 il sonra da rəsmi saray ritualında qazilərə böyük ehtiram göstərilməkdə idi. Holştin elçiliyinin katibi ***Adam Oleariusun*** yazdığına görə, İsfahan sarayında saat yarımlıq qonaqlığın bitdiyini şahın eşik ağası bu sözlərlə bildirmişdi: «Süfrə haqqına, şahın dövlətinə, Ğazilər qüvvətinə – Allah deyəlim».

Sosial tərkib baxımından qazilər ilə əxilər arasında keçilməz ayrılıq yox idi. Əxi birliklərindən gələn sənətkar və əkinçi gənclər «ğaziyani Şah Səfi» zümrəsinə qovuşur, yeni təriqət döyüşçüsünə çevrilərək əsgəri qulluq adamı olurdular.

Yeni dövlətin dirəklərindən biri kimi adı çəkilən abdallar Qafqaza və Ön Asiyaya gələn əski türk boylarından biri olmuşdur. VI yüzildə yaşamış suriyalı ***Zaxari Ritor*** onların Dağıstan hüdudlarında yaşadığını bildirir. Bu, əski hun boylarından biri idi. Abdal boyunun Azəri türklərinin tərkibində olduğunu A.Bakıxanov ayrıca qeyd etmişdir. Bununla yanaşı, abdallar qızılbaş təriqət qurumuna çoxlu ğazi verən Anadolu bölgələrində də («Urum əbdalları», «abdalani-Rum») yaşayırdılar. Onlar Anadolu türklərinin etnoqrafik boylarından biri sayılır.

Orta çağlarda Yaxın və Orta Şərq ölkələrində həm də əbdal adlı sufi-dərviş icması yarandı. Ola bilsin, əski hun «abdal» soy adı burada «əbdal» (ərəbcədən «bədəl» sözünün cəmindən alınması ehtimal olunur – *Red.*) sufi dərviş anlamı ilə çulğaşıq bir sintez keçmiş, sonra isə əski «abdal» soy adı təsəvvüf yosunu ilə hörülüb «dərvişləşmişdir». Nəsimi və Xətai yaşayan yüzillərdə əbdal artıq təriqətə təmənnasız xidmət edən sufi, gəzəri dərviş-qələndərdir. Hər halda XVI yüzilin coşğun hadisələrlə dolu onilliklərində abdal-qələnlər zümrəsi Səfəvi səltənətinin yaranması yolunda gə-



dən gərgin çarpışmalarda böyük rol oynamışdı. Buna görə də bu səltənətin yaradıcısı özündən danışarkən «qələndər surətəm, «qələndər dərvişəm», «həqiqətdə abdaləm» söyləyir, «fəxr edib dərvişliyi aləmdə sultan olmuşuz» yazırdı.

## 2. I İSMAYIL VƏ İMPERATORLUĞUN YARADILMASI. ŞİRVAN VƏ ŞƏKİNİN TAM TABE EDİLMƏSİ

**AĞQOYUNLU *ƏLVƏND MİRZƏ* İLƏ SONUNCU SAVAŞ. İMPERATORLUĞUN YARADILMASINDA İLK UĞURLAR.** Şeyx Heydər oğlu İsmayıl Ustaclu, Şamlu, Rumlu, Afşar, Qacar, Təkəlu, Qaradağlı, Zülqədər, Qaramanlı, Bayburtlu, Çəpəni, Varsaq kimi türk tayfalarından olan ğazilərin başında Qarabağı, Şirvanı aldıqdan, ağqoyunlu Əlvənd Mirzəni əzdikdən sonra Təbrizə gəldi. Səfəvi şeyxliyini şahlığa çevirib taxta oturdu (1501). Siyasət və əsgərlik işləri içində bişmiş olan I İsmayıl on iki imamın adına xütbə oxutdurub, sikkə kəsdirdi.

Şərur döyüşündən sonra Əlvənd Mirzə Ərzincanda yeni döyüş üçün əsgər toplayırdı. O, Təbrizlə Şərqi Anadolu arasındakı köç və ziyarət yolunu bağlamışdı. Qızılbaşların Şərqi Anadoludan Azərbaycana gəlmələrinə mane olurdu. Şah I İsmayıl 1502-ci ilin baharında Ərzincana yola düşdü. Van gölü yaxınlığındakı Aladağdan keçib Tərcanın cənubunda Sarı Qaya üzərinə yürüş etdi. Sarı Qayada Əlvəndin qoşunu pozulub qaçdı. Əlvənd Təbrizə doğru yola düşdü. I İsmayıl bunu eşidincə geri dönüb 1502-ci ilin avqustunda Təbrizə gəldi. Bu vaxt Ucanda olan Əlvənd Həmədan yolu ilə Bağdada qaçdı. İmperatorlduğun yaranışına Əlvənd Mirzə tərəfindən baş verə biləcək qorxu aradan götürüldü. Möhkəm bir dövlətin yaranışı yolunda İraqi-Əcəmlə İraqi-Ərəbin sahibi olan Ağqoyunlu Sultan Muradla da qarşılaşma zəruri idi. 1503-cü ildə Şah I İsmayıl Ağqoyunlu Muradın yanına müridlərindən Qənbər ağanı göndərərək tabe olmasını təklif etdi. Şah, Ağqoyunlu Muradla savaşmaq fikrində deyildi. Ancaq Ağqoyunlu Murad bu təklifi qəbul etmədi. Belə olduqda Şah I İsmayıl 12 minlik qoşunla Həmədana doğru hərəkət etdi. Murad, şahın bu yürüşünə qarşı 70 minlik bir qüvvə hazırladı.

Şah I İsmayıl öncülərinə Xülafa bəylə Mənsur bəy Qıpçaq, cinahlara Dədə bəy, Hüseyn bəy Lələ, Məhəmməd xan Ustaclu, Bayram bəy Qaramanlu, Əbdi bəy Şamlu, möhürdar Sarıəli bəy, mərkəzə isə şah özü başçılıq edirdi. Qarapiri bəy Qaçar 1500 əsgər ilə ehtiyatda saxlanmışdı. Ağqoyunluların ordusunda Əli bəy Türkman sağ cinaha, Murad bəy sol cinaha, öncülərə isə Qum hakimi İslamış bəy başçılıq edirdi.

Şah I İsmayıl 21 iyun 1503-cü ildə Həmədan yaxınlığında Alma Qulağı deyilən yerdəki savaşda Ağqoyunlu Sultan Murad üzərində qələbə qazandı. Adlı-sanlı əmirləri döyüş meydanında qalan Murad özü qaça bildi. Kir-

man, Şiraz, İsfahan, Qum tutuldu. 1504-cü ildə Firuzkuh və Gülüxəndan qələbələrindən sonra Yəzdi də tutdular. Kirmana Məhəmməd xan Ustaclu, Farsa Keçəl bəy adı ilə tanınan İlyas, Peyə İlyas bəy Ağqut oğlu hakim təyin olundu. Mənsur bəy Afşar və bir çox başqa Ağqoyunlu bəyləri qızılbaşlığı qəbul etdilər. 1508-ci ilə qədər bütün İran və Ərəb İraqı Şah I İsmayıl ordusu tərəfindən ələ keçirildi.

**ZÜLQƏDƏR OĞULLARI İLƏ ÇƏKİŞMƏLƏR.** Zülqədər oğulları bəyliyi (1339-1521) ilə Şah I İsmayıl arasında çəkişmələr müharibəyə doğru gedirdi. Şah I İsmayılın elçisi Ustaclu Ümmət, Zülqədər oğlu Əlaüddövlə tərəfindən həbs olundu. Bunu bəhanə edən Şah I İsmayıl 1509-cu ildə bəyliyin üzərinə yürüş etdi. Əslində Əlaüddövlə bəy Cənub-Şərqi Anadoludan Ağqoyunlu torpaqlarını hakimiyyəti altına almaq istəyirdi. Elə bu məqsədlə də Əlvənd Mirzənin ölümündən (1505) sonra yanında olan Ağqoyunlu Uğurlu Məhəmmədin oğlu Zeynalı, qardaşı Əbdürrəzzadı, oğulları Əhməd və Şahruhu Diyarbəkirə göndərmişdi. Amid, Mardin və bir çox başqa yerlər onlar tərəfindən tutuldu. Çox keçmədən Əlvənd Mirzənin bəylərbəyi Əmir bəy onları geri çəkilməyə məcbur edib vəziyyətə özü hakim olmuşdu. Əmir bəy, Zülqədər oğullarının təzyiqindən qurtarmaq üçün Şah I İsmayılın hakimiyyətini qəbul etmişdi. Şah I İsmayıl Əlaüddövlənin Diyarbəkirdə olan marağına son qoymaqla, burada öz hakimiyyətini möhkəmləndirmək fikrində idi.

Osmanlı hökmdarı torpaqlarından keçmək üçün ondan razılıq alan Şah I İsmayıl Ərzurum və Ərzincan yolu ilə Elbistana gəldi. Əlaüddövlə bəy bəyliyini qorumaq üçün Turna bağına çəkilərək Məmlüklərdən və Osmanlılardan yardım istədi. Ancaq Məmlüklər kömək etmədilər. ***Sultan II Bayezidin*** Yəhya paşanın başçılığı ilə göndərdiyi ordu isə Anqaradan irəliyə getmədi. Qışın gəlişi ilə Şah I İsmayıl Xarputu tutdu. Əmir bəy yaxınları ilə onun hüzuruna gəldi. Şah ona möhürdarlıq vəzifəsini verdi. Mosullu kimi böyük bir oymaq qızılbaşlığı qəbul etdi. Diyarbəkir bölgəsi Şah I İsmayılın idarəsi altına keçdi. Şah Diyarbəkirə Ustaclı Məhəmməd xanı hakim təyin etdi. O, çox cəsur və dözümlü bir hərbçi idi. Ustaclu Məhəmməd xan bir sıra kürd əmirlərini və Əlaüddövlənin oğlu Sarı Qaplanın ordusunu məğlub etdi (1509). 1510-cu il Şah I İsmayıl Bağdadı tutan zaman Ustaclu Məhəmməd Zülqədərlərin ikinci bir ordusunu da məğlub etdi. Əlaüddövlənin əsir düşən oğlanları Şahruhla Əhməd bəy öldürüldü. Şah I İsmayıl İraqi-Ərəblə Diyarbəkiri tutub Elbistana qədər gəldi.

**XORASAN UĞRUNDA SAVAŞ.** Şah I İsmayıl Qərbdə əldə etdiyi uğurlarından sonra 1510-1511-ci ildə Türküstan və Xorasan hökmdarı Özbək Məhəmməd Şeybani xanla da savaşdı. Baş döyüş 1510-cu ildə



Mərv yaxınlığında oldu. Təkəlü əmirlərindən ***Burun Sultanın*** əsgərləri Şeybani xanı və yanındakı bir çox döyüşçüsünü öldürdülər. Alınan əsirlər arasında ***Babur şahın*** qızı ilə bacısı da vardı. Şah I İsmayıl Baburun bacısına ehtiramla yanaşdı, onları Babura qaytardı. Bu, iki dövlət arasında yaxşı münasibətlər qurulmasında vəsilə oldu.

Bu səfərlə bütün Xorasan Səfəvi dövlətinə qatıldı. Bu dövlət artıq Fəratdan Ceyhuna qədər uzanırdı. Şah I İsmayıl sürətlə tutduğu ölkələri birləşdirməklə böyük bir imperatorluq yaratmağa müvəffəq oldu.

***ŞAHQULU BABA*** **ŞƏRQİ ANADOLUDA MÜRİD TOPLAYIR.** Səfəvilər sünnü-hənəfi məzhəbində sufi təriqət şeyxləri olaraq şöhrət qazanmışdılar. İlk dəfə Şeyx Cüneyd qapalı şəkildə şiə təbliğatına başlamışdı. Onlar Şeyx Cüneyddən etibarən seyidlik iddiasında olmuş və özlərini Həzrət Əlinin nəslindən saymışlar. İsmayıl Qızılbaş şiə məzhəbini zorla farslara da qəbul etdirdi.

Şah I İsmayıl imperatorluq hüdudlarından kənarda və xüsusilə Türkiyədəki müridləri ilə əlaqələrini nəinki saxlayır və daha da gücləndirirdi. Bu daha çox İranda türk oymaqlarından olan qızılbaşların sayını artırmaqla dövlətin yerli dayaqlarını möhkəmləndirmək üçün lazım idi. Amma əlaqələr və təbliğat Türkiyə daxilində gərginliklər yaradırdı. Bu isə iki ölkə arasında ciddi narazılıqlara səbəb olurdu.

Osmanlı hökmdarı II Bayezid təbəələrinin ölkəni tərk etməsinin qarşısını almaq üçün tədbirlər görürdü. Şah I İsmayıl II Bayezidə göndərdiyi bir məktubda təriqət mənsublarının ziyarətinə mane olunmamasını xahiş edirdi. II Bayezid ziyarəti yerinə yetirdikdən sonra geri dönməyə söz verənlərə mane olmayacağını bildirdi. II Bayezid İsmayılın könlünə dəyməmək üçün belə bir cavab vermişdi. Ancaq qadağan etməsinə baxmayaraq köçlərin qarşısını ala bilmirdi. Şah I İsmayıl isə Osmanlılarla aranı qırmamaq üçün çox ehtiyatlı davranır və Bayezidə «ata» deyə xitab edirdi.

1510-cu ildə Anadoluda ***Şahqulu Baba*** üsyanı baş verdi.

Şahqulu, Şeyx Heydərin Anadoluda təriqət yayan və Təkə elindən olan Həsən adlı xəlifəsinin oğlu idi. O son dərəcə fəal və cəsarətli bir adam idi. Osmanlı dövlətində Sultan Bayeziddən sonra gedən «şahzadələr mücadiləsi»ndən istifadə edərək hərəkətə başlamışdı. Tərəfdarları Şahquluya «baba» deyirdilər. Təkə elinin yoxsul və varlılarından ibarət saysız tərəfdarları var idi. Osmanlı hökümətindən narazı olan kəndlilər, əkinləri əllərindən çıxan timar ərləri, sipahilər üsyana qoşulub Şahquluya sadiq bəndə olurdular. Şahqulu Osmanlı ordusunu bir neçə dəfə məğlubiyyətə uğratdı. Bu qələbələr onun tərəfdarlarının sayını artırdı.

Antalyadan Sivasa qədər yayılan Şahqulu üsyanı sultanlıq üçün böyük bir qorxu yaratmış, Anadolunu ikiyə ayırmışdı. Özünü Səfəvi şahının vəkili, bəzən də Mehdi olduğunu bildirən Şahqulu təntənə ilə Burdura

daxil oldu, burada «hökumət» qurub oturdu. Anadolu bəylərbəyi Qaragöz paşanı məğlub edib öldürməsi onun səs-küyünü hər tərəfə yaydı. Vəzir-i-ə'zəm Xadim Əli paşanın başçılıq etdiyi üstün qüvvələr Təkə elində onları mühasirəyə aldı. Ancaq Şahqulu bu mühasirəni yarıb çıxa bildi. Qaraman bəylərbəyliyinə girərkən qarşılarına çıxan Heydər paşanı da məğlub etdi. Vəzir-i-əzəm Şahquluya Kayseri-Sivas arasındakı ***Çubuq*** yaylasında yetişdi, ancaq döyüşdə məğlub olub öldürüldü (1511). Savaşda çox ağır yaralanmış Şahqulu da çox keçmədən öldü. Ancaq onun tərəfdarları Səfəvi ölkəsinə gedə bildilər. Onların sayı 15.000 nəfər idi. Şahqulu güvəndiyi adamlardan birini özünə vəzir təyin etmişdi. Ətraf bölgələrə bəylərbəyi və sancaqbəyləri göndərmiş və Osmanlı elindəki xəlifələrinə məktublar yazaraq hərəkata başlamalarını bildirmişdi.

Şahqulu hərəkatının təsiri altında hətta Bayezidin Qaraman valisi olan oğlu ***Şehinşah*** da qızılbaş olmuşdu. Şahquludan sonra eyni məqsədlə sonralar da bir çox şəxslər Anadoluda Osmanlı dövləti üçün ciddi çətinliklər yaratmışdılar.

Şahqulu qoşunu Ərzincandan Səfəvi dövləti hüdudları içərisinə sıxışdırıldı, burada da adəti üzrə başıpozuqluq göstərib bir karvanı soydu. Bu səbəbdən Şah İsmayıl onlardan irəli gələnlərini qırdırdı. Yəni qardaş səltənətdə qızılbaşların tutduğu işləri öz dövləti üçün rəva bilmədi.

Ancaq Şahqulu avantüründən sonra da Osmanlı dövlətinin daxili işlərinə əl uzatmaq siyasətinə son qoyulmadı.1512-ci ildə Sultan Səlimin Osmanlı taxtına keçməsinə Şah İsmayıl Anadoluya iki xəlifə göndərməklə cavab verdi. Bunlardan biri Nur Əli xəlifə Rumlu idi. Şah onu Anadoluya göndərərək, bu ölkədəki sofuları toplamağı əmr etmişdi. İkinci «xəlifəlik» haqda bilgi yox kimidir. Şah İsmayılın Mussa Durğut oğlu adına yazılmış buyruğu onun Osmanlı dövlət adamlarına əmr və tapşırıq verməkdən çəkinmədiyini göstərir:

«Bismillahi-r rəhmani-r rəhim,

Əbülmüzəffər İsmayıl Bahadur sözümüz:

Əmiri-ə'zəmi-əkrəm Musa Durğut oğlu inayət və şəfqətimizə ümidvar olandan sonra şöylə bilsün kim, iftixar ül-əazim vələ'yan ***Əhməd ağa Qaramanlu*** ol tərəfə göndərdük və ol hər nə ki ixtiyarlığını kendünə şəfqət etdük. Gərək kim müşarinileyh sözündən və məsləhətindən çıxməsün və mütabiət və yardım ona qılsun kim, inşallahi-təala hər nə kim onun muradı və istəki olsə hasildir. Gündən günə nə iş vaqe bulsə, Əhməd ağa ittifaqı ilə dərgahı-müəllamizə bildürsünlər kim ***hər növ buyurığımız olsə, əməl etsün, könlünü xoş tutub, mərhəmətimizə isdar olsun.***

7 rəbi-üs-sani 918 (23.VI.1512) Xətm».

Beləliklə, Anadoluda qızılbaşlığı yaymaq hərəkatı başlanğıcından bir təriqət təbliği olaraq qalmışdı, Osmanlı dövlətini daxildən sarsıtmaq vasitəsinə çevrilmiş oldu. Şah İsmayıl, bu dövlətin təbəələrini tərəfinə çəkib özünə mürid etmək siyasətinə ara verməməklə dövlətlərarası düşmənçiliyi dərinləşdirdi. Buna görədir ki, Şah İsmayılın Azərbaycanda hakimiyyətə gəlməsi yaxşı qarşılanmadı. Osmanlı tarixçilərindən məşhur ***Hoca Sadəddinin*** bu münasibətlə aşağıdakı beyt ilə başlayan bir şeir yazması təsadüfi deyildi:

Başına tac aldı çıktı ol pəlid
İtti bi-idrak Etraki (Türkləri – *Red.*) mürid.

Nur Əli Xəlifə Qarahasarda ikən Sivas, Amasiya, Toqat bölgəsi türklərindən 3-4 min evlik bir topluluğu özünə birləşdirdi. Bu vaxt şahzadə Səlimlə qardaşı Sultan Əhməd arasındakı savaşa hazırlıq qızılbaşları daha da ruhlandırdı. Hətta Sultan Əhmədin Amasiyadakı oğlu Sultan Murad da qızılbaşlığı qəbul etdi. Toqat yaxınlığında Osmanlı sərkərdəsi Faiq bəy məğlub edildi. Şəhər əhalisi Nur Əli Xəlifəni qarşılayıb Şah İsmayılın adına xütbə oxudu. Nur Əli Xəlifə *Qaz Çayın* adlı yerdə Sultan Muradla birləşdi. Sultan Murad Səfəvi sarayına, Nurəli Xəlifə isə Ərzincana yola düşdü. Nur Əli Xəlifə 1512-ci ildə Ərzincan yolunda Sultan Əhmədin qoşununu məğlub etdi.

Sultan Murad atası Sultan Əhmədə yazdığı məktubda onu Ərzincana çağırır və bildirirdi ki, Şah İsmayılın Div Sultan Rumlunun başçılığı ilə bura göndərdiyi ordu ilə Üskudara qədər getmək mümkündür. Ancaq Sultan Əhməd qızılbaşlığa pis münasibətdə idi. O, bu dəvəti qəbul etmədi.

Qızılbaşların Anadoludakı hərəkətləri Osmanlı dövləti ilə Səfəvilər arasında münasibətləri pozdu. Qardaşları ilə bağlı təhlükəni aradan qaldıran ***Sultan I Səlim*** (1512-1520) ***Anadoluda 40000 qızılbaşı öldürtdü. Təkə elindən həbs edilən qızılbaşları yeni fəth olunan Medon və Koron adalarına sürgün etdi.*** Bununla Səfəvilərə qarşı müharibəyə hazırlaşan I Sultan Səlim yürüş zamanı arxasında baş qaldıra biləcək təhlükəyə son qoydu.

**ÇALDIRAN SAVAŞI.** Şah İsmayılın yalnız Anadolu təxribatları deyil, onun Türküstan yürüşü, bütün siyasəti İstanbul sarayında diqqətlə izlənilməkdə idi. Sultan Bayezid onun qazandığı üstünlüklər ilə elə bil barışmalı olmuşdu Şah İsmayıla göndərdiyi bir məktubunda qoca sultan yazmışdı: «Siz Rum elini istila etmək fikrindən ümidinizi kəsin. Yaxşısı odur ki, İran, Turan və Hindistandakı xanlıqları məhv edib, o tərəflərdə olduqca qüdrətli bir dövlət yaradasınız».

Trabzonda hakim olan şahzadə Səlim isə atasının bu barışqanlığı ilə razı deyildi. O, qızılbaşlığın Osmanlı imperatorluğu üçün başlıca təhlükəyə çevrildiyini görürdü. Sultanlığa çıxdıqdan sonra bu təhlükə ilə mübarizə onun siyasətində ön yerə keçdi. O, hər yerdə qızılbaş təbliğatçılarını tutdu-

rub edam etdirməklə yanaşı, dövlət başına keçər-keçməz böyük hərbi, diplomatik və ideoloji hazırlıq başladı. Özbək türklərinə elçi göndərərək, qızılbaşlara qarşı birgə savaş açmağı təklif etdi. «İnşallah həzarətlərin (Sultan Səlimin – *Red.*) ordusu bu fəsadın özünü alacaqdır...» yazıb onlara ürək-dirək verdi. Osmanlı Divan toplantısında Şah İsmayılın təxribatçı hərəkətləri ayrıca müzakirə edildi. Burada qızılbaşlara qarşı savaş açılmasının cihaddan da «əhəmi və əqdəm» olduğu haqda fitva verildi. Bir sıra islam ölkələrinin ruhaniləri bu fitvanı bəyənib ona tərəf çıxdılar. O çağın görkəmli alimlərindən ***İbn Kamal*** «Fi Təklif İr-rəvafız», ***Kamal Paşazadə*** «Fitvayı-Kamal Paşazadə dər haqqe Qızılbaş» adlı risalələr yazdılar. Müfti ***Həmzə Əfəndi*** öz adından çıxardığı fitva ilə «başçıları Ərdəbil oğlu İsmayıl olan qızılbaş tayfası, Peyğəmbər əfəndimizin şərifətinə və sünnətinə, islam dininə və Qur'anı Mübinə xor baxmaqla Cənabi Allahın haram qıldığı xüsuslara halal deməkdə», «Peyğəmbər əfəndimizin xatunu Ayşə anamıza küfr etməkdə» suçlayırdı. Kökcə Xorasanlı türk olan ***Molla Ərəb*** adlı bir alim isə İranı və Ərdəbili gəzib qızılbaşlığı tədqiq etmiş, Anadoluya keçərək işin bütün ciddiyyətini Səlim Yavuza anlatmışdı. O, Çaldıran döyüşünə də gedərək əsgərləri döyüşə ruhlandırmağa çalışmışdı.

Savaş qarşısında Sultan Səlimin Şah İsmayıla dörd məktub yazması bəllidir. «Zəmanə Əfrasiyabı Əmr İsmayıl» sözəlri ilə başlayan birinci məktubda o, zəndəqə (Məzdəki), ilhadı (Xurrəmi) və məcusi (Zərdüşti) fikirlərdə suçlanır; bildirilirdi ki, ülamələr «sənin və tərəfdarlarının dindən xaric olduğunu müəyyən edərək, qətliam edilmənizə həmrəylikdə fitva vermişlər. Dinin təqviyyəti və Allah əmrini yerinə yetirmək üçün yumşaq ipək yerinə zireh və xuftan geyindik». Bu, müharibə elan olunması demək idi.

Savaşı açmazdan öncə Sultan Səlim, dövlətin bütün bölgələrində, hətta Krımda və Balkanlarda ümumi səfərbərlik keçirdi. Sayı 200 minə çatan, odlu silahla (100 araba topu, 10 min tüfəng) gücləndirilmiş bir ordu ilə ***Çaldırana*** yürüş etdi. Buradan Şah İsmayıla dördüncü «acıqlı» məktubunu yazdı: «...Səninlə vuruşmaq üçün ağır leşgərlə uzaq yol ötüb, hökmranlığın altında olan məmləkətinə girmişik. Böyük hökmdarlar ayinində və qüdrətli xaqanlar məzhəbində məmləkət padşahların namusu, mənkuhəsi – arvadı kimi namusu sayılır. Kişilikdən və cavanmərdlikdən payı olanlar, cəsarətli şəxslər, özündən başqalarının ona toxunmasına heç cür dözə bilməzlər. Əgər belədirsə, indi neçə gündür qalib əsgərlərim məmləkətinə daxil olub kamranlıq edərlər. Lakin səndən əsər-əlamət görünmür. Elə gizlənmisən ki, diri olmağınla ölümün arasında fərq bilinmir... İndiyə qədər səndən bahadırlıq və mərdlik əlaməti olan bir iş hələ də zühura çıxmamışdır... Əgər bundan sonra da əvvəlkitək qorxudan zaviyə küncündə gizlənməli olsan, ərlik adı sənə haramdır. Belə olarsa, taskulah əvəzinə yaylıq, zireh əvəzinə çadra ixtiyar elə. Sərdarlıq sevdasından və süpərsalarlıq iddiasından əl çək. Səndə ki belə bir əməl yoxdur, nə üçün ona əl atırsan...»



Şah İsmayıl bu məktublardan yalnız üçüncüsünə cavab verdi. Onun cavabı sözcül bir üslubda yazılsa da, nisbətən təmkinli idi: «Məhəbbət dolu salam və dostluq ifadə edən peyğamımızı qəbul ediniz... Şərəfli məktublarınız yetişdi. Onların məzmunu ədavət bildirsə də, cürət və mətanət ifadə etdiyi üçün bizə ləzzət verdi. Lakin bilmədim ki, bu düşmənçiliyin başlanğıcı və mənşəi nə ilə bağlıdır. Sizin cənnətlik atanızın zamanında Əlaüddövlə üzərinə gedərkən, sizin sərhədlərdən keçməli olduq. Ancaq aramızda dostluq və ittifaqdan başqa bir şey olmadı. Siz həzrət də ki, o zaman Trabzon valisi idiniz, aramızda birlik əlaqəsi göstərirdik. İndilikdə isə ədavətin səbəbi məlum olmur. Əgər məhz hakimiyyət davası üçün bu tərəflərə gəlmişsinizsə, qoy belə olsun. Ancaq igəşgənlik sözü o yerə çatdırar ki, köhnə xanımanın bünövrəsi bərbad olar.

Bizim o tərəfə gəlməmizin iki səbəbi vardı: birincisi budur ki, o diyarın sakinlərinin əksəri bizim yüksək nəsəbli babalarımızın müridləridirlər... İkincisi də, sizin müqəddəs yürüşlü xanədanınıza olan məhəbbətim idi. İstəmirdim ki, Temur zamanınkına bənzər bir çaxnaşma, gözlənilməz halda o məmləkətdə baş qaldırsın. bunu indilikdə də istəmirəm. Vəziyyətin belə hal almasından da incimirəm. Niyə də gərək inciyim? Hökmdarlar arasında ədavət köhnə adətdir. Necə ki, deyiblər: məmləkət gəlinini o şəxs möhkəm quca bilər ki, suvarılmış qılıncın dodağından öpə.

Lakin nalayiq sözlərin mənası yoxdur...

Elə düşünürük ki, sizin qarşınıza çıxmaqda bu qədər yubanmağımız əsassız olmamışdır... Ancaq heç kəsin sözünə uymadan məsələnin əsli barədə düşünülsə yaxşıdır. Çünki axırıncı peşmanlıq fayda verməz... Əgər iş hərbə çəkərsə, təxir olunmasın. Lakin uzaqgörənlik yolu ilə hərəkət edilsin».

Bu yazışmada «Temur zamanınkına bənzər bir çaxnaşmanın» yolverilməz olmasının bildirilməsi çox yerində idi. Ancaq bu sözlər tərəflərdən hər ikisinin bu «çaxnaşmanın» yenidən ortaya gətirilməsində suçlu olduğunu pərdələyə bilmirdi.

Böyük bir ordu ilə savaşa gəlmiş rəqibini «igəşgənlikdən», «nalayiq sözlərdən» çəkindirməklə, onu «uzaqgörənlik yoluna» çağırmaqla Şah İsmayıl nəyə çalışırdı? Hər halda təmkinli, öyüdverici sözlər onun özünün döyüşə yaxşı hazırlaşmadan gəldiyini gizlədə bilməmişdi. Bu döyüşün qaçılmaz olması bir sıra ağlasığmaz təsadüflər ilə bağlı idi. Bu təsadüflərə yol verməyəcək bir başçı, hərb orkestrini öz əlinin tərpənişinə tabe etmək gücündə olan bir iradə sahibi sanki yox idi. Şah İsmayılın ən çox güvəndiyi ***Ustaclu oğlu Məhəmməd xan*** özbaşına Sultan Səlimə təhdidedici məktublar yazmaqla barış imkanını yoxa endirmişdi. ***Durmuş xanın*** davranışı

bundan da ağlasığmaz idi. Xətainin oğlu «Bəyazi-mükalimeyi-***Şah Təhmasib*** ba elçiyan-i Rum» adlı sonrakı risaləsində Sultan Süleymana göndərdiyi (1534) cavabın mətnini vermişdir. Bu cavabda Şah Təhmasib yazırdı: «O çağlar mənim atam sənin atanla vuruşdusa da, düşünülməmiş bir hərəkət oldu. Çünki Durmuş xan, eləcə də başqa əmirlər, bütün qoşun kefli idi, gecəni sübhəcən şərab içib məst olmuş, erkən də döyüşə başlamışdılar. O tarixdən bu yana Çaldıran döyüşündən söz düşəndə mən Durmuş xana qarğış edirəm. Şah İsmayılı o apardı və eləcə də döyüşə bildi...»

Şah I İsmayılla I Sultan Səlimin aralarındakı kəskin məktublardan sonra 23 avqust 1514-cü ildə Xoy şəhərindən 20 fərsəx aralı ***Çaldıran düzündə*** bir qandan olub, bir dildə danışan ordular qarşılaşdı.

Şah I İsmayıl ordusundakı düzülüşə görə ortadakı qüvvəyə ***Nizaməddin Əbdülbaqi***, sağ qola ***Şərəfəddin Əli***, sol qola ***Durmuş xan Şamlu***, Məhəmməd xan Ustaclu qorçubaşı ***Sarıpirə*** və ***Yusif bəy Varsaq*** ilə öncüllərə başçılıq edirdi. Şah I İsmayıl özü seçmə döyüşçülərdən yaradılmış qüvvə ilə sağ qolda dayanırdı.

Sultan I Səlimin ordusunun sol qoluna Rumeli bəylərbəyi ***Həsən paşa***, sağ qoluna Anadolu bəylərbəyi ***Sinan paşa*** başçılıq edirdi. Ortada topçu birləşməsi yerləşmişdi; onun önündə ayrıca bir dəstə və arxasında isə tüfəngli yeniçərilər dururdu. Sultan I Səlim isə şəxsi qvardiyası ilə yeniçərilərin arxasında idi. Ən geridə ***Şadi bəyin*** dəstəsi yerləşdirilmişdi. Ona arxadan ediləbiləcək zərbələrin qarşısını almaq tapşırılmışdı. Hər iki ordunun əsgərləri, «Allah, Allah» deyə döyüşə atılıb igidliklə vuruşurdular. Səfəvilərin öncülləri olan qorçular *Sarıpirə Ustaclunun* başçılığı ilə döyüşə girib osmanlılardan xeyli döyüşçü öldürdülər. Ancaq Səfəvi atlılarının qarşısı alındı. Döyüşün qızğın vaxtında Fars bəylərbəyi ***Xəlil Sultan Zülqədər*** özbaşına döyüş meydanından qoşunu ilə qaçdı. Döyüşün gedişində dönüş yarandı, çünki Şah İsmayılın ordusunun sayı Sultan Səlimin ordusundan az idi. Həm də döyüşün ilk anından qızılbaş atlıları top atəşi ilə qarşılaşdı. Döyüşdə iki tərəfdən 5 min döyüşçü, bir çox adlı-sanlı əmirlər öldürüldü. Səfəvi ordusunun sol qoluna başçılıq edən Məhəmməd xan Ustaclu, qorçubaşı Sarıpirə Ustaclu, ***Şirəçibaşı Piri bəy Şamlu***, Lələ Hüseyn bəy Şamlu, Baba İlyas Çavuşlu, ***Sultan Əli Mirzə Afşar***, Vəlican bəy Türkman, Mir Əbdülbaqi bəy Türkman, ***Mir Seyid Şərif*** və ***Seyid Məhəmməd Kəmunə*** döyüş meydanında qaldılar. Osmanlılardan ***Həsən paşa, Əli bəy Malquç oğlu, Üveys bəy, Süleyman bəy*** öldürüldü. Sultan Səlim Çaldıran döyüşündən sonra avqust ayında Təbriz əhalisinə iki məktub göndərdi. O ilk məktubunda yazırdı ki, Çaldıranda qələbə çalmışıq, Təbrizə gəlirik. Hamı tabe olmalıdır. Tabe olmaq istəməyənlər cəzalandırılacaqdır. İkinci məktubunda isə Əhməd paşanı Təbrizə hakim qoyduğunu bildirirdi. Osmanlı ordusu Təbriz şəhərinə soxuldu. Ancaq şəhərdə bir neçə gündən artıq qala bilmədi.



Çaldıran savaşı Səfəvi dövlətinə çox böyük uğursuzluqlar gətirdi. Bütün Kürdüstan itirildi.

***Sultan Səlimin məqsədi* Səfəvi dövlətinə qüvvətli bir zərbə vurmaq deyil, *onu büsbütün ortadan qaldırmaq idi*.** Səfəvi imperatorluğunun birliyi yenidən pozulmaq təzlükəsi qarşısında qaldı. Amma müharibədən usanmış yeniçərilər hücumları davam etdirməyə qarşı çıxdılar. Sultan Səlim məqsədinə çata bilmədi.

Çaldıran döyüşündən qabaq Səfəvi-Osmanlı sərhəddi Sivasa bağlı Su şəhərindən keçirdi. ***Kemax qalası Xarput***, Urfa da Səfəvilərin hüdud şəhərlərindən idi. Çaldırandan geri dönən I Səlim 1514-1515-ci ildə Amasiyada qışlayıb, sonra İstanbula qayıdarkən Anadolunun açarı Kemax qalasını tutdu. *Qala rəisi Məhəmməd bəy 300 varsaqla təslim olmadan, ölüncəyə qədər vuruşdu*. I Səlim Şərqi Anadolunun tutulmasını Ağqoyunlu Bıyıklı Məhəmmədə tapşırdı. O, 1515-ci ildə Təkir yaylağında Nur Əli Xəlifəni məğlub etdi. Nur Əli Xəlifə, bir çox başqa bəylər bu döyüşdə öldürüldü.

Şah İsmayıl Çaldıranda Məhəmməd xan Ustaclu öldükdən sonra Diyarbəkirin idarəsini onun qardaşı Qara bəyə tapşırdı. Şah ona xan rütbəsi də verdi. Şahın bacısı ilə evli olan Qara xan, qardaşları Ulaş və Süleyman Diyarbəkirdə möhkəilənmək üçün əllərindən gələni etdilər. Ancaq Mardin yaxınlığında ***Dədə Qarkın*** düzündə Qara xan, Bıyıklı Məhəmməd paşa ilə döyüşdə məğlub olub öldürüldü. Cənub-Şərqi Anadolu Osmanlı idarəsi altına düşdü. Amma Şah İsmayıl Səfəvi imperatorluğunu qoruyub saxlaya bildi.

**I ŞAH İSMAYILIN GÜRCÜSTAN YÜRÜŞLƏRİ.** Bu zaman böyük coğrafi kəşflər nəticəsində Şərqə okeanlar və dənizlərdən keçən yeni yollar açılmışdı. Buna baxmayaraq Yaxın və Orta Şərqi Avropa ilə bağlayan ənənəvi karvan yolları hələ öz əhəmiyyətini itirməmişdi. Təbrizdən-Dərbəndə və oradan isə Avropaya uzanan karvan yollarında, Volqa-Xəzər su yollarında dünyanın bir çox ölkələrinin yenə də gözü vardı. Bu yollarla Quzeydən tacirlər, elçilər, missionerlərlə yanaşı bir müstəmləkəçilik dalğası da gözlənilirdi. Səfəvi dövləti buna görə Qafqazda möhkəm yerli dayaq yaradıb oranı qorumağa çalışırdı. Qafqazda Türkiyənin də marağı vardı. Qafqazı Quzeydən yaxınlaşan qorxudan qorumaqla buradan keçən ticarət yollarını da tutub ələ keçirmək istəyirdi. Türkiyə Qafqazın ələ keçirilməsində Gürcüstandan dayaq kimi istifadə etməyə çalışırdı. Bu vaxt Gürcüstan xırda çarlıqlara bölünmüşdü. Öz hakimiyyətlərini qoruyub saxlamağa çalışan Gürcü çarları xarici siyasətlərində tez-tez dönüklük edirdilər.

Səfəvilərin Gürcüstana ilk yürüşü 1516-cı ildə oldu. Mesxiya çarı ***IV Kvarkvare*** (1516-1535) ***Başı Açıq*** (İmereti) çarı Mənuçöhrlə savaşda məğlub olduqda Şah I İsmayıldan kömək istədi. Şah İsmayıl Div Sultan Rumlunun başçılığı ilə ona kömək göndərdi. Mənuçöhrü məğlub edən Div Sultan IV Kvarkvareni yenə də öz ölkəsində hakimiyyətə gətirdi.

Növbəti il Türkiyədən kömək alan Mənuçöhr Dvin vuruşunda da məğlub oldu.

1521-ci ildə Şəki hakimi ***Həsən bəy*** Naxçıvanda qışlayan Şah I İsmayıldan Kaxet çarı Ləvəndin Şəkiyə yürüşünün qarşısını almaq üçün kömək istədi. Şah I İsmayılın əmiri Div Sultan Rumlu Alazan və İori çaylarını keçib ***Zəyəm*** qalasına yaxınlaşdı. Bu vaxt suçunu boynuna alan Ləvənd, IV Kvarkvare, Davud bəy və Mənuçöhr Div Sultanın yanına gəldilər. Div Sultanla Şah I İsmayılın qışladığı Naxçıvana yola düşdülər. Gürcü çarları asılılığı qəbul edib hər il vergi ödəyəcəklərinə söz verdikdən sonra ölkələrinə qayıtdılar.

Dönük Kaxet çarı Ləvənd xan 1524-cü ildə Səfəvilərə tabe olan Şəkiyə yenidən yürüş etdi. Baş verən döyüşdə Həsən bəy öldürüldü. Bu dönüklüyünə görə şah Ləvəndi cəzalandırmağa hazırlaşdığı zaman vəfat etdi.

**ŞİRVAN VƏ ŞƏKİNİN TABE EDİLMƏSİ.** 1500-cü ildə Cəbani vuruşunda Fərrux Yasər öldürüldükdən sonra Şirvanda hakimiyyəti oğlu ***Bəhram bəy*** ələ aldı. O, bir ildən sonra vəfat etdi, hakimiyyətə qardaşı ***Qazi bəy*** keçdi. O da bir neçə aydan sonra oğlu ***Sultan Mahmud*** tərəfindən öldürüldü. Cəbani döyüşündən sonra Gilana qaçmış ***Şeyxşah*** (Fərrux Yasərin başqa bir oğlu) 1502-ci ildə II İbrahim adı ilə Şirvanşahlar taxtında oturdu. Sultan Mahmud isə kömək almaq üçün Səfəvilər sarayına gəldi. Qızılbaş qoşunu ilə Şirvana qayıdan (1505-1506) Sultan Mahmud məğlub oldu və öz xidmətçisi tərəfindən öldürüldü.

Yerli sülalə üzvləri arasında hakimiyyət uğrunda gedən mübarizə Şirvanşahları zəiflədirdi. Əslində Fərrux Yasərin ölümündən sonra Şirvan, Səfəvi dövlətinin tabeliyində idi.

Ancaq yerli sülalənin daxili müstəqilliyi saxlanılmışdı.

I İsmayıl tərbiyəçisi Hüseyn bəy Lələni bura canişin təyin etmişdi. Hüseyn bəy Lələ isə Şirvanda olmayanda yerinə xidmətçisi ***Şahgəldi ağanı*** qoyurdu. Şeyxşah Şirvanda hakimiyyəti ələ keçirdikdən sonra İsmayıla hədiyyələr göndərib vergi verəcəyi və ona sədaqətli olacağını bildirmişdi.

Lakin Şeyxşah sonrakı illərdə, xüsusilə Şah İsmayılın Xorasan səfərinə hazırlaşdığı vaxt xərac vermədi. Elə buna görə də 1509-cu ilin sonunda Şah I İsmayıl Şirvana ordu göndərdi. Şeyxşah tab gətirə bilməyib Buğurd qalasında gizləndi. Şah İsmayıl ikinci dəfə Şirvanı ələ keçirib



Hüseyn bəy Lələni yenidən Şirvana canişin qoydu. Ancaq Şeyxşah rəsmən hakimiyyətdən devrilmədi. Şah İsmayılın göstərişi ilə h. 925 (1517) ildə ***Mir Cəmaləddin Məhəmməd*** (sədr) və ***Mirzə şah Hüseyn Şirvana*** gəlib Şeyxşahı andiçmə mərasimindən keçirdilər. Şeyxşah böyük oğlu ***Sultan Xəlili*** girov olaraq Təbrizə göndərdi. Şah İsmayıl qızlarından Pərixan xanımı ona ərə verdi. Şeyxşah 1521-ci ildə Marağaya gəldi, şahla görüşüb, sədaqətlə xidmət edəcəyinə yenidən and içdi.

Göründüyü kimi, Şah I İsmayıl nə birinci, nə də ikinci yürüş zamanı Şirvanşahların irsi idarə hüquqlarına toxunmadı. Lakin o, Şirvanşahları nəzarət altında saxlayırdı.

İkinci səfərdən sonra Səfəvilərin Şirvanda hakimiyyətinin möhkəmləndirilməsindən bəhs edən Abbasqulu Ağa Bakıxanov yazır: «Şah İsmayıl yeni hökümətə dayaq olmaq və onu möhkəm saxlamaq üçün İraqda yaşayan Bayat türklərindən bir dəstəni siyahı üzrə köçürüb Dərbənd və Şabranda yerləşdirdi».

1524-cü ildə Şeyxşah II İbrahim vəfat etdi. Onun ***Məhəmməd Mirzə, Müzəffər Mirzə*** və ***Sultan Xəlil*** adlı üç oğlu var idi. Yerinə Şah I İsmayılın qızı Pərixan xanımın əri ***Sultan Xəlil II Xəlilüllah adı ilə*** hakimiyyətə gəldi.

**ŞAH İSMAYILIN ÖLÜMÜ VƏ YENİ ÇƏKİŞMƏLƏR.** Sultan I Səlimin 1520-ci ildə vəfatı ilə Şah İsmayılın qurduğu imperatorluğun başı üzərini almış təhlükə sovuşdu. Səfəvi imperatorluğu öz siyasi və dini birliyi üçün Şah I İsmayıla borclu idi. Kiçik yaşlarından hər tərəfdə təhlükələrlə qarşılaşmasına baxmayaraq Azərbaycanı birləşdirib, bir çox qonşu ölkələri tutub güclü bir dövlət qurması onun böyük tarixi şəxsiyyət olduğunu göstərir. Özü çox cəsur, intizam sevən olduğu kimi həm də təşkilatçı və təhsilli bir hökmdar idi. O, böyük uğurlar əldə edən türk tayfa reislərinə imperatorluğun mərkəzi və yerli idarələrində vəzifələr və geniş səlahiyyətlər vermişdi. Ustaclular Əcəm İraqında və Kirmanda, Şamlılar Xorasanda, Təkəlülər Əcəm İraqının Həmədan və İsfahan bölgələrində, Zülqədərlər Farsda, Mosullular Bağdadda yerləşdirilmişdi. Adları çəkilən tayfaların bəylərinə bu bölgələrdə geniş torpaqlar və vəzifələr verilmişdi. *Səfəvi imperatorluğunun qurucusu olan Şah I İsmayıl 22 may 1524-cü ildə 37 yaşında vəfat etdi. O, Ərdəbildə Şeyx Səfiəddin türbəsində dəfn olundu.*

Yeni Şirvan hakimi II Xəlilüllah Səfəvilərə xəyanət edən Gilan hakimi ***Əmir Dibaca*** sığınacaq verdi. II Xəlilullah onu Şirvana göndərilən Səfəvi elçisinə verməkdən boyun qaçırdı. *Şirvanşah Türkiyə sərdarı **İbrahim paşaya** qiymətli hədiyyələr göndərir, onunla gizli əlaqə saxlayırdı.* Bu xəbərlər şaha çatmışdı. 1535-ci ildə II Xəlilüllah vəfat etdi. Qardaşı oğlu ***Şahrux*** Şirvanda hakimiyyətə keçdi. Səfəvi hökmdarı Şah Təhmasib Çuxur Sə'd Hakimi Məhəmməd bəy Ustaclu ilə yeni Şirvan hökmdarlarına

fərman və xələt göndərdi. Əslində Şirvanı Şahrux deyil, onun vəkili Hüseyn bəy idarə edirdi. Şirvanda daxili çəkişmələr getdikcə artırdı.

Bu çəkişmələr zamanı Mahmudabad və Salyanda bir qələndər dərvişin başçılığı ilə (1537-38) yerli hakimiyyətə qarşı çıxış oldu. Onun dəstəsi Şamaxıya yaxınlaşdı. Onlara qarşı qüvvə çıxara bilməyən yerli əmirlər və Şahrux Buğurd qalasına çəkildilər. Qələndərin dəstəsi Şamaxını tutdu. Amma məqsədləri aydın olmadığına görə onlar bir az sonra şəhəri tərk edib Salyana yola düşdülər. Şahruxun dəstəsi onları izləyirdi. Salyan yaxınlığında baş verən döyüşdə üsyançı dəstəsi dağıdıldı.

Bu hadisədən sonra Pərixan xanım qorçubaşı Padarı qardaşı I Təhmasibin yanına göndərdi. Qorçubaşı Padar Şirvandakı çəkişmələr və hakimiyyətsizlik barədə Pərixan xanımın xəbərini şaha çatdırdı. Şahdan Şirvanda çəkişmələrə son qoymaq üçün kömək istədi.

Şahrux kiçik yaşlı olduğuna görə Şirvanı onun vəkili Hüseyn bəy başda olmaqla bir neçə nəfər başıpozuq əsilzadə idarə edirdilər. Onların aralarındakı çəkişmələr Şirvanı gücdən salmışdı. Daxili sarsıntı keçirən Şirvan əmirləri içərisində mərkəzdənqaçma meyilləri də baş qaldırmışdı. Şah Təhmasib qardaşı Əlqas Mirzə, Müntəşa sultan və Qarabağdakı Qacar əmirlərinin başçılıq etdiyi 20 minlik hərbi dəstəni 1538-ci ildə Şirvana yolladı. Onlar Şamaxı, Surxab, Qəbələ, Gülüstanı tutdular. Şahruxun vəkili Hüseyn bəy başda olmaqla bir çox Şirvan əyanı öldürüldü. Şirvanda şahlıq ləğv olundu. Şah Təhmasib qardaşı Əlqas Mirzəni Şirvıana bəylərbəyi qoydu. Şəki xanı Həsən bəyin oğlu ***Dərviş Məhəmməd*** (1524-1551) 1538-ci ildə Səfəvi qoşunu Şirvanda Buğurd qalasını mühasirə edən zaman Şahruxa kömək edirdi. Şirvan tutulduqdan sonra Şəki hakimi Dərviş Məhəmməd xan Səfəvilərlə əlaqələri yenidən yaxınlaşdırmağa başladı. Hətta Təhmasibin dul bacısı Pərixan xanımla evləndi. O, bununla Şəkinin sərbəstliyini qoruyub saxlamaq istəyirdi. Pərixan xanım öldükdən sonra Səfəvilərlə münasibətləri yenidən pozuldu. Dərviş Məhəmməd Təhmasibin Şirvan valisi olan və şahlıq həvəsi ilə yanan ögey qardaşı Əlqas Mirzə ilə yaxınlaşdı.

Təhmasibə qarşı savaşan Əlqas Mirzəyə qardaşı Şahnəzərin başçılığı ilə kömək də göndərdi. Təhmasib 1548-ci ildə Sevindik bəy Afşarın başçılığı ilə 2500 nəfər qorçu dəstəsini Şəkiyə – Dərviş Məhəmmədi cəzalandırmağa yola saldı. O, Kiş qalasına çəkildi. Sevindik bəy Kiş qalasını tuta bilmədi. 1551-ci ildə I Təhmasib onunla birdəfəlik hesablaşmaq üçün Ərəşə gəldi. Burada vassalı Kaxet çarı Levan onunla birləşdi. Dərviş Məhəmməd xan şahı qarşılamağa gəlmədi. Şəki əyanları və əhalisi Kiş, Gələsən-Görəsən qalaları və Sığnağa çəkildilər. Qorçubaşı Sevindik bəy, Bədr xan, Şahqulu Sultan Ustaclunun qüvvəsi Kişi, Abdulla xan Ustaclunun qüvvəsi Gələsən-Görəsəni və möhürdar Şahqulu Xəlifənin qüvvəsi isə Sığnağı mühasirəyə aldılar.



Top atəşi ilə Kişin qala divarlarını dağıtdılar. Qalanın kutvalı ***Mahmud bəy*** savaşı davam etdirməyin mənasız olduğunu görüb qapıların açarını şaha verdi. Sığnaq döyüşçüləri də savaşı dayandırdılar. Dərviş Məhəmməd gecə ikən 400 nəfərlik dəstə ilə Gələsən-Görəsəndən çıxıb qaçmağa çalışdı. Amma ələ keçib öldürüldü. Beləliklə Şəki tutudu. Şah, ***Tuyqun bəy Qacarı*** Şəki hakimi təyin etdi.

**I TƏHMASİBİN HAKİMİYYƏTƏ KEÇMƏSİ.** Şah İsmayılın ***Təhmasib Mirzə, Sam Mirzə, Bəhram Mirzə, Əlqas Mirzə*** adlı dörd oğlu vardı.

Yerinə 1514-cü ildə anadan olmuş böyük oğlu Təhmasib keçdi. Şah İsmayıl ömrünün son günlərində əmirlərinə əmir əl-üməra, həm də mülki və dini məsələlər üzrə müavini, yəni vəkili olan Div Sultan Rumluya itaət etmələrini və onun sözündən çıxmamalarını vəsiyyət etmişdi. O, Şah Təhmasib yaşa dolana qədər tayfa əmirləri arasında gedən çəkişməyə son qoya bilmədi. Bu arada mərkəzi idarə sarsıldı. Mürşid saydıqları şaha bağlı olan tayfa başçılarında indi sərvət və şöhrət meyli artmışdı. Hər biri öz bölgəsində özbaşına hərəkət edir, məğlub olduqda isə bəzisi baş götürüb Osmanlı ölkəsinə gedirdi. Bu isə Osmanlı dövlətində qızılbaşları yenidən ayağa qaldırmaqla iki ölkə arasında münasibətləri pozurdu.

***Ustaclu Köpək Sultan*** (Mustafa) çox keçmədi ki, əmir əl-ümaralıqda Div Sultan Rumluya ortaq oldu. Bundan Div Sultan Rumlu razı qalmadı. Div Sultan Rumlu təkəlilərdən İsfahan valisi ***Çohə*** (Çuxa) ***Sultan***, Məşhəd valisi ***Burun Sultan***, Həmədan valisi ***Qaracə Sultan***, zülqədərlərdən Şiraz valisi ***Əli Sultanla*** birləşib Köpək Sultana qarşı çıxdı. Bir çox Təkəlü əmirləri öldürüldü, torpaqları alındı və idarə işlərindən uzaqlaşdırıldı. Çohə Sultan əmir əl-ümaralıqda Div Sultanın ortağı oldu (1525). 1526-cı ildə Ustaclu bəyləri Köpək sultanın başçılığı altında toplanıb Div Sultan Rumlu və Çöhə Sultan Təkəlü ilə Sultaniyyə şəhəri yaxınlığında döyüşdülər. Yenidən ustaclular Gilanda Rəşt hakiminə sığındılar. Ondan yardım alan Köpək Sultan Kirman hakimi ***Sofu oğlu Ustaclu*** da daxil olmaqla Ustaclu bəylərini toplayıb yenə də döyüşə girdilər. Ancaq məğlub olub Gilana çəkildilər. 1527-ci ildə Köpək Sultan Ustaclu bəyləri ilə Div Sultan Rumlunun ailə və oymağının olduğu Çuxursə'də yürüş etdilər. Ancaq Şərurda Köpək Sultan öldürüldü. 1528-ci ildə Təkəlü bəyləri Div Sultan Rumlunu də öldürüb iqtidarı ələ aldılar. Çöhə Sultan rəqibsiz Əmir əl-ümərə və həm də vəkil oldu. Boş qalan vəzifələrə Təkəlü bəyləri gətirildi. Ancaq bu, başqa qızılbaş tayfalarının qısqanclığını artırdı.

Bu çəkişmələri diqqətlə izləyən gənc şah da artıq iqtidara tam sahib olmaq istəyirdi. Şahın göstərişi ilə Herat valisi Hüseyn xan Şamlunun dəstəsi Qəzvində Çohə Sultanının evinə hücum etdi. Çohə Sultan qaça bilsə də 1531-ci ildə öldürüldü. Bunu eşidən Təkəlü bəyləri Qəzvinə gəlib,

ustacluları məğlub edib Hüseyn xan Şamlunu qovdular. Onlar Çohə Sultanın oğlu Şahqubadı vəkil etdilər. Şahın göstərişi ilə Ustaclu, Zülqədər, Afşar və Rumlular birləşib Təkəlülərlə savaşdılar. Təkəlü qorçubaşı Pərvanə bəy, möhürdar İbrahim Xəlifə öldürüldü. Qırğından yaxa qurtaran təkəlülər Bağdada, Şərəfəddin oğlunun yanına qaçdılar. Ancaq ***Şərəfəddin oğlu*** vaxtilə Çohə Sultanının onun vali olması üçün etdiyi yaxşılıqları unutdu. O, Çohə Sultanının oğlunu öldürtdü.

Əmir əl-ümərə Ülamə Sultan Təkəlü oymağına qarşı edilən bu qanlı hərəkətin əvəzini çıxmaq və həm də vəkil olmaq üçün ayağa qalxdı. 1531-1532-ci illərdə Təhmasibin Xorasana getməsindən istifadə edən Ülamə Sultan ətrafına xeyli qüvvə topladı. Amma üzərinə göndərilən qoşundan çəkinib Vana, oradan da İstanbula getdi. Hüseyn xan Şamlu vəkil təyin olundu. Ancaq bir qədər keçmədi ki, şahı zəhərləmək istədiyinə görə aradan götürüldü. Vəkil olmaq üstündə qızılbaş əmirləri arasındakı bu çəkişmələr dövləti xeyli sarsıtdı.

**SƏFƏVİ-OSMANLI SAVAŞLARI.** Hindistan və Çini Avropa ölkələri ilə bağlayan qədim karvan yolları Aralıq və Qara dənizlərə çatır, Azərbaycandan keçərək, Dərbənd keçidi ilə Rusiyaya doğru uzanırdı. XV yüzilin sonunda Avropadan Hindistina okean yolu açıldı. Böyük coğrafi kəşflərdən sonra İspaniya, Portuqaliya, Hollandiya, İngiltərə Hind okeanı sahillərində əlverişli satış bazarları və xammalla dolu müstəmləkələr axtarışına başladılar. Avropalıların Hindistan və Ərəbistan sahillərində müstəmləkə bayraqlarını sancmaları Türkiyə və Səfəvi imperatorluqlarını narahat etməyə bilməzdi. Dünya ölkələri arasındakı ticarət əlaqələrinin okean yollarına keçməsi hər iki imperatorluğun iqtisadiyyatını sarsıtdı. Qərbdə böyük uğurları olan Türkiyəni şərqdə Ərəb İraqı daha çox maraqlandırırdı. Buranı tutmaqla İran körfəzinə yaxınlaşıb Avropadan gələn təhlükənin qarşısını almaq və həm də Hind okeanına çıxmaq istəyirdi. Buna görə ***İraqda Səfəvilərə qarşı baş verən çıxışlarda Osmanlı sarayının əli vardı.*** 1528-ci ildə Luristanda Zülfüqar xan Səfəvilərə qarşı çıxdı. O, Bağdada hücum edib Ərəb İraqını tutdu. Döyüşdə İraq hakimi İbrahim xan mosullu öldürüldü. Ərəb İraqını tutan Zülfuqar xan Qaramanlı Türkiyəyə tabe olduğunu bildirdi.

Şah I Təhmasib növbəti il Bağdadı çox çətinliklə tutub bura Məhəmməd xan Təkəlünü bəylərbəyi təyin etdi.

1531-32-ci ildə Diyarbəkir hakimi ***Fil paşa*** Bidlisə yürüş etdi. Bidlisdən qovulan yerli hakim ***Şərəf xan*** Səfəvilərdən kömək istədi. Təhmasib elçisi ***Həbil bəyi*** sultan sarayına göndərib ***Ülamə bəyi*** təslim etməsini xahiş etdi. Şahın təklifini rədd edən sultan, öz növbəsində şahdan Şərəf xanı istədi. Şah, vəkil Hüseyn xan Şahlunun başçılığı ilə yeni elçilərini



sultan sarayına göndərdi. Amma sultan barışığa gəlmədi. Belə olduqda şah yürüş edib Bidlisi geri aldı. 1533-cü ildə şah Xorasanda Özbək hökmdarı ***Ubeydulla xanla*** savaşan zaman yenidən Bidlisi Ülamə bəy tutdu və Şərəf xanı öldürdü.

Ülamə bəy Təkəlü, Sultan ***I Süleyman Qanunini*** (1520-1566) Səfəvi imperatorluğuna qarşı müharibəyə yönəldə bildi. Bu vaxt şah Təhmasib özbəklərlə müharibə aparırdı. Osmanlı baş vəziri ***İbrahim paşanın*** 90 minlik ordusu, öndə Ülamə bəyin 10 minlik qoşunu olmaqla 1534-cü ildə Azərbaycana yürüş etdi.

Ülamə bəy ilə bağlı olan bir çox Səfəvi əmiri osmanlıların tərəfinə keçdi. Təbriz tutulduqdan sonra İbrahim paşa Ülamə bəyi Ərdəbilə, Xosrov paşanı isə Əlincə qalasına göndərdi. Təbriz daxil olmaqla tutulan Azərbaycan torpaqlarının bəylərbəyi Ülamə bəy Təkəli oldu. Həmin ilin iyul ayında bir böyük qoşunla Sultan I Süleyman Qanuni özü də Təbrizə gəldi. Bu xəbəri eşidən Şah Təhmasib qardaşı Sam Mirzə, Ağzıvaroğlu Şamlunu Heratda qoyub özü geri qayıtdı. O qorçubaşı Məhəmməd Xəlifə və Məntəşa Sultan Ustaclunu özündən əvvəl yola salmışdı. Sultan Süleyman I Təhmasibə yazdığı məktubda onu qorxaqlığı atıb savaşa girməyə çağırdı. Ancaq I Təhmasib bildirdi ki, bir qızılbaş döyüşçüsünə qarşı on osmanlı döyüşçüsü durduğu halda savaşa girməyi yersiz sayırıq.

Sultandan gələn Nameyi-Hümayun çox ağır məzmunda idi. «Müharibə və Cəng üçün tərtib olunmuş» bu məktub I Təhmasibə «şah» deyilmədən yazılmışdı: «Şahlıq namı sana haram olub, həramilər zümrəsindən olursun». Bundan 20 il sonrakı (1554) məktubda da Sultan Qanuni onu şah adlandırmadan yazırdı: «İgit Təhmasib, Tanrı səni doğru yola gətirsin». İlk sözdə artıq bir həqarət bildirilmədə idi. Çünki 20 il qabaq sultan onu təkidlə savaşa çağırsa da, Səfəvi şahı döyüşə girməkdən yayınmışdı. Ancaq buna baxmayaraq Təhmasib öz cavab məktubunda rəqibini «Sultanların ən böyüyü, qoca imperator və kayserlərin ehtişamlısı», «Sultan Süleyman şah» adlandırırdı.

Münasibətlərin kəskinləşməsi çox ciddi siyasi səbəblərə bağlı idi. *XVI yüzil boyu Avropaya meydan oxuyan Osmanlı dövləti üçün qızılbaş hərəkatı ən böyük təhlükə olaraq qalmaqda idi.* Venesiya Respublikası elçiləri ***Domeniko Trevizano, Antonio Eriççə, Marino Kavalle, Markantonio Barbaro*** bir-birinin ardınca bu təhlükənin ara vermədiyini yazırdılar: «Sultanın (I Süleymanın – *red.*) bütün məmləkəti Sofii (Səfəvi – *red.*) vilayətləri hüdudlarından Skutariyə, yeni Konstantinopola qədər o dinə (qızılbaşlığa – *red.*) açıqcasına rəğbətlə yanaşır, ancaq qorxudan susmaqdadır; onlar çox qorxu çəkirlər ki, bu yerlərdə sultan hər hansı bir uğursuzluğa düşərsə, əhali hamılıqla üsyana qalxıb Sofinin ardınca gedəcəkdir. Bu səbəbdən (Səfəvilər ilə) yeni savaşdan çox çəkinirlər...»

Osmanlı ordusu Əcəm İraqı torpaqlarına daxil oldu. Qızılbaşlar onların keçəcəyi yollarda otlaqları məhv etmiş və əhalini köçürmüşdülər. Osmanlı ordusu çox çətinliklə irəlləyirdi. Şah Təhmasib Əhbərə çəkildi. Havalar getdikcə soyuyurdu. Osmanlı ordusu qışlamaq üçün Bağdada yönəldi. Bağdad valisi Şərəfəddin oğlu Məhəmməd xan Təkəlü şahın göstərişi ilə 1534-cü ildə Bəsrəyə çəkildi.

Bağdadda qışlayan Sultan I Süleyman 1535-ci ilin yazında buradan Təbrizə yürüş etdi. Şah, Təbriz və onun ətrafındakı əhalini köçürüb bütün ərzağı, heyvanları başqa yerlərə daşıtdırdı. Özü isə Sultaniyyəyə çəkildi. İbrahim Paşa Təbrizi tutdu. Şah iki dəfə barışıq istədi, ancaq rədd cavabı aldı. Dərcəzeyndə osmanlılar Əmir Sultan Rumlu və Çaraq Sultan Ustaclunun qızılbaş ordusu ilə qarşılaşdılar. Bu savaşda xeyli itki verib geri çəkildilər. Bidlisə qədər osmanlıları izləyən sərdar Bəhram Mirzə (I Təhmasibin qardaşı) Van və Ərçişi də tutdu. 1534-1535-ci il döyüşləri hər iki tərəfdən saysız insan itkisi hesabına başa çatdı.

## ŞİRVANDA ƏLQAS MİRZƏ VƏ BURHAN MİRZƏNİN QİYAMLARI.

Yeni savaşın gedişində Şirvan bəylərbəyi Əlqas Mirzə (Xətainin kiçik oğlu) Şirvanda müstəqil dövlət qurmaq istəyirdi. Hələ 1546-cı ildə Şirvandan Qəzvinə qaçıb gəlmiş Oruc ağa Rumlu bu barədə şaha xəbər vermişdi. Şah 1546-cı ilin yazında ***Urgənc oğlunu*** danışıq üçün Əlqas Mirzənin yanına göndərdi. Ancaq o tabe olmayacağını bildirdi. Şahın qoşunla gəldiyini öyrəndikdə anası ***Xanbəyi xanımı*** və böyük oğlu ***Sultan Əhmədi*** bağışlanılması üçün onun yanına göndərdi. Xanbəyi xanımın xahişi ilə şah onu bağışladı. Əlqas Mirzə Cavadda şahlığa sədaqət andı içdi. Hətta şahın Gürcüstan və Çərkəzistana 1547-ci il yürüşlərində iştirak etdi.

1547-ci ildə Şah Təhmasib geri dönən zaman Əlqas Mirzə yenə də öz müstəqilliyini elan edib adına xütbə oxutdurdu və sikkə zərb etdirdi. Bu vaxt Yevlaxda olan şah, İbrahim xan Zülqədər və Hüseyn Sultan Rumlunu 5 min qüvvə ilə Şamaxıya göndərdi. Əlqas Mirzənn ailəsi sığındığı Gülüstan qalası mühasirə edildi. Döyüşlərdə ordusunu itirən Əlqas Mirzə Dağıstandan Azova, oradan Kəfəyə, Kəfədən isə İstanbula getdi. Şirvandakı qalalar tutulub onun bütün tərəfdarları öldürüldü. 1547-ci ildə Şah, oğlu İsmayıl Mirzəni Şirvana bəylərbəyi qoyub Təbrizə qayıtdı.

Şirvan əmirlərinin də arasında mərkəzdənqaçma meylində olanlar vardı. Hələ 1544-cü ildən Qaytaqdan Şirvana gələn Bürhan Mirzə adlı birisi Şirvanı Səfəvi idarəsindən qoparmağa çalışırdı. Əlqas Mirzə onu bir neçə dəfə məğlub etmişdi. Bəzi qaynaqlarda Bürhan Mirzə, Şirvanşah Xəlilüllahın oğlu adlandırılır. 1547-ci ildə o, yenidən Qaytaqdan Şirvana gəldi, bir çox yerli əmirlər onun başına toplandılar. O, Gülxana düşərgəsini tutub dağıtsa da, İsmayıl Mirzə tərəfindən məğlub edildi. 1549-cu ildə Bürhan Mirzə Şirvanda qiyam qaldırdı. Buğurd dərəsindəki döyüşdə Şirvanın yeni bəylərbəyi Abdulla xan Ustaclu onu əzdi, Bürhan Mirzə öldürüldü. Qiyamçıların Şirvan taxtına irəli sürdükləri başqa namizədlər də aradan götürüldü.



**SULTAN I SÜLEYMAN ORDUSUNUN YENİ YÜRÜŞLƏRİ.** I Təhmasibin barış təkliflərini Süleyman Qanuni qəbul etməmişdi. Sultanın ordusu 1548-ci ilin yazında yenə Səfəvi imperatorluğu ərazisinə yürüş etdi. Əvvəlki döyüşlərdə olduğu kimi, I Təhmasib yenə qaçaq döyüşü üsuluna əl atdı. O, lazımi qoşun qüvvəsinə malik olmadığı üçün osmanlılara qarşı öz süvarisini açıq çöllərdə döyüşə çıxarmadı. Yollar boyu yenə də məhsul tələf edilir, su quyuları doldurulur, otlaqlar yandırılır, əhali köçürülür, atlı qoşun isə tez-tez yerini dəyşirdi Belə bir taktiki davranış ağır osmanlı ordusunu böyük çətinliklər qarşısında qoyurdu. Təhmasib bununla, itki verən və səbri tükənməkdə olan sultanı geri dönməyə məcbur etmək istəyirdi. Sultan Süleymanın yanında olan Əlqas Mirzənin kömәyinə qızılbaş əmirlərindən heç biri gəlmədi, əksinə onlar şahın qulluğuna getdilər. Sultan Təbrizi tutsa da, burada dörd gündən artıq qala bilmədi. Geriyə qayıdarkən Vanı ələ keçirdi. Vanın tutulması Təhmasibə çox ağır təsir etdi. O, oğlu İsmayıl Mirzəni, Kars qalasının təmiri ilə məşğul olan osmanlılar üzərinə göndərdi. Təhmasib özü isə Ərciş və Əhləti tutdu. İsmayıl Mirzə Karsı tutduqdan sonra Ərcişdə atası ilə birləşdi.

Şah I Təhmasib 1551-1554-cü illərdə Ərciş, Adılcihaz, Əhlət qalalarını alaraq Muşa qədər yürüdü. Oğlu İsmayıl Mirzə isə Ərzurum bəylərbəyi İsgəndər paşanı məğlub etdi, ardınca Pasin ovalığındakı yerləri yağmaladı. Bu geniş talan və təxribatlarla Səfəvi hökmdarı Anadolunun yaxın bölgələrini oturulması və keçilməsi mümkün olmayan bir hala gətirməyə çalışırdı. Savaşın gedişi onun bu düşüncəsinə haqq qazandırırdı. Şah Təhmasib bununla Osmanlı hökmdarını barışığa gətirmək istəyirdi. O, dəfələrlə Sultana barışıq təklif etmişdi. Bu barışın Şah I Təhmasib üçün həm maddi, həm də mənəvi əhəmiyyəti vardı. O, Səfəvi dövlətinin varlığını təhlükədən qurtarmaq istəyirdi.

Ancaq Şah I Təhmasibin sülh çağırışlarını qəbul etməyən Qanuni, 1554-cü ildə üçüncü dəfə Şərq səfərinə çıxıb İrəvan, Qarabağ, Naxçıvan bölgələrinə zərbə endirdi. Ancaq Təhmasibin qüvvələri otlaqları, tarlaları məhv edib əhalini köçürmüşdü. Naxçıvanda şahın süvariləri gözlənilməz həmlələrlə osmanlıların üzərinə yürüşlər edirdilər. Ciddi çətinliklərlə qarşılaşan osmanlı ordusu Ərzuruma dönməli oldu. Bu ordunun ardınca qızılbaşlar yenidən Anadoluya girdilər. Yürüşlərdən yorulmuş Osmanlı ordusu içərisində narazılıqlar yaranmışdı. Sultan ordudakı bu narazılıqları və Azərbaycana son yürüşdəki uğursuzluqlarla hesablaşmağa məcbur oldu.

Sonuncu yürüş zamanı Qanuni, Şirvanşahlar nəslindən olan ***Qasımı*** yeniçərilər və topçularla Kəfədən Dağıstana yola salmışdı. Sultanın göstərişi ilə Kumuq və Qaytaq qoşunları da onunla birləşdi. Qasımın başçılıq etdiyi qüvvə Dərbənddən Şirvana girdi. Şirvanın yerli əmirlərinin çoxu Abdulla xan Ustaclunun xidmətindən çıxıb Qasımla birləşdilər. Abdulla xan bu yürüşün qarşısını ala bilməyib Şamaxıya çəkildi. Abdulla xan onun ardınca Buğuru keçdi və Gülüstana yaxınlaşdı. Gülüstan döyüşündə Abdulla xan Ustaclu 2 min qızılbaşla qələbə çaldı. Qasımın dəstəsindən sağ qalanlar Tabasarana qaçdılar. Qasımın isə nə öldüyü, nə də sağ qaldığı məlum olmadı. Bu qələbə Səfəvilərin Şirvanda hakimiyyətini möhkəmləndirdi, onlara qarşı «ikinci cəbhə» açmaq planı baş tutmadı.

Sultan Süleyman artıq barışığa razı idi. Onun göstərişləri ilə baş vəzir ***Məhəmməd paşa*** Səfəvilərə məktub yazıb, danışıq üçün elçi göndərilməsini xahiş etdi. ***Fərruxzad bəy Qaradağlının*** başçılığı ilə danışıq aparmaq üçün Türkiyəyə elçilik göndərildi.

Amasyada 1555-ci ildə iki ölkə arasında barış andına imza atıldı. Barışa görə Şəhrizor, Van ətrafı, İmereti, Menqreli, Quriya osmanlılara qaldı. Mesxiya (Akıska), Kartli və Kaxeti Səfəvi hakimiyyəti altına düşdü. *Bu barış I Təhmasibin böyük uğuru idi.* Səfəvi dövlətinin varlığını qorumaqla şahın bacarıqlı dövlət başçısı olduğunu göstərdi. Bu vaxt Sultan Süleymanın oğlu Bayezidin Şah I Təhmasibə sığınması iki ölkə arasında yeni çəkişmə yarada bilərdi. 1562-ci ildə Van hakimi Xosrov paşanın başçılığı ilə şah sarayına elçilər gəldi. Əsas məqsədləri Bayezidi geri almaq idi. Qanuninin öz oğlunu Təhmasibdən geri alması başlana biləcək yeni çəkişməni aradan qaldırdı.

Sultan Süleymanın ölümündən sonra iki ölkə arasında yaxşı münasibətlər davam etdi. Şah I Təhmasib, ***II Səlim*** və ***III Muradın*** cüluslarını təbrik etmək üçün qiymətli hədiyyələrlə Ədirnə və İstanbula iki elçilik göndərmişdi.

**SƏFƏVİLƏRLƏ ŞEYBANİLƏR ARASINDA ÇƏKİŞMƏLƏR.** Şeybanilərlə Səfəvilər arasındakı çəkişmələr daha çox Xorasan üstündə idi. XVI yüzilin 30-cu illərində Bəlx Şeybanilərin, Xorasanın qalan üç vilayəti – Herat, Məşhəd və Mərv isə Səfəvilərin əlində idi. Şeybani xanın oğlu Übeydulla xan Xorasanı tutmaq üçün bir-birinin ardınca bura yürüşlər edirdi. O, 1526-cı ildə Tusu, sonrakı il Astrabadı tutdu. 1527-1528-ci illərdə isə Heratı da mühasirəyə aldı. Mühasirənin yeddinci ayı Şah I Təhmasibin yaxınlaşdığını eşidib geri çəkildi. Übeydulla xanla ən böyük döyüş Cam şəhəri yaxınlığında oldu. Döyüş qızılbaşların qələbəsi ilə qurtardı. I Təhmasibin dövlətə qarşı çıxışlarla bağlı geriyə qayıtmasından faydalanan Übeydulla xan, Məşhədi, sonra isə Heratı tutdu. 1529-30-cu ildə I Təhmasib Xorasana döndü. Übeydulla xan Heratdan qovuldu. Şah, qardaşı Bəhram Mirzəni Herata hakim qoydu. 1531-1532-ci illərdə Xorasanda davam edən döyüşlər də Übeydulla xana uğur gətirmədi. Sultan I Süleymanın Azərbaycana yürüşləri Übeydulla xanın əl-qolunu açdı. İki cəbhədə vuruşmaq Səfəvilər üçün ağır idi. Buna baxmayaraq 1535-1536-cı illərdə Übeydulla xan Heratı yenidən tutsa da, burada qala bilmədi. I Təhmasibin Xorasana dördüncü gəlişi zamanı özbəklərə ağır zərbə vuruldu. Übeydulla xan Buxaraya çəkildi. O, 1539-1540-cı illərdə Xorasana sonuncu yürüşdə yolda xəstələnib öldü. XVI yüzilin sonuna qədər özbəklər arabir Xorasana uğursuz yürüşlər etmişdilər. Bu yürüşlər Səfəvi imperatorluğu üçün qorxulu deyildi. Amma Səfəviləri Xorasanda xeyli qüvvə saxlamağa vadar edirdi.



**SƏFƏVİ İMPERATORLUĞU VƏ MOĞOL DÖVLƏTİ.** Səfəvi imperatorluğu cənub-şərqdən Böyük Moğol dövləti ilə həmsərhəd idi. İspaniya, Portuqaliya, Hollandiya, İngiltərənin Hind okeanı sahillərində müstəmləkəçilik addımları və Übeydulla xanın Xorasanla yanaşı Əfqanıstan yürüşləri Səfəvilərlə moğolları bir-birinə yaxınlaşdırırdı. Bu iki dövlətin mənafe birliyi və xarici siyasətlərindəki oxşarlıqlara baxmayaraq, onların arasında Qəndəhar məsələsi var idi. Bu şəhər Səfəvi dövlətindən Hindistana açılan qapı olmaqla, hər iki ölkə üçün hərbi-strateji baxımdan çox dəyərli idi. Hər iki dövlətdən bir-birinə uzanan karvan yolu Qəndəhardan keçirdi.

1537-ci ildə I Təhmasib Qəndəhara yaxınlaşdı. Qalanın kutvalı Qəndəharın qapılarını döyüşsüz şahın üzünə açdı. Şah, ***Budaq xan Qacarı*** Qəndəhara hakim qoyub özü Herata döndü. Növbəti il ***Baburlu Hümayun*** şahın qardaşı Kamran Mirzə Qəndəhardan Budaq xan Qacarı sıxışdırıb çıxardı.

I Təhmasib Hindistana türk Baburlu imperatorluğunun vəziyyətini qayğı ilə izləyirdi. Bu arada Əfqan hakimi Şər xanla savaşda yenidən Dehli hökmdarı Hümayun ailəsi, uşaqları, qulluqçuları ilə Səfəvilərə sığınmışdı. 1544-cü ildə ***Sistan bəylərbəyi Əhməd Sultan Şamlu*** onu şaha layiq hörmətlə qarşılayıb Herata (Xorasana) yola saldı. Şah I Təhmasib bu zaman İraqda idi. Xorasan bəylərbəyi Məhəmməd xan, Hümayun şahı İraqa göndərdi. Sultaniyyə yaxınlığındakı yaylada qiymətli hədiyyələrlə Bəhram Mirzə, Sam Mirzə, qorçubaşı Sevindik bəy Hümayunla görüşüb onu İraqa, şahın düşərgəsinə apardılar. Təhmasib onu hökmdara layiq ehtiramla qarşıladı, hakimiyyətini geri qaytarmaq üçün ona, Budaq xan Qacar və Şahverdi bəy Ustaclunun başçılığı ilə 12 minlik qorçu verdi.

Hümayun Hindistana döndü. Səfəvi qorçuları Şər xanın qüvvəsini dağıtdılar. Hümayun, Təhmasibin köməyi ilə yenidən öz taxtına oturdu. Bu köməyə görə o, Qəndəhardan əl çəkdi, hər il Səfəvilərə 40 min tümən göndərəcəyinə söz verdi.

I Təhmasibin Baburlulara etdiyi yardım obyektiv olaraq Yaxın və Orta Şərqdəki hər üç Türk imperatorluğunun varlığının qorunması üçün gərəkli idi. Çünki Qərbin müstəmləkə dövlətlərinin ayaqlandıqları zaman artıq yetişmiş idi.

**XVI YÜZİLİN ORTALARINDA AZƏRBAYCAN-AVROPA MÜNASİBƏTLƏRİ.** Böyük coğrafi kəşflərlə Hindistana dəniz yollarının açılması Azərbaycandan keçib Qara dəniz və Aralıq dənizinə gedən karvan yollarının əhəmiyyətini azaltdı. XVI yüzilin başlanğıcında okeanlardan keçib Ərəb sahilləri və Hindistana çıxan ticarət yollarına Portuqaliya müstəmləkəçiləri nəzarət edirdilər. Onlar İran körfəzinə də soxuldular. Körfəzdəki hərbi-strateji və iqtisadi əhəmiyyətli məntəqələri, o cümlədən Hörmüzü (1515) ələ keçirdilər.

Aralıq dənizi və Qara dənizdən keçib Avropa ölkələrinə yan alan qədim karvan yolları Osmanlı dövlətinin nəzarətində idi. Bu yollar artıq Səfəvi tacirlərinin üzünə bağlanmışdı. Hörmüz tutulduqdan sonra isə Səfəvi tacir və elçilərinin Hind okekanına çıxmaq imkanlarına son qoyulmuşdu.

Şərq ölkələrinə Avropadan əvvəlcə tacirlər, sonra elçilər və onların ardınca isə bir qayda olaraq, toplu-tüfəngli müstəmləkəçi əsgəri qüvvələr gəlirdi. Portuqaliyadan başlamış Fransaya qədər bütün Avropa dövlətlərindən Şərqə gələn tacirlər, elçilər, missionerlər öz dövlətlərinin tapşırığı üzrə Şərq dövlətlərinin arasını vurmağa çalışırdılar.

Türkiyə ilə düşmənçiliyi olan Portuqaliya Səfəvilərə daha çox yaxınlıq göstərirdi. Aralarında narazılıq olan bu iki Şərq dövlətini savaşdırıb onların qüvvəsini tükəndirməklə Fərat və Dəclə boyunca mühüm iqtisadi, hərbi-strateji əhəmiyyəti olan yerləri tutmaq Portuqaliyanın istəyi olmuşdur. XVI yüzilin 30-50-ci illərində Osmanlı-Səfəvi müharibələri zamanı Portuqaliya Səfəvilərə top və tüfəng verirdi.

Portuqaliya kralı ***III-Juanın*** (1502-1557) göndərdiyi elçilər 1551-ci ildə Qəzvində çox yaxşı qarşılandılar. Amma 1574-1575-ci ildə gələn ikinci Portuqaliya elçiliyini şah qəbul etmədi. Çünki portuqallar İran körfəzindəki məntəqələrdə müsəlmanları sıxışdırırdılar. Həm də onlarla danışıqlar Türkiyə ilə Amasiya müqaviləsini poza bilərdi.

XVI yüzilin 60-cı illərində Azərbaycana İngiltərədən altı ekspedisiya gəlmişdi. Kraliça ***Yelizaveta Tüdoru*** (1558-1603) Azərbaycanın xam ipəyi, zər-zibası ilə yanaşı daha çox buradan Hindistana gedən karvan yolları maraqlandırırdı. İngiltərə inkişaf etməkdə olan Qərb dövləti olsa da, dəniz yollarına nəzarət edən qüdrətli Portuqaliya ilə qarşılaşmaqdan çəkinirdi. Elə buna görə 1553-cü ildə yaradılmış ingilis «Moskva şirkəti» Xəzər dənizi sahillərindən karvan yolları ilə Hindistana çıxmaq fikrində idi. «Moskva şirkəti»nin təmsilçisi ***Entoni Cenkinson*** 1561-1563-cü illərdə Volqa-Xəzər yolu ilə Azərbaycana gəlmiş, Şamaxı bəylərbəyi Abdulla xan Ustaclu



və Qəzvində I Təhmasiblə danışıqlar aparmışdı. Kraliça Yelizavetanın I Təhmasibə göndərdiyi məktubdan aydın olur ki, bu danışıqlar İngiltərə və Azərbaycan arasında ticarət əlaqəsi yaratmaq ətrafında getmişdir. I Təhmasib, Aralıq dənizində Türkiyəyə qarşı duran İngiltərə ilə Amasiya barışığından sonra bağlaşmaya girməkdən çəkindi. Qəzvin səfəri uğursuz olan Entoni Cenkinson Şirvana qayıtdı, burada 1563-cü ildə Abdulla xanla ticarət müqaviləsi bağladı. İngiltərə ilə Azərbaycan arasında iqtisadi əlaqələrin bünövrəsi qoyuldu.

Avropa monarxları Şah I Təhmasibi Türkiyəyə qarşı savaşa çəkməyə çalışırdılar. 1571-ci ildə Venesiya elçisi ***Vinçentso Alessandrini*** I Təhmasibə Türkiyəyə qarşı müqavilə bağlamağı təklif etdi. Növbəti il papa ***V Piyus*** Təhmasibə yazdığı məktubda xristian müttəfiqləri ilə birgə Türkiyəyə qarşı savaşa başlamaq üçün əlverişli vaxtın çatdığını bildirirdi. Papa ***XIII Qriqori*** (1527-1585) şaha top, tüfəng, pul göndərəcəyini də vəd edirdi. Səfəvilərə müttəfiq gözü ilə baxan xristian dövlətlərinin başçıları Türkiyə ilə savaşmaqdan qorxurdular. Onlar müxtəlif hiylələr, vədlərlə Səfəvilərin əli ilə Türkiyəyə zərbə vurmaq istəyirdilər.

1578-ci ildə Türkiyə-Səfəvi savaşı zamanı Məhəmməd Xudabəndə Portuqaliya və Venetsiyaya elçi göndərib xristian dövlətlərindən kömək istədi. Lakin nə Portuqaliya, nə Venesiya, nə də İspaniya Türkiyəyə qarşı savaşa başlamadılar.

İspaniya kralı 1582-ci ildə Simonu, 1585-1586-cı ildə isə Jan Batist Vekyettini Səfəvi sarayına yola salmışdı. Onlar Türkiyəyə qarşı Səfəvilərlə müqavilə bağlamalı idilər. Ancaq bu dövlətlər Türkiyə ilə yanaşı Səfəvi imperatorluğunun da qüvvədən düşməsini istəyirdilər.

XVI yüzilin ortalarında Rusiya, Kazan və Həştərxanı tutduqdan sonra Volqa ilə üzüaşağı Xəzərə doğru irəliləyirdi. Rusiya da Volqa-Xəzər ticarət yolunu, Xəzərin şimal sahillərini ələ keçirib, Şərq bazarına çıxmaq istəyirdi. Bu zaman Hind okeanı, Aralıq dənizi, Qara dəniz hövzələrinə çıxa bilməyən Səfəvi imperatorluğu da Volqa-Xəzər yolu vasitəsi ilə Avropa ilə diplomatik və ticarət əlaqəsi saxlayırdı. 1561-ci ildə Şah I Təhmasib, 1563-cü ildə isə Şirvan bəylərbəyi Abdulla xan bu yolda Moskvaya elçilər göndərmişdi. Səfəvilərlə qarşılıqlı əlaqədən Rusiya da Türkiyəyə qarşı istifadə etməyə, Xəzərin şimalında möhkəmlənməyə çalışırdı. Rusiya çarı ***IV İvan*** (1547-1584) 1569-cu ildə Aleksey Xoznikovun başçılığı altında Qəzvinə elçilər göndərdi. Onlar Şah Təhmasibə 100 top və 500 tüfəng gətirmişdilər. Rusiya bir tərəfdən Səfəvilərlə əlaqələrini gücləndirir, digər tərəfdən isə Xəzərə doğru irəliləyərək yeni torpaqlar işğal edirdi. Bu irəliləyiş gec-tez Səfəvi imperatorluğu ilə qarşılaşmalı idi. Türkiyənin 1578-ci ildə Qafqaza daxil olması, əslində Rusiyanın Xəzərə doğru yürüşlərinin qarşısını almaq məqsədini güdürdü.

**II İSMAYIL.** I Təhmasib 15 may 1576-cı ildə vəfat etdi. Hakimiyyət uğrunda xələfləri və əmirləri arasında çəkişmə başlandı. Hələ 1574-cü ildə şah ağır xəstə yatdığı zaman hakimiyyət məsələsi əmirlər arasında çox ciddi mübahisəyə səbəb olmuşdu. Uctaclu əmirlərinin irəli çıxanlarından ***Hüseyn bəy*** başda olmaqla ***Murad xan, Piri bəy***, əmir-axur başı ***Məhəmməd bəy, Allahqulu Sultan***, Təhmasibin oğlu ***Heydər Mirzəni*** istəyirdilər. Heydər Mirzənin qardaşı ***Mustafa Mirzə***, əmisi Bəhram Mirzənin oğlu ***İbrahim Mirzə*** də Ustacluların tərəfində idilər. Heydər Mirzənin ana qohumlarından İslamı qəbul etmiş güclü əmirləri də onu müdafiə edirdilər.

Rumlu, Afşar, Təkəlü əmirlərindən xəlifət əl-xüləfa ***Hüseynqulu xan Rumlu, Aslan Sultan Afşar, Çabuq Türkman*** və şahın qızı ***Pərixan xanım*** və onun dayısı Çərkəz Şamxal isə İsmayıl Mirzənin tərəfində idilər. İsmayıl Mirzənin anası İsa bəy Türkmanın qızı idi. Türkmanlardan da onu istəyən az deyildi. Şah tezliklə sağaldı və oğlu Heydər Mirzəni yanından uzaqlaşdırmadı. Çoxdan bəri həbsə atdığı oğlu İsmayıl Mirzəni isə azad etmədi. Vəliəhdin kim olacağı haqda açıq bir söz söyləmədi. Şah ölən kimi iki tərəf arasında çəkişmələr yenidən qızışdı. İsmayıl Mirzənin tərəfində duranlar qələbə çaldılar. On doqquz il altı ay iyirmi bir gün ***Qəhqəhə qalasında*** yatan İsmayıl Mirzə azad edildi. İsmayıl Mirzə qorxmaz adam idi, qızılbaşlar tərəfindən sevilirdi. Şahın bir çox yaxın adamları ondan ehtiyat edirdilər. Elə buna görə də onu yalandan şaha qarşı qəsddə günahlandırıb həbs etdirmişdilər.

Qabaqdakı Qəhqəhə qalasından çıxan İsmayıl Mirzə Qəzvinə gəldi. O, 24 avqust 1576-cı ildə Şah II İsmayıl adı ilə hakimiyyətə keçdi. İlk günlər Heydər Mirzənin tərəfdarlarına sevgi ilə yanaşdı. Ancaq hakimiyyəti ona qarşı dura biləcək qüvvələrin nazı ilə oynamaqla əldə saxlamağın mümkün olmamasını anlayırdı. Buna görə sülalə üzvlərinən çoxunu öldürtdü. Dövlətin idarə olunmasında ona mane olan əyanları aradan götürməyə başladı. Hətta yaxınlarından Rumlu xəlifə əl-xüləfa Hüseynqulu xanı da yox etdi. Ancaq ən çox Ustaclu bəylərindən öldürüldü. Onların qırğını yalnız şahın qardaşı Mustafa Mirzə ödürüldükdən sonra dayandırıldı. Ustaclularla bağlı gələcək çəkişmələrin qarşısını almaq üçün ***Mürşüdqulu Sultan Ustaclu*** Qəzvinə, ***İbrahim Sultan Ustaclu*** Sistana, ***Toxmaq xan Ustaclu*** Çuxur Sə'də bəylərbəyi təyin olundular. II İsmayıl dövlətin yerli dayaqlarının möhkəmləndirilməsinə ciddi fikir verirdi. Azərbaycan xaricindəki vilayətlərdə yerli hakimiyyətin möhkəmləndirilməsi onun siyasətinin baş xətti sayıla bilər. Təkəlülərin çoxu Reydə yerləşdirilirdi. Bura ***Museyib xan Təkəlü*** bəylərbəyi təyin olundu. Çoxlu Qum və Savə tərəflərdə yaşayan Türkmən tayfasının ağsaqqalı ***Əmir xan Mosulluya*** əmir əl-ümərə rütbəsi verildi. ***Murtuzaqulu xan Türkman*** isə Məşhədə vali göndərildi.



II İsmayıl Səfəvi dövlətini möhkəmləndirməklə yanaşı Osmanlılarla münasibətləri yaxşılaşdırmaq istəyirdi. Onun yarımçıq qalan, yeni həyata keçirə bilmədiyi dini islahatlar bu məqsədə qulluq edirdi. O şiəliyi mötədil bir hala gətirməklə sünniliyin sıxışdırılmasına qarşı idi. Özü şafeiliyə meyilli olub hər iki məzhəbə qulluq edənlərin bir yerdə bərabər hüquqlarla yaşamasını istəyirdi. Həzrəti Ayişənin lənətlənməsinin əleyhinə idi. Düşüncələrini dini məclisdə bəzən açıq bəzən də qapalı şəkildə bildirirdi. Bu məclislərin birində xəlifət əl-xüləfa qoyduğu Bulqar Xəlifədən Həzrəti Ayişənin lənətlənməsi ilə bağlı düşündüyünü soruşmuş, o da «kuft etmək haramdır, amma lənət etmək – işi Allaha həvalə etmək deməkdir...» cavabını vermişdi. «Sən saf bir türksən, sənə bunu kim öyrətdi?» – deyə soruşan şaha: «Mərhum Şah Təhmasib zamanında üləmadan duydum» demişdi.

Sonuncu sözlərə görə şah onu bağışlamadı. Tutduğu vəzifədən azad edib, yerinə Dədə Xəlifəni təyin etdi. II Şah İsmayıl Həzrəti Ayişənin və Həzrəti Əliyə qədər hakimiyyətdə olmuş üç xəlifənin pislənməsini qadağan etdi. O, məscidlərin divar və qapılarına yazılmış aşiqanə şeirləri sildirdi, ifrat şiə alimləri sarayından uzaqlaşdırdı. İsmayılın bu hərəkətləri narazılıq doğurdu, onun sünniliyə meyli olduğunu düşünənlər oldu. Amma ağıllı din xadimləri və əmirlər bundan narahat olmadılar. Onlar başa düşürdülər ki, II İsmayıl iki məzhəb tərəfdarlarını bir-birinə yaxınlaşdırmaq və aralarındakı ixtilaflara son qoymaq istəyir. Bu vaxt Türkman və Təkəlü əmirləri şahın qardaşı Hüseyn Mirzəni hakimiyyətə gətirmək istəyirdilər. Ancaq Hüseyn Mirzəni şahla yaxınlaşmış Ustaclular aradan götürdülər. Çox keçmədən, 1577-ci il noyabrın 25-də Şah II İsmayıl dostu halvaçı oğlu Həsən bəyin evində öldürüldü.

**MƏHƏMMƏD XUDABƏNDƏ. DAXİLİ ÇƏKİŞMƏLƏR.** Şah II İsmayıl vəfat etdikdən sonra qızılbaş əmirlərinin böyük bir toplantısı oldu. Bu toplantıda Türkman ***Əmir xan***, Təkəlü ***Museyib xan***, Şamlu ***Hüseyn xan***, Ustaclu ***Pirə Məhəmməd xan, Afşar Xəlil xan, Zülqədər Qalxançı oğlu Vəli Sultan***, vəzir ***Mirzə Salman*** iştirak edirdi. Burada Rumlu, Afşar, Türkman, Təkəlülər ilə Ustaclu və Şamlular arasındakı qan davasının yenidən başlanmasının qarşısı alındı. Tayfaların baş adamları dövlətin ümumi mənafeyi üçün Şah II İsmayıl hakimiyyətinin ilk günlərindəki qan davasını xatırlayıb yeni çəkişmələrə yol verməyəcəklərinə and içdilər. Bundan sonra taxta kimin çıxacağını müzakirə etdilər. Təhmasibin böyük oğlu ***Məhəmməd Xudabəndənin*** hakimiyyətə gətirilməsi təklif edildi. Toplantıda hamı buna razı oldu. Zülqədər Vəli xan, atabəyi olduğu II İsmayılın səkkiz aylıq oğlu ***Şah Şücanın*** taxta çıxması məsələsini ortaya atdı. Amma buna heç kim razılıq vermədi, o, bir yaşında ikən öldü.

1578-ci il fevralın 13-də şah seçilən Məhəmməd Xudabəndənin gözləri zəif görməklə yanaşı həm də iradəcə möhkəm deyildi. Onun hakimiyyətə gəlməsinə qarşı çıxmış Zülqədər Vəli xan tutduğu vəzifədən götürüldü. Möhürdar vəzifəsi **Dadı oğlu Şahbəyə** verildi. Toplantıya yığışan əmirlərin hər biri rəsmi olaraq öz tayfasının ağsaqqalı kimi tanındı. Əmir xan Türkman, Pirə Məhəmməd xan Ustaclu, Museyib xan Təkəlü, qorçubaşı Qulu bəy Afşar, Şahrux xan Zülqədar, Sultan Hüseyn xan Şamlu boylarının başçısı oldu.

Məhəmməd Xudabəndə, oğlu Həmzə Mirzəni vəkil, Mirzə Salmanı isə baş vəzir vəzifəsinə qoydu. Onun dövründə də imperatorluğun siyasi və əsgəri təşkilatı türk bəylərinin əlində idi. Şah I İsmayılın bütün imperatorluq vilayətlərində türk bəylərindən möhkəm yerli dayaqlar yaratmaq siyasəti davam etdirilirdi. Bu bəylərin 1577-ci il toplantısından sonra vilayət və mahallara yeni təyinlər başlandı. Türkmanlardan Məhəmməd xana *Kaşan*, ***Əbülməsum Sultana*** *Savə*, ***Heydər Sultana*** *Qum* bəylərbəyliyi verildi. Türkman Murtuzaqulu xan Məşhəddə, Təkəllərdən Museyib xan *Rey*, Vəli xan *Həmədan* bəylərbəyliyində öz vəzifələrində qaldılar. Rumlulardan ***Dəli Budaq*** *Xoy*, Şamlulardan ***Sultan Hüseyn xan*** *Qəzvin*, ***Əliqulu xan*** *Herat*, Afşarlardan ***Vəli xan*** *Kirman* bəylərbəyi oldular. Zülqədərlərin əsas yurdu və ölkəsi Fars olduğu üçün buranın idarəsi onların əlində idi.

1577-ci il toplantısında and içilməsinə baxmayaraq oymaqlar arasındakı narazılıqlara son qoyulmadı. Məhəmməd Xudabəndənin zəifliyindən istifadə edərək bir sıra əmirlərin dövlətin siyasi və əsgəri təşkilatında yüksək vəzifələri ələ keçirməyə çalışması oymaqlararası çəkişmələri dərinləşdirməyə başladı.

**XVI YÜZİLİN 70-ci İLLƏRİNDƏ TÜRKİYƏ İLƏ YENİ SAVAŞLAR.** Səfəvi imperatorluğundakı bu çəkişmələrdən Xarəzm hökmdarı ***Özbək Cəlal xan*** istifadə edərək Xorasana qoşun yeritdi. Ancaq Məşhəd bəylərbəyi Türkman Murtuzaqulu xan onu məğlub etdi. Bu döyüşdə Cəlal xan özü də öldürüldü.

Bu çəkişmələr Osmanlı dövləti üçün də çox əlverişli oldu. ***III Murad*** bəhanələrlə 1578-ci ildə Amasiya barışığını pozdu. Yeni müharibə Xoy, Salmas və Urmiyaya hücumla başlandı. Burada gedən döyüşlərdə ***Xubuşlu Hüseyn Sultan*** və ***Rumlu Mahmud Sultan*** məğlub oldular. Səfəvi şahının ərəb atları cinsindən olan 10 mindən çox ilxısı da ələ keçirildi. Azərbaycan bəylərbəyi Əmir xan tutulmuş torpaqları geri ala bilmədi.

Osmanlı dövlətinin vəziri ***Qara Lələ Mustafa paşa*** III Muradın əmrinə görə Gürcüstan, Şirvan və Azərbaycanı tutmalı idi. Vəzir Lələ Mustafa paşanın ordusu 1578-ci ilin avqustunda Ərdəhan tərəfdən hücuma keçdi. Osmanlı hücumunun qarşısını Çuxur Sə'd bəylərbəyi Ustaclu ***Məhəmməd Toxmaq xan***, Qarabağ bəylərbəyi ***Qacar İmamqulu xan*** almalı və Azərbaycan bəylərbəyi Əmir xan, vəliəhd Həmzə Mirzə onlara köməyə gəlməli idilər. Əmir xan köməyə gəlmədi: Türkmanlarla Ustaclular arasında düşmənçilik qalırdı. Türkman Əmir xan osmanlıların ustacluları məhv etməsini istədiyinə görə seyrçi qalmağı üstün tuturdu.



Ustaclu Məhəmməd Toxmaq xanla Qacar İmamqulu xan 15 minlik qoşunla Lələ Mustafa paşanın sayı qat-qat çox olan ordusu ilə qarşılaşdılar. 1578-ci ilin avqustunda Çıldırda baş verən döyüşdə Səfəvi bəylərbəyləri məğlub oldular. Osmanlılar Gürcüstanın xeyli torpaqlarını tutub Şirvana doğru irəlilədilər.

Qanıq çayı sahilində Osmanlılar Türkman Əmir xan və Qacar İmamqulu xanın qüvvələri ilə qarşılaşdılar. Səfəvi ordusu ***Qoyun keçidi*** döyüşündə xeyli itki verdi. Türkman xan uğursuzluqdan sonra Təbrizə döndü. Şirvan bəylərbəyi Rumlu Araz xan təkbaşına osmanlılara qarşı döyüşə bilməyəcəyini gördükdə Kür sahilinə çəkildi. Vəzir Qara Lələ Mustafa paşa Dərbəndə qədər Şirvan torpaqlarını tutdu. ***Özdəmir oğlu Osman paşanı*** bu bölgəyə hakim təyin edib Ərzuruma döndü. Gürcüstanın bir qismi ilə Şirvan Osmanlı hakimiyyəti altına düşdü.

Şirvan bəylərbəyi Araz xan, ***Təkəlü Ərdoğdu Xəlifə*** və başqa əmirlərlə birləşib Osmanlı qüvvələrinə qarşı hərəkət etdi. Qarabağ bəylərbəyi Qacar İmamqulu xan isə ***Qaytas paşanın*** üstünə getdi. ***Ərəş qalası*** ətrafında Qacar İmamqulu xan qələbə çaldı. Qaytas paşanın əsgərlərinin çoxu öldürüldü. Rumlu Araz xan Şamaxını boşaldıb Özdəmir oğlu Osman paşanın xeyli qüvvəsini məhv etdi. Bu vaxt Krımdan Adil Gərayın köməyə gələn qüvvəsi ilə birləşən osmanlılar Araz xanı məğlub etdilər. Araz xan əsir götürüldü. Araz xanın oğulları, Ərdoğdu Xəlifə sağ qalan döyüşçülərlə Salyana çəkildilər. ***Adil Gəray*** qızılbaşların ardınca gedib, onlarla savaşaraq çoxlu qənimət ələ keçirdi. Araz xan öldürüldü. Ancaq Səfəvi baş vəziri Mirzə Salmanın ordusu Şirvana daxil oldu. Molla Həsəndə gedən döyüşlərdə Krım qüvvələri dağıdıldı və ələ keçirdikləri qənimətlər geri alındı. Adil Cəray əsir götürüldü. Özdəmir oğlu Osman paşa Dərbəndə çəkildi. Türkman Əmir xan, Təkəlü Museyib xan, Ustaclu Pirə Məhəmməd xan, qorçubaşı Afşar Qulu bəy Özdəmir oğlu Osman paşanın ardınca Dərbəndə getməyə razılıq vermədilər. Vəzir Salman elə buna görə də Şirvan uğurlarını başa çatdırmadan geri döndü. Şirvana Astrabad valisi Türkman ***Məhəmməd Xəlifə*** *Hacılar bəylərbəyi qoyuldu.*

**MƏLƏKƏ İLƏ BAĞLI ÇƏKİŞMƏLƏR DÖVLƏTİ ZƏİFLƏDİR.** Bu arada ölkə daxilində baş qaldıran yeni çəkişmələr dövləti xeyli zəiflətdi. Səfəvi şahı Məhəmməd Xudabəndənin özü əlil, uşaqları isə kiçik yaşlı idilər. Qızılbaş vəzirlərinin razılığı ilə 11 yaşlı böyük oğlu ***Həmzə Mirzə*** vəliəhd seçilmişdi. Şahın arvadı bütün dövlət işlərinə qarışırdı, böyük söz

sahibi olmuşdu. Keçmiş Mazandaran əmirinin qızı olan bu qadın ağıllı, cəsur və olduqca sərt idi. ***Məhdi Ulya*** adlanan bu bəyim, Adil Gərayı məğlub edib yarı yoldan geri dönən Səfəvi ordusunu çox acı sözlərlə qarşıladı. Onun mazandaranlı bəzi yaxınlarını yüksək vəzifələrə irəli çəkməsi qızılbaş əmirlərinin narazılığını günbəgün artırmaqda idi. Məhdi Ulya qızılbaş türk əmirlərini aradan götürməklə bütün dövlət işlərini öz əlinə almaq istəyirdi. Mələkə, ***Pirə Məhəmməd Ustaclu*** və ***Qorxmaz xan Şamlunu*** atasının intiqamını almaq üçün Mazandarana Mirzə xanın üzərinə göndərdi. Əmirlər Mirzə xanın həyatına toxunmayacaqlarına and içərək, onu Qəzvinə gətirdilər. Ancaq əmirlərin andına əhəmiyyət verməyən mələkə, Mirzə xanı öldürtdü. Əsir alınmış Adil Gəray da mələkə ilə bağlı çəkişmələrdə öldürüldü. Bu hadisələr dövlət işlərini ələ almağa çalışan mələkəyə qarşı qızılbaş əmirlərinin açıq çıxışına səbəb oldu. Mələkənin mazandaranlıları yüksək vəzifələrə göndərməsi qızılbaş əmirlərinin narazılıqlarını daha da artırdı. Bu arada Kaşan bəylərbəyi Türkman Məhəmməd xan da vəzifəsindən çıxarılıb başqa yerə göndərildi.

Türkman Məhəmməd xanın çağırışı ilə mələkəyə qarşı hərəkat başlandı. Mələkə sərt hərəkətləri ilə, hətta əsgərləri, sufiləri ***şahsevən*** adı ilə qızılbaş bəylərinə qarşı yönəltməyə çalışdı. Amma bu çağırışa başçılıq edə biləcək bir əmir tapmadı. Təkəlü Museyib xan ona edilən belə bir təklifi qəbul etmədi. Şah işin belə qızışdığını görüncə mələkəni Mazandarana göndərməyi qərara aldı. Amma qızılbaş əmirləri buna razı olmadılar. Sədrəddin xan Səfəvi (Məsum xanın oğlu), ***Elkəsən oğlu Hüseynəli bəy Zülqədər***, şahın qohumlarından ***İmamqulu Mirzə Mosullu***, ***Çələbi bəy Təkəlü*** sarayın hərəm otağına girib şahın yanında mələkəni öldürdülər. Mələkənin faciəli aqibəti göstərdi ki, Səfəvi imperatorluğunun qurucuları olan türk qızılbaş əmirlərini nə mərkəzi, nə də yerli idarələrdə sıxışdırıb uzaqlaşdırmaq mümkün deyildi. Ancaq iş mələkənin faciəsi ilə bitmədi.

Çoxu ustaclu və şamlu boylarından olan Xorasan əmirləri Əliqulu xanı xanlar xanı ünvanı ilə özlərinə başçı seçib şahın 16 yaşlı oğlu ***Abbas Mirzəni*** şah elan etdilər. Bu, yalnız şaha qarşı deyil, mərkəzdə hakim yer tutan Təkəlü və Türkman əmirlərinə qarşı bir çevriliş idi Çevriliş ilə onlara qarşı Ustaclu və Şamlu cəbhəsi yarandı. Məşhəd valisi ***Murtuzaqulu xan Türkman*** mərkəzlə bağlı olduğu üçün, Əliqulu xana qarşı yürüşə hazırlaşırdı. Bu çəkişmələr dövləti getdikcə gücdən salırdı.

Qafqazda Osmanlı qüvvələrinin belə bir zamanda yeni yürüşləri başlandı. Krım xanı ***Məhəmməd Gəray*** 1579-cu ildə qoşun ilə Şirvana gəldi. Şirvan bəylərbəyi ***Məhəmməd xəlifə Zülqədər*** onunla savaşa girdi, ancaq məğlub oldu. Bəylərbəyi özü də döyüşdə öldürüldü. Krım atlıları Şirvan və Qarabağı yağmaladılar. Məhəmməd Gəray xan qardaşı ***Qazi Gərayı*** Osman paşanın yanında qoyub, özü Krıma qayıtdı. Əmir xan Türk-



man ilə Möhürdar Şahqulu xan arasında çəkişmə Şirvana girən Səfəvi ordusunun uğurlarına mane oldu. Başqa bir tərəfdən isə Azərbaycan, Şirvan və Qarabağda çox dəhşətli qıtlıq başlanmışdı. Səfəvi ordusu Təbrizə dönməyə məcbur oldu.

Xorasanda Abbas Mirzənin şah elan edilməsi ilə bağlı hadisələr Məhəmməd Xudabəndəni bura qoşun göndərmək məcburiyyəti qarşısında qoydu. 1579-cu ildə Vəli Xəlifə Şamlu, Həmzə xan Ustaclu, Şahqulu Sultan Ustaclu, Qorxmaz xan Şamlu Abbas Mirzəni qoruyan əmirlərin başçısı Herat bəylərbəyi Əliqulu xana qarşı göndərildi. Bu vaxt Əliqulu xan Məşhədə hücum etdi. Məşhəd yaxınlığında Əliqulu xan Vəli Xəlifə Şamlunun qüvvəsi ilə qarşılaşıb döyüşdü. Döyüşdə Əliqulu xan qələbə çaldı. Vəli Xəlifə öldürüldü. Mərkəzdən göndərilən qalan əmirlər Vəli Xəlifənin məğlub olduğunu eşidən kimi geri döndülər. Əliqulu xan Məşhəd bəylərbəyi Murtuzaqulu xan Türkmanın qüvvəsini də məğlub etməsinə baxmayaraq şəhəri ala bilmədi.

Xorasanda çox ciddi çəkişmələrin davam etdiyi arada Qazi Gəray xan Adil Gəray xanın qardaşı ***Səfi Gəray*** ilə birlikdə Şirvana yürüş etdi. Baş verən döyüşdə bəylərbəyi ***Salman xan Ustaclu*** məğlub oldu. Onun bir çox adlı-sanlı əmirləri öldürüldü. Bu hücumun əvəzini çıxmaq üçün əmir əl-ümərə ***Əmir xan*** Türkman qoşunla Şirvana gəldi. Qorçubaşı Qulu bəy Afşar, möhürdar Şahrux xan Zülqədər və başqa seçmə əmirlər də bu yürüşdə idilər. Osmanlı qüvvələri Dəmirqapıya çəkildilər. Bakıya qədər gedən Səfəvi ordusu Osmanlıları izləməkdən yenə əl çəkib Qarabağa döndü. Şirvanın yeni Osmanlı hücumlarından qorunmasını gücləndirmək üçün ***Peykər bəy Ziyadoğlu*** bura xan ünvanı ilə bəylərbəyi göndərildi. Qarabağdan otuziki və başqa oymalar da Şirvana köçürüldü.

Osmanlı elçisi ***Ömər ağa*** Şirvandakı vəziyyətlə tanış olduqdan sonra Səfəvi elçisi ***Şahqulu Sultan Zülqədərlə*** Ərzuruma Mustafa paşanı əvəz etmiş baş komandan ***Sinan paşanın*** yanına döndü. Bir qədər sonra Məhəmməd Xudabəndə Sinan paşanın tövsiyəsi ilə İbrahim xan Türkmanın başçılığı altında sultanın yanına elçilər göndərdi.

1580-ci ildə Şirvan bəylərbəyi Ziyadoğlu Peykər xan Qacar Osmanlı ordusunu məğlub etdi. Ancaq çox keçmədi, Peykər xan vəfat etdi.

**YALANÇI İSMAYILLAR HƏRƏKATI.** 1580-ci ildə ***Kuh-Giluyədə*** lurlar və kürdlər arasında bir qələnlər çıxaraq özünün Şah II İsmayıl olduğunu bildirdi. Guya 1577-ci ildə öldürülən o yox, ona bənzəyən bir kölə imiş. Özünü Şah II İsmayıl adlandıran bu yalançı ətrafına kürd və lurlardan xeyli qüvvə toplaya bildi. O, başına topladığı qüvvə ilə bu bölgənin başçıları olan Afşarlarla savaşdı. Atası ***Xəlil xanı*** əvəz edən ***Rüstəm bəy*** döyüşlərin birində məğlub olub öldürüldü. Bu hadisəni eşidib şahın razılığı ilə

Kuh-Giluyəyə gələn Xəlil xan da təsadüf nəticəsində lurlar tərəfindən öldürüldü. Qardaşı oğlu ***İsgəndər bəy*** Kuh-Giluyəyə bəylərbəyi göndərildi. Sonuncu 1581-ci ildə Fars valisi ***Ümmət xan Zülqədərlə*** birləşib yalançı şah İsmayılı məğlub edərək öldürdü.

Çox keçmədi Luristanda ***Tərşiz*** vilayətində ikinci bir yalançı İsmayıl peyda oldu. O, başına on min adam toplamışdı. İkinci yalançını Hüseyn Sultan Təkəlü yaxalayıb, Qəzvinə göndərdi. O, Məhəmməd Xudabəndənin əmrilə Qəzvinin Ağ meydanında yandırıldı. Üçüncü yalançı İsmayıl Talışda baş qaldırıb Ərdəbildə öldürüldü. Dördüncü yalançı İsmayıl isə ***Lurlar*** arasından çıxmışdı. O, Fərah bəylərbəyində afşarlara qarşı çox çətinliklər yaratmış, Fərah hakimi Hüseyn xanı vuruşmada öldürmüşdü. Sonra özü də öz adamları tərəfindən öldürüldü. Bu yalançıların heç biri türk deyildi. Bu hərəkatların iştirakçıları lurlar və kürdlər Səfəvi imperatorluğunun çox çətin günləində fəaliyyətə başlamışdı. Yalançı ismayıllar imperatorluğa tabe qeyri-türk xalqların mərkəzdənqaçma meyllərinin oyandığını göstərirdi.

**OSMANLILARIN YENİ YÜRÜŞLƏRİ. TƏBRİZİN TUTULMASI.** Qızılbaş əmirləri vəzir Mirzə Salmanı yüksək iqtidara malik olduğu üçün öldürdülər. Həmzə Mirzə Azərbaycan bəylərbəyi Əmir xan Türkmanı Qəhqəhə həbsxanasına saldırdı. Türkman əmirlərinin çoxu Azərbaycanı tərk etdi. Əliqulu bəy Ustaclu Azərbaycana bəylərbəyi təyin olundu. Əmir xan Türkmanın həbs olunduqdan sonra öldürülməsi və Türkman əmirlərinin başqa vilayətlərə köçməsi Azərbaycan bəylərbəyliyini xeyli zəiflətdi. Qarabağ bəylərbəyi ***İmamqulu xanın*** savaşlarına baxmayaraq, Osmanlı qoşunu baş vəzir Osman paşanın başçılığı ilə 1585-ci ildə Təbrizi tutdu. 40 günə yeni qala tikildi, köhnələri bərpa olundu. Osman paşa ***Xadim Cəfər paşanı*** Təbrizə hakim təyin etdikdən sonra buranı təpk etdi. Təbrizin tutulmasından bir qədər sonra Osman paşa öldü. Həmzə Mirzə bundan istifadə edib Təbrizə qoşun yeritdi. Amma bu yürüş boşa çıxdı. Bu vaxt Həmzə Mirzənin tərəfdarları olan Ustaclu və Şamlu əmirləri iləTəkəlü və Türkman əmirləri arasında yeni çəkişmələr başlanmışdı. Təkəlü və türkman əmirləri bu çəkişmədə Təhmasib Mirzəni ələ keçirib, Qəzvində onu şah elan etdilər (1587). Həmzə Mirzə Qəzvinə doğru hərbi yürüş etdi. İki tərəf arasındakı savaşda Həmzə Mirzənin qüvvəsi qələbə çaldı. Bu uğurdan sonra daxili çəkişmələri qismən aradan götürən Həmzə Mirzə yalnız on min əsgərlə Təbrizə yaxınlaşdı. Bu qüvvə şəhəri geri almaq üçün kifayət deyildi. Osmanlı Fərhad paşa da Təbrizə doğru gəlirdi. Səfəvilərin məhalları, şəhərləri bir-birinin ardınca əldən gedirdi. Elə buna görə də o, ***Fərhad paşanın*** sülh təklifini qəbul etdi. Danışıqlara hazırlıq üçün Qəzvinə dönən vaxt erməni Xudi dəllək tərəfindən öldürüldü. Vəliəhd Həmzə Mirzə 20 yaşında idi.



## 3. AZƏRBAYCAN XVI YÜZİLİN SONU – XVII YÜZİLDƏ

**ŞAH I ABBASIN HAKİMİYYƏTƏ GƏLMƏSİ.** Kaşan bəylərbəyi Vəlican xan Türkman, Kirman bəylərbəyi Vəli xan Afşar, İsfahanda yaşayan Afşarlar, Farsdakı Zülqədərlər ***Abbas Mirzəni*** *şah kimi tanıdılar.* Ölkədəki bu vəziyyətdən istifadə edən osmanlıların Təbrizdəki valisi ***Cəfər paşa*** bir sıra məntəqələri də ələ keçirdi. Eyni vaxtda özbək hakimi ***Abdulla xan*** Herata qoşun yeritdi.

Səfəvi imperatorluğunun bu çətin günlərində ***Mürşüdqulu xan Ustaclu*** kiçik hərbi dəstə ilə 1587-ci ildə Qəzvinə daxil oldu. Qızılbaş əmirlərinin çoxu onun iradəsinə boyun əyərək, Abbas Mirzənin hakimiyyətə keçməsinə narazılıq bildirdilər. Xarici yürüşlərin, daxili çəkişmələrin Səfəvi dövlətini sarsıtdığı bir vaxtda Abbas Mirzə şahlıq taxtına oturdu (1587).

Sultan Məhəmməd Xudabəndə illərində dövlət işləri bütünlüklə qızılbaş əmirlərinin hökmündə idi. Yeni çevriliş ilə bu dövr bitmək üzrə idi. Abbas Mirzəni bir şah kimi tanımış əmirlərin çoxu Qəzvinə gəldikdə, yeni şahın üzünü görmədən qətlə yetirildilər.

**1590-CI İL BARIŞIĞI.** Şah Abbas hakimiyyətə anası Məhdi-Ülyanın intiqamını almaq üçün bir sıra qızılbaş əmirlərinin qətli ilə başladı.

1587-ci ildə Özbək Abdullah xan Heratı, ardınca da Məşhədi tutdu. I Şah Abbas Xorasana hərəkət etdi. Bundan istifadə edən Fərhad paşa Gəncəni (1588) tutdu. Bağdaddakı türk valisi ***Cığalzadə Sinan paşa*** isə Nihavəndi (1588) ələ keçirdi. Səfəvi dövlətini Şərqdən Özbək, Qərbdən isə Osmanlı qüvvələri sıxışdırırdı. Daxildə isə əmirlər arasında çəkişmələr gedirdi. Şah Abbas daxili çəkişmələri aradan qaldırmaq üçün Osmanlı hökuməti ilə barışığa getmək istəyirdi. Osmanlı dövləti də barışığa meyl göstərirdi. Uzun sürən savaşlar Osmanlı dövlətində maliyyə çətinlikləri yaratmışdı, tutulan torpaqları əldə saxlamaq üçün çoxlu güc tələb olunurdu.

İlk addımı Şah I Abbas atdı. O, 1590-cı ildə Həmzə Mirzənin oğlu ***Heydər Mirzəni*** İstanbula göndərdi. Həmin ildə tərəflər arasında sülh imzalandı. İstanbul (bəzən: Fərhad Paşa) andlaşması deyilən bu barışığa görə Səfəvi dövləti Azərbaycan, Gürcüstan, Çuxur Sə'd və Dağıstan üzərində Osmanlı dövlətinin hakimiyyətini tanımalı oldu. Şah Abbas aşağıdakı öhdəlikləri üzərinə götürdü: məzhəb ayrılığına görə insanlar incidilməməli, peyğəmbərin əshab və xəlifələrinə qarşı pisləmələrə və küfrə yol verilməməli, 22 mart 1590-cı ilə qədər hər iki tərəfin əllərində olan torpaqlar özlərində qalmalı idi.

**DAXİLİ ÇƏKİŞMƏLƏRƏ SON QOYULMASI. ŞAH I ABBASIN İSLAHATLARI.** Şah I Abbas dövlətə qarşı baş qaldıran əmirləri sakitləşdirib, Türkiyə ilə barışıb, özbəkləri Xorasandan uzaqlaşdırdıqdan sonra ölkəni sabitliyə qovuşdurdu. Avropa və Şərq ölkələri ilə əlaqələri artırmağa, daxildə iqtisadi islahatlar keçirib ölkədəki geriliyi aradan qaldırmağa başladı. Bununla yanaşı o, ordusunu da sağlam bir hala gətirməyə çalışırdı. Onun islahatına qədər Səfəvi ordusu, əslində, tayfalar ordusu idi, nizamlı deyildi. Şah Abbasın fikrincə Səfəvi imperatorluğunu möhkəmləndirmək, itirilmiş məmləkət və torpaqları geri qaytarmaq üçün bu ordu yararlı deyildi. O eyni zamanda Bəsrə körfəzindən yavaş-yavaş ölkənin içərilərinə doğru irəliləyən Qərb dövlətlərinin işğalçılıq siyasətinin mahiyyətini başa düşürdü. O Səfəvi imperatorluğunu onlara qarşı dura biləcək bir hala gətirməyə çalışırdı.

Dövləti möhkəmləndirmək üçün onu daxildən didişdirən mərkəzdənqaçma çıxışlarının qarşısı alınmalı, əmirlər arasında davam edən çəkişmələr aradan qaldırılmalı idi.

Şah Abbas, dövləti əllərinə almış qızılbaş əmirlərinə onların sədaqət və ya xəyanətindən asılı olaraq yanaşmırdı. Sadəcə, onların hərbi-siyasi gücünü qırmağa çalışır, onları bir zümrə kimi təqib edirdi. Möhürdar Əliqulu xan Zülqədər, xəlifət-əl-xüləfa Qorxmaz Sultan Rumlu, Əbülməsum Sultan Türkman aradan götürüldü. Şah I Abbas hakimiyyətə keçməsi ilə Mürşüdqulu xana borclu idi. 1589-cu ildə yorulmaz, qeyrətli şəxsiyyət olan Mürşüdqulu xan da öldürüldü. I Şah Abbas nüfuzlu əmirləri aradan götürməklə ara çəkişmələrini azaltdı və öz hakimiyyətini möhkəmləndirdi. Onların yerinə daha gənc və az tanınan əmirləri gətirdi. Lakin bu gənc əmirlərdən kimsə özündən əvvəlki əmirlər kimi davranırdısa, hakimiyyət üçün təhlükəli sayılaraq dərhal aradan götürülürdü. İmperatorluğun tərkibindəki başqa xalqların əsilzadələri, eyni zamanda kiçik yaşından saraya gətirilən və burada böyüdülən çərkəz, gürcü qulları da hakimiyyətə irəli çəkilirdilər. Onların içindən bacarıqlı olanlara yüksək dövlət vəzifələri verildi. «Peçevi tarixi»ndə «gürcü bəyləri» soyundan Yusuf ağa adlı birinin hələ uşaq yaşlarından dövlət xəzinə idarəsində çalışması, sonra uzun illər şah xəzinəsinə sədr olması bildirilir. Onlardan bir sıra oymaqlara başçı keçənlər də az deyildi. Şah Abbas, Osmanlı dövlətinin siyasətini tənqid edərək erməni monastırlarının təsis edilməsinə yardım göstərir, onların və yepiskopların cizyədən azad edilməsi barədə fərmanlar verirdi. Hətta sonunculardan «şahsevərlik alan» da var idi.

Çərkəz, gürcü və başqalarından az yaşlı kölələr yığıb qızılbaş ruhunda tərbiyə etmək üçün bir dövlət təşkilatı, ayrıca bir sosial-siyasi qurum yaradılmışdı. Ona ***qullar ağası*** başçılıq edirdi. İlk andan müsəlmanlığa keçirilən və türkcə danışığa öyrədilən gənc qullar mülki işlərlə yanaşı,



daha çox hərbi xidmətə cəlb olunurdular. Onlardan xüsusi əsgəri birləşmə – qulam qoşunu yaradıldı. Bu atlı qoşun Səfəvi dövlətinin həm daxili, həm də xarici siyasətinin yeridilməsində şahın əlində kəsərli bir silaha çevrildi.

Bundan başqa yerli əyalətlərdən toplanan gənclərdən ***tüfəngçi alayları*** yaradıldı. Hər bir tüfəngçi alayına minbaşı başçılıq edirdi. Tüfəngçilərin sırasında fars ünsürü nisbətən gözə çox çarpırdı.

Daha bir əsgəri birləşmə şahsevənlər hesabına yarandı. Bir tarixi anlayış kimi bu söz 1570-ci illərdən ortaya çıxmışdı (Şah Təhmasibin oğlu II İsmayılın zindandan çıxarılıb şah olmasını istəyənlər ilk dəfə özlərini «Şahı sevən» adlandırmışlar). Sonralar müxtəlif türk (az sayda qeyri-türk) gəncləri şahdan «şahsevənlik alıb» onun yanında qulluğa girirdilər. Onlardan Avropa qvardiyasına bənzəyən imtiyazlı bir əsgəri birləşmə yarandı. Bu birləşmə, şah olmuş Səfəvi şeyxinə mürid vurğunluğu və sədaqəti ilə seçilirdi. Şahın şəxsi buyuruğunda dururdu.

Şah Abbasın islahatı ilə 44 min əsgəri olan yeni nizamlı ordu yaradıldı. ***Topçu*** və tüfəngçilər əsasən farslardan, atlı qulamlar isə kiçik yaşlardan müsəlmanlığa keçirilmiş çərkəz, gürcü və başqalarından toplanırdı. Bununla köçəri qızılbaş tayfa qoşunu ***çerik*** xeyli zəifləmiş oldu, ancaq tam aradan çıxıb yox olmadı. XVII yüzil boyunca da Səfəvi ordusunun başlıca özülü türk-qızılbaş qorçulardan (qoruyuculardan) ibarət idi.

Türk-qızılbaş əmirlərinə qarşı yönəlmiş başqa tədbirlər də həyata keçirildi. Afşar, Zülqədər, Qacar, Bayat kimi oymaqların əski yurdlarında yaşayışına son qoyuldu. Şah Abbas onları İranın içərilərinə səpələdi. Çağdaş tarixçiliyin fikrincə, Kuh-Giluyə bölgəsi Afşar yurdu, Fars Zülqədər yurdu, Kəzzaz və Giruhrud Bayat yurdu, Qarabağ isə Qacar yurdu olmaq xüsusiyyətini itirdi. Osmanlı idarəsi zamanı Osmanlı xidmətinə girən Otuziki, Qazağ, Şəmsəddinli oymaqlarına dönük adı verildi. Qarabağ və Şirvan türklərinin böyük bir toplusu (sayca on beş minə yaxın ailə) Mazandarana köçürüldü.

Səfəvi dövlətinin mülki təşkilatında xidmətə götürülən farsların (Tacikan) sayı xeyli çoxaldı. Paytaxtın İsfahana köçürülməsi ilə İranlı bürokratiya, ruhanilik və oturaq əyanların dövlətdə siyasi təsiri gücləndi. Ancaq bu təsir səlcuqlu və elxanlı çağlarındakı kimi yüksək deyildi. Hakim Səfəvi sülaləsinin iç İranla bağlılığı da genişləndi: üsyançı qızılbaş əmirlərinin torpaqları şahın əlinə keçdi, şahın ev (domen) torpaqları burda çox böyüdü.

Bu islahatlar qızılbaş əyanlarına qarşı çevrilmişdi. Ancaq Səfəvi dövlətini quranların kimliyi nəzərə alınarsa, bu bir türk dövləti olaraq qalırdı. Azərbaycan tarixçisi İsgəndər bəy Münşi (1560-1633) 1629-cu ildə, yəni Şah Abbas hakimiyyətinin sonunda Səfəvi dövlətinin əyalət və mahallarını idarə edən 31 türk soylu qızılbaş əsilzadəsinin adını çəkir. Çağdaş Səfəvi tarixçisi professor Faruk Sumer isə yazır: «... Göcede Türk oymakları

eskisi, gibi devletin ana diregi vasfını taşımış və ehemiyetini muhafaza etmiştir».

Dövlətin siyası, hərbi və iqtisadi quruluşu ilə yanaşı, onun mədəni yaşayışında türklərin rolu hələ böyük idi. Şərqin bilik adamlarının düşüncəsinə görə, dövlətin səciyyəsi onu yaşadanların kimliyi ilə hər zaman sıx bağlı olmuşdur. XII yüzilin alimi və şairi **Fəxrəddin Mübarəkşah** yazırdı: «Türklərin başqa insanlara mürəccah (üstün) olmalarının bir neçə səbəbi də vardır.

Biri budur ki, ərəbcədən sonra türkcədən daha yaxşı və daha heyrətli bir dil yoxdur. Bu gün türkcəyə rəğbət əski zamanlardan daha çoxdur, çünki əmirlərin və sipahsaların çoxu türkdür. Dövlət onlarındır».

Səfəvi dövlətində isə şah ailəsi üzvləri başda olmaqla əmirlərin və sipahsalardarın böyük çoxluğu söykökcə türklər və ya türkləşmiş qulamar idilər. Dövət özü də təbii, «onların» idi. Və sarayda, orduda, dövlətlərarası yazışmada XVII yüzildə də türkcə öz mövqeyini saxlayırdı.

Qızılbaş türklərinin qurduğu Səfəvi imperatorluğu öz mahiyyətinə görə XVI yüzilin sonundan başlayaraq birdən birə hələ tam «iranlılaşmamış», «İran Milli dövlətinə» çevrilməmişdi. Ancaq artıq köklü üç dəyişikliyi yoluna çıxmışdı. Bu dövlətin mərkəzi (metropoliyası) ərazi-iqtisadi baxımdan artıq Azərbaycan deyil, «Əcəm İraqı» olmuşdu. Bununla yanaşı şiəliyin və İran ruhaniliyinin təsiri altında dövlətin hərbi qulluğunu çəkən türk-qızılbaş toplumunun özü də mənəviyyatca dəyişikliyə uğramağa başlamışdı. Məmməd Əmin Rəsulzadə 1912-ci ildə «İran türkləri» adlı məqaləsində bununla bağlı yazmışdı: «Cüzi miqdarda türkmənlərdən başqa türklər, yəni azərbaycanlılar və kaşkailər İranın məzhəbi rəsmisi olan şiəliyə tabedirlər. Şiəlik İran türklərini o qədər farslaşdırmışdır ki, şimdi onlar özlərini türkləşmiş fars, yəni əslən iranlı təlakki edərlər».

Bütün bunlara görə XVIII yüzilin başında Azərbaycanın bir çox yerlərində «Qızılbaş səltənəti», «Qızılbaş qoşunu» sadəcə «qızılbaş» sözləri artıq İran dövlətçiliyini bildirən siyasi-hərbi anlayışlar kimi qarşılanmada idi. Başqa sölə, XVII yüzil boyunca feləm İran feodalları ilə yanaşı Azərbaycan türk əsilzadələrinin də mənafeyində duran bu ortaq dövlət, əhalisinin çoxu və qonşu xalqlar tərəfindən bir İran dövləti kimi tanınırdı.

Şah I Abbas bölüşdürücü mərkəzdənqaçma çıxışlara son qoyub, hərbi-inzibati və maliyyə islahatları ilə dövləti möhkəmləndirdi. O, buna nail olduqdan sonra diqqəti əvvəlcə Xorasanın özbək xanlarından geri alınmasına yönəltdi. 29 iyul 1590-cı ildə Herat döyüşündə Din Məhəmməd xan məğlub edildi. Şah Abbas 1602-ci ildə Bəlxə qoşun yeritdi. Xorasan özbəklərdən geri alındı. Səfəvi imperatorluğunun sərhədləri Ceyhun çayına çatdırıldı.



**TÜRKİYƏ İLƏ YENİ SAVAŞ (1603-1612).** *Osmanlılar tərəfindən tutulmuş torpaqların geri qaytarılması üçün Şah Abbas yenidən mübarizəyə başladı.* Onun ordusu 14 sentyabr 1603-cü ildə Təbrizə doğru hərəkət etdi. On dörd günə ordu Təbriz qapılarına yetişdi. Yolda ***Əmirgünə xan Qacarın*** Qəzvin və ***Zülfüqar xan Qaramanlının*** Ərdəbil alayları onunla birləşdi. 21 oktyabr 1603-cü ildə Şah Abbas Təbrizi tutdu. Buradan qərbə doğru yürüş edərək Əli paşanın başçılıq etdiyi Təbriz qarnizonunu dağıtdı, Əli paşa Əsir düşdü.

Bu qələbədən sonra şah Zülfüqar xan Qaramanlını Azərbaycana bəylərəyi təyin etdi. Amma bir qədər sonra Şah Abbas Azərbaycanın qorunmasını türkmanlara tapşırdı. Onların başçısı ***Pirbudaq xan Pornak*** Zülfüqar xanı əvəz etdi.

Culfa və Naxçıvan asanlıqla tutuldu. *Şəhərdəki osmanlı qarnizonu döyüşsüz təslim oldu.* Makü hakimi Mustafa bəy şahın düşərgəsinə gəlib ona sədaqətlə xidmət edəcəyini bildirdi.

Ordubad əhalisi osmanlılara qarşı çıxışa qalxdı. Buna görə şəhər dağıdıldı, əhalisinə çox ciddi zərər dəydi. Baş vəzir ***Hatəm bəy Ordubadinin*** təklifi ilə şah ordubadlıların bütün dövlət vergilərindən azad olması barədə fərman verdi.

Qızılbaşlar İrəvanda çox böyük müqavimətlərlə qarşılaşdılar. İrəvanda toplu, tüfəngli 10 min osmanlı qüvvəsi vardı. 1603-cü ilin sonunda başlanan savaş o biri il 8 iyuna kimi uzandı. Çox çətinliklə İrəvan da tutuldu. Osmanlı ordu başçılarından Şərif paşa və Xızır paşa əsir alındı. Şah onların hər ikisini azad etdi. Əmirgünə xan Qacar Çuxur-Sə'də bəylərbəyi qoyuldu.

Şah I Abbas Qarabağı tutmamışdan ora Ziyadoğlulardan ***Hüseyn xan Qacarı*** bəylərbəyi təyin etmişdi. Hüseyn xanın qoşunu Araz çayına tökülən ***Qozluçay*** üzərində düşərgə saldı. Davud paşanın osmanlı dəstəsi Hüseyn xanı məğlub edib düşərgəsini dağıtdı. Bunu eşidən şah qorçubaşı ***Allahqulu bəyin*** başçılığı altında Gəncəyə beş minlik dəstə göndərdi. Gəncə ətrafını tutub dağıdan qorçubaşının dəstəsi geri döndü.

***Cığaloğlu Sinan paşanın*** başçılığı altında osmanlı ordusunun yaxınlaşdığını eşidən şah ən'ənəvi döyüş taktikasına əl atdı. Türkiyə sərhədlərində tutduğu qalaları dağıtdırdı. Əmirgünə xan Çuxur-Sə'd əhalisini ölkənin içəri bölgələrinə köçürdü. Qış vaxtı ağır silahlı osmanlı ordusunun irəliləməsi mümkün deyildi. Yaz, yay hücumlarını pozmaq üçün isə bu ordunun keçəcəyi yollar boyunca otlaqlar, tarlalar yox edildi. Nəticədə Təbrizə doğru hərəkət edən iki osmanlı ordusundan heç biri uğur qazanmadı. Şah Abbas dağıtdığı qalaları bərpa etdirib buraya tüfəngçi və topçular yerləşdirdi. O, 1604-cü ilin qışını Təbrizdə keçirdi.

Şah qoşun toplanması üçün yeni fərmanlar verdi. Bu vaxt Şirvanda savaş davam edirdi. Şamaxı, Bakı və Dərbənddən başqa Şirvanın qalan yerləri artıq geri alınmışdı.

Şah Abbas Cığaloğlunun Vandan yeni yürüşlərinin qarşısını almaq üçün Təbrizi möhkəmləndirirdi. Yeni tikdirdiyi qalada iki illik taxıl, sursat yerləşdirdi. Sonra Allahverdi xanın başçılığı altında Vana 30 minlik ordu göndərdi. *Van savaşında Cığaloğlu qoşunu məğlub oldu.*

Çox keçmədi, Cığaloğlu yenidən böyük qüvvə ilə Azərbaycana soxulub Urmiya üzərinə hərəkət etdi. Şah Abbas yolboyu bütün ərzağı başqa yerlərə daşıtdı, əhalini öz yerlərindən köçürdükdən sonra Mərəndə çəkildi. *7 noyabr 1605-ci ildə döyüş oldu. Şah Abbas qələbə çaldı.* Cığaloğlu xeyli döyüş texnikası, ərzaq, sursut itirdi. Şah geri çəkilən osmanlıları izləmədi. O, 1605-1606-cı ilin sərt qışına baxmayaraq, Qarabağa keçib Gəncəni mühasirəyə aldı. Kömək gözləyən osmanlılar Gəncənin verilməsi təklifinə razı olmadılar. Gəncə mühasirəsi dörd ay davam etdi. 5 iyul 1606-cı ildə Gəncə geri alındı. ***Məhəmməd xan Ziyadoğlu Qacar*** Qarabağa bəylərbəyi təyin olundu.

Şamaxıdakı Osmanlı qarnizonuna Kəfədən (Krım xanlığı) ***Şəmsəddin paşanın*** başçılığı ilə kömək göndərildi. Şəmsəddin paşa bildirdi ki, 1607-ci ilin yayında Qafqaza Türkiyədən yeni qoşun yeridiləcək, Krım xanının qoşunu da quzeydən Şirvana daxil olacaqdır. Buna görə Osmanlı qarnizonu Şamaxıdan çıxmadı. Şah ordusu 1607-ci ilin yanvarında Şamaxıya çatdı. Bakıda, Dərbənddə osmanlılara qarşı çıxışlar oldu, bu çıxışlar Şirvanın geri alınmasını asanlaşdırdı. Şamaxı döyüşləri hər iki tərəf üçün ağır oldu. *27 iyul 1607-ci ildə şah ordusu Şamaxını tutdu, Zülfüqar xan Qaramanlı Şirvan bəylərbəyi oldu. Şamaxının alınması ilə savaşın taleyi bitdi. Bütün Qafqaz yenidən Səfəvilərin hakimiyyəti altına keçdi.*

Türkiyə ilə danışıqlara başlamaq üçün şah Təbrizə döndü. Ancaq danışıqlar baş tutmadı.

Türkiyə 1607-1611-ci illərdə Azərbaycana yenə də qoşun yeritdi. Osmanlı ordusuna baş vəzir Murad paşa başçılıq edirdi. Murad paşanın ordusu Təbrizi tutub beş gün burada qala bildi. Amma mübarizəni davam etdirə bilməyib Vana döndü. Uğursuz yürüşdən sonra o, Səfəvilərlə danışığa başlamağa razılıq verdi. Ancaq 6 avqust 1611-ci ildə öldü.

1612-ci ilin yazında Şah Abbasın əsas qüvvəsi ilə yerləşdiyi Ucana danışıq üçün Türkiyədən elçi gəldi. Öz növbəsində Səfəvi ali ruhani idarəsinin başçısı ***Qazixan Sədr*** İstanbula göndərildi. Sultan I Əhməd Səfəvi elçisini 17 oktyabr 1612-ci ildə çox hörmətlə qarşıladı.

Sultan, Şah Abbasın 1555-ci il Amasiya barışığı əsasında müqavilə bağlamaq təklifini bəyəndi. Sultanın irəli sürdüyü yeni şərtləri isə şah qəbul etdi. Bu şərtlərin birincisinə görə rusların tikdiyi Terek qalasının dağıdılması haqqında Sultan fərmanına Səfəvi qoşunu mane olmamalı idi.



Qafqaza qoşun yeritməklə Türkiyə, başlıca olaraq quzeydən yaxınlaşan və bütün Şərq xalqları üçün qorxulu olan yeni təhlükənin qarşısını almağa çalışırdı.

Qərb və şimali-qərb dövlət sərhədlərinin müəyyən olunması işi Cuxur-Sə'd bəylərbəyi Əmirgünə xan Qacara, Türkiyə tərəfdən isə Van hakimi Məhəmməd paşaya tapşırıldı. Dövlət təmsilçiləri Salmasa gəlib burada iki ay içində sərhədlər barədə sənəd imzaladılar.

Şah I Abbas Türkiyə ilə müqavilə bağladıqdan sonra 1613-cü ildə Gürcüstana qoşun yeritdi. Azərbaycan bəylərbəyi Pirbudaq xan Türkman, Qarabağ əmirlərindən ***Dəli Məhəmməd Şəmsəddinli*** Şirvan bəylərbəyi Yusif xanın alayları Gürcüstanda sakitlik yaratmalı idilər. Şah ordusu Gürcüstanı asanlıqla tutdu.

**XVII YÜZİLİN 20-30-CU İLLƏRİNDƏ SƏFƏVİ-OSMANLI MÜNASİBƏTLƏRİ.** Səfəvilərin Quzey Qafqazdakı bu uğurları Türkiyə sultanı I Əhmədin narazılığına səbəb oldu. O, 1612-ci il barışığını pozulmuş sayaraq Qafqazı yenidən tutmağı qərara aldı. Yüz minlik Türkiyə ordusu 1616-cı ildə Ərzurumdan Təbrizə doğru hərəkət etdi. Ancaq quzeyə dönüb İrəvanı mühasirəyə aldı.

Qorçular və tüfəngçilərdən ibarət Səfəvi könüllü qoşunu İrəvana göndərildi. Şah, 1616-1617-ci ilin qışında Osmanlı ordusunun Ərzuruma dönməsinin qarşısını kəsmək üçün Cuxur Sə'd ərazisinə ordu yeritdi. O, osmanlılara ərzaq, sursat gətirilməsinin qarşısını alıb onları mühasirədə saxlamaqla məğlub etmək istəyirdi. *Osmanlı ordusu böyük itkilərlə dərhal geri çəkilməyə başladı.*

Şah Abbas osmanlıların gələcək yürüşlərini pozmaq üçün yenə köhnə üsullara əl atdı. Səfəvi ordusu ***Qarçıqay xanın*** başçılığı altında Ərzurum və Vana keçib bu bölgələri boşaltdı. Azərbaycana yürüşə hazırlaşan Xəlil paşanın qüvvəsi qışlamaq üçün Diyarbəkirə çəkilməyə məcbur oldu.

Baş vəzir Xəlil paşanın ordusu 1618-ci ildə yenidən Təbrizə doğru yola düşdü. Qarçıqay xan Təbrizi, Şah Abbas özü isə Ərdəbili boşatdılar. Türkiyə ordusu boş Təbriz şəhərinə döyüşsüz daxil oldu.

Şah I Abbas osmanlı ordusunu boşaldılmış bölgələrdəki çətin yollarla arxasınca aparıb yorurdu. Xəlil paşanın yollarda yorğun düşmüş 50 minlik ordusu ***Ərəşdabanla Saqamçay*** arasında Sınıq körpüdə şahın ordusu ilə qarşılaşdı. Savaşda Həsən paşa öldürüldü. Krım xanı ***Canıbəy Gəray*** qaça bildi; onun veziri Mirzə bəy, Van bəylərbəyi Məhəmməd paşa əsir alındı. *Türkiyə ordusu 15 minə yaxın itki verdi.*

Bu savaşdan sonra Xəlil paşanın təklifi ilə Mərənddə 1618-ci ildə sülh bağlandı. 1619-cu ildə Türkiyə hökuməti bu barışığı təsdiq etdi.

Barışıqdan sonrakı illər Türkiyədə çəkişmələr başlandı. Bundan istifadə edən Şah Abbas 1622-1623-cü illərdə Ərəb İraqına qoşun yeridib

Bağdadı, Kərbəlanı, Nəcəfi tutdu. Çuxur Sə'd bəylərbəyi Əmirgünə xan Qacar Türkiyə tabeliyində olan Axıskanı ələ keçirdi.

*Səfəvilərin bu uğurları ilə barışmayan Sultan, Diyarbəkir hakimi* ***Hafiz Əhməd paşaya*** *tutulan torpaqların geri alınmasını tapşırdı.* Savaşa hazırlıq zamanı Gürcüstanda səfəvilərə qarşı ***Georgi Saakadzenin*** (Murov bəy) başçılığı altında hərəkat başlandı (1623-24). Kaxet hakimi ***Peyker xan*** vilayətin əsilzadələrinin şah hakimiyyətinə qarşı mübarizəyə hazırlaşmaları barədə I Abbasa xəbər göndərdi. Şah, əmir əl-ümərə Qarçıqay xanı qoşunla və ardınca qorçubaşı ***İsgəndər xanı*** qorçu alayları ilə Gürcüstana göndərdi. *30 iyun 1625-ci ildə Gümüşlü döyüşündə məğlub olan Georgi Saakadze qaçmaqla canını qurtardı.* Azərbaycanın cənub-qərbində kürd çıxışları da yatırıldı.

Şah I Abbas son savaşları qazanmaq və asılı bölgələrdəki mərkəzdənqaçma hərəkatlarının qarşısını almaqla Səfəvi imperatorluğunu möhkəmləndirə bildi. O, 1629-cu il yanvarın 21-də vəfat edi. Onu Ərdəbildə dəfn etdilər. Şah Abbas oğlu Səfi Mirzəni öldürtmüşdü. Hakimiyyətə Səfi Mirzənin 18 yaşlı oğlu *Sam Mirzə* ***I Səfi Mirzə*** (1629-42) adı ilə keçdi.

Türkiyə Anadoludan İran körfəzinə çıxan karvan yolu üzərindəki Bağdadın itirilməsi ilə barışa bilmirdi. Şah Abbasın vəfatından sonra Bağdadın geri qaytarılması yenə də ön plana çəkildi. Xosrov paşanın ordusu Bağdad üzərinə yeridi. Azərbaycan və Çuxur-Sə'd bəylərbəyliklərinin bir çox mahallarına da osmanlı qüvvələri zərbə endirdilər. Bu vaxt Çuxur-Sə'd bəylərbəyi Əmirgünə xan Qacarın oğlu ***Təhmasibqulu xan*** 10 minlik qoşunla İhlat və ***Adilicivaza*** qədər hərəkət edib çoxlu əsir, hərbi sursat ələ keçirdi.

Diyarbəkir hakimi Murtuz paşa və Ərzurum hakimi Xəlil paşanın qüvvələri Vana doğru hərəkət edən Səfəvi ordusunu geri oturtdu.

Sultan IV Murad (1623-1640) 1634-cü ildə Çuxur-Sə'd sərhəddinə keçib İrəvanı mühasirəyə aldı. Şəhər 10 günlük mühasirədən sonra tutuldu. İrəvanı tutan IV Murad Təbrizə yola düşdü. Təbrizin yeni bəylərbəyi ***Rüstəm xan*** şəhəri tamamilə boşaltdı. IV Murad savaşsız Təbrizə daxil oldu. Ancaq boşaldılmış şəhərdə ərzaq, sursat yox idi, qış yaxınlaşırdı, Səfəvilər hücum edə bilərdilər. 26 sentyabr 1635-ci ildə osmanlı ordusu şəhərdən çıxıb geri döndü. Həmin ilin yazında İrəvan şəhəri də geri alınmışdı. Bağdad şəhərini isə osmanlı ordusu yenidən tutdu. Tərəflər arasında yeni danışıqlar başlandı və 1639-cu ildə müqavilə bağlandı. Müqaviləni Səfəvilər tərəfindən Sarı xan, Türkiyə tərəfindən isə Mustafa paşa imzaladılar. Müqaviləyə görə dövlət sərhədləri dəyişdirilmişdi. Maku, Van, Axıska Türkiyədə qaldı. Səfəvilər Arazın sağ sahilindəki Maku, Qotur, Mağazburd qala divarlarını dağıtmalı idilər. Müqavilədə hər iki ölkə tacirlərinin bir-birinə gediş-gəlişinə icarə verilirdi.



Bu müqavilədən sonra iki qardaş məmləkət arasında uzun sürən müharibələrə ara verildi. Hər iki imperiyanın sərhəd bölgələrində əhali yenidən yerləşməyə başladı. Bu bölgələrin iqtisadi həyatı canlandı.

**QƏRBİ AVROPA ÖLKƏLƏRİ İLƏ MÜNASİBƏTLƏR. İRAN KÖRFƏZİ UĞRUNDA SAVAŞLAR.** XVI yüzilin sonlarında Qafqazdan keçən ticarət yolları üzərində nəzarəti ələ alan Osmanlı imperatorluğu bir sıra Avropa ölkələri ilə də əlaqələrini bərpa etmişdi. İran körfəzi və Qırmızı Dənizə çıxan yollar isə Portuqaliya və İspaniyanın əlində idi.

Fəal xarici siyasət yeridən Şah I Abbasın qarşısında duran əsas vəzifələrdən biri İran körfəzində Portuqaliya ağalığına son qoyub Hind okeanına çıxmaq idi. Avropa monarxları ilə əlaqələrini gücləndirən Şah I Abbas İran körfəzi məsələsini həll etməyə çalışırdı. Avropa dövlətləri isə şahdan daha çox Türkiyəyə qarşı istifadə etmək istəyirdilər. Roma papası ***VIII Klement*** 30 sentyabr 1592-ci ildə I Şah Abbasa yazdığı məktubda Türkiyəni ümumi düşmən adlandırırdı və şahla müqavilə bağlayıb onu Türkiyəyə qarşı savaşa qaldırmaq istəyirdi. Eyni zamanda Səfəvilərə odlu silahlar göndərəcəyini vəd edirdi. Qafqazın, Xorasanın və İran körfəzinin geri alınması üçün savaşa hazırlaşan Şah Abbasın həm müttəfiqə, həm də odlu silaha böyük ehtiyacı vardı.

XVI yüzilin 70-ci illərində IV İvan Rusiyadan Şərq ölkələrinə gedən karvan yollarından İngiltərənin istifadə etməsinə mane olmağa başladı. Artıq İngiltərə Şərqə ancaq okeanlardan çıxa bilərdi. Bu isə İspaniya ilə savaşsız mümkün deyildi. İngilis donanması 1588-ci ildə İspaniyanın «Yenilməz Armadasını» əzdi. İngiltərə və Hollandiyanın okeanlardan Şərqə yolları açıldı.

XVI yüzilin sonlarında İngiltərədən *Antoni* və *Robert Şerli* qardaşlarının başçılıq etdikləri bir dəstə İsfahana gəldi. Şah I Abbas 1599-cu ildə Antoni ilə birlikdə Hüseynəli bəy Bayatın başçılıq etdiyi elçiləri Almaniya, İngiltərə, Fransa, İspaniya, Şotlandiya, Polşa, İtaliya monarxları ilə danışıqlar üçün Avropaya göndərdi. Şah Abbas xristian tacirlərinə Səfəvi dövlətində gömrük ödəmədən ticarət aparmaq hüquqları vermişdi, çünki Avropa dövlətləri ilə Türkiyəyə qarşı ittifaq bağlamaq fikrində idi. Amma bununla yanaşı onun elçiləri Qərb dövlətləri arasındakı münasibətləri aydınlaşdırmalı idilər. Şah İspaniyaya qarşı müharibəyə hazırlaşırdı. Bu müharibədə Qərb dövlətlərinin aralarındakı çəkişmələrdən İspaniyaya və Portuqaliyaya qarşı istifadə etmək istəyirdi.

Ancaq Avropa ölkələri ilə Səfəvi elçilərinin diplomatik danışıqları uğursuz oldu. Səfəvi elçisi ***İffət bəyin*** 1600-cü ildə Venesiyada apardığı danışıqlar da baş tutmadı. Ancaq Şah Abbas diplomatik axtarışlarla qərb dövlətləri arasındakı münasibətləri aydınlaşdıra bildi.

Avropa kralları Səfəvi-Osmanlı dövlətlərini savaşdırıb gücdən salmaqla Şərqdə asanlıqla yeni torpaqlar tuta bilərdilər. Bu işdə onlar xristianlığı yayan missionerlərinə çox ümid bağlayırdılar. 1603-cü ildə İsfahana ispan missionerlərindən Geronimo de Kruz, Kristofor de Spiritu, Antonio de Qovea gəldilər. Missionerlər şaha bildirdilər ki, katolik məzhəbinin yayılmasına imkan verərsə, ispan kralı Türkiyəyə qarşı müharibədə ona kömək edəcəkdir. Şah həmin ildə ***Allahverdi bəy Türkmanı*** yardım almaq üçün İspaniyaya göndərdi.

1603-cü ildə Səfəvi dövlətinə Almaniyadan II Rudolfun elçisi ***Georq Tektander*** göndərilmişdi. O, yolda Lənkəranda öldüyü üçün onun səlahiyyətlərini elçiliyin digər üzvü ***Stefan Kakaş*** öz üzərinə götürmüşdü. 1603-cü ildə onun Şah Abbasla Təbrizdə görüşü oldu. Şah, 1604-cü ildə öz elçisi ***Mehdiqulu bəyi*** onunla Almaniyaya göndərdi. 1603-cü ildə şahın ***Fəthi bəy*** adlı elçisi Venesiyada idi. O, Venesiya doju ilə danışıqlardan sonra xeyli silah aldı. Ancaq Səfəvi ölkəsinə göndərilən silahları Suriyada Türkiyə ələ keçirdi. 1609-cu ildə Venesiya, Florensiya və Roma ilə də Türkiyəyə qarşı birgə cəbhə açmaq üçün danışıqlar aparıldı. Ancaq böyük xarici siyasət aparan Qərb dövlətləri ilə danışıqlar uğursuz oldu. Əksinə, İspan-Portuqaliya siyasətçiləri Şərqin iki imperatorluğu arasında gedən müharibəni qızışdırmaqla Bəhreyni tutmaq, özləri bitərəf qalmaqla Türkiyəyə qarşı hərbi blok yaratmaq istəyirdilər.

Türkiyə ilə 1612-ci il barışığından sonra Şah Abbas Hörmüz məsələsini həll etməyi qərara aldı. Bu, Səfəvilərlə İspaniya arasında münasibəti pozdu. Hələ 1601-ci ildə ispanlar Bəhreyndən qovulmuşdular. 1614-cü ildə isə Fars bəylərbəyi İmamqulu xan ispanları ***Hambrundan*** çıxardı. Şah I Abbas İran körfəzi limanlarını başqa ölkələrin üzünə bağladı, bu ölkələrin Səfəvilərlə iqtisadi-diplomatik əlaqələri üzərindəki Portuqaliya üstünlüyünə son qoydu. Şah I Abbas Avropa dövlətləri arasındakı çəkişmələrdən də bacarıqla istifadə edirdi. Onların Səfəvilərə qarşı birləşməsinə mümkün qədər mane olurdu. İspaniya, Portuqaliya və İngiltərə arasında çəkişmələr şah diplomatiyası ilə dərinləşmişdi. Şah, İran körfəzini tutmağa tələsmirdi. Çünki onun hərbi donanması yox idi. İspaniya Səfəvilərə qarşı başqa Avropa dövlətləri ilə birləşə bilərdi. *Buna görə o, 1615-ci ildə Robert Şerlinin başçılığı ilə İspaniyaya Səfəvi elçiliyi göndərdi.* Bununla şah, kral ***II Filippi*** (1598-1621) arxayın salır, əslində isə İran körfəzini geri qaytarmaq üçün müharibəyə hazırlaşırdı. Pobert Şerli Londonda da oldu. O, İngiltərə ilə Səfəvilər arasında diplomatik-iqtisadi əlaqə yaratmalı idi. Amma burada o, faydalı bir iş görə bilmədi.

Pobert Şerli səfərindən sonrakı ildə Səfəvi dövlətinə İspaniyadan ***Don Qarsiya de Silva*** göndərildi. O, şahla barışığa gəlib Bəhreyn və Hambrunu geri almalı, Səfəvi dövlətlərindən digər Avropa tacirlərinin çıxarılması



haqqında III Filippin tələbini şaha verməli idi. Ancaq onun şahla apardığı danışıqlar uğursuz oldu.

1621-ci ildə İngiltərə ilə Səfəvi dövləti arasında müqavilə bağlandı. 1622-ci ildə ingilis Ost-Hind kompaniyası, Hörmüz və Keşin geri alınmasında Şah Abbasa kömək edəcəklərinə söz verdi. Bunun qarşılığında ingilis tacirləri gömrükdən azad olunmalı, körfəzdə gömrükdən götürülən gəlirin yarışı Ost-Hind kompaniyasına verilməli idi. Həmin ildə İngiltərə donanmasının köməyi ilə İmamqulu xan Portuqaliya qarnizonlarını məğlub edib Keş və Hörmüzü geri aldı.

## 4. DÖVLƏT QURULUŞU VƏ ORDU. İCTİMAİ-İQTİSADİ HƏYAT

**DÖVLƏT QURULUŞU.** Şah I İsmayılın idarə qurumları Qaraqoyunlular və Ağqoyunluların dövlətçilik ən'ənələri özülündə yaradılmışdı. Şah I Abbasın islahatları ilə Səfəvi dövlətinin siyasi quruluşu və idarəçiliyi daha da möhkəmləndi. Səfəvi dövlətinin başçısı «şah» adlanırdı. Şah hakimiyyəti irsi idi. Səfəvi şahları Ərdəbil dərviş ordeninin irsi başçıları olmaqla dini hakimiyyəti də özlərində saxlayırdılar.

Şah qeyri-məhdud hökmdar idi. Dövlətin Ali məclisi yalnız məşvərətçi rol oynayırdı. I Təhmasib dövründə Ali məclisin 12 üzvü vardı. Şah mühüm məsələlərin həllində Ali məclisi çağırır, yüksək dövlət xadimlərinin təkliflərini nəzərə alırdı.

Dövlət quruluşunda şahdan sonra ***baş vəzir*** (vəziri-ə'zəm) əsas yer tuturdu. Baş vəzir və digər dövlət məmurlarına bəzən əlavə mənsəb kimi vəkillik verilirdi. Vəkil olan məmur dövlətdə daha böyük nüfuz qazanmış olurdu. Şah Təhmasib dövründə bu mənsəb uğrunda güclü çəkişmə başlandı. Buna görə vəkil mənsəbi sonralar aradan götürüldü.

Şah I Abbasın hakimiyyətinin ilk ilindən baş vəzirin hüquqları daha da genişləndi.

Dövlətin vilayət və mahallarda mülki-maliyyə idarələrinə də baş vəzir başçılıq edirdi.

Baş vəzirə tabe olan ***nazir (münşi-katib)*** şah tərəfindən təyin edilirdi. Əslində o, baş vəzirin katibi olub, onun fəaliyyətinə nəzarət edirdi. Dövlət məmurları arasında birinin digəri üzərində güclü nəzarəti vardı. Buna görə də baş vəzirdən tutmuş kiçik vəzifəli işçilərin fəaliyyətləri barədə şah düzgün məlumat toplaya bilirdi.

Rəsmi sənədləri baş vəzir təsdiq edirdi. Yüksək vəzifələrə məmurlar təyin edilməsinə, tiyul və soyurqalların verilməsinə dair sənədlər onun möhürü olmadıqda etibarsız sayılırdı O, dövlətin mədaxil və məxaricinə, bütün maliyyə işlərinə, xarici əlaqələr məsələlərinə baxırdı. Baş vəzir həm

də dövlətin xarici siyasət xəttini müəyyənləşdirir, əcnəbi qonaq və diplomatları qəbul edirdi.

Şahın saray münşisi (katibi) ***vaqiyənəvis*** adlanırdı. O, şah məktublarını, əmrlərini və buna bənzər fərmanları yazır, dövlət mədaxili və borclarının hesabını aparırdı. Vaqiənəvisin əli altında 40 nəfər katib işləyirdi. Vaqiənəvis dövlət dəftərxanasının rəisi idi. Həm də baş verən gündəlik hadisələri qələmə alaraq sonralar tarix yazırdı.

Səfəvi dövlətinin idarə olunmasında ruhanilərin rolu böyük idi. Ali dini idarəyə ***sədr*** başçılıq edirdi. ***Divan əs-sədarədə*** iki sədr fəaliyyət göstərirdi. Biri ***sədri-xassə***, digəri ***sədri-ammə*** adlanırdı. Xassə əmlakına baxan sədrə sədri-xassə, ümumi vəqflərə baxan sədrə isə sədri-ammə (və ya sədr əl-movqufat) deyilirdi. Adam Oleari sədr haqqında yazırdı ki, katolik kilsəsinə papa rəhbərlik etdiyi kimi, Səfəvi dövlətində ruhani idarəsinə sədr başçılıq edir, onu şah özü seçir.

Sədr şəriət və dünyəvi qanunları yaxşı bilməli və bu barədə hamıdan bilikli olmalı idi. Təkcə din xadimləri yox, dövlətdə hər bir şəxs çətin məsələlərin həllində ona müraciət etdikdə ondan doğru və qəti cavab almalı idilər. Çünki onun rəyindən asılı olaraq dövlətin adından hökm verilirdi. Bir sıra hökm və qərarları isə sədr özü verirdi. Belə hökm kağıza yazıldıqdan sonra sədr ona möhürünü vurub şahın təsdiqinə göndərirdi. Bağ-bağat, ev, dəyirman, dükan, tarla və sair əmlakın girov qoyulması haqqında sədr hökm verirdi. Girov saxlayan şəxs həmin əmlakdan istifadə edə bilərdi. Borc alan şəxs təyin edilmiş müddətdə borcunu verib, girov qoyduğu əmlak və malı geri götürməsəydi, girov qoyulmuş əmlak borc verənin şəxsi əmlakına çevrilirdi. Sədr həm də şəriət qanunlarına nəzarət edirdi. Məscid vəqflərinin idarə olunması ona tapşırılırdı.

Əyalətləri, şah tərəfindən təyin olunan hakimlər idarə edirdilər. Onların rəsmi adı bəylərbəyi idi. Şah tərəfindən ***bəylərbəyi*** təyin olunan şəxs ilk növbədə tayfa başçısı (ağsaqqalı) olmalı idi. Bir qayda olaraq ona ***əmir*** və ya ***xan*** rütbəsi də verilməli idi. Sultan Məhəmməd Xudabəndə dövründə türkman tayfasının başçısı Əmir xan 1578-ci ildə Azərbaycana əmir-ül-ümərə təyin olunmuş, altı il bu yüksək vəzifəni özündə saxlamışdı. Əmir xandan sonra şahın fərmanı ilə Əhdəm Sultan türkman tayfasına ağsaqqal olmuş, ona «xan» titulu verildikdən sonra Azərbaycana bəylərbəyi qoyulmuşdu. Göründüyü kimi, *hakimin tayfa ağsaqqalı olması əsas şərt idi.* Tayfa ağsaqqalı həm də tayfanın irsi idarə hüququna malik əmiri sayılırdı. «Əmir» əsasən hərbi rütbə idi. Əmirlik rütbəsi də şahın fərmanı ilə verilirdi.

***Sultan*** titulu alan əmir ül-ümərə və yaxud bəylərbəyi «xan» rütbəsi ilə əyalətə hakim təyin olunurdu. Bu rütbə XVI-XVII əsrlərdə, hətta ondan sonra da əyalət hakimlərinə verilirdi. Bəylərbəyi adı Səfəvilər hakimiyyətinin ilk illərindən işlənməkdə idi. Ancaq I Təhmasibə qədər daha çox və geniş əmir-ül-ümərə rütbəsi işlənirdi.



XVI-XVII yüzillərin müəllifləri bəylərbəyi və əmir-ül-ümərə adlarını bir sinonim kimi, yanaşı işlətmişlər. Əmir-ül-ümərə titulu hərbi rütbə kimi də verilirdi. Şah I İsmayıl h. 907 (1501-1502)-ci ildə Hüseyn bəy Şamluya əmir ül-ümərəlıq rütbəsi vermişdi. Bir tayfanın başçısı öldükdə və ya öldürüldükdə tayfanın mötəbər şəxslərindən biri onun yerinə tayfa ağsaqqalı təyin edilir və ona əmirlik rütbəsi verilirdi.

Əyalətlərdə bəylərbəyindən sonra əsas yeri əyalət vəziri tuturdu. O, əyalətdə maliyyə məsələləri ilə məşğul olur, vergilərin toplanılması və qaydaya salınmasına nəzarət edirdi. Vəzir və ya onun nümayəndəsi məhkəmə işlərində də iştirak edirdi.

Əyalət vəzirləri bəylərbəyinin təqdimatı və şahın fərmanı ilə qəbul olunur və işdən götürülürdü. Şah tərəfindən təyin olunmasına baxmayaraq əyalət vəziri öz işində bütünlüklə bəylərbəyinə tabe idi.

Bəylərbəyliklər ***mahallara*** bölünürdü. Mahalları şah tərəfindən təyin olunan mahal hakimləri (***sultan və məliklər***) idarə edirdilər. Bu hakimlərə hərbi-inzibati və polis funksiyası verilirdi. Mahal hakimi daxili sakitliyi təmin etməli, kiçik qoşun dəstəsi saxlamalı, vergi və mükəlləfiyyətləri vaxtında toplamalı, müharibə olduqda öhdəsində qalan qoşunla tabe olduğu bəylərbəyinin xidmətinə gəlməli idi. O, şahın illik peşkəş və hədiyyələrini vaxtında göndərməli idi. Mahal hakimi müstəqil və geniş ixtiyarata sahib olsa da, mühüm məsələlər barədə bəylərbəyi ilə məsləhətləşməklə birbaşa ona tabe idi.

Əyalətlərin idarə olunmasında bəylərbəyi müavini (canişin), eşikağasıbaşı, divanbəyi, mehmandar da mühüm rola malik idilər.

Bəylərbəyi müavininin əyalət daxilində çox geniş hüququ var idi. Bəylərbəyi əyalətdə olmadıqda bütün işlər onun öhdəsində qalırdı. O, sarayla da müntəzəm əlaqə saxlayırdı. Lakin əslində, vəzirlərin timsalında olduğu kimi, o da çox vaxt bəylərbəyinin yaxın qohumlarından biri kimi vəzifə tuturdu; birbaşa əyalət bəylərbəyinə tabe idi. Səfəvilər dövründə canişin və ***naib əl-Hökumə*** sinonim kimi işlənmişdir. Bu adı daşıyan məmuru bir qayda olaraq bəylərbəyi özü təyin edirdi. Əyalət canişinlərinə şah tərəfindən heç bir rəsmi titul verilmirdi. Yalnız əyalət hakimi (bəylərbəyi) kiçik yaşlı şahzadə olduqda, canişini şah təyin edirdi.

Səfəvi dövləti sistemində başlıca idarəçilik qurumları iki inzibati bölmədən ibarət idi: bəylərbəylik (əyalət) və sultan-məliklik (mahal). Lakin başlıca siyasi-hərbi və inzibati vahid olmaqla bəylərbəylik idarəçiliyi bu dövlətin tarixində müstəsna rol oynamışdır. Bəylərbəylik əyalətlərdə mərkəzi şah hökumətini təmsil etməklə yanaşı, yerlərdəki idarəçilik sisteminin özülü idi, bir növ şah hökumətinin idarəsini sultan və məliklər vasitəsilə yerlərdə (şəhər və kəndlərdə), əslində bütün əhali üzərində bərqərar etmişdi. Bəylərbəyliklərdə mövcud olan əyalət vəziri rütbəsi ayrıca yer tuturdu: əyalət vəziri bir tərəfdən şah hökuməti adından bəylərbəylik fəaliyyə-

tinə nəzarət edir, o biri tərəfdən isə bəylərbəyi nəslini təmsil edən yüksək sosial zümrənin nümayəndəsi kimi, şah hökümətinin bəylərbəyi ilə «yaxşı» münasibətdə olmasına təminat verirdi.

Yerli idarəçilik sistemi bütövlükdə Səfəvi dövlətinin ikili və ziddiyyətli xarakterini: mərkəzləşdirmə meylini və bu siyasətin həyata keçirilməsində gözə çarpan tərəddüd və qətiyyətsizliyi əks etdirirdi.

**ORDU.** Ağqoyunlular zamanında olduğu kimi, Səfəvilər dövründə də ordu iki qola bölünürdü. Qaraqoyunlu və Ağqoyunlu ordu təşkilatı Səfəvilər dövründə az dəyişikliyə uğramışdı. Səfəvi qoşunu dövlət qoşununa (vilayət hakimlərinin qoşunu, qorçular) və şah qoşununa (tüfəngçilər, topçular, qulamlar, sufilər) bölünürdü. Şah I Abbas vaxtında topçu, tüfəngçi və qulamlardan ibarət 44 minlik nizami ordu yaradıldı. 72 minlik yenidən təşkil edilmiş köhnə feodal qoşunu (çərik) ilə birlikdə ordunun ümumi sayı 116 minə çatırdı. XVI-XVII əsrlərdə dövlət qoşunu əsasən əyalətlərdə yerləşirdi. Bu ordu əyalət bəylərbəylərinin komandanlığı altında birləşən azərbaycan tayfalarının silahlı qüvvələrindən ibarət idi. Şirvan, Qarabağ, Çuxur-Sə'd və Azərbaycan bəylərbəylərinin hər birində iki-üç min əsgərdən ibarət daimi hərbi qüvvə saxlanırdı.

XVI-XVII əsrlərdə Səfəvi silahlı qüvvələrinin əsas hissəsi qorçulardan ibarət idi. Qorçular Səfəvi xassə əsgərləri olmaqla I Şah İsmayıl tərəfindən Cağatay hərbi təşkilatı əsasında yaradılmışdı. Qorçular qızılbaş tayfalarının atlılarından toplanırdı; hər bir tayfanın qorçuları ayrıca bir bişləşmə təşkil edirdi. Onların hər birinin öz qorçubaşısı vardı. Əyalətdəki qorçubaşılar – onbaşı, yüzbaşı, minbaşılar mərkəzdəki qorçubaşıya tabe idilər. Qorçubaşının çox geniş səlahiyyətləri vardı.

H. 936 (1529-30)-cu ildə Xorasana, özbəklərə qarşı yürüş ərəfəsində Səfəvi ordusu aşağıdakı birləşmələrdən ibarət idi:

| | |
|---|---|
| Əlqas Mirzə (Şirvan bəylərbəyi) | - 400 süvari |
| I Təhmasibin digər qardaşı Bəhram Mirzə | - 3000 |
| Çöhə Sultan Təkəlü | - 800 |
| Sair Təkəlü əmirləri | - 5000 |
| Ustaclu əmirləri | -16000 |
| Afşar | - 6000 |
| Şamlu | - 9150 |
| Zülqədər | - 8000 |
| Qacar | - 6000 |
| Mosullu, türkman, bayandur | - 1000 |
| Zik, çəpəni, ərəbgirlü, varsaq, xınuslu | - 15500 |
| Seyidlər, nəqiblər, ruhanilər, şeyxlər, qazılar | - 4000 |
| Xacə Müzəffər Bitikçi | - 1000 |



| | |
|---|---|
| Mazandaran əmirləri Əmir Şahi xan və qardaşı Əmir Teymur Sultan | - 2000 |
| Tərşiz vilayətinin xacələri, Müzəffər Sultan və Ziyaəddin sultanı | - 1000 |
| Səbzvar ruhaniləri | - 400 |
| Dəftərxana və biyutat vəzirləri, müstövfilər, münşilər və sair katiblər | - 1700 |
| Biyutat işçiləri | - 3800 |
| Yüksək rütbəli qorçular, yüzbaşılar | - 5000 |
| | *108900* nəfər |

**KƏND TƏSƏRRÜFATI.** XVI yüzilin başlanğıcında Azərbaycan torpaqlarının birləşdirilməsi, möhkəm dövlət idarəçiliyinin yaradılması ilə ölkənin iqtisadi həyatında dirçəliş başlandı.

XVI-XVII yüzillərdə kənd təsərrüfatında yenə əkinçilik üstün yer tuturdu. Kənd əhalisinin çoxu əkinçiliklə məşğul olurdu. Əkinçi təsərrüfatı başlıca olaraq suvarma özülündə qurulurdu. Çaylardan arxlar çəkilir, dağətəyi yerlərdəki yeraltı sular kəhrizlərlə üzə çıxarılırdı.

Təbii su hövzələrindən aralı yerlərdə isə su quyuları qazılır və onlardan əkinləri suvarmaq üçün istifadə olunurdu. Həmdullah Qəzvini, Evliya Çələbi Təbriz və onun ətrafında 900 kəhriz, bir çox su arxlarının olduğunu bildirirlər. 1647-ci ildə Azərbaycana gələn sonuncu müəllif Çələbi yazır ki, başlanğıcını ***Səhənd dağından*** alan 6 kiçik çay Təbrizə doğru axır. Şəhərin özündə 9 kəhriz, 7000 su quyusu, 40000 səbilxana var. «Gözəl binalar olan səbilxanalarda suyu yığıb saxlayır və pul almadan əhaliyə paylayırlar». Fransız səyyahı ***Jan Batist Tavernye*** də burada əkinlərə su verən çoxlu kəhrizlər, su quyuları olduğunu bildirir. Ancaq sözünə davam edərək yazır ki, savaşlar və baxımsızlıq üzündən kəhrizlərin çoxu dağıdılmışdır. Onun Azərbaycanın *maliyyə naziri* ***Mirzə İbrahimlə*** söhbəti zamanı aydın olur ki 80 il ərzində Təbriz ətrafında 400 su arxı dağılmışdır.

Azərbaycanın, demək olar bütün bölgələrində dənli bitkilərdən buğda, arpa, düyü, paxla, darı, mərci, noxud, küncüd əkirdilər. Evliya Çələbi Təbrizdə 7 növ buğda yetişdirildiyini yazırdı.

XVI-XVII yüzillərdə Azərbaycan *öz ipəyi ilə dünya şöhrəti qazanmışdı.* Ölkənin məhsuldar torpaqlarında ipək qurdu bəsləmək üçün tut ağacları əkib becərirdilər.

1561-1563-cü illərdə Azərbaycanda olan ingiltərəli Entoni Cenkinson Şirvan haqqında yazmışdır: «...Ölkənin əsas və ən varlı ticarət şəhəri Ərəş adlanır... Onun ətrafında hər yerdən çox barama istehsal olunur: türklər, suriyalılar və başqa əcnəbilər ticarət üçün bura axışıb gəlirlər. Bu dövlətdən bir çox yaxşı keyfiyyətli və zəruri mallar almaq olar. Qoz və

fındıq, pambıq parçası, zəy, bu ölkənin təbii məhsulu olan barama, ədviyyat və ətir-boya mallarının, demək olar bütün növləri və nisbətən az miqdarda Şərqi Hindistandan gətirilən bir sıra başqa mallar almaq olar. Ancaq buranın başlıca ticarət malı, burada bol istehsal edilən çox çeşidli baramadır». İngilis taciri ***Artur Edvards*** Şirvandan 1566-cı ildə İngilis ticarət kompaniyasına yazdığı məktubda 11 tay ipək aldığını bildirirdi. Onun məktubundan aydın olur ki, iri şəhərlərdə alış-verişi olan kənd varlıları ipəyi özləri şəhər bazarlarına çıxarıb satırdılar. İpək ticarəti Azərbaycan kəndindəki qapalılığı pozur, alış-veriş yolu ilə onu bazarlara qoşurdu.

Holştin elçiliyinin katibi Adam Oleari yazır ki, təsərrüfatın bu sahəsi ilə məşğul olanların çoxu varlı adamlardır. Səyyaha görə XVII yüzilin 30-cu illərində Səfəvi dövlətində ildə 10-12 min tay ipək istehsal olunurdu. Onun 3 min tayı Şirvanın, 2 min tayı Qarabağın payına düşürdü.

Azərbaycanın təsərrüfat həyatında *pambıqçılıq* da mühüm yer tuturdu. Həmdullah Qəzvini Naxçıvan, Beyləqan, Marağa, Mərənddə pambıq əkilib-becərildiyini yazmışdır. 1568-ci ildə Azərbaycan olmuş ***Riçard Uels*** burada «pambıq ağacı» yetişdirildiyini bildirərək yazırdı: «Səfəvilər dövlətində pambıq olduqca çoxdur, özü də lap yaxşısındandır... Bu ağacın toxumu noxud boydadır... ölkənin bir çox vilayətlərində bitir». Evliya Çələbi isə Naxçıvanda ***zağî, munlayı, zəfəranı, ləli, xas, bəyaz*** adlı yeddi çeşid pambıq becərildiyini göstərmişdir. Səyyaha görə Təbriz, Marağa, Gəncə, Xoyla yanaşı, Abşeronda da pambıq əkilirdi.

Bağçılıq və bostançılıq çox geniş yayılmışdı. Münbit torpaqlarda dadlı meyvələr yetişdirilirdi. Mərənd, Xoy meyvə bağlarından bəhs edən *Alessandri yazır ki, dünyanın başqa ölkələrində Azərbaycandakı kimi dadlı meyvələr yoxdur.* Adam Oleari isə ***təbrizi, kəsəyi*** adlanan üzüm növlərinin Təbriz və Ordubadda yetişdirilməsi haqqında yazır ki, bu növ üzümlərə dünyanın başqa yerlərində rast gəlmək olmaz. Evliya Çələbi Təbrizdə ***xarda, razigi, mələki, təbərzə, armudu-zənanə*** adlanan üzüm və meyvələrin yetişdirildiyini bildirmişdir.

Üzümlə yanaşı alma, nar, armud, ərik, əncir, qoz, şaftalı, gavalı da ölkənin, demək olar bütün bölgələrində, əkilib becərilirdi. Adam Oleari, xarici görünüşünə görə limona oxşayan dadlı ***mələykə*** armudu ayrıca qeyd edirdi. Bu növlə yanaşı Azərbaycanda ***nəcmi-xələf, peyğəmbəri, meylan*** adlanan armudlar da yetişdirilirdi. İsgəndər bəy Münşi yazır ki, Araz çayı boyunca ucu-bucağı görünməyən bağlardan dərilən üzüm, nar və başqa meyvələr Şirvan, Aran, Gürcüstanda satılır.

Azərbaycan Şərqdə heyvandarlığın çox inkişaf etdiyi ölkələrdən biri idi. XVI-XVII yüzillərdə ölkə iqtisadiyyatında heyvandarlıq başlıca yer tuturdu. Ölkədə yaylaq-qışlaq heyvandarlıq təsərrüfatı, yəni köçəri maldarlıq üstün idi. Qarabağ, Mil, Muğan, Şirvan çölləri qışlaqlar, Savalan, Kiçik



Qafqaz, Qarabağ, Talış dağları isə yaylaqlar idi. ***Elatdan yığılan çərik*** (qoşun) dövlətin dayağı olduğu üçün onlara xüsusi imtiyazlar verilirdi. Onlardan ***çobanbəyidən*** başqa vergi alınmırdı. Elata verilən üstünlüklərlə yanaşı, daxili və xarici ehtiyaclar heyvandarlığın inkişafında az rol oynamırdı. ***Tavernye*** yazır: «Azərbaycanın qoyun sürülərini görüb təəccüblənməmək olmaz. Tacirlər qoyunları alır və İstanbula qədər aparıb satırlar. Başqa ölkələrə satılan qoyunlar hesabına ölkəyə xeyli pul gəlir».

Səyyaha görə Azərbaycandan qoyun dərisi Hollandiya və Yaponiyaya satılırdı.

Davarla yanaşı qaramal, at və dəvə də saxlayırdılar. Adam Oleari, Ərəş mahalında şahın ilxısı haqqında yazır ki, bu atlar gözəl başı, boynu, sağrısı, enli köksü ilə seçilir, onlar qiymətdə ərəb cinsli atlardan bahadır. Ərdəbil və Qarabağda da şahın at ilxıları vardı.

XVI-XVII yüzillərdə Azərbaycan kəndlərində natural təsərrüfat üstün yer tuturdu. Buna baxmayaraq iri şəhərlərə yaxın olan kəndlər alış-veriş münasibətlərinə qovuşurdular. Bir tərəfdən kəndlilərdən məhsul vergisi ilə yanaşı pul vergisi də alınırdı. Digər tərəfdən isə kəndlərdə istehsal olunan ipək həm daxili bazarlara çıxarılır, həm də başqa ölkələrə ixrac olunurdu. Bununla yeni iqtisadi münasibətlər kəndlərə yol açırdı.

İri şəhərləri taxıl, bağ və bostan bitkiləri ilə kəndlilər təmin edirdi. Natural təsərrüfat pozulur, kəndlərin daxili bazarlarla bağlılığı güclənirdi.

**SƏNƏTKARLIQ VƏ TİCARƏT.** Azərbaycanın yaxşı təbii-coğrafi şəraiti, xammal bolluğu, daxili ehtiyacın və beynəlxalq bazar tələbatının genişlənməsi ölkədə sənətkarlıq və ticarətin irəliləyişinə təsir edirdi. Təbriz, Gəncə, Ərdəbil, Marağa, Şamaxı, Ərəş, Bərdə, Naxçıvan, Dərbənd, Culfa ölkənin başlıca sənətkarlıq və ticarət şəhərləri idilər.

Azərbaycan şəhərlərində, hətta bir çox kənd və qəsəbələrdə toxucu, başmaqçı, dərzi, misgər, dəmirçi, dulusçu, dabbaq, bənna kimi qırxdan çox peşə-sənət sahəsi vardı.

Səfəvi dövlətinin iqtisadi siyasəti sənətkarlığın inkişafına təkan verdi. I Təhmasib Elxanilər dövründən tacir və sənətkarlardan alınan tamğa vergisini ləğv etdi. Bu, sənətkarlıq və ticarəti canlandırdı. Azərbaycan şəhərlərində sənətkarlar peşələr üzrə emalatxanalarda birləşirdilər. Sərbəst emalatxanalar peşələr üzrə həmkarlarda birləşirdilər, burada şəhər yoxsulları işləyirdi. Feodal emalatxanalarında isə, əsasən kəndlilər çalışırdı. Şah I Abbasın iqtisadi siyasəti emalatxana tipində iri karxanalar yaranmasına yönəldilmişdi. Bu karxanalarda xalça, tafta, ipək parça, silah istehsal olunurdu.

XVI-XVII yüzildə sənətkarlığın irəliləyişi daxili və xarici bazarlardakı ehtiyacla bağlı idi. Alış-veriş ardınca istehsal da genişlənir, istehsal tex-

nikası yeniləşirdi. Məhsuldar qüvvələr canlandıqca sənətin yeni sahələri yaranırdı.

Azərbaycan xalçaları, ipək və pambıq parçaları dünya şöhrəti qazanmışdı. Pambıqdan, ipəkdən hazırlanan zərif parçaları çox məharətlə boyayır, müxtəlif naxışlar vururdular.

Daşkəsəndə filiz, Sərab və Miyanədə isə qızıl və gümüş mədənləri vardı. Qızıldan, gümüşdən bəzək və zinyət şeyləri, dəmirdən isə qabqacaq, silah hazırlayırdılar.

Evliya Çələbi Təbriz sənətkarları barədə yazır: «Heç bir ölkədə buradakı kimi sənətkar-nəqqaş, rəssam, zərgər, dərzi yoxdur. Burada hər iş üçün çox mahir ustalar var. Xüsusilə burada Təbriz parçaları kimi tanınan pambıq və yun parçaları, ipək, məxmər, darayı istehsal olunur və onlar çox məşhurdurlar».

XVI-XVII yüzillərdə Avropa ilə Şərq arasındakı ticarətdə Azərbaycandan keçən karvan yollarının əhəmiyyəti böyük idi. Hindistan və Çindən başlanan beynəlxalq karvan yolları Azərbaycandan keçir, Aralıq dənizi və Qara dəniz şəhərlərinə, oradan isə Avropaya doğru uzanırdı. Azərbaycan və İranı Avropa ilə Volqa-Xəzər su yolu da bağlayırdı.

Avropadan Hindistana dəniz yollarının açılması Azərbaycandan keçən karvan yollarının əhəmiyyətini azaltdı. Portuqaliya və İspan Hind okeanında ağalıq edərək İran körfəzindəki mühüm ticarət məntəqələrini də tutmuşdular. Azərbaycandan keçən yollarla Avropaya daşınan Hindistan ədviyyatı Portuqaliya dənizçilərinin əlinə keçmişdi.

Başqa Qərb dövlətləri, xüsusilə İngiltərə də xammal və satış bazarları ardınca müxtəlif yollarla Şərqə can atırdılar. Azərbaycan ipəyi bu dövrdə onları çox maraqlandırırdı.

Səfəvi şahları da Azərbaycan ipəyinin alıcıları olan Avropa ölkələri ilə əlaqələr yaratmağa çalışırdılar.

Təbriz bu dövrdə Azərbaycanın ən böyük ticarət şəhəri idi. Oruc bəy Bayat Təbrizi «Şərqin paytaxtı» adlandırmışdı. Başqa bölgələrdən Təbrizə taxıl, xam ipək, davar, müxtəlif sənətkarlıq məhsulları gətirilirdi. Daxili bazarın yarandığı bir vaxtda Təbriz ən mühüm iqtisadi əhəmiyyəti olan mərkəzə çevrilirdi. Alessandri yazır: «Bu, ticarət şəhəridir, ölkənin hər tərəfindən karvanlar bura məhsul gətirir». Səfəvi-Osmanlı müharibələri şəhərin iqtisadi həyatına zərbə vurdu. Ancaq XVII yüzildə Təbriz yenə də ölkənin ən mühüm ticarət mərkəzi oldu. Evliya Çələbi Təbrizdə 700 dükan, 200-ə qədər karvansara, 70-ə qədər qonaq evi olduğunu göstərir. ***Şarden*** isə Təbrizdə 15 min dükan olduğunu, Şərqdə ən məşhur bazarın da Təbrizdə yerləşdiyini yazmışdır.

Şamaxı ətrafında xam ipəyin bolluğu şəhərin iqtisadi əhəmiyyətini artırmışdı. Təbriz kimi Şamaxının da zəngin bazarı vardı. XVI yüzildəki



savaşlar şəhərin iqtisadiyyatına zərbə vursa da, onun sonrakı irəliləyişinin qarşısını ala bilməmişdi. ***Əmin Əhməd Razinin*** verdiyi məlumata görə, hər il Şamaxıda 100 min pud barama satılırdı. Adam Oleari şəhərdə böyük ticarət mərkəzinin olduğunu yazmışdır. Şəhərin örtülü bazarında müxtəlif mallarla dolu mağazalar yerləşirdi. İpək, qızıl və gümüşlə işlənmiş zərxaralar, kaman, ox kimi əl işi malları çox idi. Şamaxıda çoxlu karvansaralar vardı. Bu karvansaralarda yadelli tacirlər mallarını topdan satırdılar. Adam Oleari Şamaxıda «Şah karvansarası»nı ayrıca qeyd edir. Bu karvansaralarda dünyanın bir çox yerlərindən gələn tacirlər qalırdılar. Rusiya tacirləri burada qalay, mis, dəri, xəz satır, yerli tacirlərlə geniş alış-veriş aparırdılar. Şirvanın mühüm ticarət şəhərlərindən biri də *Ərəş* idi.

Xüsusi statusa malik olan Ərdəbil şəhərinin də ölkənin iqtisadi-ticarət həyatında rolu az deyildi. Şəhər ölkənin güney və quzey bölgələrini əlaqələndirən ticarət yolunun üstündə yerləşirdi. Ərdəbil tacirləri dünyanın bir çox ölkələri ilə ticarət aparırdılar. Ərdəbildə uzunluğu 300, eni isə 150 addım olan bazar meydanında hər iki tərəfdən sıra ilə dükanlar tikilmişdi. Şəhərin ticarət mərkəzi karvansaralar idi. Şəhərin ***Qeysəriyyə*** adlı dördkünc örtülü bazarı vardı, Adam Oleari onu «ticarət birjası» adlandırır. Səyyah Ərdəbildə türk, tatar, hindlilərlə yanaşı, çini qablar satan çinli tacir haqqında məlumat vermişdir.

XVI-XVII yüzillərdə daxili və xarici ticarətdə karvansaralar böyük rol oynayırdı. Şəhərlərlə yanaşı, karvan yolları üzərində də karvansaralar vardı. Bu karvansaralarda səyyahlar, tacirlər gecələyir, miniklərini tövlələrdə, mallarını isə xüsusi anbarlarda yerləşdirirdilər. Ən məşhur karvansaralardan biri Şamaxı-Dərbənd yolu üzərində Beşbarmaqda idi. 1636-cı ildə Beşbarmaq karvansarasında iki gün gecələyən Adam Oleari yazır: «Bu karvansara kvadrat şəkilli böyük daşlardan tikilən çox qədim binadır. O dördkünc olub, hər divarının uzunluğu 42 addımdır».

XVI-XVII yüzilliklərdə daxili və xarici ticarətin artması ilə daxili bazar yarandı. Şəhərlərin iqtisadi əhəmiyyəti artdı. Şəhərlərlə kəndlər arasında iqtisadi əlaqələr yarandı, həftədə bir gün şəhərlərdə keçirilən alqı-satqı bu əlaqəyə ardıcıl, sistemli bir görünüş verdi.

Şəhərlərdə iri torpaq sahibləri, hətta ruhanilər də ticarətlə bağlı idilər. Onlar karvan ticarətindən külli gəlir götürürdülər. Xam ipək satışı qazanclı olduğundan, Şah Abbas ipək ticarəti üzərində dövlət xəzinəsinin inhisarını yaratdı. Ancaq bu inhisarı Şah I Səfi (1629-1642) ləğv etdi. Özəl ipək ticarəti yenidən genişləndi. Şah I Səfiyə qədər torpaq sahibləri və rəiyyətdən xam ipəyi yalnız dövlət ala bilərdi. Bu şah dövlətin ipək ticarəti üstündəki inhisar hüququnu ləğv etməklə yanaşı həm də dövlət məmurlarının xam ipək alqı-satqısına qarışmasını qadağan etdi. Bu, barama istehsalını artırdı. Adam Oleariyə görə, Azərbaycanda yaxşı mövsümdə ildə on min tay-

dan çox barama istehsal olunurdu. Bu ipəyin min kisəsi ölkənin daxili ehtiyaclarına sərf olunur, qalanı isə başqa ölkələrə satılırdı.

Ticarətdən dövlət xəzinəsi çox qazanc götürürdü. Tacir və sıravi satıcılardan gömrük nəzarətçiləri yollarda «***rahdarı***» adlı yol gömrüyü (rüsum), şəhərlərin giriş qapısı və bazarlarda isə ***bac*** (ticarət rüsumu) alınırdı. Təhmasibin aradan götüdüyü bir çox gömrüyü Şah Abbas bərpa etmişdi. Şah Səfi isə ipək ticarətində dövlət inhisarını ləğv etsə də, gömrüyü artırmışdı. Ancaq dövlətin gömrük siyasəti daxili və xarici ticarətin genişlənməsinə mane olmurdu, çünki gömrük rüsumları ağır deyildi. İstər daxili, istərsə də yadelli tacirlərin alqı-satqı hüququna toxunulmurdu. Əksinə, dövlət onları qoruyurdu. Adam Oleari yazır: «Azərbaycan Rusiya kimi qapalı ölkə deyildir. Yerlilər və yadellilər dövlətə tələb olunan gömrüyü verməklə ölkəyə sərbəst gəlib-gedə bilərlər. Həm də ticarət və sənətkarlıqla da məşğul ola bilərlər».

Hələ XV yüzildən Genuya. Venesiya, Rusiya və başqa ölkələr ilə Azərbaycan arasında möhkəm ticarət əlaqəsi vardı. XVI yüzildən isə Qərb ölkələrinə yeni kapitalist münasibətlərinin yaranması ilə onların Şərqdəki xammala və satış bazarlarına ehtiyacları daha da artmışdı. Bu zaman Hind okeanından keçən yollara Portuqaliya, Aralıq və Qara dəniz yollarına isə Türkiyə nəzarət edirdi. İngiltərə, başqa Qərb dövlətləri Şərqə çıxmaq üçün yeni yollar axtarışına başladılar. İngilis tacirləri dolayı yollarla Azərbaycana çıxmaq, buradan Hindistana doğru hərəkət edib ədviyyat ticarətini ələ keçirmək fikrində idilər. Onlar üçün Azərbaycanın xam ipəyi, qazanclı satış bazarları ayrıca bir maraq mövzusu yaradırdı. 1561-1563-cü illərdə ingilislərin «Moskva» ticarət şirkətinin təmsilçisi Entoni Cenkinsonun Azərbaycana gəlişi bununla bağlı idi. Ancaq o, kraliça Yelizaveta hökumətinin rəsmi ticarət əlaqəsi yaratmaq tapşırığını uğurla həyata keçirə bilmədi. Sultan Süleyman Qanuni ilə münasibətləri pozmağın əleyhinə olan I Təhmasib ingilislərlə ticarət müqaviləsi bağlamadı. Geriyə döqərkən Cenkinsonun Şirvan bəylərbəyi Abdulla xan Ustaclu ilə danışıqları uğurlu oldu.

Abdulla xan Şirvanda İngiltərə ticarəti haqqında ayrıca bir buyruq verdi (buyuruğun öz mətnində o, «İmtiyazlı fərman» adlandırılır). Burada deyilir: «Biz, Abdulla xan, göyü və yeri yaradan Allahın kəraməti ilə Şirvan və Hikranda təyinatla indi hökmranlıq edən hökmdar (mətndə «kral» – *red.*) yalnız öz təşəbbüsümüz və böyük xeyirxahlığımız ilə, nəzakətli və bizim sevimli elçi Entoni Cenkinsonun israrlı təvəqqisini və xahişini nəzərə alaraq, İngiltərənin London şəhərindən olan çox hörmətli ser ***Uilyam Herreyə***, ser ***Uilyam Çestora***, ser ***Tomas Loca***, cənab ***Riçard Melleriyə*** və cənab ***Riçard Çemberlenə*** onların bütün ticarət şirkəti ilə birlikdə tam sərbəstlik, (sərhəd və gömrüklərdən) maneəsiz keçib bizim ölkəmizə gəlmək, yaxud öz ticarət nümayəndələrini göndərmək, bizim tacirlərimiz



və başqa adamlar ilə nəqd pula və ya dəyişmə yolu ilə alqı-satqı aparmaq, bizim ölkəmizdə istədikləri qədər qalıb yaşamaq, özlərinə və mallarına yubandırma, çətinlik və maneə göstərilmədən istədikləri vaxt çıxıb getmək icazəsi verdik və bağışladıq».

Bu, ingiltərəlilər ilə ticarət müqaviləsi deyil, «Şirvan və Hirkan kralının öz təşəbbüsü və xeyirxahlığı ilə» verilən birtərəfli dövlət fərmanı idi. Fərman ilə İngiltərə tacirləri yalnız Azərbaycanda aldıqları mallar üçün deyil, buraya Azərbaycandan satışa gətirdikləri mallar üçün də heç bir gömrük və ya vergi ödəməli deyildilər. Onları buna məcbur edən gömrük yığanlar və başqa dövlət qulluqçularının işdən çıxarılması, «bütün pullar və malların» isə sahiblərinə qaytarılması fərmanda əmr edilirdi.

Belə bir rəsmi dövlət sənədinin verilməsində bəylərbəyi Abdulla xan Ustaclunun bir kral, yeni hökmdar kimi davranması, artıq XVI yüzildə mərkəzi Səfəvi şah hökuməti qarşısında Şirvanın müəyyn ölçüdə avtonom siyasi vahid olduğunu göstərir.

Entoni Cenkinson Şirvanda qazanclı alış-veriş aparıb, buradan aldığı ipək, daş-qaş və sairə ilə vətəninə yola düşdü. Onun ardınca Azərbaycana Volqa-Xəzər yolu ilə bir çox ingilis tacirləri gəldi. ***Tomas Olkok, Corc Renl*** və ***Riçard Çenin*** ticarət birliyi 1563-1565-ci ildə Azərbaycanda oldu. Onlar Azərbaycandan aldıqları xam ipəyi Rusiya vasitəsi ilə İngiltərəyə göndərdilər. 1565-1567-ci illərdə Azərbaycanda olmuş Artur Edvards I Təhmasiblə uğurlu daqışıqlardan sonra şahın özündən ingilis tacirləri üçün toxunulmazlıq məktubu aldı. O, Şirvandan vətəninə göndərdiyi birinci məktubunda yazırdı: «Hazırda buradan İngiltərəyə göndərmək üçün 11 tay xam ipək almışıq. Buranın ipəyi zərif və yüksək keyfiyyətlidir».

1568-1569-cu illərdə Volqa-Xəzər yolu ilə Artur Edvards, ***Con Sparka, Lorens Çepmen, Xristofor Dovset*** başda olmaqla yeni İngiltərə ticarət nümayəndəliyi Azərbaycana gəldi. Şah Təhmasib onlara da fərmanla ticarət imtiyazları verdi. Əslində bu, Artur Edvardsa əvvəlcə verilmiş fərmanın təkrarı idi. Bu fərmanda İngiltərə ticarət adamlarına öz pulları ilə karvansaralarda yer tutmaq, ev kirayələmək, azuqə almaq ixtiyarı verilirdi. 1569-1574-cü illərdə İngiltərədən Azərbaycana ***Tomas Benister*** və Ceffri Deketin başçılığı ilə beşinci, 1680-ci ildə isə Xristofor Berrounun başçılığı ilə altıncı ticarət nümayəndəliyi gəldi. Sonuncu hər iki gəliş uğursuz oldu. Tomas Benister ilə Ceffri Bekker geriyə dönərkən Volqada kazaklar tərəfindən qarət olundular. Xristofor Berrou Şirvanda müharibə getdiyinə görə alış-veriş edə bilmədi.

XVI yüzilin 80-ci illərindən Volqa-Xəzər yolu ilə ingilislərin Azərbaycanda ticarət aparması xeyli çətinləşdi. 1572-ci ildən Rusiya, İngiltərə tacirlərinin malları üzərinə çox ağır gömrük qoymuşdu. Digər tərəfdən isə Qafqazda yeni müharibələr başlanmışdı. Bu iki səbəb üzündən bu yolla ingilislərin Şirvana çıxışı mümkün olmurdu.

XVII yüzilin əvvəllərində Türkiyə ilə barışıqdan sonra Azərbaycanın Şərq və Qərb ölkələri ilə ticarət əlaqələri yenidən gücləndi. Türkiyə Azərbaycan tacirlərinə Aralıq dənizi limanlarına çıxıb Qərbi Avropanın Genuya, Venesiya kimi ticarət mərkəzləri ilə alış-veriş aparmağa razılıq vermişdi. 1635-ci ildə Şah I Səfinin Venesiya dojuna göndərdiyi məktubdan aydın olur ki, Türkiyəyə göndərilmiş elçi Ağarza İsfahani özü apardığı ipəyi Venesiyaya göndərmişdi. İpək orada satılıb pulu Venesiya bankına qoyulmuşdu. Həmin ildə Venesiyaya göndərilən ***Mirzə Əli Təbrizi*** və ***Baba Əli Ərdəbili*** Şah I Səfinin məktubunu doja verib, banka qoyulmuş pulu ayna, gözlük, tüfəng və mirvari ilə birlikdə götürdülər. Göründüyü kimi, ipək nəqd pula satılmaqla yanaşı, onun bir qismi başqa mallara dəyişdirilmişdi.

Türkiyə ilə Azərbaycan arasında möhkəm ticarət əlaqəsi yaranmışdı. XVII yüzilin 30-cu illərindən Azərbaycan tacirləri Qərb ölkələrinə Türkiyədən keçib gedir, Türkiyənin özü ilə də ticarət aparırdılar. Türkiyədə daha çox cins at, dəvə, xam ipək, rəng, parça satılırdı. Şarden orada satılan cins atın hər birinin qiymətinin 1000 frank olduğunu bildirmişdir.

XVII yüzildə Rusiya tacirləri Azərbaycan şəhərləri ilə ticarət aparır, Azərbaycan tacirləri də Rusiya şəhərlərində mallarını satırdılar. Həştərxan şəhərinin iqtisadi əhəmiyyəti çox artmışdı. Qərbi Avropadan, Azərbaycan və başqa Şərq ölkələrindən ***Həştərxana*** tacirlər gələrək mallarını dəyişir, yaxud nəqd pula satırdılar. Azərbaycan tacirləri Rusiyada və rus tacirləri Azərbaycanda dövlət səviyyəsində qorunurdu. 1618-ci ildə Şah I Abbasın sarayına göndəridən Rusiya elçisi ***M.M.Baryatinski*** Şirvan bəylərbəyi ilə görüşü haqqında yazır: «***Yusif xanla*** söhbət zamanı bildirdi ki, sizin böyük hökmdarın ticarət adamları bizim Şah Abbasın vilayətinə gələrkən birinci Şamaxıya daxil oldular. Sizin ticarət adamlarınızı da şahınki kimi qoruyaram. Bütün təbəələrimə əmr edirəm ki, ticarət adamlarınızı incitməsinlər».

Rusiya ilə Azərbaycan arasında alış-veriş Volqa-Xəzər su yolu və Dərbənddən keçən qədim quru karvan yolu ilə aparılırdı. Dərbənd-Şabran-Muğan çölü, Cavad-Ərdəbil-Xalxal-Zəncan-Sultaniyyə-Əhər başlıca ticarət yolu idi. Şamaxı, Ərəş, Təbriz, Marağa şəhərləri də bu karvan yolu ilə bağlı idilər. Volqa çayı ilə gələn gəmilər isə Xəzərin Dərbənd, Niyazabad, Bakı limanlarına yan alırdılar. Tacirlər bu limandan yenə də quru karvan yoluna çıxıb mallarını istədikləri şəhərlərə aparırdılar.

1680-ci ildə Hollandiya elçisi öz ölkəsinin tacirlərinə Rusiyadan Azərbaycana gedən karvan yollarından istifadə etməyə icazə verilməsi barədə Rusiya dövləti qarşısında məsələ qaldırmışdı, Hollandiya tacirlərindən gömrük alınmamalı idi. Bunun müqabilində onlar Rusiya xəzinəsinə hər il 15 min manat verməyi öhdələrinə götürdülər. Ancaq rus tacirlərinin təzyiqi ilə çar ***Mixail Fyodoroviç*** (1645-1676 bu təklifi rədd etdi.

Buna baxmayaraq Hollandiya tacirləri Səfəvi dövlətində xam ipəyin əsas alıcıları idilər. Onlar okeanlardan keçən karvan yolları ilə ticarət aparırdılar. Şardenə görə Hollandiya tacirləri hər il şahın adamlarından 600 tay ipək alırdılar. İngilis tacirləri Səfəvi imperatorluğu bazarlarından hollandları sıxışdırmağa çalışırdılar. XVII yüzilin ortalarında hollandlardan sonra Azərbaycan ipəyinin əsas alıcıları ingilislər idi.

XVII yüzilin ikinci yarısında Qərbi Avropa kapitalı Rusiya kapitalının rəqabəti ilə də qarşılaşdı. 1667-ci ildə Rusiya hökuməti, ***Culfa ticarət şirkəti*** ilə müqavilə bağladı. Müqaviləyə görə şirkət xam ipəyi Rusiyaya satmalı, yaxud Avropaya Rusiya vasitəsi ilə ixrac etməli idi. 1672-ci ildə ***Şah Süleyman*** (1664-1694) çar ***Aleksey Mixayloviçə*** yazdığı məktubda Culfa şirkətinin bağladığı müqavilə ilə razılaşdığını bildirirdi.

Rus tacirlərinə Azərbaycanda gömrüksüz ticarət etmək, karvansara və ticarət evlərindən pulsuz istifadə etmək hüquqları verilmişdi. Amma buna baxmayaraq Rusiya tacirləri Şərq bazarlarında Qərbin ticarət adamlarını sıxışdıra bilmirdilər. ***Sanson*** yazır ki, XVII yüzilin sonlarında Hollandiya tacirləri Azərbaycanla ticarətdə əvvəlki üstünlüklərini saxlayırdılar.

**TORPAQ SAHİBLİYİ.** Səfəvilərin hakimiyyətə gəlişi torpaq münasibətlərinə də dəyişiklik gətirdi. Torpaq münasibətlərinin məzmunu başlıca olaraq iri torpaq sahibliyi ilə yanaşı xırda kəndli təsərrüfatlarının varlığı ilə bağlı idi.

Dövlət torpaqları ***əraziyi-divani***, şah və onun ailə üzvlərinin torpaqları isə ***xassə ərazisi*** (əraziyi-xasseyi-şərifə) adlanırdı. Bu ikisi geniş torpaq sahələrini özündə birləşdirirdi. I Şah İsmayıldan başlayaraq Səfəvi şahları tutduqları yerlərdə torpaqları əvvəlki sahiblərinin əlindən alaraq divan, yaxud xassə əmlakına qatırdılar. Azərbaycanla yanaşı Fars, İsfahan və Heratda münbit torpaqların çoxu əraziyi-xassə idi. Hər iki əmlakın idarə olunmasına şah özü başçılıq edirdi. Əraziyi-divaninin maliyyə işləri ilə ***sərkari-divan***, xassəninki ilə ***sərkari-xassə*** məşğul olurdu. Divan torpaqlarından yığılan vergilər dövlət aparatı və qoşunun saxlanmasına xərclənirdi. Xassənin gəliri isə saray və şah ailəsinə sərf olunurdu.

Mülki və hərbi qulluqçulara xidmətlərinə görə, dövlət torpaqlarından ***soyurqal, tiyul*** (çox nadir hallarda iqta) adı ilə ömürlük, yaxud irsi mülklər verilirdi. Soyurqal, əslində iqtanın davamı idi. O da iqta kimi irsi olub nəsildən-nəslə keçirdi. Ancaq hakimiyyətə gələn hər bir yeni şah soyurqal sahibinin torpaq üzərində sahibkarlıq hüququnu fərmanla təsdiq etməli idi. Soyurqal sahibi inzibati-hərbi xidmətdə olmaqla, istənilən anda şah ordusuna müəyyən sayda atlı və piyada döyüşçü verməli idi. Soyurqal sahiblərinə ma'afi, yəni vergi imtiyazı verilirdi. Bu imtiyaz soyurqal sahibini dövlət vergisindən azad etmirdi. Ancaq soyurqal ərazisində bütün vergilərin toplanmasını onun ixtiyarına verir, soyurqalın maliyyə işlərinə dövlətin qarışması üzərinə qadağa qoyurdu.

Soyurqal ərazisi iqtadan geniş olurdu. Soyurqal sahibinə məhkəmə-inzibati hüquqlar da verilirdi. Soyurqal sahibi ona verilən ərazinin mülki, məhkəmə-inzibati, hərbi idarələrinə başçılıq edirdi.

Şah İsmayıl hakimiyyətə gəldikdən sonra Qaracadağ sufilərinə başçılıq edən Ənsarilərin Qaradağdakı soyurqal hüquqlarının saxlanması barədə fərman verdi. I Təhmasib Təbriz yaxınlığındakı ***Üskuyə*** kəndinin seyidlərinə soyurqallar payladı.

Bununla yanaşı, Səfəvi şahları dövlət hakimiyyətinin mərkəzləşdirilməsinə uyğun gələn yeni torpaq siyasəti yeritməyə çalışırdılar. Bununla bağlı irsi torpaq sahibliyini xidmətə görə verilən şərti mülklərlə əvəz etməyə başladılar. Başlıca məram xidmət müqabilində şərti torpaqlar alan əsilzadələrdən dövlət üçün yeni dayaq yaradılması idi.

Yeni sahibkarların torpaq üzərində irsi mülkiyyətçilik hüquqları azaldılıb kəsilir, bununla da əyanların mərkəzdənqaçma meyllərinin qarşısı alınırdı. XVI-XVII yüzillərdə soyurqal torpaq sahibliyi sıxışdırılır, onun əvəzinə tiyullar paylanırdı. Tiyul şərti mülk idi, dövlət qulluqçularına müvəqqəti, yaxud ömürlük verilirdi. Şahın fərmanı əsasında tiyul ərazisində toplanılan verginin bir hissəsi, yaxud hamısı tiyuldara çatırdı. Tiyul ərazisində tiyulların idarə hüququ yox idi. XVI yüzildə divan və xassədən bütöv bir mahal, yaxud yalnız bir kənd də tiyul kimi verilə bilirdi. Bəzən bir yer eyni vaxtda iki əsilzadəyə tiyul verilirdi. Təbii, tiyuldarlar belə tiyulda yaşamırdılar. Tiyuldan sonra çatası vəsaiti dövlətin maliyyə məmurları toplayıb verirdilər. Tiyuldara tiyulu idarə etmək hüququ çox nadir halda nəsib olurdu.

XVII yüzilin əvvəllərində dövlətin ixtiyarında olan torpaqlardan hərbçilərə *həmesalə* adlı tiyullar verilirdi. Həmesale tiyulları ilə onun sahiblərinin əlaqəsi olmurdu. Onlar tiyuldan onlara çatası pulu dövlət xəzinəsindən alırdılar. Otlaqları, əkin yerləri, oturaq kəndliləri olan mahallar köçəri və yarımköçəri tayfalara irsi dolanışıq üçün də verilirdi. Tayfalar üçün verilən torpaqlar həmin tayfanın başçısına (əmirinə) verilən tiyuldan fərqlənirdi.

Ən'ənəvi ***vəqf*** əmlakı xeyli genişlənmişdi. Vəqf əmlakına geniş torpaq sahələri ilə yanaşı kəhrizlər, dükanlar, rastabazarlar, sənətkar karxanaları, karvansaralar, dəyirmanlar, hamamlar və s. daxil idi. Vəqflər iki yerə bölünürdü. Bunlardan ***vəqfi-xeyriyyə*** dini idarələrin, ***vəqfi-əhliyyə*** isə din xadimlərnin mülkləri idi. Vəqflərin xüsusi vergi və məhkəmə imtiyazları vardı. Vəqflər xüsusi qaydalarla idarə olunur, onlardan dövlət vergiləri yığılmırdı. Onların toxunulmazlıq hüquqları var idi. Vəqf əmlakı satıla və bağışlanıla bilməzdi.

Vəsiyyətlərlə verilən əmlaklar hesabına məscid, mədrəsə xanəgahların vəqfləri genişlənirdi.

Feodalların şəxsi torpaq sahibliyi ***mülk*** idi. Mülk sahibinin islam qanunları əsasında dövlətdən torpaq almaq hüququ vardı. Eyni zamanda



dövlət də öz növbəsində xidmətlərinə görə ayrı-ayrı adamlara torpaq sahəsini mülk kimi bəxşiş edə bilərdi. Mülk sahiblərinin torpaqlarını sərbəst bağışlamaq, satmaq, varisinə vermək hüquqları var idi. Mülk sahibi torpağını vəsiyyətlə istədiyi dini idarəyə də bəxş edə, yaxud varsinin mülki hüququ saxlanılmaqla hər hansı vəqf əmlakının himayəsinə keçirə bilərdi. Son halda varis həmin torpağı alıb-satmaq hüququnu itirmiş olurdu. Yalnız vəqf himayəsinə keçən ata mülkünün gəlirindən pay almaq hüququ qalırdı.

***İcma*** torpaq sahibliyinə ***camaat*** da deyilirdi. Bu torpaqlar kənd icmaçılarının – camaatın istifadəsində idi. İcmanın başçısı ağsaqqal adlanırdı. O icmaçılar arasında vergiləri bölür və yığırdı. Əvəzində verginin müəyyən hissəsi ona çatırdı. İcma başçısı vəzifəsi çox vaxt irsən keçirdi. Hər bir icmanın sənətkarları var idi. Onlar xırda vergilər ödəyirdilər. Sənətkarları icma öz hesabına saxlayırdı.

Böyük torpaq sahibləri icmaları sıxışdırıb torpaqlarını ələ keçirirdilər. Onlar burada öz rəiyyətlərini yerləşdirib torpaqlarını onlara icarəyə verirdilər. İcarə haqqı olaraq götürülən məhsulun 2/3 hissəsi torpaq sahibinə ödənilirdi.

İcma torpaqları az məhsul verən dağlıq bölgələrdə daha çox qalırdı. Sayı getdikcə azalan azad icmalarla yanaşı dövlətə və iri torpaq sahiblərinə tabe icmalar da vardı.

**HAKİM ZÜMRƏ. KƏNDLİLƏR.** XVI-XVII yüzillərdə hakim zümrə dörd əsas qola bölünürdü: 1. Yarımköçəri qızılbaş tayfaların hərbi əyanları (başqa tayfalardan və şah qvardiyası sıralarından olan hərbçilər də buraya daxil idi, ancaq onlar sayca çox deyildi); 2. Ali müsəlman ruhaniləri; 3. Mərkəzi və yerli idarələrin mülki məmurları; 4. Qədim oturaq yerli əyanlar.

Hakim zümrə tərkibində qızılbaş tayfa əyanları başlıca yer tuturdular. Dövlətdə siyasi və hərbi hakimiyyət onların əlində idi. Səfəvi imperatorluğunun bütün yerli idarələrində də qızılbaş tayfa əyanları hakimiyyətdə olub, ən iri torpaq sahibkarları da onlar idilər. Şah I Abbasın islahatlarından sonra şah qvardiyası sıralarından yeni hərbi əyanlar yaranırdı. Ancaq yerli dayaqları olmadığı üçün onlar qızılbaş tayfa əsilzadələrini sıxışdıra bilmədilər. Şah I Abbasdan sonra qızılbaş tayfa əyanlaı ilə çəkişmədə onların əvvəlki mövqeyi sarsıldıldı. Onlar dövlət quruluşunda qızılbaşların hakimiyyətini qəbul etmək məcburiyyəti qarşısında qaldılar.

Vəqf əmlakı ilə bağlı olan ali müsəlman ruhanilərinin də böyük nüfuzu vardı. Onların çoxu iri torpaq sahibləri idilər. Mərkəzi və yerli idarələrdə çalışan məmurlar da hakim zümrənin mühüm qolu idilər. Maliyyə idarələrinin topladığı vergilərin müəyyən hissəsi onların saxlanılmasına xərclənirdi. Qədim oturaq əsilzadələr əsasən mülk sahibləri idilər. Qarabağ və Şirvanın bir çox mahallarının başçıları oturaq əyanlar içərisindən təyin edilirdi.

XVI-XVII yüzillərdə kəndlilərin təbəqələşməsi genişlənməkdə idi. Bu dövrdə kənd əhalisinin xeyli hissəsi ümumdövlət iqtisadi bazarı ilə bağlı olan varlı sahibkar kəndlilərdən ibarət idi. Azad kəndlilərin – icmaçıların sayı getdikcə azalır, torpaqlarını itirən kəndlilərin sayı isə artırdı. Torpaqsız və aztorpaqlı kəndlilər feodallardan torpaq icarəyə götürürdülər.

**VERGİ VƏ MÜKƏLLƏYİYYƏTLƏR.** Kənd və şəhər əhalisi dövlətə, sahibkarlara müxtəlif vergilər ödəyirdilər. Eyni zamanda bir çox mükəlləfiyyətlər daşıyırdılar. Səfəvilər dövründə vergilərin toplanmasında bir çox illər Uzun Həsənin Qanunnaməsi əsas götürülmüşdü. Ağqoyunlu sultan Yaqubun 1488-ci il fərmanında adı çəkilən 27, Ayqoyunlu Qasımın isə 1498-ci ildə soyurqal haqqındakı fərmanında xatırladılan 31 növ vergi və mükəlləyiyyətin, demək olar hamısı, qüvvədə qalırdı.

XVI yüzilin əvvəllərindən Azərbaycanın ictimai-siyasi, iqtisadi həyatındakı irəliləyişlər və Səfəvi şahlarının iqtisadi siyasətinə uyğun olaraq köhnə vergi sistemində müəyyən dəyişiliklər edilmişdi.

Şah I Təhmasib 1555/6-cı ildə vergi, mükəlləfiyyət və cərimələrin miqdarını aydınlaşdırmaq üçün 96 maddədən ibarət qanun verdi. Bu qanın (dəstur əl-əməl) daş üzərinə yazılıb Təbriz şəhərinin meydanına qoyuldu. 1565-ci ildə isə Azərbaycan, İraq, Fars, Xorasan, Şirvan və Kirmanda tacir və sənətkarlardan alınan tamğa vergisinin ləğv olunmasına dair onun fərmanı çıxdı. Zərbxanalardan da tamğa alınmasına son qoyuldu. Təbriz sənətkarlarına aid ayrıca fərman ilə şah onları qanunla toplanılan bütün vergilərdən azad etdi. Həmin fərman daş lövhə üzərinə yazılıb Təbriz məscidlərindən birinin qapısına bərkidildi. Rəiyyətin üzərinə qoyulan vergi və mükəlləfiyyətlərin sayı 35-dən çox idi. Alınan vergilər bir qayda olaraq maliyyə idarələrində vergi dəftərinə yazılırdı. Amma bir çox mükəlləfiyyətlər vergi dəftərlərində yazıya alınmırdı.

***Malcəhət*** (xərac) başlıca vergi olub, torpağın münbitliyinə və ya yığılan məhsulun həcminə görə alınırdı. Vergi ümumi məhsulun 1/5, yaxud 1/3 hissəsinə bərabər idi. ***Bağbaşı*** bağlardan toplanılan məhsulun 1/10 həcmində alınırdı; ***Çobanbəyi*** otlaqlardan istifadə əvəzinə alınırdı. ***Ələfə*** və ***Ülfə*** ordunun ərzağı və atlarına verilən yem, ***ulaq*** nəqliyyat mükəlləfiyyəti, ***qonalğə*** yol gedən elçi, qasid, məmura verilən yer və ərzaq, ***rəsmi-sədarə*** baş ruhani xeyrinə yığılan rüsum, ***rəsmi-vüzarə*** vəzirlərin xeyrinə alınan rüsum, ***rüsum darugəki*** polis rəisi üçün alınan rüsum, ***rüsum-ümmal*** maliyyə idarəsi işçiləri üçün alınan rüsum idi.

XVI-XVII yüzillərdə Azərbaycanda torpaq rentası məhsul, pul və biyar şəklində mənimsənilirdi. ***Avarizat*** adlı vergi məhsulla da, pula da alınır və bəzən isə işləyib ödəmə şəklinjə yerinə yetirilirdi. Ancaq əvvəlki yüzilliklərdə olduğu kimi vergilər əsasən məhsul (natura) şəklində ödənilirdi.



*ON ÜÇÜNCÜ BÖLÜM*

# XVI-XVII YÜZİLLƏRDƏ AZƏRBAYCAN MƏDƏNİYYƏTİ

## 1. ƏDƏBİ TÜRKCƏNİN, ƏDƏBİYYATIN YÜKSƏLİŞİ

**AZƏRBAYCAN TÜRKCƏSİ.** Azərbaycan Səfəvi dövlətinin yaranması ilə iqtisadi həyatın, mədəniyyətin yüksək dövrü başlanır.

XV yüzildə Azərbaycan mədəniyyətinin inkişafında Qaraqoyunlu və Ağqoyunlu hökmdarları ***Cahanşah, Uzun Həsən, Sultan Yaqub***, XVI-XVII yüzildə isə Səfəvi hökmdarları ***Şah İsmayıl Xətai, Şah I Təhmasib*** və ***Şah I Abbas*** böyük rol oynamışlar.

XVI yüzil türk dilinin dövlət, saray və diplomatiya dilinə çevrilməsi ilə ədəbi dilimiz daha da zənginləşdi, doğma dildə yazanların sayı artdı. ***Xətai, Həbibi, Füzuli, Qövsi, Məsihi*** və bir çox başqa böyük şairlər ana türkcədə yazıb-yaradırdılar. Bu dilin siyasi və mədəni dəyərinin yüksəlişi ilə bağlı farsca və başqa dillərdə yaradılmış bir sıra əsərlər türkcəyə çevrilirdi. ***Məhəmməd əl-Katib Şirazi*** («***Nişati***») 1538-ci ildə ***Təvəkküli ibn Bəzzazın*** min səhifəlik «Safvət əs-Səfa» («Safların safı») əsərini, 1542-ci ildə isə «Şühədanamə»ni türk dilinə tərcümə etmişdi. ***Məhəmməd Füzuli, Molla Hüseyn ibn Əli əl-Kasifinin*** «Rövzət üş-şühəda» («Şəhidlər bağı») əsərini türkcəyə tərcümə etmiş və ona «Hədiqətüş-şüəda» («Xoşbəxtlər bağı») adı verilmişdi.

XVI-XVII yüzillərdə Səfəvi hökmdarlarına türk dilində məktublar yazırdılar. ***Şah İsmayılın*** 1512-ci il mayın 12-də ***Musa Durğut oğlu*** adına buyruğu, ***Şah I Təhmasibin*** Türkiyə şahzadəsi ***Sultan II Səlimə***, ingilis kraliçası ***Yelizaveta Tüdora, Şah I Səfinin*** (1629-1642) Avstriya imperatoru və Macarıstan kralı ***II Ferdinanda*** (1619-1639), ***Şah II Abbasın*** Şirvan bəylərbəyi ***Hacı Mənuçöhr xana*** h. 1070 (1659/60)-cı ildə yazdığı məktublar türk dilindədir. Şah ***Sultan Hüseyn*** (1694-1722) Saksoniya şahzadəsi və Polşa kralı ***Fridrix Avqusta*** (1694-1733), həmin şahın elçisi ***Məmmədrza bəy*** 1714-cü ildə Fransa vəziri markiz ***de Torsiyə***, Fransanın baş vəziri ***Kolberə*** türkcə məktublar yazmışdır. Türkiyə sultanı ***Yavuz Səlim*** Şah I İsmayıla, Sultan Süleyman Qanuni Şah I Təhmasibə, Rusiya çarı 1618-ci ildə Şah I Abbasa türk dilində məktublar göndərmişdilər. Yüzlərlə belə məktub, sənəd və fərman Səfəvi dövlətində türk dilinin fars dilindən daha çox işləndiyini göstərir. Moskvada Rusiyanın Mərkəzi Dövlət Qədim Sənədlər Arxivində XVIII yüzilin əvvəlləri də daxil olmaqla, Səfəvi

dövlətinə aid yüzlərlə sənədlər, o sıradan diplomatik yazışma nümunələri var. Onların çoxu Azərbaycan türkcəsilə yazılmışdır. Bu barədə İtaliya səyyahı ***Pyetro della Valle*** (1586-1652) aydın məlumat verir. Bir müddət ispan donanmasında hərbi xidmətdə olmuş Pyetro della Valle 1614-cü ildə İtaliyadan Fələstinə göndərilən diplomatik heyətə cəlb olunur. Lakin diplomatik heyətdən ayrılıb Səfəvilər ölkəsinə gəlir. 1617-ci ildə Səfəvi sərhəddini keçən Pyetro della Valle qızılbaş atlıları ilə ilk dəfə qarşılaşır, onların hamısının türkcə danışdıqlarını gözləri ilə görür.

İsfahanda, Azərbaycandan uzaq bu İran şəhərində də o, eyni vəziyyətlə qarşılaşır. O yazır: «Sarayda aydın etdim ki, İranda farscadan daha çox türkcə danışırlar. Gerçəkdən türk dili İranın saray və böyüklərinin dilidir». Pyetro della Vallenin yazmasına görə qızılbaş əsgərləri türkdürlər, başqa millətlərdən yığılan qulamlar da «öz aralarında türkcə danışmaqla yanaşı, farsca bir şey bilmirlər. Onlara təlim türkcə keçirilir və şah da vaxtının çoxunu onların arasında olur. Şaha onlarla türkcə danışmaq daha asandır. Sonra türk dili getdikcə saray dili, dövlət başçıları və ordu dili olmuşdur». Bunu nəzərə alan Pyetro della Valle İsfahanda türkcənin qrammatikası və türkcə-farsca-italyanca sözlüyün hazırlanmasında iştirak etmişdir. Bu iki kitabın (qrammatika və sözlüyün) əlyazmaları Vatikan kitabxanasında saxlanılmaqdadır.

Pyetro della Vallenin, 1630-cu illərdə yeni İsfahanda olmuş almaniyalı böyük alim Adam Olearinin müşahidəsi üzrə rəsmi qəbul zamanı şahın türkcə danışması, divanxanada olan görüşdə və sarayda əcnəbi elçilərin şərəfinə verilən qonaqlıqda dövət nazirinin də (eşikağası başı və s.) türkcə danışmaları bu dilin gerçək dövlət dili səlahiyyətində olduğunu göstərir.

Fransız səyyahı ***Jan Batist Tevernye*** beləcə də yazır: «Saray adamlarının dili türkcədir». Ondan iyirmi il sonra İranda olmuş başqa bir alman elm adamı ***Engelbert Kempfer*** isə bu məsələyə ayrıca yer verərək yazmışdır: «Səfəvilər sülaləsinin ana dili olan türkcə İran sarayında geniş yayılmış bir dildir. Bu dil ölkə əhalisinin sadə danışıq dilindən (farsca nəzərdə tutulur. – *red.*) seçilir. Türk dili saraydan tutmuş yüksək rütbəli və mötəbər şəxslərin evlərinə kimi yayılmış və nəticədə elə olmuşdur ki, şahın hörmətini qazanmaq istəyən hər kəs bu dildə danışır. İndi iş o yerə çatmışdır ki, başı bədəni üçün dəyərli olan bir kimsəyə türkcəni bilməmək suç sayılır. Türkcə bütün Şərq dillərindən asandır. Türkcənin danışıq tərzindəki vüqar və səslənmə əzəməti onun sarayda və səltənət qəsrində *yeganə* danışıq dili olmasına gətirib çıxarmışdır».

Səfəvi dövlətində fars və ərəb dilində yazılan əsərlərdə Azərbaycan türkcəsinin örnəklərindən istifadə edilməsi bir qayda olmuşdur. XVI yüzilin görkəmli riyaziyyatçı və memarı ***Şeyx Bəhaəddin Amilinin*** «Kəşgül» əsərində Nizami, Xaqani, Şah Qasım Ənvar, Sə'di, Hafiz və başqa şairlə-



rin ərəb, fars dillərində yazılmış şeirləri ilə bərabər Füzuli Divanından türkcə parçalar verilmişdir.

XVI-XVII yüzillərdə Azərbaycan türkcəsi fars dilinin ədəbi-elmi sözlüyünə dəyərli təsir göstərmişdir. Azərbaycanlı ***Həsənbəy Rumlu, İsgəndər bəy Münşi Türkman, Xacə Nəsirəddin Tusi*** nəslindən olan ordubadlı ***Məhəmməd İbrahim əl-Nəsiri*** kimi görkəmli tarixçilərin farsca yazdıqları kitablar da, soyca fars olan ***Mirxondun*** «Həbib-əs-siyər» («Yaşayış dostu»), ***Fəzli İsfahaninin*** «Əfzəl ət-təvarix», ***Budaq Qəzvininin*** «Cəvahir əl-əxbar», ***Qazi Əhməd Quminin*** «Xülasət ət-təvarix», ***Məhəmməd Tahir Vəhidin*** «Abbasnamə», ***Məhəmməd Yusif Qəzvininin*** «Xoldi – bərin» («Daimi cənnət») adlı əsərləri də buna canlı sübutdur. Bu qaynaqlarda saysız türk sözləri işlənmişdir. Çoxunda yeri gəldikcə Azərbaycan şairlərinin türkcə şeirləri, ata sözləri verilmişdir.

XVI-XVII yüzillərdə Azərbaycanda və qonşu ölkələrdə yaşayan fars, gilək, mazandaranlı, kürd, talış, yəhudi və ermənilər türk dilini bilir, öz aralarında bu dildə danışır, bir çoxları onu yazı dili kimi də işlədirdilər.

**ƏDƏBİYYAT.** İran və Rusiyanın ədəbiyyatçı alimləri Səfəvilər zamanında fars şeirinin çöküntü keçirdiyini (***Mirzə Məhəmməd Qəzvini***), hətta bu dövrün fars poeziyası üçün tənəzzül çağı olduğunu (*Y.E.Bertels*) yazırlar.

***Abbas İqbal Aştiyani*** isə yazmışdır: «Səfəvilər və Afşarlar dövründə fars şeiri və ədəbiyyatı inkişaf etmədi, əksinə çox aşağı səviyyəyə düşdü, çox pis görkəm aldı». Bunun başlıca səbəbi Səfəvi dövlətində Azərbaycan ədəbi türkcəsinin aparıcı yer tutması, bu dövlətlə yanaşı Osmanlı dövlətinin qüdrətli bir siyasi-mənəvi faktora çevrilməsi, gündoğarda isə ***Baburlu*** və ***Şeybani*** Türk dövlətlərinin varlığı idi.

Səfəvi şahları özləri Azərbaycan türkcəsində şeirlər yazır və bu dildə yazanlara qayğı göstərirdilər. ***Şah I İsmayılın*** sarayında görkəmli Azərbaycan şairi, Göyçayda doğulmuş ***Həbibinin*** başçılıq etdiyi ədəbi məclis fəaliyyət göstərirdi. Bu məclis Ağqoyunlu hökmdarı Sultan Yaqubun dövründə yaradılmış, şah İsmayıl Xətainin illərində isə şairlərin və ədiblərin məbədgahına çevrilmişdi. Saray şairlərinin çoxu türkcə yazırdı.

**ŞAH İSMAYIL XƏTAİ.** 1487-ci il iyulun 17-də Ərdəbil şəhərində dünyaya gələn, soyca Şeyx Səfiəddinin türk nəslindən olan Şah İsmayıl Xətai şairlər sırasında böyük yer tuturdu. 37 il yaşamasına, vaxtının çoxunu dövlət işlərinə sərf etməsinə baxmayaraq, Xətaidən zəngin ədəbi irs qalmışdır. O, əsərlərini istər əruz, istərsə də heca vəznlərində yazırdı. Xətainin adı tarixə qəzəl, qəsidə və məsnəvi ustası, «Divan», «Nəsihətnamə» və «Dəhnamə» müəllifi kimi daxil olmuşdur.

Xətai dünyagörüşü etibarilə panteist şair idi. Həllac Mənsur və Nəsimi kimi, o da «ənəlhəqçilik» ideyasına tərəfdar çıxıb özünü «vəhdət gülzarının bülbülü» adlandırırdı. Xətai poeziyasında ehkamçılığa, mövhumatçılığa, insan mənəviyyatını büxovlayan zəncirlərə qarşı güclü bir etiraz səslənməkdədir. Onun şeirlərinə nikbinlik hakimdir. «Nəsihətnamə» xalq yaradıcılığının zəngin xəzinəsidir. ***İsgəndər bəy Münşi*** «Tarix-i aləm aray-i Abbasi» əsərində yazmışdır: «O həzrət (Şah İsmayıl – *red.*) şeir yazmaqda ali təbə malik idi. Lakin türkcə şeir yazmağa daha artıq həvəs göstərirdi... Xətai təxəllüsü ilə çox məşhur olduğu üçün bəyan olunmağa ehtiyacı yox idi». ***Sam Mirzə*** atası Şah İsmayılın ölümündən 27 il sonra tamamladığı «Töhfeyi-Sami» adlı təzkirəsində atasından bəhs edərək yazırdı: «O, dini və dünyəvi işlərə xeyli vaxt sərf etməsinə baxmayaraq, hərdən öz təbini də yoxlayırdı. Xətai təxəllüsü ilə türkcə və farsca şeirlər yazardı».

**FÜZULİ.** XVI yüzildə Azərbaycan ədəbiyyatının ən görkəmli yetişdirməsi ***Məhəmməd Füzuli*** (1498-1556) idi. O, Şərqin mühüm elm və mədəniyyət mərkəzlərindən biri olan Bağdadda yaşayıb boya-başa çatmışdı. XVI yüzillikdə Bağdad Azərbaycan Səfəvi dövlətinin tərkibində idi. XIII yüzildə Qarabağdan bura bir çox türk elləri, o sıradan Bayat tayfası köçürülmüşdü. Məhəmməd Füzulinin ulu babaları Bayat boyundandır.

Füzuli yaradıcılığı bir ədəbi dil olmaqla türkcənin inkişafında yeni bir mərhələ açdı. Şairin üç böyük şeir kitabı ilə yanaşı 13 əsəri məlumdur. Bunlardan on biri orijinal, ikisi isə tərcümə əsəridir.

Ərəb, fars və türk dillərinin mükəmməl bilicisi olan Füzuli «Leyli və Məcnun» poemasını Azərbaycan türklərinin dilində yazmışdır. Dünya ədəbiyyatı xəzinəsinin ən parlaq incilərindən olan bu poemanın əlyazması Yaxın və Orta Şərq ölkələrində geniş yayılmış və müəllifinə böyük şöhrət qazandırmışdı. O zaman yaşayan Azərbaycan şairlərinin bir çoxu kimi Füzuli də Şah İsmayılın hökmdarlığını yüksək qiymətləndirmişdir. İlk böyük əsərlərindən biri olan «Bəngü-badə»ni ona həsr etmiş, əsərin girişini «Şah İsmayılın şərəfinə mədh» adlandırmışdır. Ədəbiyyatçıların fikrincə Füzuli, «Ya rəb, bəlayi-eşq ilə qıl aşina məni» misrası ilə başlayan qəzəlini Xətainin «Ya ilahi, sən məni bi eşqi-canan eyləmə» sözlərilə başlanan qəzəlinə nəzirə yazmışdır.

Füzuli həm də dövrünün görkəmli alimi idi. O, musiqi, təbabət, astronomiya və fəlsəfəni yaxşı bilməklə yanaşı, həm də bacarıqlı tərcüməçi idi. Füzuli dünyagörüşü və əsərlərinin əsası ərəb dilində yazılmış «Mətlə ül-etiqad» (Etiqadın mənşəyi») əsərində öz əksini tapmışdır. Bu əsərdə Hindistan, İran, Ərəb Şərqi, Azərbaycan fəlsəfəsinin təhlili ilə yanaşı Heraklit,



Platon, Aristotel, Pifaqor və başqalarının adı ilə təmsil olunan antik fəlsəfə haqqında da bilgilər vardır.

Füzuli ana dilimizin gələcəyini düşünərək, onun ədəbi mövqeyinin güclənməsi yolunda qeyrətlə çalışırdı. Əsərlərindən birində şair yazmışdır:

Ol səbəbdən farsi ləfzilə çoxdur nəzm kim,
Nəzmi nazik türk ləfzilə ikən düşvar olur,
Ləhceyi-türki qəbuli-nəzmi-tərkib eyləyüb,
Əksəri-əlfazi namərbut, nahəmvar olur.
Məndə təvfiq olsa, bu düşvari asan eylərəm,
Nobahar olğac tikandan bərgi-gül izhar olur.

**ƏDƏBİ MÜHİTİN ÜMUMİ SƏCİYYƏSİ.** XVI-XVII yüzilin siyasi hadisələri ədəbi yaradıcılığa birbaşa təsir edirdi. Söz və sənət ustalarının bir çoxu sarayın ardınca Təbrizdən Qəzvinə, sonra isə İsfahana köç edib getmişdilər. İlk paytaxt Təbrizin əhalisi Şah Abbasın buyruğu ilə kütləvi şəkildə İsfahana köçürülürdü. Bununla bağlı Azərbaycan istedadlı şair, alim və sənətkarlarının çoxunu itirirdi. Bir çoxları isə təqib olunduqları üçün vətəndən çıxmalı olmuşdular. ***Mirzə Sadıq Ordubadi*** yalnız həcv yazdığı üçün Hindistana qovulmuş, şair ***Mirzə İbrahim Ordubadi*** də o ölkəyə mühacirət etmişdi. Şair alimlərdən ***Əbu Talıb Təbrizi*** və ***Mirzə Məhəmməd Ordubadi*** Şah Abbasın əmri ilə öldürülmüşdü.

***Şah I İsmayıl*** sarayı şairlərindən biri «Fəhmi» təxəllüslü ***Əmir Şəmsəddin Məhəmməd*** idi. O, doqquz il saray şairlərinin başçısı vəzifəsində çalışmış və zəmanəmizə qədər min beytlik qəsidə, qəzəl, rübaisi gəlib çatmışdır. XVI yüzilin görkəmli tarixçi və xəttatı ***Qazi Əhməd Qumi*** «Təzkirət üş-şüəra» adlı çoxcildli əsərində Azərbaycan şairləri sırasında ***Fəhmidən*** də bəhs etmiş, şeirlərini bir yerə toplayıb «Divan» şəklinə salmışdır.

XV yüzilin sonu, XVI yüzilin əvvəllərində yazıb-yaratmış şairlərdən biri də ***Həsiridir***. O, Azərbaycan türkcəsində ilk «Leyli və Məcnun» poemasının müəllifidir və əsəri 1525-ci ildə bitirmişdir.

Şirazlı olmasına baxmayaraq, ömrünün çoxunu Təbrizdə keçirmiş şair ***Lisani*** on beş min beytlik qəzəl toplusu yaratmışdır. Onun qəsidə, tərcibənd, tərkibbənd, müsəddəs və rübai formasında yazdığı şeirləri çox məşhurdur. Şair 1535-ci ildə Təbrizdə vəfat etmiş və Surxab qəbiristanlığında dəfn edilmişdir. Onun şagirdi ***Şərif Təbrizi*** isə türkcə və farsca şeirlər yazmışdır. ***Sadıq bəy Əfşar*** «Məcməül-xəvas» («Seçilmişlərin toplusu») əsərində Şərifin türkcə şeirlərindən iki beyt örnək gətirmişdir.

Cəhət nədür ki, bigun qavdur, müjən kibrit,
Səbəb nədür ki, gözün taşdır, qaşun çaxmaq.
Gözündə heç qara yox, gönül tamam qara,
Xilaf imiş bu ki, gözdən iraq, könüldən iraq.

Vətənindən mühacirət edən şairlərdən biri **Mövlana Kəlbəli** idi. O, türkcə və farsca şeirlər yazırdı. Kəlbəli şeirlərinin birində vətən həsrətini belə ifadə edir.

Gül fəsli bu yil əcəb baharım keçdi,
Qəm birlə bucaqlarda mədarım keçdi,
Sənsiz nə deyim, nə çəkmişəm əl-hasil,
Qanlar içə-içə ruzigarım keçdi.

Şah I Abbas 1590-cı ildə paytaxtı Qəzvindən İsfahana köçürdükdən sonra Təbriz və Qəzvindəki şair, ədib, rəssam, astronom, həkim və memarların çoxu İsfahana gətirilmişdi. Təbrizdən gələnlərin çoxu İsfahanın *Zayəndərud* çayı kənarında «Abbasabad» və ya «Təbarezə» («təbrizlilər») adlanan məhəllədə sakin olmuşdular. Bu vaxt İsfahan Azərbaycan mədəniyyətinin inkişaf etdiyi əsas şəhərlərdən biri olmuşdu.

İsfahanda yazıb yaratmış təbrizlilərdən «Zahidi» təxəllüsü şair ***Hüseyn Çələbi***, «Təsir» təxəllüsü ***Mirzə Möhsin***, onun oğlu ***Mirzə Qasım*** ad çıxarmışdılar. Mirzə Qasım tacir oğlu idi. O, İsfahanda Zayəndərud çayı yaxasında özü üçün gözəl bağ və yaraşıqlı mülk tikdirmişdi. O, mədrəsədə dəqiq elmlərdən dərs deyərdi. O çağın müəllifi ***Mirzə Məhəmməd Tahir Nəsrabadi*** «Təzkireyi Nəsrabadi» əsərində yazır: «hazırda o (Hüseyn Çələbi) təkcə Abbasabadın deyil, bəlkə də dünyanın yeganə gövhəridir. Bütün fənlərin bilicisi və zəmanənin misilsiz şəxsiyyətidir. Həm də şairdir: «Zahid» təxəllüsü ilə yazır».

***Sadiq bəy Əfşar*** Xudabəndəli elinin böyüklərindən olub Şah I Abbas dövrünün məşhur ədib və alimlərindən idi. Xudabəndəli eli Şah I İsmayılın hakimiyyətinin ilk illərində Şamdan könüllü köçüb Əcəm İraqı və Azərbaycanda yerləşmişdi. Sadiq bəy 1533-cü ildə Təbriz şəhərinin Vərci (keçmişdə Vicuyə) məhəlləsində anadan olmuş, iyirmi yaşından ***Əmir xan Mosullu*** və başqa qızılbaş xanlarının yanında xidmət etmişdir. Şah II İsmayılın zamanında Qəzvində dövlət kitabxanasında işləmiş, Şah II Abbas isə onu bu kitabxanaya rəis təyin etmişdi. O, «Sadiq» təxəllüsü daşıyırdı. Dövrünün tanınmış ziyalılarından biri idi, ona hörmətlə «Mövlana Sadiqi bəy», «Sadiqi kitabdar» deyirdilər.

Sadiq bəy Afşar Azərbaycan türkcəsini və fars dilini mükəmməl bilir, hər iki dildə əsərlər yazırdı. Qazi Əhməd Qumi yazır ki, hazırda Sadiq bəy padşahın (Şah I Abbasın) kitabxanasında kitabdarlıq işilə məşğuldur. Şeiri yaxşı deyir, çoxlu qəsidə, qəzəl, qit'ə və rübaisi vardır. Sadiq bəyin özü 1601-ci ildə on əsəri barədə yığcam arayış vermişdir. Onların arasında qəsidələr və rübailər kitabları, nəzmlə qələmə alınmış Şah Abbas fütuhatı, əlifba sırası ilə türkcə və farsca qəzəllər divanı vardır. Başlıca əsərlərindən



biri «Məcməül-Xəvass»dır. Bu əsər 1607-ci ildə Nəvainin «Məcalisün-nəfais» əsəri şivəsində Azərbaycan türkcəsində yazılmış təzkirədir. Bu əsər Şah I İsmayıl dövründən Şah I Abbas dövrünədək 480 söz ustadının həyatına həsr edilmişdi. Azərbaycan tarixinin dəyərli qaynağı olan bu kitabda Şah I İsmayılın sarayına yaxın olan şairlər, yüksək rütbəli əmirlər və başqaları haqda arayış verilmişdir. Onların sırasında ***Susənl bəy*** haqda yazılmışdır: «Əvaildə Şah (İsmayıl – *red.*) cənətməkanın müəzzəm qorucusu idi. Qızılbaş yeganə yigitləri arasında qəvardadə yigit idi. Əmir Əlişir Nəvai şeirinə gəp sərrastdur. Divanı natamam qalub». Daha bir Azərbaycan şairi ***Pirqulu bəy Ustaclu*** da dövlət qulluğunda idi. Sadiq bəy yazır: «Pirqulu bəy... Ustaclu əqrabasındandır... Dövlətmənd kişidir. Şeir həm ayıtır, divan itmamına müvəffəq olubdur».

Sadiq bəy Afşarın bir sıra minatür rəsmləri də bəllidir. Onlardan ikisi Krakov muzeylərindən birində saxlanılır. Sadiq bəyin daha bir mühüm kitabının rəssamlıq sənətinə aid olması təbiidir. Bu kitab «Qanun üssüvər» («Rəssamlıq qanunları») adlanır.

**SAİB TƏBRİZİ.** ***Mirzə Məhəmmədəli Mirzə Əbdürrəhim oğlu*** Təbrizdə anadan olmuş və ilk təhsilini orada almışdır. Yeni hakimiyyətə gələn Şah I Abbasın göstərişi ilə Təbriz əhalisi kütləvi surətdə şəhəri tərk edərkən şairin atası İsfahana köçmüşdü. Saib orada, Abbasabad məhəlləsində yaşayıb boya-başa çatmışdır. Farsca qəzəllərindən birində şair, «Saibdir Təbrizin o pak torpağından» yazır. O, təbrizli olması ilə şeirində öyünməkdən çəkinmirdi:

Saib, gündən-günə çiçəklənən gözəl təbindən,
Baş qaldırır Təbrizim bütün şəhərlər içindən.

XVII yüzildə Azərbaycan və İran şairləri arasında Saib məşhur söz ustası kimi tanınırdı. Saib gənc yaşlarında Hindistana gedib oranın əmirlərindən, xüsusilə Zəfər xandan hörmət görmüş, sonra yenidən İsfahana qayıtmışdı. Nəsrabadi yazır: «Hal-hazırda İsfahanda yaşayır və bütün xalq onun söhbətlərindən faydalanır. Onun 120 min beytdən ibarət külliyyatı vardır». Təəssüf ki, Saibin ana dilində yazdığı şeirlərdən çox azı günlərimizə gəlib çatmışdır. O dəfələrlə Ərəbistan, Əfqanıstan, İran və Türkiyədə olmuş, dövrünün sultanları, şahları, vəzirləri, alimləri, filosofları, şair və ədibləri ilə görüşmüşdür. Şah II Abbas dövründə Mövlana Saib Məlikküşşüəra ləqəbini almışdır. Saib, Şah Abbasın Hindistan padşahı Şah Cahanla savaşı və Qəndəharın alınmasına 135 beytlik qəsidə qoşmuş, Şah Süleymanın taxta oturduğu günə ayrıca qəsidə yazmışdır. Saibin bir çox sözləri və hikmətli deyimləri zərbi-məsəl kimi dillərdə gəzərək yayılmış, hələ sağlığında divanı Yaxın Şərqdə şöhrət qazanmışdı. Osmanlı dövləti elçi,

Hindistan şahı isə məktub göndərib onun divanını istəmişdilər. Səfəvi şahı Saibin divanını hədiyyə kimi onlara göndərmişdi. Osmanlı mədrəsələrində onun divanı bir dərslik kimi öyrənilirdi.

***Saibin*** «Qəndaharnamə», «Mahmud və Əyaz» məsnəviləri və bir neçə divanı ilə yanaşı 25 min beytdən ibarət olan «Bəyaz» adlı əsəri də vardır ki, burada 800 şairin adı çəkilmişdir. Saib gəzəlçilikdə yeni bir üslub yaratmış və buna görə ona *Qəzəl Tacıdarı* adı vermişlər.

Saib 1670-ci ildə İsfahanda vəfat etmiş və öz adını daşıyan təkyədə dəfn olunmuşdur.

XVII yüzilin ortalarında yaşamış ***Qövsi Təbrizinin*** də Azərbaycan dilində divanı bəllidir. Divanın bir nüsxəsi Gürcüstanda, digəri isə Britaniya muzeyində saxlanılmaqdadır. Qövsi İsfahanda təhsilini başa vurduqdan sonra bir müddət Qarabağ bəylərbəyisi Uğurlu xanın sarayında yaşamışdır. ***Məhəmmədəli Tərbiyətin*** «Danişməndani-Azərbaycan» əsərində Qövsinin türk və fars dillərində iki divanı olduğu bildirilir. Qövsi vətənini çox böyük vurğunluqla tərənnüm etmiş, onun şəninə nəğmələr qoşmuşdur.

***Məsihi*** ayaması ilə tanınan ***Rüknəddin Məsud*** 1580-ci ildə Kaşanda anadan olmuş, əsərlərini Azərbaycan dilində yazmışdır. Şair İsfahanda tibb təhsili aldığından xalq ona «həkim Rüknəddin» deyirdi. ***Məsihinin*** «Vəqa və Gülşa» adlı əsərinin bir nüsxəsi hazırda Britaniya muzeyində saxlanılır. Bu nüsxə 1655-ci ildə yazılmış və beş min beytdən ibarətdir. Məsihi qəzəl və qəsidələrlə yanaşı «Danə və dam» («Dən və tor»), «Zənbur və əsəl» («Arı və bal») adlanan iki poema da yazmışdır.

***Murtuzaqulu xan*** Şamlu elindəndir. Şah Səfi dövründə İrəvan qalası vuruşmasında igidlik göstərdiyi üçün Divanbəyi, II Şah Abbasın dövründə isə Qorçubaşı vəzifəsini tutmuş, Kirman bölgəsi ona tiyul verilmişdi. Sonra Ərdəbil şəhərindəki vəqf əmlakına mütəvəlli və vəzir qoyulmuşdur. Nəsrabadi onun dörd min beytdən çox şeir müəllifi olduğunu yazır.

Qarabağ bəylərbəyisi ***Uğurlu xan*** da «*Ziyadi*» təxəllüsü ilə şeir yazırdı. Əmisi Murtuzaqulu xan öldükdən sonra Qarabağ bəylərbəyisi vəzifəsində çalışmışdır.

XVI yüzilin sonundan başlayaraq Azərbaycan şairlərinin bir çoxu Hindistana köçüb getməli olmuşdu. Onlardan biri olan Rəhməti, Təbrizi tərk etməmişdən əvvəl də, sonralar da Azərbaycan türkcəsində xeyli şeir yazmışdır.

Azərbaycan ədəbiyyatı vətəndən uzaqlarda, Heratda, İsfahanda, Hindistanda Azərbaycan türkləri tərəfindən geniş yayılır və təbliğ edilirdi. Qəzvin, İsfahan şairlərinin məclisinə azərbaycanlı şairlər başçılıq edirdi. ***İczi Təbrizi***, paytaxt Qəzvinə köçürüldükdən sonra orada ***Əlirzayi Təbrizi*** ilə birlikdə şairlər məclisinin fəal iştirakçısı olmuş, sonra İsfahana köçmüş və orada öz yaradıcılığını davam etdirmişdir.



**AŞIQ SƏNƏTİ, DASTAN ƏDƏBİYYATI.** Təbriz XVII yüzildə də öz keçmiş əzəmətini itirməmiş, mədəniyyət mərkəzi kimi qalmış və inkişaf etmişdi. Evliya Çələbi Təbrizdə yaşayıb yaradan 78 məşhur şair haqqında məlumat vermiş, ***Yavəri Şami, Saib, Çakəri, Çayi, Razi, Seyid Vahidi, Mərdan Aqaxani, Qurbanqulu, Xacə, Qəndi, Mirzə Bəy, Hüsamağa Əlvəndağa, Rza Bəy, Kəlbəli*** və digər şairlərlə görüşdüyünü də qeyd etmişdir.

XVI yüzildə xalq şeirinin ən görkəmli nümayəndəsi ***Aşıq Qurbani*** idi. Xalqın həyatı, mübarizə və arzuları Aşıq Qurbaninin qoşma və dastanlarında öz əksini tapırdı. Qurbani el şairlərinin ustadlarından idi. Şah İsmayılın vəzirlərindən birinə xoş gəlmədiyindən İrana sürgün edilmişdi. «Mürşidi-kamilim, Şeyx oğlu şahım, bir ərzim var qulluğuna, şah, mənim» misraları ilə başlayan ***qoşmasını*** burada yazıb şaha göndərmişdi. Şahın göstərişi ilə sürgündən azad edilib doğma yurduna qayıdan Qurbani Şah İsmayıl Xətaini başqa bir qoşmasında «pirim» adlandırırdı.

XVII yüzilin ən görkəmli aşıqlarından biri Təbriz yaxınlığındakı Tufarqan kəndində dünyaya gələn ***Tufarqanlı Abbas*** idi. Qoşma, təcnis, gəraylı və ustadnamələri dillər əzbəri olan şair-aşığın həyat yolu sonralar xalq dastanına mövzü olmuşdur. «Abbas və Gülgəz» adlanan bu dastan sonra gələn aşıq şairlər üçün örnək və məktəb olmuşdur.

Bu dövrdən ***bayatı*** xalq ədəbiyyatının əsas qollarından biri idi. XVII yüzildə yaşayıb yaratmış ***Sarı Aşığın*** bayatıları geniş şöhrət qazanmışdı. Onun bayatıları dövrümüzə qədər gəlib çıxmışdır. XIX yüzilin təzkirəçisi ***Həsənəli Xan Qaradaği*** Sarı Aşığın Zəngəzur vilayətinə köçürüldüyünü bildirmişdir. Aşığın öz sözlərinə görə Qaraman aşirətindən idi. Qəbri Laçının Güləbird kəndindədir.

Aşıqlar ilə təmsil olunan el sənəti böyük bir dastan ədəbiyyatı ortaya gətirdi. XVI-XVII yüzillərdə Azərbaycan türklərinin yalnız mənəvi dünyası deyil, tarixi yaşayışı da xalq dastanlarında öz əksini tapmışdır. Onların sırasında romantik məhəbbət dastanı olan «Aşıq Qərib» böyük yer tutur. Dastanda Qərib və Şahsənəmin məhəbbəti ilə yanaşı Azərbaycan məmləkətinin, Təbrizin ağır günlərinin bədii təsviri verilmişdir:

Dinləyin ağalar, sizə söyləyim,
Yaman müşgül oldu işi Təbrizin.
Elə gördüm göydən yerə od yağır,
Birdən yandı dağı-daşı Təbrizin...

Bu dövrdə yaranmış görkəmli dastan-abidələrdən biri «Koroğlu»dur. Dastanda vətənin mənafeyini hər şeydən üstün tutan Koroğlu xalqın dönməz, yenilməz bir oğludur. Dastanda Koroğlu həm də el aşığıdır. Təbrizli Arakel yazır: «Bu haman Koroğludur ki, indi aşıqların oxuduğu bir çox mahnılar onundur».

1602-1603-cü illərdə Anadolu və Azərbaycanda çoxlu üsyançı dəstələr fəaliyyət göstərirdi. Türkiyədə Qara Yazıçı, Dəli Həsənin başçılığı ilə kəndli üsyanı xüsusi ilə qüvvətlənmişdi. Bundan 6 il sonralar başlanan Cəlali hərəkatı Azərbaycana da yayılmış oldu.

Cəlalilər Kiçik Asiyadan Azərbaycana gələrkən onları Təbrizdə I Şah Abbasın baş vəziri ***Hatəmbəy Ordubadi*** qarşılamışdı. Dastana görə Koroğlunun adı Rövşən olmuşdur. Onun qoca atasını yerli hakim kor etdirdiyi üçün Rövşən xalq arasında Koroğlu aldlanmışdır.

Cəlalilərin başçılarından biri olan Koroğlu tarixi şəxsiyyət sayılır. «Dədəm Qorqud» dastanında olduğu kimi «Koroğlu» dastanında da müxtəlif dövrlərdə baş vermiş tarixi hadisələr bir-birinə qovuşmuşdur. Şah I Abbas dövründə qoşmaları sevilə-sevilə aşıqlar tərəfindən oxunan Koroğlu, ağız ədəbiyyatında eyni ad daşıyn epik qəhrəman olmuşdur. Lakin əski türk dastanları yeni dastana qida vermişdir. Baş qəhrəmanın adı, görünür «Qoroğlu» imiş. Buradakı «Qor» kökü Oğuznamələrdə olan «Qorqud» adının da başlanğıcında durur. ***«Qırat», «Dürat»*** adları da oğuzların uzaq keçmiş anlayışları lə bağlıdır. Koroğlu dastanı Gürcüstan, Ermənistan, Türkmənistan və başqa ölkələrdə də geniş yayılmışdı.

Abbas Tufarqanlının şeirləri əsasında yaradılmış «Abbas və Gülgəz» dastanı, «Aşıq Qərib», «Koroğlu» və başqa dastanlar Azərbaycan XVI-XVII yüzil tarixi yaşayışı ilə yaxından bağlıdır. Yarımçıq qalan (yalnız parçaları bəllidir) «Şah Xətai» dastanı da bu qəbildəndir. Burada Şamlı Əbdi bəyin qızı Taclı bəyimin Çaldıran döyüşündə oxla yaralanması, sonra əsirlikdən qurtulması, əri Şah İsmayılın yanına dönməsi kimi qurama mövzular işlənmişdir. Çox sonralar eyni adlı milli opera mövzusu olmuş «Şah İsmayıl» dastanı isə Xətainin deyil, atasının əmri ilə uzun illər zindana atılan II İsmayılın həyat tarixçəsi ilə bağlıdır.

Bu dövrdə şifahi xalq yaradıcılığı motivləri əsasında poemalar yazılırdı. Fədainin «Bəxtiyarnamə» poemasında o dövrün siyasi şəraiti dastanı şəkildə qələmə alınmışdır.

**MAARİF VƏ MƏKTƏB.** XVI-XVII yüzillərdə maarif sistemində xeyli irəliləyiş olmuş, Təbriz, Şamaxı, Ərdəbil, Marağa və başqa şəhərlərdə məscidlərin nəzdində ibtidai təhsil ocaqları açılmışdı. Məktəblərin çoxu vəqf hesabına idarə olunur, bəzi məktəblərin xərcini isə şah ödəyirdi. Qaynaqların verdiyi məlumata görə, Şah Təhmasib Təbrizdə yetim uşaqlar üçün məktəb açdırmış, bu məktəbə müəllim və müəllimələr göndərmişdi. Belə məktəblərə «Yetimlər evi» də deyilirdi. Bu məktəblər ilbəil xəzinədən ayrılan qızıl pul ilə dolanırdı. Pullu özəl məktəblər də var idi. Bu məktəblərdə valideynlər müəllimə nəqd pul verməklə uşaqlarını oxudurdular.



İbtidai məktəblərdə əvvəlcə əlifba öyrədilir, sonra Qur'an əzbərləməsi başlayırdı. Məktəb illərində uşaqlar ***Übeyd Zakainin*** «Siçan və pişik», ***Fəridəddin Əttarın*** «Nəsihətnamə», ***Sə'dinin*** «Gülüstan» əsərlərindən, ***Hafiz*** «Divan»ından parçalar öyrənirdilər. ***Adam Oleari*** yazır ki, hər məhəllə və küçədə məscid, hər məsciddə isə məktəb və ya mədrəsə var idi. Hər bir məktəbdə mövlana və ya onu əvəz edən xəlifə müəllimlik edirdi. Şagird təhsilə Qur'an oxumaqla başlayır, türkcəni və farscanı, sərf-nəhvi öyrənirdi.

Səfəvilər dövründə islam ehkamlarının tədrisinə geniş yer verilirdi. Məktəb müəllimi «Allah qanunlarının mühafizəçisi» adlanırdı.

Məktəblərdə təlim fərdi yanaşma üsulu ilə aparılırdı. Əzbərçilik tədrisin əsas üsulu idi. Dərsini bilməyən şagirdlərə cismani cəza verilirdi. Bir sıra müəllimlər öz evlərində də məktəb açırdılar. Müəllimlik ən hörmətli peşə sayılırdı. Bəzi müəllimlər xeyirxahlıq edərək kasıb uşaqlarından təhsil haqqı almırdılar. Evliya Çələbi 1647-ci ildə Təbrizdə 600 məktəb və 47 mədrəsə olduğunu bildirmişdir.

Təbrizdə ***Şeyx Həq, Həsən Meyməndi, Tağıxan, Sultan Həsən, Sultan Yaqub*** (sonuncu ikisi Ağqoyunlu hökmdarları idi) adı daşıyan məktəblər var idi.

Şagirdlər ibtidai təhsil ocağı sayılan məktəbi bitirdikdən sonra orta təhsil verən mədrəsəyə daxil ola bilərdilər. Təbrizin ən böyük təhsil ocaqlarından biri «Sadiqiyyə» mədrəsəsi idi. Bu mədrəsəni Azərbaycanın maliyyə vəziri ***Mirzə Sədrəddin Məhəmməd oğlu Mirzə Sadıq*** doqquz ilə (1657-1666) tikdirmişdi.

Mədrəsə vəqf hesabına idarə olunurdu. İkimərtəbəli mədrəsə binasında 53 hücrə (otaq) var idi. Sonuncu sinif tələbələri binanın ikinci mərtəbəsində təhsil alırdılar. Müəllimlər otağı da burada idi. Birinci mərtəbə hücrələrində isə aşağı siniflər yerləşirdi. Hücrələrin bir qismi tələbə yataqxanası idi. Mirzə Sadıqın qardaşı ***Mirzə İbrahim*** də Təbrizin Surxab məhəlləsində, Seyid Həmzə məqbərəsi yanında mədrəsə tikdirmişdi. Təbrizin Cümə məscidi yanında «Talibiyyə» adlı başqa bir mədrəsə də var idi. Bu mədrəsələrdə xeyli tələbə təhsil alırdı.

XV yüzildə əsası qoyulmuş Cahanşah və Nəsriyyə mədrəsələri də Səfəvilərin hakimiyyəti dövründə məşhur tədris ocaqlarından idi.

XVI-XVII yüzillərdə Şamaxıda da məşhur mədrəsələr var idi. Şamaxıda olmuş alman səyyahı ***Adam Oleari*** 1637-ci il fevralın 5-də Şamaxı mədrəsələrindən biri haqqında yazır: «Mən bizim adamlardan bəziləri ilə birlikdə çox qəşəng tikilmiş və bazarın yanında yerləşmiş fəlsəfə kollecinə oxşayan bir binanın həyətinə girdim. Bu binada çoxlu kişi otaqları var idi. Bir neçə yerdə böyüklərin və uşaqların əllərində kitabla gəzişdiklərini və oturduqlarını görcək biz binanın nə olduğunu soruşduq. Cavabında öyrən-

dik ki, bura mədrəsədir. Yeni gimnaziya və ya akademiya ilə eyni şeydir ki, bunlardan Səfəvilər dövlətinin ayrı-ayrı yerlərində bir neçəsi var...» Oleari təhsil alan tələbələrdən birini yanına çağırıb burada müəllimin müdərris (mədrəsə müəllimi) adlandığını öyrənmiş, bu adın Avropadakı «professor və ya müəllim» anlayışına uyğun olduğunu bildirmişdir. O biri gün Adam Oleari yenə mədrəsəyə gəlir, burada diametri 8 düyüm olan səma qlobusu ilə tanış olur. Oleari yazır ki, «onlar da **üstürlabla** rəftar etmək qaydalarını bilir və bunu öz şagirdlərinə də öyrədirlər.... Onlar mənim qlobusumu əllərinə alıb onun üstündə astronomik bürcləri bir-bir axtarmağa və onların adlarını ərəbcə deməyə, xüsusilə Zodiakın 12 işarəsinin adlarını sadalamağa başladılar».

Oleari Şamaxı mədrəsəsində 65 yaşlı hicazlı bir qoca ərəb astronomun şagirdlərə ərəb dilində Evklidi öyrətdiyini yazır.

XVII yüzilin ortalarında Azərbaycanda olmuş Evliya Çələbi Şamaxıda 40 məktəb və 7 mədrəsə olduğunu bildirir.

Mədrəsələrdə ilahiyyat, hesab, cəbr, həndəsə, astronomiya, coğrafiya, tibb, fəlsəfə, tarix, ədəbiyyat fənləri öyrənilirdi. Orada ***Aristotelin*** fəlsəfi əsərləri, ***Sə'dinin*** «Gülüstan»ı, ***Mirxondun*** «Rovzət üs-səfa»sı, ***Xacə Nəsirəddin Tusinin*** əsərləri, ***Nizami Gəncəvi, Xaqani Şirvani, Şəms Təbrizi, Əssar Təbrizi, Marağalı Əvhədi, Hafiz*** və ***Caminin*** əsərləri, ayrıca Füzulinin «Leyli və Məcnun»u tədris edilirdi. Lakin dərslik kitablarının çoxunun müəllifi ***Xacə Nəsirəddin Tusi*** idi. Bununla yanaşı ***Aristotel, Evklid, Arximed*** və ***Qalileyin*** əsərlərindən də istifadə edilirdi. Bir müdərris bir neçə fəndən dərs deyirdi.

Avropa səyyahlarının fikrincə Azərbaycanda astronomiya, fəlsəfə, riyaziyyat və bir sıra digər fənlərin tədrisi Avropa tədrisinə uyğun gəlir, onlardan geri qalmırdı. ***Tavernyenin*** yazdığına görə riyaziyyat, həndəsə fənləri burada 800 il qabaq, yeni VIII yüzildən öyrənilirmiş. Fransız taciri yazır ki, «onların məntiq, ilahiyyat, fizika, riyaziyyatın müxtəlif şöbələri barədə dərin bilikləri var və çalışırlar ki, hər bir məsələnin elmi kökünü axtarıb tapsınlar».

Mədrəsələrdə dərs deyən müdərrislər arasında dövrün tanınmış elm adamları da olmuşdur. Hətta uzaq şəhərlərdən tələbələr gəlib belə müdərrislərin mühazirələrini dinləyirdilər. Çox vaxt müdərrisin 100-dən artıq tələbəsi olurdu.

Tibb sahəsində də xeyli inkişaf nəzərə çarpırdı. ***Əbu Əli İbn Sinanın*** «Tibb haqqında qanun» kitabı təbabət üzrə başlıca dərslik idi. ***Qalileyin, Calinusun*** kitablarından da istifadə olunurdu.

XVI-XVII yüzillərdə tanınmış müdərrislərdən ***Mövlana Əbdülsəmədi, Qazi Şeyxəmini***, təbrizli ***Mirzə Vaqini, Mövlana Rəcəbəli Vahidi***, riyaziyyata aid gözəl əsərləri ilə ad qazanmış ***Mövlana Nəsrulla Xalxalini***



xatırlatmaq olar. Bunların bəzisi Azərbaycandan uzaqlarda, İsfahan, Məşhəd və sair şəhərlərdə tədris işilə məşğul olurdu. Mövlana Rəcəbəli İsfahanda ***Molla Şeyx Lütfülla*** mədrəsəsində işləyirdi. Yaxşı müəllim olduğuna görə Şah II Abbas İsfahanın ***Şəmsəbad*** məhəlləsində öz hesabına ona ev tikdirmişdi. Mövlana Rəcəbəli H. 1070 (1659-60)-cı ildə vəfat etmişdir.

Tanınmış Azərbaycan müəllimlərindən ***Şəbüstərli Əbülfəth*** Dəməşqə gedib orada işləyirdi. Ondan bilik alıb elm öyrənmək istəyən onlarca tələbə alimin hücrəsinə toplaşırdı. Əbülfəth 1554-cü ildə taun xəstəliyindən vəfat etmiş, ***Cəbəl Qasiyun*** dağının ətəyində dəfn edilmişdir.

***Molla Əliqulu Xalxali*** İsfahanda tədris işilə məşğul idi. O, həm də şair idi, «Vaqif» təxəllüsü ilə yazırdı. Ordubadlı ***Mirzə İbrahim*** Hindistanda müxtəlif elmlərdən dərs deyirdi.

Səfəvi şahlarının göstərişi ilə saray qulluqçuları təhsil almalı idilər. *Tavernye* yazır ki, cavan şahın buyruğu ilə 400-500 nəfər gənc əsilzadə oxuyub yazmağı öyrənmişdi. Onların təhsil xərclərini şah ödəyirdi.

Şahlar övladlarının da təhsil almasına qayğı ilə yanaşırdılar. Təbrizli ***Mirzə Müqim*** İsfahanda Şah I Abbasın qızı ***Zübeydə bəyimə*** dərs deyirdi.

## 2. ELM

**TARİXÇİLİK.** XVI-XVII yüzillərdə Azərbaycanda elm də inkişaf edirdi. Bu dövrdə bir sıra alimlər yetişmişdi. Elmin bir neçə sahəsinə yiyələnmiş alimlər görkəmli mütəxəssis sayılırdı.

Xalqın mədəni-tarixi irsinin öyrənilməsinə olan maraq xeyli qüvvətlənmişdi. O zaman «***Təzkirə***» adlanan məcmuələr yazılırdı. Bu təzkirələrdə şairlərin, alimlərin hal tərcüməsi və əsərlərindən parçalar verilirdi. Şah I İsmayılın oğlu ***Sam Mirzənin*** 1550-ci ildə Ərdəbildə farsca yazdığı «Töhfeyi-Sami» («Samın töhfəsi») təzkirəsi 664 şairin yaradıcılığını əhatə edir. Şah I İsmayılın nəvəsi ***İbrahim Mirzə*** isə «Fərhəngi İbrahimi» («İbrahimin lüğəti») təzkirəsini yazmışdı. İbrahim Mirzə doğma dillə yanaşı farscanı və ərəbcəni də gözəl bilirdi. O, yaxşı təhsil almışdı. Sərf-nəhv, ilahiyyat, nücum, məntiq, fəlsəfə, tibb, hesab, həndəsə elmlərinə dərindən yiyələnmişdi. Onun türkcə və farsca yazdığı üç min beytlik şeirini ***Qazi Əhməd Qumi*** divan halına salmış, İbrahim Mirzənin qızı ***Gövhərşah bəyim*** isə bu divana giriş yazmışdır. İbrahim Mirzənin sarayında alimlər toplaşırdı. O, 24 fevral 1577-ci ildə II Şah İsmayılın əmrilə öldürülmüşdür. I Şah Təhmasibin özünün də «Təzkireye Şah Təhmasib», «Bəyazi mükalimeyi – şah Təhmasib ba elçiyan-i Rum» adlı tarixi yazıları qalmışdır. Mətnləri Sankt-Peterburq Dövlət kitabxanasının əlyazmalar bölməsində saxlanılır (Ərdəbil Darül-İrşad kitabxanası talan edildiyi zaman Rusiyaya gətirilmişdir).

XVI-XVII yüzillərdə Azərbaycan tarixinin öyrənilməsi sahəsində çox işlər görülmüş, qiymətli tarixi əsərlər yazılmışdır. O çağın tanınan tarixçilərindən biri ***Həsən bəy Rumludur.*** O, h. 937 (1530/31)-ci ildə Qum vilayətində anadan olmuşdur. 1541-1572-ci illər arasında I Təhmasibin yürüşlərində iştirak etmişdir. Şah Təhmasibin vəfatına kimi sarayda yaşamış, II Şah İsmayıl hakimiyyətə gəldikdə saraydan uzaqlaşdırılmış, Sultan Məhəmmədin dövründə yenə Qəzvinə qayıtmışdı. Vəfat etdiyi il bəlli deyildir. Həsən bəy Rumlu 10 cildlik tarixi əsər yazmışdır. «***Əhsənüt-təvarix***» («Tarixlərin ən yaxşısı») adlanan bu əsərin ancaq IX-X cildləri dövrümüzə gəlib çıxmışdır. Burada Şah I Təhmasib dövrünün ictimai-siyasi, iqtisadi və mədəni həyatı barədə maraqlı məlumat verilir.

Azərbaycanın Türkman elindən olan ***İsgəndər bəy Münşi*** (1560-1634) peşəkar tarixçi olmaqla yanaşı həm də uzun illər sarayda katib (münşi) vəzifəsində işləmiş; 32-33 yaşlarında I Şah Abbas dəftərxanasının baş katibi olmuşdur. İsgəndər Münşi uzun müddət «Xülasət əl-təvarix» əsərinin müəllifi ***Qazi Əhməd Qumi*** ilə birlikdə hərbi səfərlərdə olmuşdur. Şahın hökm və fərmanlarını da o yazırdı. Müəllif Azərbaycanın bir çox şəhərlərini gəzmişdi. Tarixi əsərində həmin şəhərlərdən Təbriz, Ərdəbil, Naxçıvan, Əhər, Xoy, Makı, Gəncə, Ordubad, Şamaxı, Bakı haqqında maraqlı məlumatlar vermişdir. O, Bağdad, Kərbəla Nəcəfdə də olmuşdu. H. 1017 (1608/09)-ci illərdə ***Cəlalilər*** Azərbaycana gələrkən onlarla görüşmüş və baş vəzir ***Hatəm bəy Ordubadinin*** göstərişi ilə onları siyahıya almışdı. 12 fəsildən ibarət olan «Tarix-i aləm aray-i Abbasi» («Dünya bəzəyi Abbasın tarixi») əsəri İsgəndər Münşinin tarix sahəsində şah əseridir. Həmin əsərdə Səfəvilərin soy ocağı (şəcərəsi) verilmişdir. Şah I İsmayıldan Sultan Məhəmməd Xudabəndəyə kimi Səfəvilərin siyasi tarixi yığcam şəkildə qələmə alınmışdır. Şah I Abbasın hakimiyyətinə isə geniş yer verilmişdir. İsgəndər bəy Münşi «Tarix-i aləm aray-i Abbasi»ni bitirdikdən sonra Şah I Səfi (1629-1642) dövrünün tarixini yazmağa başlayır. Ancaq 1634-cü ildə vəfat etdiyi üçün bu əsər yarımçıq qalmışdır.

Şah I İsmayıla həsr edilmiş və müəllifi bəlli olmayan «Tarix-i Şah İsmayıl-i Səfəvi» adlı əsər onun uşaqlıq illərindən başlayaraq şahlıq taxtına çıxmasına qədər həyat yolunun çox mühüm dövrünü əhatə edir.

Şah I İsmayılın rəssam ***Kəmaləddin Behzadı*** Təbrizdə Şah kitabxanasına rəis təyin etməsi haqqında 1522-ci il tarixli fərmanın mətni İran tarixçisi Mirxondun «Nameyi-Nami» («Məşhur məktub») əsərində qələmə alınmışdır. Həmin əlyazmanın bir nüsxəsi Azərbaycan Əlyazmaları İnstitutunda mühafizə olunur. O dövrün Azərbaycan tarixinin öyrənilməsində Xondəmir ləqəbli tanınan ***Qiyasəddin Hüseyn*** (1475-1536), ***Mir Yəhya Qəzvini*** (1481-1555) kimi İran tarixçilərinin «Hədid üs-siyər», «Lübbət-təvarix» («Tarixlərin qəlbi») adlı əsərləri çox dəyərlidir.



Hindistanda Əhmədnağar sultanının I Təhmasib sarayında elçisi ***Xurşah İbn Qubad*** da tarixçi idi. O, bir neçə il Şirvan və Gürcüstanda yaşamış, «Tarix-i elçiye Nizamşah» əsərində Azərbaycan tarixinə geniş yer vermişdir.

Mənşə etibarilə kürd olan ***Şərəfxan Bidlisi*** (1543-1598) I Təhmasibə çox yaxın olmuş, 1578-ci ilə kimi Azərbaycanda yaşamışdır. Onun iki cildlik «Şərəfnamə» əsərinin 2-ci cildi Osmanlı və Səfəvi dövlətlərinin tarixinə həsr edilmişdir.

XVI yüzilin görkəmli şəxsiyyətlərindən biri də 1515-ci il avqustun 20-də Təbrizdə anadan olmuş ***Xacə Zeynəlabdin Əli Əbdi bəydir.*** Atası vəfat etdikdən sonra təhsildən əl çəkib Şah Təhmasibin dəftərxanasında maliyyə qulluqçusu işinə girmiş, Gürcüstanda yaşamış, 1566-1573-cü illərdə Qəzvindən Ərdəbil şəhərinə gəlib 7 il Şeyx Səfiəddin məqbərəsində işləmişdir. 60 yaşında yenidən Qəzvinə dönüb bir neçə il orada yaşamış, sonra bir daha Ərdəbilə qayıdıb 1580-ci ildə ömrünü burada başa vurmuşdur.

Əbdi bəyin 1570-ci ildə yazdığı «Təkmilətül əxbar» («Xəbərlərin təkmili») əsəri XVI yüzilin 60-70-ci illərində dövlət işlərində fəal iştirak etmiş Şah I Təhmasibin qızı ***Pərixan xanıma*** (1548-1578) ithaf olunmuşdur. Səfəvi sarayında bu əsərə böyük diqqət verilirdi. Onun yazılması haqda I Təhmasib türkcə xüsusi bir fərman vermişdi. Ümumtarix səpkidə yazılmış bu əsərdə Şah I Təhmasibin hakimiyyəti 1560/61-ci illərə qədər izlənilmişdir. Əsərin dördüncü və sonuncu hissəsi Azərbaycan tarixi üzrə tutarlı qaynaqlardan biridir.

Dövrünün görkəmli tarixçisi, türk və fars dillərinin gözəl bilicisi ***Qazi Mir Əhməd Münşi Qumi*** 1546-cı ildə Qum şəhərində anadan olmuş, 11 yaşında ikən öz ailəsi ilə birlikdə Məşhədə, Şahzadə İbrahim Mirzənin sarayına köçmüş və orada 20 il yaşamışdır. Bir müddət Şah Təhmasibin sarayında katiblik etmiş və bir sıra mühüm dövlət sənədlərinin üzünü köçürmüşdür.

Mir Əhməd Qummi 1576-cı ildə Şah II İsmayılın əmrilə «Xülasət ət-təvarix» əsərini yazmağa başlamışdır. 1581-ci ildə Şah Abbasın atası Sultan Məhəmmədin sədarət divanına vəzir təyin edilir. 1598-ci ildə bir zaman atasının Məşhəddə vəzir işlərkən Şah kitabxanasından aldığı kitab qaytarılmadığı üçün suçlanmış, Şah I Abbas onu vəzifədən çıxarmışdı. Vəzifə şöhrətini itirmiş Qazi Mir Əhməd Qumda yaşayır. 1606-cı ilin may ayında Qəzvində Ərdəbilin məşhur xəttatlarından olan ***Mövlana Məhəmməd Əmin*** ilə görüşür, sonra vətəni tərk edərək Hindistana köçür. Ölüm tarixi bəlli deyildir.

Qazi Mir Əhməd Qum şəhərində anadan olmasına baxmayaraq Azərbaycan dilinə heç vaxt biganə qalmamış və əsərində Azərbaycan dilində çoxlu şeir, məktub, atalar sözü və istilahlar vermişdir.

«Xülasət ət-təvarix» əsərinin sonuncu, beşinci cildi Səfəvilər hakimiyyətinin 1578-1591-ci illərini əhatə edir. Qazi Mir Əhməd əsərində Azərbaycanın ictimai-siyasi, iqtisadi tarixi ilə yanaşı mədəniyyəti barədə də geniş məlumat vermişdir. Müəllif altı cildlik «Təzkirət Əş-şüəra» əsərinin bir cildini Azərbaycan şairlərinə həsr etmişdir. Bu əsərin («Xülasət ət-təvarix») əlyazmasını İran alimi ***Ehsan Eşraqi*** fars dilində iki cilddə 1970-ci ildə Tehranda çap etmişdir.

***Fəzli İsfahani*** peşəkar tarixçidir. Ömrünün çoxunu Qarabağ və Gəncədə keçirmiş, bir neçə il Şəkidə yaşamışdır. O, 1617-ci ildə Qarabağda «Əfzələt-təvarix» («Tarixlərin ən ləyaqətlisi») adlı üçcildlik əsəri yazmağa başlamışdır. Birinci cild ilk Səfəvi hökmdarı Şah I İsmayılın hakimiyyəti dövrünü, ikinci cild 1524-1587-ci illərin hadisələrini, üçüncü cild Şah I Abbas və Şah I Səfinin hakimiyyəti dövrlərini əhatə edirdi. (Son cildin yazılıb qurtarması barədə hələlik məlumat yoxdur.)

Şah I Abbasın baş münəccimi ***Cəlaləddin Məhəmməd Yəzdinin*** «Tarix-i Abbasi» əsəri Azərbaycan tarixi üçün çox əhəmiyyətlidir. Müəllif 19 il Şah I Abbas sarayında baş münəccim vəzifəsini tutmuşdu. Bu müəllif, ***Mirzə Fətəli Axundovun*** «Aldanmış kəvakib» əsərinin qəhrəmanı ***Yusif Sərracın*** 1593-cü il avqustun 7-də şahlıq taxtına oturdulub, üç gün sonra öldürülməsində böyük rol oynamışdır.

Cəlaləddin Məhəmməd Yəzdinin əsəri Şah I Təhmasib, Şah II İsmayıl, Sultan Məhəmməd Xudabəndə və Şah Abbasın 1612-ci ilə qədərki hakimiyyət illərini əhatə edir. Əsərdə Azərbaycanda olan 29 qalanın adı çəkilir. İsfahana köçürülmüş təbrizlilərin Şah I Abbasın siyasətinə qarşı 1590-91-ci il üsyanı ilk dəfə bu əsərdə xatırladılır. Cəlaləddin Məhəmməd Yəzdi Azərbaycanı yaxşı tanıyırdı, Təbrizdə, Ərdəbildə, Meşgində, Qarabağda, Naxçıvanda, Gəncədə və Ağcabədidə olmuşdu. Onun əsərində ***Hatəm bəy Ordubadinin*** Cəlaliləri Təbrizdə qarşılayarkən türkcə dediyi beyt olduğu kimi verilmişdir:

> Nə xoş ixlas ilə on min Cəlali,
> Urumdan gəldilər şahi zəmanə...

***Məhəmməd Yusif Qəzvininin*** «Xolde bərin» («Daimi cənnət») əsəri də Azərbaycan tarixi üçün dəyərlidir. O, «Tarix-i Abbasi» əsərinin müəllifi Məhəmməd Qəzvininin kiçik qardaşıdır. «Xolde Bərin» ümumtarix səpkisində yazılmış 8 cildlik bir əsərdir. Sonuncu cild özü də 8 bölmədən ibarətdir, hər bir bölmə Səfəvi şahlarından birinin hakimiyyətinə həsr edilmişdir. Lakin cildlər və bölmələr dağınıq halda dünyanın müxtəlif kitabxana və muzeylərində saxlanılmaqdadır. Son cildin VI-VII bölmələri ***Şah Səfi*** və ***Şah II Abbasın*** hakimiyyəti illərini əhatə edir. Burada Azərbaycanın ictimai-siyasi, iqtisadi tarixinə dair maraqlı məlumatlar vardır. Şah II Abbasın H. 1070 (1659-60)-cı ildə Şirvan bəylərbəyi Hacı Mənuçöhr xana türkcə yazdığı məktubun mətni burada verilmişdir. Bu şahın əmri ilə h.1068 (1657-580)-ci ilə Güney Azərbaycan və Qarabağdan 15 min Azərbaycan türkü ailəsinin Kaxetə köçürülməsi də bu əlyazmada xatırladılır.

«Məcmueyi-mürasilat» («Məktublar toplusu») adlı əsərin müəllifi ***Heydər Evoğludur***. Müəllif 1636-cı ildə eşikağası başı vəzifəsinə təyin edilmiş, Şah II Abbasın əmrilə öldürülmüşdür. Əsər Şah I Səfinin əmrilə yazılmağa başlamış, Şah II Abbas zamanı sona çatdırılmışdır. Əsərdə hökmdarların bir-birinə yazdığı məktublar, bir sıra dövlətlərlə bağlanılmış müqavilələrin mətni verilmişdir. Əsər iki hissədən ibarətdir. I hissədə XI yüzildən Səfəvilərə qədər olan sənədlər, II hissədə isə Şah İsmayıldan Şah II Abbasın hakimiyyətinə qədər olan məktub və sənədlər verilmişdir. Əslində bu, türk və fars dilində sənədlər toplusudur.

**BAŞQA BİLİK SAHƏLƏRİ.** XVI-XVII yüzillərdə elmin digər sahələri də xeyli inkişaf etmişdi. Şarden yazır: «İranlıların (səyyah, azərbaycanlıları da iranlı hesab etmişdir – *red.*) müxtəlif elmləri, incəsənət və texnikanı öyrənməyə yüksək qabiliyyətləri vardı». XVII yüzildə Azərbaycanda məntiq, fəlsəfə, təbabət, riyaziyyat, astronomiya və sair sahələrdə xeyli görkəmli alim yetişmişdi. Belə alimlərdən biri ***Şükrulla Şirvani*** idi. O, Sultan Məhəmməd Fatehin oğluna ithaf etdiyi «Riyazül-ülum» əsərinin bir neçə fəslini təsəvvüf, məntiq, nücum, astronomiya, hesab fənlərinə həsr etmişdir. Digər şirvanlı alim ***Mövlana Mirzə Məhəmməd*** bilik adamları yanında çox böyük hörmət və nüfuz qazanmışdır. Nəsrabadi yazır ki, Mövlana Mirzə ictimai və dəqiq elmlər sahəsində bir günəş idi. O, İsfahana getdikdən sonra görkəmli alim ***Molla Məhəmmədtağı Məclisinin*** yanında olmuş, orada bir neçə il elm həvəskarlarına dərs demişdi.

Azərbaycan filosofu ***Qarabağlı Yusif Məhəmmədcan oğlu*** (1645-ci ildə vəfat etmişdir) fəlsəfə və hüquq məsələlərinə həsr olunmuş bir sıra əsərlərin müəllifidir. Onun əsərlərindən uzun müddət mədrəsələrdə tədris vəsaiti kimi istifadə edilmişdir.

Şah I Abbas dövrünün görkəmli alimlərindən biri də «Danişmənd» ləqəbi almış təbrizli ***Mirzə Əbdülbaqidir***. O, Azərbaycanın məşhur alimlərindən idi. ***Məhəmmədəli Tərbiyət*** «Danişməndani-Azərbaycan» («Azərbaycan alimləri») adlı əsərində yazır ki, bu əyalətin əhalisi onun biliyinə və kamalına böyük ehtiram bəsləmişlər. İran alimləri onu dövrünün dühası sayırdılar. «Əl-xəttatin» təzkirəsində onun haqqında deyilir: «Mövlana müxtəlif elm və fənlərdə, o cümlədən fəlsəfə, riyaziyyat, ədəbiyyat, ərəb dilçiliyi və digər sahələrdə öz dövrünün məşhur şəxsiyyətlərindən olmuş və rəvan şeir təbi var idi. «Baqi» təxəllüsü ilə tanınırdı». O həm də məşhur xəttat idi. *Mövlana Mir Əbdülbaqi Mövlana Mirzəcanın* şagirdlərindən

olmuşdur. Bir çox elmlərə yiyələnmiş Mövlana Əbdülbaqi Əbdürrəhim xanın dəvətilə Hindistana getmiş və orada da böyük hörmət qazanmışdı. Alim bir müddət Bağdadda yaşamışdır. ***Mövlana Əbdülbaqi*** «Nəhcül-bəlağə» əsərinə fars dilində geniş şərh yazmış, bundan əvvəl Qur'ana təfsir yazmışdır. O, 1626-cı ildə yaxşı xətlə qəsidə yazmışdır. 1629-cu ildə vəfat etmişdir.

XVI yüzilin bilik adamlarından biri də təbrizli ***Kərbəlayi Baba Fərəcdir***. O, Təbrizdən və onun ətrafından çıxmış fəzilətli şəxslər və övliyaların türbələri barədə «Rövxatül-cinan» əsərini yazmışdır. Müqəddimə, səkkiz fəsil və xatimədən ibarət olan bu əsər 1567-ci ildə sona çatmışdır. Bu, o zamana qədər Təbriz və onun ətrafında dəfn edilmiş görkəmli şəxsiyyətlər haqqında epiqrafik bilgi verən ilk əsərdir. Görkəmli şəxsiyyətlərin uyuduğu türbələrin bir çoxu zaman ötdükcə itib batır. Belə əsərlər isə yaşayır.

Dövrünün görkəmli alimlərindən biri Şah I İsmayılın nəvəsi, Bəhram Mirzənin oğlu ***İbrahim Mirzə*** (1543-1576) idi. O, ilahiyyat, fəlsəfə, tibb, həndəsə, hesab, nücum, məntiq, musiqi elmlərini gözəl bilirdi. Ərəb və fars ədəbiyyatı, sərf-nəhv sahəsində görkəmli və mahir mütəxəssis idi. O, «Cahi» təxəllüsü ilə şeir yazırdı. Onun türkcə-farsca yazdığı üç min beytdən ibarət şeirlərini ***Qazi Əhməd Qumi***, «Divan» şəklinə salmışdır.

Şah I Təhmasib qızı Gövhərsultan xanımı İbrahim Mirzəyə ərə vermiş, Xorasanın idarəsini ona tapşırmışdı.

İbrahim Mirzə riyaziyyat, nücum və musiqi elmlərində ustad sayılırdı, bu sahədə kitablar yazmışdı. O, astrologiya rəmləri və musiqi vahidləri yaratmış, əruz və qafiyə elmlərini yaxşı bilmişdir. İbrahim Mirzənin məclisləri həmişə elm və ədəbiyyat xadimlərinin yığıncağı olurmuş. Xorasandan keçib Hindistana səfər edən hər bir söz ustasını İbrahim Mirzə bir müddət yanında qonaq saxlayarmış. Onun ən yaxın dostlarından ***Mövlana Qasım Qanunu*** gözəl kanon çalan və dövrünün məşhur musiqiçilərindən olmuşdur. İbrahim Mirzə, Şah II İsmayılın əmrilə 1576-cı il fevralın 24-də öldürülmüşdür. ***Gövhərsultan xanım*** ərinin ölüm xəbərini eşitdikdə İbrahim Mirzənin bütün kitablarını və albomlarını suya atmış, daş-qaşlarını qırıb yandırmış və ərindən bir-iki gün sonra xəstələnərək ölmüşdür. İbrahim Mirzənin qızı ***Gövhərşah bəyim*** ata və anasının meyitlərini Qəzvindən Məşhədə aparmış və Müqəddəs Türbə yanında dəfn etmişdir.

***Kəmaləddin Hüseyn bəy Xacə Ərdəbili*** bir müddət Şeyx Səfi mədrəsəsində tədris işilə məşğul olmuşdur. 1543-cü ildə yetmiş ildən çox ömür sürdükdən sonra vəfat etmiş, Ərdəbil şəhərində dəfn edilmişdir. Yazılarında «İlahi» təxəllüsü işlətmişdir. O, Azərbaycan türkcəsi, fars və ərəb dillərində 30 cilddən artıq kitab, kitabça, qeyd, əlavə və haşiyənin müəllifidir. O, Qur'ani-Kərimə fars və ərəb dillərində təfsir, ***Şəbüstərinin*** məşhur «Gülşəni-raz» əsərinə şərh yazmışdır.



***Füsuni Mahmudbəy Abdulla oğlu*** Təbrizin məşhur şair və alimlərindən idi. O, xəttatlıqda, nücum elmi sahəsində söhbət qazanmışdı. Onun hesaba aid yazdığı əsər dərslik kimi istifadə edilirdi. Alim fars dilində «Miftahül-məani» («Mənaların açarı») adlı lüğət kitabı da yazmışdı. O, ***Əkbər şahın*** dövründə Hindistana getmiş, orada saray münəccimi olmuş, sonra ölkənin maliyyə işlərinə başçılıq etmişdir. Füsuni 1617-ci ildə Allahabadda vəfat etmişdir.

**TƏBABƏT.** Təbabət mühüm elm sahələrindən biri idi. Azərbaycanda bir çox bilikli həkimlər vardı. Həkimlərə yüksək dərəcədə hörmət göstərilirdi; həkim, şahın müşaviri sayılırdı, çox vaxt vəzirlik rütbəsinə qədər yüksəlir, elçi sifətilə əcnəbi ölkələrə göndərilirdi. Ərdəbilli həkim Əbdi, Şah I Abbasın əmrilə Türkiyəyə elçi göndərilmişdi.

Səfəvilər dövründə həkimbaşı sarayda ən mühüm vəzifələrdən biri idi. Ölkənin bütün həkimləri ona tabe idi. Həkimbaşı yoxlamadan, ondan şəhadətnamə almadan heç kəs həkimlik işi ilə məşğul ola bilməzdi. İsfahan sarayında 14-16 həkim qulluq edirdi. Şah ildə onlara iki min tümən məvacib verirdi. Şahın sağlamlığını qorumaq məsuliyyəti saray həkimlərinin üzərinə düşürdü. 1667-ci ildə Şah Süleyman xəstələnmişdi. Həkimlər xəstəliyin müalicəsində aciz qalmışdılar. Lakin şah sağaldı, həkimlərdən acizlik göstərənlərə cəza verildi.

Tibb təhsili alan tələbələrin sayı çox idi. Onların əsas dərsliyi ***Qalileyin*** əsəri və ***Əbu Əli ibn Sinanın*** (980-1037) «Əl-Qanun fi-t-tibb» («Təbabət qanunu») kitabı idi. «Əl-Qanun fi-t-tibb» ərəb dilində olduğundan və tələbələrin çoxu ərəb dilini bilmədiyindən kitaba türkcə və farsca şərhlər yazılmışdı. Fiziologiya bilikləri isə, keçmişdə olduğu kimi, dörd tibbi ünsürün (qan, qara öd, öd, selik) mahiyyətini öyrənməyə yönəlmişdi. Müalicədə ***həcəmət*** vasitəsilə qan almaq başlıca yer tuturdu.

Azərbaycanda cərrahlıq da inkişaf etmişdi. Cərrahlar qan almaqda zəngin təcrübə qazanmışdılar. Qan alarkən qaytan və ya bağ ilə xəstənin bazusunu möhkəm bağlayıb nəştər vurur, sonra nəştəri götürürdülər. Cərrah bıçağı işlətməli olduqda, qoyun qovuğunun selikli təbəqəsindən əlcək kimi istifadə edirdilər. Cərrahiyyə əməliyyatı ən çox təsadüf nəticəsində və müharibələrdə xəsarət almış xəstələr üzərində aparılırdı. Əməliyyat zamanı xəstəni bihuş etmək üçün narkotik maddələrdən istifadə edilirdi.

Səfəvilər dövründə əczaçılıq işi də xeyli inkişaf etmişdi. Azərbaycan təbabət bitkiləri baxımından çox zəngin idi. Azərbaycanda elə bir xəstəxana yox idi ki, orada əczaxana olmasın. Evdə xəstə müalicə edən həkimlərin də özəl əczaxanası var idi.

Çox yaxşı tibbi arayış kitabları yazılırdı. Bunların arasında 1556-cı ildə yazılmış «Şəfayi tibb» adlı əczaçılıq kitabı seçilirdi. Bundan əlavə dərman hazırlamaq barədə IX yüzildə ***Səbur ibn Səhl*** tərəfindən yazılmış kitab-

dan və XII yüzildə ***İbn əl-Tərməzi*** tərəfindən yazılmış «Padzəhr» adlı kitabdan istifadə edilirdi. Dərman hazırlamaq üçün tibbi bitkilərin siyahısı verilən kitab və kitabçalar da yazılmışdı.

Tarixi qaynaqlarda bir sıra görkəmli həkimlərin Azərbaycanda çalışması bildirilir.

***Əlaəddin Təbrizi*** tanınmış Təbriz həkimlərindən idi. O, Təbriz şəhərində doğulmuş, orada boya-başa çatmış və Şah İsmayıl Xətainin yaxın adamlarından olmuşdur. Tibb lüğəti və terminləri haqqında əlifba sırası ilə «Kamili-Əlai» adlı əsər yazmışdır. Əlaəddin Təbrizinin atası ***Mirzə Məhəmməd*** «Fəxrül-əttiba» («Həkimlərin fəxri») adı ilə dövrünün məşhur həkimlərindən olmuşdur.

***Əbülfəth Təbrizi*** dövrünün çox məşhur həkimlərindən biri olmuşdur. Boyu qısa olduğu üçün ona «Kiçik həkim» deyirdilər. Xəstəliyi törədən səbəbləri düzgün aydınlaşdırıb diaqnoz qoyar, xəstələri çox yaxşı müalicə edərmiş. O, Şah II İsmayılın sarayında həkim vəzifəsində işləmişdir. Şah öldükdən sonra öz doğma şəhəri Təbrizə qayıdır və şəhər hakimi ***Mosullu Əmir xanın*** saray həkimi olur. Əmir xan cəzalandırıldıqdan xeyli sonra Şah I Abbas tərəfindən öldürülmüşdür.

***Əbu Talib Təbrizi*** Azərbaycan əyanlarından olub, həm də dövrünün görkəmli və bilikli həkimlərindən idi. Onun Qəzvin şəhərinin Daş meydanında xüsusi müalicəxanası var idi. O, Təbrizə qayıdıb bir müddət burada işlədikdən sonra Türkiyəyə getmişdir. Osmanlılar 1585-ci ildə Təbrizi tutduqdan sonra o yenə doğma şəhərinə dönmüş, Təbriz hakimi ***Cəfər paşa*** tərəfindən çox hörmətlə qarşılanmışdı. O, ömrünün son günlərini Təbriz şəhərində keçirmiş və 1606-cı ildə vəfat etmişdir.

***Naxçıvanlı İbrahim*** XVII yüzilin görkəmli həkimlərindən biri sayılır. Atası Zeynəlabidin onu Dəməşq şəhərinə göndərmiş və İbrahim orada tibb təhsili almışdı. Təhsilini başa vurduqdan sonra o, Dəməşqin baş həkimi vəzifəsinə qədər yüksəlir. Naxçıvanlı İbrahim ömrünün sonuna kimi Dəməşqdə yaşamışdır. O, 1648-ci ildə vəfat etmişdi.

***Məhəmmədtağı Tufarqanlı*** Tufarqanda anadan olmuşdu. O, mədrəsə təhsili alıb dövrünün bir çox elmlərinə yiyələnmiş, həkimliyi ***Mövlana Xəlil Qəzvinidən*** və qardaşı ***Mövlana Məhəmmədbağırdan*** öyrənmişdi. Həkim Məhəmmədtağı «Haşiyətül-iddə» («İddə kitabına haşiyə») və «Kəşkül» adlı əsərlərin, tibb elminə dair kitabların müəllifidir. Həkim Hacı Məhəmmədtağı 1682-ci ildə vəfat etmişdir.

***İmadəddin Mahmud*** dövrünün məşhur təbibi idi. O, bir müddət Şirvan bəylərbəyi *Abdulla xan Ustaclunun sarayında* həkim işləmişdi. Təbabətə dair əsərində dərman hazırlama, yoluxucu xəstəliklər, dəri xəstəliyini törədən səbəblər və müalicə qaydaları haqqında dəyərli məsləhətlər vermişdir.



Azərbaycan mədəniyyətinin inkişafında ***Şeyx Bəhaəddin Məhəmməd Amili*** mühüm yer tutur. Elmin müxtəlif sahələri üçün onun 20-dən çox əsəri vardır. Ensiklopedik biliyə malik olan Şeyx Məhəmməd astronomiyaya, riyaziyyata və tibbə dair əsərlər yazmışdır. Alim 1621-ci il avqustun 30-da vəfat etmişdir.

Azərbaycanda astronomiya elminə də qayğı göstərilməkdə idi. Şah İsmayıl Xətainin buyruğu ilə Marağa rəsədxanasını bərpa etmək üçün məşhur münəccim və riyaziyyatçı ***Qiyasəddin Mənsur Şirazi*** Marağaya göndərilmişdi. O, rəsədxananın bərpa edilməsi üçün 30 il vaxt lazım olduğunu müəyyən etdi. Şah İsmayılın vəfatı ilə rəsədxananın bərpa edilməsi baş tutmadı. Sonralar Şah I Abbasın əmrilə 1608-ci ildə yuxarıda adı çəkilən astronom və riyaziyyatçı Bəhaəddin Məhəmməd Amili şahın baş münəccimi ***Cəlaləddin Məhəmməd Yəzdi*** və təbrizi ***Əlirza*** Marağaya göndərildi. Onlar rəsədxananın layihəsini çıxarıb şaha təqdim etməli idilər. Lakin bu dəfə də Marağa rəsədxanası bərpa olunmamış qaldı.

## 3. İNCƏSƏNƏT

**TƏSVİRİ SƏNƏT.** Səfəvi hökmdarlarından Şah İsmayılın, Şah Təhmasibin, Şah I Abbas və Şah II Abbasın özlərinin gözəl sənətə və ədəbiyyata çox yaxın olması bu sahənin inkişafında öz təsirini göstərmişdi. Səfəvilər dövründə Təbriz miniatür məktəbi yeniləşib özünün yüksək inkişaf mərhələsinə çatır. Şah I İsmayılın istəyi ilə Bağdad, Herat, Şiraz və İsfahan rəssamları Təbrizə toplaşırdılar. Ancaq Təbriz əvvəldən miniatür mərkəzlərindən biri idi. Təbriz saray kitabxanası həm də miniatür məktəbi olmuşdur. Bu kitabxana bir zaman Ağqoyunlu sarayına məxsus idi. I İsmayıl Səfəvinin ixtiyarına keçdikdən sonra kitabxana işləri aramsız davam etmədə idi. ***Xəttat Əbdürrəhman Xarəzminin*** yaratdığı Nizami «Xəmsə»si buna canlı örnək sayılır (İstanbulun Topqapı muzeyindədir). Bu əlyazma üç Ağqoyunlu sultanı (Pirbudaq, Xəlil və Yaqub) zamanında yaranmış olsa da, miniatürlərin çoxu I İsmayıl şahlığa keçdikdən sonra çəkilmişdir. Amerika alimi ***S.K.Uelçin*** fikrincə əlyazma mətni Şah İsmayılın kitabxanasına Ağqoyunlu kitabxanası tərkibində keçmişdir.

XVI yüzilin başlanğıcında Təbriz miniatür məktəbi yeni bir inkişaf yoluna keçmişdir. Azərbaycan Səfəvi dövlətinin yaranması ilə ölkənin paytaxtı Təbriz yenidən Yaxın və Orta Şərq mədəniyyətinin mərkəzinə çevrildi. Mədəniyyətə və incəsənətə hakimlik edən Şah I İsmayıl və oğlu I Təhmasibin dövründə yenidən Şərqin görkəmli sənətkarları Təbriz saray kitabxanası və emalatxanasında çalışırdılar. Misilsiz ustad ***Sultan Məhəmməd, Mirzə Əli*** kimi istedadlı yerli rəssamlar ilə yanaşı Şərqin

görkəmli sənətkarları ***Kəmaləddin Behzad, Bədəxşanlı Mir Müsəvvir, Ağa Mirək İsfahani*** və başqaları fəaliyyət göstərirdi.

Sultan Məhəmmədin başçılığı ilə ustad rəssamların fəaliyyəti nəticəsində Təbriz sənətkarları yerli bədii ən'ənələri davam etdirməklə yanaşı, onu başqa məktəblərin görkəmli uğurları ilə daha da zənginləşdirmişlər.

Təbriz rəssamlıq məktəbi Herat boya sənəti ilə yaxın olmuşdur. Bu sənətin ən böyük ustadı ***Kəmaləddin Behzad*** 1522-ci ildə Təbrizə gəlmiş və Şah İsmayılın fermanı («Nişane kələntəri-ye ketabxane-ye hümayun») ilə Təbriz saray kitabxanasına başçı qoyulmuşdu. Ancaq Təbriz boya məktəbi bu zaman artıq boya-başa çatmış bir məktəb idi. ***Budaq Münşi Qəzvini*** «Cəvahir əl-əxbar» əsərində yazır: «...Ustad Behzad İraqa (İraqi Əcəmdə Təbriz nəzərdə tutulur – *Red.*) gəldikdə, Ustad Sultan Məhəmməd kitabxanasının işinə artıq həyat vermişdi və din pənahı şahın (I Təhmasibin – *Red.*) müəllimi idi». ***Qazi Əməd Qumi*** də bunu yazır. 1535-ci ildə Behzad öldükdən sonra kitabxana müdirliyi yenidən Sultan Məhəmmədə keçmişdi. Təbriz miniatür məktəbinin yaratdığı «İlkin Səfəvi üslubu» (qaynaqlarda «Qızılbaş üslubu» da işlənir) dinamik bir yol ilə yüksəlmədə idi. Çünki böyük əsərlərin yaranması on illərlə davam edirdi. Misal üçün Şah İsmayıl 1517-ci ildə Təbriz kitabxanasında oğlu Təhmasib üçün Firdovsi «Şahnamə»sinin yeni əlyazmasını yaratmağı tapşırdı. 60 min beytlik mətni, 258 miniatürü olan bu kitab 20 ilə, yeni 1537-ci ildə başa çatdı. «Şahnameye Təhmasibi» adlanan bu misilsiz əlyazma kitab baron ***E. de Rotşildin*** (Paris), 1959-cu ildən isə ***A.Hoqtonun*** (ABŞ) şəxsi toplusunda saxlanılır. Professor ***Uelç*** kitabda olan miniatürlərdən 78-ni çap etmişdir. «Şahnameye Təhmasibi» Təbriz miniatür və kitab sənətinin şah əsəridir. Bu əsərdə Təbriz məktəbi ustadlarından hər birinin öz payı, öz dəsti-xətti var. «Şahnamə»nin və «Xəmsə»nin adı çəkilən əlyazmaları üçün Təbrizdə yaşamağa başlayan Kəmaləddin Behzad da Sultan Məhəmməd Mir Müsəvvir ilə birlikdə rəsmlər çəkmişdir.

1539-1543-cü illərdə Şah Təhmasibin göstərişi ilə Təbriz kitabxanasında ***Nizami Gəncəvinin*** «Xəmsə»sinin yeni nüsxəsi yarandı. Nüsxənin ən dəyərli boya rəsmləri Sultan Məhəmmədin çəkdiyi miniatürlərdən ibarətdir. Bu əlyazmada Təbrizin başqa miniatürçü rəssamları da iştirak etmişlər.

Sultan Məhəmmədin, bütünlüklə Təbriz miniatür məktəbinin yaradıcılığında «Xəmsə»nin bu nüsxəsinə çəkdiyi «Xosrovun çimən Şirini seyr etməsi» və «Bəhram şir ovunda», Hafizin Divanına çəkdiyi «Sufi məclisi» («Meyxanada») və «Şam Mirzənin saray məclisi» rəsmləri böyük yer tutur.

Sultan Məhəmməd yaradıcılığının bədii xüsusiyyətləri miniatür sənətində yönəldici rol oynayırdı. Məşhur rəssamlar uzun zaman onun «tilsimindən» çıxa bilməmişdir. «Xəttatlar və rəssamlar» adlı əsərin müəllifi ***Dust Məhəmməd*** bu böyük fırça ustadını «öz dövrünün yeganəsi» adlandırır. Təbriz miniatür məktəbi haqlı olaraq Sultan Məhəmməd məktəbi sayılır.



Şah İsmayılın vəfatından iki il əvvəl Kəmaləddin Behzad saray kitabxanasına müdir keçdikdən sonra da Sultan Məhəmməd Təbriz məktəbinin işində aparıcı rol oynayırdı. Ömrünün sonlarında qocalıb əldən düşmüş Behzad maddi cəhətdən korluq çəkirdi. Şah Təhmasib hakimiyyətinin ilk on ilində o, saray ilə yaxınlaşa bilməmişdi. I Təhmasibə yazdığı məktubda Behzadın ağır maddi çətinliklər içərisində yaşadığını bildirir. «Şahnamə» üçün çəkdiyi miniatürlər müqabilində şahın vəd etdiyi zəhmət haqqını istəyirdi. Kəmaləddin Behzad 1535-ci ildə 80 yaşında vəfat etmişdir.

Sultan Məhəmməd XVI əsrin 30-40-cı illərində də fəal çalışmalarına davam etmişdir. ***Racer Seyvori*** onun 1543-cü ildə vəfat etdiyini bildirir. Lakin Şah Təhmasibin 1556-cı il tövbə fərmanından sonra saray kitabxanasından azad edilən rəssamlar sırasında Sultan Məhəmmədin də adı var, yeni hələ sağ idi. Sultan Məhəmməd uzun ömür sürmüşdür. O, oğlu Mirzə Əliyə və qız nəvəsi ***Mir Hüseynə*** rəssamlığın sirlərini öyrətmiş, 1521-ci ildə 7 yaşlı şah oğlu Təhmasibə də rəssamlıqdan dərs demişdi. Bu zaman onun 35-36 yaşında olduğu nəzərə alınarsa, ustadın 1485-86-cı illərdə anadan olduğunu ehtimal etmək olar.

Sultan Məhəmmədin ən yaxın tələbəsi və davamçısı oğlu ***Mirzə Əlidir***. O, 1539-1543-cü illərdə yazılan «Xəmsə» nüsxəsinə «Şapur, Xosrovun portretini Şirinə göstərir», «Xosrov Barbedin musiqisini dinləyir» və Ə.Caminin 1570-1571-ci ildə «Ləvaex» nüsxəsinə «Sarayda musiqi məclisi» adlı məşhur miniatürləri çəkmişdir. O, uzun illər atası ilə birlikdə saray kitabxanasında işləmişdir. Qazi Əhməd Qumi yazır: «Mirzə Əlinin rəssamlıqda və portret çəkməkdə tayı yox idi. Təsvir çəkməkdə çox az adam ona çata bilərdi. O, Şah Təhmasib kitabxanasında işləyirdi».

«Surət təsviri çəkməkdə Çin mütəxəssislərinin qələmini qırmış» (Dust Məhəmməd) ***Mir Müsəvvir*** də Təbriz saray kiabxanasında yaradılan «Şahnamə» və «Xəmsə» əlyazmalarına rəsmlər çəkmişdir. «Onun təsvirlərini tərifləməkdə dil və qələm acizdir» – deyən Dust Məhəmməd rəssam haqqında çox yüksək fikirdə olmuşdur. Hindistan Hakimi ***Humayun ibn Babur*** 1544-cü ildə Təbrizdə olarkən onu Şah Təhmasibdən istəyir, hətta əvəzində iki min tümən göndərəcəyini bildirir. Əsil adı Mənsur olan Mir Müsəvvir, oğlu Mir Seyidəli ilə birlikdə Hindistana gedir. Ata və oğul Təbriz miniatür üslub və ən'ənələrini Hindistanda geniş yaymış, orada da vəfat etmişlər. Kəmaləddin Behzadın şagirdlərindən ustad ***Dust Divanə*** də Təbriz şah kitabxanasında çalışmış, sonra Hindistanda Humayun şahın yanına getmişdi. O, zəmanəsinin məşhur Manisi idi.

İsfahanda anadan olub Təbrizdə boya-başa çatmış ***Cəlaləddin Ağa Mirək*** də Behzadın şagirdi idi. O, Şah Təhmasibin çox yaxın adamı olmuş, Sultan Məhəmməd, Behzad ilə yanaşı Təbriz miniatür məktəbinin yüksəlişində mühüm rol oynamışdır. «Misilsiz nəqqaş, hörmətli sənətkar» Ağa Mirək, hazırda Britaniya muzeyində mühafizə olunan «Xəmsə» əlyazmasına miniatürlər çəkmişdir. Onun miniatürlərində qadın surəti üstün yer tuturdu.

Təbriz saray kitabxanasında ***Mövlana Məhəmmədi,*** ustad ***Hüseyn,*** ustad ***Əbdülqafar***, ustad ***Həsənəli*** kimi sənətkarlar da çalışırdı. Dust Məhəmməd bunların dördünü də məşhur rəssamlar adlandırır. Ustad Məhəmmədi, Sultan Məhəmmədin şagirdlərindən idi. Onun miniatürlərinin mövzusu xalq həyatından götürülmüşdür. Təbriz miniatür məktəbinin ustaları içərisində əsli Mərvdən olan ***Bibicə,*** *Təbriz miniatür məktəbində ilk rəsam qadın idi.*

Kəmaləddin Behzadın şagirdi ***Müzəffər Əli*** miniatür sənətinin yüksəkliyində dururdu. Şah Təhmasib onun çəkdiyi miniatürləri Behzadınkılardan üstün tuturdu. Şah, çəkdiyi miniatürlər üzərində ona «Nəqqaşe Şahi» imzası atmağı əmr etmişdi.

Müzəffər Əlinin şagirdi ***Sadiq bəy Afşar*** («Kitablar») İsgəndər bəy Münşinin yazdığı kimi, «misilsiz rəssam, incə fırçalı nəqqaş» olmuşdur.

İkinci Səfəvi şahı özü də rəssamlıq dərsi almışdı. İsgəndər bəy bu barədə yazmışdı: «Alihəzrət şah Təhmasib məşhur ustad rəssam Sultan Məhəmmədin şagirdi idi... o, öz zəngin kitabxanasına Behzad və Sultan Məhəmməd kimi misli bərabəri olmayan sənət adamlarını toplamışdı. Onlar da öz zərif fırçalarının qüdrətilə nəcib sənətlərinin zirvələrinə yüksəlib məşhur olmuşlar».

Təbrizdə rəssamlıq atadan oğula nəsli sənət vəziyyətinə gəlmişdi. Rəssamlıq biliklərini Sultan Məhəmməd öz oğlu Mirzə Əliyə və qız nəvəsi Mir Hüseynə, Kəmaləddin Behzad bacısı oğulları Rümtəməli və Heydərəliyə, Heydərəli isə oğlu Müzəffər Əliyə, Mir Müsəvvir oğlu Mir Seyidəliyə öyrətmişdi.

Təbriz rəssamları kitab miniatürləri çəkməklə kifayətlənməyib Təbriz, Qəzvin, İsfahan, Ərdəbil saraylarının, məscid binalarının divar, tavan və qapılarını təsvirlərlə bəzəmişdilər. Artıq XV əsrin ikinci yarısında Ağqoyunlu hökmdarı Uzun Həsənin Təbrizdə tikdirdiyi «Həştbehişt» sarayının tavanına çox zəngin (qızılı, gümüşü və laciverdi) rəsmər çəkilmişdi. Sarayın böyük salonunda səhnəciklər, Osmanlı dövlətinin Ağqoyunlu sarayına göndərdiyi elçilərin Uzun Həsən tərəfindən qəbul olunması, elçilərin xahişləri və Uzun Həsənin onlara verdiyi cavabların mətni də tavanda həkk edilmişdi.



Şah I Təhmasibin əmrilə Qəzvindəki «Çehel sütun» sarayının böyük salonunda «sənətkarlıqda nadir olan nəqqaşlar, mahir rəssamların» əlilə Ordubad şəhərinin mənzərəsi çəkilmişdi. Bundan başqa rəssamlar xalı-xalça, parça üzərində toxunmaq üçün naxışlar və rəsmlər çəkirdilər. Şah Təhmasibin dövründə Təbrizdə toxunmuş, üzərində ov mənzərəsi təsvir edilmiş bir xalı hazırda Vyana şəhərindəki muzeydə saxlanılır. Mütəxəssislərin fikrincə xalı üzərindəki ov mənzərəsi Sultan Məhəmməd və ya onun şagirdləri tərəfindən çəkilmiş təsvir əsasında toxunmuşdur. Lakin XVI əsrin 40-50-ci illərində I Təhmasibin bəzi kəskin problemlərlə qarşılaşması boya sənətinə, Təbriz saray kitabxanasının işinə böyük zərbə vurdu. Şahın atadan bir, anadan ayrı ögey qardaşları Əlqas Mirzə və Sam Mirzə ona qarşı təxribata qoşuldular. Şirvanda Abdal-Qələndər sufiləri üsyan etdilər. Dövlət işlərində, orduda intizamı, qanunçuluğu bərkitmək məsələsi bütün kəskinliyilə ortaya çıxdı. Osmanlı dövləti ilə də barışığı qorumaq gərək idi. Belə bir şəraitdə I Təhmasib tövbə fərmanı verdi. Şah qızılbaşlar arasında, orduda içkiyə qadağa qoyub ömrünün sonuna kimi öz məclislərinə də yaxın buraxmadı. Şəhərlərdə içki evləri dağıdıldı. O, «Bəyazi-mükalimeyi-şah Təhmasib da elçiyan» risaləsində bildirir ki, şükr Allaha, indi məmləkətimdə şərabxanalar, qumarxanalar, naməşru yerlər yoxdur. Estetik görüşləri köklü dəyişikliyə uğrayan Təhmasib uzun illər sevdiyi rəssamlıq və xəttatlıq sənətinə də arxa çevirdi. Şahın əmrilə Təbriz saray kitabxanası bağlandı. Sultan Məhəmməd, Müzəffər Əli, Sadıq bəy Əfşar, Şirazdan, Astrabaddan, Kaşandan gəlib burada çalışan adlı-sanlı ustadlar dövlət qulluğundan çıxarılıb küçəyə atıldı. Təhmasib yalnız ustad Dust Məhəmmədi öz yanında saxladı. Ola bilsin paytaxtın Qəzvinə köçürülməsi (1555) müəyyən ölçüdə bununla bağlı idi. Çünki, tövbə fərmanı o biri il, yeni saray Təbrizdən köçürüldükdən bir il sonra verilmişdi. Bununla Təbriz miniatür məktəbinin böyük ənənəsi qırılıb yox olmadı. Qəzvində yeni saray kitabxanasının təşkili ilə bağlı Təbriz rəssam və xəttatlarından bəziləri Qəzvinə çağırılmışdı. Burada onlar əski bədii üslub və ənənəyə arxalanırdılar. Təbrizdə qalan ustadlar da işlərinə xitam verməmişdilər. İsgəndər bəy Münşiyə görə, dövlət kitabxanasının bağlanması ilə işdən çıxarılan ustadlara bundan sonra «özləri üçün çalışmaq» hüququ verilirdi. Şah Təhmasibin 1575-ci il fərmanı ilə əsli bağdadlı olub Təbrizdə boya-başa çatmış ***Mövlana Həsən Müzəhhibin*** Təbriz xəttatlarına, müzəhhiblərinə, rəssamlarına kələntər təyin edilməsi Təbriz miniatür məktəbi ənənəsinin hələ yaşadığını göstərir. 1593-cü ildə Şah I Abbasın əmrilə ***Əlizayi Abbasi Təbrizi*** məşhur rəssamların çəkdikləri miniatürlərdən və mahir xəttatların yazı nümunələrindən albom düzəltməyə başlamış, bu işi beş ilə başa vurub albomu şaha təqdim etmişdi.

XVII yüzilin əvvəllərində Şah I Abbasın təşəbbüsü ilə İsfahanda əsası qoyulmuş rəssamlıq akademiyası əsasında İsfahan təsviri sənət məktəbi yaradılmışdı. İtaliya təsviri sənətini öyrənmək üçün Romaya tələbələr göndərildi. Onların təqaüdünü şah özü ödəyirdi. Şah II Abbas da eyni işi görmüşdü. O tələbələrdən məşhur rəssam olmuş ***Məhəmmədzaman*** XVII yüzilin 40-cı illərində Romada təsviri sənətin incəliklərini öyrənmişdi. O, İtaliyadan İsfahana gəlmiş, sonra Hindistana gedib orada «Böyük Moğol» ***Şah Cahan*** sarayında işləmiş, 1675-ci ildə yenidən İsfahana dönmüşdür. O, «Şahnamə» və Nizami Gəncəvinin əlyazmalarına miniatürlər çəkmişdir.

Şah II Abbasın özü də rəssam olmuşdur. Rəssamlığı Filipp Anjell və Lekar adlı Hollandiyalı iki məşhur rəssamdan öyrənmişdir. Avropadan, xüsusilə Fransadan gətirilmiş təsviri sənət əsərləri də Şah II Abbasın çox xoşuna gəlirdi. O, öz əlilə ağacdan içki qabı, bir neçə boşqab və xəncər düzəldib qızıl və mina bəzəyi vurmaq üçün Tavernye vasitəsilə Hindistana göndərmişdi.

Təbriz miniatür məktəbi müxtəlif ölkələrdə rəssamlıq məktəblərinin, Yaxın və Orta Şərqdə rəssamlıq mərkəzlərinin inkişaf etməsində görkəmli yer tutur.

Hindistanda moğol miniatür məktəbinin inkişafında istedadlı rəssam ***Mir Seyidəlinin*** (ustad Mir Müsəvvirin oğlu) böyük rolu olmuşdur. O, 20 ildən artıq (1549-1570) Hindistanda imperator **Hümayun Mirzə** və ***Əkbər padşahın*** saray kitabxanasında işləmiş, 40-dan artıq yerli və gəlmə rəssamların yaradıcılıq fəaliyyətinə rəhbərlik etmişdir.

Şiraz məktəbinin yaranması və inkişafına da Təbriz məktəbi köklü təsir etmişdir.

Müxtəlif səbəblər üzündən Türkiyədə olmuş Azərbaycan rəssamları XVI əsr Türkiyə miniatür sənətinin inkişafında mühüm rol oynamışlar. Sultan sarayının xüsusi emalatxanasına Təbriz sənətkarı ***Şahqulu*** rəhbərlik etmişdir. 1525-ci ildə İstanbulda Sultan sarayında çalışan 29 rəssamdan üçü (Şahqulu, Məlik Əhməd, Hacı bəy) təbrizli idi. 1545-ci ildə Sultan sarayı nəzdində çalışan rəssam birliyi «Rumi» və «Əcəmi» adlı qruplara bölünürdü.

XVI yüzilin sonlarından Təbriz 17 ilə yaxın Osmanlı ordusunun əlində olduğu zaman yerli rəssamların çoxu İstanbula aparılmışdır. Həmin dövrdə İstanbulun saray emalatxanasında 30-dan çox təbrizli rəssam fəaliyyət göstərirdi. Onlara Azərbaycan rəssamı ***Vəlican*** başçılıq edirdi.

Təbriz rəssamlarının, xüsusilə Şahqulu və Vəlicanın Türkiyə rəssamlıq məktəbinin inkişafında rolu haqqında Türkiyə şərqşünasları *A.S.Yetgin* və *Ə.Soheyli* yazırlar ki, ***Şahqulu bu işin başında durduqdan sonra «bizim rəssamlıq məktəbimiz bir müddət Təbriz incəsənətinin təsiri altına düşmüşdü».*** Təbriz rəssamlarının məharətini Evliya Çələbi də təsdiq edərək yazmışdır: «Buranın ustad kamil nəqqaş və rəssamı... bir diyarda yoxdur».



XVI-XVII yüzillərdə avropalıların təhriki ilə Səfəvi-Osmanlı müharibələrinin baş verməsinə baxmayaraq sənət adamları arasında yaradıcı yaxınlıq olmuşdur. İki qardaş türk xalqının mədəni inkişafı yolunda sərhəd olmamışdır.

**MEMARLIQ.** XVI-XVII yüzillərdə Azərbaycan memarlığı öz keçmiş ənənələrini davam etdirirdi. Bir sıra binalar tikilir və ya bərpa olunurdu. Ərdəbildə Şah I İsmayıl üçün «Cənnətsaray» tikilmişdi. 1544-cü ildə Samur çayına yaxın ***Həzrə*** kəndində Şeyx Cüneyd türbəsi inşa olundu. Şah Təhmasib Təbrizin ***Sahibabad*** meydanında məscid binası tikdirmişdi. Onun əmrilə Ərdəbildəki Şeyx Səfi məqbərəsində əsaslı tikinti işləri aparılmış, Şah I Abbasın əmrilə 1606-cı ildə orada böyük bir mətbəx tikilmiş. 1621-1622-ci illərdə Ərdəbilin Kənralan kəndində ***Seyid Cəbrail*** məqbərəsi yenidən qurulmuş, onun sərdabəsi qızıla, gümüşə tutulmuşdur. ***Şeyx Bəhaəddinin*** layihəsi üzrə Gəncədə məscid tikdirilmiş, Lənkəranda ***Şeyx Zahid Gilaninin*** türbəsi üzərində tikinti işi aparılmış, 1610-cü ildə Əhərdə ***Şeyx Şəhabəddin Əhərinin*** türbəsi yanında məscid, mədrəsə, mətbəx, yardımçı binalar salınmışdır.

Mərdəkanda ***Pir Türbəsi***, 1663-cü ildə Şamaxının Qalakən kəndində tikilən ***Şeyx İbrahim*** türbəsi, Tovuzda ***Yanıqlı kəndində*** məqbərə, Nardaranda məscid binası, Gəncədə ***Comərd Qəssab*** məqbərəsi XVI-XVII yüzillərdə Səfəvi dövlətində dini ibadət yerlərinə olan qayğılardan yaranmışdır. Şah I Abbas dövründə tikinti işlərinə ustad ***Məhəmmədəli*** və ondan sonra oğlu ***Heydər*** kimi adlı-sanlı memarlar başçılıq etmişlər.

Şəhərsalma işlərinə də diqqət verilmişdir. 1616-cı ildə Şah I Abbasın əmrilə ***Cəlaləddin Münəccim Yəzdinin*** iştirakı ilə yeni Gəncə şəhərinin əsası qoyulmuş, orada məscid, karvansara, bazar, xeyli ictimai və yaşayış binaları tikilmişdir.

Bakı şəhərində abadlıq işləri aparılmışdır. 1585-ci ildə memar ***Əmirşah*** tərəfindən Bakının Şərq darvazası tikilmişdir. XV yüzildə şəhərin mərkəzi Şirvanşahlar sarayı idisə, XVII yüzildə Cümə məscidi ilə Qız qalası arasında yerləşən karvansara və bazar şəhərin mərkəzinə çevrilmişdi. Bakıda böyük ticarət bölməsi yarandı.

XVI-XVII yüzillərdə Təbriz, Şamaxı, Bakı, Ərdəbil, Gəncə və Naxçıvanda bir sıra məscid, hamam, bazar, karvansara binaları tikilmişdir. XVII yüzildə Bakı qalası bayırında, sonra da qalanın içərisində ikimərtəbəli karvansara tikilmişdi. Təkcə şəhərlərdə deyil, şəhərlərarası yollarda da tikdirilən karvansaralar bu günkü mehmanxananı əvəz edirdi. XVII əsr fransız səyyahı ***Tavernye*** karvansara binaları və onların quruluşu haqqında ətraflı məluat vermişdir.

O çağda elə bir şəhər yox idi ki, burada bir neçə hamam olmasın. İri çaylar üzərində körpülər salınırdı. 1551-ci ildə Naxçıvanın Qazançı kəndində, XVII əsrdə Salyanda körpülər salınmışdır.

Fransız səyyahı ***Şardən*** Azərbaycanda binaların memarlıq quruluşu, tikinti texnikası haqqında geniş məlumat vermişdir. Səyyah yazır ki, varlı adamlar özləri və övladları adından ictimai binalar, məscid binaları, mədrəsə, yollar üzərində pulsuz karvansaralar, körpülər tikdirir, bunu «axirət savabı» sayırlar.

Azərbaycan memarları Orta Asiya, Türkiyə, İran və sair ölkələrdə də işləyirdilər. 1514-cü ildə Sultan I Səlim 1700 sənətkar ailəsini Təbrizdən İstanbula aparmışdı. Onların arasında memar, bənna, kaşıkar, həkkak, daşyonan ustalar var idi. Türkiyədə «Əcəmi Əli» kimi ad çıxarmış usta ***Əli Təbrizi*** İstanbulda memarbaşı işləmiş, Təbriz memarlıq üslubunu Türkiyədə yaymışdır. Təbriz memarlıq məktəbi Azərbaycan memarlığının bir qolu kimi müsəlman ölkələr ilə sıx əlaqələr içərisində yetkinləşib yüksəlmişdir.

**MUSİQİ.** Musiqi cəmiyyət həyatında getdikcə çox yer tutmaqda idi. Yaxşı səsi olan müğənnilər «Hafiz» (Qur'anı gözəl səslə əzbərdən oxuyan şəxs) adlanır, dini mərasimlərdə Qur'an ayələrini oxuyurdular. Dini mərasimlərdə təbil, şeypur, sinc kimi musiqi alətlərindən də istifadə edilirdi.

El nəğməkarları ilə yanaşı peşəkar saray musiqiçiləri var idi. Saray musiqiçilərinin ifasında saz, ud, səntur, şüdurğu, çəng, tənbur, ərcənun, kanon, kamança, nüzhət, müğni, bərbət, zurna, qaraney, tütək, təbil və qaval başlıca çalğı alətləri idi. Saz üstündə dillənən aşıq musiqisi dəstələri, ayrıca «nağaraçıları» vardı. Onların ifasında döyüşdən əvvəl cəng havaları, hərbi marşlar çalınırdı. Hərbi marşlar üçün müxtəlif musiqi alətlərindən istifadə olunurdu. Novruz bayramında yeni ilin gəlişini bildirmək üçün şəhərlərin müxtəif yerlərində qaraney çalınır, təbillər döyülürdü.

Yabançı ölkələrdən gələn qonaqları şəhər darvazasında hərb musiqisi ilə qarşılayırdılar. Bu zaman qaraney, tütək, zurna, təbil və qaval çalınırdı. 1636-cı il dekabrın 30-da Adam Oleari Şamaxıda belə qarşılanmış, musiqiçiləri «Döyüş çalğıçıları» adlandırmışdır.

Azərbaycanın çox şəhərlərində günün doğub batmasını da qaraney, zurna, təbil sədaları ilə camaata çatdırırdılar. Bunlar muzdla işləyən musiqiçilər idi. Peşəkar musiqiçilər mahnılar bəstələyir, musiqi alətlərindən bir neçəsində çalmağı bacarırdılar. Bəstələdikləri musiqinin sözlərini də onlar özləri yazırdılar. Beləleri ustad musiqiçi sayılırdı.

Səfəvilər dövlətində ***Səfiəddin Ürməvi*** və ***Əbdülqadir Maraqi*** kimi musiqiçilər yox idi. Lakin XVI yüzildə Əbdülqadir Maraqinin nəvəsi ***Əbdüləziz*** musiqi elmi haqqında «Nəqavətül-ədvar» («Dövrlərin yaxşılaş-



ması») adlı ayrıca bir əsər yazıb osmanlı hökmdarı Sultan Süleymana ithaf etmişdir. Əsərin bir nüsxəsi Türkiyədə *Nuri Osman* kitabxanasında, başqa nüsxəsi İstanbulun Ayosofiya kitabxanasındadır. Müəllif həmin kitabda yazır: «Səfiəddin Əbdülmömin 84 mahnı bəstələmişdir. Əbdülqadir onlara 7 mahnı və mən 9 mahnı artırmışam ki, cəmisi 100 olsun». Müəllif daha sonra yazır: «Əbunəsr Farabi ud çalğı alətinə iki tel artırmış və ona «Kamil» adı vermişdir. Əbdürrəhman ona daha iki tel artırıb, «Əkməl» adlandırmışdır, mən də iki tel artırıb, ona «Mükəmməl» adı vermişəm».

***Əbdülmömin Quyəndə Səfiəddin oğlunun*** «Behcət ər-ruh» («Ruhun sevinci») əsərinin üzü 1636-cı il sentyabrın 5-də İsfahanda köçürülmüşdür. 10 fəsil, müqəddimə və nəticədən ibarət olan bu əsər muğamların şərhinə aiddir.

Şah İsmayıl musiqinin inkişafına xüsusi maraq göstərmişdir. Onun sarayında musiqiçilər dəstəsi fəaliyyət göstərirdi. Təbrizdə ən görkəmli musiqiçi, xanəndə və rəqqasələr şahın ziyafət məclislərinə çağrılırdı. İngiltərə musiqişünası ***Farmerin*** yazdığına görə «çahartar» musiqi alətini Şah I İsmayılın atası Şeyx Heydər ixtira etmişdir.

XVI yüzildə dövlət qulluğunda çalğıçı birlikləri yaranmışdı. Musiqiçi və xanəndələrə ***kələntər*** (rəis) təyin olunurdu. Onlara çalçıbaşı deyilirdi. Dövlət və saray musiqiçiləri ona tabe idilər. ***Abdulla Mirvaridin*** əsərində verilmiş bir fərman ilə nağaraçı usta Məhəmmədin şah nağaraxanası çalçıbaşı təyin edildiyi yazılmışdır.

Şah I İsmayılın nəvəsi ***Bəhram Mirzənin oğlu Sultan İbrahim Mirzə*** musiqi elmini dərindən bilirdi. O, bəstəkar idi, mahnıları uzun müddət dillər əzbəri olmuşdu.

Şah Təhmasib hakimiyyətinin ilk illərində musiqi sarayda əsas yer tuturdu. Tanınmış musiqiçi və müğənnilərin onun sarayına gediş-gəlişi vardı. Onlardan qəzvinli ***Əhməd*** gözəl məlahətli səsi ilə məşhur idi. Dövrünün digər məşhur müğənnisi təbrizli ***Hafiz Ləlo idi***. Ancaq Təhmasib h. 932 (1525/26)-cı ildə saqqal qırxmaq, nərd oynamaq ilə yanaşı tənbur çalmağı da qadağan etmişdi (Fərmanın bir surəti Ərdəbildə Şeyx Səfi məqbərəsi divarında mərmər daş üzərində həkk olunmuşdur). 30 il sonra, yeni 1556-cı ildə bu fərmana əsaslanan tövbə fərmanı ilə dini və hərbi musiqidən başqa digər musiqi bütünlüklə qadağan edildi. Oynaq mahnılar oxuyan müğənnilərin boğazına qurğuşun tökülməli, çəng barmağı kəsilməli idi. Musiqiçilik sənəti çox ağır illərini yaşadı.

Hərbi musiqiçilərdən müğənni ***Əhməd Qəzvini, Hafiz Ləlo Təbrizi*** məclislərə gedib mahnı oxuduqları üçün ordudan qovuldular. Zurnaçı ustad ***Həsən*** isə şənlik məclislərində zurna çaldığı üçün bir müddət həbsə alındı. Şah nağaraxanasından başqa digər məclislərdə zurna çalmayacağı barədə and içdikdən sonra onu həbsdən azad etdilər.

Şah Təhmasib ölən kimi II Şah İsmayıl atasının verdiyi fərmanı ləğv etdi. Saraydan qovulmuş musiqiçilər, xanəndələr yenə fəaliyyətə başladı. Şah sarayında musiqiçi dəstəsi yarandı, müğənni ***Hafiz Cəlacil*** musiqiçi dəstəsinə çalçıbaşı təyin edildi.

Həmin dövrün musiqiçilərindən ***Hafiz Haşım*** (müğənni), kamança və ud çalan ***Mirzə Məhərrəm***, ud çalan ***Məhəmməd Mömin***, dördtelli tənbur çalan ***Şahsuvar***, ***Kamançeyi Məsum***, tənbur çalanlardan ustad ***Sultan*** və ***Mirzə Həsən***, müğənni və kanon çalan təbrizli ***Hafiz Məclisi*** və başqaları məşhur idilər.

Şah I Abbasın özü musiqiçi və bəstəkar idi. Aşıqlar və müğənnilər onun qoşmalarını məclislərdə oxuyurdu.

Ancaq 1645-ci ildə II Şah Abbas yenidən musiqini qadağan etdi. Bu fərmanın ömrü uzun sürmədi. Şah Süleyman Səfəvi musiqini sevirdi. 1664-cü ildə ***Tavernye*** şahın ziyarət məclisində iştirak etmişdi. Şahın şəxsi santurunu Tavernyenin nökəri ***Duvalye*** bu məclisdə çalmışdı.

Azərbaycan musiqisi avropalıların xoşuna gəlirdi. 1636-cı il dekabrın 30-da Şamaxıya gəlib üç ay orada qalmış ***Adam Oleari*** və Holştayn elçilərinin Şamaxı xanının verdiyi ziyafətdə yerli musiqiçilərin ud, kamança və dümbək çalmağı ürəyinə yatmışdı. Holştayn elçiləri ilə orada iştirak etmiş alman musiqiçilərinin musiqisi isə şamaxılıların xoşuna gəlmişdi.

Azərbaycan bəylərbəylərinin saraylarında musiqiçilər və musiqili tamaşalar göstərən aktyorlar var idi. Musiqili teatr sənətinin ilkin addımları o çağla bağlıdır. Sevgi mövzusunda olan üç pərdəli bir tamaşada nəzm və oxunan muğam mahnıları və onların gözəl rəqslərlə müşayiət olunması fransız səyyahı ***Şardeni*** valeh etmişdi. Gördüyü tamaşanı «Gerçək Şərq operası» adlandıran Şarden yazır: «Onlar opera üslubunda rəqs edib mahnılar oxuyur və gözəl mahnıları ilə məharətlərini nümayiş etdirirlər».

**KİTABXANA.** XVI-XVII yüzillərdə Azərbaycanda saray kitabxanaları ilə yanaşı məscid və mədrəsə kitabxanaları, şəxsi kitabxanalar var idi.

Azərbaycan Səfəvi dövlətinin yaranması Şah I İsmayılın ədəbiyyata, incəsənətə olan qayğısı kitabxanaçılıq işində yüksəliş yaratdı. Ağqoyunlu hökmdarları ***Uzun Həsən*** və ***Sultan Yaqub*** dövründəki Təbriz saray kitabxanası Şah I İsmayılın hakimiyyəti illərində daha da genişləndi. Sultan Məhəmmədin başçılıq etdiyi Təbriz saray kitabxanasına 1522-ci ildə şah fərmanı ilə ***Kəmaləddin Behzad*** kələntər (müdir) qoyulmuşdu. Lakin Şah İsmayıl vəfat etdikdən sonra kitabxanaya yenə Sultan Məhəmməd başçılıq etdi. 50-ci illərdə bu kitabxana I Təhmasib tərəfindən bağlandıqdan sonra nadir kitabların bir qismi Ərdəbildə Darülirşad kitabxanasına vəqf edilmişdi.

Bugünkü kitabxanalardan quruluşca xeyli fərqlənən Orta əsr Azərbaycan kitabxanası böyük bir emalatxanaya bənzəyirdi. Müəlliflər əsərlə-



rini orada yazır, yeni və qədim əlyazmaların üzü məşhur xəttatlar tərəfindən orada köçürülür, rəssamlar isə elə orada onları miniatürlərlə bəzəyirdilər. Ləvvahlar mətnin naxışlı xətlərini və ətraf çərçivələrini işləyir, müzəhhib (qızıl tozundan hazırlanmış zərab adlanan rənglə yazan miniatürçülər) naxış (ornament) vurulmuş sahəni rəngləyir, səhhaf səhifələri çinləyir, cildçi aşılanmış dəridən üz qabığı çəkib cildləyirdi. Kitab tam hazır olduqda kitabxana müdirinə təhvil verilirdi.

1545-ci ildə Təbriz saray kitabxanasında beş məşhur xəttat, 8 ustad rəssam, 3 müzəhhib, 1 cildçi çalışırdı.

1555-ci ildə paytaxt Təbrizdən Qəzvinə köçürüldükdən sonra Təbriz saray kitabxana işçilərindən bəziləri Qəzvinə aparıldı. Təbriz kitabxanası bağlı qaldı. Yalnız bir çox illər ötdükdən sonra şah öz cəhalət yasağını yumşaltdı. Təbrizin ustad sənətkarlarının hüququnu Şah Təhmasib bir növ yenidən tanıdı. Şah 1575-ci il noyabr tarixli fərmanı ilə əsli bağdadlı olub Təbrizdə boya-başa çatmış müzəhhib ***Mövlana Həsəni*** Təbrizdəki xəttatlara, müzəhhidlərə, miniatürçü rəssamlara, cildçilərə, kağız satanlara müdir təyin etdi. Fərmanın sonunda deyilir: «...qeyd edilən məzkur camaat dövrün yeganəsini (Mövlana Həsəni) özlərinin kələntəri bilib ona itaət etməli və sözündən çıxmamalıdırlar». Fərmanda Təbriz kitabxanası barədə bir söz deyilmir.

Səfəvi şahzadələrindən də kitabxanası olanlar vardı. Şah İsmayılın oğlu Bəhram Mirzə zəngin kitabxana toplamışdı. Onun oğlu ***Əbülfəth İbrahim Mirzə*** (1543-1577) kitabxananı yeni kitablar hesabına daha da böyütmüşdü. Türkcə və farsca üç min beytə yaxın şeir yazmış İbrahim Mirzə haqqında Qazi Əhməd Qumi yazır: «Heç bir şah və şahzadənin Əbülfəth İbrahim Mirzənin kitabxanası kimi zəngin kitabxanası olmamışdır. Orada 3-4 min nüsxə kitab var idi».

Təbriz, Ərdəbil, Şamaxı kitabxanalarında türkcə, farsca, ərəbcə yazılmış külli sayda elmi kitablar vardı. Kitabların çoxuna məşhur rəssamların fırçası ilə miniatürlər çəkilmişdi. Belə kitablar dövlət başçıları üçün də qiymətli hədiyyə sayılırdı. Şah I Təhmasib, h. 973 (1565-1566)-cü ildə Türkiyə hökmdarı Sultan III Murada (1574-1595) 60 müxtəlif kitab bağışlamışdı. Şah I Abbas da 1590-cı ildə Ərdəbil hakimi Mehdiqulu xanla Sultan III Murada hədiyyələrlə yanaşı 14 adda qiymətli kitablar göndərmişdi. Bu kitabların içində Firdovsinin «Şahnamə»si, Nizami Gəncəvinin «Xəmsə»si, Sə'dinin «Külliyyat»ı, Hafizin «Divan»ı, «Yusif və Züleyxa» poeması, Füzulinin «Məxzənül əsrar» və «Şəvahidül-nübüvvə» əsərləri vardı.

Azərbaycanda bir çox kitabxanaçı mütəxəssis yetişmişdi. Təsadüfi deyildir ki, Qəzvində olduğu kimi, İsfahan saray kitabxanasına da zaman-zaman Azərbaycandan olan şairlər, rəssamlar başçılaq etmişlər. Onlardan ***Əmir Nizaməddin Üskuini*** (Üskü, Təbriz yaxınlığında şəhərcikdir –

red.), ***Sadıq bəy Afşarı***, təbrizli ***Əlirzanı*** göstərmək olar. Sadiq bəy Afşar Qəzvində Şah II İsmayılın, sonra isə İsfahanda Şah I Abbasın saray kitabxanasında müdir olmuşdur. H. 1007 (1598/99-ci ildə onun yerini bu vəzifədə təbrizli Əlirza tutmuşdur.

Ərdəbildə Şeyx Səfiəddin məqbərəsinə (Darül-irşad) vəqf edilmiş kitabların hesabına orada zəngin kitabxana yaranmışdı. Kitabxana Darül-İrşadın böyük bir salonunda yerləşirdi. Bu salon «Cənnət-sera» adlanırdı. Almaniyalı alim Adam Oleari 1637-ci ilin aprel ayında burada olarkən kitabxana ilə tanış olmuşdu. O yazır ki, kitabxana çox geniş, tağ-tavanlı və qızıl suyu ilə bəzək vurulmuş məscidə oxşayan, bir dənə də sütünu olmayan qübbəli salonda yerləşirdi. Kitablar qapalı rəflərdə saxlanılırdı, çoxu ərəb, bəziləri isə fars və türk dilində idi. Onların bir qismi perqament (qədimdə yazı üçün işlədilən heyvan dərisi), digərləri isə kağız üzərində çox təmiz xətlə yazılmışdı. Cildləri qırmızı dəridən idi, qızıl rəngdə gül və yarpaq təsvirləri ilə bəzədilmişdi.

Şah I Abbas saray kitabxanasında olan kitabların bir hissəsini Məşhəd, digər hissəsini isə Ərdəbil Darül-İrşad kitabxanasına vəqf etmişdi. Ərdəbil kitabxanasının nə vaxt açılması barədə tutarlı məlumat yoxdur. Kitabxananın Şah I İsmayıl dövründə yaradılması təxmin edilir. Şah I Abbas bu kitabxananı çox zənginləşdirdi. Ərdəbil kitabxanasında olan dəyərli kitabların çoxu XIX əsrdə Sankt-Peterburqa daşındı. İndi də bu kitabların üzərində «Ərdəbil Şeyx Səfiəddin kitabxanasına vəqf edilmişdir» yazısı və Darül-İrşad möhürü qalmaqdadır. Şirvanşahların da Şamaxıda mahir xəttatlar tərəfindən üzü köçürülmüş Şirvanın ustad rəssamları tərəfindən miniatürlər çəkilmiş zəngin kitabxanası olmuşdur. İllərlə dünyanın müxtəlif yerlərindən gətirilən və Şamaxının özündə hazırlanan kitabları cəmləşdirən bu kitabxana Səfəvi-Şirvan müharibələri illərində Buqurd qalasına köçürülmüşdü. 1538-ci ilin sentyabrında Buqurd qalasını Şah Təhmasib ordusu tutduqdan sonra kitabların qaladan endirilib qalaq-qalaq bir-birinin üstünə yığılması bəllidir.

Şəhərlərdə müxtəlif mədrəsə və məktəblərin nəzdində də kitabxanalar yaranmışdı. Belə kitabxanaların kitab fondu vəqf hesabına zənginləşirdi. Mədrəsələrdə gözəl xətti olan tələbələr də nadir kitabların üzünü köçürüb mədrəsə kitabxanasına verirdilər.

Şəxsi kitabxanalar da olmuşdur. XVI-XVII yüzillərdə azərbaycanlı üçün kitab böyük bir dəfinə, mənəvi var sayılırdı. Tavernye yazır: «Kitabların baha olmasına baxmayaraq hətta alverçi və sənətkarlar da onları alırlar». Əslində saray kitabları da bir növ Səfəvi şahlarının özlərinin ixtiyarında idi və orada işləyənlərə bilavasitə özləri yüksək divandan məvacib verirdilər.

Zəngin şəxsi kitabxanalardan biri Molla Məlhəmi Təbriziyə məxsus idi. O, bir müddət Təbriz hakimi ***Pirbudağın*** xidmətində, sonra Şiraza



gedərək fars əyaləti hakiminin qulluğunda olmuşdur. Burada vəfat etdikdən sonra onun kitabxanası Təbrizdən Şiraza gətirilərək satılmışdır.

**XƏTTATLIQ.** XVII yüzilin 30-cu illərində Azərbaycanda və İranda olmuş ***Adam Oleari*** yazırdı ki, Səfəvi dövlətində «kitaba yüksək qiymət verilir. Burada çap dəzgahı yoxdur. Kitab əllə yazılır, əllə yazılan kitabların qiyməti çox bahadır». O, Avropada çap olunmuş Qur'anın bir nüsxəsinin Azərbaycanda və İranda əl ilə üzü köçürülmüş nüsxədən 15-20 dəfə ucuz olduğunu bildirirdi. Buna görə xəttatlıq gəlirli peşə idi. Bir çox valideynlər öz övladlarını xəttatlıq peşəsinə yiyələnməyə məcbur edirdilər. Bir neçə min adam kitab üzü köçürməklə dolanırdı.

Şah I Abbas çap işi ilə çox maraqlanırdı. O, Avropadan çap makinası gətirmək, ərəb hərfli çapxana təsis etmək istəyirdi. Bu məqsədlə də 1619-cu ildə ***Karmelit*** rahiblərinə Romadan çap dəzgahı gətirməyi göstəriş vermişdi. Pietro della Valle yazır: «Şah Abbasın bu təşəbbüsünü biz yüksək qiymətləndirməliyik. Çünki, bu yol ilə İranda xeyli dini kitablarımızı çap edə biləcəyik... iranlılar hər şeyə maraq göstərən adamlardır. Onların bir çoxu fəlsəfə və digər elmlərlə tanışdırlar. Məhz buna görə də bu yol ilə bizim kitabları tam həvəslə oxuyacaqlar. Kitab söhbətdən daha artıq faydalıdır».

Avropalılar xristian dini kitablarını, Tövrat və İncili ərəb, fars dillərində İranda çap edib yaymaqla xristian dinini təbliğ etməyə çalışırdılar. Məhz buna görə də onlar Azərbaycan və İranda çap dəzgahı təsis edilməsinə maraq göstərirdilər.

Şah Abbasın ölümündən 12 il sonra, 1641-ci ildə İsfahana çap dəzgahı gətirilmiş, xristian dininə aid bir neçə kitab ərəb əlifbası ilə farsca çap edilmişdir. Lakin çap üçün lazım olan qara mürəkkəbi düzgün hazırlaya bilmədikləri üçün yazılar oxunmurdu. Tavernyenin fikrincə çap maşını xəttatların çörəyinə bais olduğu üçün onu işlətməkdən əl çəkdilər.

Beləliklə, çap maşını olmadığı üçün Azərbaycanda xəttatlıq işi öz tarixi yerini saxlaya bilmişdi.

XVI yüzildə xəttatlığa dair bir sıra əsərlər yazılmışdır. Heratda ***Sultan Hüseyn Mirzənin*** kitabxanasında xəttat işləmiş ***Mövlana Sultanəli*** 1519-cu ildə xəttatlıq haqqında nəzmlə kitabça yazmışdır. ***Qazi Əhməd Qumi*** XVI yüzilin sonunda «Gülüstani Hünər» əsərini bitirdi. Giriş və dörd fəsildən ibarət olan bu əsərdə xəttin əmələ gəlməsi tarixi və dövrün məşhur xəttatlarının qısa tərcümeyi-halı verilmişdir. ***Sadiq bəy Əfşarın*** yuxarıda adı çəkilən inşa toplusu «Məcməül-xəvvas» bu sahədə başlıca əsərlərdən biridir.

Sarayda münşilik (katiblik) vəzifəsi olması, orada sənədlərin, fərmanların yazılması, kitabların yeni əlyazmalarının köçürülməsi, saray və məscid binalarının divar və qapılarında yazılar verilməsi xəttatlığın inkişafına

şərait yaradırdı. Öz növbəsində xəttatlıq incəsənətin başlıca sahəsi olmuşdu. Xəttatlar tərəfindən kitabların üzü köçürülməsəydi, miniatür və müzəhhiblik inkişaf edə bilməzdi. Xəttatlıq olmasaydı, daş üzərində, qapı divarlarında oyma və qabartma yazılar qalmazdı. Bu sənətlər Orta əsrlərdə birbirilə sıx bağlı idi.

XVI-XVII yüzillərdə məşhur xəttatlar nəsli yetişmişdi. Yazıda dörd başlıca xətdən: nəstə'liq, süls, şikəstə və nəsxdən istifadə edilirdi. Lakin ən gözəl xətt növü olan nəstə'liq xəttini təbrizli ***İlyas oğlu Mirəli*** təkmilləşdirmiş, onun yazı qaydalarını işləyib hazırlamış, bişmiş və mükəmməl hala salmışdır. Buna görə də Mirəli bu xəttin ixtiraçısı kimi tanınmışdı.

İstər Azərbaycanda, istərsə İranda Səfəvilər sarayında sənədlərin çoxu türk və fars dillərində yazılırdı. Sarayda Azərbaycan türkləri sırasından çıxmış məşhur xəttatlar çox idi. Onlar, münşi əl-məmalik (bölgələrin katibi) adı daşımışlar.

Xacə Nəsirəddin Tusinin nəslindən olan ordubadlı ***Xacə Ətiq*** «tuğrayi şahi» adlanan yazını ixtira etmişdir. O, fərman və sənədlərin yazılışında elə bir üsul kəşf etmişdi ki, XVI yüzilin sonlarına qədər şah saraylarında bu üsuldan istifadə edilirdi. Xacə Ətiq şah dəftərxanasında işləyirdi. Şah Təhmasibin sarayında Xacə Ətiqin əli altında xeyli xəttat işləmişdir. Onlardan biri də tə'liq xətti ilə gözəl yazan ***Xacə Əlaəddin Mənsur*** idi.

Tə'liq və şikəstə xətlərinin mahir ustadı, yenə Xacə Nəsrəddin Tusi nəslindən olan ordubadlı ***Mirzə Kafi*** Şah Təhmasibin yaxın adamlarından idi, onun sarayında münşi vəzifəsində işləmişdi.

Xoylu ***Qazi Abdulla*** türkcə, farsca və ərəbcə yazan misilsiz xəttat və məharətli münşi idi. Şah Təhmasib sarayında Azərbaycan türkcəsində tərtib edilmiş yazıların çoxu onun əlilə yazılmışdı. O, Şah Təhmasibin əmrilə Azərbaycan dilində şəriət qanunlarına həsr edilmiş kitab yazmışdı.

***Qazi Ulubəy*** kimi şöhrət tapmış Qazi İmad tə'liq və altı xətt növü (mühəqqəq, reyhani, süls, nəsx, toqi, riqa) yazmaqda zəmanəsinin məşhur ustad xəttatı sayılırdı. O, bir müddət Ordubad qazısı işləmişdi. Qazi Əhməd Qumi yazır ki, «onun kimi gözəl natiq və dərrakəli münşi görməmişəm».

20 ildən artıq Şah I Abbasın baş vaziri işləmiş ***Hatəmbəy Ordubadi*** ilə əmiuşağı olan Mirzə Əbdülhüseyn dövrünün məşhur xəttatı və münşisi olmuşdur. Onun oğlu ***Mir Zeynəlabidin*** də gözəl xəttat idi, şah dəftərxanasında münşi əl-məmalik vəzifəsində çalışırdı. Xacə Nəsirəddin Tusinin nəsli Azərbaycanda gözəl xəttatlar yetişdirmişdir.

Mahir tə'liq xəttatı olan tarixçi ***İsgəndər bəy Münşi*** də bir müddət Səfəvi şahları və vilayət hakimlərinin yanında münşi işləmişdi. Qazi Əhməd Qumi yazır: «Onun kimi mahir yazıçı və münşi azdır. İndi (XVI yüzilin sonunda – *red.*) şahların məktublarını yazmaq onun öhdəsindədir...»



İsgəndər bəy Münşi saray dəftərxanasına başçılıq edirdi. Yaxşı və sürətlə yazmaqda gözəl bacarığı vardı.

Təbrizin digər xəttatlarından nəstə'liq ustadı ***Mövlana Məhəmməd Hüseyn İnayətulla oğlu*** çox məşhur idi. O, təmiz və nöqsansız yazardı. Xəttatlığı o dərəcəyə çatdırmışdı ki, hamı onu ustadı ***Mir Seyid Əhməddən*** üstün tuturdu. Şah II İsmayıl dövründə Qəzvin dövlətxanası binası divarlarındakı yazılar onun xəttilə yazılmışdı. Ərdəbildə anadan olmuş ***Məhəmməd Əmin*** və ***Mir Əbdülbaqi*** onun şagirdi olmuşlar. Məhəmməd Əmin türkcə şeirlər yazırdı. İsgəndər bəy Münşi onun çox gənc ikən vəfat etdiyini bildirir.

Təbriz xəttatlıq məktəbinin yetirməsi olan məşhur xəttat ***Mir Əbdülbaqi Danişmənd*** bir müddət Bağdadda yaşamışdır. 1616-cı ildə İsfahanda tikdirilmiş Şah məscid divarlarındakı yazıları sona çatdırmaq üçün İsfahana gəlməsi barədə Şah I Abbasın təklifini rədd etmişdi. Şah I Abbas Bağdadı aldıqdan sonra Mir Əbdülbaqi İsfahana köçürüldü və Şah məscidinin yazılarını sona çatdırdı. Xəttat 1630-cu ildə vəfat etmişdir.

Təbriz xəttatlıq məktəbinin yetirməsi olan ***Mövlana Əlibəy*** dövrün məşhur xəttatlarından olmuşdur. Təbrizdə yeni salınmış məscid və binaların bir çoxunun kitabələri onun xəttilə yazılmışdır.

Təbriz xəttatlıq məktəbinin görkəmli nümayəndəsi ***Mövlana Əlirza Təbrizi*** 1585-ci ildə Qəzvinə köçüb oranın Cümə məscidi kitabələrini yazmışdı. O, Qəzvində bir neçə nüsxə Qur'an üzü köçürmüşdü. İki il burada Fərhad xanın münşisi işlədikdən sonra Şah I Abbasın çağırışı ilə İsfahana gəlib kitabxanada işləmişdir. Qazi Əhməd Qumi «Gülüstani hünər» əsərində yazır: «İndi 12 ildir ki, şahın yanında xidmət edir». İsfahanda Şeyx Lütfullah məscidi və «Came Abbasi» məscidi kitabələri onun xəttilə yazılmışdır. Mövlana Əlirza süls və nəsx xəttində çox mahir idi, nəstə'liqdə isə tayı-bərabəri yox idi. «Xətlərin anası» sayılan süls xəttini yüksək səviyyəyə çatdırmışdı.

Bir sıra məşhur xəttat və nəqqaşların məscid divarları, qapıları üzərində yazıları bəllidir. ***Sultan Məhəmməd Nəqqaşın oğlu Şah Tahir*** 1622-ci ildə Kəhralanda Seyid Cəbrail türbəsinin məscidi üzərində, ərdəbilli ***İsmayıl Nəqqaş*** isə 1647-ci ildə Şeyx Səfiəddin məqbərəsinin giriş qapısı üzərində kitabələr həkk etmişlər.

Təbriz xəttatlıq məktəbinin görkəmli nümayəndələrindən biri də ***Məhəmməd Mömin*** idi. Bir çox epiqrafik yazılar onun qələminin məhsuludur. O, *Şah Sultan Hüseynin əmrilə* 1695-ci ilin may ayında Təbriz Cümə məscidi qapısı üzərindəki yazını həkk etmişdi.

XVI-XVII yüzillərdə Azərbaycan mədəniyyəti dolğun inkişaf yolu keçmişdir. Bu mədəniyyət Səfəvi imperatorluğunda yaşayan digər xalqların mənəvi dünyası ilə əlaqəli olmuş, öz növbəsində onların mədəni inkişafında dəyərli rol oynamışdır.

*ON DÖRDÜNCÜ BÖLÜM*

# AZƏRBAYCANIN BEYNƏLXALQ ÇƏKİŞMƏ MEYDANINA ÇEVRİLMƏSİ

## 1. ŞİRVAN BÖLGƏSİNİN ETNOCOĞRAFİ DURUMUNA BAXIŞ

**TARİXİ QAYNAQLAR ŞİRVAN HAQQINDA.** Azərbaycanın quzey bölgəsi Şirvan böyük sınaqlar qarşısında idi. Bu bölgə Dağıstanın yaxın qonşuluğunda yerləşirdi. Dağıstan xalqlarından bir parasının (ən çox ləzgilərin) azsaylı bölükləri Azərbaycanın quzey mahallarında tarix boyu yerli türklərlə birlikdə yaşamış, onlar ilə qaynayıb qarışmışlar. Təbii, yeni mübarizə dalğası sonuncuları da bürüməkdə idi. Türklər ilə bağlı xalqlar burada bu mücadilənin ağırlıq və çətnliklərini öz çiyinlərində bərabər daşımışlar.

Ancaq buna baxmayaraq hazırda Şirvan tarixini iki yönümdə saxtalaşdırıb qaralamaq istəkləri ortaya çıxmışdır. Bunlardan biri «Dərbənddən tutmuş Bakıya kimi» Azərbaycanın Xəzərsahili torpaqlarının «Ləzgistan» adlandırılmasıdır. Tarixi qaynaqlardan isə bütün orta çağ boyu buranın qabaqlar Şirvanşahlar dövləti, sonra isə Azərbaycanın bəylərbəyliyi olması bəllidir. İstər bütövlükdə Dağıstanın, istərsə də «Ləzgistan»ın Şirvan ilə etnocoğrafi yaxınlığı yuxarıda deyilən biçimdə olmamışdır. Hələ 1253-1255-ci illərdə Fransa kralı ***IX Lüdoviqin*** Moğolustana ***Munke*** kaanın yanına elçi göndərdiyi ***Gilyom de Rubruk*** Xəzərin qərb sahili ilə quzeydən güneyə enərkən yazmışdı: «Edil (Xəzər – *red.*) dənizi və ya gölü yaxınlığında ***Lesq*** adlanan müsəlmanlar var... ***Onlardan sonra (Makedoniyalı) İskəndərin tikdirdiyi Dəmir Qapı yerləşir***». 1475-ci ilin noyabrında güneydən quzeyə: Şirvan-Rusiya yolları ilə vətəninə qayıdan Venesiya Respublikası elçisi ***Ambroco Kontarini*** yazırdı: «Ayın 6-da biz Şamaxıdan... adı çəkilən Sivansaya (Şirvanşaha – *red.*) ***məxsus olan Dərbənd şəhərinə*** yola düşdük. Biz... *türk kəndlərində* arabir dayanırdıq, burada bizi çox yaxşı qarşılayırdılar. Yolun yarısında kiçicik, ancaq sözün doğrusu gözəl bir şəhər (Şabran və ya Quba – *red.*) yerləşir, burada o qədər gözəl meyvələr, xüsusilə alma yetişir ki, baxdıqca öz gözlərinə inana bilmirsən». 1722-ci ildən Azərbaycanda olan Rusiya zabiti ***İ.Q.Herber*** isə bildirir: «Dərbəndə mənsub olan qəza (mahal – *red.*) şəhərdən sahilboyu quzeyə doğru, ***Qaytağa*** və ***Dərbən*** çayına kimi 15 verst uzanıb gedir; ***Şirvanın hüdudu elə bu çaydır***».



Üç qaynaqdan gətirilən parçalardan aşağıdakı nəticələr alınır. Birinci «lesq» (ləzgi) toplumu yaşayan bölgə Dərbəndin dışarısında idi. İkinci, Dərbənd Şirvanşahlığa məxsus idi və üçüncü, bu Şirvanşahlığın hüdudu Dərbəndin 15 verst quzeyində, Dərbən çayına kimi uzanırdı. Bununla bağlı orta çağ tarixi qaynaqlarında bu şəhər bir qayda olaraq «Şirvan Dərbəndi» adlanırdı.

İkinci saxtalaşdırma işi Şirvanın bir türk yurdu olmasının inkar edilməsi ilə bağlıdır. Guya XX yüzilin başlanğıcına kimi burada yalnız irandilli tatlar yaşamış, danışıq və yazı dili farsca olmuşdur. Azərbaycan tarixçilərindən birinə görə «yalnız Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra onların (tatların – *red.*) qəti olaraq türkləşməsi başlanmışdır».

Halbuki artıq XVI yüzildə burada Nəsimi, Bədr Şirvani kimi böyük şairlər yetişmiş, bu bölgə Azərbaycan türk mədəniyyətinin başlıca beşiklərindən biri olmuşdur.

Ambroco Kontarini elçiliyinin Şamaxı ilə Dərbənd yolu boyunca «türk kəndlərində arabir» dayanması bunu çox aydın göstərməkdədir. Venesiya elçisi bu baxımdan Quzey və Güney Azərbaycanda ayrılıq sezməmişdi. Çünki elçilər Təbrizə vardıqda, orada da türklərin yaşadığını görmüşdü. Kontarini təbrizlilər haqqında yazmışdır: «Qarşımıza çıxan *türklər* bir-birinə söyləyirdi: «Bu köpəklər Muhəmməd dininə nifaq salmaq üçün gəliblər». Burada Ağqoyunlu-Osmanlı dövlətləri arasında nifaq salınması nəzərdə tutulurdu, ancaq təbrizlilərin «türk» adlanması Kontarini üçün, görünür, aydın bir gerçəklik idi.

Holştin alman dövləti elçiliyinin katibi, Almaniyanın böyük bilik adamı ***Oleari*** (Olearius) 1636-1638-ci illərdə Şamaxıda olmuşdu. O, Şirvanın baş şəhərində yaşayan farsların, ermənilərin və «azacıq gürcülərin» hər birinin «öz dili» olduğunu bildirdikdən sonra yazır: «Onların hamısı, *bütünlüklə Şirvan əhalisi kimi, türkcə danışırlar*». Şamaxı ilə Dərbənd yolu üzərindəki dağların birinin isə: «*Türkcə Barmax*» (Beşbarmaq – *red.*) adlandığını söyləyir. 1670-ci ildə Şamaxıda olan Holland dənizçisi ***Yan Streys*** burada «*türklərin arasında*» bəzi xristianların ləyaqətsiz davranışına deyinirdi. Avropa ölkələrindən gələn elçi və alış-veriş adamları türkcəmizdən alınan onlarca söz və deyimləri latın hərflərilə olduğu kimi öz gündəliklərində yazıya almışlar. İngilis ticarət şirkətinin başçısı Entoni Cenkinson «Şirvan kralı» ***Abdulla xan Utaclu*** ilə görüşdükdə (1561), sonuncu onu ***guoch guelde*** (xoş gəldin) sözlərilə qarşılamışdı. Onun həmkarı, tanınmış korsar ***Cefri Deketə*** görə, burada şahın başına (***Shaham bashka***) and içirlər; Yan Streys Dağıstanda bir «adam oğrusu»nun əsirliyindən qurtulmaq üçün Polşa səfirliyinin «***elçiadamı***» olduğunu bildirmişdi. 1623-cü ildə Nizabad limanına gəlib çıxan rus taciri ***Fedor Kotov*** burada «türk sayının» (turski sçet) işləndiyini bildirirdi: ***bir, iki, uç, dörd, beş, altı,***

***yeddi, səkiz, tokuz, on, onbir, oniki, igirmi, otuz, kırk, illi, altmış, yedmiş, seksen, doksen, yüz, min.***

Şirvanın etnocoğrafi durumu haqqında XVIII yüzil üzrə çox tutarlı qaynaqlar var. Bunların sırasında birinci yerdə yuxarıda adı çəkilən İohann-Qustav Herberin 1728-ci ildə yazılan 88 səhifəlik yazısı durur. Bu yazıda «Şirvan əyaləti» barədə arayış verilmişdir.

Herberin araşdırılmasında hər bir Şirvan şəhəri və mahalında yaşayanların hansı dildə danışması ayrıca yazıya alınmışdır. «***Dərbənd şəhəri və qəzasının dilləri***» sorğusu qarşısında yazılmışdır: «Qarışıq fars, türk, tatar dilləri. Yazışmada daha çox fars dili işlədirlər, başlıca olaraq ruhani və hacılar. Sadə xalq isə fars dilini bilmir». Buradan aydındır ki, «sadə xalq» türkcə danışırdı.

Ancaq burada yazışma farsca ilə yanaşı türkcə də aparılırdı. XVIII yüzilin ikinci yarısında Dərbənd türkcəsi kamil bir rəsmi yazışma dili idi. Buranın bir yüksək zümrə adamının II Yekaterinaya qulluq iddiasını bildirən yazısı buna parlaq nümunə ola bilər: «... Ol gün ki, mən mənim padişah həzrətlərimə and içmişəm, mən mənim padişah həzrətlərimə əgri deyiləm, doğriyəm; onun həsrətindəyəm ki, mənim padişah həzrətlərim mənə bir qulluq buyura, mən o qulluğu əlimdən gəldiyi kimi yerinə yetirəm. Mətləbimiz budur ki, padişah həzrətləri Dərbəndə ***İmanqulu xan*** nəvəsini əgləşdirə, Qubada Quba xanını əgləşdirə, Bakıdə Bakı xanın əgləşdirə... yoxsa kim, ***Şeyx*** (Əli) və qeyriləri nə karədürlər ki, padişah həzrətlərinən qarşu duralar». Sözsüz, belə bir yüksək yazışma dilinin uzun siyasi və filoloji ənənəsi olmalı idi.

Şirvanın Şamaxı, Bakı şəhərləri və eyni adlı mahalları, ***Müşkür*** (indi Xaçmaz), ***Nizabat*** (Niyazoba), ***Rustau*** (Rustov), ***Bərmak*** (Beşbarmaq), ***Qəbələ, Ağdaş, Salian*** və ***Cavad*** mahallarının dili haqqında qaynaqda verilən arayış çox yığcamdır: «*Türk dili, tatarca qarışıq*» («Yazıki: turetskoy s tatarskim pomeşannoy»). Şamaxı şəhəri haqda üstəlik bildirilir ki, «*yazışmada* indi türk dili işlənir, keçmişdə isə fars dili işlənirdi». (1716-cı ildə Şamaxıya gələn şotlandiyalı ***Belə*** görə: «*Oranın xalqı türkcə, ancaq məmurlar farsca danışırlar*»). Bakı ilə bağlı arayış belədir: «*Şəhərdə türk dili*, tatarca və farsca qarışıq. Qəzada tatarca ilə qarışıq türk dili (işlənməkdədir)». Şabran və ***Şeşpara*** mahalları qarşısında «türk dili, tatarca və farsca qarışıq». Quba mahalı haqda isə «türk dili, tatarca qarışıq, bununla yanaşı ləzgi dilini bilir və işlədirlər» yazılmışdır. Qaynaqda Quba mahalı başqa doqquz «qəza və xalq» ilə birlikdə «Ləzgistan» əyalətinə aid edilmişdir. Lakin qaynaq üzrə bu əyalətdə yalnız ***Kurqi*** və ***Şaki*** icmaları üçün ləzgi dili başlıca dil idi. Quba ilə yanaşı ***Kürəli*** icmasının başlıca danışıq dili Azərbaycan türkcəsi, ***Qumuq*** icmasınınkı isə qumuq dili idi. Qalan dörd icma (Akuşa, Xasi Qumuq, Tabasaran və Car) türkcəyə və ləzgicəyə yaxın olmayan ayrıca («özəl») bir dil işlədirdi.



***Herberə*** görə «Aşağı Dağıstan» əyalətindən fərqli olaraq «Ləzgistan» adlanan əyalətdə ləzgi icması azlıqda qalırdı; ləzgilər (on «qəza və xalqdan» yalnız ikisi) burada yaşayanların 20-25 faizindən çox deyildi*. Quba və qonşu mahallarda ləzgi əhalisi sonralar, XIX-XX yüzillərdə qızılboya və başqa istehsal sahələrinin genişlənməsi ilə bağlı xeyli artmışdı.

Mahalların sırasında Quba yöresində «ləzgi dilini bilir və işlədirlər» yazılması qaynağın yüksək ölçüdə dəqiqliyini göstərir. Çünki ləzgi yaşayış yerləri (Qusar və s.) o zaman bu mahalda ili. Ancaq bununla yanaşı, Quba mahalı Azərbaycan ədəbi türkcəsinin beşiklərindən biri kimi çıxış edirdi. Quba xanlığı başçısı Fətəli xanın II Yekaterina ilə dövlətlərarası yazışmanı ana türkcədə aparması bunu sübut edir.

Fars dilinə gəldikdə nəzərə alınmalıdır ki, bu dil, gerçəkdən, ***Həsən bəy Zərdabinin*** «Əkinçi»də yazdığı kimi, «bizim vilayətlərdə çox işlənirdi». Ona görə yox ki, bu vilayətlərdə yalnız tatarlar yaşayırdı. Məsələnin tarixi açımı başqadır. Azərbaycanda olan məktəb və mədrəsələr «***şair kitabları oxudan müəllimlərin***» (Həsən bəy Zərdabi), «vaxtilə ***Firdovsinin*** romantikası, ***Sə'dinin*** dərin hikməti, ***Hafizin*** dadlı qəzəlləri qarşısında bayılan mirzənin» (M.Ə.Rəsulzadə) əlində idi.

Bir zamanlar fars tərbiyəsi və təhsili alan Azərbaycan və Türkiyə hökmdarları ***şah Təhmasib*** (Xətainin oğlu), ***Süleyman Qanuni***, yenə Məmməd Əmin bəyin sözlərilə deyilərsə, «Sə'di lisanı qarşısında əriyib özlüyündən keçmiş, türk ilə türkcəyə xor baxmışlar»; ***Sultan Səlim*** isə az qala onu «rəsmi lisan elan etmişdi». XVIII yüzilin dövlət adamları ***Qarabağ hakimi İbrahim xan*** və ***Şəki hakimi Səlim xan*** da Rusiya imperatoru ilə farsca yazışırdılar.

Bir sözlə, gerçək tarixi qaynaqlar üzrə bütün Şirvanın xalq danışığı XX yüzilin başlanğıcında deyil, ondan 600 il əvvəl də «tatarca qarışıq» türk dilində olmuşdur («tatarca qarışıq» söz birləşməsi ilə Herber bu dillərin türk kökünü, onların sözlüyündə çoxlu əski ümumtürk səözlərinin olmasını bildirmək istəmişdir).

*İohann-Qustav Herber* (1734-cü ildə ölmüşdür) 1710-cu ildən Rus ordusunun topçu kapitanı (sonralar mayoru) idi. I Pyotrun Xəzər yürüşündə, o sıradan Bakının alınmasında, 1724-cü il İstanbul müqaviləsinə görə Şirvanda Osmanlı-Rusiya dövlətləri arasında hüdud xəttinin çəkilməsində iştirak etmişdi. 1729-cu ilə kimi, yəni 7 il Şirvan və Dağıstanda əsgəri qulluqda olmuş, Xəzərboyu bölgələri qarış-qarış öyrənmişdi. Buna görə onun Rusiyanın mərkəzi Dövlət Qədim sənədlər Arxivində saxlanılan, 1760-cı

* Rus qaynaqlarında «Aşağı Dağıstan», «Ləzgistan», «İran Dağıstanı» coğrafi anlayışları şərti mə'na daşıyırdı. Sonuncu «əyalət»ə Dərbənd, Quba, Salian, Bakı, Şamaxı və Şəkinin (?), yəni bütün tarixi Şirvanın aid edilməsi bunu aydın göstərir.

ildə Sankt-Peterburqda almanca və rusca nəşr edilən araşdırmasına azacıq da olsa şübhə ilə yanaşmaq mümkün deyildir.

**ÖLKƏNİN DAXİLİ VƏZİYYƏTİ.** Son Səfəvi şahları dövlətin dağılıb parçalanmasını yalnız seyr edirdilər. Üç Azərbaycan bəylərbəylikləri, onların ***Dərbənd, Bakı, Şəki, Xudat*** kimi qalalara qoyduqları yerli sultanlar Səfəvi hökumətinə saymazlıqla yanaşırdılar. Xalqın Səfəvilərə ehtiramı qalmamışdı. 1715-1718-ci illər (bax: aşağıda) Rusiya elçiliyindən olan ***A.Lopuxin*** bütün yol boyu xalqın «... biz şahdan qorxmur və onun sözünə baxmırıq» deyərək, belə bir düşüncədə olmasını görmüşdü. O, ***Quba*** əhalisi haqqında yazırdı: «[Burada] yaşayan xalq çox özbaşınadır, öz hökmdarına istəyi yoxdur və ona qulaq asmaq istəməyir; onlarda xan şahın adından qoyulsa da, buranın xalqı yalnız atası, ya babası burada xan olanların varislərini xan kimi tanıyır, yaxud xasiyyətcə onlara uyğun bir kimsəni özlərinə xan seçirlər: indiki xan ***Soltan Əhmədi*** irsən buranın əhalisi bu qaydada seçmişdir». Elçibaşı ***A.Volinski*** özü Təbriz əhalisi ilə tanışlıqdan sonra yazmışdı: «Burada xalq Şamaxıya nisbətən daha çox özbaşınadır...» Bu zaman Azərbaycan bəylərbəylikləri, xüsusilə Şirvan, mərkəzi Səfəvi hökumətindən, əslində nominal bir asılılıqda idi.

Səfəvi dövləti sistemində Azərbaycanın, Təbriz və Şamaxı kimi şəhərlərin iqtisadi çəkisi böyük idi. Adı çəkilən Rusiya elçibaşçısının gündəliyində bu barədə oxuyuruq: «Bütün İran dövlətində mən Türkiyə sərhədindən başlayaraq ən yaxşı əyalətlər Erivan və Təbrizi sayıram. Onlarda taxıl qıtlığı görmədim, alış-veriş baxımından da İrana az fayda vermirlər, çünki Türkiyədən gələn böyük karvanlar (bir neçə yüz dəvə ilə) oraya axışır, çoxları da gümüş gətirərək, Təbriz ustalarına ondan İran pulu çəkdirir, sonra isə bu hazır pula İrandan istədikləri malları, ən çox da ipək alırlar... Xəzər dənizinə yaxın əyalətlərdən Şirvan və Gilan iranlılara böyük fayda gətirir. Mən çox yerlərdə oldum, amma onlardan qazanclısını görmədim. [Şirvanda] yaşayış yerləri çox, əhalisi sıxdır, hamısının da azuqəsi var. Gerçəkdən, bu torpaq çox bərəkətli, çörəyi isə boldur (bir çox başqa yerlər də çörəyi buradan alırlar), üzüm və başqa çeşidli mer-meyvəni heç Türkiyə vilayətində də görmədim; burada, xüsusən dəniz yaxınlığında, istənilən qədər meşəliklər, bunlar bir yana, saysız yırtıcı heyvan və quş var; mal-qara və balıq da çoxdur, ən çox da ipək işinə maraq göstərirlər, istər dəniz yaxınlığında, istərsə də Kür çayına kimi olan yerlərdə çoxlu barama yetişdirilməkdədir və ipək fabriki olmayan az kənd var».

Rus elçiliyindən 8 il öncə, yeni 1707-ci ildə, görünür gizli tapşırıq ilə Şamaxıda olmuş ***Korneli de Bruin*** də, «***Dəli Petronun***» göz dikmiş olduğu Quzey Azərbaycanın varlı bir məmləkət olmasını ayrıca qeyd edirdi. O yazırdı ki, İran dövlətinin o biri vilayətlərindən Araz çayı ilə ayrılan



«quberniya» (burada təkcə Şirvan bəylərbəyliyi deyil, həm də Qarabağ-Gəncə bəylərbəyliyi nəzərdə tutulur – *red.*) «çox böyük gəlir verir». Sonra müəllif ipək, pambıq, zəfəran işinin verdiyi gəlirdən «torpağın çox yaxşı qırmızı və ağ çaxır» üçün üzüm yetirməsindən, «gözəl atların və ev heyvanlarının» çoxluğundan, bu «gözəl və gözəyatımlı vilayətin Gürcüstanla yanaşı çox bərəkətli» olmasından danışaraq, «çar əlahəzrətləri üçün bu vilayətin [Rusiyaya] qatılması çox yerinə düşər və onun təbəələri üçün çox əlverişli olardı» yazırdı.

Ancaq yadellilləri yuxusuz edən varına baxmayaraq xalq zülm, saysız vergilər boyunduruğu altında idi. Qanunsuzluq, dərəbəylik, rüşvətxorluq hökm sürürdü. Kəndlilər üzərinə ağır mükəlləfiyyətlər yüklənmişdi. Vergi yığımı bəylərbəyinə, xan və sultanlara sonsuz qazanc gətirirdi. Kənd və şəhərlərdən artıqlaması ilə yığılan vergilərin hökmdar xəzinəsinin deyil, yerli hakimlərin (ilk əvvəl bəylərbəyinin) əlinə keçməsi bir qayda olmuşdu. 1702-ci ildə ***Şah Hüseyn*** vergiləri artırdı. Bununla bağlı olaraq, 15 yaşından tutmuş hamı vergi sayımına alınmışdı. Şahın fərmanı üzrə sayımdan yayınıb gizlənən bir kimsə ələ keçərdisə, «başı şahın, varı yerini deyənin» (casusluq edib xəbər verənin) olurdu. Qaçqınlıq kütləvi şəkil almışdı. Azərbaycanın güney torpaqlarında qıtlıq, kasadlıq yaranmaqda idi. Hər şeyə göz yetirən ***Volinski*** öz gündəliyində bunu da yazmışdı: «Səfəvilər dövlətinin çörək ağacı sayılan Azərbaycanda tarlalar yeddi ildir əkilmir, ölkədə aclıq var».

**MƏRKƏZİ HÖKUMƏTƏ QARŞI ÜSYANLAR.** Səfəvilərə tabe olan, demək olar bütün əyalət və ölkələri kütləvi hərəkat bürümüşdü. Nüfuzunu itirmiş xanədana qarşı yönəlmiş çıxışların iki başlıca ocağı yaranmışdı. Bunlardan biri Əfqanıstan, o biri isə Azərbaycan idi. Hər ikisində ilkin çıxışlar 1709-cu ildə baş verdi. Həmin ildə Təbriz üsyana qalxdı. Tezliklə Muğan şahsevərləri də ayağa qalxaraq, mərkəzi Səfəvi hökumətini tanımaqdan boyun qaçırdılar. 1711-ci idə Car vilayəti üsyan etdi. Carlılar şah xəzinəsinə vergilərdən azad idilər. Əksinə, Səfəvi təbəəliyinə qoşulub sərhəd xidmətində sayıldıqları üçün onlara şahın adından illər boyu pul ilə ödənc verilirdi. Şirvan bəylərbəylərinin özbaşınalığı ilə bu ödəncin kəsilməsi onları bərk narazı salmışdı. Carlıların Şəki və Şirvana girməsi bir çox yerlərdə kəndlilərin onlara qoşulması ilə nəticələndi. Üsyan başçıları xalqın narazılığından varlanmaq, özlərinə siyasi nüfuz qazanmaq üçün istifadə edirdilər. Belələrindən ***Ərəş*** vilayətinin hakimi ***Əli Sultanın*** adını çəkmək olar. (Türkiyə sultanının 1722-ci il tarixli fərmanında o, «Şəki sultanı» adlandırılır). Səfəvi hökmdarı sultan Hüseynin verdiyi əmrlərə baxmayaraq, Şirvan qoşunu üsyanı yatıra bilmədi. Əli Sultanın başçılığı ilə üsyançılar Şəki mahalında hökumət qoşununu əzdilər. Bu döyüşdə Şirvan

bəylərbəyisi ***Həsənəli xan*** öldürüldü. Üsyançı bölüklər ***Gəncə-Şəmkir-Zəyəm-Qazax-Şəmşədil*** yörələrinə basqın etdilər. Gəncə bəylərbəyisi ***Uğurlu xanın*** Şəmkir yaxınlığında onların qarşısını almaq istəməsi də uğursuz oldu: xan qoşunu basıldı, xan özü isə qaçıb Gəncə qalasında qapandı. Şəki hakimi ***Kiçik xan*** da öldürüldü.

Tezliklə üsyan başçılarından başqa birisi olan ***Hacı Davud*** ad çıxardı. O, Quba vilayətindəki ***Müşkür*** mahalının ***Dədəli*** kəndindən idi. Həccə getdikdən sonra gündoğar Qafqazda sünnü ruhani başçılarından biri olmuş, ***Qaytaq*** hakimi ***Əhməd xan*** və **Qazıqumuq** hakimi ***Surxay xanla*** ittifaq yaratmışdı. Onlar «kütləvi üsyan» qaldıraraq, Şirvan və Dağıstanda Səfəvi hökmranlığına son qoymaq istəyirdilər.

1719-cu ildə Hacı Davud tutulub Dərbənd qalasına salındı. O biri il dustaqlıqdan çıxdıqdan sonra o, müttəfiqləri ilə birlikdə **Şabran** şəhərini tutub darmadağın etdi. ***P.Q.Butkova*** görə, «çoxlu əhalisi olan böyük Şabran ən çox dağıntı gördü». Bu dağıntıdan sonra şəhər yox oldu, adı xəritələrdən silindi. Sonra Xudat qalası alındı, burada ***Əhməd xan Qaytaqlı*** öldürüldü. ***Hacı Davud*** və ***Surxay xan*** buradan Bakı qalası üzərinə yürüş etdilər. Bakı yüzbaşısı ***Dərgahqulu bəy*** qaladan yarım fərsəx aralı onların qoşununu əzdi (bu yer o çağdan ***Qanlı təpə*** adlanmağa başladı). Şamaxını və Dərbənd qalasını ələ keçirmək cəhdi də uğursuz oldu.

Bütün üsyan başçıları içərisində bircə ***Hacı Davudun*** az-çox düşünülmüş siyasi məqsəd və tələbləri var idi. O, «***Asari Dağıstan***» kitabının müəllifi ***Həsən Əlqədəriyə*** görə, «Nuxa, Şirvan və Quba qəzalarında şah Hüseynin xanlarını, qulluqçuları (bəylərbəyi və sultanları – *red.*) ilə birlikdə öldürüb məhv etməyi», başqa sözlə, Səfəvi hökmranlığının bütün sosial-əsgəri özülünü yox etməyi, əslində əski Şirvan dövlətini bərpa etməyi bir məqsəd kimi qarşısına qoymuşdu.

Quzey bölgələrdə güclənməkdə olan xalq hərəkatı formal olaraq sünnilik bayrağı altında keçsə də, bu hərəkat «xaricdən» gətirilmə bir qurğu – Osmanlı dövlətinin «fitnəsi» deyildi. Bu üsyanları doğuran, onları kəskinliklə «səfəviliyə», «qızılbaşlığa» qarşı yönəldən tutarlı obyektiv, gerçək daxili səbəblər var idi.

## 2. XƏZƏRYANI VİLAYƏTLƏR VƏ ÇARLIQ RUSİYASI

**RUSLAR NƏ ÜÇÜN XƏZƏR ÜZƏRİNƏ YÜRÜŞ ETDİLƏR?** ***I Pyotr*** yalnız Baltiya üzərində deyil, Qara və Xəzər dənizləri üzərində də Rusiyanı hökmran etmək siyasəti yeridirdi. Rusiyanın imperatorluq tarixçiliyi, yüz və ya iki yüz il öncə olduğu kimi, indi də bu siyasəti, onu doğuran daxili səbəbləri gizlədib pərdələməyə çalışır. Rusiyanın dvoryan (əsilzadə) tarixçiləri kimi, indiki tarixçiləri də Xəzər üzərinə yürüşü təsadüfi səbəblər, bir padşahın başqa bir padşaha «şahlıq yardımı» göstərmək istəməsi,



Güney Qafqazın xaçpərəst xalqlarını «müsəlman əsarətindən» qurtarmağa, «hüquqsuz» Rusiya tacirlərinə əl tutmağa çalışması və sairə ilə bağlayırlar. Yalnız ***V.O.Klüçevski*** bu yürüşləri Güney Qafqazda «Bərk cəmiyyətlərin öz «bərkliyi» ilə Rusiyanın irəliləməsinə qarşı dura biləcək dövlət qurumlarının olmaması ilə izah etmişdir.

***İqtisadi-ticari*** mənafe baxımından yaranmaqda olan Rusiya imperatorluğu ***yeni qazanc və xammal qaynaqları axtarmaqda idi. Güney Qafqaz ölkələri ona yanacaq, metal, kükürd, ipək, yun, pambıq, qızıl boya, çeşidli parça, duz, balıq kürüsü, çaxır, qızıl-gümüş, mis, silahlar, qab-qacaq, daş-qaş, bəzəklər*** və s. verəcək, vergilər və gömrük rüsumları ilə Rusiya xəzinəsini dolduracaqdı. Pyotrun general ***Matyuşkin*** və polkovnik ***Şipova*** Gilanla Bakıda dərhal Səfəvi vergi və rüsumlarını Rusiya xəzinəsi üçün toplamağı əmr etməsi, artıq 1723-1724-cü illərdə «1000 pud və ya nə qədər mümkünsə, ağ neft göndərilsin» yazması təsadüfi deyildi. I Pyotr Rusiyanı Avropa-Asiya ipək ticarətinin fəal əməkdaşı etməyə çalışırdı. Xəzəryanı ölkələrdə istehsal edilən ipək mallarının İran körfəzi – Okean və Türkiyə – Aralıq dənizi yolları ilə Avropa ölkələrinə axması Rusiyanı çox qıcıqlandırırdı. Pyotr Avropaya üçüncü bir yol, ***Xəzər–Volqa*** yolunu «açıb» canlandırmaq istəyirdi. Həştərxan qubernatoru Volinskiyə, qafqazlı və iranlı tacirlərin «nazı ilə oynamağı» dönə-dönə tapşırırdı, çünki onların Xəzər – Volqa boyu ilə Avropaya mal aparıb-gətirməsi xəzinəyə böyük gömrük gəliri verə bilirdi. O, İranda Rus konsulluğu açaraq, bütünlüklə yabançı tacirlərə «qısa yol, azacıq daşıma xərci və yüngül gömrük pulu» vəd etməklə onları Xəzər – Volqa yolundan istifadə etməyə çağırırdı. O, kəskin tədbirlərdən belə çəkinmirdi: Culfa erməniləri ticarət şirkətinin Türkiyə vasitəsilə, tranzit alış-veriş etməsi ilə bağlı o, Rusiya dövlətinin XVII yüzilin ikinci yarısında bu şirkətə verdiyi imtiyazdan (kiçicik gömrük hüququndan) məhrum etdi. Ağır zərər çəkməyə başlayan şirkət, gömrük imtiyazını bərpa etmək üçün güzəştə getməli oldu: 1711-ci ildə ipək satışını Rusiyada aparmaq və ya yalnız Rusiya vasitəsilə Avropaya çıxarmaq barədə rus dövləti ilə yeni müqavilə imzaladı.

***Hərbi-siyasi*** mənafe baxımından Pyotr ***Həştərxan*** və ***Terekə*** çıxdıqdan sonra fəal, qabaqlayıcı bir siyasətə qol qoymuşdu. Artıq on il idi ki, Pyotr güney ölkələrə yürüşə hazırlaşırdı. Ancaq Türkiyə ilə 12 iyun 1711-ci il ***Prut andlaşması*** onun əl-qolunu bağladı. Bu andlaşmaya görə Rusiya ***Taqanroq*** limanını və ***Azov*** qalasını uçurmalı, burada donanma yaratmalı, İstanbulda elçi saxlamamalı, ***Polşanın, Kabardanın*** (Kabarda artıq Rusiya qarşısında «sədaqət andı» içməyə məcbur olmuşdu) və Zaporojye kazaklarının işinə qarışmamalı idi. Xəzər sahillərində «iş açmaq» yolunda yalnız «Şimal müharibəsi» deyil, Osmanlı dövlətinin siyasəti də hələ kəsərli bir maneə idi.

**İRANA «BÖYÜK ELÇİLİK» GÖNDƏRİLMƏSİ.** Xəzərin günbatar bölgəsi çar Pyotru çoxdan rahatsız edirdi. Onu bu işə şirnikdirmək istəyənlər də az deyildi. «Erməni işini» Rusiya qarşısında qulluq ilə calaşdırma ustası olan ***İsrail Ori*** hələ 1701-ci ildə alış-veriş pərdəsi altında onu Azərbaycana göndərməyi Pyotrdan xahiş etmişdi. Onun çara məktubu işlərin nə yerdə olduğunu, çar hökumətinin hansı üsullara əl atdığını az-çox göstərə bilir: «... Şamaxı xanı bu işdə manee törətməyəcəkdir, çünki o, xristianlara rəğbət bəsləyir və burada ***Xoxoniç*** ləqəbi almış və böyük hökmdara (Pyotra – *red.*) xidmət edən knyazın doğma qardaşıdır, buna görə ondan hər cür xeyir görəcəyimizə ümid var». Pyotr bu yazıya laqeyd qalmayıb hazırlıq işləri gördü və Orini 1707-ci ildə Şamaxıya göndərdi. O, 1711-ci ilə kimi Rusiya elçisi sifətilə burada qalaraq gizli iş apardı, öz ağasının qayəsini erməni və gürcü dairələrinə bildirdi. Bu zaman «padşahın (Pyotrun) padşaha (şah Hüseynə) yardım etmək» söhbəti hələ aralıqda yox idi.

Gürcü və ermənilərlə sıx əlaqəyə girməklə Pyotr mərkəzi Transqafqaza da ciddi maraq göstərmədə idi. Xəzər dənizi ilə Gürcüstan arasında yerləşən Gəncə şəhərinin strateji və ticarət dəyəri onun gözündən qaçmırdı. XVII yüzilin sonunda Quzey Azərbaycanda olmuş iyezuit pateri ***Avril Filipp*** yazmışdı: «İranın (Səfəvi dövlətinin – *red.*) ən yaxşı şəhərlərindən biri olan Gəncə göz oxşayan bir düzlükdə yerləşir... İranlılar gerçəkdən gözəl olan bu qəzanı imperiyanın gül-çiçək bağı adlandırırlar. Şəhərin mərkəzində yerləşən bazar və dükanlar mənim şərqdə gördüyümün ən gözəli və cəlallısıdır. Hələ onların son dərəcə böyüklüyü bir yana dursun, hamısı çarşı ilə yaxşı örtülmüşdür və satılan çeşid mal onların ayrıca bir hissəsini tutur. Gəncənin yeri alış-veriş baxımından çox əlverişli olduğundan, ilin bütün fəsillərində burada hər yerdən gələn əcnəbi toxumları ilə üz-üzə gəlirsən».

Əfqanların, Şirvan əhalisinin, şahsevənlərin çıxışlarının güclənməsi Şah Hüseyni 1713-cü ildə rəsmi olaraq Rusiyadan yardım istəməyə məcbur etdi. Pyotrun gizli planları üçün əlverişli məqam çatdı. Ancaq o, tələsmədi. Üç il boyunca iki böyük tədbir hazırladı. İlk əvvəl 30 may 1715-ci ildə İrana «böyük elçilik» göndərilməsi barədə buyruq verdi. Arada isə 1715 və 1717-ci illərdə çərkəzli ***Aleksandr Bekoviçin*** (ilkin adı ***Dövlət Girey Mirzə***) başçılığı ilə Xəzər dənizindən Türkmənistan sahillərinə iki donanma göndərdi. Bu tədbirə səbəb Türkmən əsnafı ***Xoca Nepesin*** Amu çayı üzərindəki «çox zəngin qızıl yataqları» haqqında xəbər verməsi idi. Ancaq knyaz ***Bekoviç*** 5 minlik qoşunla ***Xivəli Şir Qazi xana*** qarşı toqquşmada öldürüldü. «Qızıl avantürü» baş tutmasa da, Pyotr Xəzər vilayətləri, dənizin özü haqda çox dəyərli biliklər toplaya bildi.

İrana göndərilən elçiliyin tapşırıq sənədini Pyotr özü yazmışdı. Elçibaşı qoyulan 26 yaşlı ***Artemi Volinski*** bu barədə yazmışdır: «... Əgər tapşırığın üz tərəfi nəzərə alınarsa, mənim işim imperator həzrətlərinin



İran şahı ilə qədim dostluğuna inam yaradıb onu bərkitmək olmalı idi. Bir də guya alış-verişlə bağlı idi; əslində isə bu işə görə orada asanlıqla məhv olmaq olardı... Mən İranın daxili vəziyyətini, xüsusilə [ayrı-ayrı] yerlərin vəziyyətini, Xəzər dənizi boyu yerləşən Gilan və başqa əyalətlər ilə İran arasında hansı dağlar və keçilməz yerlərin olduğunu öyrənmək üçün göndərilmiş idim. Həm də mənə Xəzər dənizinə tökülən çaylara qalxıb gediləsi yerlər varsa, onlara (və bu dənizə ***Hindistandan*** axıb gələn bir çayın olub-olmamasına) diqqət yetirmək və bununla yanaşı dəniz körpülərinə, şəhər və qalalara göz yetirmək, şahın nə qədər hərbi istehkamlarının olduğunu, hansı yerlərdə atlı və piyada qoşun yerləşdiyini, top və başqa silahların olduğunu, savaşda Avropa üsullarının tətbiq olunmasını öyrənmək əmr edilmişdi. Bir də ölkələrdə yaşayan erməni və başqa xristian xalqları və iranlılara asi olan xalqlar barədə onların imperator həzrətlərinə tərəf necə olmaları (mənə buyrulmuşdu ki, onları hər vəchlə onun tərəfinə çəkim), bu və başqa xalqın variyəti barədə kəşfiyyat aparmaq mənim üzərimə qoyulmuşdu».

72 kişidən ibarət olan elçilik 1716-cı il avqustun son günlərində Həştərxandan Dərbəndə, sonra da Şamaxıya vardı. 9 həftə (27 sentyabrdan 4 dekabra kimi) burada qalan Volinskinin Şirvan bəylərbəyi ***Xosrov xanla*** görüşü (görüş haqqında məktubu Volınski türkcə yazmışdı) və «portikulyar» danışığı Səfəvi hökumətinin Rusiyanın davranışına çox şübhə ilə yanaşdığını üzə çıxardı. Bir yandan knyaz ***Bekoviçin «Qırmızı su»*** (***Krasnovodsk***) üzərinə «üç min, ya ondan bir az artıq» (əslində isə beş minlik) bir nizami rus qoşunu gətirməsi, burada «tacirlər üçün kiçik bir qala» tikdirməsi bəlli oldu. O biri yandan Xosrov xan, Pyotrun «İsveç kralı ilə olan savaşı» haqqında soruşduqdan sonra «şahın da indi Hindistana qarşı» savaşa başlamaq istədiyini bildirdi. Öz keçmiş təbəələrinin öhdəsindən gəlməyib Rusiyadan əsgəri yardım gözləyən şah Hüseynin Hindistana yürüş etmək istəməsi ağlabatan bir iş deyildi. Görünür, şahın bəylərbəyisi ***Pyotrun*** Xəzərin güneyindən Hindistana yol açmaq barədə düşüncələrinə öz hökumətinin rəsmi münasibətini bildirmək istəmişdi.

Rusiya elçiliyi Təbrizdən keçib 14 martdan 1 sentyabr 1717-ci ilə kimi İsfahanda qaldı. Rusiya-İran ticarət müqaviləsi imzalandı, ancaq Pyotrun tapşırığı üzrə Volınskinin şah sarayında rezident qalmasına icazə verilmədi. Elçibaşının israrı üçüncü dəfə «mürəxxəs!» sözü ilə kəsildikdə susmaq lazım gəldi. Elçilik İsfahan-Qəzvin-Rəşt-Lənkəran-Muğan xətti ilə Şamaxıya dönərək, yarım ildən çox burada qaldı (12 dekabr 1717–16 iyun 1718.) Volınski çarın ona buyurduqlarının çoxunu yerinə yetirdi, ***Kaxet*** hakimi ***VI Vaxtanqın*** adamları və erməni tacirləri ilə gizli görüş keçirib sövdələşə bildi, öz hökumətinin xeyrinə casusluq işi yapdı.

A.Volınski yol boyu, xüsusilə İsfahanda gördüklərindən çarın mülahizəsi üçün aşağıdakı qənaətə gəldiyini bildirdi: «Bizim indiki savaşımız

(İsveç ilə – *red.*) bunu bizə yasaq edir, ancaq buradakı (İrandakı – *red.*) zəifliyi gördükdən sonra biz heç bir qorxu çəkmədən [işə] başlaya bilərik, çünki bütöv bir ordu ilə deyil, yalnız kiçik korpus ilə də (İranın) böyük bir parçasını çətinlik çəkmədən Rusiyaya qata bilərik».

Çıplaq qamçı kimi səslənən bu yazı Pyotrun ürəyindən oldu. Əmi qızlarından birini Artemi Volınskiyə verib onu polkovnik, bir az sonra isə general-adyütant rütbəsi ilə Həştərxana qubernator vəzifəsinə göndərdi. Xəzər üzərinə yürüşün hazırlanması bu İşi hamıdan yaxşı bilən bir adama tapşırıldı.

**HACI DAVUDUN RUSİYAYA ARXALANMAQ İSTƏMƏSİ.** ***Volinskinin*** «qardaş» xristian xalqlarına quzeydən kömək əli uzadılacağı barədə təbliğləri, görünür, ***Hacı Davud*** kimi mömin bir kişini də inandırmışdı. 1721-ci ilin birinci yarısında o, Həştərxan vasitəsilə Rusiya hökümətinə müraciət edib, «***Kür çayından Dərbənd şəhərinə kimi [olan torpaqları] təmizləmək və qızılbaşların hamısını [buradan] qovub çıxarmaq***» fikrində olduğunu bildirdi. O, «qızılbaşlar», yəni Səfəvi dövləti ilə münasibətlərin pisləşməsini bu sözlərlə anladırdı: «Hər şeydən öncə qızılbaşlar bizlərə çox zülm etmişlər və onlardan bizlərə dinclik yox idi, onlar güc işlədərək bizi sıxışdırdıqları üçün biz də qızılbaşlara yağı kəsildik, biz tökülən qanımızı yerdə qoymayacağıq».

Hacı Davud öz iddialarını çarlıq Rusiyasının yardımı ilə bağlayırdı. 22 aprel 1721-ci il tarixli ilkin məktubunda o, Həxtərxan voyevodası ***P.Kikinə*** yazırdı ki, «nur və ərdəm sahibi ulu hökmdarın (Pyotrun – *red.*) qulluğuna girib öz yurdumu da onun ixtiyarına verməyə və ona, hökmdara, sədaqətlə xidmət etməyə hazıram. Və sizin qoşunlar gəldikdə şəhər və ya başqa bir tikili salmaq lazım gələrsə, mən bütün öz adamlarım ilə ulu hökmdara sədaqətlə qulluq göstərəcəyəm».

Çar hökumətinin ticarət işlərini çox önəmli sayması nəzərə alınaraq, məktubda bu məsələyə ayrıca toxunulurdu: «... Gəmi ilə gələn çaparınıza söylədiyimiz kimi, bir Allahın və Qur'anın adına, şəriət üzrə və Murtuzəli başına [and verirəm ki] qoy ticarət adamlarınız buraya gəlsinlər, biz isə onların başındakı bir tükə belə toxunmarıq; mən düşünürəm ki, indi bizlərdə hər şey mənim ixtiyarımda olacaq, ona görə ticarət adamlarınız heç nədən çəkinməsinlər».

Yazışmada rus qoşununun göndərilməsinə ötəri münasibət bildirilsə də, Hacı Davud, görünür, ehtiyat edirdi. Hər halda o, güclü qoşun yaradıb onu öz «xeyirxahı» çarın yardımı ilə silahlandırmaq fikrində olduğunu bildirirdi. İkinci məktubunda yenə ikitərəfli alış-verişi genişləndirmək istədiyini bildirərək, rus tacirlərinə qurğuşun və dəmir gətirdib onun vilayətlərində ipək baramasına dəyişməyə icazə verilməsini xahiş edirdi.



Həştərxan qubernatoru ***Volinski*** bu yazışma barədə imperator ilə sıx əlaqə saxlayırdı. Ancaq Xəzəryanı ölkələr uğrunda savaşa hazırlaşan çar Rusiyası Hacı Davudun təkliflərinə baş qoşmadı. Volınskinin ***I Pyotra*** bildirdiyi son fikri olduca kəskin idi: «Mənim fikrimcə, Davud bəy heç nəyə yararlı deyil: onun yanına buradan bir poruçik göndərmişdim (bu barədə Siz əlahəzrətə qabaqcadan bildirmişdim), onun vasitəsilə [Hacı Davud] mənə çatdırır ki, söz yox, Siz əlahəzrətə qulluq etmək istəyir, ancaq Siz də gərək onun yanına qoşunlarınızı və gərək olan sayda top göndərəsiniz, o isə, təbii, iranlılardan şəhərləri alacaq, hansı ona münasibdirsə, özünə saxlayacaq, qalanlarını isə, yəni Kür çayının o tayından İsfahanın özünə kimi yerləşən şəhərləri ki, onun əlində heç vaxt olmayacaq, onları Siz əlahətrətə ötürəcək; bir sözlə istəyir ki, zəhmət Sizin olsun, qazanc isə onun».

Xəzər dənizi üzərində öz imperatorluq ağalığını qurmaq istəyən bir dövlətdən başqa cavab gözləmək olmazdı.

**HACI DAVUD ŞAMAXIDA.** 1721-ci ilin yayında Hacı Davud, hakimiyyəti «oz ixtiyarına» almaq üçün nələr etməyə hazır olduğunu bütünlüklə üzə çıxardı. İyulun sonunda Surxay xanla birlikdə Şamaxı üzərinə yeridi. Hadisədən bir az qabaq Şamaxı bəylərbəyi, ***Şəki*** vilayətinin ***Qutqaşın (Qəbələ)*** mahalının məlikləri ***Mahmudun*** və qardaşı ***Əhmədin*** 100 min tümən dəyərində olan mülklərini talan edib dağıtmışdı. Məlik oğulları Dağıstana qaçıb, tərəfdarları ilə birlikdə təbii olaraq Hacı Davudun başına toplandılar. Sonuncunun gücü otuz min kişiyə çatdı. ***Gəncəsar*** kilsə başçısı ***Yesai*** katolikos yazır ki, məlik oğulları ləzgilərdən yardım istədilər: «Və onlar bir-birinin səsinə səs verib həyəcan içində onminlik və birminlik alaylar şəklində birləşdilər».

Bəylərbəyi ***Hüseyn xan*** 25 gün qala içinə çəkilib üsyançılara müqavimət göstərdi. Ancaq sonuncuların daxili tərəfdarları bəylərbəyinin sayıqlığını oğurlayıb qala qapılarından birini açdılar. Üsyançılar qulaqbatırıcı qışqırıq və bağırtı ilə şəhərə soxuldular. Birinci gün onlar yalnız onlara kömək göstərən bir məhlədə səngərlərə doluşub gecələdilər. O biri gün tezdən tezliklə qırğına çevrilən döyüş başlandı. Bəylərbəyi, onun yanında olan qoşun başçıları və zabitlər, şəhər əsilzadələrindən 800 adam qətlə yetirildi.

***Hacı Davudun*** rus tacirlərinin «başındakı bir tükə belə toxunmarıq» sözləri özünü doğrultmadı. Bu tacirlər özlərinin və mallarının toxunulmazlığına inandıqları üçün Şamaxı varlılarından bir çoxunun qızıl-gümüşünü alıb saxlayırdılar. həmin günün axşamı bunu bilən 4 minlik üsyançı kütləsi qəzəblə rus tacirlərinin alış-veriş dükanlarını dağıdıb talan etdi. Onların bir çoxu (300 adam), əsnafbaşçıları öldürüldü. Bu hadisəyə görə çox qəzəbli olan Pyotr öz məşhur «manifestində» Şamaxıda 4 milyon manatlıq,

Fransa elçisi ***Kampredonla*** söhbətində isə 3 milyon manatlıq Rusiya «xəzinə malının» qarət edildiyini bildirirdi. ***S.M.Solovyov*** və ***Abbasqulu Ağa Bakıxanov*** qaynaqar üzrə bu rəqəmin 500 min tümən olduğunu yazmışlar.

Yalnız ruslar deyil, başqa ölkələrin tacirləri də qırğından böyük zərər çəkmişdilər. ***Yesai katolikos*** yazır: Şamaxı «hər yerdən axışıb gələn tacirlərin duracaq yeri idi, hindistanlıların, yunanların, cuqalıların (culfalıların – *red.*), rusların və başqaların alış-veriş və qazanc yeri idi, buna görə də o, çoxlu var və dəfinələrlə dolu idi... Və [qiyamçılar] bir çox əmlakı, qızıl və gümüşləri ələ keçirərək şəhər kənarına çıxarmış, hissə-hissə öz aralarında bölüşdürüb yüklənmiş halda evlərinə yollanmışdılar. Bu yaramazlar o qədər nadan idilər ki, bir çörək və bir yemişə bir qızıl verirdilər. Varlı, gözəl bir şəhər olan Şamaxı belə ələ keçdi».

Şamaxıdan sonra Hacı Davud Gəncə şəhəri üzərinə yollandı. O biri yandan Kaxet hakimi ***VI Vaxtanq*** da gürcü və ermənilərdən silahlı dəstə yaradaraq Gəncə üzərinə yeridi. Çox maraqlıdır: bu Vaxtanqın keçmiş ağası – şah əlahəzrəti də, yeni ağası – çar həzrətləri də ondan Gəncə üzərinə getməyi tələb edirdilər. Hər ikisi də guya şəhəri Hacı Davud basqınından «qorumaq» üçün! Qarabağ-Gəncə bəylərbəyisi Uğurlu xan Gəncəni yalnız bu sonuncudan deyil, həm də «çar» Vaxtanqdan qorumalı idi. O, şaha yazmışdı: «Vaxtanq sənə qarşı çıxmaq qərarına gəlmiş, erməni və gürcü xalqlarını birliyə gətirərək rus çarının sarayına elçilər göndərmişdir ki, o gəlib sənin məmləkətini ələ keçirsin». Şah isə Vaxtanqın ona sədaqətlə qulluq etməkdə olduğunu düşünürdü. Vaxtanqın Dərbənd qalasını və Şamaxı şəhərini almağı I Pyotra təklif etməsini, İran ilə Pyotr savaş açarsa, 30-40 minlik bir qoşunla ona qovuşmaq fikrində olduğunu şah ağlına belə gətirmirdi.

## 3. I PYOTRUN XƏZƏRYANI BÖLGƏLƏRƏ YÜRÜŞÜ

**PYOTRUN MANİFESTİ.** Hacı Davul bəyin Şamaxı yürüşü çar Pyotrun əl-qolunu açdı. Onun Rusiyaya arxalanmaq istəməsi çarın planları qarşısında siyasi çətinlik yaradırdısa, indi bu çətinlik aradan götürülmüş oldu. Artıq, Pyotr Avropa qarşısında güney yürüşünə bəraət axtarmaya bilərdi. Çünki Rusiya mənəvi-siyasi baxımdan alçaldılmışdı, o biri yandan İran şahına «yardım etmək» yalanı indi gerçək şəkil almağa başlayırdı. Uzaq əfqan tayfaları üzərinə Pyotr öncədən qoşun çıxarmaq fikrində deyildi. Xəzər vilayətlərini tutmaq isə onun çoxdankı istəyi idi və indi buraya öz yürüşünü «yardım» kimi qələmə vermək imkanı əldə etmişdi. 1721-ci ilin avqustunda İsveç ilə «Quzey savaşını» uğurla başa vurub Niştadt bağlaşmasından sonra Pyotr yubanmadan yeni yürüş hazırlığına



başladı. Onun fikrincə bir gün belə itirmək olmazdı. Tver gəmi tərsanəsində yenicə özülü qoyulan hərb gəmiləri dərhal suya buraxılır, uzun Volqa-Xəzər su yolu boyunca isə quraşdırılıb başa çatdırılırdı. Çünki Səfəvi dövləti son günlərini yaşamaqda idi. Əfqanlar paytaxt şəhəri İsfahana çatmışdılar. 1722-ci ildə İsfahan alındıqdan sonra əsir düşən şah ***Hüseyn*** taxtdan əl çəkdiyini bildirdi. Əfqanlar indi də quzeyə Xəzər sahilinə yönələ bilərdilər. *Osmanlı imperatorluğu da Səfəvilərin çökməsini diqqətlə izləməkdə idi.* Xəzər üzərinə hamıdan, ilk öncə türklərdən tez yetişmək istəyən Pyotr yürüşə ayırdığı vaxtdan bir il tez başladı.

15 iyun 1722-ci ildə o, türkcə yazılmış ayrıca bir bəyannamə imza edərək, rus zabitləri ***Naumov, Lunin*** və ***Çebotaryov*** vasitəsilə Dərbəndə, Bakıya və Gilana göndərdi. İlk öncə özünü «Rus tayfalarının (burada «millətinin» mənasında – *red.*) imperatoru, «padşah-i-əl-bərreyn və xəqan-i əl bəhreyn» (düzənlərin padşahı və dənizlərin xaqanı) adlandıran «Pyotr-i-əvvəl», Səfəvi hökmdarının – «ulu istəklimiz və qədimi dostumuz şah-i alicah həzrətlərinin hökumətində və xidmətində olan» ordu başçıları və xanları, qorçu, tüfəngçi və topçu ***başlarını***, qul ağalarını, bəylərbəyi və sultanları, min və yüzbaşıları, üləmə, mövla, «hörmətli imamlar və müəzzinləri», alış-veriş və sənət adamlarını, toxucu və karvan başçılarını «əhli sənət xəlifələri və şagirdləri» ilə birlikdə salamlayıb qarşıdakı yürüşün nədən keçirildiyini anlatmağa çalışırdı. Hər iki dövlət: Rusiya və İran üçün bu yürüşün gərəkli olması, «Şah dostumuz həzətlərinin neçə adamlarının» və Rusiya tacirlərinin rəhmsizcəsinə qətlə yetirilməsi və qarət edilməsi bildirilirdi: ***«Dəxi təvayifi rusdan əhd-i name-yi hümayinlərimiz mövcibinə... ticarət ilə varub gəlmək ola gəlmişləri suçsuz, günahsız bila mərhəmət (rəhmsizcəsinə) qətl və mallarını ki nüqub hesabı üzrə məcmui dört yüz kərə yüz bir rubliyə qərib (yaxın) qarət və talan tarac eyləmişlər...»***. Və bu işləri yapanlara qarşı «əsla bir hərəkat buyurulmadığı», yəni heç bir cəza tədbiri görülmədiyi üçün, guya yalnız bu səbəbdən Rusiya qoşunu buraya yeridilmişdir ki, ***«muzurr və fəsada bane olan yaramazların möhkəm həqlərindən gəlinib və itmam-i heç icra olunub əməllərinə görə cəzaların biləlır»***.

Bəyanatın ikinci bölməsi yerli əhali ilə münasibət məsələsinə toxunurdu. Burada Pyotr bildirirdi: «bütün qoşun başçılarımıza və ordumuza: sər əsgərlərimizə və cümlə nəfəratın piyadə və səvar başbuğlarınə və sair zabitlərinə və ümumən cümlə əsgərimizə möhkəm fərman və tənbih buyurmışlar ki», heç kəsi incidib hürkütməsinlər («rəncidə və rəmidə eyləmiyələr»), heç bir kəndə-kəsəyə toxunmayıb bir kimsəyə əsla bir zərər vurmasınlar. Ancaq bir şərtlə: mal-dövlətinizi evlərinizdən çıxarıb dağıtmayasınız və kəndlərinizi buraxıb başqa yerlərə getməyəsiniz. Üsyançılar ilə birləşərək onlara aqçə (pul), azuqə və başqa ehtiyatla açıq, ya gizli yardım

göstərməyəsiniz. Belə davranmış olsanız, hamınız yağı sayılacaq, qılınc və atəş ilə amansızcasına məhv, evləriniz isə yağma ediləcəkdir: «***O şərt ilə ki, siz dəxi çaygahilərinizdə və hökumət gahilərizdə dostluq üzrə bir qərar və xof-i qarət qiyası ilə mal-i əmlakinizi xanələrinizdən ixrac və pərişan və pərakəndə eyləməyəsiz. Yoxsa qeyriviz əks hərəkətiniz məsulmiz və məlumatimiz olurisə yəni ol binsaf və zalim-i kəsir-ül-məzalimlərə mülhəd və yaxud onlara aşkara və nəhani imdad-i aqçə ilə və yaxud və'dehyə kərimə-yə xəqanimizə etimad və ehtiram eyləməyüb xanələrinizdən və qəriyələrinizdən güzar və fərar edəcək olurisiniz bə vacib-ül-zərurə cümlənizi düşmən hesabində əhtisad edüb bila mərhəmət tiğ və ateş ilə üzərinizə verilüb həlak və mal əmvəliniz yəğmə və qarət olunur***...»

Buradan göründüyü kimi, Pyotru yalnız yerli əhalinin Hacı Davud ilə birləşməsinə, ona yardım etməsinə yol verməmək qayğısı düşündürmürdü. O, şəhər və kəndlərdə yaşayanların öz yerlərini tərk edə biləcəyindən çox rahatsız idi, çünki belə olduqda əhali üzərinə qoyulacaq vergilər hesabına Rusiya xəzinəsinin varlanması mümkün olmayacaqdı.

**XƏZƏRYANI BÖLGƏLƏRİN TUTULMASI.** Yürüş 1722-ci il iyulun 18-də başladı. 274 gəmisi olan (bu İsveçlə savaşda özlərini doğrultmuş kiçik hərb gəmiləri idi) Rusiya donanması həmin gün general-admiral ***F.Apkarsinin*** komandası altında Həştərxandan Xəzər dənizinə çıxdı. Pyotr özü də donanma ilə idi. Ayrıca bir atlı qoşun isə quru ilə Dərbəndə yollanmışdı. Avqustun 15-də donanma Dərbəndə çatdı. Qoşunların birləşməsi və qaydaya salınması bir həftə çəkdi. Pyotr buraya 100 minə yaxın döyüşçü ilə gəlmişdi, onlardan 32 mini atlı və piyada nizami qoşun idi.

Avqustun 29-da Pyotr piyada qoşunla qalaya yaxınlaşdı. Dərbənd naibi ***İmamqulu bəy*** onu qalanın gümüş açarları və ***«Dərbəndnamə»nin XVI yüzil əlyazması*** ilə qarşılayıb təslim olduğunu bildirdi. Rus ordusu Dərbəndə döyüşsüz girdi. Pyotr öz Senatına yürüşün çox çəkməyəcəyini yazsa da, atların yemsiz olduğunu və böyük istilər üzündən çox böyük çətinliklər ilə qarışlaşdığını bildirdi. O, İmamqulu bəyin hərəkətini yüksək qiymətləndirdi. Ona general-mayor rütbəsi, xan ləqəbi, «Dərbəndin hökumətini» verdi.

Yürüşün məqsədi geniş olsa da, rusların Şamaxını ələ keçirib orada yerləşməsi başlıca məsələ olaraq qalırdı. Şamaxı, rus-türk ziddiyyətlərinin də başlıca nöqtəsi olduğundan, 1722-ci il yürüşündə birinci yer tuturdu. Peterburqun diplomatiya danışıqlarında bu yürüş rəsmi olaraq «Şamaxı yürüşü» yadlanırdı. Rusiyanın İrandakı konsulu ***S.Avraamov*** da bununla bağlı olaraq Pyotrun «Şamaxı üzərinə İranla savaşmaq üçün deyil, qiyamçıları aradan götürmək üçün yürüşə çıxdığını» yazırdı.



Avqustun 29-da Dərbənddə keçirilən hərbi müşavirədə Pyotr bu böyük ordunun xeyli hissəsinin geriyə qaytarılmasını əmr edərək, özü də Həştərxan su yolu ilə Moskvaya döndü. Əsgərlər və atlar üçün azuqə və ələf alınması çox böyük xərc istəyirdi. Qocaman Xəzər, rus donanmasını çılğınlıqla qarşıladığı üçün azuqə (proviant) daşıyan gəmilərin bir çoxu sahilə yaxınlaşa bilməyib qəzaya uğramış, qalanlarına yüklənmiş un tayları isə dəniz suyunda islanıb yararsız olmuşdu. Ruslar üçün tanış olmayan isti güney iqlimi, əsgərlərin ağına-bozuna baxmadan meyvə bağlarına, bostanlara daraşması kütləvi xəstəliklər törətmiş, onların arasında ölüm başlanmışdı. Türkiyə və İsveçin yürüşə qarşı münasibəti də ehtiyatlı davranmağı tələb edirdi.

Bütün bu səbəblər Pyotru Xəzəryanı vilayətlərdə çevik hərəkət edən kiçik hərbi birləşmələr ilə iş görməyə məcbur etdi. Hələ Dərbənddə ikən o, polkovnik ***Şipova*** iki batalyonu ilə Rəşt şəhərini ələ keçirməyi əmr etdi. Verilən qoşunun az olması barədə polkovnikin sözlərini dinləmək belə istəməyib söylədi, «***Stenka Razin*** o yerləri yalnız 500 kazakla ələ keçirmişdi. Sənə isə iki nizami batalyon azlıqmı edəcək?» 1722-ci ilin noyabrında Şipov Rəşt üzərinə yollandı, tezliklə bu şəhər də tutuldu.

Xəzər dənizində ən böyük liman şəhəri olan Bakının alınması Pyotrun başlıca qayğılarından biri idi. Öz manifestinin Bakıya çatdırılmasından sevincək olan Pyotr, Senata: «allahın köməyilə o ölkələrdə möhkəm yerləşərik» yazmaqla fikrini açıq bildirmişdi.

**BAKI QALASININ MÜDAFİƏSİ.** Bakının tutulması general Matyuşkinə tapşırılmışdı. O, çarın tapşırığını Həştərxanda 1722-ci il noyabrın 5-də alsa da, o biri il iyunun 20-sinə kimi burada gözləməli oldu. Dərbəndə gələn gəmilərdən qalanlar, görünür, yürüş üçün yaramırdı. Yalnız Kazandan 5 qalion* və 15 paketbot** hərb gəmisi gəlib çıxdıqdan sonra Pyotrun öz əli ilə yazdığı əsasnamə üzrə dörd alayla dənizə çıxdı. Əsasnamədə deyilirdi: «Bakı üzərinə yollanmaq və bu şəhəri Allahın köməyi ilə hökmən almaq gərəkdir, çünki bizim [görəcəyimiz] bütün işin açarı ondadır... və bu yeri çox bərk qorumaq gərəkdir».

Öz manifestinə Bakı yüzbaşısı ***Məhəmmədqulu bəyin*** 12 başqa adam ilə birlikdə göndərdiyi cavabdan sonra Pyotr, Dərbənddən onlara «mərhəmətlərimizlə sizləri yüksəldəcəyik», «qalibiyyətli qoşunumuzla Bakıya yola düşəcəyik» yazmışdı. Ancaq çarın kapitan-leytenant ***Lunin*** ilə

* Qalion – İspaniyada və portuqallarda üç dor ağacı olan eski, yelkənli hərbi gəmi. Su tutumu 1500 tona, götürdüyü topların sayı 100-ə, əsgərlərin sayı isə 500-ə çata bilirdi.

** Paketbot – Hollandlarda sərnişin, ya poçt daşıyan qapalı, yelkənli dəniz gəmisinə deyilirdi. Su tutumu böyük deyildi, hərbi işlər, ən çox əsgər daşınması üçün də yarayırdı.

göndərdiyi «şahanə məktubu» Bakıda yaxşı qarşılanmadı. Verilən cavabda *Təhmasib Mirzənin* qoşununun artıq *Dar-ül-İrşad Ərdəbilə* çatması, bölük-bölük Kür çayından keçərək «nankorların (Hacı Davud və onun müttəfiqləri nəzərdə tutulurdu – *red.*) həyat damarını çəkib çıxaracağı» bildirildikdən sonra yazılmışdı: ***«Buna görə acizləri (qalada yaşayanları – red.) qorumaq üçün [çarın] şəfəqqət buyurduqları qoşuna acizlərin ehtiyacı yoxdur. Padşahın bəxtindən onların öhdəsindən gəlmişik və gələ biləcəyik». Yeni Bakıya qoşun çıxarıb sərgərdan etməyə dəyməz, «bütün qoşunlarınızı padşahın düşmənləri (Hacı Davud – red.) üzərinə göndərin ki, onları aradan qaldırsınlar»***. XIX yüzil Rusiya tarixçisi ***P.Butkov*** bununla bağlı yazır ki, Hacı Davuda qarşı qoşun çıxarmaq barədə Pyotrun manifestini alqışlayan Bakı əhalisi, onun bu qalaya qoşun göndərməsinə razılıq vermədi, kapitan-leytenant Lunini qalaya buraxmayıb, qiyamçılara qarşı xaricdən köməyə ehtiyac olmadığını bildirdi.

Öz hiyləsinin Bakıda ap-aydın anlaşıldığını görən Pyotr diplomatiyaya əl atdı: Matyuşkinin tələbi ilə Həştərxana gətirilmiş İran elçisi ***İsmayıl bəy*** qalanı ruslara vermək barədə Bakı sultanı Məhəmməd Hüseyn bəyə məktub yazdı. 6 iyulda donanma ilə Bakı limanına çatan Matyuşkin, bu məktubu mayor ***Neçayevə*** verib ünvanına yetirməyi əmr etdi. Buyurdu ki, bütün Rusiya imperator həzrətləninin fərmanı ilə qiyamçılardan qorumaq üçün şəhəri almaq əzmində olduğunu sultan Məhəmməd Hüseyn bəyə bildirsin. Lakin sultan mayoru qalaya buraxmadı. A.Bakıxanov, P.Butkov və F.Soymonova görə, onu iki saat gəmi körpüsündə saxladıqdan sonra aşağıdakı şifahi cavabla geriyə dönməyi əmr etdi: ***«Şah həzrətlərinin sadiq təbəələri olan Bakı sakinləri artıq dörd ildir ki, qiyamçı Davuda qarşı durmuşlar və gələcəkdə bu qiyamçı nə qədər yaşamış olsa və nə qədər güc qazansa da, onlar ondan qorxu çəkməyirlər, buna görə də (dışarıdan) kömək üçün nə bir əsgər, nə bir batman azuqə almaq istəyirlər. Elçi məktubuna gəldikdə isə, bu məktub Rusiyada yazılmışdır, bundan başqa onlar İsmayıl bəyin nə göstərişinə, nə də buyruqlarına əməl etməyə borclu deyildirlər»***.

Matyuşkinin əmri ilə topçubaşı ***İ.Herber***, qala divarlarını deşmək üçün bombaatan və 18 düyməlik topları olan dörd başqa gəmini irəliyə çəkdi. 21 iyul səhər saat 7-də bu gəmilərin atəşi altında dörd batalyonun sahilə çıxarılması başlandı. Qalanın müdafiəçiləri onlara qarşı güclü atlı qoşun çıxardılar. Ancaq Herberin artıq sahildə yerləşdirdiyi iki top bu qoşunu qalaya geriyə oturtdu. Yeddi rus gəmisi şəhərə yaxınlaşaraq yarımdairə şəklində düzüldü. Qaladan bu gəmiləri top atəşinə tutdular. Rus gəmiləri də atəş açaraq bir saatdan sonra qala toplarını susdurdular. Top «deyişməsinin» kəsilməsinə gəmilərdən yandırıcı bombaların (portir) atılması kömək etdi, çünki şəhərdə böyük yanğın başladı. O gün rus gəmilərindən Bakıya 94



mərmi atıldı. Quruya çıxarılmış dörd uzaqvuran top ilə rus əsgərləri qala divarlarında böyük bir baca açdılar. Müdafiəçilərin bu bacanı bağlamasına yol verməmək üçün onlar dörd gün bu toplardan aramsız, gecəli-gündüzlü atəş açırdılar. Ancaq qaladakı döyüşçülərin əzmi hələ qırılmamışdı. Hər gün atlı qoşun qaladan rus topları və onları mühafizə edən əsgərlər üzərinə hücum edirdilər. İyulun 25-də Matyuşkin qalanın işini bitirmək istədi. Ancaq gecədən qopan acıqlı Xəzri küləyi hazır dayanmış rus gəmilərini dənizə sürükləyib qaladan uzaqlaşdırdı, topları işə salmaq olmadı. Yerli döyüşçülər bundan istifadə edib qalada açılmış bacaları hörüb bağladılar.

O biri gün rus kəşfiyyatçıları şəhərə qarpız aparan bir kişini tutub Matyuşkinin yanına gətirdilər. General ona bir kağız verib qaladakılara çatdırmağı əmr etdi. O, sultan Məhəmməd Hüseyn bəyə şəhərdə yaşayanlarla birlikdə yazmışdı ki, nahaq yerə onun təklifini rədd edib qalanı vermədilər, onu alçaldaraq göndərdiyi adamı qalaya buraxmaq istəmədilər. Sonra yazırdı ki, onlar topların açdığı bacaları yenidən hörüb bağlasalar da, kirəc hələ qurumamışdır, ilkin mərmidən divar yenidən uçub töküləcəkdir və əlahəzrət imperatorun mərhəmətinə sığınmaq istəməsələr, «şəhərin sonrakı mütləq alınacağı gün bir kimsəyə pardon (aman) verilməyəcəkdir».

Həmin gün iyulun 26-da qalanın sahil bürcləri üzərində ağ bayraqlar göründü. Matyuşkinin göndərdiyi zabitlər dörd yerli vəkil ilə dönüb gəldilər. General qalanın təslim edilməsi üçün barışıq bəndlərini özü yazdı. Bir neçə saatdan sonra qalanın arxadan torpaqla örtülmüş qapıları təmizlənərək rusların üzünə açıldı. Rus qoşunu qalaya girərkən şəhər əhalisinin çoxu silahsız olaraq bayıra çıxarılmışdı. Qalanın böyük meydanındakı Gümə məscidi yaxınlığında ilk əvvəl əsgəri dustaqxana (qaupvaxt) yaradıldı, əsgərlər isə boş qalmaqda olan iki (erməni, hind) karvansarada yerləşdirildi. Şəhərdəki 82 top (onlardan ikisi uzaqvuran) barıt və mərmilərlə rus komandanlığının ixtiyarına keçdi. Rəsmi dövlət qulluğunda olan yerli 800 əsgər yüzbaşı ***Dərgahqulu bəyin*** başçılığı altında rus qulluğuna götürüldü. Qalada rus topları quruldu, sentyabrın 3-də Pyotr Peterburqda təntənə ilə Bakının alınmasını bayram etdi. Qış düşdükdə Matyuşkin (Pyotr onu general-leytenant rütbəsinə ucaltdı) Həştərxana qayıtdı.

**BAKIDA RUS İDARƏÇİLİYİ.** Bakının idarəsi Dərgahqulu bəyin əlinə keçdi. Rus torçubaşçısı Herberə görə, şəhər alındıqdan sonra «böyük yüzbaşı» Dərgahqulu bəy Bakı sultanı Hüseyn bəyin guya qiyamçılarla əlbir olub Davud bəylə yazışmada olması barədə ruslara xəbərçilik etdi. Abbasqulu Ağa da yazır: «Şəhərin qalabəyisi-sultanı Dərgahqulu bəyin təhrikilə, Davud bəyin dostudur deyə, həbs olunaraq Rusiyaya göndəildi». Hüseyn bəy üç qardaşı ilə birlikdə gedər-gəlməz sürgününə düşdü, bütün əmlakı da gəmiyə yüklənərək Rusiyaya daşındı.

Dərgahqulu bəyin «hökuməti» uzun sürmədi. O biri il onun da Hacı Davudla yazışmaya girməsi, ondan kömək alıb dördminlik rus qarnizonunu qırmaq istəməsi barədə xəbərçilik edildi. Görünür Bakıda komendant idarəsi yaratmaq istəyən rus generalları belə casus bildirişlərini özləri ortaya gətirirdilər. Ancaq Dərgahqulu bəyi ələ keçirmək mümkün olmadı. Herber yazır ki, yüzbaşı öz adlı-sanlı adamları ilə aradan çıxa bildi, qalanların bəziləri isə həbs olundu və Rusiyaya sürgün edildi. Bakıda sultanlıq idarəsini yox etmək üçün bəhanə yarandı: 1724-cü ildən Bakı rus komendantı knyaz ***Baryatınskinin*** idarəsinə verildi. Şəhər paşası (qubernatoru) vəzifəsilə yanaşı həm də Abşeron kəndlərinin naibliyi də onun əlinə keçdi. Abbasqulu Ağa bu barədə yazmışdı: «Dərgahqulu bəy axırda xəyanətdə müttəhim edilərək işdən kənar edildi, rus komendantları hökumət işlərini öz əllərinə aldılar».*

Bakıda dövlət mülkləri, xəzinəyə ödənilən vergi və gəlirlər rusların idarəsinə keçdi. Sonuncular başlıca olaraq neft və duz istehsalı ilə bağlı idi, Rusiya xəzinəsinə ildə 50 min manatlıq artım verə bilirdi. Gömrük və başqa yığımlar da xəzinəyə çatırdı.

Çar Pyotr Bakıya və ona yaxın yerlərə xaçpərəstləri köçürməklə buranın etnodemoqrafik durumunu dəyişdirmək siyasəti yetirməyə başladı. O, ölümündən qabaq, 10 noyabr 1724-cü ildə üç ermənini katolikos İsayya ilə birlikdə qəbul etmiş, «ermənilərə əl tutmaq və Xəzəryanı əyalətlərdə yerləşmək» barədə onların xahişini dinləmişdi. Ermənilər, heç bir ödəniş vermədən Gilan, Salyan, Bakı və Dərbənddə yerləşmək üçün çarın icazəsini almaq istəyirdilər.** Butkov yazır ki, elə o gündəcə Pyotr, «erməni xalqının» orada yerləşdirilməsi barədə general-leytenant Matyuşkinin və briqadir ***Levaşovun*** adına buyruq verdi Çar asanlıqla istənilən şəhərləri yaxın torpaqlarıyla birlikdə hələ vətəni olmayan ermənilərə «bəxşiş» verirdi. Bir çətinlik qarşıya çıxırdı, o da bu torpaqlarda yerli əhalinin sıx yerləşib yaşa-

---

* Dərgahqulu bəy kökcə Tabarasan (Quba ilə Dəbənd arası bölgə) hakimlərinin nəslindən idi. Onun ulu babaları 1592-ci ildən Bakıya köçüb yüzbaşılıq edirdilər. «Onların imarət və qalalarının xarabaları Ramana kəndində indi də qalmaqdadır» (*A.Bakıxanov*). Abbasqulu Ağa yazır ki, ruslar gəlməmişdən öncə «Dərgah xanın hökumət mərkəzi» Məşqətə (Maştağa – *red.*) kəndində idi, «bağı, imarəti və ovdanları indi də buradadır». Dərgahqulu bəyin hakimiyyətdən götürülməsi üçün, görünür, ciddi səbəb yox idi: 1727-ci ildə rus komandanlığı onu yenidən sultan vəzifəsinə qaytardı. 29 may 1730-cu ildə general-feldmarşal *V.Dolqoruki* öz təqdimatında onu «Bakı saltanı» adlandırır, ona mükafat verməyi gərəkli sayırdı. 1731-ci ildə o, gerçəkdən rus qulluğundan boyun qaçıraraq, bir müddət «Bakı və Şirvan ətrafını» çalıb-çapdı; Nadir şahın qulluğuna keçib onun qardaşı İbrahim xanın öldürüldüyü döyüşdə yaralandı və 1738-ciildə Zəncanda vəfat etdi.

** Bu sənədin adı belədir: «Skazka o trex armyanskix upolnomoçennıx» SQADA, f. Qos. Arxiv, r. XV, d. 37, 1724-1726, ç. 2, ll. 307 ob., 308.



ması ilə bağlı idi. Ancaq çar bu çətinliyin də asanlıqla aradan götürülmə yolunu bilirdi. Onun buyruğunda bu barədə deyilirdi: «***ermənilərin Gilanda, Mazandaranda, Bakıda, Dərbənddə və başqa (bölgələrdə) yerləşməsinə çalışın, iranlıları isə (Azərbaycan türkləri və farslar nəzərdə tutulur –*** *red.*) ***imkan düşdükcə sıxışdırıb çıxarın***». Pyotrun ölümündən sonra da bu siyasəti həyata keçirmək istəyirdilər. 11 fevral 1725-ci ildə Xarici İşlər Kollegiyası adı çəkilən «yüksək buyruğun» yerinə yetirilməsi barədə fərman vermişdi. Ermənilər üçün «ayrılmış» bölgələr onlara göstərilmiş və ürəkdən bəyənilmişdi. Knyaz V.Dolqorukinin 7 may 1727-ci il «relyasionunda» bu barədə deyilirdi: «***Saqanas (Soğanlu? Sıqnax?*** – *red.*) ***toplumundan olan ermənilər onun hüzuruna vəkillərini göndərib xahiş edirlər ki, onların hamısı imperatriça həzrətlərinin təbəəliyində olsun və imperatriça həzrətlərinə məxsus olan əyalətlərdə yerləşmək üçün (onlara) torpaq verilsin: bu torpaqlar onlara göstərilmiş və ermənilər onları gördükdən sonra bəyənib razı qalmışlar***».

Beləliklə, tarixi qaynaqlar, «***Pyotrun vəsiyyəti***» adlanan sənədin də, onun qarşıya qoyduğu bədnam niyyətlərin da (Qafqazı «zəbt və işğal etmək», «İslam əqidəsini Asiyadan uzaqlaşdırmaq, xristian dini əqidəsini və mədəniyyətini orada yaymaq» və bu kimi) gerçək olduğunu üzə çıxarır.

Belə buyruq və göstərişlərin, tarixçilikdə «I Pyotrun vəsiyyətnaməsi» adlanan qaynağa məzmunca tam uyğun gəlməsi göz önündədir.* Əski Sovet tarixçiliyində bu vəsiyyətnamənin varlığı və gerçək olması (bir sıra başqa tarixi qaynaqlar kimi) inkar edilir, onun çar Pyotra aid olmadığı bildirilirdi. Ancaq XVIII-XIX əsrlər boyunca çar Rusiyasının Transqafqaz, Türkiyə və İrana qarşı yeritdiyi siyasət bu vəsiyyətnamə ilə (müəllifin kimliyindən asılı olmayaraq) bir bütövlük yaratmaqdadır.

---

* Bu qaynaqda Rusiyanın gələcək hökmdarlarına «vəsiyyət» edilən tələblər sırasında aşağıdakı örnəklər var:

«Polşada iğtişaş və qarışıqlıq salmalı, onların əyanlarına xəsislik etmədən rüşvət verib dəyanətini pozmalı, dövlət işlərinə zərbə vurmalı, Moskvadan əsgər gətirib orada yerləşdirməli, başqa dövlətlər bizim bu tədbirlərimizə etiraz edərlərsə, Polşadan bir parça kəsib onlara sükut payı verməli; iş tamam olandan sonra isə o parçanı geri almalı...

... Türkiyə ilə İran dövlətləri arasında müvazinəti fitnə-fəsadla elə pozmaq lazımdır ki, onlar bir-biri ilə dil tapa bilməsinlər. Həm İran, həm də Türkiyəyə Avropa xalqları ilə təmas tapmağa imkan verməmək. Əgər bu ölkənin müsəlmanları göz açıb hüquqlarını qansalar, o bizə böyük zərbə olar. Həm Türkiyə, həm də İranın din xadimlərini ələ almaq və onlar vasitəsilə sünni-şiə ixtilaflarını qızışdırmaq lazımdır. İslam əqidəsini Asiyadan uzaqlaşdırmaq, xristian dini əqidəsini və mədəniyyətini orada ciddi təbliğ etmək, yaymaq zəruridir.

... Türkiyənin işini bitirdikdən sonra İranı çətinlik çəkmədən məhv etmək, başını kəsmək mümkündür. Ona görə də siz vaxt itirmədən Gürcüstanı və Qafqazı zəbt və işğal edib, İranın daxili hakimlərini özünüzə xadim və müti edin. Ondan sonra Hindistana qəsd etməli...»

**YÜRÜŞ SƏFƏVİ DÖVLƏTİNİN GÖZÜ İLƏ.** Bütün 1722-ci il boyu Rusiya Səfəvi dövlətini hürkütməmək üçün onunla «sakitləşdirici» danışıqlar aparırdı. İyunun 25-də Pyotr İrandakı konsulu ***Semyon Avraamova*** belə bir tapşırıq göndərmişdi. «Əski ya yeni şaha təklif et ki, Şamaxı üzərinə İranla savaş üçün deyil, bizə zərər vurmuş olan qiyamçıların kökünü kəsmək üçün gəlirik. Və əgər İran hökumətinə bir yardım gərək isə, biz ona (öz ərazisini) yağılardan təmizləmək və İranın daimi hakimiyyətini qaydasınca bərqərar etmək üçün bu yardımı verəcəyik». Çar Rusiyası bu yardımın qarşılığı olaraq nə az, nə çox... bütün Xəzəryanı əyalətlərin ona verilməsini istəyirdi. Bəyanatda bununla bağlı açıqcasına bildirilirdi: «Xəzər dənizi yörələrini ələ keçirmək üçün biz kəskin bir ehtiyac içində bulunuruq, çünki türklərin buraya buraxılmasına... yol vermək olmaz və beləliklə onlar (Səfəvilər – *red.*) dövlətinin bir parçasını vermək istəməsələr, onu bütünlüklə itirə bilərlər».

Buradan aydın olur:

Birinci, artıq 1721-ci ilin yzında Xəzər üzərinə yürüş haqda hökm verilmiş idi.

İkinci, yürüşün başlıca nöqtəsi Şamaxı olmalı idi.

Üçüncü, «Şamaxı yürüşü» qarşılığında Rusiya Səfəvilərə heç bir yardım göstərmək fikrində deyildi. Yalnız Səfəvilər bu yürüşü qəbul edərdilərsə, yardım uma bilərdilər. Qəbul etməsələr isə bütün dövləti itirə bilərdilər. Söz yox, Rusiyanın iştirakı ilə.

1722-1723-cü illərdə Səfəvi dövlətinin içdən dağılışı başa çatmaqda idi. İranın yarıdan çoxu əfqanlar tərəfindən tutulmuş, Transqafqaz ölkələri şah asılılığından çıxmış, Xəzərin günbatar bölgələri isə Rusiyanın əlinə keçmişdi. Yabancılardan kömək uman şah gah Rusiyaya, gah Türkiyəyə üz tutur, Dağıstan və Gürcüstan feodallarından belə yardım dilənmək səviyyəsinə alçalırdı.

Səkkiz aylıq mühasirədən sonra Səfəvi paytaxtı ***İsfahan*** 23 oktyabr 1722-ci ildə əfqanların başçısı ***Mir Mahmudun*** qarşısında çökdü. Şah Hüseyn onun xeyrinə taxdan əl çəkdi. Ancaq onun 18 yaşlı oğlu ***II Təhmasib*** noyabr ayında özünü şah elan edərək Rusiya konsulu Avraamov ilə danışığa başladı.

Pyotr əfqanlara qarşı savaşda İrana yardım edəcəyini bildirərək, danışıq üçün elçi göndərməyi təklif etdi. Xəzərin güney bölgələrində yalnız darısqal bir torpaq zolağını əlində saxlamış olan II Təhmasib yanvar ayında ***İsmayıl bəyi*** elçi göndərdi. Ancaq ***Rəştə*** çatdıqda,buraların artıq rus qoşunları əlində olduğunu görən şah qulluqçuları vəziyyəti ona bildirdilər. Şah, İsmayıl bəyi elçi səlahiyyətindən və Rusiya ilə danışıq aparıb hər hansı bir müqavilə bağlamaq hüququndan məhrum etdi. Buna baxmayaraq, ruslar İsmayıl bəyi hərb gəmisinə soxub Həştərxana, oradan da



Sankt-Peğerburqa göndərdilər. Çünki nəyin bahasına olursa olsun Pyotrun işğallarına İranın razı olduğunu Avropaya bildirmək lazım idi. 1723-cü il sentyabrın 12-də Peterburqda «Rusiya-İran müqaviləsi» adlanan bir saxta andlaşma imzalandı. Müqavilə, xüsusilə onun ikinci bəndi, əslində Rus çarının diktəsindən başqa bir şey deyildi. Burada yazılmışdı: ***«Şah həzrətləri Dərbənd və Bakı şəhərlərini bütün ətrafı və Xəzər dənizi boyunca uzanan torpaq və yerlərlə birlikdə, habelə Gilan, Mazandaran və Astrabad əyalətlərini imperator həzrətlərinə əbədi olaraq guzəşt edir ki, onların (adı çəkilən şəhər və əyalətlərin – red.) hesabına imperator həzrətlərinin şah həzrətlərinə (yardım) üçün, ona qiyam qaldıranlara qarşı, pul əvəzi istəmədən göndərəcəyi ordunu saxlamaq mümkün olsun»***.

Andlaşma mətni yaxşı düşünülmüş olsa da, əsl siyasət uyğunsuzluqlarını ört-basdır edə bilmədi. Çar hökuməti əfqanlara və başqa «qiyamçılara» qarşı göstərəcəyi hərbi yardım əvəzində şahdan torpaq istəyirdi. Ancaq nə 1723-cü, nə də sonrakı illərdə çar hökuməti heç bir yardım göstərmədən çoxdan göz tikdiyi Xəzəryanı torpaqları artıq tutub öz əlinə keçirmişdi. Bir sözlə, çar Pyotr Səfəvi dövlətinə hərbi yardım göstərmək fikrində deyildi, çünki andlaşma «başlandıqdan» sonra da nə onun sağlığında, nə ölümündən sonra yardım haqqında bəndin yerinə yetirilməsi üçün çar hökuməti heç bir iş görmədi.

Şah Təhmasib təbii olaraq Peterburq andlaşmasını təsdiq etməkdən boyun qaçırdı. Şahın razılığını almaq üçün Rusiyadan göndərilən elçi knyaz ***B.Meçerskini*** şah qəbul etməyib «şərəfsizliklə» geri qaytardı. Baş vəzir ona bildirdi ki, İsmayıl bəyə andlaşma səlahiyyəti verilmədiyi üçün təsdiq etmək barədə danışığı «eşitmək belə istəməyirlər». Rezident Avraamov da saraya buraxılmadı. İsmayıl bəyin dövlətə xəyanət etməsi rəsmən bildirildi. Bu, ona ölüm hökmü verilməsi demək idi. Buna görə «elçi»nin vətənə dönməyə ürəyi gəlmədi. İmperatorun buyruğu ilə böyük pul təqaüdü verilən və Həştərxanda ev alan bu adam buradaca ömrünü sona vurdu.

Andlaşma oyunundan bir neçə gün sonra (16 sentyabr 1723-cü il) general Matyuşkin, Kür üzərində mühüm yer tutan Salyan şəhərini gecikmədən ələ keçirməyi Bakı komendantı ***Baryatınskiyə*** tapşırdı. Sonuncu, podpolkovnik ***Zimbulatovun*** başçılığı altında oraya dənizlə 500 süngüsü olan bir batalyon göndərdi. Naib Hüseyn bəy Rusiyada sədaqət andı içsə də, onun evinə qonaq çağırılan 22 rus zabiti başda Zimbulatov olmaqla öldürüldü. Rus qaynaqları bu işin «Salyan xanımı», yəni naib Hüseyn bəyin qadını ***Qəbuli xanımın*** qurğuşu olduğunu yazmaqdadır. Pyotrun casusları, görünür, bu qadınla bağlı ona qabaqcadan məlumat vermişdilər. Abbasqulu ağa yazır: «Pyotr qabaqcadan bu xüsusda general Matyuşkinə

yazıb bildirmişdi ki, «Salyan hakiməsi xanım oğruların böyüyüdür. Ondan ehtiyatlı olmaq lazımdır ki, bir bədbəxtlik üz verməsin». 55 il əvvəl rus kazak atamanı ***Stepan Razin*** öz quldurları ilə Salyan naibinin qızını əsir alıb özünə tabe etmiş, sonra isə içkidən beyni qızmış halda bu zavallı «İran knyajnasını» Volqa çayına atmışdı. Göründüyü kimi, illər ötsə də, Salyanda bu faciəni unuda bilmirdilər.

**TÜRKİYƏ-RUSİYA DİPLOMATİYA ÇATIŞMALARI.** ***Prut*** uğursuzluğundan sonra çar ***Paşaqapısı*** (***Bab-i Asafi***, sonralar Bab-i Ali)* hökuməti ilə olduqca ehtiyatlı davranmada idi. 5 noyabr 1720-ci ildə bu iki dövlət arasında bağlanmış olan «əbədi barışıq» Prut barışığının Rusiya üzərinə qoyduğu öhdəlikləri kəskinliklə qüvvədə saxlayırdı. Yalnız bir məsələdə Osmanlı dövləti rəqibinə güzəştə getmişdi. Rusiyaya İstanbulda elçi saxlamaq hüququ verilmişdi. İsveç ilə uzun quzey savaşını uğurla sona yetirmək üçün Pyotr güneydən arxayın olmaq istəyirdi. Xəzər dənizinə yürüş hazırlığını səssiz-səmirsiz keçirmək üçün də sultan hökuməti ilə barışığa gəlib onu duyuq salmamağa çalışırdı. Ancaq Pyotrun manifestindən, Rusiya donanmasının isə Dərbəndə gəlişindən sonra gizlənpaç oyunu bitmiş oldu. Sözdə kimdənsə qisas almaq istəməsi barədə bağıran Rusiyanın Şamaxı üzərinə deyil, Xəzəryanı bölgələrə yürüş etməsi hər şeyi aydınlaşdırdı. II Sultan Əhməd (1703-1730) hökumətinin böyük vəziri ***İbrahim paşa*** Rusiyanın İstanbuldakı konsulu ***İ.Neplüyevə*** 1722-ci ilin noyabrında etiraz bəyanatı verdi. Bəyanatda bildirilirdi ki, rus qoşunları İrana tabe olan torpaqlarda olduqca, türk xalqı rahatlıq tapa bilməyəcəkdir. Həmin ilin oktyabrında Osmanlı dövləti Hacı Davudun Şirvan üzərində hakimiyyətini tanıyaraq onu öz himayəsinə götürdü. Hacı Davud ***Krım xanı*** hüququ, yəni Osmanlı İmperatorluğu tərkibində vassal hökmdar hüququ aldı. Ona sultanın ayrıca fərmanı, ikibuncuqlu (birinci dərəcəli) paşa şərafəti, quyruqlu bayraq, 30 min çervon pul verildi. Dekabr ayında böyük vəzir İbrahim paşa, iki dövlət arasında savaş olmasın deyə Neplüyev vasitəsilə çar Pyotra yenidən öz tövsiyəsini bildirdi: «Bir yaxşı dost, iki imperatorluq arasında sülh saxlamaq istəyən bir adam kimi qoşunlarını alıb öz məmləkətinə çıxıb getsin».

Pyotrun Xəzər yürüşü onun qılıncını birbaşa İstanbul ilə deyil, ***London*** ilə toqquşdurdu. ***Britaniya*** rusların Xəzər dənizində ağalığının gələcəyini bəlkə də hamıdan yaxşı anlayırdı. Rusiyanın quzey uğurlarını ingilis hökuməti özü üçün bir fəlakət sanırdı, çünki təkcə ipək ticarəti deyil, bütün ingilis millətinin varlanma açarı olan ***Ost-Hind*** və ***Levant*** ticarət

* Osmanlı baş vəzirlərinin (sədri-əzəmlərinin) məqam yeri. 1770-ci illərdən sonra Bab-i Ali adlandığı üçün Avropa saraylarında Osmanlı hökumətinə «Yüksək Qapı» (Sublime Porte) və ya sadəcə «Porta» deyilirdi.



şirkətlərinin işini heçə endirə bilərdi. Buna görə Britaniya krallığı Osmanlı dövlətinin siyasətini qətiyyətlə müdafiə etdi.

Dərbənddən Moskvaya qayıdan Pyotr 13 fevral 1723-cü ildə Türkiyə elçisi ***Nişli Məhəmməd Ağa*** ilə görüşdü. Davud bəyin Türkiyə himayəsinə götürüldüyünü rəsmən bildirən bu elçi qoşunları Xəzər vilayətlərindən çıxarmaq haqqında öz hökumətinin tələbini yenidən Pyotra bildirdi. Vaxt qazanmaq istəyən Pyotr, konsul Neplüyevə hər şey barədə sultan ilə razılığa gəlib bir «konsert (aldadıcı, gözyayındırıcı tamaşa – *red.*) düzəltməyi» təklif etdi. Ancaq Neplüyev «türkləri heç cür razılığa gətirmək mümkün olmayır» yazırdı. Həmin ilin yazında Türkiyə ordusu ***Kartliyə*** və ***Kaxetə*** daxil oldu. Peterburqda qondarma «Rusiya-İran müqaviləsi» bağlandığı gün (12 sentyabr 1723-cü il) bu qoşun Tiflisi tutdu, sonra Gəncə, İrəvan və Naxçıvan üzərinə yeridi. Sultan hökuməti barışıq barədə eşitmək belə istəmirdi. Yalnız Böyük vəzirin çalışması sayəsində 1723-cü ilin sonunda savaş açılmadı. Razılaşdırılmış üç aylıq «gözləmədən» sonra dekabr ayında yeni danışıq başlandı.

**İSTANBUL BAĞLAŞMASI.** Öz rəqibini diplomatiya tələsinə salmaq istəyən Pyotr, həmin ilin yaz aylarında İranda hakimiyyəti ələ alan əfqanlı Mir Mahmudu da öz tərəfinə çəkməyə səy göstərdi. P.Butkov qaynaqlar üzrə yazır ki, aprel, may və iyun aylarında o, briqadir Levaşov və konsul Avraamov ilə Mir Mahmuda çox gizli təkliflər etdi. Türklər ilə yaxınlığa girməzsə, türk təzyiqinə qarşı ona yardım edəcəyini bildirdi. Beləliklə, iki il içində şah hökumətinə vəd etdiyi «yardımı» rus çarı indi bu hökumətin qatı yağısı olan əfqanlara verəcəyini söyləyirdi. Təki Xəzəryanı məmləkətlərdə öz ağalığını bərkidə bilsin.

Nə əfqan başçısını, nə II Təhmasibi yola gətirə bilən Pyotr sultan ilə, nəyin bahasına olur-olsun, barışmaq istəyirdi. 1723-cü ilin yayında ***Şafirov*** və ***Ostermana*** sultan hökumətinə belə bir bəyanət yetirməyi tapşırmışdı: «Türklər çarın İranda işğal etdiyi torpaqları geri almağa çalışsalar bu, onun (çarın – *red.*) əlində öz işğallarını davam etdirmək üçün ən yaxşı bəhanə olacaq; onlar (türklər – *red.*) razılığa gəlmiş olsalar, yəqinliklə bir partlayış olmayacaq, əksinə, iki dövlətin bir-biri ilə gözəl münasibətləri bərkiyəcəkdir». Yeni ilin yanvarından sultan hökuməti Rusiya təkliflərinə diqqət göstərməyə başladı. Böyük vəzir İbrahim paşa rus çarına qarşı öz hökuməti tərəfindən «heç bir düşmənçilik hərəkətinin olmayacağını» bildirdi. Həmin vaxt Böyük vəzir hətta Türkiyə, Rusiya və Fransa arasında ittifaq bağlamağı təklif etdi.

1724-cü il iyunun 24-də İstanbulda Türkiyə ilə Rusiya arasında müqavilə bağlandı. Türkiyə, Rusiyanın tutduğu Xəzəryanı əyalətlərin şah tərəfindən «könüllü» verildiyini, bu əyalətlərin artıq rəsmən Rusiyanın olduğu-

nu tanıdı. Buraya Dərbənddən içəriyə doğru 119 verst və Xəzərdən Şamaxıya doğru 43 verst enində Xəzəryanı torpaqlar daxil idi. Qalan bütün Transqafqaz (Azərbaycanın o biri əyalətləri Qarabağ, Gəncə, Təbriz, Naxçıvan, İrəvan, Qəzvin, bütün Gürcüstan ilə birlikdə) Osmanlı dövlətinə keçirdi.

İstanbul müqaviləsi Azərbaycanı iki yerə parçalayırdı. Türkiyəyə və Rusiyaya keçən torpaqlar arasında üç sərhəd ayırıcısı qoyulurdu.

Bunlardan biri Şamaxı ilə Xəzər dənizi arasındakı yolun 1/3 məsafəsində idi. Dərbənddən «içərilərə» doğru, 22 saatlıq orta at gedişi ilə qət olunan ikinci ayrılıq nöqtəsi birincidən 22 saatlıq orta at məsafəsində yerləşirdi. Üçüncü mərz Kür ilə Arazın kəsişdiyi ***Suqovuşan*** adlı yerə düşürdü. Bu üç nöqtədən Xəzərə doğru yerləşən torpaqlar Rusiyanın, buradan «içəri» yerləşən torpaqlar isə Türkiyənin ixtiyarına keçirdi.

İstanbul bağlaşmasını Transqafqazın müsəlman və xristian əhalisi kəskin narazılıqla qarşıladı, ancaq hər biri bir səbəbdən. Şamaxıda bu xəbəri gətirən ***Tarku Şamxalını*** və ***Qaraqaytaq*** üsmisini şəhərə buraxmayıb qovdular. Rusiyanın tutduğu Gilan vilayətində də ruslara qarşı xalq çıxışı oldu. Əhali vergilərdən, alış-veriş adamları ilə gömrük rüsumlarından boyun qaçırırdı. Bir zaman Hüseynqulu xan adı ilə şah qulluğunda olan Kaxet hakimi Vaxtanq isə indi Osmanlı təbəəliyinə keçməli oldu. O, Pyotrun qoşunla gəlişinə artıq ümidini itirdiyi üçün həmin ilin sonunda 1286 nəfər yaxın adamları ilə Rusiyaya köçdü.

**İLK YARIMMÜSTƏQİL XANLIQ.** ***Şirvan*** və ya yeni yaranmış olan «***Şamaxı xanlığı***»na ayrıca status verilirdi. Osmanlı dövləti buraya özündən qubernator, komendant, hər hansı bir mülki və ya hərbi məmur göndərməməyi, burada qoşun saxlamamağı, mühakimə aparıb cəza tədbirləri həyata keçirməməyi öhdəsinə alırdı. Bununla yanaşı, bu «xüsusi xanlıq» sultan hökumətinin nəzarəti altında olmalı idi. Müqavilənin söz gedən bəndində yazılmışdı: «***Və sonra Şirvan əyalətində Yüksək Porta (hökumətinə) məxsus olan yerlər xüsusi bir xanlıq sayılır, bunun üçün Şamaxı şəhəri xanın oturduğu yer olmalıdır, ancaq bu şəhər əvvəlki vəziyyətini saxlamalı, yeni (müdafiə) qurğuları tikilməməli, Bab-i Ali (hökuməti) tərəfindən şəhərdə qoşun saxlanmamalı və sonralar da qoşun göndərilməməlidir, yalnız bu hallarda istisna ola bilər ki, xan qiyam edib tabelikdən çıxmış olsun və ya bu əyalətin əhalisi arasında Yüksək Portanın mənafeyinə toxunan qarışıqlıq baş vermiş olsun və ya onlar (yerli əhali – red.) çara mənsub olan yer və torpaqlara qarşı düşməncəsinə hərəkət etmiş olsunlar. Belə hallarda Porta (hökuməti) bütün bu çeşid işlərin qarşısını almaq üçün Kür çayından keçməklə gərək olan sayda qoşun göndərmək hüququna malik olacaqdır, lakin çara mənsub olan torpaqlardakı Rusiya komandirlərinin***



***icazəsi ilə və bu qoşunların keçidi zamanı yerli əhaliyə heç bir ziyan və zərər vurmadan***».

Beləliklə, Quzey Azərbaycanı yalnız öz əyaləti kimi görmək istəyən İran və Rusiyadan fərqli olaraq, Osmanlı hökuməti buranı asılı bir dövlətə çevirmək istəyində idi. «Xüsusi xanlıq» statusu Quzey Azərbaycanın bu parçasına daxili müstəqillik vermiş olurdu. Osmanlı dövlətinin buraya heç bir qulluq adamı, vali, canişin və ya qoşun başçısı göndərməməsi çox mühüm göstərici sayılırdı. Burada heç bir Osmanlı qoşunu da saxlanılmırdı. Yalnız 1726-cı ildə müqaviləyə uyğun olaraq (Osmanlı dövlətinin mənafeyinə toxunan qarışıqlıq üzündən) ***Dərviş Məhəmməd paşanın*** başçılığı ilə buraya üç sipahi alayı göndərilmişdi. Ancaq Şirvan xanı Hacı Davud tabelik rejimini pozmamalı, Osmanlı düşmənləri ilə yaxınlıq etməməli idi. Belə ki, Şah II Təhmasibin onu öz tərəfinə çəkmək istəməsi boşa çıxdı, incə davranışla onu ruslara qarşı qaldırmaq təkliflərini rədd etdi.

Hacı Davud Rusiya-Türkiyə bağlaşmasının verdiyi üstünlüklərdən bacarıqla istifadə edirdi. O, İstanbul sarayı ilə çox az hesablaşmağa başladı. Rusiya qaynaqlarında Hacı Davudun çox dikbaş, saymazyana davranışından, «baş əymək», «tabe olmaq» istəməməsindən, Porta hökumətinin bu davranışdan cana doymasından dönə-dönə yazılmışdır.

Belə olduqda Osmanlı dövləti Hacı Davudu Şirvan xanlığından götürmək fikrinə gəldi. Çünki o, dövlət qulluğunu can-başla yerinə yetirən bir türk paşası olmadı. Osmanlı dövlətindən Şirvan üçün «xüsusi xanlıq» statusu aldıqdan sonra Hacı Davud, görünür, indi də Peterburq hökuməti ilə sövdələşməyə girib, bu statusu gücləndirmək istəyirdi. «Mötəbər bir alim və mədrəsə sahibi olan Hacı Davud» (Bakıxanov), başqa səbəbdən də artıq İstanbulu qane etmirdi. Onun keçmiş müttəfiqi Surxay xan istər Rusiyaya, istərsə də İrana qarşı daha kəskin mübarizə aparacağını bildirməkdə idi. O biri yandan o, Türkiyə dövlətindən acıqlı idi; bu dövlətin xanlığı «xan nəslindən olan» Surxay xana yox, «əsli-nəcabəti olmayan kəndli» Hacı Davuda verdiyi üçün Şirvan və Gürcüstan üzərinə basqınlar edir, dinclik vermirdi. Nəzərə almaq lazımdır ki, Surxay xan Dağıstanın güclü feodal hakimlərindən biri idi, ləzgilərdən və carlılardan çoxlu qoşun toplaya bilirdi.

1728-ci ilin mayında Hacı Davud ailəsi və qardaşları ilə birlikdə Gəncəyə qonaqlığa dəvət olundu. Burada tutulub Kipr adasına sürgün olundu, orada da öldü. Surxay xan onun yerinə Şirvana hakim qoyuldu. Tezliklə adını doğrulda biləcək daha bir basqın təşkil etdi: Təbrizdəki Türkiyə qoşun başçısı İbrahim Paşa ilə birgə Salyan və Qızılağac üzərinə yeriyib 24 kəndi talan etdi. 5253 davar, 3597 camış, 1040 at və dəvə, 5860 tahar taxıl, 556 gəbə və palaz apardı. Bu, İstanbul andlaşmasının kobudcasına pozulması demək idi.

**TÜRKİYƏNİN GÜNEY AZƏRBAYCANI TUTMASI.** 1725-ci ilin avqustunda ***Sarı Mustafa*** paşanın Gəncəni tutması ilə Türkiyənin Güney Qafqazda əməliyyatları başa çatmış oldu.

İstanbul müqaviləminə görə bu dövlətə verilən Güney Azərbaycanın torpaqları uğrunda kəskin savaşlar oldu. 1725-ci ilin fevralında Van hakimi ***Abdulla paşa*** 25 minlik qoşunla Təbriz üzərinə gəldi. İngilis səyyahı ***C.Hanvey*** o zamankı Təbrizi belə təsvir etmişdir: «Bu, şərqdə ən gözəl şəhərlərdən biri idi, ancaq nə divarları, nə də topları vardı, beləliklə qədim Sparta kimi, yalnız burada yaşayanların say və gücünə arxalana bilərdi». ***Abdulla Köprülü paşa*** uğursuzluğa düşən qoşununu Xoy vilayətinə çəkib aparmalı oldu.

Sonrakı hadisələr çox dramatik bir gediş aldı. Hanveyə görə osmanlıların yeni yürüşə hazırlaşdığını bilən təbrizlilər sona kimi vuruşmağa söz verdilər, öz ailələrini qiymətli əşya ilə Gilan dağlarına göndərdilər. Yeni Türkiyə qoşununa yenə Abdulla Köprülü başçılıq edirdi. 30 iyulda o, 70 min əsgər ilə «ulu şəhərə» yaxınlaşdı. Şah qoşunbaşçısının əli altında isə başlıca olaraq silah daşıya bilən şəhərlilər toplanmışdı. Şəhər kənarındakı döyüşdən sonra müdafiəçilər 9 məhəllə səngərlərində vuruşurdular. Dörd gün, dörd gecəlik vuruşlardan sonra bu səngərlərin yeddisi artıq itirilmişdi. Yalnız avqustun 3-də qalan iki səngərin döyüşçüləri də (20 min adam) təslim olacaqlarını bildirdilər; onlara ailə və əmlaklarını götürüb Ərdəbilə çəkilmək icazəsi verildi. Hanvey, şah döyüşçülərinin 30 min, sultan ordusunun 20 min əsgər itirdiyini yazır. ***İrəvanlı Abrama görə*** *isə Təbriz 85 min döyüşçü qurban vermişdi.*

Həmin ilin son ayında İstanbulda Ərdəbilin alınması ilə bağlı şənlik keçirildi. Quzey və Güney Azərbaycan, Xəzəryanı bölgələr çıxılmaqla, Osmanlı dövlətinə qatıldı.

**RUSİYANIN TUTDUĞU TORPAQLARIN GERÇƏK DURUMU.** Nə İstanbul andlaşması, nə də ondan sonrakı yürüşlər Azərbaycanda Rusiya və Türkiyə ağalığını bərkidə bilməmişdilər. Doğrudur, V.Dolqorukov 1727-ci ilin fevralında imperatriça ***I Yekaterinaya*** «gəzdiyim bütün əyalətlərdə məni böyük rəğbətlə qarşıladılar» yazaraq, burada Rusiya üçün çox əlverişli bir şərait yarandığına inandırmaq istəyirdi: «... Hamı... məndən xahiş edir ki, onları Rusiya imperiyasının təbəəliyinə qəbul edim... Onlar bizim ədalətli rəftarımızı, onlardan heç bir əlavə şey istəmədiyimizi və bizdən onlara heç bir ziyan dəyməməsinə möhkəm çalışdığımızı və bütün bunların ağır cərimə qorxusu ilə bütün komandalara fərman şəklində göndərildiyini görürlər. Türkiyənin hakimiyyəti altında olanlar isə... büs-bütün talan edilmişlər, türklər görünməmiş bir ölçüdə söyüş və zülüm yapırlar... Və buna görə bütün xalqlar, istər xaçlılar, istərsə də basurmanlar onlara qarşı hazırdırlar. Xahiş edirlər ki, bizlərdən ümid işığı gəlsin».



Rusiya komandanı burada öz qulluq işinin nəticəsini şişirdib gözə soxmağa çalışmışdır. Gerçək durum isə belə deyildi. Belə olsa idi, general Matyuşkin 1725-ci ildə yenidən Bakıya dönüb buradan güneyə 300 əsgərlə yollanmaz, yenidən Salyanı ələ keçirməli olmazdı; yenidən Gilana gedib general Levaşovun ixtiyarında olan 6 batalyon əsgər, 500 draqun (atlı), bir neçə dəstə «dost» erməni, gürcü döyüşçüləri və Don kazakları ilə ***Kəsgər*** vəzirinin 20 minlik qoşununa qarşı iki ay savaş aparmazdı. Əslində knyaz Dolqorukov ələ keçirilmiş Xəzəryanı bölgələri yenidən işğal etməli olurdu. Sankt-Peterburqda 7 may 1727-ci ildə çıxan bir «relyasionda» o özü bunu boynuna alırdı. Yazırdı ki, bu ilin aprelində Gilandan Dərbəndə kimi atlı qoşunla hərəkət edib «Xəzər dənizi sahillərində yerləşən İran əyalətlərinin, adbaad: ***Gərgərud, Astara, Lənkəran, Qızılağac, Ucarud, Salyan*** (vilayətlərini) imperatriça həzrətlərinin təbəəliyinə gətirdim, həm də düzənlik xalqları, ***Muğan, Şahsevən, Məzarik*** əyalətləri də təbəəliyə keçdilər». Bu yerlərin xan, sultan və başqa hakimlərindən Rusiya komandanına qulluq göstərib «imperatriça təbəəliyinə» and içənlər də yox deyildi. *Ancaq belələrinin siyasi prinsipsizliyi, qarşıya çıxan hər yeni güc sahibinə nökərçilik etmək istəməsi də gözdən qaçırılmamalıdır.* Bütünlüklə isə daxili vəziyyət göründüyü kimi sadə deyildi. P.Butkovun araşdırdığı qaynaqlarda «Cavat torpağı» və Salyan haqqında aşağıdakı yazıya rast gəlirik: «***Burada yaşayanların Rusiya təbəəliyində olmağa meyl etdiklərini söyləmək mümkün deyildir. Onların and içməyə gətirilməsi (Rusiya təbəəliyinə keçmək barədə – red.) 1730-cu ilə kimi uzanmışdır. Xəzinəyə ödəniləcək vergilər elə bir çətinliklə yığılmışdır ki, buna qarşı çıxan və vergilərdən boyun qaçıran bəzi yerlərin əhalisi onlara qarşı çıxarılan qoşunlar tərəfindən talan edilmişdir. İranlılar (Azərbaycan əhalisi – red.) türkləri də eyni ölçüdə sevməyirlər. Çünki Ərdəbil yörəsində soyğunçuluq edib adamları öldürməklə onları qəzəbləndirmişlər***».

## 4. AZƏRBAYCAN ÜSTÜNDƏ DÖVLƏTLƏRARASI MÜHARİBƏLƏR

**ÇƏKİŞMƏLƏRİN GÜCLƏNMƏSİ.** Rusiya ilə Türkiyə güney Qafqaz məmləkətlərini, Xəzəryanı və Arazın o tayındakı bölgələri tutmuş olsalar da, bir-biri ilə düşmən kimi davranırdılar. Rusiya ***Avstriya*** ilə yaxınlaşaraq, Türkiyəyə qarşı yönəlmiş yeni bir bağlaşmaya girdi. Buna cavab olaraq Türkiyə İsfahana doğru yürüşə başladı. Əfqanların burada hakimiyyətə keçmiş yeni başçısı ***Əşrəf*** Təbriz, Ərdəbil, İrəvan, ***Həmədan, Sultaniyə*** və ***Kirmanşah*** şəhərlərinin Osmanlı dövlətinə keçməsini rəsmən tanımalı oldu. Türkiyə isə Əşrəfi İranın hökmdarı kimi tanıdığını bildirdi. Yalançı İran

elçisinin imzaladığı 1723-cü il Peterburq «bağlaşmasına» qarşı Türkiyə yalançı İran şahı Əşrəfin qolu olan «bağlaşmanı» qoydu. Öz rəqibinin İran ilə yaxınlaşmasından qorxuya düşən Rusiya «şah sarayı» ilə çox güzəştli bir sənəd bağladı. «***Birinci Rəşt bağlaşması***» (1729) adlanan bu sənədə əsasən Rusiya, Peterburq bağlaşması ilə Rusiyaya verildiyi bildirilən, ancaq heç vaxt rus qoşunu tərəfindən tutulmayan və Rusiyanın əlində olmayan iki Xəzəryanı əyalətin: *Astrabad* və *Mazandaranın* (heç bir başqa dövlətə, yəni ənənəvi rəqib Türkiyəyə verilməmək şərtilə) İrana «qaytarılmasına» razılıq verdi.

**AZƏRBAYCAN UĞRUNDA SAVAŞIN QIZIŞMASI.** Baş şəhər İsfahanla birlikdə ***İraq, Fars*** və Xorasanın əfqanların, Azərbaycanın yarıdan çoxunun, Gürcüstan və Ermənistanın – Türkiyənin, Xəzərboyu bölgələrin Rusiyanın əlinə keçməsi, Şirvanda isə ləzgilərin asayişi və yollarda əmin-amanlığı pozması İranın hakim dairələrini hərəkətə gətirdi. Bu qüvvələrin birləşməsində ***Nadirqulu xan*** (1789-1747) böyük rol oynadı.

Nadir xan azərbaycanlı Afşar türkü idi. Ulu babaları ***Moğol*** çağında Azərbaycanda yerləşmiş ***Afşarların Qırxlı*** boyundandı. ***Şah İsmayıl*** onları sərhəd qarovulu çəkmək üçün ***Xorasana – Əbivərd*** mülkünün ***Gürkan*** çeşməsi yörəsinə köçürmüşdü. 15 yaşından günü döyüşlərdə keçən Nadir, Afşar boylarını birləşdirərək Əbivərd kürdlərini və elatını, ***Dərəcəz*** və ***Gəlat*** qalalarını ələ keçirdi. Sonra şah ***II Təhmasib*** ilə yaxınlaşıb «***Təhmasibqulu xan***» adı ilə onun qorçubaşısı, «daha sonra bütün İranın ən iqtidarlı sərdarı və sahib-ixtiyar vəkili oldu» (Bakıxanov).

Əvvəlcə Nadir Astrabad və Mazandaranı tutmuş türkləri əzərək, Xəzər dənizinə şah hökuməti üçün çıxış açdı (dənizin günbatan bölgələrini Rusiya ələ keçirmişdi). 1728-1729-cu illərdə əfqanları İrandan vurub çıxardı. Şah Təhmasibin İsfahana qayıtması üçün yol açıq oldu.

1730-cu ildən Türkiyəyə qarşı Azərbaycan uğrunda savaş başlandı. Həmin il Nadir Marağanı, sonra isə Təbrizi türklərdən geri aldı. Buradan Ərdəbil üzərinə yeridi. Rusiya qoşunlarının baş komandanı general-leytenant Levaşov təmsil etdiyi dövlətin diplomatiyasını işə qatdı. Azacıq gücü olan (160 piyada, 130 atlı əsgərlə) türk paşası ondan kömək istədi. Türkiyə əsgərlərinin Ərdəbildən çıxarılıb Xəzər dənizindən uzaqlaşdırılmasını göydə arayan Levaşov, Nadir xan ilə əlaqə yaratdı, onun köməyilə geyimini dəyişmiş (türklər tanımasın deyə) rus zabitləri ilə toplar göndərdi. Sonra türk əsgərlərinin rusların əlində olan əraziyə, oradan da Şirvana keçib özününkülərə qovuşmasına icazə verdi.

***Heratda*** əfqanların yenidən ayağa qalxması və Nadir xanın qardaşının öldürülməsi onu oraya getməyə məcbur etdi. Şah Təhmasibin savaşın gedişini öz əlinə almaq istəməsi çox uğursuz oldu. Türk qoşunları qarşısında o, İrəvan və ***Həmədan*** yaxınlığında dalbadal əzilib geri çəkildi. Təbriz, Marağa, ***Salmas, Urmu***, Həmədan yenidən itirildi. 1732-ci ilin yanvarında o, Türkiyə ilə uğursuz barışıq bağladı. Təbriz şaha qaytarılsa da, Nadirin qazandığı uğurlar heçə endirildi.



**1732-Cİ İL RƏŞT BAĞLAŞMASI.** Pyotr ölən kimi Rusiya hökuməti Xəzəryanı bölgələrin İrana qaytarılması barədə düşünməyə başlamışdı. Sahil boyunca uzununa 600 km., eninə 100 km tutan bu bölgələrin qorunması üçün 18-20 piyada və draqun (atlı) alayını süngü altında saxlamaq lazım gəlirdi. Üstəlik buraya ***kazaklardan, erməni, gürcü, tatar, mordva və çuvaşlardan*** toplanan 18 min qeyri-nizami ordu və işçi qüvvəsi toplamışdı. Çar Rusiyası bu orduya bütün hərbi-inzibati qulluq adamları və işçiləri ilə birlikdə ildə 1 milyon manatdan çox xərclədiyi halda, götürdüyü gəlir 250 mindən yuxarı qalxmırdı. Rus əsgərləri iqlimə uyğunlaşa bilmirdilər. Qızdırma və başqa yoluxucu xəstəliklər onları ot kimi biçirdi. P.Butkovun sayımına görə 13 ildə bu bölgələrdə Rusiya 130, bəlkə də 200 min adam itirmişdi. V.Levaşov ən çox Gilanda insan qırıldığını yazaraq, buranın «bir insan tabutu» olduğunu bildirirdi. Buna görə Rusiya xarici siyasətinin yaradıcılarından biri olan baron ***A.Osterman*** hələ 1726-cı ildə «bu İran işlərinin içindən az-çox şərəf və təminatla çıxmağın yolunu axtarmağı» təklif etmişdi. Artıq Avropa elçiləri də bunu bilirdilər. Fransanın Peterburqdakı elçisi ***Manyan*** öz naziri ***Şevlenə*** 1730-cu ildə yazırdı ki, şahın Xəzəryanı bölgələri Türkiyədən qorumaq iqtidarında olduğunu görərsə, Rusiya bu torpaqları qaytarmağa hazırdır.

Nadir xanın savaş uğurları buna əminlik yaratdı. Çar diplomatiyası İranla Türkiyə arasında 1732-ci il yanvar barışığına həmin ilin həmin ayında imzalanmış olan ikinci Rəşt bağlaşması ilə cavab verdi. Bu bağlaşmaya görə Rusiya beş ay içərisində Kür çayının Xəzərə töküldüyü yerdən güneydə yerləşən bütün bölgələri İrana qaytarır, İran isə bu torpaqların Türkiyənin əlinə keçməsinə yol verməyəcəyini üzərinə götürürdü. Kür çayından Dərbəndə kimi uzanan quzey torpaqlarının qaytarılması üçün ayrıca şərt qoyulurdu: İran İstanbul bağlaşmasına görə Türkiyəyə keçən Şirvan, Ermənistan və Gürcüstanı osmanlılardan geri almalı, bununla da Xəzəryanı torpaqların Türkiyənin əlinə keçməyəcəyini təmin etməli idi. Şah hökuməti Rusiyaya yağı olan dövlətlərə yağı olacağını bildirir; İranın bütün əyalətlərində Rusiya təbəələrinin heç bir gömrük, rüsum, vergi ödəmədən tam sərbəst və azad alış-veriş etməsinə, habelə onun ərazisindən Hindistanla gömrüksüz tranzit ticarət aparmasına razılıq verirdi. Rus tacirlərinin özlərinin və mallarının toxunulmazlığı təmin edilirdi.

Bu bağlaşma uğursuz Xəzər yürüşündən sonra çar diplomatiyasının tutarlı uğurlarından biri oldu.

**NADİRİN YENİ SAVAŞI.** Əfqanlara qulaqburması verib Heratdan qayıdan Nadir xan şah Təhmasibin Türkiyə ilə son barışığını tanımaq istəməyib onun qüvvədən düşmüş olduğunu bildirdi. 1732-ci ilin avqustunda ordu komandanlarına arxalanaraq II Təhmasibi taxtdan devirdi. Səfəvilərin son iki nümayəndəsi Hüseyn və Təhmasib olduqca fərsiz, heç bir dövlət işinə yaramayan, amma kefindən qalmaq istəməyən tüfeylilər idilər. Xaricilər şah Hüseynin «öz təbəələri qarşısında təbəə olduğunu, oğlu Təhmasibin isə ondan da düşgün olduğunu» yazırdılar. Təbrizdəki rus diplomatları general Levaşova onu belə təsvir edirdilər: «Şah içki agcözlüyündən özünü saxlaya bilmir və bizdə olan arağı, gilənar süzməsi və çaxırı çəlləkləri və şüşələrlə, demək olar bütünlüklə alıb axırına çıxmış, bizə isə heç bir şey qalmamışdır».

Nadirin göstərişi ilə saraydan Məşhədə sürgün edilən şahın gözləri çıxarıldı. Onun bir daha əl-ayağa dolaşmasına yol verməmək üçün səkkiz aylıq oğlu ***III Abbas*** adı ilə «şah» elan edildi. Uşağın adına xütbə oxunub sikkə kəsildi. Tam əl-qolu açılan Nadir xan bütün dövlət işlərini öz əlinə alıb, «südəmər» şahın «yerinə» tam müstəqil hökmranlıq etməyə başladı. O, yenidən Osmanlı dövləti ilə torpaq davasına girdi. «Türklər Rusiya üçün artıq qorxulu deyildirlər». İkinci Rəşt bağlaşmasından bar dərən çar hökuməti öz sevincini gizlətməyi yersiz sayırdı.

**ŞAMAXI VƏ GƏNCƏ ÜZƏRİNƏ YÜRÜŞLƏR.** Bağdad yaxınlığında ilk döyüşü Nadir uduzdu. Yüzminlik ordunun 3/4-ü itirildi. Ancaq 1733-cü ilin payızında ikinci Bağdad döyüşündə türk ordusu məğlub oldu. Barışıq üzrə Osmanlı dövləti son on ildə Səfəvilərdən aldığı torpaqları qaytarmağı, 1639-cu il dövlət hüdudlarına qayıtmağı üzərinə götürsə də, bu şərtləri yerinə yetirmədi. Abbasqulu Ağa bu hadisələrin gedişi haqda yazır: «(Nadir – *red.*) Rum qoşununu pis bir surətdə məğlub etdikdən sonra, Bağdad hakimi Əhməd paşa vasitəsilə Osmanlı dövləti ilə hicri 1146-cı (1733) ildə barışıq etdi. Həmin dövlətin qanununa uyğun olaraq, paşalara İran vilayətlərini boşaltmaq haqqında sultan xətt-şərifi ilə bəzənilmiş fərmanlar göndərildi. Nadirin ordusu Ərdəbilə gəldi. Şirvan hakimi Surxay xana yazılan fərmanı Astara hakimi Musa xan öz adamı ilə göndərdi. O, fərman gətirən adamı öldürüb Musa xana nalayiq sözlər yazdı. Buna görə əlahəzrət Nadir bu məğrur adamı cəzalandırmağı lazım bildi. Şirvanı fəth etməyi başqa qalaların alınması üçün açar saydı. Lakin o, Kür çayının kənarına çatanda Surxay xan Şamaxını buraxıb Dağıstana getdi. Nadir hicri 1147-ci (1734) ildə avqust ayının 17-də Şamaxıya girib Ərdəbil hakimi ***Məhəmmədqulu xan Səidlini*** Şirvana hakim təyin etdi».

İngilis səyyahı ***C.Hanvey*** yazır ki, şamaxılıların Nadirin qoşun başçılarını pis qarşılaması elə bir qəzəb yaratmışdı ki, onlar şəhəri özülünə kimi



dağıtmağa, əhalini əzib buradan köçürməyə söz vermişdilər. Əhalinin müqavimət gücünü qırmaq üçün Nadir qoşunları Şamaxı əhalisini soyub taladıqdan sonra şəhərin qala divarlarını özülünə kimi sökdülər. Evləri, bütün tikililəri dağıtdılar, şəhər yox oldu. Şəhərin əhalisi Ağsu çayı üzərində «Ağsu» adlanan yerdə tikilən yeni şəhərə köçürüldü. Əski Şamaxının 4 ağaclığında yerləşən «***Yeni Şamaxı***» böyük deyildi. ***İ.Lerxin*** yazdığına görə, onun uzunu 3/4 verst, eni isə 1/4 verstdən (1080 addımdan) çox deyildi. Dörd qala qapısı qoyulmuşdu. Ancaq qala divarları və bürcləri çiy kərpicdən hörülmüşdü; çox da qalın olmadığı üçün hər hansı top atəşindən yarıla bilərdi.

Surxay xan həlledici döyüş üçün ***Qəbələni*** seçmişdi. ***Car*** və ***Tala*** ləzgiləri burada ona qoşuldu. Gəncə hakimi ***Əli paşanın*** əmri ilə səkkiz minlik osmanlı və tatar qoşunu da ona köməyə gəldi. Surxay xanın əli altında 20 minlik qoşun toplandı.

Abbasqulu Ağa yazır: «Eylül (sentyabr) ayının 6-da yüngül topxana və 12 min atlı ilə (Nadir), Surxay xanın sığınağı və qərargahı olan ***Qazıqumuğu*** almaq üçün hərəkət etdi». O qədər qoşunla bir sərkərdəsini Qəbələ üzərinə göndərdi. Dəvəbatan adlı bir yerdə Surxay xan döyüşdə məğlub oldu. O, Qazıqumuğa, müttəfiqləri isə Gəncəyə qaçdılar. Ordu ləvazimatı və təchizatı, demək olar bütünlüklə iranlıların əlinə keçdi. Sonuncular buradan aşıb, çox abad olan ***Xaçmaz*** qalasını talan etdilər, «od vurub külə döndərdilər» (Bakıxanov). Nadir çətin dağ cığırlarını çiyində daşınan kiçik toplarla keçib Qazıqumuğu da tutdu. Yerli əhali çox itki verdi. Surxay xan bir neçə yaxın adamı ilə köç-külfətini yığıb ***Avarıstana*** qaçdı.

Payızın düşməsi ilə Nadir yürüşü ***Arana*** keçirdi. Böyük ordusunu iki yerə böldü. Birini (çadırlar və yüklərlə) ***Miskincə-Şahdağ*** yolu ilə Qəbələyə göndərdi, o birini isə özü ixtiyarına alıb ***Xaçmaz-Şamaxı*** yolu ilə oraya yollandı. Oktyabrın 11-də Ərəş qarşısındakı körpüdən Kürü keçib Gəncə yanında ordugah saldı. Osmanlı və Krım-tatar qoşunları şəhəri boşaldaraq qalaya sığındılar. Qanlı döyüşlər başlandı.

Nadirin qoşunu səngər və xəndəklərdə yer tutdu. Onun əmri ilə Gəncə qalasının altında 7 yerdən lağım atıldı. Türklər bunlardan birinin yerini öyrənib onu dağıtdılar. 3500 batman barıt doldurulmuş qalan 6 lağıma iranlılar od vurdular. Partlayışdan 700 türk əsgəri (Gəncə hakimi ***Əli paşanın oğlu*** da onların sırasında idi) həlak oldu. Qaladakılar da lağım atıb bayıra, birbaşa səngərlər üzərinə çıxır, əlbəyaxa döyüşə girirdilər. Əl qumbaraları ilə qaladan çıxıb onları səngərdəkilərin üzərinə yağdırırdılar. Dörd ay belə keçdi. Nadirin göstərişi ilə Gəncə çayının qarşısı bağlandı, qalanın ***Şirhacı*** divarı və güneydoğu tərəfdəki bürclər uçub töküldü. Qalanın yarısını su bassa da qaladan atılan top gülləsi ilə bənd dağıdıldı və su çəkildi.

Abbasqulu Ağaya görə, suyun yatağı şəhərin yarım ağac quzeyində indi də bilinməkdədir.

Bu zaman Şəki mahalında xalq üsyanı oldu. «XVIII yüzildə Car savaşlarının salnaməsi» adlı kitabda göstərilir ki, Şəkinin 20 kilometrliyində quzeybatıda yerləşən *Biləci* kəndində xəracı çox amansızlıqla yığdıqlarından əhali üsyana qalxdı. Cınıx, Talı və başqa yer kəndlilərini köməyə çağırıb, Nadirin çoxlu əsgərini qırdılar.

Çarlıq Rusiyasının mənəvi-diplomatik yardımına arxalanan Nadir, ***Qarsda*** sərəsgər ***Abdulla paşanın*** qarşısına çıxmaq qərarına gəldi. Onun komandası altında olan ordu Gəncə müdafiəçilərinin köməyinə gələ bilərdi. Nadir Gəncədə və ***Ağdaşda*** (Dağıstan ləzgilərinə qarşı durmaq üçün) qoşunlar qoyub 15 minlik ordu ilə ***Loridən Qars*** üzərinə yeridi. 8 iyun 1735-ci ildə ***Eçmiədzin*** döyüşündə böyük bir Osmanlı ordusuna üstün gəldi. O, toplardan çox ustalıqla istifadə etdi: əvvəlcə top atəşi ilə türk alaylarını bir səmtə sıxışdırdı, sonra isə orada pusquya qoyulmuş toplar öz atəşi ilə rəqibə çox böyük tələfat verdilər. Bu uğurdan sonra 7 aydan çox davam edən Gəncə müdafiəsi yardım almaq üçün ümudini itirib çökdü. Gəncə və Tiflisdəki Osmanlı qoşunları qalaları toplar, sursat və əsirlər ilə təslim edərək, bunun qarşılığında çəkilib Türkiyəyə getmək icazəsi aldı.

**1735-Cİ İL GƏNCƏ BAĞLAŞMASI.** Gəncə savaşının gedişində Rusiyadan göndərilmiş yeni elçi knyaz ***Sergey Qolitsin*** daima Nadirin yanında olurdu. Xarici İşlər Kollegiyası fövqəladə statusla göndərilən bu elçiyə belə bir tapşırıq vermişdi: «***əl altından gizlincə və ustalıqla Təhmasibqulu xanı türklər ilə savaşı aramsız davam etdirməyə qızışdırmaq lazımdır ki, bütün İran əyalətləri onlardan silah gücünə geri alınmış olsun***»*. Nadir isə özünü bilməzliyə qoymadan Rusiya elçisi qarşısında öz tələbini qoydu: «Mən türklərə acıqlı olduğumdan [onsuz da] onların üzərinə savaşa getmək istəyirdim, ancaq siz məni ayaq saxlamağa məcbur etdiniz, çünki Bakı ilə Dərbəndi [öz əlinizdə] saxlayaraq, sizdən tələb etdiyim adamları qaytarmır və heç bir məsələdə razılığa gəlmirsiniz». O, öz istəyinə yetmək üçün silah işlədəcəyini Rusiya elçisinə bildirməkdən çəkinmirdi.

10 mart 1735-ci ildə (Bakıxanova görə Novruz günü) İran ilə Rusiya arasında Gəncə bağlaşması imzalandı. Quzey Xəzəryanı torpaqlar Salyan, Bakı, Dərbənd şəhərləri ilə İrana qaytarıldı. Yeni İran-Rusiya bağlaşması bütünlüklə Türkiyəyə qarşı yönəlmiş idi. Onun mətnində yazılmışdı: «İran dövləti Rusiya İmperatorluğu ilə əbədi ittifaqda bulunmağa, Rusiyanın dostunu dost, yağısını yağı sanacağına bərk söz verir və əgər kimsə bu iki yüksək saraylardan birinə qarşı savaş başlasa: hər iki yüksək saraylar o yağıya qarşı [birgə] savaş aparmalı və bütün belə hallarda bir-birinə yardım etməlidirlər». Buna baxmayaraq, İran üzərinə birtərəfli öhdəlik qoyulurdu: «İran dövləti hər cür səy göstərərək, düşmənə (Türkiyəyə – *red.*) qarşı başladığı savaşı gərgin çalışma və dönməzliklə davam etdirib haqlı öc almalıdır».

Gəncə bağlaşması üzrə Rusiya, Dağıstanın İran hökmranlığına keçməsinə, İranın dövlət sərhədlərinin Qafqaz dağ silsiləsinin o tayına – ***Sulak*** çayına kimi uzadılmasına razılıq verməli oldu. Bu, həmin çay üzərində Pyotrun on minlərlə rus əsgərinin üzücü çalışması ilə tikdirdiyi ***Svyatoy Krest (Müqəddəs Xaç)*** qalasının sökülməsi demək idi. Rusların əlində əsir olan bütün İran təbəələrinin qaytarılması da Rusiyanın nüfuzuna böyük zərbə vurdu. General Levaşov imperatriça ***Annaya*** yazırdı ki, Svyatoy Krest qalasında yerləşdirilən gürcü və ermənilərin şaha verilməsi ilə bağlı «çoxlu şikayət və narazılıq görməli olmuşdur, zira [Rusiya tərəfindən] çoxdan vəd edilən himayəçilik onları qoruyub yarıtmamışdır».

Rusiya diplomatiyası İranla «əbədi ittifpqı» bu dövlət ilə Türkiyə arasında «əbədi düşmənçilik» vasitəsinə çevirməyə çalışırdı. Gəncə bağlaşması üzrə İran Rusiyanın razılığı olmadan Türkiyə ilə təkbaşına barışıq bağlaya bilməzdi. İranın Türkiyə ilə danışıqlarında Rusıya iştirak etməli idi. Ancaq Nadir bircə il sonra bununla da hesablaşmadı. O, ***İngiltərəni*** vasitəçi olmağa çağırıb, onun köməyi ilə danışıqlara başladı və tezliklə sülh imzaladı. *Türkiyə dövləti Azərbaycanın bütünlüklə və Gürcüstanla Ermənistanın şərq bölgələrinin İrana verilməsi ilə razılaşmalı oldu.*

İngiltərə Xəzər dənizində Rusiya ağalığının yaranmasına, burada ticarət gəmilərinin fəallaşmasına yol vermək istəmirdi. Gilana göndərilmiş ingilis kapitanı ***Con Eltonun*** başçılığı ilə tikilən gəmilər bu işə yönəldilirdi. 1740-cı ildə Nadir şah Eltona İran üçün hərbi donanma yaratmağı tapşırmış, üç il sonra isə onu öz yanında qulluğa götürərək admiral adı vermişdi.

**«ŞAH SEÇKİSİ».** Qış aylarında Dağıstanın yatırılması ilə məşğul olan Nadir xan, atının ağzını ***Muğan*** düzənliyinə çevirdi. Qubanın ***«Həsənqalasına»*** çatdıqdan sonra ordudan qabağa düşüb, altı mənzillik çətin yolu bir gecə-gündüzdə keçdi. Ağsu («Yeni Şamaxı») qalasından, Abbasqulu Ağa bildirdiyi kimi, qanuni-saninin (yanvarın) 13-də Muğandakı ordugahına yetişdi.

* Üzərində 26 aprel 1733-cü il tarixi olan bu tapşırığı *A.Berje* Qafqaz Arxeoqrafiya Komissiyası Aktlarında (II c., s. 1096) çap etmişdir.

Dövlətin «hər bucağına», qılınc gücünə tutulmuş bütün əyalətlərə qabaqcadan fərmanlar göndərilmiş, hakimlər, vilayət rəisləri, əyan və ülləmalar Quzey Azərbaycana – Muğana qurultaya çağırılmışdılar. Bir də buyurmuşdu ki, Kür ilə Arazın qovuşduğu yerdə, ***Cavad keçidi*** yaxınlığında ağac və qarğıdan 12 min ev tikilsin; ayrıca karvansara, məscid və imarətlər qurulsun. Tezliklə buraya 100 minə kimi adam toplandı.

Nadir üçün burada ipək toxuma və parçalara tutulmuş böyük çadırlar qurulmuşdu. İçəridən onlar saysız qızıl, gümüş və başqa daş-qaş əşyalarla bəzədilmişdi. Öz çadırında şahanə qəbul qonaqlıqları verən Nadirin qonaqları qarşısına qızıl və gümüş qablarda arası kəsilmədən gözəl yeməklər düzülürdü. Onları çalğıçılar və xanəndələr, kəndirbaz və oyunbazlar şənləndirib əyləndirirdi. Məmləkət isə aldığı yaralardan, aclıq və qıtlıqdan inləyirdi; yollar dilənçilələrlə, saysız döyüşlərdə iş qabiliyyətini itirmiş şikəst yazıqlarla dolu idi.

Abbasqulu Ağa yazır: «Bir aydan çox çəkən müşavirə və danışıqlardan sonra Nadir həzrətləri hicri 1148-ci (1736) ildə, şubat (fevral) ayının 26-da İranın səltənət taxtına oturdu». Bu yığcam yazının arxasında «şah seçkisi» adı altında qurulmuş bir gəlinbala oyunu, bir komediya gizlənməkdədir.

«Seçkilərdən» öncə Səfəvilərin son oğlu, kiçik yaşlı «şah» III Abbasın ölüm xəbəri Muğana gəlib çatdı. Hər şey sanki dahiyanə bir ssenari ilə baş verməkdə idi. Artıq Nadirin qarşısında dura biləcək hüquqi bir kimsə yox idi. Oyunun sonrakı gedişini İngiltərənin Peterturqdakı elçisi ***K.Rondo*** dolğunluqla yazıya almışdır. Öz naziri ***Lord Harrinqtona*** yaxın günlərdə buraya İrandan yeni elçi gələcəyini bildirən Rondo yazırdı: «Mənə gizli bildirilmişdir ki, guya o, Təhmasqulu xanın şahlıq titulu qəbul etdiyini bildirmək üçün gəlir. Həm də mən eşitdiyimə görə, belə bir işə qərar verməzdən öncə o (Təhmasqulu xan – *red.*), bir çox adlı-sanlı adamları toplayaraq, indiki Sofunun (II Təhmasibin – *red.*) işə yaramadığını, onun içki düşkünü olduğunu onlara bildirmiş, onun oğluna da az ümid bəslədiyini söyləmişdir; sonra demişdir ki, hamıya bəlli olan bir gerçəklik var, İranın keçmiş şan-şöhrətini o bərpa etmişdir. Ara-çəkişmələri illərində türklərin və rusların İranın əlindən aldığı torpaqları ona o qaytarmışdır. İndi dövləti qazanılmış ucalıqda saxlamaq üçün yeni şah seçmək gərəkdir. Deyin görək, sizin fikrinizcə, taxta çıxmağa ən çox kim layiqdir?»

Əsilzadə bir iranlı sualın qoyuluşundan ürəklənib, bu məsələni İranın baş şəhəri İsfahanda həll etməyin münasib olduğunu söylədi. Ancaq ona baş qoşan olmadı. Qabaqcadan hazırlıq dərsi keçmiş qurultaya çağırılanların çoxu Nadir xanın əlaltısı idi. Onlar ağız-ağıza verib yalnız Nadirin taxta ən çox layiq olduğunu bildirdilər. ***Rondo*** yazır ki, onlara qarşı çıxanların hamısı oradaca qətlə yetirildi.



**YENİ ŞAH İDARƏÇİLİYİ.** Nadirin şah seçilməsini qanunsuz uzurpatorluq sayanların sırasında ***Qacar Ziyadoğlu*** soyundan olan ***Qarabağ-Gəncə*** bəylərbəyləri də vardı. İki yüz ilə yaxın irsən burada bəylərbəylik edən Ziyadoğulları, ***Səfəviləri*** qanuni şah kimi tanıyırdılar. Muğan qurultayında onlar Nadirin şahlığa keçməsinə qarşı çıxdılar. Onların hərbi siyasi çəkisi böyük idi. ***Xramçayı*** üstündəki **«Sınıx körpü» («Qırmızı körpü»)**-dən **Xudafərin** körpüsünə kimi uzanan torpaqlar Gəncə şəhəri ilə onların tabeliyində idi. Nadir şah, Ziyad oğullarına qarşı açıq cəza tədbiri keçirməkdən çəkinsə də, onların gücünü, gəlir və qazanc mənbələrini sarsıtmağa çalışdı. O, ***Qazax*** və ***Borçalı*** əhalisini ***Gürcüstan*** valisinin tabeliyinə verdi, Qarabağ-Gəncə bəylərbəylərinin arxası olan ***Cavanşir, Otuziki, Kəbirli*** mahallarının əhalisini ***Xorasana*** sürgün etdi. ***Qarabağın erməni (Vərəndə, Crabert, Gülüstan, Dizak və Xaçın)*** məliklərini bəylərbəylik tabeliyindən çıxarıb birbaşa şah idarəçiliyinə qoşdu. ***Mirzə Adıgözəl*** bəyin sözlərilə desək: «Beləliklə, Gəncə xanları tamamilə öz hüquq və səlahiyyətlərindən məhrum oldular, hakimiyyətin cilovu onların əlindən düşdü və onlar qanadı sınmış quş vəziyyətində qaldılar».

Nadir şah ***Şirvan, Qarabağ, Təbriz*** və ***Çuxur Sə'd*** bəylərbəyliklərinin hüquq və üstünlüklərini kiçildib yoxa endirmək üçün onları qardaşı ***İbrahim xanın*** hökmü altına verdi. Bununla bütün Azərbaycanın idarəsi bir adamın əlində toplanmış oldu, bəylərbəyilərin hakimiyyəti sarsıdıldı. Bununla kifayətlənməyib Ermənistan, Gürcüstan və Dağıstan idarəsini də İbrahim xana verdi. Bir sözlə, «... mülki işlərdə yeni təyinlər etdi, öz qardaşı İbrahim xanı, Qaplankuh hüdudundan başlayaraq Arpa çayına, Dağıstan və Gürcüstanın axırına qədər hökmran təyin etdi. Bu vilayətlərin bütün hakimlərini və əmirlərini onun ixtiyarına verdi» (A.Bakıxanov).

Bununla yanaşı, əski bəylərbəyliklərində, onların baş şəhərlərində «üçlük» təsisatı yarandı. Bunlardan birincisi «***mirzə vəkil***» adlanırdı, o biri iki məmurdan yüksəkdə dayanır, onlara əmr edə bilirdi. Bütün gəlir və çıxar hesabları onun göstərişi ilə aparılırdı. İkinci məmur vəzir idi, əyalətin bütün gəlir və çıxar dəftərini aparırdı. ***Mustofi*** isə gəlir və çıxar dəftərlərini saxlayır, kəndlərin vergi siyahılarına salınmasına, bəy mülklərinin paylanmasına nəzarət edirdi. Nadir şah vergi işinə böyük qısqanclıqla yanaşırdı, çünki xəzinəni dirçəltməklə yeni torpaqlar tutmağa yönəltmək istəyirdi. Hindistana yürüşə hazırlaşması da bununla bağlı idi.

**TÜRK-İSLAM DÜNYASINDA DƏRİNLƏŞƏN AYRILIĞA NADİRİN SON QOYMAQ İSTƏMƏSİ.** İran dövlətçiliyində Afşar oğulları ilə türklərin hakim yer tutması qırılmadan davam etdi. «Ari» ölkənin üst qurumlarını yaşadanlar yenə türklər oldu. Ancaq sosial və siyasi-hərbi baxımdan bütünlüklə türk toplusunun əlində olan bu dövlət, qalan türk-islam dünyasına

getdikcə yağı kəsilməkdə idi. Təkcə Osmanlı sultanlığı ilə deyil, Hindistanda Böyük Moğol (Baburlu) və Özbək dövlətləri ilə də savaş kəsilmirdi.

Nadirin Muğan qurultayında tutduğu işlərdən biri türk dünyası üçün çox dəyərli idi. O, türk xalqları arasında ədavəti aradan qaldırmağa çalışdı. İran və Azərbaycan ülamələrinin «ittifaqı ilə» xalq qarşısında şərif (din) işlərinin qydaya salınması, şiə və sünni məzhəbləri arasındakı qarşıdurmaya son qoyulması barədə qərar çıxardı.

Çar Pyotrun göstərişi üzrə «Rusiya nüfuzunu Asiyada qaldırmaq üçün sünni-şiə ixtilaflarının yaxşı bir vasitə» sayılması bu islahatın nə qədər aktual olduğunu aydın göstərirdi.

Muğan qurultayından İstanbula ayrıca bir elçilik göndərildi. Şiəlikdən dönüb imam Cəfər məzhəbinə keçmək barədə qərarın mətni Osmanlı dövlətinə verildi. Nadir, imam ***Cəfər Sadıq*** məzhəbinin bütün əhli sünnət üçün beşinci məzhəb (rüknü) kimi tanınmasını istəyirdi. Osmanlı hökuməti təklifi ülamələr yığıncağına verdisə də, qəbul edilmədi. Nadir acığını Bağdad və Qars üzərinə yürüş keçirməklə soyutdu.

1743-cü ildə Nadir şiələrin müqəddəs şəhəri Nəcəfdə daha bir qurultay topladı. Bir sıra ölkələrin (Əfqan, Bəlx, Buxara, Turan, Hillə və Bağdad) üləməsi buraya çağırıldı. İranın, Haqq məzhəbələrindən olan Cəfəri məzhəbinə keçməsi, Osmanlı ülamə yığıncağında onun beşinci məzhəb kimi tanınması barədə qərar çıxarıldı. Qərarı təsdiq etdirmək üçün Bağdaddan yeni elçilik göndərildi. O da uğur qazanmadı. Osmanlı üləması beşinci məzhəbin tanınmasını şə'ri qanunlara uyğun saymırdı. Bundan sonra Nadir ordu ilə Qars üzərinə özü yürüş edib ***Yegən Məhəmməd*** paşanı əzdi. 1746-cı ildə Nadir ilə ***IV Murad*** arasında yeni andlaşma imzalandı (1639-cu il Qəsri Şirin müqaviləsi üzərində). Amma İran ilə Osmanlı dövləti arasında düşmənçilik 1735-ci il Gəncə bağlaşmasına, yəni Rusiyanın siyasətinə uyğun olaraq, bununla da yox edilmədi. Tarixə mal olub əsrdən əsrə keçdi. Nadirin din islahatı təkcə Azərbaycanın deyil, bütün İranın gələcəyi üçün böyük rol oynaya bilərdi. Ancaq tarixin verdiyi şans itirilmiş oldu.

Abbasqulu ağa təəssüflə yazır: «Lakin bu məsələ dəfələrlə Osmanlı dərgahına təqdim edilsə də, qəbul olunmadı».

## 5. AZƏRBAYCANDA XALQ AZADLIQ HƏRƏKATI. ŞƏKİ XANLIĞININ YARANMASI

**ŞAH SEÇİMİ XALQA NƏ VERDİ?** İlk öncə Nadir şahın ağalığı xalqın istismarını dözülməz ölçüyə çatdırdı. Şah qoşunlarının, yeni qoyulan hakimlərin, məmurların özbaşınalığı və zülmü istər kənd yerlərində, istərsə



də şəhərlərdə əkin-biçin işlərinə, sənətkarlığa və ticarətə böyük zərbə vurdu. Qıtlıq və aclıq hər yeri bürüdü. Görünməmiş bahalıq yarandı. ***Ordubada*** yaxın olan ***Vənənd*** məscidinin qapı tağında farsca həkk olunmuş (1732-1733) bir yazıda bildirilir: «Görünməmiş bərəkətsizlik və qıtlıq üz vermişdir, buğdanın hər mannı* 400 dinara, düyü 800 dinara, yağ 2800 dinara, bal 3200 dinara, üzüm şirəsi (doşab) 2400 dinara, pendir 1600 dinara... satılırdı... Aclıqdan, bədbəxt zəmanənin saysız ehtiyaclarından doğan sıxıntılar üzündən xalis cəhənnəm yaranmışdır: bir il içində Vənənd kəndi və onun qonşuları üç dəfə basqın və soyğunlara düçar olmuşdu...»

Nadirin tacqoyma mərasiminə gələn erməni katolikosu ***Abram Kretasinin*** yazdığına görə Muğanda, bütün Təbriz vilayətində, ***Duzax***, Gəncə, Qazax, ***Qapan***, Naxçıvan və İrəvanda taxıl çatışmırdı. Bu katolikos «vəlinemətin» (Nadir şahın) qarşısında «Naxçıvan ölkəsinin» hakimi ***Mirzə Rzanın*** min tüməndən artıq vergi qoparmasından, yerli hakimin acgözlüyündən şikayət etmişdi. Nadir oradaca öz mübaşirinə artıq toplanmış pulların geri alınması barədə əmr vermişdi.

Nadir zülmünün ağır göstəricilərindən biri yerli əhalinin güc ilə öz yurdundan uzaq ölkələrə köçürülməsi idi. Vergilərdən boyun qaçırılması, dikbaşlıq, üsyan üstündə şah belə cəza hökmü çıxarırdı. «Şah seçkisi» keçirilən il ***Mərv*** şəhərinin veziri ***Məhəmməd Kazım*** («Name-yi aləm arayi-Nadiri» kitabının müəllifi) Nadirin buyruğu ilə Güney Azərbaycanın ***Marağa*** dairəsində belə bir iş tutdu. ***Otuziki*** boyunun ***Xəlilvənd*** qolu buradan altı ay içərisində zorla ***Xorasana*** köçürüldü. 20-ci illərdə Rusiya təbəəliyinə keçmiş olan ***Muğan şahsevənləri*** də eyni amansızlıqla Xorasana köçürüldü. Xorasanda ticarət və sənətkarlığı yüksəltmək məqsədilə 1736-1746-cı illərdə oraya Azərbaycan şəhərlərindən çoxlu ailələr köçürüldü. Bu, yerli alış-veriş və ticarət işlərini geriyə atdı.

Bununla yanaşı, Azərbaycana başqa ölkələrdən adamlar köçürülüb gətirildi. Salyan balıq vətəgələrində işləmək üçün Hindistanın Çaraca bölgəsindən türkləşmiş ***Seyidlər*** toplumu buraya sürgün edilmişdi. «Seyidlər», «Seyidqulu» kimi kənd adları orada, görünür, adı çəkilən sürgünlə bağlı yaranmışdır.

Bəzən isə köçürülmə tədbiri əsgəri qulluq ilə uzlaşırdı. Kür üzərində yaşayan ***Sorsor*** boyları Şirvanın quzeyinə (ayrıca Dərbənd ilə Quba arasına) buradakı üsyan və çıxışları yatırtmaq üçün köçürülmüşdülər. «Şah seçkisi»ndən sonra Dərbənddə Şirvan hakimi ***Mehdiqulu xan*** öldürülmüş, cana gəlmiş əhali ayağa qalxmışdı. Rusiya konsulu ***İ.Kaluşkin*** 1736-cı ildə bu barədə öz hökumətinə yazmışdır: «... ölkədəki rahatsızlıq

* Mann, batman – çəki ölçüsü, ayrı-ayrı şəhərlərdə eyni deyildi. Ən çox yayılmış Təbriz manı 3 kiloya, Naxçıvan manı 13 kiloya bərabər idi.

ayrı-seçki qoymadan hamını iynəsinə qədər yağma edən hərbçilərin soyğunçuluğu üzündədir... Dərbənddə də məhz belə olmuş, əhali Şamaxı bəylərbəyinin oraya yeni gəlişinə dözməyib nəinki ona tabe olmaq istəməmiş, hətta onu böyük şərəfsizliklə küçələrdə sürükləyərək döyüb öldürmüşdür. Dərbənd komandanı ***[Ustaclu sultanın]*** hakimiyyətindən də boyun qaçırmışdır». Bu qiyamla bağlı Nadir şah bir yandan döyüşkən Sorsorları bu bölgələrə köçürdü (Sorsor, Sursur, Sarsar, Sur kimi kənd adları buradandır), o biri yandan yüz dərbəndli ailəsini silah gücünə Xorasana, bir qismini isə Yeni Şamaxıya sürgün etdi. ***Sərdar bəy Qırxlını*** xan ləqəbi ilə Şirvana, ***Nəcəf xan Qaraçorlunu*** Dərbəndə hakim qoydu.

**1738-ci İL CAR ÜSYANI.** ***Car*** vilayətində və ***Talıda*** dağlıların çoxlu əsgər toplaması, Şəki yaxınlığındakı İran səngərləri üzərinə onların tez-tez basqın etməsi Nadirin qardaşı İbrahim xanı hövsələdən çıxardı. O, 30 minlik ordu ilə Qarabağ, Şirvan, Şəki bölgələrindən keçib Car üzərinə gəldi. Qax kəndi və ***Ağbürc*** qalası qarşısında ordunu səngərlərə yerləşdirdi.

Şəkidən, Tabasaran, ***Xınalıq*** və ***Axtıparadan*** carlıların köməyinə minlərlə döyüşçü axışıb gəldi. İbrahim xan öz düşərgəsini buraxıb bir həmlə ilə üsyançıları əzmək istədi. Ancaq üsyançılar onun qoşunlarını ***Cənik dağının*** çətin keçidlərində mühasirəyə alıb məhv etdilər. Qoşunların arxasında gedən İbrahim xan (onu yalnız inanılmış xorasanlılar müşayiət edirdilər) özü də burada idi. Üsyançıların başçısı ***Divanə İbrahimin*** gülləsi onu atdan yerə sərdi. ***Məhəmməd Kazımın*** yazısına görə, Gəncə bəylərbəyisi Uğurlu xan özünü yaralı İbrahim xana yetirdi, yaxınlıqda olan qardaşını səsləyib söylədi: «Çıxar onu bu məhşərin içindən, allah eləməsin, başına bir iş gəlsə, bütün Azərbaycan məmləkəti günü sabah Nadirin qəzəbinin qurbanı olub oda yaxılacaqdır». Ancaq ikinci güllə İbrahim xan üçün ölümcül oldu. Uğurlu xan da öldürüldü.

Rus qaynaqlarına görə, 30 minlik İran ordusundan yalnız 7-8 min döyüşçü qurtula bildi. Divanə İbrahim onu Araz çayına kimi qovdu. 12 adlısanlı qoşun başçısı, o cümlədən Qarabağ və İrəvan bəylərbəyləri, ***Soucbulaq*** və Muğan sultanları, gürcü mouravi və onun Qazax vəkili öldürüldü. İran ordusunun 30 topu bütünlüklə üsyançıların əlinə keçdi. K.Rondo Peterburqdan öz hökumətinə yazırdı: «Bütün bunlar doğru isə, Nadir şahın evdə işi çox olacaq və rus sarayının gözləməsinə baxmayaraq, onun türklər ilə savaşa girməsi çətin olacaq».

**NADİRİN AZƏRBAYCANA YENİ YÜRÜŞÜ.** Hindistanı fəth etdikdən sonra Nadir şah Əfqanıstanda idi. Güney Qafqazdan aldığı ağır xəbər onu sarsıtdı. Əvvəlcə ***Abdallı Qəni xanı*** Türküstan yürüşündən azad edib böyük qoşunla buraya göndərdi. 15 minlik Xorasan qoşunu ilə ***Kosaəhmədli Fətəli xanı*** və Azərbaycanın yeni sərdarı ***Qırxlı Məhəmmədəli xanı***, bir də Gürcüstan hakimlərini ona qoşdu. Şah qoşunları 1741-ci ilin fevral ayında Qanıx çayını keçib üsyançıların Car, ***Kavıx*** və ***Ağzıbirdə*** qurduqları səngərlərə basqın etdilər. Bir neçə günlük ağır döyüşlərdən sonra üsyançılar pozulub qırğına düşdülər. Bir çoxları özlərini dağdan atıb əzildi, qalanları qılıncdan keçirildi və ya əsir alındı. «Onların bütün yurdları və məskənləri talan və təxrib edildi» (A.Bakıxanov).

Orta Asiya yürüşünü birtəhər başa vurduqdan sonra Nadir şah Azərbaycan və Dağıstan işlərinə qoşulmaq imkanını əldə etdi. O, 1741-ci ilin yazqabağı sayı yüz minə çatan bir ordu ilə yürüşə çıxdı. Bu, Hindistan və Orta Asiyanın uzun, üzücü yollarında yorulub əldən düşmüş bir ordu idi.

Mazandaranda ***Övlad*** qalası yaxınlığında ağac dalından ona güllə atdılar. Yoxlama bu sui-qəsddə şübhələri şahın böyük oğlu ***Rzaqulu Mirzəyə*** (İranda naib idi) aparıb çıxardı. Abbasqulu Ağa yazır: «Nadir şah atalıq şəfqətini tapdalayıb şahzadəni kor etdirdi və özünün dövlət çırağını söndürdü». 1742-ci il yayın başlanğıcında o, üsyançıların arxasına keçmək üçün Şamaxıdan ***Heydər bəy Əfşarın*** başçılığı altında 10 min əsgər göndərdi. Özü isə 35 minlik ordu ilə Bərdə, Qəbələ və Şahdağdan keçib Qazıqumuğa yollandı. İyul ayını bütünlüklə burada keçirib itaətə gələn Dağıstan feodallarından Surxay xanı, üsmi ***Əhməd xanı*** və başqalarını xələt, at, qızıl bəxşişlərlə öz tərəfinə çəkmək istədi. Surxay xanı «köç-külfəti» ilə yanına alıb üsyançılar üzərinə getdi. Ancaq ***Avarıstanda Çox*** kəndi yaxınlığında bu ordu da uğur qazanmayıb əzildi. Bu döyüş Nadirin məğlubedilməzliyi haqqında nağıllara son qoydu.

**I SAM MİRZƏ ÜSYANI.** 1743-cü ilin ilk aylarında Muğana geri çəkilən İran ordusu çox ağır günlər keçirirdi. P.Butkova görə, ərzaq, ot-ələf çatışmazlığı üzündən ordu böyük aclıq çəkirdi, işbaz adamlar ölənlərin ətindən «qatlama» (mətndə belədir – *red.*) bişirib satırdılar; aclıq üzündən ölüb qırılan əsgərlərin və döyüş heyvanlarının çoxluğundan Samur çayı ilə Şabran arasındakı 55 verstlik yol meyit və leşlər ilə dolu idi. Şah və onun ordusu acıqlarını yerli sakinlərdən çıxırdı. Vergilərin toplanmasında yol verilən amansızlıq xalqı ayağa qaldırmışdı. Nadirin gözdən düşməsi ona nifrət edənlərin və ona qarşı çıxanların sayını birə-on artırmışdı. Belə çıxışlardan birinə özünü şah Hüseynin oğlu ***Sam Mirzə*** adlandıran birisi başçılıq etdi. Guya o, İsfahanın əfqan mühasirəsi günlərində buradan Təbrizə, sonra isə Gürcüstan və Krıma qaçıb gizlənmişdi. Nadirin sonuncu uğursuzluğunu eşitdikdə o, Avarıstanda göründü. Tezliklə onun başına 20 minə kimi silahlı adam toplaşdı. Qazıqumuq hakimi Surxay xan da ona qoşularaq, Nadirə qarşı yenidən vuruşmaq əzmində olduğunu bildirdi. Nəhayət

Dərbənd və Şirvanda olan qoşunlar üsyana qalxdılar, onunla birlikdə Yeni Şamaxını azad etməyə hazır olduqlarını bildirdilər.

Sam Mirzə müttəfiqi Surxay xanla Yeni Şamaxını ələ keçirdi. Yerli əhali onu rəğbətlə qarşılayıb yardımçı oldu. Sam Mirzənin ilk tədbirlərindən biri şəhəri Nadir şah tərəfindən qoyulan ağır vergilərdən azad etməsi oldu.

Üsyanın başqa bölgələrə yayıla bilməsi Nadiri qorxuya saldı. O, Gəncə, Qarabağ, Muğan, ***Çuxur Sə'd, Əhər*** və ***Qarabağ*** kimi bölgələrin hər birinə on-on iki minlik ordu göndərdi. Sam Mirzəni isə oğlu ***Nəsrulla Mirzəyə*** tapşırıb, ona gecikmədən Şamaxı üzərinə yürüməyi əmr etdi. Şirvan düzündə olan döyüşdə şahın nizami qoşunu üsyançıları əzib dağıtdı. Qaçmağa üz qoyan Sam Mirzə, atla birlikdə xəndəyə düşüb ələ keçdi və öldürüldü. Surxay xan yenidən dağlara sığındı.

«Sam Mirzə»nin (Şah İsmayıl Xətainin oğlanlarından biri də bu adı daşımışdır) ilkin uğurları, Səfəvi «şahzadə»sinin gəlişinə xalqın rəğbətlə yanaşması və ona yardımçı olması ölkədə sosial-siyasi çəkişmənin çox böyük ölçüdə kəskinləşməsi ilə bağlı idi. I Sam Mirzə üsyanı ilə Nadirə qarşı xalq çıxışlarının mərkəzi ocağı Dağıstandan Quzey Azərbaycana keçmiş oldu.

**II SAM MİRZƏ ÜSYANI.** 1743-cü ilin son dörd ayı içərisində Şirvanda xalq hərəkatının başçılığı bu adla çıxış edən ikinci bir yalançı şahzadəyə keçdi. Əslində isə tarixi qaynaqlarda onun qara camaat, aşağı zümrə içindən çıxması bildirilməkdədir. II Sam Mirzə əvvəlcə Ərdəbilə gedib ***Darülirşadı*** – «babalarının» türbəsini ziyarət etdi. Özünü Səfəvi evinin qanuni varisi kimi «tanıtdıqdan» sonra müqavimət mərkəzi Şirvana gəldi. Ancaq onun kimliyi hələ çoxlarına bəlli deyildi. Başına bir kimsə toplaşmamışdı. Nadirin öldürülən qardaşının oğlu ***İbrahim xan Afşar*** (atasının adını daşımaqla yanaşı həm də onun yerini tutaraq Azərbaycana hakim qoyulmuşdu) asanlıqla onu ələ keçirdi, qılıncla «burnunu siyirib» buraxdı. Bundan sonra «***Burnukəsik***» ləqəbi alan Sam Mirzə Dağıstana üz tutdu. Orada Surxay xanın oğlu Məhəmməd ilə yaxınlaşaraq özünə əsgər toplaya bildi.

Sam Mirzə Azərbaycan, Quzey İran və Dağıstan bölgələrinə məktublar göndərərək, bir qanuni varis kimi Səfəvi taxt-tacını Nadirdən geri almaq istədiyini bildirdi. Hanveyə görə, tezliklə onun başına 16 min adam toplandı.

İlk öncə Dərbənd şəhəri ayağa qalxıb ona tərəf durdu. Şəhər reislərindən ***Xurşud bəy*** və ***Səfi bəy*** Sam Mirzənin məktubuna cavab olaraq onu Dərbəndə çağırdılar. Dərbənd sultanı Məhəmməd Əli qiyamın üstünü açıb Xurşud bəyin və onun tabeliyində olan yüz adamın boynunu vurdur-



du, yüz əlli adamın gözləri çıxarıldı. Dərbəndin itirilməsinə yol verməmək üçün Nadir şah Şirvan hakimi ***Heydər xana*** durmadan oraya getmək əmri verdi. Bu, çaşqınlıq içində olan Nadirin böyük yanlışlığı idi. Şabranın quzeyində Heydər xana yetən Şirvan üsyançıları onun qoşununu dağıdıb özünü də öldürdülər.

Şirvan üsyançıları buradan baş inzibati şəhər Yeni Şamaxıya döndülər. Onu tutduqdan sonra II Sam Mirzəni şəhərə çağırıb üsyan başçılığını ona verdilər. O da Nadirin şəhər əhalisi üzərinə qoyduğu vergiləri bir gün gecikdirmədən ləğv etdi.

Artıq Ağsudan (Yeni Şamaxı) Dərbəndə kimi torpaqlar üsyançıların əlində idi. Yeni Şamaxıdan sonra Dərbəndə bitişik olan ***Kəbir*** qalası üsyan etdi. Muğanlılardan olan əsgərlər burada şahdan üz döndərərək Afşar döyüşçülərini bütünlüklə qırdılar. Dərbənd sultanı Məhəmmədəli bu dəfə də üsyanı boğdu. Üsyan etmiş Muğan döyüşçülərinin bir çoxu qırıldı, yüzlərcəsinin gözləri çıxarıldı. Üç il sonra burada olmuş həkim ***İohan Lerx*** bu barədə yazmışdı: «Dərbəndin hər yerində gözləri çıxarılmış dilənçilər gözə dəyir. Üç il bundan qabaq sultan Məhəmmədəli xan şahın əmri ilə 500-dən çox iranlının (Muğan azərilərinin – *red.*) gözləri çıxarılmış və ya qatlama bıçaqla çərtilmişdi, çünki onlar dağlardakı tatarlara (üsyançılara – *red.*) qoşulmaq istəyirdilər». Xalqı sarsıtmaq üçün Muğana 14 man (42 kq) ağırlığında çıxarılmış göz göndərildi. Belə amansız cəza buyruqları Yeni Şamaxıda da geniş tətbiq olundu. Adı çəkilən İohan Lerx burada da «gözləri çıxarılmış, burun və qulaqları kəsilmiş çoxlu cavan və qoca dilənçilər» görmüşdü.

Bütün bunlara baxmayaraq Nadir şah Dərbənddən arxayın ola bilmirdi. O, Təbriz və Gəncə hakimlərinin başçılığı altında buraya yeni qoşun göndərdi. II Sam Mirzə Dərbənd əhalisinin köməyinə yetişdi. İran qoşunu məğlub edilib geriyə oturduldu.

Bu uğur ilə Quzey Azərbaycanın idarəsi II Sam Mirzənin əlinə keçdi. «Car savaşlarının salnaməsi» adlı qaynaqda yazılmışdır: «Bu zaman bəzi vilayətlər, adbaad desək, Şirvan, Şamaxı və Şəki şah Təhmas... hökmündən çıxdılar. Şirvanın və bütün Arranın nümayəndələri, bir də Surxay xan oğlu ilə onlara başçı olmağı ona (II Sam Mirzəyə – *red.*) təklif etdilər». Rusiya xarici siyasət arxivindəki qaynaqlardan birində deyilir ki, Sam Mirzə İran şahlarının adəti üzrə başına tac yerinə lələk taxdı, o artıq bütün Şirvanı və geniş ***Qarabar*** (Qarabağ – *red.*) əyalətini... üstəlik Gəncəyə kimi [yerləri] tutub ələ keçirmişdir. Hər yerə öz adından hakim və qoşun başçıları göndərmiş, bir sözlə hər yerə buyruqlar yollayaraq bu əyalətlərdə hökmranlıq etməyə başlamışdır».

Nadir şah noyabr ayında oğlu ***Nəsrulla Mirzəyə*** fövqəladə səlahiyyət verib «bütün Azərbaycan ölkəsini yaxşıca qanun-qayda içində saxlamağı»

tapşırdı. Qohumu **Fətəli xanı** qoşunla Şirvan üzərinə göndərdi. Gəncə və Muğan hakimlərini qoşunları ilə onun ixtiyarına verdi. Ancaq Muğan çölündə baş verən ikinci döyüşdə də Sam Mirzə üstün gəldi.

Şirvan üsyançıları üzərinə üçüncü yürüşə **Nəsrulla Mirzə** özü başçılıq etdi. Ağsu yaxınlığında, **Şahdağı** deyilən yerdə II Sam Mirzə müttəfiq Surxay xanın oğlu Məhəmmədlə birlikdə şah ordusunu qarşılayıb döyüşdü. Şah toplarının işə salınması Sam Mirzənin atlı qoşununu pozub geriyə atdı. Sam Mirzə Gürcüstana, Məhəmməd isə Dağıstana qaçdı.

Şah ordusu Şirvan əhalisinə divan tutdu. **V.Bratiçev** yazır ki, üsyan və qiyamlara qoşulan şirvanlıları «amansızlıqla qırıb doğradılar». C.Hanvey bildirir: «Bu üsyan Şirvanın bütün vilayətlərinin dağıdılması ilə sona yetdi». Nadirin əmri ilə *öldürülənlərin başlarından* **Cavadda**, 13 il qabaq Nadirin şah seçkisi keçirildiyi yerdə və Ağsuda *piramida quruldu*. Hanvey Kürə yaxın yerdə 50 fut (15 m) ucalığında dəyirmi piramidanın bacalarına «Şamaxı üsyançılarından» iki yüz ikisinin başlarının qoyulduğunu gözləri ilə gördüyünü yazır. Dörd gün sürən talançılıqdan sonra Nəsrulla Mirzə Yeni Şamaxı üzərinə 400 min manatlıq təzminat qoydu.

**Əli Mirzə xan** adı ilə Nadirə qulluq edən Kaxet hakimi **Teymuraz** Sam Mirzəni hiylə ilə tutub Bərdədə Nəsrulla Mirzəyə verdi. Öncə gözləri çıxarıldı, sonra qətlə yetirildi. Göstərdiyi xidmət qarşısında Nadir Teymuraz xana Kaxet çarlığını verdi, *Kartlinin* ***Araqvi*** *vilayətini, Borçalı və Qazax torpaqlarını ona bağışladı.*

**ÜSYANIN TARİXDƏ ÖZÜMLÜ YERİ.** II Sam Mirzə üsyanı ilə Nadirə qarşı müqavimət hərəkatı yüksək nöqtəyə keçdi. Bu hərəkatın üç başlıca cəhəti var idi. *Birinci*: xalq hərəkatı Şirvan hüdudlarından kənara çıxaraq bütün quzey və güney bölgələri bürüdü. Rusiya arxivlərində saxlanmaqda olan qaynaqlar bunu açıqca göstərməkdədir. Rus qulluq adamı **V.Bratıçev** yazırdı: «Şirvanda dolaşmaqda olan yalançı Sam Mirzəyə gəldikdə isə o, böyük güc qazanmaqdadır və nəinki Şirvan ölkəsinin hərbi qulluqçularını, həm də başqa əyalətlərin adlı-sanlı adamlarını başına toplamağa çalışmaqda və Adırbaycan ölkəsinə şah vəliəhdi adı ilə byruq və bəyanatlar göndərərək İran xalqını öz təbəəliyinə səsləməkdədir». Həmin müəllif bu çağırışların xalq içində böyük bir çaxnaşma yaratdığını bildirir: «... Adırbaycan şəhər və kəndlərində yaşayanlar amansız Nadir şahın zülmkar davranışından bezdikləri üçün Sam Mirzəni ürəkdən İran taxtında görmək istəyir və səbirsizliklə onun İranın içərilərinə gəlməsini gözləyirlər. İmkan olan kimi heç bir dikbaşlıq göstərmədən ona qoşulmaq istəyir, onu keçmiş şahın yalançı olmayan davamçısı sayırlar... Bugünkü şahın (Nadirin – *red.*) dözülməz təqiblərindən cana doymuş ayrı-ayrı yerlərin, adbaad söyləmiş olsaq, Ərdəbil, Təbriz və Adırbaycanın başqa şəhər və kəndlərində



yaşayanların bir çoxu öz evlərini buraxıb, yubanmadan və həvəslə, imkan varsa özləri üçün at, silah, qılınc və başqa əsgər ləvazimatı alıb onun, Sam Mirzənin yanına axışır, onun yolunda səy göstərib canlarını verməyə hazır olduqlarını, onu İran taxtında görmək istədiklərini bildirirdilər».

*İkinci*. Bu hərəkat quzey və güney Azərbaycanı bürüyərək, şahlığın Səfəvi evinə qaytarılması məqsədini irəli sürmüş olsa da, şiəlik və sünnülük təəssübkeşliyindən uzaq idi. Nadir şaha qarşı çıxışlar əsl xalq hərəkatı axarına yüksəlmişdi. Buna görə təkcə Quzey Azərbaycanın deyil, Dağıstanın da sünnü əhalisi dünənə kimi barışılmaz Səfəvi-şiə soyunun şahlığa qaytarılması yolunda silaha qurşanmışdı.

*Üçüncü*. Bu üsyan, Hacı Davud və Surxay xanın ortaya gəlməsindən bəri bütün çıxışlardan fərqli olaraq, xarici dövlətlərin, Rusiya və Osmanlı iperatorluqlarının siyasəti ilə bağlı deyildi və bu siyasətin nə yaxın, nə də uzaq məramına qulluq edirdi.

**SƏFİ MİRZƏNİN ÜSYAN OYUNU.** 1744-cü ilin başlanğıcı Nadir üçün yeni qayğılar gətirdi. **Səfi Mirzə** adı altında üçüncü Səfəvi «şahzadəsi» ortaya çıxdı.

1729-cu ildə İsfahanda əfqanların əlində dustaq olan **Şah Hüseyn** böyük oğlu **Səfi Mirzə** ilə birlikdə buradan qaçıb gizlənmişdi. II Sam Mirzə yox edilən kimi «şah oğlu» Səfi Mirzənin qoşun ilə Azərbaycana gəlməsi haqda xəbər yayıldı. Bəzi İran tarixçiləri onun **Rəfsancanlı** (Kirman vilayəti), **B.Dorn** isə qubalı olduğunu yazırlar. Türkiyə dövlət yazışmalarında isə o, «Səfəvi şahzadələrindən biri» kimi yad edilir. Hər halda kimliyindən asılı olmayaraq, Səfi Mirzə adlandırılan bu adam ömrünün son on ilini Osmanlı dövlətində, sultan sarayının himayəsində yaşamışdı.

1743-1744-cü ilin qışında Səfi Mirzə 29 minlik Osmanlı qoşunu ilə **Qarsa** gəldi. **I Sultan Mahmud** «İranın bütün vilayətlərinə, xüsusən sərhəd hakimlərinə»: üsmi **Əhməd xana**, Surxay xan oğlu Məhəmmədə, Tabasaran, Şirvan və Dərbəndin adlı-sanlı qulluq adamlarına ayrıca bir fərman yazdı. Fərmanda Nadir şahdan üz çevirib Səfi Mirzəyə sədaqətlə qoşulmaq əmr edilirdi. **Şərqi Anadoluda** Səfi Mirzənin «işlərinin yoluna qoyulması» Ərzurum və **Çıldır** paşalarına tapşırılırdı. Sultan hökuməti Səfi Mirzənin çıxışına, görünür, çox ümid bəsləyirdi. Fərmanda deyilirdi: «Adı çəkilən şahzadə öz əcdadlarının oğurlanmış taxtına çıxıb oturarkən, qabaqlar dövlətimizin tərkibində olan Şamaxı, Şirvan, Gəncə, Tiflis və İrəvan vilayətlərini güzəşt edəcək, dağıstanlı qəhrəman və igidlər öz istifadələrinə yetəcək sayda əyalətlər alaraq, dövlətimizin yüksək kölgəsi altında xeyirxahlıq görüb ləzzətlə yaşayacaqlar...»*

* Tutarlı qaynaqlardan biri olan bu fərman rus çapı üzrə verilir: Aktı, sobrannıe Kavkazskoy Arxeoqrafiçeskoy komissiey, II t., s. 1081-1082.

Nadir üçün qorxu yalnız Osmanlı dövlətinin köməyində deyildi. Şirvan üsyançılarının qalıqları, qaçqın kəndlilər, bəzi yarımköçəri tayfa başçıları, arası kəsilməyən savaşlardan bezmiş, aylıq almayan İran əsgərləri Səfi Mirzənin yanına axışmaqda idilər. İş o yerə çatmışdı ki, Qaytaq üsmisi Əhməd xan, sultan fərmanını alan kimi, yığcam bir qoşunla çıxıb Qarsa gəlmişdi.

Bu dəfə Nadir şah çevik bir davranışla Qarsı üzük qaşı kimi çevrəyə aldı. Türk komandanı güzəştə getməli olub barışığa gəldi. Səfi Mirzənin üsyan oyunu baş tutmadı.

**SONUNCU DALĞA. ŞƏKİ XANLIĞININ YARANMASI.** Nadir şahın zülmü göylərə çıxırdı. Amma onun süqut hökmünü də göylər vermişdi. Çünki arası kəsilməyən üsyanların yeni ocaqları yarandıqca, bu şah kütlələri daha çox var-yoxdan çıxarıb soyur, daha çox zülmlər edir, bu sonuncular isə yeni, lakin daha güclü üsyan dalğaları yaradırdı. Vergi və mükəlləfiyyətlərin ağırlığı birəmin, bəzən ondan da çox artmışdı. Xoy və Salmas mahalları buna örnək sayıla bilər. Vergi və mükəlləfiyyətin 3 min yerinə 100 min tümənə kimi çoxalması bu mahallarda da üsyan doğurdu. Şah qoşunu üsyanı amansızlıqla yatırdı.

Şirvan və Dağıstan üsyanlarının şah hökmranlığına vurduğu yaralar qaysaq bağlamamış, Şəki vilayətində üsyan qalxdı. Bu, Nadirə qarşı arasıkəsilməyən çıxışların ən böyük, sarsıdıcı bir dalğası oldu.

Nadir Şəki vilayətinə Nəcəf adlı dövlət qulluqçusunu məlik qoymuşdu. Şah adından hakimlik edən məlik Nəcəf amansız davranışı, özbaşınalığı ilə seçilirdi. Vergi yığımı qanunsuz olaraq ilbəil artırdı. Artıqca da bir yarısını məlik özünə götürürdü. Məlik bir kimsənin ləyaqətini saya almırdı.

Şəkililər öz aralarından elçilər ayırıb şaha belə bir diləkçə yazdılar: «Qızılbaş məlik Nəcəf bizi çox incidir; vergilər qoyulanda o, qızılbaş əhaliyə nisbətən bizim üzərimizə daha çox vergi qoyur. O, bizi var-yoxdan çıxarmışdır».

Bütün Quzey Azərbaycan çox kəskin bir vəziyyətə düşmüşdü. Şirvan bir yana dursun, Qarabağ ayağa qalxmışdı. Əvvəlcə şahın qulluğunda olan ***Pənah Əli xan Cavanşir*** 1738-ci ildə ondan üz döndərib Qarabağın müstəqilliyi uğrunda mübarizəyə başlamışdı. Buna görə Nadir şah şəkililərin diləkçəsini rədd etməyib öz idarəçiliyində dəyişiklik etdi. Onun yanına elçi kimi gələn ***Hacı Çələbi Qurban oğlunu*** məlik Nəcəfin mahal hökumət idarəsində vəkil qoydu. Şahın buyruğu üzrə məlik, Hacı Çələbi vəkilin razılığı olmadan, mahal əhalisi üzərinə vergi qoya bilməzdi. Bu 1741-ci ilin sonu idi.

Hacı Çələbi adlı-sanlı, əsilzadə bir kişi idi. Onun soy ağacı yüzillərin dərinliyinə gedir. Dərviş Məhəmməd xan onun ulu babalarından idi. Bütün Şəki bölgəsində ondan varlı və güclü bir adam yox idi.



Xalq, bəylər və ruhanilər arasında nüfuz qazanmış olan Hacı Çələbi, məlik Nəcəfin bütün işlərinə qarışmağa başladı. «Şəki ikihakimiyyətliyi» əslində şah idarəçiliyinin pozulması demək idi. ***Kərim Ağa Fatehin*** yazmasına görə, əl-qolu bağlanmış məlik Nəcəf şaha yazıb bildirdi: «Çələbi məni qoymur ki, şahın qulluğun rəiyyətə buyuram. Şahın qulluğun tutmurlar. Nə özü qulaq asır, nə xalqı qoyur». Özündən çıxan Nadir vəkil Çələbiyə məlik Nəcəf ilə Dərbənd yaxınlığındakı düşərgəsinə gəlməyi əmr etdi. O, vəkilin üstünə çığırıb onun asılmasına hökm verdi. Kəndir ilgəyini onun boğazına keçirdilər. Hacı Çələbi ər kimi durdu. Hamının nifrətini qazanmış məlik Nəcəfin yaramaz işlərini sadalayıb bildirdi ki, şahın buyruğunu alan kimi məlik ona özündən artım edir və şah adından yerinə yetirilməsini xalqın üzərinə qoyur. Sözlərinə sonluq verib belə qurtardı: «... Şahdan bir qulluq gəlsə, məlik dörd-beş qulluq da onun üstünə qoyub rəiyyətə həvalə eylər. Mən deyirəm ki, şah məni vəkil edibdir. Qoymaram ki, şahın rəiyyətini əbəs yerə xərab eləyəsən. Məlik bu səbəbdən xilaf yerə ərz eylər. Rəiyyət padşahın ixtiyarındadır».

Şah vəkilin sözünə inanmaya bilmədi. Bu dəfə də qızıb öz məliyinin üstünə qışqırdı. Çələbini isə bağışlayıb vəkillik səlahiyyətini artırdı. Görünür, vəkilin mərd davranışı onun düşüncəsində dərin iz buraxmışdı. Şəki xanlarının yığcam tarixinin müəllifi ***Kərim Ağa Fatehə*** görə, şah öz yaxın qulluqçularına demişdi: «Mənim hüzurumda bir kimsənin həddi yoxdur ki, nəfəs çəkə. Şəkili Çələbi nə cürət sahibi imiş ki, boğazında kəndir cürət eləyib bu ərzləri mənə elədi. Heç sözün yanılmadı. Əlbəttə, bundan bir xəta əmələ gələcək. Mənim zənnim xəta olmaz».

Şirvan və Dağıstan döyüşlərinin İran ordusuna çox baha başa gəlməsi, o biri yandan şahın Türkiyə ilə savaşa hazırlaşması şəkililərin çıxış etməsini asanlaşdırdı. Şah görüşündən sonra məlikilə vəkil arasında çəkişmə son həddə çatdı. Sonuncu, məliyin davranışını addımbaşı izləyirdi. Məlik isə ondan şaha yeni-yeni «pis sözlər» yazırdı. Şah, Çələbi üzərinə 100 tümən cərimə qoydu. Çələbi boyun qaçırdıqda, onun hüzuruna gəlməsini mər etdi. Bu, ikinci ölüm hökmü demək idi, ona görə Hacı Çələbi şahın bu əmrindən də boyun qaçırdı. Bir bölük etibarlı adamları, «böyüklər və yüzbaşıları» yığıb məlik Nəcəfin sarayına hücum etdi və onu öldürdü. O, Şəki vilayətini şah hökumətindən asılı olmayan bir xanlıq, özünü isə xan elan etdi.

**«GƏLƏSƏN - GÖRƏSƏN» MÜDAFİƏSİ.** Bununla Şəki üsyanı yeni nöqtəyə keçmiş oldu. Birbaşa Azərbaycan dövlətçiliyi uğrunda mübarizə başlandı. Kiş çayı üzərində meşəlik bir yerdə tikilmiş əski Gələsən-Görəsən qalası bu mübarizənin rəmzinə çevrildi. 1744-1746-cı illər boyu bu qala xalq müqavimət hərəkatının mərkəzi idi. Kərim Ağa Fateh yazır: «Üç

il Hacı Çələbi Şəki əhli ilə Gələsən-Görəsəndə oturub çox aclıq və tənglik çəkdi». Ancaq bu «oturub» sözcüyünün arxasında böyük işlər dururudu.

Hacı Çələbi tezliklə Nadir şahın ordusu ilə qarşılaşacağını, bu savaşın uzun çəkəcəyini yaxşı bilirdi. Ona görə əhalini qalaya köçürərkən ilk öncə hamıya ərzaq ehtiyatı yaratmağı buyurmuşdu.

Nadir şahın başı osmanlılar ilə Qars çəkişmələrinə qarışıq idi. 1744-cü ilin payızında o, 15 minlik ordu ilə Gələsən-Görəsən üzərinə yeridi. Bu, onun Azərbaycana dördüncü yürüşü idi. Yol dar dərələrdən keçdiyindən o, ordunun başlıca qüvvəsini artilleriya ilə birlikdə ***Daşbulaq*** kəndi yaxınlığında qoymuşdu. Döyüş bir neçə gün çəksə də, amansız oldu. Car-Balakən igidləri, dağıstanlılar köməyə gəldilər. Rusiya konsulxana qulluqçusu Bratiçevə görə şah qala müdafiəsilərinə «heç bir zərər yetirə bilməyib əliboş geri çəkilməyə məcbur oldu, çünki qalada olan şəkililər... ləzgilərlə birləşərək, dar keçidlər və meşə örtüyündən istifadə edərək arxadan iranlılara basqın etdilər, onları bir günə saldılar ki, hər biri müqavimət göstərməyin deyil, qaçıb qurtulmağın qayğısını çəkirdi...». İran ordusu 500-dən çox döyüşçü itirdi. Əyalət hakimlərindən ***Mirzə xan*** və bir sultan öldürülənlərin arasında idi.

Bərdəyə geri çəkilən şah burada nəfəs dərib Dərbəndə yollandı. Oğlu Nəsrulla Mirzəni isə Qəzvinə göndərib, əsgəri çağırış keçirməyi, üç min öküz və üç yüz min Təbriz batmanı un hazırlayıb Gilandan Dərbəndə göndərməyi tapşırdı. Bütün yolboyu şah ordusu Azərbaycan kəndlərini soyub taladı, «bütün ev heyvanlarını, davarları və inəkləri» kəndlilərin əlindən aldı. Dərbənd limanında un yükü ilə dayanan iki rus gəmisindən birinin yükünü almağı da əmr etdi.

1745-ci ilin fevralında Nadir ***Ərəşə*** dönüb yenidən Gələsən-Görəsən üstünə yürüş etdi. Ancaq yenə uğur qazana bilmədi. Qalanı aclıq halqasına salıb boğmaq fikri də boşa çıxdı. Təkcə qala deyil, Şəki şəhərinin özündə və ətraf kəndlərdə də şah ordusu böyük müqavimətlə üz-üzə gəldi. Car savaşları salnaməsi bu haqda yazır: «Təhmas ordunun bir bölüyünü Şəkiyə qarşı göndərdi, [çünki] öz başçısı nuxalı Hacı Çələbi və Şirvan ilə birlikdə onun itaətindən qopmuşdular. Burda ordu bir ay içərisində hər gün vuruşmalı olurdu. Bir gün Təhmas ordu ilə ***Göynük*** kəndinə gəldi, ancaq orada heç nə ələ keçirə bilmədi... yalnız Şəkini oda tutdu, bir neçə adam öldürdü, bir neçəsini əsir aldı və onların (yerlilərin – *red.*) əmlakının bir qismini taladı. Ancaq onlar (yerlilər – *red.*) aclıq çəksələr də, öz səngərlərini əllərində saxladılar. Bundan sonra [şah] öz ordusunun başında Muğana yollandı». Şəki tarixçisi ***Hacı Seyid Əbdülhəmid*** də, Nadirin «qədim Şəki şəhərinin» yandırılması barədə buyruq verdiyini bildirməkdədir.

Gələsən-Görəsən və bütün Şəki əhalisi üzərinə 5 ay çəkən 1745-ci il basqınları Nadir şah üçün rüsvayçılıqla boşa çıxdı. Qalanın qarşısında üç



min döyüşçü qoyub buradan çıxıb getdi. Quzey Azərbaycanı Nadir yalnız əsgər gücünə əlində saxlayırdı. Qubada üç minlik, Şamaxıda bir neçə min, Şabranda beş yüz əsgəri qüvvə yerləşdirmişdi.

1746-cı ilin martında üç ildən çox çəkən üzücü savaşdan sonra Hacı Çələbi xan Nadir şahın hakimiyyətini tanıdığını bildirdi. Hər iki tərəf çox qüvvə itirdiyindən şah da güzəştə getməli oldu. Ayrıca bir fərman ilə Hacı Çələbinin, Şəki camaatının «suçuna göz yumaraq onların bağışlanmasını buyurdu». Öldürülmüş məlik Nəcəfin qardaşı oğlunu buraya məlik qoydu, Hacı Çələbinin isə vəkil statusunu saxladı. Ancaq «Şəki ikihakimiyyətliyi»nin «dirçəlişi» də uzun sürmədi. 1747-ci il mayın 9-da Nadir şah öz sarayında öldürüldü. Onun qan bahasına yaradılmış imperatorluğu dağıldı. Azərbaycan dövlətçiliyi uğrunda mübarizənin yeni çağı başlandı.

*ON BEŞİNCİ BÖLÜM*

# AZƏRBAYCAN XANLIQLARI. DÖVLƏT MÜSTƏQİLLİYİ UĞRUNDA MÜBARİZƏ

## 1. XANLIQLARIN YARANMASI

**XANLIQLARIN MEYDANA GƏLMƏSİNİN SƏBƏBLƏRİ. İMPERİYANIN DAĞILMASI.** Nadir şahın öldürülməsilə onun nəhəng imperiyası dağılmağa başladı. Əfqanıstanda müstəqil dövlət təşəkkül tapdı. İran, Orta Asiya və Qafqazda müstəqil və yarımmüstəqil xanlıqlar meydana çıxdı. Ali hakimiyyət uğrunda mübarizə gücləndi. XVIII əsrin ikinci yarısında İran taxt-tacı üstündə iyirmiyə yaxın sərkərdə mübarizə aparırdı. Hakimiyyət on dörd dəfə əldən-ələ keçmişdi. Dövlətin paytaxtı altı dəfə dəyişmiş, İsfahandan Qəzvinə, sonra isə Məşhədə, Şiraza, yenidən İsfahana, nəhayət Tehrana köçürülmüşdü.

Xanlıqların yaranması təsadüfi olmayıb Azərbaycanın dövlət müstəqilliyi uğrunda mübarizədə qanunauyğun mərhələ idi.

XVII yüzilin gedişində tədricən dövlət müstəqilliyini itirmiş olan Azərbaycanda istiqlal hərəkatı başlandı. Mərkəzi hökumət hər dəfə üsyanları amansızlıqla yatırır, sərt hərbi və inzibati-siyasi tədbirlər həyata keçirirdi. Bütün bunlara baxmayaraq, Azərbaycan dövlətçiliyinin bərpası ideyasını məhv etmək mümkün olmadı. Nadirin ölümündən sonra Azərbaycan ərazisində onlarca xanlıq yarandı. Azərbaycan İrandan vahid şəkildə ayrılmayıb xanlıqlara parçalandı. Bu, bir sıra səbəblərlə bağlı idi.

*Birinci*, mərkəzi hakimiyyətin məqsədyönlü siyasəti müstəqil Azərbaycan dövləti yaratmağı öz üzərinə götürə bilən vahid mərkəzin təşəkkülünə imkan vermədi. Səfəvi dövlətinin inzibati quruluşu buna örnək ola bilər. Bu dövlətin quruluşunda hakimlər tərəfindən idarə olunan «ölkələr» mühüm yer tuturdu. Ən mühüm inzibati idarə sistemi də mərkəzdənqaçma meyllərinin daşıyıcısı idi. Belə bir durum vahid dövlətin mövcud olduğu şəraitdə də xanlıqların təşəkkülü prosesinə rəvac verirdi.

*İkinci*, XVII yüzilin sonlarından davam edən təsərrüfat geriləməsi şəraitində gələcək xanlıqların ərazisini əhatə edən bölgələr arasında əlaqələr sıx deyildi.

*Üçüncü*, Beynəlxalq aləmdə qüvvələr nisbətinin dəyişməsi, regionda yeni bir mərkəzləşmiş dövlətin yaranması burada marağı olan İran və Rusiyanın mənafeyinə uyğun gəlmirdi.



Xanlıqların əmələ gəlməsinin ümumi səbəbləri ilə yanaşı bəzi özümlü tərəfləri də var idi.

**GÜNEY AZƏRBAYCAN XANLIQLARI.** Güney Azərbaycanda yaranan xanlıqlar arasında ***Urmiya xanlığı*** mühüm yer tuturdu. Xanlığın əsasını Nadir şahın əmisi oğlu Fətəli xan Afşar qoymuşdu.

Təbriz və Xoy xanlıqları Dunbuli tayfasından olan nəslin əlində idi. Çox da böyük ərazi və əhalisi olmayan Qaradağ xanlığının başında Qaradağ tayfalarına başçılıq edən Kazım xan (1747-1752) dururdu. Marağa xanlığı hələ Nadirin sağlığında burada hakim olan ***Əliqulu xan Müqəddəmin*** əlində idi. Ərdəbil xanlığını 1792-ci ilədək ***Nəzərəli xan Şahsevən*** idarə edib. O, Ərdəbil, Xalxal və Muğandakı şahsevən tayfalarını birləşdirmiş, mahalların etibarlı idarəsini təşkil edə bilmişdi. Nəzərəli xandan sonra oğlu ***Nəsirəli*** xanlıq taxtına çıxdı.

Maku xanlığını Bayat boyundan olan ***Əhməd Soltan*** (1747-1778), Sərab xanlığını isə Şəqaqi boyundan olan ***Əli xan*** (1747-1786) yaratmışdır.

Güney Azərbaycan xanlıqları ictimai-siyasi və mədəniyyət mərkəzləri olan şəhərlər ətrafında yaranmışlar. Xanlar başlıca olaraq el-tayfa başçıları içərisindən çıxırdı.

**QUZEY AZƏRBAYCAN XANLIQLARI.** Quzey Azərbaycan xanlıqlarının yaranması barədə Abbasqulu Ağa Bakıxanov yazırdı: «İndi də Nadir şahın ölümündən sonra Dağıstan və Şirvanın nə halda olduğunu nəzərdən keçirək. Nadir şahın vəfatından sonra İran qoşunu bu ölkədən çıxıb getdi. Hər bir vilayətdə bir həşəmət sahibi baş qaldıraraq, istiqlaliyyətdən dəm vurub başqasına tabe olmurdu. Quba və Salyan hakimi ***Hüseynəli xan Sultan Əhməd xan oğlu*** Xudat qalasını köçürüb, indiki Quba şəhərinin Qudyal adlı yerində tikdirməyə başladı. İğtişaş zamanı da bu ölkənin özbaşına qalan bir çox mahallarını itaətə məcbur etdi. Dərbəndlilər ***İmamqulu xanın oğlu Məhəmmədhəsən bəy Qorçunu*** xanlığa seçdilər.

Nadir şahın yaxın əmirlərindən sayılan bakılı ***Mirzə Məhəmməd xan Dərgah xan oğlu*** Bakı ölkəsini müstəqil olaraq ixtiyarına keçirdi. Şamaxı əhalisi sursat təhvildarı olan ***Hacı Məhəmmədəli Sufi Nəbi oğlu Zərnəvaini*** hökumətə keçirdi. Xançobanı tayfasından olan Əsgər bəy Sərkarın oğulları Şirvan elatı arasında hakimiyyət bayrağı qaldırdılar. ***Nuxulu Hacı Çələbi Qurban oğlu*** istiqlaliyyət bayrağı qaldıraraq Şəki, Ərəş və Qəbələ mahallarını özünə tabe etdi».

Azərbaycanın cənub-şərqində Talış dağları, Xəzər dənizi və Muğan düzü arasında Talış xanlığı yerləşirdi. Xanlığın banisi ***Seyid Abbas*** idi. Onun ölümündən sonra Qara xan hakimiyyətdə olmuşdu (1747-1786). Qara xan yerli hakim təbəqəni özünə tabe etməyə nail oldu, xanlığın mərkəzi Astaradan Lənkərana köçürüldü.

Əski Qarabağ bəylərbəyliyi ərazisində iki xanlıq – Qarabağ və Gəncə xanlıqları yarandı. ***Mirzə Camal Cavanşir Qarabağı*** yazır: «Qarabağ vilayətinin sərhədi belədir: cənub tərəfdən Xudafərin körpüsündən Sınıq körpüyə qədər Araz çayıdır. İndi (Sınıq körpü) Qazax, Şəmsəddin və Dəmirçi-Həsənli camaatı arasındadır... Şərq tərəfdən Kür çayıdır ki, Cavad kəndində Araz çayına qovuşaraq gedib Xəzər dənizinə tökülür. Şimal tərəfdən Qarabağın Yelizavetpolla (Gəncə ilə – *red.*) sərhədi Kür çayına qədər Goran çayıdır və Kür çayı çox yerdən (keçib) Araz çayına çatır. Qərb tərəfdən Küşbək, Salvartı və Ərikli adlanan uca Qarabağ dağlarıdır».

Qarabağda cavanşir, iyirmi dörd, otuz iki, kəbirli, baharlı və başqa türk boyları yaşayırdı.

Bu vilayətin idarəsi XVI yüzilin birinci yarısından qızılbaş Qacar tayfasının Ziyəddin oymağından olan Ziyad oğlu nəslinin əlində idi. Nadirin «şah seçkisindən» sonrakı cəza tədbirləri nəticəsində Ziyadoğullarının hakimiyyəti zəiflədi, xəmsə məlikləri isə güclənməyə başladılar. Qarabağ torpaqları üçün belə bir ağır çağda ***Pənahəli bəy Cavanşir*** burada hakimiyyətini bərqərar edərək müstəqil Qarabağ xanlığının yaradılmasına nail oldu.

O, Qarabağın Sarıcalı kəndində anadan olmuşdu. ***Mirzə Camal*** yazır: «Mərhum Nadir şah Qarabağ, Gəncə, Tiflis və Şirvan vilayətlərini aldıqdan sonra, ellər və kəndlər arasında görüb tanıdığı hər bir şücaətli və işgüzar adamı yanına çağırıb, öz yaxın qulluqçuları sırasına alar və onu məvacib, ehtiram və mənsəb sahibi edərdi. O cümlədən ellər arasında *Pənahəli bəy Sarıcalı Cavanşir* adı ilə şöhrət tapmış, hər işdə fərqlənmiş, ad çıxarmış, müharibə və davada tay-tuşuna üstün gələn və xüsusilə mərhum Nadirin Rum əhli qoşunları ilə etdiyi müharibələrdə (XVIII yüzilin 30-cu illərindəki İran-Türkiyə savaşı nəzərdə tutulur–*red.*) şücaət göstərmiş Pənah xanı da öz yanına apardı». Lakin Muğan qurultayından sonra Nadir onun hakimiyyətini qəbul etmək istəməyən qarabağlılara divan tutmağa, əhalini Əfqanıstan və Xorasana sürgün etməyə başlamışdı. Bu tədbirə etiraz etdiyinə görə Pənahəli bəyin qardaşı Fəzləli xan edam olunmuşdu. Bunu görən Pənahəli bəy «şah Xorasanda olduğu zaman, fürsət tapıb bir neçə qohumu və yaxın adamı ilə 1737-38-ci illərdə Qarabağ vilayətinə qaçdı. Şah onun qaçmasından xəbər tutarkən onu yolda ələ keçirmək üsün ardınca çaparlar göndərdi. Lakin mümkün olmadı. Azərbaycan sərdarına, Gəncə, Tiflis və Şirvan hakimlərinə qəti fərmanlar göndərdi ki, Pənah xanı burada tapsalar, tutub şahın hüzuruna göndərsinlər, şahın əmri ilə Pənah xanın ailəsini və qohum-qardaşını çox incidib cərimə etdilərsə də, fayda vermədi».

Beləliklə, hələ Nadirin sağlığında Pənahəli bəy şah qulluğundan boyun qaçırıb müxalifətə keçmişdi. Nadir şahın ölümündən sonra Qarabağ torpaqlarında müstəqil dövlətin bütün göstəricilərini özündə birləşdirən Qarabağ xanlığı yarandı.



Gəncədən didərgin salınmış Ziyadoğullarının da geri qayıtması üçün yol açıldı. Gəncə xanlığının banisi ***II Şahverdi xan Ziyadoğlu*** oldu. O, 1747-ci ildə Gəncəyə gələrək burada hakimiyyətini qurdu. O, Gəncədəki İran qarnizonunu darmadağın etməkdə ona köməklik göstərmiş II İrakliyə 10 min tümən qızıl pul verəcəyini bildirmişdi. Ancaq sözünü yerinə yetirə bilmədi. Onun oğulları ***Məhəmməd Həsən xan*** (1760-78) və sonra onun yerinə keçmiş ***Məhəmməd xan*** bu borcu ödəməkdən boyun qaçırmışdır.

Naxçıvan və İrəvan xanlıqları da siyasi həyatda müəyyən yer tuturdu.

Naxçıvan xanlığının əsasını Kəngərli boyunun başçısı ***Heydərqulu xan*** qoymuşdu. Nadir şah Naxçıvanın idarə olunmasına xüsusi diqqət yetirirdi. Burada idarə işləri hakim-e ölkə və hakim-e tümənə tapşırılırdı. Şahın ölümündən sonra onun məmurları qovuldu və Naxçıvan müstəqil xanlıq elan edildi.

İrəvan xanlığı Ağrı düzənliyini, Göyçə gölü ətrafı və onunla ***Dərələyəz*** arasındakı torpaqları əhatə edirdi. Xanlığın banisi ***Mir Məhəmməd xan Qacar*** idi.

Beləliklə, XVIII əsrin 40-cı illərində Azərbaycanın ictimai-siyasi həyatında böyük dəyişiklik baş verdi. 20-yədək müxtəlif xanlıq və onlardan asılı olan xırda inzibati-siyasi qurumlar yarandı. Bununla olduqca mürəkkəb, ziddiyyətli və faciəli bir dönüş başlandı. Bu dönüş 1828-ci ilədək sürdü.

## 2. AZƏRBAYCANIN BİRLƏŞDİRİLMƏSİ UĞRUNDA MÜBARİZƏ

**ARA ÇƏKİŞMƏLƏRİNDƏN MƏRKƏZLƏŞMƏYƏ DOĞRU. GÜNEYDƏ MÜBARİZƏ.** Azərbaycanın siyasi birliyinə aparan yol neçə mərhələdən keçməli idi. Bu proses başa çatmasa da, onun əsas hissəsini keçmək mümkün olmuşdu. Xanlıqların böyüdülməsi uğrunda baş verən savaş və çəkişmələrə onun ilk dönümü kimi baxmaq olar. Bundan sonra keyfiyyətcə yeni dönüm – hərbi, siyasi-diplomatik yollarla daha güclü xanlıqların başqa xanlıqları öz hakimiyyəti dairəsinə qataraq, vahid idarə sisteminə keçmək və birləşmənin miqyasını genişləndirmək yolu uzanırdı. Azərbaycan mərkəzləşmə prosesinin bu həlledici dönümünə ayaq basdı. Lakin bu prosesin başa çatdırılmasına nail ola bilmədi.

Urmiya xanlığının mərkəzləşdirmə siyasəti İranda ali hakimiyyət uğrunda mübarizənin güclənməsi şəraitində baş verirdi.

İranda hakimiyyət uğrunda mübarizənin ilkin mərkəzi Xorasan oldu. Hələ Nadir şahın sağlığında əmisinə qarşı çıxış edən ***Əliqulu xan Əfşar*** 1747-ci il iyulun 6-da özünü şah elan etdi. O, həyata keçirdiyi bir sıra tədbirlərə görə (İran sakinlərinin üç illiyə vergilərdən azad edilməsi və s.)

Adil şah adı almışdı. Şahın qardaşı, Əcəm İraqı hakimi ***İbrahim xan*** üsyan qaldırdı, Güney Azərbaycanda ***Saman Arxı*** deyilən yerdə baş verən döyüşdə onu məğlub etdi. Adil şah 1748-ci ilin sentyabrında tutuldu və gözləri çıxarıldı. Bunu görən Məşhəd əyanları Nadir şahın və ana xəttilə Sultan Hüseynin nəvəsi olan ***Şahruhu*** oktyabrın 1-də şah elan etdilər. İbrahimin Şahruh üzərində qələbə çalmaq istəyi onun həyatı bahasına başa gəldi. O, 1749-cu ilin sonunda öldürüldü, həmin vaxt Şahruh da hakimiyyətdən devrildi. 1750-ci il yanvarın 14-də Səfəvilərin nəslindən olan Mir Seyid kimi tanınan birisi ***II Süleyman adı ilə*** şah elan olundu. Lakin onun hakimiyyəti də uzun sürmədi. Martın 20-də hakimiyyətdən devrilən II Süleymanın yerinə Şahruh ikinci dəfə (1750-1795) taxta çıxdı.

Güney Azərbaycan ali hakimiyyət uğrunda gedən bu mübarizədə mühüm yer tuturdu. İbrahim xanın özünü Təbrizdə şah elan etməsi də təsadüfi deyildi. Onun öldürülməsi ilə Güney Azərbaycanda hadisələr qanunauyğun bir axara düşmüş oldu. Təbrizdə üsyan baş verdi. Şəhərin hakimi Məhəmməd xan Afşar qətlə yetirildi. Fətəli xan Afşar yaranmış vəziyyətdən istifadə edərək Təbrizi tutdu, paytaxtını buraya köçürdü. Şah İsmayıl zamanında olduğu kimi, Azərbaycan torpaqlarının birləşdirilməsi məsuliyyəti sanki yenidən Təbriz üzərinə atılmış oldu. Lakin bu taleyüklü vəzifə bu dəfə yerinə yetirilmədi. Buna baxmayaraq, Təbriz Güney Azərbaycan torpaqlarının toplayıcısı kimi çıxış etmədə idi. Fətəli xan Afşar Azərbaycan torpaqlarının birləşdirilməsi uğrunda fəaliyyətə başladı. Azad xanın Fətəli xan Afşar tərəfinə keçməsi də mühüm rol oynadı. Azad xan Nadir şahın ölümündən sonra Güney Azərbaycan hakimi Əmiraslan xanın qulluğunda idi. İbrahim şahın öldürülməsindən sonra da Azad xan öz əlində böyük bir hərbi qüvvə saxlayırdı.

Xoy xanlığının hökmdarı, Dunbuli tayfasından Şahbaz xan da Fətəli Afşarla ittifaq bağlamağa məcbur oldu. Müttəfiqlər Qarabağ, Marağa, Sərab xanlıqlarını tutdular. Beləliklə, Urmiya, Təbriz, Xoy, Qarabağ və Sərab xanlıqları, yəni Ərdəbil və Maku xanlıqları çıxılmaqla Güney Azərbaycan torpaqları birləşdirildi.*

* Birləşdirilmiş torpaqlarda ali hakimiyyətin kimə məxsus olması məsələsi haqqında iki mülahizə vardır: *S.M.Əliyev* yazır ki, Şahruhun tərəfdarları İbrahim şahı məğlub etdikdən sonra (1749-cu ilin dekabrı) Fətəli xan Afşar və Şahbaz xan Dunbuli Azad xanı müttəfiq edərək, onun dəstələrinin köməyilə 1750-ci ildə Təbriz, Marağa, Urmiya, Səlmas xanlıqlarını öz hakimiyyətlərinə tabe etdilər. Azad xan müxtəlif feodal qrupları arasında ara müharibələri zamanı Güney Azərbaycanın feodal hakimləri sırasında birinci yerə çıxdı. (*С.М.Алиев*, Междоусобные войны за верховную власть в Иране после распада империи Надир шаха/Иран. История и культура в средние века и в новое время. М., 1980, с.41), H.Ə. Dəlili isə başqa mülahizəyə üstünlük verir. Onun fikrincə Güney Azərbaycanda ali hakimiyyət Fətəli xan Afşara məxsus olmuş, Azad xan isə onun əmirlərini yerinə yetirən sərdar olmuşdur (*H.Ə.Dəlili.* Azərbaycanın cənub xanlıqları. Bakı, 1979, s.111). Tarixi qaynaqlar baxımından ikinci fikir daha düzgündür.



Fətəli xan Afşar birləşdirilmiş torpaqlarda möhkəmlənmək əvəzinə (vahid idarə sistemi yaratmaq və s.) bir tərəfdən Güney Qafqazın ələ keçirilməsi, digər tərəfdən isə İranda ali hakimiyyət uğrunda mübarizəyə başladı.

O, bir çox yerlərə belə məzmunda müraciətlər göndərirdi: «İran əhalisinə Nadir şahın etdiyi zülm və zorakılıq həddini aşdı. Onun işləri Allahtəalanın buyruğuna uyğun deyildi. (Bu iş) İran qəhrəmanlarının cəsarətli zövqlərinə uyğun gəlmədi. Onu öldürdülər. Onun öldürülməsindən keçən qısa vaxt içərisində İran qoşun başçıları bir neçə nəfəri padşahlıq taxtına oturdub və götürüblər. Məlum deyil, iş nə yerdə qurtaracaqdır...

Bunu yazıram ki, o yüksək vəzifəlilər də bu xeyirxahla (Fətəli xanla – *red.*) müttəfiq olsunlar, Azərbaycan və İranı özümüzə tabe edək, aciz və miskinləri qorumaqla məşğul olaq».

Təbii, bu müraciətlər hər yerdə yaxşı qarşılanmadı. Onda işə ordu girişdi. 1751-ci ilin axırlarında İrəvan xanlığı üzərinə hücum keçirildi. Lakin yerli xan gürcülərdən kömək alaraq Azad xanı məğlubiyyətə uğratdı. Fətəli xan Afşar Azad xanın qoşunlarını gücləndirərək Gürcüstan üzərinə yeridi. II İrakli məğlub oldu, tabeçilik bildirərək bacısını, Aslan bəy və Zal bəy adlı iki gürcü knyazını və 200 atıcını girov olaraq Fətəli xanın sarayına göndərdi.

Bu uğurlar Fətəli xan Afşarı İranda ali hakimiyyət uğrunda daha fəal mübarizəyə cəlb etdi.

**İRANDA ALİ HAKİMİYYƏT DAVASI.** Şahruh Xorasanda ikinci dəfə taxta çıxdıqdan sonrakı ilk illərdə gerçək hakimiyyətə malik olmadı. Xorasan ali hakimiyyət uğrunda mübarizədə getdikcə Ümumiran mərkəzi kimi əhəmiyyətini itirdi. Onun yerini mərkəzi İran tutdu. Burada hakimiyyət uğrunda mübarizədə zəndlər seçilirdi. Zəndlərin başçısı ***Kərim xan*** (1704/5-1779) və bəxtiyarilər toplumunun başçısı ***Əli Mərdan xan*** 1750-ci ilin yazında ittifaq bağlamışdılar. Dekabrın 13-də İsfahan tutuldu. Bir vaxt bəxtiyari birliyi tərəfindən burada III İsmayıl adı ilə şah elan olunmuş azyaşlı ***Əbu Turab Səfəvi*** (***Xəlifə Soltan*** adı ilə də tanınırdı) yenidən şah elan olundu. Lakin tezliklə müttəfiqlər arasındakı münasibətlər pozuldu. Kərim xan keçmiş müttəfiqi üzərində qələbə çalıb, İsfahanda Şah III İsmayılı taxta oturdaraq özünü regent elan etdi.

Quzey İranda möhkəmlənən ***Məhəmməd Həsən xan Qacar*** da ali hakimiyyət uğrunda mübarizəyə qoşuldu. O, Adil şahın eşikağası başı idi. Lakin sonra Adil şahla aralarında yaranan ixtilaf nəticəsində Astrabada çəkildi. Adil şah bunu ona bağışlamayıb Astrabada hücum etdi. Məhəmməd Həsən xan qaçmağa məcbur oldu, onun bütün ailəsi əsir düşdü. Əsirlər arasında beş yaşlı Məhəmməd də var idi. Adil şahın ölümü ilə və-

ziyyət dəyişdi. Astrabadı özünə qaytaran Məhəmməd Həsən xan Mazandaran və Gilanı da ələ keçirib İsfahan üzərinə yürüşə hazırlaşdı, zənd-bəxtiyari ittifaqının pozulmasından istifadə edərək, Kərim xan Zəndi üstələdi. Şah III İsmayıl da qacarlara əsir düşdü.

Tehrana qaçan Kərim xan qüvvə toplayaraq Azərbaycana yürüşə başladı. Fətəli xan Afşar Kərim xanı əzdi. Kərim xan öncə İsfahana, sonra Şiraza qaçdı. Burada şəhər əhalisi qapını onun üzünə açmadı. Kərim xan geri dönməyə məcbur oldu. Qəmşə adlanan yerdə Kərim xanın üç minlik atlısı ilə Fətəli xanın qoşunları üz-üzə gəldi. Qoşunları dağıdılan Kərim xan bu dəfə Fars vilayətinə gəldi. Vəziyyətin ağırlığını görərək İranı tərk etmək fikrinə düşdü.

1753-cü ilin sonu – 1754-cü ilin əvvəlində Fətəli xan hakimiyyətini mərkəzi və Qərbi İrana yaya bildi.

İranda ali hakimiyyət uğrunda mübarizədə Qacarların fəallığı artdı. 1755-ci ilin yazında onlar zəndlər üzərində qələbə çaldılar. Məhəmməd Həsən xan 1756-cı il martın sonunda İsfahanı tutdu. Kərim xan Şiraza qaçdı. Azad xan və Fətəli xan bundan istifadə edib Gilanı ələ keçirdilər. Geriyə dönməli olan Məhəmməd Həsən xan 1757-ci ilin əvvəlində Rəşti azad etdi. O, buradan Güney Azərbaycana yönəldi. Təbrizi tutduqdan sonra Urmiya şəhərini mühasirəyə aldı. Urmiya da süqut etdi. Fətəli xan Afşarın bəzi sərkərdələri, o sıradan Azad xan, Şahbaz xan Dunbuli xəyanət etdilər. Fətəli xan Məhəmməd Həsən xandan asılı vəziyyətə düşdü. Sonuncunun Qarabağ xanlığı üzərinə basqını uğur qazanmadı. 1758-ci ilin yazında o, İsfahana qayıtdı, sonra Şirazı mühasirəyə aldı. Uğursuz mühasirədən sonra Mazandarana qaçmalı oldu. 1759-cu ilin fevralında öldürüldü.

Fətəli xan Afşar asılılıqdan çıxdıqdan sonra yenidən Təbrizə dönüb hakimiyyətini möhkəmləndirməyə başladı. Şahbaz xan Dunbulinin xəyanətini bağışladı, Azad xanın təvəqqisi isə rədd edildi, Fətəli xan yenidən birləşdirmə siyasətini yettirməyə başladı.

**QARABAĞ XANLIĞININ ASILI VƏZİYYƏTƏ SALINMASI.** 1759-cu ildə Fətəli xan Şuşaya yaxınlaşdı və onu mühasirəyə aldı. Hər iki tərəf döyüşlərdə böyük qəhrəmanlıq göstərirdi. Lakin Pənahəli xan mühasirədə olduğundan çıxış yolunu Fətəli xanla sazişə gəlməkdə gördü. Bu məqsədlə oğlu İbrahimxəlil ağanı girov olaraq onun yanına göndərdi.

Əhməd bəy Cavanşir yazır: «Məhəmməd Həsən xan hadisəsindən sonra Nadir şahın sərdarlarından biri olan urmiyalı Fətəli xan Afşar... bütün Azərbaycanı tutdu (Güney Azərbaycan nəzərdə tutulur–*red.*). Mərhum Pənah xanın yanına mahir elçilər göndərib onu itaətə və ittifaqa dəvət etdi. Elçilər qayıdıb (yerlərinə) çatdıqdan sonra Fətəli xan Azərbaycan, Urmiya



və başqa vilayətlərin əhalisindən çoxlu qoşun toplayıb qalanı almaq, Qarabağı ələ keçirmək və Pənah xanı aradan qaldırmaq məqsədi ilə Şuşa qalasına gəlib qalanın bir ağaclığında düşərgə qurdu... Bu hücumda Fətəli xanın qoşunundan təxminən iki min nəfər piyada və süvari qırıldı, əsir düşdü...Bu hadisədən sonra Fətəli xan Afşar qoşunun məğlub olması və qış fəslinin yaxınlaşmasına görə sülh və barışıq təklif etdi. Mahir elçilər göndərib, and-aman içərək belə vəd verdi: «Əgər Pənah xan qoşunumdan aldığı əsirləri geri qaytarsa, mənlə ittifaq və dostluq etsə, qızımın kəbinini onun böyük oğlu İbrahimxəlil ağaya kəsdirəcəyəm. (Beləliklə də) biz əbədi qohum və dost olacağıq. Bir şərtlə ki, İbrahimxəlil ağanı mənim yanıma göndərsin. O isə orduda şirni içilib kəbin kəsildikdən və iki-üç gün burada (qonaq) qaldıqdan sonra geri qayıtsın». Pənah xan bu təklifə əməl etdikdən sonra onlar «İbrahimxəlil ağanı və kəndxudaları dustaq kimi, özləri ilə bərabər götürüb getdilər...» Digər qaynaqlar da İbrahimxəlil ağanın girov kimi göndərilməsini təsdiq edir.

Qarabağ xanlığının Fətəli xandan asılı vəziyyətə düşməsi onun digər xanları da tabe etməsinə şərait yaratdı. Lakin İranda siyasi qüvvələrin nisbəti yeni dəyişikliyə uğradı. Məhəmməd Həsən xanın ölümündən sonra Kərim xan başlıca qüvvəyə çevrildi. Fətəli xanın güclü dövlət yaratmaq yolunda çalışması onu rahatsız etməyə bilməzdi.

**KƏRİM XAN ZƏNDİN URMİYA XANLIĞINI TUTMASI.** 1760-cı ilin payızında Kərim xan Güney Azərbaycana hücuma başladı. Təbriz mühasirəyə alındı. Dörd ay davam edən mühasirə uğursuz oldu. O biri ilin yayında ***Ucan*** düzündə, ***Qaraçəmən*** kəndi yaxınlığındakı döyüşdə Zəndlər məğlub oldu. Fətəli xanın qoşunları bu uğurdan arxayınlaşdılar. Bundan istifadə edən ***Şıxəli xan Zənd*** hücuma keçdi, ***Şahbaz xan Dunbuli*** yenidən xəyanət etdi. Fətəli xan Afşar Təbrizdə duruş gətirə bilməyərək Urmiya qalasına çəkildi, Kərim xan bir sıra hərbi-diplomatik tədbirlər həyata keçirdi. Fətəli xanın düşmənlərinin fəallaşdırılmasına diqqət artırıldı. Qarabağ xanlığına xüsusi fikir verilirdi. Kərim xan Pənah xana belə bir məktub göndərdi: «Fətəli xan bizim nəinki təkcə düşmənimiz, hətta qanlımızdır. Sizə qarşı da olduqca yaramaz işlər görmüş, andını, peymanını pozmuşdur. Sənin oğlunu məkr və hiylə ilə aparıb məhbus etmişdir. İndi var qüvvə ilə bizə kömək etməli və bu işdə heç şeydən müzayiqə etməməlisən. Çünki intiqam alsaq və oğlunu xilas etsək, siz sevindiyiniz kimi biz də arzumuza çatmış olarıq». Pənah xan bu təklifi qəbul edərək, Urmiyanın mühasirəsinə qoşuldu.

Urmiya qəhrəmanlıqla müqavimət göstərirdi. Müdafiə işinə Fətəli xan özü başçılıq edirdi. Qüvvələr isə getdikcə tükənirdi. 1763-cü ilin ortalarında 9 ay mühasirəyə tab gətirən Urmiya çökdü.

Şəhəri düşmənlər qarət etdilər, kütləvi qırğın baş verdi. İsfahanda üsyanlar başlaması ilə bağlı Kərim xan Zənd geri dönməli oldu. Urmiya xanlığının idarəsi xan titulu verilən ***Rüstəm bəy Afşara*** tapşırıldı.

**ŞİRAZ «QONAQLARI».** Kərim xan Fətəli xanı ailəsi ilə birlikdə Şiraza aparmağı əmr etdi. O, müttəfiqləri olan xanlıqları da buraxmadı, zəfər qonaqlıq mərasimində iştirak etmək üçün onları da özü ilə götürdü. «Qonaqlar» arasında Qarabağlı Pənahəli xan, Qaradağlı Kazım xan, Xoylu Şahbaz xan və başqaları var idi. Fətəli xan Afşar, Kərim xanın əmri ilə onun qardaşı İsgəndər bəyi öldürdüyü yerdə edam edildi.

1763-1765-ci illərdə Xuzistanın tutulması ilə İranın xeyli hissəsində hakimiyyət Kərim xanın əlinə keçdi. 1765-ci il iyulun 21-də o, dövlətin yeni paytaxtı Şiraza daxil oldu. «Qonaqlığın» iç üzü burada aydın oldu: Əbdürrəzzaq Dunbuli yazır: «Onda (Kərim xanda) belə bir fikir əmələ gəldi ki, cənnətə bənzər Şirazda sakin etdirdiyi müxtəlif şəhərlərin sərkərdələrinin başını müəyyən işlərlə qarışdırmaq və onları fitnə-fəsad törətməkdən çəkindirmək məqsədilə cahilpəsənd bəhanələrlə onlara pul versin, beləliklə onlar yoxsulluqdan məkr və hiylə fikrinə düşməyib döyüşmək üçün götürqoy etməyə cəsarət etməsinlər. Buna görə də dar-ül-elmi (elm evini) darül-eyşə (eyş evinə) çevirdi. Kef çəkmək və şadlıqları birgə keçirmək üçün yerlər hazırlandı...»

Girov götürülmüş Azərbaycan xanları Kərim xanın çalışmasına baxmayaraq «qonaqlığın» gözqamaşdırıcı görüşünə adlanmadılar. Bütün yollarla oradan can qurtarmağa çalışaraq, xanlıqlarla əlaqələrini üzmədilər. Bir sözlə, «Şiraz qonaqlığı» istənilən nəticəni verə bilmədi.

**GÜNEY AZƏRBAYCAN XVIII YÜZİLİN 60-80-ci İLLƏRİNDƏ.** Kərim xanın Urmiya xanlığını işğal etməsi, «qonaqlıq» adı ilə Azərbaycan xanlarını girov aparması onun siyasi üstünlüyünü artırmadı. Bu xanlıqlar müstəqil idarə olunmaqda davam edirdi. Bu zaman Güney Azərbaycan xanlıqları içərisində Xoy xanlığı seçilirdi. Buranın hakimi Əhməd xan Dunbuli (1763-1786) Təbrizdə də möhkəmlənmişdi. O, İrəvan, Naxçıvan və Qaradağ xanlığını da özünə tabe etmişdi. Qarabağ xanlığı ilə ittifaqa girmişdi.

Urmiya xanlığı da Kərim xan qoşunlarının zərbəsindən dirçəlməyə başlayırdı. Lakin Urmiya xanlığı ilə Xoy arasında zidiyyət var idi. 1783-cü ilin payızında Təbriz yaxınlığındakı döyüşdə Urmiya qoşunu məğlub oldu. Bu, Xoy xanlığının nüfuzunu xeyli artırdı. Kərim xan Xoy xanlığının güclənməsini qısqanclıqla izləyirdi. Buna görə onu sarsıtmaq üçün tədbir görməyə başladı. Vaxtilə «qonaqlığa» aparılmış Şahbaz xanın oğlanları əmiləri Əhməd xana qarşı düşmənçilik ruhunda tərbiyə edilir, Xoy xanlığında qanlı ara müharibələrinin bünövrəsi qoyulurdu.



1779-cu ildə Kərim xan öldükdən sonra «qonaqlar» geri qayıtmağa başladılar. Şahbaz xanın oğulları 1786-cı ildə əmilərinə qarşı çıxdılar. Əhməd xan öldürüldü, Cəfərqulu xan Xoylu isə xilas ola bildi. Lakin qəsdçilər hakimiyyəti ələ keçirə bilmədilər. Cəfərqulu xan qəsdçiləri cəzalandırdı, qardaşı Hüseynqulu xanı azad edərək hakimiyyətə gətirdi.

Xoy xanlığı öz mövqeyini itirdi. İrəvan xanlığı müstəqillik əldə etdi. Qaradağ xanlığı isə yalnız Qarabağdan asılı oldu. Təbriz də əldən çıxdı. Xanlıqlar arasında yeni çəkişmələr başladı.

**QUZEY AZƏRBAYCAN XANLIQLARI. ŞƏKİ XANLIĞI. «BAYAT SAVAŞI».** XVIII yüzilin 50-ci illərində Quzey Azərbaycan xanlıqları içərisində ən güclü xanlıqlardan biri Şəki xanlığı idi. Hacı Çələbi xan Nadir şahın ölümündən sonra Təbrizədək hücum etmişdi. Təbriz hakimi ***Əmiraslan*** xan onu geri oturda bildi.

Hacı Çələbi Qarabağ xanlığını da ələ keçirməyə çalışdı. Mirzə Adıgözəl bəy yazır: «Hacı Çələbi... Dərbənd, Car və Balakənədək bütün Şirvanat qoşununu cəm etdi... Pənah xan qabaqcadan bütün elata bu əhvalatı bildirmiş və hamısını yığıb dolduraraq sığnaq etmişdi. Hacı Çələbi gəldi və mühasirə ilə məşğul oldu. Hər gün müharibə edir, didişib-döyüşməkdən əl çəkmirdilər. Axırda Hacı Çələbi məqsədinə çatmadan, külli zərərlə qayıtmaq təbilini vurdurdu».

Hacı Çələbi xan bu uğursuzluqdan sonra qüvvələrini möhkəmləndirməyi qərara aldı. Qəbələ və Ərəş sultanlıqlarını tabe etdi. Oğlu Ağakişi bəyi Qazıqumuq xanının qızı ilə evləndirdi. O, Şəkidə tikdirdiyi məscid üzərindəki mərmərdə yazdırmışdı: «Şəki hakimi, Şirvan əmiri (hökmdarı) Hacı Çələbi sultan Qurban oğlu, tarixi 1162-ci hicri (1748/1749-cu il)». Göstərilən vaxtda Hacı Çələbi Şirvan hakimi deyildi. Bu yazı onun siyasi istəyini bildirirdi.

**«QIZIL QAYA XƏYANƏTİ».** Şəki xanlığının güclü mövqeyi və onun getdikcə möhkəmlənməsi Qarabağ, Gəncə xanlıqlarını və Kartli-Kaxet çarlığını narahat edirdi. 1751-ci ildə Kartli çarı Teymuraz və Kaxet çarı İrakli Carda Hacı Çələbi ilə vuruşmalı oldular. Hacı Çələbi bu döyüşdə uğur qazandı. Bu qələbə ona qarşı ittifaq yaranmasını sürətləndirdi.

Mirzə Adıgözəl bəy yazır: «... Pənah xan, qaradağlı Kazım xan, naxçıvanlı Heydərqulu xan və gəncəli Şahverdi xan məsləhət məclisi qurdular. Onlar belə qərara gəldilər ki, bütün Şirvan ölkəsinin hakimi azad və həmişəlik sahibi-ixtiyarı olan Hacı Çələbi onlarla hesablaşmır və dostluq yolunu düzlüklə getmir. Buna görə lazımdır ki, onu məğrurluq yuxusundan oyatmaq üçün tədbir görsünlər. Sonra ürəklərinin sözünü məktub vasitəsilə Gürcürtan valisi İrakli xana bildirdilər. Vali də özünün bu işdə və bu

yolda onlarla yoldaş olduğunu izhar etdi. Onlara yazıb bildirdi ki, tezliklə hərəkət edərək fürsəti itirmədən buraya gəlsinlər.

Bu xanlar da səfər tədarükü görüb qoşun və əsgər topladılar. Hamısı ittifaq edib hərəkət bayrağını qaldıraraq yola düşdülər. Gəncə şəhərindən yuxarı Qızıl Qaya adlı yerdə dayandılar... Gürcüstan valisi bunların dördünü də əsarət kəməndilə tutdu (1752-ci il 21 mart – *red.*)».

**«NƏ MƏSLƏHƏT VERİRSİNİZ VERİN, ANCAQ KÜRÜ KEÇMƏK İÇİNDƏ OLSUN».** Hacı Çələbi xan xanların və İraklinin Şəki xanlığına qarşı ittifaq yaratmasından xəbər tutaraq hərbi hazırlıq gördü. Kürün sol sahilinə keçib Mingəçevirə gəlib dayandı. Bu əsnada qarşıdan bir atlı göründü. Hacı Çələbi əmr etdi ki, onu gəmi ilə Kür çayından keçirsinlər. (O, çaydan) keçib Hacı Çələbinin hüzuruna gəlincə: «Qoca baba, vali xanları tutdu», – dedi. Hacı Çələbi ona «Qoca baban onları xilas edər, onları qurtarmaq üçün müharibə və davaya girişər», – deyə cavab verdi.

Sonra o öz dövlət ərkanı və yaxın adamları ilə məşvərət etdi. Onlar məsləhət görmək üçün bəhanə gətirdilər. Hacı Çələbi onların ürəyindəkini başa düşdü. Müşavirə məclisinə getdikləri zaman əmirlərə dedi: «Nə məsləhət görürsünüz (görün, ancaq Kürü) keçmək içində olsun».

Onlar bu sözləri eşitcək geri qayıtdılar. Hacı Çələbinin hüzuruna gəlib dedilər: «Biz müşavirə yığıncağını ona görə düzəldirik ki, işin içində Kürü keçmək (məsələsi) olmasın; indi ki, Siz buyurursunuz, əmr verin, qoşun hərəkət etsin».

Hacı Çələbi dediyi sözün üstündə durdu və Şeyx Nizaminin qəbri yanında baş verən döyüşdə uğur qazandı. İraklini qovub Borçalını ələ keçirdi, oğlu Ağakişi bəyi ora hakim qoydu.

***Bu, milli birlik baxımından tariximizin öyrətdiyi ən ibrətli dərslərdən biridir.***

Kartlı çarı Teymuraz Kabardadan aldığı hərbi qüvvə ilə Ağakişi bəyi Borçalı torpağından çıxarda bildi, lakin onun Car vilayəti üzərinə hücumu yenə də uğursuz qurtardı.

Hacı Çələbi Şirvanı ələ keçirmək üçün çox düşünürdü. 1755-ci ildə Ağsu şəhəri üzərinə onun yürüşü uğursuz oldu. Abbasqulu Ağa yazır: «Hicri 1168 (1755)-ci ildə Hacı Çələbi külli qoşunla Şirvanı almaq məqsədilə gəlib Ağsu şəhərini mühasirə etdi. Burada olan Hacı Məhəmmədəli xan Quba hakimi Hüseynəli xandan kömək istədi. O da 3000 nəfər Quba qoşunu və 500 nəfər qüvvəyə malik olan ***Əmir Həmzə Üsmi*** ilə bərabər iki düşməni barışdırmaq üçün gəldi. Hacı Çələbi ... elçi göndərib onu hədələdi və geri dönməsini təklif etdi. Beləliklə, iş müharibə ilə nəticələndi. Şəkinin külli qoşunu bu azacıq camaatın qarşısında məğlub olub qarət edildi və çoxu öldürüldü».



1755-ci ildə Hacı Çələbi vəfat etdi. Onun varisi Ağakişi bəy qudası Qazıqumuqlu Məhəmməd xan tərəfindən öldürüldü. O, Şəkini tutdu və dağıtdı. Lakin cəmi 40 gündən sonra qovuldu və qubalı Fətəli xanın köməyilə Hacı Çələbinin nəvəsi Hüseyn xan hakimiyyətə gətirildi. Urmiya hakimi Fətəli xan isə Hüseyn xanı Ərəş sultanı Məlik Əlinin köməyi ilə hakimiyyətdən salmağa cəhd etdi, lakin bu niyyət baş tutmadı. Hüseyn xan Fətəli xandan asılılığını bildirdi, Ərəş sultanını öldürərək onun torpaqlarını Şəki xanlığına qatdı.

**QARABAĞ XANLIĞININ GÜCLƏNMƏSİ. BAYAT QALASI.** Qarabağ xanlığı elan edildikdən sonra başlıca vəzifə onun möhkəmlənməsinə nail olmaq idi. Pənah xanın bu sahədə ilk tədbirlərindən biri Nadir şahın sürgün etdiyi Qarabağ əhalisini geri qaytarmaq oldu. Köçkünlərin geri qaytarılması və dədə-baba torpaqlarında yerləşdirilməsi Qarabağ xanlığını gücləndirdi. İlk gələnlər içərisində Qarabağın gələcək xanı, 15 yaşlı İbrahimxəlil də var idi.

Qarabağ xanlığı yarandığı zaman burada Təbriz, Ərdəbil, Gəncə, Şamaxı kimi şəhərlər yox idi. Halbuki belə siyasi-iqtisadi mərkəzlərin olması xanlıqların gələcək inkişafı üçün çox mühüm idi. Yeni müdafiə qurğuları və şəhərlərin salınması Pənah xanın hərbi-siyasi işlərlə yanaşı dəyərli quruculuq uğuru sayılmalıdır.

Bu sahədə ilk addımlardan biri 1748-ci ildə Bayat qalasının tikilməsi oldu. «Xan bütün ailəsini, qohumlarının və el böyüklərinin əhli-əyalını oraya topladı. Ətrafda olan camaat, hətta Pənah xanın tərəqqisini, onun rəftar və məhəbbətini eşidən Təbriz və Ərdəbil vilayətlərinin bir çox əhalisi və sənətkarları belə öz ailələrilə birlikdə gəlib Bayat qalasında yerləşdilər» (Mirzə Camal Cavanşir).

**PƏNAH XANIN TANINMASI.** Pənah xanın müstəqil dövlət quruculuğu sahəsindəki fəaliyyəti onun rəsmən tanınması ilə nəticələndi. Mirzə Camal yazır: «Müsəlman tarixi ilə 1161, xristian tarixi ilə 1745-ci (1748-ci il olmalıdır – *red.*) ildə Adil şahın (Pənah xana) xan adı verilməsi və Qarabağ hakimliyi vəzifəsinə təyin edilməsi haqqında imzaladığı fərman qiymətli xələt, qızıl yəhərli at və daş-qaşla bəzənmiş qılıncla birlikdə Sərdar Əmir Aslanın yaxın adamı vasitəsilə o zaman yaşadıqları Bayat qalasına gəlib çatdı».

Adil şahın fərmanı gecikmiş bir kağız parçası idi. Gerçək «hakimlik» şah fərmanından öncə, ondan asılı olmadan qazanılmışdı. Əslində burada fərman üzrə edilən hakimlikdən deyil, qılınc gücünə qazanılmış müstəqil xanlıqdan söhbət gedir.

Pənah xanın «Qarabağ hakimi» kimi tanınmasında Şəki xanlığının Qarabağ üzərinə uğursuz yürüşü böyük yer tutur. Şəki xanı Hacı Çələbi 1748-ci il Bayat yürüşündən sonra yumorla bildirmişdi: «Pənah xan bu vaxtacan bir sikkəsiz gümüş idi. Biz gəldik ona sikkə vurduq və qayıtdıq». Və ya «Pənah Əli özünü xan elan etmişdi, mən isə öz məğlubiyyətimlə onun xanlığını təsdiq etdim». Çələbi xanın xalq ağzında zərb-məsələ çevrilmiş bu sözləri Adil şahın fərmanından daha çox gücə malik idi. Əhməd bəy Cavanşir yazır: «... Bu qalibiyyətdən (Bayat döyüşündən – *red.*) sonra Pənah xanın igidliyi haqqında dillərə düşən dastan o zaman Qarabağda yaşayan bütün müsəlman tayfalarını müharibəsiz olaraq onun təbəəliyinə tabe edirdi».

«Bayat savaşı» bu qalanın gələcək tarixi sınaqlara dözə bilməyəcəyini üzə çıxardı. Ona görə də yeni qala salınması tələb olunurdu. Mirzə Adıgözəl bəy yazırdı: «Pənah xan ***Şahbulağı adı*** ilə məşhur olan Türnəkütdə bir qala bina etdi. Daş və əhəngdən məscidlər, evlər, çarsu (meydan – *red.*) və hamamlar tikdirdi. Bu işləri 1165-ci ildə (1751-ci il – *red.*) bitirərək oranı özünə məskən etdi».

**MƏLİKLƏRİN BÖLÜŞDÜRÜCÜLÜK İSTƏYİ VƏ ONLARIN XANLIĞA TABE EDİLMƏSİ.** Pənah xan gücləndikcə məliklərin pozuculuq işi və müqaviməti artırdı. Bunun qarşısının alınması hərbi-siyasi baxımdan qaçınılmaz bir işə çevrildi. Belə olmasa idi, tarixən yaranmış olan «Aran Qarabağı»nın (sonralar Qarabağ bəylərbəyliyi – *red.*) ərazi-inzibati bütövlüyü itirilə bilərdi.

Mir Mehdi Xəzani çox haqlı olaraq yazırdı: «Bu Qarabağda ki, beş mahal bundan əqdəm Xəmsə mahalı işlaq olurmuş və şimdi hər birisi bir qeyri-ism ilə adlanırlar...» Bu hansı ad ilə bəlli olan mahallar idi? Onlar məlikliyi necə tapmışdılar və bu məliklər özləri kimlər idi? Mirzə Adıgözəl bəy yazır: «Bu mahallardan biri ***Dizaqdır***. Məlikləri Məlik Yegan adlanır. O, ***Loridən*** qaçıb gəlmiş, Nadir şahın səltənəti dövründə və onun əmrilə məliklik taxtında oturub hörmət qazanmışdır.

İkinci – ***Vərəndədir***. Məlikləri ***Məlik Şahnəzərlilər*** olmuşdur. Onlar daha qədim bir nəslə mənsub və daha çox etibar sahibidirlər. Əsilləri də Göyçə əsilzadələrindəndir. Sonra oradan qaçaraq gəlib Qarabağda Vərəndə mahalının məliklik camından sərxoş olmuşlar.

Üçüncü ***Xaçındır***. Məlikləri ***Həsən Cəlalyan*** övladıdır. (Onlar) riyasət gəlininə gözəllik verib (hökmran olmuşlar). Bu ailə məlikik mənsəbindən məhrum olduqdan sonra, bu mahalın müstəqil bir məliki olmamışdır. Axırda, mərhum Pənah xan Cavanşirin dövlət günəşi və şövkət bayrağı riyasət üfüqündən baş vurub Qarabağ vilayətinin bütün sahələrini cəlal və



dəbdəbə ilə işıqlandırdı. Bu zaman xınzırıstanlı ***Məlik Mirzə xan***... bu ədəbi dövlət məmurlarının əmrilə məliklik sikkəsini ... adına kəsdirdi. Ondan sonra da oğlu ***Allahverdi*** və nəvəsi ***Məlik Qəhrəman***... məliklik bayrağını göylərə qaldırdılar.

Dördüncü ***Çiləbörd*** mahalıdır. Məlikləri ***Məlik Allahqulıdur***. Əsilləri ***Mağavizdən*** gəlmədir. Bunlar gəlib Çiləbörddə məlik olmuş, Tərtər çayının ortasında vaqe ən möhkəm bir məmləkətdə yerləşmişlər. Çox çətin bir yolu olan Cermux qalasını (Çiləbördün müxtəsər adıdır – *red.*) özlərinə məskən, sığnaq və mənzil etmişlər. Çiləbördə müstəqil olaraq yiyələnmiş və böyük bir şöhrət qazanmışlar... Nadir şah... ona sultanlıq rütbəsi və xələti verdi...

Beşinci ***Talış mahalıdır***. Məlikləri ***Məlik Usubdur***. Əsilləri Şirvandan gəlmədir. Bir müddət Talış kəndində sakin olmuşlar. Onlardan bir çoxu məliklik etmişdi. Sonralar məlik Usub Gülüstan qalasını zəbt edib orada sakin olmuşdur».

Beləliklə, Xaçın istisna olmaqla qalan məliklər gəlmə idilər. Bu məliklərə «erməni dövlətçiliyinin» davamı kimi baxılması kökündən yanlışdır. Gəlmə məliklər Qarabağda mahal başçılığını ələ keçirdikdən sonra kiçicik də olsa, heç bir dövlət birləşməsi yarada bilməmişdir. Onlar bir-birindən ayrı olan, çox zaman isə bir-birilə çəkişmədə olan mahal başçıları kimi qalırdılar. XVII yüzildən o yana onların kökü yoxdur. Tarixçilikdə olan fikrə görə, «məliklər Qarabağda feodal dağınıqlığının güclənməsini istəyən qüvvələri təmsil edirdi». Məlikliklərin bölüşdürücü davranışı xanlıqda və bütün ölkədə gedən mərkəzləşdirmə işinə mane olur, xarici qüvvələrin Qarabağ xanlığına hücumunun həyata keçirilməsində iştirak etməklə onun müstəqilliyini pozurdu.

Buna görə də məlikliklərin bölücülüyünü qırmaq üçün görülən iş etnik savaş olmayıb. Qarabağ xanlığının müstəqilliyi uğrunda mübarizə idi.

Xəmsə məliklərindən Pənah xanın hakimiyyətini birinci olaraq tanıyan Məlik Şahnəzər oldu. Bu, Məlik Şahnəzərin qızı Hürzətlə İbrahimxəlil ağanın nikah bağlaması ilə yoluna qoyuldu.

Xaçın məliyi ***Ulubab Ballıqayada*** məğlub edildikdən sonra Pənah xanın hakimiyyətini tanıdı. Dizaq, Çiləbörd, Talış məliklərinin düşmənçilik siyasəti isə bir neçə il sürdü. Əhməd bəy Cavanşir yazır: «Qonşu vilayətlərdən toplanmış xəzinə pullarını saxlayan Tuğ və Dizaq məliyi Yegan öz oğulları və qohumları ilə birlikdə kəskin müqavimət göstərdikdən sonra, onların bir hissəsi qırılmış, bir hissəsi isə islam dinini qəbul etmişdi... Çiləbörd məliyi Allahqulu Sultan əvvəlcə onun təbəəliyini qəbul etmiş, lakin sonralar xəyanətdə ittiham edilərək Pənah xanın əmri ilə öldürülmüşü. Onun qardaşı Məlik Hətəm Talışın beşinci məliyi Məlik Usubla ittifaq bağ-

layıb uzun müddət öz obalarını Pənah xan dəstələrinin hücumlarından müdafiə etmiş, lakin Mardakert kəndində uğradıqları məğlubiyyətdən sonra Tərtər çayının yuxarılarında yerləşən alınmaz Cermux qalasına çəkilmişdir. Bir ilə qədər qalada qaldıqdan sonra nəhayət, öz ailələri ilə birlikdə qürbət ellərdə nicat axtarmalı olmuşdular. Lakin onlar bununla öz siyasi fəaliyyətlərini bitirmədilər. Belə ki, sonralar onların həm özləri və həm də övladları (birincinin oğlu Məlik Məcnun) daim Qarabağa hücumlar edirdilər...» Pənah xanın məlikləri tabe etmək yolunda uğurlara baxmayaraq, İbrahim xan atasının mübarizəsini davam etdirməli oldu.

**QARABAĞ XANLIĞI SƏRHƏDLƏRİNİN GENİŞLƏNDİRİLMƏSİ.** «Bayat savaşı»ndan sonra Qarabağ xanlığı fəal surətdə ərazisini genişləndirməyə başladı. Bu zaman Qarabağ xanlığının nüfuzu güclənməkdə idi. Şirvan, Şəki, Gəncə, İrəvan, Naxçıvan, Təbriz və Qaradağ xanları Pənah xanın yanına elçilər göndərib onunla dost, müttəfiq olmaq istədiklərini bildirirdilər.

İranda baş verən ali hakimiyyət dəyişikliyi də bu işin axarını dəyişdirə bilmədi. Mirzə Camal yazır: «az bir müddətdən sonra Pənah xana xəbər çatdı ki, mərhum Nadir şahın oğlu Şahruh Mirzə Adil şah adlandırılan Əliqulu xanı öldürərək Xorasanda şahlıq taxtında oturmuş, İraq, Azərbaycan və Fars torpaqlarında qarma-qarışıqlıq üz vermişdir.

Bu zaman Pənah xan Gəncə, İrəvan, Naxçıvan və xüsusilə Ərdəbil vilayətlərini ələ keçirmək və o yerlərin xanlarını özünə tabe etmək qərarına gəldi. Az bir müddətdə onların bir parasını zorla, bəzisini isə məktub və elçi göndərmək və ya qohumluq vasitəsilə öz itaəti altına aldı. Xüsusilə, Sarıcalı Dərgahqulu bəyi Ərdəbilə hakim təyin etdi. Gəncə xanzadələrindən kefi istədiyi adamı hökumət işinə təyin etdi, istəmədiyini isə vəzifəsindən çıxarırdı. O, vilayətlərin xanlarının uşaqlarından bir neseçini girov adı ilə gətirib Şahbulaq qalasında saxlayırdı».

Məhəmməd Həsən xan Qacarın Azərbaycan xanlarını özünə tabe etmək uğrunda mübarizəsinin genişlənməsilə vəziyyət dəyişdi. Pənah xan həm də xanlıqlar arasındakı çəkişmələrin güclənidiyini görüb dövlətinin müdafiəsi işinə girişdi. Bu məqsədlə yeni bir şəhər-qala salmaq qərara alındı.

**ŞUŞA.** Belə bir qalanın salınmasında başlıca tələbləri Pənah xan özü müəyyən etmişdi. Bu məqsədlə Şahbulaqda keçirilən Dövlət şurasında xan demişdi: «Biz gərək dağların içində, möhkəm və keçilməz yerdə elə bir əbədi və sarsılmaz qala tikək ki, onu güclü düşmən belə mühasirə edə bilməsin. Qalanın bir tərəfi dağlarda olan ellərin üzünə açıq olmalı və mahallarla rabitəmiz, əlaqəmiz kəsilməməlidir». Bayat və Şahbulağın acı təcrübəsi daha alınmaz yer seçilməsini irəli sürmüşdü. Belə bir yer Azərbaycanın qədim yaşayış yerlərindən olan, lakin monqollar tərəfindən dağıdılmış Şuşa oldu. Bu yerdə quyulardan içməli su çıxması çox mühüm göstərici idi. Qısa bir vaxt içində burada bərpa işləri aparıldı və yeni qala tikildi.

Şuşa Azərbaycanın təkcə siyasi, iqtisadi və mədəniyyət mərkəzlərindən birinə deyil, həm də onun azadlıq və istiqlaliyyət rəmzinə çevrildi.

**QARABAĞ XANLIĞINA BASQINLAR.** Bayat qalasında olduğu kimi, Şuşanın da payına ilk, lakin çox mühüm sınaqdan çıxmaq çətinliyi düşdü. Şuşa qalası tikildikdən sonra Məhəmməd Həsən xan ora hücum etdi. Mirzə Camal yazır: «Qalanın tikilişindən bir il keçdikdən sonra Ağa Məhəmməd şahın atası Məhəmməd Həsən xan Qacar İraq və Azərbaycan (Güney Azərbaycan – *red.*) qoşunu ilə Şuşa qalasını almaq və mərhum Pənah xanı özünə tabe etmək məqsədilə Arazdan keçib qalanın dörd ağaclığında çadırlar qurdular. O, qalanı ələ keçirmək üçün çox düşündü, tədbirlər tökdü. Bir ay orada oturdu. Lakin bu qədər çoxlu qoşun ilə qalaya yaxınlaşa bilmədi. Pənah xan xanlığın mərkəzinin güclü müdafiəsini təşkil etməklə bərabər, düşmən üzərinə hücuma da keçdi. Xatın arxı deyilən yerdə baş verən döyüşdə Pənah xan qalib gəldi. Vuruşmadan sonra Məhəmməd Həsən xan Qacarın iki topu ələ keçirildi və qalaya gətirildi.

Məhəmməd Həsən xandan sonra, 1756-cı ildə Şuşa üzərinə urmiyalı Fətəli xan Afşar hücum etdi. Qarabağ uğrunda səkkiz ay davam edən mübarizə Pənah xanın asılılığı qəbul etməsilə nəticələndi. Lakin tezliklə Kərim xan Zəndin Fətəli xan Afşar üzərinə yeriməsi və Pənah xanı öz müttəfiqinə çevirməsi ilə bu asılılığa son qoyuldu. Urmiya xanlığı çökdürüldükdən sonra Kərim xan burada dustaq olan İbrahimxəlil ağanı buraxdırıb öz yanına çağırdı. Ona at, qılınc, xələt və Qarabağ xanlığı hakimiyyətinin fərmanın verib hörmət və təmtəraqla Qarabağa yola saldı. Pənah xan «Şiraz qonaqlığı»na aparıldı.* Beləliklə Qarabağ xanlığına ciddi zərbə vuruldu. Xanlığın banisi dövlətdən uzaqlaşdırıldı. İbrahimxəlil ağa Urmiyada həbsdə olarkən Qarabağ hakimi kimi tanınmış Mehrəli bəylə sonuncunun yeni xan fərmanı alan böyük qardaşı arasında daxili çəkişmə başlandı.

* Mirzə Camal yazır: «Mərhum Pənah xan az bir müddət Kərim xanın paytaxtı olan Şirazda qaldıqdan sonra əcəli çatıb Şirazda Allahın rəhmətinə getdi. Cənazəni böyük hörmətlə Qarabağa gətirib indi Ağdam adı ilə məşhur olan, özünün satın adığı, halal mülkündə dəfn etdilər». Mirzə Yusif Qarabağı isə Pənah xanın Kərim xanı aldadaraq Qarabağa, öz hakimiyyətinə dönmək istədiyini yazır: «Kərim xan Pənah xanın fikrini başa düşərək deyir: «Pənah xan mənim xeyirxah dostumdur. Buna görə də mən gərək onun cənazəsini tam hörmətlə Qarabağa göndərim. Onun qarnını yarıb ədviyyat ilə doldurduqdan sonra Qarabağa yola saldı».

Pənahəli xanın ölüm tarixi məzar daşı üzərindəki kitabəyə uyğun olaraq əbcəd ilə hicri, 1172, miladi, 1758/59-cu il sayılır.

**QARABAĞ XANLIĞI 60-80-ci İLLƏRDƏ. SEPARATÇI MƏLİKLƏRLƏ MÜBARİZƏ.** İbrahim xan Qarabağa qayıtdıqdan sonra hökmranlığı ələ almaq üçün qardaşı Mehrəli bəylə mübarizə aparmalı oldu. 1763-cü ildə İbrahim xan üstün gələrək, onu qubalı Fətəli xanın yanına qaçmağa məcbur etdi. Sonralar Mehrəli bəy Qarabağ xanlığına qarşı yürüşdə iştirak etdi. Bu mübarizəyə Mehrəli bəyin 1785-ci ildə öldürülməsi son qoydu. Lakin sonralar ***Mehrəli bəyin*** oğlu Məhəmməd bəy də atasının yolunu tutdu.

İbrahim xan atasının başladığı işi davam etdirmək üçün özünə müttəfiqlər axtarmağa çalışırdı. O, Car-Balakən camaatının başçısı Ümmə xanın bacısı ilə evləndi. «Nikah diplomatiyası» sonralar da onun işinə yaradı. Pənah xandan sonra güclənən çəkişmələrin, mərkəzdənqaçma qüvvələrin qarşısı alındı. İbrahim xan müəyyən dövrlərdə öz nüfuzunu Naxçıvan, Gəncə və Təbriz xanlıqlarına yaya bildi. Məliklərlə mübarizə yenə də kəskin və qəti davranış tələb edirdi. Qarabağ məliklərindən dizaqlı Yesay, çiləbördlü Məclum və gülüstanlı Bəyləryan İbrahim xana tabe olmaqdan imtina etdilər. Vərəndəli Məlik Şahnəzər və xaçınlı Mirzə xan isə İbrahim xanın hökmranlığını qəbul edərək, onun yaratdığı vətənsevər qüvvələr birliyinə qoşulmuşdular.

Müttəfiqlər 1781-ci ildə Tuğ qalasını mühasirəyə aldılar. Məlik Yesay təslim oldu. Burada hakimiyyət Məlik Bahtama keçdi. Lakin tezliklə o da dönük çıxdı.

İbrahim xanla onun hakimiyyətinə tabe omaqdan boyun qaçıran məliklər arasındakı mübarizəyə 1783-cü ildən Rusiya dövləti da qarışmağa başladı. Rusiya burada həmin məliklərin köməyi ilə «xristian dövləti» yaratmağa çalışırdı. İbrahim xan yüksək diplomatik bacarığı ilə düşmənçilik edən məlikləri Şuşaya toplaya bildi. Sənədlər əsasında onların Qarabağ xanlığına xəyanət etdiyini sübuta yetirərək onları həbsə aldırdı.

Məlik Məclum və Abov Şuşa həbsxanasına salındı, Məlik Bahtam isə siyasi məhbus kimi Ərdəbil xanına verildi. Məliklərin müttəfiqi Gəncəsər monastrının katolikosu İohannes qardaşı ilə tutulub cəzalandırıldı.

Lakin Şuşa həbsxanasındakı məliklər qaça bildilər. Tiflisə gələrək Qarabağ xanlığına qarşı burada hazırlanmış qəsdi II İrakli və polkovnik Burnaşovun köməyilə yerinə yetirməyə girişdilər. Düşmənlər Gəncəyə yaxınlaşdılar. Lakin 1787-1791-ci illər Rusiya-Türkiyə savaşının başlanması bu «xaç yürüşü»nün dayandırılmasına səbəb oldu. İbraxim xan Qarabağ müstəqil xanlığının bütövlüyünü qoruyub saxlaya bildi.

**QUZEY-GÜNDOĞAR AZƏRBAYCANIN BİRLƏŞDİRİLMƏSİ. QUBALI FƏTƏLİ XAN.** XVIII yüzilin ikinci yarısında Azərbaycanın həyatında Quba xanlığı mühüm rol oynayırdı. Quba xanlığı Azərbaycanın quzey-



gündoğar bölgələrinin birləşdirilməsi işində bir aparıcı qüvvə kimi çıxış edirdi. Bu bölgələrin birləşdirilməsi iki mərhələdən keçmişdir. İlkin olaraq Salyan, Dərbənd, Bakı xanlıqları, sonra isə Şamaxı və Cavad xanlıqları birləşdirilmişdir.

XVIII yüzilin ortalarında ***Salyanda*** xanlıq elan olunmuş, ***Rudbarlı İbrahim*** özünü müstəqil hakim elan etmişdi. Abbasqulu Ağa yazır ki, Qubalı ***Hüseynəli xan*** «hicri 1169-cu (1756) ildə oğlu Fətəli ağanı qoşunla göndərib, ata-baba mülkü olan Salyan nahiyəsini öz qohumu Rudbarlı İbrahim xanın əlindən geri aldı».

Salyanın ələ keçirilməsi iqtisadi və hərbi-strateji baxımdan tutarlı uğur idi. Salyan birləşdirildikdən sonra burada xanlıq ləğv edildi, irsi hakimə sultan adı verildi.

Artıq qarşıda duran mühüm vəzifə Şamaxı xanlığı üzərində hakimiyyətə malik olmaq idi. Bu sahədə Şəki xanlığı ilə kəskin rəqabət gedirdi. Lakin yaranmış vəziyyət Dərbənd xanlığının birləşdirilməsini önə çəkdi.

Dərbənd Quba xanlığı üçün böyük əhəmiyyətə malik idi. XVIII yüzilin 50-ci illərində burada **Məhəmməd Hüseyn** xan hökmranlıq edirdi. Dərbənd xanlığında mövcud olan öhbaşınalıq xalq kütləsini və hakim təbəqənin çoxunu Quba xanlığına birləşməyə yönəltmişdi.

Quba xanlığı belə bir şəraitdə Dərbənddəki siyasi vəziyyəti və ona qarşı çıxa biləcək qüvvələrin davranışını daima izləyirdi. Fətəli xan Güney Dağıstan hakimlərinin və 1758-ci ildə Beşbarmağa hücumunun dəf edilməsinə baxmayaraq, onunla düşmənçiliyi davam etdirən Şamaxı xanının Quba əleyhinə ittifaqının yaranmasına imkan vermədi. O, ağıllı siyasəti ilə hətta Dərbəndin tutulmasında Güney Dağıstan hakimlərini öz müttəfiqinə çevirdi.

1759-cu ilin noyabrında Dərbənd Fətəli xana tabe oldu. Abbasqulu Ağa bu barədə yazır: «Dərbəndlilər Məhəmməd Hüseyn xanın qardaşı ***Tahir bəyin*** pis rəftarından təngə gəlmişdilər. Fətəli xan onların təşviqi ilə 1172-ci (1759) ildə Dərbəndin üzərinə gedib azacıq mühasirədən sonra oranı da aldı. Məhəmməd Hüseyn xan öz istəyinə görə Bakıda yurd saldı».

**«NİKAH DİPLOMATİYASI».** Dərbənd xanlığından sonra birləşdirmə siyasəti Bakıya doğru yönəldi. Bakı xanlığı çox kiçik bir feodal hakimliyi idi. Əlverişli mövqeyinə baxmayaraq hərbi gücü yox kimiydi. Ona görə buraya tez-tez hücumlar olur, əhali qarət edilirdi. Quba xanlığı belə vəziyyətə yol vermək istəmədiyindən Bakı xanlığını öz himayəsi altına almaq üçün tədbirlər gördü. Bakı əhalisi, ən çox da sənət və alış-veriş adamları belə bir himayəçiliyi yaxşı qarşıladı. Fətəli xan bu işdə «nikah diplomatiyası»na əl atdı. Bacısı Xədicə Bikəni Bakı hakimi Məlik Məhəmmədə ərə verdi. Bu

nikah siyasi baxımdan tamamilə özünü doğrultdu. 1767-ci ildən Bakı və Abşeron torpağı Quba xanlığının siyasi nüfuzuna qovuşdu. Lakin Xədicə Bikə ilə evlənmək fikrində olan qaraqaytaq usmisi Əmir Həmzə düşmənçiliyə başladı. Halbuki o, Fətəli xanın qaynı və müttəfiqi idi. Bu dövrün rəsmi sənədlərində Fətəli xan artıq Quba, Dərbənd, Bakı və Salyan hakimi adlandırılırdı.

**ŞAMAXI XANLIĞI ÜSTÜNDƏ SAVAŞ.** Şamaxı xanlığı uğrunda ardıcıl mübarizənin başlanması ilə Azərbaycanın quzey-gündoğar torpaqlarının birləşdirilməsi ikinci mərhələsinə keçdi. Geniş iqtisadi imkanlarına və hərbi strateji mövqeyinə baxmayaraq, Şamaxı xanlığı Nadir şahın yürüşlərinin vurduğu zərbələrdən xeyli zəifləmişdi. Amma Şamaxı xanlığını tabe etmək asan olmadı.

Quba xanlığı ilə Şamaxı xanlığı arasında çəkişmə hələ Hüseynəli xanın vaxtında başlamışdı. Abbasqulu Ağa yazır: «...Hüseynəli xan hicri 1171 (1758)-ci ildə vəfat edi. Şirvanlı Ağa Razi Əsgər bəy oğlu dərhal gedib Qubanın Bərmək mahalını qarət etdi və 200 ailəni köçürüb gətirdi. Hüseynəli xanın oğlu Fətəli xan qisas almaq məqsədi ilə Şirvana hərəkət etdi. Ağa Razi bəy qarşıya çıxdı və qədim şəhərin xaricində məğlub edilib öldürüldü. Fətəli xan bir neçə aylıq mühasirədən sonra qətl-qarətdən əlavə öz elatının iki mislini götürüb geri qayıtdı». Lakin o zaman Şamaxı xanlığının tutulması hələ gerçək deyildi. Salyan, Dərbənd, Bakı üzərində hökmranlığa nail olduqdan sonra vəziyyət dəyişdi.

1763-cü ildə Yeni və Köhnə Şamaxının bir xanlıqda birləşdirilməsinə baxmayaraq bu xanlıq xarici qüvvələrdən yaxşı qoruna bilmirdi. Ona görə də bac verib Quba xanlığının gücünə arxalanmalı olurdu. Lakin Şamaxı xanlığı bir az keçdikdən sonra bu bacı verməkdən imtina etdi. Bununla iki xanlıq arasında münasibət çox kəskinləşdi. Şamaxı və Şəki xanlıqlarının ittifaqı Fətəli xana mane olurdu. O, çevik diplomatiya işlədərək Şamaxı xanlığından alınacaq gəlirin Şəki xanlığı ilə bölüşdürülməsi təklifini ortaya atdı. Şəkili Hüseynəli xan Fətəli xanın tərəfinə keçdi. Şamaxı xanlığı iki xanlığa bac verməkdən boyun qaçırdı. 1765-ci ildən tərəflər arasında silahlı toqquşmalar başladı. Danışıqlar yolu özünü doğrultmadı.

1768-ci ilin mayında Quba və Şəki qoşunları hərbi əməliyyata başladılar. Şamaxı xanlığının ərazisi tutuldu. İyun ayında Şamaxı alındı. Şamaxı xanlığı müttəfiqlər arasında bölüşdürüldü. ***Sə'dari*** və ***Qəsəni*** mahalları Hüseyn xana, qalan torpaqlar isə Fətəli xana çatdı. Abbasqulu Ağa yazır: «***Məhəmməd Səid xan*** çarəsiz qalıb Fətəli xanın, Ağası xan isə Hüseyn xanın yanına gəldi. Hüseyn xan Ağası xanı kor etdi. Fətəli xan da Məhəmməd Səid xanı həbs etdirib Dərbəndə göndərdi, şəhəri də Ağsuya köçürdü».



**ŞƏKİ XANLIĞI İLƏ İTTİFAQIN POZULMASI. MUĞANIN BİRLƏŞDİRİLMƏSİ.** Şəki xanlığı bu bölüşdürmədən narazı qaldı. Şamaxı xanlığındakı Quba əleyhinə olan qüvvələrlə Şəki xanlığı tərəfdarlarının ittifaqı yarandı. Bu çıxışın başında Manaf bəy dururdu. Lakin onun Şamaxı xanlığında Şəki hakimiyyətini qurmaq istəyi yerli əyanları təmin etmədiyindən köməksiz qaldı. 1768-ci il avqustun 17-də Fətəli xan iki minlik qoşun ilə Yeni Şamaxıya gəldi və ona qarşı çıxanları aradan götürdü. Şəki qoşunu işə qarışmaq üçün hücum etsə də, uğur qazanmadı. Şəkinin payına düşən mahallar onlardan alındı. Şamaxı xanlığı bütünlüklə Fətəli xanın idarəsinə keçdi.

Həmin ildə Muğanda yerləşən Cavad xanlığı da Quba xanlığına birləşdirildi. İstər yerləşməsi, istərsə də hərbi-strateji baxımdan Muğanın xanlığa qatılması sonuncunun getdikcə güclənməsi demək idi.

Beləliklə, Quba xanlığı Azərbaycanın quzey-gündoğar torpaqlarını birləşdirməyə nail ola bildi. Bu, Azərbaycanın həyatında böyük hadisə idi. Birləşdirilmiş xanlıqlar arasındakı ara müharibələri səngidi, Quba xanlığı artmaqda olan hərbi gücü ilə sabitləşdirici rol oynamağa başladı. Lakin yerli ayırıcı-bölücü qüvvələr yox olmamışdı. Bu qüvvələrin aradan götürülməsi qarşıda duran mühüm vəzifələrdən idi.

**1769-cu İL ŞAMAXI QİYAMI.** Şamaxı xanlığı birləşdirildikdən sonra burada ikinci qiyam baş verdi. Bir yandan yerli əyanlar öz ağalığının itirilməsi ilə barışmaq istəmirdilər. O biri yandan Quba xanlığının burada yaratdığı idarəçilik yaxşı deyildi. Əski Şamaxı xanlığının idarəsi Fətəli xanın qardaşı Abdulla bəyə verilmişdi. O, vergiləri artırır, əhalini incidirdi. Daxildəki narazılıq Quba xanlığı ilə düşmənçilik edən xarici qüvvələrin işə qarışması ilə qızışdırılırdı. Nəticədə, 1769-cu ildə qiyam qalxdı. Ona Məhəmməd Səid xan başçılıq edirdi. Qiyamçılar Şamaxı və Quba xanlıqları arasındakı savaşın başlanmasının ildönümü günü çıxış etmək, Şamaxıdakı yeni idarəçilik qüvvələrini Şəki xanlığının köməyilə əzmək, ***Sərkərlər*** sülaləsini hakimiyyətə qaytarmaq və Yeni Şamaxını Şəki xanlığına verməyi nəzərdə tuturdular.

Fətəli xan bütün qüvvələrlə Yeni Şamaxıya, şəkili Hüseyn xanın üzərinə getməyi qərara aldı. Döyüşdən öncə Məhəmməd Səid xanı gizli müşavirə adı ilə çağırıb həbs etdirdi. Səhərə yaxın Şəki xanının qoşunu üzərinə hücum edildi. Əməliyyat uğurla başa çatdı. Şəki xanı təslim oldu və onlar arasında yeni bağlaşma imzalandı. Şəki xanlığı Şamaxı xanlığına olan iddialarından əl çəkdi. Qiyamçılar cəzalandırıldı. Belə çıxışların baş verməsinin qarşısını almaq üçün tədbirlər görüldü. Yeni Şamaxı dağıdıldı, əhalisi isə köhnə Şamaxıya köçürüldü. Lakin mərkəzdənqaçma qüvvələrə

son qoymaq mümkün olmadı. Ağası xan və Abdulla bəy bu qüvvələrin başında çıxış edirdilər. 1772-ci ildə Abdulla bəyin ölümü onu tarix səhnəsindən çıxardı. Ağası xan isə Quba xanlığına qarşı mübarizəsini davam etdirdi.

**AZƏRBAYCANIN BİRLƏŞDİRİLMƏSİ UĞRUNDA MÜBARİZƏNİN HƏLLEDİCİ DÖNÜMÜ.** Fətəli xan quzey-gündoğar Azərbaycan torpaqlarını birləşdirdikdən sonra baş idarəsini Şamaxı şəhərinə köçürmək istəyirdi. Bu, həm iqtisadi, həm də siyasi tələblərdən irəli gəlirdi. Şamaxının iqtisadi mərkəzə çevrilməsi burada ticarət yollarının əlverişli olması və təsərrüfat imkanları ilə bağlı idi. Şamaxının siyasi mərkəzə çevrilməsi Şəki və Qarabağ xanlıqlarının birləşdirilməsində, həmçinin Güney Azərbaycan torpaqlarına doğru irəliləməkdə mühüm rol oynamalı idi.

Fətəli xanın siyasəti ciddi müqavimətə rast gəlirdi. Ona mane olmaq istəyən qüvvələr əslində iki cəbhədə birləşməyə başladılar. Onlardan birini Şəki, Qarabağ xanlıqları və Ağası xan təmsil edirdi. Bir başqasında isə Güney Dağıstan hakimlərindən Qaraqaytaq üsmisi Əmir Həmzə, Qazıqumuğlu Məhəmməd xan, Avar başçıları ***Nusal xan*** və ***Ümmə xan***, tabasaranlı ***Rüstəm***, canqutaylı ***Əlisultan*** və başqaları birləşdilər. II İrakli də birinci ittifaqa qoşuldu.

1773-cü il noyabrın sonu, dekabrın başında Şəki, Avar və Qarabağın birləşmiş qüvvələri Fətəli xana qarşı hərəkət etdilər. Şamaxı tutuldu. Lakin Fətəli xan qoşunlarını toplayıb öz mövqelərini bərpa edə bildi. Abbasqulu Ağa Bakıxanov yazır: «Bir neçə vaxt keçdikdən sonra Fətəli xan bütün Şirvan ölkəsini aldı və qədim şəhəri yenə abad etdi. Kür çayının kənarında, Kotevan qalasında sakin olub ölkəsini geri almağa çalışan kor Ağası xan Hüseyn xana pənah apardı. Hüseyn xan Avar xanzadələrindən ***Bulac*** və ***Məhəmməd Mirzənin*** sərkərdəliyi ilə Avardan qoşun götürüb Şirvana, Fətəli xanın üstünə gəldi. İki qoşun qarşılaşdığı zaman araya barışıq məsələsi düşdü. Gözlənilmədən, hər iki tərəfdən bir neçə nəfərin birdənbirə çəkişməsi nəticəsində arada şiddətli döyüş və vuruşma başladı. Bu müharibədə Bulac və Məhəmməd Mirzə öldürüldü. Hüseyn xan məğlub olub Şəkiyə, Ağası xan da yenə Kotevana getdi».

1774-cü ilin başlanğıcında yenidən savaş oldu. Ağası xan Fətəli xanın qan düşməni və Qarabağa gəlmiş olan avarlı Nusal xanı özünə müttəfiq edib Şamaxı şəhərini aldı. Fətəli xan Quba və Dağıstandan qoşun toplayıb bakılı ***Məlikməhəmməd*** xanla birlikdə onları əzdi. Ağası xan qaçdı, Nusal xan isə «qədim şəhərin yuxarı hissəsində çıxılmaz və çətin bir sığınacaqda gizləndi» (A.Bakıxanov). Fətəli xan ona aman verib öz yanına gətirtdi. Bu zaman ***Aqquşa*** qoşunu toplayıb, Nusal xan ilə keçmişdə ədavətləri



olduğu üçün onun öldürülməsini xahiş etdilər. Fətəli xan «çarəsiz qalıb» (A.Bakıxanov) razılıq verdi. Bu zaman Nusal xanın tərəfdarları ilə birlikdə öldürülməsindən istifadə edən üsmi Əmir Həmzə yenidən Fətəli xana qarşı çıxdı. Şamxal Dişsiz Məhəmməd damadı qazıqumuqlu Məhəmməd xan ilə birləşib savaşa başladı. Fətəli xan onlarla qarşılaşmaq üçün Qubaya gəldi. Ağası xan onun getməsindən istifadə edib Şirvanı tutdu.

1774-cü ilin iyul ayında Xudat yaxınlığında Gavduşan çölündə çox ağır döyüş baş verdi. Fətəli xan bu döyüşdə məğlub olub Salyana çəkildi. Döyüşdə yaxın müttəfiqi «Dişsiz Şamxalı» itirən Əmir Həmzə, Fətəli xanın yalan ölüm xəbərini Dərbənddə olan öz bacısı ***Tutu Bikəyə*** göndərərək qalanın verilməsini tələb etdi. Tutu Bikə ona inanmadı. Gecə-gündüz bürclərin üzərində göründü, qalanın qorunması işini birbaşa öz əlinə aldı. Məhəmməd xan Qubanı ələ keçirdi.

Fətəli xan Salyandan çıxdı, gizlicə Şabran və Müşkürdən keçib Dərbəndə qayıtdı. Əmir Həmzə qoşununu bir daha Dərbəndə yönəltdi. Şəhəri tuta bilmədiyinə görə onu mühasirəyə aldı və doqquz ay orada dayandı.

**DƏRBƏND MÜHASİRƏSİNİN SONU, İTİRİLMİŞ TORPAQLARIN GERİ QAYTARILMASI.** Fətəli xan çox çətin bir vəziyyət yaranmasına baxmayaraq, olduqca çevik davrandı. Bütün daxili qüvvələri səfərbərliyə aldı. Beynəlxalq münasibətlərdə yaranmış dəyişikliklərdən bacarıqla istifadə etdi. Bu zaman Rusiya-Türkiyə savaşı (1768-1774) yenicə başa çatmışdı. Bütün bu savaş boyu Xəzər dənizinin günbatar bölgələrində Rusiya dövləti üçün kəşfiyyat araşdırması aparan S.Q.Qmelin* Qaytaq hakimi Əmir Həmzə tərəfindən həbs edilmiş, 1774-cü ildə burada əsirlikdə ölmüşdü. II Yekaterina kəşfiyyatçı alimin ölümündə günahkar olan Əmir Həmzəni cəhalandırmaq üçün general ***İ.F.de Medemin*** hərəkət etməsi haqqında sentyabrın 5-də fərman verdi. De Medem Fətəli xanın müttəfiqi ***Şamxal Murtuzəli xanla*** 1775-ci ilin martında fəaliyyətə başladı. Əmir Həmzə Dərbəndin mühasirəsindən əl çəkəsi oldu. De Medem əslində imperatriçanın ona verdiyi səlahiyyəti aşmışdı: II Yekaterinanın dediyi

---

* Rusiya imperator akademiyasının həqiqi üzvü S.Q.Qmelin öz hökumətinin tapşırığı ilə Həştərxanla Gilan arasında yerləşən Xəzər sahili bölgələri haqqında gizli məlumat toplayırdı. Onun buraya birinci gəlişi 1764-1772, ikinci gəlişi isə 1772-1774-cü illərə düşür. Sonuncu gəlişində «elmi axtarışların» arxasında ayrıca dövlət tapşırığının gizləndiyi Dağıstan, Azərbaycan və Gilan hakimlərinə artıq bəlli olmuşdu. Əmir Həmzənin Rusiya akademikini yaxalayıb həbsxanaya atması bununla bağlı idi. Axtarışların özünə gəldikdə, ayrıca kitab kimi on bir il sonra çap edildi: S.Q.Qmelin, Puteşestvie po Rossii dlya issledovaniya vsex trex tsarstv estestva, SPb., 1785 (Red.)

kimi, «səfehlik edərək» Dərbəndə girmiş, 1775-ci ilin iyununa kimi orada qalmışdı. O, Dərbəndi tərk edərkən şəhərdə daha bir il qalmaq üçün dəstə qoymuşdu. Görünür, onunla Fətəli xan arasında gizli razılaşma var idi, əvvəlcə Fətəli xan yardım və himayə almaq üçün Rusiyaya ***Mirzə bəy Bayatı*** elçi göndərmişdi.

Dərbəndin mühasirəsinə son qoyulduqdan sonra Fətəli xan 1774-cü ilədək olan vəziyyəti bərpa etdi.

**BİRLƏŞDİRMƏ SİYASƏTİNİN DAVAM ETDİRİLMƏSİ.** Fətəli xan öz mövqeyini bərkitdikdən sonra daxili siyasətini yenidən fəallaşdırdı. Bu siyasət əvvəlcə Qarabağ xanlığına qarşı yönəldi. Qarabağ xanlığını tabe etmək üçün Dərbənd, Bakı, Cavad, Şamaxı xanlıqlarını birləşdirərkən işlədilən üsulların yaramadığını görən Fətəli xan diplomatiya yoluna əl atdı.

O, İbrahim xanı müqavilə bağlamaqla asılı etməyə çalışdı. 1779-cu ildə Bakı xanı Məlikməhəmmədi İbrahim xanın yanına göndərdi. İbrahim xan bu elçiliyin mənasını başa düşərək Məlikməhəmməd xanı həbs etdi və iki il həbsxanada saxladı. Azərbaycanın iki güclü xanlığı arasında münasibətlər kəskinləşdi.

Bu zaman Kərim xan Zəndin ölümü ilə Qarabağ xanlığı üzərində İran sıxıntısı azaldı. Xanlıq uğrunda qardaşı İbrahim xanla mübarizə aparan Mehrəli bəy yerli qüvvələrə ümidini itirərək, Fətəli xanın tərəfinə keçdi. Əhməd bəy Cavanşir yazır: «... Kərim xan vəfat etdi (1779) və İran monarxiyası yenə də müstəqil xanlıqlara parçalandı. Bu müvəffəqiyyətsizlik Mehrəlini o zaman öz torpaqlarını birləşdirməyə səy edən və Zaqafqaziyanın ən qüdrətli hökmdarlarından olan qubalı Fətəli xana qoşulmağa məcbur etdi».

1780-ci ilin başında Fətəli xan Qarabağa yürüş keçirdi, ancaq yürüş uğursuzluqla bitdi. Sonrakı bir il içərisində keçirilən daha iki yürüş də uğursuz oldu. Abbasqulu Ağanın yazdığına görə, hicri 1179 (1785)-ci ildə «qardaşı qarabağlı İbrahim xandan üz çevirmiş olan Mehrəli bəy Fətəli xanın yanında idi. Bir gecə Bakıdan Şirvana getdiyi zaman yolda Ağası xanın böyük oğlu Əhməd bəyə rast gəldi, aralarında döyüş oldu, Mehrəli bəy öldürüldü. Fətəli xan onun cənazəsini kamali-ehtiramla Qarabağa göndərdi. Bu hadisədən sonra İbrahim xanla Fətəli xan dostlaşmağa başladı. Ağası xana qarşı hər iki tərəfdən qoşun göndərildi. Ağası xan məcbur qalıb Fətəli xanın hüzuruna gəldi oğlanları ilə bərabər məhbus olaraq Qubaya göndərildi».

İki xanlıq arasında münasibətlər bundan sonra da müsbət dəyişikliyə uğramadı. Fətəli xan 1787-ci ilin yanvarında ona qarşı çıxan İbrahim xana üstün gəldi. Ancaq Qarabağ xanlığına girib irəliləyə bilmədi.



Bu zaman Şəki xanlığında baş verən daxili çəkişmələr Fətəli xan üçün əlverişli şərait yaratdı. 1780-ci ildə Hacı Çələbinin oğlu ***Hacı Əbdülqədir*** Şəkidə 22 il hökmranlıq etmiş Hüseyn xanı öldürüb hakimiyyətə keçdi. O, Fətəli xanla yaxınlaşıb ittifaq bağlamağa can atırdı. Belə bir davranış Şəki xanlığının Fətəli xandan asılılığına şərait yaradırdı. Ancaq bu davranış xanlıqda rəğbətlə qarşılanmadı. Bir neçə il sonra Əbdülqədir xan öldürüldü, Hüseyn xanın oğlu Məhəmmədhəsən ağa Şəki xanı oldu. Yeni xan Fətəli xana qarşı düşmənçilik siyasəti yeridirdi. 1785-ci ildə tərəflər arasında qaçılmaz müharibə baş verdi. Abbasqulu Ağa yzır: «Bu müharibədə məğlub olan Məhəmmədhəsən xan öz bacısını Fətəli xana verib barışdı. Fətəli xan da ittifaqı möhkəmləndirmək məqsədi ilə öz bacısı ***Huri Peykər*** xanımı ona verdi». Lakin mübarizə bununla bitmədi. Məhəmmədhəsən xan II İrakli ilə ittifaq bağlayan Fətəli xanın qoşunları üzərinə yeridi. 1788-ci ildə Şamaxı yaxınlığında baş verən döyüş Məhəmmədhəsən xanın məğlubiyyəti ilə başa çatdı. Şəki xanlığı Fətəli xandan asılı vəziyyətə düşdü. Elə həmin ilin dekabrında Fətəli xan Gəncə xanlığını da yaratdığı dövlət birliyinə qatdı.

Fətəli xan Güney Azərbaycan torpaqları barədə çox düşünürdü. O, 1784-cü ilin yazında Arazı keçərək Güney Azərbaycan torpaqlarına daxil oldu, avqust ayında Ərdəbil və Meşkini tutdu. Lakin Rusiyanın kəskin etirazı qarşısında o, yürüşü dayandırıb Şirvana qayıtmalı oldu.

Fətəli xanla II İrakli arasında Güney Azərbaycana yeni yürüş etmək haqqında 1788-ci ildə əldə edilən razılıq Fətəli xanın ölümü ilə həyata keçirilməmiş qaldı.

**FƏTƏLİ XANIN ÖLÜMÜ.** Fətəli xan ölümünə yaxın Azərbaycan torpaqlarının böyük bir hissəsini hakimiyyəti altında birləşdirə bildi. Bunun nəticəsində o, bütün Azərbaycanın işlərində aparıcı rol oynamağa başladı. Onun siyasəti beynəlxalq münasibətlərə də təsir göstərirdi. Belə bir şəraitdə Fətəli xanın vəfat etməsi o dövr tarixinin qaranlıq səhifələrindən biri olaraq qalmaqdadır. Abbasqulu Ağa Bakıxanov yazır: «... Bütün istiqlal və ehtişam vasitəsinə malik olan Fətəli xan Azərbaycan və bəlkə də bütün İran işlərini intizama qoymaq xəyalilə Gürcüstan valisi İrakli xanla görüşüb məsləhətləşmək binasını qoydu. İrakli xan da öz dudmanlarından ***Sadıq bəy Yadigar oğlunu*** səfir sifətilə Fətəli xanın yanına göndərdi... Fətəli xan cah və cəlalla Nuxu şəhərinə getdi. Bir neçə gün qonaqlıq və şadlıqla keçirib Gəncəyə yola düşdü. ***Cavad xan ibn Şahverdi xan Ziyadoğlu Qacar*** ölkənin bütün əyanı ilə bərabər Kür çayının kənarında onu pişvaz edib qalanın qapılarını üzünə açdı. Fətəli xan da Cavad xanın əlindən çıxmış Şəmsəddinli mahalını Gürcüstan valisindən alıb ona verdi.

Xülasə, yüksək mərtəbəli iki vali Şəmkir yaxınlığında bir-birilə görüşdülər Rusiya dövlətindən himayə görmək ümidilə tədbirlər gördülər. Geri qayıtdığı zaman Fətəli xan şiddətli bir qızdırmaya tutuldu. Xəstəliyi gündən -günə şiddətləndi. Buna görə sürətlə Şirvana, buradan da Bakıya, bacısının yanına getdi. Hicri 1203 (1789)-cu ildə mart ayının 22-də, 54 yaşında ikən vəfat etdi».

Aşağıda xanlıqların xarici siyasətinə ayrıca yer veriləcək, Azərbaycan -Gürcüstan və Azərbaycan-Rusiya münasibətləri açıqlanacaqdır. Tarixçi Bakıxanovun arayışından isə bir sıra mühüm məsələ ortaya çıxır: 1. Fətəli xanın öz hakimiyyətini durmadan genişləndirməsi; 2. Şəkidə onun sağlamlığının heç bir narahatlıq doğurmaması; 3. Şəmsəddinli mahalının Gürcüstandan geri alınıb Gəncə xanlığına qaytarılması; 4. Rusiyanın yardımı ilə Azərbaycan-Gürcüstan hərbi birliyi yaramaq və Qacar basqınına qarşı hazırlaşmaq üçün tədbirlər görülməsi. Unutmamalı: bu zaman Rusiya Türkiyə ilə yenə savaşda idi və Transqafqaz işlərinə əsgəri qüvvə ilə qatışmağa çətinlik çəkirdi. Azərbaycandakı vəziyyətin sonrakı axarı, Fətəli xanın yaratdığı dövlət birliyinin dağılması və bunun ardınca Rusiyanın Quzey Azərbaycanı işğal etməsi bu ölümün arxasında sui-qəsdçi əllərin olması ehtimalını ortaya atır.

## 3. AZƏRBAYCAN XANLIQLARININ XARİCİ SİYASƏTİ

**XARİCİ SİYAƏTİN ƏSAS İSTİQAMƏTLƏRİ.** Azərbaycanın geosiyasi mövqeyi onun beynəlxalq münasibətlərdə vacib yer tutmasına səbəb oldu. Azərbaycan xanlıqların timsalında dövlətçiliyini bərpa etdikdən sonra müstəqil xarici siyasət yeritməyə başladı. Bu siyasətin əsas istiqamətləri, başlıca olaraq, xanlar tərəfindən taxt-tacda öz hakimiyyətlərinin möhkəmləndirilməsinə nail olmaqdan, onu qorumaqdan, xarici iqtisadi əlaqələri təmin etməkdən və s. ibarət idi. Urmiya. Şəki. Quba və Qarabağ xanları xarici siyasətdə Azərbaycan torpaqlarının birləşdirilməsinə nail olmağa xüsusi diqqət yetirirdilər. Azərbaycan xanlıqları bu məqsədləri həyata keçirmək üçün, əsasən, İran, Türkiyə, Rusiya və Gürcüstanla müvafiq münasibətlər yaratmağa çalışırdı.

**İRANLA MÜNASİBƏTLƏR.** Nadir şahın ölümündən Kərim xan Zənd dövlətinin yaranmasınadək olan dövrdə (1747-XVIII yüzilin 60-cı illərinin başlanğıcı) Urmiya xanlığı İranda mərkəzi hakimiyyəti ələ keçirmək uğrunda mübarizə aparırdı. Lakin Kərim xan Güney Azərbaycan xanlıqlarını, əsasən, tabe etdikdən sonra onları asılı vəziyyətə saldı. Qeyd edildiyi kimi, onun Urmiya xanı Fətəli xanla barışmasına baxmayaraq, xanı qətlə yetirmişdi. Bu, Azərbaycanın Güney xanlıqlarına qarşı təcavüzkarlıq siyasətinin nəticəsi idi.



Kərim xanın əyalət xanlıqları ilə münasibəti onlar tərəfindən müəyyən edilmiş verginin vaxtlı-vaxtında ödənilməsi, müdafiə əhəmiyyətli tikinti işlərində onların iştirakı və onun əmrlərinin necə yerinə yetirilməsilə müəyyən edilirdi. Əyalət xanlıqları ilə əlaqələrin möhkəmləndirilməsində nikah bağlanması və əmanətlər götürülməsinə də əhəmiyyət verilirdi. Şiraz «qonaqları» məhz belə əmanətlər idi.

Azərbaycanın güney xanlıqlarına qarşı münasibətlərin quzey xanlıqlarına da şamil edilməsinə cəhd göstərilirdi. Belə ki, Kərim xan Zənd müttəfiqi Pənahəli xanı da geri buraxmamış, fərman verərək Qarabağ xanlığına hakim təyin etməklə onun daxili işlərinə qarışmağa cəhd göstərmişdir.

XVIII yüzilin 60-cı illərinin sonundan Qarabağda İbrahim xanın mövqeyinin möhkəmlənməsi onun İrandan asılı olmayaraq müstəqil siyasət yeritməsinə imkan verdi. Bu, İbrahim xanın İranın təcavüzünü dəf edə biləcək hərbi-siyasi qüvvəyə malik olmasından irəli gəlirdi.

Quzey-gündoğar Azərbaycan torpaqlarını birləşdirən Fətəli xan da Kərim xanın onun daxili işlərinə qarışması siyasətinin əleyhinə çıxış edirdi. Kərim xan bir tərəfdən Fətəli xanın birləşdirmə siyasətinə mane olmaq istəyir, digər tərəfdən isə Rusiyanın quzey Qafqazda möhkəmlənməsi və Quba xanlığının Rusiya ilə yaxınlıq etməsindən narahat olurdu. O, Fətəli xanın birləşdirmə siyasətinin qarşısını almaq üçün müəyyən tədbirlər gördü. Fətəli xanın yanına elçilər göndərir, onun dinc yolla tabe edilməsinə cəhd göstərirdi. Bu məqsədlə nikah diplomatiyasına əl ataraq Fətəli xanın bacısı Fatma xanımı oğluna almaq istəyirdi. Fətəli xan belə bir qohumluqdan imtina etdiyinə görə xanlığa yürüşlər təşkil etdi. Yürüşlər uğursuzluqla başa çatdı. Bu, Fətəli xanı İran üzərinə yürüş hazırlamağa sövq edirdi.

De Medemin 1775-ci ildə Dərbəndə yürüş etməsi İranın xarici siyasətini daha da fəallaşdırdı. Rusiya xarici siyasət idarəsinə həm də Türkiyə tərəfindən göstərilən təzyiq de Medemin 1777-ci ildə oradan çıxarılması ilə nəticələndi.

Kərim xan öz siyasətini həyata keçirmək üçün hərbi strateji cəhətdən əlverişli yer olan Gilan xanlığının möhkəmləndirilməsinə mühüm diqqət yetirməyə başladı. 1776-cı ildə Zəki xanın cəza dəstələrinin Gilan xanı Hidayət xana vurduğu zərəri ödəmək üçün Ərdəbil şəhərini ona verdi. Əvvəllər Talış xanlığına məxsus olan Astara da İranın köməyilə Hidayət xana verilmişdi.

Fətəli xan belə şəraitdə böyük diplomatik məharət göstərərək İran, Türkiyə və Rusiya arasında manevr etməli olurdu. 1774-cü il Gavduşan döyüşündəki məğlubiyyətdən sonra İrana münasibətdə ehtiyatlı olmaq

tələb edilirdi. 1775-1776-cı illərdə Fətəli xanla Kərim xan arasında elçilər mübadiləsi oldu. Lakin Fətəli xan öz müstəqilliyini heç bir vəchlə güzəştə getmək istəmirdi. Ona görə də Kərim xanla Hidayət xan Quba xanlığına qarşı fitnəkarlıq edirdilər. Kərim xan 1776-cı ilin iyun ayının əvvəllərində Ənzəlidəki rus konsulluğunun məmurunu yanına çağıraraq, guya Fətəli xanın rusları Dərbənddən qovmaq üçün Kərim xan Zənddən qoşun istədiyini və Fətəli xanın bu «qiyamçı niyyətini» lazımi yerə çatdırmaq zərurətini bildirdi. Bu qəbildən olan məlumatlar Dərbənddə də ruslara çatdırıldı, hətta II Yekaterinanın ayrıca bir fərmanında öz əksini tapdı. Lakin bütün bunlar Fətəli xanın diplomaik addımları idi. O, İrana yaxınlıq göstərməklə Rusiyaya təsiri artırmaq, onun daha ehtiyatlı hərəkət etməsi və Quba xanlığına hərbi kömək göstərməsinə nail olmaq məqsədini güdürdü.

Diplomatik təxribat baş tutmadığından Gilan xanlığı Quba xanlığına qarşı açıq müdaxiləyə başladı. O, bu siyasətdə əvvəlki kimi İran hökmdarı Kərim xan Zəndə arxalanırdı. 1778-ci ilin yanvarında Gilan qoşunları Talış xanlığına hücum etdilər, aprel ayında isə Salyanı tutdular və Muğana çıxdılar. Hidayət xan təcavüzkarlıq fəaliyyətində Quba xanlığının düşmənlərinə böyük ümid bəsləyirdi. İran qoşunu Muğana gəldikdə keçmiş Şamaxı xanı Ağasının dəstələrilə birləşdi. Güney Dağıstan hakimlərilə əlaqə yaradıldı. Fətəli xan, Cavada hücum edən Gilan qoşunlarına müqavimət göstərməyə hazırlaşdı, lakin Güney Dağıstan hakimləri ona mane oldular. 1778-ci il aprelin 6-da Cavad tutuldu. Gilan xanlığı tərəfindən dağıdıcı hücumlar sonralar da davam etdirilirdi.

Kərim xan Quba xanlığı ilə yanaşı Kartli-Kaxet çarlığına da hücuma hazırlaşırdı. 1778-ci il üçün nəzərdə tutulan bu planın üstünün açılması, Rusiya tərəfindən İrana təzyiq göstərilməsi, nəhayət Kərim xan Zəndin ölümü ilə əlaqədar yürüş baş tutmadı. Yalnız Ağa Məhəmməd Qacarın hakimiyyətə gəlməsilə İranın Güney Qafqazın siyasi həyatında rolu fəallaşdı.

**OSMANLI İMPERATORLUĞU İLƏ MÜNASİBƏTLƏR.** XVIII yüzilin 40-cı ilindən etibarən Azərbaycan xanlıqları ilə Osmanlı imperiyası arasındakı münasibətlər də xüsusi əhəmiyyətə malik idi. Bu münasibətlərin formalaşmasında 1768-1774-cü illər Rusiya-Türkiyə müharibəsi vacib yer tuturdu. Osmanlı imperiyası Qafqazda Rusiya-Gürcüstan blokuna qarşı müsəlman dövlətlərinin ittifaqını yaratmağa çalışırdı. Bu məqsədlə Azərbaycan xanlıqlarına elçilər yollanır, onlara göndərilən fərmanlarda Rusiya ilə mübarizəyə qoşulmağın zərurəti əsasladırılırdı.

1770 və 1771-ci illərdə Quba xanlığına xüsusi elçilik göndərilmişdi. Rusiya Osmanlı imperiyasının bu istiqamətdəki fəaliyyətini təşvişlə izləyir və müvafiq tədbirlər görməyə cəhd edirdi. Azərbaycan xanları belə bir



vəziyyətdə mövqelərini möhkəmləndirməyə xüsusi fikir verirdilər. Rus casuslarının topladığı məlumatlar Azərbaycan xanlarının Osmanlı imperiyası ilə dostluq münasibətlərində olduğunu aşkar etdi. Bu sahədə Şamaxı xanlığı və onun sünni ruhaniləri mühüm yer tuturdu. Lakin Osmanlı imperiyası ilə münasibətlərdə iqtisadi və siyasi mənafelər üstünlük təşkil edirdi. Ona görə də çar diplomatiyası hər vasitə ilə Osmanlı imperiyası ilə Azərbaycan xanları arasındakı münasibətləri pisləşdirməyə çalışırdı. Rusiya bu sahədə hərbi vasitələrə əl atırdı. Qızlar və Terekdəki rus qoşunları cəbhəyə göndəriləcək qüvvələr hesabına möhkəmləndirilmişdi. Məhz buna görə də Azərbaycan xanları Rusiya-Türkiyə müharibəsində Osmanlı imperiyasına hərbi yardım göstərmək imkanından məhrum olmuşdu. Digər tərəfdən Osmanlı və Rusiya dövlətlərinin savaşda olmaları xanlıqların öz daxili işlərinə daha çox vaxt ayırmasına imkan verirdi.

Kiçik Qaynarca müqaviləsindən (1774) sonra Osmanlı imperiyası ilə Azərbaycan xanlıqları arasındakı yaxınlaşma daha da artdı. Bu imperiya Rusiya ilə münasibətlərin yenidən kəskinləşəcəyi halda Azərbaycan xanlıqlarından istifadə etmək niyyətində idi. Azərbaycan xanlıqları da Rusiyanın təcavüzünün genişlənəcəyi təqdirdə Osmanlı imperiyasının himayəsinə keçməyə çalışırdı. Qarabağ, Şəki və Quba xanları bu niyyətlə 1785-ci ildə İstanbula elçilik göndərmişdi. Osmanlı imperiyası Rusiya ilə münasibətləri daha da genişləndirməkdən ehtiyat edərək açıq hərəkət etmək istəmirdi. Osmanlı imperiyası 1787-1791-ci illər rus-türk müharibəsində ağır şərtlərlə Yassı sülhünü imzalamalı oldu. Bu, bölgədə Rusiyanın nüfuzunu gücləndirdi.

**RUSİYA İLƏ MÜNASİBƏTLƏR.** Azərbaycanın Rusiya ilə münasibətləri həm xanlıqların daxili vəziyyəti, həm də beynəlxalq hadisələrin təsiri altında tənzimlənirdi. Bu münasibətlərdə aşağıdakı dövrləri fərqləndirmək olar: 1. Xanlıqların yaranmasından 1768-1774-cü illər rus-türk müharibəsinin başlanmasınadək; 2. 1768-1774-cü illər rus-türk müharibəsi dövrü; 3. 1774-cü il Kiçik Qaynarca sülhündən 1783-cü il Georgiyevsk müqaviləsinədək.

Nadir şahın ölümündən sonra Qafqazda vahid dövlət əvəzinə hələ hərbi-siyasi cəhətdən kifayət qədər möhkəmlənməmiş xanlıqların meydana gəlməsi Rusiyanın təcavüzkarlıq planlarının həyata keçirilməsi üçün əlverişli şərait yaradırdı. Bu dövrdə çarizmin işğalçılıq niyyətlərinin reallaşdırılmasına Osmanlı imperiyası mane olurdu. Ona görə işğalçılıq planlarının həyata keçirilməsi üçün hərbi strateji tədbirlərə üstünlük verilirdi: Qafqaz xətti möhkəmləndirilir, orada qoşunların sayı artırılır, torpaqlarda rus və kazak kəndləri salınırdı. Rusiya 1768-1774-cü illər müharibəsinə

hazırlıq dövründə Quzey Azərbaycan xanlıqları ilə zahirən dostluq münasibətləri yaratmağa və özünə qarşı rəğbət oyatmağa çalışırdı. Müharibə dövründə isə xanlıqların bitərəfliyinə nail olmağa üstünlük verilirdi, bununla birgə Azərbaycanın sosial-iqtisadi və siyasi vəziyyətini öyrənmək və hərbi-strateji potensialını müəyyən etmək üçün müxtəlif ekspedisiyalar təşkil edilirdi. Onların içərisində ***S.Q.Qmelinin*** və ***Q.A.Gildenşdetin*** ekspedisiyaları mühüm yer tutur.

Qmelinin Qaraqaytaqda öldürülməsinin Kiçik Qaynavca müqaviləsi ilə bir vaxta düşməsi Rusiyanın Qafqaz siyasətini genişləndirməyə imkan verdi. II Yekaterina 1774-cü ilin iyul ayında Qaraqaytaq üsmisini cəzalandırmaq üçün ekspedisiya göndərdi. Lakin İran və Osmanlı imperiyasının etirazı de Medemin qoşunlarının Dərbənddən çıxarılması ilə başa çatdı.

**FƏTƏLİ XANIN ELÇİSİ MOSKVADA.** Gavduşan döyüşündəki məğlubiyyətdən sonra əvvəlki mövqeyini bərpa etməyə çalışan Fətəli xan Rusiya ilə diplomatik münasibətlərin canlandırılmasına xüsusi fikir verirdi. Bu məqsədlə, 1775-ci ilin yazında Dərbənd hakimi ***Mirzəbəy Bayat*** (Fərhadbəyli) başda olmaqla rus sarayına elçilik göndərildi. Elçilik may ayında Həştərxana, iyulun 6-da Moskvaya çatdı. Fətəli xanın rus hökumətinə məktubu diplomatik etiketin tələblərinə tam cavab verirdi. Məktubda xanın nəslinin keçmiş zamanlardan rus sarayı ilə dostluq münasibətlərində olduğu göstərilirdi. Fətəli xan bu dostluğa sadiq qaldığını və Rusiyanın elçilərinə, tacirlərinə və bütün rus müsafirlərinə köməklik göstərdiyini bildirirdi. Məktubda Quba xanlığının Osmanlı imperiyası və İran ilə münasibətləri də səciyyələndirilir və xanlığın müstəqilliyi əsaslandırılırdı. O, möhkəm əmin olduğunu bildirirdi ki, Krım xanlığına Krımda, gürcülərə isə Gürcüstanda öz işlərində «əmin-amanlıq, firavanlıq və müstəqillik təmin olunduğu kimi», Quba xanlığına münasibətdə də general-poruçikə (de Medemə – *Red.*) göstəriş veriləcək ki, yaranmış vəziyyətdə onun düşmənlərini cəzalandırsın və susdursun. Şirvan ölkəsini Kür çayının bu tərəfi üzrə bütünlüklə düşməndən geri alsın və ona versin ki, adı çəkilən vilayətlərdə o, böyük işlərin idarəsilə sakit və müstəqil məşğul olsun. Bununla birlikdə xan Rusiyaya Dərbəndi güzəştə getməyə razı olduğunu bildirmiş və şəhərin açarını çariçaya göndərmişdi.

Fətəli xanın Rusiyanın himayəsi altında Quba xanlığının statusunu Gürcüstan və Krımla eyniləşdirməsi təsadüfi deyildi. 1768-1774-cü illərdə Gürcüstanın Rusiya himayəsinə keçməsi haqqında layihələr hazırlanmışdı. Krım statusu isə Kiçik Qaynarça müqaviləsilə müəyyən edilmişdi. Müqaviləyə əsasən Krım xanlığı müstəqil elan edilmişdi. Fətəli xan Kiçik Qaynarça sülhünü bəhanə edərək, burada Krımın «müstəqilliyi» haqqında deyilənləri Azərbaycana aid etdirmək istəyir, bunun üçün Dərbəndi Rusi-



yaya «qurban» verirdi. Gerçək siyasətdə Krımın Türkiyədən qoparılması kimi Azərbaycanın da İrandan Rusiyanın əli ilə «müstəqillik» alması sonuncunun ağalığı ilə bitəcəkdi.

Məktubun diplomatik sənəd kimi əhəmiyyəti onda idi ki, əvvələ Fətəli xan müstəqil hökmdar kimi Rusiyaya müraciət edirdi, digər tərəfdən Rusiyanın himayəsini qəbul etmək fikrinə baxmayaraq müstəqilliyini saxlamaq niyyətində olduğunu bildirirdi.

Quba xanlığının Rusiyanın himayəsinə daxil olmaq haqqında xahişi ilk dəfə imperatriça yanındakı Şurada general-poruçik de Medemin raportu əsasında 1775-ci il iyunun 22-də, sonralar isə yunun 27-də və sentyabrın 10-da müzakirə edilmişdi.

İkinci iclasda Xarici işlər kollegiyasının başçısı qraf ***N.İ.Panin*** Fətəli xanın məktubunu təsdiq etmiş, üçüncü iclasda isə cavab məktubu oxunmuşdu. Rusiya guya Quba xanlığının İranın tərkib hissəsi olduğunu və mehriban qonşuluq münasibətinə hörmətini nəzərə alıb Fətəli xanın təklifinə rədd cavabı vermişdi. Şura Fətəli xana belə bir köməyi İrandan almağı məsləhət görmək haqqında qərar qəbul etdi.

Bu, Rus diplomatiyasının öz işğalçılıq planını məharətlə pərdələdiyini göstərir. Məsələnin mahiyyəti onda idi ki, Fətəli xanın irəli sürdüyü təklif Rusiyanı təmin etmirdi. Məlumdur ki, Rusiya sonralar Krım xanlığının da müstəqilliyinə son qoymuşdu. Osmanlı dövləti ilə açıq qarşıdurmada olan Rusiya, Quba xanlığının müstəqilliyini tanımaqdan çəkinirdi. Quba xanlığının elçisi, qarşısına qoyduğu vəzifəni icra etmədən geri qayıtmalı oldu və ***Qızlarda de Medem*** tərəfindən ləngidildi. Beləliklə, Azərbaycan xanlıqlarının rus sarayına ilk elçiliyi uğursuzluqla nəticələndi. Belə bir şəraitdə ***Yemelyan Skvortsovun*** Ənzəlidən Həştərxana gələn gəmisi qəzaya uğradı. Gəmidə 422 min manatlıq yük var idi. Malların xilas edilməsi və sahiblərinə qaytarılması üçün Quba xanlığı böyük iş gördü. Lakin Quba xanlığını özündən asılı vəziyyətə salmağa cəhd edən Qafqazdakı Rus dairələri qəzaya uğrayan gəminin guya xanın adamları tərəfindən gizlədilməsini bəhanə edərək, xanlığa hərbi müdaxiləyə başlamaq haqqında məsələ qaldırdılar. ***II Yekaterina*** hökuməti hələlik belə bir xətti gerçəkləşdirməyə qadir olmadığı üçün buna razılıq vermədi. Quba xanlığı ilə münasibətlərin kəskinləşməsində real rol oynamış *de Medem* vəzifəsindən azad edildi. Lakin çarizmin Quba xanlığına qarşı təzyiqinin getdikcə güclənməsi onlar arasındakı ziddiyyətləri kəskinləşdirməkdə idi.

Kərim xan Zəndin ölümündən sonra İranda vəziyyətin yenidən kəskinləşməsi Rusiyaya hərbi hazırlığını artırmağa imkan verdi. 1780-ci ilin əvvəllərində general-poruçik ***A.V.Suvorov*** Həştərxana gəldi, Kazan diviziyasına komandanlığı qəbul etdi.

1781-ci ilin iyununda qraf ***Voynoviçin*** komandanlığı altında eskadra Həştərxandan Astrabada yola düşdü. Bu, de Medemin yürüşündən sonra Rusiyanın regionda hərbi qüvvə tətbiqi sahəsində ən mühüm addımı idi. Voynoviçin ekspedisiyası geri qayıdarkən 1782-ci ilin avqustunda Bakı limanına daxil oldu. Yalnız Fətəli xanın diplomaik səyi nəticəsində gərgin münasibələr nizama salındı.

**1783-cü İL GEORGİYEVSK MÜQAVİLƏSİ VƏ AZƏRBAYCAN.** 1783-cü il iyunun 24-də Georgiyevskdə Gürcüstanın Rusiyanın himayəsi altına keçməsi haqqında traktat imzalandı. II İrakli öz adından və varisləri adından Rusiya çarının ali hakimiyyətini və himayəsini qəbul etdi. Rusiya da üzərinə müəyyən təəhhüdlər götürür, II İrakli çarlığının bütövlüyünün və Kaxet-Kartli tacının qorunmasına təminat verirdi. Taxt-tacın vəliəhdi Peterburqda təsdiq edilməli idi. II İrakli daxili idarəetmə işlərində müstəqilliyi saxlayır, xarici siyasətdə isə Tiflisdə oturacaq yüksək rus məmuru ilə hesablaşmalı olurdu. Rusiya Gürcüstanı xarici düşməndən qorumalı idi. Gürcü knyaz və zadəganlarının hüquqları rus zadəganlarının hüquqları ilə bərabərləşdirilirdi.

Rusiyanın Gürcüstana hərbi qüvvə yeritməsi üçün hərbi Gürcüstan yolu çəkildi. 1783-cü ilin noyabrında rus qoşunları Tiflisə daxil oldu. 1784-cü ilin yazında hərbi Gürcüstan yolunun başında Vladiqafqaz şəhərinin bünövrəsi qoyuldu.

Qafqazdakı rus qoşunlarının baş komandanı R.S.Potyomkin 1783-cü il avqustun 20-də traktat bağlanması haqqında universallarla (fərmanlar) Azərbaycan xanlarına müraciət etdi. Universallarla birlikdə göndərilən «buyruqlu məktublar»da Azərbaycan xanlarına Gürcüstanla münasibətdə onun Rusiya himayəsi altında olmasının nəzərə alınması təklif edilirdi.

**AZƏRBAYCAN-GÜRCÜSTAN MÜNASİBƏTLƏRİ.** XVIII yüzilin 40-80-ci illərində Azərbaycan xanlıqlarının Gürcüstanla münasibətləri onların xarici siyasət fəaliyyətində mühüm yer tuturdu.

XVIII yüzilin 50-ci illərində böyük nüfuza malik olan Şəki xanlığının Gürcüstanla münasibəti gərgin idi. Kartli-Kaxet çarı II İrakli və oğlu Teymuraz Şəki xanlığını ələ keçirmək niyyətində idilər. Bunu görən Hacı Çələbi xan qısa bir vaxtda səkkiz min nəfərlik qoşun yaratdı. Hacı Çələbi bu qoşunla onun torpaqlarına hücum edən gürcü qoşunlarını ağır məğlubiyyətə uğratdı, onlar 400 nəfərədək itki verərək geriyə çəkildilər. Gürcü hökmdarları ikinci dəfə qisas almağa hazırlaşdılar, lakin 1752-ci ildə Urmiya qoşunlarının Gürcüstana hücumu onların ümidlərini puça çıxartdı.

Şəki xanlığı ilə bacara bilməyən gürcü hökmdarları digər Azərbaycan xanları ilə ittifaq yaratdılar. Yuxarıda qeyd edildiyi kimi Hacı Çələbi Azər-



baycan xanlarını əsir alan gürcü çarlarını ikinci dəfə məğlubiyyətə uğratdı. Lakin Şəki xanlığı ilə sonrakı döyüşlərdə gürcü xanları qələbə çala bildilər. Hacı Çələbi xanın ölümündən sonra (1755) Transqafqazda yaranmış vəziyyət Şəki xanlığı ilə Kartli-Kaxet çarlığı arasındakı gərgin siyasi münasibətlərin aradan çıxmasına səbəb oldu.

1762-ci ildə Teymurazın ölümündən sonra II İraklii Kartli-Kaxet çarlığını birləşdirdi. Şərqi Gürcüstan Azərbaycan xanlıqlarına qarşı işğalçılıq yoluna qədəm qoydu. Kartli-Kaxet çarlığının belə bir siyasəti Quba xanlığının mənafeyinə zidd idi.

Fətəli xan Şəki xanlığını birləşdirmək üçün İbrahim xanla ittifaqa girmək istəyirdi. Lakin onun bu cəhdi əks nəticə verdi. Şəki, Qarabağ və Gürcüstanın Quba xanlığına qarşı ittifaqı yarandı. Bu ittifaqın Fətəli xana qarşı dura bilməyəcəyini görən II İrakli Rusiyanın da qüvvələrindən istifadə etməyə çalışırdı. Rusiya isə bu zaman II İraklinin onu Azərbaycan xanlıqlarına qarşı açıq mübarizəyə qoşmaq planını qəbul edə bilməzdi. Əksinə, onun mənafeyi Güney Qafqazda heç bir hakimin güclənməsinə imkan verməməyi tələb edirdi. Ona görə də II Yekaterina 1770-ci ildə Quba xanlığı və Gürcüstanın münasibətlərini nizama salmaq haqqında Xarici işlər kollegiyasına göstəriş vermişdi. Buna baxmayaraq, Quba xanlığı və Gürcüstan münasibətləri dava yolunda qalmaqda davam edirdi. Dağıstan, Şəki və Şamaxı hakimlərinin 1773-cü ildə Quba xanlığına qarşı hücumlarında Gürcüstan da iştirak edirdi.

Fətəli xan II İraklinin Azərbaycan xanlıqlarının daxili işlərinə qarışmasına yol vermək istəmirdi. Gürcüstanın Rusiya ilə yaxınlığı Fətəli xanın bu problemləri hərbi yol ilə nizama salmasını çətinləşdirirdi. Ona görə də siyasi vasitə ilə, yəni Rusiya vasitəsilə II İraklinin təcavüzkarlıq niyyətinin qarşısının alınmasına cəhd göstərilirdi*. Bu yolda istənilən nəticə alınma-

* İrakli qarabağlı İbrahim xanı öz tərəfinə çəkərək Gəncəni ələ keçirməyə çalışırdı. 1782-ci ildə Fətəli xan Yekaterinaya etiraz məktubu yazdı. Yazıda Azərbaycanın dövlətçilik mənafeyi müdafiə olunaraq bildirilirdi: «Azərbaycan xanlarının şərəf və haqqını qorumağı özüm üçün borc sayıram». Belə bir demarş üçün İraklinin bütün siyasəti əsas verirdi. Çələbi xanla savaşda məğlub olduqdan sonra o, Qazax-Qaraman əhalisinə çox zülmlər etmişdi. 1759-cu ildə Qaraçarlı, Cinli, Salahlı, Dəmirçihəsənli, Qızılhacılı, Qaraqoyunlu, Alpaut, Səfikürd, Boyəhmədli, Kəngərli, Xəlfəli və başqa türk oymaqları «Gürcüstan hökumətinin zülm və təəddisindən təngə gəlib» (*F.B.Köçərli*) Qarabağ xanlığına Cavanşir mahalında Tərtərbasara köçmüşdü. Tarixdə «Eldöndü» adlanan bu böyük köç nəticəsində mahalın Qaraman bölməsi tamamilə boşalmışdı. Cavad xan hakimliyə keçdikdən sonra yarım əhalisini itirmiş Qazax mahalını Gəncəyə tabe etmək istəyirdi. İraklinin əmri ilə işdə Cavad xanla «həmsir» olan şair *Əbdürrəhman ağa Dilbaz oğlunun* gözləri çıxarılmışdı. Qərbi Azərbaycanın siyasi qayğıları Fətəli xanı birbaşa Rusiya dövləti ilə yazışma aparmağa məcbur etmişdi, çünki Kaxet-Kartli çarlığının arxasında bu dövlət dururdu – *Red.*

dığı üçün Fətəli xan II İraklinin müttəfiqi Qarabağ xanlığına zərbə endirməyi qərara aldı. O, 1783-cü ildə Qarabağ xanlığına daxil oldu, güclü müqavimətə rast gələrək geri qayıtdı. II İrakli müttəfiqinə kömək göstərməklə bərabər, Rusiya vasitəsi ilə Fətəli xanı müharibəni dayandırmağa məcbur etdi. Ancaq 1786-cı ildə İbrahim xanla II İrakli arasında Gəncə xanlığı üstündə ədavət yarandı. Fətəli xanla II İrakli yenidən yaxınlaşdılar.

Ağa Məhəmməd Qacarın İrana sözsüz tabe olmaq tələbi də İrakli ilə Fətəli xan arasında yaxınlaşma yaratdı. Tərəflərin elçiləri (***Georgi Çiçianov*** Qubada, ***Hacı Mirzə Rəhim bəy*** Tiflisdə) danışıq apardıqdan sonra 1787-ci ilin martında Quzey Azərbaycan və Şərqi Gürcüstan hökumətləri arasında siyasi ittifaq haqqında müqavilə bağlandı.

Yeni müttəfiqlər dekabrda İbrahim xan üzərinə hücuma keçdilər. Lakin qələbəyə nail ola bilmədilər. Fətəli xan və II İrakli arasındakı yaxınlıq 1789-cu ilin yanvarında onların görüşü ilə başa çatdı. Yuxarıda qeyd edildiyi kimi, bu görüşdən sonra Fətəli xan mart ayında vəfat etdi. Şeyxəli xanın dövründə Quba xanlığı ilə Gürcüstan arasındakı münasibətlər kəskinləşməyə başladı.

Qarabağ xanlığı ilə Gürcüstan arasında müttəfiqlik mövcud idi. Müttəfiqlər 1780-ci ildə Gəncə xanlığını ələ keçirərək onun gəlirindən birlikdə istifadə etməyə başladılar. 1783-cü il Georgiyevsk müqaviləsindən sonra II İrakli Rusiyaya arxalanaraq İbrahim xanı Gəncədən sıxışdırmağa çalışdı. İbrahim xan daha tədbirli çıxaraq gürcü çarının nümayəndələrinin Gəncədən qovulmasına nail oldu. Bunu görən II İrakli Rusiya ilə birlikdə Qarabağ xanlığındakı məlikləri qızışdırmağa başladı. II İrakli Fətəli xanla da yaxınlaşmağa başladı. Ancaq 1789-cu ildə Fətəli xanın ölümündən sonra İbrahim xanla II İrakli yenidən yaxınlaşmağa başladılar.

Gəncə xanlığı ilə Gürcüstan arasındakı münasibətlər də gərgin idi. Gəncə 1780-ci ildən İbrahim xanın və II İraklinin adamları tərəfindən idarə olunurdusa, sonralar İbrahim xan burada təkhakimiyyətliyə nail oldu. Ancaq bu da uzun sürmədi. 1786-cı ildə Gəncə xanlığı müstəqil oldu. Hakimiyyətə Rəhim bəy gəldi. ***Rəhim bəy*** isə qardaşı Cavad xan tərəfindən 1787-ci ildə devrildi. Cavad xan müstəqil siyasət yeritməyə başladı və Gürcüstan asılılığına son qoydu.

Beləliklə, XVIII yüzilin 40-80-ci illərində Azərbaycan xanlıqları fəal xarici siyasət xətti yeritməyə çalışırdılar. Bu siyasətin əsas məqsədi xanların müstəqilliyini və varlığını qoruyub saxlamaq idi. Lakin ayrı-ayrı xanlıqlar kifayət qədər hərbi strateji və iqtisadi potensiala malik olmadığından belə siyasət uzun müddət davam edə bilməzdi. Çıxış yolu mərkəzləşdirilmiş dövlət yaradılması ola bilərdi. Ancaq gərgin beynəlxalq münasibətlər Azərbaycanın başlıca daxili problemlərinin də sərbəst həll olunması üçün vaxt və imkan qoymamışdı.



## 4. AZƏRBAYCANIN BİRLƏŞDİRİLMƏSİNİN UĞURSUZLUĞU. GÜNEY AZƏRBAYCAN TORPAQLARI İRAN TABELİYİNDƏ

**ÖLKƏNİN SİYASİ VƏZİYYƏTİ. QACARLARIN İRANDA HAKİMİYYƏTƏ GƏLMƏSİ.** XVIII yüzilin ikinci yarısında Azərbaycan torpaqlarının birləşdirilməsi işi uğur qazanmadı. Tarixin əlverişli məqamı əldən çıxdı. Bu, həm daxili, həm də beynəlxalq vəziyyətdən irəli gələn səbəblərlə bağlı idi. XVIII yüzilin ikinci yarısında xanlıqlar ictimai-iqtisadi inkişaf səviyyəsinə görə, əsasən, eyni səviyyədə idi, yalnız coğrafi və hərbi-strateji üstünlük bu və ya digər xanlığın mövqeyinin möhkəmlənməsində başlıca rol oynayırdı. Azərbaycan torpaqlarının birləşdirilməsi zərurətini dərk edən dövlət xadimləri (Hacı Çələbi xan, urmiyalı Fətəli xan, qubalı Fətəli xan) olmasına baxmayaraq, bu ideya irsi səciyyə daşımırdı, yəni onların fəaliyyəti varisləri tərəfindən davam etdirilmirdi. Azərbaycan torpaqlarının birləşdiricisi rolunu oynaya bilən mərkəz hələ yaranmamışdı. Beynəlxalq münasibətlər Azərbpaycan üçün çox gərgin idi, İran, Türkiyə, Rusiya və Qərbi Avropa dövlətlərinin burada mənafeyinin toqquşması mərkəzləşdirilmiş dövlət yaratmağa imkan vermirdi.

Azərbaycan torpaqlarının parçalanmış vəziyyətdə qalması üçün sosial-iqtisadi və siyasi tərəqqisi yolunda da maneə oldu, ən başlıcası onun müdafiəsini təhlükə altında qoydu. Azərbaycan torpaqlarından fərqli olaraq İranda hakimiyyət uğrunda mübarizə mərkəzləşdirilmiş dövlətin yaradılması ilə başa çatdı. Bu işə ***Ağa Məhəmməd xan*** (1742-1797) başçılıq edirdi. O, Kərim xan Zəndin ölümündən sonra Tehrana gəldi və burada qoşun yaratmağa başladı. İlk döyüş ona qarşı çıxan qardaşı ***Murtuza Qulu xanla*** oldu.

Murtuza Qulu xan Xəzərsahili xanlıqları ələ keçirmək niyyətində idi. Lakin Ağa Məhəmməd xan onun üzərində qələbə çaldı. Mazandaranda hakimiyyət Ağa Məhəmməd xanın əlinə keçdi, Murtuza Qulu xan Astrabadda qaldı.

Zəndlər İranın güneyini əllərində saxlayırdılar. Burada hakimiyyət uğrunda mübarizəyə ***Zəki xan Zənd*** başçılıq edirdi. O, Şiraza daxil olaraq, bütün rəqiblərini məhv etməyə nail oldu və Kərim xan Zəndin hər iki oğluna vəkil titulu verdi. Sonra İsfahanı ələ keçirmək üçün Əli Murad xan Zəndi ora göndərdi. Sui-qəsd nəticəsində Zəki xan öldürüldükdən sonra Şirazda hakimiyyəti ələ keçirən ***Sadıq xan*** da burada möhkəmlənə bilmədi. Hakimiyyət ***Əli Murad xana*** keçdi.

Mazandaranda möhkəmlənən Ağa Məhəmməd xan Gilan uğrunda mübarizəyə başladı. 1781-ci ildə Gilan tutuldu. Rusiya İranın şimal xanlıqları nümayəndəsinin hakimiyyətə gəlməsində maraqlı idi. Yuxarıda adı

çəkilən 1781-ci il Voynoviç ekspedisiyası bu məqsədlə təşkil edilmişdi. Lakin Ağa Məhəmməd xanın bu hadisədən sonra Rusiyaya münasibəti dəyişdi. Ağa Məhəmməd xan 1782-ci ildə çətin vəziyyətə düşmüşdü. Gilanda İranın quzey xanlıqları ona qarşı çıxmışdı. Ağa Məhəməd xan yenidən Rusiyaya müraciət etdi, müraciət cavabsız qaldı. Bu, Əli Murad xanın İranın quzeyində fəallaşmasına şərait yaratdı. Rusiyaya o da müraciət etmişdi. Belə bir şəraitdə qacarlar və zəndlər arasında mübarizə daha da genişləndi.

Ağa Məhəmməd xan İranda mərkəzi hakimiyyəti ələ almaq uğrunda mübarizədə üstünlüyə nail ola bildi. O, 1785-ci ildə Tehranı paytaxt elan etdi və İranın cənub torpaqlarında möhkəmlənmək üçün çarpışmağa başladı.

Lakin Rusiya Ağa Məhəmməd xanla birgə Murtuza Qulu xan ilə də münasibətləri saxlayırdı. Ona görə də Ağa Məhəmməd xan cənuba yürüşü ləngidərək Murtuza Qulu xana qarşı çıxdı. Murtuza Qulu xan Ənzəlidə gizlənməli oldu. Rusiya çox mürəkkəb siyasi oyun yolu tutmuş idi.

80-ci illərin sonunda Şirazda ***Lütfəli xan*** hakimiyyəti ələ almışdı. Lakin zəndlər yenidən Gilanı ələ keçirib Murtuza Qulu xanı qovduqdan sonra Ağa Məhəmməd xan 1792-ci ildə Şirazı tutdu. Ağa Məhəmməd xan İranın həqiqi hakimi oldu.

**GÜNEY AZƏRBAYCAN TORPAQLARININ QACARIN HAKİMİYYƏTİ ALTINA DÜŞMƏSİ.** Kərim xan Zəndin ölümündən sonra Güney Azərbaycan xanlıqları da mərkəzi hakimiyyətin tabeçiliyindən çıxdı. XVIII yüzilin 80-ci illərində Güney Azərbaycanda Qarabağ, Meşkin, Ərdəbil, Təbriz, Marağa, Urmiya, Xoy torpaqları fərqlənirdi. Burada ara müharibələri hökm sürürdü. 90-cı illərin əvvəllərində Ağa Məhəmməd xan Güney Azərbaycanı tabe etməyə başladı. Sadıq xan Şəqaqi istisna olmaqla digər xanlar Ağa Məhəmməd xanın tabeçiliyini qəbul etdi. Sadıq xanın dayağı olan Sərab darmadağın edildi. Sərabdan sonra Qaracadağ, Xoy tabe oldu, Urmiya ələ keçirildi.

Ağa Məhəmməd xanın Talışı tutmaq planı baş tutmadı. Yerli xanların onun siyasətinə qarşı yaranmış sui-qəsdi amansızlıqla yatırıldı. Sadıq xan itaət etməyə məcbur oldu. Beləliklə, Cənubi Azərbaycan xanlıqları tabe edildi.

Lütfəli xan da məğlub edildikdən sonra, 1795-ci ildə Ağa Məhəmməd xan özünü şah elan etdi.

Ağa Məhəmməd Şah Qacar türk soylarına bağlı olmasına baxmayaraq, onun dövlətinin siyasi mərkəzi İran torpaqları idi və o, İran dövləti yaratmaq uğrunda mübarizə aparırdı. Bu prosesə də İsfahan, Yəzd, Girman və Şirazı tutmaqla başlamışdı. Rəsmi sənədlərdə o, İran hökmdarı



kimi qeyd edilirdi. Ona qarşı Şuşada sui-qəsd zamanı ölüm məqamında söylədiyi fikir bunu təsdiq edir. Əhməd bəy Cavanşirin yazdığına görə Ağa Məhəmməd şah qatillərə demişdi: «Məlunlar!.. Nə edirsiniz!.. Siz İranı viran eyləyirsiniz!»

Ağa Məhəmmədin özünü şah elan etdikdən sonra siyasətini İran dövlətçilik ən'ənəsinə uyğun olaraq davam etdirməsi də diqqəti cəlb edir. O, bu ən'ənəyə uyğun olaraq Azərbaycanın quzey hissəsi, həmçinin keçmişdə İrana məxsus olmuş Qafqaz torpaqları uğrunda mübarizəyə başladı.

**QUZEY AZƏRBAYCAN TORPAQLARI XVIII YÜZİLİN 90-cı İLLƏRİNDƏ.** XVIII əsrin 90-cı illərində Quzey Azərbaycanın siyasi həyatı Quzey-gündoğar Azərbaycan dövlətinin tamamilə parçalanması nəticəsində xanlıqlar arasında çəkişmələrin genişlənməsi, digər tərəfdən İranda Ağa Məhəmməd şahın mərkəzləşdirilmiş dövlət yaratması və Quzey Azərbaycan torpaqlarını ələ keçirməyə hazırlaşması ilə səciyyələnirdi.

Quzey-gündoğar Azərbaycan dövləti parçalandıqdan sonra Qarabağ xanlığı hərbi-siyasi cəhətdən ən güclü quruma çevrildi. İbrahim xan yaranmış vəziyyətdən istifadə edərək Qarabağ xanlığının qüdrətini artırmağa çalışırdı.

O, Gəncə xanlığının torpaqlarına da göz dikmişdi. Bu dövrdə qubalı Şeyxəli xan və şəkili Məhəmmədhəsən xan şamaxılı Mustafa xanla ədavət aparırdı. Şeyxəli xan Bakı xanı ilə çəkişmədə idi. Quzey Azərbaycan xanlıqlarını Ağa Məhəmməd şaha münasibətinə görə üç qrupa bölmək olar. Birinci qrupa onun tərəfini saxlayanlar: gəncəli Cavad xan, şəkili Məhəmmədhəsən xan və qubalı Şeyxəli xan daxil idi. İkinci qrupu Ağa Məhəmməd şaha düşmən münasibət bəsləyən Qarabağ, Şamaxı və Talış xanlıqları təmsil edirdi.

Bakı xanı Hüseynqulu xan isə Ağa Məhəmməd şahın tərəfdarları ilə düşmənləri arasında tərəddüd edirdi. Quzey Azərbaycan xanlıqlarının bu cür qruplaşması təsadüfi olmayıb xanların siyasi məqsədlərini ifadə edirdi. Gəncəli Cavad xan Ağa Məhəmməd şahın köməyilə İbrahim xanın təzyiqindən xilas olacağına, onun qələbə qazandığı təqdirdə isə Qarabağ və Gürcüstan torpaqlarında möhkəmlənəcəyinə, Şeyxəli xan isə Şirvanda hakimiyyətə nail olacağına ümid bəsləyirdi. Bakı xanının mövqeyi isə Şeyxəli xanın onun torpaqlarına qarşı iddiası ilə bağlı idi.

**XANLIQLARIN XARİCİ SİYASƏT XƏTTİ. İRAN VƏ RUSİYANIN QUZEY AZƏRBAYCANA MÜDAXİLƏ ÜÇÜN DİPLOMATİK HAZIRLIĞI.** Quzey Azərbaycan xanlıqlarının xarici siyasət xətti onların yuxarıda göstərilən qruplaşma ilə müəyyən edilirdi. Ağa Məhəmməd şaha qarşı düşmən olan xanlıqlar daha fəal xarici siyasət xətti yeridir və özlərinə müttəfiq

axtarmağa çalışırdılar. Belə bir şəraitdə Osmanlı imperiyası, Gürcüstan və onun himayəçisi olan Rusiya ilə münasibətlər ön plana çıxırdı.

Qarabağ xanı İbrahim xan, İrəvan xanı Məhəmmədhəsən xan Osmanlı imperiyası ilə diplomatik əlaqələr saxlayırdılar. İbrahim xan sultan III Səlimin (1789-1807) böyük vəzirlərindən birinə türkcə yazırdı:

«O (Allah) yardımçıdır.

Böyük vəzir əfəndimiz – Allah (onun) yüksək kölgəsini yazıq və şərəfli kimsələrin üstündən əskik etməsin!

... Səmimi istəyimiz budur ki, Dövləti-Aliyyə Allahın yer üzündəki kölgəsi və bütün məxluqların, möhtərəm adamların və cahillərin sığınacağı olduğu üçün, mən də ki, Allahın bu bəndəsi və səmimi qulu «Allaha ibadət edin, peytəmbərə və sizdən olan buyruq sahiblərinə itaət edin» ayəsinə bağlı olub, bu aləm sığınacağına (burada: böyük vəzir – *Red.*) itaət edərək, bağlılıq ruhuna uyub, iyirmi il və bəlkə də daha çoxdur ki, Rum diyarının əhali siyahısına düşməklə şərəfləndirilmişəm, mərhum günahlarının bağışlanmasına dua edilən, Rizvan (cənnətin qapıçısı olan böyük mələk – *Red.*) məqamında olan sultan Həmidin (Sultan Əbdülhəmid nəzərdə tutulur – *Red.*) sağlığında, həmişə məndən dövlətə (yeni sultana – *Red.*) diləк gedər, ondan mənə buyruq (gələrdi), mən ona itaət edər, o isə mənə yardım göstərərdi.

... Uzun sözün qısası, Dövlət-Aliyyəyə xidmət edən bəndələr olduğumuz üçün hal-hazırda Allahın əmrinə uyğun olaraq bu tərəflərdə baş verən hadisələrdən Sizə bildirək, hal-hazırda vəziyyət bu yerdədirki qızılbaşdan Ağa Məhəmməd xan ortaya çıxıb, İran mülkünə daxil olan İraq məmləkətini və Farsın şəhərlərini ələ keçiribdir. Onun indiki istəyi budur ki, Azərbaycan diyarına gedib, Araz çayını keçərək, əvvəlcə mənim, sonra İrəvan xanı Məhəmməd xanın, daha sonra isə Gürcüstan üzərinə (hücum edib) öz niyyətini bu yolla həyata keçirsin. İndidən belə məsləhət şövkətli əfəndimizindir. (Sizdən) ricam budur ki, bizləri qoruyub, bizə kömək və inayətinizi əsirgəməyəsiniz. Allah-taala qismət etsə, Dövləti-Aliyyətinin bəxt gücü ilə inad sahiblərinin və qan töküb pislik edənlərin əməli tezliklə açılıb üzə çıxarılması asan olacaqdır.

Bildirəcəyimiz ikinci şey budur ki, görəsən İran xalqı nə cinayət və günah işlətmişdi ki, böyük şahənşah, xalqların üzəngisinin sahibi, iki qitə və iki dənizin sultanı, müqəddəs şəhərlərin (Məkkə, Mədinə və Qüds – *Red.*) qoruyucusu, ins və cins peyğəmbərlərinin qaim məqamı olan şövkətli əfəndimiz yaxşılıq və mərhəmətlərini gərəkli bilib səadətə süs verən kölgəsini İran torpağının üzərinə saldığı halda dövranın hər bir dönüşündə qan töküb, pislik gətirməkdən, kainatın fəxri olan (Məhəmməd peytəmbər – *Red.*) əfəndimizin ümmmətlərini qətl və qarət edərək ziyan vurub darmadağın etməkdən qorxmurlar.



Bu diləkcəni... çatdırmaq üçün... Abdulla Çələbi göndərilir. Vəziyyət haqqında (geniş) məlumat və xəbər adını çəkdiyimiz şəxsin qəlbinə təslim edilmişdir (Buradan gizli mətləblərin şifahi çatdırılmasına üstünlük verildiyi aydın olur – *Red.*). Hərgah xəbər almaq istəsəniz, Allah-təala qismət eyləsə (onları Sizə) söylər. Və nəhayət, Allah onun (sultanın səltənətinə – *Red.*) böyüklük və nəzakət etsin!

(Möhür): Ya İbrahimxəlilullah».

Osmanlı imperiyası obyektiv çətinliklər üzündən xanlara köməklik göstərə bilmədi. İbrahim xana bildirilmişdi ki, «İranla Dövləti-Aliyyə arasında sülh olduğundan, Ağa Məhəmməd xanın sülhü pozar bir hərəkəti görülmədikcə Osmanlı dövləti tərəfindən İran həvaləsinə əsgərlə müdaxilə edilməyəcək».

Güscüstanla münasibətlər istənilən nəticəni verdi. Çünki Gürcüstan da, Rusiya da Qacar siyasətinə qarşı idilər. Kartli-Kaxet çarlığı ilə İrana qarşı ittifaq bağlandı. Bu işdə Qarabağ xanlığının vəziri ***M.P.Vaqifin*** diplomatik fəaliyyəti qeyd edilməlidir. Mirzə Camal yazırki, Axund Molla Pənah «tədbirli və kamallı məşhur vəzir idi və İranda, Rumda olduqca şöhrət tapmışdır».

Ağa Məhəmməd şah müharibə qarşısında diplomatik hazırlığı genişləndirməyə çalışırdı. Bu məqsədlə Osmanlı imperiyası ilə yaxınlaşmağa maraq göstərir, Osmanlı sarayına elçi göndərərək danışıqlar aparırdı. Sultan, Ağa Məhəmmədin Gürcüstanı ələ keçirəcəyi halda onu İran şahı kimi tanıyacağını bildirmişdi.

Ağa Məhəmməd şah İngiltərə və Fransanın da köməyini təmin etməyə çalışırdı. XVIII yüzilin sonlarında Rusiyanın möhkəmlənməsindən narahat olan İngiltərə və Fransa gündoğarda İran-Rusiya və Osmanlı-Rusiya ziddiyyətlərinin kəskinləşməsinə, onun müharibəyə çevrilməsinə, Osmanlı imperiyası ilə İranın Rusiyaya qarşı birgə çıxışının təşkilinə cəhd edirdilər. Fransa belə bir çıxışın baş tutacağı halda İsveç və Danimarka ilə birlikdə köməklik edəcəyini vəd edirdi. 1795-ci ildə Fransa təmsilçiləri ***Olivye*** və ***Brüger*** İranda oldular. Fransa-İran ticarət müqaviləsi bağlamaq, həmçinin İrana hərbi-diplomatik yardım göstərmək məsələsi nəzərdən keçirildi.

İranda baş verən hadisələr Rusiyanın mənafeyinə sıx bağlı olduğundan hakim dairələr onu diqqətlə izləyirdilər. 1787-1791-ci illər Rus-Türkiyə müharibəsi Rusiyanın İrana qarşı hələlik ehtiyatlı rəftar etməsini tələb edirdi. Rusiya üçün əlverişli şərtlərlə Yassı sülhü imzalandıqdan sonra onun əl-qolu açıldı. Qafqazdakı siyasi xətt konkretləşdirildi. Qafqazdakı rus qoşunlarının baş komandanı Qudoviçin adına verilən 1792-ci il 8 may buyruğunda Rusiyaya xeyirxahlıqla yanaşan bütün xanların onun ali hakimiyyətinə qəbul olunacaqları barədə onların arxayın edilməsinə göstəriş verilirdi. 1793-cü il aprel buyruğunda isə açıq-aşkar bildirilirdi ki, Xəzər

dənizindəki rus eskadrasına düşmənlərlə düşməncəsinə rəftar etmək icazəsi verilir. Ağa Məhəməd şahın niyyətindən xəbərdar olan rus sarayı Quzey Azərbaycana hərbi müdaxilə yolu ilə onu qabaqlamağa çalışırdı. Qudoviç 1795-ci ilin may ayındakı məlumatında saraya bildirirdi ki, Ağa Məhəmməd xan bir tərəfdən arxadan İrəvan şəhərinə həmlə etməyə hazırlaşır, digər tərəfdən keçmişlərdə şahların tacqoyma mərasimi keçirdikləri Kür çayı boyunda yerləşən Muğana tələsir. Buradan isə o, Şamaxı, Şəki, Şuşa və Talış hakimlərini özünə tabe etmək üçün yürüş edəcək, sonra isə Qarabağdan Gürcüstana qoşun çəkəcəkdir.

General Qodoviçin məlumatını nəzərdən keçirən Dövlət Şurası ona aşağıdakıları tövsiyyə etdi: «1) əlahəzrət imperatriçaya ümid bəsləyən və Rusiyanın tərəfdarları olan yerli hakimlərin yekdil olmasına çalışmalı; 2) bu məqsədə nail olmaq üçün ilk növbədə heç olmasa Talış xanının əbədi olaraq əlahəzrət imperatriçanın təbəəliyinə keçmək arzusuna əməl etməli; 3) həmin xanı və həmçinin yuxarıda qeyd olunan xanları ümumi iş naminə birləşməyə çağırmalı, onlara lazımi məsləhətlər verməli, əlahəzrət imperatriçanın himayəsi və mərhəməti barədə vəd verməli, lazım gəldikdə onları top və digər hərbi sursatla təmin etməli və yaxud çar İraklinin və digər xanların qüvvələrini möhkəmləndirməli, bu məqsədlə sərəncamda olan qoşunlardan istifadə etməli». Buradan aydın olur ki, çarizm artıq Azərbaycanı tutmaq üçün proqram hazırlamışdı.

**QACARIN QUZEY AZƏRBAYCANA SOXULMASI.** Qacar Quzey Azərbaycanı tabe etmək üçün geniş təbliğat işi aparır, sülh yolu ilə xanları tabe etməyə çalışırdı. Bu baş tutmadıqda isə iri miqyaslı hücuma hazırlaşmağa başladı.

***Mirzə Camal*** yazır ki, Ağa Məhəmməd xan İbrahim xana xələt, qılınc, qızıl yəhər və əsbablı at göndərib, itaətə dəvət etmişdi. O cümlədən İbrahim xan girov adı ilə şirindil, bacarıqlı bir şəxs olan ***Mirzə Vəli Baharlı*** ilə birlikdə əmisi oğlu ***Əbdüssəməd bəyi*** yanına göndərmişdi... Sonralar İbrahim xanla Ağa Məhəmməd xanın arası dəyir, Əbdüssəməd bəy öldürülür. Qacar yeni girov tələb etdikdə, İbrahim xan imtina edir.

Qacar İbrahim xandan rədd cavabı aldıqdan sonra bir neçə minlik dəstəni Qarabağa və İrəvan tərəfə göndərdi. Həmin dəstə Qarabağ və Gürcüstanın birləşmiş qüvvələri tərəfindən Əsgəranda məğlub edildi. Talış xanlığı da kəşfiyyat səciyyəli hücuma məruz qaldı. Talış xanlığı dağıdıldı, bir sıra bəylər şahın tərəfinə keçdi, xan özü isə Sara adasına, rusların himayəsinə qaçdı. 1795-ci ilin yayında Ağa Məhəmməd şahın səksən, bəzi qaynaqlara görə səksən beş minlik qoşunu Ərdəbili tutub oraya yığıldı. Ordu üç hissəyə bölündü. Birinci dəstə Muğan düzü və Şirvandan keçib Dağıstana zərbə vurmalı, ikinci dəstə İrəvan xanlığını tabe etməli,



üçüncü dəstə Qarabağı tutub Gürcüstana hücum etməli idi. Üçüncü dəstəyə şah özü başçılıq edirdi. Bu onu göstərir ki, bu istinamət başlıca strateji əhəmiyyətə malik idi. Mirzə Camal yazır ki, Ağa Məhəmməd şah 1209-cu (1795) ildə Tiflis, İrəvan, Qarabağ və Talış vilayətlərini zəbt etmək üçün böyük ordu ilə Azərbaycana tərəf hərəkət etdi. Əvvəlcə, sərkərdələrinin ən görkəmlisi olan ***Əliqulu xan Şahsevəni*** başqa xanlarla birlikdə İrəvan qalasının üstünə göndərdi. Özü isə bütün İraq, Fars, Azərbaycan və Xorasan qoşunları ilə Şuşa şalasına yönəldi.

İbrahim xan Qacarın yürüşünə mane olmaq üçün Xudafərin körpüsünü dağıtmağı əmr etdi, bunu görən Ağa Məhəmməd şah üzən körpülər hazırlatdı və Araz çayını keçərək Şuşa qalasına hərəkət etdi. İrəvanı tabe edən ikinci dəstə və Dağıstana hücum etməli olan birinci dəstə də şahla birləşdi. Beləliklə, Ağa Məhəmməd şahın bütün qüvvəsi Qarabağ xanlığının tabe edilməsinə yönəldi. Məqsəd onu tezliklə məğlub edib Gürcüstana getmək idi.

**ŞUŞANIN 33 GÜNLÜK MÜDAFİƏSİ.** İbrahim xan Qacardan müdafiə olunmaq üçün Şuşa qalasına çəkildi. Şuşa, Qacarın hücumlarını də'f etməkdən ötəri müdafiəyə ciddi hazırlaşmışdı. 1795-ci il iyunun axırlarında Şuşa mühasirəyə alındı. Qalaya edilən hər bir hücum müdafiəçilər tərəfindən də'f olunurdu Ağa Məhəmməd şah qalanı top atəşinə tutmağı əmr etdi. Qacar İbrahim xana bir beyt göndərmişdi. Onun əsli belədir:

> Fələyin mancanağından fitnə daşı yağır,
> Sən axmaqcasına Şişə içərisinə sığınmısan.

İbrahim xan da bu beytə vəziri Vaqifin yazdığı aşağıdakı beytlə cavab vermişdi:

> Doğrudur, Tanrı məni Şişədə əyləşdirmişdir,
> Lakin o, bu şişəni daşın qoynunda gizlətmişdir.

Söz davasında da layiqli cavab alan Qacar qala divarlarını tutmağı qərara aldı. Qala divarlarını tutmaq mümkün olmadıqda, onun qoşunları şəhərə həmlə etməyə başladı, lakin bu da boşa çıxdı. Qaladakı döyüşçülər yalnız müdafiə olunmaqla kifayətlənmir, özləri də əks-hücuma keçir və ya gecə basqınları təşkil edirdilər. İyulun 1-də İbrahim xan başda olmaqla Qacarın əsas dəstəsinə gecə basqını olmuş və onlara ciddi zərbə vurulmuşdu.

Qacar qalanın mühasirəsini kəskinləşdirərək ora ərzaq məhsulları göndərilməsinin qarşısını almaqla müdafiəçiləri acldığa vadar etmək istəyini həyata keçirə bilmədi. Əksinə, müdafiəçilər dəstələrə bölünərək Qacarın qoşununa hücumlar edir, onların azuqə və sursatını ələ keçirirdi.

*Mirzə Camal Cavanşir yazır*: «Qarabağın atlı və piyada qoşunu... qızılbaş qoşununu tutub qarət edirdilər. Hər gün dəstə-dəstə at, qatır, dəvə və başqa tədarükatı, ordu üçün vilayətlərdən göndərilən taxıl karvanlarını qarət edərək İbrahim xanın yanına gətirirdilər. İş o yerə çatmışdı ki, o vaxtın hesabı ilə bir qatırı dörd manata, dəvəni altı, bir baş yaxşı atı isə on manata satırdılar».

Ağa Məhəmməd şah onu uğursuzluqlara düçar edən qala müdafiəçilərinə əli yetmədiyindən bütün qisasını əsirlərdən almağa başladı. Əhməd bəy Cavanşir yazır ki, müasirlərin dediyinə görə bu müharibədə Ağa Məhəmməd xan uğursuz hücumların birində əsir edilənlərə dəhşətli bir divan tutdu: o, 100 nəfərə qədər əl-qolu bağlı əsiri xırmanda dərz kimi düzüb, nalları tərsinə mıxlanmış atları bu bədbəxtlərin üstündən o vaxta qədər sürməyi əmr etdi ki, onlar bir-birinə qarışıb xurd-xəşil olsunlar.

Qacar İbrahim xanı yola gətirmək üçün sonuncu vasitəyə – danışıqlara əl atdı. İbrahim xanla onun elçisi ***Pirqulu xan*** arasında aparılan danışıqlar heç bir nəticə vermədi.

Şuşanın mühasirəsi getdikcə uzanırdı. Bu, bir tərəfdən Qacarın döyüşçülərinin ruh yüksəkliyini aşağı salır, fərariliyi artırır, əbəs yerə verilən itkilərin sayını çoxaldır, digər tərəfdən Gürcüstana hücumu təxirə salmaqla onun müdafiə tədbirləri görməsi, Rusiyadan kömək alması üçün vaxt verirdi. Bunu nəzərə alan Qacar 33 günlük mühasirədən sonra 1795-ci ilin avqustunda Şuşadan Gürcüstana yola düşdü.

**QACARIN TİFLİSİ TUTMASI.** Ağa Məhəmməd şah Qacar Tiflisə hücum etməmişdən əvvəl II İrakliyə ultimatum verdi. Ultimatumda deyilirdi: «... alihəzrət özü də yaxşı bilir ki, son yüz il ərində siz İranın itaətində olmusunuz. İndi isə təəccüblə demək istəyirik ki, siz ruslara yaxınlaşıb onlara qoşulmusunuz. O ruslara ki, İranda ancaq alver etmək məqsədi ilə gəzib-dolaşırlar və elə bütün iş-peşələri də yalnız alverlə, ticarətlə məşğul olmaqdır.

Doxsanı bağlamış adamsan, amma bağışlanılmaz səhvlərə yol verirsən. Kafirləri torpağına buraxmısan, onların istədikləri kimi davranmağına şərait yaradırsan.

İndi Allahın köməyi ilə biz böyük uğurlar əldə etmişik, nəhəng və güclü dövlətik. Sən bizə öz sadiqliyini sübut etməlisən. Biz böyük ixtiyar sahibi olduğumuz üçün, əgər ağıllı adamsınızsa, hazırkı niyyət və əməllərinizdən büsbütün əl çəkməlisiniz, ruslarla əlaqələrinizi tamamilə kəsməlisiniz. Bu yəqin ki, sizin ölkənin əhalisinin də ürəyincə olar. Əgər bu göstərişə əməl etməsən, onda çox qısa bir müddətdə Gürcüstanın üzərinə yürüş edəcək, ruslarla bərabər gürcüləri də qılıncdan keçirərək, qanınızdan Kür çayına bənzər bir qan çayı axıdacağıq...»



Ağa Məhəmməd şah Tiflis üzərinə yürüşdən qabaq Ağdama gəldi. Gəncəli Cavad xan, şəkili Məhəmmədhəsən xan, İbrahim xanın düşmənləri məlik Məclum və Abov dəstələrilə Məhəmməd şaha qoşuldular, onun yürüşünə bələdçilik etdilər. Avqustun 20-də Ağdamdan çıxan Qacar sentyabrın ilk günlərində Tiflisə çatdı.

Bu zaman Gürcüstan siyasi böhran keçirirdi. II İrakli Kartli-Kaxet çarlığını oğlanları və nəvələri arasında bölmüşdü. Çar ailəsində çəkişmə hökm sürürdü, ona görə də Tiflisin müdafiəsini təşkil etmək mümkün olmadı. Rusiya da Gürcüstana hərbi köməklik göstərmədi. Mirzə Adıgözəl bəy yazır: «vali (II İrakli – *Red.*) öz nəvəsi olan Başaçıq (İmereti – *Red.*) valisi Solomon xana və Gürcüstanı aralarında bölüşdürmüş olduğu övlad və nəvələrinə xəbər verib onlardan kömək istədi; çünki vali qoca və xəstə bir şəxs idi... Oğlanları arasında ziddiyyət və düşmənçilik olduğundan, Başaçıq valisi Solomon xandan başqa heç biri ona kömək etmədi. O, dörd min nəfər əsgər göndərdi. Vali şiddətli hökmlər yazdı, ötkəm və tələbkar yasovullar göndərdi. Lakin o hünərsizlər qoşun verməyib çal-çağır və eyş-işrətlə məşğul oldular. Vali çarəsiz qalıb dörd min nəfər əsgər, öz adamları və Qazax mahalının müsəlman elatından yığdığı süvarilərlə düşməni qarşılamaq üçün təcili surətdə yola düşdü. O bununla Ağa Məhəmməd şahın Gürcüstana girməyinə mane olmaq istəyirdi. Vali Qazax mahalına gəldi və ***İncə çayın*** kənarında düşdü. Burada övladından kömək gələr deyə, bir qədər gözlədi. Lakin bir əsər görünmədi. (Digər tərəfdə də) Ağa Məhəmməd şah gəlib Gəncə vilayətinə daxil oldu. Vali çarəsiz qalıb geri qayıtdı. Ağa Məhəmməd şah da irəliləyərək gəlib ***Soğanlıqda*** durdu. Gecəni orada keçirib səhər Tiflisə yürüş etdi. Vali həmin qoşunla, top və cəbbəxana ilə indi ***Karantın*** adı ilə məşhur olan Qızrans suyuna yetişdi. İki qoşun bir-birinə yaxınlaşıb üz-üzə gəldilər. Çarxçılar meydana atıldılar və böyük bir müharibə oldu.

... Qızılbaş əsgərləri Tiflisə daxil oldular». Bu hadisə 1795-ci il sentyabrın 12-də baş verdi.

Ağa Məhəmməd səkkiz gün Tiflisdə qaldıqdan sonra Gəncəyə döndü.

**QACAR MUĞANDA.** Qacarın qoşunları noyabrda Muğanda cəmləşdi. O, burada günlərini hədər keçirmək fikrində deyildi və Quzey Azərbaycan xanlıqlarını ələ keçirmək siyasətini davam etdirmək istəyirdi. Xanlıqlar arasındakı ədavət də bunun üçün əlverişli şərait yaradırdı.

Qacar Muğandan Şuşa qalasını zəbt etmək üçün Süleyman xan başda olmaqla dəstə göndərdi. Şirvanı tabe etmək üçün əməliyyat başladı. Bu işdə şəkili Məhəmmədhəsən xan mühüm rol oynadı. O, yaxın adamlarından birini Qacarın yanına göndərib ona tərəfdar olduğunu bildirdi və bunun təsdiqi olaraq qoşunlarını köməyə yolladı. Ağa Məhəmməd şah für-

sətdən istifadə edərək öz qoşunlarından bir dəstəni şəkililərlə birgə Şamaxı xanlığının üzərinə göndərdi. Şamaxı xanı Mustafa xan ***Fitdağa*** çəkildi və 1796-cı ilin fevralınadək orada qaldı. Ağa Məhəmməd və Məhəmmədhəsən xanın birləşmiş qüvvələri Yeni Şamaxıya daxil olub onu dağıtdılar. Məhəmmədhəsən xan Mustafa xanı mühasirəyə alarkən qardaşı ***Səlimin*** özünü Şəkidə xan elan edəcəyini eşidərək geri qayıtdı. Məhəmmədhəsən xan Şəkidə olarkən Qacar sərkərdəsi Dəvəli Mustafa xanı Şirvana hakim təyin etdi, lakin onun zülmünə tab gətirməyən əhali onu qətlə yetirdi.

Məhəmmədhəsən xan yenidən geriyə dönərkən Səlim xan avarlı Ümmə xanın və qarabağlı İbrahim xanın köməyindən istifadə edərək, 1795-ci ilin dekabrında hakimiyyəti yenidən ələ aldı və Qacarın təqibindən xilas olmaq üçün «Gələsən-görəsən» qalasına köçdü. Qacar Məhəmmədhəsən xanın gözlərini çıxartdı və İrana göndərdi. Beləliklə, Şirvan və Şəkinin ələ keçirilməsi baş tutmadı, yalnız Gəncə və Quba xanlıqları Qacara itaət etdi.

**RUSİYANIN QUZEY AZƏRBAYCANA İŞĞALÇI YÜRÜŞÜ.** Ağa Məhəmməd şahın Tiflisi tutması xəbəri sentyabr və ya noyabrın əvvəlində II Yekaterinaya çatdırıldı. Gürcüstanı rəsmi olaraq himayə altına alan, lakin onu müdafiə etməyən Rusiyanın siyasətinə ağır zərbə dəymişdi. II Yekaterina sarsılmış nüfuzunu bərpa etmək məqsədilə general Qudoviçə 1795-ci il 16 noyabr fərmanı ilə müvafiq göstərişlər verdi. Bu fərmanda yalnız Gürcüstan deyil, Şirvan və Bakının da rus qoşunları tərəfindən «müdafiəsi» tələb olunurdu: «Hərgah Ağa Məhəmməd Şirvana gəlib Şamaxı və Bakını zəbt etsə, Xəzər dənizinə və bizim sərhədlərimizə yaxınlaşsa, ordumuz onun Dağıstana gəlməsinin və Dərbəndi ələ keçirməsinin qarşısını mütləq almalı və *bizə pənah gətirən Tərki şamxalını, Qaraqaytaq üsmisini, hətta Dərbənd xanını müdafiə edib qorumalıdır*, sonra isə Ağa Məhəmmədin dəstəsini məğlubiyyətə uğradıb təqib etmək lazımdır. Əgər o bizim əleyhimizə və iradəmizə qarşı əl qaldırmış olsa, onu hakimiyyətdən belə devirməliyik». «Müdafiə» adı altında Rusiyanın Quzey Azərbaycanı ələ keçirmək siyasətinin həyata keçirilməsi nəzərdə tutulurdu.

1795-ci il noyabrın ikinci yarısında polkovnik Sıroxnevin komandanlığı ilə Gürcüstana hərbi qüvvə göndərildi. 1796-cı ilin əvvəllərində rus və gürcülərin birləşmiş qüvvələri Gəncəni mühasirəyə aldı. Cavad xan bac verməyə razı olmaqla şəhəri dağıntıdan xilas etdi.

Qodoviç Dərbəndi ələ keçirmək üçün general-mayor Savelyevin komandanlığı altında 1795-ci il deakabrın 9-da hərbi qüvvə göndərdi. Qafqaz xəttindən yola düşən qoşun 1796-cı il fevralın 15-də şəhərə çatdı. ***Şeyxəli xan*** sarayındakı ruspərəst qüvvələrin iradəsinin əksinə olaraq Dərbəndi müdafiə etməyi qərara aldı və Qubadan ora yola düşdü. Şeyxəli xan



Tabasaran qazısı, Qazıqumuq və Bakı xanlarının köməyilə şəhəri müdafiə etdi.

Transqafqaza göndərilən orduya qraf ***Valerian Zubov*** komandan qoyuldu. O, əsas qüvvələri gözləməli oldu (Bu qüvvələrə komandanlıq A.V.Suvorova təklif edilmişdi, lakin o, bundan imtina etmişdi).

Ağa Məhəmməd şah isə Dərbəndə köməyə gəlmişdi. O, ruslarla qarşılaşmaqdan yayınıb əsas qüvvələri ilə Tehrana getdi.

II Yekaterina Zubovun yürüşünə böyük əhəmiyyət verirdi. Bu məqsədlə sələfi I Pyotrun dövründə olduğu kimi xüsusi «Manifest» vermişdi. Məzmun və mahiyyətinə görə o, 1722-ci il Manifestinə bənzəyirdi.

Zubovun qoşunları Qızlar yaxınlığında toplanmalı idi. Qoşunun sayı 30 minə çatdırılmalı, 100-ə kimi topla silahlanmalı idi. V.Zubovun qoşunları tərkibində ermənilər də var idi. Onlardan biri ***İosif Arqutinski*** erməniləri, xüsusilə Qarabağ məliklərini Rusiyanın tərəfinə çəkmək üçün onlara məktub yazaraq, burada xristian dövləti yaratmağın zəruriyyətindən söz açırdı.

Zubov kifayət qədər qüvvə topladıqdan sonra aprelin 15-də yola düşdü və Dərbənd ətrafında Savelyevin qüvvələri ilə birləşdi. Qısa bir müddətdən sonra nəinki Transqafqaz, eləcə də Yaxın və Orta Şərq dövlətlərinə zərbə vurmaq üçün mühüm strateji yer olan Dərbənd tutuldu. Onun belə asanlıqla ələ keçirilməsində şəhərin müdafiəsindəki çətinliklə bərabər ermənilərin satqınlığı da böyük rol oynadı.

Zubov ordusunda olan A.Araratski adlı başqa bir erməni Dərbəndin alınması barədə yazırdı: «Qraf V.A.Zubov ordu ilə birgə Dərbəndə gəlməzdən əvvəl kazak generalı Savelyev kiçik bir korpusla artıq orada idi. Lakin tezliklə böyük ordunun gəldiyinin şahidi olan Dərbəndin yüz evdən ibarət varlı erməniləri Rusiyanın bəyannamələrinin bihudə qalmayacağını, tez və ya gec şəhərin işğal olunacağını görüb özlərini təhlükədən qorumaq məqsədilə dərhal gizli məşvərət keçirdilər və qərara aldılar ki, rus ordusuna şəhəri qan tökmədən almağa kömək etsinlər. Bunun üçün onlar bir ermənini gecə iplə qaladan aşağı endirdilər ki, o, ruslara qalaya atəş açmaq üçün əlverişli olan nöqtələri, qalanı su ilə təmin edən bulağın yerini göstərsin, çünki bulağın yönünü dəyişdikdə camaat heç bir gün də susuz qala bilməz. Həmin erməni sağ-salamat gəlib rusların düşərgəsinə çatdı və qrafa təqdim olunduqdan sonra tərcüməçi vasitəsilə öz gəlişinin məqsədini izah etdi.

Qrafın əmri ilə ayın 8-də axşam çağı nişan verilmiş mühüm yabancı top birlikləri hücumla alındı. Artıq buradan qalanın içi görünürdü. Ayın 9-da isə bulağın yönünü dəyişdilər və şəhəri, əsasən də xan evinin yerləşdiyi ərazini bombardman etməyə başladılar... Həmin gün onlar gördülər ki, suları əllərindən alınıb... Xan yüksək rütbəli əyanlar ilə məsləhətləşdikdən sonra təslim olmağı qərara aldı».

Mayın 10-da gündüz saat üçdə şəhərin qapıları düşmənin üzünə açıldı və qala qapısının açarı general Savelyevə təqdim olundu. Şeyxəli xan məiyyətilə birgə Zubovun hüzuruna gətirildi. Qraf imperatriça adından onun bağışlanacağını vəd etdi. Sonralar Şeyxəli xan xanlıqdan devrildi və Fətəli xanın qızı ***Pəricə xanım*** Dərbəndə hakim, şəhərin I Pyotr dövründə işğalı zamanı onun idarəçiliyində iştirak edənlərdən birinin nəslindən olan Nadir xan isə naib təyin edildi.

Dərbəndin işğalının şahidlərindən biri yazırdı ki, «Pəricə xanım həmişə rusların tərəfində olmuşdur... müharibə zamanı o bir neçə dəfə öz nümayəndəsini qrafın düşərgəsinə göndərmiş və ona məsləhətlər vermiş, beləliklə də Rusiyaya sədaqətini bildirmişdir». Beləliklə, Pəricə xanımın təyinatı təsadüfi olmayıb, çarizmin siyasi xəttini əks etdirirdi. Hakimiyyət yalnız yerli hakim sülalənin Rusiyaya sədaqətli olan nümayəndələrinə etibar edilirdi.

Hakimiyyətdən məhrum olan və ya Rusiya işğalı ilə barışmayan bəylər sui-qəsd hazırladılar. Zubov qəsdçiləri Həştərxana sürgün etdi, Şeyxəli isə «göz» dustağına çevrildi.

Dərbənd tutulduqdan sonra rus qoşunları Qubaya irəlilədi. İyunun 6-da Quba tutuldu. Bundan sonra Bakı, Şamaxı və Salyana yol açıldı. Hüseynqulu xan iyunun 13-də Bakı şəhərinin açarını Zubova verdi. Zubov general-mayor Mayorovun başçılığı ilə 3 piyada batalyonu, 2 süvari eskadronu və 3 səhra topunu Bakıya göndərdi.

Rus qoşunları Bakıdan Şamaxıya istiqamət götürdü. Şeyxəli xan nəzarət zəifliyindən istifadə edib qaçmağa nail oldu və mübarizəni davam etdirməyə başladı.

**QUZEY AZƏRBAYCAN XANLARININ RUSİYAYA QARŞI İTTİFAQI.** Rus qoşunları əvvəlcə Qurdbulaq yaylağında, sonra Pirsaatda düşərgə saldılar. Bu dövrdə Zubovun Quzey Azərbaycan xanlıqları ilə əlaqələri genişləndi. Mirzə Camal yazırdı: «Mərhum İbrahim xan, oğlu Əbülfət xanı Qarabağın bir neçə bəyzadəsi ilə birlikdə töhfə, hədiyyələr və cins atlarla, tam bir razılıq və rəğbətlə böyük sərdar Valerian Zubovun hüzuruna göndərib, yüksək Rusiya dövlətinə səmimi qəlbdən sədaqətlə itaət edəcəyini bildirdi. Əzəmətli imperatriçanın adına səmimiyyət və sədaqəti andıran bir ərizə də yazdı. Böyük sərdar Əbülfət xanı və Qarabağ bəyzadələrini lazımi hörmətlə qarşılayıb, İbrahim xanın ərizəsini xanın etimadlı adamı və öz eşikağası ilə Dərbənd və Qızlar yolu vasitəsilə əzəmətli imperatriçanın hüzuruna göndərdi. Bir knyaz vasitəsilə İbrahim xana qiymətli töhfə və hədiyyələr göndərib, onu əzəmətli padşahın mərhəmətinə ümidvar etdi...» İbrahim xanın bu addımı diplomatik səciyyə daşıyırdı. Çünki o, Zubovun işğalçı yürüşünün Qarabağda erməni məliklərinin güclənməsi və onun hakimiyyətinin devrilməsilə nəticələnəcəyini yaxşı görürdü. İbrahim xan nəinki onun, digər xanların da bu vəziyyətə düşdüyünü bilirdi. Ona görə də Rusiya qoşunlarına qarşı Quzey Azərbaycan xanları və bəzi Dağıstan hakimləri arasında ittifaqa bənzəyən bir əməkdaşlıq yaranmağa başladı. Tərəflər Zubova sui-şəsd edilməsinə üstünlük verdilər. Onu qətlə yetirməyi Ağa Məhəmməd Qacarın təqibindən Rusiyaya qaçan və Zubovun qərargahında olan Nurəli xan üzərinə götürdü. Ancaq axmaq təsadüf nəticəsində sui-qəsdin üstü açıldı, Nurəli xan tutulub Həştərxana sürgün edildi.

Rusiya qoşunlarının Qafqazdakı baş komandanına qarşı açıq silahlı mübarizə də davam edirdi. Bu işdə Şeyxəli xan fərqlənirdi. O, antirus qüvvələri açıq müharibə üçün birləşdirirdi. Şeyxəli xan, Mustafa xan, Səlim xan və Dağıstanın bəzi hakimlərilə əlaqə yaratmışdı. Şeyxəli xan Qazıqumuq xanı ilə birləşərək sentyabrın sonunda Quba xanlığında (Alpan kəndi yaxınlığında) 500 nəfərlik rus hərbi dəstəsinə ağır zərbə vurdu.

1796-cı il oktyabr ayının əvvəllərində Zubov knyaz Çiçianovun başçılığı ilə yeni hərbi qüvvə aldı. Bu, Gəncə xanlığının ələ keçirilməsi planını həyata keçirməyə imkan verdi. Oktyabrın 21-də ***general Rimski-Korsakovun*** komandanlıq etdiyi dəstə Gəncəyə yola düşdü. Gəncə xanlığı tutuldu. Rus qoşunları hərbi əməliyyatları Güney Azərbaycana keçirmək və Qacara zərbə endirmək niyyətində idi. Bunun üçün ordunun qışlamasını təmin emək və 1797-ci ilin yazında hərbi əməliyyatlara başlamaq nəzərdə tutulurdu.

**İŞĞAL OLUNMUŞ TORPAQLARDA RUSİYANIN SİYASİ-İQTİSADİ TƏDBİRLƏRİ.** 1796-cı il oktyabrın sonunda Zubov rus qoşunlarının qərargahını Yeni Şamaxıya köçürdü. Quzey Azərbaycanda mövqeyini möhkəmləndirən Zubov siyasi-iqtisadi sahədə tədbirləri genişləndirməyə başladı. Yerli dayaqları möhkəmləndirmək məqsədilə Şamaxı xanı Mustafa xanı və hakimiyyətdən devrilmiş Şeyxəli xanı Rusiyaya sədaqətli adamlarla əvəz etməyi qərara aldı. Noyabrın 2-də Qasım xan Şamaxı xanı, 3-də isə Fətəli xanın İlisu sultanının qızından olan oğlu Həsən bəy Quba xanı təyin edildi. Həsən xanın azyaşlı olması nəzərə alınaraq idarə işləri yerli yüzbaşılara həvalə edildi.

Qışın yaxınlaşması ilə əlaqədar olaraq rus qoşunları Muğana çəkildi. Zubov rus qoşunlarının mövqeyini möhkəmləndirmək və diyarın iqtisadi mənimsənilməsini təmin etmək üçün layihə hazırlamışdı. Bu layihəyə görə Cavad yaxınlığında Yekaterinanın adını daşıyan qala salınmalı, buraya 2 min cavan rus əsgəri göndərilməli, gürcü və ermənilər onlara gəlin verməyə məcbur edilməli idi.

Bakı limanının böyüdülməsinə də böyük əhəmiyyət verilirdi. Peterburq bu işin həyata keçirilməsinə qayğı göstərir, pul və sənətkarlar göndərirdi.

Rusiya bu tədbirlərlə həm hərbi-strateji məqsədini həyata keçirməyə, həm də Şərqlə ticarətini möhkəmləndirməyə çalışırdı. 1796-cı ilin noyabrında II Yekaterinanın ölümü hadisələrin nəzərdə tutulmuş gedişini dəyişdi. Hakimiyyətə gələn yeni çar I Pavel əks siyasət həyata keçirməyə başladı. Rus qoşunları Transqafqazdan geri çağırıldı, Zubov istefaya çıxdı, onun yerini yenidən qraf Qudoviç tutdu.

I Pavelin xeyli ərazini işğal etmiş rus qoşunlarını geri çağırmasının səbəbi bir tərəfdən böyük xərclər (1.700 min rubl), digər tərəfdən Avropada vəziyyətin mürəkkəbliyilə izah edilir Burada yerli xalqların işğalçı rus qoşunlarına münasibəti, hakimiyyətdən devrilmiş xanların fəaliyyəti, İranda Ağa Məhəmməd şahın güclənməsi də öz təsirini göstərmişdi.

Rus qoşunları dekabr ayından Quzey Azərbaycandan çıxarılmağa başladı və bu 1797-ci ilin yazınadək davam etdi. Quzey Azərbaycanın işğalını 1803-cü ilədək təxirə salmaq lazım gəldi.

«Qızılayaq yaranal» (ayağının biri qızıl protez idi) Zubovun komandanlığı ilə keçən yürüşün aqibətinə ələ keçirilmiş xanlıqlardakı siyasi-iqtisadi tədbirlər, xüsusilə müsəlman əhalisinə qarşı ayrı-seçkilik, ermənilərə arxalanmaqla güclü xristian dövləti yaratmaq planı da öz mənfi təsirini göstərmişdi.

**AĞA MƏHƏMMƏD ŞAHIN İKİNCİ YÜRÜŞÜ. ONUN QƏTLƏ YETİRİLMƏSİ.** Qacar Quzey Azərbaycandan getdikdən sonra Xorasanda üsyanı yatıra bildi. Rusiya qoşunlarının işğalları Qacarı qabaqlayıcı tədbirlər görməyə məcbur etdi. Bir tərəfdən Gilan və Mazandaran möhkəmləndirilir, digər tərəfdən hərbi əməliyyatların Qarabağ xanlığı ərazisinə keçirilməsinə cəhd göstərilirdi. 1796-cı ilin avqustunda Şuşa qalasını ələ keçirmək üçün hərbi dəstə göndərilmiş, lakin İbrahim xan tərəfindən dəf edilmişdi. Qacar Quzey Azərbaycan xanlıqlarının Zubova qarşı çıxmasına diqqət verir, bununla yanaşı özü də buraya yürüşə hazırlaşırdı.

Rus qoşunları Azərbaycanın hüdudlarını tərk etdikdən sonra Qacar bu niyyətini həyata keçirməyə başladı.

Ağa Məhəmməd şahın hücumu ərəfəsində Quzey Azərbaycan xanlıqları ağır günlər keçirirdi. İstər Qacarın birinci hücumu, istərsə də rus qoşunlarının işğalçılıq fəaliyyəti özünü büruzə verirdi. Əhali var-yoxdan çıxmış, məmləkət iqtisadi cəhətdən zəif düşmüş, talan edilmişdi. Epidemiya yayılmağa başlamışdı.

Qacar əvvəlcə Talışda Mustafa xanı cəzalandırmağı qərara aldı. Onun dəstələri Talış xanlığını tutdu. Yeni hücum zamanı köçürmə tədbirinə də əl atdılar. Şamaxı, Şəki və başqa bölgələrin əhalisinin İrana köçürülməsi nəzərdə tutulurdu. Naxçıvan da belə tədbirə məruz qaldı və xan öldürüldü.



İbrahim xan Qarabağın müdafiəsinin çətinliyini nəzərə alaraq Cara getdi. Əhməd bəy Cavanşir yazır: «1797-ci ilin yazında Şuşada Ağa Məhəmməd şahın yenidən saysız-hesabsız qoşunla şəhərə yaxınlaşması haqqında mənhus bir xəbər alındı. Aclıq və vəba xəstəliyi üzündən daha şəhərdə davam gətirmək mümkün olmadığından, Rusiyadan yaxın zamanlarda kömək gözlənilmədiyindən, Türkiyə sultanının yanına göndərilən elçilərin isə yalnız aparılan hədiyyələr müqabilində yeni hədiyyələr gətirib, heç bir kömək ümidi vermədiklərindən İbrahim xan Şuşanı tərk edərək, öz ailəsi ilə birlikdə Car-Balakən vilayətinə getdi». Fransız tədqiqatçısı Jan Küre İbrahim xanın Qacara möhkəm müqavimət göstərdiyini, lakin onun nəticəsiz qaldığına əmin olduqdan sonra Şuşanı tərk etdiyini göstərir. Bunu eşidən Qacar Şuşaya gəldi. O, İbrahim xanın böyük oğlu ***Məhəmmədhəsən ağanın*** evində yerləşdi. O, İbrahim xanın qardaşı oğlu ***Məhəmməd bəyi*** Qarabağa, ***Sərdar Əliqulu xanı*** Şirvana hakim təyin etdi. Ağa Məhəmməd xanı müdafiə edən Quba və digər xanlıqlar üstünlüyü ələ aldı. Gəncəli Cavad xan və bakılı Hüseynqulu xan Şuşada həbs edildi. İbrahim xanın vəziri Vaqif də zindana atıldı. Az sonra şəhərdə amansız cəza tədbirlərinə əl atıldı. Belə bir şəraitdə Ağa Məhəmməd şaha sui-qəsd təşkil edildi və o öldürüldü. Mirzə Camal yazır ki, «Ağa Məhəmməd şahın öldürülməsinin təfsilatı belədir: İbrahim xan qaladan çıxıb Balakənə getdikdən sonra Ağa Məhəmməd şah heç bir maneəyə rast gəlmədən Şuşa qalasına girib bir həftə orada qaldı. Bir gecə xoşu gəlmədiyi bir işə görə ***Səfərəli bəy*** və ***Abbas bəy*** adlı iki nəfər yaxın xidmətçisinə acıqlanıb dedi: «Səhər açılan kimi hər ikinizə ağır cəza verəcəyəm». Onlar bildilər ki, şah heç vaxt öz dediyindən dönmür. Odur ki, canlarının qorxusundan səhər açılana qədər onu öldürməyi lazım bildilər. Sübh açılan zaman şah yuxuda ikən şahın otağına girib iki xəncərlə onu öldürdülər».

Ağa Məhəmməd şahın qətlini sadəcə olaraq Səfərəli bəy və Abbas bəyə acıqlanmasının nəticəsi kimi qəbul etmək olmaz. Bu, siyasi səciyyə daşıyırdı. Əgər V.Zubova qarşı da belə bir qəsd planlaşdırıldığı nəzərə alınarsa (bu barədə gizli məktub Zubovun düşərgəsinə gələn Əbülfət ağanın üstündən tapılmışdı), burada İbrahim xanın barmağı olduğunu güman etmək olar. Görünür, Şuşanın müdafiəsinə əmin olmayan xan sui-qəsd təşkil etməyi qərara almış və bundan sonra qalanı tərk etmişdi. Hər halda XIX yüzil rus tarixçisi P.Butkova görə Qacarın öldürülməsi Qarabağ bəylərinin işi idi. M.P.Vaqifin Şuşanı tərk etməməsi də təsadüf olmaya bilərdi. Vaqif uğurlu sui-qəsddən sonra Vidadiyə yazırdı:

Ey Vidadi, gərdişi-dövrani-gəcrəftarə bax!
Ruzigara qıl tamaşa, karə bax, kirdarə bax!
Əhli-zülmü necə bərbad eylədi bir ləhzədə,
Hökmü adil padişahi-qadirü qəhharə bax!

Sui-qəsdin həyata keçirilməsində ***Batmanqılıc*** ayaması almış Məhəmməd bəy mühüm rola malik olmuşdur. Belə ki sui-qəsddən sonra Məhəmməd bəy Qacarın qaldığı imarətə daxil olmuş, Ağa Məhəmməd şahın başını İbrahim xana göndərmişdi.

Mirzə Adıgözəl bəy yazır ki, Səfərəli bəy və Abbas bəy Qacarı öldürdükdən sonra «şahın qaş-daşla bəzədilmiş bazubənd, tac və həmayilini götürüb özlərini Sadıq xanın (Baş sərkərdə – *Red.*) yanına yetirdilər. Sadıq xan bu halı görcək tab və taqətdən düşdü. Sadıq xan qaladan çıxandan iki saat sonra şahın öldürülməsi xəbəri şəhərə yayıldı». Şəhər əhalisi Qacarın törətdikləri facilələrə cavab olaraq Şuşanı tərk edən qoşuna hücum edirdi. Baharlı «Əhvalati-Qarabağ» əsərində yazır ki, «top döyüşündə çox zərər çəkən camaat Ağa Məhəmməd şah öldükdən sonra ayağına ip salıb küçələrdə, bazarlarda «urray» çəkib sürüyürdülər. Bu cəhətə görə Ağa Məhəmməd şahı bihörmət ediblər ki, qala camaatına çox zərər veribdir. Və hər top atılanda neçə evlər dağılıb. Belə nəql edirlər ki, bir nəfər övrət uşağını qucağında tutmuş, topun gülləsi gəlib övrəti uşaq ilə bir-birinə qatıb».

Ağa Məhəmməd şah öldürüldükdən sonra Bakı və Gəncə xanları zindandan çıxaraq xanlıqlarına qayıtdılar. Məhəmməd bəy Şuşada hakimiyyəti İbrahim xana verməк əvəzinə, xanlığın idarəsini öz əlinə almağa başladı. O, hakimiyyəti möhkəmləndirmək üçün İbrahim xanın yaxın adamlarını öldürməyə başladı. Vaqif də belə məsuliyyətsiz hökmün qurbanı oldu, oğlu ilə birlikdə öldürüldü. Az bir müddətdən sonra İbrahim xan Şuşaya qayıtmağa və hakimiyyəti ələ almağa nail oldu. Məhəmməd bəy Şəki xanı Məhəmmədhəsən xanın yanına qaçdı. Məhəmməd bəy 1797-ci ilin sonunda atası Mehrəli xanla qan düşməni olan şamaxılı Mustafa xan tərəfindən öldürüldü. Bu hadisədən sonra Şamaxı və Şəki xanları ilə İbrahim xan arasındakı münasibətlər kəskinləşdi.

Şuşaya qayıdan İbrahim xan İranla münasibətləri yenidən kəskinləşdirməmək məqsədilə diplomatik addım atdı: Ağa Məhəmməd şahın cənazəsi hörmətlə Tehrana – ***Fətəli şah adı ilə taxta çıxmış Baba xana*** göndərildi. O, bu hörmətdən razı qaldı. Mirzə Camal yazır ki, «Fətəli şah İbrahim xanın belə hərəkətlərini özü üçün xoşbəxtlik sanıb, onun adamlarını xələt və ənamla geri qaytardı. Ona (İbrahim xana) xələt, qılınc göndərib, Qarabağın hökumətini bütün mədaxillə İbrahim xana bağışladı və onunla qohum olmaq istədiyini bildirib dedi: «Hər iki tərəfin xatircəmliyi üçün əziz və möhtərəm qızınız Ağabəyim ağanı bizim hərəmxanaya layiq bilməlisiniz. O, bizim hərəmxananın xanımı olmalıdır». İbrahim xan şahın təklifinə razı oldu və bu nikahla gərgin münasibətləri yoluna qoydu.



# 5. XANLIQLARIN İQTİSADİ VƏZİYYƏTİ. SOSİAL-SİLKİ QURULUŞ VƏ İDARƏÇİLİK

**İQTİSADİ VƏZİYYƏT.** Xanlıqların iqtisadiyyatında əsas yeri kənd təsərrüfatı tuturdu. Əhalinin əksər hissəsi kəndlərdə yaşayır, əkinçilik, bağçılıq, bostançılıq və sairə ilə məşğul olurdu. XVIII yüzilin ikinci yarısında ayrı-ayrı bölgələrdə təsərrüfat sahələri üzrə ixtisaslaşma genişlənmişdi. Qarabağ, Şirvan, Gəncə, Quba və Şəki xanlıqlarında dənli bitkilər; Talış xanlığı, Şirvan xanlığının Bərgüşad mahalında düyü; Dərbənd, Quba və Bakı xanlıqlarında qızıl biyan, zəfəran yetişdirilirdi. Şəki və Şirvan ipəkçilik mərkəzi kimi böyük rol oynamaqda davam edirdi. Şəki xanlığının on üç kəndində 202, vassal asılılığında olan Ərəş sultanlığının iki kəndində 74, Ağdaşın on kəndində 206 tut bağı var idi. Şəki və Şirvan xanlıqlarındakı bağların əksəriyyəti xanlara məxsus idi. Demək olar ki bütün xanlıqlarda bağçılıq və bostançılıq təsərrüfatda mühüm yer tuturdu.

Azərbaycanın bəzi bölgələrində (Gəncə, Şəmkir, o cümlədən Xəzərsahili ətrafda) əkinçilik tədricən ticarət səciyyəsi alırdı.

Kənd təsərrüfatı alətləri və aqrotexniki mədəniyyət gerilikdən tam xilas ola bilməmişdi. Əsas kənd təsərrüfatı alətləri xış və kotan idi.

Torpaqların becərilməsində süni suvarmadan istifadə olunurdu. Şamaxı, Cavad, Qazax, Düzənlik Qarabağ, Gəncə, Talış və başqa yerlərdə Kür və Araz çaylarının suyundan istifadə olunurdu. Kür və Araz çayı ilə birgə Bərgüşad, Əkərə, Tərtər və başqa çayların hövzələrində də xeyli suvarılan torpaqlar var idi. Sular arxlar vasitəsilə aparılırdı. Qarabağ xanlığında Külək arxı, Luvar arxı, Meymənə arxı, Gəmiçi arxı, Sarı arx, Ayaz arxı, Taşqay arxı, Müqəddəs arx, Taybaşmaqlı arxı, Gavur arx və b. var idi. Pənah xan və İbrahim xan bu arxların bərpa olunmasına xüsusi diqqət verirdi.

Suvarma şəbəkəsində kəhrizlər də böyük yer tuturdu. Geniş suvarma şəbəkəsi Azərbaycanın kənd təsərrüfatının dirçəldilməsində xüsusi rol oynayırdı.

Kənd təsərrüfatının digər ən mühüm sahəsi maldarlıq idi. Quba, Qarabağ, Ərdəbil Şamaxı, Dərbənd, Salyan, Cavad başlıca maldarlıq bölgələri idi.

XVIII yüzilin ikinci yarısında balıqçılıq da inkişaf edirdi. O, Quzey-Gündoğar Azərbaycanda, həmçinin Şəki və Gəncə xanlıqlarında üstünlük təşkil edirdi. Balıq tutulması bəzən yerli və rus tacirlərinə iltizama verilirdi. Balıqçılıqda həm murzlu, həm də məcburi əməkdən istifadə olunurdu. Xanlıqlar dövründə dövlət (divan) və saray (xassə) torpaqları arasındakı fərq aradan qalxdı, onlar indi xan torpağı hesab olunurdu. Xanların əlində böyük maddi sərvət cəmlənmişdi. Mirzə Camal yazır: «... yadımdadır, bir

dəfə mərhum İbrahim xanın özünə məxsus olan cütləri və kotanları sayırdılar. Məlum oldu ki, xanın cüt və kotanı bütün Qarabağ əhlinin cüt və kotanı qədərdir; hətta onlardan iki cüt artıqdır.

... Təxminən üç-dörd min və bəlkə daha çox balalayan madyanı, xüsusi cins ayğırları var idi. Xüsusi qoyun sürüləri, malı camışı o qədər çox idi ki, saymaqla qurtarmazdı. Digər xanların da çoxlu var-dövləti var idi».

Mülk üzərində əvvəllər olduğu kimi, mülkədarın, mülk sahibinin tam mülkiyyət hüququ var idi, xan qarşısında xidmətlə bağlı deyildi, alınıb-satıla bilərdi. Bu torpaq sahibliyi forması mülk və mülk-xalisəyə bölünürdü. Mülk sahibi gəlirin bir hissəsini xəzinəyə verməli olduğu halda, mülk-xalisə sahibi bu vergidən azad idi.

Mülklərin alınıb-satılması geniş yayılmışdı. Qubalı Şeyxəli xan 1798-ci ildə bir qışlağı Kərim ağaya əbədi mülk sahibliyinə satmışdı. Kəndli mülkləri də alqı-satqı obyekti olur və tədricən kəndlilərin əlindən çıxırdı.

Torpaq mülkiyyətinin digər forması tiyul idi. Tiyul şərti torpaq mülkiyyəti olub müəyyən xidmətlərə görə verilirdi. Xan tiyul verərkən onu təliqə adlanan sənədlə təsdiq edirdi. Tiyul tədricən irsən keçməyə başladığından, onun atadan oğula keçməsinin təsdiqi formal xarakter alırdı. Tiyulun təkamülündə digər cəhət renta almaq hüququ ilə bərabər, tiyul torpaqlarında yaşayan kəndlilərin də bəxşiş verilməsi idi. Qubalı Fətəli xanın 1774-cü ilin dekabrında verdiyi fərman bu fikri təsdiq edir. Orada göstərilir ki, «yüksək fərman verildi... Biz Sədan, Quşçu, Çıraq, Ügah və Çilqan kəndlilərini.... Buduqlu məlik Hacı bəyə mükafat verdik ki, bunlar onun ixtiyarında olub ona xidmət etsinlər və ondabirdən (dəh-yek), yarıdan (nim-yek), xırda vergilərdən (kəsim) və sair (vergilərdən) nə düşürsə, hamısını məlik Hacı bəyə versinlər. Kimsənin o kəndlərin işinə qarışmağa ixtiyarı olmasın və kimsə ona (Hacı bəyə) toxunmasın. Adı çəkilən kəndlərin rəiyyəti və sakinləri o hörmətli (Hacı bəyi) özlərinin tiyulları bilsinlər və onun sözündən və məsləhətindən çıxmasınlar. Əmr etdik ki, adı çəkilən kəndləri kimsə sıxışdırmasın və onlara mane olmasın». Qarabağ, Şəki və digər xanlıqlarda da belə fərmanlar verilirdi. Naxçıvan xanlığında tiyul digər xanlıqlara nisbətən az inkişaf etmişdi.

Tiyulun mülkə çevrilməsi genişlənirdi. Bu bir tərəfdən inkişafın obyektiv nəticəsi idi, digər tərəfdən tiyuldarların ictimai-siyasi həyatda mühüm rol oynaması ilə izah olunurdu. Qulluq əyanlarının mülk sahiblərinə çevrilməsi separatizm əhvali-ruhiyyəsi yaradırdı.

Müsəlman məscidlərinə və digər dini idarələrə məxsus olan vəqf torpaqları ilə yanaşı evlər, dükanlar karvansaralar da vəqf ola bilərdi. Vəqf xan xəzinəsi nəfinə vergi və mükəlləfiyyətlərdən azad idi.

Kənd icması torpağı da XVIII yüzilin ikinci yarsında bütün xanlıqlarda mövcud idi. İcma, kəndliləri ərazi əlamətinə görə birləşdirirdi. İcma torpaq-



larının zorla tutulması meydana gəldiyindən onun miqdarı getdikcə azalırdı.

Xanlıqların yaranması sənətkarlıq və ticarət mərkəzləri kimi şəhərlərin inkişafına şərait yaratdı. Bu dövrdə XVIII yüzilin I yarısında dağıdılmış şəhərlər bərpa edilməyə və hətta ***Pənahabad (Şuşa)*** kimi şəhər yüksəlməyə başladı. XVIII yüzilin sonu – XIX yüzilin əvvəllərində Şamaxıda 5-10 min, Bakıda 4-5 min, Şəkidə 6 min, Şuşa və Dərbəndin hərəsində 10 min nəfər əhali yaşayırdı. Təbriz yenə də Azərbaycanın ən böyük şəhəri olaraq qalırdı. Orada 250-300 min əhali var idi.

Azərbaycanda natural təsərrüfat hökm sürdüyünə görə əhalinin çoxu ev sənətkarlığı ilə məşğul olurdu. Ən iri sənətkarlıq emalatxanaları isə şəhərlərdə idi.

Quba şəhəri və onun ətraf yerlərində əl xalça dəzgahları olan karxanalar var idi. Orada «çiçi» adlanan gözəl xalçalar toxunur, bu xalçalar xarici bazarlarda satılırdı. Urmiyada «əfşarı» xalçaları toxunurdu.

Şamaxı XVIII yüzilin ortalarından əvvəlki şöhrətini bərpa etməyə başlamışdı. Şəhərin sənətkarlıq həyatında ipək parça istehsalı üstünlük təşkil edirdi. O zaman Şamaxıda 1500 əl ilə toxuma dəzgahı var idi. Bu dəzgahlarda zəngin çeşidli ipək məmulatı toxunurdu. Bu mallar İran, Türkiyə, Rusiya və başqa ölkələrə ixrac olunurdu.

Şəki ipək istehsalı mərkəzi kimi şöhrət qazanmışdı. Burada ipək parçalar toxunur, mis məmulatları, ağacdan şəbəkələr düzəldilirdi. Şəki tikmələri də geniş yayılmışdı. Təbriz, Marağa, Urmiya şəhərlərində də ipək parçalar istehsal olunurdu. Metal məmulatları istehsalı sahəsində Lahıc kəndi böyük şöhrət qazanmışdı. Lahıcda xəncər, qılınc və çaxmaqlı silahlar, hətta kiçik toplar – zumbraqlar hazırlanırdı. Azərbaycan şəhərlərində metal məmulatların satılması üçün çoxlu dükanlar var idi. Bahalı metallardan – qızıl və gümüşdən zərgərlik məmulatları hazırlanmasına da xüsusi fikir verilirdi.

Gəncə, Şamaxı, Dərbənd, Şuşa, Cavad kimi maldarlıq bölgələrinin yaxınlığında olan şəhərlərdə dəri istehsalı yayılmışdı. Bu sənətkarlıq emalatxanalarında satış məqsədilə yəhərlər, başmaqlar, ayaqqabılar, çarıqlar və başqa məhsullar istehsal olunurdu.

Bakıda boyaqçılıq, Təbriz və Ərdəbildə yun və ipək parçalar, zərgərlik məmulatları istehsalı inkişaf etmişdi.

Xanlıqların sənətkarlıq istehsalı sahələri üzrə ixtisaslaşması onun əmtəə səciyyəsi daşımasına səbəb oldu, lakin əmtəə istehsalı hələlik natural təsərrüfatın hökmranlığına son qoymağa qadir deyildi.

Xanlıqlarda ticarətin inkişafında da müəyyən dəyişikliklər özünü göstərirdi. Daxili ticarət xanlıqlar daxilində və xanlıqlar arasında, xarici ticarət isə İran, Türkiyə, Rusiya və başqa ölkələrlə aparılırdı.

Şəki şəhərində səkkiz dalan-bazar var idi. Təbriz, Urmiya bazarları da məşhur idi. Digər şəhərlərdə də alqı-satqı bazarlarda aparılırdı.

Xanlıqlararası ticarət əlaqələri də genişlənirdi, lakin hələ ümumilli daxili bazar üçün obyektiv səbəblər tam yaranmamışdı.

Azərbaycan xarici ticarətdə geniş iştirak edirdi. Bakı xanlığı zəfəran, duz, neft, Quba xanlığı qaramal, davar, taxıl, xam ipək, mis, boyaq, ağ və qara mahud, xalça və kətan, digər xanlıqlar da müvafiq mallar ixrac edir, Azərbaycan Rusiyadan mahud, boyaq malları, qənd, dəmir və s., İrandan şal, başmaq, düyü gətirilirdi.

Bakı və Quba xanlığı Rusiya ilə ticarətdə üstün yer tuturdu. 1785-ci ildə Həştərxandan Bakı limanına 22 gəmi gəlmişdi. 1793-cü ildə Həştərxandan Bakıya 310 min manatlıq mal gətirilmiş, 240 min manatlıq mal aparılmışdı. XVIII yüzilin sonlarında cənub xanlıqlarından Rusiyaya 400 min pud pambıq göndərilmişdi.

Quba xanlığı ilə Rusiya arasında 1782-ci ildə ticarət sazişi bağlanmışdı. Fətəli xan 1782-ci il 26 avqust tarixli iltizamında yazırdı: «Mənim hakimiyyətim altında olan bütün yerlərə Dərbənd, Bakı, Salyan və Rusiya ticarət və s. gəmilərinin yan aldığı hər bir yerə xəbər verilsin ki, oradakı xanlar, sahibkarlar və mənim tabeliyimdə olan başqa adamlar Rusiya təbəələrinin işlərinə əsla qarışmasınlar...»

Şərq ölkələri, o cümlədən Türkiyə, İran, Hindistan və b. ölkələrlə ticarət əlaqələri də davam edirdi. Lakin ara müharibələri, yüksək gömrük haqqı rəhdar ticarətin inkişafına mane olurdu.

XVIII yüzilin ikinci yarısında Azərbaycanın özünəməxsus pul sistemi formalaşmağa başladı. Pul dövriyyəsini nizama salmaq məqsədilə xanlıqların mərkəzi şəhərlərində zərbxanalar yaradılmışdı. Xanlıqlarda mis və gümüş pullar kəsildiyi halda qızıl pullar kəsilmirdi. Əsas pul vahidi ***abbası*** idi. Qarabağ xanlığının pul vahidi ***pənahabad*** adlanırdı.

Yerli pul vahidlərilə birgə rus rublundan, Hollandiya çervonu və Hind pullarından istifadə edilirdi.

**SOSİAL-SİLKİ QURULUŞ.** XVIII yüzilin ikinci yarısında xanlıqların yaranması nəticəsində Azərbaycan cəmiyyəti tədricən İranın tərkib hissəsi olmaqdan uzaqlaşaraq müstəqilləşməyə başladı. Buna uyğun olaraq sosial-silki quruluşda da özünəməxsus dəyişikliklər meydana gəldi.

Azərbaycanın hakim silki yaranmış yeni şəraitdə özümləşməyə başladı. Bu silkin başında xanlığın ali hakimi – xan dururdu. Xandan sonrakı yeri sultan və məliklər tuturdu. Bu titullar irsən keçirdi. Lakin bu hüquq hər dəfə xan tərəfindən təsdiq edilməli idi. Sultanlar və məliklər geniş məhkəmə və inzibati hüquqlara malik idi. Qarabağdakı məliklərin başçıları, Qəbələdə və Şəki xanlığındakı bəzi hakimlər də məlik titulu daşıyırdı.



Ali silkin əsas hissəsini ***bəylər*** təşkil edirdi. Onlar irsi və şəxsi bəylərə bölünürdü. Vaxtilə İran şahlarından bəylik alanlar daha varlı və böyük nüfuza malik idi. XIX yüzilin əvvəllərinə aid bir qaynaqda xanlıq dövründə bəylərin hüquqları haqqında deyilir ki, bəylər həmişə xanlıqda və xan sarayında yüksək vəzifə tutur və əməkləri müqabilində ya xan xəzinəsindən, ya idarəetmənin onlara həvalə edilmiş hissəsindən gələn gəlirdən maaş alır, ya da xan kəndin idarəsini ömürlük onlara verirdi. Onlar digər azad silklər kimi torpaq ala bilər və boş vaxtlarında hər hansı tədiyəsiz ticarət, əkinçilik və digər peşələrlə məşğul ola bilərdilər.

Vergi və mükəlləfiyyətdən alınma istisna olmaqla, bəylərin mülki hüququ irsi idi. Bəylər kəndlilər üzərində inzibati polis hakimiyyətinə malik idi.

Bəylərin başlıca vəzifəsi xanın qarşısında istənilən xidmətə hazır olmaq idi.

Qazax, Şəmşədil və Borçalıda kəndlərin idarəsinə hüququ olanlar ***ağa*** adlanırdı. Onlar da bəylərin şəxsi hüquqlarından istifadə edirdilər.

Bəylər vergi immunitetinə malik olduqlarından xana aid rentanı onun adamları yığırdı. Bəylər öz təsərrüfatlarını da yaratmağa nail ola bilirdilər.

Bəylər həmçinin böyük siyasi qüvvə idi. Xanın hakimiyyətinin möhkəmliyi xeyli dərəcədə bu silkdən asılı idi. Bununla birgə xanlar bu və ya digər bəy ailəsinin güclənməsinə qısqanclıqla yanaşır, onun qarşısını almaq məqsədilə mülklərin idarə edilməsinə varislərdən ən kiçiyini və ya hətta yan şaxədən olanı təsdiq edir, beləliklə bəy ailəsinin güclənməsinə imkan vermirdilər. Belə bir vəziyyət bütün xanlıqlara aid deyildi. Bəzi xanlıqlarda bəylərin mövqeyi o qədər də güclü deyildi. Gəncə xanlığında bəylər xanın xeyrinə mükəlləfiyyət daşıyırdı. Bakı xanlığında isə bəylər kasıblaşaraq bəzən aşağı silkə qarışırdı.

Ali silk içərisində yüksək ruhanilər də mühüm yer tuturdu. Ruhanilər vergi və mükəlləfiyyətlərdən azad idi. Onlar vəqflərin və dini rusumların (zəkat, xüms və s.) hesabına dolanırdı.

Azərbaycan cəmiyyətinin sosial-silki quruluşunda ***maaflar*** ayrıca yer tuturdu. Maaf rütbəsi xanlar tərəfindən verilirdi. Onlar xanlıqlarda polis rolunu yerinə yetirir, qoşunun əsasını təşkil edirdi. Maafların üzərinə qoyulan vəzifəni layiqincə yerinə yetirmək üçün xan onlara torpaq sahələri bağışlayırdı. Maaflar vergi və mükəlləfiyyətlərdən azad idi. Maaflıq irsən keçirdi, onun ömürlük olduğu da məlumdur.

Cəmiyyətin aşağı silki sayılan kəndlilər hüquqlarına və mülki vəziyyətinə görə rəiyyət, rəncbər, elat və başqalarına bölünürdü.

Rəiyyət kənd icmasının xəzinə və ya ali silk torpaqlarında yerləşməsindən asılı olaraq dövlət və sahibkar rəiyyətlərinə bölünürdü. Onların pay torpaqları, burada təsərrüfat qurmaq və ya inkişaf etdirmək üçün əmək alətləri, iş heyvanları var idi. Rəiyyətlər müəyyən vergi və mükəlləfiyyətlər

yerinə yetirməli idi. Təkcə Qarabağ xanlığı üzrə bu mükəlləfiyyətlərin sayı iyirmiyə çatırdı. Onların içərisində ***malcəhət, salyanə, darğalıq, bayramlıq, cütpulu*** və başqalarını göstərmək olar. Digər xanlıqlarda da belə vergi və mükəlləfiyyətlər vardı.

Qeyd etmək lazımdır ki, xəzinə rəiyyətlərinə nisbətən, sahibkar rəiyyətlərinin vəziyyəti daha ağır idi, çünki onlar həm xəzinə, həm də sahibkar tərəfindən istismar olunurdu.

Vergilərin miqdarının dəqiq müəyyən edilməməsi onların toplanması zamanı ciddi özbaşınalıqlar törənməsinə gətirib çıxarırdı. Bu da rəiyyətlər üzərinə yük olurdu.

Təsərrüfatı olmayan kəndlilər rəncbər adlanırdı. Rəncbərlər sahibkardan təsərrüfat fəaliyyəti üçün lazım olan iş heyvanları, əmək alətləri, toxum və s. alırdı. Bunlardan asılı olaraq məhsulun 1/3-dən 1/2-dək olan hissəsi rəncbərlərə çatırdı. Talış xanlığında belə kəndliləri *əkər* adlandırırdılar.

Qarabağ, Şirvan və başqa xanlıqlarda maldarlıqla məşğul olub yarımköçəri həyat tərzi keçirən əhali *elat* adlanırdı. Elat bəyin sürüsünü otarır, qoyununu qırxır və başqa mükəlləfiyyətlər yerinə yetirir, peşkəş şəklində vergilər verirdi. Elatın vəziyyəti rəiyyətə və rəncbərə nisbətən yüngül idi. Bu bir tərəfdən hakim təbəqənin əsas gəlirini əkinçi əhalidən toplaması, digər tərəfdən elatın xan qoşunu üçün əsgər verməsi ilə bağlı idi.

**Quba xanlığının sosial-silki quruluşu**

| Mahallar | Bütün həyətlər | Vergi verməyənlər | | | | | | Vergi verənlər | Vergi verməyənlər% |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | bəylər | axundlar | seyidlər | mollalar | başqaları | cəmi | | |
| Bərmək | 540 | 23 | 6 | 17 | 12 | 100 | 158 | 382 | 29 |
| Şabran | 732 | 20 | 10 | 11 | 16 | 235 | 292 | 440 | 40 |
| Şeşpara | 640 | 5 | 22 | 11 | 12 | 171 | 221 | 419 | 35,5 |
| Müşkür | 275 | 10 | - | - | 8 | 73 | 91 | 185 | 33 |
| Tip | 630 | 12 | 9 | 4 | 18 | 196 | 239 | 381 | 38 |
| Xınalıq | 640 | 1 | 5 | - | 6 | 24 | 36 | 604 | 6 |
| Buduq | 523 | 4 | 4 | 30 | 8 | 39 | 85 | 438 | 16 |
| Yuxarıbaşı | 638 | 1 | 6 | - | 10 | 22 | 39 | 599 | 6 |
| Sırt | 484 | 1 | - | - | 15 | 31 | 47 | 437 | 10,5 |
| Anakdərə | 161 | - | 1 | - | 7 | 18 | 26 | 135 | 16 |
| Xanlıq üzrə | 5.264 | 77 | 63 | 73 | 112 | 909 | 1234 | 4030 | 23 |



Azərbaycan kəndliləri hüquqi vəziyyətinə görə sahibkarlardan şəxsən asılı deyildi, ona görə də burada təhkimçilik münasibətləri yox idi. Sahibkarla kəndli arasındakı münasibət kəndlinin onun torpağından istifadə etməsilə müəyyən olunurdu.

Azərbaycan cəmiyyətinin sosial-silki quruluşunda tacirlər, sənətkarlar və şəhər yoxsulları da müəyyən yer tuturdu.

Xanlıqların sosial-silki quruluşunda hər bir silkin xüsusi çəkisinə gəldikdə bu barədə ən böyük xanlıqlardan biri olan Quba xanlığı nümunə ola bilər.

Yuxarıdakı cədvəldən* aydın olur ki, Quba xanlığı əhalisinin dörddə biri vergi verməyənlərdən ibarət idi. Bu nəticə Bakı, Şəki və başqa xanlıqlara da aid edilə bilər.

**İDARƏÇİLİK.** Hakimiyyətin siyasi qurumlarından biri kimi xanlıq monarxiya üsul-idarəsinə əsaslanırdı. Monarxiyanın başında qeyri-məhdud qanunverici, məhkəmə və icra hakimiyyətinə malik olan xan dururdu. Bir sıra xanlıqlarda, o cümlədən Şəki, Şirvan, Quba və Qarabağdakı xanın yanında divan və ya xan şurası fəaliyyət göstərirdi. Divan və ya şura mühüm dövlət vəzifələrini tutan şəxslərdən ibarət olaraq, məşvərətçi rol oynayırdı. Bununla birgə divanın mövqeyi xanın bu və ya digər qərar çıxarmasına təsir göstərə bilirdi.

İdarəetmə sistemində saray məmurları geniş yer tuturdu.

Onların içərisində vəzir başlıca xidmətlərə malik idi. Qarabağ xanının vəziri M.P.Vaqifin, Təbriz xanının vəziri ***Əbdürrəzaq Dumbulinin*** xanlığın həyatındakı mühüm rolu bu vəzifənin əhəmiyyəti haqqında təsəvvür yaradır. Lakin vəzirlik işində vəzirin şəxsi keyfiyyətləri də vacib idi.

Xan sarayında vəzirdən başqa sərkərəli (maliyyə işlərinə baxan), eşikağası (xanın şəxsi təsərrüfatının idarəçisi), əmiraxur (baş mehtər), sandıqdar ağası (xəzinədar), anbardar ağası və digər vəzifələr də var idi.

Saray məmurluğu ilə birgə xanlıqda maliyyə, polis xidməti və orduya xüsusi fikir verilirdi.

Maliyyə fəaliyyətinin əsasını pul sisteminin yaradılması, onun tənzimlənməsi, vergilərin toplanması təşkil edirdi. Bu sahədə naib, yasovul, kəndxudalar və xüsusi olaraq xan tərəfindən təyin olunan sərkərlər əsas rol oynayırdı. Natural vergilərin yığılması ilə darğalar məşğul olurdu. Polis xidməti xanın buyruqlarının vaxtında yerinə yetirilməsinə köməklik göstərir, cəza tədbirlərini icra edirdi.

Xan hakimiyyətinin əsası ordu idi. Qoşunun əsas hissəsi maaflar və elatlardan ibarət idi. Müharibələr və ya böyük döyüşlər zamanı qoşunun

* Cədvəldəki göstəricilər 1810-cu ildə toplanmışdır. Mahallar qaynaqda «volostlar» kimi verilir.

daimi hissəsi yeni silahlı qüvvələr hesabına artırılırdı. Döyüşçülərin silahlandırılması və bütün xərci əhali hesabına ödənirdi.

Xanlıq inzibati cəhətdən mahallara bölünürdü. Şəki xanlığında səkkiz (**Qutqaşın, Ərəş, Ağdaş, Alpout, Göynük** və b.); Gəncə xanlığında beş (**Samux, Kürəkbasan, Gəncə, Şəmkir, Ayrım**); Qarabağ xanlığında iyirmi bir (**Çalbayır, Kəbirli, Cavanşir, Zəngəzur, Mehri, Qafan** və b.), İrəvan xanlığında on dörd (**Qırxbulaq, Vedibasar, Şərur, Sürməli, Saatlı, Seyidli, Sərdarabad, Talış, Zəngibasar, Aboran, Dərəçiçək, Dərəkənd, Gərnibasar, Göyçə**), Quba xanlığında on (**Buduq, Xınalıq, Bərmək** və b.), Talış xanlığında altı (**Ərkivan, Darı, Alar** və b.), Naxçıvan xanlığında beş (**Əlincə çay, Naxçıvan, Xoy, Mavazıxatın və Dərələyəz**), Xoy xanlığında on bir (**Salmas, Avacıq, Qotur, Ələnd** və b.); Urmiya xanlığında on dörd (**Mərgəvər, Tərgəvər, Bərdəsur** və b.) mahal var idi. Mahallar öz növbəsində kəndlərə bölünürdü.

Mahalların idarəsilə mahal bəyləri və ya naiblər məşğul olurdu. Onlar iri torpaq sahibləri içərisindən təyin olunurdu. Bu vəzifə irsi idi, lakin hər dəfə xan tərəfindən təsdiq edilməli idi. Naiblər mahalın inzibati, polis və bəzən məhkəmə işlərinə cavabdeh idi. Kəndlər yüzbaşı və kəndxudalar, şəhərlər isə kələntər və qalabəyi tərəfindən idarə olunurdu.

Xanlığın idarəetmə sistemində çalışanlar demək olar ki, aylıq almırdı. Onların xidməti yedizdirmə əsasında, yeni xəzinə üçün toplanan vergi hesabına ödənilirdi.

Xanlığın idarə olunmasında *məhkəmə* böyük yer tuturdu. Məhkəmə sistemində başlıca yeri *şəriət məhkəməsi* tuturdu, bununla birgə xanın bu sahədə müstəsna hüququ var idi, mahal bəyləri də bəzi məhkəmə funksiyalarını yerinə yetirirdilər.

Xanlığın idarə sistemi bütövlükdə xanın qeyri-məhdud hakimiyyətinin qorunmasına və onun iradəsinin sözsüz yerinə yetirilməsinə əsaslanır və bu vəzifəni kifayət qədər ardıcıllıqla yerinə yetirirdi.

## 6. XVIII YÜZİLDƏ AZƏRBAYCAN MƏDƏNİYYƏTİ

**MƏDƏNİ İNKİŞAFIN DAYAQLARI.** XVIII yüzilliyin birinci yarısında Azərbaycanın siyasi və sosial-iqtisadi sahədə üzləşdiyi çətinliklər, gərgin hadisələr mədəniyyətə də təsir göstərirdi. Azərbaycan torpaqlarının arası kəsilməyən müharibələr meydanına çevrilməsi mədəniyyət abidələrinin dağılmasına, mədəniyyət xadimlərinin məhvinə, köçürülüb aparılmasına və ya yurdunu tərk etməsinə gətirib çıxarırdı. Ancaq bütün bunlara baxmayaraq, mədəni durğunluq yaranmamışdı. Azərbaycan mədəniyyəti bir sıra qonşu xalqların mədəni yaşayışı ilə qarşılıqlı əlaqələr saxlayırdı.

Xanlıqların yaranması ilə Azərbaycan mədəniyyətində özünəməxsus göstəricilər artmağa başladı. Şuşa, Şəki, Quba kimi şəhərlər mədəniyyət



mərkəzlərinə çevrildi. Xanlıq dövrü mədəniyyəti ümummilli mədəniyyətin yaranmasında böyük yer tutur.

**MAARİF, ELM.** Azərbaycan maarif sistemində mövcud ən'ənəyə görə təhsil müəssisələri ruhanilərin ixtiyarında idi. Kamil savad almaq üçün məktəb və mədrəsədə bütün sinifləri keçmək lazım idi. Şagirdlər Qur'anı, klassik Azərbaycan və fars ədəbiyyatından nümunələri öyrənirdilər.

Təhsil müəssisələri başlıca olaraq şəhərlərdə toplanmışdı. XVII yüzildə Azərbaycanda müəyyən dərəcədə inkişaf etmiş təhsil müəssisələri XVIII yüzilin birinci yarısında baş verən viranedici yürüşlər və döyüşlər nəticəsində şəhərlərin bərbad vəziyyətə düşməsilə tənəzzülə uğrayırdı. Şabranın yerlə yeksan olunması, Şamaxının və başqa şəhərlərin viran edilməsi, şəhər əhalisinin qırılması təhsil müəssisələrində də işlərin pozulmasına səbəb oldu.

Xanlıqların meydana gəlməsilə idarəetmə işində savadlı adamlara ehtiyacın artması yenidən məktəb və mədrəsələrin dirçəldilməsini zəruri etdi. Bu, maarif sahəsində müəyyən inkişafa gətirib çıxardı.

Şəhərlərə nisbətən maarifin zəif inkişaf etdiyi kənd yerlərində də bu irəliləyiş özünü göstərirdi.

XVIII yüzildəki mürəkkəb tarixi şəraitə baxmayaraq, Azərbaycan alimləri elmi axtarışlarından qalmır, Vətənin elmi bilik xəzinəsini zənginləşdirirdilər.

Fəlsəfə, tarix, riyaziyyat, astronomiya sahəsində yeni əsərlər meydana gəlirdi. XVIII yüzildə Azərbaycan türkcəsində tarixi əsərlər yaranması diqqətəlayiq haldır. 1711-ci ildə yazılmış «Təvarix zaman-e Şah Abbas ibn Xudabəndə» («Xudabəndə oğlu Şah Abbas zamanının tarixi») müəllifi bəlli olmayan əsər Şirvan və Qarabağ tarixindən də məlumat verir. «Xanədane Səfəvin» əsərində (1733) Səfəvi sülaləsinin təşəkkülündən bəhs olunur.

Azərbaycanda yaşamış alim **Əbdürrəzaq Dunbuli** (hicri 1176-1243, miladi 1762-1827/28) yaradıcılığına XVIII yüzilin ikinci yarısında başlamışdır. O, Xoy və Təbriz dunbuliləri tarixinə həsr olunmuş «Riyaz-ül-Cənnət», Fətəli xanın fəaliyyətindən bəhs edən «Məasiri-Sultaniyyə» («Sultanın unudulmaz əməlləri») və başqa əsərlərin müəllifidir.

Azərbaycanda coğrafiya sahəsində də əsərlər yaranmışdır. XVIII yüzildə yaşamış coğrafiyaşünas alim **Zeynalabdin Şirvani** dünyanın bir sıra ölkələrinə səyahət etmiş, «Bustan-us-siyahə» («Səyahətlər bağçası») və «Riyaz üs-siyahə» («Səyahət bağları») kitablarını yazmışdır.

**ƏDƏBİ DİL VƏ ƏDƏBİYYAT.** Azərbaycan Səfəvi dövləti məzmunca dəyişib İran dövlətinə çevrildikdən sonra belə Səfəvi sarayında türk dili

mühüm yer tuturdu. Lakin XVIII yüzildə folklor üslubu klassik kitab üslubuna nisbətən aparıcı mövqeyə keçdi.

Dilçilərin fikrincə Füzuli məktəbinin zəifləməsi ilə ədəbi dildə klassik kitab üsulu yüksəlişini, demək olar dayandırmış, xalq yaradıcılığı, folklor dilinin üstündə duran üslub güclənmişdi. Bununla yanaşı, bu dövr milli ədəbi dilin başlanğıcı, milli ədəbi dilin canlı xalq dilinə söykəndiyi bir dövrdür.

XVII yüzil yazılı Azərbaycan ədəbiyyatının ən'ənələrini XVIII yüzilin əvvəllərində yaşamış ***Nişat, Şakir, Məchur Şirvani*** və b. davam etdirirdi. Şakir Şirvaninin Nadirşahın Şirvana yürüşünü əks etdirən «Əhvali-Şirvan» şeirində ictimai-siyasi problemlərə toxunulurdu. Bu motivlər digər əsərlərdə də üstün yer tuturdu.

Xanlıq dövrü Azərbaycan yazılı ədəbiyyatında yeni ralist meyllər güclənirdi. Bu meyllər ***Arif Təbrizi, Arif Şirvani, Ağa Məsih Şirvani*** və başqa şairlərin yaradıcılığında üzə çıxır. Lakin onun zirvəsi ***Molla Vəli Vidadi*** (1709-1809) və ***Molla Pənah Vaqifin*** (1717-1797) yaradıcılığı idi.

Vidadinin Vaqiflə deyişməsi, «Vaqif», «Çoxdandır», «Durnalar» və başqa bu kimi şeirləri onun yaradıcılığında mühüm yer tutur. Azərbaycan ədəbiyyatında qoşma və gəraylı ustadı kimi tanınan Vidadinin yaradıcılığı lirik məzmunu ilə diqqəti cəlb edir, bəzən də şair bədbinliyə qapılırdı. Bu, xanlıqlar dövründəki ara müharibələri ilə, haqsız tökülən qanlarla, Vətənin ağır günlərilə bağlı idi.

M.P.Vaqifin həyatının otuz ili Qarabağ xanlığı ilə bağlı olmuşdur. O, 1759-cu il «Eldöndü»sü zamanı Qazaxdan Qarabağa gəlmiş, 1769-1770-ci illərdən saraya cəlb edilmiş, ömrünün sonunadək Şuşada yaşamışdır. Vaqifin Qarabağdakı hörmət və nüfuzu «Hər oxuyan Molla Pənah olmaz» kimi zərb-məsəlin yaranmasına səbəb olmuşdur. Mirzə Camal Cavanşir yazırdı ki, Vaqifin «türkcə yazdığı aşiqanə şeirləri indi də dillərdə əzbərdir».

Bütövlükdə Vaqif yaradıcılığını dövrün bədii salnaməsi adlandırmaq olar. Bu salnamədə bir sıra tarixi məlumatlar da qələmə alınmışdır. Bu baxımdan onun İbrahim xanla 1783-cü il Georgiyevsk müqaviləsi üzrə Gürcüstanın Rusiya himayəsinə keçməsi ilə bağlı Tiflisə getməsi diqqəti özünə çəkir. Vaqif Tiflisdə II İraklinin oğlunun şərəfinə

> Valinin çeşmi-çırağı, vəh nə türfə can imiş,
> Külli Gürcüstanın üstə sayeyi-sübhan imiş.

misrası ilə başlanan müxəmməs yazır. Burada Vaqif II İraklini vali adlandırır, Rusiya himayəsinə keçməsilə onun səlahiyyətinin kiçilməsinə işarə edir.

Vaqif siyasi xadim kimi Azərbaycan xanlıqları arasında dostluq münasibətlərinin yaranmasına çalışırdı. Lakin XVIII yüzilin ikinci yarısında



hökm sürən ara müharibələri şəraitində buna nail olmaq çətin idi. Vaqifin yaxın dostu, Şəki xanı ***Məhəmməd Hüseyn xan Muştağın*** faciəli ölümü buna örnək sayıla bilər. Vaqif, Müştağın əmisi Əbdülqədir tərəfindən öldürülməsində İbrahim xanın da siyasi məqsədi olduğunu yaxşı bilirmiş:

> Ol Qarabağ hakimi dövləti İbrahim xan,
> Əvvəlü-axır onunla yaman idi, yaman.
> Gördü fürsət gəldi, fövt etmək deyil əqlə nişan,
> Oldu Əbdülqədir ilə müttəfiq həm ol zaman
> Yığıldılar bihəddi-ləşgər, cəm edib hər yanə bax.

Vaqifin yüksəlməsinə, xanlığın idarə olunmasında ikinci yerə keçməsinə baxmayaraq bu, onun doğma xalqının vəziyyətini obyektiv təsvir etməyə mane olmamışdır. Şair «Görmədim» müxəmməsində deyir:

> Mən cahan mülkündə mütləq doğru halət görmədim,
> Hər nə gördüm, əyri gördüm, özgə babət görmədim.

Səksən sinnidə Vaqifin faciəli ölümü onun yaradıcılığına son qoydu. Lakin o, ölümündən sonra da Azərbaycan xalqının mənəvi dünyasının zənginləşməsinə, yeni ədəbi məktəbin yaranmasına böyük təsir göstərdi.

XVIII yüzildə şifahi xalq yaradıcılığı da inkişaf edirdi. Şifahı xalq yaradıcılığı Azərbaycan əhalisinin geniş kütləsinin arzu və istəyini ifadə edir, ictimai-siyasi həyatın mühüm hadisələrini tərənnüm edərək xalqın yaddaşında əbədiləşməsinə, onun tarixi dərslərindən nəticələr çıxarılmasına yardım edirdi.

Şifahi xalq poeziyasının ən görkəmli nümayəndəsi XVII yüzilin sonu – XVIII yüzilin əvvəllərində yaşayıb yaratmış ***Xəstə Qasım*** idi.

Xəstə Qasım Təbrizin yaxınlığındakı Tikmədaş kəndində dünyaya göz açmış, Azərbaycan torpağını qarış-qarış gəzərək onun gözəlliyini, dərdsərini xalq yaradıcılığı nümunələrində əbədiləşdirmişdir.

•

**AZƏRBAYCAN KİTABI.** Avropada kitab çapının XV yüzilin ortalarında məlum olmasına baxmayaraq Şərqdə, o cümlədən Azərbaycanda bu sahədə ənənəvi əlyazma kitablardan istifadə olunurdu. Bütün dövrlərdə olduğu kimi XVIII yüzildə də kitab Azərbaycanda böyük hörmətə malik idi. Ona görə də kitab evləri – kitabxanalara böyük diqqət və qayğı göstərilirdi. Şah İsmayıldan başlayaraq hökmdarlar dövrün görkəmli bilik və sənət adamlarını saray kitabxanasının kələntəri təyin edirdilər. Bu da kitabxana işinin və kitab mədəniyyətinin inkişafına müsbət təsir göstərirdi. Ona görə də Ərdəbildəki Şeyx Səfi kitabxanası dünya şöhrəti qazanmışdı. XVII yüzildə bu kitabxanada yüzlərlə nadir kitab var idi. ***Şah Hüseynin*** ölümündən sonra kitabxanaya münasibət dəyişdi, baxımsızlıq üzündən

kitabxananın işləri pozuldu. Ancaq Azərbaycan xalqının bu misilsiz mədəniyyət xəzinəsinin faciəli taleyi bununla bitmədi.

Bu dövrdə Azərbaycan türkcəsinə kitab tərcüməsi işində də müsbət yeniliklər baş verirdi. «Kəlilə və Dimnə» kimi ibrətamiz kitabın bu dilə tərcüməsi xüsusilə diqqətəlayiq idi.

Kitabların yayılmasında onun üzünü köçürənlərin işi çox dəyərli idi. Bu, kitab çapını əvəz edə bilməsə də, kitabların çoxaldılmasında, yeni-yeni nüsxələrin yaranmasında yeganə üsul idi. Ona görə də xəttatlıq mədəni həyatda mühüm yer tutmaqda davam edirdi.

**İNCƏSƏNƏT.** Bu dövrün hadisələri musiqiyə də öz təsirini göstərmişdi. Musiqidə şikayət və nisgil ilə birgə azadlıq mübarizəsinə çağırış motivləri səslənirdi. Azərbaycan muğam sənəti keçmişdə olduğu kimi böyük şöhrət qazanmışdı. Muğamlara təsniflər də qoşulurdu. Muğamlarla yanaşı xalq musiqisinin şikəstə oyun havaları geniş yayılmışdı.

Muğamların ifası xanəndə sənətinin yüksəlişi ilə bağlı idi.

Aşıq yaradıcılığından doğan aşıq musiqisi də yüksəliş yolunda idi. Aşıqlar məclislərdə dastanlar və yeni-yeni mahnılarla çıxış edirdilər. Aşıq sənətinin inkişafı sazın təkmilləşməsinə səbəb oldu. Sazla birlikdə kamança, balaban, zurna, tütək, nağara, dəf kimi musiqi alətlərindən geniş istifadə olunurdu.

Azərbaycan dekorativ tətbiqi sənəti (xalçaçılıq, toxuculuq, metaldan ev avadanlığı, silah, bəzək əşyaları düzəldilməsi) və başqa sahələrdə irəliləyiş özünü göstərirdi.

Azərbaycan xalçası XVIII yüzildə Şərqdə öz layiqli mövqeyini saxlayırdı. Quba, Qarabağ, Gəncə, Qazax, Şirvan və başqa yerlərdə toxunan xovlu xalçalar böyük şöhrətə malik idi. Bu dövrdə də ornamentli və süjetli xalçalar toxunurdu, lakin ornamentli xalçalar əvvəlki dövrlərə nisbətən üstün yer tuturdu.

Azərbaycan xalçalarına onun sərhədlərindən kənarda böyük tələbat var idi. Dünyanın bir çox yerlərində şəxsi kolleksiya və muzeylərdə özünə yer tapmış Azərbaycan xalçaları içərisində bu dövrün də məhsuluna təsadüf olunur. Bakının Suraxanı və Xilə kəndlərində, Qazaxın ***Ləmbəli*** kəndində toxunmuş xalçalar bu qəbildəndir. Bu xalçalar ornamentlərin bitkinliyi, bəzəklərin orijinallığı, yüksək sənətkarlıq məziyyətlərilə diqqəti özünə çəkir.

Azərbaycanda kilim, palaz, vərni, şəddə və bu kimi xovsuz xalçalar da toxunurdu.

Xalçaçılıqla birgə parça toxunması sənəti geniş yayılmışdı. Şamaxıda 1500 ipək parça toxuyan dəzgah var idi. Ayrı-ayrı kəndlər, o sıradan Şamaxı yaxınlığında Basqal və Muci kəndləri toxuculuq mərkəzləri kimi tanınırdı. Bədii qələmkar parçalar, tikmələr də bu sənətin dəyərli sahələri idi.



Azərbaycanda metalişləmə sənəti yüksək inkişaf etmişdi. Misgərlik sənətinin şöhrət tapmış mərkəzlərindən biri ***Lahıc*** kəndi idi. Lahıcda istehsal olunan dolça, satıl, səmic, məcməyi və başqaları yalnız Azərbaycanda deyil, Rusiyada və xarici ölkələrdə də yayıla bilmişdi. Metaldan məişət avadanlıqları hazırlanması işində Şəki sənətkarları da böyük nüfuz qazanmışdılar.

Zərgərlik sənəti də metal işi ilə bağlı idi. Qadın bəzəkləri, kişi və qadın kəmərləri gözəl sənət nümunələri idi. Daş üzərində oyma işi də inkişaf etməkdə idi. Quba şəhər qəbristanlığında 1795-ci ilə aid olan məzar daşı yüksək sənətkarlıq nümunələrindən biridir.

XVIII yüzilin ikinci yarısında dekorativ tətbiqi sənət sahələrində yerli xüsusiyyətlər qabarıqcasına gözə çarpmağa başlayırdı. Kişi və qadınların geyiminə görə onların hansı xanlıqdan olduğunu müəyyən etmək mümkün idi.

Təsviri sənət başlıca olaraq dekorativ səciyyə daşıyırdı. Azərbaycan şəhərlərindəki saraylara, yaşayış evləri və ictimai binalara çəkilən divar rəsmləri bunu aydın göstərir. Lakin divar rəsmləri içərisində müharibə və ov səhnələri, musiqi məclisləri və bu kimi təsvirlərə də rast gəlmək olur. Tədqiqatçıların fikrincə XVIII-XIX əsr divar rəsmlərinin bütün keyfiyyətlərini, üslub xüsusiyyətlərini tam və parlaq şəkildə özündə əks etdirən ən səciyyəvi əsərlər Şəkidə xan sarayı və Şəkixanovların evində, Şuşada Mehmandarovların və Səfibəyovun evində saxlanmışdır.

Dağıdıcı müharibə və döyüşlər yeni tikinti işlərinin aparılmasına mane olurdu. Ancaq bütövlükdə götürüldükdə, xanlıqların yaranması ilə ölkə şəhər quruculuğu dövrünə keçmiş oldu. Güney Qafqazın xəritəsinə Şuşa kimi birinci dərəcəli siyasi və mədəni mərkəzin düşməsi buna parlaq göstəricidir.

Xanlıqların başqa mərkəzi şəhərlərində memarlıq-tikinti işləri genişləndi. Şəkidə, Qubada, Şamaxıda, Bakıda dəyərli saray və başqa tikililər yarandı. Qarabağ xanlığında tikinti işləri çox genişlənmişdi. Mirzə Camal «Qarabağ tarixi»ndə Pənah xanın bina etdiyi tikililərdən bəhs edərək yazır: «Birinci – Bayat qalasıdır ki, orada bişmiş kərpicdən hasar, bazar, hamam və imarətlər tikdirmişdir. İkinci – Şahbulağı qalasıdır. (Burada) bulaq başında daş və əhəngə məscid, hamam (tikilmiş), şəhər və bazar (salınmışdır). Üçüncü – Şuşa qalasının sabit divanı və indi qoşunun taxıl anbarı olan bina». İbrahim xanın dövründə də bu işlər davam etdirilmiş, 1768/69-cu ildə böyük Cümə məscidi, 1783-1787-ci illərdə Şuşa qalasının böyük daş hasarı, 1788/89-cu ildə Əsgəranın hər iki qalası, Xəzinə dərəsinin imarət və otaqları, Xan bağının tikintiləri, Ağdam bağının hasarı və b. tikilmişdir.

ON ALTINCI BÖLÜM

# RUSİYANIN QUZEY XANLIQLARI İŞĞAL ETMƏSİ. XANLIQ DÖVRÜNÜN SONU

## I. XVIII YÜZİLİN SONU - XIX YÜZİLİN BAŞLANĞICINDA AZƏRBAYCANDA DAXİLİ VƏZİYYƏT

**QACARIN ÖLDÜRÜLMƏSİNDƏN SONRA OLANLAR.** Ağa Məhəmməd şah Qacarın qətlindən sonra siyasi durum dəyişdi. Onun ilk nəticələri özünü Qarabağın mərkəzi Şuşada göstərdi. Bakı və Gəncə xanları həbsxanadan çıxaraq öz xanlıqlarına qayıtdılar. Qarabağda isə İbrahim xanın qardaşı oğlu «batmanqılınc» ***Məhəmməd bəy*** hakimiyyəti ələ keçirdi. ***Mirzə Camal*** yazır: «(Xan) bir para maneələrə görə Qarabağa gedə bilməyib, üç ay Balakəndə qaldı, hamı, xüsusilə Gürcüstan valisi, Gəncə hakimi Cavad xan və Şirvanlı Mustafa xan töhfələr, hədiyyələr göndərib, onunla müttəfiqlik arzusunda olduqlarını bildirdilər... Məhəmməd bəy isə mərhum İbrahim xan gələnə qədər Qarabağ vilayətində hökumət işlərilə məşğul idi.

... Məhəmməd bəyin şeytana uyub müxalifət göstərməsi və özündən başqasını tanımaq istəməməsinin qarşısını almaq üçün xan Qarabağa hərəkət etməzdən əvvəl, o zaman Mehdiqulu ağa adlanan Mehdiqulu xanı Qarabağ bəylərinin bir neçə övladı ilə oraya göndərdi.

Məhəmməd bəy Mehdiqulu xanın bəyzadələrlə Qarabağa gəlişindən sonra səmimiyyətdən, düzlükdən və İbrahim xanın itaətindən çıxmayacağından danışırdısa da, ürəyində hakimiyyət həvəsinə düşmüşdü... Bu xəbər Kür qırağında mərhum İbrahim xana çatdıqda övladlarının ən böyüyü mərhum Məhəmmədhəsən ağanı beş yüz nəfər ləzgi qoşunu və Qarabağ sərkərdələri ilə təcili olaraq yola saldı». İşin belə olduğunu görən Məhəmməd bəy müxalifət etmək fikri ilə Qarabağ ellərini Araz çayı yaxınlığına köçürmək istəyirdi. Lakin Məhəmmədhəsən ağa onun yerləşdiyi Kirs dağındakı qalaya yaxınlaşdıqda camaat ağanın tərəfinə keçdi.

İbrahim xan yaxın adamları ilə Şuşaya qayıtdı. Məhəmməd bəy isə şəkili Məhəmmədhəsən xan ilə yaxınlaşmağa başladı. Lakin Məhəmmədhəsən xan xəyanətə əl ataraq onu tutdu və qan düşməni olan Mustafa xana verdi. Mustafa xan onu öldürdü, xanlar arasındakı ziddiyyətlər yenidən kəskinləşdi.



Ağa Məhəmməd şahın ölümündən sonra onun taxta çıxan varisi ***Babaxan*** (***Fətəli şah*** – *Red.*) öz hakimiyyətini möhkəmləndirmək yolunda başı qarışdığından sələfinin savaşlarını davam etdirə bilmədi. Bu sakitlik xanlar arasında çəkişmələrin qızışması üçün şərait yaratdı.

**ARA MÜHARİBƏLƏRİNİN QIZIŞMASI.** Xanlıqlar arasında çəkişmə və düşmənçilik doğuran məsələlər bütün çılpaqlığı ilə üzə çıxdı. Şirvan xanı Mustafa xan şəkili Səlim xanı oradan qovduğu və onun qardaşı kor Məhəmmədhəsən xanı hakimiyyətə gətirdiyi, həm də İbrahim xanın qardaşı oğlu Məhəmməd bəyi qətlə yetirdiyi üçün Qarabağ xanlığı ilə düşmənçilik edirdi. Məhəmmədhəsən xan və Cavad xan da İbrahim xanla düşmən idilər.

Bakı xanlığında Hüseynqulu xan və II Mirzə Məhəmməd xan arasında çəkişmə gedirdi. Abbasqulu Ağa yazır: «Mirzə Məhəmməd xan şahın öldürülməsi xəbərini alınca, Qubadan Bakını almağa hərəkət etdi. Hüseynqulu xan ondan qabaq gəlib qalanın müdafiəsilə məşğul oldu. Axırda aralarında danışıq olub məmləkəti böldülər. Hüseynqulu xan şəhərdə, ***Mirzə Məhəmməd xan*** Məşqətə (Maştağa – *Red.*) kəndində bir qala tikdirib hökumətə oturdular». Ancaq Mirzə Məhəmməd xan sonralar oranı da itirdi.

Təbriz və Xoy əyalətlərini idarə edən ***Cəfərqulu xan Dunbuli*** də fəaliyyətə başladı. O, Sərabı xaraba qoydu. Cəfərqulu xan düşmənçilik etdiyi Sadıq xanla birləşib şaha qarşı çıxdı. Sonra Sadıq xan Cəfərqulu xandan ayrılaaq şahın yanına gəldi, lakin buradaca öldürüldü. Cəfərqulu xan isə Xoyu ələ keçirməyə nail oldu. Abbas Mirzə onu məğlub edərək buradan Makuya, oradan da Türkiyə sərhədinə qovdu.

Qubalı ***Şeyx Əli xan***, Şirvanlı ***Mustafa xan*** və Talış xanı ***Mir Mustafa xan*** arasında da zidiyyət kəskinləşdi. Şeyx Əli xan Salyanı tutdu. Lakin Şeyx Əli xan buradan qayıdan kimi indi də Salyanı Mustafa xan ələ keçirdi.

Abbasqulu Ağanın yazdığına görə o, «şəhəri köçürüb, dörd ağac yuxanda, indiki yerində bina etdi. Hakimliyini də İbrahim xanın oğlu Əli xana verdi. Bir müddət sonra buranı bölüşdürüb Əli xana və onun əmisi oğlu Məhəmməd xana verdi. Lakin Əli xan tez zamanda Məhəmməd xanı həbsə alıb, talış Mirzə Mustafa xanın himayəsi altına keçdi.

Şeyx Əli xanla ***Qazıqumuqlu Surxay xan*** arasındakı münasibətlər də döyüşlərlə həll edilməyə başladı. Surxay xan Qubanı tutdu və ay yarım burada hökmranlıq etdi. Sonra Şeyx Əli xan onu Qubadan çıxartdı. Şeyx Əli xan Dərbənd hakimliyini bacısı, II Mirzə Məhəmmədxanın arvadı ***Xan Bikə*** xanıma tapşırdı. Lakin Surxay xan 1800-cü ilin mayında onu devirdi, hakimiyyətə Həsən adlı birisini gətirdi.

Surxay xan Həsən xanla Quba üzərinə yeridi. Yalnız Şeyx Əli xanın arvadı, ***Hacı Məlik Məhəmməd*** xanın qızı ***Zəlbünnisa*** bəyimin çalışması

ilə Quba üzərindən təhlükə sovuşdu. Şeyx Əli xan belə bir vəziyyətlə barışa bilməyərək Dərbəndin Ulus nahiyəsinin 9 kəndini köçürüb Qubaya gətirdi. Həsən xanın əlində Dərbənd şəhərindən başqa heç bir yer qalmadı. Dərbənd şəhəri yalnız 1803-cü ildə Quba xanlığına qaytarıldı.

**SOSİAL-İQTİSADİ DURUM.** Bu dövrdə Azərbaycanın sosial-iqtisadi durumu çox ağır idi. Mirzə Camal yazır: «Mərhum (İbrahim) xan Qarabağa gəlib hökumət taxtında oturduğu zaman vilayətin əhalisi qəhətlik və məşəqqət nəticəsində var-yoxdan çıxıb olduqca pərişan idilər. Ellərin çoxu Gürcüstan, Gəncə, Şirvan və hətta Rum vilayətlərinə dağılıb getmiş, mal-dövlətləri qarət olunmuşdu».

1799-cu ildə Şirvanda taun xəstəliyi baş verdi, sonrakı ilin başında Dərbənddə taxıl qıtlığı oldu.

Xanların ara savaşları xeyli adamı dinc əməkdən ayırır, iqtisadiyyata ağır zərbə vururdu. Hərbi xərclər əhalinin üzərinə düşür və onu var-yoxdan çıxararaq narazılıq yaradırdı. Abbasqulu Ağa yazır ki, Şeyx Əli xan Qubanı Surxay xandan geri almaq üçün Dağıstanın Tarku, Aqquşa və Qoysuboy mahallarından köməyə çağırdığı 10000 ləzgini, rəqibini əzdikdən sonra, «altı ay Qubada qonaq saxladı. Onların tələbatı üzündən qubalılara çox haqsızlıqlar edildi. Hətta əhalidən diş kirayəsi belə alınırdı. Şeyx Əli xan 8000 nəfərin məsarifini Quba maliyyatından verib, qalan 2000 nəfər ləzgini Dərbəndə gətirdi ki, onların maaşlarını da oranın mədaxilindən ödəsin».

Beləliklə, Ağa Məhəmməd şah Qacarın öldürülməsindən sonra kəskinləşən ara savaşları ölkəni gücdən salır, onu ağır sosial-iqtisadi duruma sürükləyərək qapıları xarici qüvvələrin üzünə açırdı. Nadir şahın ölümündən və qurduğu imperatorluğun dağılmasından sonra müstəqil və yarımmüstəqil xanlıqlar yaranmışdısa, Ağa Məhəmməd Qacarın ölümündən sonra bu xanlıqların bütün varlığı böyük təhlükə qarşısında idi.

## 2. AZƏRBAYCAN BEYNƏLXALQ MÜNASİBƏTLƏRDƏ

**BEYNƏLXALQ MÜNASİBƏTLƏRİN DURUMU.** XVIII yüzilin sonu – XIX yüzilin başlanğıcında beynəlxalq münasibətlərə Fransa inqilabı (1789-1794) həlledici təsir göstərdi. Bu inqilabın məramı ilə bağlı Avropada fransızlara qarşı birlik meydana gəldi. 1794-cü il 9 termidor çevrilişindən sonra Fransa burjuaziyasının Avropada və Aralıq dənizi hövzəsində geniş işğalçılıq xəttinə keçməsi Mərkəzi və Şərqi Avropa dövlətlərinin Fransaya qarşı siyasətini gücləndirdi. 1798-ci ilin sonunda Rusiya, İngiltərə və Avstriyanın iştirakı ilə Fransaya qarşı yeni birlik yarandı.



Bu çağa kimi ənənəvi müttəfiqlər sayılan Fransa ilə Türkiyə arasında savaş düşməsi sonuncunu Rusiyaya yaxınlaşdırdı. Tarixdə ilk dəfə olaraq Türkiyə ilə Rusiya arasında 1799-cu il yanvar ayının 3-də İstanbulda ittifaq müqaviləsi imzalandı.* İngiltərə, Neapol krallığı bu ittifaqa qoşuldu. Fransanın Şərq siyasətinə qarşı da blok yarandı.

Rusiya, İngiltərə və Avstriyanın Fransaya qarşı 1798-1799-cu illərdə apardığı savaş ara verdikdən sonra beynəlxalq münasibətlərdə yeni dəyişiklik baş verdi. I Pavelin 1801-ci ilin martında öldürülməsilə Rusiya-İngiltərə münasibətləri nizama salındı. İranda nüfuz uğrunda mübarizə genişləndi.

İngiltərə ilə İran arasında 1800-cü ilin dekabr və 1801-ci ilin yanvarında müqavilələr imzalanmışdı. Lakin Rusiya ilə İngiltərənin yaxınlaşması ingilislərin İrandakı siyasətinin zəifləməsinə səbəb oldu. Bundan istifadə edən Fransa İranda diplomatik üstünlüyü ələ keçirdi.

XVIII yüzilin sonu – XIX yüzilin başlanğıcında belə bir mürəkkəb ziddiyyətli dəyişkən beynəlxalq münasibətlərdə Qafqaz, o sıradan Azərbaycan mühüm yer tuturdu.

Azərbaycan torpaqlarının bir dövlət içərisində birləşmiş olmaması vahid xarici siyasət yeridilməsinə imkan vermirdi. Buna görə Azərbaycan xanlıqları özlərini qoruyub saxlamaq, xanlıqlar arasındakı münasibətləri tənzimləmək üçün ölkəyə göz dikmiş müxtəlif qüvvələr ilə hesablaşmalı olurdular. Bu qüvvələr bir yandan qonşu İran və Türkiyə, o biri yandan isə Avropa dövlətləri olan Rusiya, İngiltərə və Fransa ilə təmsil olunurdu.

XVIII yüzilin sonu – XIX yüzilin başlanğıcında qonşu iki dövlət (İran və Türkiyə) Azərbaycanın müstəqilliyi üçün gerçək təhlükə törətmək iqtidarında deyildilər. Bu dövlətlərin bütün XIX yüzil boyunca heç bir özgə torpaqları ələ keçirməməsi təsadüf olmamışdı.

Avropa dövlətlərinə gəldikdə, bunu söyləmək mümkün deyildi. Keçən əsrdə onlar müstəmləkələr ələ keçirmək uğrunda geniş, sürəkli və kəskin bir hərbi mübarizəyə girişmişdilər.

* Napoleonun Misirə qoşun çıxarması ilə bağlı Babıali hökuməti artıq 1798-ci ilin sentyabrında Rus donanmasının İstanbul boğazına girməsinə icazə vermişdi. Bu donanma buradan 30 Türkiyə hərb gəmisi ilə birlikdə yunan adalarına doğru hərəkət etdi. «Padişah-i Ali Osman həzrətləriylə bütün rusiyalıların imperatoru arasında» bağlanmış əbədi ittifaq üzrə iki dövlətdən «birinin dostu o birinə əbədi dost, düşməni isə o birinə düşmən olacağı» bildirilir, Avstriya, İngiltərə və Prussiya bu ittifaqa qoşulmağa dəvət edilirdi. «Türkiyə-Rusiya ittifaqı» 8 ilə bağlanmış olsa da, bir il içərisində qüvvəsini itirmiş oldu. Napoleonun Misirdən getməsi, onunla I Pavelin yaxınlaşması ilə bu «əbədi ittifaq» dəyərsiz bir kağıza çevrildi. 1799-cu ilin oktyabrında Rusiya donanması Qara dənizə döndü.

İngiltərə və Fransanın Transqafqaza, o sıradan Azərbaycana münasibətinə gəldikdə, bu onların İranda öz mövqelərini möhkəmləndirmək uğrunda mübarizəsindən, Transqafqaz ölkələrinə olan hərbi-iqtisadi marağından irəli gəlirdi.

Azərbaycana qarşı başlıca təhlükə çar Rusiyası idi. Rusiyanın belə bir siyasəti İranın mənafeyinə toxunduğundan Rusiya-İran münasibətlərində Azərbaycan əslində başlıca yer tuturdu.

**RUSİYA-İRAN MÜNASİBƏTLƏRİ VƏ AZƏRBAYCAN.** Həm Rusiya, həm də İran hökmdarlarının ölümü bu dövlətlər arasındakı münasibətlərə, onların Azərbaycana qarşı siyasətinə müəyyən təsir göstərdi. Rusiyanın yeni çarı I Pavel və yeni İran hökmdarı Fətəli şah sələflərinin açdığı savaşlardan strateji məqsədlərinə siyasi yol ilə çatmaq siyasətinə keçdilər.

I Pavel öz siyasi xəttini Qafqaz qoşunları komandanı general ***Qudoviçə*** 1797-ci il 5 yanvar fərmanı ilə bildirdi. Orada Rusiyaya «xeyirxah olan» Azərbaycan və Dağıstan hakimlərinin bir federativ dövlət halında birləşməsi təklif edilirdi. Bildirilirdi ki, ali hakim və himayəçi olmaqla, bu hakimlərdən özümüzə sədaqətdən başqa bir şey ummuruq, onların idarə üsuluna qarışmaq, onlar üçün ağır ola biləcək bac və ya digər mükəlləfiyyətlər tələb etmək istəmirik.

Çarın bu yeni siyasi baxışı iki il sonra Kaxet çarlığında II İraklinin yerinə keçən ***XII Georgiyə*** göndərilən başqa bir fərmanda inkişaf etdirilmişdi.

I Pavelin Rusiyanın himayəsi altında federativ dövlət yaratmaq istəməsi təsadüfi deyildi. Bu zaman Rusiyanın daxili vəziyyəti olduqca ağır idi, dövlətin maliyyə işləri büsbütün pozulmuşdu. Federativ birləşmə yolu ilə bu ölkələrin İranın nüfuzu altına keçməsinə yol verməmək; yumşaq davranışla onları Rusiyaya daha sıx bağlamaq nəzərdə tutulurdu. Əslində belə bir siyasət onların Rusiyanın tərkibinə qatılması üçün özül hazırlamalı idi.

I Pavel öz təklifinin gerçəkləşməsi üçün addım atdı. O, Qafqaz ordusunun yeni komandanı ***E.F.Knorrinqə*** Azərbaycan xanlıqları və Dağıstan hakimlərinin nümayəndələrini istədikləri yerdə toplayıb danışıqlar aparmağı tapşırdı. Rus komandanı, öz hökuməti adından yerli hakimləri və yaxud onların nümayəndələrini dəvət edib rəqabət aparmağın zərərini və əmin-amanlıq şəraitində yaşamağın xeyrini başa salmalı, aralarında baş verən çəkişməni adət, qanun və ya münsiflər məhkəməsi vasitəsi ilə həll etməyə çağırmalı idi. Bu da mümkün olmasa, onlar Rusiya imperatoruna müraciət etməliydilər. Yerli hakimlər İran basqını və şahın niyyətinə qarşı birləşməli, bu ittifaqa şamxalın, üsminin və Tabasaran qazısının təbəələrini də cəlb etməli, öz təbəələrini qarət etməkdən əl çəkəcəklərinə and içməli idilər.

Fətəli şah İranda taxta çıxdıqdan sonra onun başlıca qayğısı mərkəzdənqaçma qüvvələri qırmaq, öz hakmiyyətini möhkəmləndirmək oldu.



Buna görə Rusiya ilə münasibətləri də nizama salmağa çalışdı. 1797-ci ilin sonunda I Pavelin yanına elçi göndərdi. Lakin o, şah elçisi kimi deyil, sərdar Baba xanın elçisi kimi qəbul edildi. Elçiliyin ticarət haqqındakı təqdimatına Rusiya hökuməti müsbət yanaşdı. Ancaq bildirildi ki, Baba xan Gürcüstana, Tarku şamxalına, Dərbənd, Bakı xanlıqlarına, Xəzər dənizi ilə Gürcüstan arasında yerləşən torpaqlara qarşı iddialarından əl çəkməlidir.

Gerçək durum o zaman Fətəli şahı da Azərbaycan xanları ilə yumşaq davranmağa məcbur edirdi. Bu, Quzey Azərbaycan xanlıqları ilə barışıq yaratmaq istənilməsində öz əksini tapır. Əslində hər iki tərəf buna can atırdı. Mirzə Camal yazır: «Qarabağ vilayətinin vəziyyəti olduqca çətin olduğundan... İbrahim xan mülayimlik etməyi məsləhət bilərək, Ağa Məhəmməd şahın cənazəsini böyük ehtiramla Tehrana göndərdi. Fətəli şah İbrahim xanın belə hərəkətini özü üçün xoşbəxtlik sanıb onun adamlarını xələt və ənamla geri qaytardı. Ona xələt, qılınc göndərib, Qarabağın hökumətini bütün mədaxili ilə İbrahim xana bağışladı... O tərəfdən şah böyük tədarük görüb, yüksək xanları (İbrahim xanın) yanına göndərdi. Böyük hörmət və izzətlə ***Ağabəyim ağanın*** (İbrahim xanın qızı – *Red.*) kəbinini kəsdirdi; onu qadınlarının möhtərəmi və hərəmbaşısı etdi. İbrahim xanın oğlu Əbülfət ağanı öz yanına apartdırıb yüksək xanlar sırasında, öz məclisində oturtdu... Bu vəziyyət (İran və Qarabağ xanlığı arasındakı «mülayimlik» – *Red.*) yüksək Rusiya dövlətinin böyük imperatorunun sərdarı qoşunla Gürcüstan vilayətinə gələrək müstəqil halda Tiflis şəhərinə yerləşdiyi günə qədər davam edirdi».

Gəncə, Şəki və Quba xanları da Fətəli şahı taxta çıxması münasibəti ilə təbrik edib, onunla münasibətləri kəskinləşdirmək istəmədilər. Yalnız şirvanlı Mustafa xan Fətəli şahın elçisini «Ağanıza deyin ki, mənim də əlimdə şah qələmi var», – deyə qovdu.

Şah hökuməti Azərbaycanın quzey xanlıqlarının tabeliyə gətirilməsinə çox güc verir, bununla yanaşı cənub xanlıqları da unutmurdu. Urmiya xanlığı tabe edildi. Ancaq bu işi iki yönümdə aparmaq üçün Fətəli şahın gücü yetmirdi.

I Pavel 1801-ci ilin yanvarında Gürcüstan çarlığının Rusiyaya birləşdirilməsi haqqında manifest verdi. Ancaq o, sui-qəsd nəticəsində öldürüldü. Rusiyada I Aleksandr (1801-1825) çar oldu. Transqafqaz ölkələri böyük sarsıntı qarşısında idi.

**ŞƏRQİ GÜRCÜSTANIN RUSİYAYA BİRLƏŞDİRİLMƏSİ VƏ AZƏRBAYCAN.** I Aleksandr hakimiyyətə gəldikdən sonra ikinci dəfə, 1801-ci il sentyabrın 12-də XII Georginin vəsiyyəti üzrə Şərqi Gürcüstanın Rusiyaya birləşdirilməsi haqqında manifest və Knorrinqin adına fərman verdi. Baqrationlar sülaləsi hakimiyyətdən uzaqlaşdırıldı, Kartli-Kaxet çar-

lığı ləğv edildi. Lakin devrilmiş sülalənin bir qolu bununla barışmayıb Rusiyaya qarşı mübarizəyə başladı. 1803-1804-cü illərdə ***Meqrel, Quriya*** və ***İmereti*** də Rusiyanın himayəsinə qəbul edildi.

Şərqi Gürcüstanla birlikdə Azərbaycanın Qazax və Şəmsədil sultanlıqları da Rusiyaya qatıldı. Azərbaycan torpaqları barədə yeni Rusiya çarının siyasəti onun ayrıca bir göstərişində bu şəkildə bildirilməkdə idi: «Ətraf hökmdarlar və xalqlarla əlaqə saxlayaraq, Rusiya tərəfdarlarının sayını artırmağa çalışmalı, xüsusən hələ Baba xanın (Fətəli şahın) hakimiyyəti altına düşməmiş və buna görə də belə bir şəraitdə əlbəttə, özlərinin təhlükəsizliyi naminə Rusiyaya daha çox meyl göstərəcək İrəvan, Gəncə, Şəki, Şirvan, Bakı və başqa xanlıqların xanlarını tərəfimizə cəlb etməli».

Şərqi Gürcüstanın birləşdirilməsinə beynəlxalq səpgidə baxış eyni olmadı. 1799-cu il müqaviləsi üzrə Rusiya ilə ittifaqda olan Osmanlı dövləti buna açıq etirazını bildirmədi. Rusiya bunun qarşılığında Türkiyənini vassal asılılığında olan torpaqlarda ehtiyatla davranmağı üstün tuturdu. Transqafqaz vasitəsilə Rusiyanın Anadoluya yaxınlaşması Babıali hökuməti tərəfindən böyük narahatlıqla qarşılansa da, bunu dayandırmaq yolunda Türkiyə ilə İran arasında heç bir iş birliyi yaranmadı.

İran isə bu siyasətlə razılaşmaq istəmədi. Avropa dövlətlərinin köməyinə arxalanaraq Gürcüstanı Rusiya hökmranlığından qoparmağa çalışır, Rusiyaya qarşı çıxışlara yardım göstərirdi. Azərbaycan xanlıqları ilə dil tapmağa, Rusiya təcavüzünə qarşı müvafiq strateji meydan hazırlamağa xüsusi diqqət verirdi. 1802-ci ildə Qarabağ və Bakı xanlıqlarına İrana tabe olmaq təklif edilmişdi.

Rusiya Şərqi Gürcüstanın birləşdirilməsi ilə Azərbaycan xanlıqlarına dair proqramını həyata keçirməyə çalışırdı. P.D.Çiçanovun Qafqaza baş komandan göndərilməsi ilə bu iş sürətləndi.

**1802-Cİ İL GEORGİYEVSK MÜQAVİLƏSİ.** Çar Aleksandr, atası I Pavel kimi, ilk illər Rusiyanın himayəsi altında Güney Qafqaz birliyi yaratmağa çalışırdı. Onun tapşırığı ilə Çiçianov xanlarla danışıqlar aparmağa başladı. Görüş yeri üçün Georgiyevsk şəhəri seçildi. Burada Quba, Bakı, Talış xanları, Dağıstan hakimlərindən ***Tarku*** şamxalı, ***Qaraqaytaq*** usmisi, ***Tabasaran*** və b. yerlərin başçıları toplanmalı idi. 1802-ci il sentyabr ayının 2-nə təyin edilmiş görüş baş tutmadı. Onu yalnız dekabr ayında keçirmək mümkün oldu. Bakı xanı görüşə gəlmədi. Dekabrın 26-da hakimlər arasında müqavilə imzalandı. Giriş və 12 maddədən ibarət olan bu sənəd üzrə onu imzalayan xanlar və hakimlər söz verirdilər ki, onların arasında olan düşmənçilik, narazılıq və çəkişmələri bir tərəfə qoyacaq, birbirilə savaş aparmayacaq (maddə 1), mübahisələri dinc yolla həll edəcəklər (maddə 2). İranın hücum edəcəyi halda ona qarşı birgə çıxış



etmək (maddə 3), ticarəti, dənizçilik işini yoluna qoymaq da (maddə 5-10) nəzərdə tutulurdu.

Çar hökuməti Bakı xanlığının bu birliyə qoşulmaması ilə razılaşa bilmirdi, Gürcüstanın Rusiyaya qatılması ilə bu xanlığa çox böyük diqqət verilmədə idi. Çünki Dəryal dərəsindən keçən hərbi Gürcüstan yolu tələbatı ödəyə bilmirdi. I Aleksandrın 12 sentyabr 1801-ci il tarixli, baş komandan Knorrinqin adına göndərilən buyruğunda bu barədə yazılmışdı: «Ətraf hakimlər və xalqlarla əlaqə yaratmaqla Rusiyaya meyl edənlərin sayını çoxaltmaq gərəkdir... (Kür çayının) töküldüyü yerə və özəlliklə Xəzər dənizində ən yaxşı limana sahib olan Bakı xanı vasitəsilə çalışmalı ki, Gürcüstandakı qoşunlarımız üçün Qafqazın çətin dağ yolu ilə deyil, Həştərxandan su yolu ilə yüklərin çatdırılması imkanı əldə edilsin». Buna görə 1803-cü ildə ayrıca Bakı xanlığı ilə də müqavilə bağlandı.

Georgiyevsk müqaviləsi ilk günlərdən dəyərsiz bir kağıza çevrildi. «Birliyə» qoşulan tərəflər tezliklə İranın deyil, məhz Rusiyanın təcavüzünə məruz qaldılar. Çünki 1803-cü ildən yerli xanların nazı ilə oynayan «Pavel siyasəti»nin kortəbii davamına son qoyuldu. Onun yerini I Aleksandrın «öz» siyasəti, çılpaq təcavüzçü bir siyasət tutdu.

## 3. RUSİYA İŞĞALININ BAŞLANMASI

**BAŞ KOMANDAN GENERAL ÇİÇİANOV.** Çarlıq Rusiyası boyunduruğunun Transqafqaz xalqları üzərinə yüklənməsində general-leytenant ***Pavel Dmitriyeviç Çiçianov*** (1754-1806) böyük yer tutur. Onun soyağacı əski gürcü əsilzadə ailəsi ilə bağlıdır: babası knyaz ***Paata Çiçişvili*** hələ 1725-ci ildə Kartli çarı VI Vaxtanq ilə Rusiyaya köçmüşdü. Sonuncunun nəvəsi olan Pavel Çiçianov 1787-91-ci illər Rusiya-Türkiyə müharibəsində ordu xidmətində yüksəlmiş, 1794-cü il Polşa üsyanının amansızcasına yatırılmasında seçildiyi üçün imperatriçadan Georgi ordeni, Minsk quberniyasında 1500 təhkimli kəndli ilə böyük bir mülk almışdı. «Qızılayaq yaranalın» (V.Zubovun) yürüşündə iştirak etmiş, 1796-1797-ci illərdə Bakı qalasının komendantı olmuşdur.

1803-cü ilin fevralında Tiflisə Qafqazın baş komandanı kimi gələn Çiçianov, Həştərxan general-qubernatoru və Gürcüstanın baş hakimi vəzifələrini tuturdu. Onun gəlişi ilə Qafqaz xalqlarına qarşı ən qaba hərbi-sümürgəc siyasəti yeridilməyə başlandı. XIX yüzilin rus hərb tarixçisi ***N.F.Dubrovin*** onun aşağıdakı sözlərini örnək olaraq almışdır: «Asiyada bütün andlaşma və danışıqlar heç, güc isə hər şeydir». Qafqaz Arxeoqrafiya Komissiyası aktlarının ikinci cildində onun 1803-cü il 31 mart tarixli (Car camaatının silah gücü ilə çökdürülməsindən bir gün sonra) «Bütün Car camaatına əmri» verilmişdir. Bu yazı yalnız çar baş komandanın

şəxsiyyətinin deyil, çarlıq siyasətinin izahı baxımından fövqəladə dəyərə malikdir: «Dinsiz alçaqlar! Mən sizi çox dilə tutdum, siz isə dağıstanlıları [köməyə] çağırdınız, sonra da ürəklənib elə bir şey yazırsınız ki, ləyaqətimə toxunur. Siz doğru deyirsiniz, mən gürcüyəm, amma nə ağızla bunu yazmağa cəsarət edirsiniz? Mən Rusiyada doğulmuş, orada böyümüşəm, ruhum da rus ruhudur. Gözləyin, qoy gəlib ora çıxım, onda evlərinizi deyil, sizin özünüzü oda yaxacaq, uşaq və qadınlarınızın içalatını çəkib çıxaracağam. Siz taxıl yığımına kimi sakit oturmağı düşünürsünüz, ancaq Tanrıya and içirəm, tələb olunanı (3520 kq ipək ödəncini – *Red.*) verməyincə siz Car çörəyi yeməyəcəksiniz. Budur siz xainlərə mənim axırıncı sözüm».

**BALAKƏN-CAR TORPAĞININ İŞĞALI.** Quzey Azərbaycanın bu bölgəsində türklər, avarlar, ingiloylar yüzillər boyu yanaşı yaşayırdılar. Avarların (onlar özlərini ***baqualal*** adlandırırlar) toplu halında burada yerləşməsi XV yüzilin sonunda başladı. O zaman kaxetlilər özlərini qorumaq üçün onları bu yaxın bölgəyə köçürüb qulluq işinə götürürdülər. ***Məhəmmədhəsən bəy Baharlıya*** görə, bu axın 1616-cı ildə şah Abbasın vasitəçiliyi ilə başa çatdı.

XIX yüzilin əvvəlində rus rəsmi araşdırmaları üzrə «Car-Balakən azad camaatları» adlanan bölgədə 35 kənd, 5191 kəndli həyəti (orta sayım ilə hər 10 həyətdə 15 ailə) yerləşirdi. Onlardan ***Car*** icması 20 kənd, 1861 həyət; ***Balakən*** icması 3 kənd, 800 həyət; ***Talı*** icması 5 kənd, 1410 həyət; ***Muxax*** icması 3 kənd, 1030 həyət tuturdu. Bununla yanaşı bölgədə «heç bir icmaya mənsub olmayan və bu icmalarda heç bir tabe kəndi olmayan» daha doqquz kənd (Katex, Matsex, Qaracalı və b.) var idi. «Tabe kəndlər» dedikdə, ingiloy və muğalların yaşayış yerləri nəzərdə tutulurdu. Birinci ad türkləşib islama keçmiş kaxetlilərə, ikinci isə türkləşmiş moğollara aid edilirdi.

Azərbaycan türkləri haqqında isə rus rəsmi qaynağında bildirilirdi: «Düzənlikdə yerləşən bütün kəndlər ingiloy adlansa da, sonradan məskunlaşan və tatar (türk – *Red.*) dilində danışan kəndlərdə yaşayanlar onların (ingiloyların – *Red.*) sayından çıxılmalıdır». Bunlar aşağıdakı kəndlər idi (qaynaqda yer adları təhrif olunmuş, yüngülcə «gürcüləşmiş» şəkildə yazıya alınmışdır): Çobanqolu (30 həyət), Keymur (50), Bazar (30), Almalı (360), Ləloli (300), Göglər (20), Katalparax (?), Göndərqala (30), Boymatlu (8), Patara Lahıc (60), Didi Lahıc (15), Kürdəmir (20), Padar (30), Paidar (?), Muğanlı (300), Babalı (8), Qarabaldur (30). Başqa sözlə, bölgənin 35 kəndindən 17-i və onlarda olan 5191 kəndli həyətindən 1233-ü türkcə danışan toplum idi.

Balakən-Car bölgəsinə qoşun yeritmək üçün Çiçianov Gürcüstanda gedən daxili çəkişməni, mərhum çar İraklinin oğlu Aleksandrın gəlib buraya sığınmasını bəhanə etdi. Rusiya qulluğunu öz ata yurdunun və millətinin mənafeyindən uca tutan Çiçianov, Kartli çar nəslini Gürcüstandan yox etməyi qarşısına məqsəd qoymuşdu. O, gürcü çar ailəsini bütünlüklə Peterburqa köçürdü (zor işlədildiyi üçün çarın arvadı Deda Vala ermənilərdən olan general-mayor Lazarevi xəncərlə vurub öldürmüşdü). Yalnız İraklinin oğlu Aleksandr ələ keçməmişdi. O, Azərbaycan xanlarının və İran şahının yardımı ilə Kartli-Kaxet çarlığını bərpa etmək, dədə-baba hakimliyini özünə qaytarmaq istəyirdi. Buna görə kiçik bir döyüş dəstəsinin başında, Gəncəli Cavad xanın vasitəçiliyi və yardımı ilə Car torpağına sığınmışdı.

Çiçianov kobudcasına carlıları suçlayaraq, çar oğlu Aleksandrın dərhal ona verilməsini tələb etdi. Mirzə Adıgözəl bəyə görə: «Knyaz (Çiçianov) ənbər iyli qələmi ilə məktublar yazdı, onlara (carlılara – *Red.*) nəsihət edib bildirdi...» İş isə Rusiya monarxı qarşısında nökərçiliyi üstün tutan XIX yüzil tarixçimizin yazdığı kimi deyildi. Car camaatının başçıları Çiçianova təmkinlə dolu bir cavab göndərmişdilər. Burada deyilirdi ki, çar oğlu Aleksandr onların çağrışı ilə deyil, özü gəlib qonaq kimi bizdən yer istəmişdir, ancaq qonağın, ona düşmən olan bir kimsəyə verilməsi bizim adətimizdə yoxdur. Özü gəldiyi kimi, özü də gedər.

1803-cü il martın başında sayca böyük olmayan rus əsgəri qüvvəsi beşminlik gürcü qoşunu ilə Car torpağına soxuldu. Qoşuna iki general-mayor (***Orbeliani*** və ***Qulyakov***) başçılıq edirdilər, amma keçmiş tarixçilər Çiçianovun da burada olduğunu yazırlar. Carlılar ***Qanıq*** çayı üstündə çadırlarını qurub düşmənlə qarşılaşdılar. Çiçianovun qoşunu çayın keçidində carlıları əzdi, aramsız yüyüş edib onların «möhkəm aman evi və ümidgahı olan Balakəni dağıtdılar. Onlara gözəl bir qulaqburması verdilər...» (Mirzə Adıgözəl bəy). Amma tarixçinin «gözəl qulaqburması» kimi qələmə verdiyi iş, əslində Balakənin bütünlüklə dağıdılması demək idi. Rusiyanın o zamankı hərb tarixçiləri döyüş taktikası baxımından buna heç bir lüzum olmadığını yazırlar. Ancaq Çiçianovun yuxarıda göstərilən 31 mart tarixli əmri yerli əhaliyə qarşı amansız döyüş taktikasının bilərəkdən işləndiyini göstərməkdədir.

Martın 29-da carlılar çökdürüldü. Onların təmsilçiləri Tiflisə çağırılıb, orada təslim olmaq kağızı imzaladılar. Təslim şərtləri üzrə onlar Rusiyaya 220 pud (3520 kq) ipək bac ödəməli, sadiq olacaqlarını bildirmək üçün girovlar verməli, rus qoşununun burada yerləşməsinə razı olmalı idilər. Bununla yanaşı, yerli əhali çar oğlu Aleksandrı və dağıstanlı silahlı dəstələri öz torpağına buraxmamağı öhdəsinə götürməli olmuşdu. Amma bu kağız imzalandıqdan sonra da Çiçianov əhaliyə qarşı amansız davranışına ara vermirdi. 23 iyun 1803-cü il tarixli müraciətində o, Car-Balakən əhalisi qarşısında öyünüb deyirdi: «Güc kimin əlindədirsə, gücsüz ilə alış-verişə girməz, ona yalnız buyruq verər».

1804-cü ilin yanvarında general Qulyakov, rus gücü qarşısında dilsiz qul olmaq istəməyən carlılar üzərinə yenidən yürüşə qalxdı. Carı da ələ keçirərək yaxıb yandırdı. Oradan Zaqatala üzərinə yeridi. Ancaq dar dağ dərəsində qoşunu ilə mühasirəyə düşüb öldürüldü. Car döyüşçülərinin bu savaşı qazanması ruhlandırıcı olsa da, uzun sürmədi. 1804-cü ilin yanvarında Balakən-Car camaatları yenidən Rusiya hökmünə tabe edildilər.

**GƏNCƏ YÜRÜŞ QARŞISINDA.** Çiçianovun hərbi strateji planında Gəncənin işğalı mühüm yer tuturdu. O, əvvəlcə Gəncəni dinc yol ilə ələ keçirməyə çalışdı. Bunun üçün Cavad xana (xanlıq illəri 1785-1804) təsir göstərmək, onu təslim olmağa məcbur etmək isğəyirdi. İlk günlər Çiçianov sanki xanın əsəblərini yoxlayır, azğın istəyini pərdələməyə çalışırdı. Lakin Cavad xan onun nəyə qadir olduğunu və istədiyinin nə olduğunu, görünür, yaxşı bilirdi. Gəncə xanı qəti müqavimət göstərməyə hazır idi.

**ÇİÇİANOVUN CAVAD XANA İLK MƏKTUBU.** «Tiflis, 25 fevral 1803-cü il: Hörmətli məmurunuz Gürgün bəylə göndərdiyiniz məktubu aldım. Orada Sizin dinc, müttəfiq və dostcasına qonşuluq əlaqəsi saxlamaq meylinizi gördüm. Bu sözlərin sidq ürəklə yazıldığını qəbul edərək Sizin şəxsi rifahınız üçün qəlbən sevinir və yenilməz qalacaq bu rifahınız münasibətilə Sizi təbrk edirəm. Zira Sizi və sizin xalqı... lütfkar rus imperatoru öz himayəsinə götürür. Sizin etimadınızın qarşılıqlı keçəcəyinə təbəəliyinizin Gürcüstanla bağlı bütün işlərində şahid olacaqsınız. Gürcüstanla, eləcə də sərhəd qonşuları ilə bağlı hər hansı bir məsələ Sizin rəyinizlə, yalnız Sizin icazəniz... alınandan sonra qəti və qanuni qaydada yoluna qoyulacaqdır. Çünki, əlahəzrət hökmdarım məndən bunu tələb edir. Lakin Sizin şərafətli etimadınızın... ən gözəl zəmanəti o olardı ki, xahişimizi nəzərə alaraq yüksək mənsəbli böyük oğlunuz Uğurlu ağanı əmanət kimi Tiflisə göndərəydiz. O, burada ləyaqətinə və mənsəbinə uyğun ehtiram və hörmət sahibi olacaqdır. Bu təmənnam yerinə yetirilsə, onu Gəncə ilə Gürcüstan arasında heç bir ayrı-seçkiliyin olmayacağı barədə xeyirxah vədənizin əməli timsalı kimi qəbul edəcəyəm. Bundan başqa, Sizin ucalığınıza bəslədiyim dostcasına münasibətimin kiçik rəmzi kimi mehriban Gürgün bəylə hər biri on arşınlıq məxmər və atlas hədiyyə göndərir və həmişə qulluğunuzda hazır olduğumu bildirirəm».

**RUSİYANIN GƏNCƏYƏ GÖZ DİKMƏSİ NƏDƏN İRƏLİ GƏLİRDİ?** Bu məktub qılınc kimi iti dişlərini gizlətməyə çalışan bir yırtıcı davranışına bənzəyir. Gəncə üzərinə sadəcə qara buludlar deyil, ölümcül bir təhlükə yaxınlaşmada idi. Yağı onun hökmünü vermişdi artıq.

Başlıca məsələ Azərbaycanla bağlı idi. Gəncə böyük bir işə yalnız başlanğıc, bir körpü olacaqdı. Gəncə çökdürüldükdən sonra Çiçianov bu



şəhərin strateji dəyəri haqqında I Aleksandra yazmışdı: «Gəncə qalası yerləşməsinə görə bütün Azərbaycanı qorxu altında saxlamaq [imkanı verdiyindən] onun ələ keçirilməsini Rusiya üçün çox vacib saymağa əsas verir». İşin başlıca açımı burdadır: Gəncəni tutmaqla bütün Azərbaycanı qorxu altında saxlamaq imkanı yaranırdı.

Rus komandanlığının irəli sürdüyü başqa suçlamalar əslində bəhanə olsa da, onları bilmək gərəkdir. Dövlət müşaviri Kovalenkonun Çiçianova 17 dekabr 1800-cü il tarixli raportu artıq Gəncəyə qarşı hazırlıq getdiyini göstərməkdədir. Bu raportda Gəncə hakimi Cavad xanın «çoxdan bəri Gürcüstana qarşı xeyirxah olmayan» davranışda olması bildirilir:

1. Cavad xan Gürcüstanın «qədimdən təbəələri olan 2000 Şəmşəddil erməni və türk ailəsini buradan köçüb öz torpağında yerləşməyə şirnikdirmişdir;

2. Çar oğlu qaçqın Aleksandrı «onun bütün dələduzları» ilə qəbul etmiş, sonra Car və Balakən başçıları ilə sözləşərək oraya ötürmüşdü;

3. Rusiyaya «xeyirxah olmayan» millətlər və hakimlər ilə, o sıradan gürcü çar evinin üzvləri ilə əlaqə saxlamaqdadır.

«Gürcüstana qarşı» (Rusiya çarlığı öz siyasətini Gürcüstanın adı ilə pərdələməyə çalışırdı) «xeyirxah olmayanları» sırasında ilk əvvəl İran dururdu. Sonrakı yazışmada bu ittiham başlıca yer tutur. Əslində isə bu da bir bəhanə idi. Gəncə yenildikdən sonra Çiçianov çar I Aleksandra raportunda bununla bağlı yazırdı: «Gəncəli Cavad xanla yazışmada Baba xan (Fətəli şah – *Red.*) sərdarı tərəfindən İran qoşunu və məmurunun [Gəncəyə] göndərilməsi bildirilsə də, S.İ.H. (Siz imperator həzrətlərinə – *Red.*) mən inamla cəsarət edib söyləyirəm ki, heç bir zaman [Cavad] xanın yanında İran qoşunu olmamışdır, ancaq o, Asiya adəti ilə sadəcə məni [bununla] qorxutmaq istəyirdi».

Bütün bunlara görə yazışmanın başlanğıcında Baş komandanın yumşaq, bir növ uyuducu sözlər işlətməsi Cavad xanın gözündən qaçmamışdı. O, işin nə yerdə olduğunu anlayırdı. Anladığı üçün də hazırlıq görürdü. 1803-cü ilin aprelində Çiçianovun kəşfiyyat qulluğu Cavad xanın Qarabağ hakimi İbrahim xanla barışığa gəldiyini, ondan iki top aldığını xəbər verdi. Burada bildirilirdi: «Cavad xan öz qalasını bərkitməkdədir, Gəncəyə yaxın əhatədə yaşayan əhalinin isə (mətndə: xalqların – *Red.*) qorunub saxlanmasını İbrahim xana tapşırır». Tezliklə Çiçianov pərdəli sözləri atıb Cavad xana ultimatum verərək, sözsüz və qeyd-şərtsiz təslim olmağı tələb etdi.

**ÇİÇİANOVUN CAVAD XANA İKİNCİ MƏKTUBU.** «Şəmkir, 29 noyabr 1803-cü il: Gəncə torpağına ayaq basıb bu gəlişimin səbəblərini Sizə bildirirəm. Birinci və başlıcası: Gəncə və onun ətrafı çariça Tamaranın hakimiyyəti dövründə Gürcüstana mənsub idi, sonra Gürcüstan çarla-

rının zəifliyi üzündən ondan ayrılıb. Bütün Rusiya imperatorluğu isə indi Gürcüstanı özünün hər şeyə qabil himayəsi altına aldığından, onun parçalanmasına göz yuma bilməz. Rus imperiyasının güc və ləyaqəti ilə Gürcüstanın qənimətit və bir parçası olan Gəncənin yadların əlində qalması bir yerə sığışa bilməz.

İkinci. Gürcüstrana gələrkən yazdığım məktubuma (həmin məktubda oğlunuzu əmanət kimi verməyi təklif etmişdim) yolladığınız cavabda Siz zati-aliniz bildirirsiniz ki, İran padşahından ehtiyat edirsiz. Lakin unudursunuz ki, altı il bundan öncə Siz Rusiyanın tabeliyində idiniz və Gəncə qalasında şöhrətli Rusiya ordusu dururdu.

Üçüncü. Adamlarınızın qarət etdikləri Tiflis tacirləri Sizin uca həşəmətiniz tərəfindən razı salınmamışdır.

Həmin üç səbəbə görə də mən öz ordumla gəlmişəm ki, şəhərinizi Avropa adəti üzrə tutum. Basqına, insan qanı tökməyə başlamazdan öncə etiqadıma və məzhəbimə görə təklif etməliyəm ki, şəhəri davasız-savaşsız təhvil verəsiz. Sizdən ikicə söz tələb edirəm. Birini seçin: «hə», ya «yox». Yəni təslim olursuz, ya yox? Yəqin bəlli olsun ki, belə pis havada ordu götürüb buralara gəlmişiksə, deməli artıq heç bir müqavilə bağlana bilməz. Buna görə də Sizin təslim olmağınızı qabaqcadan müəyyən etmişəm və yalnız onda mənim lütfkar padşahımın sonsuz şəfqət və mərhəmətini görəcəksiniz.

Yox, bunu istəmirsinizsə, bəxtinizdən küsün, bir zaman İzmayıl, Oçakov, Varşava və bir çox başqa şəhərlərin aqibəti sizi gözləyir. Sabah günortaya kimi cavab almasam, döyüş tonqalı qalanacaq. Gəncəyə qılınc və atəşlə gələcəyəm. Onda sözümün üstündə necə dura bilməyimi görəcəksiniz».

**CAVAD XANIN CAVABI.** Gəncə, 29 noyabr 1803-cü il: «Məktubunu aldım. Yazırsan ki, şahzadə Tamara zamanında Gəncə Gürcüstandan asılı olmuşdur. Bu nağıla bir kimsə inanmaz. Amma əcdadlarımız Abbasqulu xan və başqaları Gürcüstanı idarə edirdilər. İnanmırsansa, yerli qocalardan soruş. Hələ indiyədək Gürcüstanda onun məscid və dükanları qalır, bir çox gürcüdə buyruqları saxlanılmaqdadır. İraklinin və atamızın dövründə Gəncə ilə Gürcüstanın sərhədləri dəqiqləşdirilib. Bununla belə, mən desəm ki, babalarım Gürcüstanda vali olublar, bir kimsə bu sözə hörmətlə yanaşmaz, bir kimsə də Gürcüstanı mənə qaytarmaz.

Sən bir də yazırsan ki, altı il əvvəl mən Gəncə qalasını Rus Padşahına vermişdim. Bu doğrudur. Onda sənin Padşahın mənə fərman göndərmişdi, mən isə onun təklifini qəbul edib qalanı vermişdim. Əgər indi də sənin Padşahın fərman göndərmişsə, onu mənə göstər. Onun iradəsini bilsəm, götür-qoy edərəm.



Sən bir də yazırsan ki, guya bir zaman mən Gürcüstan asılılığında olmuşam. Qoy sənə bəlli olsun, sənin padşahının fərmanı indi də əlimdədir. Bax gör, orada mən Gəncə bəylərbəyi, yoxsa Gürcüstan vassalı adlanıram? Buradan aydın olur ki, sözlərin tam yalandır.

Bundan başqa, Gəncəni sənin padşahına verəndə İran şahı Xorasanda idi və əlim ona çatmadığı üçün mən, bir böyük müstəbid kimi rus padşahına tabe olmağı lazım bildim. Allaha şükür, İran şahı yaxınlıqdadır, onun göndərdiyi baş komandan artıq burdadır. Əsgərlər də gəlirlər...

Mənimlə savaş fikrinə düşmüsənsə, mən hazır. Əgər öz toplarınla öyünürsənsə, mənimkilər onlardan geri qalmır, sizdə top lüləsinin uzunluğu bir arşındırsa, bizdə 3-4 arşındır, uğur isə Allahın əlindədir. Mənə savaşa hazır olmağı təklif edirsən? Sən Şəmşəddilə girən gündən savaşa hazıram. Savaşmaq istəyirsənsə, savaşaq. Qorxu gəlirsən ki, təklifini qəbul etməsəm, başıma bəla gələcək. Əslində bədbəxtlik səni Peterburqdan qova-qova bura çəkib gətirib. Bunu zaman, bir də savaşın özü göstərəcək».

**ÇİÇİANOVUN GƏNCƏ ERMƏNİLƏRİNƏ MƏKTUBU.** Belə bir cavab Rusiya baş komandanı üçün çox gözlənilməz idi. Balakən-Car döyüşlərindən sonra qarşıda yeni çarpışmalar durması aydın idi. Əsgəri qüvvəsinin çoxluğuna baxmayaraq, Çiçianov «parçala – hökm et!» siyasətinə əl atdı. 1803-cü il noyabrın 30-da o, Gəncə ermənilərinə belə bir fitnəkar məktubla üz tutdu: «Qalib Bütünrusiya ordusu ilə Gəncə torpağına girərkən, hamınızı lütfkar rus hökmdarlarının adından əmin edirəm ki, Bütünrusiya taxt-tacının müdafiəsi üçün qalxan hər kəs özünün və əmlakının təhlükəsizliyinə tam təminat alacaq, müsəlmanların soyğunçuluğundan, hər cür təqib və sıxışdırmalardan canınız qurtaracaq, sizə Gürcüstanın hər hansı bir guşəsində asudə yaşamaq hüququ veriləcəkdir».

**DAHA DÖRD ULTİMATUM.** Bundan sonra Çiçianovdan Gəncə xanına daha dörd məktub gəldi. Dördü də hədə-qorxu ilə dolu idi. 9, 11, 26 və 29 dekabrda yazılan bu məktublarda o, diplomatiya qoxusu gəlməyən belə deməclər işlədirdi: «Dünyada kim eşidib ki, rus qoşunu qala üzərinə gəlsin, amma onu ələ keçirmədən çıxıb getsin»; «lovğalananları qanına qəltan edəcəyəm»; «mən öz etimadıma görə Asiya məğrurluğuna nifrət edirəm»; «bu məktuba elə bu gün cavab verilməlidir» və s.

Belə bir üzdəniraq yazışma qarşısında Cavad xan «Asiya məğrurluğu»ndan dönmədi. Görünür, şəhərin və aqibətinin nə olacağını xan yaxşı anlayırdı. Yalnız bütün bu təhqirləri udaraq şərəfsiz bir davranış ilə Çiçianovla barışığa gəlmək olardı. Cavad xan Milli varlıq və ləyaqətini bu ölçüdə endirib ayaq altına ata bilmədi. Ölümü şərəfsizlikdən uca tutdu. Dekabrın

28-də yazdığı cavab bunu aydın göstərir: «Nə hədlə belə danışırsan, mən ki, sənə tabe deyiləm. «Elə bu gün cavab ver». Bu nə deməkdir? Heç nökərlə də belə rəftar etməzlər. Həddini bil. Məktubu haçan istəsəm, onda yollayaram. Bu bir. Qaldı şəhərin verilməsinə, xam xəyaldan əl çək, Gəncəyə yalnız meyitimin üstündən keçə bilərsən. Bildin? Mən öləndən sonra, özgə yolla yox!».

Sabahı gün Çiçianovdan son məktub gəldi. Görəsən bir aya yaxın sürən hədə-qorxu qarşısında Cavad xanın ər dirənişi onu düşündürə bilmişmiydi? Sonuncu məktubun başında təəssüf bənzəyişli bir şey duyulmaqdadır: «Qalanı xoşluqla vermək meylinizin olmadığını görüb axırıncı dəfə təslim şərtlərini Sizə göndərməyi özümə borc bilirəm... Məktubda təcili cavab istəməyim isə heç də o demək deyildir ki, mən düşmənimi nökər, qul sanıram». Hər halda Rusiya baş komandanı taktikanı azacıq da olsa dəyişdirirdi. İlk öncə o, heç bir danışıq aparmadan, heç bir andlaşma, müqavilə bağlanılmadan qalanın sözsüz verilməsini tələb edirdisə, indi «təslim şərtləri» irəli sürür, hətta Cavad xana Rusiya tabeliyində bir vassal kəmi xanlığı idarə etmək hüququ vəd edirdi. Ancaq təklif olunan beş təslim şərti çox ağır, qılınc kimi kəskin idi. Budur onlar:

«1. Gəncəli Cavad xan tabeliyindəki bütün əhali ilə birgə Bütünrusiya padşahının təbəəliyinə and içir.

2. Qala tamamilə təmizlənir və ora rus qoşununun topları, hərbi sursatı yerləşdirilir.

3. Gəncəli Cavad xan Rusiya imperiyasının tabeliyində olaraq əvvəlki ixtiyarla öz ərazisini idarə edir və Rusiyaya ildə 20 min manat xərac verir. Bu maddələri imzalayan zaman 1804-cü ilə düşən məbləği əlüstü ödəyir.

4. Qaladakı və Şəmşəddil yolundakı ordunu ərzaqla təmin edir.

5. Şəmşəddilin və onun əyalətinin əhalisini sıxışdırmaq olmaz, çünki onlar artıq Gürcüstan hökumətinin idarəsinə keçirlər.

Yuxarıdakılara sədaqətlə əməl etmək üçün Cavad xan Gəncəli öz oğlu Hüseynqulu ağanı Gürcüstanın baş hakiminin yanında həmişəlik qalmaq üçün əmanət verir».

**GƏNCƏ DÖYÜŞÇÜLƏRİNİN İGİDLİYİ.** Quruqobu döyüşündən sonra rus əsgərləri şəhərə girib içəri qalanı sıx mühasirəyə almışdılar. Çiçianovun göstərişi ilə qala müdafiəçilərinə bir ay içərisində bayırdan su və odun verilmirdi. Ancaq Cavad xan qışa yaxşı hazırlıq görmüşdü. Mirzə Adıgözəl bəy yazır ki, Cavad xan hücumları «igidlik və qoçaqlıqla dəf edirdi».

Çiçianov Gəncə üzərinə 11 topu olan 6 piyada batalyonu, 3 eskadron, 200 kazak və 700 Qazax-Şəmşəddil-Borçalı-Dəmirçi atlısı ilə gəlmişdi. Şəhərə hücum edən birinci rus kolonu (gen-m. ***Portnyaginin*** başçılığı



altında) tərkibində sonunculardan 600 atlı var idi. Qalanlarına qaladan bir kimsənin çıxıb qaçmamasına nəzarət etmək tapşırılmışdı. 1804-cü il 2 yanvar axşamı Çiçianov rus qoşunlarına qalanı almaq əmri verdi. Miladi bayramın ikinci gecəsi müsəlmanlar üçün də bayram idi. Orucluq bayramının qarlı gecəsi Gəncə döyüşçülərinin qanına boyandı. Onlar qala divarlarını aşmaq istəyən rus piyadasının iki hücumunu dəf etdilər. Üçüncü basqında pozuldular. Çünki mayor ***Lisaneviçin*** gülləsilə Cavad xan öldürüldü. Oğlu ***Hüseynqulu*** ağa da şəhid düşdü. Döyüş qırğına çevrildi. Mirzə Adıgözəl bəydən fərqli olaraq Mirzə Camal Cavanşir hətta «ümumi qırğın» anlayışı işlədir.

Çiçianovun hökmü ilə «şəhər əhalisinin köç-külfətini şəhərə, Cavad xanın ailəsini isə məscidə apardılar. Məsciddən də bir evə gətirib, üstündə qarovullar qoydular» (Mirzə Adıgözəl bəy). Başqa bir qaynaq üzrə xanın qadını ***Böyükxanım*** da baş qala bürcü qapısının qoruyucuları sırasında əlində qılınc vuruşurdu. O, əri və oğlunun meitlərini bürclərdən yerə endirtmiş, sonra isə xan sarayının kəllə otağına gətirmişdi. Çiçianov meyitlərin ardınca buraya gəlib çıxdıqda, Böyükxanım ərinin qılıncını qapıb Rusiya sərdarını öldürmək istəmişdi. General ***Karnyagin*** öz gündəliyində bildirir ki, yanında yavəri olmasaydı, Çiçianov qurtula bilməyəcəkdi. Yanvarın 5-də Cavad xan oğlu ilə Şah Abbas məscidi yanında dəfn edildi.

Gəncə döyüşünə Çiçianov özü yekun vurmuşdur. Onun verdiyi arayış doğru sayılarsa (burada kiçiltmə də ola bilər), ruslar 3 zabit, 35 «aşağı rütbəli» (əsgər) itirmiş, 14 zabit və 192 «aşağı rütbəli» yaralanmışdı. O, qalada 12 top, 55 pud (880 kq) barıt, «çoxlu taxıl ehtiyatı» ələ keçirmişdi. Gəncəlilərin itkisi böyük idi: öldürülənlərin sayı 1500 (yaralananların sayı bəlli deyil), əsir düşənlərin sayı isə 17222 göstərilir. Müdafiəçilərin cəmi sayı 18722 edir.

Buradan aydın olur ki, Gəncə döyüşü əslində xalq müdafiəsi səciyyəsi daşımış, bu müdafiədə yalnız Gəncə əhli deyil (burada yaşayanların sayı 3 mindən bir az yuxarı idi), ətraf torpaqlarda yaşayan əhali də geniş iştirak etmişdir. Buna görə də Azərbaycan tarixçilərinin Rusiya qoşunlarının gəlişini bir zaman «könüllü birləşmə» kimi qələmə verməyə çalışması tarixi gerçəkliyə uyuşmayan haqsız bir iş sayılmalıdır.*

---

* Kökündən yanlış olan bu konsepsiya «Azərbaycanın Rusiyaya birləşdirilməsi və onun iqtisadiyyat və mədəniyyət sahəsində mütərəqqi nəticələri» (Bakı, 1955) adlı kitabda irəli sürülmüşdür. Mərhum Ə.Sumbatzadə və Q.Mehdiyevin yazdıqları birinci bölmədə deyilir: «Rus qoşunlarının bu zaman rast gəldiyi kiçicik müqavimət yerli əhali ilə deyil, İran və Türkiyənin birbaşa agentləri ilə bağlı idi»... Sual olunur: çox da böyük olmayan Gəncədə bu dövlətlərin 20 minə yaxın agentimi vardı, yoxsa bütün yerli əhali onların agentləri idi?

**ÇAR HÖKUMƏTİ GƏNCƏ QIRĞININA NECƏ BAXIRDI?** Çar hökuməti zəfərini qeyd etməkdə idi. Döyüş bitən günü, 1804-cü il yanvarın 3-də İmperatorluq zərbxanasında Gəncənin alınmasında iştirakına görə döş medalı təsis edildi.*

Gəncə qalası, xan sarayı qala divarları ilə birlikdə uçurulub yox edildi. Gəncə xanlığı ləğv edildi və dairəyə çevrildi. Minillik tarixi olan Gəncənin adı da tarixdən silindi, ona I Aleksandrın arvadı Yelizavetanın adı verildi. (Yelizavetpol). Gəncə sözünü dilinə gətirən hər bir kəs bir qızıl cərimə ödəməli idi.

Gəncə qırğını I Aleksandrın xoşuna gəldi. Çiçianovun adına 5 fevral 1804-cü il buyruğunda çar «Gəncənin işğalı zamanı baş verən hadisələrdən» məmnun olduğunu bildirirdi. Burada deyilirdi: «... Asiya qüruru qarşısında güzəştə getmək pis olardı və belə bir örnək o ölkənin (Azərbaycanın – *Red.*) başqa hakimlərini də dikbaşlığa gətirərək, ... sizə tapşırılan planın yerinə yetirilməsində sonralar çətinlik doğura bilərdi».

Çar hökuməti Balakən-Car torpağında da, Gəncədə də bilərəkdən cəza əməliyyatları səciyyəsi daşıyan qorxuducu yolu seçmişdi. Əhalini qorxutmaq üçün Azərbaycan xanlıqlarına qarşı bildirilməmiş savaş açmışdı. I Aleksandrın buyruğunda öz baş Qafqaz komandanına çar bu fikri aşağıdakı sözlərlə anladırdı: «Gəncənin başına gələnlər və general-mayor ***Qulyakova*** Car əyalətinin xəyanətinə görə cəzalandırma tapşırığının verilməsi o ölkə xalqına [müqavimət göstərərsə] aqibətinin nə olacağını aydınlığı ilə göstərəcəkdir».

**GƏNCƏ QƏTLİAMI KEÇMİŞ YAZARLARIN GÖZÜ İLƏ.** «Valeh (təmiz) türki» dilində qarabağnamələrdən birini yazan ***Mirmehdi Xəzani*** (1809-1894) Gəncə savaşının «kütləvi qırğına», «qətliama» çevrildiyini bildirən ilk Azərbaycan müəllifidir. O yazır: «Axır ki, mayor Lisaneviçin bir gülləsi ilə (Cavad xan) barui-həyatından səraxir oldu... soldatlar haman saat dörd tərəfdən hücum edib, daxili Ərk oldular. O bayram gününü onlara qarə edib, müddəti – üç saat tamam o şəhərdə xalqı kütləvi şəkildə qırdılar... Üç saatdan sonra sərdar (Çiçianov) qadağan qıldı ki, dəxi səfəki-dəmadan əl götürüb, giriftar olanları hüzura gətirsinlər. Xalqı qaladan kənara çıxarıb, qalanı xalqdan təmizləsinlər... Həqiqətən, bu cür qala almaq və bütöv qətl(i)am olunmaq Çingiz xan qoşunundan və Teymurləng zamanından sonra bu vilayətlərdə və məmalikdə görünməmişdi».

Mirzə Camal Cavanşirin oğlu ***Rzaqulu bəy*** də Gəncədə «ümumi qırğın» olduğunu yazır.

---

* «Нагрудная медаль за участие во взятии Гянджи 3 января 1804 г.» adlanan bu medalın bir nüsxəsi Bakıda, Azərbaycan tarixi muzeyində saxlanılır, inv. N 19840.



Kökcə erməni olan ***Mirzə Yusif Qarabaği Nersesov*** (1798-1864) «tarixi-Safi»nin ayrıca bir bölməsində bu mövzuya toxunur: «Cavad xan isə düşməninə ağır zərbələr vuraraq özünü qəhrəmancasına müdafiə edirdi... rus əsgərləri qalanı zəbt etdilər. Əsgərlər hər tərəfdən qalaya daxil olub, onların oruclug bayramını qurban bayramına çevirdilər və işıqlı günlərini qaranlıq gecəyə döndərdilər. Sərdar camaatı qırmağa əmr verdi. Üç saat qılınclar başlara endi və can alan nizələr ürəklərə sancıldı, rus əsgərləri arası kəsilməyən qırğından əl çəkmirdilər. Üç saatdan sonra sərdar qırğının dayandırılması və əsirlərin onun yanına gətirilməsi əmrini verdi».

Rusiya tarixçisi ***A.Kaspari*** özünün «Покоренный Кавказ» (СПб, 1904) kitabında gəncəlilərin ölüm-dirim savaşından yayınmadıqlarını bildirir: «Xanın ölümü duyulunca Gəncə qüvvətlərinin mənəviyyatı sarsıldı; beləliklə, döyüş ruslar tərəfindən qazanılmış oldu. Döyüş şəhər içinə keçirildi. Gəncəlilər şəhəri ev-ev müdafiə edirdilər. Buna görə çox ağır tələfat verdilər».

## 4. 1804-1813-CÜ İLLƏR RUSİYA-İRAN SAVAŞI. QUZEY AZƏRBAYCAN XANLIQLARI UĞRUNDA MÜBARİZƏNİN YENİ DÖNƏMİ

**SAVAŞIN BAŞLANMASI.** Gürcüstanın birləşdirilməsi, Gəncənin tutulması və Rusiyanın getdikcə Azərbaycanın içərilərinə doğru irəliləməsi İranı qəti tədbir görməyə məcbur etdi. Transqafqaz ölkələrindən əl çəkmək istəməyən İran dövləti öz qonşuluğunda Rusiya imperiyasının hökmranlıq qazanması ilə barışa bilmirdi. Beynəlxalq vəziyyət İranın Rusiya işğalına qarşı çıxması üçün şərait yaradırdı.

Bu savaş hər iki tərəf üçün ədalətsiz idi. Çünki özgə torpaqlarının ələ keçirilməsi uğrunda gedirdi. Rusiya çarlığı İranla yanaşı Quzey Azərbaycan xanlıqlarına qarşı da savaş aparır, onları ələ keçirərək yerli xalqın mənafeyini tapdalayırdı. Burada ələ keçirdiyi torpaqları Rusiya, bütöv bir etnik toplum, etnik birliyi olan bir torpaq kimi özünə qatmır. Balkanlarda olduğu kimi dövlət qurumları yaratmırdı. Bu isə bu torpaqların hüdudsuz bir müstəmləkə kimi imperiyanın sümürgəc sisteminə qatıldığını göstərirdi.

1804-cü ilin mayında İran, rus qoşunlarının Transqafqazdan çıxarılmasını tələb etdi. Rusiya bu tələbi rədd etdi, 1804-cü il iyunun 10-da iki dövlət arasındakı diplomatik münasibətlər kəsildi. Savaş başlandı.

İran tərəfinin planına görə qoşunlar iki istiqamətdədə: İran-Qazax və Şuşa-Gəncə üzərinə hücum edərək Tiflisi tutmalı, sonra quzey-doğu Transqafqazda yerini bərkitməli, Quzey Qafqazı Qızılyar xəttinə kimi

«gavurlardan təmizləməli» idi. Rusiya komandanlığı üçün ön planda Azərbaycan xanlıqlarının ələ keçirilməsi dururdu. İrana qarşı ayrıca bir əməliyyat aparmaq nəzərdə tutulmurdu, çünki komandanlığın əmri altında olan rus qoşunları sayca az idi. Başlıca diqqət İran qoşunları hərəkətinin qarşılanmasına yönəlmişdi. Bir də I Aleksandr və onun Qafqaz komandanlığı, «hər zaman zəfər çalmağa öyrənmiş Rusiya qoşunlarının» ciddi müqavimətilə qarşılaşacağını düşünmürdülər.

**İLK DÖYÜŞLƏR.** Güney Azərbaycan hakimi şahzadə Abbas Mirzənin 50 minlik ordu ilə İrəvana yaxınlaşması Çiçianov üçün gözlənilməz olmadı. O bütün qışı qoşun hazırlamaq və səfər tədarükü görməklə keçirmişdi. İrəvan hakimi Məmməd xanın onu «Vaxt itirmədən» İrəvana çağırması nəzərə alındı, 1804-cü il iyunun sonunda 3600 piyada, 3 eskadron atlı və 300 kazakdan ibarət olan rus qoşunu 12 top ilə artıq İrəvan yaxınlığında idi. Üçkilsə (Eçmiədzin) və Qəmərlidə olan ilk döyüşlərdə Çiçianov üstünlük qazandı. İrəvan şəhərini mühasirəyə aldı. Gənc oğlunun (Mirzə Adıgözəl bəy Abbas Mirzəni bu zaman «kiçik bir uşaq» adlandırır) uğursuzluğunu eşidən Fətəli şah özü də buraya gəldi. İkiqat çevrə yarandı: ruslar İrəvanı, iranlılar isə rusları arxadan mühasirəyə aldı. Bütün giriş-çıxış yolları sonuncuların özünə qapandı.

Çiçianovun ağır durumda olması dərhal onun ötəri (yerli) müttəfiqləri arasına pozuntu saldı. İlk əvvəl onunla yürüşə çıxmış gürcü knyazları döyüş yerini buraxıb qaçdılar. Ancaq qapalı yol keçidlərində İran əsgərləri onları tutub əsir etdi. Fətəli şah yanında olan çar oğlu Aleksandrı gizli tapşırıqla Tiflisə göndərdi. Qazax və Borçalı türkləri Rusiyadan üz çevirib itaətdən çıxdılar. Mirzə Adıgözəl bəy yazır: «Şəmsəddinli mahalı, Tiflis şəhəri və Nəsib bəydən başqa (Borçalı Nəsib bəy Gəncə savaşında mayor Lisaneviçin əlaltısı idi – *Red.*) bütün elat, kəndlər, hətta ***Başaçığa*** qaçan (gürcü) valizadələr də gəlib valiyə (çar oğlu Aleksandra – *Red.*) qoşuldular və üsyan etdilər». Pənbəkli türklər də belə etdilər.

Korluq çəkən qoşun üçün Çiçianov azuqə gətirməyə çalışdı. Ancaq onun göndərdiyi 150 əsgər ***Qara mayor (Montrezor*** – *Red.*) başda olmaqla üsyan etmiş pənbəklilər tərəfindən məhv edildi. Rus qoşunu içinə qızdırma-titrəmə (tropik malyariya) azarı düşdü. 1804-cü il sentyabrın 4-də Çiçianov aradan çıxıb Tiflisə döndü. Üsyan etmiş «Borçalı və sair Gürcüstan elatı» (M.Adıgözəl bəy) yenidən Rusiya təbəəliyinə keçdi.

**QARABAĞ XANLIĞININ RUSİYAYA TABE EDİLMƏSİ. KÜRƏKÇAY ANDLAŞMASI.** Gəncə xanlığı işğal edilən kimi Çiçianov Qarabağ xanlığına təzyiqi gücləndirdi. O, mayor Lisaneviçi Gəncədən birbaşa



İbrahim xanın yanına göndərib, Rusiya təbeliyinə keçməyi təklif etdi. Xan «mayora xoş cavablar verərək, onu böyük ehtiramla və hörmətlə yazılmış məktublarla yola saldı» (Mirzə Camal Cavanşir). Təbii, Gəncə faciəsi göz önündə idi.

Bu zaman Qarabağda vəziyyət olduqca mürəkkəb idi. ***Əhməd bəy Cavanşir*** yazır: «... Şuşada əyanlar bir-birinə düşmən olan iki dəstəyə bölünmüşdülər. Bu dəstələrdən biri rusların Zaqafqaziyanın işlərinə qarışmasını gözləyərək heç bir vəchlə İrana tabe olmaq istəmir, digəri isə... İran hökmdarını hər vasitə ilə razı salmağa çalışır».

Son anda Qarabağda ruslara rəğbət bəsləyən Məhəmmədhəsən ağanın dəstəsi üstün gəldi. Əhməd bəy Cavanşir burada ayrıca qeyd edir ki, «o zamankı İran sərkərdələrinin və o cümlədən şahın özünün rəyinə görə, alınmaz qala olan Şuşa şəhəri iranlılar üçün Zaqafqaziyanın açarı, ruslar üçün isə İranın qapısı hesab edilirdi». İrəvandan döndükdən sonra Fətəli şah Qarabağ xanlığını ələ gətirməyi qarşıya qoydu. Gəncə tutulduqdan sonra ruslar üçün Qarabağa yol açıq idi. Şah öz sarayında ***əmanət*** olan Əbülfət xanı beşminlik bir qoşunla «atasına yardım və kömək göstərmək adı ilə» (M.Camal Cavanşir) Qarabağa göndərdi. Tapşırdı ki, Məhəmmədhəsən ağanı və İrana qarşı olan bir neçə Qarabağ bəylərini şahın hüzuruna göndərsin. İbrahim xan şahın yardımını qəbul etməyib, oğlu Əbülfət xana ağır cavab göndərdi, Qarabağ torpağına girməyi ona qadağan etdi. Ancaq oğlu bu qadağanı pozdu. Dizaq mahalının Tuğ kəndində olan İbrahim xan və Məhəmmədhəsən ağa şah qoşununu burada qarşılayıb məğlub etdilər. Qoşunun bütün at və heyvanı ələ keçirildi, sərbazlardan çoxu öldürüldü, bir çoxu əsir düşdü.

Fətəli şah özünü sındırmayıb, qulluğunda duran üç xanı Qarabağa göndərdi. Şah «bu elçiləri mülayim və şəfqətli sözlər, möhkəm təəhhüdlər və qəliz andlarla dolu fərman ilə İbrahim xanın yanına göndərib söz verdi ki, bütün Qarabağ mahalını, şah xəzinəsinə çatmalı olan mədaxili ilə birlikdə əbədi olaraq mərhum İbrahim xan nəslinə verəcək; övladlarından iki nəfərini də Şuşa qalasına, İbrahim xanın yanına girov göndərəcəkdir» (M.Camal Cavanşir). Bu eşidilməmiş güzəşt (şahlar və çarlar adətləri üzrə Azərbaycan xanlarından oğlanlarını girov alardılar) qarşılığında Gəncə və Tiflis yolu üstündə çox önəmli yer tutan Əsgəran qalası İran qoşununa təhvil verilməli idi.

İbrahim xan şah fərmanını cavabsız buraxdı. Tiflisə elçi göndərib Çiçianovdan yardım istədi. Mayor Lisaneviç rus əsgəri bölüyü ilə Qarabağa göndərildi.

1805-ci ilin yazında Çiçianov farsları qabaqlayıb Azərbaycan xanlıqlarını tabe etmək üçün Gəncəyə gəldi. Buradan İbrahim xana məktub yazıb, Rusiya ya İran dövlətlərindən hansına tərəf olduğunu açıq bildirməyi

ötkəmliklə tələb etdi. Yazdı ki, bu iki yoldan «sizə yalnız yaxşısını seçmək qalır». Onun anlayışında «yaxşı yol» Rusiya idi. Söz yox, səksəni haqlamış Qarabağ xanı ömründə belə bir kəskin seytnotla üz-üzə gəlməmişdi.

Çiçianov Gəncənin gündoğarında, Kürək çayı üzərində düşərgə salmışdı. İbrahim xan oğlanları Məhəmmədhəsən ağa, Mehdiqulu ağa, Xanlar ağa və Qarabağın başqa əyanları ilə birlikdə buraya gəldi. Adam göndərib kürəkəni, Şəki hakimi ***Səlim xanı*** da əyanları ilə «böyük sərdarın» yanına çağırdı. Sonra andlaşma oldu: xanlar «Andlı öhdəlik» («Клятвенное обещание») adlanan müqaviləyə möhürlərini basdılar, Çiçianov isə qol qoydu. 1805-ci il 14 may Kürəkçay andlaşması 11 maddədən ibarət idi. Qarabağ xanı Rusiya çarının vassalı olmağına razılıq verir (maddə 1), müstəqil xarici siyasət hüququndan çarın xeyrinə imtina edir (maddə 4), çar xəzinəsinə hər il 8000 çervon bac verməyi öhdəsinə götürürdü (maddə 8). Rusiya dövləti də üzərinə müəyyən təəhhüdlər götürür, daxili idarəetmə ilə bağlı hakimiyyət işlərinin xanın öhdəsində qalacağına söz verilirdi. Rusiya çarı özünün və vəliəhdlərinin adından «zati-alilərinin (İbrahim xanın – *Red.*) və onun varislərinin ***ölkəsinin*** (Qarabağ xanlığının – *Red.*) ***bütövlüyünün saxlanılmasına*** öz imperator zəmanətini verir» (maddə 2); söz verirdi ki, xanın varis və arxasının «Qarabağ xanlığı üzərində hakimiyyəti dəyişilməz saxlanılacaq», daxili idarəetmə ilə bağlı hakimiyyət işləri, məhkəmə və divanxana, ölkədən yığılan gəlir «zati-alilərinin (xanın – *Red.*) səlahiyyətində qalacaqdır» (maddə 5). Lakin bu, xanlığın daxili idarəçiliyinin olduğu kimi saxlanılması, bir çar vassalı kimi xana tam daxili siyasi muxtariyyət verilməsi demək deyildi. Çünki general-leytenant (oğlanları Məhəmmədhəsən və Mediqulu – general-mayor, kiçik oğlu Xanlar isə polkovnik) rütbəsi alan Qarabağ xanı artıq Qafqaz komandanlığının əmrlərini də yerinə yetirməli idi. Bununla yanaşı, mayor Lisaneviç başda olmaqla 500 rus əsgərinin qalaya bitişik Xanbağı adlanan yerdə yerləşdirilməsi də xanın davranışına hüdud qoyurdu.

**ŞƏKİ XANLIĞININ RUSİYA TABELİYİNƏ KEÇMƏSİ.** Çiçianov əski Şəki hakimi Məhəmmədhəsən xana çox inamsız yanaşırdı. Gəncənin tabe etdirilməsindən altı gün sonra (9 yanvar 1804) o, Məhəmmədhəsən xana təhqirlə dolu bir məktub göndərdi. Xanı milçək, öz dövlətini isə qartal adlandıran Çiçianov burada yazırdı: «Əmin ol, mənim yalnız bir buyruğum yetər və onda Nuxa xanlığı da Gəncə xanlığı kimi yox olacaq». Ancaq bu xanın yerinə göz dikmiş olan Səlim xanın da başına «ağıl qoyurdu». Səlim xan xanlığın ona verilməsi barədə Çiçianovun and içib söz verməsini xahiş etmişdi. Baş komandan bu məktuba cavab verməmiş, onun yerinə polkovnik Karyagin xana belə bir öyüd vermişdi: «ona (Çiçianova – *Red.*) çoxmu gərəkdir siz Nuxada xan olasız? Axı, gerçəyi budur ki, mərmi və güllə



altında o, hər hansı bir xanı oynamağa məcbur edə bilər; siz əgər Nuxa xanlığına bərpa olunmaq istəyirsinizsə, fars bicliyi ilə möhürsüz axmaq məktublar yazmalı deyil, onun (Çiçianovun – *Red.*) çağırışı ilə Tiflisə yanına gəlib rica etməlisiniz...

Dolğun siyasi dərslərdən sonra xanlığa çıxarılan Səlim xan, təbii, İbrahim xanın «köməyilə mərkəzi hökumətə (Rusiyaya – *Red.*) arxalanırdı» (M.Adıgözəl bəy).

Şəki xanlığı əslində Qarabağ xanlığı ilə bir gündə, Kürəkçay görüşlərində tabe edildi. M.Adıgözəl bəy də, M.Camal Cavanşir də bunun belə olduğunu yazırlar: «Kürəkçayın qırağında bir neçə gün bayram, şənlik və qonaqlıq oldu. Sonra traktat və əhdnamə yazıldı. İbrahim xan və Şəki hakimi Səlim xan ona möhür basdılar, böyük sərdar (Çiçianov) isə qol çəkdi». Ancaq siyasətçilik işlədərək, Şəki xanlığı haqqında andlaşmanın tarixi bir həftə sonraya çəkildi: 21 may 1805-ci il. Hər iki andlaşma bir-birinə əkiztayı qədər bənzəyişli idi. Şərtləri də eyni. Səlim xan da bir gündə rus ordusunun general-leytenantı oldu, çara baş komandanın vasitəçiliyi ilə ərizə yazıldı. «Dörd aydan sonra (hər iki xana) bu iltifat və daimi məvacibli dərəcələrin verilməsi haqqında fərman gəlib çatdı» (M.Camal Cavanşir). Şəki xanlığına da 500 rus əsgəri göndərildi. Rus qoşunu üçün ayrıca bir qala ğikilməsi nəzərdə tutulurdu. (Ancaq bu qala tikilmədiyindən memarlıq incisi olan Şəki xan sarayı kazarmaya çevrilmişdi). Yalnız bir fərq vardı. Bu xanlıq üzərinə qoyulan bac ödənişi 7000 çervon idi.

**RUSİYA-İRAN MÜHARİBƏSİNİN 1805-Cİ İL DÖYÜŞLƏRİ.** 1805-ci ilin yazında şah hökuməti rusların irəliləyişini saxlamaq və onları Quzey Azərbaycandan vurub çıxarmaq istəyirdi.

İyun ayının birinci yarısında Abbas Mirzə on min əsgər ilə Qarabağ üzərinə hərəkətə başladı. Arazın suyu qalxdığı üçün ***Xudafərin*** körpüsündən keçərək, Cəbrayıl bağları yaxınlığında Məhəmmədhəsən ağanın Qarabağ qoşunu və mayor Lisaneviçin yeger alayı üzərində üstünlük qazandı. Sonuncular Şuşa qalasına sığınmalı oldular. Qızılbaş ordusu iki qola ayrıldı. Biri Şuşanın dörd ağaclığında ***Ağoğlanı*** tutdu, o biri yarısı ***Əsgəran, Şahbulağı*** qalalarını tutdu.

Baş komandan bir alayı onlara qarşı çıxardı. On bir günlük davada qoşunun yarısı qırıldı, polkovnik Karyagin və podpolkovnik ***Kotlyarevski*** yaralandılar. Rus qoşunu ***Şahbulağı*** alsa da, Gəncəyə çəkilməli oldu.

Fətəli şah da qalan İran ordusu ilə Ağoğlana gəlmişdi. Ancaq Xəzər dənizi ilə Talış və Rəşt vilayətlərinə rus qoşunu çıxarılması barədə xəbər alan kimi geriyə dönüb Ərdəbilə getdi.

Baş komandan Çiçianov isə bu zaman qoşunla Tiflisdən Azərbaycana yollandı. Bunu eşidən Abbas Mirzə onunla qarşılaşmadan, öz növbə-

sində Tiflis üzərinə yol aldı, Çiçianovun orada olmamasından faydalanmaq istədi. Amma ***Zəyəm*** yaxınlığında onun ardınca gələn Karyaginə üstün gələ bilmədi. İran qoşunu burada böyük itki verib, Qazax sultanlığına soxuldu. Abbas Mirzə, ayrıca bir fərman və çar oğlu gürcü Aleksandrın vasitəsilə qazaxlılardan onun tərəfinə keçməyi, Tiflis üzərinə yürüşdə ona yardımçı olmağı tələb etdi. Qazaxlılar isə bu zaman artıq Rusiya komandanlığına sadiq qalmağa söz vermişdilər. Onlar ***Əli ağa Avçı oğlu*** adlı bir bəyi Abbas Mirzə və Aleksandrın yanına guya danışıq üçün göndərib vaxtı uzatdılar. Qazağın dinc əhalisini Sənain və Əhlatda erməni monastırlarına köçürüb, rus komandanlığından yardım istədilər və yalnız bundan sonra Abbas Mirzənin sözünü rədd etdiklərini bildirdilər. İran qoşunu yuxarı yol ilə Qazağa yetişdikdə hazırlıq görmüş yerli qoşun çəkinmədən onunla döyüşə girdi. Fars tarixçisi ***Mirzə Feyzullahın*** yazmasına görə: «Qazax əhli onların (İran qoşunlarının – *Red.*) İrəvana sarı gedişinə müqavimət göstərdi. Demək olar hər fərsəxdə, bunların isə İrəvan düzənliyinin başlanğıcına kimi cəmi sayı 18-dir, qazaxlılar pusqular qurur və o dərəcədə qorxu bilmirdilər ki, şahzadə Abbas Mirzəyə güllə atmışdılar».

Döyüşlərdən sonra Qazax hakimi rus komandanlığına ayrıca raport göndərdi. Qafqaz Arxeoqrafiya Komissiyası aktlarının II cildində çap edilmiş (N 1118) bu yazıda deyilirdi: «Biz bütün qoşunları toplayaraq, öz piyada və atlı (döyüşçülərimizlə) onların üzərinə getdik, ... onları əzərək üzərlərində zəfər qazandıq, ... bir çoxunu öldürdük, falkonet, silah və barıtlarını, güllə, yeyim ehtiyatını və başqa şeyləri, çoxlu at, qatır və dəvələrini əllərindən aldıq».

İran ordusunun Tiflis yürüşü Zəyəm və Qazax döyüşləri ilə pozuldu. Abbas Mirzə Dilican dərəsi ilə çıxıb-getməli oldu. 1805-ci ilin yaz-yay döyüşləri Qarabağ-Gəncə-Qazax bölgələrində təsərrüfata böyük ziyan vurdu, əkin-biçin işləri, məhsul yığımı pozuldu.

**ŞİRVAN XANLIĞININ TABE EDİLMƏSİ.** Fətəli şah çıxıb getmiş olsa da, Çiçianov Qarabağda ***Honaşen*** və Şuşaya kimi irəlilədi. İbrahim xanın yanına göndərilmiş üç İran elçisini özü ilə götürüb, buradan «böyük hörmət və razılıqla» Tiflisə getdi. Yeni yürüş hazırlığına son verib 1805-ci ilin noyabrında ***Mingəçevir*** yaxınlığında Kürü keçdi, «Şirvan, Bakı, Quba və Dərbəndi tutmaq üçün Şəkiyə tərəf hərəkət etdi» (M.Camal Cavanşir). Bu zaman onun əli altında 10 topu olan 1500 piyada və bundan az olmayan atlı qoşun var idi. Şirvan torpağına girdikdən sonra Çiçianovun tələbi ilə 1500 Qarabağ atlısı da general-mayor Mehdiqulu ağanın başçılığı ilə bu qoşuna qoşuldu.

Çiçianov bu yürüşü çox vacib sayırdı. İrəvan və Meqreli tutmaq, bütün Transqafqazda bərkimək üçün Şamaxı-Bakı-Dərbənd yollarını ələ



keçirmək, bununla da Rusiyaya çıxış açmaq onun başlıca istəyi idi. M.Adıgözəl bəy də bunu yazır: «Onun əsas fikiri bu idi ki, iki dəniz arasında sahə əldə edilsin və hər iki dənizdən xalqın gediş-gəlişi təmin edilsin». Bununla bağlı Qara dənizə doğru qoşun göndərsə də, Xəzər dənizi üzərinə çıxmağı başlıca iş sayırdı. Yürüşə çıxmazdan qabaq (oktyabrın 29-da) general-mayor ***P.D.Nesvetayevə*** yeni qoşun verməkdən boyun qaçıraraq yazırdı: «... Mən onları (qoşunları – *Red.*) Şirvan xanını və Bakını qorxu altında tutmaq üçün burada saxlamışam... əgər Bakı alınsa və Şirvan əyaləti traktat ilə Rusiya təbəəliyinə keçsə, mən elə bu qış bircə Sevastopol alayı və 200 yegerlə... İrəvan üzərinə gedəcəyəm: indi isə, görünür Bakı üzərinə getmək gərək olacaq».

Şirvan hakimi Mustafa xan yola gəlmək istəmirdi. Köləlik gətirən «dəmir geyimli alayları» öyməkdən yorulmayan o zamankı tarixçimiz yazır: «Şirvanlı Mustafa xanın ölkəsi, zəfər nişanəsi rus qoşunlarının yolu üstündə idi. Buna baxmayaraq o, böyük dövlətin itaətini qəbul etməkdən boyun qaçırdı. Düşmənçilikdən dəm vurub ədavət yolunda sabitqədəm durdu. Cənab sərdar (Çiçianov) onu cəzalandırmağı və qəflət yuxusundan oyatmağı lazım bildi» (M.Adıgözəl bəy).

Mustafa xan yaxın adamlarını, «öz elat və təbəələrini» yığıb qoşunla Lahıc yaxınlığındakı ***Fit dağına*** çəkildi. Möhkəm sığınacaq olan bu dağda səngər qurub düşərgə saldı. Bir neçə kiçik çarpışmalar sayılmazsa, iş davasız-savaşsız başa çatdı. Mustafa xan Rusiya komandanlığının tələblərini qəbul etdi. Amma rus ordusu düşərgəsinə gəlməkdən boyun qaçırdığı üçün, andlaşma bu düşərgə ilə Fit dağı arasında, düzənlikdə dekabrın 27-də imzalandı. Kürəkçay andlaşmasının bəndləri burada da təkrar edildi: Şirvan xanlığı başqa dövlətlərlə əlaqə saxlamaq hüququndan imtina edir, öz xəzinə gəlirindən 8 min çervon Rusiyaya bac verməyi, rus ordusunun ərzağını ödəməyi və Şirvandan keçən yollarda əmin-amanlıq yaratmağı öhdəsinə götürürdü. Rus qoşunlarının Şamaxıda yerləşdirilməsinə Mustafa xan razılıq vermədi. Bunun qarşılığında Cavad həndəvərində, Kür çayının ağzına yaxın yerdə rus komandanlığına qala tikmək hüququ verilirdi. Halbuki danışıqlar zamanı xan, Cavad bölgəsinin Şirvanın tərkibində saxlanılmasını, heç bir zaman Qarabağ xanlığına verilməməsini tələb edirdi.

**BAKI YÜRÜŞÜ. ÇİÇİANOVUN SONU.** Bakının tutulması ilk zaman Xəzər dənizinə girmiş rus donanmasına tapşırılmış idi. Bu donanma 1805-ci ilin yayında Gilanın ***Ənzəli*** və ***Pəribazar*** məntəqələrini ələ keçirdi. Ancaq Rəşti götürə bilmədi. Fətəli şahın Qarabağdan buraya yaxınlaşması İran döyüşçülərinin müqavimət əzmini artırdı. Rus donanmasının komandanı general-mayor ***Zavalişin*** buradan Bakıya yollandı. Avqustun 15-də

Bakı şəhəri dənizdən çox kəskin top atəşinə tutuldu. Gəmilərdən quruya çıxarılan desant qoşunu qalanı çevrəyə alıb yaxın məntəqələri ələ keçirsə də, Bakı təslim olmadı. Bakı müdafiəçilərinin igidliyi, Qubalı Şeyxəli xanın qoşunla köməyə gəlməsi Zavalişini donanma ilə ***Saray (Sara)*** adasına çəkilməyə məcbur etdi.

Çiçianovun Şirvan xanlığı ilə işi başa vurmağa tələsməsi bununla bağlı idi. 1806-cı ilin yanvarında o, Bakıya yetişdi. Xəzərdə indiyə kimi uğursuz vurnuxan Zavalişin donanması da yenidən buraya gəlib Çiçianovun buyruğu altına keçdi. Yubanmadan Bakının verilməsi barədə özünün hazırladığı müqavilə şərtlərini ***Hüseynqulu xana*** göndərdi. Bu layihədə çox ağır şərtlər irəli sürülürdü: Bakının bütün gəliri Rusiya xəzinəsinə verilməli, xan yalnız Rusiyanın onun üçün ayırdığı aylıqla keçinməli, Bakı şəhəri rusların yaratdığı ayrıca idarə altına keçməli, qalada 1000-ə yaxın rus əsgəri və topları yerləşdirilməli idi. Hüseynqulu xan şərtləri qəbul edəcəyini bildirdi.

Görüş Qoşa qala qapısı yaxınlığında fevralın 8-də oldu. Qala açarları Çiçianova verilərkən o, xanın xalası oğlu ***İbrahim bəyin*** tapança atəşi ilə öldürüldü. «Rus qoşunları quru yol ilə qayıtmaqdan çəkindilər. Gəmilərə oturub Hacı Tərxana getdilər» (M.Adıgözəl bəy). Rus tarixçisi ***A.V.Fadeyev*** yazır: «on il irəli o (Çiçianov – *Red.*), bu qalanın komendantı olmuşdu. İndi buraya «sərdar – çarın canişini kimi gəlmişdi, yenicə işğal edilmiş geniş bir ölkənin hakimliyi bütünlüklə ona verilmişdi. Şöhrətsevər, alçaq yaltaqlıq düşkünü olan Çiçianov, özünü hər şeyə gücü çatan bir satrap kimi tutur, qarşısında qul kimi duran yerli feodallar ilə dikbaş və saymazyana davranırdı».

Fit dağında gizlənən Mustafa xan yazışmasının birində ona bildirmişdi: «bu cür gəzməkdən (yəni yürüşlərdən – *Red.*) sizə və xoşbəxt vücudunuza ziyan toxunar». Çiçianovun cavabı da tutarlı idi: «... əzəmətli və cəlallı olan dünya padşahının (çar Aleksandrın – *Red.*) mənim kimi milyonlarca soldatı vardır. Əgər mən yox olsam, onun (yalnız) bir soldatı əksik olar».

Bu yazışmanın hər ikisi özünü doğrultmuş oldu. Çiçianov öz amansızlığı ilə ölüm hökmü qazanmışdı. Ancaq onun öldürülməsi Bakının tutulmasını yalnız geriyə çəkdi. M.Camal Cavanşir haqlıdır: bir çoxları «Rusiya dövlətinin qayda-qanunlarından xəbərdar deyildilər. Fikirləri İrana gedirdi. Çünki orada belə bir böyük sərdar vəfat etsə idi, qoşunun və vilayətin işlərində böyük pozğunluq əmələ gələrdi». Ruslarda belə olmadı. Keçici bir çaşqınlıq zamanı «sərdarlıq» Tiflisdə general Nesvetayevə tapşırıldı. Artıq iyun ayında general-feldmarşal İ.V.Qudoviç Qafqaza baş komandan göndərildi. Bu zaman Rusiya-İran müharibəsi yeni bir mərhələyə keçmədə idi.



**1806-cı İL QARABAĞ DÖYÜŞLƏRİ. İBRAHİM XANIN ÖLDÜRÜLMƏSİ.** 1806-cı ilin yazında Abbas Mirzə 20 minlik qoşunla yenidən Qarabağ xanlığına soxuldu. Qızılbaş qoşunu Şuşa qalasının iki ağaclığına çatmışdı.

Bu zaman Qarabağ xanlığında siyasi vəziyyət çox gərgin idi. Bunun başlıca səbəbi İran basqınlarına qarşı qoyulacaq əsgəri qüvvələrin az olması idi. Rusiya isə burada yalnız bir batalyon və bir neçə yüz də yeger atlısı saxlayırdı. O biri yandan xanın böyük oğlu Məhəmmədhəsən ağanın ölümü ilə siyasi çəkişmələr güclənmişdi. Kürəkçay andlaşmasına görə İbrahim xanın varisi o olmalı idi. İbrahim xan imperator Aleksandrın adına yeni təqdimat verməli oldu: «varislik və vəliəhdlik kağızı yazıb və möhür eləyib və tamam Qarabağ bəylərinin və əyan və əşxasın möhürü üstündə» (Mirmehdi Xəzani) oğlu Mehdiqulu ağanı ***(Xurşud Banu Bəyimin*** atası) xanlığa irəli sürmüşdü. Bununla bağlı, Qarabağ bəylərindən polkovnik ***Cəfərqulu ağanı*** (xanın nəvəsi, Məhəmmədhəsən ağanın oğlu) xanlığa çıxarmaq istəyənlər kəskin müxalifətə girmişdilər. Pozuculuq işi getdikcə genişlənirdi. Xanın bir oğlu (Əbülfət bəy) qızılbaş qoşununda Rusiyaya qarşı vuruşmaqda idi. Qızılbaşların yeni yürüşü başlanan kimi onun əmisi oğlu ***Mirzə Əli bəy*** gizli adam göndərib, «sərdari-ə'zəm» Çiçianovun Gəncədə zaval (girov) saxladığı oğlu ***Behbud bəy*** və qardaşı oğlu ***Feyzi bəylə*** qaçıb İrana keçdi. Bundan sonra bu axın gücləndi. M.Xəzani yazır: «Qarabağın şöylə ümdə bəyləri dəxi Qızılbaşa getdilər».

İbrahim xan belə bir vəziyyətdə ən çox «dəli mayor» adlanan, Cavad xanın qatili Lisaneviçdən ehtiyat edirdi. Çiçianovun ölümündən sonra o, sədrdarlıq yerini tutan general Nesvetayevə məktublar yazıb yanına elçilər göndərdi. Bütün Qarabağ tarixçiləri xanın rus komandanlığında bununla xatircəmlik yaratmaq istədiyini, onun «hər bir iş barəsində» mayorla məsləhətləşdiyini bildirirlər. Amma hamısı boş yerə.

Bu zaman İbrahim xan ailəsini Xanbağındakı evindən qalanın iki verstliyinə köçürdü. «Dələduzlar» (M.Camal), «şeytan və bədxah adamlar» (M.Xəzani), «bir para fitnəkar adamlar» (Rzaqulu bəy) mayora xanın xəyanət etdiyini söylədilər. Bunların içində «Miraxur adlı bir gürcü böyüyünün» (M.Xəzani) olması sui-qəsd ip ucunun uzaqlara getdiyini göstərməkdədir. Xanın təkcə taxtına deyil, varına da göz dikənlər çox idi.

Lisaneviç 200 rus əsgəri ilə qaladan çıxıb xanın evi üstünə gəldi.

**BÖYÜK FACİƏ MİRMEHDİ XƏZANİ YAZISINDA.** «Xəlvət xanın mənzilinə yavuq olub mülahizə edirlər ki, görələr nə qədər cəmiyyət var və nə işlədirlər. Baxıb görüblər ki, tamamən rahat və fərağət yatıblar. Bir əlavə qoşun və biganə adam da yoxdur. Orada mayor gəlməkdə dəxi peşiman olub, xan bidar olub rus qoşununun orada gəlməyindən xəbərdar

olub, acıqlanıb, səslənib mayora ki, bu nə qismi gəlməkdir ki, bu gecə vaxtında övrət və uşağı qorxudursan. Bu əhvalat xanın yanında olan adamların içinə inqilab və vahimə düşüb, sərasimə yerindən qalxan hər kəs bir tərəfə qaçmağa başlayıblar. Əz qəza o ki, müqəddər olmuşdur, olacaqdır. Bu əsnada mayor əmr eyləyib, soldatlar atəş açıblar. Tökülüb elə düşəni qətlə yetiriblər. Qalan adamlar qaçıb xilas olub, xanın evini tarac etmişlər. Xana əvvəl bir güllə dəyib, yıxıb, bir övrəti ki, Səlim xan Şəkilinin bacıcı idi və bir Nəcibə qızı ki, Bikə ağadan olmuşdu və bir oğlu ki, Göhər ağanın anasından olmuşdu, bir nəcib oğlan idi. On üç yaşında orada qətlə yetişib, övrəti və qızı yaralı qalaya gəlib, qalada mərhum oldular. Onlardan əlavə 17 nəfər bəy və bəyzadə və mirzə və nökər qətlə yetişmişlər ki, adları bu təfsil ilədir:

İbrahim xan özü, Tubu bəyim – Şəkili Hüseyn xanın qızı, Hərəmi xan, Səltənət bəyim – səbiyeyi xan, Abbasqulu ağa – Fərzəndi xan, Hacı Hüseynəli bəy Kəbirli, Mirzə Haqverdi Kəbirli, (qərvəndli) Hümmət bəy Cavanşir, Həsənağa Gülməli bəy (oğlu) Sarıcalı (Cavanşir), Mirzətağı Afşar, Əlipənah – pişxidmət, Hacı Həsən Əcəm oğlu Kəbirli, onun iki oğlu, başqa iki nəfər (Şelliden – *Red.*), birinin adı Teymur, iki nəfər də Şuşalı».*

Bu soyuqqanlı qırğın üçün heç bir səbəb yox idi. Hətta Rusiyada çıxan «Oteçestvennıe zapiski» toplusu (1828, № 93) 80 yaşlı İbrahim xanın 52 il boyunca Qarabağ xanlığının müstəqilliyini qorumasını xatırladaraq yazırdı: «Farsların çox çalışmasına baxmayaraq, bütün Azərbaycanda onların hökmünə tabe olmayan yalnız təkcə Şuşalı İbrahim xan qalırdı».

**MEHDİQULU XANIN «HÖKUMƏTƏ» GƏTİRİLMƏSİ.** Mehdiqulu xan, sair xanlar, dövlət adamları işdən xəbərsiz qalada idilər. Lisaneviç bir şey olmayıbmış kimi tezdən qala xalqını dövlət divanxanası qarşısına yığıb, Mehdiqulu ağanı xanlığa «mənsub eylədi». Bir para başqa göstərişlər də verdi. Kürəkçay andlaşmasının quru bir kağıza çevrilməsi göz önündə idi: Rusiya çarının təntənə ilə general-leytenant və general-mayor etdiyi yerli xanların bütün taleyi bir «dəli mayorun» əlində idi.

M.Xəzaninin yazdığına görə Mehdiqulu xan baş vermiş vəhşəti Qarabağ əhlinə təliqələr ilə bildirdi, «fərağat olmağa hökm eylədi, hamılara təsəlli və xatircəmlik verdi». ***Həsən İxta*** hamı üçün gözlənilməz olan bu hadisədən şuşalıların və bütün Qarabağ əhlinin həyəcana gəldiyini yazır. Mehdiqulu xan hökumətin müqəssirlərə cəza verəcəyini bildirərək, xalqı sakitləşdirdi. Ancaq xalqın şikayətləri cavabsız qaldı.

---

* Sadalama bütöv deyildir. Razaqulu bəy Mirzə Camal oğlunun yazısında 20 adamın sayı verilmişdir – *Red.*



Qətldən on beş gün keçməmiş general ***Nebolsin*** qoşun ilə gəlib Əsgəran yanında düşərgə saldı. Mehdiqulu xan Qarabağ atlıları ilə gəlib rus qoşununa qovuşdu. Şuşa Lisaneviçin əlində qaldı. İyulun 15-də ***Honaşen*** yanında yeddi saat sürən böyük dava oldu. Mehdiqulu xanın köməyi vaxtında yetişdi. Qızılbaş qoşunu çoxlu itki verib məğlub oldu. Abbas Mirzə qoşunla o taya qaçdı. Ruslar otuza kimi əsgər və zabit itirdilər.

Davadan sonra «tərəflər» Şuşada Lisaneviçin «haqsız» işi üzərinə döndülər. Mehdiqulu xan, atasının «təmam evi və əcnasının qarət olunduğunu» da xatırladaraq, Lisaneviçin buradan uzaqlaşdırılmasını tələb etdi. Nebolsin Honaşen vuruşmasında yaralanan ***P.Kotlyarevskini*** Şuşa batalyonuna başçı qoydu.

Lisaneviç isə ***Cəfərqulu ağa*** ilə Ordubad-Naxçıvan səmtinə zorla aparılan Qarabağ ellərinin ardınca düşdü. Rus əsgərləri piyada olmalarına görə geri qaldılar. Cəfərqulu ağa Qarabağ atlıları ilə Zəngəzurda Əbülfət xanla olan qızılbaş qoşununa çatdı. Onu əzib Qarabağdan köçürülənləri yurdlarına qaytardı.

Lisaneviçin dəyişdirilməsi siyasi çəkişməni daha da alovlandırdı. Kotlyarevski (Azərbaycanda iki ləqəb qazanmışdı: «Sarı mayor» və «Ağzıpara») onunla yaxın dost idi. Hər ikisi birləşib Cəfərqulu ağanı xana qarşı qoydular. Qafqaza yeni sərdar göndərilən qraf Qudoviç Tiflisə hələ yetişməmiş Mehdiqulu xana kağız yazıb bildirdi ki, çar Aleksandr onu «Qarabağın əyalət və hökumətinə mənsub edibdir» (M.Xəzani). Lisaneviç – Kotlyarevski tandemi «imperaturi-ə'zəm»in yazılı buyruğunu dəyişdirməyə çalışdılar. Onların öyrətməsi ilə Cəfərqulu ağa tələsik Tiflisə gəldi, amma Qudoviç onun xanlıq istəyini qətiyyətlə rədd etdi. Yalnız bir ay sonra Qarabağın bəy, əyan və yüzbaşılarının böyük bir heyəti ilə Tiflisə gələn Mehdiqulu xan «hökumətə» çıxanlmaq barədə qızıla bəzənmiş «fərmani-hümayun» aldı (13 sentyabr 1806-cı il).

Cəfərqulu ağa mərhum atası Məhəmmədhəsən ağanın 36 tiul kəndinin bütün rəiyyəti ilə tam ixtiyarına verilməsini, yəni mülkə çevrilməsini tələb etdi. Qudoviç bildirdi k, «bir vilayətdə iki hökm ola bilməz», yüksək ixtiyar hüququ (torpağın irsən keçməsi, təqsir-cəza və tövcü məsələləri) xanda qalmalıdır. Xan isə, Cəfərqulu ağa itaət və qulluqdan boyun qaçırdığı üçün Qudoviçin «dil cavabı» xahişini də rədd etdi: «Şimdi ki, razı olmadı, mən də verməyənəm». Mehdiqulu xanın təhriki ilə Cəfərqulu ağanın Qarabağdan uzaqlaşdırılmasına qərar verildi, «dövlət başçıları onu Tiflisdən Rusiyaya çağırdılar». Ancaq Tərtər çayı körpüsündə Cəfərqulu ağa, onun atının tərkinə minmiş, mühafizə başçısı rus kapitanını yerə itələyib qurtuldu. Qardaşı ***Xancan bəylə*** Arazın o tayına keçdi. «Mehdiqulu xanın küdurəti səbəb oldu ki, onlar hər ikisi fərari olub Qızılbaşa getdilər» (M.Xəzani). Tezliklə Cəbrayıl bəyləri (Cəfərqulu ağanın nənəsi bunlardan

idi), bir çox yerlərin əhalisi də onun ardınca getdilər. Adı çəkilən tarixçiyə görə, «Arazdan Goran çayınadək Qarabağın torpağı xali qaldı». Ancaq qaçqınlıq uzun sürmədi. Bir ildən sonra tərəflər arasında barışıq oldu. Qaçqınlar qayıdıb Qarabağa gəldilər.

**BAKI VƏ QUBA XANLIQLARININ TUTULMASI. İLK İDARƏÇİLİK TƏDBİRLƏRİ.** Qarabağ əyaləti ilə yanaşı İran ordusu daha iki istiqamətdə hərəkət edirdi. İkinci bir qoşun birləşməsi Mil düzündən keçərək Şirvan və Şəki bölgələrini, üçüncüsü isə Bakı, Quba və Dərbəndi ələ keçirməli idi. Üçüncü savaş yönümü İran üçün çox gərəkli sayılırdı. Çiçianovun ölümündən sonra bu bölgələrdə durum İranın xeyrinə dəyişmişdi. Rus qoşunu hətta gəldiyi quru yol ilə geriyə dönmək imkanını itirmişdi. Buna görə Çiçianovun gətirdiyi qoşunu ***Zavalişin*** hərb gəmilərinə oturdub Həştərxana aparmışdı.

Ancaq çaşqınlıq çox da uzun sürmədi. Çarın Qafqaz komandanlığı İran qoşunlarının əl-qol açmasına burada da imkan verməməyə çalışdı. Artıq iyunun ilk günlərində üç min əsgəri (bunun yarısı nizami atlı qoşun idi) birləşmə 9 topla Quzey Qafqazdan Dərbənd üzərinə yollandı. Tarku şamxalının qoşunu da yolda bu birləşməyə qatıldı. Ruslar ciddi bir müqavimət ilə qarşılaşmadan Dərbəndi iyunun 22-də ələ keçirdilər. Amma burada çox ləngidilər. Bakının İran qoşunları tərəfindən tutulması qorxusu yarandı. Buna yol verməmək üçün rus birləşməsi Dərbənddən buraya yola düşdü. General ***Qlazenapı*** əvəz edən general ***Bulqakov*** Quba məsələsini sonraya saxladı. Hüseynqulu xanın İrana qaçması 1806-cı ilin sentyabrında Bakının da müqavimətsiz ələ keçməsi ilə qurtardı. Bulqakov buradan Qubaya döndü. Şeyxəli xanın dağlara qaçması üzündən buranı da döyüşsüz alıb Rusiyaya qatdı.

Azərbaycanın Gürcüstana yaxın bölgələrində ruslar daha kəskin müqavimətlə üz-üzə gəldilər. Şuşada damadı İbrahim xan və bacısı Tubu xanımın başına gətirilən müsibətdən sonra Şəki hakimi Səlim xan xalqı üsyana qaldırıb rus qoşununu buradan qovdu. Ancaq Dərbənd, Bakı və Qubanın tutulmasından sonra üstünlük bütünlüklə Rus komandanlığında idi. Oktyabrın 22-də Şəkiyə göndərilən çar qoşunu Səlim xanın bölüklərini əzib uğur qazandı. Üsyan etmiş şəkililər bundan sonra da qalanı vermədilər. Onlar bir neçə yerdə qala divarlarının altına alışqan və partlayıcı maddə qoydular. Rusiya qala üzərinə yeridikdə onları od vurub yandırdılar. Bu da kömək etmədi, qala alındı. Səlim xan da İrana qaçdı. Çar qoşunu buradan üsyan etmiş Car-Balakən bölgəsinə yollandı. Üsyançıları mühasirəyə alıb təslim etdirdi. Carlılar bir daha tam təslim olduqlarını bildirərək, Rusiyaya ödənilməmiş qalan 6,2 min çervon vergi borcunu ödəməyə məcbur edildilər.



Şah hökuməti Qarabağdan fərqli olaraq, bu bölgələrdə çar qoşunları ilə gedən mübarizəyə azacıq da olsa qatışa bilmədi. İran qoşunları yalnız Ağsuya kimi irəliləyə bildi. Şirvan hakimi Mustafa xan onlara qoşulub yardım etməkdən boyun qaçırdı.

1806-cı il döyüşləri Rusiya üçün asan olmasa da, qazancı böyük oldu. Quzey Azərbaycanın başlıca bölgələri rus qoşunlarının əlinə keçdi. Bölgələrin çoxunda «Rusiya-İran savaşı» getmirdi. Gəncədə olduğu kimi, çar qoşunları Şəkidə, Car-Balakəndə, Bakıda, Qubada və Dərbənddə İran ordusu ilə deyil, Azərbaycan əhalisi ilə, onun bu və ya başqa şəkildə özünü göstərən müqaviməti ilə qarşılaşırdı.

Yerlərdə xalqın müqavimət hərəkatı ilə bağlı olaraq çarlıq Rusiyası ilkin idarəçilik tədbirləri həyata keçirməyə başladı. Çiçianov «hikkəsi» Qudoviç «yumşaqlığı» ilə əvəz edildi. Qarabağ xanlığı kimi Şəki xanlığı da ləğv edilmədi. Amma burda Səlim xanın hakimliyi ləğv edildi. Onun yerinə Rusiyaya sədaqət göstərən ***Xoylu Cəfərqulu xan*** qoyuldu. Bakı xanlığı ləğv edilərək birbaşa Rusiyaya tabe edildi. Xan idarəsi yerinə burada Qəyyumlar şurası yaradıldı. Təbii, bu şuranın tərkibinə Rusiyaya meylli və qulluq tutmağa hazır olan bəylər daxil edilmişdi. Dərbənd və Quba xanlıqları da ləğv edilərək Rusiya əyalətlərinə çevrildilər. Onların idarəsi isə keçici olaraq, Rusiya qarşısında qulluq edən Tarku şamxalına verildi.

**İNGİLTƏRƏ-İRAN YAXINLAŞMASI. ƏSGƏRAN DANIŞIQLARI.** 1808-ci ildə ***Harford Cons*** başda olmaqla İngiltərə elçiliyi Tehrana gəldi, öz hökuməti adından Fətəli şaha böyük bir brilyant bağışladı. O, İranın Fransa ilə yaxınlığına son qoydu. 1809-cu ilin fevralında Fransa elçisi «Qardan xan» Tehranı tərk etməli oldu. Bir ay sonra İngiltərə ilə İran arasında yeni müqavilə bağlandı. İran, İngiltərəyə düşmən olan bütün dövlətlərlə (başda Fransa və Rusiya olmaqla) əlaqələri kəsməyi, İngiltərə isə şaha ildə 120 min funt sterlinq (200 min tümən) yardım etməyi, Rusiya ilə savaş üçün silah və hərbi köməkçilər verməyi öhdəsinə götürdü.

Rusiya-İran savaşı davam edirdi. Rusiya üçün İrəvan xanlığının tutulması başlıca vəzifə olaraq qalırdı. 1808-ci ilin sentyabrında Qudoviç general Nebolsinə Naxçıvanı tutmağı tapşırdı. Oktyabrın sonunda Naxçıvan tutuldu. Lakin İrəvanın mühasirəsi uğursuz oldu, rus qoşunu Naxçıvanı da tərk etməli idi. Uğursuz 1808-ci il döyüşlərindən sonra Qudoviç istefaya çıxdı, yerinə general ***Tormasov*** baş komandan gəldi.

1809-cu ildə Rusiya və İran arasında yeni toqquşmalar baş verdi. Avqustun ortalarında Abbas Mirzə Arazı keçərək Gəncə xanlığındakı ***Ağbulağa*** yaxınlaşdı. O, Gəncəni ala bilməyib İrəvana çəkildi. 1809-cu ilin sentyabrında İran qoşunu Lənkərana soxulub onu dağıtdı. Amma Qars paşalığı vasitəsilə Gürcüstana hücum istənilən nəticəni vermədi. 1810-cu ilin aprelində yenidən sülh haqqında Əsgəranda danışıqlar başlandı. Bura-

da Talış xanlığı üstündə çox kəskin diplomatiya dartışması getdi. Ruslar bir zaman Krım üçün işlətdikləri üsula əl ataraq, bu xanlığın Rusiyadan da, İrandan da asılı olmayan bir torpaq olduğunu təklif etdilər. General Tormasov öz hökumətinə bildirdi ki, İngiltərə də, Türkiyə də barışıq olmasını istəmirlər. Əsgəran danışıqları da pozuldu.

Beləliklə, 1810-cu ildə Türkiyə və İranın Rusiyaya qarşı döyüş əzmi tükənməmişdi. Həmin ilin avqustunda İran və Türkiyə arasında hərbi ittifaq yarandı. Bu ittifaq İran qoşunlarına gözə çarpacaq bir üstünlük gətirməsə də, Rusiyanın İranı təkləməsinə imkan vermədi.

**QUZEY AZƏRBAYCANDA ÇAR ORDUSUNA QARŞI ÇIXIŞLAR.** İran ordusuna dayaq və yardımçı ola biləcək daha bir amil də var idi. Bu, Azərbaycanın tabe edilmiş vilayətlərində zaman-zaman qabaran və çəkilən xalq direniş hərəkatı idi. Bu hərəkat Türkiyə və İran dövlətlərini özünə təbii müttəfiq sayırdı. Başqa bir müttəfiq tapmaq o zaman üçün mümkün də deyildi.

Hələ 1808-ci ildə direniş hərəkatı ilə bağlı olan dövlət adamı şəkili Səlim xan ona yaxın olan yerli bəylərə yazmışdı: «Allahın rəhmi ilə... müzəffər Fars ordusu bir yandan və ildırımsaçan Türkiyə qoşunu o biri yandan oraya (Şəkiyə - *Red.*) varacaq və yağı cəsədlərindən ehram qurulacaqdır...» Bu məktubu alan bəylər 500-ə qədər döyüşçü toplayıb Şəkiyə yaxınlaşdılar. Onlar Rusiya idarəçiliyini aradan götürmək istəyirdilər. Çar qoşunu bu çıxışın qarşısını vaxtında ala bildi.

Yeni üsyanlarla üz-üzə gələn çar komandanlığı Azərbaycan əhalisini həm bu çıxışlara qarşı qoymaq, həm də Rusiya-İran müharibəsinə cəlb etmək istəyirdi. Bunun üçün Rusiya qulluğunu qəbul etmiş xanlardan öz əyalətlərində əmin-amanlığı yerli qüvvələr ilə qorumaqla yanaşı, rus qoşunları üçün atlı döyüşçülər verməyi tələb edirdi. Ən çox Qarabağ, Şəki, Şirvan və Qazaxdan atlı qoşun yığılırdı.

1810-1811-ci illərdə keçmiş Gəncə xanlığına (yeni Yelizavetpol hərbi dairəsi) yaşayan ayrumlar Rusiya ağalığına qarşı çıxış etdilər. Çar hərbi məmurlarının qaba, qanunsuz davranışından cana doyan 1400 ayrum ailəsi ağır vergi ödənclərindən boyun qaçırdı. Gəncəbasardan köç edib ***Dərələyəz*** yaylağına getdi. Burada onlar Cavad xanın İrana qaçmış oğlu Uğurlu xanla görüşüb, onun himayəsində İrəvan xanlığında yerləşdilər. Ancaq İran tabeliyində olan bu xanlıqda da vergilərdən yaxa qurtara bilmədilər. General Nebolsin Borçalı Nasib sultanın vasitəsilə üsyan etmiş ayrumların yanına adamlarını göndərdi. Onların başçısı ***Dodaq Məhəmmədin*** xahişi ilə 400 rus piyadasını, Şəmşədil və Şəki atlı qoşununu «yardım» üçün yola çıxardı. Ayrumlar Rusiya tabeliyinə dönərək Şəmşədil torpağında yerləşdilər.



Bu zaman yalnız Səlim xan deyil, Qarabağ hakimi Mehdiqulu xan, Şirvan hakimi Mustafa xan və Quba hakimi Şeyxəli xan da Rusiyaya qarşı idilər. Rus ordusu generalı olmalarına baxmayaraq, onlar bu ordunun əbədi köləlik vasitəsi olduğunu artıq anlaya bilmişdilər.

1810-cu ilin avqustunda xalqın döyüş yardımına arxalanan Şeyxəli xan rus qoşun komandiri ***Leviçkini Gilgil çayı*** üzərində əzdi, ona köməyə gələn general ***Repini*** də geri oturtdu. Bu general Şeyxəli xanı tutub gətirən və ya öldürən adama 1500 çervon «mükafat» verəcəyini bildirsə də, istəyinə nail olmadı. Çünki Quba əyalətinin əhalisi üsyana qalxmışdı. Yerli bəylərin çoxunun Rusiya tabeliyindən çıxıb Şeyxəli xana qoşulduğunu baş komandanlıq özü də etiraf edirdi. Ancaq Quba üsyanının başlıca qüvvəsi silaha qurşanmış kəndlilər idi. Silahlı kəndli üsyanı Şeyxəli xan müqavimətinin dayağına çevrilmişdi. Şirvanlı Mustafa xan Qubadakı çıxışa dəyərli yardım göstərdi.

Quba üsyanı çar komandanlığını güzəştli yol tutmağa məcbur etdi. Bu komandanlıq üsyanın daha da genişlənməsindən qorxur, buna görə «Şeyxəli xanı Qubanın xanı kimi tanıyaraq, Qubanı ona mənsub olan ətraf kəndlər ilə (xanın) hakimliyinə verməyi və traktat ilə (Qarabağ, Şəki və Şirvanda olduğu kimi - *Red.*) ona Rusiya təbəəliyinə keçirməyi» təklif edirdi. Çar hökuməti bu təklifə razılıq vermədi. Çar komandanlığı üsyanı yatırmaq üçün Gəncədən bir rota, Qarabağdan iki rota, Bakıdan bir rota, rus piyadası, Şəkidən 1000 və Şirvandan 100 atlı qoşun göndərdi. Baş komandan Quba üzərinə yürüşü polkovnik Lisaneviçə tapşırdı. O, belə işlər üzrə artıq bir sınanmış «mütəxəssis» kimi ad çıxarmışdı.

Oktyabrın 4-ü və 25-də olan iki döyüşdə Şeyxəli xan məğlub oldu. Növbəti kəndli üsyanı da yatırıldı. Özü də işğalçı məram güdən İran qoşunu mənəvi baxımdan bu çıxışlara «müttəfiq» olacaq vəziyyətdə deyildi.

**SON DİPLOMATİYA ÇATIŞMALARI, SON DÖYÜŞLƏR.** Böyük Britaniya hökuməti qüvvədən düşmüş İran ilə Rusiya arasında barışığa yol verməməyə çalışırdı. 1810-cu ildə general ***Malkolm*** yenidən İrana gəlib çoxlu top və tüfəng gətirdi. 1811-ci ildə ***Quzli***, Harford Consun yerinə Tehrana böyük elçi göndərildi. O, 1809-cu il müqaviləsi üzrə nəzərdə tutulan pul yardımının yeni üçillik məbləğini (360 min funt sterlinq və ya 600 min tümən) Fətəli şaha yetirdi. Tezliklə İngiltərədən İrana 12 top, 12 min mərmi, 12 min tüfəng, 12 min əsgərin geyimi üçün mahud göndərildi.

1810-1811-ci illərdə Türkiyə ilə müharibədə Rusiyanın bəzi uğurları sülh bağlanmasını tezləşdirdi. 1812-ci il mayın 16-da ***Buxarest*** sülhü imzalandı. Türkiyənin Qafqaz sərhədləri dəyişməz qaldı. Bununla Türkiyə Transqafqaz torpaqlarının çoxunun Rusiyaya qatılmasını tanımalı olurdu.

1812-ci ilin başlanğıcında 20 minlik Abbas Mirzə ordusu yenidən Qarabağa girib Şahbulağı tutdu. General Kotlyarevski bu ordunu vurub buradan çıxardı. Həmin ilin yayında Fransanın böyük bir ordu ilə Rusiyaya soxulması İranda ruh yüksəkliyi və sevinclə qarşılandı. Artıq iyul ayında İranın atlı qoşunları Gəncəyə, sonra isə Şəkiyə basqın etdi.

Avqust ayında 10 minlik İran ordusu Talış xanlığına soxuldu. Ancaq burada da yerini bərkidə bilmədi. Ağoğlandan rus qoşunu ilə gələn Kotlyarevski oktyabrın 18-də ***Aslandüz*** üstündə Abbas Mirzəyə sarsıdıcı zərbə endirdi. Rus ordusu Talış xanlığına yönəldi. 1813-cü il yanvarın 1-də Lənkəran qalası tutuldu. Rusiyanın yeni Baş komandanı ***Rtişçev*** təşəbbüsü bütünlüklə öz əlinə aldı.

Rusiyanın 1812-ci il Vətən müharibəsində uğur qazanması İranın bütün ümidlərinə son qoydu.

**GÜLÜSTAN MÜQAVİLƏSİ.** İranın müharibəni uduzması, beynəlxalq münasibətlərin köklü dəyişilməsi sülh işini tezləşdirdi. Yaranmış şəraitdən istifadə edən İngiltərə, Rusiya-İran arasında danışıqlarda vasitəçilik etməyə nail oldu. 1813-cü il oktyabrın 12-də Qarabağda müqavilə imzalandı. «Gülüstan müqaviləsi» adlanan müqavilənin mətni budur:*

«1813-cü il oktyabrın 12-də Zeyvə çayı yaxınlığındakı Gülüstan kəndində rus ordugahında hər iki tərəfin səlahiyyətli Müvəkkilləri vasitəsilə Bütün Rusiya İmperiyası və İran Dövləti arasında bağlanmış və 1814-cü il sentyabr ayının 10-da Tiflisdə hər iki Dövlətin səlahiyyətli Müvəkkillərinin bir-biri ilə dəyişdikləri ratifikasiyalarla təsdiq edilmiş əbədi sülh və dostluq

**M Ü Q A V İ L Ə S İ**

QADİR ALLAHIN ADI İLƏ

İmperator əlahəzrətləri, bütün Rusiyanın ən şöhrətli və əzəmətli böyük hökmdarı və imperatoru və İran Dövlətinin sədri, hökmdarı Əlahəzrət Padşahın öz təbəələrinə yüksək hökmdar məhəbbətinə görə, onların ürəklərinə zidd olan savaşın fəlakətlərinə son qoymağı və qədimdən Bütün Rusiya İmperatorluğu və İran Dövləti arasında mövcud olmuş səbatlı sülh və xeyirxah qonşu dostluğunu möhkəm əsas üzərində bərpa etməyi səmimi-qəlbdən qarşılıqlı surətdə arzulayaraq, bu ədalətli və nicatverici iş üçün aşağıdakıları və səlahiyyətli Müvəkkilləri təyin etməyi faydalı bilmişlər: «Əlahəzrət Bütün Rusiya İmperatoru – öz General-leytenantı,

* Müqavilənin şərtləri I Aleksandrın «Bütün xalqa bəyanatı» ilə yalnız 1818-ci il avqustun 7-də Senatın nəzdində çap edildi. Azərbaycan tarixçiliyində mətn ilk dəfə yayınlanır – *Red.*



Gürcüstandakı və Qafqaz xəttindəki qoşunların Baş komandanı, Həştərxan və Qafqaz quberniyalarında, Gürcüstanda Mülki hissə, həmçinin bu ölkənin bütün sərhəd işləri üzrə Baş Müdiri... zati-aliləri Nikolay Rtişçevi, Əlahəzrət İran şahı isə – özünün, Türkiyə və İngiltərə Saraylarında fövqəladə elçisi olmuş, İran Rəisləri arasında seçilmiş... Məmuru, Ali İran Sarayının Gizli İşlər Müşaviri, Vəzir nəslinə mənsub olan, İran Sarayında ikinci dərəcəli Xan, Yüksək rütbəli və Çox hörmətli Mirzə Həsən Xanı, bu səbəbdən də Biz, yuxarıda adları çəkilmiş səlahiyyətli Müvəkkillər Qarabağ mülkündə, Zeyvə çayı yaxınlığındakı Gülüstan kəndində toplaşaraq, vəkalətnamələrimizi bir-birimizə təqdim etdikdən sonra, hər birimiz öz tərəfindən bizim Böyük hökmdarlarımız adından bərqərar edəcəyimiz sülh və dostluğa aid olan hər bir şeyi nəzərdən keçirib, bizə verilmiş hakimiyyət və Ali səlahiyyətlərə görə aşağıdakı maddələri qərara aldıq və əbədiyyət üçün təsdiq etdik.

**Birinci maddə**

İndiyədək Rusiya İmperiyası və İran dövləti arasında mövcud olmuş düşmənçilik və narazılığa bu Müqavilə ilə bu gündən və gələcəkdə son qoyulur və qoy İmperator əlahəzrətləri Bütün Rusiya hökmdarı ilə Əlahəzrət İran şahı, onların vəliəhdləri, Taxtlarının Varisləri və qarşılıqlı olaraq onların Yüksək Dövlətləri arasında əbədi sülh, dostluq və xeyirxah andlaşma olsun.

**İkinci maddə**

Bir halda ki, hər iki Yüksək Dövlət arasında ilkin əlaqələr vasitəsilə **status quo ad prezenten***, yəni hər bir tərəfin hazırda tam malik olduğu torpaqlara, xanlıqlara, mülklərə sahib qalması özülündə sülhün bərqərar edilməsi artıq qarşılıqlı surətdə razılaşdırılmışdır, onda bu gündən və gələcəkdə Bütün Rusiya İmperiyası və İran dövləti arasında sərhəd aşağıdakı xətt olsun: Adınabazar adlanan yerdən başlayaraq, düz xətlə Muğan düzündən Araz çayında Yeddibulaq keçidinədək, oradan üzü yuxarı Kəpənək çayının Arazla qovuşduğu yerə, sonra da Kəpənək çayının sağ tərəfi ilə Mehri dağları silsiləsinə və oradan da xətti Qarabağ və Naxçıvan xanlıqlarının mərzləri ilə davam etdirərək, Alagöz dağları silsiləsilə Qarabağ, Naxçıvan İrəvan xanlıqlarının və Yelizavetpol dairəsinin (keçmiş Gəncə xanlığının) bir hissəsinin mərzləri birləşən Dərələyəz mərzinədək, buradan İrəvan xanlığını Yelizavetpol dairəsindən, həmçinin Qazax və Şəmşəddin torpaqlarından ayıran mərzlə Eşşəkmeydan mərzinə, oradan da dağlar silsiləsi ilə, çayın sağ tərəfi ilə, onun axarı istiqamətində, ***Həm-***

* Status quo ad prezenten (lat.) – hazırkı vaxtda olan vəziyyət.

***zəçimən*** yolu ilə, Pənbək dağları silsiləsi ilə Şurakel mərzinin küncünədək, bu güncdən də qarlı ***Alagöz*** dağının başınadək, buradan da ***Şurakel*** mərzi ilə, dağlar silsiləsi ilə, ***Mastaras*** və Artkin arası ilə Arpaçayadək. Bununla belə Talış mülkü müharibə vaxtı əldən-ələ keçdiyinə görə, həmin Xanlığın ***Zinzeley*** və Ərdəbil tərəfdən olan hüdudları daha artıq dürüstlük üçün, hər iki tərəfdən qarşılıqlı razılıqla seçilmiş Komissarlar (onlar Baq komandanlarının rəhbərliyi ilə indiyədək hər bir tərəfin gerçək hakimiyyəti altında olmuş torpaqların, kəndlərin, dərələri həmçinin çayların, dağların, göllərin, təbii mərzlərin dəqiq və təfsilatlı təsvirini verəcəklər) tərəfindən, bu Müqavilə bağlanıb təsdiq olunduqdan sonra müəyyən ediləcək, onda (Status quo ad prezenten) əsasında Talış xanlığının sərhəd xətti ilə müəyyənləşdiriləcək ki, hər bir tərəf malik olduğu torpaqların sahibi qalsın. Eləcə də, yuxarıda xatırlanmış sərhədlərdə, bu və ya başqa tərəfin xəttindən kənara nə isə çıxarsa, hər iki Ali dövlətin Komissarlarının təhlilindən sonra hər bir tərəf status quo ad prezenten əsasında təminat verəcək.

**Üçüncü maddə**

Şah Əlahəzrətləri Əlahəzrət Bütün Rusiya İmperatoruna səmimi dostluq hisslərinin sübutu üçün təntənəli surətdə həm öz adından, həm də İran Taxtının Yüksək Vəliəhdləri adından Qarabağ və İndi Yelizavetpol adı altında əyalətə çevrilmiş Gəncə xanlıqları, həmçinin Şəki, Şirvan, Dərbənd, Quba, Bakı və Talış (bu xanlığın Rusiya İmperiyası hakimiyyəti altında olan torpaqları) xanlıqlarının, bununla yanaşı Dağıstan, Gürcüstan (Şurakel) əyaləti ilə birlikdə İmeretiya, Quriya, Minqreliya və Abxaziya eynən də indi bərqərar edilmiş Qafqaz sərhəd xətti (bu sonuncuya və Xəzər dənizinə aid olan torpaqlar və xalqlarla birlikdə) arasındakı bütün mülk və torpaqların Rusiya İmperatorluğu mülkiyyətinə mənsub olduğunu qəbul edir.

**Dördüncü maddə**

Əlahəzrət Bütün Rusiya İmperatoru Əlahəzrət İran Şahına öz qarşılıqlı dostluq hisslərini ifadə etmək və İranda – ona qonşu olan bu Dövlətdə, möhkəm özül üzərində mütləqiyyət və hökmran hakimiyyət görmək arzusunu səmimi-qəlbdən təsdiq etmək üçün, bununla, öz adından və öz Vəliəhdləri adından İran Şahı tərəfindən İran Dövlətinin Varisi təyin ediləcək Vəliəhlə lazım gəldikdə kömək göstərməyi vəd edir ki, heç bir xarici düşmən İran Dövlətinin işinə qarışa bilməsin və Yüksək Rusiya Sarayının köməyi ilə İran Sarayı möhkəmlənsin. Bununla belə İran Dövləti işləri üzrə Şah oğulları arasında münaqişələr baş verərsə, Rusiya İmperatorluğu hakimiyyətdə olan Şah xahiş etməyincə bunlara qarışmayacaq.



**Beşinci maddə**

Rus ticarət gəmilərinə əvvəlki qayda üzrə Xəzər sahilləri yaxınlığında üzmək və onlara yan almaq hüququ verilir, həm də gəmi qəzası zamanı iranlılar tərəfindən dostluq köməyi edilməlidir. İran ticarət gəmilərinə də həmin bu hüquq, əvvəlki qayda üzrə, Xəzər dənizində üzmək və Rusiya sahillərinə yan almaq ixtiyarı verilir, burada da gəmi qəzası zamanı qarşılıqlı surətdə iranlılara hər cür yardım göstərilməlidir. Hərbi gəmilərə gəldikdə isə, döyüşdən qabaq, habelə sülh vaxtı və hər zaman Xəzər dənizində Rusiya hərb bayrağı təkcə yellənmişdir. Həmin ehtiram daxilində keçmiş ixtiyar indi də yalnız Rusiya Dövlətinə verilir ki, Xəzər dənizində ondan başqa heç bir Dövlətin hərbi bayrağı dolaşa bilməz.

**Altıncı maddə**

Hər iki tərəfdən döyüşdə əsir alınmışları, Xristian dininə və sair dinlərə mənsub ələ keçirilmiş sakinləri Müqavilə bağlanıb imzalandıqdan sonra, üç ay ərzində, hər bir tərəfdən Qarakilsəyədək (burada sərhəd rəisləri əsirləri qəbul etmək üçün öz aralarında qarşılıqlı əlaqə yaradırlar) azuqə və yol xərcləri ilə təmin edilərək, buraxılsınlar. Özbaşına, yaxud qanunu pozaraq qaçanlardan hər birinə, milliyyətindən asılı olmayaraq, öz könüllü istəyinə görə öz Vətəninə qayıtmaq azadlığı verilir, qayıtmaq istəməyənlər isə məcbur edilməsin. Bununla yanaşı hər iki tərəfdən qaçmışlara amnistiya, yaxud bağışlanma verilir.

**Yeddinci maddə**

Bütün yuxarıda deyilənlərə əlavə olaraq, Əlahəzrət Bütün Rusiya İmperatoru və Əlahəzrət İran Şahı buyururlar ki, lazım olduqda Əlahəzrətlərin İqamətgahlarına göndərilən, Onların Yüksək Saraylarının qarşılıqlı Nazirləri və ya Elçiləri rütbələrinə və onlara tapşırılmış işlərin dəyərinə uyğun qəbul edilsinlər; şəhərlərdə ticarətə himayəçilik üçün qoyulmuş Müvəkkillərin və ya Konsulların on nərəfdən artıq məiyyəti olmasın, onlar vəkil edilmiş məmurlar kimi vəzifələrinə layiq hörmət və şərəfətə malik olmalıdırlar, bir də Əmrnamə üzrə onları bundan sonra nəinki incitmək olmaz, hətta inciklik olarsa, təqdim edildikdən sonra, hər iki tərəfin təbəələrini ədalətlə mühakimə etmək, incidilmişləri mürvətlə razı salmaq gərəkdir.

**Səkkizinci maddə**

Əlahəzrətlərin, öz hökumətlərindən, yaxud hökumətləri tərəfindən təyin edilmiş sərhəd rəislərindən alınmış, onların həqiqətən tacirlər, Rusiya və ya İran təbəələri olduğunu təsdiq edən yazılı sənədlərə malik təbəələri arasındakı ticarət əlaqələrinə gəldikdə, saziş bağlayan hər iki yüksək dövlətə quru yolla və dənizlə sərbəst gəlməyə, orada nə qədər istəyirsə yaşamağa, tacirlər göndərməyə, həmçinin heç cür gecikdirilmədən ora-

dan çıxıb getməyə, Rusiya İmperatorluğuna mənsub olan yerlərdən İran Dövlətinə gətirilən və qarşılıqlı olaraq, İrandan ora aparılan malların satılmasına və başqa mallarla dəyişdirilməsinə icazə veriləcək, hər iki Yüksək Dövlətin tacirləri arasında baş verə biləcək mübahisələrə, onların vəzifələri və sair ilə bağlı şikayətlərinə adi qayda üzrə baxılması Konsula, yaxud Müvəkkilə, onlar olmadıqda isə yerli Rəisə tapşırılır. Onlar xahişlərə tam ədalətlə baxmalı, özləri haqq təminatı verməli, yaxud bunu başqa lazımi şəxslərin vasitəsilə tələb etməli və onların incidilməsinə və sıxışdırılmasına qətiyyən yol verməməlidirlər.

Rusiya təbəəliyindən olan İrana gəlmiş tacirlər, istəsələr, oradan öz malları ilə birlikdə İranla dostluq edən başqa dövlətlərə də sərbəst gedəcəklər; bundan ötrü İran hökuməti bu tacirlərin sərbəst keçməsi üçün onları pasportlarla təmin edəcəkdir; buna ticarət işləri ilə bağlı Rusiyadan, Rusiya ilə dostluq edən başqa dövlətlərə getmək istəyən İran tacirləri üçün də qarşılışlı surətdə riayət ediləcəkdir.

Rusiya təbəələrindən İrana gəlmiş kimlərinsə ölümü baş verərsə, onların müxəlləfatları, həmçinin başqa daşınan əmlakı və mülkləri, dost Dövlətin təbəələrinə məxsus olduğu üçün saxlanılmadan və gizlicə mənimsənilmədən, Rusiya İmperiyasından və bütün mədəni Dövlətlərdə icra edildiyi kimi, kimin hansı Dövlətə mənsubiyyətindən asılı olmayaraq, qanuni əsasda, qəbzlə ilk növbədə onların yoldaşlarına, yaxud qohumlarına verilməli, həmin qohumlara öz arzuları ilə və öz xeyirləri üçün bu əmlakları istədikləri adamlara satmağa icazə verilməlidir.

### Doqquzuncu maddə

Rus tacirlərindən İran şəhərlərinə və ya limanlarına gətirdikləri mallar üçün yüzə beş faizdən çox gömrük alınmasın və həmin tacirlər bu mallar ilə hara gedirlərsə getsinlər, onlardan ikinci dəfə gömrük tələb olunmasın, oradan apardıqları İran mallarına görə də eyni kömrük alınsın, bundan başqa heç bir bəhanə və uydurma ilə heç bir rüsum, vergi, gömrük tələb edilməsin, İran təbəələrindən Rusiya şəhərlərinə və limanlarına gətirdikləri və buradan ixrac etdikləri mallara görə də qarşılıqlı surətdə eyni gömrüklər, eyni əsasda bir dəfə alınsın.

### Onuncu maddə

Malları Müqavilə bağlamış hər iki Dövlətin sahillərinə və ya limanlarına, yaxud da quru yolla sərhəd şəhərlərinə gətirdikdən sonra, qarşılıqlı surətdə, tacirlərə nəzarət altında olduqları gömrük hakimlərindən və ya iltizamçılardan icazə almadan öz mallarını satmaq, başqa malları satın, yaxud dəyişmə yolu ilə almaq azadlığı verilir ki, ticarət maneəsiz dövriyyədə olsun, şəmçinin satıcıdan və ya alıcıdan dövlət xəzinəsi üçün müntəzəm olaraq və könüllülük şərtilə qanuni rüsumlar yığılsın.



### On birinci maddə

Bu müqavilə imzalandıqdan sonra hər iki Yüksək Dövlətin müvəkkilləri qarşılıqlı surətdə və təxirə salınmadan bütün yerlərə onun haqqında lazımi xəbər və hər yerdə hərbi əməliyyatların dərhal dayandırılması barəsində əmrlər göndərsinlər.

İki bərabərhüquqlu nüsxədə (fars dilinə tərcüməsi ilə birlikdə) yazılmış və saziş bağlayan Yüksək tərəflərin yuxarıda göstərilmiş müvəkkilləri tərəfindən imzalanaraq, onların möhürləri ilə təsdiq edilmiş və qarşılıqlı surətdə dəyişdirilmiş bu əbədi sülh Müqaviləsi Əlahəzrət Bütün Rusiya İmperatoru və Əlahəzrət İran Şahı tərəfindən bərqərar ediləcək və Əlahəzrətlərin öz əlləri ilə imzalanmış təntənəli Ratifikasiyalarla təsdiq olunacaqdır.

Bu Müqavilənin həmin təsdiq olunmuş nüsxələri bu Yüksək saraylardan, qarşılıqlı surətdə göndərilməklə, onların yuxarıda adları çəkilmiş Müvəkkillərinə üç ay müddətindən sonra çatdırılacaq.

Müqavilə min səkkiz yüz on üçüncü il oktyabr ayının on ikinci günü, İran sayması ilə min yüz iyirmi səkkizinci il Şəvval ayının iyirmi doqquzuncu günü Qarabağ mülkündə Zeyvə çayı yaxınlığındakı Gülüstan kəndində Rus ordugahında bağlanmışdır.

***İmzalamışlar:***
***Müvəkkil və Gürcüstanda Baş Komandan***
***Nikolay Ptişçev***
***(M.Y.)***

***Alişöhrətli İran Dövlətindən Müvəkkil***
***Mirzə Əbdül Həsən Xan***
***(M.Y.)***

## 5. XANLIQ DÖVRÜNÜN SONU

**YENİ SAVAŞ QARŞISINDA.** Gülüstan müqaviləsindən sonra beynəlxalq vəziyyət Qərbi Avropada baş verən dəyişikliyə bağlı idi. Napoleonla müharibədə uğur qazanan Rusiya onun ordusunu təqib edərək Avropa yürüşünə başladı. 1813-cü il oktyabrın 4-7 (16-19)-da Leypsiq altında «Xalqlar döyüşü» oldu. Müttəfiqlər bu döyüşdə qalib gəldilər. Paris üzərinə yol açıldı, 1814-cü il martın 31-də müttəfiq ordular Fransanın paytaxtına girdi. Napoleon hakimiyyətdən devrilib sürgün edildi. Oktyabrın 1-də Vyana konqresi açıldı. 1815-ci il iyunun 8-də «yekun aktı» imzalandı.

Beləliklə, beynəlxalq münasibətlərdə yeni dövr başlandı. XVIII yüzilin ikinci yarısı – XIX yüzilin başlanğıcında olduğu kimi, Şərq məsələsi Avropa siyasətinin gündəliyində qalırdı.

Rusiyanın Türkiyə və İrana qarşı təcavüzkarlıq siyasəti Şərq məsələsinin yenidən kəskinləşməsinə səbəb oldu. Bununla bağlı Rusiyanın başlıca rəqibi olan İngiltərənin, həmçinin Türkiyə və İranın əks siyasəti fəallaşdı.

İngiltərə hər vasitə ilə İranda Rusiya mövqeyinin möhkəmlənməsinə mane olmağa çalışırdı. 1814-cü ildə Tehranda İngiltərə ilə İran arasında yeni bağlaşma imzalandı. 1809-cu ildə olduğu kimi, Rusiya ilə müharibə başlandığı halda İran İngiltərədən ildə 200 min tümən (2 milyon gümüş rubl) yardım alacaqdı, ancaq bu böyük yardım Britaniya böyük elçisinin nəzarəti altında xərclənməli idi. Rusiya-İran münasibətlərində İngiltərə hökumətinə «vasitəçi» rolu oynamaq hüququ verildi. Şah sarayında İngiltərənin nüfuzu gücləndi, İran silahlı qüvvələrində ingilis zabitlərinin işi genişləndi.

İngiltərə 1821-ci il «imtiyazlı» gömrük qanunundan istifadə edərək Transqafqazda, o cümlədən Azərbaycanda iqtisadi nüfuzunu genişləndirdi. Rusiya bundan çox narahat olmağa başladı. Türkiyə hökmranlığına qarşı 1821-ci ildə Yunanıstanda üsyan baş verdikdən sonra Rusiya ilə Türkiyə arasında münasibətlərin kəskinləşməsi İngiltərə diplomatiyasına öz təsirini göstərdi. Rusiya ilə İngiltərə arasında yaxınlaşma başladı. Yeni hakimiyyətə gələn ***I Nikolay*** (1825-1855) 1826-cı il aprelin 4-də İngiltərə ilə Sankt-Peterburqda protokol imzalandı. Protokolun 3-cü bölməsi üzrə Türkiyə sultanı yunan-türk danışıqlarında İngiltərənin vasitəçiliyindən imtina edirdi. Bununla Türkiyə meydanda tək qalırdı, çünki Rusiya və İngiltərənin ona birgə və ya ayrılıqda təsir göstərməsi nəzərdə tutulurdu. Bu, Türkiyəyə qarşı münasibətdə Rusiyanın əl-qolunu açdı. İngilis diplomatiyası belə bir yaxınlaşmanın siyasi qazancı ilə çətin öyünə bilərdi. Buna görə İngiltərə, Rusiya-İran münasibətində «vasitəçilikdən» fəal istifadə etməyə, burada güzəştsiz davranmağa çalışırdı.

**GÜLÜSTAN SÖVDƏLƏŞMƏSİNİN UĞURSUZLUĞU.** 1813-cü ildən sonra da Rusiya-İran münasibətləri gərgin olaraq qalırdı. İran öz uğursuzluğu ilə razılaşmır, Rusiya isə yeni torpaqlar ələ keçirmək üçüq müharibə olmasını istəyirdi.

Gülüscan sövdələşməsinin birinci maddəsində dəbdəbəli sözlərlə bildirilirdi ki, tərəflər arasında «mövcud olmuş düşmənçilik və narazılığa bu müqavilə ilə bu gündən və gələcəkdə son qoyulur». Lakin 1826-cı ildə tərəflər arasında yeni müharibə başlandı. Bu göstərir ki, Gülüstan müqaviləsi Rusiya ilə İran arasındakı ziddiyyətləri həll etmədi, yalnız keçici bir barış ortaya gətirə bildi. Rusiya bu barışdan işğal edilmiş torpaqlarda öz ağalığını bərkitmək üçün istifadə etməyi bacardı.



Rusiya ilə İran arasında ən çox mübahisə doğuran ikinci maddə oldu. Bu maddə dövlətlərarası sərhəd məsələsi ilə bağlı idi. Dəqiqlik baxımından ikinci maddə diplomatik standarta tam uyğun gəlmir, «birtərəfli (separat) şəkildə» sərhədləri dəyişdirməyə şərait yaradırdı. İran tərəfi bundan istifadə etməyə çalışırdı. Artıq 1815-ci ilin aprelində bu məqsədlə ***Mirzə Əbdülhəsən xan Peterburqa*** göndərilmiş və bir ildən çox burada olmuşdu. O, Rusiya Xarici İşlər Nazirliyinə ayrıca bir nota verib, Talış xanlığının və Muğanın İrana qaytarılması məsələsini qaldırdı. Britaniyanın Peterburqdakı böyük elçisi ***Ketkart*** İran tərəfin işinə fəal yardım edirdi. Rusiyanın cavab notasında ***A.P.Yermolovun*** İrana səfəri zamanı bu məsələ ilə bağlı fikir söyləniləcəyi bildirildi. Rtişçevin yerinə keçən Yermov 1816-cı ilin noyabrında sərhədlərlə tanış olub, İrana ərazi güzəşt etməkdən boyun qaçırdı. Yermolovun İran səfəri də şah hökumətinin ümidlərini doğrultmadı. Bu zaman I Aleksandrın Gülüstan müqaviləsini ayrıca bir manefestlə xalqa «bəyan etməsi» Rusiya mövqeyinin dönməz və güzəştsiz olduğunu göstərirdi. Bu bəyanat ilə tərəflər arasında qarşıdurma çox kəskinləşdi.

1818-1821 və 1823-cü illərdə hər iki tərəf təmsilçilərinin görüşləri də, növbəti ildə təzələnən danışıqlar da heç bir nəticə vermədi.

Gülüstan müqaviləsinin ikinci maddəsi əslində tərəflərin heç birini, yəni Rusiyanı da təmin etmirdi. İrəvan xanlığı ələ keçirilməmiş qalırdı. Rusiya məqamın yetişməsini gözləyirdi. Nəticədə Azərbaycan torpağı yeni döyüşlər qarşısında idi.

Müqavilənin dördüncü maddəsində şahın vəliəhd seçdiyi oğluna Rusiya çarı tərəfindən kömək göstərilməsi nəzərdə tutulurdu. Lakin İranın daxili işlərinə Rusiyanın qarışmasına yol verməmək üçün belə bir yardım yalnız şahın öz xahişi ilə göstərilməli idi. Əslində, bu maddə Fətəli şahın rəsmi vəliəhdi Abbas Mirzəni nəzərdə tuturdu.

A.P.Yermolov bu maddəni pozmuş, İranda olarkən Abbas Mirzənin böyük qardaşı, Kirmanşah vilayətinin şahlığa can atan hakimi ***Məhəmməd Əli Mirzə*** ilə görüşmüşdü. Sonuncu, şahın gizli göstərişi ilə öldürülmüşdü. Çar hökuməti isə Yermolovun bu hərəkətindən narazı qaldığını bildirməli oldu. I Aleksandr 1819-cu ilin mayında Abbas Mirzəni İran taxtının vəliəhdi kimi tanıdı. Ancaq bu, Rusiyada nə İran ordusunun baş komandanı Abbas Mirzəyə qarşı düşmənçiliyi, nə də getdikcə dərinləşməkdə olan Rusiya-İran qarşıdurmasını aradan götürdü.

**AZƏRBAYCAN XANLIQLARININ LƏĞV EDİLMƏSİ.** Yermolovun İran «elçiliyi», Gülüstan müqaviləsinin «bəyan» edilməsi ilə Rusiya Transqafqazdan geri çəkilməyəcəyini Avropaya bildirmək istəyirdi. İranla qarşıdurma dərinləşir, iş getdikcə böyüyürdü. Tərəflər yeni müharibəyə yaxınlaşdıqca, çarlıq Rusiyası Azərbaycan xanlıqlarını aradan götürməyə tələsirdi.

Rusiyaya silahla qarşı durmağa çalışan xanlıqlar (Gəncə, Quba, Bakı) dərhal yox edilmişdi. Qafqaz Baş komandanı İrandan Tiflisə döndükdən sonra növbə vassal xanlıqlara çatdı. «Sərdar Yermulu» yaxınlaşan yeni savaşda vassal xanlıqların kimin tərəfində duracağını yaxşı bilirdi. Çar hökumətinin və Baş komandanın özünün siyasəti bu xanlıqları bütünlüklə Rusiyaya qarşı çevirmişdi.

***İ.P.Petruşevski*** haqlı olaraq yazır ki, Yermolovun komandanlığı zamanı rus hökuməti «yerli xan sülalələrini aradan götürmək üçün birbaşa təxribat üsulları işlətməkdən çəkinmirdi». 1819-cu ildə ilk olaraq Şəki xanlığı ləğv edildi. Rusiya hökuməti sonuncu Şəki hakimi ***İsmayıl xanın*** ölümünü bəhanə gətirdi. Amma iş bundadır ki, rus zabitləri özləri də İsmayıl xanın öldürüldüyünü, milliyyətcə erməni olan general Madatovun (Transqafqaz müsəlman əyalətlərinin hərbi rəisi) göstərişi ilə ona zəhər verildiyini gizlətmirdilər. İran hökuməti bu haqda hətta rəsmi bəyanat vermişdi. Xanlığın bütün xəzinə və mülklərini Rusiya dövləti müsadirə etdi. Xan ailəsi soyulub var-yoxdan çıxarıldı. Rusiya xəzinəsindən ayrılan «layiqli dolanışıq» təqaüdü bu ailənin tələbatını çətinliklə ödəyirdi.

Həmin ildə yerli hakimləri olan Qazax və Şəmşəddil sultanlıqları, 1820-ci ildə isə Şirvan xanlığı ləğv edildi.

General Madatovun Qarabağ xanlığı üzərində əlləşməsi daha uzun sürdü. Rusiya hərbçiləri burada ən alçaq üsullara əl ataraq, Mehdiqulu xanın yaxın qohumunu yenə ona qarşı qoydular. Xanın qardaşı oğlu Cəfərqulu ayağa Rus komandanlığına yalan donos yazdırtdılar. Guya Mehdiqulu xan gizlicə Madatovu öldürtmək istəyirmiş. Hətta Madatovun üstünə yalançı bir sui-qəsd təşkil olundu. Xana qarşı iş açmaq üçün Baş komandanın göstərişi ilə «güzəştsiz» istintaq başlandı. İşin nə yerə aparıldığını anlayan Mehdiqulu xan dözməyib İrana getdi. Ruslardan xanlıq gözləyən Cəfərqulu ağa sakitliklə ***Simbirskə*** sürgün edildi. Qarabağ xanlığının bütün var-dövləti Rusiya xəzinəsinə ötürüldü, dövlətin saysız torpaq mülkləri, ilxı və sürüləri bu xəzinənin ixtiyarına keçdi. O zamanın rus tarixçisi ***N.F.Dubrovinin*** yazdığına görə, icraçılar, yeni «Sərdar Yermulu» və Madatov kimiləri özlərinə zəngin «pay» götürüb, ciblərini doldurdular. Sonrakı Baş komandan Paskeviç də bunu gizlətmirdi. O, Yermolovun «sağ əli» olan Madatovun Qarabağda «ən birinci mülkədara» çevrildiyini yazırdı. Bunun üstündə Madatov hətta çar məhkəməsi qarşısında durmalı oldu.

İkinci Rusiya-İran savaşı başlanmazdan əvvəl (1826) Talış xanlığının vassal varlığına da son qoyuldu. Beləliklə, ikitərəfli dövlətlərarası andlaşmalar (Kürəkçay bağlaşması və s.) ilə xanların iç muxtariyyətinin toxunulmazlığına, onların «ölkəsinin bütövlüyünün saxlanılmasına imperator zəmanəti»ni çar hökuməti özü pozub atdı.



**ASILI XANLIQLARIN LƏĞV EDİLMƏSİNİN İQTİSADİ SƏBƏBLƏRİ.** Asılı xanlıqların yox edilməsi Birinci Rusiya-İran müharibəsinin verdiyi dərslərdən irəli gəlirdi. Mərkəzi Rusiyadan güneyə uzanıb gələn yollar çətin və təhlükəli idi. Transqafqazda yerləşdirilən «Özəl Qafqaz korpusu»nu yalnız yerli təchizat, başlıca olaraq Quzey Azərbaycanın varı və gəliri ilə saxlamaq olardı. Ancaq burada vergi və ödənişlərin toplanması qanuni baxımdan vassal xanların səlahiyyətində qalırdı. Bir sözlə, asılı xanlıqların daxili muxtariyyəti Rusiya komandanlığının əl-qolunu bağlayırdı.

Asılı xanlıqların varlığına son qoymaqla çarlıq Rusiyası öz ordusunun arxa təminatını yoluna qoya bildi. Baş komandan İ.Paskeçiv özü bunu etiraf edib yazırdı: ***«İstər İranla, istərsə də Türkiyə ilə indiki (yeni) savaşlar göstərdi ki, bizim ordunu saxlayıb yedizdirən Azərbaycan idi».***

Atlı qoşunlar, demək olar bütünlüklə Azərbaycan kəndləri hesabına yaşayırdı. Bu qoşunlar Azərbaycanı bürümüşdü. Şirvanda ***Göyüzən*** mahalının altı kəndi (Basqal, Zərgəran və b.) Ulan diviziyasının 3 eskadronunu, ***Hazaurt*** mahalının dörd kəndi 2 eskadronu, İsmayıllı kəndi 1 eskadronu, Qarasu Bazar mahalının Zərdab və Ləki kəndləri 1 eskadronu ərzaqla təmin edirdi. Bu diviziyanın qalan 5 eskadronu isə ***Sərdəri*** mahalının kəndləri (***Bərguşat, Bığır, Qaracalı*** və b.) hsabına yaşayırdı. Don kazaklarının 3 atlı alayı Kür boyunca ***Alakənddə, Tülənqoyun, Abdulan, Gəncəli, Mustafalı, Meyneman*** və ***Kovrat*** kəndlərində yerləşmiş və bütün ikinci savaş boyu buradan təmin olunurdular.

Şəki xanlığı kəndlərində topçu briqadası və rotası, 3 piyada batalyonu, Borisoqlebsk və Serpuxov ulan alayları, Şəki şəhərinin özündə isə iki topu olan piyada batalyonu yerləşirdi. Bunlardan başqa Bakıda bir batalyon, Lənkəranda Özəl Xəzər dəniz və 8-ci sapyor batalyonları, Şuşada iki yeger (atıcı) batalyonu qulluq edirdilər.

Savaş başlanğıcında Qazax, Şəmşəddil və Borçalı mahallarını da rus qoşunlarının ərzaqla təmin edilməsi işinə qoşdular. Salahlı kəndində Don kazak alaylarından biri yerləşdirildi. Bundan başqa Qazax və Şəmşəddil mahalları Gəncədə olan rus atlı qoşunu üçün yem tədarük edirdilər. Araz boyunca sərhəddə yerləşən 20-ci piyada diviziyasına da ərzağı yerli kəndlilər ödəyirdilər.

Rus qoşunları üçün ərzaq, silah və texnika daşınmasında Azərbaycan aparıcı yer tuturdu. İkinci savaşın gedişində Azərbaycan kəndli və balıqçıları kircim adlanan gəmilərdə Kür çayı ilə (Zərdaba kimi) hərbi yük daşıyırdılar. 15-17 günə gedilən bu yol ilə Təbrizə və Gümrüyə doğru yürüş edən rus ordusu təchiz edilirdi. Ordu hissələri də bu yol ilə daşınırdı. 1827-ci ildə rus ordusuna ərzaq daşınması üçün yerli kəndlilərdən 2 min araba alınmışdı. Kür çayı ilə döyüşən qoşunlar üçün 12 min kisə qurudulmuş

çörək, min kisə yarma, 4 min kisə arpa, 4 min baş heyvan daşınmışdı. Qoşqu işləri üçün Qarabağ, Şəki və Şirvan kəndlərindən, Qazax, Şəmşədil və Borçalı mahallarından 11500 yük və qoşqu heyvanı (kəl) yığılmışdı. Bütün bu ağır mükəlləfiyyətlərin asanlıqla yerinə yetirilməsi üçün çar hökuməti ikinci savaşdan öncə xanlıqları aradan götürmüşdü.

Xanlıqların ləğv edilməsi ilə Azərbaycan tarixinin bütöv bir dönəmi sona yetmiş oldu. Çarlıq Rusiyası bununla Quzey Azərbaycanın siyasi fəthini başa çatdırmaq üçün özünə yol açdı. Bununla yanaşı, quzey xanlıqların bütün var-dövlətini, bütün təsərrüfatını öz əlinə keçirərək, buranın iqtisadi fəthi qarşısında duran xanlıq idarəçiliyini aradan götürmüş oldu. Azərbaycanın dövlətçilik qurumlarının yox edilməsi ilə ölkənin büsbütün sümürgəclik meydanına çevrilməsi üçün yol açıldı.

## 6. 1826-1828-Cİ İLLƏR RUSİYA-İRAN SAVAŞI. TÜRKMƏNÇAY MÜQAVİLƏSİ

**SAVAŞIN BAŞLANMASI. ŞUŞANIN MÜHASİRƏSİ.** Rusiya paytaxtı Sankt-Peterburqda 1825-ci ildə baş vermiş Dekabristlər üsyanı haqqında xəbəri Tehrana ingilis diplomatı ***Şilan*** çatdırdı. Şah sarayı əlverişli vaxt çatdığını düşünərək müharibəyə başlamağı qərara aldı. İyul ayında İran qoşunları sərhədi keçdi. İkinci Rusiya-İran savaşı başladı. Bu zaman knyaz ***Menşikovun*** başçılığı ilə yeni Rusiya elçiliyi Tehrana yaxınlaşmada idi. O, «yeni padşahı (çar I Nikolayı – *Red.*) tanıtdırmaq» üçün göndərilmiş, Fətəli şaha büllur taxt gətirmişdi. İran qoşunlarının artıq Şuşa və Gəncə qapıları ağzında olduğunu rus elçisi bilmirdi. «Tehranda göz dustağı edib ona aydın bir cavab vermirdilər» (Mirzə Yusif Nersesov). İranın başlıca məqsədi Tiflisi tutmaq, rus ordusunu Transqafqazdan çıxarıb Terekin o tərəfinə qovmaq idi.

Rus qoşunlarının başlıca zərbəsi isə Təbrizə yönəlmişdi. Qoşunların sayına görə üstünlük İranın tərəfində idi. Şahın nizami piyada ordusu 25 sərbaz («başlarından keçənlər» anlamına gəlir) və 10 canbaz («canlarından keçənlər») batalyonundan ibarət idi. Hamısı birlikdə 38,5 min süngü yaradırdı. Ancaq yalnız «Abbas Mirzənin türk piyada qoşunu» (Mirzə Yusif Nersesov) və top birliyinin 43 topa xidmət edən əsgərləri birbaşa onun əli altında idi. İran piyada qoşunu və sərbaz batalyonlarının xeyli hissəsi isə şahın ixtiyarında qalırdı. İran ordusunda nizami atlı qoşun saxlanmır, onun yerinə (döyüş zamanı) Güney Azərbaycandan 6 minə yaxın və tərəkəmə tayfalardan 15 minə yaxın nizami olmayan atlı qoşun toplanırdı. Bu sonuncu «atlı qoşun» Rusiya ordusundakı nə nizami atlı alaylar (kavaleriya), nə də uşaqlıq illərindən yaxşı əsgəri hazırlıq keçən kazak atlı bölmələr ilə



yanaşı qoyula bilərdi. Abbas Mirzənin 60 minlik ordusu barədə yazılar öz uğurlarını şişirtməyə çalışan rus hərbi qulluqçularının adı ilə bağlıdır.

Rusiya Özəl Qafqaz korpusunun qüvvəsi sayca böyük deyildi. Ancaq bu, on illərcə Avropa çöl və dağlarında Avstriya, Türkiyə və xüsusilə Fransa qoşunları ilə saysız savaşların döyüş ənənələrinə arxalanan çağdaş bir ordu idi. Transqafkazda sayı 10 minə yaxın olan 33 rus piyada batalyonu və 1 nizami atlı alayı, 9 Don kazak alayı, Bakı və Lənkərandakı 3 batalyon, Gəncə, Şəki və Şirvandakı 2 batalyon silah altında idi. Bundan başqa Şuşada 2 batalyon, Pambak və Şurakeldə (İrəvan sərhədi) 3 batalyon qarnizon qulluğunda idi. Minlərlə yerli atlı döyüşçülərin də səfərbər edilərək döyüşə cəlb edilməsi nəzərdən qaçmamalıdır.

Savaşın başlanğıcı Rusiya üçün uğursuz oldu. Abbas Mirzə qoşunların başında Qarabağ-Gülənbər yaylaq yolu ilə Qarabağa getdi. İkinci qoşunu da (çoxu qeyri-nizami atlılar idi) ***Əmir xan*** və ***Mehdiqulu xanla*** birlikdə Naxçıvan-Sisian dağ yolu ilə arxadan Qarabağa göndərdi. ***İbrahim xan Qacar*** və şirvanlı ***Mustafa xanı*** Şirvana, ***Mir Həsən*** xanı başqa bir qoşunla Talışa, qardaşı ***Sarı Aslanı*** (Həsən xan) İrəvan sərdarı Hüseyn xan və İraklii oğlu «Aleksandr Mirzə» ilə birlikdə Tiflis üzərinə yolladı. Uğurlu xan Ziyadoğlu Gəncəyə, Hüseyn xan (Səlim xanın oğlu) qardaşı Hacı xanla Şəkiyə – öz dədə yurdlarına girdilər.

İrəlidə gedən İran qoşunu Xudafərin körpüsünü sürətlə keçərək rus sərhəd alayını əzdi. Ruslardan 300-ə kimi əsgər öldürüldü, bir qismi əsir düşdü. Sonuncuların içində polkovnik ***Nazimov*** və mayor ***Kovalenski*** var idi. İran qoşunları sərhəd boyu döyüşlərdə rusları geri oturtdular. Abbas Mirzənin ordusu Şuşa qalasını iyulun 26-da mühasirəyə aldı. Mühasirə 40 gün davam etdi. Şuşa qarnizonunun rəisi polkovnik ***Reut*** yaxşı hazırlıq görmüşdü. Qalanın ələ keçirilməsi uğrunda hücumlar istənilən nəticəni vermədi.

Şuşanın uzun çəkən mühasirəsi savaşın bütün gedişinə təsir göstərdi. Abbas Mirzə hücumu sürətlə davam etdirərək dağınıq rus qoşunlarını əzmək əvəzinə, böyük qüvvə ilə Şuşa altında əylənib qaldı. Bu, rus komandanlığına dağınıq qoşunlarını birləşdirmək, strateji təşəbbüsü ələ keçirib əks-hücuma keçmək üçün imkan yaratdı.

**QUZEY AZƏRBAYCANDA «ÜMUMMÜSƏLMAN ÜSYANI».** İkinci savaşda Azərbaycan əhalisinin, «bəylərin və başqa zümrələrdən olan məskunların» Rusiyaya qarşı olacağı barədə Yermolovun fikri düz çıxdı. Xalq öz yurduna dönən keçmiş xanların səsinə səs verib ayağa qalxdı. Avqustun 13-də Sankt-Peterburqa bu barədə raport yazan «Sərdar Yermulu» bildirirdi ki, əski qaçqın xanlar «qara camaatı, xüsusilə inamı yüngül olanları (?!! – *Red.*) üsyana qaldırdılar». O, Azərbaycanda «ümum-

müsəlman üsyanı» baş verdiyini yazırdı. Təbii, Rusiya baş komandanı bu kütləvi üsyanı ortaya gətirən səbəbləri ört-basdır etməyə çalışırdı; başında durduğu əsgəri idarəçiliyin qanunsuz, zorakı davranışını, istismarın və Milli zülmün ölçüyəgəlməz şəkildə yayıldığını pərdələmək istəyirdi. Guya bəzi ruhani çağirişları olmasaydı, üsyan da olmaya bilərdi: «Bizə qarşı ümum-müsəlman üsyanı başqa yol ilə deyil, din vasitəsilə ortaya gətirilmişdir, bu üsyanı qızışdıran Abbas Mirzənin yanındakı bir müqəddəs kişidir» (Seyid Kərbəla Məhəmməd adlı birisi nəzərdə tutulur – *Red.*).

Rus tarixçisi ***M.N.Pokrovskinin*** fikrincə ölçyəgəlməz ağalıq, hanlıq durumu Yermolovun gözlərini qamaşdırmışdı. Yerli vassal xanlara bir oyuncaq kölə kimi baxan Baş komandan, onların təbəəliyində olanları insan yerinə belə qoymurdu. «Müqəddəs (ruhani) bir kişinin» çağırışı deyil, gerçək hərbi-siyasi durum Azərbaycanda «üsyançı əhval» (M.N.Pokrovski) doğurmuş idi. Bütün bu köklü səbəblər onun sözləri ilə deyilərsə, «Yelizavetpolu (Gəncəni – *Red.*) əsl bir inqilab meydanına çevirdi». İyulun 27-də rus batalyonlarının şəhəri tərk edəcəyini öyrənən gəncəlilər qılınc və xəncərlərə qurşanıb səhər Narın qalası üzərinə yeridilər. Başqa rus tarixçisi N.Dubrovun bütün gəncəlilərin («tatarı... voorujilis poqolovno») bu yürüşə qoşulduğunu yazır. Onlar ilk əvvəl qala həbsxanasını alıb siyasi dustaqları azadlığa buraxdılar. İyulun 28-nə keçən gecə bir çox rus döyüşçülərini qırıb Gəncəni təmizlədilər. Uğurlu xan asanlıqla azad edilmiş şəhərə girib Narın qalada oturdu.

İkinci kütləvi üsyan Talış xanlığında baş verdi.

Talış hakimi ***Mirhəsən xan***, atası Mirmustafa xan kimi Rusiya təbəəliyinə keçmişdi. Ancaq çar hərbçilərinin özbaşınalığı və onunla bir nökər kimi davranması xanın dözümünə son qoydu. Talış xanlığında bu zaman Mirhəsən xan deyil, əslində mayor ***İlyinski*** ağalıq edirdi. Xəzər dəniz batalyonu (660 süngü) və 50 kazak atlısının komandiri olan bu mayor, xanı sıxışdırıb İrana qaçmağa məcbur etdi. Xan qaçmaqla yaxasını qurtardısa, xalq İlyinskinin təhqir və söyüşlərindən, qanunsuz vergi yığımlarından cana doymuşdu. İlyinski Talışa Gürcüstanın ***Telavi*** bölgəsindən göndərilmişdi. Əslində yerli camaatı soyub incitdiyi üçün oradan qovulmuşdu. Yeni qulluq yerində də öz davranışını dəyişməyən mayor, Talışda etdiyi cinayətlərə görə hərbi məhkəməyə verilmiş, amma onun haqqında heç bir ölçü götürülməmişdi.

Belə bir vəziyyət xalqı üsyana qaldırdı. Rus tarixçilərinin yazdığı kimi: «Talış xanlığında bütün yaşayanlar bir adam kimi üsyan etdilər, o vaxta kimi bizə (Rusiyaya – *Red.*) sadiq olan Talış xanı üsyanın başına keçdi». Mirhəsən xan üsyana qalxmış yerli döyüşçülər və bir neçə min İran sərbazı ilə 1826-cı il iyulun 25-də Lənkəranda yerləşən rus qarnizonu ilə döyüşə girdi. Altı gün və altı gecə davam edən döyüşdən sonra mayor



İlyinski «qalanı deyil, onun xarabasını» üsyançılara buraxıb Sara adasına çəkildi. Talış xanlığında da Rusiya hərbi idarəçiliyi devrildi.

İyulun 26-da Cavad keçidi yanında ruslar daha bir döyüşü uduzdular. İrana qaçmış Bakı hakimi Hüseynqulu xan bu döyüşdən sonra üç minlik İran atlısı ilə Bakı üzərinə yollandı. Çoxsaylı avarlı İran «donanması» da dənizdən onun köməyinə gəldi. Ancaq xanın «Bakı əyalətində yaşayanları ayağa qaldırmaq istəyi» baş tutmadı.

Yenə iyulun 26-da Ağsu (Yeni Şamaxı) şəhərini azad etmiş Mustafa xan Şirvanda uğurla irəliləməkdə idi. «Qiyamçılardan ətrafına böyük toplantılar yığan və yardımına güclü İran atlı qoşunu göndərilən» Mustafa xan avqust ayında Şamaxı və Şirvandan rus qoşunlarını vurub çıxara bildi. Rus əsgərləri Qubaya sarı çəkildilər, ancaq artıq burada da yerli bəylər xalqı üsyana qaldırmışdılar. Üsyan dalğası rus hərbi birləşmələrini Şəkidən də bayıra atmışdı.

Quzey Azərbaycanı bürüyən kütləvi xalq üsyanları ikinci Rusiya-İran savaşının başlanğıcında tutarlı amillərdən biri idi. Abbas Mirzə bu üsyanlar ilə uzlaşan sinxron bir müharibə apara bilmədi.

**ŞƏMKİR DÖYÜŞÜ.** Avqust ayında Rusiya komandanlığı özünə gəlməyə başladı. Dağınıq ordu birləşmələri Gəncə-Tiflis xəttinə yığıldı. Rus qoşunları yeni alaylar hesabına gücləndirildi. I Nikolay Transqafkaz komandanlığını İ.F.Paskeviçə tapşırdı. Baş komandan qalan Yermolov az sonra bu vəzifəni də ona verib istefaya getdi. Rus qoşunlarının hücuma keçməsi üçün şərait yarandı.

Avqustun sonunda İran qoşunları gürcü şahzadəsi Aleksandrın başçılığı altında Şəmkir yaxınlığında idi. Abbas Mirzənin oğlu ***Məmməd Mirzə*** yeni qoşunla gəlib Şəmkiri tutdu. Amma buradan irəli gedə bilmədi. Sentyabrın üçündə Şəmkir altındakı düzənlikdə ***Zəyəm*** dağı ətəyində İran və Rusiya qoşunları arasında döyüş oldu. Ruslar qalib gəldilər. İran qoşunu 1500 döyüşçü itirərək Gəncəyə çəkildi. Şuşa qalası altında ay yarımdan çox hərəkətsiz duran Abbas Mirzə səhvini anlayıb, başlıca ordu ilə tələsik Gəncə səmtinə yola düşdü. Ancaq artıq gec idi. Azərbaycanın quzey əyalətlərində kütləvi xalq üsyanlarının yaratdığı əlverişli durum əldən verilmişdi.

**GƏNCƏ DÖYÜŞÜ.** Şəmkir altında uğurdan sonra rus qoşunları sentyabrın 4-də Gəncəni tutdular. Sentyabrın 9-da Qafqaz korpusunun başlıca qüvvələri onlarla birləşdi. Şuşa mühasirəsini buraxıb buraya gələn Abbas Mirzə yeni döyüşün qaçınılmaz olduğunu bilirdi. Sentyabrın 10-da Paskeviç də qoşunla Gəncəyə gəldi.

Döyüş sentyabrın 13-də Nizami Gəncəvi məqbərəsinin yaxınlığındakı çöldə oldu. Rus ordusunda 8700, İran ordusunda isə 35 min döyüşçü var

idi. İki ordu arasında dəhşətli döyüş başladı. Ruslar yenə uğur qazandılar. 2 düşərgə, 4 bayraq, bir top və başqa hərbi qənimət ələ keçirdilər. İran ordusu 1000-ə kimi əsgər itirdi. 1100 əsgər, 2 batalyon komandiri və 7 zabit əsir düşdü. Uğurlu xan da əsir alınanlar içərisində idi. İran qoşunları dağınıq halda Araza doğru çəkilib o taya keçdi.

Gəncə döyüşü ikinci Rusiya-İran savaşının ən böyük döyüşü oldu. Transqafkazın da, bütün savaşın da taleyi burada bitdi. Bu döyüşdən sonra İran ordusu bir daha özünə gələ bilmədi.

Döyüşdən sonra rus komandanlığı üçün 1826-cı il üsyanlarını yatırmaqdan ötəri əlverişli imkan yarandı. Bu, Yermolovun baş komandan vəzifəsində son fəal döyüşləri oldu.

Rus komandanlığı savaşın gedişində ara-sıra yerli qüvvələrdən də istifadə etməyə çalışırdı. 1826-cı ilin noyabrında Araz üzrə sərhədi qorumaq üçün «Qarabağ türklərindən» (Mirzə Yusif Nersesov) qeyri-nizami atlı dəstə yaradıldı, 1827-ci il döyüşlərində Borçalı türklərinin könüllü atlı dəstələri də iştirak edirdi.

İran qoşunları, Talış xanlığı sayılmazsa, artıq bütün Quzey Azərbaycan torpaqlarını tərk etmişdilər.

**SAVAŞIN GÜNEY AZƏRBAYCANA KEÇİRİLMƏSİ.** 1827-ci ilin yanvarında rus qoşunu Qaradağın mərkəzi ***Əhəri*** tutdu. Qışın oğlan çağında general Madatov, «mühasirə dövründə çəkilən əziyyəti əvəz etsin deyə Qarabağ və Şirvan qoşunlarını götürüb Mişgini və Əhəri çalıb-çapmağa, qarət etməyə getdi. Mişgin vilayətini o ki var soyub qarət etdilər» (Mirzə Yusif Nersesov).

Aprel ayında rus qoşunlarının Qarabağ birləşməsi Xudafərin körpüsünü ələ keçirmək uğrunda döyüşürdü. Bir bölüyü isə ***Ağzıböyük*** keçidi ilə İrəvana gedirdi.

Bu zaman Yermolovun bütünlüklə işdən götürülməsi general Madatovu da yerindən oynatdı. Qraf Paskeçiv onu Xudafərin körpüsü üzərindən götürüb knyaz ***Abxazovla*** əvəz etdi. Bu dəyişmənin səbəbi Madatovun «Mişgin yürüşünə» heç də icazəsiz getməsi deyildi. Paskeviç özü də Qaradağ vilayətinə belə soyğunçuluğa getmişdi. Səbəb yerli əhalinin, xan və bəylərin Yermolov-Madatov «siyasətindən» kəskin narazılığı və üsyana qalxması idi. Bu dəyişmələrlə çar hökuməti öz ordusunun «Transqafqaz işini» yüngülləşdirmək istəyirdi.

1827-ci il aprelin 20-də Xudafərin körpüsü tutuldu. Başlıca qüvvələr Eçmiədzinə gələrək İrəvana doğru irəlilədi. İrəvanın iki aylıq mühasirəsi yenə uğursuz oldu. İyunun 26-da Naxçıvan qalası döyüşsüz tutuldu. Rus qoşunları strateji dəyəri olan Abbasabad qalasına yaxınlaşdı. Abbas Mirzə 16 minlik qoşunla qala qarnizonunun köməyinə gəldisə də, qala təslim etdirildi. Avqust ayında Alagözün ətəklərində, ***Aştarak*** və ***Uşaqan*** kəndləri yaxınlığındakı döyüşlərdə ruslar üstün gəldilər. Sonra Sərdarabad təslim oldu. İrəvan qalasının mühasirəsi sentyabrın 26-da başlandı. Paskeviç yazırdı ki, İrəvan vilayətində 10000 müsəlman (Azərbaycan türkü – *Red.*) və yalnız 3000 erməni ailəsi yaşayırdı. Oktyabrın 1-də gün qaralana yaxın qanlı döyüşdən sonra İrəvan qalası tutuldu. I Nikolayın fərmanı ilə, onun *qlinyanıy qorşok*, yəni «gildən (torpaqdan) düzəldilən küp» adlandırdığı İrəvan qalasının adı qraf Paskeviçin tituluna qatıldı.



Paskeviçin Güney Azərbaycana girməyi qadağan etməsinə baxmayaraq rus birləşməsinin komandanı ***Eristov*** oktyabrın 2-də Mərəndi tutub Təbrizə doğru irəlilədi.

Təbrizdə şah qarnizonunun rəisi ***Allahyar xan*** müdafiəyə hazırlaşdı. Ancaq Təbrizin ruhani başçısı ***Ağa Mir Fəttah*** rusların tərəfinə keçərək şəhərliləri ardınca apardı. Oktyabrın 13-də rus bölükləri Təbrizə girdi.

M.N.Pokrovski Güney Azərbaycan əhalisinin də rus qoşunlarına «kəskin müqavimət» göstərdiyini yazmışdır. Ancaq Qacarların soyğunçu siyasətindən Güney Azərbaycan cana doymuşdu. Buranın şiə ruhaniləri isə Qacar şahlarını «uzurpator» sayır, qanunsuz olaraq Səfəvi taxtına yiyələndiklərini söyləyirdilər. Rusiya baş komandanı Paskeviç Quzey Azərbaycanda Yermolovun yol verdiyi yanlış üsullardan qaçmağa çalışır, əhalini və yerli hakimləri qıcıqlandırmırdı. İran «qərbçilərinin» (Avropasayağı yenilikçiliyin) başçısı Abbas Mirzənin mərkəzləşdirmə siyasəti də Güney Azərbaycan xanlarını Rusiya asılılığına doğru sürükləmədə idi. Bütün bunlar Rusiya qoşunlarının irəliləməsini asanlaşdırırdı.

Təbriz tutulduqdan sonra Tehran üzərinə yol açıldı. Təbrizi (əslində Güney Azərbaycanı) idarə etmək üçün rus hərbçilərinin və şəhərlilərin nümayəndələrindən Müvəqqəti idarə yaradıldı. Onun rəisi general ***Osten-Saken*** oldu. Təbriz qalasının komendantı da rus zabitlərindən qoyuldu. Müctəhid Mir Fəttah Müvəqqəti idarənin tərkibində idi.

**RUSİYA İLƏ İRAN ARASINDA DANIŞIQLAR. TÜRKMƏNÇAY MÜQAVİLƏSİ.** Gələcək sülh müqaviləsinin başlıca müddəaları artıq 1826-cı il sentyabrın 16-da Rusiyanın ayrıca bir «Bəyannamə»sində bildirilmişdi. Yermolovun və Menşikovun bir ay sonra Rusiya Xarici İşlər naziri qraf ***K.V.Nesselrodeyə*** təqdim etdikləri yazılı təklifləri də nəzərə alınmaqla barış və ticarət müqaviləsinin lahiyəsi hazırlanmışdı. Gələcək müqavilənin şərtləri haqqında çar fərmanı 1827-ci il mayın 24-də Cəlaloğlu yanındakı rus düşərgəsinə gətirildi. Rus komandanlığı danışıq aparmaq üçün tam hazır idi.

***Qaraziədin*** danışıqlarında ***A.S.Qriboyedov*** İran məmurlarının «təxəyyülünə təsir göstərmək» fikri ilə bildirdi ki, biz irəli gedib Azərbaycana sahib olaraq bu geniş vilayətin müstəqilliyini təmin edəcəyik.

Noyabr ayının 6-da ***Dehkarqanda*** danışıqlar yenidən başladı. Təzminat məsələsi üzrə bəzi ciddi narazılıqlar yanvarın 7-də danışıqların kəsilməsinə gətirib çıxardı. Rus qoşunları irəli atıldı. Yanvarın 28-də Urmiya, fevralın 8-də Ərdəbil tutuldu. Müqavilənin bağlanması sürətləndi. Fevralın 9-dan 10-na keçən gecə Təbriz yaxınlığında ***Türkmənçay*** kəndində müqavilə imzalandı.

Türkmənçay müqaviləsi 16 maddədən ibarət idi. Gülüstan müqaviləsinin bəzi maddələrinin məzmunu burada saxlanmış, təzminat və s. haqqında yeni maddələr əlavə edilmişdi.

Birinci maddə ilə tərəflər arasında əbədi sülh elan olunurdu. Müqavilə İrəvan və Naxçıvan xanlıqlarının Rusiyaya keçdiyini (III maddə) təsbit edir, sərhədləri ayırır (IV maddə), İranın Rusiyaya iyirmi milyon gümüş rubl təzminat ödəyəcəyi bildirilirdi (II maddə). Abbas Mirzənin vəliəhd kimi tanınmasına ayrıca yer verilir (VII maddə), Xəzər dənizində yalnız Rusiyanın hərbi donanma saxlamaq hüququ təsdiq edilirdi (VIII maddə). Onuncu maddə ticarət konsulluqları açılmasından, on birinci maddə qarşılıqlı olaraq savaş ilə dayandırılmış işlərin bərpasından bəhs edirdi. XII, XIV, XV maddələr iki ölkə arasında əhalinin hərəkəti və başqa məsələlərə toxunurdu. On beşinci maddə ermənilərin İrandan Transqafqaza köçürülməsi (müqavilədə konkret deyilməsə də, ümumi razılıq belə olmuşdu) ilə bağlı idi. Sonuncu maddə barış haqqında yerlərə məlumat verilməsi, onun ratifikasiyası məsələlərinə toxunurdu.

Müqavilə Rusiya tərəfindən 1828-ci ilin martında, Qacarlar tərəfindən iyul ayında ratifikasiya edildi.

Türkmənçay müqaviləsi XIX yüzillikdə İranın İngiltərə, Fransa, Rusiya və Türkiyə ilə bağladığı müqavilələr içərisində ən ağırı idi. Bu müqavilə İranı Rusiyadan asılı vəziyyətə gətirirdi.

**1828-1829-cu İLLƏR RUSİYA-TÜRKİYƏ MÜHARİBƏSİ.** Çarlıq Rusiyası İranla müharibəni udduqdan sonra işğalçılıq istəklərinin yeni nöqtəsinə keçdi. Qafqazın Qara dəniz sahillərini ələ keçirməyə başladı. Rusiya taxılının demək olar üç də ikisi Qara dənizdən ixrac olunurdu. Yaxın Şərqə Rusiya mallarının göndərilməsi də genişlənmişdi. Satış üçün Asiyaya mal çıxarılması 1802-1827-ci illər arasında 3,3 faizdən 30,4 faizə qalxmışdı. Qafqazın Qara dəniz sahillərinin, Cənub-qərbi Gürcüstan bölgələrinin ələ keçirilməsi və bunun strateji əhəmiyyəti də nəzərə alınırdı. Rusiya Qafqazda öz ağalığını bərqərar etmək və möhkəmləndirmək üçün çox əlverişli imkan tapmışdı.

Buna görə İran ilə savaşı başa vuran kimi Rusiya aprel ayında Türkiyəyə müharibə elan etdi. Savaş Balkanlarda və Qafqazda gedirdi. Qafqazda gedən döyüşlər çox əhəmiyyətli yer tuturdu.



İlkin Qafqaz döyüşlərində türklərin hücum planları pozuldu. Ruslar Qafqazın Qara dəniz qalalarını, onun cənub-qərb bölgələrini tutdular. Anadolu ordusuna güclü zərbə vuruldu. 1829-cu ilin qış və yazında Axalsix və Bayazitdə, Liman, Diqur altında və Quzey Qafqazda Osmanlı ordusunun əks hücumu baş tutmadı. Rusiyanın güney müdafiə xəttini yarmaq ümidləri doğrulmadı. Rus ordusu öz xeyrinə dönüş yaratdı. Türklərin Anadolu birləşməsi dağıdıldı, bəzi şəhərlər tutuldu. 1829-cu ilin sentyabrında ***Ədirnə*** müqaviləsi imzalandı. Rusiya Transqafqazın işğalının hüquqi baxımdan tanınmasına nail oldu. Qara dəniz sahillərini, Axalsix vilayətini Axalsix və Axalkalaki şəhərlərilə birgə ələ keçirdi.

## TÜRKMƏNÇAY MÜQAVİLƏSİNİN MƏTNİ

### I maddə

Bütün Rusiya imperatoru həzrətləri və İran şahı həzrətləri arasında, onların vərəsələri və taxt-tacın varisləri, onların dövlətləri və qarşılıqlı surətdə təbəələri arasında bundan sonra əbədi sülh, dostluq və tam razılıq olacaqdır.

### II maddə

Bütün Rusiya imperatoru həzrətləri və İran şahı həzrətləri hörmətlə qəbul edirlər ki, razılığa gələn yüksək tərəflər arasında baş vermiş və indi xoşbəxtlikdən qurtarmış müharibə ilə Gülüstan traktatının qüvvəsi üzrə qarşılıqlı təəhhüdlər də başa çatmışdır; onlar göstərilən Gülüstan traktatını Rusiya və İran arasında yaxın və uzaq gələcəyə sülh və dostluq münasibətləri qurmalı və təsdiq etməli olan indiki şərtlər və qərarlarla əvəz etməyi zəruri hesab etdilər.

### III maddə

İran şahı həzrətləri öz adından və öz vərəsələri və varisləri adından Arazın o tayı və bu tayı üzrə İrəvan xanlığını və Naxçıvan xanlığını Rusiya imperiyasının tam mülkiyyətinə güzəşt edir. Şah həzrətləri bu güzəşt nəticəsində, hazırkı müqavilənin imzalanmasından sayılmaqla altı aydan gec olmayaraq, yuxarıda adları çəkilən hər iki xanlığın idarə edilməsinə aid olan bütün arxivləri və ictimai sənədləri Rusiya rəisliyinə verməyi vəd edir.

### IV maddə

Müqaviləyə qoşulan yüksək tərəflərin razılığı ilə hər iki dövlət arasında sərhədlər aşağıdakı hüdudda qərara alınır: sərhəd xətti Türkiyə torpaqlarının ucundakı kiçik Araratın zirvəsindən aralıda düz istiqamətə ən yaxın nöqtədən başlayaraq o dağların zirvəsindən keçir; buradan maillik üzrə kiçik Araratın cənub tərəfindən axan Aşağı Qarasu çayının yuxarı-

larına düşür, sonra sərhəd xətti o çayın axarı üzrə Şərur qarşısında onun Araza töküldüyü yerədək davam edir; bu məntəqədən Abbasabad qalasınadək Araz çayının yatağı üzrə gedir; burada qalanın Arazın sağ sahilində yerləşən xarici istehkamları yanında yarım ağac, yəni 3 ½ Rusiya versti enində bütün istiqamətlərdə dövrə haşiyələnəcək və o ətrafda olan torpaq sahəsi büsbütün məhz Rusiyaya məxsus olacaqdır və bu gündən sayılmaqla iki ay ərzində ən yüksək dəqiqliklə ayrılacaqdır. Sərhəd xətti o yerdən, göstərilən dövrənin şərq tərəfdən Arazın sahilinə birləşdiyi yerdən başlayaraq bir daha o çayın yatağı ilə Yeddibulaq bərəsinədək gedir; buradan İran torpaqları Araz çayının yatağı üzrə 3 ağac, yəni 12 Rusiya versti uzanacaqdır; sonra sərhəd Muğan düzü vasitəsilə Bolqaçayadək, iki kiçik Adınabazar və Sarıqamış çaylarının birləşməsindən 3 ağac, yəni 21 verst aşağıda olan torpaqlara gedir; sərhəd buradan Bolqarçayın sol sahili ilə yuxarı, adları çəkilən kiçik Adınabazar və Sarıqamış çaylarının birləşməsinədək, sonra Şərqi Adınabazar çayının sağ sahili üzrə onun yuxarılarınadək davam edir, buradan isə Cikoir yüksəkliyinin zirvəsinədək elə davam edir ki, o yüksəklikdən Xəzər dənizinə tökülən bütün sular Rusiyaya məxsus olacaqdır, İran tərəfə axan bütün sular isə İrana məxsus olacaqdır. Burada iki dövlət arasındakı sərhəd dağ zirvələrilə müəyyən edilir; qərarlaşdırılmışdır ki, onların Xəzər dənizinə doğru enişi Rusiyaya məxsus olmalıdır, o biri yandakı enişi isə İrana məxsusdur. Sərhəd Cikoir yüksəkliyi zirvəsindən, Talışı Ərş dairəsindən ayıran dağlar üzrə Şəmərkuhun zirvəsinədək keçir. Suların axarını iki yerə ayıran dağların başı, yuxarıda Adınabazarın yuxarı axarı və Cikoir zirvəsi arasındakı sahə haqqında deyilən kimi, burada da eləcə sərhəd hüdudunu təşkil edəcəkdir. Sonra sərhəd xətti suların axarına aid yuxarıda şərh olunan qaydalara aramsız əməl etməklə Qəmərkuhun zirvəsindən Zuvand və Ərş dairələrini ayıran dağ silsiləsi üzrə Velgic dairəsinin sərhədlərinədək uzanacaqdır. Beləliklə, adı çəkilən dağın zirvəsindən əks tərəfdə yerləşən hissəsi istisna olmaqla Züvand dairəsi Rusiyaya birləşir. Hər iki dövlət arasındakı sərhəd xətti su axınının yuxarıda qeyd olunan qaydalarına daima uyğun olaraq, Velgic dairəsi sərhədindən Kloputanın zirvəsi və Velgic dairəsindəki dağların baş silsiləsi üzrə Astara çayının şimal mənbəyinədək, buradan o çayın yatağı boyu onun Xəzər dənizinə töküldüyü yerədək davam edəcək ki, burada da Rusiya torpaqlarını İrandan ayırmalı olan sərhəd xətti qurtarır.

### V maddə

İran şahı həzrətləri bütün Rusiya imperatoru həzrətlərinə öz səmimi dostluğuna sübut olaraq, bu maddə ilə həm öz adından, həm də öz vərəsələri və İran taxt-tacının varisləri adından, yuxarıda göstərilən sərhəd



xətti arasında, Qafqaz sıra dağları və Xəzər dənizi arasında yerləşən bütün torpaqların və bütün adaların, bununla bərabər həmin məmləkətlərdə yaşayan bütün köçəri və başqa xalqların əbədi zamanadək Rusiya imperiyasına məxsus olduğunu təntənə ilə tanıyır.

### VI maddə

İran şahı həzrətləri hər iki dövlət arasında yaranmış müharibə ilə Rusiya imperiyasına vurulmuş xeyli ziyana, həmçinin Rusiya təbəələrinin düçar olduğu qurbanlara və itkiyə hörmət əlaməti olaraq, onların əvəzini pul təzminatı ilə ödləməyi öhdəsinə götürür. Müqaviləyə qoşulan hər iki yüksək tərəf o mükafatın məbləğini on kurur tümən raicə, ya iyirmi milyon gümüş manat qərarlaşdırmışdır, onun vaxtı, ödəniş qaydası və təminatı sözbəsöz hazırkı Traktata daxil edilə biləcək qüvvəyə malik olan xüsusi müqavilədə qərarlaşdırılmışdır.

### VII maddə

İran şahı həzrətləri öz əlahəzrət oğlu şahzadə Abbas Mirzəni öz vərəsəsi və taxt-tacın varisi təyin etmək ittifaqında bulunan kimi, Bütün Rusiya imperatoru həzrətləri İran şahı həzrətlərinə öz dostluq münasibətlərini və bu varislik qaydasının təsdiqinə kömək etmək arzusunu açıq-aşkar sübut etməkdən ötrü bundan sonra şahzadə Abbas Mirzə həzrətlərinin simasında İran taxt-tacının vərəsəsi və varisini, onun taxta çıxmasından sonra isə onu o dövlətin qanuni hökmdarı hesab etməyi öhdəsinə götürür.

### VIII maddə

Rusiya tacir gəmiləri, əvvəlki qayda üzrə, Xəzər dənizində və onun sahilləri boyunca azad üzmək və bununla bərabər onlara yaxınlaşmaq hüququna malikdir; gəmi qəzası hallarında İranda onlara hər cür kömək edilməlidir. Bu üsulla İran ticarət gəmilərinə də Xəzər dənizində əvvəlki qayda ilə üzmək və Rusiya sahillərinə yan almaq hüququ verilir ki, orada gəmi qəzası hallarında onlara qarşılıqlı surətdə hər cür vəsaitlə kömək göstərilməlidir. Hərbi gəmilərə gəldikdə isə, qədimdə olduğu kimi, yalnız Rusiya hərbi bayrağı altında olan hərbi gəmilər Xəzər dənizində üzə bilər; bu səbəbdən də əvvəlki müstəsna hüquq indi də onlara verilir və təsdiq edilir ki, Rusiyadan başqa heç bir dövlətin Xəzər dənizində hərbi gəmiləri ola bilməz.

### IX maddə

Bütün Rusiya imperatoru həzrətləri və İran şahı həzrətləri hər vasitə ilə onlar arasında bu qədər xoşbəxtliklə bərpa olunmuş sülh və dostluğu bərqərar etməyi arzulayaraq, müvəqqəti tapşırıqların ixrası və ya daimi

qalmaq üçün bu və ya o biri dövlətə göndərilən yüksək sarayların (hökumətlərin – *Red.*) səfirlərinin, nazirlərinin və işlər müvəkkillərinin, onların dərəcəsinə, razılığa gələn yüksək tərflərin şərəfinə, onları birləşdirən səmimi dostluğa və yerli adətlərə uyğun olaraq, ehtiramla və (hər birinin) ayrılıqda qəbul edilməsini qarşılıqlı surətdə rəva bilirlər. Xüsusi protokol ilə bu və ya o biri tərəfin əməl etməsi üçün bu məzmunda mərasim qərarlaşdırılacaqdır.

**X maddə**

Bütün Rusiya imperatoru Həzrəti və İran şahı həzrətləri hər iki dövlət arasında ticarət əlaqələrinin bərpa olunmasını və genişlənməsini sülhün bərqərar olmasının ən başlıca xeyirxah nəticələrindən biri saydıqları üçün, tam qarşılıqlı razılıq əsasında hökm verdilər ki, ticarətə hamilik edilməsinə və qarşılıqlı surətdə təbəələrin təhlükəsizliyinə Aid olan bütün sərəncamlar səadətlə yoluna qoyulsun və onlar onu qarşılıqlı surətdə müvəkkillər tərfindən bağlanacaq bu sülh müqaviləsinin eyni güclü hissəsi sayılmalı olan və ona əlavə edilən ayrıca Akt ilə izah etsinlər. İran şahı həzrətləri, qabaqlar olduğu kimi, Rusiyada ticarətin xeyrinə tələb olunan hər yerə konsullar və ticarət agentləri təmyin etmək hüququ verir və öhdəsinə götürür ki, hər birinin müəyyəti on nəfərdən çox olmayacaq konsul və agentlərə hakimlik göstərsin ki, onlar öz rütbələrinə verilmiş şan-şövkət və üstünlüklərdən istifadə etsinlər. Bütün Rusiya imperatoru həzrətləri öz tərəfindən İran şahı həzrətlərinin konsul və ya ticarət agentlərinə münasibətdə tam qarşılıqlı əməl etməyə vəd verir. İran hökümətinin Rusiya agentinə və ya konsuluna əsaslı şikayəti olarsa, Rusiya naziri (səfiri – *Red.*) və ya şah həzrətləri sarayı yanında işlər müvəkkili, ya da onların bilavasitə rəisi öz mülahizəsinə əsasən günahkarı vəzifəsindən uzaqlaşdıra və onu müvəqqəti olaraq digər şəxsə həvalə edə bilər.

**XI maddə**

Qarşılıqlı surətdə təbəələrin bütün tələbləri və savaş ilə dayandırılmış başqa işlər sülh bağlandıqdan sonra ədalətlə bərpa olunacaq və həll ediləcəkdir. Qarşılıqlı surətdə təbəələrin öz aralarında bu və ya o biri hökumətin xəzinəsinə müqavilə təəhhüdləri dərhal və tamamilə təmin edilməlidir.

**XII maddə**

Barışığa gələn yüksək tərəflər təbəələrin xeyri üçün özlərinin ümumi razılığı üzrə qarşılıqlı surətdə qərara almışdır; onlardan Arazın hər iki tərəfindən tərpənməyən əmlaka malik olanlarına üç il vaxt verilməlidir ki, onlar bu müddət ərzində onu azad surətdə satsınlar və dəyişsinlər. Lakin bütün Rusiya imperatoru həcrətləri, ona aidiyyatı olduğuna görə, keçmiş İrəvan



sərdarı Hüseyn xanı, onun qardaşı Həsən xanı və keçmiş Naxçıvan hakimi Kərim xanı bu iltifatlı sərəncamdan kənar edir.

**XIII maddə**

Axırıncı və ya bundan qabaqkı savaşın gedişində əsir alınmış hər iki tərəfin bütün hərbi əsirləri, bununla bərabər hər iki hökumtin nə vaxtsa qarşılıqlı əsir düşmüş təbəələri azad edilməli və dörd ay ərzində qaytarılmalıdır; onlar həyati azudə və digər tələbatlarla təmin edilməli və onları qəbul etmək və sonrakı yaşayış yerinə yollamağa sərəncam vermək üçün hər iki tərəfdən ayrılmış komissarlara verməkdən ötrü Abbasabada göndərilməlidirlər. Razılığa gələn yüksək tərəflər hər iki tərəfdən əsir düşmüş, lakin olduqları yerin uzaqlığına və ya başqa bir səbəbə və ya vəziyyətə görə göstərilən müddətə qaytarıla bilməyəcək bütün hərbi əsirlərə, habelə Rusiya və İran təbəələrinə də bu yolla yanaşacaqlar. Hər iki dövlət bələlərinin hər bir vaxt tələb edilməsində özünə dəqiq və qeyri-məhdud hüdud verir və öhdəsinə götürür ki, onlar aşkar edildikdə və ya onlar haqqında tələblər alındıqda qarşılıqlı surətdə onları (bir-birinə) qaytarsınlar.

**XIV maddə**

Razılığa gələn yüksək tərəflərdən heç biri axırıncı savaşın başlanmasınadək və ya o vaxt digərinin təbəəliyinə keçmiş olan satqınlarınvə fərarilərin verilməsini tələb etməyəcəkdir. İran hökuməti, bu qaçqınlardan bəzilərinin və onların köhnə həmvətənlərinin və ya hakimiyyəti altında olanların arasında qərəzli əlaqələrdən qarşılıqlı surətdə baş verə biləcək zərərli nəticələrin qarşısını almaq üçün öhdəsinə götürür ki, indi və ya sonralar Rusiya hökumətinin adbaad göstərdiyi adamların Arazla Çara çayının, Urmiya gölünün, Cakatu çayının və Qızıl Üzən çayının Xəzər dənizinə töküldüyü yer arasında yaratdığı hüduddakı öz torpaqlarında olmasını qadağan edəcəkdir. Bütün Rusiya imperatoru həzrətləri öz tərəfindən İran qaçqınlarının Qarabağ və Naxçıvan xanlıqlarında və İrəvan xanlığının Araz çayının sağ sahilində yerləşən hissəsində yurd salmasına və ya yaşamasına (hər hansı) bir qərarda icazə verməyəcəyini vəd edir. Lakin özlüyündə aydındır ki, ancaq rəsmi rütbə daşıyan və ya müəyyən ləyaqət sahibi olan adamlara: şəxsi nümunələri, nəsihət və gizli əlaqələri ilə keçmişdə onların idarəsində və ya hakimiyyəti altında olan əvvəlki həmvətənlərinə zərərli təsir göstərə bilən xan, bəy və dini rəislər və ya mollalara qarşı bu şərtin gücü var və olacaqdır. Ümumiyyətlə, hər iki dövlətin sakinlərinə gəldikdə isə, razılığa gələn yüksək tərəflər qərara alır ki, hər iki tərəfin bir dövlətdən o birinə keçmiş və ya bundan sonra keçəcək təbəələri onların keçdiyi hökumətin icazə verdiyi hər yerdə yurd sala və yaşaya bilər.

### XV maddə

Şah həzrətləri öz dövlətinə sakitliyi qaytarmaq və öz təbəələrindən hazırki müqavilə ilə bu qədər xoşbəxtliklə başa çatmış müharibədə törədilmiş bədbəxtlikləri daha da artıra bilən hər şeyi kənar etmək kimi xeyirli, xilasedici niyyətlə hərəkət edərək, Azərbaycan adlanan vilayətin bütün əhalisinə və məmurlarına büsbütün və tam bağışlanma əta edir. Hansı dərəcəyə məxsus olmasından asılı olmayaraq onlardan heç kəs öz hərəkətinə və ya münaqişə ərzində və ya Rus ordusunun adı çəkilən vilayəti müvəqqəti tutduğu zaman davranışına görə təqibə, dini əqidəsinə görə təhqirə məruz qalmamalıdır. Bundan başqa I məmur və sakinlərə bu gündən başlayaraq öz ailəsi ilə birlikdə İran vilayətindən Rusiyada sərbəst keçmək, hökumət və yerli rəisliyin heç bir maneçiliyi olmadan onların satlıq malına və ya əmlakına, əşyalarına hər hansı gömrük və vergi qoyulmadan tərpənən mülkiyyətini aparmaq və satmaq üçün bir il vaxt verilir. Tərpənməyən mülkə gəldikdə isə, onun satılması və ya onun haqqında özxoşuna sərəncam üçün beş illik müddət müəyyən edilir. Lakin bu bağışlanma qeyd olunan bir illik müddət başa çatanadək məhkəmə cəzası düşən günah və ya cinayət işləmiş adamlara şamil edilmir.

### XVI maddə

Müvəkkillər bu sülh müqaviləsi imzalandıqdansonra, qarşılıqlı surətdə təxirə salınmadan təcili olaraq, hərbi əməliyyatların kəsilməsi haqqında bütün yerlərə xəbər və lazımi fərman göndərməlidir. Eyni məzmunda iki nüsxədə tərtib edilmiş, hər iki tərəfin müvəkkilləri tərəfindən imzalanmış, onların gerbli möhürləri ilə təsdiq edilmiş və qarşılıqlı olaraq bir-birinə verilmiş bu sülh müqaviləsi bütün Rusiya imperatoru həzrətləri və İran şahı həzrətləri tərəfindən təsdiq və ratifikasiya edilməli və onların imzaladığı ratifikasiya mətnləri təntənəli şəkildə hər iki tərəfin müvəkkilləri tərəfindən dörd ay ərzində və ya mümkün olduqca daha tez dəyişdirilməlidir. Fevral ayının 10-da İsanın anadan olmasının 1828-ci ilində Türkmənçay kəndində bağlanmışdır.

*Əslinə qol çəkmişlər:*

***İvan Paskeviç, A.Obrezkov.***



*ON YEDDİNCİ BÖLÜM*

# ÇARLIQ RUSİYASININ TORPAQ SİYASƏTİ. MÜSTƏMLƏKƏ ZÜLMÜNƏ QARŞI ÜSYANLAR

## 1. QUZEY AZƏRBAYCANIN RUSİYA TƏRƏFİNDƏN İŞĞALI ƏRƏFƏSİNDƏ AQRAR QURULUŞUN SƏCİYYƏSİ

**TORPAQ MÜLKİYYƏTİ VƏ SAHİBLİYİ.** XVIII yüzilliyin sonlarında daxili, siyasi və ölkələrarası durum dolaşıq olduğundan mərkəzləşmiş dövlət yaradılmamış, müstəqil və yarımmüstəqil xanlıqlar birləşməmişdi. Vahid siyasi hakimiyyətin yoxluğu üzündən vahid torpaq fondu yaranmamışdı. Belə bir şəraitdə dövlət torpaqları üzərində ali mülkiyyətçilik hüququ bütün ölkənin əvəzinə ayrı-ayrı xanlıqlarda idi. Divan və xassə torpaqları İran şahının asılılığından çıxan xanların mülkiyyətinə çevrilmişdi. Ayrı-ayrı xanlıqlardakı torpaqların bir hissəsi xan ailələrinin əlində toplanmışdı. Mirzə Camalın yazdığı kimi, «İran və Rum (Türkiyə) padşahlarına boyun əymədən müstəqil hökmranlıq etmiş» Qarabağ hakimi İbrahim xan xanlığın bütün sakinlərinin malik olduqları qədər, hətta ondan da artıq taxıl əkini sahələrinə, çoxlu tut bağına, 3-4 min başlıq at ilxısına və iri qoyun sürülərinə təkbaşına sahiblik edirdi. Şəki hakimi Məhəmmədhəsən xanın 27 kənddə 222 tut bağı, 13 kənddə 591 tağar məhsul verən taxıl əkinləri, 135,5 tağarlıq çəltik əkini, 11 dəyirmanı, 28 qışlağı və 264 dükanı vardı.

Xanlıqlarda əhali yaşayan və yaşamayan torpaqların bir hissəsi xan xəzinəsinə məxsus olub ***divan*** adlanırdı. Belə torpaqlardan götürülən gəlir xan xəzinəsinə daxil olurdu. Mülk və tiyul xüsusi torpaq sahibliyinin iki növü idi. ***Mülk*** torpaq sahibliyinin ən mühüm cəhəti sahibkarın həmin torpaqla bağlı hər cür hüquqi əməliyyat apara bilməsidir. Mülkədar mülkü sata, bağışlaya, girov qoya bilərdi. Mülk torpaqları vərəsəlik yolu ilə atadan oğula ötürüldüyündən irsi səciyyə daşıyırdı. Xanlıqlarda, xüsusilə Naxçıvan xanlığında mülk kağızlarının (qəbalə) təhlili göstərir ki, mülk sayılan torpaq və otlaq sahələrinin alqı-satqısı şəriət məhkəmələri tərəfindən həyata keçirilirdi. Hüquqi əməliyyat «özgələşdirilən» torpaqda yaşayan kəndliyə aid deyildi. Çünki mülkədarın kəndli üzərində mülkiyyət yox, yalnız sahiblik hüququ vardı.

Xanlıqlarda mülk torpaq sahibliyi *üç yolla*: alqı-satqı, kənd icmalarının torpaqlarının bəylər tərəfindən tutulması və nüfuzlu ağa, bəy və sultanlara xanlar tərəfindən torpaq və kəndlərin daimi sahibliyə verilməsi yolu ilə

yaranmışdı. Qarabağ hakimi İbrahim xan oğlu Mehdiqulu ağanın adına yazdırdığı təliqələrdə kəndlərdəki 242 torpaq sahəsi, 12 köç və 12 arx üzərində daimi sahiblik hüququnun ona verilməsini qanuniləşdirmişdi. 1805-ci ilin fevralında verilmiş xan təliqəsi belə səslənir: «Hindarx kəndinin bütün sakinlərinə bildirilsin ki, pulla aldığım torpaqlarınızı, bağlarınızı və başqa daşınmaz əmlakınızı oğlum Mehdiqulu ağaya verirəm... [O bunlara] qoy öz mülkiyyəti kimi sahiblik etsin, vərəsələrimdən bir kimsə ona toxunmasın. Sizə buyuruğum odur ki, onu öz ağanız sayasınız və ona sahibiniz kimi qulluq edəsiniz». Təliqədə mülkədar hüququnun bütün səciyyəvi cizgiləri açıqca görünür.

Xanlıqlarda nüfuzlu və köklü bəylər *xalisə* (təmiz) mülklərə sahib idilər. Vergi immunitetli belə mülklərə xan vergiyığanlarının gəlməsi qəti qadağan edilirdi. Xalisə mülklərinin bütün gəliri mülkədara çatırdı.

XVIII yüzilin sonu – XIX yüzilin başlanğıcında Azərbaycan xanlıqlarında şərti səciyyə daşıyan *tiyul* torpaq sahibliyi geniş yayılmışdı. Mərkəzdənqaçan qüvvələrin varlığı şəraitində hakim xanlar sosial arxa yaratmaq məqsədi ilə xəzinə torpaqlarını bəy və ağalara, qulluq adamlarına vəzifə müddətinə, ya ömürlük olaraq bağışlayırdılar. Bu şərti torpaq sahibliyinə dair Quba xanlarının təliqələri tiyul haqqında başlıca sənədlərdir.

Birincisi, xan hərbi və mülkü qulluğa görə ayrı-ayrı şəxslərə kəndlərdən vergi və başqa yığımları toplamaq hüququ bəxş edirdi. Əslində kənd müəyyən və qeyri-müəyyən müddətə, müvəqqəti, ya ömürlük olaraq bəyin sahibliyinə verilirdi. Onun əldə saxlanma müddəti xanın iradəsindən asılı idi. Xanın torpağı istənilən vaxt geri almaq imkanını öz əlində saxlaması tiyuldarı sədaqətli qulluğa vadar edirdi.

İkincisi, tiyuldarın torpaq üzərində sahiblik hüququ inzibati idarə hüququ ilə birləşirdi. Xan xəzinə kəndlərinin gəlirlərinin bir hissəsini tiyuldarlara güzəşt etməklə kəndlərin idarəçiliyini onların üzərinə qoyur, bununla qayda-qanun yaradılması və vergilərin yığılmasını təmin edirdi. Quba xanlığında Fətəli xanın 1774-cü ildə Sodan, Quşçu, Çıraq, Uçax və Çalxan kəndlərini Məlik Hacı bəyə bağışlaması, Şeyxəli xanın 1806-cı ildə Qacar kəndini camaatı ilə birgə Məhyəddin bəyə tiyul verməsi haqda təliqələr bu torpaq sahibliyinin bütün əsas cəhətlərini aydınlaşdırır. Təliqələrdə tiyulun hansı müddətə bağışlanması göstərilmirdi. Tiyul torpağında yaşayan kəndlilər öz «sahiblərinə qulluq göstərməli», onun «bütün tələblərini» sözsüz yerinə yetirməli idilər.

Üçüncüsü, işğal ərəfəsində Azərbaycan bəylərinin böyük hissəsi tiyul torpaqlarının irsi, atadan oğula keçməsinə nail olmuşdular. Tiyul torpaqlarının irsən keçməsi bütün Azərbaycan üzrə ümumi qaydaya çevrilmiş, ancaq bu qayda qanunla rəsmiləşdirilməmişdi.



Bu dövrdə xanlıqlarda torpaq sahibliyinin qarşılıqlı nisbəti və çəkisi eyni deyildi. Quba, Talış və Şəki xanlıqlarında kənd əhalisinin böyük hissəsinin (uyğun olaraq 65,6 faiz, 60 faiz və 51,5 faiz) yaşadığı torpaqlar xan xəzinəsinin mülkiyyətində idi. Qarabağ və Şirvan xanlıqlarında isə kəndli həyətlərinin (birincidə 65, ikincidə 60,5 faizi) üzərində xüsusi torpaq sahibliyi hökm sürürdü. Bu iki əsas forma arasında nisbət sabit qalmamış, XVIII yüzilin sonlarında xüsusi torpaq sahibliyinin inkişafı ilə bağlı dəyişmişdir.

**TORPAQDAN İSTİFADƏ QAYDALARI.** Azərbaycanın aqrar quruluşunu Qərbi Avropa və Rusiyadan ayıran başlıca xüsusiyyət bəylərin şəxsi təsərrüfatlarının zəif inkişaf etməsi idi. Kəndlilərin müxtəlif yardarlıq-icarə ilə istismar qaydasının üstünlüyü başqa Şərq ölkələri kimi, Azərbaycan üçün də səciyyəvi sayıla bilər.

Xanlıqlarda bəylərin sahibliyində olan torpaqların bir hissəsi bəyin şəxsi təsərrüfatı üçün ayrılırdı. Şəki xanlığında bəylərin mülkündə olan 35 kənddəki taxıl əkinləri və tut bağları yardarlıq-icarə şərti ilə becərildiyindən biyarla heç bir bağlılığı yox idi. Şirvan xanlığında isə bəylərin xüsusi təsərrüfatları sakinlərin ildə 1-3 gün biyara çıxması yolu ilə becərilirdi.

Xanların, iri feodalların böyük təsərrüfatları, o cümlədən tut bağları ilboyu rəncbər əməyi ilə becərilirdi. Əslində isə ilin yalnız bir neçə günü (azı 1, çoxu 5 gün) ərzində kəndlilər tərəfindən becərilən bəy təsərrüfatları çox deyildi. Bunun nəticəsində mülkədar təsərrüfatı torpaq sahibliyinin iqtisadi özülü ola bilməmişdi. Biyar təsərrüfatı və işləyib ödəmə rentasının az yer tutduğu və «əşya hüququnun» (kəndlinin əşya kimi satılması nəzərdə tutulur – *Red.*) olmadığı Azərbaycanda təhkimçilik hüququ üçün iqtisadi zəmin yaranmamışdı. Sahibkar kəndində kəndlilərin şəxsi təsərrüfatı istehsalın maddi əsasını təşkil edirdi. Kəndli öz torpağını fərdi qaydada becərirdi. Xəzinəyə məxsus kəndlərdə isə kəndlilərin istifadəsində olan torpaqlar iki yerə bölünürdü: 1) kəndlilərin pay torpaqları; 2) kənd icmasının (camaatın) birgə sahibliyi və istifadəsində olan torpaqlar. Bu bölgüyə uyğun olaraq kəndlilər torpaqdan fərdi və birgə qaydada istifadə edirdilər.

**SOSİAL ZÜMRƏLƏR.** İşğal ərəfəsində xanlıqlarda ali silkin başında müstəqil hakimlər olan xanlar dururdu. Xan türk kağanlıqları çağından hökmdar anlamında işlənirdi. «İlekxanlı» (Qaraxanlı), «Elxanlı» anlayışları da buradandır. Səfəvilərdən I Təhmasibin illərindən «xan» əyalət hakimlərinin titulu kimi işlənməyə başladı. ***Oruc bəy Bayatın*** yazdığına görə, xanlıq irsən keçirdi. Bu adı daşıyanlar onu bir mülki hüquq kimi qoruyub saxlayırdılar. Səfəvi şahları bir kimsəyə əyalət hakimliyi və xanlıq verdikdə, ona ipək kaftan, qızıl belbağı (kəmər), zərli çalma, ayrıca bayraq və təbil bağışlanırdı. Abbasqulu Ağa yazır ki, Nadir şahın ölümündən sonra irsi əyalət hakimləri şahdan asılı olmayan hökmdarlara çevrildilər. Şəki,

Şirvan və Qarabağda isə «yüksək nəcabəti (xan adı, irsi əyalət hakimliyi) olmayan, ancaq xalq içində güclü nüfuz qazanmış adamlar» hakimiyyətə gəldilər.

Ali silk sayılan bəylər (günbatar bölgələrdə ağalar) üç dərəcəyə bölünürdü: ***köklü, nəsli*** və ***şəxsi*** bəylər. Köklü bəylərin çoxu bu adı ötən yüzillərdən irsən daşıyırdılar. Bunlar *köklü* əsilzadə zümrəsi, yüksək dövlət qulluqçuları və mülk sahibləri idi. Bir zamanlar bütün hakim zümrə bu adı daşıyırdı. Tarixi qaynaqlarda Azərbaycanda, Anadoluda, başqa türk dövlətlərində «Qara Yusuf bəy», «Həsən bəy», «Osman bəy», «Teymur bəy» adları bununla bağlıdır. A.Bakıxanov haqlı yazırdı: «Bək» adı hökmdar özü də olmaqla [yüksək zümrədən olan] hamıya aid idi». Onun çar hökumətinə verdiyi arayış üzrə, nəsli ölkə hakimləri müstəqil xanlıq hökmdarına çevrildikdə, qabaqlar onların tabeliyində olan bütün nəsli bəylər köklü bəylik aldılar. Belə bəylər xalq içərisində böyük nüfuz sahibi idilər, xanlar da onlarla ehtiramla davranırdı. ***Mirzə Camalın*** Qarabağ xanlığında silki bölgü ilə bağlı yazdığı kimi, «mal, dövlət... sahibi olub xanın başqa vilayətlərin xanlarına bərabər tutduğu övladları, qohum-qardaşları, 9 elin və 5 mahalın başçıları» da köklü bəy zümrəsinə mənsub idilər.

Zümrənin ikinci (orta) təbəqəsi sədaqətli qulluğa görə bəylik alanlardan yaranmış idi. Bu təbəqə tarix boyu böyüməkdə idi. Abbasqulu Ağanın arayışına görə, bir neçə nəsil boyu dövlət qulluğunu əldə saxlayan şəxsi bəylər ilkin xanların vaxtında ***nəsli*** bəy təbəqəsinə keçdilər. Mirzə Camal isə xanın «özü tərbiyə edib, qoçaqlıq, çalışqanlıq və düzgünlüyünə görə dövlət və rəiyyət sahibi etdiyi» başqa qulluq adamlarının da ondan bəylik almasını, sonra bu adı övladlarına ötürmək hüququ olan nəsli bəylər təbəqəsinə keçməsini bildirir.

***Şəxsi*** bəylər məaf, nökər və sadə adamlar sırasından yaranmışdı. Abbasqulu Ağa yazırdı ki, qulluğu irsən əldə saxlayan şəxsi bəylər xanlıq çağında nəsli bəy təbəqəsinə keçdikcə, xanlar yeni adamlara şəxsi bəylik verirdilər. «Xanın qarşısında qulluq işi, savaşda [bacarığı ilə] seçilməsi hər kəsi bu ada yüksəldə bilərdi və bir neçə arxa bu ad irsən (atadan oğula – *Red.*) keçirdisə, o da nəsli [bəy] olurdu».

Hakim xanların ən sadə adamlara, nökərlərə bağışladığı bəy adı şəxsi bəyliklə bağlı idi. Şəxsi bəy adı ən azı üç arxadan sonra övladlara ötürülə bilərdi. Azərbaycanda bəy adı daşımaq üçün hökmən bəy nəslinə mənsubluq məcburi sayılmırdı. Göründüyü kimi, bəy zümrəsinin üç təbəqəsi aşağıdan yuxarıya keçmə sayəsində bir-biri ilə qarşılıqlı bağlılıqda idi.

Xanlıqlarda bəylərin silki imtiyazları hüquqi baxımdan tam müəyyənləşdirilməmişdi; bu imtiyazlar xanın iradəsindən asılı idi. Yerli bəy və ağalara vergi immuniteti (maafi), tabelikdə olan əhali üzərində müəyyən məhkəmə-inzibati hüquqları, xan sarayı, qoşun və idarələrdə vəzifələr tutmaq və s. imtiyazlar verilirdi.



Cəmiyyətin aşağı zümrəsi olan kəndlilər başlıca torpaq sahibliyi çeşidlərindən asılı olaraq dövlət (xəzinə) və xüsusi sahibkarlıq kəndlilərinə (rəiyyətlərə) bölünürdülər. Xəzinə kəndliləri kənd icmasında birləşmişdilər, torpağı ellikiə becərirdilər. Bu kəndlilərin icmada birləşməyən hissəsi *rəncbərlər* (muzdur, işçi anlayışına uyğun gəlir) adlanırdı. Şəki və Şirvan əyalətlərində xəzinəyə məxsus ipəkçilik təsərrüfatları, üzüm və meyvə bağları rəncbər əməyi ilə becərilirdi.

Azərbaycanın sahibkar kəndində feodal-kəndli asılılıq münasibətləri hökm sürürdü. Xüsusi sahibkar kəndlisinin torpaq sahəsinə malik olmaq hüququ bu və ya başqa ölçüdə təmin edilsə də o, silki baxımdan hüquqsuz idi.

**VERGİ MÜNASİBƏTLƏRİNƏ ÜMUMİ BAXIŞ.** Xanlıqlar çağının vergiləri çeşidli və qarışıq olması ilə seçilirdi. Şəki xanlığında 12 adda, Şirvanda isə 20 adda natural və pul vergisi vardı. Azərbaycanın dövlət və sahibkar kəndlərində bütün vergilər iki yerə: ***sabit*** (daimi) və ***dəyişən*** vergilərə ayrılırdı. Dəyişən vergilər içərisində başlıca yer tutan *malcəhət* buğda, arpa və çəltik məhsulundan 1/10-i, ipək və pambığın isə 1/5-i qədərində torpaq sahibinə ödənilirdi. Daimi natural vergilər (Şəki xanlığında ***müstəmir***, Şirvanda ***sursat*** və s.) hər il məhsulun yığımından asılı olmayaraq sabit miqdarda ödənilirdi. Quba xanlığında dövlət rəiyyətləri hər il xəzinəyə bir rüb buğda, yarım rüb arpa və 1 manat 50 qəpik dəyişməz pul vergisi ödəyirdilər. Qarabağ xanlığında isə baramanın və taxılın 1/5-i natural şəkildə xəzinəyə ödənilir, xəzinə torpaqlarından əkin kimi istifadə edən kəndlilər isə ***bəhrə*** adlı *dəyişən vergi* (məhsulun 1/10-i) ödəyirdilər. Bütün bunlar məhsulun müəyyən hissəsini xan xəzinəsinə ödəyən kənd icmaları və fərdi kəndli təsərrüfatlarına xəzinənin çox zaman qarışmadığını göstərir. Belə təsərrüfatlar kəndlinin öz toxumu, iş heyvanı və kənd təsərrüfatı alətləri ilə becərilirdi. İrəvan və Naxçıvan xanlıqlarında sərdara məxsus torpaqları öz istehsal vasitələri ilə becərən kəndlilər ***bəhrəəkər*** adlanır, məhsulun yalnız 1/3-ni xəzinəyə ödəyirdilər. Torpağı sərdarın istehsal vasitələri ilə becərən əkinçilər isə məhsulun yarısını sərdara verirdilər.

Şirvan və Şəki xanlıqlarında xan xəzinəsinə və mülkədarlara məxsus tut bağları, taxıl və çəltik əkinləri icarə-yardarlıq qaydasında becərilirdi. Yardar kəndlilər məhsulun 1/2 = 3/5 hissəsini, bəzən isə 2/3-ni (məsələn, Şəki xanına məxsus 450 tut bağında) sahibkara – xəzinəyə və ya feodala ödəyirdilər. Şəki xanlığında xəzinəyə məxsus taxıl əkinlərinin bir hissəsi isə ümumi biyar yolu ilə becərilirdi. Kənd əhalisi hər il bu iş üçün 500 xış, 2812 öküz və 2484 biçinçi ayırmağa borclu idi.

Natural və pul vergilərinin ümumi miqdarı haqda məlumatla kifayətlənən hakim xanlar vergilərin mahal və kəndlər üzrə bölgüsünə qarışmır-

dılar. Bu işi mahal naibləri və kənd böyükləri görürdü. Vergilərin yığılması zamanı məhsulun kəmiyyət və keyfiyyəti nəzərə alınırdı. Vergi yığılması kimi çox mühüm vəzifə xan vergiyığanlarına (xanlıqların çoxunda ***darğa***, Şirvanda ***qasımlar***, İrəvan və Naxçıvanda ***sərkar***) tapşırılırdı. Vergiyığanlar məhsulun 1/10-i, bəzən isə 1/5-i ölçüsündə darğalıq haqqı ilə kifayətlənməyərək əhalidən qanunsuz vergilər toplamaqdan çəkinmirdilər.

Xalisə mülklərində yaşayan kəndlilər bütün vergiləri mülkədara ödəyirdilər. Şirvanda 50, Şəkidə isə 52 belə kənd vardı. Mülk və tiyul torpaqlarının sakinləri isə xan xəzinəsi ilə bəylər tərəfindən birgə istismar edilirdi. Həmin torpaqlarda bəy üçün ayrılan əkin sahələri sahibkarın istehsal vasitələri ilə yardarlıq-icarə qaydasında becərildiyindən, bəzi yerlərdə məhsulun 2/3-si, bəzən isə 4/5 və ya 3/4 hissəsi sahibkarın xeyrinə alınırdı.

Bəylərə məxsus xüsusi təsərrüfatlar rəiyyətin işləyib ödəmə mükəlləfiyyətinə cəlb edilməsi yolu ilə becərilirdi. Qubada sahibkar rəiyyətləri hər həyətdən 1 nəfəri ellik əvərəz üçün ayırırdılar; onlar ildə 1 gün bəy əkinini şumlamalı, 1 gün taxıl, 1 gün isə ot biçməli idilər. Qazax, Şəmşəddil və Borçalı sultanlıqlarında ağa kəndliləri ildə 4 gün (2 gün yazda, 2 gün payızda) öz xış və kotanları ilə onun əkinlərini şumlamalı idilər. Şirvan xanlığında isə bəy kəndliləri iməciliyə çıxıb ildə 1/3 gün elliklə və fərdi qaydada bəy təsərrüfatında əkin-biçin işi görməli idilər. Bakı və Dərbənd xanlıqlarında biyar üçün ilin 3-4 günü ərzində hər həyətdən bir rəiyyət bəy taxılını döymək üçün göndərilirdi.

Hakim xanlar kəndli icmasının üzvü olan rəiyyətlərin bir hissəsini rəncbər olaraq bəylərə ömürlük bağışlayırdılar. Bəylər belə kəndliləri istədikləri kənddə yerləşdirə bilərdilər. Rəncbərlik öhdəliyi daşıyan rəiyyət xəzinə vergilərindən azad edilirdi. Şəki, Şirvan, Quba və Talış xanlıqlarında rəncbər əməyi tətbiq edilən bəy təsərrüfatlarının çoxunda yardarlıq-icarə qaydaları hökm sürürdü. XIX yüzilin başlanğıcında Quba xanlığında sahibkarlara məxsus 337 rəncbər ailəsi vardı. Taxıl və çəltik əkmək üçün sahibindən 1 at, bir cüt kəl və toxum alan rəncbər məhsulun 1/4-dən yarısına kimi bəyə verməli idi. Şəki xanlığında isə tut bağlarını və çəltik əkinlərini bəyin istehsal vasitələri ilə becərən rəncbər ailəsi məhsulun təxminən o qədərini öz dolanışığı üçün götürməli, qalanını isə sahibinə verməli idi. Talış xanlığında rəncbərlərlə eyni hüquqi vəziyyətdə olan əkinçilər sahibkarın taxıl əkinlərini əkib-becərir, məhsulu onunla tən yarı (yardarlıq) bölürdü.

İşğal ərəfəsində Azərbaycan ayrı-ayrı xanlıqlara parçalandığından xəzinə və sahibkar kəndində vergi və mükəlləfiyyətlər bir mərkəzdən tənzim edilmirdi. Buna baxmayaraq ayrı-ayrı xanlıqlarda eyni torpaq sahibliyi, oxşar sinfi-silki quruluş, vergi və mükəlləfiyyət sistemi yaranmışdı. Ancaq xanlıqları bir-birindən ayıran özünəməxsus cəhətlər də qabarıq gözə çarpırdı.



## 2. TORPAQ HAQQINDA İLKİN BUYRUQ VƏ FƏRMANLAR

**BƏYLƏR İLƏ HÖKUMƏTİN MÜNASİBƏTLƏRİ İLKİN ÇAĞDA.** Quzey Azərbaycanın işğalı çağında (1801-1828-ci illər) çarlıq Rusiyasının burada həyata keçirdiyi ilk aqrar tədbirlər onun müstəmləkə siyasətinin tərkib hissəsi idi. Rusiyanın yerli feodallara qarşı siyasəti ilk illərdən öndə dururdu. İşğalın gedişində bu zümrəyə qarşı münasibət hərbi-siyasi vəziyyətin dəyişkənliyindən asılı idi. Qafqazın baş komandanlığı belə bir qaçılmaz həqiqəti aydın dərk etmişdi ki, bu sinfi tabe etmədən Azərbaycan torpaqlarını tutmaq mümkün deyildir.

Bu zaman yerli ali zümrə siyasi baxımdan üç yerə bölünmüşdü. Hakim xanların, köklü və nəsli bəylərin çoxu Rusiyaya qarşı idi. Onların bütöv bir dəstəsi: Gəncə hakimi Cavad xan, Quba və Dərbənd hakimi Şeyxəli xan, Bakı hakimi Hüseynqulu xan və onların sülaləsindən olan bütün xan və bəylərin hamısı Rusiyaya qarşı silahlı direşmə yolu tutmuşdular.

Gəncə xanlığının təslim edilməsində Qafqazın baş komandanı general Çiçianova qoşunla yardımçı olan Şəmşədilli ***Nəsib Sultan***, Qubanın Buduq mahalının Şeyxəli xandan narazı olan bəyləri, Quba və Bakıda ***Bakıxanovlar nəsli***, Şirvan xanının qardaşı ***Qasım xan*** və onun tərəfdarları, Qarabağ xanı ilə çəkişmədə məğlub olaraq sıravi bəy dərəcəsinə endirilmiş erməni məlikləri və ***Məhəmmədhəsən Ağanın tərəfdarları*** ikinci dəstə sayıla bilər. Yeni hökumətə «sədaqətli qulluq» yolu tutan bu dəstənin «rusiyapərəstliyi» şərti səciyyə daşıyırdı.

Xanlınlarda Rusiyaya «dost» və ya «düşmən» münasibəti aydın bilinməyən feodallar gözləmə mövqeyi tutur, daha çox siyasi havanın dəyişilməsini güdürdülər. Beləbri «bitərəf», üçüncü bir toplum kimi davranmağa çalışırdı.

1805-ci il 14 may Kürəkçay «Andlı öhdəliyi»ndən sonra Rusiya asılılığına düşən Qarabağ, Şəki və Şirvan xanlıqlarının hakimləri İbrahim xan, Səlim xan və Mustafa xan üzdə özlərini Rusiyaya «dost» göstərsələr də, Rusiya-İran savaşının sona yetməsini gözləyir, bu savaşın «dost» tərəf üçün uğursuz bitəcəyinə ümid bəsləyirdilər. Onlardan birinin – İbrahim xanın davranışında İran tərəfə azacıq bir «dönüş», onun ailəsi ilə birlikdə vəhşiliklə öldürülməsi ilə sona yetdi.

Çar Rusiyası İranla birinci savaşın gedişində tabe edilmiş xanlıqlarda yerli feodallar zümrəsi içərisində qüvvələr nisbətini öz xeyrinə dəyişmək üçün «etibarsız» bəylərin sərt müharibə qanunları ilə cəzalandırılmasına üstünlük verirdi. 1806-cı ildə Şəki və Car-Balakəndə, 1810-1811-ci illərdə Qubada Rusiyaya qarşı üsyan qaldıran bəylərin bir qismi İrana və başqa yerlərə qaçıb qurtulmuş, qalanları isə tutulub həbsxanaya salınmış və ya

Sibirə sürgün edilmişdi. Belə bəylərin bütün daşınmaz və daşınan əmlakı müsadirə edilib çar xəzinəsinə verilmişdi. Bütün əyalətlərdə Rusiyaya qarşı barışmaz mövqe tutan feodallar barədə Qafqazın baş komandanlığının sərt cəza tədbirlərinə yalnız 10 il sonra «qanuni» don geydirildi. Rusiya Ali Senatı 1811-ci ilin mayında özünün 1803 və 1809-cu illərdə müsadirə haqda çıxarılmış Ali fərmanlarını Qafqaza da aid etdi.

1813-cü il savaşın Rusiya üçün uğurla bitməsi hökumətin yerli feodallarla bağlı ardıcıl olmayan siyasətinə dəyişiklik gətirdi. Kütləvi cəzalandırma siyasəti bir qədər yumşaldıldı, barışıq və güzəşt yolu siyasi baxımdan daha düzgün sayılmağa başlandı. 1814-cü il avqustun 30-da çar fərmanı ilə «ümumi bağışlanma» elan edildi. Xaricə qaçmış, həbs və sürgün edilmiş bəylərin sərbəst olaraq geri dönməsinə, müsadirə olunmuş torpaqların isə öz sahiblərinə qaytarılmasına icazə verildi. Qafqaz baş komandanlığı bu fərmanın həyata keçirilməsi zamanı özbaşınalığa yol verir, onu pozmaqdan belə çəkinmirdi. Baş komandanlıq bəy və ağaların geri qayıtmaq barədə xahişlərinə baxılmasını get-gələ salıb uzadır, «diyarın sakitliyi üçün təhlükəli» sayılan bəylərin geri dönməsinə yol verməməyə çalışırdı. Geri dönənlərin isə müsadirə olunmuş kəndlərinin hamısı yox, yalnız bir-ikisi qaytarılır, bu zaman həmin kəndlər üzərində bəyin əvvəlki sahibliyi yox, yalnız «idarəçilik» hüququ təmin edilirdi. Başqa sözlə, çarın Qafqaz məmurları torpaq üzərində yerli ağaların sahiblik hüququna deyil, yalnız «idarə etmə» hüququna malik olduğunu iddia etməyə başladılar.

**BƏY VƏ AĞALARIN TORPAQ HÜQUQLARINI «YOLUNA QOYMAQ» TƏDBİRLƏRİ.** Rusiyanın Qafqazdakı hərbi-müstəmləkəçi təsisatlarının ilk tədbirləri yüzillər boyu yaranmış torpaq münasibətlərini təhrif edib saxtalaşdırmağa yönəlmişdi. Saxta «idarəetmə» məsələsini ortaya atan hökumət, bundan bəylərə qarşı başlıca iqtisadi təzyiq vasitəsi kimi istifadə edirdi.

Tiyuldar bəylərin torpaq hüquqlarını «nizamlamağa» başlayan Quba komendantı mayor ***Ponomaryovun*** 1812-ci ildə hazırladığı layihə yalnız 5 il sonra yeni komendant general ***Tixanovski*** tərəfindən Quba və Dərbənd əyalətlərinin bəylərinə elan edildi. Ancaq bununla da iş bitmədi. Yalnız 1824-cü ildə, yəni düz 12 il sonra baş komandan A.P.Yermolov bəzi dəyişikliklərlə layihəni bəyəndi. Həmin il martın 20-də 11 maddəlik bu «Əsasnamə» Quba şəhər məhkəməsində yerli bəylərin iştirakı ilə təsdiq olunaraq qanun gücü aldı.

«Əsasnamə»də tiyul sahibləri «xəzinə kəndlərinin yalnız idarəçisi» kimi qələmə verilirdi. Onlara həmin kəndlərin gəlirindən yalnız müvəqqəti istifadə hüququ, əlahəzrət imperatora «son damla qanına kimi sədaqətlə və can-başla qulluq göstərmək» şərti ilə güzəşt edilirdi. Bu şərt azacıq



belə pozulduqda, bəyin «idarəetmə» işindən uzaqlaşdırılması, kəndin isə xəzinəyə geri alınması nəzərdə tutulurdu.

Bundan qabaq A.P.Yermolov üç «tatar məntəqəsi» adlandırılan Qazax, Şəmşəddil və Borçalıda ağalarla kəndlilər arasında münasibətləri hökumətin xeyrinə «nizamlamaq» məqsədi ilə ağaların hüquqları barədə 1818-ci il martın 31-də bir «Əsasnamə» təsdiq etmişdi. «Əsasnamə»də kəndlərin sahibi deyil, «idarəçisi» sayılan ağaların mülkədar hüquqları kökündən dəyişdirilirdi. Onlara dövlət məmuru kimi baxılır, hətta xəzinə kəndlərinin idarəetmə hüququ da onlara yalnız sədaqətli qulluğun əvəzi kimi «güzəşt edilirdi». İrsi torpaq hüquqları təhlükə altına alınan ağalar bununla hökumətdən tam asılı vəziyyətə düşür, onların üzərinə hərbi-polis nəzarəti qoyulurdu. Yermolovun Əsasnaməsi hətta hökumətə sədaqətlə qulluq edən bəy və ağalar arasında həyəcan doğurdu. Üç məntəqənin ağaları düşmən mövqeyə keçərək, hökumətə qarşı mübarizəyə qalxdılar. Şəmşəddilin böyük nüfuzlu ağaları ***Nəsib Sultan*** və ***Mustafa ağa*** 1819-cu ildə əhalini üsyana qaldırdılar. Üsyan başçılarını aldanışla həbs etdirib Tiflisə göndərən Yermolov, Şəmşəddildə «top atəşləri ilə 39 minlik əhalinin hətta yarısının belə qırılmasının ona heç bir zaval gətirməyəcəyi»ni bildirdi. 1820-ci ildə üsyan yatırıldı.

Çar hökuməti Gürcüstanda zadəganların çox mühüm sosial təşkilatı olan Zadəgan Deputatları Məclisinin fəaliyyətinə icazə vermişdi. Bu məclis gürcü zadəganlarının torpaq və silki hüquqlarını sərbəst surətdə nizamlayırdı. Dini ayrı-seçkilik siyasətinin nəticəsində Azərbaycanda bu məsələ ilə baş komandanın nəzarəti altında ayrıca komissiyalar məşğul olurdu. Əyalət və şəhər məhkəmələri yanında yaradılan bu komissiyalar bəy və ağaların torpaq hüququnu izah etmək əvəzinə, onu təhrif edib dolaşdırır, hər hansı yolla danıb kiçiltməyə çalışırdı.

Yermolovun yuxarıda adı çəkilən 20 mart 1824-cü il buyruğu ilə Quba əyalətində bəylərin torpaq sahibliyi hüququnun rəsmi yoxlanışı keçirildi. Hökumətə «Heç bir qulluq göstərməyən» 11 bəydən 14 kənd müsadirə edildi. Bununla yanaşı, 23 bəyin sahibliyində olan 37 kənd (1208 həyət) və hökumətin son illərdə yerli bəylərdən iyirmisinin «idarəsinə» verdiyi 72 kənd (1528 həyət) ömürlük «idarəçilik» hüququ ilə onların ixtiyarında saxlanıldı. Bu, sidq ilə qulluq göstərən, ən azı çarlığa «xor baxmayan» bəy və bəyzadələr idi.

Xan hakimiyyətinə son qoyulmuş Şəki, Şirvan və Qarabağ əyalətlərində yerli feodalların torpaq hüquqlarına zərbə vurmaq üçün bir sıra tutarlı işlər görüldü. 1820-ci ildən Yermolovun sahiblik və «idarə» hüquqlarını təsdiq edən xan təliqələri toplanıldı. Hər üç vilayətdə şəhər məhkəmələrində təliqələrin əsl mahiyyəti təhrif edilir, torpaq sahibliyi hüququ «idarəçilik»lə əvəz edilirdi. Bəy və ağaların torpaq hüququnun əlindən alınması

üçün «hökumətə xəyanət», «düşmənlə Rusiyanın mənafeyinə ziyan vuran əlaqənin saxlanılması», «dövlət məmurlarına itaətsizlik» kifayət edirdi.

Müsəlman əyalətlərində bəylərin torpaq hüquqları barədə Yermolovun 7 iyul 1824-cü il tarixli ayrıca Sərəncamı əsas tutulurdu. Sərəncamda deyilirdi: «Xan təliqələrində kəndlərin bəylərin ***mülkiyyətinə*** verilməsi haqda danışılsa da, yerində işlədilməyən və heç bir xüsusi məqsəd daşımayan bu ifadə, hökuməti həmin kəndləri hazırkı sahiblərinin mülkiyyəti saymağa məcbur edə bilməz, çünki həmin kəndlər alqı-satqı yolu ilə əldə edilməmişdir, digər tərəfdən hər yerdə xanların bağışladığı kəndlər üzərində sahiblik hüququ deyil, yalnız idarə hüququ tanınır».

Çar hökuməti Türkmənçay bağlaşması üzrə Rusiya imperatorluğuna qatılan, əhalisinin 73,4 faizi türklər olan İrəvan xanlığının yerində «Erməni vilayəti» yaratdı. Ermənilərin İrandan buraya köçürülməsi üçün hazırlıq işinə başlanıldı. Bunun üçün İrəvan və Naxçıvanda müsəlman bəylərininn torpaq hüquqlarını sarsıtmaq gərək idi. Yalnız bu yolla köçürməyə müqavimət göstərə bilən qüvvələri zərərsizləşdirmək olardı. Baş komandan qr. Paskeviçin 14 may 1828, 25 yanvar 1829-cu il əmrləri ilə bəylərin əmlak və şəxsi hüquqlarına aid sənədlərin 4-6 ay içərisində yoxlanılması başlandı. Bəylərin çoxu öz təliqələrini təsdiq etdirə bilmədiyi üçün onların torpaqları məhkəmənin qərarı ilə alınıb xəzinəyə verildi. Köçürülən ermənilər məhz bu torpaqlarda yerləşdirildi. 25 dekabr 1828-ci il sərəncamı ilə İrəvan, Naxçıvan və Ordubadın tiyul torpaq sahibliyinin hətta ləğv edilməsi qərarlaşırılırdı. Bundan sonra tiyulların varislərə ötürülməsi, bir kimsəyə tiyul verilməsi qadağan edildi. Xaricə qaçanlardan, hökumətə «xəyanət edənlərdən» tiyulların təcili geri alınması sənədləşdirildi. Rusiya hökuməti və çar özü bu sərəncamı təsdiq etdilər.

Rusiya hökumətinin siyasətindən narazı qalan və düşdüyü ağır vəziyyətlə barışmayan bəy və ağalar itirilmiş hüquqlarını geri qaytarmaq uğrunda mübarizədə bütün vasitələrdən istifadə edirdilər. 1825-ci ilin sentyabr ayında Şəki əyalətində yerli bəylər 45 kəndi bürümüş xalq üsyanını təşkil edib onun başında durdular. Bu bəylərin kəndlərdə «idarə» işindən uzaqlaşdırılması haqda qərar çıxaran general-leytenant *Velyaminov* kimiləri də belə bir sadə həqiqəti dərk etməyə başlamışdılar ki, ***«heç bir xalq üsyanı yerli bəylərin təsiri olmadan baş verə bilməz»***. Bununla yanaşı, rəsmi sənədlərdə ***«etibarsız bəylərin cəzalandırılması, sədaqətli bəylərin isə mükafatlandırılması asiyalılara qarşı ən e'tibarlı üsul»*** sayılmaqda idi. Buna görə hökumətə sədaqətli olan zümrə yaratmaq məqsədi ilə xəzinə kəndlərinin «e'tibarlı» bəylərə məhdud idarə hüququ ilə bağışlanması nəzərdə tutulurdu. Təkcə Quba əyalətində çar hökuməti 18 ildə sədaqətli qulluq yolu tutan 31 bəyə idarə hüququ ilə ömürlük 87 kənd bağışladı. Bu, tiyul kəndlərinin 70 faizi idi, 1718 kəndli həyəti (həyətlərin 58 faizdən çoxu) bu kəndlərdə yerləşirdi.



**AZƏRBAYCAN FEODALLARI VƏ İKİNCİ RUSİYA-İRAN SAVAŞI.** Rusiya hökuməti müsəlman əyalətlərində özünə çox kiçicik sosial arxa yarada bilmişdi. Ali zümrənin böyük çoxluğu rus hərbi-müstəmləkə idarəsini tamamilə yad sayaraq müxalifətdə dururdu. Bu, ikinci Rusiya-İran savaşının gedişində özünü açıq göstərdi.

Bütün əhalini başdan-başa silahlandırmaq və xan hakimiyyətini bərpa etmək niyyətində olan keçmiş xanlar İran şahzadəsi Abbas Mirzəni inandıra bilmişdilər ki, onun ordusunun Azərbaycanda görünməsi ilə «müsəlman əhali üsyana qalxıb rusları qovacaqdır». Doğrudan da iyulun 12-də 60 minlik İran ordusunun Arazı keçməsi və qaçqın xanlardan Gəncəli Cavad xanın oğlu Uğurlu xan, Bakılı Hüseynqulu xan, Qarabağlı Mehdiqulu xan, Şəkili Səlim xanın oğlu Hüseyn xan, Şirvanlı Mustafa xan və başqalarının keçmiş xanlıqlarda görünməsi bu qüvvələri ayağa qaldırdı. Qarabağda bəylərin silahlı dəstələri rus qoşunu ilə toqquşdu. Müsəlman əyalətlərinin rəisi, Yermolovun sağ əli, müsəlman əhalisinin dərin nifrətini qazanmış erməni R.Q.Madatovun malikanəsi yandırıldı, ata-babasının qəbirləri dağıdıldı. İyulun 17-də Gəncədə bəy və ruhanilərin başçılığı ilə ruslar əleyhinə üsyan baş verdi. Şirvanın da bəy və ruhaniləri Yeni Şamaxını öz qoşunu ilə tutmuş Mustafa xanla birləşdilər. Mirhəsən xan Talış, Əhməd xan Quba, Hüseyn xan Şəki əyalətlərində xan hakimiyyətini bərpa edə bildilər.

Qafqazın baş komandanlığı mərkəzdən kömək alıb sentyabr ayında Şamxor və Gəncə döyüşlərində İran qoşununu əzdi. Rusiya yenidən Azərbaycanda öz mövqeyini bərkidə bildi. Öz hakimiyyətini İran ordusunun köməyi ilə bərpa etməyə çalışan xanlar yenidən İrana qayıtmalı oldular.

1826-cı ilin iyul-avqust aylarında yerli feodalların və ruhanilərin başçılığı ilə Azərbaycanda baş verən ümumi üsyan çar hökumətini qorxuya salmışdı. I Nikolay 2 mart 1827-ci il tarixli Ali Fərmanı ilə baş komandan A.P.Yermolova «şiddətli töhmət» verdi. Fərmanda göstərilirdi ki, baş komandan tərəfindən «yerli xalqları itaətdə saxlamaq üçün özbaşına seçilən və ali mənafeyə zidd gələn tədbirlər öz məqsədinə çatmamışdır». Fərmanda siyasi xəttin uğursuzluğu etiraf edilsə də, yerli xalqın mənafeyindən bir kəlmə danışılmır, üsyanın başlıca səbəblərinə toxunulmurdu.

Əyalətlərdə ali zümrənin içindən Rusiyaya qarşı silah qaldıranlara savaşın amansız qanunları ilə divan tutuldu. Quba əyalətində 1826-1827-ci illərdə həbs edilmiş 57 nəfərdən 20-si (3-ü xan, 17-si bəy) ali silkinin nümayəndəsi idi; bunlardan 10-u (3-ü xan, 7-si bəy) haqda ölüm hökmü çıxarılmış, qalanları isə məhkəmə hökmü ilə uzun müddətə həbsxanalara salınmışdı. Müsəlman əyalətləri rəisi ***fon-Krabbe*** Quba, Şirvan və Bakı əyalətlərinin komendantlarına göndərdiyi 16 dekabr 1826-cı il tarixli

təlimatında həbsə alınan bütün «cinayətkar» bəyləri filiz mədənlərində ağır işlərə sürgün etməyi, onların yetkinlik yaşına çatmış kişi övladlarını isə Həştərxana hərbi-yetim şöbəsinə göndərməyi qəti olaraq tapşırmışdı. Təlimatda Rusiya hökumətinə düşmən mövqe tutan bütün bəylərin daşınmaz (torpaq, kənd və s.) və daşınan əmlaklarının Rusiya dövlət xəzinəsinə verilməsi qarşıya qoyulmuşdu. Buna uyğun olaraq Əhməd xanla xaricə qaçan 342 kişinin, o cümlədən 81 bəy və ağanın, Bakı əyalətindən Hüseynqulu xanla qaçan 40-dan çox bəyin, Qarabağ əyalətindən İrana qaçan 43 bəy və ağanın bütün kəndlərinin torpaqları ilə birlikdə müsadirə edilməsi haqda hökm çıxarıldı. Yalnız Şirvan əyalətində «dönük»' sayılan bəy və ruhanilərdən qalmış 1477 həyətdən ibarət 49 kənd, 125 meyvə və üzüm bağı müsadirə edilib xəzinəyə verildi. Bundan başqa onlara məxsus olan 5139 baş iri buynuzlu mal, 24322 baş davar sursat (proviant) idarəsinin ixtiyarına keçirildi. Talış xanlığından İrana qaçan bəylər 1550 kəndli ailəsini özləri ilə aparmışdılar. Onlara məxsus 3301 kəndli həyəti isə xəzinə idarəsi altına götürüldü.

Beləliklə, Quzey Azərbaycanın işğalı illərində çarizmin siyasəti yerli feodalların Rusiyaya düşməncəsinə yanaşan böyük bir bölüyünün iqtisadi və siyasi gücünü qırmağı, onları bütünlüklə «zərərsizləşdirməyi» nəzərdə tuturdu. «Süzgəclə təmizləmə» yolu ilə çarlıq Rusiyası bu zümrənin tərkibini öz xeyrinə az-çox dəyişdirə bilsə də, etibarlı sosial arxa yaratmaq məsələsini həll edə bilməmişdi.

## 3. MÜSTƏMLƏKƏ VƏ FEODAL ZÜLMÜNÜN QOVUŞMASI

**XALQ HƏRBİ SÜMÜRGƏCLİK BOYUNDURUĞU ALTINDA.** Quzey Azərbaycanın işğalı illərində Rusiyanın maliyyə-vergi siyasətində kəndli məsələsi ayrıca yer tuturdu. Bu siyasət sümürgəc səciyyəsi daşıyırdı.

Bir-birinin ardınca imperiyaya qatılmış xanlıqların vergi sistemində ilkin çağlarda köklü dəyişikliklər edilməmişdi. Ənənəvi gəlirlərin itgisiz olaraq xəzinəyə doldurulması başlıca yer tuturdu. Taxıl məhsulları ilə ödənən vergilər çox mühüm sayılırdı. Bu, İran və Türkiyə ilə savaşlarda ildən ilə sayı artan rus qoşunlarını ərzaqla aramsız təmin etmək məqsədindən doğurdu. Təkcə Qazax və Şəmşəddil məntəqələrində yaşayan sakinlər 1805-ci ildən başlayaraq hər il 9 min pud buğda vergisini öz atları, arabaları ilə uzaqda yerləşən proviant dükanlarına daşımalı idilər. Həmin il Qazax əhalisi üzərinə pul vergisi əvəzinə taxıl vergisi qoyulmuşdu. Eyni zamanda bütün müsəlman əyalətlərinin sakinləri üzərinə ordu üçün məcburi taxıl satışı öhdəliyi qoyulmuşdu. Yelizavetpol dairəsinin sakinləri 2605



tağar* buğda, 243 tağar yarma, 601 tağar arpa satmalı idilər. Proviant idarələrində satlıq taxılın qiyməti bir qayda olaraq bazardakından çox aşağı qoyulurdu. Hərbi məmurlar tərəfindən çəkidə və qiymətdə aldadılan kəndlilər taxılın pulunu vaxtında ala bilmir, ya bu pul onlara ödənilmirdi. 1809-cu ildə Yelizavetpol dairəsinin sakinləri satlıq taxılın pulunun onlara ödənilməməsindən baş komandana şikayət etsələr də, heç bir tədbir görülməmişdi. Şikayətlər cavabsız qalırdı. Çarlıq Rusiyasının vergi siyasəti ilk anlardan amansız hərbi üsullar üzərində qurulmuşdu.

Güc hesabına Rusiya vassallığına keçirilmiş Qarabağ və Şirvan xanlıqlarının hər biri üzərinə 8 min çervon**, Şəki xanlığı üzərinə isə 7 min çervon, birlikdə 71760 gümüş manat hərbi bac qoyulmuşdu. Ağır pul öhdəliyi bu üç xanlıqda əhalinin vəziyyətinə çox pis təsir edirdi. Rus qoşunları üçün ərzaq vergisi, yenə ordu üçün məcburi ərzaq satışı, hərbi müstəmləkə öhdəlikləri onları var-yoxdan çıxarırdı. Əkinləri döyüş meydanına çevrilən kəndlilər çıxış yolunu başqa əyalətlərdə, hətta qaçmaqda görürdülər. 1806-1812-ci illərdə təkcə Qarabağdan 2628 ailə (hər ailənin orta sayını 5 götürməklə 13 min nəfərdən çox) qaçmış, 2217 ailə isə əsir tutulub aparılmışdı. Xanlıq öz əhalisinin 1/4-dən çoxunu itirdiyi üçün bac üzrə borc 17 min çervona çatmışdı.

Baş komandanlıq kəndlilərin kütləvi qaçmasının qarşısını almaq üçün çox sərt tədbirlərə əl atırdı. 1812-ci ildə Qazax ağalarına qaçan kəndliləri geri qaytarmaq və öz mülkündə yerləşdirmək hüququ verilmişdi. Yelizavetpol dairəsində isə güclə geri qaytarılmış 365 qaçqın kəndli ailəsi üzərinə ciddi nəzarət qoyulmuş, bir daha qaça bilməmələri üçün onları ayrı-ayrı kəndlərdə yerləşdirmişdilər. 1813-1817-ci illərdə baş komandanlığın verdiyi sərəncamlarda kəndlilərin qaçması «ən böyük bəla» adlandırılır. Çünki qaçqınların vergi və mülkiyyətləri ödənilməmiş qalırdı. Sərəncamlarda qaçqın ailələrin geri qaytarılıb ciddi surətdə cəzalandırılması tapşırılmışdı.

**VERGİ İLTİZAMLARI.** Dövlət təsərrüfatlarında istehsalı idarə etmək üçün mütəxəssis çatışmırdı. Hökumət tut, meyvə və üzüm bağlarından xəzinə gəlirlərinin yığılmasını ayrı-ayrı tacir və bəylərə iltizama verirdi.

Şəhər və əyalət məhkəmələrində 3-6 illik saziş bağlamaqla xəzinə təsərrüfatını iltizama götürən tacir və bəylər hər il dövlətə haqq ödəyirdilər. Bunun qarşısında onlara iltizam sahələrindən bütün vergiləri yığmaq hüququ verilirdi. İltizamçıların içərisində Qafqazın müxtəlif yerlərindən qazanc dalınca axışıb gələn erməni tacirləri çox idi. Saziş müddətində təsərrüfatları əkib-becərən dövlət kəndlilərinin şəriksiz «sahibi» olan ilti-

* 1 tağar – 20 pud 4 funta bərabər tutulurdu.
** çervon – 3.14 gümüş manat.

zamçılar ən soyğunçu istismar üsullarına əl atır, vergi və mükəlləfiyyətlərin «ənənəvi» qədərini pozub böyüdürdülər. 1822-ci ildə Şəki əyalətində çəltik əkinləri beş erməni tacirinə və dörd müsəlman bəyə iltizama verilmişdi. Bu «işdən» dövlət 24173 gümüş manat təmiz gəlir götürdü. Elə həmin il dörd illiyə iltizama verilən 56 tut bağını becərən daimi rəncbərlər məhsulun yarısını və başqa vergiləri iltizamçılara ödəsələr də, qanunsuz vergilər yığılması üzündən onların çoxu qaçıb başqa vilayətlərə dağılışdı.

1830-1833-cü illərdə Şirvan əyalətində 100 meyvə və üzüm bağları bir erməni tacirinə dörd illiyə (hər il xəzinəyə 3 min gümüş manat ödəməklə) iltizama verildi. Bu bağları becərən kəndlilər məhsulun 1/4-ni iltizamçıya ödəməklə yanaşı, ictimai mükəlləfiyyətlər də yerinə yetirməli idilər. İltizam sazişində kəndlilərə iltizamçının icazəsi olmadan bağları tərk etmək qadağan olunmuşdu.

20-30-cu illərdə Şirvan, Qarabağ, Şəki və Quba əyalətlərinin maldarlıqla məşğul olan sakinlərindən otlaq haqqı rüsumunun yığılması da iltizama verildi. Dövlət burdan da böyük gəlir əldə edirdi. Maldar əhali vergilərin ağırlığından, iltizamçıların özbaşınalığından dəfələrlə hökumət idarələrinə, hətta imperatorun özünə şikayətlər göndərmişdilər. 1822-1825-ci illərdə təkcə Quba və Şəki əyalətlərində qışlaqların 4 qış mövsümünə iki tacir və bir bəyə iltizama verilməsindən xəzinə 54800 gümüş manat təmiz gəlir götürdü. Hökumətin bu şikayətlərə necə yanaşdığını izah etməyə ehtiyac qalmır.

1829-30-cu illərdə Yelizavetpol dairəsində malcəhət ipək vergisinin yığılmasında iltizamçıların özbaşınalığı bütün həddi aşmış, nəticədə ipəkçi kəndlilər tut ağaclarını kəsərək qonşu əyalətlərə qaçmağa məcbur olmuşdular. Xəzinə bu qiymətli xammaldan əldə etdiyi gəliri itirmək təhlükəsi qarşısında qaldı. Bu sahədə iltizamın ləğv edilməsi haqda mərkəzi hökumət qarşısında məsələ qaldırıldı. 1830-cu il martın 29-da Ali Senat Nazirlər Sovetinin bu haqda Əsasnaməsini təsdiq etdi. Bu ildən iltizamçı erməni tacirinin xəzinəyə hər il ödədiyi 1520 manat iltizam haqqı «sakinlərin arzusu nəzərə alınaraq», xüsusi pul vergisi şəklində onların arasında bölüşdürülməyə başlandı.

**YENİ VERGİYIĞMA «ÜSULLARI».** 1826-cı ildə baş komandanlıq Şəki əyalətində dəyişən malcəhət və taxıl vergilərinin xəzinəyə ödənilməsində yeni qayda müəyyən etdi. Bu qaydaya görə həmin vergilərin bundan sonra hər il eyni miqdarda, məhsul olmasa da sabit şəkildə ödənilməsi nəzərdə tutulurdu. Vergilərin miqdarının yalnız 5 ildən bir dəyişdirilməsinə yol verən qayda, Yermolovun fikrincə «hər cür özbaşınalığa və məhsulların kəndlilər tərəfindən gizlədilməsinə birdəfəlik son qoymalı idi». Yeni qayda kəndlilərin dövlət tərəfindən istismarına geniş yol açdı. 1827-ci ildə



əyalət üzrə xəzinənin təkcə daimi və dəyişən vergilərdən əldə ediyi gəlir 136 min manata çatdı. Bunun 75 min manatdan çoxu (55 faizdən çoxu) daimi pul vergilərinin payına düşürdü.

20-30-cü illərdə dövlət kəndlilərindən yığılan barama, çəltik və pambıq məhsulları hərraca qoyulurdu. «Sərfəli» qiymətlərlə xüsusi adamlara və ya məcburi qaydada istehsalçıların özlərinə hərrac satışı xəzinəyə böyük qazanc gətirməyə başladı. 1825-26-cı illərdə Şəki və Şirvan əyalətlərində vergi kimi yığılan, ancaq ordu üçün gərəkli olmayan, saxlanması və hərracda satışı çətinlik törədən 3 min tağar çəltiyin hər tağarı 3 manat 45 qəpiyə (xan pulu ilə) məcburi qaydada sakinlərə satıldı. Moğol çağının tərx adlı təsisatını xatırladan bu əməliyyatdan xəzinə 31 min manat qazandı.

Şəki əyalətində vergi kimi yığılan 468 batman baramanın hərrac satışından xəzinə 12 min gümüş manat gəlir əldə etdi. 1829-cu ildə icbari qaydada 22980 manatlıq, 1830-cu ildə 20095 manatlıq, 1834-cü ildə isə 31770 manatlıq barama satılmışdı. Vergi kimi yığılan həmin məhsulların satışı əslində natural verginin dolayısı ilə pula ödənilməsi demək idi.

Sahibkar kəndində də vergi yığımı dövlətin mənafeyinə uyğunlaşdırılmada idi. Qazax, Şəmşəddil və Borçalı ağaları haqda 1818-ci il Əsasnaməsi və Quba bəyləri haqda 1824-cü il Əsasnaməsi üzrə yerli feodalların sahibliyində olan kəndlər «xəzinəyə məxsus» sayılırdı. Sədaqətli qulluq yolu tutan bəylərə yalnız həmin kəndlərin gəlirinin bir qismindən istifadə hüququ verilirdi. Bəy və ya ağa, «idarəsində» olan kənddə bütün vergilərin xəzinəyə düzgün və vaxtında ödənməsi üçün ciddi məsuliyyət daşıyırdı.

Bəzi hallarda baş komandanlıq bu və ya başqa əyalətdə «sakitliyin» pozulmasından ehtiyat edərək kəndlilərin bir qisminin yerli feodalların istismar dairəsində qalmasına göz yumurdu. 1824-cü ildə Yermolovun sərəncamı ilə Quba əyalətindəki 124 kənddən 37-si 23 bəyin ixtiyarında saxlanılmış, 20 kənd 17 bəydən alınıb xəzinəyə, 67 kənd isə xəzinə ilə bəylərin birgə istifadəsinə verilmişdi.

Kəndli kütlələrinin amansız üsullarla soyulub talanmasında çarizmlə yerli feodalların «sədaqətli» hissəsinin mənafeyi üzvi şəkildə birləşirdi. Çar hökuməti 30 illik bir vaxt içində Quzey Azərbaycan kəndində amansız dövlət istismarı sistemi yaratdı.

Dövlət və sahibkar kəndlərindən yığılan gəlirlərin böyük hissəsi ordunun və müstəmləkəçi idarələrin saxlanılmasına sərf edilir, bir qismi isə hərbi və mülki dövlət məmurları tərəfindən mənimsənilirdi. Vergilərin bölgüsü və yığılmasında vahid qayda olmadığından dövlət məmurları özbaşınalıq və qanunsuzluq nümunəsi göstərirdilər. 1821-ci ildə Şəmşəddil pristavı ***Tarxanov*** əhalidən öz xeyrinə əlavə vergilər tələb etmiş, Şirvan komendantı podpolkovnik ***Visotski*** isə vergi borcu kimi qələmə verdiyi pulları mənimsəmişdi. Ancaq baş komandan onların heç birinin cinayət məsuliyyətinə alınmasına yol verməmişdi.

1829-cu ildə Yelizavetpol dairə rəisi podpolkovnik ***Berens*** və polismeyster ***Yankovski*** sakinləri qanunsuz mükələfiyyətlərə cəlb etmiş, proviant pulunu əhaliyə ödəməyib 13301 man. mənimsəmişdilər. Buna görə onlara qarşı başlanan istintaq işi 12 il uzadılmış, «cinayət üzə çıxarılmadığına görə» müqəssirlər cəzasız qalmışdılar.

Vergiyığan məmurlar yerli ölçüləri rus ölçüləri ilə qarşılaşdırdıqda bilərəkdən dolaşıq salır, vergi ödəyənləri həyasızcasına aldadır, artıq qalan məhsulu mənimsəyirdilər. 1819-cu ildə Quba əyalətində taxıl vergisi toplanışında yerli ölçü bir rüb 5 pud 20 funt əvəzinə 7 pud 16 funta bərabər tutulmuş, 465 çərək (dörddən bir) artıq buğda yığılmışdı. Yelizavetpol dairəsində taxıl vergisi və dövlətə məcburi satılan taxılın yığımı zamanı kəndlilər hər tağarda 5 pud 38,5 funt aldadılmış, artıq yığılan taxılı dairə rəisi özünə götürmüşdü.

Rus rəisləri kəndli təsərrüfatının yönümünü nəzərə almadan qanunsuz vergilər yığırdılar. 1834-cü ildə Şirvan komendantı Xançoban və Rutbar mahallarının taxıl əkməyən maldar əhalisi üzərinə malcəhət taxıl vergisi qoymuş, 3 ildə qanunsuz olaraq 855 tağar buğda, 475 tağar arpa yığmışdı. Yalnız sakinlərin güclü narazılığından sonra 1838-ci ildə artıq yığılmış taxılın qaytarılmaması şərti ilə bu verginin ödənişi dayandırılmışdı.

Şəki əyalətində də vergi yığımında dövlət məmurları özbaşınalığa yol verirdilər. Çar idarələri rəsmi olaraq boyunlarına almalı olmuşdular ki, məmurların qanunsuz hərəkətləri üzündən xəzinə 4 min çervon və 40 min gümüş manatlıq ziyan çəkmişdi.

1831-ci ildə birinci müsəlman atlı alayı üçün süvari toplamaq və vergi yığmaq üçün Qarabağın Qaradəmirçi və Qılınclı elinə göndərilən 4 yasovulun qanunsuz tələblərinə qarşı böyük narazılıq yarandı. Sakinləri üsyana çağıran 4 bəy hərbi məhkəmənin hökmü ilə tutulub həbs edildi.

Ağır vergi və mükəlləfiyyətlərin günü-gündən artdığı şəraitdə kəndlilərin vergi ödəmək imkanları torpaq təminatı ilə sıx bağlı idi. Çarizmin böyük səylə keçirdiyi köçürmə siyasəti bu məsələyə olduqca pis təsir göstərirdi. 1818-ci ildən başlayaraq alman kolonistlərinin 300 ailəlik bir dəstəsinin Yelizpvetpol dairəsinə köçürüb yerləşdirilməsinə müsəlmanlardan yığılan pul gəlirləri əliaçıqlıqla sərf edilmişdi. 1828-1830-cu illərdə Transqafqaza İrandan və Türkiyədən köçürülmüş 124 mindən çox erməni başlıca olaraq erməni əhalisinin azlıqda olduğu Yelizavetpol və İrəvan quberniyalarının ən yaxşı xəzinə torpaqlarında yerləşdirildi. Onlar üçün 200 min desyatin xəzinə torpağı ayrılmış, üstəlik müsəlmanlardan 2 milyon manatlıqdan çox xüsusi sahikar torpağı satın alınmışdı.

20 oktyabr 1830-21 yanvar 1831-ci il «Ali fərmanları» üzrə Rusiyanın mərkəzi quberniyalarından bid'ətçi təriqətlərə mənsub 504 ailə (2522 nəfər) Şirvan və Qarabağ əyalətlərinə köçürülüb yerləşdirildi. Yerli xalqa



məxsus torpaqların kəsilib köçkünlərə verilməsi üzündən kəndlilərin torpaqla təminatı daha da pisləşdi. Köçkünlərin gələcək axınını təmin etmək üçün ayrıca Köçürmə torpaq fondu yaradıldı. Köçürmə fondu yerli sakinlərin torpaq hüququnun həyasızlıqla pozulması yolu ilə böyüyürdü. Köçürmə siyasəti «ucqarları ruslaşdırmaq» məqsədi güdürdü.

**QANUNSUZ ÜSULLARIN QANUNAUYĞUN SONU.** Kəndlilərin vergi və mükəlləfiyyətlərlə ölçüyəgəlməz dərəcədə yüklənməsi, çar məmurları tərəfindən açıqcasına soyulub talan edilməsi üzündən böyük vergi borcları yarandı. Halbuki xanlıq çağı Azərbaycanda kəndlilər vergi borcu anlayışının nə olduğunu bilməzdilər. Bütün Transqafqazda vergi borcları çox böyük idi. 1830-cu il yanvarın 1-nə bütün sahələr üzrə yığılıb qalmış 604190 gümüş manatlıq borcun 384634 manatı (64 faizə yaxını) Yelizvetpol dairəsi çıxılmaqla, Quzey Azərbaycanın payına düşürdü. Belə bir fəlakətli, ancaq qanunauyğun sonluqla qarşılaşan çar hökuməti Azərbaycan kəndlisinin var-yozdan çıxarıldığını nəzərə almalı olmuş, gələcək gəlirlərini itirməmək üçün kəndlilərin bütün vergi borclarının («iltizam sahələri çıxılmaqla») bağışlanmasına icazə vermişdi.

1829-1830-cu illərdə Transqafqazda yoxlama aparan senator P.İ.Kutaysov və Y.İ.Meçnikov müsəlman əyalətlərində maliyyə-vergi sistemində saysız özbaşınalıq və qanunsuzluqlarla üzləşdilər. Onların fikrincə, ağır vəziyyət dövlət məmurları tərəfindən vergilərin çox zaman ikiqat, üçqat yığılması, bu yığımın, onların sözlərilə deyilsə, «acgöz erməni tacirlərinə» iltizama verilməsi, müharibələrin gedişində yoxsullaşan kəndlilərin taxılı xəzinəyə dəyərindən 8-10 dəfə ucuz satmağa məcbur edilməsi, çox vaxt bu kiçik məbləğin də onlara ödənilməməsi nəticəsində yaranmışdı.

Çar senatorları bütün Transqafqazda çox ağır bir durumla qarşılaşmışdılar. Onlar Rusiyanın ədliyyə nazirinə yazıb bildirirdilər: «... müsəlman əyalətlərinin idarə olunmasını nəzərdən keçirdikdə rəislərin azğınlığı və əhalinin çəkdiyi iztirablardan insan ağlı sarsıntı keçirir. Burada insan ləyaqəti artıq bütünlüklə ayaq altına atılmış, hər cür qanunçuluq unudulmuş, qanun yalnız əsarət alətinə çevrilmiş, acgözlük və çılğın özbaşınalıq isə dairə rəisləri, komendantlar, pristavlar və başqa ağalıq edən şəxslərin davranışı üçün yönəldici amil olmuşdur».

Qriboyedov və Zavileyskinin yazılarına görə, müsəlman əyalətlərində hərbi idarələr yalnız ordunun ərzaqla təmin edilməsi qayğısına qaldığından hər hansı mükəlləfiyyət qanuni qüvvə almış idi; sakinlərin evi, qoşqu vasitəsi, arabası, mal-qarası, daşınmaz əmlakı ordu hərəkət etdikdə və başqa hallarda hər dəqiqə «ictimai» (hərbi) ehtiyaclar üçün səfərbər edilə bilərdi.

Çarlıq Rusiyası 30 ildə Quzey Azərbaycanı özü üçün «açıq qarət» meydanına çevirə bilmişdi. Bu varlı müstəmləkə bütün Transqafqazda

onun başlıca gəlir yeri idi. 1833-1834-cü il məlumatına görə Rusiyanın Transqafqazdan bir ildə götürdüyü 1 milyon 90 min gümüş manatlıq gəlirin 575 min manatı və ya yüzdən əlli üçü müsəlman əyalətlərinin payına düşürdü.

Komendant idarəsi altında sənətkarların, tacirlərin, bütün şəhər əhalisinin də yaşayışı dözülməz olmuşdu. 30-cu illərin sonuna yaxın Azərbaycanda olmuş çar məmuru qraf İ.V.Vasilçikov yazmışdı: «əhalinin üzərinə qoyulan bələdiyyə vergiləri o qədər çoxdur ki, onlardan yaxa qurtarmaq, demək olar mümkün deyil, həm də [verginin] təyin olunması və [toplanmasında] müəyyən bir qayda yoxdur və hər şey komendantın iradəsindən asılıdır».

Maliyyə-vergi siyasətinin hərbi üsullar ilə həyata keçirilməsi Quzey Azərbaycana ağır müstəmləkə zülmü gətirdi. Bununla bağlı kəndli qiyamları müstəmləkə zülmünə qarşı yönəlmiş azadlıq hərəkatına qovuşub onunla bir axar yaratdı.

## 4. MÜSTƏMLƏKƏ ZÜLMÜNƏ QARŞI ÜSYANLAR

**CAR-BALAKƏN AZAD CAMAATLARINDA İLK ÜSYAN.** İran və Türkiyə ilə müharibələri uğurla başa vuran Rusiya, 1803-cü ildən üzərinə bac qoymaqla kifayətləndiyi Car-Balakən camaatının daxili müstəqilliyinə son qoymaq, burada tam rus idarəçiliyinə keçmək qərarına gəldi. Dağlılar hərəkatının təsiri altında olan bu camaatdan çar hökuməti çox narazı idi. Çarın baş komandanları 25 ildən artıq idi ki, camaatların vergiləri ödəməkdən yayınmasına göz yumurdular. Ancaq 1830-cu ildə ona kimi yığılıb qalmış 47054 gümüş manatlıq xəzinə borcunun ödənilməsi birdən-birə qəti tələb edildi. Bununla yanaşı Car üzərinə yürüş etmək üçün ayrıca rus qoşunu fevral ayında Kaxetə gətirildi. Yürüşü qısa, dağ keçidlərinin bağlı olduğu vaxta salan qraf Paskeviç, bununla camaatları dağlıların gözlənilən köməyindən məhrum etmək fikrində idi. O, camaatlara qorxuducu sözlərlə dolu, «türkcə yazılmış» bir bəyanat göndərdi. Bu yazıda camaatların daxili siyasi müstəqilliyinə son qoyulacağı, yaxınlarda rus idarəçiliyinə keçiriləcəyi bildirilirdi.

Fevralın 24-də rus qoşunu Alazan çayını keçdikdə camaatların altısının da başçıları danışıq aparmaq, əslində təslim olduqlarını bildirmək üçün rus düşərgəsinə gəldilər. Paskeviç danışıqdan boyun qaçırdı. O, ilk öncə Cara giriş və çıxış yollarını bağlamaq istəyirdi. Muğanlı-Padar-Əliabad-Qala yolunu keçməklə o, Car ilə onun itaətində olan keşkəl kəndləri və qışlaqları bir-birindən ayrı saldı. Bununla Carı başlıca ərzaq mənbəyindən məhrum etdi. Qax, Muxax və Cinix camaatları da Cardan ayrı salındı. Carlılar çox ağır vəziyyətə düşdülər. Onlar müqavimətin yersiz olduğunu görüb fevralın son günlərində keçirilən yığıncaqlarında təslim olmaq haq-



da qərar çıxardılar. Rus qoşunu Carı tutdu, yeni yaradılmış Car-Balakən vilayətinin idarə olunması əslən dağlı olan general knyaz ***Bekoviç-Çerkasskiyə*** tapşırıldı.

Vilayətin idarəçiliyi haqda martın 4-də elan edilən «Qaydalar»da camaatların daxili müstəqilliyinə son qoyulması bildirilməklə yanaşı, sahibkarların əmlak hüquqlarının toxunulmazlığı vəd edilirdi. Ancaq bu sənəddə onların tabeliyində olan ingiloylara şəxsi azadlıq verilməsinin nəzərdə tutulması keşkəl sahibləri içərisində böyük rahatsızlıq yaratmışdı. Ona görə sahibkarların çoxu hökumətə düşmən cəbhədə birləşməyə başladı. Ali zümrənin və runanilərin yalnız kiçik bir qoluna arxalanan rus idarəçiliyi isə möhkəm deyildi.

Car-Balakən camaatları içərisində müridizm təbliğatı yayılaraq böyük uğur qazanmışdı. Dağlıların imamı ***Qazi Molla*** və Carın özündə yaşayan ***Hacı Yəhya*** azad camaatlar içərisində böyük nüfuz sahibi idilər. «İslam düşməni» Rusiyaya qarşı cihad savaşına çağıran müridçilik təbliğatı Car-Balakəndə özünə çoxlu tərəfdar toplaya bilmişdi. Avar, Kürə, Tabasaran, Qazıqumux xanlarının çar hökumətinə nökərçilik etməsi bu işi gücləndirmişdi.

1830-cu ilin mayında Güney Dağıstan müridlərinin başçısı ***Şeyx Şabanın*** üsyan çağırışı Carda geniş əks-səda doğurdu. Carlılar, kaxetlilər, balakənlilər və zaqatalılar Baş Qafqaz dağlarını keçib Balakənə doğru hərəkət edən dağlı dəstələrinə qoşuldular.

Köhnə Zaqatala yaxınlığında, Cara gedən yolun üstündə yerləşmiş rus qoşununda 4561 nəfər əsgər və 10 top vardı. Bu qoşunla üsyançılar arasında 1830-cu il iyunun 21-də baş vermiş döyüşdə dağlılar və carbalakənlilər məğlubiyyətə uğradılar. Hökumət qoşunu bərkidilmiş qaladan müridləri atəşə tutmuş, özü çox az itki vermişdi. Müridlərin hücumlarının qarşısını almaq üçün bu qoşun 113 top atəşi açmalı olmuşdu. Vilayətin rəisi general ***Sergeyev***, car qoşununa yardım göstərən baş kovxalardan bir neçəsinə, o sıradan üsyanın 50 nəfər başçı və təşkilatçısının tutulmasında xidməti olan ***Murtuz Əli oğluna*** medal verilməsini Paskeviçdən xahiş etmişdi.

**PAYIZ ÜSYANI.** Carda vəziyyət gərgin olaraq qalırdı. İyun üsyanında başlıca təşəbbüs dağlılardan gəlirdisə, indi vəziyyət dəyişmişdi. Üsyana hazırlaşan carlılar dağlılara kağız yazıb onları birgə mübarizəyə çağırır, tezliklə kömək göndərməyi xahiş edirdilər.

Car-Balakəndə üsyan tərəfdarları ilə möhkəm əlaqə yaratmış gələcək imam ***Həmzət bəyin*** sentyabrın 12-də iki müridlə Baş Qafqaz dağlarını keçməsi general Sergeyevi çaş-baş saldı. Car, Katex və Matsex camaatlarının yığıncaqları sədaqət rəmzi kimi Həmzət bəyin yanına əsilzadə uşaqlarından əmanətlər göndərilməsini qərara aldı.

Qraf Paskeviç Rusiyaya «xəyanət etmiş» bütün şübhəli şəxslərin həbs olunmasını əmr etdi. Əmrin yerinə yetirilməsi mümkün olmadı, çünki bunun üçün bəzi baş kovxalar çıxılmaqla bütün əhalini həbs etmək lazım idi.

Yeni Zaqatalanın 5 kilometrliyində yerləşən Carda üsyanın başlaması və dağlıların bura axışıb gəlməsi rus hakimləri üçün çox gözlənilməz oldu. Oktyabrın 10-da Cara gətirilən yeni rus qoşunu da vəziyyəti dəyişdirə bilmədi.

Üsyana başçılıq edən Həmzət bəy və Şeyx Şabanın planına uyğun olaraq Yeni Zaqatalada hələ yerini bərkitməmiş rus qoşunu mühasirəyə alındı və onun Balakənlə əlaqəsi kəsildi. Katex üsyançıların əlinə keçdi. Üsyan İlisuya da keçdi. Keşkəlçi muğal və İngiloy əhalisi yalnız üsyançıların tələblərini yerinə yetirdilər. Qalada yerləşən rus qarnizonuna kəndlərdən ərzaq göndərilməsi dayandırılmışdı.

General ***Strekalovun*** başçılığı altında topları və 2500 süngüsü olan rus qoşunu ilə 3 min döyüşçüsü olan üsyançılar arasında həlledici döyüş oktyabrın 15-də oldu. Mühasirəyə alınmış rus qoşunu bir neçə atəşdən sonra üsyançıların sürətli zərbəsinə dözməyib qaçmağa üz qoydu. 18 əsgərlə qalan general Sergeyev yaralandı, qaçıb qalaya sığındı. Döyüş üsyançıların tam uğuru ilə bitdi. Rus qoşununun itkisi böyük idi: 6 zabit və 243 əsgəri öldürülmüş, 10 zabit və 141 əsgəri isə yaralanmışdı. Strekalovun topları da üsyançıların əlinə keçmişdi. Rusların uğursuzluq xəbəri hər yana yayıldı. Çar I Nikolay özü Paskeviçdən belə «biabırçı şəkildə qaçmağın səbəblərini izah eməyi» tələb etmişdi.

Qələbədən sonra bitərəf Tal camaatı da üsyana qoşuldu. Ancaq qələbədən istifadə edə bilməyən Həmzət bəy mühasirəyə çox bel bağlamayıb gözləmə mövqeyi tutdu, Balakən və Alazan boyu kəndləri ələ keçirmədi. Bundan istifadə edən hökumət Yeni Zaqatalaya 4500 nəfərlik rus qoşunu yeritdi. Üsyançıların vəziyyəti pisləşməyə başladı. Yeni qoşun müridlərə çörək verən Əliabad kəndi ilə onların əlaqəsini kəsdi. Rus qoşunu Talı tutduqdan sonra üsyana qoşulmuş cığırdaşlar düşərgəni tərk etməyə başladılar. Şeyx Şabanın rus komandanlığı ilə danışığa girib noyabrın 10-da öz dəstəsini Köhnə Zaqataladan çıxarması hərəkata böyük zərbə vurdu. Carlılara üsyançı kimi deyil, cığırdaş kimi baxan Həmzət bəy müridlərin gücünü sonrakı döyüşlər üçün qoruyub saxlamağı üstün tutdu. Dağlıların Carı maneəsiz tərk etməsinə razılıq verən Strekalov Həmzət bəyi və Şeyx Şabanı tutub Tiflisə yolladı. Sonralar Şeyx Şaban çarizmin pullu casusuna çevrildisə, Həmzət bəy əsirlikdən qaçaraq mübarizəni davam etdirdi.

Noyabrın 14-də üç tərəfdən Cara hücum edən rus qoşunu Köhnə Zaqatala qalasını və Carı ələ keçirib üsyançıları dərəyə sıxışdırdı. Dərə üç tərəfdən atəşə tutuldu. Rus qoşunu üsyançılara qarşı 140 top atəşi açdı. Onlar ciddi müqavimət göstərsələr də, sayca ikiqat çox olan yaxşı silahlanmış ruslara qalib gələ bilmədilər. Strekalov Carı «yer üzündən silməyi» əmr etdi. Evlərin dağıdılması, bağların məhv edilməsi bir neçə vaxt dayandırılmadı. Üsyan başçılarından 32 nəfər tutulub Tiflisə göndərildi. Onların sırasında ***Çapar Əli, Nullı*** və ***Çömçəli*** toxumlarından olan carlılar, müridçiliyin Carda başlıca təbliğatçıları sayılan ***Usta Abdulla*** və ***Səfər Hacı oğlu*** da var idi.

1830-cu ilin dekabrında Balakəndə yeni üsyan baş verdi. Rus qoşunu təqibindən qaçıb gizlənən Car üsyançıları müridçiliyin məşhur təbliğatçısı ***Xala Məhəmmədin*** başçılığı altında birləşib Baş Qafqaz dağlarını aşdılar. Burada sonralar Şeyx Şamilin naibi olmuş ***Əliçulla Məhəmmədin*** dəstəsi ilə birləşdilər. Dekabrın 15-də sonuncunun 2 min döyüşçüsü Balakənə yaxınlaşdı. Bir neçə kovxanı çıxmaqla əhali müridlərə qoşuldu. Üsyançılar Rusiya komandanlığına qulluq göstərən baş kovxa Murtuz Əli oğlunun qəsrini yandırdılar, onun özü də qəsrdə yanıb külə döndü.

Dekabrın 22-də Sergeyevin başçılığı ilə 3 min rus əsgəri iki tərəfdən Balakənə hücuma keçdi. Ağır döyüşlərdən sonra üsyançılar çox da böyük itki vermədən dağlara və meşələrə çəkildilər. Bu qaçqınların bir hissəsi Dağıstana köçərək burada mübarizəni davam etdirdilər.

Car-Balakən camaatlarında üsyanlar yatırıldıqdan sonra çar hökuməti kütləvi cəza tədbirləri keçirməkdən çəkinmədi. 80-dən çox üsyan başçısı hərbi məhkəməyə verildi. Balakən, Sabluan və Rekatala kəndləri yer üzündən silindi, burada yaşayanlar düzən yerlərə köçürüldü. Hökumət 1000-dən çox üsyançı ailəni (6 min nəfərə yaxın adamı) Alazan çayı üzərində təbiətcə yoxsul, iqlimi öldürücü olan boş torpaqlara köçürdü. 9 ildən sonra geri qayıtmağa icazə verilərkən onlardan yalnız 800-ə yaxın ailə qalmışdı.

Üsyan yatırılsa da, Car-Balakən torpaqları hələ tam yenilməmişdi. Əhalinin hökumətə düşmən kəsildiyini bilən baş komandan Car vilayətində 7 batalyon, Yeni Zaqatala qalasında isə 3 batalyon qoşun saxlamalı oldu.

1832-ci ilin iyununda Həmzət bəyin başçılığı ilə dağlıların vilayətdə görünməsi Car-Balakən camaatlarında yeni üsyan doğurdu. Bu üsyan vilayətin yalnız gündoğar hissəsini bürüdü. Hökumət üsyanın yayılmasına yol verməyib süngü ilə onu da boğdu.

**TALIŞ ÜSYANI.** Çarizmin müstəmləkə siyasəti Talış xanlığında da güclü narazılıq doğurmuşdu. Quzey Azərbaycanın bu bölgəsində Rusiya və İranın yerli xan evi ilə çox kəskin və dolaşıq münasibətləri yaranmışdı. 1814-cü ildə ***Mir Mustafa xanın*** ölümündən sonra Rusiya dövləti ***Mirhəsən xana*** polkovnik rütbəsi verib xanlıq hakimiyyətini ona tapşırmışdı. Ancaq Rusiya hərbçiləri ona qarşı yaxın qohumlarının (qardaş və bacıları,

Mir Mustafa xanın arvadı) müxalifətindən ustalıqla istifadə edirdilər. 1826-cı ildə Talış xanlığı da ləğv edildi. Xanın yerinə əyalətdə «mütləq-hakim» olan komendant ***İlyinski*** bu çəkişməni qızışdırdı, üstəlik xanın əmlakının 2/3-sini zəbt edib xəzinəyə verdi. Mirhəsən xan buna dözməyib İrana qaçmağa məcbur oldu. Halbuki Talış xanlığı Rusiyaya meylli idi. 1809-cu ildə Talışa soxulan şah ordusunu Mir Mustafa xan üç dəfə əzmiş, qaçqın Hüseynqulu xanın başçılığı ilə İran qoşununun Bakı üzərinə yürüşünə yardım etməmişdi. Bu, Fətəli şahı çox qəzəbləndirmişdi.

Türkmənçay bağlaşması ilə Talış xanlığının Rusiyaya verilməsi Mir Həsən xanın Abbas Mirzə ilə münasibətini çox kəskinləşdirdi. Sonuncu, xanı ovundurmağa çalışır, Talışın əvəzində Ərdəbil şəhərini, ***Gorganrud, Əsalim, Vergic*** vilayətini ona irsi mülk verirdi ki, «asudəliklə güzəran keçirsin». Qarabağ elatının Zərgərli kəndindən olan tarixçi ***Mirzə Əhməd Mirzə Xudaverdi oğlu*** «Əxbərnamə» adlı əsərində Abbas Mirzənin təəssüflə dolu bu sözlərini sitat gətirir: «Mən Talışı Rusiyaya verməmək üçün çox çalışdım. Ancaq mümkün olmadı. Rusiya sərdarı (Paskeviç – *Red.*) dedi ki, bəlkə yeddi kurur puldan əl çəkim, amma Talışdan əl çəkməyəcəyəm. Mən də çarəsiz qalıb razı oldum».

Mirhəsən xan Abbas Mirzənin sözünü yerə salıb onunla da qarşıdurmaya girdi. «Əxbərnamə» müəllifinə görə, yaxın adamlarına üz tutub buyurdu: «Xatirinizdə varmı, bu işin əvvəlində mən sizə dedim ki, qızılbaş dövlətindən bizim xeyrimizə bir iş olmayacaq. Qızılbaşlar bizim evimizi yaxşı yıxdılar. Köhnə ədavətlərinin qisasını aldılar».

Mirhəsən xan gizlicə bu taya keçib Rusiyaya qarşı qiyam hazırlamaq fikrinə düşdü. Ancaq qardaşları ***Mirabbasla Mirismayıl*** onu dilə tutub Lənkərana gətirdilər və burada rus rəisinin əlinə verdilər. Sonuncu isə, iki dövlət arasında bağlaşma üzrə onu İran hökumətinə təslim etdi. Xan ulu babalarının vətəni olan Xalxal mahalında həbsxanaya salındı. Buradan tezliklə qaçıb qurtuldu, bu taydakı tərəfdarlarının məktubunu aldıqdan sonra yenidən sərhəddi keçib ruslara qarşı mübarizəyə başladı.

Xanlığın özünə gəldikdə, burada böyük gərginlik yaranmışdı. Yerli feodallar iqtisadi-siyasi təzyiqlər, sonsuz sıxıntılar ilə qarşılaşırdılar. Onların torpaq və silki hüquqları əllərindən alınırdı. Din xadimlərinin əhali arasındakı nüfuzuna çar idarəsi zərər vurmağa, onları gözdən salmağa çalışırdı. Ali zümrənin nümayəndələrinə etibar edilmədiyindən onlar idarə işlərinə yaxın buraxılmırdılar. Çarizmin «açıq qarət» ölçüsünə gəlmiş vergi siyasəti Talış vilayətində daha amansız və bu çağacan görünməmiş bir şəkil almışdı. 1828-ci ildə Talışda hərbçi rus məmurlarından ibarət müvəqqəti idarə yaradıldıqdan sonra natural və pul vergiləri, xüsusilə sahibkar kəndlilərin taxıl və çəltik məhsulları üzrə ödədikləri vergiləri iki-üç qat artmışdı. Xəzinə təsərrüfatlarındakı minə yaxın əkinçi adlanan kəndlilərin



yarıdan çoxu müflisləşərək qaçıb dağılmışdı. Dövlət məmurları özbaşınalıq və qanunsuzluqlar edir, ağır cinayətlər törətməkdən çəkinmirdilər. Komendant İlyinski rüşvət və bəxşişlər alır, öz cinayətlərini ört-basdır etməkdən ötrü adamları öldürtməkdən belə çəkinmirdi. Onun əmri ilə 20 adamı istintaqsız və məhkəməsiz dənizdə batırıb öldürmüşdülər. Cinayət törətməkdə ondan geri qalmayan yeni komendant ***Korniyenko*** əhalini iki dəfə artıq vergi ödəməyə məcbur etmiş, ikinci yarısını özü mənimsəmişdi. Talış ərazisində maliyyə və idarə sistemində hər cür özbaşınalıq və qanunsuzluqlarla rastlaşmış poruçik ***Dobrotvorski*** 11 fevral 1831-ci ildə senatorlar Kutaysov və Meçnikova raportunda dəhşət içərisində yazırdı: «vergiləri verməyən istər kişilər, istərsə də qadınlar yarımcan olana kimi döyülür, balaca uşaqlar isə qaçaraq ətrafda fəryad qoparırlar; rəislər o qədər daşürəklidirlər ki, verginin xana ödənilməsi haqda heç bir dəlil-sübutla razılaşmır, ... onlardan ələ keçə bilən hər şeyi, hətta qadınlara məxsus əşyaları da güclə alırlar, buna görə də onlar tamamilə müflisləşir. Evlərini, mal-qarasını qoyub sərhədin o tayına keçməyə məcbur olurlar».

Əhalinin böyük hissəsinin çar müstəmləkə idarəsinə qarşı nifrətlə dolduğunu görən xan tərəfdarları İrana məktub göndərib Mirhəsən xanı çar hərbi-müstəmləkə idarəsi ilə mübarizəyə başçılıq etmək üçün Talışa çağırdılar. Məktubda deyilirdi: «Gecə-gündüz Allaha yalvarırıq ki, Siz həmişə bizə böyük olasınız. Sizdən xahiş edirik ki, daim adınıza şöhrət gətirəcək işi həyata keçirəsiniz... bizi özünüzə nökər sayırsınızsa, buraya gəlməyə və düşmənlərimizi məhv etməyə tələsiniz».

1831-ci il martın 5-də Mirhəsən xan 20 atlı ilə Astara çayını keçib Talış dağları ilə irəlilədi. O biri gün Lənkəranın 10 verstliyinə çatdı. Yolboyu Alar, Dırığ, Lənkəran mahallarının kəndliləri xanın tərəfinə keçirdilər. Çox qısa vaxt içində yaraqlanmış min atlı xanın dəstəsinə qoşuldu. Bu dəstə günügündən artıb çoxalmaqda idi. Qafqaz baş komandanı Paskeviç özü bildirirdi ki, «martın 9-na kimi artıq Talış xanlığında mahalların çoxunu həyəcan bürümüşdü».

Xanın atlı dəstələri Kür çayının mənsəbində yerləşən balıq vətəgələrini dağıtdıqdan sonra Lənkəran yaxınlığındakı dövlətə məxsus at ilxısını ələ keçirməyə girişdilər. Polkovnik Korniyenkonun əmri ilə Ərkivan mahalının kənd sakinlərindən üsyançılara qarşı göndərilmək üçün toplanmış yaraqlı atlı dəstəsi də hökumətdən üz döndərib Mirhəsən xanın tərəfinə keçdi. Korniyenkonun baş komandana 12 mart 1831-ci il tarixli məlumatından aydın olur ki, üsyançılar Lənkəranda yerləşən hərbi qarnizonun «Şirvan və Qarabağ ilə quru yolla olan əlaqəsini tamamilə kəsmişdilər». Mirzə Əhməd Xudaverdi oğlu yazır ki, Mirhəsən xanın nökərlərindən «Haqverdi bəy şəhər ətrafında rus adamlarından kimi görürdüsə, tutub soyur, soldatları öldürürdü».

Bu üsyana Mirhəsən xan və feodallar başçılıq etdiyinə görə tarixi ədəbiyyatda ona daha çox «Talış hadisələri», «qiyam» deyilmişdir. Əslində isə bu, xalq üsyanı idi. Bu üsyanda ali zümrənin nümayəndələri kəndlilər ilə bir cəbhədə çıxış edirdilər. Ancaq, yerli feodallardan taleyini Rusiya ilə bağlayanlar, ona sədaqətlə qulluq edərək öz xalqını soymaq hesabına yaxşı yaşayanlar da az deyildi. Bələləri milli mənafeyi unudaraq hökumətin tərəfinə keçmişdi. Onların bir çoxu rus qoşunları ilə birlikdə üsyançılara qarşı əməliyyatlarda iştirak edirdi. Martın 14-də üsyançıların 800 nəfərlik dəstəsinin Lənkəran yaxınlığında rus qoşunu ilə qarşılaşması uğursuz oldu. Hökumətə sadiq qalan bəylərin yaratdığı milis dəstəsi rus qoşununa yardım göstərdi.

Qafqaz sərdarı Şirvan, Şəki, Dərbənd şəhərlərində yerləşdirilən qoşunlara «Talış fitnəsini söndürməyi» tapşırdı. Mirzə Əhməd Xudaverdi oğlu Lənkərana «on minə yaxın» atlı qoşun gətirildiyini bildirir. Hökumət əlavə qoşun gətirməklə aprelin başlanğıcında üsyanı yatıra bildi. Bu uğursuzluğu görən Mirhəsən xan may ayında yenidən İrana qaçdı. Üsyan yatırıldıqdan sonra 451 ailə də ağır cəza tədbirlərindən yaxa qurtarmaq üçün gizlincə İrana köçməli oldu. Bu ailələrin 410-u vergi verən zümrədən, qalanı bəy, ruhani və nökərlərdən ibarət idi. Vergi verən əhalinin xaricə qaçması ilə xəzinə gəlirinin azalacağından qorxan çar idarələri onların geri qaytarılmasına çalışdı. Ancaq 1832-1836-cı illərdə çox çətinliklə 62 ailə vətəninə qayıtdı, onların da yalnız 35-i vergi ödəyən zümrədən idi.

Bir il ötdükdən sonra əyalətdə daha bir üsyan oldu. 1832-ci ildə buraya yenicə komendant gəlmiş podpolkovnik ***Lutsenko*** rus hərbçilərinin artıq qaydaya çevirdiyi bir qanunsuzluqla işə başladı. O, sələfi Korniyenkonun bütün vergiləri artıqlaması ilə toplamasına baxmayaraq, iki mahaldan vergiləri yenidən ödəməyi tələb etdi. Soyulub var-yoxdan çıxmış əhali tələbdən boyun qaçırdı. Lutsenko Qafqaza yeni Baş hakim qoyulmuş baron ***Q.V.Rozenə*** əhalinin «üsyan etdiyini» bildirdi. Buraya yeni qoşun göndərildi, onun köməyi ilə əhali «itaətə gətirildi». Əhalinin sonrakı şikayətində deyildiyi kimi, çar məmurları bu tədbiri həyata keçirərkən «dəhşətli zorakılıqlara yol vermiş, misal üçün qadınların qulaqlarından sırğaları dartıb qoparmış, onları soyunduraraq çılpaq buraxmışdılar».

## 5. 1837-ci İL QUBA ÜSYANI. ŞƏKİDƏ HƏRƏKAT

**QUBADA ƏYALƏT KOMENDANT İDARƏÇİLİYİ.** Xanlığın götürülməsindən sonra Quba əyalətində də komendant idarəçiliyi yaradılmışdı. Bu, çarlıq Rusiyasının hərbi-müstəmləkə idarəçiliyinin yerlərdə başlıca qurumu, əslində işğal idarəçiliyi sistemi idi. Qafqazın Baş hakimi və koman-



danı Paskeviç 1830-cu ildə çara göndərdiyi təqdimatında bu barədə yazmışdı: «... Müsəlman əyalətlərində əsl hakimiyyət komendantların əlindədir; onların əl-qolunu yalnız Baş hakimin arasıkəsilməz nəzarəti yığışdıra bilər, ancaq bu nəzarət məhdud və çətindir». Quba üsyanı yatırılan kimi onun səbəblərini öyrənmək üçün buraya göndərilmiş qraf ***İ.Vasilçikov*** da «indiki zamanda bütün hakimiyyətin komendantların əlində toplanmış olduğunu», «heç bir qayda-qanun, məsuliyyət tanımayan belə bir idarəçiliyin mənfi səciyyə daşıdığını» bildirirdi.

10 mahal, 1 dairə, 6 «azad icma» birləşdirən Quba əyalətinin başında bu zaman polkovnik ***Gimbut*** dururdu. Tarixçilər onu Azərbaycanda çar hakimiyyətinin «ən yaramaz nümayəndələrindən biri» adlandırırlar. Müşkür mahalı kəndlilərinin şikayəti üzrə Gimbut guya kasıblar üçün hər evdən yığılan 5 abbası pulu, isti mədən suları üzərində guya sağlamlıq evi tikmək və Şirvanda zəlzələdən uçmuş evlərin bərpası üçün yığdıqları pulları özü mənimsəmişdi. Buğda ilə ödənilən ***qalabaşı*** vergisi pula çevrilərək bir neçə qat (3 abbasıdan çox) artırılmışdı.

***Xidmətyana*** vergisi (6 şahı) də onun əlinə keçirdi. Xidmətyana vergi yığanlara çatmalı idi. Gimbut isə onları bu işdən kənar edərək, bu pulu kəndxudalara yığdırırdı. Gimbut torpaq çəkişməsi aparan Ceq və Buduq kəndlərinin birindən gümüş pul ilə 300 və o birindən 200 manat alıb torpağı onların heç birinə verməmişdi. Çünki torpaq bu kəndlilərə deyil, Quba sakinlərinə məxsus idi. Xuluq və Qunuq kəndləri arasında da torpaq çəkişməsi vardı. Gimbut əvvəl gümüşlə 125 manat rüşvət alıb bu torpağı xuluqlulara, bir il ötdükdən sonra yenə gümüşlə 30 manat alıb qunuqlulara vermişdi.

Komendant idarəsində 450-yə kimi qulluq adamı toplanmışdı. Bunların hamısı xalqın soyulmasında bu və ya başqa ölçüdə iştirak edirdi.

Aşağıda polkovnik Gimbutun tutduğu işlər haqda qısaltmalarla Şeşpər mahalı sakinlərinin şikayəti verilir. Bu sənəd Qubada hərbi dairə rəisinə, oradan Tiflisə Baş hakim idarəsinə göndərilmiş və bu idarədə mütərcimlik etməyə başlayan ***Mirzə Fətəli Axundov*** tərəfindən ruscaya çevrilmişdir.

### ŞEŞPƏR MAHALI KƏNDLİLƏRİNİN GENERAL-MAYOR REUTTA ŞİKAYƏTİ, İYUL 1837-ci İL

«1. Gimbutun at ilxısı üçün Niyazabadda ot biçib öz arabalarımızla Qudyal qalasına daşıdıq; bunun üzündən özümüzün mal-qarası üçün yem hazırlaya bilmədik, qış düşdükdə heyvanlarımız qırıldı və bizə böyük zərər dəydi.

2. Biz onun üçün Qudyal qalasının yuxarı qapısı yanında bir bağ saldıq, onu özü məhv etdi. Sonra isə (Ortaqapı) yaxınlığında bizi başqa bir

bağ salmağa məcbur etdi, biz bu bağı neçə ilə əkib qurtardıq, amma bunun qarşılığında ondan bir qəpik belə ala bilmədik.

... 4. Zəlzələ baş verdiyi üçün (bu ad altında) bizdən pul qopardılar.

5. Bizi odun kötükləri gətirməyə məcbur edir, bunun qarşısında bizə heç nə ödəmirdi.

6. Sürülərimiz üçün Gimbut bizdən pul yığaraq, bunu öz mirzələrinə paylayır.

7. Kasıblara paylamaq üçün bizdən pul (zəkat – *Red.*) yığıb özünə götürdü, amma bizim müsəlman qanunumuz üzrə bu yığımı həmin zümrəyə öz əlimizlə biz özümüz paylamalıyıq.

... 9. Neçə ildir bizdən zəkat yığır, buna görə bizim bütün müsəlman məscid və mədrəsələrimiz zəruri xərclərini ödəmək üçün sıxıntı keçirir, həmişə zəkat hesabına dolanan kasıblarımız isə indi aclıq çəkirlər.

... 12. Post dayanacaqlarına pul ödəməyimiz, kağızları ünvanına çatdırmağımız bir yana qalsın, üstəlik bizdən post pulu alır.

13. Heç bir ödənc vermədən bizi Baş yol (Bakı-Quba-Dərbənd yolu – *Red.*) tikintisinə çıxardı.

14. İki ildir ki, onun əmri ilə öz arabalarımızla kötük daşıyırıq, bizlərdən kəli olmayanlar gümüş pul ilə 5 manata kəl tutub bu işi yerinə yetirir.

15. O, Gimbut, Varşavaya (hərbi qulluğa – *Red.*) göndərmək üçün bizdən adam tələb edir. Siz zati-alilərinin yanına gəlib bu (şikayəti) vermək üçün biz Çiqaçuk çayının üstündə yığıncağa toplaşdıq, bu vaxt Şabran mahalının sakinləri də Siz zati-alilərinə belə bir xahiş vermək üçün Qudyal qalasına toplanmışdılar. Bu arada komendant Gimbut bu sonuncuların fikrini bildikdə, onların hörmətli adamlarını ağacla döydürüb adı çəkilən qaladan qovdurdu, bununla yanaşı ***Məmməd Rıza bəyi*** bizim üstümüzə göndərdi; o, gəlib çatan kimi bizi hədələyərək qorxutdu, ləyaqətimizə toxunaraq arada belə bir yalan şaiyə buraxdı ki, guya biz istehkamlar qurur, mis qabları basdırıb gizlədir və Rusiya rəislərinə qarşı durmaq istəyirik...

Yuxarıda söylənənləri Siz zati-alilərinin nəzərinə çatdıraraq, Gimbutun komendant vəzifəsindən götürülməsini, bununla da bizi onun zülmündən qurtarmağı Sizdən itaətlə xahiş edirik. 1253 (1837)-cü ilin Səfər (iyul) ayı, 96 adamın imzası qoyulmuşdur. Çevirdi Fətəli Axundov».

**NAİBLƏRİN VƏ İLTİZAMÇILARIN ZÜLMÜ.** Mahalların idarəsi naiblərin əlində idi. Çar məmurları özləri yazırdılar ki, mahal naibləri əhali üzərində mütləq hakimdirlər. Amansız istismar hesabına onlar xalqdan xəzinənin götürdüyündən daha çox qazanc əldə edə bilirdilər. Ən çox onlar rəiyyətin və rəncbərin çalışması sayəsində varlanırdılar. Onların böyük təsərrüfatları var idi. Buduq mahal naibi ***Alpanlı Məmmədxan bəyin*** ilxısında 500-dən çox at saxlanırdı, ildə 500 rüb taxıl səpirdi. Müşkür mahal



naibi Cəfərqulu bəy Bakıxanov (Abbasqulu Ağanın qardaşı) yalnız düyü satışından ildə 3 min gümüş manat götürürdü. Bu naiblərin və başqalarının çəltik, buğda, arpa, darı əkinlərini, bağlarını rəncbərlər becərirdi. İlbəil onların acgözlüyü artırdı. Əkinləri genişləndirərək, öz rəncbərlərini bir neçə qat artıq işlədirdilər. Xəzinə vergilərini ödəmək üçün 100 araba tələb olunduğu halda, onlar kəndlərdən üç qat çox istəyir, artığını sahiblərindən pul alıb geri qaytarırdılar. Buduq mahalının naibi Məmmədxan bəy əkin, səpin, biçin və xırman işlərini bütünlüklə kəndlilərə gördürüb, üstəlik iki il içində onlardan pulsuz 100 rüb toxum almışdı. Pambıq əkmək üçün xış və toxumu da kəndlilərdən alır, onlardan top-top ipək sapı qoparıb mənimsəyirdi.

Müşkür mahalı əhalisinin şikayətində mahal naibləri ilə bağlı yazılırdı: «Siz zati-alilərinə komendant Gimbutun belə qanunsuz hərəkətlərini bildirməklə, Sizdən onu, onun tərcüməçisi Aslanovu, Məmmədxan bəyi və Cəfərqulu ağanı vəzifədən götürməyi xahiş edirik, [çünki] onlar Gimbutun bizə qarşı etdiyi özbaşınalıqların hamısında iştirak edirlər».

Quba əyalətində 1800-ə yaxın kəndli həyəti bəylərə məxsus olub, qalan 8364 həyət isə dövlət xəzinəsinin istismarında idi. 1836-cı ilə aid arayış üzrə kəndlilər Rusiya xəzinəsinə gümüş pul ilə 12973 manat vergi, daimi və dəyişən natural vergi 6862 rüb buğda, 2899 rüb arpa ödəmişdilər. Ağır vergilərlə yanaşı onlar çoxsaylı mükəlləfiyyətlər yerinə yetirir, dövlətə məxsus binaların tikilməsi, yolların nizama salınması, arx və kanalların təmizlənməsi kimi işləri görürdülər. Yerli komendant vergilərin bölgüsü və yığılmasında hər cür özbaşınalığa yol verir, əhalini qoşunlar üçün bazar qiymətindən 3 dəfə ucuz qiymətə taxıl satmağa məcbur edirdi. Vergilər yığılarkən kəndlilər qiymət, çəki və ölçüdə açıq-açığına aldadılırdı. Vilayətdə heç bir qayda-qanun gözlənilmirdi. Hökumətə sədaqətli bəylər, mahal naibləri komendantlıqla əlbir hərəkət edirdilər.

1834-cü ildə Quba əyalətindəki 328 qışlaq və 111 yaylağın 4 illiyə, hər il 4565 gümüş manata ***Şergilov*** adlı birisinə iltizama verilməsi maldarların vəziyyətini olduqca pisləşdirmişdi. Çünki bu soyğunçu iltizamçı otlaq haqqı kimi müəyyən olunmuş ənənəvi ödənişi pozaraq 5 qat rüsum toplayırdı. Yerli əhali öz sürülərini Quba əyalətində deyil, Şirvanın qışlaq və yaylaqlarında otardıqda belə, iltizamçıya rüsum ödəməli idi. Bundan başqa əyalətdə yetişdirilən bütün barama yığımı, balıq vətəgələri, bağlar, nəhayət «mizan çəkiləri» də poruçik Şergilova dördillik iltizama verilmişdi. Bütün bunların qarşısında iltizamçı Rusiya xəzinəsinə yalnız 5502 gümüş manat keçirmişdi. Özü isə baramanın, balığın, meyvə bağları məhsulunun 1/10-ni mənimsəyir, əyalətdə satılan ipəyin hər funtuna 5 qəpik «mizan» rüsumu çıxaraq böyük gəlir götürürdü. Əslində əyalətin bütün təsərrüfatı onun inhisarına keçmişdi. Yerli feodallar da iltizam işinə qoşulmuşdular.

Cəfərqulu Ağa taxıl əkinlərini, ***Qurban Niftalıyev*** satışını, ***Hacı Əminər*** dövlət tikililərini, ***İsmayıl Məmmədqulu*** neft quyularını, Zeynal adlı birisi dəyirmanları iltizama götürmüşdülər.

**ÜSYANIN BAŞLANMASI.** Kənd əhalisinin səbrini 1837-ci ildə baş komandanın Varşavadakı atlı müsəlman alayı üçün (Quba əyalətindən) 36 atlı əsgər toplanması haqda sərəncamı tükətdi. Bu iş kəndlilər üzərində yeni soyğunçuluq mənbəyi olmuşdu. Başqa əyalətlərdə bir atlının təchizatı yerli əhali hesabına 130-150 man. tuturdusa, Quba əyalətində 350 manata başa gəlirdi. Aprel ayında əyalətin Yuxarıbaş, Sırt və Anaqdərə mahallarının bütün kəndxudaları Əhərzə kəndinə yığışıb, idarəsi Qubada olan Dağıstan hərbi dairə rəisi general-mayor Reuttdan kəndlərdə atlı toplanılmasını dayandırmağı tələb etdilər. Reuttun bundan sonra atlı döyüşçülərin yalnız könüllü olaraq yığılacağı haqda vədinə inanmayan camaat evlərinə dağılışmadı.

Komendant Gimbutla rəqabət aparan, birbaşa baş hakim baron Rozenlə əlaqə saxlayan Tip mahalının naibi mayor ***İsa bəy Həsən Əfəndi oğlu*** kəndlilərlə görüşə gəldi. O, əhalinin narazılığını gücləndirmək üçün Xudatda yığışan üsyançılara bildirdi ki, baş hakimdən atlı yığılmasını Məmmədxan bəy Alpanlı və Cəfərqulu ağa Bakıxanov xahiş etmişlər. Bundan çox qəzəblənən kəndlilər hökumətə qulluq edən «satqın bəylər sürüsünün məhv edilməsi» tələbini irəli sürdülər. Sözdə «itaətkar xahişnamə» şəklində olan bu tələblər məzmunca kəskin yazılmışdı (mətn parçaları yuxarıda gətirilmişdir).

Çağdaş tarixçi A.Bakıxanov üsyançıların tələbləri ilə bağlı yazırdı: «Bu tələbləri yerinə yetirmək məqsədilə artıq yola düşməyə hazır olan atlılar dərhal buraxılmış, komendant polkovnik Gimbut işdən götürülmüş, poruçik Məmmədxan bəy və podporuçik Cəfərqulu ağa Şamaxı və Bakıya aparılmış və indi də orada saxlanılmaqdadırlar; pulların geri qaytarılması haqda isə Baş hakim qarşısında məsələ qaldırmaq vəd edilmişdi».

Tələblərin yerinə yetirilməsi əhalini bir az sakitləşdirdi, onlar dağılıb getdilər. Ancaq az sonra üsyana başçılıq edən Xuluq kəndxudası ***Hacı Məmməd*** və on kənd böyüyü yenidən Reuttun yanına gəlib, süni surətdə birləşdirilmiş yuxarı mahalların ayrılması, vergilərin azaldılması barədə ona yeni tələblər verdilər. Hərəkat getdikcə kəskin sosial səciyyə almaqda idi. Kəndlilərin evlərinə dağılıb getməsini görən çar hərbçiləri bu tələblərin cavabını uzatmağa başladılar.

**ÜSYANIN İKİNCİ DALĞASI.** Avqust ayında Hacı Məmməd qızının toyu ilə bağlı Xuluq kəndinə çoxlu qonaq çağırdı. Miskinc, Qarakürə, Yuxarıbaş, Anaqdərə, Sırt mahallarından buraya 200-ə kimi adam toplandı.



Üsyanın gedişində Hacı Məmmədin yardımçısı olan kəndli ***Yarəli*** də oğlu ***Rəcəblə*** bunların arasında idi. Kənd başçıları burada müşavirə keçirib «üsyan etmək» qərarına gəldilər. Kəndlərə çaparlar göndərildi.

Quba camaatı dağlıların azadlıq hərəkatının başçısı Şeyx Şamil ilə də əlaqə yaratdılar. ***Yuxarıbaş*** mahalında yaşayanlar Şamilə məktub yazmışdılar. Onlar, Rusiya hökumət nümayəndələrinin üsyanda irəli sürülən tələbləri ödəməyə söz verdiklərini bildirirdilər.

Həmzət bəyin öldürülməsindən sonra 1835-ci ilin yayında imam seçilən Şeyx Şamil yalnız 1837-ci ildə çarlıq Rusiyasına qarşı silahlı mübarizəyə başlamışdı. Ona görə qubalıların çıxışına diqqətlə yanaşırdı. Şamil Qubaya məktub göndərdi. Məktubun mətni qalmamışdır. Ancaq Hacı Məmməd sonrakı məhkəmə dindirməsində bu məktubun üzərində Şeyx Şamilin öz möhürünün vurulduğunu söyləyirdi. Məktubun gerçək olduğunu general Reuttun onu ələ keçirmək üçün gizli tapşırıq verməsi də sübut edir. Görünür, çar generalının tapşırığı boşa çıxmışdı. Məktub ***Hacı Məmmədin, İlyas bəyin, Həsən bəyin***, başqa Quba kəndxudalarının adına yazılmışdı. Şamil öz məktubunda yaz vədlərindən sonra qubalıların evlərinə dağılışmasını kəskinliklə qınayırdı. Hacı Məmmədin sonrakı məhkəmə danışığına görə, Şamil kəndliləri çar məmurlarına inanmamağa çağırırdı. Yazırdı ki, «yadellilərin zülmündən» qurtulmaq üçün bir çıxış yolu var, o da silahlı mübarizədir. Şamil bir də yazırdı: «bizim etiqad və adətlərimizin düşmənlərinə qarşı üsyan edin! Ruslar ona görə məndən nə isə tələb etmək gücündə deyillər ki, mən gecə-gündüz vuruşaraq bizim gücümüzün üstünlüyünü sübuta yetirdim, boş vədlər və kağızlara inanmayın, susmaq sizin üçün ölüm deməkdir!»

Avqustun 21-də əyalətin bir çox yerlərində kiçik yaraqlı dəstələrin toplanması ilə hərəkat yenidən başladı və tezliklə silahlı üsyana çevrildi. Yeni əyalət komendantı mayor ***İççenko*** üsyançıları qabaqlamaq üçün onların içinə praporşik ***Əlipaşa Ağa Bakıxanovu*** (Abbasqulu Ağanın əmisi oğludur) göndərdi. Onun casusluğu baş tutmadı. ***Bedişqala*** kəndxudasının evində üsyançılar onu tutub ***Yasan*** kəndinə apardılar və burada öldürdülər.

Yarəlinin başçılıq etdiyi üsyançı dəstə tərəfindən Anaqdərə mahalında rus kazaklarının və Xudat postundakı rus əsgəri bölüyünün əsir alınması hərəkatın ilk uğuru oldu. Üsyan əyalətin bütün mahallarına yayıldı. Yalnız Quba şəhəri, Buduq və Barmaq mahalları komendantın hökmü altında qalırdı, qalanları isə onun və mahal naiblərinin hakimiyyətindən çıxmışdı.

Belə bir şəraitdə əyaləti idarə etmək üçün üsyançılar xan seçmək qərarına gəldilər. Onlar öz başçıları Hacı Məmmədi «xan» seçdilər. O, üç mahalın idarəsini öz əlinə alaraq, oraya hakimlər göndərdi. Hər yerdən

kəndlilər axışıb onun dəstələrinə qoşulurdular. Çox keçməmiş üsyançıların sayı 3 minə çatdı. Üsyanın başlıca hərəkətverici qüvvəsi kəndlilər olsa da, Quba bəylərinin böyük hissəsi də üsyana qoşulmuşdu. Buduq mahalını çıxmaqla qalan mahallara qoyulan yeni naiblərin hamısı çarizmə qarşı yağı mövqeyində duran bəylər idi. Yuxarı mahalların bəylərinin demək olar hamısı üsyanda iştirak edirdi.

Əhbil kəndində düşərgə salmış üsyançıların sayı artıq 7 minə, Quba şəhərinə hücum ərəfəsində isə 12 minə çatmışdı. Dağıstanın güney hissəsində yaşayan sakinlər də axışaraq gəlib üsyançı dəstələrə qoşulmuşdular.

Quba üsyanının avqust-sentyabr yüksəlişi qarşısında da Şeyx Şamil buraya məktub göndərərək çar hökuməti ilə barışmaz mübarizəyə qalxmağa çağırmışdı. Hacı Məmməd məhkəmədə bildirmişdi ki, Quba üzərinə yürüşdən qabaq bu məktuba, «dəstəmizin uğurları ilə bağlı hərəkatda iştirak edənlərin (başçıların – *Red.*) hamısının möhürlərini vurmaqla» cavab göndərmişdik. Burada yazılmışdı: «Allaha şükür olsun, biz bərk dayanmışıq, xeyli qoşun toplamış, çoxlu əsir götürmüşük və tezliklə şəhəri almaq ümidindəyik». Beləliklə, Quba üsyanı ilə dağlılar hərəkatının başçıları arasında ilişgi olması tarixi gerçəklikdir.

**QUBA UĞRUNDA DÖYÜŞLƏR.** Hərəkata başçılıq etmək üçün ayrıca hərbi şura yaradılmışdı. Bu şuraya şəhərlilərin də nümayəndələri daxil edilmişdi. Şura üsyanın sonrakı gedişinin planını tutmalı, Dərbənddən çıxan general Reuttun hərəkətinə göz qoyub izləməli, şəhərə bitişik yerləşən Gürcüstan alayının lazaretini ələ keçirməli idi.

Şəhər əhalisinin üsyana rəğbətlə yanaşdığını yaxşı bilən Hacı Məmməd avqustun 30-dan Quba şəhərini ələ keçirmək əməliyyatına ciddi hazırlığa başladı. O, 12 minlik qüvvəni hərəsində 4 min döyüşçü olan 3 dəstəyə böldü. Dəstələrin biri İsmayıl xan və Cəfər bəyin başçılığı ilə öndən (Xaçmaz yolundan), o birisi isə İsa bəyin qardaşı Bayraməlinin başçılığı altında güneydən hücuma keçməli, Yarəlinin başçılıq etdiyi dəstə isə quzeydən şəhərə girməli idi. Hacı Məmmədin özü Nügədi kəndində dağlıq yerdə hücumun gedişini müşahidə etməli idi.

Qalada yerləşən hökumət qarnizonunda 600 nizami əsgər, çoxlu silah ehtiyatı və toplar vardı. Qarnizona başçılıq edən komendant İççenko bir sıra hazırlıq işləri gördü. Onun əmri ilə bayırdan qalaya bitişik bütün evlər söküldü, bununla üsyançıların qalaya aşıb keçmək qorxusunu aradan götürməyə çalışdı. Çoxsaylı döyüşçülərin hərəkətini asanlaşdırmaq üçün qalanın içərisində bütöv bir məhəllə sökülüb yox edildi. Qala divarlarına kimi uzanıb gələn alma bağını isə qırdırmağa macal tapmadı. Ağaclar, qalaya yaxınlaşan üsyançılar üçün gülədən bir qoruyucu olaraq qaldı.



İş dalınca Quzey Dağıstana getmiş hərbi dairə rəisi Reutt tələsik Dərbəndə gəldi. Burada özü ilə 250 əsgər, 300 yerli milis, iki top götürüb Qubaya yollandı. Ancaq üsyançılar onun yolunu kəsib Quba qarnizonu ilə birləşməyə qoymadılar. General Dərbəndə dönməli oldu.

Hacı Məmmədin başçılığı ilə 3 sentyabrda keçən Hərbi Şura birbaşa hücumla qalanı almağın mümkün olmadığını bildirdi. Şurada şəhəri təmsil edən ***Xanməmməd*** və ***Səlim***, gizli yolla qalaya girməzdən qabaq şəhərlilərin razılığını almağı təklif etdilər. Hərbi Şura adından kağız yazıldı, Səlim onu gizlicə şəhərlilərə çatdırdı. Burada yazılmışdı ki, üsyançıların şəhərə girməsinə razısınızsa, mal-qaranı qaladan bayıra otlağa çıxarın.

Ertəsi gün qala qapıları açılaraq mal-qara otlağa çıxarıldı. Bunun şərti razılıq olduğunu bilən üsyançılar döyüş planını yerinə yetirməyə başladılar. 5 sentyabrın alatoranlığında Yarəli min döyüşçünü götürüb, keçilməz dağ cığırı ilə onları bir-bir qalaya keçirməyə başladı. Onlar şəhər məhkəməsi binasını, mərkəzi meydanı tutdular. Ancaq ştabs-kapitan ***Zarembski*** çevik tərpənib onları topa tutdu, səpələnib evlərə və tikililərə sığınmağa məcbur etdi. Tikililərin bir çoxu kiçicik qalalara çevrildi. Şəhər əhalisi üsyançılara kömək göstərir, özləri də onlarla birgə döyüşürdülər. Rus əsgərləri saat 5-ə yaxın üsyançıları vurub qaladan çıxardılar. Yarəlinin uğursuzluğu üsyançıların güney və ön zərbəsinin düşünüldüyündən qat-qat zəif alınması ilə bağlı idi. Onlar qala qarnizonunu çöldən çox ciddi məşğul edib Yarəlinin işini asanlaşdıra bilmədilər. Qala topları onları yaxın buraxmadı. Şəhərin suyunu kəsib yalnız gözləmə mövqeyi tutdular. Uğursuzluq üsyançıların öz gücünə güvənməsini sarsıtdı.

Üsyanı yatırmaq üçün baş hakim Rozen, Şeyx Şamilə qarşı savaşda olan general ***Fezeni*** 3222 süngü və 14 top ilə Samur çayı üzərinə göndərdi. Ola bilsin, başlıca tapşırıq Quba üsyançılarının dağlılar ilə birləşməsinə yol verməməyi nəzərdə tuturdu. Bundan başqa Bakı, Şamaxı və Zaqataladan 6 piyada bölüyü, 6 topu olan bir eskadron Qubaya göndərildi. Zaqataladan göndərilən rus qoşununu ***Daniyel bəy İlisulunun*** başçılığı altında 250 döyüşçüsü olan Car-Balakən milisi müşayiət edirdi (çar hökumətindən generallıq almış bu amansız bəy yeddi il sonra Şeyx Şamilin tərəfinə keçmişdi). Bundan qabaq isə Reuttun göstərişi ilə Kürə və Qazıqumux xanları tərəfindən təşkil edilmiş feodal milis dəstəsi də Qubaya yeridilmişdi. Şirvan komendantı ***fon-Aşeberqin*** göstərişi ilə «Şirvan milisi» (min atlı) yerli praporşiklərdən Adil bəy, Şirəli bəy və Şirin bəyin başçılığı altında Qubaya göndərildi. Şirvan milisi Qubaya çatan kimi dinc əhaliyə amansız divan tutmağa başladı. Rəsmi sənədlərdən birində deyilirdi: «Qubanın mühasirədən qurtulma şərəfi əslində bu milisin payına düşür, ancaq belə bir xeyirxah işi bu milis bir orijinal... üsul ilə yerinə yetirdi: üsyan etmiş əyalətdə atdığı ilk addımdan şirvanlılar, onların qarşısına

çıxan hər kəsi... elə bir eşidilməmiş həyasızlıqla soyub talan etməyə başladılar ki, dinc əhalini də, qiyam edənləri də eyni ölçüdə dəhşətə gətirdilər. İş o yerə çatmışdı ki, Şirvan milisinin əl-ayağını yığışdırmaq üçün iki dəfə göndərilən ştabs-kapitan Zarembski hər ikisində bu milis tərəfindən soyulub yola salınmışdı».

Rəsmi qaynaqda deyildiyi kimi, «bu yeni hunların davranışı» barədə eşidən üsyançılar öz evlərini, arvad-uşaqlarını qorumaq üçün kütləvi şəkildə dağılışmağa başladılar. Sentyabrın 11-də üsyançıların düşərgəsində Hacı Məmmədlə yalnız üç dağ mahalının (Müşkür, Anaqdərə və Sırt) sakinləri qalmışdı. O, qalan üsyançılara evlərinə dağılışmaq əmri verib özü doğma Xuluq kəndinə getdi; oradan isə ailəsi ilə birlikdə Kürə xanlığına keçdi. Özünü üsyana tərəfdar kimi göstərən Qazıqumux və Kürə hakimi ***Məmmədmirzə xan*** onu tutub hökumətə təslim etdi. Üsyan başçıları sayılan 44 adam həbs edildi. Quba üsyanı qan içində boğuldu.

Üsyandan sonra da dağlıq mahallarda mübarizə davam edirdi. Üsyanın ikinci lideri Yarəli beş adamla dağlara çəkilib qaçaqlıq edirdi. 1838-ci ildə cəza dəstələri iki dəfə üsyançıların üzərinə yürüş etdi. İyun ayında Acıaxur adlı bir yerdə baş vermiş döyüşdə üsyançılar əzildilər. Dağlıq mahalların sakinləri Rusiyaya sədaqətli olacaqları, vergilərdən boyun qaçırmayacaqları haqda hökumət qarşısında and içməyə məcbur edildilər. Üsyançılardan bir parası ***Rutullu Ağabəy*** başda olmaqla dağlara çəkildi.

Üsyan yatırıldıqdan sonra hökumət hərəkatın fəal iştirakçılarına divan tutdu. Hacı Məhəmməd 4 il çəkən üzücü dindirmələrdən sonra Bakı hərbi-səhra məhkəməsinin hökmü ilə asıldı. Mayor İsa bəy bütün ad və rütbələrdən məhrum edilib Sibirə sürgün edildi. ***Vəlibəy Şahnamaz oğlu, Ağası Zöhrab oğlu, Şahbaz Əhməd oğlu, Şərifəli Çəmyab oğlu*** Sibir xətt qoşunlarına «qulluğa» göndərildilər. İmperator Nikolay Hacı Məmmədin heç bir günahı olmayan oğlu Novruzun «yaşamaq üçün» Quzey Rusiya şəhəri Kaluqaya göndərilməsi haqda buyruq verdi. Ancaq Novruz rus hərbi xəstəxanasında gözlənilmədən «qızdırmaya tutulub» öldü.

Quba üsyanı Azərbaycanda müstəmləkə zülmünə qarşı mübarizə tarixində böyük yer tutur.

**ŞƏKİ ƏYALƏTİNDƏ HƏRƏKAT.** Başqa müsəlman əyalətlərində olduğu kimi, Şəki əyalətində də Rusiya hökumətinin istismarçı maliyyə vergi siyasəti əhalinin vəziyyətini olduqca ağırlaşdırmışdı. «Qafqazda ipəkçiliyi yayan cəmiyyətin» təsərrüfatlarında çalışan rəncbərlərin vəziyyəti dözülməz idi. Xanlıq çağında vergi ödəməyən məaflar üzərinə vergi və mükəlləfiyyətlər qoyulması, kəndli və sənətkarlardan ilbəil yeni vergi və rüsumlar yığılması, yerli idarələrin özbaşınalığı, ali zümrəyə qarşı ayrı-seçkilik siyasəti burada hərəkatın başlıca səbəbləridir.



1837-ci ildə Səlim xanın oğlu ***Hacı xan*** tərəfindən İrandan Şəkiyə göndərilən ***Məşədi Məmməd*** adlı birisi özünü xanların varisi kimi qələmə verərək, kiçik bir dəstə başında əyalətdə üsyan qaldırmağa çalışdı. Bu iş uğursuz oldu. Hökumət bu cəhdin qarşısını alaraq onu həbs etdi. 1838-ci ilin iyulunda özünün bir neçə tərəfdarı ilə həbsxanadan qaçan Məşədi Məmməd Dağıstana gedərək burada sığınacaq tapmış Rutullu Ağa bəylə yaxınlaşdı. Avqust ayında Məşədi Məmməd və Ağa bəyin başçılıq etdiyi 5 minlik qoşun Şəkiyə yollandı. Dağlarda hökumətdən gizlənən çoxlu şəkili onlara qoşuldu. Şəki əyalətinin komendantı üsyançılarla döyüşmək üçün yerli əhalidən yaraqlı dəstə toplamağı tələb etsə də, mahal naibləri bu işin öhdəsindən gələ bilmədilər. Qutqaşın mahalı bu dəstə üçün bir döyüşçü də olsun verməmiş, Şəki mahalında isə 1000 yerinə yalnız 200 döyüşçü yığılmışdı. Ancaq bu kiçik dəstə üsyançılarla vuruşmaqdan boyun qaçırdı. Rus hərbi qarnizonu ilə üsyançılar arasında ilk döyüş Şəki yaxınlığında baş verdi. Şəhər yoxsulları üsyançıların tərəfinə keçdilər. Nəticədə dövlət məmurlarının və hökumətlə əməkdaşlıq edən varlıların gizləndiyi qaladan başqa bütün şəhər üsyançıların əlinə keçdi. Bir neçə gün üsyançı dəstə ilə hökumət qoşunu arasında baş verən toqquşmada heç kim uğur qazana bilmədi.

Baş komandan başqa əyalətlərdən Şəkiyə yeni rus qoşunu göndərdi. Bunu eşidən üsyançı dəstə sentyabrın 3-də şəhəri buraxıb geri çəkilməyə başladı. Rus qoşunu üsyançılara çatıb bir neçə zərbə ilə onları məğlubiyyətə uğratdı. Məşədi Məmməd yenidən İrana qaçdı.

30-cu illərdə Car-Balakəndə, Talışda, Qubada, Şəkidə baş vermiş üsyanlara, hökumət idarəsinə nökərçilik edən kiçik bir zümrəni çıxmaqla əhalinin bütün təbəqələri qoşulmuşdu. Hərbi işğal idarəsinə qarşı kəndlilərin, şəhər əhalisinin, yerli feodalların və ruhanilərin bir cəbhədə çıxış etməsi bu üsyan və çıxışların başlıca xüsusiyyəti olmaqla xalqın azad edilməsinə yönəldiyini göstərir.

## 6. ÇARİZM VƏ YERLİ FEODALLAR (20-ci illərin sonu - 1846-cı il)

**BƏYLƏRİN TORPAQ ÜZƏRİNDƏ HÜQUQLARINA RƏSMİ BAXIŞ. LAYİHƏLƏR, TƏKLİFLƏR.** Türkmənçay və Ədirnə bağlaşmaları ilə çarlıq Rusiyası Güney Qafqaz məsələsini hərbi-siyasi baxımdan öz xeyrinə həll etsə də, burada hələ vahid, aydın müstəmləkə xəttini müəyyənləşdirə bilməmişdi. Qan bahasına, silah gücünə ələ keçirilmiş əyalətlərdə özgə qaydaların, qabaqlar olmayan münasibətlərin tətbiq edilməsi qiyamlara səbəb olurdu. Transqafqaz inzibati idarəsinin yenidən qurulması labüd idi, mərkəzi hökumət bunu anlamaya bilməzdi. Çünki bunsuz bütün Transqaf-

qazın iqtisadi yatarını mənimsəyərək buranın Rusiya malları üçün satış bazarına çevrilməsi, eyni zamanda çar hökuməti üçün sosial arxa yaradılması kimi iki mühüm vəzifəni uğurla həyata keçirmək mümkün deyildi.

Mərkəzi hökumət bütün diqqətini müsəlman əyalətlərinin əldə saxlanmasına və xəzinə gəlirinin çoxalmasına yönəltmişdi. Bununla bağlı olaraq hökumət, müsəlman əyalətlərində yerli ağaların torpaq və siyasi-silki hüquqlarının öyrənilməsinə başladı. Bu iş imperatorun göstərişi ilə qraf Paskeviçin hələ 1828-ci ildə yaratdığı «Zaqafqaziya müsəlman əyalətlərinin quruluması üzrə komitə»yə tapşırıldı. Komitənin ali müsəlman silkinin xanlıq dövründəki hüquq və imtiyazları haqda topladığı məlumatlar 1835-ci ildə hazırlanmış iki arayış üçün özül oldu. Bu arayışda gerçək durumu düzgün əks etdirən sənədlərlə yanaşı, bəy və ağaların torpaq, kəndlilər üzərində hüquqlarını dolaşdırıb təhrif edən, bəzən bir-biri ilə uzlaşmayan məlumatlar da var idi.

1830-cu ilin mayında çarın fərmanı ilə bəyənilmiş «Qafqaz arxasında təsərrüfat (kameral) sayımı keçirilməsi haqda qaydalar» bəy və ağaların hüquq və silki imtiyazlarının üzə çıxarılmasını nəzərdə tuturdu. Bu sayım hökuməti ali silkin sayı və tərkibi haqda biliklə təmin etdi. Bakı əyalətində 72, Şirvanda – 262, Qubada – 201, Talışda – 69,4 əyalət üzrə birlikdə 603 bəy ailəsi yaşayırdı. Ancaq baş komandanlıq əslində bununla işini bitmiş saydı. Çünki 30-cu illərdə nə mərkəzdə, nə Qafqazda bəylərin hüquqları ilə bağlı düşünülmüş bir siyasət hələ yox idi.

Rusiya imperatorluğunun yenicə əlinə keçmiş Transqafqaz ölkələrində idarəçiliyin yenidən qurulması ilə bağlı irəli sürülən layihələr bunu açıq da göstərir. Bu layihələrdən birini 1829-1830-cu illərdə burada yoxlama aparan P.İ.Kutaysov və Y.İ.Meçnikov və baş komandan Paskeviç ilə birlikdə hazılayıb çar I Nikolaya təqdim etmişdilər. Bu layihədə çarizmin Azərbaycanda sosial dayaq yaratması məsələsi ön plana çəkilirdi. Ali müsəlman silkinə qəti düşmən mövqedən yanaşılaraq tiyul torpaq sahibliyinin ləğv edilməsi, bunun hesabına burada etibarlı arxa kimi «rus zadəganlığının» yaradılması təklif edilirdi. Layihədə bəylərin dövlət qulluğu və idarə işlərindən bütünlüklə uzaqlaşdırılması zəruri sayılırdı.

30-cu illərdə ortaya çıxan və qraf Paskeviçin (bu zaman Polşada hakim idi) qeydləri ilə birlikdə baxılıb təsdiq edilmək üçün 1833-cü ilin mayında Dövlət Şurasına göndərilən layihələrdən biri də «Zaqafqaziya diyarı haqda ümumi mülahizələr» adlanırdı. Birinci layihədə olduğu kimi, bu sənəddə «təbii rus zadəganlığının» yaradılıb yerləşdirilməsi önə çəkilmişdi. Bəylərdən alınacaq torpaqları paylamaqla hər qəzada 5 rus zadəganı yerləşdirmək nəzərdə tutulurdu. İstefaya çıxan hərbi qulluqçuları, imtiyazlar və torpaqlar verməklə Qafqaza bağlamaq, bu yolla da burada hökumətə sosial arxa yaratmaq fikri hamını narahat edirdi. Ancaq bununla



yanaşı ikinci layihədə müsəlman əyalətlərində «müsəlman» və ya «Məhəmməd zadəganlığı»nın yaradılması da zəruri sayılırdı. Görünür, keçmiş baş komandan öz əvvəlki mövqeyindən azacıq uzaqlaşmış, Rusiya «dövlətinə birləşdirilmiş bütöv bir xalqı yalnız aşağı silkdən ibarət saymağın yolverilməz olduğunu» başa düşmüşdü.

İkinci layihəyə görə müsəlman zadəganlığı sayca az olmalı idi. Hökumətə düşmən mövqe tutan, «sədaqətli» olduğu hələ sübut edilməyən bəylər üçün buraya yol qapalı qalırdı. Sosial-siyasi və silki hüquqlar baxımından «müsəlman zadəganlığı» istər rus, istərsə gürcü zadəganlığına bərabər tutulmurdu. Bu zümrə yalnız «sədaqətlə» qulluq edən «etibarlı» bəylərdən yaradılmalı idi. «Bəy» adının irsən keçməsi layihədə inkar edilmirdi, ancaq bunun üçün indi qəti şərt qoyulması gərəkli sayılırdı. Qraf Paskeviç-Varşavskinin qeydinə görə, eyni etiqadlı qonşu farsların, türklərin və dağlıların təsiri ilə xəyanətə meylli olan müsəlman sahibkarlar və onların ailələri hökumətə xain çıxmağa görə bütün siyasi hüquqlarını itirə bilərdilər. Layihənin 30-cu bölməsində ali silkin birinci dərəcəsi olacaq xanların da hamısına deyil, yalnız «yoxlanıldıqdan sonra» ayrı-ayrı şəxslərə knyaz adı verilməsi nəzərdə tutulurdu.

«Xüsusi mülahizələr»də bəylərin silki imtiyazları torpaq hüququ ilə bağlı şəkildə qoyulur, qəti bildirilirdi ki, daşınmaz əmlaka sahiblik sənədi olmayanların zadəgan adını daşımağa heç bir hüququ yoxdur. Bu, siyasi məram daşıyan bir şərt idi. Bəy torpaqları düşünülmüş ölçüdə çar xəzinəsinin əlinə keçməsə, burada nə «təbii rus zadəganlığı», nə də mülk torpaq hüququ verilməklə azsaylı «müsəlman zadəganlığı» yaradıb saxlamaq olmazdı.

30-cu illərdə Rusiyanın Qafqazdakı yüksək qulluq adamlarının çoxu «bu uzaq güneydə canlı aparıcı qüvvə» dedikdə rus zadəganlığı yaradılması fikrinə üstünlük verirdilər. Gürcüstanın mülki işlər qubernatoru general-mayor ***P.D.Zavileyski*** «Hökumətin yerli ali silkə arxalana bilmədiyi hazırkı şəraitdə» burada rus zadəganlığı yaratmağı, bunun üçün dövlət torpaqlarını hərbi və mülki məmurlara paylamağa başlamağı baş komandana təklif edirdi. Onun fikrincə, bu zadəganlar paylanan torpağı 10 ildən tez satmamalı idilər. 10 il keçdikdən sonra isə həmin torpaqları yerli sakinlərə yox, yenə yalnız rus milliyyətindən olanlara satmaq olardı. Onun mülahizəsinə görə hökumətlə yerli xalq arasında duracaq bu etibarlı arxa, yerli əhalini düşüncə, həyat tərzi, dil baxımından ruslara «yaxınlaşdırmalı», başqa sözlə deyilsə, assimilyasiya etməli idi.

1835-1836-cı illərdə dövlət idarələrində hazırlanan «Müsəlman vilayətlərində silki hüquqlar nizamnaməsi» adlı layihənin «Müsəlman bəyliyi və zadəganlığı» bölməsində yalnız Rusiya hökuməti qarşısında qulluğa görə rütbə qazanmış şəxslərə, habelə keçmiş hakim xanların beşinci arxa-

ya kimi bütün varislərinə, təhkimçilik (torpaq və kəndlilərə sahiblik) hüququ çıxılmaqla, rus zadəganlığına məxsus hüquq və imtiyazların verilməsi nəzərdə tutulurdu. Beləliklə, dövlət qulluğunda olmayan yerli bəylərin çoxunun başlıca imtiyazlarının gələcəyi bütünlüklə qorxu altına alınmışdı.

30-cu illərdə bəylərin hüquqları ilə bağlı məsələlər rəsmi dairələrdə hələ yalnız götür-qoy edilməkdə idi. Qafqaz baş komandanlığı bu məsələ ilə bağlı düşünülmüş bir siyasət yeritmirdi. Buna görə 1830-cu ilin iyulunda çar Nikolayın Ali buyruğu siyasi dairələrdə çoxları üçün gözlənilməz oldu.

**13 İYUL 1830-cu İL BUYRUĞU.** Baş komandan qraf Paskeviç ikinci Rusiya-İran savaşının gedişində müsadirə edilmiş torpaqlar, kəndlər və s. üzrə yerli feodalların saysız müraciətləri qarşısında güzəştə getməyin zəruriliyini başa düşərək, I Nikolaya «Qafqaz arxasında ümumi vəziyyət» haqda təqdimat göndərmişdi. Bu təqdimat iyulun 13-də çarın onun adına imzaladığı Ali buyruq üçün özül oldu. Buyruqda bəylər və ağalara qarşı dövlətin siyasətində dəyişiklik edilməsi nəzərdə tutulurdu.

Ali buyruq bu və ya başqa günah işlətmiş, xaricə qaçmış, sürgün və ya həbs edilmiş yerli ağaların müsadirə olunmuş mülklərinin özlərinə, hətta sağ deyildilərsə, onların qanuni varislərinə qaytarılacağını bildirirdi. Ancaq onların idarəçilik hüquqları buyruqda tamamilə inkar olunurdu. 1830-cu il Ali buyruğu çarlıq Rusiyasının bəylərə qarşı qabaqkı sərt, amansız siyasətindən azacıq da olsa, uzaşlaşdığını göstərir.

Ali buyruğu həyata keçirməzdən qabaq çar idarələri ali zümrənin tərkibini və hökumətə münasibətini öyrənməyə çalışırdılar. 1830-1832-ci illərdə beş əyalətdə (Qarabağ, Şəki, Bakı, Quba, Şirvan) saya alınmış 226 köklü bəy ailəsindən yalnız 108-i (47,8 faiz) hökumətə «sədaqətli», 98 ailə (43,4 faiz) «şübhəli», 20 ailə isə (8,8 faiz) «xəyanətkar» sayılmışdı. Hökumət köklü bəylərin yarıdan (52 faizdən) çoxuna bel bağlamağın mümkünsüzlüyünü aydın dərk edirdi. Əsilzadə (köklü) bəylərin içərisində müxalifət və narazılığı azaltmaq üçün 1833-cü ildən Qafqaz Komandanlığı Nikolayın Ali buyruğunu həyata keçirməyə başladı. Bəylərin müsadirə edilmiş mülk və başqa əmlaklar üzərində hüquqlarının qaytarılmasına baxıldı. Şirvan, Qarabağ, Şəki əyalətləri üzrə bəylərin verdiyi 102 müraciətdən 86-sı müsbət qarşılandı, 16-sı rədd edildi. Bir az sonra Şirvan və Qarabağ əyalətləri üzrə daha 31 ərizəyə baxıldı. Baş komandanlıq onlardan 27 bəyin kənd və kəndlilər üzərində sahiblik hüququnun qaytarılmasını haqlı bildi. Talış xanlığında isə 1831-ci il üsyanından sonra İrana qaçan bəylərdən geri qayıdan dördünə və 6 ruhaniyə əkin yerləri, bağlar, dəyirmanlar və s. qaytarıldı.

Qafqaz baş komandanlığı Ali buyruğun təsirini kiçiltmək üçün hər vasitəyə əl atır, özlərindən ona şərtlər əlavə etməkdən belə çəkinmirdi. Çox zaman torpağın, ya kəndin geri qaytarılması üçün bəy və bəy varislərindən hökumətə sədaqətlə qulluq göstərməyi şərt kimi irəli sürürdülər. Quba əyalətində bir vaxt «cinayət işləmiş» bəylərin qanuni varislərinin atalarından qalma torpaqların geri qaytarılması haqda xahişləri rədd edildi. Bu əyalətdə Ali buyruğun şərtlərinə əməl etmək istəməyən hərbi dairə rəisi general ***Koxanov*** komendant Gimbuta «Bəylərin xüsusi qulluğa görə deyil, vərəsəlik yolu ilə sahib durduqları bütün kənd və rəncbərlərin xəzinəyə keçirilməsi haqda» əmr göndərmişdi. Komendant, dağlara qaçmış və ya düşmən tərəfə keçmiş bəylərin 22 kəndini onların övladlarına qaytarmaq yerinə xəzinə mülklərinə qatmışdı. «Sədaqətlə və qeyrətlə» qulluq yolu tutan 16 bəyzadənin 18 ata kəndi ömürlük deyil, yalnız istifadə hüququ ilə qaytarılmışdı. Nəticədə, Quba bəylərinin torpaq hüquqları Ali buyruq üzrə qorunmaq əvəzinə pozulmuşdu.

Rəsmi dairələr Ali buyruğun həyata keçirilməsini uzatmağa çalışır, onu pozmaqdan belə çəkinmirdilər. İltizamda olan təsərrüfatların keçmiş sahiblərinə qaytarılmasına yol verilmirdi. Baş hakimin Şirvan əyaləti üzrə qərarlarının icrası yerlərdə get-gələ salınır, mülklərin çoxu xəzinənin ixtiyarında saxlanılır, yalnız bir hissəsi qabaqkı sahiblərinə və varislərə qaytarılırdı. Çünki bu mülklərdəki üzüm və meyvə bağları, dəyirmanlar 1837-ci ilə kimi iltizama verilmişdi.

1828-ci ildə çarın öz fərmanı ilə Qarabağa qayıtmasına icazə verilmiş Mehdiqulu xanın sahib olduğu 40 kəndin, 25 köçün, 242 torpaq sahəsinin və 12 kanalın Ali buyruğa əsasən geri qaytarılması haqda qaldırdığı iddia yoxlanılmış və qanunauyğun sayılmışdı. Baş hakim baron Rozenin təklifləri üzrə 21 may 1834-cü ildə yalnız 8 kəndin ömürlük olaraq xana qaytarılması haqda hökm çıxarılmışdı. Ancaq bu kəndlər üzərində öz ağa hüququnu tələb edən xanın şikayətinə baxılmamış, vaxtı ilə bütün xanlığın yiyəsi olan bir adamın qanuni torpaq, kənd və kəndliləri üzərində mülkədar hüququ təmin edilməmişdi. Çarın razılığı ilə geri qayıtmış Mustafa xana 1830-cu il Ali buyruğu aid edilməmiş, o hətta Şirvan torpağına buraxılmamış, onun bir kəndi belə qaytarılmamışdı.

1837-ci ilə kimi müsadirə edilmiş torpaqların yalnız kiçik bir hissəsi məhdud hüquq dairəsində öz köhnə sahiblərinə qaytarılmışdı. Güney Qafqaz kimi böyük bir region üçün «sakitləşdirmə» yolu axtaran hökumət yerli bəylərə kiçik güzəştlər etsə də, bu zümrə ilə hələ bütünlüklə barışmaq fikrində deyildi.

**10 APREL 1840-CI İL İSLAHATININ HAZIRLANMASI.** 30-cu illərin ortalarında yuxarı dairələrdə bəylərin hüquq məsələsi ilə bağlı siyasi çəkişmələr kəskinləşdi. Transqafqaz diyarı idarəçiliyinin yenidən qurulması ilə bağlı hərbi, maliyyə, daxili işlər və ədliyyə nazirlikləri məlumatlarından ayrıca bir «Xüsusi komitə» yarandı. Komitə 1833-cü ildən yaranmış olan

«Zaqafnaziya diyarının qurulması komitəsi» ilə yanaşı bu işə qoşuldu. İki illik çalışmalardan sonra Paskeviç-Kutaysov-Meçnikov layihəsinə söykənən yeni layihə hazırlanıb Dövlət Şurasına verildi. Layihə Transqafqazda imperiya qanunları və inzibati bölgüsünə əsaslanan yeni idarəçilik yaratmağı irəli sürürdü. Ancaq baş hakim baron Rozen layihəni pisləyib, kəskinliklə burada yeni idarə yaratmağa qarşı çıxdı. Tiyuldar bəylərin torpaq hüquqlarının yalançı müdafiəçisi kimi çıxış edən Rozen, onlardan hökumətə sosial arxa yaratmadan diyarı idarə etməyin mümkün olmayacağını bildirdi. I Nikolay islahata mane olmamaq üçün onu baş hakim vəzifəsindən uzaqlaşdırdı. Amma islahat işinin gedişi sürətlənmədi. Məsələni yerindəcə «bir daha» öyrənmək üçün dörd nazirlik məmurlarından yaradılmış yeni komissiya 1837-ci ildə Tiflisə göndərildi. Ona başçılıq edən senator P.I.Qan yerli ağaların böyük hissəsinin torpaq hüquqlarını inkar edən mövqedə dururdu. O, Paskeviç-Meçnikov-Kutasov layihəsinə bənzəyən daha bir layihə hazırlayıb, 1838-ci ilin başlanğıcında Xüsusi komitəyə təqdim etdi. Ancaq komitə layihəni müstəmləkə siyasətinin vəzifəsinə uyğun gəlməyən sənəd sayaraq təsdiq etmədi. Bundan öncə, 1837-ci ilin payızında I Nikolay Tiflisdə olarkən Rozenin yerinə baş hakim ***Qolovini*** qoymuşdu. Çar ona senator Qan ilə birlikdə layihəyə düzəlişlər etməyi tapşırdı.

Transqafqazın baş idarələrində də bəy və ağaların torpaq hüququ məsələsinə baxılması davam etmədə idi. 15 aprel 1839-cu ildə Baş İdarə Şurasında onların torpaq hüquqları ilə bağlı qeydlər müzakirə edildi. Şura belə bir ümumi nəticəyə gəlmişdi ki, Azərbaycanda bəylərin və başqa torpaq sahiblərinin hüquqları olduqca qarışıq bir görünüşdədir. Ancaq Şura müsəlman əyalətlərində sakitliyi qoruyub saxlamaq naminə tiyuldar bəylərin torpaq hüququna toxunmağı yersiz sayaraq qərara aldı: torpaq üzərində mülkiyyət hüququ olan bəylərə torpaqla bağlı hər cür hüquqi əməliyyat aparmağa icazə verilsin; irsi idarədə olan torpaqlar (tiyul) üzərində «idarəedici» bəylərin irsi hüquqları tanınsın. Ancaq həmin torpaqlar dövlətə məxsus sayıldığı üçün «idarəçilərə» hər hansı hüquqi əməliyyat aparmaq qadağan edilməli idi. Dövlət özünü doğrultmayan «idarəçini» istədiyi vaxt idarədən uzaqlaşdıra bilərdi. Bəylərin «müvəqqəti» istifadəsində olan torpaqlar onların ixtiyarında ömürlük saxlanmalı, sonra isə xəzinəyə keçməli idi. Baş idarə Şurasının bu təklifləri həyata keçirilərdisə, bəylərin yalnız kiçik bir hissəsinin torpaq hüququ təmin edilə bilərdi.

1840-cı ilin başlanğıcında Qan ilə Qolovin Transqafqazda inzibati və məhkəmə işinin yenidən qurulması haqda birincidən çox az seçilən yeni layihəni Xüsusi komitəyə təqdim etdilər. Komitənin qəbul etdiyi bu sənəd 10 aprel 1840-cı ildə çar I Nikolay tərəfindən bəyənildikdən sonra qanun gücü aldı.



**1840-CI İL İSLAHATININ BOŞA ÇIXMASI.** 10 aprel 1840-cı il qanunu üzrə Transqafqaz diyarı Gürcü-İmereti quberniyasına və Kaspi vilayətinə, quberniyalar isə Rusiyanın özündə olduğu kimi, qəzalara bölündü. Bu sonuncular başlıca olaraq keçmiş əyalətlərin yerində yaradıldı. Quzey Azərbaycanın Şirvan, Qarabağ, Şəki, Talış, Bakı, Quba və Dərbənd qəzaları Kaspi vilayətinə düşdü. Ayrıca Yelizavetpol qəzası yarandı. Naxçıvan və Balakən qəzaları isə Gürcü-İmereti quberniyasına qatıldı. Yeni inzibati bölgü yerli sosial-hüquqi, etnik və mədəni xüsusiyyətləri çox az nəzərə aldığından qatı müstəmləkəçi səciyyə daşıyırdı. Transqafqazda Baş İdarə Şurasına yeni qanun üzrə yerli feodalların torpaq hüquqlarını nizamlamaq məsələsi də verildi.

Yeni islahat ağaların və bəylərin torpaq hüquqlarına qarşı tədbirlər ilə yanaşı həyata keçirilməyə başlandı. Baş İdarə Şurası 13 fevral 1841-ci ildə: 1. Gürcü-İmepeti quberniyasının Qazax, Şəmşəddil və Borçalı məntəqələrinin erməni kəndlərinin* ağa və məliklərin «idarəsindən» azad edilməsi; 2. Həmin məntəqələrin «tatar (türk - *Red.*) kəndlərinin» idarəsindən azad edilməsi haqda iki mühüm qərar qəbul etdi. Qərarlar 25 aprel 1841-ci ildə «Zaqafqaziya diyarının qurulması komitəsi»nin təsdiqindən keçdi və mayın 23-də çar imzaladıqdan sonra qanun gücü aldı. Bu qanuna görə Qazax, Şəmşəddil və Borçalı məntəqələrində 59 ağanın 15245 rəiyyət ailəsi yaşayan 102 kəndi müsadirə edildi.

Ağalara onların 170 şərikləri ilə birlikdə müsadirə olunmuş kəndlərə görə dövlət xəzinəsindən hər il 26888 gümüş man. əvəz ödənilməli idi. Ağa və məliklərin əlindən alınmış 11 erməni kəndinə görə onlara əvəz ödənilməsi nəzərdə tutulmurdu.

Bunun ardınca Baş İdarə Şurası Kaspi vilayəti bəylərinin «kənd idarəçiliyindən» kənar edilməsi haqda qərar çıxardı. Guya ağalar kimi bəylər də malikanələrin mülkiyyətçisi yox, sadəcə «idarəedənləri» idilər. Qərarda bəy torpaqlarının müsadirə edilməsi «ədalətli» addım kimi qələmə verilirdi. Qərar bəylərə də «idarə etdikləri» kəndlərdən mənimsədikləri gəlirin miqdarında ömürlük təqaüd kəsilməsini nəzərdə tuturdu.

Kaspi vilayətində, əslində bütün Quzey Azərbaycanda tiyul torpaq sahibliyinin ləğv edilməsi və bəylərin kənd idarəçiliyindən uzaqlaşdırılması haqda qərar həyata keçirilməmiş qaldı. Çünki Transqafqazda yeni idarə

---

* Erməni kəndlərinin bəy və ağaların əlindən alınıb xəzinəyə keçirilməsi ideyasını Tiflis mülkü qubernatoru knyaz *Palovandov* irəli sürmüşdü. 1837-ci ildə o, bu haqda Rozen qarşısında məsələ qaldırmış, ancaq sonuncu onu müdafiə etməmişdi. Buna baxmayaraq 10 aprel Qanununun müəlliflərindən biri olan Qan bu ideyaya tərəfdar çıxdı. O, öz fikrini belə əsaslandırmağa çalışırdı ki, guya Qanun müsəlmanlara təhkimçilik qaydasında xristian əhaliyə sahib durmağı qadağan edir. Əslində isə Azərbaycanın sahibkar kəndində təhkimçilik hüququ yox idi.

sisteminə keçid hər yerdə yerli əhalinin yeni qanunlara qarşı ciddi müqaviməti ilə qarşılandı. Yerli feodalların narazılığı burada çar idarəsini olduqca çətinləşdirdi. Müstəmləkəçiliyə qarşı mübarizədə bəy və ağaların kəndlilərlə bir cəbhədə çıxış etməsi təhlükəsi yarandı. Artıq 1841-ci ilin sonlarında hökumət nazirləri bəy torpaqlarının müsadirə edilməsinin yanlış olduğunu anlamağa başladılar. 1842-ci ilin yanvarında «Zaqafqaziya diyarının qurulması komitəsi» Baş İdarə Şurasının bəy torpaqlarının müsadirəsi haqda 13 fevral 1841-ci il qərarını yenidən müzakirə etməli oldu. Komitə indi də belə ümumi fikrə gəldi ki, bəyləri yalnız polis məmurları sayan baxış kökündən yanlışdır. Çünki bəylərin torpaq sahibliyi hüququ, əslində Rusiyadakından ayrı deyildir.

İslahatların uğursuzluğu haqda öz baş hakimindən məlumat alan I Nikolay, 3 fevral 1842-ci ildə hərbi nazir ***A.İ.Çernışev*** və stats-katib ***M.İ.Rozenin*** başçılığı ilə Güney Qafqazda xüsusi yoxlama keçirilməsi haqda fərman verdi. Göndərilən komissiya burada yerli feodalların hökumət siyasətindən çox narazı olduğunu öz gözləri ilə gördü. Qazax, Şəmşəddil və Borçalı ağaları torpaqların müsadirəsi haqda qərarın tezliklə ləğv edilməsini Rozendən xahiş etdilər. Yerli zadəganlığa belə münasibəti ədalətsiz və hökumət üçün ziyanlı sayan qraf Çernışev və Rozen ağalar haqda yeni əsasnamə hazırlamağı, bəylərin isə hüquqlarını dəyişmədən saxlamağı təklif etdilər. Müstəmləkəçilər 1842-ci ildən ali müsəlman silkinin narazılığı ilə hesablaşmaq gərək olduğunu anlamağa başladılar. Onlara bəlli olurdu ki, «öz din qardaşları içərisində tarixən yaranmış nüfuz və təsirindən istifadə edən» yerli bəylər, Rusiya ilə hələ tam qovuşmamış ucqarlarda vəziyyəti mürəkkəbləşdirə bilərdilər. Etibarlı sosial arxa kimi «təbii rus zadəganlığı» yaradılmadığı şəraitdə vəziyyət daha təhlükəli şəkil ala bilərdi.

Müsəlman əyalətlərində yeganə sosial arxa olan bəy və ağalardan istifadə etməyin zəruriliyi bu sinfin torpaq hüquqlarına hökumətin münasibətini köklü şəkildə dəyişdirdi. 2 noyabr 1842-ci ildə I Nikolay Qafqazın baş hakiminə əmr verdi. Əmrdə ali müsəlman silkinin hüquqları məsələsində tarixən yaranmış gerçək vəziyyəti nəzərə almaq qəti tapşırıldı.

Çarı buna vadar edən gərgin vəziyyət olmuşdu, 1842-ci ildə bəy və ağalar hökumətə düşmən kimi baxırdılar. Onlar torpaq və kəndli üzərindəki hüquqlarının qaytarılmasını tələb edirdilər. Yerlərdə yaraqlı qaçaq dəstələri yaranmışdı, onlar çar məmurları, azsaylı qoşun bölükləri üzərinə basqın edirdilər. Baş komandan general Neyqard, Azərbaycan qəzalarında «qarət və quldurluğun» artdığını, Şamaxı və İrəvan poçt yollarının gediş-gəliş üçün «daim təhlükəli» olduğunu bildirirdi. Qarabağda bəylərin hökumətə qarşı müxalifəti düşünülmüş bir siyasi baxış durumuna gəlmədə idi. Rusiya baş qərargahı zabitlərindən biri, Simbirsk sürgünündən



yenicə qayıtmış polkovnik Cəfərqulu ağa Cavanşirin «çoxlu bəy yığıncağında» danışması barədə həyəcanla xəbər verirdi. Cəfərqulu ağa, bir zamanlar Tatarıstanda «Qarabağ bəyləri kimi» güclü zadəgan zümrəsinin (xanların, knyazların, əsilzadələrin) olduğunu bildirərək söyləmişdi: «...ruslar onları bütünlüklə yox etdilər, buna görə bu iş sizin də başınıza gələ bilər, buna yol verməmək üçün isə onlar (bəylər – *Red.*) rus hökumətinə qarşı... elə davranmalıdırlar ki, bu hökumət onlardan çəkinib qorxsun, onların yardımına ehtiyacı olsun...»

**ÇARİZMİN YERLİ FEODALLARLA İTTİFAQA GİRMƏSİ. 6 DEKABR 1846-CI İL QANUNU.** 1842-1844-cü illərdə Qafqazda yerli feodalların torpaq hüquqlarının müəyyənləşdirilməsi üzrə müxtəlif komitələr yaradılmışdı. Komitələrin işində diyarın tarixində ilk dəfə olaraq feodalların seçilmiş nümayəndələri də iştirak edirdi. 1843-cü ilin iyununda 13 bəy deputatı Azərbaycandan Tiflisə gəldi. Onların sırasında Abbasqulu Ağa Bakıxanov da var idi. Onu Quba və Bakı qəzalarının bəyləri vəkil seçmişdilər. Abbasqulu Ağa Azərbaycanın yüksək silkinin hüquq və imtiyazlarını müdafiə edərək, onu gürcü zadəganlığı ilə yanaşı tutmağı təklif edirdi. O yazırdı: «Bizim xan və bəylərimiz hüquq və hakimiyyət baxımından gürcü xanlarına, tavad və aznaurlarına bərabər idilər». Eyni fikir 15 il əvvəl Qazax, Şəmşəddil, Borçalı ağalarının Yermolova qarşı çara göndərdikləri xahişnamədə irəli sürülmüşdü: «Türklərin, farsların və gürcülərin ağalığı çağlarında tabeliyimizdə olan xalq üzərində tam hökm sahibi idik, [xalq arasında] gürcü knyazlarından az ehtiram görmürdük, hökumətə də sədaqətlə qulluq edirdik, amma Yermolov bizim hüquqlarımızı dəyişdirdi».

Bütövlükdə ali müsəlman silkinin hüquqlarının müəyyənləşdirilməsi üzrə bir komitənin və ağaların məsələsi üzrə daha iki komitənin işi çarizmin bu sinfə münasibətini aydınlaşdırmaq baxımından əhəmiyyətli oldu. Komitələrin işinin gedişində müzakirə olunan məsələlərlə bağlı rəsmi siyasətin başlıca prinsipi müəyyən edildi. Bu başlıca prinsip bəy və ağaların torpaq üzərində nəsli mülkiyyətçilik hüququnun tanınmasını və onlara kəndlilər üzərində polis, qismən də məhkəmə hüququnun verilməsini nəzərdə tuturdu.

Diyarda beynəlxalq, daxili və hərbi vəziyyətin mürəkkəbliyi, Quzey Qafqazda Şamil hərəkatının güclənməsi çar hökumətini burada canişinlik yaratmağa məcbur etdi. I Nikolayın 1844-cü ildə ilk Qafqaz canişini qoyduğu knyaz ***M.S.Vorontsov*** çardan başqa heç kim, heç bir nazir qarşısında cavabdeh deyildi; böyük hərbi və mülki səlahiyyətlərə malik idi. Çar ali müsəlman silkinin torpaq hüquqlarını nizamlamağı M.S.Vorontsova qəti şəkildə tapşırmış, «torpaqların ağaların əlindən alınmasını yanlış addım» adlandırmış və onları geri qaytarmağın zəruriliyini bildirmişdi.

Vorontsov Tiflisə gələn kimi bəy və ağaların torpaq hüquqları məsələsinin həllinə girişdi. Bu işdə ona diyarın mülki idarə rəisi general *P.A.Ladinski* fəal köməklik göstərirdi. Ladinskinin hazırlayıb Vorontsova verdiyi təqdimatın müzakirəsində Qarabağın və Şəkinin bəyləri də iştirak edirdilər. 1846-cı ilin fevralında Baş İdarə Şurasında təsdiq edilmiş Ladinski-Vorontsov Əsasnaməsinə 30 mart 1846-cı ildə Qafqaz komitəsinin iclasında baxılmış, ona bir sıra düzəlişlər edilmişdi. Ancaq düzəlişlərin çoxuna mənfi yanaşan Vorontsov əsasnamənin azacıq dəyişilmiş yazısını yenidən komitəyə göndərmiş, burada bəyəndikdən sonra I Nikolaya vermişdi. 6 dekabr 1846-cı ildə çar bu əsasnaməni canişinin adına buyruq şəklində imzaladı.

6 dekabr 1846-cı il qanunu kimi tanınan bu buyruq 12 maddədən ibarət idi. Bunlardan onu bəylərin torpaq hüquqlarına, ikisi isə feodal-kəndli münasibətlərinə toxunurdu. Qanun Rusiya işğalı çağında bəylərin nəsli sahibliyində olmuş və indi də onların ixtiyarında qalan torpaqlar (mülk, tiyul) üzərində tam irsi mülkiyyətçilik hüququnu ilk dəfə olaraq tanıdı. Qazax, Şəmşəddil və Borçalı məntəqələrində 1841-ci ildə ağalardan müsadirə edilmiş bütün torpaqlar hökumətin «xüsusi iltifatı kimi» onlara qaytarıldı. Bu torpaqlar üzərində ağaların xüsusi mülkiyyətçilik hüququ təsdiq edildi.

Qanunun birinci maddəsi böyük bir məsələ ilə bağlı 20-ci illərdən gedən danışıqlara birdəfəlik son qoydu: «... Müsəlman əyalətlərinin Rusiyaya qatılması zamanı onların (xan, bəy və məliklərin – *Red.*) nəsillərinin sahib olduqları və indi də onların şəksiz ixtiyarlarında olan bütün torpaqlar onların irsi mülkiyyəti kimi təsdiq olunsun». Bu, həm də tarix boyu bir-birinə yaxınlaşmada olan, lakin heç vaxt bir-birinə qovuşub eyniləşməyən mülk və tiyul torpaqlarının hüquqi baxımdan bütünlüklə bir mülkiyyət şəklinə keçməsinin qanuniləşməsi demək idi.

Xan, bəy, özgə torpaq sahibləri artıq öz «irsi mülklərini» alqı-satqıya qoya, onun üzərində hər hansı hüquqi iş görə bilərdilər. Ancaq qanun xan, bəy və özgələrinin silki hüquq və mənafeyindən çıxış edərək, torpaqların özgə silklərə keçməsi qarşısında çəpər çəkməyi unutmurdu. Torpaq sahibi onunla istədiyi kimi davrana bilsə də, torpağı yalnız öz silkindən olan adamlara sata və ya bağışlaya bilərdi.

Qanunun birinci və altıncı maddələrinin qarşılaşdırılması belə mühüm cəhəti üzə çıxarır ki, işğala kimi nəsli və irsi, hətta şərti torpaqları olmuş bəylər, Rusiya hökumətinə nökərçiliyə görə torpaqlara yiyələnmiş yeni sahibkarlardan üstün tutulmalıdırlar. Çünki sonuncuların torpaq sahibliyi hüququnun tanınması üçün «qulluq göstərmək» şərt qoyulmuşdu. Bu, həmin torpaq sahiblərinin əsil-nəcabətli bəy və ağalarla müqayisədə yerdi əhali içərisində nüfuzunun olmaması ilə bağlı idi.



6 dekabr 1846-cı il qanunu ilə çarizm yerli feodallarla ittifaqa doğru böyük bir addım idi. Türkiyə ilə yaxınlaşmaqda olan müharibə qarşısında onları özü üçün zərərsizləşdirə bildi. Bu addımı atmaqla çar hökuməti Dağıstanın hələ də boyun əyməyən xalqlarına da bir örnək vermək istəyirdi.

Beləliklə, ali müsəlman silki torpaq hüquqları baxımından Rusiya zadəganları ilə bərabər hüquq qazandı. Ancaq silki imtiyaz və şəxsi hüquqlar baxımından nə rus, nə də gürcü zadəganlığına bərabər tutulmadı və bu bərabərsizlik sonralar da aradan qaldırılmadı. Belə bir bərabərlik Azərbaycanın bəy və ağalarına diyarın idarə olunmasında kütləvi şəkildə vəzifələr tutmaq hüququ verərdi. Bu isə çar hökumətinin siyasətinə uyğun gəlmirdi. Çarlıq Rusiyası ali müsəlman silkinə qarşı milli və dini ayrı-seçkilik siyasətindən əl çəkmək istəmirdi.

Qanunda (7-ci bənd) kəndli məsələsinə də yer verilmişdi. Sahibkar kəndlərinə rəiyyət, rəncbər, xalisə, nökər, elat adları əvəzinə ümumi ***mülkədar tabesi*** adı verilirdi. Sözdə kəndlilər «müsəlman ali silki»ndən olanların torpaqlarında yerləşdirilmiş dövlət sakinləri, əslində isə bəy və ağaların tam tabeçiləri sayılırdılar. Bu tabeçiliyin iqtisadi özülü mülkədar torpaq mülkiyyəti idi. Çünki bu torpaq mülkiyyəti boş düzənlik deyil, kəndlilərin yüzillər boyu üzərində ev, təsərrüfat tikililəri qurduğu, əkib-biçdiyi, bir sözlə, yaşadığı torpaqlar idi. Hüquqi baxımdan kəndlilər «özgə» torpaqları üzərində yaşadıqları üçün «mülkədar tabesi» sayılır, torpağın əvəzinə onun xeyrinə vergi və mükəlləfiyyətlər ödəyirdilər. Qanunun 8-ci maddəsi bu məsələyə ötəri toxunurdu.

**KƏNDLİ ƏSASNAMƏLƏRİ. DÖVLƏT KƏNDİNDƏ YENİ ÖDƏNİŞ QAYDASI.** Bəy-kəndli münasibətlərinə tam hüquqi aydınlıq gətirmək üçün 1847-ci il aprelin 20-si və dekabrın 28-də «Kəndli əsasnamələri» çıxdı. Bu əsasnamələrdən birincisi Şuşa, Şamaxı, Şəki, Bakı, Quba və Lənkəran qəzalarının bəy kəndlilərinə, ikincisi isə Qazax və Şəmşəddil məntəqələrində ağa kəndlilərinə aid idi. Yeni hüquqi sənədə görə kəndlilərin istifadəsində olan «pay torpağı»nın ölçüsü göstərilirdi. Kəndli istədiyi, ya bacardığı ölçüdə torpaq götürə bilməzdi. 15 yaşını ötmüş kişi cinsindən olan hər bir kəndliyə yalnız 5 desyatinə kimi «pay torpağı» ayrıla bilərdi. Bunun qarşılığında (torpağın hüquqi sahibi bəy olduğu üçün) kəndli taxıl məhsulunun 1/10-ni, çəltik, meyvə və tərəvəz məhsulunun 1/3-ni malcəhət şəklində bəyə verməli idi. Kəndli «pay torpağı»nı bəyin iş heyvanı, toxum və alətlərindən istifadə edərək becərirdisə, məhsulun 1/5-ni ona verməli idi. Bəyin öz təsərrüfatında işlədikdə də malcəhət sonuncu ölçüdə alınırdı. Buna görə bəylərin çoxu sonuncu şərtlərə üstünlük verirdi.

Bəy yaxında yaşayırdısa, kəndli malcəhəti öz qoşqu qüvvəsi ilə üç gün içində; əkin-biçin yerindən 50 verstə kimi uzaqlıqda yaşayırdısa, 15 gün içərisində daşıyıb təhvil verməli idi. Otlaqlardan istifadə edən kəndlilər bəyə ***cöpbaşı*** adlanan vergi ödəyirdilər.

Bəyin ev işlərini görmək üçün 10 kəndli ailəsi bir kişi, hər 15 ailə isə bir qadın ayırmalı idi. Sonuncu mükəlləfiyyət böyük narazılıq doğurduğundan tezliklə ləğv edildi. Çünki Azərbaycanda tarix boyu torpaq sahibinin evinə qadın qulluqçu ayırmaq ənənəsi olmamışdı.

«Kəndli əsasnamə»ləri işləmə mükəlləfiyyətləri də nəzərdə tuturdu. Bəy təsərrüfatında ***biyara*** çıxmaq üçün hər kəndli ailəsi bir kişi ayırmalı idi. Biyara çıxan kəndli bir ildə 18 gün bəy üçün yer əkir, ot biçir, odun doğrayıb gətirir, tikintilərdə çalışırdı. Kəndli biyara çıxmaya da bilərdi, ancaq belə olduqda onun yerinə pul ödəməli idi. Bütün kəndlilər hamılıqla ildə 2 gün bəy təsərrüfatında ***əvrəz*** işi görməli idilər.

6 dekabr 1846-cı il buyruğunun məntiqi davamı olan «Kəndli əsasnamələri» əslində bəy və ağaların ünvanına çıxarılmış, onların imtiyaz və üstünlüklərinin qorunub bərkidilməsinə yönəlmiş idi. Bu sənədlər Quzey Azərbaycanın ağa (sahibkar) kəndlərində feodal istismarının hüquqi özülü oldu. «Xəzinə kəndlərində», yəni Rusiya dövlətinin müsadirə yolu ilə ələ keçirdiyi torpaqlarda isə bu istismarı dövlət xəzinəsi özü təmsil edirdi. 1852-ci ildən Şamaxı quberniyasında (əslində bütün Quzey Azərbaycanda) dövlət kəndində tətbiq edilən «yeni» vergi qaydası üzrə kəndlilərin mükəlləfiyyətləri iki yerə bölünürlü. Bunlardan birincisi ***birbaşa vergilər***, ikincisi isə ***torpaq bəhrəsi*** adlanırdı. Pulla ödənilən vergilər bütün vergiödəyən silk üçün ümumi idi. Bəhrə torpağın ölçüsündən, yararlı olmasından asılı idi və bir neçə dərəcəyə bölünürdü. Dövlət kəndində bu yenilik ilə bağlı məhsul rentası pul rentasına, məhsul ilə ödəmə pul ödənişinə çevrilirdi. Bunun üçün kəndlilər məhsulu bazara çıxarıb pula çevirməli idi. Bu isə öz növbəsində dövlət kəndində pul-əmtəə münasibətlərinin genişlənməsinə aparırdı.

Çarlıq Rusiyasının son qanunları Quzey Azərbaycanda torpaq münasibətlərini, bütünlüklə aqrar quruluşunu imperiyada hökm sürən təhkimçi qaydalar ilə yaxınlaşdırmağa yönəlmişdi.



*ON SƏKİZZİNCİ BÖLÜM*

# GÜNEY AZƏRBAYCAN TÜRKMƏNÇAY MÜQAVİLƏSİNDƏN SONRA

## 1. RUSİYA-İRAN MÜQAVİLƏSİNİN DOĞURDUĞU YAXIN PROBLEMLƏR

**«YÜKSƏK TƏRƏFLƏR» ARASINDA HÜDUD BÖLÜŞMƏSİ.** Türkmənçay kəndində imza atılaraq bağlanmış olan müqavilə (bax. 16 bölüm) illər boyunca oxuculara qapalı idi, onun üzünü görüb oxuyan tarixçiləri isə barmaqla saymaq olardı. Müqavilənin dördüncü maddəsi «yüksək tərəflərin razılığı ilə hər iki dövlət arasında» hüdudların, yəni sərhəd oxunun haradan, hansı bölgələrdən keçməsini sənədləşdirmiş oldu. Bu sərhəd oxu Ağrı (Ararat) dağı ətəyindən başlayaraq Aşağı Qarasu çayının axarı, sonra bu çayın Şərur qarşısında Araza qovuşduğu yerdən Araz axarı boyunca Yeddibulaq bərəsinə; daha sonra isə Muğan düzündə Bolqar çayından keçərək və Talış dağlarını ikiyə bölərək Astara çayı axarı ilə Xəzər dənizinə çıxırdı.

Bağlaşmanın beşinci maddəsi üzrə İran şahı Rusiya imperatoruna «öz səmimi dostluğuna sübut olaraq» öz adından və İran taxt-tacının varisləri adından; yuxarıda göstərilən sərhəd xətti üzrə Qafqaz sıra dağları və Xəzər dənizi arasında yerləşən bütün torpaqların, yəni bütün Transqafqazın və burada yaşayan xalqların Rusiya imperiyasına «əbədi» verildiyini təntənə ilə bildirirdi. Əbədilik haqda tarixin öz anlayışı var. Artıq nə Rusiya imperatorluğu, nə İran şahlığı var. 1917-ci ilin sonunda yeni yaranmış Sovet hökuməti çarlıq Rusiyasının bağladığı imperialist müqavilələrin qüvvədən düşdüyünü təntənə ilə dünyaya bildirsə də, «sərhəd oxları» yerində qaldı. 1921-ci ilin fevralında (yenə fevralda) yeni Sovet-İran müqaviləsi bağlandı, sonralar ona yeni açıq və gizli bağlaşmalar əlavə olundu. Ancaq Azərbaycanın sinəsi üstündən keçən «sərhəd oxu» öz sancıldığı yerində qalmaqdadır.

**TƏBƏƏ ALIŞ-VERİŞİ.** Türkmənçay müqaviləsi 15 il qabaq imzalanmış olan Gürcüstan barışığından yalnız ərazi məsələsinə görə ayrılmırdı. Bu müqavilənin 12, 14 və 15-ci maddələri «təbəə alış-verişi» ilə bağlı idi. Sovet Rusiyası tarixçiləri hər üç maddənin A.S.Qriboyedov tərəfindən hazırlandığını yazırlar.

Müqavilənin 12-ci maddəsi üzrə «Arazın hər iki tərəfində daşınmayan əmlakı olan «təbəələrə üç il vaxt verilirdi ki, bu əmlakı istədikləri kimi»



1818
13

satsınlar və ya dəyişsinlər. Bundan sonra həmin şəxslər istədikləri dövlətin təbəəliyinə keçmək hüququ almış olurdular. (Rusiya imperatoru adından bu «iltifatlı sərəncam» keçmiş İrəvan Sərdarı ***Hüseyn xana***, onun qardaşı ***Həsən xana*** və keçmiş ***Naxçıvan hakimi Kərim xana*** aid edilmirdi.) Bu, 14-cü maddədən aydın görünməkdədir. Burada «tərəflər, birindən o birinə keçmiş satqınların və fərarilərin» verilməsini tələb etməmək barədə razılığa gəlmişdilər. Ancaq İran hökuməti, bu qaçqınlardan Rusiya hökumətinin adbaad göstərdiyi adamların ***Arazla Çara*** çayı, ***Urmu*** gölü, ***Cakatu*** çayı, ***Qızılüzən*** və ***Xəzər*** dənizi arasındakı torpaqlarda yerləşməsini qadağan edəcəyini öhdəsinə götürürdü. Rusiya imperatoru öz tərəfindən İran qaçqınlarının ***Qarabağ, Naxçıvan*** xanlıqlarında və ***İrəvan*** xanlığının Araz üstü bölgəsində yurd salıb yaşamasına yol verməyəcəyinə söz verirdi. Burada söhbət «ancaq rəsmi rütbə daşıyan və ya müəyyən ləyaqət sahibi olan» adamlardan, yəni keçmiş feodal hakimləri, xanlardan, bəy və ruhanilərdən gedirdi. Tərəflər, sərhəd bölgələrində belə qaçqınların yurd salmasını qadağan etməklə, keçmişdə onların idarəsində və ya hakimiyyəti altında olan «həmvətənlərinə zərərli təsir» göstərilməsinin qarşısını almağa çalışırdılar. Bütünlüklə götürdükdə, yəni hər iki dövlətin bir dövlətdən o birinə keçmiş sakinlərinə gəldikdə, onlar yeni keçdikləri dövlətin icazə verdiyi «hər yerdə» yurd salıb yaşaya bilərdilər.

Müqavilənin bu maddəsi quzeylə güney arasında gediş-gəliş üçün az-çox yer qoyurdu. Qohum-əqrəba əlaqələri çətinləşsə də, hələ pozulub kəsilmirdi. Savalan yaylaqlarında yarımköçəri maldar əkinçiliklə məşğul olan azərbaycalılar (şahsevərlər və başqaları) ənənəvi qaydada Muğan düzünə öz qışlaqlarına gəlirdilər. Bu vəziyyət şah hökumətini çox narahat edirdi. Qafqazın baş hakimi adına gələn 12 noyabr 1842-ci il şah fərmanı XIV maddəyə çox geniş məna verilməsini, sərhəd sakinlərinə «bəxş edilmiş» keçmə sərbəstliyindən sui-istifadə edilməsini qətiyyətlə pisləyirdi. Ortaya çıxan narazılıqları aradan götürmək üçün Tehran sarayı ilə danışıq aparırdı. 1843-cü ildə tərəflər arasında ayrıca konvensiya bağlandı. Hər iki dövlətin təbəələri bundan sonra bir dövlətdən o birinə pasportsuz və öz rəislərinin icazəsi olmadan keçə bilməzdilər; pasportsuz keçən şəxslər yaxın sərhəd rəisliyinə və ya öz dövlətinin konsuluna qaytarılmalı idi. Ancaq bununla belə hər iki dövlət təbəələrinin keçmək üçün öz hökumətlərinə verdikləri xahişlər rədd oluna bilməzdi, yəni yerinə yetirilməli idi.

***Əbülqasım Nəbati*** Xançobanını hər il Muğana gətirən yollar bütünlüklə bağlanmaq üzrə idi.

**ON BEŞİNCİ MADDƏ.** Müqavilənin on beşinci maddəsi üzrə şah həzrətləri: «***Azərbaycan adlanan vilayətin (Güney Azərbaycan vilayətlərinin*** – *Red.*) ***bütün əhalisinə və məmurlarına büsbütün və tam***



***bağışlanma əta edir.*** Hansı dərəcəyə məxsus olmasından asılı olmayaraq onlardan heç kəs öz hərəkətinə və ya müharibə ərzində və ya Rus ordusunun adı çəkilən vilayəti müvəqqəti tutduğu zaman davranışına görə təqibə, dini əqidəsinə görə təhqirə məruz qalmamalıdır. ***Bundan başqa o məmur və sakinlərə bu gündən başlayaraq öz ailəsi ilə birlikdə İran vilayətindən Rusiyaya sərbəst keçmək,*** hökumət və yerli rəisliyin heç bir maneçiliyi olmadan onların satlıq malına və ya əmlakına, əşyalarına hər hansı gömrük və vergi qoyulmadan daşınan mülkiyyətini aparmaq və satmaq üçün ***bir il vaxt verilir.*** Daşınmayan mülkə gəldikdə isə, onun satılması... üçün beşillik vaxt ayrılır».

Bu maddənin başlanğıcı üstüörtülü diplomatiya dilində yazılmışdır. Nəinki bu parçada, bütün müqavilə mətnində ermənilərin adı çəkilməmişdir. Ancaq söhbət onlardan gedir. Müqavilə üzrə «Azərbaycan adlanan vilayətdə» yalnız Rus ordusuna yardımçı olan təbəələrin ***davranışına və dini əqidəsinə görə*** təqib edilməsi qadağan olunur, onlara «İran vilayətindən Rusiyaya sərbəst keçmək» hüququ verilirdi. Təbii, güney bölgələrdə köklü şiə əhalisinin dini əqidəsinə görə təqib olunmasından söhbət gedə bilməzdi. Görünür, müqavilənin bu parçasına dayanan ayrıca bir razılaşma üzrə məhz ermənilərin köçürülməsi, özü də başlıca olaraq Güney Azərbaycandan köçürülməsi nəzərdə tutulurdu. Rus müəlliflərindən ***S.Qlinkanın*** bu məsələyə həsr etdiyi yazısının «***Adderbaycan ermənilərinin Rusiya hüdudlarına köçürülməsi***» adlanması bunu aydın göstərir.

Çarlıq Rusiyası öz ağalığını bütün Qafqazda bərkitmək üçün yalnız süngü və top dilində «danışmaqla» kifayətlənməyərək, burada köklü etnodemoqrafiya dəyişikliyi yaratmağa çalışırdı. I Pyotrun illərindən Güney Qafqazın müsəlman toplumlarının xaçlı ermənilər ilə «əvəz edilməsinə» yönəlmiş bir siyasət yeridilməkdə idi. Rusiya azadlıq hərəkatının təmsilçiləri də bu siyasətin güclü təsiri altında idilər. ***P.Pestelin*** «Russkaya Pravda» adlanan «zadəgan-inqilabçı» proqramında yazılmış: «1. Rusiya ilə İran, həm də Türkiyə arasında... sərhədlərdən quzeydə yaşayan bütün xalqlar kəskinliklə tabe edilməli. 2. Bütün Qafqaz xalqları iki çeşid sayılmalıdır: dinc olanlar və quduzlar. Birinciləri yurdlarında saxlayıb, onlara Rusiya idarəsi və qurumları vermək, ikinciləri isə ailələri ilə Rusiyanın içərilərinə köçürmək, kiçik sayla bütün Rus bölgələrinə səpələmək [gərəkdir]. 3. Qafqaz torpaqlarında rus kəndləri salmaq və Rusiya köçkünlərinə əski quduz sakinlərin əllərindən alınmış torpaqları paylamaq gərəkdir ki, bütün vasitələrlə Qafqazda yaşayanların hər hansı izləri belə silinmiş olsun və bu məmləkət sakit, abad bir rus əyalətinə çevrilsin».

XIX əsrin başlanğıcında çarlığa boyun əyməyən qafqazlıların «hər hansı izlərini» Qafqaz torpağından silib yox etmək üçün İrandan gətirilən ermənilər yardımçı olmalı idilər. Bundan başqa, buranın bütün iqtisadi irəli-

ləyişi **Qriboyedovun P.Zavileyski** ilə birlikdə açmaq istədiyi çox böyük «Rusiya-Zaqafqaziya şirkəti»nə keçməli idi. Bu şirkətin müəssisələrində isə yenə yalnız ermənilərin və Rusiya köçkünlərinin işləməsi nəzərdə tutulurdu. «Parçala – hökm et» imperatorluq siyasəti Güney Qafqazda gələcək milli çatışma və qırğınların özülünü bu yolla yaratmağa başladı.

**O TAYDAN ERMƏNİLƏRİN KÖÇÜRÜLMƏSİ.** İran təbəələyində olan ermənilərin köçürülməsi ikinci Rus-İran müharibəsinin gedişində Sankt-Peterburqda qaldırılırdı. ***İ.Paskeviçin*** Qafqaz rus ordusunun baş komandan qoyulması ilə onun bacısı oğlu A.Qriboyedov Rusiya xarici işlər nazirliyi bölmələrindən birinə başçı keçdi. Ermənilərin köçürülmə məsələsi bu vaxtdan gerçəkləşməyə başladı. Müharibədə iştirak edən erməni zabitləri və İrandakı qriqorian keşişləri ermənilərin Güney Qafqaza köçmək istəməsi barədə çoxlu müraciətlər topladılar. Türkmənçay danışıqlarında iştirak edən Qriboyedov bundan istənilən yönümdə istifadə etdi. Onun təkid etməsi ilə Türkmənçay müqaviləsinə yuxarıda adı çəkilən on beşinci maddə əlavə olundu.

Qafqaz Arxeoqrafiya komissiyasının topladığı qaynaqlar (VII cild) bu məsələnin öyrənilməsində tutarlı yer tutur. Şirnikdirmək üçün köçkün ermənilərə bir neçə il Rusiya dövlət vergilərindən azad olunacaqları bildirildi. Bununla yanaşı, kasıb köçkünlərin hər birinə 50 min manatlıq (gümüş pul ilə) yardım ayrıldı. Bu məbləği, Türkmənçay müqaviləsinin İran üzərinə qoyduğu böyük təzminat hesabına şah hökuməti ödəməli idi. Ayrıca Köçürmə komitəsi yaradılmışdı. Köçürmə işi Rus ordusunun polkovniki, erməni ***L.Lazarevin*** əlinə verilmişdi.

Ancaq işin gedişində çətinliklər ortaya çıxırdı. Varlı ermənilərin mülklərinə, bütün daşınmaz əmlakına müştəri tapmaq olmayırdı. Arada dini-əxlaqi görüşlər durmada idi. Alqı-satqı isə çox təcili, bir neçə həftə içərisində keçirilməli idi. Bir sıra mülklər üzrə qaranlıq məsələlər üzə çıxırdı. Məsələyə xəzinə vergiləri baxımından yanaşan şah hökuməti yaxşı əkinçi, sənətkar, alış-verişçi olan öz təbəələrini itirməyə tələsmirdi. Bu hökumət bir sıra mülklərin satışına razılıq vermirdi. İş o yerə çatmışdı ki, Qriboyedov belə mülklərin gizli olaraq onun adına satılmasına çalışırdı. Bu saxta iş baş tutmasa da, köçürülmə çox sürətlə gedirdi. 1828-ci ilin dekabrında məktublarının birində o yazırdı: «Mən indi onların (köçürülən ermənilərin – *Red.*) bütün işləri üzrə bir baxıcı-məmur olmuşam, onların evləri, bağları, dəyirmanları üçün ora bura getməliyəm. Çox işləri mən, artıq görüb başa çatdıra bilmişəm. Ancaq buranın hökuməti başına buraxılmış malikanələrin satqısına yasaq qoymaq üçün həmişə yol tapır və bu kələklərə qarşı mən nə edə bilərəm».



**KƏNGƏRLİLƏR O TAYA NƏDƏN KÖÇDÜLƏR?** Köçürülmə qarşısına çıxan böyük çətinliklərdən biri bu taydakı torpaq məsələsilə bağlı idi. «Erməni vilayəti»ndə ermənilərə verilməsi torpaq yox idi. Bu vilayətdə yararlı torpaqların çoxu rus hərbi qulluğunda general-mayor rütbəsi ilə Naxçıvanda naiblik edən ***Ehsan*** xana və onun qohumlarına məxsus idi. Rus xəzinəsinin əlində isə yalnız üç kənd vardı. Buna görə Qriboyedov köçürmə komitəsini heç bir «hazırlıq işi» görmədiyi üçün kəskin tənqidə tuturdu.

Köçkün axını başlayan kimi erməniləri heç bir qanuni əsas olmadan Naxçıvanda, Qarabağda: Azərbaycan xan və bəylərinin torpaqlarında yerləşdirməyə başladılar. İlk aylar çar məmurları torpaq sahibləri ilə görüşlərdə sadəcə olaraq yalan işlədir, ermənilərin onların torpaqlarında müvəqqəti yerləşdirildiyini söyləyirdilər. «İrandan ermənilərin bizim vilayətlərə köçürülməsi haqda qeydlər» adlı yazısında Qriboyedov bununla bağlı bildirməli olmuşdu: ***«Ermənilərin ilk dəfə buraxıldıqları torpaqlara əbədi sahib duracaqlarından müsəlmanlar içərisində yaranan qorxunu aradan qaldırmaq və [sonuncuların] düşdükləri ağır vəziyyətin uzun sürməyəcəyini bildirməklə onları sakitləşdirmək məsələsini biz... dəfələrlə götür-qoy etmişik».***

Tezliklə Qarabağ və Naxçıvan torpaq sahiblərinə elə divan tutulmağa başlandı ki, ermənilərin «əbədi» yerləşəcəyindən yaranan qorxu yaddan çıxdı. Çar hökuməti müxtəlif bəhanələrlə xan-bəy torpaqlarını ələ keçirməyə, bir mülkü o birinin ardınca Rusiya xəzinəsinə verməyə başladı. Torpaq sahibləri isə elə sıxıntılara, təqib və sürgünlərə salındı ki, başları hayına qaldılar. Bu baxımdan kəngərlilərin başına gələnlər çox səciyyəvidir.

İkinci Rusiya-İran müharibəsindən sonra başçıları Ehsan xan olan 1270 kəngərli ailəsi (orta sayla 6300 adam) bütün vergilərdən azad edilmişdi. Çünki yüzillər boyu onlar Araz üstündə sərhəd qulluğunda idilər və çar hökuməti də onları yeni dövlət sərhədlərində qaravul qulluğunda saxlamışdı. Onlardan vergi yığılmaması əvəzsiz üstünlük deyildi: sərhəd keşiyində duran 200 atlı kəngərli əsgərlərini kəngərli camaatı öz hesabına saxlayırdı. Onları at, silah, geyim ilə təmin edir və bütün yaşayış xərclərini də özləri ödəyirdilər.*

Lakin 30-cu illərdə vəziyyət köklü dəyişikliyə uğradı. Kəngərlilərin sıxışdırılması başlandı. Hökumət onların ənənəvi imtiyazını əllərindən aldı. Kəngərli toplumu üzərinə gümüş ilə 2698 man pul vergisi, natural yığım (arpa, buğda, düyü, pambıq və s.) və mükəlləfiyyətlər qoyuldu. «Günün günorta çağı» onların başçısı Ehsan xanın böyük mülklərindən biri onun əlindən alındı. Bu mülk 3223 gümüş manata girov qoyulmuş, girov kağızı Naxçıvan şəhər məhkəməsinin yazılı şəhadəti ilə təsdiq olunmuşdu. Girov götürənin İrana qaçmasını bəhanə edən çar hakimləri dərhal bu mülkün

Rusiya xəzinəsinə keçdiyini bildirdilər. General-mayor Ehsan xanın müraciətini Rusiya hərbi naziri qraf ***A.Çernışov*** cavabsız buraxdı. Ehsan xanın keçmiş Qafqaz baş komandanı ***İ.Paskeviçin*** yanına ***Varşavaya*** getməsi və sonuncunun əski imtiyazın saxlanması barədə çara üz tutması da cavabsız qaldı. Kəngərlilərin çoxu öz torpaqlarını buraxıb o taya köçməli oldular.

**ERMƏNİ KÖÇÜRÜLMƏSİNİN SAY GÖSTƏRİCİLƏRİ.** Köçürmə işinin ilk ili gözlənildiyindən uğurlu oldu. Yalnız ilk üç ay yarım içərisində o taydan 1,2 min erməni köçkünü keçmiş İrəvan, Naxçıvan və ən çox Qarabağ xanlıqlarında yerləşdirilirdi. Adı çəkilən üç bölgənin etnodemoqrafiya vəziyyəti tezliklə böyük dəyişikliyə uğradı:

| | **Azərbaycanlılar** | | **ermənilər** | |
|---|---|---|---|---|
| | *1823-27 il* | *1828-30 il* | *1823-27 il* | *1828-30 il* |
| | | *(faizlə)* | | |
| «***Qarabağ əyaləti***» (əski Qarabağ xanlığı) | 91 | 65 | 8 | 35 |
| «***Naxçıvan əyaləti***» (əski Naxçıvan xanlığı) | 86 | 51 | 13 | 49 |
| «***Erməni vilayəti***» (əski İrəvan xanlığı) | 76 | 46 | 24 | 54 |

XX əsrin başlanğıcında rus yazarlarından N.Şavrovun bu siyasətə verdiyi qiymət belədir: «Biz müstəmləkəçilik fəaliyyətinə Güney Qafqazda rus əhalisinin deyil, bizə yad olan xalqların... yerləşdirilməsindən başladıq... müharibədən sonrakı iki il içində, 1828-dən 1830-cu ilə kimi biz Güney Qafqaza İrandan 40 mindən çox, Türkiyədən 84 mindən çox erməni köçürmüş və onların ***erməni əhalisinin azlıqda olduğu Yelizavetpol*** (Gəncə – *Red.*) və ***İrəvan quberniyalarının*** ən yaxşı xəzinə torpaqlarında... yerləşdirmişik. Yerləşmək üçün onlara 200 min desyatindən çox xəzinə torpağı ayrılmış və onlar üçün müsəlmanlardan 2 milyon manatlıqdan çox xüsusi sahibkar torpağı satın alınmışdı. ***Yelizavetpol quberniyasının dağlıq hissəsi*** (indiki «Dağlıq Qarabağ» – *Red.*) və Göyçə gölünün sahilində həmin ermənilər yurd saldı».

O taydan ermənilərin köçürülməsi bəzi tarixçilərin yazdığı kimi, onların yurddaşlarına qovuşmaq istəyindən irəli gəlməmişdi. O torpaqlarda yurd salıb yaşayanların 3/4 hissəsindən çoxu Azərbaycan türkləri idi. Bu vəziyyəti dəyişdirmək, «Ermənistanı» erməni yurduna çevirmək üçün işlər görülməli idi. Bu işlərə XVIII yüzilin ikinci yarısında başlanğıc qoyulmuşdu. ***V.Pikul*** özünün «Favorit» kitabında qraf ***Q.Potyomkinlə*** imperatriça ***II Yekaterina*** arasında belə bir dialoqu qələmə almışdır: «Hə, bir də ermə-



nilərdən Lazarev və ***Arqutinski.*** İş bacaran ermənilər artıq özlərinə paytaxt gözaltı etmişlər – Erivan şəhərini.

– Paytaxtdan nə çıxar, əgər hələ ölkə yoxdursa?

– İndi yoxdur, bizdən sonra tapılacaq»–deyə Potyomkin cavab verdi».

Öz imperatorluq tarixini gözəl bilirdi rus yazarı ***Valentin Pikul.***

**İRANDA QEYRİ-BƏRABƏR ÜSTÜNLÜYƏ YİYƏLƏNMƏK CƏHDİ.** A.Qriboyedov Türkmənçay müqaviləsinə imza atıldıqdan sonra onun mətnini ***I Nikolaya*** təqdim etmək üçün Peterburqa yola düşdü. Müqavilədən çox razı qalan çarın göstərişi ilə Rusiya Senatı aprelin 25-də Tehranda «səlahiyyətli nazir», Təbrizdə isə baş konsulluq açılması barədə qərar verdi. Hər ikisinə başlıca iş olaraq Türkmənçay müqaviləsinin bütünlüklə yerinə yetirilməsinə nəzarət etmək tapşırıldı. Qriboyedov Tehrana «səlahiyyətli nazir» göndərildi.

O, Azərbaycan hakimi ***Abbas Mirzənin*** Təbriz sarayında yüksək hörmətlə qarşılandı. Artıq burada 40 nəfərlik «böyük elçilik» əməkdaşlarının davranışı bir sıra narazılıqlar doğurdu. Avropa diplomatiyasına az-çox yiyələnmiş vəliəhd, mehmandar ***Nəzərəli xan Əfşarın*** müşayiəti ilə rus elçiliyini Tehrana ötürdü.

Yol boyu dövlətlərarası etiketə sığışmayan qaba, qanunsuz hərəkətlər baş verməmdə idi. Türkmənçay müqaviləsinin 13-cü maddəsinə arxalanan elçilik İran vətəndaşlarının ailə işlərinə qarışmaqdan belə çəkinmirdi. Qəzvin şəhərində elçilər bir seyidin evinə soxularaq, onun islamı qəbul etmiş, milliyyətcə alman olan kəbinli arvadını özlərilə aparmaq istədilər. Yalnız qadının kəskin israrından sonra onu öz evinə buraxdılar. Belə ləyaqətsiz davranış guya 13 və 15-ci maddələrin ruslara xristian əsirləri qurtarmaq, erməniləri gecikdirmədən köçürmək hüququ verməsi ilə bağlı idi. İş o yerə çatırdı ki, Rusiya elçisi şahın yüksək məmurlarından biri olan ***Çölbiyanlı Bağır xana*** ermənilərin Qarabağa köçürülməsinə mane olmamaq barədə öz adından sərəncam vermişdi.

1829-cu il yanvarın 12-də Tehrana yetişən elçilik işçiləri burada da pisliyi yerə qoymadılar. Onlar kazaklarla birlikdə, bəzən içmiş halda bazar və küçələrdə hay-küy salır, «xristian əsir» ardınca evlərə soxulurdular. Şahın özü ilə ilk görüşündə yolverilməz dikbaşlıqla davranan Qriboyedov, ***Mirzə Yaqub*** adlı birisini elçilikdə saxladıqda, Tehranda böyük həyəcan qalxdı. Şah hərəmxanasının başçısı olan Mirzə Yaqub İrəvanlı idi və oraya qayıtmaq istədiyini bildirmişdi. ***Fətəli şah*** bununla bağlı söylənirdi: «Xacə Yaqub hərəmxanada mənim arvadım kimi idi, onu şah hərəmxanasından oğurlayıb aparmışlar». Şər'i məhkəmə təbii olaraq şahın tərəfini saxladı. Xacənin şah hərəmxanasına bir neçə min tümən borclu olduğunu ortaya çıxardı.

Bu iş sonа yetməmiş, elçilik yeni bir ağlasığmaz iş tutdu. Qriboyedovun göstərişi ilə şahın baş vəziri **Allahyar xanın** evindən iki erməni qadın elçiliyə gətirildi. Özü sorğu aparmaq adı ilə baş elçi onları da elçilikdə saxladı. Onların buraxılması barədə şahın xahişini yerə saldı.

Paytaxtın ruhani başçılarının çağırışı ilə yüz min adam elçilik qarşısına toplandı. Gözətçilərin gülləsindən 14 yaşlı bir uşağın ölümündən sonra elçiliyə basqın edildi. Mirzə Yaqubla (onu dərhal öldürdülər) iki qadının buraxılması gecikdi. Fevralın 11-də Rusiya baş elçisi Qriboyedov 37 işçisi ilə birlikdə öldürüldü. Diplomatiyanın yeni tarixində bu ən böyük faciələrdən biridir.

**TƏBRİZ MÜCTƏHİDİ ÇAR QULLUĞUNDA.** O taydan köçüb gələnlərin içərisində çox azərbaycanlı da vardı. Rəsmi kameral sayım üzrə, bu taya 81,7 min adam köçmüşdü. Bunların içində farslar və Anadolu türkləri çox az idi. Ancaq nəzərə almaq lazımdır ki, Rus-Türk savaşı illərində İran və Türkiyəyə köçüb gedən azərbaycanlıların sayı bundan qat-qat çox idi.

O taydan köçüb gələnlərin içərisində yüksək sosial qatda duran adamlar az deyildi. Bunlardan biri Təbriz müctəhidi ***Ağa Mir Fəttah*** idi. Onun atası şeyxülislam ***Mirzə Yusif*** bütün İranda uca tutulan ruhani başçılarından biri olmaqla, oğlundan qabaq Təbrizin müctəhid kürsüsündə otururdu.

Rus ordusu Arazı keçdikdən sonra Ağa Mir Fəttah bu orduya çox böyük xidmət göstərdi. Güney Azərbaycanda heç bir müqavimətə yol verməyərək, Təbrizin qapılarını ***Paskeviçin*** üzünə açdı. Onun yaratdığı idarədə üzv olub, ordu ilə Azərbaycan əhalisi arasında vasitəçilik etdi. Sonra isə 27 min tümən (rus pulu ilə 400 min rubl.) dəyərində olan evini və mülklərini buraxıb bu taya keçərək, Rusiya padşahına qulluq etmək fikrində olduğunu bildirdi. 12 fevral 1828-ci ildə (Türkmənçay bağlaşmasından bir gün sonra) qraf Paskeviçin təqdimatı üzrə Tiflisdə Güney Qafqaz müsəlmanlarına şeyx oldu. I Nikolayın ayrıca fərmanı ilə 1831-ci ildə Şirvan əyalətinin Sərdərə mahalında ona ömürlük olaraq 15 kənd bağışlandı. (***Qazlan, Bığır, Əlikənd, Şəkibəyli, Molla Hacalı, Qaraqədir, Dabbasan, Turhacı, Məlikkənd Alpı*** və başqaları). Bu kəndlərin keçmiş sahibi yerli bəylərdən idi, ancaq İrana qaçmışdı. Kəndlərin illik gəliri gümüş pul ilə 5360 manata çatırdı. Mir Fəttaha müqəddəs Anna ordeni də verildi, 2 min manatlıq «pansion» illik təqaüd ayrıldı.

Ancaq Paskeviç Qafqazdan getdikdən sonra müctəhid ağanın pis günləri başlandı. Ona qarşı gizli təxribatlar edildi. Şirvan komendantı ***fon-Aşeberqin*** göstərişi ilə mahal naibi müctəhidin işlər müdirini döyüb öldürdü. Yenə komendantın göstərişi ilə gələn dörd silahlı erməni müctəhidə bağışlanılmış kəndlərdə məhsulun və mal-qaranın satışını pozmaq üçün



kənd bazarlarını dağıtdı. 1832-ci ilin yayında Qafqaz mədən sularına getmək bəhanəsi ilə o, indi də Varşavada ağalıq edən Paskeviçin yanına yollandı. Qafqazın yeni baş hakimi baron Rozenin onu heç olmasa Brest-Litovskidən geri qaytarmaq istəməsi baş tutmadı.

Paskeviçin yeni xahişi üzrə çar, Mir Fəttaha bağışlanan kəndlərin ***əbədi, birdəfəlik*** verildiyini bildirib onun övladlarının vərəsəlik hüququnu təsdiq etdi. Çar sözü böyükdü, lakin ***Qış sarayı*** Şirvandan çox uzaqdı. *Burada buyruq fon-Aşeberqdə idi.* 1835-ci ildə müctəhidin Şirvan mülkündə yanğın oldu, evi bütün əmlakı ilə yandı. 1838-ci ildə Tiflisdəki böyük evi də yanıb kül oldu, arvadı və 6 uşağı ilə birlikdə. Bütün var-yoxu, pul, xalçalar, kitablar – hamısı əlindən çıxdı. Qafqazın ağaları hər iki yanğını törədənləri üzə çıxarmadılar. Pozuculuq özlərindəndi.

Feldmarşal Paskeviç bu dəfə Təbriz müctəhidi barəsində I Nikolaya çox geniş bir məktub yazdı: «Son İran müharibəsində müctəhidin xidməti çox əhəmiyyətli olmuşdur. İranlılar arasında olan böyük nüfuz ilə o, bizim qoşunların son uğurlarını asanlaşdırmış və öz dindaşlarını bizə elə bağlamışdı ki, Aderbeycanda olduğumuz bütün vaxt içərisində İran sarayının qızışdırmasına baxmayaraq orada bir dənə də olsun qiyam baş vermədi, biz böyük olmayan bir qüvvə ilə çoxsaylı siahlı əhalinin çevrəsində Gürcüstanda olduğu kimi qorxu çəkmədən qalırdıq. Bu, şahı müəyyən qədər tez barışığa gəlməyə məcbur etdi. Çünki o, xalqın bizə qarşı belə rəğbətli olmasından ehtiyat edirdi. Türkmənçay müqaviləsi imzalandıqdan sonra Rusiyanın himayəsinə keçmək istədiyini bildirdi. Abbas Mirzə hər vasitəyə əl atıb onu bu qərarından döndərmək istəyirdi, amma müctəhid bizə tərəf olduğundan öz rütbəsinin üstünlüklərini qurban verdi, vətənindən əl çəkdi, üstəlik İranda sahib olduğu bütün mülklərini itirdi.

Müctəhidin 1830-cu ildən sonrakı davranışı da az qazanc vermədi. Müsəlman baş ruhanisinin Qafqaz arxasındakı əyalətlərdə oturması və onun Rusiya himayəsinə könüllü keçməsi müsəlmanların, onların üzərindəki xristian ağalığı haqqında dərin kök salmış zərərli görüşlərini büsbütün dəyişdi. Qafqazda Əli məzhəbindən olan şiələr və Ömər məzhəbindən olan sünnülər arasında bizim üçün çox faydalı müvazinət yarandı».

Ancaq vəziyyət dəyişmədi. Arada müctəhidə İrana getməyə icazə verdilər. Qafqazdakı generallardan bəziləri «ölkəmizin xaricində olarsa, müctəhid bizə ziyan verə bilər» söyləyərək, başını tovlayıb Tiflisə qaytardılar. Fəqət yolda sağ qalmış iki oğlunu da itirdi: bir gecənin içində ikisi də zəhərlənib öldürüldü.

Çar hökuməti fəal, işbacaran müctəhiddən yaxasını qurtarmağa çalışırdı. Rus hökumətinin bütün buyruqlarını dinmədən, mütiliklə yerinə yetirən yerli ruhanilərə baxanda, Mir Fəttah rahatlıq bilməyən, dilli-ağızlı, tələbkar bir şəxsiyyət idi. 1840-cı ildə, başına ağlasığmaz oyunlar gətiril-

dikdən sonra o, hökumətə belə bir «son tələblər» vermişdi: «mənə bir ev tikilsin, yanında mədrəsə və məscidi ilə; 35 min manat borcumu dövlət xəzinəsi ödəsin; mənə lazım olan kitabların xaricdən gətirilməsinə maneçilik göstərilməsin və ya mənim özümə Bağdad və İstanbula gedib kitab almağıma, aldıqlarımı birbaşa Peteburqda mərkəzi senzor komitəsinə təqdim etməyimə icazə verilsin; qulluğumda olan yəhudini arvadı və iki az yaşlı uşağı ilə başqa yəhudilərə qoşub Rusiyaya sürgün etməsinlər...»

Qafqazın yeni ağası, çar canişini knyaz ***M.Vorontsov*** müctəhid İranda olan vaxt ***N.Xanıkovu*** oraya göndərdi, müctəhidin davranışını gizlicə izləməyi ona tapşırdı. Tanınmış şərqşünas Təbrizdəki casusların, Rusiya baş konsulxanasının yardımçılığı ilə Mir Fəttah haqqında bir dosye yazdı. Bu dosye müctəhid Tiflisə döndükdən sonra canişinə çatdırıldı. Burada deyilirdi: «Rusiyaya köçdükdən sonra müctəhid, bircə yalnız öz mənafeyi naminə kafirlərə satılmış və öz həmdinlərini atıb getmiş bir adam kimi İranda olan hörmətinin çoxunu itirmişdir». Xanıkovun fikrincə Güney Qafqazda: Naxçıvan, Qarabağ, Talış xanlıqlarında isə Mir Fəttahın öz dindaşlarına təsiri qorxulu ölçü ala bilərdi. «Qafqazın keçmiş baş komandanlarının zərərli diqqətsizliyi üzündən Qafqaz arxası ölkəsindəki müsəlmanlar arasında narazılıq yaranmış, bunun sayəsində qəzəb və qiyam ehtiyatı yığılmışdır ki, onlardan da Ağa Mir Fəttah asanlıqla istifadə edə bilər». Təbrizlilərin Naxçıvan və Qarabağa gediş-gəlişi, «bizim sərhədlərimizi keçməyin asan olması» nəzərə alınmalı idi. Bütün bunlara görə onun fikrincə yaxşı olar ki, Mir Fəttah «ömrünün sonunu hardasa Kərbəlada, ya Məşhəddə» İmam Hüseyn və İmam Rza məzarının yaxınlığında keçirsin, İran hökuməti isə ona yenidən dəvət göndərsin.

Təbatəbai Ağa Mir Fəttah haqqında onun quzey ağalarının sonuncu hökmü bu oldu. Onun Rusiya çarı qarşısında qulluğu güclü ibrət tutumu olan, öyrədici bir qulluq oldu.

**DARÜLİRŞADIN YAĞMALANMASI.** Elm ilə hərb işi bir-birinə bəzən çox «yaxın» olur. Belə yaxınlığın bir örnəyi Ərdəbil Darülirşadı ilə bağlıdır.

İkinci Rusiya-İran müharibəsi başlandıqda başqa bir tanınmış şərqşünas, Peterburq universitetinin professoru ***O.Senkovski*** Rusiya baş qərargahı rəisi ***İ.Dibiçə*** «İran kitabxanalarında saxlanan nadir Şərq əlyazmalarının alınması barədə layihə» verdi. Bu layihə Qafqaz baş komandanı Paskeviçə göndərildi. Layihə Qafqaz və Şərq ilə bağlı olan qədim əlyazma kitablarının nəyin bahasına olursa olsun, Peterburqa ötürülməsini qarşıya qoyurdu. Dibiç gizli bir buyruqla belə kitabları ələ keçirməyi Paskeviçə tapşırdı. Sonuncu isə bu işi Qriboyedovun üzərinə qoydu. Onun axtarışları ***Ərdəbil*** üzərində dayandı.

Ərdəbilin ***Darülirşad*** («Haqyolu evi») kitabxanası Orta Şərqdə çox zəngin bir kitabxana sayılırdı. ***Şah İsmayılın oğlu Şah Təhmasibin*** və



xüsusilə ***nəvəsi Şah Abbasın*** qayğısı ilə kitabxanaya saysız əlyazmaları, «uzaq keçmişin bütün qiymətli yazılı abidələri» toplanmışdı. Ölçüyəgəlməz dəyəri olan ilk bilik inciləri buraya 500 il əvvəl gətirilməyə başlanmışdı. Onların içərisində İranın böyük söz ustadı ***Şeyx Sə'dinin*** öz avtoqrafı ilə ***Şeyx Səfiəddin İshaqa*** bağışladığı «Divan»ı da vardı. Adam Oleariusa görə, kitabların bir qismi perqament (dana dərisi) üzərində yazılmış əski əlyazmaları idi, qalanları kağıza alınmış kitablardı. Bir çoxunu miniatür boya sənətinin inciləri olan şəkillər bəzəyirdi. O çağ Avropasının bilik adamlarına bu kitabxana yaxşı bəlli idi. Misir heroqlif yazısını ilk dəfə Avropa elmi ilə tanış edən italyan alimi ***Pyetro Della Valle***, Almaniya alimləri ***Adam Olearius*** və ***Engelbert Kempfer***, 25 dəfədən çox çap edilmiş «Səyahət» kitabının müəllifi holland ***İohan Streys*** hələ XVII yüzildə Darülirşad kitabxanasında olmuşdular. ***V.Potto*** onu «bütün Şərqdə şöhrət tapmış əlyazma kitabxanası» adlandırır. Onun yazmasına görə kitabxana «işıqlı, üzə gülən bir otaqda yerləşirdi», gümüşə və təmiz qızıla tutulmuş zəngin qapılar «müsəlman müdrikliyinin bu xəzinəsinə açılırdı».

Darülirşad kitabxanasının rəfləri üzərində yüzillər boyu belə bir yazı vurulmuşdu: «Kim bu kitablara toxunarsa, oğurlayarsa, kitabxanadan alıb qaytarmazsa, ona lənət olsun, İmamın qəzəbinə gəlsin!»

Qriboyedovun təklifi ilə general ***P.Suxtelenin*** başçılığı altında Qarabağdan Ərdəbilə ayrıca bir rus qoşunu göndərildi.

Rus ordusu Təbriz və Meşkini tutduqdan sonra Abbas Mirzə uduzduğunu yaxşı bilirdi. Yalnız barışığa gəlib danışığa başlamaq qalırdı. Ancaq onun oğlu Cahangir Mirzə Ərdəbil qalasına qapanıb ruslar ilə dirəşirdi. Rusların qalanı döyüşlə almaq istədiyini eşidən Abbas Mirzə oğlunun adına göndərdiyi fərmanda bildirirdi: «Mən Azərbaycan işini min səy ilə yırtıq yaxa kimi yamamışam, siz istəyirsiniz ki, bu işi yenə təzədən yırtıq yaxa kimi parçalayıb cırasınız. Bu fərmanı alan kimi Ərdəbil qalasını boşaldın. Rusiya qoşunu qalada öz atasının evində oturan kimi sərbəst və rahat otursun». 1828-ci il yanvarın 25-də rus qoşunu Ərdəbilə girdi.

**RUS TARİXÇİSİ *V.POTTO* DARÜLİRŞADIN YAĞMALANMASINDAN NƏ YAZIR?** «Suxtelen bu işi siyasətlə, incəliklə yerinə yetirdi. Kitabların aparılması xalqın qəzəbini doğura bilərdi, bundan ehtiyat etdiyi üçün öncə müsəlmanların müqəddəs yerlərinə hörmət və ehtiram göstərməkdən başladı: məscidə böyük bir İran xalçası bağışladı. Bu xalçanı elə o saat Şeyx (Səfi) ilə Şah İsmayılın məzarları arasına sərdilər. Bu, əhali arasında əhval-ruhiyyənin rusların xeyrinə uyğun olduğunu sübut edirdi. Onda Suxtelen bütün İranda böyük nüfuz sahibi olan şəhərdəki adlı-sanlı ruhani nümayəndələrini yanına çağırıb bildirdi ki, Rusiya hökuməti özünün çoxsaylı müsəlman təbəələrinin mənəvi tərbiyəsi və rifahının qayğısını

çəkməkdədir. Bunun üçün Şərqin tanınmış yazıçılarının əsərlərinə və kitablarına çox ehtiyac var. Və ona tapşırılıb ki, Şeyx Səfiəddin kitabxanasının bütünlüklə Peterburqa göndərilməsinə din xadimlərinin razılıq verməsini rus hökuməti adından xahiş etsin. Kitabların üzü çıxarıldından sonra hamısının əsli geri qaytarılacaq. Uzun çəkən sözləşmə, mülahizə və bəhanələrdən sonra möhtərəm hacı və mollalar razılıq verdilər. Suxtelen onları yanına alıb məscidə getdi. Şeyx Səfinin məzarı üzərinə içində səkkiz yüz çervon olan bir kisə qoydu və bunun Rusiya imperatoru həzrətlərinin bəxşişi olduğunu burada olanlara bildirdi. Bəxşişin zənginliyi mollaların dilağızını bağladı və kitablar oradaca Suxtelenə verildi. İranlılar bütün əlyazma xəzinəsinin artıq Rusiya mülkiyyətinə çevrildiyini uzun zaman anlamamışdılar. Onlar illərlə əlyazmalarının qaytarılacağını gözləməkdə idilər, çünki yəqin etmişdilər ki, rus xəttatları hələ kitabların üzünü çıxarıb qurtarmayıblar».*

Göründüyü kimi, Azərbaycanın ruhani başçıları milli-mənəvi varidata qoruyucu olduqlarını o ağır illərdə sübuta yetirə bilməmişdilər.

Fevral ayının başlanğıcında Suxtelenin seçib ayırdığı əlyazmaları iki piyada rus bölüyünün nəzarəti altında Tiflisə gətirildi. «Тифлисские ведомости» (1829, N 44) qəzetinin bildirməsinə görə, Qafqaz baş komandanı idarəsində qulluq edən ***Abbasqulu Ağa Bakıxanov*** çox böyük dəyəri olan 166 əlyazmalarının ilk kataloqunu tutub hazırladı. Bu sonuncu doğma oxunuşdan sonra əlyazma xəzinəsi yola çıxdı. Əsarət yoluna.

Sankt-Peterburqa gətirilən əlyazmaları burada imperator kitabxanasına verildi. Potto bu barədə yazmışdır: «Bu zəngin kitabxananı, onda qiyməti nə vardısa... hamısını Suxtelen bir hərbi qənimət kimi ələ keçirdi. Və bu gün S.Peterburq imperator kütləvi kitabxanasında saxlanmaqdadır. Onun olduğu yerdə isə biliksevər müsafir yalnız boş rəflər görə bilər». Əlyazmalarının çoxu indi də həmin kütləvi kitabxanadadır (***B.Dorn*** kataloqu). Bir parçasının sorağı Rusiya Elmlər Akademiyası Şərqşünaslıq institutu Sankt-Peterburq şöbəsinin kitabxanasından, bu Akademiyanın Sankt-Peterdurq arxivindən gəlir.

Azərbaycanın Darülirşad kitabxanası silah gücünə, bir də oğru yalançılığı ilə ələ keçirilmişdir. Türkmənçay bağlaşmasının ortaya gətirdiyi sənədlərdə bu kitabxananın Rusiyaya verilməsi nəzərdə tutulmurdu.

Şərq əlyazmalarının Rusiyaya gətirilməsi düşünmülmüş dövlət siyasəti səviyyəsinə qaldırılmışdı. Bu barədə Paskeviçin adına «yüksək imperator buyruğu» verilmişdi. Bunurla bağlı olaraq 1828-1829 Rus-Türk savaşının gedişində Axalsıxda Əhməd paşa məscidi ali mədrəsəsinin

---

*Bu tutarlı yazının qaynağı: *Потто В.А.*Кавказская война в отдельных очерках, эпизодах, легендах и биографиях, т. III, вып. 4, СПб, 1887, с. 576-577.



kitabxanası da qənimət alınaraq yağmalandı. Abbasqulu Ağa polkovnik N.Muravyovun iştirakı ilə bu kitabxanadan 148 çox dəyərli əlyazması və Qur'ani-Kərimin iki nadir nüsxəsini seçib Tiflisə gətirdi və burada onların kataloqunu tutdu. Kataloqun girişində o əlyazma zənginliyi baxımından Darülirşad kitabxanasının Axalsıx kitabxanasından çox yüksəkdə durduğunu ayrıca qeyd etmişdi. Ancaq ikinci kitabxana da böyük bilik xəzinəsi sayılırdı, çünki buradakı əlyazmalarının çoxu birbaşa elm üçün yazılmışdı və ya dərsliklər toplusundan ibarət idi. Bundan başqa Qriboyedovun qaynatası knyaz ***A.Çavçavadze Bayazitdə Mahmud paşanın*** kitabxanasından 8 dəyərli əlyazmanı qənimət kimi ələ keçirmiş, Ərzurumda isə 34 əlyazması və 2 çap kitabı satın alınmışdı. Hamısı da eyni ünvana: Sankt-Peterburqa göndərilmişdi.

## 2. İQTİSADİ VƏZİYYƏT

**İLKİN ARAYIŞ.** XIX yüzildə bütövlükdə götürüldükdə Azərbaycanın iqtisadi inkişafını müəyyən etmiş başlıca amil onun çar Rusiyası və Qacar səltənəti arasında bölüşdürülməsi oldu. Bu hadisə ilk dövrdə ölkənin əsrlər boyu yaranmış iqtisadi əlaqələrinin tamamilə pozulmasına gətirmədi. Ancaq Güney və Quzey Azərbaycanı bir-birindən ayıran dövlət sərhədlərinin yaranması hər ikisinin təsərrüfat həyatının sonrakı məzmun və istiqamətini dəyişdirmiş oldu.

Azərbaycanın parçalanması bütöv bir xalqın fəlakəti idi. Bununla yanaşı ölkənin quzey torpaqları Rusiya və sonuncu vasitəsilə ümumdünya iqtisadi irəliləyiş axarına qoşuldu. Güney Azərbaycanın iqtisadiyyatında isə bütün İranda olduğu kimi, durğunluq davam etməkdə idi. Qacar monarxiyası (1796-1925) İranda öz mövqeyini bərkitdikdən sonra burada feodal ara savaşlarına son qoyuldu, köçəri təsərrüfatı olan tayfaların şəhərlər üzərinə basqınlarının qarşısı alındı. Lakin bütövlükdə götürüldükdə, təsərrüfatın inkişafı üçün ölkədə olan şərait çox əlverişsiz idi. İranın Rusiya ilə apardığı uğursuz müharibələrin xərcinin, Rusiyaya ödənilməsi olan təzminatın xalqın, o sıradan Güney Azərbaycan xalqının üzərinə yüklənməsi onların vəziyyətini çox ağırlaşdırdı. Böyük torpaq sahibləri olan xanların özbaşınalığı, qanunsuz vergilər, mülkiyyətin və ticarət-sənaye əməliyyatlarının qanun ilə qorunmaması qarışıqlıq yaradırdı. İran feodal dövlətçiliyi təsərrüfat sahəsindəki hər hansı bir fəaliyyəti, təşəbbüsü çox zaman ilk başlanğıcdan boğub heçə endirirdi. Buna görə bir çox tacirlər və iş adamları xarici dövlətlərdən birinin təbəəliyini qəbul etməyə, bununla da xarici vətəndaş kimi toxunulmazlıq əldə etməyə və ölkədə hökm sürən özbaşınalıqdan qurtulmağa çalışırdılar. Xarici banklarla, o cümlədən ölkədə fəaliyyət göstərən *Rus Giroy-Borc bankı* (1890) ilə maliyyə-ticarət əlaqələrin-

də olan iri tacir və sahibkarlar da nisbətən əlverişli vəziyyətdə idilər. Lakin kapital sahibi olanların çoxu belə «müdafiə»dən məhrum idi. Buna görə də beləleri öz kapitalını istehsal sahəsinə, yeni məhsul istehsalına deyil, torpaq alınmasına sərf etməyi üstün tuturdu. Bütün XIX yüzil boyu İranın Avropa dövlətlərinə bir-birinin ardınca güzəştlər verməsi, onların xeyrinə çeşidli bağlaşmalara, o sıradan alış-veriş bağlaşmalarına girməsi nəticəsində ölkədə təslimçilik qaydası yarandı. Xarici təbəələr bir sıra iqtisadi və siyasi üstünlüklər qazandılar. Sonuncular yerli tacirlər üçün çox ağır yük olan daxili gömrük ödənişlərindən, yerli hüquq idarələri qarşısında mühakimə məsuliyyətindən azad edilirdilər.

Türkmənçay müqaviləsindən sonra rəsmi olaraq «Azərbaycan əyaləti» adlanan Güney Azərbaycan 22 mahalı birləşdirirdi. Bunlar aşağıdakılar idi: Təbriz, Maku, Urmiya, Xoy, Marağa, Deyləmqan, Binab, Miyandob, Sovucbulaq, Dohxarqan (Tufarqan), Mərənd, Əhər, Ərdəbil, Astara, Meşkin, Xalxal, Miyanə, Sərab, Sainqala, Zəncan, Qəzvin və Həmədan (sonrakı şah islahatları ilə sonuncu üç mahal və Astara əyaləti inzibati bölgüsündən çıxarılmışdır). Təqribi saya görə o zaman Güney Azərbaycanın əhalisi 3-4 milyon, ərazisi isə 120 min kvadrat kilometrdən çox idi.

**KƏND TƏSƏRRÜFATI, SƏNƏTKARLIQ.** Güney Azərbaycanda kənd təsərrüfatının başlıca sahəsi əkinçilik və maldarlıq idi. Təkcə kənd əhalisi deyil, şəhər əhalisinin də bir qismi əkinçilik, bağçılıq, bostançılıq və başqa bu kimi sahələrdə çalışırdı.

XIX əsrin 30-60-cı illərində təbii və qismən də süni suvarma əsasında buğda, arpa, çəltik və başqa dənli bitkilərlə yanaşı, texniki bitkilər, o sıradan pambıq, tütün, gənəgərçək əkilir, barama yetişdirilir, mum hazırlanır, müxtəlif meyvələr becərilirdi. 1837-1840-cı illərdə İranda olmuş Rusiya generalı *I.F.Blaramberqin* yazdığına görə, Azərbaycanın Xoy mahalında yetişdirilən pambıq bütün İranda ən yaxşı pambıq növü sayılırdı. Bir çox şəhər və kəndlərdə nar, heyva, albalı, alça, ərik, hulu, alma, armud, püstə, badam, qoz, fındıq və üzüm yetişdirilirdi. Təbrizdə Miyanə və Mərənd şəhərləri arasında yerləşən kəndlər meyvə bağları ilə zəngin idi. Geniş miqyasda quru meyvələr, xüsusilə Marağa və Urmiya səmtində yüksək keyfiyyətli kişmiş hazırlanırdı. Güney Azərbaycan İranda böyük taxılçılıq və meyvəçilik mərkəzi idi. Buradan taxılla yanaşı, quru meyvələr də ixrac edilirdi; qızıl boya, mazı, indiqo kimi boyaqçılıqda işlədilən bitkilər də yetişirdi. Yarımköçəri həyat sürən əhalinin başlıca məşğuliyyəti maldarlıq idi. Geniş otlaqlar, təbii yem örüşləri oturaq əhaliyə də maldarlıqla məşğul olmağa imkan verirdi. Heyvandarlıq məhsullarından yun, dəri, gön və s. ölkə daxilində keçə, yəhər hazırlanması, xalça-palaz toxunması, şəhərlərdə nəfis xalçalar və şal istehsalında işlənirdi.



Şəhərlərin inkişafında hələ durğunluq qalırdı. ***Nadir Mirzə*** Təbriz tarixinə həsr etdiyi əsərində son bir neçə yüz il içərisində bu mühüm şəhərin əhalisinin sayca azaldığını yazmışdır. XVIII yüzildən gələn iqtisadi düşgünlük Marağa, Ərdəbil, Miyanə və Zəncanda belə hiss olunmaqda idi.

Şəhərlərin sosial-iqtisadi yaşayışında sənətkarlar hələ də mühüm yer tuturdu. Ölkədə istehlak edilən sənaye mallarının başlıca istehsalçıları onlar idi. Lakin İngiltərə, Rusiya və başqa dövlətlərin İranda əldə etdiyi imtiyazlı müqavilələr Azərbaycan bazarlarının qapılarını xarici mallar üçün geniş açdı. Xarici malların aramsız axını sənətkarlığın mühüm sahəsi olan toxuculuq üçün ağır zərbə oldu. Parça, başlıca olaraq pambıq parça istehsal edən sənətkarların xarici mallarla rəqabətə tab gətirə bilməməsi və onların müflisləşməsi üzündən 30-40-cı illərdə belə parçaların istehsalı və ixracı azaldı. Buna baxmayaraq Təbriz və başqa şəhərlərdə istehsal edilən parçalar keçmiş ənənə üzrə qonşu Güney Qafqaz bazarlarını bütünlüklə itirməmiş, öz istehsal gücünü müəyyən ölçüdə saxlaya bilmişdi.

Bəzi sahələrin tənəzzül etməsinə baxmayaraq, sənətkarlıq sənaye istehsalının başlıca sahəsi olaraq qalırdı. Xalça, keçə istehsalı isə xarici malların rəqabətilə qarşılaşmadığı üçün tənəzzül etmir, əksinə, daxili və xarici bazarın tələbatı ilə bağlı genişlənirdi. Xalçaçılıq mərkəzlərindən olan Miyanədə elə bir ev yox idi ki, orada xalça istehsalı ilə məşğul olmasınlar. Təbriz özünün yüksək keyfiyyətli yun malları, ipək parçaları ilə tanınırdı.

Geniş yayılmış kiçik emalatxanalarda sifariş olunan mallar ilə yanaşı, burada satış üçün də mal istehsal edilirdi. Şəhərlərdə ayaqqabı, saxsı və ya mis qab-qacaq, başqa məişət şeyləri, təsərrüfat alətləri istehsalı, gön-dəri məmulatı hazırlanması inkişaf etmişdi. Təbrizdə baramaaçan, ipək, pambıq və kətan parçalar toxuyan, sabun bişirən, çini qablar, qəlyan, gön-dəri hazırlayan, bir çox dəmir alət və əşyalar buraxan emalatxanalar var idi. Xoy, Urmiya və Qaradağda az da olsa, şüşə qablar istehsal edən müəssisələr yaranmışdı.

XIX əsrin ortalarında Güney Azərbaycanda sənətkarlığın adı çəkilən başlıca sahələri inkişaf etməkdə idi. Çarlıq Rusiyası sərhəd gömrükxanalarının qeydləri və ayrı-ayrı şəhərlərdə yerləşən rus konsulluqlarının Rusiya ilə ticarət haqqında hesabatları sənətkarlıq məhsullarının Rusiya bazarına çıxarılmasının ilbeil artdığını göstərməkdədir. Bu artım isə özlüyündə həmin sahələr üzrə istehsalın artımı, eyni zamanda sənətkarları pambıq, yun, barama, dəri və başqa xammal ilə təchiz edən kənd təsərrüfatı sahələrinin də irəliləyişi ilə bağlı idi.

Şəhərlərdə orta dövrlərə xas olan sex quruluşu qalmaqda idi. Kiçik müəssisələr ayrı-ayrı istehsal sahələri üzrə sexlərdə birləşirdi. Bütün İranda olduğu kimi, Güney Azərbaycan emalatxanalarında 2-3 sənətkar işləyirdi. Sənətkarlıqda muzdlu əməkdən istifadə olunmurdu. Bununla ya-

naşı, daxili və xarici bazarda rəqibi olmayan malların istehsalında (ilk növbədə xalçaçılıqda) muzdlu əməkdən istifadə olunmaqla manufaktura münasibətləri inkişaf etməyə başlamışdı. ***Abbas Mirzənin*** savaşlar bitdikdən sonra buraya dəvət etdiyi ingilis sahibkarı ***Armstronq*** Təbriz yaxınlığında əyirici, darayıcı və toxucu, Xoyda isə xovlayıcı fabriklər açmışdı. Lakin bu fabriklərin nə qədər işləməsi bilinmir. Uzaqgörən adamlardan Təbriz taciri ***Hacı Mirzə Məhəmmədin*** 50-ci illərdə bir sıra şəhərlərdə fabriklər açmaq cəhdləri boşa çıxmışdı. Hökm sürən ictimai quruluş, buradan doğan qanunsuzluq fabrik tipli yeni sənaye ocaqlarının yaranmasına mane olurdu. Başqa Şərq ölkələrində olduğu kimi, İranda tacirin şəxsiyyət və mülkiyyət hüquqları təmin edilməmişdi. XIX yüzilin ortalarında İranda olmuş şərqşünas ***Berezin*** yazırdı: «Vətəndaş azadlıqlarının, şəxsi toxunulmazlığın, ədalət məhkəməsinin və müstəqilliyin kiçicik əlamətinin olmaması xalqı mənəvi cəhətdən əzir və alçaldır, həmçinin maddi sərvətlərin artımı dayanırdı».

Beləliklə, bir tərəfdən pambıq, ipək, yun parça istehsal edən sənət sahələri tənəzzül edir, o biri tərəfdən xalça toxunması, gön-dəri istehsalı genişlənir, xalçaçılıqda isə yeni kapitalist istehsalı yaranmağa başlayırdı.

**DAXİLİ VƏ XARİCİ TİCARƏT**. Güney Azərbaycanın şəhərləri: Təbriz, Ərdəbil, Marağa, Urmiya, Zəncan İranın daxili və xarici ticarətində mühüm rol oynayırdılar.

Xalçaları, ipəyi və pambıq-kətan parçaları ilə məşhur olan Təbrizin ticarət əhəmiyyəti xüsusilə böyük idi. XIX yüzilin ikinci rübündə Asiya-Avropa ticarətində malların toplanma məntəqəsinin İzmirdən İstanbula köçürülməsi ticarət yollarının dəyişməsinə, Güney Azərbaycan və onun baş şəhəri Təbrizin (buradan İstanbula Trabzondan keçən birbaşa karvan yolu mövcud idi) İranın xarici ticarətində ön yerə keçməsinə səbəb olmuşdu. Bununla yanaşı, Rusiya ilə savaşlar dayandırıldıqdan sonra bu dövlət ilə ticarət əlaqələrinin bərpa edilib genişlənməsində də Təbrizin ayrıca bir yeri var idi. Bu dövrdən başlayaraq Təbriz İranın Rusiya, Türkiyə və Qərbi Avropa ölkələri ilə ticarətində böyük rol oynayır, ticarət əlaqələri genişləndikcə Təbrizin əhəmiyyəti artırdı. Ticarət yolları düyümündə yerləşən Təbriz, ümumən İranın böyük mərkəzlərindən biri idi. 30-cu illərdə İranda olmuş baron ***F.Korf*** öz xatirələrində yazırdı: «Söz yox, Avropa ilə ticarətdə İranın baş şəhəri Təbrizdir». Təbrizdə Rusiya baş konsulluğunun əməkdaşı ***F.Bakulin*** isə 60-cı illərdə Təbrizi «İranın ticarət payaxtı» adlandırırdı.

Bununla bağlı olaraq Təbrizdə əhalinin sayı artırdı. 1848-ci ildə burada olmuş avropalı qadın alim ***Pfeyfer,*** Təbriz əhalisinin sayını 160 min, ***Nəsrəddin*** şahın hakimiyyətinin (1848-1896) ilk illərində İranda olmuş ***Vatson*** isə, hətta 200 min nəfərə çatdığını göstərirlər. Avropalılar bu şəhərin gözəl olduğunu bildirirdilər. Pfeyfer Təbriz haqqında belə yazmışdır: «... Təbriz Tehrandan və İsfahandan gözəldir, 160 min əhalisi, çoxlu kətan, ipək fabriki var. Təbriz Asiyanın başlıca şəhərlərindən biri sayılır». Burada «fabrik» adlandırılan müəssisələrin çoxu sənətkarlıq emalatxanaları idi. Yuxarıda söylənildiyi kimi, burada fabrik sənayesinin yaradılması yolunda hələ ilk addımlar atılmaqda idi.



Pfeyfer Təbrizdəki yeni bazarın genişliyini, Yaxın Şərqin ən məşhur bazarlarından olan İstanbul Çarşısı kimi yaraşıqlı olduğunu qeyd edir. Bu bazar 1848-ci ilədək Azərbaycan əyalətində dövlət xidmətində olmuş ***Mirzə Tağı xan*** tərəfindən tikdirilmişdi.

Pfeyferdən bir neçə il sonra İranda olmuş ingilis müəllifi Robert Vatson Təbrizdə mindən artıq dükan, 32 tacir karvansarası, qatırçılar və onların yükləri üçün 37 başqa karvansara olduğunu yazır.

Təbrizin ticarət əlaqələrinin artması nəticəsində şəhərin kapital dövriyyəsi 1839-cu ildəki 12 milyon manatdan 60-cı illərin başlanğıcında təqribən 30 milyon manata çatmışdı.

Sənətkarlıq və ticarətin genişlənib canlanmasında başqa şəhərlərin də rolu var idi. Bunlardan Miyanə yumşaq, gözəl rəngli və möhkəm xalçaları ilə, Marağa ilə Urmiya tütünü və kişmişi, Xoy toxuma corabları ilə tanınırdı.

Bununla yanaşı şəhərlər hələ də öz əski görünüşünü, orta çağ şəhəri cizgilərini saxlamaqda idi. Hər şeydən öncə şəhər əhalisi ticarət-sənaye fəaliyyəti ilə yanaşı, yenə də kənd təsərrüfatı işlərində çalışmaqda davam edirdi. Təbrizin özündə belə əhalinin bir qismi bağçılıqla məşğul olurdu. Başqa şəhərlərdə isə bağçılıq əhalinin başlıca çalışma sahələrindən biri olaraq qalırdı. Nisbətən kiçik şəhərlərdən bəzisi yenə də ayrı-ayrı feodal başçılarının tabeliyində idi. Maku şəhəri Maku xanlarının başında duran sərdarın, Əhər şəhəri Qaradağ xanının sərəncamında olmaqla orta əsr feodal şəhəri vəziyyətində qalırdı.

Orta çağlarda olduğu kimi şəhərlərin siyasi-ictimai həyatında bazarlar başlıca yer tuturdu. Öz karvansaraları və anbarları olan bazarlar istər daxili, istərsə də xarici ticarətdə böyük rol oynayırdı.

Əyalətin daxili ticarətində şəhər əhalisinin istehlakı üçün lazım olan taxıl və başqa məhsullar yaxın kəndlərdən gətirilirdi. Ərzaq mallarından başqa şəhərlərə xalçaçılıq, toxuculuq, əyiricilik, dabbaqlıq, keçəçilik, dulusçuluq, misgərlik, boyaqçılıq kimi sənətkarlıq sahələri üçün əyalətin kənd yerlərindən xammal gətirilirdi. Məhsulun çoxu uzaq kəndlərdən şəhərlərdə fəaliyyət göstərən ticarət evləri vasitəsilə gətirilirdi. Xoydan və Kermandan gətirilən zərif keçi tükündən Təbrizdə məşhur kəşmir çeşidli şallar toxunulurdu (bu şallar Rusiya bazarlarına çıxarılırdı). Kəndlərdən şəhərlərə çoxlu xammal gətirildiyi halda, sənətkarlıq məhsullarının kənd-

lərə aparılması çox az idi. Ümumiyyətlə götürüldükdə, Güney Azərbaycan əyalətində hələ natural təsərrüfat hökm sürürdü. Kəndli təsərrüfatı çox hallarda həm taxıl istehsal edir, həm mal-qara saxlayır, həm də öz istehlakı üçün pambıq, kətan, yun parça-geyim, yun toxuyur, özünə corab, çarıq hazırlayırdı.

Cənubi Azərbaycandan İranın başqa əyalət və vilayətlərinə taxıl və digər kənd təsərrüfatı malları, sənətkarlıq məhsulları aparılırdı. Məsələn, burada toplanan qiymətli boyaq yağı Təbrizlə yanaşı, Tehrana və İranın başqa şəhərlərinə də aparılırdı. Təbrizdə dəridən hazırlanan məhsullar İranın hər yerinə göndərilirdi. Təbrizin özünə isə ipək parçalar toxunması üçün Güney Azərbaycan vilayətləri ilə yanaşı, Gilandan da barama gətirilirdi.

**ƏCNƏBİLƏRƏ TİCARƏT ÜSTÜNLÜKLƏRİ VERİLMƏSİ.** Rusiya-İran savaşları bitdikdən və Güney Azərbaycanın xarici ölkələrlə, xüsusilə qonşu ölkələrlə ənənəvi alış-verişi bərpa olduqdan sonra ticarətdə bir sıra dəyişikliklər baş verdi. Bu dəyişikliklər İranın getdikcə Avropa dövlətlərinin nüfuzu altına düşməsi ilə bağlı idi. İngilis burjuaziyası, İranın Avropa dövlətləri təbəələrinə verdiyi bir sıra güzəştlərdən ölkəni, o cümlədən Azərbaycanı öz sənaye mallarının satış bazarına çevirmək üçün istifadə edirdi. 30-cu illərdən ölkəyə xarici mallar, başlıca olaraq İngiltərə toxuculuq mallarının axını başladı. Bu mallar, əsasən Trabzondan keçməklə Türkiyə, qismən Qafkazdan keçməklə Rusiya vasitəsilə gətirilirdi. 1833-cü ildə Təbrizə xaricdən 15 milyon manatlıq mal gətirilmişdisə, 1836-cı ildə onun dəyəri 40 milyon manata qalxmışdı. Gətirilən malların 90 faizi İngiltərənin payına düşürdü.

Təbrizdən həmin yollarla aparılan mallar Avropadan gətirilən mallardan qat-qat az idi. 1835-ci ildə Təbrizdən İstanbula yalnız 9 milyon manatlıq xalça, yun yaylıqlar, ipək və pambıq parçalar, qismən isə xam ipək, pambıq, tənbəki, boyaq maddələri aparılmışdı. 1837-1838-ci illərdə İranın Herat üzərinə yürüşü ilə bağlı onunla İngiltərə arasında diplomatik münasibətlər pozuldu, hər iki ölkə arasında alış-veriş azaldı. Bu azalma bütün Avropadan olan ixracı da sarsıtdı. Sonralar alış-veriş yenə genişlənsə də, əvvəlki ölçüyə çata bilmədi.

İlk illərdə Avropadan mal gətirilməsi başlıca olaraq yerli tacirlərin əlində idi. Lakin tezliklə avropalılar Təbrizdə öz ticarət şirkətlərini açmağa başladılar. Xaricdən mal gətirilməsinin artması ilə bağlı ölkədə xarici şirkətlərin sayı getdikcə çoxalırdı. 30-40-cı illərdə ***Ralli, Qlavani, Stefanoviç, Stivens*** qardaşları Təbrizdə ticarət şirkətləri yaratdılar. 1870-ci ildə burada artıq səkkiz xarici ticarət şirkəti fəaliyyət göstərirdi. Bunların Təbrizə gətirdikləri malların 95 faizi İngiltərə toxuculuq məhsulları idi. İranda



kapitulyasiya qaydasından geniş istifadə edən həmin şirkətlər tezliklə yerli tacirləri xarici ticarətdə sıxışdıra bildi. 40-cı illərdə malların yarıdan çoxunu Təbriz şəhərinə artıq xarici kapitalistlərin özləri gətirmişdi. Təbrizdən mal aparılmasında isə üstünlük yerli tacirlərin əlində qalırdı. 1845-ci ildə Təbrizə gətirilən malların yalnız 44 faizi yerli tacirlərin üzərinə düşürdüsə, buradan İstanbula (sonra qismən Avropaya) və Rusiyaya aparılan malların təqribən 69 faizi yerli azərbaycanlı, qismən də erməni tacirlərin əlində idi.

Xarici şirkətlərin fəaliyyəti bütün İranda olduğu kimi, Azərbaycanda da bir sıra sahələr üzrə sənətkarların (ən çox parça toxucularının) iflasına səbəb oldu. Çünki əl dəzgahlarında toxunulan və buna görə baha başa gələn parçalara nisbətən Avropa fabrik malları iki-üç qat ucuz satılırdı. Belə bir rəqabət qarşısında durmaq ayrı-ayrı sənətkarlar üçün olduqca çətin idi. İran hökuməti isə yerli şirkətləri, tacir və sənətkarları rəqabətdən qorumaq üçün heç bir iş görmür, əksinə xarici malların idxalını azaltmaq haqqında yerli tacirlərin xahişlərini cavabsız qoyur, xarici kapitala verilən imtiyazları getdikcə artırırdı. Bu, yerli tacirləri ağır vəziyyətdə qoyurdu. 1836-cı ildə İran dövləti ingilis tacirlərinə ilkin güzəştlər verdi. 1841-ci il ticarət müqaviləsi isə ingilis sənaye mallarının İrana axınını çox asanlaşdırdı. Müqaviləyə görə, ingilis tacirləri 1828-ci ildə Rusiya tacirlərinə verilmiş eyni güzəştləri əldə etdilər. İngiltərədən gətirilən mallar üçün 5 faizli sərhəd gömrüyü qoyuldu, İranın daxilində isə ingilis tacirləri bütünlüklə gömrük vergisindən azad edildilər. İngiltərə İranın üç şəhərində, o sıradan Təbrizdə ticarət nümayəndəliyi açmaq hüququ qazandı. 1845-ci ildə şah hökuməti Fransa, Avstriya və başqa Avropa dövlətlərinə də güzəştli tariflər verdi. Uğursuz İngiltərə-İran savaşından sonrakı barışığa görə isə ingilis tacirləri İranda daha bir sıra üstünlüklər, o cümlədən toxunulmazlıq hüququ əldə etdilər.

**GÜNEY VƏ QUZEY AZƏRBAYAN İRAN-RUSİYA TİCARƏTİNDƏ.** Öz mallarını Təbriz bazarına çıxarmağa marağı olan ölkələrdən biri də Rusiya idi. Türkmənçay müqaviləsi ilə bir vaxtda imzalanmış ticarət müqaviləsi üzrə Rusiya tacirləri bir sıra üstünlüklər almışdılar. (Bu üstünlüklər sonradan avropalılara da verilmişdi). Ancaq Rusiyadan gətirilən mallar hələ az idi. 1833-1851-ci illərdə Təbrizə gətirilən 321 milyon manatlıq xarici malın yalnız 11 milyonu Rusiyanın payına düşürdü, bunların da çoxu Transqafqazdan gətirilmişdi.

Avropa dövlətləri, xüsusilə İngiltərə, Güney Azərbaycana külli sayda mal gətirdiyi halda, buradan çox az mal (ipək və boyaq maddələri) aparırdı. Bununla bağlı olaraq, ölkənin sənətkarlıq və kənd təsərrüfatı məhsulları başlıca olaraq Güney Qafqaz bazarına aparılırdı. 1833-1851-ci illər ərzində Təbrizdən aparılan malların yarısı Rusiyaya ixrac edilmişdi.

Güney Azərbaycanda Rusiya bazarlarına mal çıxarılması sürətlə artmağa başladı. Rusiyaya ixrac edilən malların çoxu sənətkarlıq məhsullarından ibarət idi. Bu, Rusiyada sənayenin hələ zəif inkişafı ilə izah oluna bilər. Bununla yanaşı, bu məhsulların çoxu müsəlman xalqlarının yaşayışında işləndiyi üçün (cürbəcür parçalar, süfrə, boğça, çadra, qətifə və b.) Quzey Azərbaycanda satılırdı. Bu malların bir qismi Güney Azərbaycanın özündə, bir qismi isə İranın başqa şəhər və vilayətlərində istehsal olurdu. Hətta İran şəhərləri arasında uzun alış-veriş yolu keçdikdən sonra bəzi bahalı mallar üçüncü mərhələdə Təbrizə gəlib çıxır, sonra isə xaricə aparılırdı. 1851-ci ildə Rəştdə alınmış 4.953.194 manatlıq ipək xaricə, o sıradan Rusiyaya Təbriz vasitəsilə çıxarılmışdı. Hətta İngiltərədən buraya gətirilən çit və başqa parçalar da Təbrizdə, eləcə də İranın bir sıra şəhərlərində boyadılıb naxışlandıqdan sonra Rusiyaya satışa çıxarılırdı. Kermanda becərilən xına qismən yenə Təbrizə gətirilir, burada üyüdülüb kisələrə yığıldıqdan sonra ixrac edilirdi.

Mərkəzi Rusiyanın Moskva, Nijni-Novqorod, Tula və başqa şəhərlərindən buraya çit, parça, çini, saxsı və büllur qablar, samovar, Quzey Azərbaycandan isə ənənəvi mallar (zəfəran, qara və ağ neft, Şirvan ipəyi, camış dərisi, mis) gətirilirdi. 1850-ci ildə Quzey Azərbaycandan Təbrizə gətirilmiş 270 min manatlıq bu çeşiddən olan mallar həmin ildə bütün Rusiyadan gətirilən bir milyon manatlıq idxalın dörddə birindən çoxunu təşkil edirdi.

Avropa ölkələri ilə müqayisədə Rusiya ilə ticarət müsbət balanslı idi: 1833-1851-ci illərdə Təbrizdən Rusiyaya aparılan mallar gətirilənlərdən orta hesabla 5,4 dəfə çox olmuşdur. Bununla yanaşı Təbrizdən Rusiyaya aparılan mallar, əsasən sənətkarlıq məhsulları idi. Bu, ölkə ticarətinin müstəmləkə xarakteri daşımadığını göstərirdi. Lakin İranı gələcəkdə öz müstəmləkəsinə çevirmək üzərində düşünən çarlıq Rusiyası ticarət əlaqələrinin nisbətini dəyişəmyə, oradan yalnız xammal, xüsusilə pambıq ixracını artırmağa çalışırdı.

## 3. İCTİMAİ-SİYASİ QURULUŞ

**TİYUL, İLAT.** XIX əsrin ortalarında Güney Azərbaycan əhalisinin çoxu yenə də feodalları bütün yaşayış nemətləri ilə təchiz edən kəndlilərdən ibarət idi. Şəhərlərdə yaşayan əhalinin böyük bir qismi kənd təsərrüfatı ilə, bağçılıq və bostançılıqla məşğul olurdu. Əhalinin qalanı şəhər varlılarından, tacirlərdən, sənətkar və sənətkar şagirdlərindən, ruhanilərdən, şəhər yoxsullarından ibarət idi.

Torpaq üzərində mülkiyyət çox az dəyişikliyə uğramışdı. Kəndlər və bunlar ətrafındakı əkinlər və biçənəklər, bostan və bağlar, otlaqlar və s. torpaqların çoxu yenə də dövlətə və şaha məxsus olan ***xalisə*** torpaqlardan ibarət idi.



Xalisə torpaqların çoxu hakim soy olan Qacar oğullarına, dövlət qulluğu qarşılığında ayrı-ayrı feodallara, dövlət məmurlarına vəzifədə olduğu müddətə verilir, ya ömürlük bağışlanırdı. Başqa sözlə, göstərilən şəxslərə dövlət xəzinəsindən almalı olduqları aylıq və təqaüd əvəzinə xalisə torpaqların gəlirindən istifadə etmək hüququ verilirdi. ***Tiyul*** adlanan bu torpaqlar onun sahibinə tam mülkiyyət hüququ vermirdi. Tiyul sahibi həmin torpağı sata və ya bağışlaya bilməzdi, yalnız torpaq vergisini mənimsəmək hüququ qazanmış olurdu. Buna görə feodalların əlində olan böyük torpaq sahələrinin çoxu şahın bağışladığı tiyul torpaqları, bir qayda olaraq, mülki və ya hərbi xidmət qarşılığında verilirdi. Məsələn, Talış hakimi ***Sultan Əhməd xan, Arşaq*** mahalını idarə etməsi müqabilində mahalın dövlət vergisinin məhsulla ödənilən hissəsini (160 xalvar) tiyul almışdı. ***Türkmənçay*** kəndinin gəliri isə Güney Azərbaycanda yüksək hərbi vəzifə daşıyan ***Sadiqül-mülkə*** aylıq yerinə tiyul olaraq bağışlanmışdı. Ancaq hərbi və mülki qulluq qarşılığında tiyul verilməsi getdikcə azalırdı. Mahal və ya kəndin gəliri-renta vergisi hər hansı qulluq adamına qismən də verilə bilərdi. XIX əsrin başlanğıcına aid bir fərman ilə Qaradağ vilayətinin ***Dizmar*** mahalındakı ***Milak*** kəndinin pul və məhsul vergisi ***Əsəd bəy*** və ***Abutalıb bəyə*** onların illik aylığı əvəzində verilirdi. Həmin şəxslər vergidən öz aylığını çıxdıqdan sonra baratla (yazılı sənədlə) verginin qalanını mahal hakiminə verməli idilər. Mahalın idarəsini aparan mübaşirlərə isə fərmana görə kəndə daxil olmaq qadağan edilirdi.

Dövlət, ayrı-ayrı varlıların tam mülkiyyəti olan torpaqlardan aldığı xəzinə vergisini (maliyyat) də tiyul kimi qulluq-vəzifə adamlarına aylıq əvəzinə verirdi.

Şah oturaq və ya köçəri, yarımköçəri yaşayış sürən ayrı-ayrı tayfalara dövlət qarşısında hərbi qulluğa görə torpaqlar bağışlayırdı. Dövlət, nizami ordu ilə yanaşı savaşlarda tayfa qoşunlarından, çəriklərdən geniş istifadə edirdi. Dövlət sərhədlərinin qorunması da, bir qayda olaraq, tayfaların üzərinə düşürdü. Dövlətin bütün tayfanın ixtiyarına verdiyi torpaqlar ***ilat, ilati*** («el» sözündəndir) adlanırdı. Tayfa başçısı bu ilat torpağının əkin yerlərini el arasında bölməli idi. Əslində isə torpaq tayfa başçısının, tayfanın başında duran ailənin ixtiyarında olurdu.

İri feodallar arasında torpaq, otlaq yerləri və su üstündə arasıkəsilməyən çəkişmələr, bəzən isə silahlı toqquşmalar baş verirdi.

Tiyul və ilat sistemindən yalnız öz əllərinə geniş torpaq sahələri keçirmiş torpaq əsilzadələri və tayfa başçıları razı idilər. Ancaq bu sistem iqtisadi baxımdan dövlətin özü üçün əlverişli deyildi. Buna görə XIX yüzil boyu dövlət bir neçə dəfə qulluq müqabilində torpağın gəlirinin tiyul verilməsinə son qoymağa çalışır, qulluqçuların aylığını birbaşa xəzinədən ödəyirdi. Ancaq əsilzadələrin kəskin müqaviməti üzündən buna müvəffəq ola bilmədi.

**MÜLK, VƏQF, XIRDAMALİK.** Feodalların tam hüquqi sahibi olduğu ***mülk*** torpaqları sayca tiyul qədər çox deyildi. Buraya dövlətin çox az hallarda ayrı-ayrı şəxslərə mülkiyyət hüququnda bağışladığı torpaqlar, dövlətdən satın alınmış və ya canlandırılmış xam torpaqlar daxil idi. XIX əsrin ortalarına doğru ayrı-ayrı şəxslərin mülk torpaqlarının çoxalması gözə çarpırdı. Mülk torpaqlarının çoxu feodal-zadəganların əlində toplanmışdı. Bir çox hallarda müamiləçi sərraflar da əsasən borc pul qarşılığında girov götürmək yolu ilə torpaq mülkləri ələ keçirirdilər. İranda şəxsiyyət və mülkiyyət toxunulmazlığı olmadığından başqa zümrələrin, alış-veriş adamlarının torpaq mülkiyyəti ələ keçirməsi geniş yayılmamışdı.

Ali ruhanilərin başçılıq etdiyi dini qurumların (məscid, məqbərə, mədrəsə və s.) vəqf torpaqları Quzey Azərbaycanda nisbətən geniş idi. Ərdəbildə Şeyx Səfi məscidi ilə məqbərəsinin torpaqları Güney Azərbaycanda ən böyük vəqf sayılırdı. Əyalətin başqa yerlərində vəqflər nisbətən kiçik idi.

Ruhani başçıları vəqf torpaqlarını idarə etmək adı altında onların gəlirini mənimsəyir, bu yolla külli sərvət toplayırdılar. Onlar vəqf torpaqlarını dolayı yolla zəbt etməkdən də çəkinmirdilər. Bəlli olduğu kimi, şəriətə görə bu torpaqlar nə satıla, nə bağışlana, nə də girov qoyula bilərdi.

Bütün mülki məhkəmə, notarius, təhsil işlərini öz əlində saxlayan, bu yolla çoxlu gəlir əldə edən ruhani başçıları: şeyxülislam, müctəhid, imamcümələr böyük iqtisadi, siyasi güc qazanmışdılar. Nüfuz baxımından onlar böyük torpaq əsilzadələrindən və qulluq əyanlarından geri qalmırdılar. Ruhanilərin yuxarı, qismən də orta təbəqəsi xüsusi mülkiyyət hüququnda əmlaka, torpaqlara malik olmaqla yanaşı, dövlətdən tiyul və təqaüd olaraq çoxlu vəsait alırdı. 1843-cü il qanunu ilə şah hökuməti notarius aktları bağlamaq işini dövlət dəftərxanalarına tapşırmaqla ruhaniləri bu hüquqdan məhrum etdi. Şahın baş naziri ***Mirzə Tağı xan*** dövlət xəzinəsindən ruhanilərə verilən təqaüdləri azaltmış, onlara verilmiş vəqf xarakteri daşımayan, yəni dini idarələrə aid olmayan tiyulları qismən geri almışdı. Qacar şahları Ərdəbildə olan vəqf torpaqlarının bir qismini də zəbt etmişdilər. Buna baxmayaraq, ***Məhəmməd şahın*** hakimiyyəti illərində (1834-1848) ruhanilərə verilən tiyul və təqaüdlərin sayı artmışdı.

Kəndlilərin içərisində az sayda xüsusi torpaqları olanlar var idi. ***Xırdamalik*** adlanan, daha çox Urmiyada yayılmış olan belə torpaqlar çox az və kiçik idi. Bu torpaqları kəndlilər mülkədarlardan pulla alırdılar. Xırdamalik torpaqları əyalətin iqtisadiyyatında da çox az yer tuturdu. Kəndlilərin çoxunun torpağı yox idi. Onlar dövlətin, əsilzadələrin, tayfa başçılarının, ruhanilərin əllərində olan torpaqlarda sakin idilər; əkin yerlərindən paydarlıq icarəsi ilə istifadə edirdilər. Kəndlilər ata-babadan əkib becərdikləri torpaqlar ilə hüquqi baxımdan bağlı idilər (bunu 1843-cü il qanunu da təsdiq edirdi), yəni onları həmin torpaqlardan istəmədikləri halda başqa



yerə köçürmək olmazdı. Köçəri və yarımköçəri həyat sürən maldar kəndlilər isə qəbilə başçılarının davar və qara malını otarırdılar.

**VERGİLƏR.** Kəndlilərin əsas istismar forması ***məhsul rentası*** idi. Kəndli bir qayda olaraq, becərdiyi məhsulun təqribən yarısını, istehsal şərtlərindən asılı olaraq bəzən yarıdan da çoxunu torpaq sahibinə renta və dövlətə vergi kimi verirdi. Kəndli renta və vergini məhsulla, qismən də pulla ödəyir, saxladığı mal-qara üçün hər heyvan başına qoyulmuş pul ödəyirdi.

Maliyyə-vergi işinə mustofilərdən (maliyyə işçilərindən) ibarət idarə başçılıq edirdi. Vergi siyahısını, ayrı-ayrı mahal və vilayətlərin büdcəsini mustofilər tuturdular. XIX yüzilin ortalarında dövlət vergilərinin artıq yığılması geniş yayılmışdı. 30-cu illərdə həmin idarə tərəfindən tərtib olunmuş vergi siyahılarına görə ***dövlət vergisi*** (maliyyat) kəndlinin götürdüyü məhsulun onda biri qədər qoyulduğu halda, iki dəfə çox yığılırdı. Kəndlini varyoxdan çıxaran təsadüfi, əslində qanunsuz yığılan vergilər idi. Məsələn, dövlət hər hansı bir tədbir keçirmək istədikdə ***saderat*** adı ilə kəndlilərdən əlavə vergi alırdı. Şah ordusunun keçdiyi bütün yerlərdə yolüstü kəndlərin əhalisi onu ərzaqla təmin etməli idi (***sürsat*** vergisi). Ordu, əsgərlər bundan sui-istifadə edir, yollara yaxın yaşayan kəndliləri soyurdular. Güney Azərbaycanda olmuş müəlliflər bu səbəbdən tərk edilmiş bir çox kəndlərə rast gəldiklərini yazırlar.

Kəndli təsərrüfatı natural səciyyə daşıyırdı. Kəndli ailələrinin çoxu özlərinə lazım olan zəruri əşyaları, geyim, ayaqqabı və sairəni özləri istehsal edirdi. Qadınlar kəndlərdə özləri üçün sap və yun əyirir, parça, xalça, palaz, corab toxuyurdular. Əyalətin bəzi bölgələrində, ipəkçilik, pambıqçılıq, bağçılıq, heyvandarlıq yayılmış yerlərdə kəndlilər az-çox bazarla da bağlı idilər. Onlar qadının evdə toxuduğu kobud parçanı, xalını başqa sənətkarlıq məhsullarını şəhərdə sataraq, öz ailəsi üçün zəruri şeyləri alırdılar.

Kəndli ailələrinin çoxunun yaşayışı və dolanışığı ağır idi. Onların çoxu pəncərəsiz palçıq evlərdə yaşayırdı. Azar-bezar kəndli evinin qapısından çəkilmirdi. Keçən əsrin 30-cu illərində Türkiyədən keçmiş vəba xəstəliyi Güney Azərbaycan əyalətində yayılaraq çoxlu insan ölümünə səbəb olmuşdu.

**ŞƏHƏRLƏRDƏ İCTİMAİ MÜNASİBƏTLƏR.** Şəhərlərin imtiyazlı zümrəsi irsən yüksək vəzifə və mənsəb adamları olan əsilzadələrdən, əyan və əşrəflərdən ibarət idi. Bunların sırasında olan iri torpaq sahiblərinin çoxu da şəhərlərdə yaşayırdı. Mahal və bölüklərin hakimləri, başqa dövlət vəzifəsi daşıyanlar öz torpaq mülklərində kəndlilərdən renta yığmaqla yanaşı şəhərdə dövlət vergiləri yolu ilə sənətkarların və tacirlərin də

hesabına varlanırdılar. Qıtlıq, aclıq illərində ərzaq möhtəkirliyi yolu ilə də onlar külli qazanc əldə etməkdən çəkinmirdilər.

Sənətkar və tacirlərin vəziyyəti şəhərdə ilk əvvəl bazarla bağlı idi. Bazarlar həm dəmirçi, misgər, dülgər, dulusçu, dabbaq, dərzi, papaqçı, başmaqçı, çörəkçi, qənd bişirən və başqa emalatxanaların yerləşdiyi, həm də tacirlərin birbaşa alış-veriş etdiyi yer idi. Ölkədə ,baş verən bütün yeniliklər bu və ya başqa ölçüdə öz əks-sədasını burada tapırdı. Şəhərlərdə ictimai-siyasi hadisələr, çıxışlar bir qayda olaraq bazarlardan başlayırdı. Bazarın bağlanması az qala siyasi hadisəyə çevrilirdi.

Şəhərlərdə yığılan dövlət vergilərinin ağırlığı tacirlər ilə sənətkarların üzərinə düşürdü. Əsrin 60-cı illərinin əvvəllərində Təbrizin tacir və sənətkarları ildə dövlətə 21000 tümən vergi ödəyirdilər.

Ötən yüzillərdə olduğu kimi, sənətkarlar sexlərdə birləşirdilər. Tacirlərin də öz birliyi var idi. Şəhərin ən varlı və nüfuzlu taciri bu birliyin başında durur, ***tacirbaşı*** (və ya ***məlikütTüccar***) adı daşıyırdı. Belə tacir başçılarının varı bir neçə milyon tümənə çatırdı.

Sənətkar və tacirlər üzərinə qoyulan vergilər müvafiq sex və birliklər vasitəsilə bölünürdü.

Şəhər tacirləri üç yerə bölünürdü:

5000-20000 tümən (15000-60000 manat) sərmayəsi olan böyük tacirlər. Onlara **istanbulçu** deyirdilər, çünki xaricdən, başlıca olaraq ***İstanbuldan***, böyük taylarla Avropa malları gətirirdilər.

500-5000 tümən (1500-15000 manat) sərmayəsi olan orta tacirlər ***binəkdar*** adlanırdılar. Bunlar ortaqçı kimi davranaraq, Təbrizdəki xarici ticarət şirkətlərindən kiçik hissələrlə aldıqları malı kiçik tacirlərə satırdılar.

***Bəzzaz*** adlanan xırda tacirlər həmin malları birbaşa piştaxtaya çıxarıb alıcılara satırdılar.

Bütün şəhərlərdə bazarlar ***daruqənin*** (***darğanın***) idarəsi altında idi. Daruqə öz köməkçiləri vasitəsilə dövlət vergilərinin sənətkar və tacirlərdən yığılmasına, artıq vergilərin qoyulmasına, malların təyin olunmuş qiymətə satılmasına, çəki daşlarının düzgün olmasına nəzarət edirdi. Daruqələr vergilərin artıq yığılması, cərimələr qoyulması kimi yollarla böyük qazanc əldə edirdilər. 1812-1813-cü illərdə ölkədə olmuş fransız zabiti ***Druvil*** Urmiyada daruqə vəzifəsini tutmaq üçün bir kişinin 10 min tümən rüşvət verməK istəməsinin şahidi olduğunu yazırdı.

**İNZİBATİ-SİYASİ QURULUŞ.** Gülüstan müqaviləsindən sonra şah hökuməti ***Maku*** (güclü olan bu xanlıq yalnız 1924-cü ildə ləğv edilmişdir), ***Urmiya, Nəmin*** və ***Gərkər*** xanlarının hakimiyyətini tanıdı; ayrı-ayrı xanlıqların hakimi kimi təsdiq edib onların da müstəqilliyini saxlamalı oldu. İran dövlətinin siyasi tabeliyində olan bu yarımmüstəqil xanlıqlar uzun illər



öz daxili sərbəstliklərini qoruya bildilər. Dövlət bu xanlıqların daxili işlərinə qarışmır, yalnız onlardan vergi və qoşun yığırdı.

İran ordusu üçün əsgər toplanmasında Güney Azərbaycan çox böyük yer tuturdu.*

Güney Azərbaycandakı başqa xanlıqlar ləğv edildi. Keçmiş xanlıqların yerinə ayrı-ayrı vilayətlərə hakimlər qoyuldu. Əyalət valisi, vilayət hakimi vəzifələrinə burada yerli xanlardan deyil, Tehranın öz namizədləri göndərilirdi. Buna görə yerli xanlar Qacarlardan narazı idilər.

***Sərab xanlığı*** Şəqaqi elinin başçısı ***Sadıq*** xanı ***Fətəli*** şah (1796-1834) Tehranda öldürrtdü. Onun oğlu ***Cahangir*** xan elin başçısı keçsə də, Sarab xanlığının hakimiyyətindən məhrum edildi, çünki xanlıq özü də ləğv edilmişdi. Cahangir xan Qacarlara barışmaz düşmən kəsilmişdi.

İstibdad idarəçiliyini hakim olduğu İranda Fətəli şah bütün sərəncamları baş vəzir və ya baş nazir (sədre-ə'zəm) vasitəsilə həyata keçirirdi. 1823-1824-cü illərdə formal şəkildə olsa da, ilk dəfə olaraq xarici işlər nazirliyi, bir az sonra daha üç nazirlik yarandı. 1858-ci ildə Nəsrəddin şah ölkənin bütün işlərini idarə etmək üçün altı nazirlikdən ibarət nazirlər heyəti yaratdı. Daxili, xarici, maliyyə, ədliyyə və s. nazirliklərdən ibarət olan bu heyət birbaşa şahın özünə tabe idi. Bu heyət sonra nazirlər şurası ilə əvəz edildi. Bu tədbirlərə baxmayaraq, dövlətin bütün işlərini yenə də şahın adından sədre-ə'zəm idarə edirdi.

Fətəli şahdan başlayaraq, Qacar şahlarının siyasətində Güney Azərbaycan xüsusi yer tuturdu. Fətəli şah zamanında Güney Azərbaycan «Vəliəhdin oturduğu yer» (Vəliəhdneşin), Təbriz isə «Səltənət evi» (Darüssəltənə) adlanırdı. Çünki Qacarların rəsmi vəliəhdləri Təbrizdə otururdular. Vəliəhdin İran dövlətinin canişini kimi burada oturması Azərbaycanın İranda iqtisadi və xüsusilə siyasi çəkisindən irəli gəlirdi. Nəzərə almaq gərəkdir ki, vəliəhd Abbas Mirzə İran ordularının baş komandanı idi. Qacar şahları çağında Təbriz dövlətin xarici siyasətində mühüm rol oynayırdı. Vəliəhdin burada oturması ilə bağlı Təbriz, bir növ, ikinci paytaxt sayılırdı. Buna görə xarici diplomatik elçiliklər ilk illər Təbrizdə yerləşdirilirdi. 1814-cü il İngiltərə-İran müqaviləsi üzrə yaradılmış daimi ingilis

* «Tarixi-Safi» əsərinin müəllifi 1828-ci ildə Abbas Mirzənin «türk əsgəri, atlı və topdan ibarət ***altmış minlik*** bir qoşunla» Rusiyaya qarşı yeni savaş açdığını yazır (Mirzə Yusif Qarabağl. Tarixi-Safi-Qarabağnamələr, II kitab. Bakı, 1991, s. 68). Başqa bir qaynaqda daha aydın yazıya rast gəlirik: «Aderbican, İran dövlətinin qalan bütün əyalətləri toplaya bilən sayda qoşun verir» (Подробное описание Персии..., т. I. M., 1829, s. 38). İran ordusunun yarısının Azərbaycan əyalətindən yığıldığını, türklərin «doğuluşdan əsgər olduqlarını» başqa qaynaqlar da yazıya almışdır. (Bax: *И.Березин*. Путешествие по Дагестану и Закавказью, Казан, 1850, с. 90; Фридрих Ратцель. Народоведение, СПб, 1902 с. 566, 615) – *Red.*

elçiliyi Təbrizdə açılmışdı. ***Türkmənçay*** müqaviləsi üzrə İranla Rusiya arasında diplomatik münasibətlər bərpa edildikdən sonra Rusiya səlahiyyətli elçisinin də ilk zaman Təbrizdə oturması nəzərdə tutulurdu. Bununla yanaşı, hər iki dövlətin razılığı üzrə İranda Rusiyanın üç konsulluğu açılırdı: bunlardan baş konsulluq yenə Təbrizdə, qalan ikisi ***Gilanda*** (*Rəşt şəhərində*) və ***Astrabadda*** işə başladı. Türkiyə baş konsulluğu da Təbriz şəhərində yerləşirdi.

**ƏYALƏTDƏ VƏ YERLƏRDƏ İDARƏÇİLİK.** Başda vəliəhd olmaqla əyalətdə inzibati idarə işinə göndərilmiş şahzadələrin hər biri öz ətrafına böyük bir müftəxorlar dəstəsi toplamışdı. Əyalətin idarə olunmasına başçılıq vəliəhdin ixtiyarında idi. Əslində isə bu işi şahzadələr içərisindən təyin olunan vali (qaimməqam) aparırdı. Valinin böyük bir idarə aparatı var idi. Buraya Təbriz şəhərinin bəylərbəyisi, əyalətdə yerləşən bütün nizami qoşunların başçısı vəzire-nizam (və ya əmire-nizam), vergilərin yığılması və əyalətin maliyyə işlərinə başçılıq edən mustofi və başqaları daxil idi. 1858-ci ildə vali şahzadə ***Rüknəddövlə*** idarə işlərini bacarıqsız apardığına görə vəzire-nizam əyalətin idarə olunmasını öz əlinə ala bilmişdi.

Əyalətdə vəzifələrə namizədləri şəxsən şah özü seçir, bu barədə ayrıca fərman verirdi. 1837-ci ildə ***Məhəmməd şah*** Təbriz bəylərbəyisi vəzifəsinə ***Əhməd*** xanı (atası Məhəmməd xan öldükdən sonra), Xoy mahalına ***Xudadad*** xanı, Qaradağa ***Əmiraslan xan Dunbulini***, Ərdəbilə Zəncanlı ***Hüseynqulu*** xanı hakim qoymuşdu.

Əyalətin mərkəzi Təbrizə, vilayət və mahallara göndərilən şahzadələr öz vəzifələrinə gəlir mənbəyi kimi baxır, xəzinəni də, əhalini də soyurdular.* Qacarlar dövrünü araşdırmış İran tarixçisi ***Əliəsgər Şəmim*** bu cəhətə toxunaraq yazırdı: «Qacar şahzadələri öz ad, məqam və malik olduqları ixtiyardan istifadə edərək şahın özünün istibdadından daha şiddətli və daha qəddar bir istibdadla xalqı incidirdilər... Şahzadələrdən hər biri məqam və rütbəsindən asılı olaraq öz ətrafında vəzir, mustofi, məmurlar,

---

* 1842-1848-ci illərdə Azərbaycan vilayətində Abbas Mirzənin dördüncü oğlu *Bəhmən Mirzə* hakim qoyulmuşdu. Bu illərdə vilayətdən toplanan gəlirin hesabında böyük kəsir üzə çıxarıldı. Həbs olunmaqdan qurtulmaq üçün Bəhmən Mirzə Rusiya elçiliyi vasitəsilə Tiflisə qaçdı. Sonra Şuşa şəhərində ildə 9600 manatlıq hökumət aylığı ilə yaşamış, «Şükürnameyi-şahənşahi» adlı tarixi əsər yazmışdır.

• Bəhmən Mirzənin həbs olunmasına əmr verən baş vəzir *Hacı Mirzə Ağası* 14 il bu yüksək vəzifədə oturmuşdu (o, İrəvanlı idi; Eçmiədzin katalikosunun katibi, Abbas Mirzənin oğlu Məhəmməd Mirzənin müəllimi, sonuncunun sərdarlıq illərində isə baş vəziri olmuşdu). Vəzifəsindən böyük qazanc götürmüşdü. İran tarixçisi *Rzaqulu Hidayətin* yazdığına görə, onun 1400-dən çox kənd və mülklərinin gəliri 1 milyon tümənə çatırdı. – *Red.*



fərraşlar və başqalarından ibarət bir idarə sistemi düzəldirdi. Bunların isə xərci dövlət xəzinəsindən verilirdi. Şahzadələr bu sahədə bir-birinə rəqabət etdiyindən bunların sayı gündən-günə çoxalır və deməli, dövlətin xərci artırdı».

İngilis müəllifi ***Vatson*** isə, «Azərbaycan əyaləti ***Məhəmməd Mirzənin*** qardaşlarının zülm və işgəncələrindən çoxlu zərər çəkmişdir» yazırdı. Məhəmməd Mirzə şah olduqdan sonra onun bir müddət Azərbaycan əyalətində vali olmuş qardaşı ***Qəhrəman Mirzəni*** idarə işləri yox, vergilərin çox yığılması maraqlandırırdı.

Başqa məmurlar şahzadələrdən geri qalmırdılar. 1858-ci ildə Təbrizdəki rus baş konsulunun hesabatında göstərilirdi ki, əyalətin idarə işlərinə hakimlik edən vəzire-nizam ***Mirzə Fəzlullah*** (sədre-əzəmin qardaşı) vali şahzadə ***Rüknəddövlənin*** zəifliyindən istifadə edərək «Azərbaycana ona bağışlanmış gəlir mənbəyi kimi baxırdı.... Əyaləti soymaqla o, Azərbaycanı çox fəlakətli vəziyyətə gətirib çıxarmışdır».

Qacar şahları şahzadələrə yüksək vəzifələrlə yanaşı tiyul olaraq əmlak və əkin yerləri də bağışlayırdılar. Qacar evinin üzvləri siyasi hakimiyyətlə yanaşı, aldıqları tiyullar hesabına böyük torpaq sahibləri sırasına keçirdilər. Qacarlar əslən Azərbaycan soylu olmalarına, türk boylarının əsgəri yardımı ilə hakimiyyət sürmələrinə baxmayaraq, İranda farsların hakim milli topluma çevrilməsi üçün çox iş görürdülər.

Bir sıra yerli xanlar siyasi hakimiyyətdən kənar edilsələr də, onların xalq üzərində ağalığı toxunulmaz qalırdı. Siyasi hakimiyyəti əllərində saxlamaqda olan (***Makuda***, Urmiyada və daha iki xanlıqda) xanların isə xalq üzərində ağalığı sonsuz idi. Bu xanlıqlarda bütün inzibati-maliyyə işləri, bütün hərbi-siyasi hakimiyyət yerli xanların əlində idi.

Dövlət məmurlarının qanunsuz rəftarı xalqın vəziyyətini daha da ağırlaşdırırdı. Təbrizdəki Rusiya baş konsulunun 1845-ci ildə şəhərin ticarəti haqqında verdiyi məlumatda əhalinin qanunsuzluqdan üzülməsi bildirilirdi. Kəndlilərin bir qismi şəhərlərə qaçmağa məcbur olub, burada şəhər yoxsulları sırasına qoşulur, bir qismi isə qonşu vilayətlərə iş ardınca (***Xalxaldan*** qonşu Gilanın düyü zəmilərinə və başqa yerlərə) gedirdilər. Bəzən çox uzaqlara, hətta Dərbəndə qızıl boya yığımına axışıb gedirdilər.

Güney Azərbaycanın sosial-iqtisadi və siyasi vəziyyəti xalqın yaşayışını dözülməz etmişdi. Sənətkarlar, xırda tacirlər, kəndlilər içərisində güclənməkdə olan narazılıq artıq ayrı-ayrı çıxışlara gətirib çıxarırdı.

30-cu illərin sonu, 40-cı illərin başlanğıcında Təbrizdə, tez yatırılsa da, bir neçə xalq üsyanları baş verdi. 1847-ci ildə Zəncanda sənətkarlar, xırda tacirlər və şəhər yoxsulları hakimə qarşı çıxmış, onu şəhərdən qovmuşdular. 1848-ci ildə Təbrizdə xalq yenidən ayağa qalxmışdı.

1850-ci ildə Zəncanda babilərin üsyanı qalxdı. Babi üsyanları İranda yatırıldıqdan sonra da xalq çıxışlarının arası kəsilmədi. 1858-ci ildə əyalət baş məmurlarının soyğunçuluğu adı çəkilən vəzire-nizam ***Mirzə Fəzlulla-ha*** qarşı Təbrizdə açıq üsyan doğurdu. Yalnız vəzire-nizam Tehrana çağırıldıqdan sonra xalq sakitlik tapdı.

1864-cü ildə Təbrizdə xarici şirkətlərin kəskin rəqabəti ilə üzləşən tacirlərin kütləvi etirazı baş verdi. Təbriz bazarında malların satış qiymətinin aşağı salınması ilə bağlı olan bu çıxış dörd ay çəkdi. Yerli tacirlər dörd ay bütün xarici şirkətlər ilə hər hansı alış-veriş əlaqələrini kəsdilər. Yalnız qiymətlər «öz» səviyyəsinə qaldırıldıqdan sonra tacirlər dükanlarını açdılar.

XIX yüzilin ortalarında baş vermiş bu çıxışlar öz tələblərinə görə çox məhdud, heç bir siyasi-məfkurəvi prinsipə dayanmayan kortəbii çıxışlar idi. Bunların içində yalnız 1848-1852-ci illərdə genişlənmiş *babi üsyanları* öz ictimai-siyasi məzmunu, kütləviliyi ilə seçilirdi.

## 4. AZƏRBAYCANDA BABİLƏR HƏRƏKATI

**BABİLİK GÖRÜŞLƏRİ.** Babilik təriqətinin banisi ***Seyid Əli Məhəmməd*** olmuşdur. 1820-ci ildə ***Şirazda*** pambıq parça alıb-satan xırda tacir ailəsində anadan olmuş, bir müddət tacirlik etmiş Əli Məhəmməd «şeyxi» təriqətinə mənsub idi. Həmin təriqətin son başçısı ***Seyid Kazım*** öldükdən sonra Seyid Əli Məhəmməd özünü şeyxi təriqətinin başçısı elan etmişdi. O, özünü sonuncu imam Mehdi ilə xalq arasında vasitəçi elan etmiş, 1844-cü ildən ***Bab*** (ərəbcə *qapı* deməkdir) ləqəbini götürmüşdü. Onun irəli sürdüyü fikirlər yeni bir təriqətin əsasını yaratmış oldu.

Şah hökuməti tərəfindən təqib olunmasına, işgəncələrə, bir şəhərdən başqasına qaçmağa məcbur olmasına, ***İsfahandan Makuya***, oradan isə Urmiya yaxınlığındakı ***Çehrik*** qalasına sürgün edilməsinə, sonra isə Təbrizə gətirilərək din xadimlərinin mühakiməsinə verilməsinə baxmayaraq, Bab öz əqidəsindən dönmək bilmirdi. Zülmdən, hakimlərin soyğunçuluğundan cana doymuş kütlələrin bir qismi Babın çağırışlarını özləri üçün qurtuluş yolu bilib ona qoşulurdu.

1849-cu ildə ***Mazandaranda*** babilərin üsyanı yatırıldıqdan sonra bütün İranda Babın tərəfdarlarının sayı artdı. İranın müxtəlif yerlərindən, hətta Türkiyə və ***Hindistandan*** Çehrik qalasına Babın görüşünə axışıb gələnlər var idi.

Babın ideyaları onun «Bəyan» adlı əsərində ifadə olunmuşdur. Onun fikrincə, insan cəmiyyəti bir-birini əvəz edən dövrlər üzrə inkişaf edir, hər yeni dövrün öz qanun-qaydası var. Hər yeni dövrün qanun-qaydasını öz peyğəmbəri gətirir. Bab deyirdi ki, indi üləma (yüksək rütbəli din xadimləri) və hakimlərin zülmü üzündən İran bədbəxtlik ölkəsinə çevrildiyi üçün yeni



peyğəmbər imam Mehdinin zühur etməsi gərəkdir. Bab öncə özünün İmam Mehdinin fikirlərini xalqa çatdıran bir vasitəçi – Bab, sonra isə yeni peyğəmbər olduğunu bildirdi.

Bab yeni yaradılacaq cəmiyyətdə insanlar arasında bərabərlik, ədalət, şəxsiyyət toxunulmazlığı yaratmaq istədiyini bildirirdi. Onun fikrincə bu əqidəni qəbul etməyənlər ölkədən çıxarılmalı, onların əmlakı isə babilər arasında bölüşdürülməli idi. Babın görüşlərində ticarətə və tacirlərə ayrıca yer verilir, onların mənafeyi dəstəklənirdi. Bab öz fikirlərində tacirlərin, sənətkar və kəndlilərin istəklərini yaşadırdı. İctimai-siyasi baxımdan babilik böyük torpaq sahiblərinə, ruhani başçılarına, xarici kapitala qarşı çevrilmişdi. Ancaq Babın inqilabi tələbləri «yeni din» donuna geydirilmiş idi. Hərəkatın belə bir özümlü cəhəti İranın bütün keçmiş tarixi ilə bağlı idi.

**HƏRƏKATIN GENİŞLƏNMƏSİ. ZƏNCAN ÜSYANI.** Babı öldürməklə bütün İranda hərəkatın qarşısını almağa ümid edən şah hökuməti 1850-ci il iyulun ilk günlərində onu Təbrizdə edam etdirdi. Lakin Babın öldürülməsi ilə hərəkat yatmadı. Hökumətin gözlədiyinin əksinə olaraq, hərəkat daha da alovlandı. Babın şagirdləri və tərəfdarları «Bəyan»ın təbliğini böyük əzmlə yaymağa başladılar. Onlar Mazandaranda, Xorasanda yığıncaqlar keçirərək çıxışlar hazırladılar.

GüneyAzərbaycanda Babın çoxlu ardıcılı (Zəncanda Molla Məhəmmədəli, Təbrizdə ərdəbilli ***Molla Yusif*** və b.) var idi. Onlar Azərbaycan kəndlərini gəzərək, xalqı feodallar ilə üləmaların zülmünə və qanunsuz hərəkətlərinə qarşı üsyana çağırırdılar. Bəzi kəndlərin (Təbriz yaxınlığındakı ***Milan*** kəndinin və s.) bütün əhalisi babiliyi qəbul edirdi. Bab hələ Makuya sürgün edildiyi zaman Güney Azərbaycanın şəhər və kəndlərində böyük rəğbətlə qarşılanmışdı.

Babın ardıcılları arasında qadınlar da var idi. Bab təliminin qadınlara kişilərlə bərabər hüquq verilməsini ortaya atması qadınlar arasında babilərə böyük hörmət qazandırmışdı. İranda bir çox ailələrdə qadınlar babilik (sonra isə bəhailik) təriqətini qəbul etmişdilər. Həmin qadınlardan biri Qəzvin müctəhidinin qızı idi. O, öz zəkası, savadı, şairlik və natiqliyi ilə tanınırdı. Adı ***Zərrintac*** olan bu azərbaycanlı qadını xalq ***Tahirə*** (təmizlərin təmizi) adlandırırdı. Zərrintacın məntiqi, odlu nitqləri, ağıllı şeirləri Qəzvində Babın tərəfdarlarını çox artırmışdı. O, ruhanilərin təqibi üzündən Qəzvini tərk etməli olsa da, öz təbliğatını İranın başqa yerlərində davam etdirirdi.

Güney Azərbaycanda babilərin ən böyük üsyanı Zəncanda oldu. 1850-ci ildə bu şəhərdə babilərin sayı 15 minə çatırdı. Yaxın kəndlərin əhalisinin də bir çoxu onlara qoşulmuşdu. 1850-ci ilin mayında babilər şəhər qalasını tutdular. Şəhər iki hissəyə bölündü, onun yandan çoxu babilə-

rin əlinə keçdi. Burada yaşayan zadəganlar və varlılar öz evlərini tərk edərək o biri hissəyə qaçdılar. Vuruşmalarda babilərin ailə üzvləri də iştirak edirdi. Qadınlar istehkamlar düzəldir, kişilərlə yanaşı vuruşurdular. Çoxu kəndli və sənətkarlardan ibarət olan babilərin içərisində tacirlər, aşağı rütbəli ruhanilər də az deildi. Üsyana **Molla Məhəmmədəli** başçılıq edirdi. Silahlı dəstələrin başında *Din Məhəmməd*, tacirlərdən **Hacı Abdulla** və **Məşədi Süleyman**, çörəkçi **Hacı Abdulla**, dəmirçi **Kazım** dururdular. Sənətkarlar qılınc, nizə, tüfəng, hətta iki top hazırlamışdılar. Yaxın kəndlər üsyançılara gizlicə ərzaq daşıyıb gətirirdi.

Şahın üsyanı yatırmaq üçün göndərdiyi qoşunlar iyunun ilk günlərində Zəncanı mühasirəyə aldılar. Babilər onların ilk hücumunu dəf edə bildilər. Bir ay sonra Təbrizdə Babın edam edilməsi xəbəri də Zəncan üsyançılarını sarsıda bilmədi. İyulun sonunda Tehran hökuməti üsyançılar üzərinə yeni qoşun göndərdi.

Ağır itkilərə, istehkamların bir hissəsinin şah qoşunları əlinə keçməsinə baxmayaraq, üsyançılar böyük qətiyyətlə vuruşurdular. On üç il sonra Zəncanda olmuş rus məmuru **Oqranoviç** hadisəni gözləri ilə görənlərin dediyinə əsasən babilərin «şir kimi vuruşduqlarını», igidliklə öldüklərini, qadın və uşaqların cəsurluqda kişilərdən geri qalmadığını yazırdı.

Üsyançıların qüvvəsi getdikcə tükənmədə idi. Dekabr ayında 30 minlik şah qoşunu yenidən hücuma keçdi. Hər tərəfdən əhatə olunmuş babilər mühasirəni yarıb aradan çıxmağa çalışdılar. Onların çoxu həlak oldu. Məhəmmədəli isə ağır yaralandı və üç gündən sonra öldü. Onu öz həyətində dəfn etdilər. Babilərdən yalnız 100 nəfər kişi sağ qalmışdı. Daha beş gün vuruşduqdan sonra onlara şəhəri tərk etməyə imkan vermək şərti ilə mübarizəni dayandırmağa razı olduqlarını bildirdilər. Şah ordu başçıları Qur'ana and içib razılıq verdilər. Sonra isə silahı yerə qoyan üsyançıların hamısını qırdılar. Zəncan üsyanı dekabr ayının sonunla yatırıldı.

Ancaq onların işi ölmədi. 1896-cı ildə Nəsrəddin şahın öldürülməsi ərəfəsində bütün İranda babilərin sayı iki milyondan çox idi. Onların içərisində azadlıq işinin yeni döyüşçüləri, 1905-1911-ci illər məşrutə hərəkatının fədailəri yetişdi.



*ON DOQQUZUNCU BÖLÜM*

# İQTİSADİ İRƏLİLƏYİŞ. KAPİTALİST İSTEHSALININ YARANMASI VƏ İNKİŞAFI

## 1. İQTİSADİ MƏNİMSƏMƏ MƏSƏLƏSİNƏ İKİ BAXIŞ

**1821-ci İL TİCARƏT QANUNU.** Qafqaz arxasındakı ölkələrin ələ keçirilməsi sona yaxınlaşdıqca, Rusiyanın siyasi və ictimai dairələri imperiyaya qatılan yeni torpaqların istismar yolları üzərində düşünməyə başladılar. Çar hökuməti bu barədə hələ düşünülmüş bir siyasət hazırlaya bilməmişdi. Hələlik yalnız bəsit bir baxış geniş yayılmışdı: Transqafqaz ölkələri ənənəvi Avropa-Asiya ticarətində fəal vasitəçi rolu oynamalı, hər iki tərəfdən satışa çıxanlan malların mühüm saxlanılma mərkəzi olmalı idi. Bununla çarlıq Rusiyasının Yaxın və Orta Şərqdə iqtisadi mövqeyinin gücləndirilməsi nəzərdə tutulurdu.

Rusiyanın yuxarı dairələrində yayılmış bu düşüncə Transqafqazda ***«imtiyazlı gömrük»*** adlandırılan 1821-ci il ticarət qanununun verilməsinə gətirib çıxardı. Bu qanuna görə, 1813-cü il Rusiya-İran (Gülüstan) müqaviləsinin bu iki dövlətin ərazisindən Qafqaz arxası ölkələrinə gətirilən mallar üçün qoyulmuş beş faizli gömrük indi Qərbi Avropadan buraya satışa çıxanlan mallara da aid edildi. Çar hökumətinin xarici işlər naziri qraf ***K.V.Nesselrode*** yeni ticarət qanunun yalnız aşağıdakı məqsədi güddüyünü bildirirdi: «Gürcüstan, İmereti və Zaqafqaziya vilayətlərində alış-verişin canlandırılması və bununla da Qars ilə Ərzurum vasitəsilə aparılan Yuxarı Asiya ticarətinin bizim xeyrimizə çevrilib işləməsi».

Ancaq Rusiya və İran tacirləri ilə yanaşı Qərbi Avropa tacirlərinin alış-verişi üzərində son dərəcə imtiyazlı gömrük qoyulması, Güney Qafqaz ölkələrində onların bərabər hüquqla ticarət aparması istənilən nəticəni vermədi. «İmtiyazlı gömrük» qanununun həyata keçirildiyi ilkin altı il ərzində yerli Transqafqaz tacirlərinin Qərbi Avropa bazarları (başlıca olaraq Leypsiq yarmarkası) ilə ticarət əməliyyatları birə dörd dəfə artdı, Rusiyanın isə Yaxın və Orta Şərqlə əməliyyat aparan ticarət mərkəzi olan Novqorod yarmarkasının mal dövriyyəsi müvafiq ölçüdə azalıb aşağı düşdü. Buna görə Rusiyanın ticarət və yaranmaqda olan manufaktura-fabrik burjuaziyası arasında 1821-ci il ticarət qanunu kəskin narazılıq doğurdu.

**«RUSİYA TİCARƏT ŞİRKƏTİNİN» LAYİHƏSİ.** Belə bir şəraitdə Rusiyanın qabaqcıl adamları arasında hökumətin mövqeyindən köklü şəkildə seçilən fikir yaranmağa başladı. Hələ 1816-cı ildə tanınmış publisist və ictimai xadim admiral ***N.S.Mordvinov*** hökumətin Transqafqaz siyasətini, yerli əhalini Rusiyanın təsərrüfat həyatına qovuşdurmaq şərtilə bu diyarın iqtisadi mənimsənilməsi işinə yönəltməyi təklif etdi. Onun çar I Aleksandrın adına göndərdiyi yazısı «Qafqazda yaşayanları silah gücünə tabe etməkdənsə, onları yavaş-yavaş Rusiyaya bağlamağın münasib yolları haqqında mülahizə» adlanırdı.

1828-ci ilin sentyabrında İrana böyük elçi sifətilə göndərilmək ərəfəsində olan rus yazıçısı ***A.S.Qriboyedov*** Tiflisin mülki qubernatoru ***R.D.Zavileyski*** ilə birlikdə «Zaqafqaziyada Rusiya ticarət şirkəti»nin layihəsini hazırlayıb Qafqaz baş komandanı İ.F.Paskeviçə təqdim etdilər. Müəlliflərin fikrincə yüz milyon manatlıq əsas kapital üzərində yaradılacaq bu şirkət çox böyük bir müəssisə olmalı idi. Layihə üzrə şirkətə inzibati və diplomatik muxtariyyət verilməsi nəzərdə tutulurdu. Onun fəaliyyətində ticari işlər ilə yanaşı torpaq, kənd təsərrüfatı və sənaye istehsalı məsələləri geniş yer tutmalı idi. Müəlliflərin fikrincə, 1821-ci il Transqafqaz «imtiyazlı gömrük» qanunu burada ticarətin canlanmasına kömək etmiş, bununla bağlı yerli tacirlər varlanmışdı. Ancaq buna baxmayaraq, onların fikrincə, gömrük qanunu mənfi rol oynamışdı, çünki bu qanun Transqafqazın sənayesini canlandıra biləcək bir amilə çevrilməmiş, «bir fabrik belə yaranmamış, nə əkinçilik, nə bağçılıq çiçəklənə bilmişdi».

Layihənin başlıca ideyası Zaqafqaziya ölkələrində ***yerli emaledici*** sənaye müəssisələrinin açılması idi. Onun müəllifləri yazırdılar: «O biri yandan Tiflis bazarı (Avropadan) gətirilmə mallar ilə göz qamaşdırır, ancaq buranı tamaşa edənin gözünə yerli məmulat və məhsul dəyməyəcəkdir ki, onları (gətirmə mallar ilə – *Red.*) dəyişmək mümkün olsun». Layihənin baş ideyası Transqafqazın özündə yerli xammal istehsalına dayanan öz emaledici sənaye sahələrinin yaradılıb inkişaf etdirilməsi ilə bağlı idi. Yəni «Rusiya-Zaqafqaziya ticarət şirkəti» əslində ticarətdən çox sənaye müəssisəsi kimi çıxış etməli, buradakı xammal ilə işləyən yerli emaledici fabrik sənayesinin: şəkər, mahud, gön-dəri, şüşə və başqa fabriklərin inkişaf mərkəzi olmalı idi.

Bununla yanaşı şirkət kənd təsərrüfatı istehsalını: üzümçülüyü, şərabçılığı, baramaçılığı, tütünçülüyü də geniş inkişaf etdirməli idi. Layihədə ipək baraması istehsalına ayrıca yer verilirdi. Bu istehsalın genişləndirilməsinin çox böyük fayda verəcəyi qeyd.olunur, barama açımı işinin pis təşkil olunması üzündən ipəyin qiymətinin aşağı düşməsi göstərilirdi. Moskvada Şamaxı ipəyinin bir pudu 1825-ci ildə 300-370 manata, İtaliyadan gətirilən ipəyin pudu isə 1000-1500 manata, yəni 3-4 dəfə baha satılırdı. Bununla



bağlı layihədə yazılmışdı: «Bu yaxınlarda Fransadan Tiflisə gəlmiş bir ipəksarıma ustası özünün əyirib sarıdığı ipək nümunələri ilə göstərdi ki, bu ipək İtaliya ipəyindən qətiyyən geri qalmır və ümid etmək olar ki, bir vaxt Şamaxı ipəyi İtaliya ipəyindən üstün tutulacaq və bununla yanaşı baramanın qiyməti təbii olaraq artacaqdır».

Bütün bu işlərin yerinə yetirilməsi üçün çar hökumətinə təklif olunurdu ki, Transqafqazda 120 min desyatin yararlı torpağı çox kiçik, rəmzi bir qiymətə şirkətin ixtiyarına versin. Bu torpaqlarda yaradılacaq üzüm, tut, tütün, pambıq plantasiyalarında təhkimçilik boyunduruğundan azad edilmiş rus kəndliləri (onlar əlli il müddətində, yəni əslində ömürlük murzdla şirkətə işləməli idilər) ilə yanaşı İran və Türkiyədən Transqafqaza köçürülən erməni kəndlilərinin işçi qüvvəsi kimi istismar olunması nəzərdə tutulurdu.

«Rusiya-Zaqafqaziya ticarət şirkəti»nə qonşu dövlətlərlə tam müstəqil alış-veriş aparmaq, sərbəst olaraq dənizlərə çıxmaq hüququ verilməsi nəzərdə tutulurdu. Bunu yerinə yetirmək üçün çar hökumətinə nə az, nə çox: yeni rus-türk savaşında Batum qalasını Osmanlı dövlətindən alıb şirkətin ixtiyarına vermək, şirkətin özünü müəyyən hərbi qüvvə ilə təmin etmək təklif olunurdu. Bununla şirkət, əslində «dövlət içində dövlətə» çevrilmiş olurdu.

Layihədə «Rusiya-Zaqafqaziya ticarət şirkəti»nin fəaliyyətə başlaması ilə bağlı imperiyanın dövlət xəzinəsinə çox böyük gəlir veriləcəyi vurğu ilə qeyd edilirdi. Göstərilirdi ki, hər il Rusiya xaricdən 119 milyon manatlıq məhsul alır. Bu məbləğin 45 milyon manatı xam ipəyə (baramaya), 35 milyonu pambıq parçasına, 15 milyonu üzüm çaxırına, 15 milyonu boya köklərinə xərclənirdi. Layihədə isə yalnız başlanğıcda hər il göstərilən məbləğin 1/4-nin, yəni «ən azı» 29 milyon manatlıq məhsulun şirkət tərəfindən Transqafqazda istehsal ediləcəyi bildirilirdi.

İdarəçilik baxımından şirkət imperiyanın ali hərbi-inzibati bürokratiyası ilə yerli mülkədarların və tacirlərin birləşib əməkdaşlıq etməsi ideyası üzərində düşünülürdü. Bununla bağlı onun başlıca səhmçiləri kimi adları çəkilən 25 nəfərin sırasında Qafqaz baş komandanı ***Paskeviçin***, Tiflis hərbi qubernatoru general ***Strekalovun***, general baron ***Fridrixsin***, polkovnik ***Kaşkarovun***, Tiflis mülki qubernatoru ***Zaveliyskinin***, gürcü knyazları ***Orbeliani, Eristavi*** və başqalarının adları çəkilirdi. Səhmçilərin çoxu kökcə gürcü zadəganları və erməni tacirləri idi. Rus tacirləri və fabrikantlarının səhmçi kimi şirkətin idarə olunmasında iştirakı nəzərdə tutulmurdu, onların satış malları Güney Qafqaz bazarlarında satılmaq üçün şirkətə təhvil verilməli idi. Bununla «Rusiya-Zaqafqaziya ticarət şirkəti» adlandırılan bu böyük iqtisadi müəssisə mərkəzi Rusiya ticarət-fabrik burjuaziyasının rəqabəti ilə qarşılaşmamış olurdu. Müsəlman zadəganlardan və tacirlərdən şirkətin işində bir kimsənin iştirakı nəzərdə tutulmurdu.

Beləliklə, layihə dövriyyə kapitalı kütləsinin, «istehsalçı kapitalistlərin» bilikləri, pul vəsaiti və əməyi üzərində yaranan bir müəssisə, istehsalın üç başlıca qütbünü özündə birləşdirən yeni, kapitalist tipli bir birlik olmalı idi. Layihədə yazılmışdı: ***«Buna görə də bütün təbii sərvətlərin əldə edilməsi istehsalının təkmilləşdirilməsi, həmçinin ən uzaq dövlətlərdə satılması ilə məşğul ola biləcək əkinçilik, manufaktur və ticarət şirkəti yaratmaq zəruridir»***. Belə bir şirkətin açılıb işə başlaması obyektiv olaraq həm mürtəce Nikolay hökmranlığının açıq-aşkar təhkimçi məzmunu, həm də Rusiya ticarət-sənaye burjuaziyasının mənafeyi ilə barışmaz qarşıdurmaya gəlməli idi. Qriboyedov və Zaveliyskinin «ayrı-ayrı dillərdən və etiqadlardan olan bir çox yerliləri» əməkdaşlığa çağırması açıqcasına ayrı-seçkilik ruhunda olsa da, imperiya yuxarı dairələrinin gözündən qaça bilməzdi. Müəlliflərin yazdığına görə: «İndiyə kimi onlar (qafqazlılar – *Red.*) rusları məğrur, əl çatmaz hesab edirdilər, çünki onları həmişə amiranə və zəhmli hakimlər kimi tanıyırdılar. Şəxsi fayda üçün dinc, xeyirxah münasibətlər, hər cür qarşılıqlı xidmət bir cəmiyyətin üzvləri arasında müəyyən bərabərlik yarada bilər. Yalnız bu yolla bizlə bizə tabe olan xalqlar arasında kəskin sədd qoyan xurafat aradan qaldırılar, bu da özlərinin, milliyyətindən asılı olmayaraq bütün təbəələrinə xeyirxahlıq göstərən bizim insanpərvər monarxların ali məqsədinə uyğundur». Burada «insanpərvər monarxların» ünvanına deyilmiş, saxta söz düzümü nəzərə alınmazsa, tabe olmuş Qafqaz xalqları ilə ruslar arasında iqtisadi-mənəvi yaxınlaşma zərurətinin önə çəkilməsi çar məmurlarını narahat etməyə bilməzdi. Çar hökuməti belə bir baxışla barışmaz mövqedə dururdu.

XIX əsrin baqlanğıcında Rusiya ictimai fikrinin başlıca qaynaqlarından biri olan layihə «yuxarılarda» düşməncəsinə qarşılandı. Qafqazın yeni baş hakimi baron ***Q.V.Rozen***, mürtəce rus hərbçilərindən olan general ***N.S.Jukovski*** layihəyə qarşı çıxdılar. Sonuncunun layihəyə qarşı irəli sürdüyü bir dəlil də aşağıdakı idi:«Bu layihə həyata keçirilərsə, burada (yəni Güney Qafqaz ölkələrində–*Red.*) Birləşmiş Amerika Ştatları yarana bilər».

**DÖVLƏT SÜMÜRGƏCLİK SİYASƏTİ.** İkinci baxış çar hökumətinin özünə məxsus idi. Bu zaman hökumət Güney Qafqaz ölkələri haqqında artıq dəqiqləşmiş bir iqtisadi siyasətdən çıxış etməyə başladı. Çarın maliyyə naziri qraf ***E.F.Kankrin*** bu siyasətin başlıca məramını açıq bildirərək Güney Qafqazı ilk dəfə «Rusiya ticarəti və sənayesi üçün olduqca faydalı bir müstəmləkə» adlandırdı. Onun fikrincə bu məmləkət «bir müstəmləkə kimi bizim fabriklərimiz üçün qaba məhsullar (barama, pambıq və s.) tədarük etməklə yanaşı əvəzində Rusiyadan manufaktur məmulatı almalıdır». Bununla çar hökuməti Transqafqazı iqtisadi müstəmləkəyə, Rusiya üçün qiymətli sənaye xammalı istehsal edib verən və onun fabrik sənayesinin istehlak bazarı olan bir müstəmləkəyə çevrilməsi siyasətinə keçmiş oldu.



Bu siyasət Azərbaycanda, bütünlüklə Transqafqazda iqtisadi irəliləyişin mahiyyət və yönümünü kəskinləşdirmiş oldu. Burada yalnız və başlıca olaraq xammal istehsalı və mədən sənayesi inkişaf etməyə başladı. Bununla yanaşı, zəngin xammaldan yerindəcə istifadə edən emaledici manufaktur və fabriklər yaranmadı. Təsadüfi deyildir ki, Kankrin 1830-cu ildə Transqafqaz ölkələrində fabrik sənayesinin yaranmasına qarşı çıxdı. Yalnız yerli xammalın ***emalı*** ilə məşğul olan əyirici və ipək sarıyıcı manufaktur-fabrik müəssisələri, pambıq təmizləyən müəssisələr və bəzi başqaları üçün istisna qoyuldu.

Rusiyanın bir sıra ictimai xadimləri hökumətin bu siyasətinin müdafiəsinə qalxdılar. ***P.Zubov, P.Vişeslavçev*** kimi müəlliflər, «Sın Oteçestva» jurnalında yazırdılar ki, «Allahın mərhəmətinə gəlmiş Zaqafqaziya diyarı, ***Rusiyanın bu müstəmləkəsi***, bir vaxt gələcək, vətənimiz üçün qızıl mədəninə çevriləcəkdir; «Qafqazarxası ölkələri Rusiyanın müstəmləkəsi olmaqla manufaktur yaratmamalıdır..., dünyanın bütün iqlimlərindəki məhsullar yetişən bu diyarı yalnız onun öz ***xam məhsulları*** varlandıra bilər».

20-ci illərin sonu və 30-cu illərin başlanğıcında Rusiyanın toxuculuq sənayesi yüksəliş çağı yaşamada idi. Bu, Güney Qafqazda rus hökmranlığının tam bərqərar olduğu bir çağ idi. Savaşların başa çatması rus burjuaziyasının fəallığını artırır, buranın ticari-iqtisadi baxımdan mənimsənilməsinə həvəsləndirirdi. Bir-birinin ardınca yeni şirkətlər layihəsi ortaya çıxırdı. Bunlardan 1829-cu ildə knyaz ***A.B.Qolitsının*** ipəkçilik səhmdar şirkəti haqda layihəsi diqqəti özünə çəkir. Burada deyilirdi ki, «bu qədər parlaqcasına» başa çatdırılan savaşlardan sonra yaradılmış sükunət burada (Güney Qafqaz ölkələrində – *Red.*) kommersiya müəssisələrinin inamla işləməsini və böyük kapital qoyub, qazanc götürülməsini» təmin edəcəkdir.

Bununla bağlı olaraq çar hökuməti Transqafqazda öz ticarət siyasətini də dəyişdirməyi qarşıya qoydu. Maliyyə nazirliyinin fikrincə, Avropa ölkələrindən Leypsiq yarmarkası vasitəsilə tranzit mal axını üçün qoyulmuş «imtiyazlı gömrük» Rusiyanın öz ticarət və fabrik sənayesinin mənafeyi ilə bir yerə artıq sığışdırıla bilməzdi. Hökuməti ticarət siyasətində bu yeni baxışa gətirən rus pambıq parça sənayesinin gələcəyi, bu sənayenin izafi məhsulunun yerləşdirilib satılması ilə bağlı qayğılar idi. Bu sənayenin buraxdığı məhsul Avropa bazarlarında asanlıqla əlverişli satış mövqeyi qazana bilmirdi. Bu vəziyyətlə bağlı Rusiyasının ticarət-manufaktura burjuaziyası Transqafqaz ölkələrinin bir qapalı bazara çevrilməsini, bütün Ön Asiyada rus alış-verişini genişləndirməyi tələb edirdilər. Belələrinin fikrincə, «bütün Asiya bazarları Rusiya və Avropa baxımından qiymətləndirilsə, coğrafi yaxınlıq və siyasi münasibətlər (Rusiyanın İran və Türkiyə ilə savaşlarda qələbəsi – *Red.*) rus manufaktur məmulatı üçün bəxş edilmiş bir üstünlük» verməli idi. Bütün bunlara görə 3 iyun 1831-ci ildə Trans-

qafqaz bazarları Avropa sənaye malları, ilk növbədə İngiltərə mahud sənayesinin məhsulu üçün qapalı elan edildi. Başqa sözlə, Avropa malları üçün bu bazarlarda çox yüksək gömrük qoyuldu. Bu yeni Transqafqaz ticarət qanunu «yasaqlı gömrük» adı aldı. Bu qanun Rusiya sənayesini, başlıca olaraq toxuculuq sənayesini beynəlxalq rəqabətdən qurtardı, yalnız ona xidmət edən və dünyanın inkişaf etmiş ölkələrinin sənayesi üçün artıq qapanmış olan istehlak bazarı ilə təmin etdi.

**İQTİSADİ SÜMÜRGƏCLİK SİYASƏTİ ÖZÜNƏ UYĞUN İDARƏÇİLİK TƏLƏB EDİRDİ.** Xanlıqlar ləğv edildikdən sonra da çarlıq Rusiyası onların dövlət sərhədlərinə toxunmamış, yalnız xanı öz komendantı ilə əvəz etmişdi. 20-ci illərdə yüksək dairələr burada «cərrah bıçağı» işlətmədən keçinməyi düşünürdülər. Bu fikri qraf ***Kankrin*** rəsmi şəkildə irəli atmışdı. Hələ 1827-ci ildə I Nikolayın adına verdiyi təqdimatda o, yazmışdı: «Qafqazarxası diyarını müstəmləkə adlandırdıqda nəzərdə tutulur ki, hökumət bu diyarı ümumdövlət quruluşuna qatmağın qayğısını çəkməsin, onu mənəvi baxımdan Rusiyanın və rus xalqının bir parçası etməyə çalışmasın, yalnız az-çox yaxşı idarə olunan bir Asiya əyaləti şəklində saxlasın». Xanlıqların yerində komendant idarəsi altında yaradılan əyalətlər bu siyasətə gerçək bir örnək oldu.

Ancaq bir neçə il ötdükdən sonra bu baxış köklü dəyişikliyə uğradı. Yuxarıda deyildiyi kimi, 30-cu illərdə Nikolay hökumətinin siyasəti Transqafqazı Rusiya sənayesinin iqtisadi müstəmləkəsinə çevirməyi qarşısına qoydu. Bu məram çarlığın sümürgəc siyasəti ilə sıx bağlı idi və özünə uyğun gələn yeni idarəçilik tələb edirdi.

Sümürgəc iqtisadi siyasət ilə idarə islahatının yanaşı aparılması fikrini Qafqazın baş hakimi maliyyə naziri Kankrinə 5 oktyabr 1830-cu ildə yazılı olaraq bildirdi. Qraf Paskeviç burada yazırdı ki, Gürcüstan və bütün Transqafqaz müstəmləkə olmalı, «bizim fabrikləri qaba mallar (xammal – *Red.*) ilə təmin etməklə qarşılığında Rusiyadan manufaktura məhsulu gətirməlidir. ***Əksinə, Gürcüstanda (və bütün Transqafqazda – Red.) belə manufakturlar açılmış olarsa, oranın Rusiya ilə qarşılıqlı təbii əlaqəsi zəifləməzmi?»***

Qraf Kankrin üç il bundan qabaq irəli sürdüyü «az-çox yaxşı idarə olunan Asiya əyaləti» fikrindən əl çəkib yeni siyasətə qoşuldu. Çünki yeni siyasətin arxasında duranların böyük gücü var idi. Nikolayın tam etibar bəslədiyi və fövqəladə səlahiyyətlə Transqafqazı yoxlamaq üçün göndərdiyi senatorlar Kutaysov və Meçnikov da Paskeviçlə bir mövqedə dururdular. Bu sonuncuların fikrincə: «Qafqazarxası diyarının idarəsi, bəzi əyalətlərin 30 il qabaq Rusiyaya qatılmasına baxmayaraq, hələ də üzərində bu diyarın keçmiş hökmdarlarının mütləq, özbaşına və nizamsız idarəsinin damğasını daşımaqdadır».



Transqafqazın bir iqtisadi müstəmləkə kimi mənimsənilməsinə yönəlmiş siyasətlə «keçmiş hökmdarların mütləq, özbaşına və nizamsız idarəsi» artıq bir yerə sığışmırdı. Belə bir şəraitdə «Qafqazarxası diyarı barədə xüsusi mülahizələrin» ortaya çıxması və Paskeviçin bu sənədin müdafiəsinə qalxması qanunauyğun idi. Çünki bu «mülahizələr»də iqtisadi və idarəçilik baxımından bu diyarın Rusiyaya üzvi şəkildə qovuşdurulması fikri irəli sürülürdü: «***Onu (Transqafqazı*** – *Red.*) ***vətəndaşlıq və siyasət telləri ilə Rusiyaya bağlayıb bir bədənə çevirmək və orada yaşayanları rusca danışmağa, düşünməyə və duymağa məcbur etmək gərəkdir***».

Bununla 30-cu illərdə çarlıq Rusiyasının sümürgəclik siyasətinin vahid iqtisadi, siyasi və mənəvi özülü qoyuldu, hər üç baxımdan bu siyasətin həyata keçirilməsinə başlandı.

**YERLİ SƏRVƏTLƏRİN ÖYRƏNİLMƏSİ.** Öz yeni, sümürgəc siyasətini yeritməyə başlayan çar hökuməti ilk əvvəl Azərbaycanın təbii sərvətlərini öyrənib üzə çıxarmağa çalışırdı. Bunun üçün ölkənin zəngin yataqları olan bölgələrinə dağ-mədən işini bilən mütəxəssislər göndərilirdi. Onlar Azərbaycanın günbatar səmtindəki çaylarda qızıl külçəsi və tozu olub-olmamasını birinci olaraq öyrənməyə başladılar. Rusiya Elmlər Akademiyasının fəxri üzvü qraf ***Musin-Puşkin***, dağ mühəndisləri ***Eyxfeld, Kornikski, Voskoboynikov*** Ağstafa çayının sağ sahilində olan Qazax mədənini, Kiçik Qafqazın quzey səmtində Gürcüstan hüdudlarından Gəncəyə kimi olan çayları (Gəncə çayı da daxil olmaqla) öyrəndilər. 40-cı illərin başlanğıcından «qızıl axtarışı» Tərtər çayına və Qarabağın başqa çaylarına keçirildi. Ancaq çoxlu xərc tələb edən bu axtarışlar gözlənilən nəticəni vermədiyi üçün dayandırıldı.

Başqa yönümdə aparılan axtarışlar daha uğurlu oldu. Hələ 1820-ci ildə rus mütəxəssisləri Gəncə yaxınlığındakı ***Mirzə Cəlilli*** kəndi ərazisində litoqrafiya daşı tapmışdılar. Car-Balakən dairəsinin ***Xız*** kəndində qurğuşun külçəsi tapıldığı üçün burada yaxşı yataqların olmasını üzə çıxarmaq məqsədilə araşdırma aparıldı. 1824-cü ildə Qazax məntəqəsindəki Qarabayat dağında, Şuşa şəhəri yaxınlığında kükürd kolçedanının yerləşməsi aydınlaşdı.

Artıq 20-ci illərdə çar hökuməti, onun hərbi hakimləri Quzey Azərbaycanda baramaçılıq işinə çox böyük maraq göstərirdilər. 1829-cu ildə general ***A.P.Yermolov*** maliyyə naziri ***Kankrinə*** yazırdı: «Ən yaxşı ipək yetişdirilən Şirvan əyalətində ipəkçiliyin genişləndirilməsi qayğısını mən öz üzərimə götürmüşəm, göstərişimlə orada hər il min və daha çox tut ağacı əkilir». Göründüyü kimi, çar hökuməti barama təsərrüfatının timsalında öz sənayesi üçün xammal bazası yaratmaq barədə aramsız olaraq düşünmədə idi. Azərbaycanın başqa bir əyaləti haqqında Peterburqda çıxan «Kommerçeskaya qazeta» yazmışdı: «Şəki başqa əyalətlərə baxanda

çoxlu və yüksək keyfiyyətli ipək istehsal edir. 1827-ci ildə bu əyalətdən satış üçün 8200 pud ipək çıxarılmışdır».

Sərbəst kapitalı olan sənayeçilərin qüvvələrinin birləşdirilməsi yolunda addımlar atıldı. 1833-cü ildə Nikolay hökuməti «Kənd təsərrüfatını, manufaktur sənayesini və ticarəti həvəsləndirən Zaqafqaziya cəmiyyəti»nin nizamnaməsini təsdiq etdi. Cəmiyyət öz qarşısına geniş vəzifələr qoydu: barama, tütün, pambıq, üzüm, çəltik, zəfəran, qızıl boya becərilməsini yüksəltməyi, Azərbaycanda zeytun, indiqo, şəkər qamışı və sair plantasiyalarının salınmasını, barama, pambıq, bitki boyalarının ilkin emalının yaxşılaşdırılmasını, Rusiyanın başqa əyalətləri ilə Transqafqaz arasında alış-verişi gücləndirməyi üzərinə götürdü.

1836-cı ildə Peterburqda «Qafqaz arxasında ipəkçiliyi və ticarət sənayesini yayan cəmiyyət» açılıb fəaliyyətə başladı. Şəki əyalətində xəzinə torpaqlarında barama qurdunu yemləmək üçün salınmış 760 tut bağı bu cəmiyyətin ixtiyarına keçdi. Bu bağlar cəmiyyətə yaxın beş ildə pulsuz, sonrakı iyirmi beş ildə isə xəzinəyə çox kiçik məbləğ ödəmək şərti ilə verilmişdi. Bu bağlarda becərmə işi görən 700 dövlət kəndlisi (rəncbər) də cəmiyyətin ixtiyarına verildi. Yaxın 18 il içərisində cəmiyyət tut ağaclarının sayını 4300-dən 7 milyona çatdıraraq, barama yığımını üç dəfə artıra bildi.

XIX əsrin birinci yarısında Quzey Azərbaycanın iqtisadi mənimsənilməsi yolunda çarlıq Rusiyası ilkin addımlar atmağa başladı. Bu irəliləyişin məhdud, bəzən isə yarımçıq həyata keçirilməsi Rusiyanın özündəki sənaye kapitalizminin hələ məhdud inkişaf etməsi ilə bağlı idi.

## 2. KƏND TƏSƏRRÜFATI

**TAXILÇILIQ, BAĞÇILIQ, ÜZÜMÇÜLÜK.** XIX əsrin birinci otuz ili boyu Quzey və Güney Azərbaycanın kənd təsərrüfatı çox böyük sarsıntılarla qarşılaşdı. Rusiya və İran qoşunlarının 1804-1813 və 1826-1828-ci illərdəki döyüş əməliyyatları, rus qoşunlarının bir vilayətdən o birinə sürəkli yürüşləri, onların ehtiyaclarını ödəmək üçün kəndlilərdən ərzaq, qoşqu vasitələri və heyvanların yığılması, bir sıra ara çəkişmələri kənd təsərrüfatına böyük zərər yetirmişdi. İran qoşunları da Qarabağ, Şirvan, Şəki, Talış xanlıqlarında kəndli təsərrüfatlarını ayaqlayıb sıradan çıxarmış, on minlərlə baş davar və mal-qara qovulub aparılmış, kəndlər və kəndli evləri çapılıb talanmışdı. Suvarma arxları və kəhrizləri batıb korlanmışdı.

Kənd təsərrüfatında əkinçilik, buğda, arpa və çəltik becərilməsi ölkənin başlıca dolanışıq mənbəyi olaraq qalırdı. 30-40-cı illərdə Şirvan, Qarabağ və başqa əyalətlərdə taxıl istehsalı artmış, Talış əyalətində isə azalmışdı. Ancaq sonuncu əyalətdəki bu azalma çəltik əkinlərinin xeyli artması ilə bağlı idi. 1845-ci ildə Quba, Şirvan, Qarabağ, Şəki, Talış, Naxçıvan əyalətlərində, Yelizavetpol (Qazax və Şəmşəddil də sayılmaqla) və Car-



Balakən dairələrində birlikdə 17,6 milyon pud buğda, 6,9 milyon pud arpa, 2,3 milyon pud çəltik istehsal olunmuşdu. Əhalinin düyüyə olan ehtiyacının ödənişində yerli imkanların rolu çox artmışdı. Yalnız Talış əyalətində 30-cu illərin başlanğıcına nisbətən 1845-ci ildə çəltik istehsalı 400 min puddan artıb 700 min puda yaxın olmuşdu. Şəki, Şirvan və Qarabağ əyalətlərində də çəltik əkini genişlənmişdi.

Rusiya bazarlarında Azərbaycan düyüsünə tələbatın artması həm çəltik əkinlərinin genişlənməsinə, həm də bu qiymətli məhsulun keyfiyyətcə yaxşılaşdırılmasına təsir etmişdi.

Kəndli əməyi ilə becərilib yetişdirilən taxıl ölkənin daxili ehtiyac və tələbini ödəyə bilir, hətta çarlıq Rusiyası qoşunlarını təchiz etmək və başqa regionlarda satılmaq üçün çatırdı. 50-ci illərdə Şirvan, Quba və Talış əyalətlərində yetişdirilən taxılın təxminən 1/5-i (Şirvan, Quba əyalətlərində buğda ilə arpanın 1/3-i) satış üçün uzaq bazarlara çıxarılırdı. Taxılçılığın əmtəə istehsalı səviyyəsində olması tutarlı iqtisadi göstərici idi.

Taxılın başlıca istehsalçısı kəndli təsərrüfatı idi. Quzey Azərbaycan ərazisinin 3/4-nü tutan Şamaxı quberniyasında 50-ci illərin ortalarında 1 milyon 344 min çətvər payızlıq və yazlıq buğdanın yalnız 46 min çətvərə yaxını, başqa sözlə 3,4 faizi birbaşa bəy təsərrüfatlarının payına düşürdü. Deməli, taxıl istehsalında kəndli təsərrüfatının böyük üstünlüyü var idi.

50-ci illərin sonundan başlayaraq taxıl əkinlərinin genişlənməsi dayandırıldı. Taxıl becərilməsi azalmağa başladı. Bunun başlıca səbəbi çar hökumətinin iqtisadi siyasəti idi. Rusiyanın manufaktur-fabrik sənayesi üçün xammal istehsalı yaratmağa yönəlmiş bu siyasət, Transqafqaz ölkələrində taxılçılığın genişlənməsində maraqlı deyildi. Buna görə artıq 40-cı illərdə taxıl yetişdirən dövlət xəzinə təsərrüfatlarını hökumət ləğv etmişdi. 1846-47-ci illərdə I Nikolayın verdiyi aqrar qanunlar bəy torpaqlarında oturaq kəndlilərin feodal istismarını kəskincəsinə artırmış, onların üzərinə düşən vergi və mükəlləyiffətləri gücləndirmişdi. Bu tədbirlər əkinəçiliyin başlıca sahəsi olan taxılçılığın yüksəlişini dayandırmaya bilməzdi.

Bağçılıq kənd təsərrüfatının ənənəvi sahələrindən biri olaraq qalırdı. 50-ci illər ərəfəsində Quzey Azərbaycanın altı qəzasında meyvə ilə üzüm yetişdirilən bağların sayı 21 mindən çox idi. Bağçılıq ayrıca bir təsərrüfat sahəsi kimi Quba (ən çox Tip, Şeşpər, Şabran, Müşkür və Sırt mahallarında), Yelizavetpol, Şəki qəzalarında, Ordubad dairəsində geniş yer tuturdu. Bu bölgələrdə yetişdirilən alma, armud, üzüm, ərik, qoz və başqa meyvələr qonşu qəzalara aparılıb satılırdı. Qax, qoz, fındıq böyük miqdarda Rusiyaya ixrac olunurdu. Təkcə Quba qəzasından 1851-ci ildə 15 min pud aomud qaxı ixrac olunmuşdu.

Bakı, Yelizavetpol, Şəki və Şamaxı qəzalarında üzümçülük geniş yayılmışdı. Abşeronun süfrə şanısı böyük şöhrət qazanmışdı. Şirvanın, Yuxarı Qarabağın bir sıra kəndlərində üzüm çaxırı, araq çəkilirdi. Üzümdən,

tutdan, başqa meyvələrdən yerli əhali çoxlu doşab, bişmiş üçün işlədilən bir çox şirin və turşməzə şirələr çəkirdi.

**HEYVANDARLIQ.** Kənd təsərrüfatının ikinci başlıca sahəsi heyvandarlıq idi. Dağıdıcı Rusiya-İran müharibələrindən sonra heyvandarlıq gözə çarpacaq ölçüdə yüksəliş keçirmədə idi. 40-50-ci illərdə yuxarıda adları çəkilən altı qəza üzrə davarın sayfı 468 min başdan 1 milyon 296 başa (3 dəfəyə yaxın), qaramalın sayı 271 min başdan 623 min başa (2,25 dəfə), atların sayı 83 mindən 140 minə kimi (1,8 dəfə) artmışdı. Bütün Quzey Azərbaycan bölgələrində istər davarın, istərsə də qaramal və atların sayı bütünlükdə bu rəqəmlərdən xeyli çox idi. Çünki hərbi idarə altında olan Yelizavetpol və Car-Balakən dairələri buraya daxil edilmirdi. Halbuki bu iki dairə üzrə yalnız davarın sayı 627 mindən çox idi.

Maldarlıq təsərrüfatında bazarlara yönəlmiş olan əmtəə istehsalı yüksək deyildi. 1845-ci ildə altı qəzada say üzrə bütün davarın 12%-i, qaramalın 9%-i, atların isə yalnız 3%-i bazarlara çıxarılıb satılmışdı. Bununla yanaşı, 20 min pud yağ, 23 min pud pendir, 40 min ədəd gön satılmışdı. Davarın və qaramalın bütün sayı nəzərə alınarsa, bu rəqəmlər çox deyildi. Buna baxmayaraq toplu göstəricilər üzrə şəhərlərdə və əkinçilik rayonlarında bazara çıxarılan heyvanların və heyvandarlıq məhsullarının dəyəri taxılçılıq məhsullarının satış dəyərini ötüb keçmişdi: 1845-ci ildə Kaspi vilayəti ərazisində 533 min manatlıq qaramal və maldarlıq məhsulu, 397 min manatlıq isə taxıl satılmışdı.

Maldarlıqla məşğul olan əhalinin xeyli hissəsi yarımköçəri, daha doğrusu, köçmə təsərrüfatda çalışırdı. Təkcə Azərbaycanın deyil, bütün Transqafqazın iqlim şəraiti mövsümdən asılı olaraq mal-qaranı qışlaqdan yaylağa və əksinə qovub saxlamağı tələb edirdi. İstər Azərbaycan, istərsə də Transqafqaz və Dağıstan kəndliləri qışda qışlaqsız, yayda yaylaqsız mal-qara saxlaya bilməzdilər. Təbii olaraq Azərbaycan maldarları yayda Ermənistan və Dağıstan yaylalarına, Ermənistan, Gürcüstan və Dağıstan maldarları isə Azərbaycanın Mil-Qarabağ, Şirvan-Muğan düzlərinə qışlağa gəlirdilər. 50-ci illərdə Şamaxı qəzasında kəndli ailələrinin 34 faizi, Şuşa qəzasında 29 faizi, Lənkəran qəzasında 12 faizi, Nuxa (Şəki) qəzasında 6 faizi köçmə maldar təsərrüfatla məşğul olan ***elatlar*** idi. Elatlar maldarlıqla yanaşı, əkinçiliklə də məşğul olurdular. Qubernator müavininin yazdığına görə: «... Şamaxı quberniyasında taxılçılıqla məşğul olmayan köçərilərin sayı çox azdır. Hətta daim köçmədə olan hər bir köçəri təsərrüfatda heç olmasa öz ərzaq ehtiyacını ödəmək üçün maldarlıqdan başqa taxılçılıqla da məşğul olan sahibkarlar var idi». Qubernatorun özü də 1858-ci il hesabatında kəndlilərin böyük hissəsinin oturaq həyat sürməsini bildirirdi: «... Başlıca olaraq taxılçılıqla məşğul olurlar, köçəri kəndlilər də getdikcə taxılçılığa keçir».



**BARAMAÇILIQ, TEXNİKİ BİTKİLƏR.** 30-40-cı illər arasında bəzi çətinliklərə baxmayaraq yüksəlmə yolu ilə addımlayan dəyərli və qazanclı təsərrüfat sahələrindən biri baramaçılıq idi. Əmtəə istehsalı və ixrac göstəriciləri baxımından baramaçılıq başqa təsərrüfat sahələrindən çox seçilirdi. Qabaqlar olduğu kimi baramaçılığın başlıca mərkəzi Nuxa qəzası idi. Azərbaycanda becərilib yetişdirilən bütün baramanın 11-12 min pudu və ya təxminən 40 faizi bu qəzanın payına düşürdü. Başqa bölgələr üzrə yetişdirilən barama Şuşa, Şamaxı qəzalarının (3,5-5 min pud), Car-Balakən dairəsinin (3-4 min pud), Yelizavetpol və Quba qəzalarının (1-2 min pud) üzərinə düşürdü. 40-cı illərin ortalarında Quzey Azərbaycan bölgələrində barama istehsalı 29 min puda çatmışdı. Bu, bütün Transqafqazda istehsal olunan 34 min pud baramanın 85 faizinə bərabər idi. Beləliklə Quzey Azərbaycan Rusiya imperiyası tərkibində başlıca baramaçılıq mərkəzi idi. Artıq 30-cu illərin sonundan başlayaraq Rusiyanın ipək toxuyucu fabrikləri Azərbaycan baraması və ipək sapları ilə işləyirdi. 50-ci illərin ortalarında bu fabriklər hər il 40 min pud ipək xammalı işlədirdilər. Bu sonuncunun 28 min pudu, başqa sözlə desək, 3/4-ə yaxın hissəsi Quzey Azərbaycandan gətirilirdi. Xam ipək buradan həm Moskvaya, həm də Nijni Novqorod yarmarkasına çıxarılıb satılırdı.

1850-1860-cı illərdə barama istehsalında böyük yüksəliş oldu. On il ərzində adı çəkilən bölgələrdə yetişdirilən barama məhsulunun çəkisi 5 dəfə artaraq 151 min puda çatdı. Bu qədər böyük məhsulun 62 min pudu və ya 41 faizi təkcə Nuxa qəzasında yetişdirilmişdi. Barama artımı yüksəldikcə onun bazarlara çıxarılması da genişlənirdi. 1850-60-cı illər boyu xam ipək və ya barama istehsalının 71 faizi Mərkəzi Rusiya quberniyalarına çıxarılıb satılmışdı. Azərbaycan xam ipəyi xarici ölkə bazarlarında da yaxşı mövqe qazandı. 200-dən çox xarici ipəkçilik şirkəti öz nümayəndələrini Şəkiyə göndərib burada fəaliyyətə başladı. Bunun sahəyində 50-ci illərin sonunda xarici ölkələrə 1,7 milyon, 1864-cü ildə isə 2,2 milyon manat məbləğində ipək satılmışdı. Ancaq xarici şirkətlərin fəallığı ağır nəticə verdi. Onların yaratdığı «ipək vurnuxması» Azərbaycana ***qattina*** deyilən ipəkqurdu xəstəliyi gətirdi. Bu azar baramaçılığa 6-7 il böyük ziyan vurdu. Barama yetişdirilməsi də, tut plantasiyaları da kəskin uğursuzluq keçirib azaldı. Rusiya bazarlarına çıxarılan xam ipəyin və baramanın çəkisi 700 min puda, xaricə satış üçün çıxarılanın dəyəri isə 474 min manata endi.

İpək istehsalçıları içərisində «Qafqaz arxasında ipəkçiliyi və ticarət sənayeçiliyini yayan cəmiyyət» aparıcı yer tuturdu. Şəkidəki xəzinə tut bağları ilə yanaşı, bu şirkət xəzinənin Şirvandakı barama bağlarını da burada işləyən 630 rəncbərlə birlikdə 24 il müddətinə icarəyə götürmüşdü. Şirkət yerli bəy təsərrüfatlarına məxsus olan sahibkar kəndliləri də öz baramaçılıq plantasiyalarında muzdlu işə cəlb edirdi. Rusiyadan Azərbay-

cana köçürülən molokan, duxobor və s. kəndlilər, habelə xəzinə torpaqlarında vergini ipək baraması ilə ödəyən yerli kəndliləri də şirkət muzdla işlədirdi. Şirkət tut bağlarında muzdlu əməkdən istifadə edən böyük təsərrüfatlardan biri idi.

Uzaq keçmişdən Azərbaycanda yetişdirilən, burada toxunulan yüksək keyfiyyətli ipək parçalara və xalçalara dünya şöhrəti qazandırmış olan texniki bitkilərdən biri ***qızıl boya*** idi. Bu zaman Rusiya toxuculuq fabrikləri ildə 130 min puda kimi qızıl boya işlədirdi və bunun çoxu xarici ölkələrdən gətirilirdi. Çar Rusiyasının iqtisadi mənimsəmə siyasəti ilə bağlı qızıl boyaya olan tələbatın kəskin ölçüdə artması 40-cı illərdə onun istehsalını yüksəltdi. Xəzər dənizinin günbatar bölgələrində qiymətli qızıl boya yetişməsi rus fabrikantlarının diqqətini buraya yönəltdi. 50-ci illərdə Moskva yaxınlığında artıq buradan alınıb gətirilən qızıl boya köklərinin emalı üçün ayrıca bir fabrik tikilib işə salındı. Xəzər ölkələrindən Rusiyaya aparılan bu gözəl bitki rəsmi və kommersiya yazışmalarında *«Dərbənd qızıl boyası»* adlansa da, yarıdan çoxu Quzey Azərbaycan bölgələrində yığılırdı. Quba qəzası qızıl boya istehsalı və ixracının başlıca mərkəzlərindən idi. Şamaxı və Lənkəran qəzalarında da qızıl boya yetişdirilir, Bakı və Niyazabad vasitəsilə dənizlə Rusiyaya aparılırdı.

Rus toxucu fabriklərinin tələbatı ilə bağlı olaraq qızıl boya istehsalı görünməmiş sürətlə artdı. Quba qəzasında qızıl boya yığımı 1851-57-ci illərdə 2 min puddan 70 min puda, 1869-cu ildə isə 200 min puda çatdı, yəni 100 dəfə artmış oldu. Qızıl boya istehsalı milyon manatlarla qazanc verirdi. 1851-60-cı illərdə yalnız Quba qəzasından Rusiyaya çıxarılan 334,5 min pud qızıl boya 2,8 milyon manata satılmışdı. Azərbaycan qızıl boyası Avropa ölkələrində də tanınır, oraya da sıtılırdı. 1862-ci il London Ümumdünya sərgisində Quba qəzasından iştirak edən üç azərbaycanlı qızıl boya ustası nümayiş etdirdikləri yüksək keyfiyyətli boya üçün medal və fəxri fərmanlarla təltif edildilər. Xəzər dənizi ilə gətirilən qızıl boya Rusiya bazarlarından xarici boyaları sıxışdırıb çıxarırdı.

Qızıl boya istehsalında muzdlu əməkdən: həm kişi, həm də qadın əməyindən geniş istifadə olunurdu. Bakı qubernatorunun hesabatı üzrə 1867-ci ildə təkcə Quba qəzasındakı qızıl boya plantasiyalarının becərilməsində Güney Azərbaycandan iş axtarmağa gələn 9 min «İran təbəəli» muzdlu fəhlə işləyirdi. Qızıl boya işində muzd ardınca gələn Dağıstan kəndliləri də çalışırdılar.

30-50-ci illərdə qiymətli texniki bitkilərdən pambıq və tütün istehsalı da nəzərə çarpır. Ancaq buradakı irəliləyiş hələ yenicə başlayırdı. 30-cu illərin başlanğıcında Quzey Azərbaycanda 11,5 min pud pambıq yığılmışdı. 1845-ci ildə Azərbaycan qəzaları üzrə yalnız 1,3 min pud çiyid səpilmişdi. Qarabağ və Şəki əyalətlərində xəzinənin pambıq plantasiyaları yaradılırdı. Ancaq xəzinə hələ yaxşı gəlir götürə bilmirdi. Yığılan pambıq az idi. Misirdən, Amerikadan gətirilmiş pambıq çeşidlərini burada mənimsəyib tətbiq etmək cəhdləri o çağda boşa çıxdı. Suvarma işinin imkanları pambıqçılıq tələblərinə uyğun gəlmirdi. Pambıq əkini üçün yararlı boş torpaqlar çox deyildi. Tütün əkini artıq 40-cı illərdə Quzey Azərbaycan qəzalarında yer alsa da istehsalı böyük deyildi. Ancaq qızıl boya kimi, pambıq və tütün istehsalı da yüksək alqı-satqı səviyyəsinə qalxmışdı. 1845-ci ildə yetişdirilən 4 min pud tütün yarpağının tən yarısı bazarlara satışa çıxarılmışdı.



## 3. YEYİNTİ İSTEHSALI VƏ SƏNƏT İŞİ. KAPİTALİST İSTEHSALININ YARANMASI

**YEYİNTİ İSTEHSALI.** Balıqçılıq və balıq məmulatı istehsalı Azərbaycanda tarix boyu xüsusi yer tutmuşdur. Balıqçılığın qazanclı bir iş olduğunu nəzərə alan çar hökuməti keçmişdən burada hökm sürən iltizam qaydasını aradan götürməyi qərara aldı. 1829-cu ildə balıq vətəgələrini dövlət xəzinəsi öz idarəsinə götürdü. Kür çayı boyunca yerləşən Salyan, Şirvan və Şəki balıq vətəgələri birləşdirilib «Salyan xəzinə qəyyumluğu» şirkəti yaradıldı. 40-cı illərin başlanğıcında Lənkəran balıq vətəgələri də bu şirkətə qatıldı. Ancaq işin gedişində xəzinənin yaratdığı «qəyyumluq» şirkəti özünü doğrulda bilmədi. Bu sonuncunun 16 illik fəaliyyəti dövründə tutulan balığın sayı yalnız 525 mindən 661 min ədədə qədər arta bilmişdi.

Xəzinə idarəçiliyi ağır olduğundan çoxlu pul tələb edirdi. Şirkətin idarəsi Salyanda yerləşsə də, balıq vətəgələrinə tələb olunan bütün avadanlıq Həştərxanda açılmış ayrıca şöbə tərəfindən alınıb buraya göndərilirdi. Vətəgələrdə çalışan ustalar və balıq tutanlar da əvvəl orada işə götürülürdü. Bürokratçılığın doğurduğu çətinliklərlə yanaşı, vətəgə işçilərinin sosial-milli tərkibi dəyişikliyə uğrayırdı. 30-cu illərin sonunda Salyan və Qızılağac balıq vətəgələrində artıq 600-ə yaxın rus fəhləsi çalışırdı. Yay aylarında işlərin qızğın çağında, qaynaqlardan birində deyildiyi kimi, «güclü balıq axını olduqda», yedək gəmilərində və qayıqlarda avar çəkmək üçün hər ay 400-ə kimi yerli fəhlə («müsəlman») işə götürülürdü. Artıq o zaman balıq vətəgələrində muzdlu əmək geniş yer tuturdu. Salyan balıq vətəgəsində muzdlu işçilərin sayı 600-1000-ə çatırdı.

Azərbaycanda qazanclı işlərdən biri də *duz çıxarılması* idi. Abşeron gölləri üzərində yaranmış olan duz mədənləri xüsusilə qazanclı idi. Təkcə Masazır və Zığda 1818-cu ildə göl vətəgələrindən 160 min pud, 40-cı illərdə isə ildə 400 min pud duz istehsal edilmişdi. Abşeronda duz çıxarılan göllərin sayı 27-yə çatırdı.

Duz çıxarılmasında feodal (xəzinə və ya iltizam) idarəçiliyinin saxlanılması onun yüksəlişinə mane olurdu. 1808-1821-ci və 1826/34-cü illərdə

Abşeronun göl-duz vətəgələri iltizama verilmiş,1821-1825 və 1834-1850-ci illərdə birbaşa Rusiya dövlət xəzinəsinin idarəsində olmuşdu. Xəzinə idarəçiliyi də, iltizam qaydası da, hər ikisi eyni ölçüdə əlverişli deyildi. Çünki özəl kapitalist təsərrüfatçılığı qarşısında bir çəpər kimi durur, işçiləri çar xəzinəsinin feodal asılılığında saxlayırdı. Duz işində çalışan Abşeron kəndliləri hər iki halda dövlət xəzinəsi xeyrinə mükəlləfiyyət daşıyırdılar.

Naxçıvan əyalətində daş duz çıxarılırdı. Abşerondan fərqli olaraq, çar xəzinəsi Naxçıvan daş duz mədənini 1868-ci ilə kimi yalnız iltizama vermişdi. Burada da mülkiyyət sahibliyi «irsi» dəyişikliyə uğramışdı: Türkmənçay müqaviləsinə kimi ***Kəlbalı*** xana məxsus olan duz mədəni sonru rus xəzinəsinin dövlət malına çevrilmiş, sonuncu isə bir sıra hallarda olduğu kimi istismar hüququnu iltizamçılara vermişdi. 1843-cü ildən başlayaraq 12 il içərisində Naxçıvanda duz istehsalı 98 min puddan 428 min puda qalxmış, xəzinənin iltizamçılardan aldığı gəlir isə (iltizam haqqı) 4 min manatdan 10 min manata kimi artmışdı. Daş duz mədənində işlərin gedişi ***Şıxmahmud*** kəndi üzərinə qoyulmuş mükəlləfiyyətlə bağlı idi: burada kəndlilərin icbari əməyi istismar olunurdu. Bu kəndlilərin hər birinə çıxardığı bir batman duzun qarşılığı olaraq iki gümüş qəpik «aylıq» verilirdi. Halbuki bir batman duzun satış qiyməti gümüşlə 10 qəpik idi.

**SƏNƏTKARLIQ.** Uzaq keçmişdən bəri müxtəlif sənət işləri, elm və mədəniyyət mərkəzləri olan şəhərlər böyüyür, onların əhalisi artırdı. Şəhərlərin içərisində keçmişdə xanlıq və əyalət, 40-50-ci illərdə Kaspi vilayəti və quberniya, sonralar isə qəza mərkəzi olmuş Şamaxının yüksəlişi diqqəti özünə çəkir. 1824-cü ildən bir çox yeni tikintilər hesabına genişlənən bu şəhər «əski Şamaxı»nın varisi sayılırdı. 1840-cı ildə əhalisinin sayı 20 minə yaxın olan Şamaxı qaynar sənət və ticarət həyatı keçirmədə idi.

Öz siyasətinə uyğun olaraq çarlıq Rusiyası Azərbaycan şəhərlərində xanlıq çağı kəsilmiş yerli pulların və əcnəbi pulların alış-veriş dövriyəsində işlənməsinə son qoydu. Transqafqaz ölkələri bütünlüklə Rusiya pul sisteminə keçirildi. Ayrı-ayrı xanlıqlarda bir-birinə uyğun gəlməyən çəki və ölçü vahidləri də aradan götürülüb dəyişdirilirdi. Doğrudur, xəzinənin acgözlüyü üzündən ayrı-ayrı əyalətlər arasında xanlıq çağından qalmış olan «rəhdar gömrüyü» uzun illər yığılmaqda idi. Bununla yanaşı, Rusiyanın Avropa quberniyalarından Transqafqaz ölkələrinə gətirilən mallardan da xəzinənin xeyrinə gömrük yığılırdı. Ancaq 1851-ci il ticarət tarifi üzrə Transqafqaz malları Rusiyanın mərkəzi quberniyalarına gömrüksüz gətirilməyə başlandı, çünki çar hökuməti öz fabrikləri üçün buradan xammal axınını gücləndirməyə çalışırdı.

Bu tədbirlər təzadlı olmasına baxmayaraq, şəhərlərin böyüyüb canlanması üçün az-çox şərait yaratdı. O biri yandan çar xəzinəsi şəhərlərdən



çoxlu vergilər toplayır, onların üzərinə ağır mükəlləfiyyətlər qoyurdu. Sənətkar ildə 1 manat 20 qəpikdən 20 manata kimi vergi ödəməli idi. Alış-veriş adamlarının da üzərinə ağır vergilər qoyulmuşdu. Bunların içərisində *mizan rüsumu* (şəhər qapan və tərəzilərindən alınırdı) soyğunçu məzmunu ilə seçilirdi. Öz baramasından hazırladığı xam ipəyi satan hər kəs bir batman üçün 1 manat 40 qəpik, onun alıcısı isə 1 manat mizan rüsumu ödəyirdi. Tacir və ya hər hansı satıcı və alıcı satdığı və ya aldığı ipək haqqında müvafiq idarəyə məlumat verməmişdisə, hər batman üçün 70 qəpik cərimə ödəyirdi. 1842-ci il üzrə Nuxa şəhərindən 18 min manat, Şamaxıdan isə 3,5 min manat mizan rüsumu toplanmışdı.

Sənətkarlar və tacirlər, bütün şəhər əhalisi üçün vergiyığma işinin iltizama verilməsi böyük sıxıntı yaradırdı. İxraca çıxarılan ipəyin hər batmanı üçün iltizamçıya 20 qəpik pul verilib cəza yarlığı alınmalı idi. Yeni-yeni yığım yerləri axtarmaqda olan çar maliyyə nazirliyi 1849-cu ildən şəhərlərdə mənzil mükəlləfiyyətini yüksək pul vergisi ilə əvəz etdi. Şəhərlərdə daşınmaz əmlak dəyərinin 8 faizini hər il xəzinənin xeyrinə mənimsəyən bu vergi də şəhər əhalisi üzərinə düşdü.

Sənətkarlığın inkişafı baxımından Şamaxı və Şəki şəhərləri seçilirdi. Dərzi, papaqtikmə, dabbaqlıq, toxuculuq, boyaqçılıq işləri burada geniş yayılmışdı. İpəkçilik şəhər sənətkarlığının başlıca sahəsi idi. Baramadan sap açılması, burulub toxuculuq işləri üçün yararlı hala salınması ilə yüzlərlə kustar və sənət emalatxanaları məşğul olurdu. Güney Qafqazda Rusiyanın bir çox şəhər və qəzalarında Azərbaycanda toxunulan ipək cecim, kələğayı, darayı, tafta, qanavuz yaxşı satışa gedən mallardan sayılırdı. XIX əsrin ortalarına kimi bu mallar Rusiya fabrik malları qarşısında hələ də rəqabət üstünlüyü qazana bilirdi. Şamaxı, Şəki, Qarabağ və Ordubadda ipəktoxuma işi əhalinin başlıca məşğuliyyətindən biri idi. 40-cı illərdə bütünlüklə qəzalar üzrə 700-ə kimi toxucu qurğusu var idi, burada 3 mindən çox toxucu çalışırdı. Şamaxı və Şəkidəki ipəktoxuma emalatxanalarının bir hissəsi xırda əmtəə istehsalı səviyyəsində idi.

Şəhərlər ilə yanaşı bir çox kəndlərdə, hətta qəzaların ucqarlarında sənət işləri ilə məşğul olanların sayı çox idi. 1843-cü ilin rəsmi məlumatı üzrə Kaspi vilayətində 8 min sənətkar çalışırdı. Bunlardan 4 mini usta, qalanları isə işçilər idi. Bütün sənətkarların 3,8 mini Şamaxı qəzasının, 1,7 mini Qarabağ əyalətinin, 1,6 mini isə Şəki qəzasının payına düşürdü. Kəndli ailələrinin istehsalında çoxçeşidli yun məmulatının toxunulması və hazırlanması geniş yer tuturdu. Belə kəndli ailələri sənət işinin bütün dövriyyəsini özlərində birləşdirir, ölkədə bol olan qoyun yununu özləri əyirib sapa çevirir, bitki köklərindən boya hazırlayıb sapı boyayır, hana qurub gəbə və kilim toxuyurdular. Bir sıra hallarda isə işlər əmək bölgüsü üzrə

aparılırdı. Toxucular yunu və yaxud yun ipini başqa ailələrdən və ya boyaqçıdan alır, özləri isə yalnız toxucu dəzgahlarında işləyirdilər.

Xalça istehsalı iri emalatxanalarda da yerləşirdi. Belə emalatxanalarda toxucu usta həm də bəzək işini görür, öz bilik və zövqü ilə, yerli sənət məktəbinin (Quba, Qarabağ, Şirvan, Təbriz xalçaçılıq məktəbləri) ənənəsinə uyğun olaraq xalçanın bədii tərtibatını («çeşnisini») qabaqcadan seçirdi. Bir sıra hallarda usta xalçanın «çeşnisini», göllərini, ölçüsünü özü seçmir, sifarişçinin istəyi üzərində qururdu. Bəzən isə sifariş Rusiya şəhərlərindən, hətta Fransadan alınırdı. Xalçaçılıq işi çoxçeşidli istehsal idi. Xalça, palaz, kilim ilə yanaşı məfrəş, xurcun, heybə, çuval toxunulması geniş yer tuturdu. Buraya yun şalvar, corab, əlcək və başqa geyimləri də qatsaq, yun toxuculuğu anlamına uyğun gələn geniş bir sənət sahəsi göz önünə gəlir. Bütün bu sahə üzrə hazırlanan mallar yalnız məişətdə deyil, həm daxili, həm də xarici bazarlara, Rusiyaya və xarici ölkələrə çıxarılırdı.

Dəyərli yer tutan sənət işlərindən biri metal emalı, xüsusilə misgərlik idi. Azərbaycan şəhərlərinin həyatında misgərlik, misgər emalatxanaları böyük yer tuturdu. 30-cu illərdə Gəncə şəhərindəki 6 emalatxananın hər birində sahibkarların özləri ilə yanaşı 10 muzdlu fəhlə işləyirdi. Tanınmış misgərlik mərkəzlərindən biri ***Lahıc*** kəndi idi. 30-cu illərdə burada 52 misgər, o cümlədən 6 silah emalatxanası var idi. Orta hesabla ildə 20 min manatlıq miss qab və başqa əşyalar hazırlanır, Transqafqaz ölkələrində, İran, Türkiyə və Rusiyada satılırdı.

Şəhərlərdə gözəl silah ustaları şöhrət qazanmışdı. Təkcə Şamaxıda 40-cı illərin sonunda 86 silah ustası çalışırdı. Lahıc silah ustalarının əllərindən çıxan xəncər, tapança və tüfənglər əsl bazar şöhrəti qazanmışdı. Onların ən məşhuru usta ***Əbdülrəhim*** idi. Sənətkarlıq bazarla, məişətlə yanaşı şəhər və kənd təsərrüfatının mühüm sahələrinə xidmət edirdi. Tikinti işləri (kərpic-kirəmit istehsalı), taxta ağac məmulatı, o sıradan şəbəkəçilik, əkinçilik və bağçılıq (çin, oraq, dəryaz, bel, vəl, yaba, dırmıx, yəhər, boyunduruq, araba istehsalı və s.), sənət emalatxanaları hesabına ən zəruri iş alətləri ilə təmin olunurdu.

İpək toxuculuğu, xalçaçılıq, misgərlik, o sıradan silah istehsalı, boyaqçılıq, dabbaqlıq, kərpic-kirəmit istehsalı, şərabçılıq və bu kimi başqa sənət işləri əmtəə istehsalı səviyyəsinə yüksəlmişdi. Təkcə xalçaçılıq üzrə 1843-cü ildə Kaspi vilayətinə düşən Quzey Azərbaycan qəzalarında 18 min gəbə toxunmuşdu. Onların yarısı bazarlara çıxarılaraq 80 min manat məbləğində pula satılmışdı. O zamankı Azərbaycan xalçaçılığının nümunələri indiyə kimi Rusiya və dünya muzeylərində saxlanılmaqdadır.

**MANUFAKTURA. KAPİTALİST İSTEHSALININ YARANMASI.** Manufaktur istehsalının ilkin rüşeymləri Azərbaycan şəhərlərinin bir neçə



başlıca sənətkarlıq sahələrində hələ XVII əsrin sonunda yaranmağa başlamışdı. Bu zaman bir sıra böyük feodal sənətkarlıq emalatxanaları (karxanalar) istehsalın məzmunu və təşkili baxımından manufaktur işinin ilkin pilləsində dururdu. Belə böyük karxanalar bütün XVIII yüzil boyu ölkənin iqtisadi xəritəsində qalmaqda idi. I Pyotrun elçisi Artemi Volınski yerli əhalinin yaxşı yaşamasına göz yetirərək ipəkçilik emalatxanalarını ayrıca qeyd edirdi. O yazırdı: «Onlarda heyvan da çoxdur, balıq da, xüsusilə ən çox ipək işi ilə bağlıdırlar; ipək hər yerdə bol yetişir və istər dəniz yaxınlığında, istərsə də Kür çayının özünə kimi ipək fabriki olmayan az kənd tapmaq olar». 50 ildən çox vaxt ötdükdən sonra akademik ***Samuil Qmelin*** də Şamaxıda 1500-ə kimi toxucu dəzgahının işlədiyini, ipək parçalar toxuyan fabriklər olduğunu yazmışdır. Bundan 20 il ötdükdən sonra, əsrin 90-cı illərində başqa bir müəllif ***Serebrov Culfinski*** yazmışdı: «Şamaxıda, demək olar, hər bir şəhərli (obıvatel) fabrik sahibi və ya toxucudur».

Söz yox ki, burada inkişaf etmiş kapitalist müəssisəsindən söhbət getmirdi. Ancaq bunlar ilkin manufaktura çeşidli karxanalar idi, burada az da olsa muzdlu işçi əməyi istismar olunurdu. Belə müəssisələr əmtə istehsalı ilə yanaşı, artıq ictimai əmək bölgüsü üzərində fəaliyyət göstərirdilər. Bir toxucu dəzgahında iki-üç, bəzən isə beş işçi çalışırdı, bunsuz çeşidli ipək parçalarının toxunulması mümkün deyildi. Mütəxəssislərin fikrincə Şamaxıda ipəktoxuma işi artıq manufaktur mərhələsinə keçmişdi.

Rusiya toxucu fabriklərinin xam ipək məmulatına tələbatı ilə bağlı olaraq tezliklə Şəkidə kapitalisi manufakturu yarandı. İlk öncə buraya baramadan sap açmaq üçün dəzgahlar gətirildi, xüsusi təlimatçılar bu yeni qurğulardan istifadə yollarını yerli işçilərə öyrətməyə başladılar. Bir il sonra, 1829-cu ildə Şəki yaxınlığındakı Xanabad kəndində dövlət xəzinəsinə məxsus olan iri ipək manufakturu açıldı. Rəsmi yazışmada «Çarabad», «Xanabad» fabriki adlanan bu ipək əyirici müəssisədə 10 dənə ikiqat kürə, sap sarıyan qurğular işə salındı. İstehsal vasitələrinin ümumi dəyəri 39,1 min manat idi. Fabrik xəzinənin olsa da, yalnız muzdlu işçi əməyindən istifadə edirdi. 30-cu illərdə muzdlu işçilərin sayı 101 nəfərə çatırdı. Onlardan 72-si yerli fəhlələr, 29-u isə İtaliyadan gətirilmiş ustalar idi. Yerli ipəkçiliyin uzaq tarixi ənənəsini yaşadan Şəki ipəkçiliyi yeni ipək əyirib sarıma işinə asanlıla yiyələndilər. Bir çar məmuru yazırdı: «Yerli sakinlər az vaxt içərisində əyiriciliyi yaxşı öyrənirlər, halbuki Avropada qadınlardan yaxşı əyirici hazırlamaq üçün bir neçə il tələb olunur». Xanabad müəssisəsinin məhsulu qabaqlar kustar üsulu ilə hazırlanan ipək sapından 2-3 dəfə baha qiymətə satılırdı.

1836-cı ildə xəzinə Xanabad manufakturunu yuxarıda adı çəkilən «Qafqaz arxasında ipəkçiliyi və ticarət sənayesini yayan cəmiyyət»ə satdı. Rus kapitalistlərinin əlində olan bu cəmiyyətin fəaliyyəti istər barama is-

tehsalı, istərsə də ipək sapının əyirilib sarınması baxımından başlıca olaraq Azərbaycanda yerləşirdi. Cəmiyyət o çağın böyük müəssisələrindən biri idi, 571 min manatlıq əsas kapital üzərində qurulmuşdu. Müəssisə səhmdar cəmiyyətinin əlinə keçdikdən sonra tam kapitalist fabrikinə çevrildi. 1854-cü ildə burada buxar qurğuları qoyuldu.

Şəkidə xəzinəyə məxsus olan başqa bir ipək manufakturu da adı çəkilən səhmdar cəmiyyətinə satılmışdı. Nisbətən kiçik olan bu müəssisənin 10 əyirici, 5 sap sarıyıcı qurğusu, 12 baramaaçma tiyanı var idi. Bununla yanaşı Şəki yaxınlığındakı Vartaşen kəndində yerli kapitalist ***Muradxanovun*** ipək əyirib sarıyan müəssisəsi də kapitalist manufakturu səciyyəsi daşıyırdı.

Manufaktura istehsalı baxımından mədən sənayesi, xüsusilə neft çıxarma işi də səciyyəvidir. 1829-50-ci illər arasında Abşeronda işləyən quyuların sayı 82-dən 136-ya kimi artmış, artıq 5,5 min ton neft çıxarılmışdı. İltizam sisteminin qalmasına baxmayaraq, neft işi üç başlıca istehsal qatına bölünürdü. Onlardan birini usta və onun əli altında işləyib quyu qazan qara fəhlələr, ikincisini istismara verilmiş quyulara gözlərdən axıb dolan yanacağı hər gün və ya vaxtaşırı vedrələrlə mədən anbarlarına daşıyan və ya tuluqlara doldurub arabalara yükləyən işçilər; üçüncüsünü isə nefti, o sıradan çıraq üçün işlənən ağ nefti daşıyıb şəhər anbarlarına və yanacaq dükanlarına, habelə İrana, Transqafqazın qalan bölgələrində tranzitlə satış yerlərinə daşıyan arabaçılar təmsil edirdilər. XIX əsrin başlanğıcında neft daşınmasında 35 araba, 50-ci illərdə isə bundan xeyli çox araba işlənirdi. Bu zaman neftin istehsalı, daşınması və alqı-satqısı işində minlərlə adam çalışırdı, bunların böyük hissəsi muzdla işləyirdi. Muzdlu iş Bakı neft mədənlərində artıq XVII yüzildən tətbiq olunmağa başlamışdı. ***Kempferin*** yazdığına görə, hər quyuda bir işçi («fəhlə») xidmət edir və onların hər biri 7-8 abbası aylıq, yəni ildə 2 tümən alırdı.

XIX əsrin birinci 30 ilində muzdlu işin tətbiq olunması getdikcə genişlənirdi. 1810-cu ildə Bakı və onun ətrafında general-leytenant ***Repin*** tərəfindən aparılan sayım üzrə 2235 (qadınlar sayıma alınmamışdı) yerli sakin - kişidən 776 və ya 34,5 faizə yaxını «sənətkarlar və fəhlələr» idi. Sənətkar zümrəsi (dərzi, çəkməçi, dəmirçi, dülgər və başqaları) ayrılıqda 409-dan çox deyildi. Qalanlardan 45 kişi «kircim və qayıqlar ilə dolananlar», 322-si ayrıca olaraq «şəhərdə qara işlə dolananlar», 78 kişi isə «arabaçı» kimi qeydə alınmışdı. Beləliklə, bir liman şəhəri kimi ildə yarım milyon manat mal dövriyyəsi olan Bakı şəhərində kişilərin 14 faizi birbaşa «qara fəhlə» (bunların içində yük daşımaqla məşğul olan hamballar az deyildi) zümrəsindən idi. Buraya 45 kircim və qayıqlarda avar çəkən və ya mal daşıyan işçi və 78 arabaçı qatılarsa, muzdlu əməklə məşğul olanların xüsusi çəkisi 18,6 faiz olur. Təbii, bu kiçik göstərici deyildir. Və XIX yüzilin



başlanğıcı üçün xas olan bu vəziyyət birdən-birə yarana bilməzdi. Yəqin ki, XVIII yüzilin sonunda da vəziyyət buna oxşar olmuşdu.

Bakı, Şəki, Şamaxı şəhərlərindəki manufaktur müəssisələri ilə yanaşı bir sıra sənətkarlıq emalatxanalarında, Naxçıvan duz mədənlərində, Salyan balıq vətəgəsində, Zəylikdəki zəy zavodunda bu və ya başqa ölçüdə muzdlu əmək tətbiq olunurdu. Bu sənaye sahələri Azərbaycanda kapitalist manufakturunu təmsil edirdi. 1864-cü ildə Balaxanı neft mədənində quyulara təhkim edilmiş kəndli icbari əməyinin ləğv edilməsi, həmçinin Naxçıvan duz mədənində və Zəylik zavodunda kəndlilərin icbari əməyinin istismarına son qoyulması, bütünlüklə azad muzdlu əməyin tətbiq edilməsinə keçilməsi kapitalisi manufaktur istehsalının fabriklərə çevrilməsi üçün yol açmış oldu.

1859-cu ildə Suraxanıda rus kapitalistləri ***Kokorev*** və ***Qubonin***in iri neft emalı zavodu işə salındı. Zavoda qoyulmuş 60 qazan, bütün avadanlıq baha qiymətə xaricdən alınmışdı. İşə salınandan beş il sonra burada ağ neft istehsalı 60 min puda çatmışdı.

1865-ci ildə Pirallahı adasında Tiflis əczaçısı ***Vitte*** bütün dəyəri 150 min manat olan parafin zavodu tikdirib işə saldı. Müəssisədə «Abşeron burnuna yaxın kəndlərin sakinlərindən» 150 adam işləyirdi. 5 il sonra «əbədi yanan» Suraxanı atəşgahı üzərində keçmiş neft iltizamçısı ***Mirzəyev*** fotogen zavodu tikdirdi. Yaxın 3 il içərisində bu müəssisə 93 min pud məhsul verdi. Adları çəkilən zavodların hər üçü yalnız muzdlu əməklə işləyən kapitalist müəssisələri idi.

1855-56-cı illərdə Anadoludan Azərbaycana köçmüş, kökcə yunan olan ***Mexov qardaşları*** Gədəbəydə mis yatağı açıldıqdan sonra, 14 min manatlıq (1,2 min pud) məhsul verən kiçik misəritmə zavodu tikdilər. 1864-cü ildə onun səhmləri prussiyalı ***Simens qardaşlarının*** əlinə keçdi. Əl əməyi ilə işləyən bu zavod «Simens qardaşları» şirkətinin özülü oldu, tezliklə güclü maşın müəssisəsinə çevrildi. On il ötdükdən sonra bütün Qafqazda misəritmə istehsalının 2/3-si artıq bu zavodun payına düşürdü. Əridilən misin çox böyük hissəsi Prussiyaya daşınırdı. Simens qardaşları adı çəkilən yunanlardan Daşkəsən kobalt mədənini də satın aldılar. 1865-ci ildə burada ayrıca kobalt zavodu tikildi. Sonrakı beş ildə bu müəssisə 31 min pud kobalt filizi çıxartmış, 1,3 min pud kobalt külçəsi istehsal etmişdi. İlk illərdə kobalt mədəni və zavodunda 100 muzdlu işçi çalışırdı.

Şəki ipəkçiliyi ilə bağlı buraya xaricdən böyük kapital axını başlandı. Əcnəbilər burada ipək alış-verişinə böyük pul qoymağa başladılar. 1858-60-cı illərdə Avropadan Şəki poçtuna: xarici şirkət nümayəndələrinin və yerli ipəkçilərin ünvanına 2,7 milyon manat pul köçürülmüşdü. Buradan xaricə çoxlu barama qurdu və ya baş barama satılırdı. Fransalı iş adamı ***Qarni*** isti hava ilə yaş baramanı qurudub presləmək üçün 400 fəhləsi olan

ayrıca bir fabrik tikdirib işə saldı. Bunun ardınca Moskva kapitalistlərindən ***Aleksandr*** və ***Voronin qardaşları*** 1861-ci ildə Şəkidə böyük bir ipək fabriki açdılar. Dəyəri 60 min manat olan bu fabrikin 432 dəzgahı, 64 barama hovuzu, par maşını var idi. Burada 222 usta, 300-350 fəhlə çalışırdı, sonuncuların 200-250-si qadınlar idi. Tezliklə fabrikin illik istehsalı 3,4 min puda (bunun 1,4 mini ipək sapı idi), dövriyyəsi isə 2 milyon manata çatdı.

Beləliklə, Azərbaycan iqtisadiyyatında XVIII yüzilin sonu, XIX yüzilin başlanğıcında muzdlu əməyin alqı-satqıya qoyulması özülündə kapitalist sənayesi yaranmağa başladı. 50-60-cı illərdə isə buxar qurğusu və muzdlu əməyin istismarına dayanan iri fabrik istehsalı ortaya çıxdı. Kapitalist münasibətlərinin yaranışı (genezisi), bunun ardınca çağdaş fabriklərin tikilib işə salınması, iltizam qaydaları və feodal xəzinə təsərrüfatçılığının son mərhələsində baş verdi. İltizam sistemi yeni fabrik istehsalının qarşısını ala bilmədiyi üçün, bu istehsaldan öncəki 30 il boyu ayrı-ayrı sahələrdə (neft, duz mədənləri, balıq vətəgələri, sənətkar emalatxanaları və s.) muzdlu əməyin tətbiq edilməsinə də mane ola bilmədi. Buna görə tarixşünaslıqda təkcə Azərbaycanda deyil, bütün Transqafqazda yeni ictimai münasibətlərin yaranmasını yalnız 50-70-ci illərə bağlamaq cəhdlərinin tutarlı elmi əsası yoxdur.

Söz yox, çarlıq Rusiyasının sümürgəc siyasəti, bütün diyarı öz iqtisadi müstəmləkəsinə çevirərək onun «iqtisadi fəth»inə girişməsi çağdaş mədən, ipək, neft işinin irəliləyişinə böyük təkan vermiş oldu. Bu olmasaydı, yeni ictimai münasibətlərin yaranıb genişlənməsi çox yavaş, «əziyyətli» bir yol keçəcəkdi.

Ancaq kapitalist istehsalının yaranışı buraya yalnız xaricdən gətirilməmişdir. Bu yaranışın ilkin cücərtiləri Azərbaycan, o sıradan Bakı iqtisadiyyatının öz bətnindən doğulmuş, XVIII yüzilin sonu – XIX yüzilin başlanğıcından özünü göstərməyə başlamışdır. Buna görə Azərbaycan iqtisadiyyatı ilə kapitalist istehsalı arasında heç bir bağlılıq görməmək, «Bakının kapitalist iqtisadiyyatı Azərbaycanın özünün ictimai-iqtisadi inkişafı ilə hazırlanmamışdı»* yazmaq tarixi baxımdan yanlışdır.

* Bax.: Azərbaycan tarixi. II cild. Bakı, 1964, s. 232.



*İYİRMİNCİ BÖLÜM*

# XIX ƏSR AZƏRBAYCAN MƏDƏNİYYƏTİ

## 1. MAARİF

**MƏKTƏB VƏ MƏDRƏSƏLƏR.** Ərəb işğalından və islamın qəbulundan sonra Azərbaycanda yeganə təhsil müəssisələri olan məktəb və mədrəsələr XIX əsrdə də qorunub saxlanırdı. Məktəb mahiyyətcə aşağı, mədrəsə isə yuxarı dərəcə hesab edilirdi. Məktəb, bir növ mədrəsəyə hazırlıq rolunu oynayırdı. Aşağı dərəcəli məktəblər demək olar ki, Azərbaycanın bütün böyük və kiçik kəndlərində mövcud idi. Başqa sözlə, indiyə qədər ənənəvi şəkildə qəbul edildiyi kimi, azərbaycanlılar arasında kütləvi savadsızlığın hökm sürməsindən danışmağa əsas yoxdur. Sadəcə olaraq onilliklər boyu «savad» anlayışı altında rus, yaxud Avropa təhsili nəzərdə tutulub. Unudulub ki, Şərqin, eləcə də Azərbaycanın öz təhsil sistemi olub. Yeri gəlmişkən, Lenin Kazan tatarlarının pravoslav ruslardan qat-qat savadlı olduqlarını etiraf edəndə ilk növbədə onların arasında geniş yayılmış məktəb və mədrəsə təhsilini əsas tuturdu. Təbii, Azərbaycanın demək olar hər bir kəndində belə təhsil ocaqlarının olduğu bir şəraitdə xalqın kütləvi savadsızlığından danışmaq tamamilə yersizdir.

Məktəblərdə təlim hərf-heca üsulu ilə, əsasən fars dilində aparılırdı. Şagirdlər əlifbanı öyrəndikdən sonra Qur'anın mexaniki surətdə öyrənilməsi başlanır, yalnız bundan sonra ana dilində oxu və yazı təliminə keçilirdi. Məktəblərdə fars dilinə mükəmməl yiyələnən şagirdlər ***Nizami, Hafiz, Sə'di*** kimi Şərq ədəbiyyatı korifeylərinin əsərləri, habelə İran tarixinə, şəriətə dair kitablarla tanış olurdular. Onlara hesab dairəsində də bilik verilirdi. Yazı təlimində *hüsnxəttə* xüsusi diqqət yetirilirdi. «Molla», «mirzə», yaxud da «axund» adlandırılan müəllimlərin əksəriyyəti din xadimləri idi. Məktəblərdə dini və dünyəvi biliklərin öyrənilməsi əsas yer tuturdu. Məktəblərin vahid proqramı, nizamnaməsi, təhsil müddəti yox idi. Dərslər fərdi qaydada aparılırdı. Dərs ilinin başlanması və qurtarması, habelə təhsil müddətinin başa çatdırılması qeyri-müəyyən idi. Şagirdlər yaşlarına görə sinif, yaxud qruplara bölünürdülər, təlimdə cəza üsulundan istifadə edilirdi.

Məktəblərin çoxu abadlıq, sanitariya-gigiyena baxımından tələblərə cavab vermirdi. Lakin bununla bir sırada abad məktəblər də vardı. Naxçıvan əyalətinin 1833-cü ilə dair statistik təsvirində belə tədris ocaqlarından biri haqqında deyilir: «Məktəb binası xüsusilə gözəldir. Bişmiş kərpicdən

tikilib. İçəridə dördkünc həyəti, çarhovuzu və suyun axması üçün daşdan düzəldilmiş arx vardır».

Məktəb şagirdlərinin bir qismi təhsillərini ali müsəlman təhsil müəssisəsi sayılan mədrəsədə davam etdirirdilər. Mədrəsə binaları daha böyük və abad idi. Burada yataqxana və pansionlar da olurdu. Məktəblərdə kiçicik təhsil haqqı tətbiq edildiyi halda mədrəsələr pulsuz idi. Mədrəsəyə 16 yaşından yuxarı, türk və fars dillərini bilən, ruhani olmağa hazırlaşan gənclər qəbul edilirdilər. Burada tədris edilən əsas fənlər ərəb dili, ilahiyyat və müsəlman hüquqşünaslığı idi. Bundan əlavə mədrəsələrdə tarix, psixologiya, məntiq, coğrafiya, hesab, riyaziyyat, həndəsəyə dair bilik verilirdi. Mədrəsəni bitirənlər ərəb dilinə mükəmməl yiyələnirdilər.

Tam olmayan məlumata görə 1842-ci ildə Azərbaycanda 713 məktəb və mədrəsə vardı. Burada 715 molla və müdərris 7306 şagirdin təhsili ilə məşğul olurdu. 1858-ci ildə təkcə Şamaxı quberniyasında 4700 şagirdin təhsil aldığı 299 məktəb və mədrəsə fəaliyyət göstərirdi. 1853-cü ildə Nuxa qəzasında 153, 1859-cu ildə isə 168 məktəb və mədrəsənin olması mənbələrdə qeydə alınmışdır. Şagirdlərin sayı ilə illər üzrə müvafiq surətdə 1389 və 1443 nəfər olmuşdu. «Kavkaz» qəzeti bu bölgədəki maarif şəbəkəsinin genişliyini qeyd edərək yazırdı: «Nuxada qəza məktəblərindən başqa hər bir məscid nəzdində məktəb vardı ki, burada mollalar oğlan uşaqlarına tatarca savad öyrədirlər... Hətta qadınların da öz evlərində məktəbləri vardır ki, burada nəinki qızları, həm də oğlanları oxudurlar». Məscid məktəbləri Azərbaycanın Lənkəran, Qazax, Gəncə, Abşeron, Naxçıvan, Ordubad bölgələrində də geniş yayılmışdı. Bu məktəblər bir qayda olaraq humanitar təhsil verirdilər. «Koroğlu» dastanının ilk tədqiqatçısı ***İ.Şopen*** Naxçıvan məktəbləri ilə tanışlıqdan sonra yazırdı: «Gənclər bədii ədəbiyyatla daha çox məşğul olurlar. Onlardan bir çoxu ***Rudəki, Hafiz, Firdovsi, Ənvari, Cami, Sə'di*** və digər məşhur şairlərin əsərlərini əzbərdən bilirlər». Maraqlıdır ki, yarımköçəri əhalinin yaşadığı bölgələrdəki bəzi məktəblərdə at çapmaq, tüfəng atmaq və s. uşaqların məktəb tərbiyəsində mühüm yer tuturdu. Bir sözlə, məktəb və mədrəsə təhsili Şərq və milli adət-ən'ənələr çərçivəsində şagirdlərə bilik və vərdişlər aşılayır, onların şüur və zövqlərinin formalaşmasına yardım edirdi.

**QƏZA MƏKTƏBLƏRİ.** Azərbaycanın işğalından sonra çarizm burada öz müstəmləkəçilik siyasətini həyata keçirmək üçün həm yerli dilləri, həm də rus dilini bilən mütəxəssislərə böyük ehtiyac duyurdu. Azərbaycanda və bütövlükdə Qafqazda rusca təhsil verən qəza məktəblərinin açılması həmin ehtiyacdan doğmuşdu. 1829-cu ilin avqustunda «Zaqafqaziya məktəbləri barəsində nizamnamə» təsdiq edilmişdi. Həmin nizamnaməyə görə Azərbaycanın *Gəncə, Şuşa, Nuxa, Şamaxı, Quba, Bakı, Naxçıvan,*



*Ordubad* kimi şəhərlərində təhsilin rus dilində aparıldığı qəza məktəblərinin açılması nəzərdə tutulurdu. Ordubad istisna olunmaqla qalan şəhərlərdə 1830-1837-ci illərdə qəza məktəblərinin təşkili başa çatdırılmışdı. Bu məktəblər əvvəlcə ikisinifli, 1835-ci il nizamnaməsi qəbul edildəndən sonra isə üçsinifli idi. Rus dilini, hesabı, tarix və coğrafiyanı rus müəllimlər, ana dili və şəriəti isə yerli müəllimlər tədris edirdilər. Xalq arasında bu məktəblərə maraq böyük idi. Azərbaycanlı əhalinin həmin məktəblərin təşkili və təchizi üçün yardım göstərməsi barəsində çoxlu faktlar mövcuddur. 1837-ci ildə qəza məktəblərində təhsil alan 342 şagirddən 132-si azərbaycanlılar idi. 1854-cü ildə Qafqazda ilk dəfə olaraq quberniya mərkəzi Şamaxıda dörd sinifli ali ibtidai məktəb açılmışdı. Təşkil edildiyi il məktəbin 118 şagirdindən 17 nəfəri, 1858-ci ildə isə 144 nəfərdən 32 nəfəri azərbaycanlılar idi. 1859-cu il zəlzələsindən sonra məktəb yeni quberniya mərkəzi olan Bakıya köçürülmüşdü. Şamaxı ali ibtidai məktəbinin yetirmələri içərisində gələcəyin görkəmli təbiətşünas-alimi, jurnalist və ictimai xadim ***Həsənbəy Zərdabi*** də var idi.

**MÜSƏLMAN MƏKTƏBLƏRİ.** XIX əsrin 30-cu illərindən milli dildə dünyəvi təhsil verən məktəblərə ehtiyac durmadan artırdı. Bakıda açılması nəzərdə tutulan belə bir tədris müəssisəsinin layihəsini ilk dəfə 1832-ci ildə *Abbasqulu ağa Bakıxanov* hazırlamışdı. Lakin həmin layihə cavabsız qaldı. Aradan 15 il keçəndən sonra ilk belə məktəblər 1847-ci ildə Tiflisdə açıldı. Şiələrin və sünnilərin ayrılıqda təhsil almasını nəzərdə tutan bu maarif ocaqları tezliklə «Əli məktəbi» və «Ömər məktəbi» adları ilə tanındı. Məktəbin proqramına türk, fars, ərəb, rus dilləri, hesab, tarix, coğrafiya, islam və rus qanunşünaslığı və s. daxil idi. Şərq dilləri və şəriətə dair dərsləri azərbaycanlı müəllim, qalan dərsləri yerli dilləri bilən ruslar və b. aparırdılar. Məsələn, Tiflis şiə məktəbinin müsəlman kursu üzrə müəllimi tanınmış şair ***Fazil xan Şeyda***, rus kursu üzrə müəllimi isə Kazan universitetinin məzunu ***İ.Qriqoryev*** idi.

Tiflisdəki müsəlman məktəblərinin xalq arasında rəğbətlə qarşılanması bu təhsil şəbəkəsinin geniş yayılmasına imkan yaratdı. 1849-cu ilin aprelində Azərbaycan ərazisində ilk dəfə Gəncədə belə məktəb açıldı. Onun 22 şagirdi var idi. «Kavkaz» qəzetinin yazdığına görə «burada gənc müsəlmanlar qısa müddət ərzində rus, fars və tatar dillərinin öyrənilməsində təqdirəlayiq müvəffəqiyyətlər qazanmışdılar». Gəncənin ardınca Şuşada, Şamaxıda (ayrıca olaraq şiələr və sünnülər üçün), Bakıda, Dərbənddə, 1850-ci ildə isə Lənkəranda və Salyanda müsəlman məktəbləri açıldı. 1853-cü ildə isə belə məktəb Zaqatalada təşkil edildi. Müəllim çatışmazlığı ucbatından müsəlman məktəblərinin rus kursunu əksər hallarda qəza məktəblərinin müəllimləri aparırdılar. Bu tədris müəssisələri üçün

dərslik hazırlanması da tamamilə diqqətdən kənarda qalmışdı. Lakin buna baxmayaraq xalq özünə daha yaxın və münasib saydığı müsəlman məktəblərinə maraq göstərirdi. 1850-ci ildə Azərbaycan ərazisindəki 12 qəza məktəbində 165 azərbaycanlı şagird olduğu halda, 11 müsəlman məktəbində (Nuxa istisna olunmaqla) 586 şagird təhsil alırdı. Lakin çar hökumətinin ögey münasibəti, maddi bazanın zəifliyi ucbatından 50-ci illərin ikinci yarısından etibarən Azərbaycandakı müsəlman məktəbləri bir-birinin ardınca bağlanmağa başladılar. Onların fəaliyyəti və təcrübəsi müəyyən mənada əsrin sonlarında yaradılan «rus-tatar» məktəbləri üçün nümunə oldu.

**QADIN TƏHSİLİ.** XIX yüzilin əvvəllərində Azərbaycanda *qadın təhsili* sahəsində də ilk addımlar atılmışdı. Lakin xüsusi məktəblər olmadığından qızlar evlərdə ayrı-ayrı şəxslərdən savad alırdılar. 1836-cı ildə çap olunmuş «Qafqaz arxasındakı rus əyalətlərinin icmalı» kitabında Bakıda, İçərişəhərdə iki qadın müəllimənin yanında 25 nəfər qızın təhsil aldığı göstərilir. ***N.S.Stepanovanın*** «İki il Qafqazda» xatirələri «ev məktəbləri» haqqında təsəvvür yaradır. O yazır: «Bakıda olarkən Xırdaxanım adlı bir qadının öz evində təşkil etdiyi məktəbə getdim. 5 qıza dərs verir. Dediyinə görə ana dili, hesab, fars dili, tarix, nəğmə, rəsm, Qur'an və şəriət dərslərini keçir... Sonra qızların çəkdikləri şəkillərə, hazırladıqları tikmələrə baxdım. Adam inana bilmir ki, bu qızları öyrədən müəllimə xanım adicə ev qadınıdır». Şamaxıda ***Güllübəyim xanımın*** ev məktəbi də N.S.Stepanovanın diqqətini cəlb etmişdi: «... Məktəb iki kiçik otaqdan ibarət idi. Şagirdlər gözəl xətlə yazır, rəvan oxuyurdular. Onların çəkdiyi şəkillər, tikdiyi tikmələr çox xoşuma gəldi». Gəncədə, Şuşada, Nuxada da bu cür məktəblər var idi. 1860-cı ildə Gəncədə 11 müəllimənin yanında 60-a yaxın azərbaycanlı qız təhsil alırdı.

Azərbaycanda ilk rus qız məktəbi 1848-ci ilin aprelində «Müqəddəs Nina» xeyriyyə cəmiyyəti tərəfindən quberniya mərkəzi Şamaxıda təsis olunmuşdu. Təhsilin rus dilində aparıldığı bu məktəbdə Azərbaycanın əsilzadə ailələri də təmsil edilmişdi. Burada şəriət, hesab, rus dili, coğrafiya, tarix, fransız dili, hüsnxətt, əl işləri və s. tədris olunurdu. 1860-cı ildə «Müqəddəs Nina» qız məktəbi Bakıya köçürülmüşdü.

**ORTA MƏKTƏBLƏR.** 1829-cu il nizamnaməsi üçün Güney Qafqazda yalnız bir orta təhsil müəssisəsinin – Tiflis gimnaziyasının yaradılmasını nəzərdə tuturdu. 40-cı illərdə Şamaxıda gimnaziya açmaq təşəbbüsü uğurla nəticələnmədi. Təhkimçilik hüququnun ləğvindən sonra keçirilən məktəb islahatı nəticəsində yalnız 1865-ci ildə Bakıda dörd sinifli məktəb realnı gimnaziyaya çevrildi və onun tam təşkili 1869-cu ildə başa çatdı.



Gimnaziyanın ilk altı məzunu 1871-ci ildə Rusiyanın ali məktəblərinə qəbul edildilər. Gimnaziyada orta təhsil proqramına daxil olan bütün fənlər, habelə türk, fransız, ingilis, alman dilləri tədris olunurdu. Bu dövrdə Azərbaycanda fəaliyyət göstərən başqa bir natamam orta təhsil müəssisəsi 1870-ci ildə təşkil edilən *Gəncə progimnaziyası* idi. 70-ci illərdə Şuşada gimnaziya açmaq təşəbbüsləri səmərəsiz qalmışdı. Uzun müddət Azərbaycanda yeganə orta təhsil müəssisəsi olan *Bakı gimnaziyasının* müəllim və tələbələri təkcə milli təhsilin deyil, milli teatr və mətbuatın, xeyriyyəçilik hərəkatının inkişafında mühüm rol oynamışlar.

**DƏRSLİKLƏR.** Milli maarifin qarşısında dayanan ciddi problemlərdən biri də dərsliklərlə bağlı idi. 1819-cu ildən Transqafqazın bütün məktəblərində, 1835-ci ildən isə şərqşünaslıq təhsili verən Rusiya universitetlərində tədris olunan Azərbaycan dilindən dərs kitablarına böyük ehtiyac duyulurdu. Ana dilimizlə bağlı dərsliklərin və dərs vəsaitlərinin böyük bir qismi Azərbaycan hüdudlarından kənarda – Tiflisdə, Kazanda, Novorossiyskdə, Peterburqda yaradılmış və çap edilmişdi. Transqafqaz məktəbləri direktoru vəzifəsini ifa edən ***N.Dementyevin*** 1839-cu ildə nəşr olunan «Yazı nümunələri» («Əlifba») və «İlk oxu üçün təmsillər və povestlər» kitabı bu sahədə ilk vəsaitlər sayıla bilər. Bu vəsaitlər çox guman ki, həmin dövrdə Tiflis qəza məktəbində Azərbaycan dili və şəriət müəllimi vəzifəsində çalışan ***M.F.Axundovun*** yaxından köməyi ilə hazırlanmışdı. Tiflis gimnaziyasının Azərbaycan dili müəllimi ***Mirzə Yusif Şahnəzərovun*** «Ərəb, fars, türk və Azərbaycan dillərində danışıq qaydaları», «Yazı qaydaları», «Tatar əlifbası», «Oxu nümunələri», Tiflis qəza məktəbinin müəllimləri ***İ.Qriqoryev*** və ***M.Ş.Vazehin*** «Müntəxəbat», yenə ***İ.Qriqoryevin*** «Müsəlmanlar üçün rus əlifbası», «Fars ədəbiyyatı haqqında mülahizələr», Qori qəza məktəbinin nəzarətçisi ***İ.Mizandarovun*** «Tatar müntəxəbatı», «Tatar əlifbası» və «Müntəxabat» Tiflis gimnaziyasının müəllimlərindən ***M.Makarovun*** «Qafqaz ləhcəsində tatar qrammatikası», ***L.Budaqovun*** «Türk-tatar müntəxabatı», ***A.Bakıxanovun*** «Qanuni-Qüdsi», «Fars dilinin müxtəsər qrammatikası», Transqafqaz məktəbləri direktoru ***E.Qruberin*** tərtib etdiyi 120 dərsdən ibarət türkcə-rusca danışıq kitabçası və s. vəsaitlər gimnaziya və qəza məktəblərində mühüm rol oynayırdılar. Görkəmli şərqşünas, Kazan universitetinin professoru Mirzə Kazımbəy, 1839-cu ildə çap olunan «Türk-tatar dilinin qrammatikası» (1846-cı ildə çıxan ikinci nəşr «Türk-tatar dillərinin ümumi qrammatikası» adlanırdı – *Red.*) və Novorossiysk gimnaziyasının müəllimi ***M.Ə.Vəzirovun*** «Tatar-Azərbaycan dili dərsliyi. Müntəxabatla birlikdə» (1861) kitabları Azərbaycan türkcəsinin, qismən də bu dildə yaradılmış ədəbiyyatın elmi prinsiplərlə tədrisinə və öyrənilməsinə şərait yaratmışdı. Məktəblərdə adı bəlli olmayan bir müəllifin hüsnxətt

dərsliyindən də istifadə olunurdu. 40-cı illərdə şəriətə dair dərslik hazırlamaq təşəbbüsü göstərilmişdisə də, bu təşəbbüs gerçək olmamışdı. Çoxu 30-60-cı illərdə hazırlanmış və Peterburq Elmlər Akademiyasının müzakirəsindən keçmiş dil dərslikləri isə XIX əsrin 80-ci illərinə kimi Azərbaycan məktəblərində geniş istifadə olunmuşdu. Bu dərslik və vəsaitlər daha çox başqa millətlərdən olan şagirdlərin türkcəni öyrənilmələrinə xidmət etdiyindən milli məktəbin tələblərinə tam cavab vermirdilər.

**AZƏRBAYCAN TÜRKCƏSİ DÖVLƏTLƏR VƏ MİLLƏTLƏRARASI ÜNSİYYƏT DİLİ KİMİ.** Artıq rusların Qafqaza ilk çıxışları burada müxtəlif kökdən olan xalqların bir universal anlaşma dili işlətməkdə olduğunu üzə çıxardı. Bu, Azərbaycan türkcəsi idi. Bununla bağlı olaraq I Pyotr Xəzər üzərinə öz yürüşünün səbəb və məqsədini ayrıca bir «manifest» ilə bu dildə yazıb bildirmişdi. Bütün XVIII yüzil boyu Quzey Qafqazda, Kuban və Terek çayları yörəsində yaşayan xalqlar ilə Rusiya imperatorluğu arasında yazışma başlıca olaraq bu dildə gedirdi. 1786-cı ildə buradan göndərilən bir məktubun dili buna örnək sayıla bilər: «Biz əşağıdə qol qoyan kimsənələr şövkətlü, qüdrətlü imperatoriçeyi-üzəma, bil-istiqlal külli-məmalik aliyeyi – Rusiyyə padişahımız Yekaterinə Ələkseyevna həzrətlərinin ə'la payitəxt turabinə yüz sürüb və başlarımızı endirib...» və s. Çox maraqlıdır ki, Azərbaycanda yaşamayan və türkcə danışmayan xalqların alış-veriş adamları 1787-ci ildə Gürcü çarından Rusiya baş komandanına diləkcəni də bizim türkcədə yazırdılar: «Sərdar-ül-əzim-üşşan general-porutçik Pavel Sergeyeviç Potyomkin cənablarına bəndələrin ərz-halımız budur ki, mündan müqəddəm beşinci sənədə bizlər aznavur qabağində dört nəfər adam tüccarlıq təriqilə Tiflisə varduğımızdə İrakli xan bizlərin mallarımızı böyük qabartılar üçün bir əmtəə edübdür...»

Rusiyanın Qədim Sənədlər Mərkəzi Dövlət Arxivində belə qaynaqların sayı bir neçə mindir. Yalnız 1783-1787-ci illərdə, yəni beş ildə Potyomkin və başqa çar məmurları ünvanına göndərilən 925 yazıdan 816-sı və ya 88,2 faizi, dilçilərin yazdığı kimi, «azərbaycanca-türkcə» yazılmışdır. Onların arasında Azərbaycanın böyük dövlət adamları Fətəli xanın, İbrahim xanın və Hüseyn xanın yazıları var. Ancaq Quba xanlığı başçısının Rusiya dövləti ilə yazışması ana türkcədə, Qarabağ və Şəki xanlarının yazışması isə farscadır.

Qafqazın tam çökdürülməsinə kimi bu durum dəyişilməz qalırdı. Yalnız dövlət məmurları deyil, Rusiyanın görkəmli ziyalıları və bilik adamları da bunu heyrətlə qeyd edirdilər. Böyük şair ***M.Y.Lermontov*** öyrənməyə başladığı Azərbaycan türkcəsini («tatarcanı») «Asiya fransızcası» adlandırır; ***A.A.Bestujev-Marlinski*** isə bu dil ilə «bütün Asiyanı başdan başa dolaşmaq olar» yazırdı. Azərbaycan türkcəsinin millətlərarası ünsiyyət dili kimi çıxış etməkdə olduğunu ***Xaçatur Abovyan*** da etiraf etmişdir. «Ermənistanın yaraları» kitabında o, ermənilərdə «hər hansı bir təntənəli toplantı və ya toy [olardısa] türkcə oxuyardılar» yazır.



Bu müəllif, «Türkü lənətə gəlsin, amma onun dili [Tanrı] xeyir-duası görmüşdür» yazmaqla, osmanlılardan deyil, «İrəvan türklərindən» söhbət getdiyini bildirir. Ancaq bildirməyə də bilərdi. Çünki Azərbaycan türkcəsindən alınmış onlarca ata sözlərimizi olduğu kimi işlətmişdir: «Kef sanın, kənd kövxanın», «Bilana bir, bilmiana bin», «Yoldan çıxanın gözi çıxar», «Keşiş, belə iş!» və s.

Qafqaza gəlmiş Almaniya bilik adamı ***Avqust fon Hakstauzen*** bu fenomeni aşağıdakı sözlərlə izah etmək istəmişdir: «Ermənilər erməni dilində yox, tatar (türk - *Red.*) danışıq dilində mahnı qoşarlar, çünki bu dil Qafqaz güneyindəki xalqlar arasında ***ünsiyyət, ticarət*** və ***qarşılıqlı anlaşma*** dilidir. Bu baxımdan onu Avropada fransız dili ilə müqayisə etmək olar. Bununla yanaşı o, özəl bir poeziya dilidir, bu isə, çox güman, erməni dilində şeirlərin az yayılması səbəblərindən biridir: ən məşhur erməni şairləri öz əsərlərini geniş yaymaq üçün həmişə tatar dilində yazırdılar».

Çar hökuməti Azərbaycan türkcəsinin rus xəzinə məktəblərində öyrənilməsinə də icazə verməli olmuşdu. Transqafqazda hökumət işinə yararlı ola biləcək kadrlar hazırlamaq üçün 1802-ci ildə Tiflisdə ayrıca bir məktəb açıldı (1829-cu ildən gimnaziya oldu). Bu məktəbdə artıq 1819-cu ildən, Qafqazda ən çox yayılmış bir dil olduğu üçün Azərbaycan türkcəsi keçilməyə başlandı. Bundan 30 il sonra (1855-ci ildə) Qafqaz canişinliyindən Rusiya maarif nazirliyinə yerli kadr hazırlığı ilə bağlı yazılmışdı: «Gürcü dili Tiflis və Kutais quberniyalarının yalnız müəyyən yerlərində məmurlar üçün əlverişli ola bilər; tatar dili isə Qafqazın başqa bölgələrində və bütünlüklə Qafqaz ölkəsində yararlıdır».

Transqafqaz uğrunda öz dava-şavasını hələ başa vurmayan çarlıq Rusiyası iqtisadi siyasət ilə bağlı bir sıra mühüm sənədləri yenə Azərbaycan türkcəsində yaymağa çalışırdı. 30 may və 25 iyul 1817-ci il tarixli imperator buyruqları buna örnəkdir. Bu buyruqlar Rusiyanın tabe etdiyi xalqlar içərisində məhz Azərbaycan türklərinin dilinə çevrilmiş və «***Asiya sövdası üçün bacxanə qanunları***» adı ilə 1830-cu ildə Sankt-Peterburqda çap edilmişdi.

50-ci illərin sonunda Qafqazın siyasi fəthini başa çatdıran Rusiya, bütün sahələrdə geniş və ardıcıl ruslaşma siyasətinə keçdi. Bununla bağlı millətlərarası qarşılıqlı anlaşma və ticarət dili olan Azərbaycan türkcəsi sıxışdırılmağa başlandı. Dilimiz üstünə saysız yasaq və qadağalar qoyuldu. Rəsmi yazışma, dəftərxana və idarəçilik qapıları onun üzünə bütünlüklə qapanmış oldu.

## 2. ƏDƏBİYYAT

**ƏDƏBİYYATIN YENİ DURUMUNA ÜMUMİ BAXIŞ.** XIX əsrdə Azərbaycan ədəbiyyatı özünün tamamilə yeni inkişaf mərhələsinə qədəm qoydu. Ədəbiyyat yeni forma və janrlarla zənginləşmiş, onun siyasi-ictimai məzmunu gözə çarpacaq ölçüdə genişlənmişdi. Vaxtı keçmiş ənənələr, epiqonçuluq öz yerini yeni bədii axtarışlara vermiş, mətbuatın, kitab nəşrinin meydana çıxması və yayılması bədii sözün nüfuz və təsir dairəsini böyütmüşdü. Azərbaycan ədəbiyyatı öz şərq köklərini saxlamaqla ümumdünya ədəbi axarına qoşulmuş, ədəbi əlaqələrdə böyük bir canlanma yaranmışdı. Tərcümə sənətinin inkişafı sayəsində Azərbaycan ədəbiyyatı nümunələri rus və xarici dillərə, Avropa və rus ədəbiyyatının bəzi nümunələri isə türkcəyə çevrilmişdi. Dramaturgiyanın, əbədi tənqid, publisistika və ictimai məzmunlu satiranın milli ədəbiyyata gəlməsi sayəsində Azərbaycan bədii fikri çağdaş xüsusiyyətlər kəsb etmişdi. İstər dil, istərsə də forma, məzmun və üslub baxımından ədəbiyyatda gedən demokratikləşmə prosesi onu xalqa yaxınlaşdırdı. Bədii sözün mövzu dairəsi əhəmiyyətli dərəcədə genişləndi, klassik poeziyanın ənənəvi personajlarının yerini bilavasitə xalq həyatından alınmış surət və xarakterlər tutdu. Ədəbiyyatda ilk dəfə xalqın keçmişinə, mövcud vəziyyətinə maraq geniş şəkil aldı. Sənətkarların saray mühitindən uzaqlaşmaları, ictimai-siyasi həyatla yaxından maraqlanmaları günün bir sıra vacib problemlərini bədii ədəbiyyatın mövzusuna çevirməyə imkan verdi. Azərbaycan ağır müstəmləkə üsuli-idarəsi altında idi. Ancaq bu tarixi dövrdə ədəbiyyatda xalq, vətən, yurd, millət anlaışları yaranıb ortaya gəldi. Qafqazda və qismən Yaxın Şərqdə ümumi ünsiyyət dilinə – «Asiyanın fransızcasına» çevrilən Azərbaycan türkcəsinin mənəvi dəyəri yüksəldi.

**SİYASİ SARSINTILAR VƏ ƏDƏBİYYAT.** Azərbaycan ədəbiyyatı keçmiş yüzillərdə olduğu kimi, xalqın bütün zümrələrini təmsil edirdi. Bununla yanaşı, XIX yüzilin söz sənətində hakim xan və bəy zümrəsi üstün yer tuturdu. Çünki xanlıq çağında bu zümrə çox yüksək, aparıcı bir durum qazanmış idi. Xan, bəy oğulları yalnız dövlət qurumlarında deyil, söz sənətində, cəmiyyətin mənəvi həyatında irəlidə olmaq üçün bütün imkanları əllərində saxlayırdılar.

Yüksək zümrədən olan ***Qasım bəy Zakir, Abbasqulu ağa Bakıxanov*** və onun qızı ***Tuğra xanım, Əbülfət xan Tuti*** (İbrahim xanın oğlu), ***Ağabəyim ağa*** (xanın qızı), ***Cəfərqulu xan Nəva*** (xanın nəvəsi, Məhəmmədhəsən ağanın oğlu), ***Əbdürrəhman ağa Dilbaz oğlu, Mustafa ağa Arif, Kazım ağa Salik, Məhəmməd bəy Cavanşir, Mehribanlı Baba bəy, Hüseyn xan Müştaq*** (Şəki xanı, Çələbi xanın nəvəsi), ***Ağaəli bəy***



***Naseh, Abdulla bəy Asi, Hüseyn bəy Salar, Bəybaba Əliyar bəy oğlu Fəna*** və qızı ***Kəminə xanım, Xurşudbanu Natəvan*** («Xan qızı»), ***Kərim ağa Fateh*** (Şəki xan nəslindən), ***İsmayıl bəy Qutqaşınlı, Mirzəcan bəy Mədətov*** kimi şair və yazıçıların hər birinin öz yeri vardı. Adı çəkilən ədiblərin yaşayışı sosial-siyasi baxımdan eyni deyildi və eyni ola da bilməzdi. Lakin yüzilliyin başında olan siyasi sarsıntılar bu və ya başqa ölçüdə onların hamısına toxunmuş, bəzilərini isə yaxıb dağlamışdı.

Milli ədəbiyyat o illərin kəskin çarpışmalarından kənarda deyildi, onlara göz yummamışdı. Güney Azərbaycan şairi ***Aciz*** «Rumu İran xəlqi» arasında birliyi (1810-cu il Türkiyə-İran ittifaqı) sevinclə qarşılayıb yazmışdı:

Tapdı ülfət iki dövlət, gəldi elçi Rumidən,
Vəh, nə elçi, gövhəri-zatı kimi adı nəcib.

Əbülfət xan Tuti, bacısı Ağabəyim ağa ilə (onu xan özü şaha «əqdinikah» etmişdi) Fətəli şahın sarayına göndərilmişdi. Onlar dağıdıcı Qacar yürüşlərindən sonra Qarabağ xanlığının İran ilə münasibətlərini yoluna qoymaq üçün, bir növ qurban verilmiş idilər. Doğrudur, Ağabəyim ağanın ağlına və gözəlliyinə vurulan şah, onu «banuyi hərəm» və bütün hərəmdə yaşayanlara başçı qoymuşdu: Əbülfət ağaya isə xanlıq vermiş, Əmirülümərə rütbəsilə «məclisi-xass» üzvlərindən biri etmişdi. Onların yazılarında Vətən, el-oba niskili başlıca yer tutur:

Çəkib əl xəlqdən Məcnunsifət səhraya üz qoydum,
Kəsilmiş səbrü tabım, vəsləti-Leyladan ayrıldım.

*(Əbülfət xan, «qəzəl-i türki»)*

Və ya:

Əzizinəm Qarabağ,
Şəki, Şirvan, Qarabağ.
Tehran cənnətə dönsə
Yaddan çıxmaz Qarabağ

*(Ağabəyim ağa, bayatı)*

Cəfərqulu xan Nəvanı isə siyasi burulğan havası sürgünə atmışdı. Qarabağ xanlığı uğrunda gizli və açıq çəkişmədə Rusiya komandanlığına bel bağlaması ona çox baha başa gəldi: «... çox hiylə və dəsisələr və pürfəsad tədbirlər işlətdisə də, nəticə bəxş olmadı» (*Firidun bəy Köçərli*). Tutulub «gözdustağı» halında Simbirskə sürgün edildi. Qarabağ şairi ***Canıoğlu***, Cəfərqulu xanın «məhbusvar» aparılmasına ayrıca bir şeir yazmışdı (... Oldu viranə könül kişvəri sultan gedəli /Yəni sərdari-cahan, sərvəri dövran gedəli). Beş ildən sonra çar onu bağışladı, polkovnik rütbəsində Qarabağa qayıtmasına icazə verdi. Çar hökumətinə qarşı müxalif düşüncələri hər zaman gizlədə bilmir, Rusiya qarşısında qulluq tutub xalqın içinə çəkişmə salanları, o sıradan ruhaniləri qamçılayırdı:

Sən necə zamin olurdun, kişi, dava olmaz,
Bu sözü rus yanında dediniz həm, qazi.
Siz məgər halını öz əhlinizin bilməzsiz,
Zərrəcə bəd əməlindən eləməz qəm, qazi.
Özgə davada olan kəslər alır simü zəri,
Qırdırır Şişəlini müftü müsəlman qazi.

Cəfərqulu xan Qasım bəy Zakirlə yaxın imiş. Xanın bu yazısı Zakirin düşüncələri ilə səsləşdiyindən o, mövzünü vurğulayıb belə cavab vermişdi:

Təbrizin ağı ucuz, miri-vilayət qafil,
Hər əlifbey deyəni qıldı müəmməm qazi.
Dəxi divani-rəiyyət belə getsə, qalmaz,
Bu Qarabağı edər cümlə mükərrəm qazi.

Siyasi durumun yox etdiyi ədiblərimizdən biri də ***Mustafa ağa Arif*** idi. O, Qazax mahalının Şıxlı kəndində 1774-cü ildə doğulmuşdur. Kazım ağa Salikin böyük qardaşı və ya əmisioğludur. Mustafa ağa «öz qeyrət və millətpərəstliyi ucundan çox bəlalar və müsibətlərə düçar olublar» (*Firidun bəy Köçərli*). Şəmsəddinlü ***Nəsib Sultan*** ilə yaxın olmuş, onunla birlikdə suçlanıb Kazana sürgün edilmiş, orada da dünyasını dəyişmişdir. Sürgündə belə «bəyli, paşalı» keçmişi, «ağalıq, sultanlıq, xanlıq» çağının Rusiya işğalı ilə yox edildiyini söyləməkdən çəkinməmişdir:

Ellərimiz vardı bəyli, paşalı,
Dağlarımız vardı əlvan meşəli.
Süsənli, sünbüllü, tər bənövşəli,
Qaldı bağlar, xiyabanlar, ağlaram...

Dad eylərəm, yetən yoxdu fəryada,
Dərdim olur gündən günə ziyada.
Ağlaram hər zaman düşəndə yada,
Bizim Qazax-Qaramanlar, ağlaram.

Qaldı paydar Borçalının bəyləri,
Meydan günü bir-birindən yekləri.
Mehman qarşısında mərd gəlməkləri,
Yadıma düşəndə onlar, ağlaram.

Hanı Qazax? Mehribanlıq gedibdir,
Ağalıq, sultanlıq, xanlıq gedibdir.
Nücəbadan alişanlıq gedibdir,
İtibdir şövkətü şanlar, ağlaram.



Siyasi sarsıntıların odu Qasım bəy Zakir, Abbasqulu ağa Bakıxanov kimi böyük şəxslərin yaşayışını da yaxıb keçmişdi. Bunlardan birincisi yalnız Mirzə Fətəli Axundov, çarlıq Rusiyası generalları İsmayıl bəy Qutqaşınlı və ***Həsən bəy Ağalarov*** kimi irəlidə gedən adamlarımızın qeyrəti ilə sürgündə çürüdülmədi. İkinciçi isə gənc yaşında polkovnik rütbəsi almasına baxmayaraq, çar siyasəti ilə barışa bilməmiş (ən çox 1837-ci il Quba üsyanı ilə bağlı), istefa verib Məkkeyi-mükərrəmə Həcc ziyarəti etdikdən sonra qürbətdə son mənzilini tapmışdır.

**GƏNCƏ SAVAŞI SÖZ SƏNƏTİNDƏ.** Gəncə savaşı bədii söz sənətində dərin iz buraxmışdır. Artıq Gəncə şairi ***Həsən*** Cavad xanı dastani bir qəhrəman kimi ağlayırdı:

Baydakları bürc üstündə qurdular,
Tifil uşaqları hamı qırdılar.
O zaman ki, Cavad xanı vurdular,
Sanasan qırıldı beli Gəncənin.

Cavad xana qoşulmuş başqa bir nəzm parçası epik qavrayışa örnək sayıla bilər:

Bir gecə yol buldular rusilər aşdı qalədən,
Su yerinə ol zaman qanlar axardı qalədən,
Ol Uğurlu xan* ilə xanlar ki, qaçdı qalədən,
Bildi ayrı düşdüyün fərzənd-i xoş dildardan.
Qaldı tənha ol Cavad xan gör necə ad eylədi,
İki bürcün saldatın çox qırdı bərbad eylədi.

Mirzə Yusif Nersesov yazır: «Cavad xanın qətli barəsində türk dillərində çoxlu şeirlər və beytlər deyilmişdir». Örnək olaraq verdiyi «türkcə» parçada yerli nəfəs duyulmaqdadır:

Cavad xan! Bu nə olacaq –
Dildən dilə söylənəcək.
Cavad xan bir xan olacaq,
Aləmdə dastan olacaq.

Sonra tarixçi, «qalanın alınması osmanlıca belə təsvir olunur» yazaraq başqa bir örnəyə üz tutur:

Sərasgərdir Əmin paşa,
Hökmün keçər dağa daşa...
Həp əsir olduq gavur elində... və s.

* Cavad xanın başqa bir oğlunun adıdır – *Red.*

Sonuncu iki örnəyin daha bir dəyəri var: XIX yüzilin başlanğıcında sadəcə «türkcə» dedikdə Azərbaycan türkcəsi nəzərdə tutulur, Anadolu türkcəsi isə tarixən yaranmış bir ənənəyə uyğun olaraq «osmanlıca» adlanırdı.

**ƏBDÜRRƏHMAN AĞA DİLBAZ OĞLUNUN MÜXƏMMƏSİ.** Şair Əbdürrəhman ağa Dilbaz oğlunu Firidun bəy Köçərli haqlı olaraq «millət bahadırlarından» biri saymışdır. O, Qazax mahalının *Xanlıqlar* kəndində doğulmuşdur. Görünür, gəncliyindən Gəncə uğrunda gedən mübarizəyə qoşulmuş, onun Azərbaycandan qoparılmasına qarşı qeyrətlə çalışmışdır. Deyilənlərə görə, Cavad xan ilə yaxınlıq etdiyi, Qazax mahalının Gürcüstanda deyil, Gəncə xanlığında olması yolunda bir sıra gizli işlər tutduğuna görə Kaxet-Kartli çarı II İrakli tərəfindən gözləri çıxarılıb kor edilmişdi. Lakin şairin vətəndaş düşüncəsi yurdumuzun o fəlakətli çağını gözü görənlərdən daha kəskin, daha dərin duyub anlaya bilirdi.

Mühacir tarixçimiz ***Hüseyn Baykara*** Əbdürrəhman ağa Dilbaz oğlunun Gəncə savaşı haqqında ayrıca bir beytini xatırladır:

Bir olmaz müsibət dövran eylədi,
Rus Gəncə şəhrini viran eylədi.

Dilbaz oğlu, Cavad xanın igidlik tarixinə işıq saçan böyük bir müxəmməs yazmışdır. Əsərin 70 misra tutan çap mətni tam deyildir. Firidun bəy Köçərli təəssüflə bildirir ki, bütünlüklə çap etmək «bəzi səbəblərə görə mümkün olmadı». Görünür, çapa düşməyən beşliklər Rusiya senzorluğu baxımından çox kəskin dildə yazılanlar idi. Ola bilsin, o dəyərli parçalar yaradıcılıq irsimiz üçün həmişəlik itirilmişdir.

Yazı epik üslubdadır:

Gəncə şəhrində Cavad xan kim, nə əyyam var idi,
Sahibi-müfü ədalət, sadiqül-iqrar idi.
Hər işin fe'lində mahir filü-huşyar idi,
Müxtəsər, aləmara pürmtahan sərdar idi,
Gör nələr çəkdi qəzadan, dövri-bədətvardən.

Belə bir «birnəfəsə» deyim ilə Şəki, Şirvan, Qarabağ xanlarının «cümlə Dağıstan ilə» ittifaqda savaşa gəlməsi, başlıcası isə: Cavad xanın «Gürgin xana» (Kaxet çarı XII Georgiyə) qarşı ər kimi vuruşması nəzmə çəkilmişdir. Dilbaz oğlu üçün Cavad xan Rusiya ordusu qarşısında əyilməyən, qorxu bilməyən «sərdarü qazidir»:

Ol Cavad xan vəsfini necə qələm şərh eyləsin?
Şərhə sığmaz, vəsfi halın necə dimər söyləsin?
Bir belə sərdarü qazi, kim görübdür böyləsin?
Düşdü davası onun kari-qəzadan, neyləsin,
Padşahi-rusi-sahibtac ilən tumardən?



Dilbaz oğlu XIX yüzilin ən qanlı, ən haqsız qırğınlarından birinin şəhidlərini baş əsərinin qəhrəmanı etmişdir. Bununla o, milli ədəbiyyatımızın vətəndaşlıq şərəfini qorudu söyləsək, yanılmış olmarıq. Şairin tutduğu qeyrət işi XIX yüzilin ikinci yarısında Azərbaycan milli hərəkatının ilkin mərhələsində yararlı rol oynadı. Millətin öz gerçək durumunu görə bilməsinə yardımçı oldu. Rusiyanın «təxti himayəsində» asayiş deyil, köləlik bulduğunu ona anlada bildi. Həsən bəy Zərdabi «Əkinçi» qəzetində «Dövləti Rus bizim vilayəti zəbt edəndən bəri» deyimini işlətdi. Onun ardınca Cavad xan törəməsi olan ***İsmayıl xan Ziyadxan oğlu*** Rusiya Dövlət Duması kürsüsündən: «Qafqaz yörəsi ölkələr yüz il bundan əvvəl ruslar tərəfindən işğal edilmişdir» söylədi. Bununla milli hərəkatın öz mövqeyi, öz konsepsiyası bu məsələdə açıqlanmış oldu.

**POEZİYA.** XIX əsrdə də bütün əvvəlki dövrlərdə olduğu kimi şeir Azərbaycan ədəbiyyatının inkişafında aparıcı mövqedə dayanırdı. O biri tərəfdən isə minillik tarixi və ən'ənəsi olan poeziya yalnız bu yüzildə istər dil-üslub, istərsə də məzmun-ideya baxımından əsaslı şəkildə yeniləşmişdi. Poeziyada iki cərəyan – xalq şe'ri üslubu və klassik poeziya ənənələri aparıcı rol oynayırdı.

Xalq şeiri üslubunda yazan sənətkarlar ədəbiyyatda ***Vaqif*** ən'ənələrini davam etdirirdilər. Onların əsərləri ilk növbədə dilin sadəliyi və aydınlığı, folklor ənənələrinə yaxınlığı ilə seçilirdi. ***Qasımbəy Zakir*** (1784-1857), ***Əbülqasim Nəbati*** (1812-1873), ***Mirzə Baxış Nadim*** (1785-1880), ***Baba bəy Şakir*** (1769-1844), ***Mücrim Kərim Vardani, Məhəmməd bəy Aşiq, Kazım ağa Salik, Məlikballı Qurban, Əndəlib Qaracabaği*** kimi şairlər bu poetik cərəyanın inkişafında mühüm rol oynamışdılar. Onlar xalq şeiri üslubunun müxtəlif janrlarında qələmə aldıqları əsərlərində – qoşma, təcnis, gəraylı, çarpara və müxəmməslərində real həyat səhnələrini, yerli bəylərin və çar üsuli-idarəsi nümayəndələrinin zülmü altında əzilən xalqın ağır həyatını, müstəmləkəçiliyin gətirdiyi pozğunluq və fəlakətləri təsvir edirdilər. Onların yüksək ideya-bədii məziyyətləri və ictimai mündəricəsi ilə seçilən şeirləri Azərbaycan ədəbiyyatının real varlıqla, gündəlik həyatla əlaqələrinin möhkəmlənməsində, hər cür mücərrədliyin və mistikanın aradan qaldırılmasında mühüm rol oynamışdı. Azərbaycan şeirinin ən'ənəvi mövzularından biri olan məhəbbət də onların yaradıcılığında tamamilə yeni təsvir və təqdim üsulları ilə üzə çıxırdı. Məhəbbət lirikasında Vaqif ənənələrinin ardıcıl davamçısı olan Zakirin şeirlərində Azərbaycan qadınının görümlü obrazı yaradılır, onun zəngin daxili aləmi, iztirabları, sevinc və kədəri, hiss və həyəcanları canlı, parlaq boyalarla əks etdirilirdi.

Müstəmləkə siyasətinin acılarını bilavasitə öz həyatlarında yaşayan Zakir, Kazım ağa Salik, Baba bəy Şakir kimi sənətkarların əsərlərində

ictimai-siyasi məzmundəricə daha güclü idi. Xüsusilə Zakirin yaradıcılığı XIX əsrin birinci yarısında Azərbaycanın mənəvi-siyasi tarixinin bədii əksi kimi qəbul və dərk oluna bilər. Ölkədə gedən proseslərin heç biri onun diqqətindən yayınmamışdı. Milli həyat tərzinin dağıdılması, milli-azadlıq hərəkatlarının boğulması, çarizmin təşviqi ilə Azərbaycanın müxtəlif bölgələrinin, xüsusən də Qarabağın sürətlə erməniləşdirilməsi, çar üsuli-idarəsinin özü ilə gətirdiyi bürokratiya, rüşvətxorluq, əxlaqsızlıq və mənəviyyatsızlıq bir sənətkar kimi Zakiri hər şeydən çox düşündürür, onun ürək ağrısı ilə dolu şeirlərinin və öldürücü satiralarının başlıca mövzusuna çevrilirdi. Bütövlükdə xalq şeiri üslubunda yaranan ədəbiyyat yalnız dilinin sadəliyi ilə deyil, daha çox məzmununun xəlqiliyi, ictimai kəsəri ilə diqqəti cəlb edirdi.

Xalq şeiri üslubu XIX yüzillikdə forma və janrlar baxımından da xeyli zənginləşmişdi. Məhəbbəti, intim hiss və duyğuları ifadə edən ənənəvi qoşma, gəraylı, müxəmməs və s., daha çox ictimai ideyaların, cəmiyyət həyatı ilə bağlı fikir və mülahizələrin təqdiminə xidmət edirdi. Eyni zamanda satira, ictimai həcv, mənzum məktub, epiqram, mənzum hekayə və s. kimi janrlar xalq şeiri üslubunda vətəndaşlıq hüququ qazanmışdı. Azərbaycan ədəbiyyatının güclü qoluna çevrilən və XX əsrin başlanğıcında ***Sabir, Cəlil Məmmədquluzadə*** kimi nəhəngləri yetirən satira ədəbiyyatı da bütövlükdə öz başlanğıcını xalq şeiri üslubundan, xüsusən də onun Zakir, Baba bəy Şakir, Mirzə Baxış Nadim kimi nümayəndələrinin yaradıcılığından almışdı. İlk dəfə bu şairlərin yaradıcılığında Şərq ədəbiyyatında geniş yayılan fərdi həcv kəskin ictimai satiraya çevrilmişdi.

XIX əsrdə xalş şeiri üslubu ilə bir sırada müəyyən mənada onun üçün də qida mənbəyi olan aşıq ədəbiyyatı da geniş inkişaf edirdi. Azərbaycan şifahi xalq ədəbiyyatının ***Yəhyabəy Dilqəm, Aşıq Pəri, Aşıq Alı, Şəmkirli Aşıq Hüseyn, Aşıq Musa, Dollu Aşıq Mustafa, Aşıq Ələsgər, Aşıq Rəcəb, Padarlı Abdulla*** kimi görkəmli nümayəndələri aşıq poeziyasının üfüqlərini genişləndirərək onu tamamilə yeni istiqamətdə inkişaf etdirməyə başlamışdılar. Qədim zamanlardan azərbaycanlıların yaşadıqları ***Göyçə, Borçalı, Dərbənd*** kimi bölgələrdə, Qazax-Tovuz, Qarabağ yörələrində aşıq ədəbiyyatı xüsusilə coşğun inkişafı ilə diqqəti cəlb edirdi. Aşıqlar və el şairləri Şərq ədəbiyyatına da yaxından bələd idilər, ictimai və mədəni tərəqqi ilə ayaqlaşmağa çalışırdılar. Aşıq Ələsgər şeirlərinin birində dövrünün görkəmli ziyalısı kimi tanınan, ərəb, fars, türk, fransız, rus dillərini mükəmməl bilən ***Aşıq Bəylərdən*** iftixarla söz açırdı. Şəmkirli Aşıq Hüseyn, Aşıq Alı, Yəhyabəy Dilqəm, ***Göyçəli Əziz***, Mirzə Bəylər və s. Azərbaycan aşıqları təkcə Qafqaz hüdudları ilə kifayətlənməmiş, Rusiyanı, İranı, Türkiyəni gəzib-dolaşmış, toylarda və el şənliklərində çıxış etmişdilər. Azərbaycan aşıq məktəbinin güclü təsiri altında onlarla gürcü, erməni, Dağıstan aşığı öz əsərlərini türk dilində qələmə almışdılar, ictimai-siyasi



həyat aşıq sənətinə də təsirsiz qalmamış, onun mövzuları nəzərəçarpacaq dərəcədə genişlənmişdi.

XIX əsrdə klassik şeir ənənələri də uğurla davam etdirilirdi. Azərbaycanın müxtəlif bölgələrində fəaliyyət göstərən ədəbi məclislər bu ənənələrin qorunmasında və inkişaf etdirilməsində mühüm rol oynayırdılar. Şeirdə ədəbi ənənənin təsiri ilə Azərbaycan türkcəsi və fars dili yanaşı işlədilirdisə də, ikinci artıq şairlərimizin yaradıcılığında ötəri yer tuturdu. Klassik şeir ən'ənələri daha çox Abbasqulu Ağa Bakıxanov-Qüdsi (1794-1846), Mirzə Şəfi Vazeh (1792-1852), Heyran xanım (1784-?), Seyid Əzim Şirvani (1835-1888), Xurşud Banu Natəvan (1837-1897), Kəminə xanım (1841-1893), Mirzə Nəsrullah.Bahar Şirvani (1834-1882) və b. şairlərin yaradıcılığı ilə təmsil olunmuşdu. Onların qəzəl, müxəmməs, müstəzad, tərkibbənd, məsnəvi və s. klassik şeirləri forma ənənəviliyi, məzmun yeniliyi ilə üzvi surətdə birləşirdi. Füzuli ənənələrinə əsaslanan romantik poeziya üçün sevgi mövzusu başlıca yer tuturdu. Lakin dəyişkən zamanın tələbi ilə şairlər yalnız sevginin və sevgilinin tərənnümü ilə kifayətlənmirdilər. Onlar həm də ictimai-fəlsəfi lirikanın bir sıra gözəl nümunələrini yaratmış, həyatın çətinliklərini, xalqın narazılıq və şikayət duyğularını ümumiləşdirmişdilər. İnsansevərlik amalı bu şairlərin hamısının yaradıcılığından qırmızı xətt kimi keçir.

Qüdsi, Seyid Əzim Şirvani, Mirzə Şəfi Vazeh, Mirzə İsmayıl Qasir və s. şairlər eyni zamanda maarifçi kimi çıxış edir, yaradıcılıqlarında maarif və tərəqqi məsələlərinə mühüm yer ayırırdılar.

XIX əsrdə dini-mistik və təriqət şeiri özünün bir sıra tanınmış nümayəndələrini yetirmişdi. Azərbaycanda təriqət şeiri daha çox Nəqşbəndi təriqətinin başçısı ***Seyid Nigarinin*** və onun istər Azərbaycandakı, istərsə də Türkiyədəki davamçılarının adı ilə bağlı idi. Dini poeziya (tövbənamə, mərsiyyə, nə't, sinəzən və s.) şiəliyin təbliğinə xidmət edir, müsəlman müqəddəslərinin həyatını, islam dininin yayılması uğrundakı mübarizəni göstərirdi. ***Mirzə Məhəmməd Tağı Qumri*** (1819-1891), ***Əbülhəsən Raci*** (1831-1876), ***Mirzə Kərim Şüai*** (1823-1894), Abbasqulu ağa Bakıxanov-Qüdsi və s. ustad sənətkarların qələmindən çıxan dini şeir nümunələri özlərinin yüksək poetik səviyyəsi ilə seçilirdi. Dini mərasimlərdə, məhərrəmlik təziyədarlığında ifa edilən təsirli mərsiyyə, növbə və sinəzənlər mənəvi-əxlaqi qaranlığa, ölgünlüyə daha çox xidmət edirdilər.

Poetik fikrin inkişafında Azərbaycanın müxtəlif bölgələrində təşəkkül tapan və sənətə baxışları yaxın olan şairləri öz ətrafında birləşdirən ədəbi məclislərin mühüm rolu olmuşdu. İlk belə məclis 30-cu illərin sonlarında Qüdsinin başçılığı ilə Qubada təşkil olunan «Gülüstan» idi. 50-ci illərin əvvəllərində Tiflisdə Mirzə Şəfi Vazehin rəhbərliyi ilə «Divani-hikmət» ədəbi məclisi fəaliyyət göstərirdi. Bu məclisin iştirakçıları sırasında başqa

xalqların və ədəbiyyatların nümayəndələri, o cümlədən tanınmış alman şairi və tərcüməçisi ***F.Bodenştedt*** də var idi. 60-cı illərdə Seyid Əzim Şirvaninin başçılığı ilə Şirvan şairlərini öz sıralarında birləşdirən «Beytüs-səfa» ədəbi məclisi təşəkkül tapmışdı. Bu məclislər öz növbəsində sonrakı onilliklərdə Azərbaycan poetik fikrinin inkişafında mühüm rol oynayan «Məclisi-üns», «Beyti-fəramuşan», «Məcmə-üş-şüəra» ədəbi birliklərinin yaranmasına müsbət təsir göstərmişdi. Azərbaycanın müxtəlif bölgələrindəki məclislərin üzvləri öz aralarında şeirləşmə (müşairə) aparır və bu yolla da vahid ədəbi məktəbin yaranmasına təsir göstərirdilər.

**NƏSR.** XIX əsr dünyəvi Azərbaycan nəsrinin yaranma dövrüdür. Bu nəsrin ilk nümunəsi görkəmli yazıçı və hərbi xadim ***İsmayılbəy Qutqaşınlının*** 1836-cı ildə Varşavada fransız dilində çap olunan «Rəşid bəy və Səadət xanım» povesti idi. İsmayılbəy Qutqaşınlı 1806-cı ildə Qutqaşında zadəgan ailəsində anadan olmuş, ömrünün 25 ilini çar ordusunda xidmət etmiş və general rütbəsinə qədər yüksəlmişdi. İstefaya çıxdıqdan sonra özünü ictimai və dini fəaliyyətə həsr etmiş, Məkkə ziyarətinə yollanmışdı. O, 1861-ci ildə Qutqaşında vəfat etmiş və burada dəfn olunmuşdur.

Yazıçı «Rəşid bəy və Səadət xanım» hekayəsində yaşadığı dövrdəki Azərbaycan əsilzadələrinin yaşayışını qələmə almışdı. Əsərin diqqətəlayiq cəhəti cəmiyyət həyatındakı yenilik meyllərinin inandırıcılıqla açılıb göstərilməsi idi. Qutqaşınlı eyni zamanda tarixi-coğrafi və etnoqrafik məlumatlarla zəngin olan «Səyahətnamə» əsərinin müəllifidir. «Səyahətnamə» müəllifin Məkkə ziyarətinin təəssüratları əsasında yazılmışdı. Ömrünün bir hissəsini Varşavada yaşayan Qutqaşınlının Polşa arxivlərində naməlum əsərlərinin, o cümlədən Qafqaz həyatından bəhs edən bir romanının saxlanması haqqında polyak tədqiqatçılarının əsərlərində dönə-dönə söz açılmışdır.

Abbasqulu ağa Bakıxanovun «Kitabi-Əsgəriyyə» hekayəsi XIX əsrin ana dilində yazılmış ilk milli nəsr nümunəsidir. «Bu xırdaca və baməzə, türk lisanında nəsrən və nəzmən təlif olunmuş bir hekayədir» (Firudinbəy Köçərli). Hekayə məzmununun həyatiliyi, qəhrəmanlarının bilavasitə xalq içərisindən seçilməsi ilə diqqəti cəlb edir.

Bu ilk qələm təcrübələri ilə birlikdə realist milli nəsrin əsl nümunəsi Mirzə Fətəli Axundovun 1857-ci ildə çap olunan «Aldanmış kəvakib» povesti idi. Əsər tarixi mövzu əsasında qələmə alınmışdı, lakin yazıçı burada bütün tarixi dövrlər, bütün millətlər üçün eyni dərəcədə səciyyəvi olan hakimiyyət və xalq problemini ümumiləşdirilmiş şəkildə əks etdirmişdi. «Aldanmış kəvakib»də M.F.Axundov böyük ustalıqla küt, xalqdan uzaq, yalnız zülm və təzyiq, yalan və aldatma üsullarına əsaslanan hakimiyyətin dəqiq təsvirini vermişdi.



Lənkəran qəza məktəbinin müəllimi ***Məmmədəli Səfiyevin*** rus dilində «Закавказский вестник» qəzetində çap olunan kiçik hekayələri isə rusdilli Azərbaycan nəsrinin ilk nümunələri kimi diqqəti cəlb etməkdədir. Lakin bununla birlikdə XIX əsrin 70-ci illərinə qədər bədii nəsr sahəsindəki yaradıcılıq axtarışları hələ geniş deyildi, ədəbi inkişafın ağırlığı daha çox poeziyanın üzərinə düşmüşdü. Lakin bu ilk nümunələrin meydana gəlməsi də milli ədəbiyyatda yeniləşmənin qarşısıalınmaz bir şəkildə irəlilədiyini göstərməkdə idi.

**DRAMATURGİYA.** XIX əsrdə Azərbaycanın, eləcə də bütün Yaxın Şərqin və türk dünyasının ədəbi-mədəni həyatında ən mühüm hadisə milli Azərbaycan dramaturgiyasının meydana gəlməsi idi. Bu sənətin banisi M.F.Axundov, öz ədəbiyyatı və mədəniyyəti ilə dünya miqyasına çıxmaq istəyən xalqın «gül-bülbül» şeiri ilə uzağa gedə bilməyəcəyini vaxtında duymuş: «bu gün millət üçün faydalı və oxucuların zövqü üçün rəğbətli olan əsər dram və romandır» – qənaətinə gəlmişdi. Həmin qənaətin təsiri altında o, 1850-1855-ci illər arasında Azərbaycan ədəbiyyatında bu sənətin klassik örnəkləri olan altı komediyasını yaratmışdı.

***Mirzə Fətəli Axundov*** (1812-1878) Azərbaycan mədəniyyəti tarixinə şair, yazıçı, dramaturq, pedaqoq, tənqidçi, tarixçi, filosof, tərcüməçi, hərbi və siyasi xadim, islahatçı kimi daxil olmuşdur. Ruhani təhsili alsa da, yeniliyə böyük istedadı sayəsində dünyəvi biliklərə yiyələnmiş, öz yaradıcılığında Şərq və Qərb mədəniyyətlərini birləşdirə bilmişdi. 1834-cü ildən Qafqazın həmin dövrdəki inzibati mərkəzi Tiflisdə, canişinlik idarəsində müxtəlif vəzifələrdə çalışan Mirzə Fətəli, həyatını bütünlüklə mədəni yüksəliş və ictimai tərəqqi uğrunda mübarizəyə həsr etmişdi. Ədibin Tiflis qəza məktəbində müəllimlik fəaliyyəti və «Kavkaz» qəzeti ilə sıx əməkdaşlığı, dram yaradıcılığı və əlifba islahatı uğrunda mübarizəsi, Şərqdəki ictimai-siyasi və dini təlimlərə göstərdiyi böyük maraq da ilk növbədə həmin mübarizəyə xidmət edirdi. 1857-ci ildən ömrünün sonuna kimi M.F.Axundov azərbaycanlıların və digər Yaxın Şərq xalqlarının min ildən bəri istifadə etdikləri ərəb əlifbasının islahı uğrunda mübarizəyə başlamış, bu münasibətlə Rusiyanın, Avropanın, İranın və Türkiyənin elmi cəmiyyətlərinə, mədəniyyət xadimlərinə, dövlət adamlarına dönə-dönə müraciət etmiş, 1861-ci ildə isə yeni əlifba məsələsi ilə bağlı Osmanlı imperiyasının paytaxtı İstanbula getmişdi. Lakin onun təşəbbüsləri səmərəsiz qalmışdı. Əlifba məsələsində M.F.Axundovun səylərini qiymətləndirməklə bərabər bu gün biz iki əlifba islahatının mədəniyyətə endirdiyi zərbələrin bütün ağırlığını və acılarını yaşamış bir xalq kimi həmin səylərin nə dərəcədə zəruri olması məsələsinə də öz münasibətlərimizi bildirməliyik. M.F.Axundov xalqın maariflənməsində, elmə, mədəniyyətə, ictimai tərəqqiyə qovuşma-

sında əlifbanın rolunu mütləqləşdirir, o biri tərəfdən isə Şərqdəki əlifba islahatlarının missinerlik və xristianlaşdırma siyasəti ilə bağlı olduğunu yaddan çıxarırdı.

M.F.Axundovun 1864-cü ildə tamamladığı «Kəmalüddövlə məktubları» əsəri onu din tarixçisi, elmi-siyasi publisistikanın istedadlı nümayəndələrindən biri kimi görməyə imkan verir. Bu əsər eyni zamanda yazıçının dünyagörüşündəki, ictimai-siyasi baxışlarındakı ziddiyyətləri də üzə çıxarır. Bu əsərlə bağlı M.F.Axundovun görüşləri haqqında indiyə qədər deyilənləri və yazılanları tam həqiqət kimi qəbul etmək düzgün olmazdı. Görkəmli yazıçının fanatizmə, cəhalətə qarşı mübarizəsi bütövlükdə onun islam dininə qarşı mübarizəsi kimi qələmə verilmiş, onun dinlə bağlı islahatçılıq fikirlərinin üzərindən isə tam sükutla keçilmişdir.

M.F.Axundovun böyüklüyü, Azərbaycan xalqı və bu xalqın ədəbiyyatı üçün gərəkliliyi ilk növbədə onun dram yaradıcılığı ilə bağlıdır. «Mən öz əqidəmə görə bu cür əsərləri yazmağı xalqımı sevməyimin nişanəsi hesab edirəm» -- deyən müəllif məhz xalqın sağlam, islahedici gülüşə olan ehtiyacını nəzərə alaraq komediya sənətinə müraciət etmişdi. Dramurgiyaya müraciət yazıçıya öz maarifçi görüşlərini geniş kütlələr arasında yaymaq imkanı yaramışdı. O, öz komediyalarında mövcud Azərbaycan həyatının bütün cəhətlərini, səciyyəvi insan tiplərini ustalıqla canlandırmışdı. Təsadüfi deyil ki, Axundov yaradıcılığının ictimai kəsərindən və aktuallığından danışarkən Cəlil Məmmədquluzadə kimi barışmaz bir sənət adamı heyranlıqla qeyd edirdi ki, onun «əl vurduğu məsələlərin hamısından qan qoxusu gəlirdi».

«Hekayəti-Molla İbrahimxəlil kimyagər» (1850), «Hekayəti-Müsyo Jordan həkimi-nəbatat və dərviş Məstəli şah cadukuni-məşhur» (1850), «Hekayəti-xırs quldurbasan» (1851), «Şərgüzəşti-vəziri-xani-Lənkəran» (1851), «Sərgüzəşti-mərdi-xəsis» (1852), «Mürafiə vəkillərinin hekayəti» (1855) komediyaları ilə M.F.Axundov yalnız Azərbaycan ədəbiyyatı tarixində yeni, gərəkli bir ədəbi ən'ənənin əsasını qoymamış, həm də realist sənəti ilə bütöv bir dövrün bədii tarixçəsini yaratmışdı. Bu komediyalarda ailə-məişət məsələlərindən tutmuş dövlətin idarə olunmasına qədər ən müxtəlif problemlərə toxunulur, incə cizgilərlə çarizmin Azərbaycandakı müstəmləkəçilik siyasətinə diqqət yetirilirdi. Azərbaycan xalqının həyatı, məişəti, adət-ən'ənələri, düşüncə tərzi, əxlaqi və inancları Axundovun komediyalarında öz həqiqi əksini tapmışdı. Mücərrədlik, mistika, habelə kobud naturalizm bu əsərlərə yaddır. Komediyaların başqa bir məziyyəti onların son dərəcə aydın, anlaşıqlı, duzlu-dadlı dilidir. M.F.Axundov öz dram əsəri ilə Azərbaycan türkcəsinin ifadə imkanlarının genişliyini və zənginliyini sübuta yetirdi, sözün tam mənasında milli ədəbi dil durumuna yüksəlməsində mühüm rol oynadı.



Ədibin pyesləri onun öz sağlığında fars, alman, rus, erməni və s. dillərə tərcümə edildi, əvvəlcə Tiflisdə və Peterburqda rus dilində, 1873-cü ildə isə Bakıda yazıldığı ana dilində tamaşaya qoyuldu. M.F.Axundovun təsiri ilə dram sənəti yalnız Azərbaycanda deyil, bütün Yaxın Şərqdə özünə vətəndaşlıq hüququ qazandı. Axundov ədəbi məktəbinin davamçıları olan ***N.Vəzirov, Ə.Haqverdiyev, N.Nərimanov, R.Əfəndiyev*** və başqalarının səyi nəticəsində əsrin sonlarına doğru dramaturgiya Azərbaycan ədəbiyyatının aparıcı qollarından birinə çevrildi, milli teatr xalqın mədəni-mənəvi həyatında mühüm rol oynamağa başladı.

**TƏNQİD VƏ ƏDƏBİYYATŞÜNASLIQ.** Ədəbi fikrin digər sahələrində olduğu kimi tənqid və ədəbiyyatşünaslıqda da bir tərəfdən köhnə ən'ənələr davam etdirilir, o biri tərəfdən isə ədəbi əsərlərə, klassik və müasir sənətkarların yaradıcılığına yeni prinsiplərlə yanaşmaq təşəbbüsü göstərilirdi. XIX əsrin birinci yarısında əski təzkirələr hələ də öz mövqeyini saxlayırdı. ***Mirzə Əbdülkərim İrəvaninin*** «Risaleyi-əruz», ***Əbdürrəzzaqbəy Xoylunun*** «Hədiyüqül-üdəba» və «Nigaristani-Dara» (1825), ***Məhəmmədhəsən xan E'timadüssəltənənin*** «Xeyrətül-Hissan», ***Bəhmən Mirzənin*** «Təzkireyi-Məhəmməd şahi» (1832) kimi əsərlərində ədəbiyyat tarixinin və nəzəriyyəsinin müxtəlif problemləri diqqət mərkəzinə çəkilir, ədəbi şəxsiyyət və hadisələrə qiymət verilirdi. Lakin bununla birlikdə həmin əsərlərdə əsasən məlum biliklər təkrarlanır, təsvirçilik təhlili əvəz edirdi. Təzkirə tipli məlumatlar «Gülüstani-İrəm» əsərinin sonunda, XII əsrdən XIX əsrə qədərki Azərbaycan ədəbiyyatının xülasəsi kimi verilmişdir. Bəzi tədqiqatçıların fikrincə bu xülasəni həmin dövrdə Azərbaycan ədəbiyyatı tarixini ayrılıqda təhlil etmək sahəsində ilk təşəbbüs kimi qiymətləndirmək lazımdır. Klassik təzkirələrdən fərqli olaraq Bakıxanovun hər bir sənətkara orijinal-fərdi münasibəti də onun qeydlərində öz əksini tapmışdır. Müəllif zəngin ədəbi və tarixi mənbələr əsasında Nizami Gəncəvi, Məhsəti Gəncəvi, Əbülüla Gəncəvi, Xaqani Şirvani, Fələki Şirvani, İzzəddin Şirvani, Mücirəddin Beyləqani, Şeyx Əbu Abdulla Bakui, Bədr Şirvani, Seyid Zülfüqar Şirvani və b. sənətkarlar barəsində mə'lumat vermişdi. Bakıxanovun müasiri, görkəmli maarifçi mütəfəkkir və coğrafiyaşünas-alim ***Z.Şirvani*** (1780-1838) və onun qardaşı ***Hacı Məhəmmədəli Şirvaninin*** (1785-?) «Riyaz-üs-siyahə», «Bustan-us-siyahə», «Həqiqətül-həqayiq» əsərlərində də Azərbaycan ədəbiyyatı və mədəniyyətinin tarixi və görkəmli şəxsiyyətləri ilə bağlı bir sıra maraqlı məlumatlar verilmişdir. Mirzə Yusif Nersesovun 1856-cı ildə Təmirxanşurada nəşr etdirdiyi «Divani-Vaqif və müasirini-digər», tanınmış qafqazşünas ***Adolf Berjenin*** tərtibi və müqəddiməsi ilə 1867-ci ildə Leypsiqdə çap olunan «Qafqazda və Azərbaycanda məşhur olan şüəranın əş'arına məcmuədir» kitablarında

XIX əsr Azərbaycan ədəbiyyatının başlıca inkişaf istiqamətləri və ayrı-ayrı görkəmli nümayəndələri barəsində qısa da olsa, məlumat verilmişdi.

Mirzə Şəfi Vazeh, Abbasqulu ağa Bakıxanov, Fazil xan Şeyda, Mirzə Fətəli Axundov kimi sənətkarların əsərlərində ədəbiyyatın məqsəd və mahiyyəti, sənətkarın cəmiyyətdəki yeri barəsində mülahizələrə tez-tez təsadüf etmək olur. Mirzə Şəfi sənətin ictimai əhəmiyyəti məsələsinə xüsusi diqqət yetirir, «şairlər quşlar kimi ağaclarda oxumaq üçün deyil, axmaqlığı, eybəcərliyi yox etmək üçün yaranmışlar» – deyə ən'ənəvi «gül-bülbül» poeziyası nümayəndələrinin diqqətini bütün qüsurları və yaramazlaqları ilə həyatın özünə cəlb edirdi. Mirzə Şəfinin sənətdəki başlıca kredosu həqiqətə sədaqət idi.

XIX əsrdə Azərbaycanda ədəbi tənqidin yaranması ilk növbədə M.F.Axundovun adı ilə bağlı idi. Axundov yalnız öz bədii əsərləri ilə deyil, tənqidi-estetik görüşləri ilə də eyni, həqiqi, realist ədəbiyyatın modelini yaratmışdı. Ədəbiyyatın ictimai qayəsini hər şeydən üstün tutan ədib köhnə poeziyaya qarşı çıxır, təqlidçi saray şeirini, şəxsi məqsədlər güdən həcvləri, həyat həqiqətindən məhrum olan boş didaktika və nəsihətçiliyi qətiyyətlə rədd edirdi. Axundov Azərbaycan ədəbi-estetik fikrinə ilk dəfə «ədəbi tənqid» mənasında «kritika» terminini gətirmiş və özünün «Fehristi-kitab», «Nəzm və nəsr haqqında», «Mollayi Ruminin təsnifinin babında», «Mirzə Ağanın pyesləri haqqında kritika» və s. kimi əsərləri ilə həmin yeni ədəbi tənqidin konkret nümunələrini ortalığa qoymuşdu. Axundovun tənqidi fikrində realizm nəzəriyyəsi, sənətdə təbii təxəyyüllə gerçəkliyin nisbəti və s. məsələlər mühüm yer tuturdu. Azərbaycan ədəbiyyatının ***Vaqif*** və ***Zakir*** kimi görkəmli nümayəndələrinin yaradıcılığı da öz elmi qiymətini ilk dəfə Axundovun tənqidində tapmışdı. O, həmçinin ədəbiyyatda xəlqilik, müasirlik və həyatilik problemləri barəsində də düzgün və əsaslandırılmış mülahizələr irəli sürmüşdü. Dilin təmizliyi və saflığı Axundov-tənqidçini maraqlandıran əsas ədəbi-estetik məsələlərdən biri idi. Nizami, Hafiz, Cami, Firdovsi, Şekspir, Sə'di kimi Qərb və Şərq sənətkarlarını Axundov yalnız mənsub olduqları xalqın deyil, dünya bədii fikrinin görkəmli nümayəndələri kimi yüksək qiymətləndirir, onların əsərlərində forma ilə məzmun arasında bir harmoniya olduğunu göstərirdi. Epiqonçu şeirin Süruş, Qaani kimi nümayəndələri Axundov tənqidində qətiyyətlə əsl ədəbiyyatdan kənarda qoyulurdu. Lakin məzmun məsələsində ədib bəzən ifrata varır, türkdilli şeirin böyük ustadı Füzulini yalnız «ustadi-nazim» hesab edirdi. Bütövlükdə isə M.F.Axundovun istər «Kəmalüddövlə məktubları» əsəri, istərsə də tənqidi məqalələri Yaxın Şərqdə və Azərbaycandakı ədəbiyyat tarixi problemlərinə qiymət vermək baxımından etibarlı mənbələr idi.

Peterburq universitetinin professorları Mirzə Cəfər Topçubaşovun və Mirzə Kazımbəyin rus mətbuatında çap etdirdikləri elmi-tənqidi məqalələr-



də Azərbaycan və Şərq ədəbiyyatının problemlərindən geniş bəhs olunurdu. Xüsusilə Mirzə Kazımbəyin ədəbiyyatşünaslıq irsi onun öz elmi əsərlərində qaldırdığı problemlərin əhəmiyyəti barəsində təsəvvür yaradır. Alimin «İran eposu», «İslama qədərki farsların dili və ədəbiyyatı», «Fars ədəbiyyatı», «Yeni fars ədəbiyyatının başlanğıcı haqqında qədim farsların rəvayətləri», «Mifologiya lüğəti», «Firdovsiyə görə fars mifologiyası» və başqa əsərlərində zəngin ədəbi-tarixi mənbələr əsasında fars və farsdilli ədəbiyyatın ən qədim dövrlərdən tutmuş XIX əsrə qədərki inkişaf mərhələləri izlənilir, onun ayrı-ayrı görkəmli nümayəndələri yaradıcılığının səciyyəsi verilirdi. Mirzə Kazımbəy istər ilkin İran mənbələrindən – mixi yazılardan, qədim dastanlardan, xalq rəvayət və əfsanələrindən, onlarda əksini tapan miflərdən, istərsə də antik müəlliflərin əsərlərindən, «Avesta»dan, yunan, yəhudi, Bizans, Suriya mənbələrindən istifadə edirdi. Bütün bunlar XIX yüzildə Azərbaycanda ədəbiyyat tarixçiliyi və ədəbiyyatşünaslığın dəqiq elmi prinsipləri əsasında inkişaf etməkdə olduğunu göstərir.

**ƏDƏBİ ƏLAQƏLƏR.** XIX əsr Azərbaycanda da qarşılıqlı ədəbi əlaqələrin gur inkişafı ilə səciyyəvi olmuşdur. Ölkənin Rusiya və Avropanın astanasında yerləşməsi Şərqlə Qərb, Asiya ilə Avropa arasında özünəməxsus körpüyə çevrilməsi bu əlaqələrin inkişafına və genişlənməsinə daha da təkan vermişdir. Azərbaycan ədəbiyyatı Şərq bicimini saxlamaqla Rusiya və Qərb ədəbi-mədəni fikri ilə ünsiyyətə girmiş, bu da öz növbəsində ədəbiyyatın zənginləşməsinə imkan yaratmışdı.

Azərbaycanın Rusiya imperiyasının tərkibinə qatılması Azərbaycan ədəbi fikrinin rus, Avropa, eləcə də imperiyadakı digər xalqların ədəbiyyatları ilə əlaqələr yaratmasına təkan verdi. Lakin öz növbəsində həmin əlaqələr indiyə qədər təqdim edildiyi kimi birtərəfli, yəni müəllim-şagird, öyrədən-öyrənən əlaqələri deyildi. Şübhəsiz, əsrin əvvəllərindən başlayaraq Azərbaycan ədəbi-mədəni mühiti Rusiyadan və Avropadan gələn yeni meyllərlə zənginləşmişdi, ədəbiyyatda mövzu dairəsinin və ictimai kəsərliliyinin artmasında qabaqcıl rus yazıçılarının müəyyən rolu olmuşdu. Lakin qarşılıqlı ədəbi əlaqələr və qarşılıqlı təsir yalnız bərabər səviyyəli mədəniyyətlər arasında mövcud ola bilər. Bu mənada zəngin ənənələrə malik Azərbaycan ədəbiyyatı və onun əsaslandığı çoxərslik Şərq mədəni ənənələri rus ədəbi fikrinin özünün inkişafına nəzərəçarpacaq təsir göstərmişdi. Rus romantik şeirinin yaranmasında, rus ədəbiyyatında azadlıqsevərlik və humanizm ideyalarının yayılmasında Qafqaz-Azərbaycan mühitinin mühüm rolu olmuşdu.

Əsrin əvvəllərində rus və Azərbaycan ədəbiyyatları arasında əlaqə yaradan xadimlər arasında Peterburq universitetinin professoru, akademik ***N.İ.Konradın*** «Rusiyada praktiki şərqşünaslığın görkəmli nümayən-

dəsi» adlandırdığı Mirzə Cəfər Torçubaşov (1784-1869) birincilər sırasında dayanır. 1811-ci ildə gürcü şahzadəsi Teymuraz Baqrationi ilə birlikdə Peterburqa gələn **M.C.Topçubaşov** ömrünün sonuna kimi bu şəhərdə yaşamış, alim, şair, pedaqoq və Şərq mədəniyyətinin tədqiqatçısı kimi tanınmışdı. O, 1816-cı ildən Rusiya xarici işlər nazirliyinin Asiya departamentində çalışmış, Baş Pedaqoji İnstitutda ərəb və fars dili məşğələlərini aparmış, 1819-cu ildə isə yeni təsis edilən Peterburq universitetinin ilk müəllimlərindən biri olmuşdu. 1835-1849-cu illərdə M.C.Topçubaşov universitetin fars ədəbiyyatı kafedrasına rəhbərlik etmiş, 1851-ci ildə açılan Rusiya Arxeologiya Cəmiyyətinin təşəbbüskarlarından biri olmuş, ömrünün sonuna kimi Cəmiyyətin Şərq arxeologiyası şöbəsinin Şərq arxeologiyası və numizmatikası ilə bağlı elmi əsərlərinin toplandığı «Qeydlər»i çap olunmağa başlamışdı.

XIX əsrin birinci yarısında rus ədəbi, elmi və ictimai fikrinin bir sıra tanınmış nümayəndələri məhz Topçubaşovun sayəsində Yaxın Şərqlə, xüsusən də Azərbaycanla daha dərindən maraqlanmışdılar. O, diplomat və yazıçı A.S.Qriboyedovun fars dili müəllimi olmuş, **O.İ.Senkovski** (baron Brombeus), **A.S.Puşkin, V.Q.Belinski, A.Mitskeviç** kimi görkəmli sənətkarlar ilə yaradıcılıq əlaqələri saxlamışdı. M.C.Topçubaşovun elmi məqalələri həmin dövrün ən demokratik mətbuat orqanı sayılan «Teleskop» jurnalında çap olunurdu. «Отечественные записки» jurnalının ilk nömrəsindəki anonsda onun gələcək daimi müəllifləri sırasında azərbaycanlı alimin də adı çəkilirdi. M.C.Topçubaşovun 1823-cü ildə tamamladığı və Rusiyanın Napoleon üzərindəki qələbəsinə həsr etdiyi «Zəfər nəğməsi» qəsidəsi, habelə 1835-ci ildə Peterburqda ayrıca kitab halında çapdan çıxan şeirləri elə həmin dövrdə rus dilinə tərcümə edilmiş və ədəbi ictimaiyyətin diqqətini çəkmişdi. Həmin əsərlər Azərbaycan ədəbiyyatından rus dilinə çevrilən ilk nümunələr idi. V.Q.Belinski rus ədəbiyyatının 1835-ci ildəki vəziyyətinə həsr olunmuş icmal məqaləsində bu şeirlərə də toxunmuş və onların əslinin tərcümələrdən daha qüvvətli olmaları barəsində gümanını bildirmişdi. Torçubaşovun tələbələrindən məşhur şərqşünas **P.Y.Petrov** müəlliminin təsiri altında «Aşiq» təxəllüsü ilə rus dilində qəzəllər yazmış və Şərq klassiklərinin bir sıra əsərlərini çevirməyə təşəbbüs göstərmişdi.

Peterburq ədəbi mühitində M.C.Topçubaşov həm də Avropa elmi-ədəbi mühitinin nümayəndələri ilə əlaqələr yaratmışdı. O, görkəmli polyak şairi A.Mitskeviçin xahişi ilə müəllifin «Krım sonetlərindən» birini fars dilinə çevirmiş və 1827-ci ildə Şərq dibaçələri üslubunda yazdığı müqəddimə ilə birlikdə Moskvada litoqrafiya üsulu ilə çap etdirmişdi. Bu müqəddimə A.S.Puşkinin məşhur «В прохладе сладостной фонтанов» şeirinin yaranmasına təkan vermişdi. Azərbaycanlı alimin təşviqi ilə onun həmkarlarından məşhur yazıçı və şərqşünas O.İ.Senkovski «Taxta gözəl» adlı Azərbaycan xalq nağılını rus dilinə çevirərək «Полярная звезда» məcmuəsində dərc etdirmişdi. Tələbələrindən A.Xodzko Füzuli yaradıcılığı və «Koroğlu» eposu ilə yaxından maraqlanırdı.

Rus ədəbiyyatı xadimlərinin Azərbaycanla tanışlığında digər görkəmli şərqşünas-alim, Kazan və Peterburq universitetlərinin professoru **Mirzə Kazımbəy** (1802-1870) də mühüm rol oynamışdı. O, Kazanda **L.N.Tolstoy** və **P.İ.Melnikova** (Andrey Peçerski) dərs demiş, Peterburqda Şərqlə maraqlanan **N.Q.Çernışevskiyə** dəyərli məsləhətlər vermişdi. Mirzə Kazımbəy **A.S.Puşkinlə** şəxsən tanış idi, məşhur tarixçi və yazıçı **M.P.Poqodinlə** yazışırdı, Firdovsinin «Şahnamə»sini rus dilinə çevirən şair **V.A.Jukovski** onun yardımından faydalanmışdı. Puşkinin əsərlərinin türk dilinə tərcüməsi də azərbaycanlı alimin adı ilə bağlıdır. O, karaim maarifçisi **İ.Eryakın** «Göz yaşı çeşməsi» adı altında çevirdiyi «Bağçasaray fontanı» poeması üzərində əsaslı şəkildə işləfərək əsəri çap üçün yararlı hala gətirmiş və həmin poema 1867-ci ildə Puşkinin digər şeirlərinin tərcüməsi ilə birlikdə Mirzə Kazımbəyə ithafla Peterburqda çap olunmuşdu. A.S.Qriboyedovun «Gündəlikləri», A.Nikitinin «Üç dəniz arxasına səyahət» əsərləri Mirzə Kazımbəyin dəqiq və əhatəli şərhləri ilə dövrün rus oxucularına təqdim edilmişdi. «Russkoye slovo», «Sovremennik», «Severnoye obozreniye», «Finskiy vestnik», «Sankt-Peterburqskie vedomosti», «Severnaya pçela», «Qolos» və s. qəzet və jurnallarda Mirzə Kazımbəyin Yaxın və Orta Şərqin, o cümlədən Azərbaycanın tarixinə, mədəniyyətinə, ədəbiyyatına həsr edilmiş onlarla məqaləsi çap olunmuşdur. Həmin əsərlər yalnız elmi fikrin zənginləşməsinə xidmət etməmiş, həm də xalqlar və ədəbiyyatlar arasında qarşılıqlı münasibətlərin və əməkdaşlığın yaranmasına təkan vermişdi.

Lazarev Şərq dilləri institutunda və Moskva universitetində təhsil alan, 1851-ci ildə isə Kazan universitetinin tarix-filologiya fakültəsinin Şərq bölməsini namizəd diplomu ilə bitirən **Mahmud İsmayılov** (1828-1867) Avropa tipli universitetdə ali təhsil görmüş ilk azərbaycanlı gənc idi. O, ömrünün sonuna kimi Moskvadakı Lazarev Şərq dilləri institutunun müəllimi kimi çalışmış, ərəb, fars və türk dillərini, bu xalqların tarix və ədəbiyyatlarını tədris etmişdi. Rusiyanın müxtəlif gimnaziya və universitetlərində çalışan **Mirzə Abdulla Vəzirov, Sadıxbəy Cəfərov, Mirzə Əbülhəsən Vəzirov, Mirzə Məhəmməd Əliyev, Mirzə Cəfər Rizayev, İbrahim Bağırov** və s. azərbaycanlı ziyalılar əsrin birinci yarısında Azərbaycan dilinin və ədəbiyyatının tədrisində, Azərbaycan-rus ədəbi əlaqələrinin yaranmasında bilik, qüvvə və imkanları daxilində iştirak etmişdilər.

Əsrin 20-ci illərindən başlayaraq bir sıra rus yazıçılarının Qafqazda və Azərbaycanda olmaları da iki xalq və onların mədəniyyətləri arasındakı

əlaqələrin vüsət və istiqamətinə təsirsiz qalmadı. Şübhəsiz, xidməti vəzifəsi ilə bağlı buraya gələn rus ziyalıları hər şeydən əvvəl imperiya siyasətini həyata keçirirdilər və onların fəaliyyətlərinin bu cəhəti üzərindən sükutla keçmək olmaz. Peterburqda M.C.Topçubaşovdan fars dili dərsi alan A.S.Qriboyedov Qafqazda A.Bakıxanovla yaxın əlaqə saxlayırdı, klassik Azərbaycan poeziyası, xüsusən də Nizaminin yaradıcılığı ilə maraqlanırdı. Lakin Qriboyedov Qafqazın və Azərbaycanın təbii sərvətlərinin mənimsənilməsinə yönəlmiş «Rusiya-Zaqafqaziya ticarət şirkəti» layihəsini irəli sürmüş, Azərbaycanın ikiyə parçalanmasını və işğalını rəsmiləşdirən Türkmənçay müqaviləsinə tərəfdar çıxmışdı. Yeritdiyi böyük dövlətçilik siyasəti və türk-müsəlman əhalinin dininə, əxlaqına, adət-ən'ənələrinə saymazyana münasibət nəticədə onun məhvinə gətirib çıxarmışdı. A.S.Puşkin Azərbaycan şairi ***Fazil xan Şeyda*** ilə ibrətamiz görüşündən həvəslə söz açırdı, A.Bakıxanov onların ailəsində böyük hörmətlə qəbul olunmuşdu. Lakin eyni zamanda Puşkin «Çökün təslim ol Qafqaz, Yermolov gəlir!» – deyə azadlıqsevər xalqları hədələyir, «vəhşi dağlıları» maarifləndirməyin yeganə yolunu İncilin onların arasında geniş təbliğ edilməsində görürdü.

Azərbaycan, onun tarixi, yerli xalqın həyatı və məişəti dekabrist yazıçıların yaradıcılığında özünün daha geniş əksini tapmışdı. Bu yazıçılar içərisində ***A.A.Bestujev-Marlinski*** xüsusilə seçilirdi. O, Azərbaycan dilini öyrənmişdi, özünün «Molla Nur», «Şah Hüseyn», «Qafqaz divarı», «Qırmızı yaylıq», «Qafqaz oçerkləri» kimi hekayə, povest və yol qeydlərində rəğbətlə yanaşdığı Azərbaycan xalqının həyatını olduğu kimi təsvir etməyə çalışmışdı. Qədim Dərbəndi «*tatar Afinası*» adlandıran Bestujev-Marlinski Azərbaycan tarixi və etnoqrafiyası ilə yaxından maraqlanırdı. O, Axundovun «Şərq poeması»nın rus dilinə ilk tərcüməçilərindən biri idi. ***V.K.Küxelbeker***, ***Y.N.Ozeretskovski*** kimi dekabrist yazıçılar da Azərbaycana həsr olunmuş maraqlı əsərlər qələmə almışdılar. 1837-ci ildə Azərbaycana gələn ***M.Y.Lermontov*** «Asiyanın fransızcası» adlandırdığı Azərbaycan türkcəsini öyrənməyə başlamış, yerli aşıqların dilindən «Aşıq Qərib» dastanını qələmə almışdı. Yenə həmin dövrdə Tiflisdə yaşayan və «Zakavkazski vestnik» qəzetini redaktə edən rus şairi ***Y.P.Polonski*** bilavasitə Azərbaycan mövzusunda «Kərəm haqqında mahnı», «Karvan» şeir və poemalarını, silsilə hekayələrini yazmış, Azərbaycan xalq poeziyasının bir neçə nümunəsini rus dilinə çevirmişdi. Əsrin birinci yarısında Puşkin, Lermontov, Derjavin, Karamzin, Qoqol və s. rus şair və yazıçılarının adları Azərbaycanın ziyalı dairələrində müəyyən qədər tanınırdı. 1846-cı ildən Tiflisdə rus dilində nəşrə başlayan «Kavkaz» qəzeti Azərbaycanın tarixi, ənənələri, etnoqrafiyası barəsində yazılara öz səhifələrində geniş yer verirdi. Rus oxucuları bu qəzet vasitəsi ilə Vaqif, Zakir, A.Bakıxanov, M.F.Axundov və başqa Azərbaycan sənətkarlarının adları və



əsərləri ilə tanış olmuşdular. M.F.Axundovun altı komediyası və «Aldanmış kəvakib» povesti müəllifin özünün rus dilinə tərcüməsində «Kavkaz» qəzetində dərc olunmuşdu. «Teleskop», «Oteçestvennıye zapiski», «Russkoe slovo», «Russkiy invalid», «Sovremennik», «Russkiy vestnik» jurnallarında ara-sıra Azərbaycanla bağlı yazılara təsadüf olunurdu.

XIX əsrin tarixi-siyasi gerçəkliyi Azərbaycan və Avropa ədəbiyyatları arasında da müəyyən əlaqələrin meydana çıxmasına imkan vermişdi. Polyak ədəbiyyatı ilə əlaqələr daha ardıcıl səciyyə daşıyırdı. M.C.Topçubaşov ***Adam Mitskevisin*** bir sonetini farscaya çevirmişdi. Qafqaza sürgün edilən polyak şairi ***Tadeuş Lado Zablotski*** Qubada, Şamaxıda, Dərbənddə olmuş, Azərbaycan mövzusunda bir sıra şeirlər yazmışdı. O, Vaqifin, A.Bakıxanovn şeirlərini, Azərbaycan xalq ədəbiyyatından nümunələri polyak dilinə çevirmiş, həmçinin «Gülüstani-İrəm» əsərinin ruscaya tərcüməsində A.Bakıxanovun yaxın köməkçisi olmuşdu. Qafqazda sürgündə olan digər polyak yazıçısı ***Vladislaf Strjelnitski*** mövzusu Azərbaycan həyatından alınmış «Mahmudcığaz» povestini, bir neçə şeir, habelə Bakı, Şamaxı, Lənkəran haqqında maraqlı qeydlər qələmə almışdı. XIX əsrin 30-40-cı illərdə Qafqazda və Azərbaycanda olmuş ***Mixail Anceykoviç, Konstantin Zax, Mateuş Qralovski*** kimi polyak ziyalıları Azərbaycan türkcəsini öyrənmiş, Azərbaycan xalqının tarixi, ədəbiyyatı, məişəti ilə bağlı maraqlı mülahizələr söyləmişdilər.

Tanınmış alman şairi və tərcüməsiçi Fridrix Bodenştedt A.Bakıxanov, M.F.Axundov, Mirzə Şəfi Vazeh, Fazil xan Şeyda kimi Azərbaycan ədibləri ilə yaxından tanış idi. O, Azərbaycan və fars dillərinə yaxından maraq göstərir, Mirzə Şəfi Vazehin Tiflisdəki «Divani-hikmət» ədəbi məclisində iştirak edirdi. Onun «Şərqdə min bir gün» kitabında XIX əsrin birinci yarısındakı Azərbaycan ədəbi-mədəni həyatının geniş mənzərəsi verilmişdi. F.Bodenştedtin tərcümələri sayəsində Mirzə Şəfinin adı və yaradıcılığı dünya miqyasında məşhurlaşmışdı. F.Bodenştedt həmçinin A.Bakıxanov-Qüdsinin divanından ayrı-ayrı nümunələri alman dilinə çevirərək Berlin mətbuatında çap etdirmişdi. Əsrin birinci yarısında Azərbaycanda olmuş ***Aleksandr Humboldt, Avqust fon Hakstauzen, Karl Kox*** kimi alman alimlərinin əsərlərində Azərbaycan tarixi və ədəbiyyatı ilə bağlı müəyyən məlumatlar verilir, bu xalqın dilinin Ön Asiyadakı rolu və əhəmiyyəti xüsusi nəzərə çarpdırılırdı.

60-cı illərdə ***Jül Vern, Aleksandr Düma*** kimi fransız yazıçıları Azərbaycanda olmuşdular. Jül Vernin «Arxipelaq alovlanır», Dümanın isə «Qafqaz» kitablarında xalqımızın tarixi, məişəti, əxlaqı və mənəviyyatı ilə bağlı maraqlı müşahidə və mülahizələrə təsadüf edilir. Aleksandr Düma Qafkaz səyahəti zamanı tanınmış Azərbaycan şairəsi Natəvanla, məşhur metsenat ***Mahmud ağa*** ilə tanış olmuşdu.

Azərbaycan ədəbiyyatının Şərqlə çoxəsrlik əlaqələri də XIX əsrin ilk onilliklərindən başlayaraq yeni məzmunda inkişaf edirdi. İsmayılbəy Qutqaşınlı İranda, Türkiyədə, Səudiyyə Ərəbistanında olmuş, öz «Səfərnamə»sində gördüyü ölkələrin təsvirini vermişdi. A.Bakıxanov Yaxın Şərqin İran, Türkiyə, Misir, Suriya, Səudiyyə Ərəbistanı kimi ölkələrini gəzib dolaşmışdı. M.F.Axundov yeni əlifba layihəsi ilə bağlı 1861-ci ildə İstanbulda olmuş, bir sıra türk ziyalıları ilə işgüzar əlaqələr yaratmış, Cəmiyyəti-Aliyyeyi-Osmaniyyədə yeni əlifba barəsində məruzə etmişdi. A.Bakıxanovun «Əsrar ül-mələkut» əsəri Sultan Əbdülməcidin əmri ilə türk alimi Seyid Şərəf Xəlil Əfəndi tərəfindən geniş şərhlərlə türk dilinə çevrilmiş və 1848-ci ildə İstanbulda kitab şəklində nəşr edilmişdi. *M.F.Axundovun komediyaları Türkiyədə dram sənətinin meydana gəlməsinə müsbət təsir göstərmişdi.* Onun İranın və Türkiyənin bir sıra qabaqcıl fikirli adamları ilə çoxillik qarşılıqlı əməkdaşlığı Yaxın Şərq üçün mühüm rol oynamışdı.

Ədəbi əlaqələrin inkişafı özünü bədii tərcümə sahəsində də göstərirdi. 1802-ci ildə antik Şərq abidəsi «Kəlilə və Dimnə» Əvəz Əli Səfiqulu oğlu tərəfindən Azərbaycan dilinə çevrilmişdi. Mirzə Şəfi Vazeh rus şairi ***M.Veltmanın*** «Aydın səmanı duman bürüdü» adlı şeirini fars dilinə, A.Bakıxanov isə ***İ.Krılovun*** təmsillərindən birini Azərbaycan türkcəsinə çevirmişdi. Bu, ilk tərcümələr olsa da, Azərbaycan ədəbi-mədəni yaradıcılığının ümumdünya ədəbiyyatına daxil olmasından xəbər verirdi.

## 3. ELM

**TARİXÇİLİK.** Əsrin əvvəllərindən başlayaraq humanitar elm sahələri içərisində tarixçilik toxunduğu mövzuların genişliyi və tədqiqat üsullarının müasirliyi ilə diqqəti cəlb edirdi. Bu dövrdə Azərbaycan tarixi həm ümumşərq və Qafqaz səpkisində, həm də ayrı-ayrı Azərbaycan xanlıqlarının timsalında öyrənilirdi. Tarixi əsərlərin yazılışında və tarixi şəxsiyyətlərin dəyərləndirilməsində obyektivlik artır, təhlil və nəzəri ümumiləşdirmə mədəniyyəti yüksəlirdi. Tarixi əsərlərdə şərti olaraq «nağılçılıq» adlandırıla biləcək təhkiyə üsulunu və üslubunu əsaslandırılmış, doğruçu təsvir və şərhlər əvəz edirdi. Azərbaycan miqyasında ilk dəfə olaraq tarixi abidələrin təsviri və tədqiqi, memarlıq və arxeologiyanın öyrənilməsi sahəsindəki ilk addımlar da XIX əsrin ilk onilliklərində atılmışdı.

Dövrün ən görkəmli tarixçisi Abbasqulu ağa Bakıxanov idi. Yaradıcılığa təriqət şairi kimi başlasa da, onun sonrakı fəaliyyətində Azərbaycan tarixi problenmləri mühüm yer tutmuşdu. Əslində A.Bakıxanovun ilk əsəri - 1819-cu ildə Qubada ana türkcədə tamamladığı «Riyazi ül-qüds» müəyyən mənada tarix sayıla bilər. 14 fəsildən ibarət olan bu əsərdə Kərbəla hadisələri və müsəlman müqəddəslərinin həyatı təsvir olunmuşdu.



Tiflisdə düşdüyü ziyalı mühiti, rus dilinə yiyələnməsi, ən başlıcası isə təmsil etdiyi hakim zadəgan sülaləsinin rus işğalının təbii nəticəsi olaraq tarix səhnəsindən sıxışdırılmasının doğurduğu acı təəssürat A.Bakıxanovu yurdunun tarixi ilə daha ciddi şəkildə və professional səviyyədə məşğul olmağa şövqləndirdi. 1828-ci ildə o, Azərbaycan tarixinə dair mühüm abidələrdən biri, təəssüf ki, indiyə qədər öyrənilməmiş qalan «Dərbəndnamə»nin tərcüməsi və tədqiqinə başladı. Onun rus dilinə tərcüməsində yerli türkcədə yazılmış bu ədəbi-tarixi abidənin ayrı-ayrı hissələri «Tiflisskiye vedomosti» qəzetinin 1829-cu il nömrələrində dərc edilmişdi. Qəzetin yazdığına görə A.Bakıxanov tərcüməni hicri 1099 (miladi 1721 - *Red.*)-cu ildə köçürülmüş türkcə nüsxədən etmiş, lakin bu zaman məlumatların dəqiqliyini sonrakı iki Azərbaycan və fars nüsxəsinə əsaslanaraq yoxlamışdı. Qəzet qeyd edirdi ki, «Dərbəndnamə»nin tərcüməsi «Şərq əlyazmalarının rus dilinə çevrilməsi sahəsində ilk təcrübə olacaqdır. Arzu edərdik ki, bu iş bacaran adamlarda da eyni həvəs oyatsın. Belə olan tərzdə biz yaxın gələcəkdə Zaqafqaziya ölkəsi və Rusiya haqqında Şərq mənbələrinin külliyyatını rus dilində görə bilərdik». Qəzet daha sonra bildirdi ki, «Dərbəndnamə» Azərbaycan türkcəsində əsli ilə birlikdə «müxtəlif Şərq yazıçılarının əsərlərindən götürülmüş əlavə və şərhlərlə kitab şəklində çap ediləcəkdir». Göründüyü kimi, A.Bakıxanov «Dərbəndnamə»nin yalnız rus dilinə tərcüməsini deyil, həm də onun elmi-tənqidi mətnini hazırlamaq istəyirmiş. Lakin naməlum səbəblər üzündən həmin iş başa çatdırılmamışdı.

30-40-cı illərdə «Müsəlman vilayətlərinin quruluşu üzrə komissiya»da çalışması və xidməti fəaliyyəti Qafqazın, xüsusən də Azərbaycanın tarixi ilə bağlı çoxsaylı coğrafi, etnoqrafik, dini mənbələrlə tanışlıq Bakıxanovu istər müasir Azərbaycan gerçəkliyinin, istərsə də qədim və orta əsrlər tarixinin bilicisinə çevirmişdi. 1837-ci il Quba üsyanının ilk araşdırıcılarından biri A.Bakıxanov olmuşdu. Onun «İndiki Zaqafqaziya əyalətlərini məskunlaşdıran tayfaların mənşəyi», «Rusiyaya birləşdirilmiş müsəlman ölkələrinə ümumi tarixi baxış» kimi tarixi qeydlərində Azərbaycanın və Qafqazın keçmişi ilə bağlı qiymətli məlumatlar öz əksini tapmışdı. Bütün bu qeydlərlə bir sırada bir tarixçi kimi Bakıxanovun adını məşhurlaşdıran ən başlıca əsər 1841-1842-ci ildə yazıb başa çatdırdığı «Gülüstani-İrəm» idi. Həmin əsərdə Azərbaycanın tarixi ən qədim dövrlərdən 1813-cü il Gülüstan müqaviləsinə qədər işıqlandırılmışdı. A.Bakıxanov çoxəsrlik Şərq tarixi ən'ənələrini davam etdirərək öz tarixi tədqiqatını fars dilində qələmə almış, 1843-cü ildə isə yaxın dostu, görkəmli polyak ziyalısı Tadeuş Lado Zablotskinin yardımı ilə onu «Qafqazın Şərq hissəsinin tarixi» adı altında rus dilinə çevirmişdi. Əsər beş hissədən ibarət idi. Ümumiləşdirici-fəlsəfi qəlibdə olan girişdə müəllif öz nöqteyi-nəzərindən tarix elminin qarşısında dayanan vəzifələri izah edirdi. Əsərə nəticə kimi verilmiş bölmə isə əslin-

də Azərbaycanın zəngin mədəniyyət tarixinin icmalı kimi düşünülmüşdü. Fəsillər isə ardıcıllıqla Şirvanın və Dağıstanın siyasi tarixinin araşdırılmasına həsr edilmişdi. Müəllifin ölümündən sonra əsərdən ayrı-ayrı hissələr «Kavkaz», daha sonralar isə «Kaspi» qəzeilərində dərc edilsə də, «Gülüstani-İrəm»i kitab şəklində görmək A.Bakıxanova qismət olmamışdı.

Rusiyanın hərbi naziri knyaz Çernışev «Gülüstani-İrəm»i I Nikolaya təqdim etmişdi. Nikolay müəllifi brilyant üzüklə mükafatlandırmış, əlyazmanın elmi dəyərini müəyyənləşdirməyi isə Rusiya Elmlər Akademiyasına həvalə etmişdi. Əsərə rəy verən akademiklər M.Brosse və B.Dorn bütövlükdə Azərbaycan tarixçisinin tədqiqatını yüksək qiymətləndirmiş, eyni zamanda həmin dövrün Avropa tarixşünaslığı baxımından bir sıra nöqsan və qeydlərini də bildirmişdi. Lakin «Gülüstani-İrəm»in siyasi nöqteyi-nəzərdən Rusiyaya nə xeyir, nə də ziyan gətirəcəyi barəsində Qafqaz canişini M.S.Vorontsovun qeydi kitabın taleyində nəhs rol oynamış, onun xəzinə hesabına çap edilməsinin qarşısını almışdı.

A.Bakıxanovun xidmət yoldaşı, şair və tədqiqatçı ***Mirzə Məhərrəmlə*** birlikdə yazdıqları «Kəşf ül-qəraib» əsəri isə ***X.Kolumbun*** məşhur kəşfinə – Amerika qitəsinin açılması tarixinə həsr edilmişdi. Burada eyni zamanda Kolumbdan sonrakı Amerikanın hərbi-siyasi tarixi, dövlət quruluşu və s. məsələlər barəsində geniş məlumat verilmişdi. Əsər fars dilində yazılmışdı. «Kəşf ül-qəraib» XIX əsr Azərbaycan tarixçiliyi və coğrafiyaşünaslığının yalnız milli mövzularla məhdudlaşmadığını, dünya tarixi ilə bağlı məsələlərə də nüfuz etdiyini göstərməkdədir.

Geniş profilli tarixi tədqiqatlar A.Bakıxanovla eyni dövrdə fəaliyyət göstərmiş başqa bir məşhur azərbaycanlı alimin – Mirzə Kazımbəyin də yaradıcılığında mühüm yer tuturdu. Bu sahədə Mirzə Kazımbəyin ilk addımı 1832-ci ildə Kazan universitetinin nəşriyyatında çap etdirdiyi «Əssəb üssəyyar» olmuşdu. Krım tarixçisi ***Seyid Məhəmməd Rizanın*** qələmə aldığı bu əsərdə Krım xanlığının 1416-1737-ci illər arasında 300 illik hərbi-siyasi tarixi yeddi görkəmli Krım xanının fəaliyyəti timsalında öz əksini tapmışdı. Mirzə Kazımbəy əsəri yeganə əlyazma nüsxəsi əsasında çapa hazırlamış, rus dilinə tərcümə etmiş, ona geniş müqəddimə və şərhlər yazmışdı. Alim Böyük Britaniya Kral Asiya Cəmiyyətinin təklifi ilə «Əssəb-üssəyyar»ın ingiliscəyə tərcüməsi üzərində işə başlasa da, onu sona çatdıra bilməmişdi. Bu tarixi abidənin nəşri müəyyən mənada həm də Avropa elmi fikrinə ciddi töhfə idi. Çünki Mirzə Kazımbəyin özünün də göstərdiyi kimi, «burada Krım xanlığının yeni tarixi və Rusiya, Türkiyə, Polşa, Almaniya ilə bağlı maraqlı hadisələr əks olunub və bir çox hallarda kitab adları çəkilən ölkələrin tarixçiləri üçün də qiymətli mənbə rolunu oynaya bilər».

Mirzə Kazımbəyin bilavasitə bu əlyazma ilə bağlı meydana çıxan «Həştərxanın 1660-cı ildə tatarlar tərəfindən geri alınması haqqında» adlı



böyük məqaləsi də Avropa tarixşünaslığının diqqətini çəkmiş və məşhur Avstriya tarixçisi ***Hammer-Purqştall*** həmin məqalənin fransızcaya tərcüməsini özünün on cildlik «Osmanlı tarixi»nə daxil etmişdi.

Azərbaycanlı alimin 1841-ci ildə Peterburqda çap olunan Uyğurlar haqqında tədqiqat» əsəri isə türk xalqlarının qədim tarixini zəngin mənbələr və dəqiq elmi meyarlarla öyrənmək baxımından diqqətəlayiq idi. «Qədim zamanlarda Orta Asiyada yaşayan xalqlar haqqında» adlı digər bir araşdırması ilə birlikdə Mirzə Kazımbəy özünün yuxarıda adı çəkilən əsərində uyğurların guya Çin mənşəli xalq olması haqqında mövcud elmi fikrə yol tapması yanlış fərziyyələri zəngin mə'xəzlər əsasında rədd edir, qədim uyğurların türk mənşəyini və onların Orta Asiyanın, eləcə də Çinin avtoxton əhalisi olmasını sübuta yetirirdi. Öz tarixi tədqiqatlarında Mirzə Kazımbəy yüksək bilik sahibi olduğunu sübuta yetirir, Şərq və Qərb dillərindəki araşdırmalardan, yunan, Roma, Çin, Bizans, Suriya və s. mənbələrindən istifadə edir, mənbələrə tənqidi şəkildə yanaşırdı.

Mirzə Kazımbəy Azərbaycanın ən qədim və orta əsrlər tarixi ilə məşğul olurdu. Bu baxımdan alimin zərdüştiliyi və onun başlıca kitabı «Avesta»nı Azərbaycanla bağlı şəkildə öyrənməyə təşəbbüs göstərməsi diqqətəlayiqdir. Mirzə Kazımbəy Zərdüştü tarixi şəxsiyyət və «Avesta»nın müəllifi sayır, onu böyük filosof, öz dövrünə görə mütərəqqi dini təlimin başçısı hesab edirdi. Zərdüştün vətənini Baktriya, yaxud Soqdiana hesab edən qərbli həmkarlarından fərqli olaraq Mirzə Kazımbəy onun qədim Azərbaycan ərazisində doğulması fikrinə üstünlük verirdi. Alim «Azərbaycan» sözünün kökünü də zərdüştilik və «Avesta» ilə əlaqəli şəkildə izah etməyə çalışırdı. Bu münasibətlə o, «Avesta»da adı çəkilən cənnət kimi gözəl ölkəyə – «Airien-Vecd»ə xüsusi diqqət yetirməyi zəruri sayır və yazırdı: «Filoloqların və tarixşünasların «Azərbaycan» adını «Odlar yurdu» kimi izah etmələrinə baxmayaraq biz «Azərbaycan» və «Airien-Vesd» arasındakı oxşarlığı da diqqətdən yayındıra bilmərik».

Orta əsrlər Azərbaycan tarixi ilə bağlı mühüm mənbələrdən biri olan «Dərbəndnamə»ni çap etdirməsi isə Mirzə Kazımbəyin adını dünya miqyasında məşhurlaşdırmışdı. Mirzə Kazımbəy XVII əsr Azərbaycan tarixçisi ***Məhəmməd Əvvabinin*** qələmindən çıxmış bu abidənin mətnini türkcə beş nüsxə əsasında dəqiqləşdirmiş, əsərin məhz Azərbaycan türkcəsində yazıldığını sübuta yetirmiş və «Dərbəndnamə» mətnini ingiliscəyə çevirmişdi. Ərəb, fars, türk, Avropa tarixçilərinin Dərbəndlə bağlı tədqiqat və araşdırmaları da kitabda tənqidi təhlili süzgəcindən keçirilmişdi. Beləliklə, 1851-ci ildə Peterburqda çap etdirdiyi «Dərbəndnamə» əsəri ilə müəllif bu qədim Azərbaycan şəhəri, onun təxminən 2500 illik mövcudluğu barəsində mükəmməl bir tarixi ensiklopediya hazırlayaraq meydana qoymuşdu.

Rusiya universitetləri üçün ilk dəfə mükəmməl İran ədəbiyyatı tarixi kursunu yaradan Mirzə Kazımbəy bu ölkənin zəngin və mürəkkəb tarixinə də laqeyd qalmamışdı. İran tarixinin təxminən iki min illik dövrü alimin tədqiqatlarında öz geniş əksini tapmışdı. O, İran mədəniyyəti tarixinə dair ayrıca tədqiqat yazmış, 1844-1852-ci illər İran ictimai-siyasi həyatının ən mühüm hadisəsi olan babilik hərəkatının ilk araşdırıcısı kimi çıxış etmişdi. Zəngin tarixi biliklər, üsyan iştirakçılarının qeydləri əsasında yazılmış bu ciddi tarixi tədqiqatda babiliyin başlıca inkişaf mərhələləri, onun əsas dini doktrinləri təfərrüatla təhlil edilmişdi. Mirzə Kazımbəy hərəkatın başçısı ***Seyid Əli Məhəmməd Babın*** şəxsiyyətini yüksək qiymətləndirir, onu öz vətənini zalımların özbaşınalığından və ruhanilərin cəhalətindən qurtarmağa çalışan bir humanist kimi səciyyələndirirdi. Mirzə Kazımbəy təkcə babiliyin ilk tədqiqatçısı deyildi, həm də Babın birinci bioqrafı idi. Əsərin mühüm bir qismi onun şəxsiyyətinə, dini baxışlarının yaranmasına həsr edilmişdi. İranın müxtəlif rəsmi saray tarixçilərinin, habelə Babın özünün və onun ayrı-ayrı ardıcıllarının fikirləri əsasında Mirzə Kazımbəy ilk dəfə babiliyin siyasi-ideoloji mövqeyini açmağa çalışmış, əsasən buna nail olmuşdu. O, doğru müşahidə etmişdi ki, Bab və tərəfdarları yalnız dini deyil, həm də sosial-siyasi islahatlar aparmaq uğrunda mübarizə aparırdılar. Yeni onları yalnız islam dininin vəziyyəti, ruhanilərin mənəviyyatsızlığı deyil, həm də vətəndaşı olduqları ölkənin acınacaqlı vəziyyəti, xalq kütlələrinin fəlakətli halı düşündürürdü. Buna görə də Bab və tərəfdarları geniş sosial-siyasi islahatlar yolu ilə xalqın vəziyyətini yaxşılaşdırmaq, cahil din xadimlərinin hakimiyyətinə son qoymaqla onu fanatizmin pəncəsindən xilas etmək istəyirdilər. Alim babiliyin meydana çıxmasını və qüvvətli ictimai-siyasi hərəkata çevrilməsini İranın həyatında təsadüfi hal hesab etmirdi. Onun fikrincə, ölkədə uzun illərdən bəri mövcud olan zülm sistemi və mədəni gerilik tez-gec belə bir hərəkat doğurmalı idi. Babın ilk mərhələdə qazandığı uğurları Mirzə Kazımbəy onun tərəfdarlarının azadlıq, bərabərlik, sosial ədalət uğrunda mübarizələri ilə izah edirdi. İlk dəfə 1865-ci ildə Peterburqda çapdan çıxan bu əsər indi də babilik haqqında ən dəyərli tarixi tədqiqatlardan biri kimi öncül mövqeyini qoruyub saxlamaqdadır.

Mirzə Kazımbəy həm də islam tarixi üzrə tanınmış mütəxəssis idi. Ciddi elmi axtarışların bəhrəsi olan silsilə əsərlərində alim daha çox ərəb tayfalarının islamaqədərki tarixi və İslamın meydana gəlməsi ərəfəsində Ərəbistan yarımadasındakı ictimai-siyasi vəziyyət ilə maraqlanırdı. O, yeni dinin yarandığını dövrü – VII əsrin əvvəllərini yalnız bu yarımada miqyasında deyil, daha geniş ərazidə, dünya tarixi səpkisində araşdırmağa çalışırdı. Mirzə Kazımbəy rus islamşünasları içərisində Məhəmmədin həyatı, şəxsiyyəti, mühiti, peyğəmbərliyi, dağınıq ərəb qəbilələrinin vahid milli və dini dünyagörüşü ətrafında birləşdirilməsində onun rolu barəsində bilavasitə



ilkin mənbələrə əsaslanmaqla qərəzsiz məlumat verən ilk tarixçi idi. Lakin islam dini və onun yaradıcısı barəsində bir sıra düzgün, tarixən əsaslandırılmış müşahidə və mülahizələri ilə bir sırada Mirzə Kazımbəyin tədqiqatlarında müsəlmanlığa xristianlıq ölçüsü ilə yanaşmaq, xristian əxlaqi nöqteyi-nəzərindən müsəlman əxlaqını təftiş etmək meyli də nəzərə çarpırdı.

Qafqazın ən yeni tarixi də Mirzə Kazımbəy-tarixçinin diqqətindən yayınmamışdı. Onun «Müridizm və Şamil», «Məhəmməd Əmin» kimi əsərləri Qafqaz dağlılarının bütün Rusiya imperiyasını silkələyən milli-azadlıq mübarizəsinə və Qafqazda müridizm tarixinə həsr olunmuşdu. Bu əsərlərdə Mirzə Kazımbəy Şərqdə və eləcə də müsəlman Qafqazında geniş yayılan təriqətçiliyin hərəkətverici qüvvələrini, Şamilin yaratdığı imamatın dövlət quruluşunu geniş şərh etmiş, çağdaş rus mətbuatının «vəhşi dağlıların başçısı» adlandırdığı Şeyx Şamilin şəxsiyyəti üzərində ətraflı dayanmışdı. Tarixdə şəxsiyyətin roluna mühüm əhəmiyyət verən Mirzə Kazımbəy Şamili «qəhrəman, qəhrəmanlar yaradıcısı» adlandıraraq yazırdı: «... Şamil uzun müddət bizdə keçmişin hadisəsi sayılmayacaq. Avropada bizə nisbətən onun haqqında bir qədər gec danışmağa və yazmağa başladılar. Lakin orada da Şamil barəsində hələ uzun müddət danışacaq və yazacaqlar... Şamil adı özündə çoxlu tarixi və vətənpərvərliklə bağlı fikirləri ehtiva edir. Ağıllı rus vətənsevərləri bu addan çəkinmirlər. O, hər halda qəhrəmandır, qəhrəmanlar yaradanıdır».

Elm tarixçisi kimi də Mirzə Kazımbəy öz dövrünün tarixşünaslığında mühüm rol oynamışdır. İlk bioqraflarından K.Foyqtun yazdığına görə o, 1828-1845-ci illər arasında müsəlman Şərqinin görkəmli elm xadimləri barəsində on min məqalə yazmışdı, onları bir ensiklopediyada birləşdirmək istəyirdi. Bu məqalələrin çoxu bir neçə sətirdən ibarət idi, əsas diqqət bioqrafik məlumatlara verilmişdi. Azərbaycanlı alim eyni zamanda rus şərqşünaslığının ilk tarixçisi idi. Dünyanın müxtəlif bölgələrinin mədəniyyət tarixinə dair əsərləri Mirzə Kazımbəyin simasında universal bir tədqiqatçı görməyə imkan verir. Bəşər mədəniyyəti tarixində Şərqin öncüllüyü, öndərliyi, xüsusilə islam Şərqi mədəniyyətinin orta əsrlər Avropası üçün örnəyə çevrilməsi ideyası alimin əsərlərində kifayət qədər əsaslandırılmışdı. Məsələn, Xilafətin ilk əsərlərində islam dünyasının böyük mədəniləşdirici rolundan bəhs edən Mirzə Kazımbəy göstərirdi ki, «həmin dövrdə elmi fikrin tərəqqisi baxımından sarasinlərin (ərəblərin – *Red.*) qazandıqları şöhrət Avqust dövründəki Roma imperiyasının şöhrətindən heç də az deyildi, o zaman hələ cəhalət pərdəsinə bürünmüş Avropa dünyası islam hökmdarlarının qorxusundan tir-tir əsirdi».

Tarixi qaynaq və abidələrin tərcüməsi, nəşri, şərhi sahəsində Mirzə Kazımbəyin böyük xidmətləri olmuşdur. O, tarixdə şəxsiyyətə böyük yer verir, əsərlərində yalnız tarixi hadisələrin təsviri ilə kifayətlənməyərək on-

ları dünya tarixindəki oxşar hadisələrlə tutuşdurmağa və ümumi nəticələrə gəlməyə çalışırdı. Mirzə Kazımbəyin tədqiqatlarında 50-ci illərin ikinci yarısından başlayaraq demokratizm ruhu daha çox yer tuturdu.

Mənbələrin verdiyi məlumata görə Peterburq universitetində çalışan digər bir azərbaycanlı alim-Mirzə Cəfər Topçubaşov da Nadir şahın hakimiyyəti dövründən üzü bəri Qafqazda cərəyan edən hadisələr barəsində kitab yazmışdı. Lakin həmin əsər dövrümüzə gəlib çatmamışdır.

Yaxın və Orta xalqları tarixinin birsıra dövrləri və problemləri M.F.Axundovun məqalələrində, xidməti qeydlərində və məşhur «Kəmalüd-dövlə məktubları» traktatında öz əksini tapmışdı. Təəssüf ki, müxtəlif cəhətlərdən təfsir edilən bu traktat indiyə qədər Şərq tarixinin mənbələrindən biri kimi, tarixi yöndə tədqiqatçıların diqqətini cəlb etməmişdir.

XIX yüzillik tarixşünaslığında Azərbaycanın ayrı-ayrı xanlıqlarının siyasi tarixinin öyrənilməsi sahəsində də ilk addımlar atılmışdı. Bu baxımdan Qarabağ xanlığı tarixçilərin diqqətini daha çox cəlb etmişdi. Bu xanlığın siyasi tarixinə dair ilk əsərin müəllifi Mirzə Adıgözəl bəy (?-1848) idi. Ağa Məhəmməd şah Qacarın 1795-ci ildə Şuşaya hücumundan sonra ailəsi ilə birlikdə Gürcüstana köçən Mirzə Adıgözəl bəy burada rusların xidmətinə keçmiş və kapitan rütbəsinə qədər yüksəlmişdi. O, məyyən mənada Qarabağ xanlığında rus mənafeyinin müdafiəçisi kimi çıxış edir, hətta yerli bəylərin «fikir tərzi» və «gizli niyyətləri» barəsində Tiflisdəki rus canişinliyinə ardıcıl olaraq gizli məlumatlar göndərməkdən çəkinmirdi. 1826-cı il Rusiya-İran müharibəsində və 1830-cu ildə Car-Balakən üsyanının yatırılmasında Mirzə Adıgözəl bəy şəxsi şücaəti ilə fərqlənmişdi. O, öz dövrünə görə kifayət qədər savadlı idi – fars, türk, erməni, gürcü, rus dillərini bilir, şeirlər yazır, klassik Şərq poeziyasının təbliğatçısı kimi çıxış edirdi. 1826-cı il Gəncə vuruşması zamanı dağıdılmış Nizami məqbərəsini təmir etdirdiyi də məlumdur. Mirzə Adıgözəl bəy özünün başlıca və yeganə tarixi əsərini – «Qarabağnamə»ni 1745-ci ildə Azərbaycan türkcəsində qələmə almışdı. Xronikada Qarabağ xanlığının 1736-cı ildən 1828-ci ilə qədərki siyasi tarixi ardıcıllıqla əks olunmuşdu. Əsər əlyazması halında geniş yayılmışdı. «Qarabağnamə»nin mükəmməl nüsxələrindən biri qafqazşünas N.V.Xanıkov tərəfindən Peterburq EA-ya, akademik B.A.Dorna göndərilmişdi. Əsər həmin dövrdə qədim erməni dilinə də tərcümə edilmişdi. Mirzə Adıgözəl bəy Qarabağ xanlığının banisi Pənahəli xanın fəaliyyətinə, Transqafqazın mühüm mədəni mərkəzlərindən biri kimi şöhrətlənən Şuşanın bina edilməsinə, Qarabağ xanlığının xarici siyasətinə, onun Rusiya, İran və Türkiyə ilə münasibətlərinə geniş yer ayırmış, tərəkəmə-elat həyatının bir sıra cəhətləri onun əsərində öz dəqiq əksini tapmışdı. Mirzə Adıgözəl bəyin «Tarixi»ndə Qarabağın türk toponimikasına da yer ayrılmış, onun Azərbaycan torpağı olması fikri əsaslandırılmışdı. Həmin dövrdə



bu əsər artıq Qarabağı erməniləşdirmək siyasətini həyata keçirməyə başlayan erməni dairələrində təkzib olunmamışdı. Bu ilk növbədə müəllifin əsaslandığı qaynaqların dəqiqliyi ilə bağlı idi.

XIX əsrin birinci yarısında Qarabağ tarixi haqqında başqa bir əsərin müəllifi Mirzə Adıgözəl bəyin müasiri ***Mirzə Camal Cavanşir*** (1773-1853) idi. Mirzə Camalı yaxından tanıyan məşhur qafqazşünas A.P.Berjenin yazdığına görə o, «fars, ərəb və osmanlı dillərindən başqa avar və ləzgi dillərini də yaxşı bilirdi. Tarix, coğrafiya və astronomiya barəsində mükəmməl məlumatı vardı. Tibb elminə bələd olduğu üçün istefaya çıxdıqdan sonra ömrünün sonuna kimi xəstələri pulsuz müalicə edirdi. Ona görə də xalq arasında böyük hörmət qazanmışdı». Mirzə Adıgözəl bəydən fərqli olaraq Mirzə Camal Cavanşir öz «Qarabağ tarixi»ni fars dilində qələmə almışdı. Əsər həmin dövrdə Qafqaz canişini olan knyaz M.S.Vorontsovun təklifi ilə yazılmışdı. Tədqiqatın başlıca məziyyətlərindən biri müəllifin təsvir edilən hadisələrdən bir çoxunun iştirakçısı və şahidi olması, uzun illər boyu Qarabağın və Azərbaycanın digər bölgələrinin hərbi və siyasi xadimləri ilə yaxın əlaqə saxlaması idi. 1797-ci ildə Molla Pənah Vaqifin qətlə yetirilməsindən sonra Mirzə Camal İbrahim xanın vəziri olmuş, xanlığın daxili və xarici siyasətinə rəhbərlik etmiş, Qarabağ xanlığı Rusiya tərkibinə qatıldıqdan sonra isə eyni vəzifəni Mehdiqulu xanın yanında davam etdirmişdi. Qarabağ xanlığının ləğvindən (1822) sonra rus məhkəmə sistemində çalışmış, əsərini isə 1840-cı ildə təqaüdə çıxdıqda yazmışdı. Mirzə Camalın az qala yarım əsr davam edən geniş ictimai-siyasi fəaliyyəti, zəngin həyat təcrübəsi, dövlətin idarə olunması sahəsindəki bilik və səriştəsi «Qarabağ tarixi» əsərini dövrün tarixşünaslıq elminin ciddi nailiyyətlərindən biri etmişdi. Mirzə Camalın tarixi təfsirlərində başlıca yeri Qarabağ xanlığının siyasi müstəqillik uğrunda xarici təsirlərə qarşı apardığı mübarizə tuturdu. Xanlığın daxilindəki qüvvələr nisbətinə və hakimiyyət davalarına yaxşı bələd olan müəllif Azərbaycanın bu sonuncu müstəqil bölgəsini parçalamaq və yad təsirlərə tabe etdirmək sahəsində erməni məliklərinin dağıdıcı və xəyanətkar fəaliyyətinin açıqlanmasına müəyyən yer ayırmışdı. Qarabağ tarixini araşdıran digər müəlliflərdən fərqli olaraq Mirzə Camal xanlığın daxili və xarici siyasəti ilə bir sırada iqtisadi, torpaq mülkləri problemlərinə də toxunmuşdur.

Əsər A.P.Berje tərəfindən rus dilinə tərcümə olunaraq 1855-ci ildə «Kafkaz» qəzetində çap edilmidi. Tərcüməyə Mirzə Camalın qısa bioqrafiyası da əlavə edilmişdi. Bu məlumatlar tarixçinin oğlu, özü də Qarabağ tarixinə dair salnamənin müəllifi kimi tanınan ***Rzaqulu bəy Cavanşir*** vasitəsi ilə əldə edilmişdi.

Rzaqulu bəyin keçən əsrin 50-ci illərində tamamladığı «Qarabağnamə» əsəri əslində atasının «Qarabağ tarixi» əsərinin xülasəsindən ibarət

idi. Lakin atasından fərqli olaraq rus dilini mükəmməl bilən və Rusiya ilə Qarabağ xanlığı arasındakı münasibətlərə daha yaxından bələd olan Rzaqulu bəy ***Qarabağın*** ən yeni tarixi ilə bağlı bir sıra maraqlı fakt və mülahizələr də söyləmişlər.

Qarabağın tarixi ilə məşğul olan müəlliflərdən biri də ***Mirzə Yusif Nersesov*** idi. Onun fars dilində yazdığı «Tarixi-Safi» əsərində də Qarabağ tarixinə dair digər salnamələrdə olduğu kimi xanlığın 1745-1828-ci illər arasındakı siyasi tarixi əsas tutur. Lakin milliyyətcə erməni olan Mirzə Yusif Nersesov öz salnaməsində Qarabağın erməni məliklərinin fəaliyyətlərinin təsvirinə daha çox yer ayırmış, Pənah Əli xan və İbrahim Xəlil xanla bağlı çoxlu təhriflərə və yanlışlıqlara yol vermiş, Qarabağın və bütün Aran ərazisinin mifik «Böyük Ermənistanın» tərkibində olması barəsində erməni tarixçilərinin sayıqlamalarını təkrarlamışdır. Mirzə Yusif Nersesov təsvir etdiyi hadisə və şəxsiyyətlərə kifayət qədər bələd deyildi. O, uzun müddət İranda və Tiflisdə yaşamış və «Tarixi-Safi» əsərini də çox güman ki, farspərəst qüvvələrin və xüsusən də erməni kilsəsinin təsiri altında yazmışdı.

Ötən əsrin 60-cı illərində şair və müəllim ***Mirmehdi Xəzani*** də «Qarabağnamə»lər silsiləsində müəyyən yer tutan «Qarabağ tarixi» əsərini yazmışdı. 24 fəsildən ibarət kitabda Qarabağ xanlığının təxminən 80 illik tarixi öz geniş əksini tapmışdı. Mirmehdi Xəzaninin əsəri daha çox Mirzə Adıgözəl bəy və Mirzə Camal «Qarabağnamə»lərinin xülasəsi kimi düşünülmüşdü. Ona görə də mənbələrdə bu əsər «Asar ül-Camal» adı altında da tanınmaqdadır.

Qarabağ xanlığının tarixi ilə bağlı ayrı-ayrı məqamlar; xüsusilə də erməni məliklərinin xəyanəti ***Mirzə Yusif Əhərinin*** «Əhərnamə» adlı əsərində öz əksini tapmışdır. Erməni məlikləri Qarabağda hakimiyyəti öz əllərinə keçirmək üçün Qacarla dil tapmağa çalışırdılar. Lakin onların bu planları baş tutmamışdı.

Azərbaycanın başqa bir bölgəsinin – Şəki xanlığının siyasi tarixini sonuncu Şəki xanı Fətəli xanın oğlu, şair ***Kərim ağa Fateh*** yazmışdı. Əsər 1829-cu ildə tamamlanmış, 1858-ci ildə akademik B.A.Dorn tərəfindən çap olunmuşdu. Lakin qafqazşünas N.V.Xanıkovun səhvi üzündən Kərim ağa Fatehin «Şəki xanlığının tarixindən» adlı yazısı 1929-cu ilə qədər səhvən ***Əbdüllətif Əfəndinin*** əsəri kimi qələmə verilmişdir. Kərim ağa özünün həcmcə o qədər də böyük olmayan yazısını Azərbaycan türkcəsində qələmə almışdı.

Əslən Şəkidən olan başqa bir Azərbaycan tarixçisinin – ***Hacı Seyid Əbdülhəmidin*** (1795-?) yenə də ana dilində yazılmış «Şəki xanları və onların nəsilləri» əsəri də Şəkinin tarixinə həsr olunmuşdu. Bu xronika XIX əsrin 50-ci illərində tamamlanmış, ilk dəfə Salman Mümtaz tərəfindən aşkara çıxarılmışdır. Əsərdə Şəki bölgəsinin tarixi XV yüzillikdən XIX



yüzilliyin əvvəllərinə kimi ardıcıllıqla izlənmiş, şəkililərin İran asılılığına qarşı mübarizəsi, daxili problemləri, şəhərin müdafiə qurğuları və s. barəsində məlumat verilmişdir.

Gəncə xanlığının tarixini isə din xadimi və şair ***Şeyx İbrahim Qüdsi*** (1816-1865) qələmə almışdı. O, Gəncə gimnaziyasında Azərbaycan dili və şəriət müəllimi vəzifəsində çalışmışdı, ana dilindən başqa ərəb və fars dillərini də mükəmməl bilirdi. İslam tarixi ilə bağlı bir sıra tədqiqatlar müəllifi kimi tanınmışdı; «Tarixi-müqəddəs» əsərində Məhəmməd peyğəmbərin və imamların həyatını geniş əks etdirmişdi. 40-cı illərdə Şeyx İbrahim müxtəlif yazılı mənbələrdən və müasirlərindən topladığı məlumatlar əsasında Gəncənin tarixini tərtib etmişdi. Onun yazısında şəhərin bina olunmasından 1804-cü ilə – sonuncu müstəqil Gəncə hökmdarı Cavad xanın süqutuna və şəhərin ruslar tərəfindən işğalına qədərki hadisələr işıqlandırılmışdı. Azərbaycan ədəbiyyatının ilk tarixçisi F.Köçərlinin yazdığına görə Şeyx İbrahimin əsəri müasirləri arasında əldən-ələ gəzmişdi. Bu əsərin qısa xülasəsi 1846-cı ildə «Kavkaz» qəzetində rus dilində tamamilə başqa bir müəllifin imzası ilə çap olunmuşdu.

Dərbənd və Quba xanlıqlarının tarixi, xüsusən də Fətəli xanın hakimiyyət dövrü, həyatı və şəxsiyyəti ilə bağlı ayrı-ayrı məsələlər Qafqaz canişinliyində xidmət edən azərbaycanlı zabit ***İsgəndər bəy Hacinskinin*** «Qubalı Fətəli xanın həyatı» adlı tədqiqatında öz əksini tapmışdı. Əsər rus dilində yazılmış və ilk dəfə 1847-ci ildə «Kavkaz» qəzetində çap olunmuşdu. Bu tarixi portret nümunəsinin mühüm cəhəti burada bir siyasi xadim kimi Fətəli xanın gerçək dəyərləndirilməsi idi. İsgəndər bəy Hacınski ayrı-ayrı xanlıqlardan ibarət Azərbaycan torpaqlarının vahid bir dövlət halında birləşdirilməsi sahəsində Fətəli xanın rolunu xüsusi qeyd edir, onu uzaqgörən, ağıllı, bacarıqlı dövlət xadimi, hərbi işə dərindən bələd olan sərkərdə kimi yüksək qiymətləndirirdi.

***Mirzə Heydər Vəzirovun*** (?-1880) fars dilində qələmə alınmış «Zübdət ət-təvarix» əsərində Nadir şahın ölümündən sonra Dağıstan və Şirvanın siyasi tarixi diqqət mərkəzinə çəkilmişdi. Təxminən 40-cı illərin ortalarında tamamlanan əlyazması rəy üçün Peterburqda, akademik X.Frenə göndərilmişdi. «Zübdət ət-təvarix»in digər rəyçisi – M.F.Axundov onun əhəmiyyət və faydasını xüsusi qeyd etmişdi. Mirzə Heydər Vəzirovun, eləcə də onun dərbəndli həmkarlarından Kazan universitetinin müxbir üzvü ***Mirzə Məhəmməd Təqi Dərbəndinin***, arxeoloq ***Arslan bəyin*** tarixi araşdırmaları Mirzə Kazımbəy, A.Bakıxanov və İ.Berezinin diqqətini cəlb etmişdi. Lakin Azərbaycan tarixinə dair digər mənbələr kimi, «Zübdət ət-təvarix» də keçən əsrdə çap olunmamışdı. Əsərdəki məlumatlar əsasında «Dərbəndnameyi-cədid» («Yeni Dərbəndnamə») adlı qısa bir kitab hazırlanmışdı.

Tarixşünaslığın arxeologiya və numizmatika kimi yüksək tədqiqatçılıq səriştəsi tələb edən sahələrində də əsrin ortalarından etibarən bir irəliləyiş nəzərə çarpmaqda idi. 1846-cı ildə Rusiya Arxeologiya Cəmiyyətinin yaradılması təşəbbüsü ilə çara müraciət edən bir neçə görkəmli rus ziyalısı içərisində azərbaycanlı alim M.C.Topçubaşov da var idi. *1851-ci ildə bu cəmiyyətin tərkibində ayrıca Şərq arxeologiyası şöbəsi yaradılmış və M.C.Topçubaşov yekdilliklə şöbənin rəhbəri seçilmişdi.* Şöbə Şərq arxeologiyası və numizmatikasına dair bir sıra elmi müsabiqələr keçirmiş, öz «Qeydlər»ini çap etmişdi. 1844-cü ildən Kazan universitetindəki zəngin mints-kabinetə rəhbərlik edən Mirzə Kazımbəy həm də Şərq sikkələri və Şərq epiqrafik abidələri ilə bağlı bir sıra yeni tədqiqatların müəllifidir. «Kavkaz» qəzeti 1847-ci il nömrələrinin birində M.F.Axundovun Qafqaz canişinliyi dəftərxanası yanındakı sikkə kabinetinə qədim Şərq sikkələrinin böyük bir toplusunu bağışladığını xəbər verirdi.

M.F.Axundovun tarixçi fəaliyyətinin bir hissəsi 1866-cı ildə yaradılan Qafqaz Arxeologiya Komissiyası ilə bağlı idi. O, burada A.P.Berje, N.F.Dubrovin kimi görkəmli rus tarixçiləri ilə çiyin-çiyinə çalışırdı. Komissiyanın nəşr etdiyi çoxcildli «Aktlar»da Azərbaycan və Yaxın Şərqlə bağlı sənədlərin böyük bir qismi M.F.Axundov tərəfindən rus dilinə çevrilmiş, dəqiqləşdirilmiş, onlara izah və şərhlər yazılmışdı. «Aktlar»ın təkcə beşinci cildi üçün o, beş yüz səhifə yazı mətni hazırlamışdı. Bir sözlə, XIX əsr Azərbaycan alimləri, ziyalıları üzərində «Azərbaycan tarixi» sözləri yazıla biləcək bir kitab ortalığa qoymasalar da, həmin tarixin ayrı-ayrı mərhələlərini özündə əks etdirən çoxsaylı mənbələri üzə çıxarmış, araşdırmış, çap etmişdilər.

Qafqazın ərəbdilli epiqrafik abidələrinin öyrənilməsi sahəsində şair və müəllim ***Fazil xan Şeydanın*** (1792-1852) müəyyən xidmətləri olmuşdu.

XIX əsrin birinci yarısında Mirzə Kazımbəy və A.Bakıxanov kimi görkəmli Azərbaycan alimlərinin təsiri altında İ.Berezin, A.S.Qriboyedov, A.A.Bestujev-Marlinski, Y.N.Ozertskovski, P.S.Senkovski, O.Evetski, B.Dorn, M.Brosse, X.Fren, Y.A.Qaqemeyster kimi rus yazıçı, şərqşünas və qafqazşünasları Azərbaycanla, onun tarixi keçmişi, maddi mədəniyyət abidələri ilə maraqlanmış və həmin problemlərlə bağlı öz əsərlərində söz açmışdılar.

Tarixşünaslıqla bir sırada XIX yüzilliyin birinci yarısında Azərbaycanda coğrafiyaşünaslıq sahəsində də müəyyən işlər görülmüşdü. Məşhur coğrafiyaşünas-səyyah, tarixçi, etnoqraf, filosof, ədəbiyyatşünas ***Hacı Zeynalabdin Şirvani*** (1780-1837) ömrünün 40 ilini səyahətlərdə keçirmiş, Azərbaycanda, Yaxın və Orta Şərq ölkələrində, Hind-Çində və başqa yerlərdə olmuşdu. Onun çoxsaylı əsərlərində Yaxın və Orta Şərqin, Hindistanın, Efiopiyanın, Orta Asiyanın, Qafqazın coğrafiyası, tarixi, etnoqrafiyası, incəsənəti, mədəniyyət abidələri barəsində maraqlı məlumatlar verilmiş, həmin ölkələrin təbiəti, iqlimi, bitki örtüyü təsvir olunmuş, bir sıra coğrafi adların barəsində maraqlı mülahizələr irəli sürülmüşdü. Hacı Zeynalabdinin kiçik qardaşı ***Hacı Məhəmmədəli Şirvani*** (1783-?) də 30 ildən çox səyahətlərdə olmuş, gəzdiyi ölkələr barəsində bir neçə kitab yazmışdı. O, eyni zamanda təbabət və fəlsəfə ilə də maraqlanmışdı.



A.Bakıxanovun Rusiyaya, Ukraynaya, Polşaya, Baltikyanı ölkələrə, Türkiyə və Orta Şərq ölkələrinə səyahətləri, İ.Qutqaşınlının «Səfərnamə»si, M.F.Axundovun Türkiyə haqqında qeydləri həmin ölkələr barəsində tarixi-coğrafi biliklərin Azərbaycanda yayılması baxımından müəyyən rol oynamışdı. Onların hər üçü Rusiya Coğrafiya Cəmiyyəti Qafqaz şöbəsinin həqiqi üzvləri idilər və şöbənin elmi tədbirlərində yaxından iştirak edirdilər.

**FƏLSƏFƏ.** Azərbaycanda zəngin ənənələrə malik olan fəlsəfi fikir XIX yüzilin ortalarında yeni inkişaf mərhələsinə qədəm qoymuş, xüsusilə onun etika, məntiq kimi sahələrində nəzərəçarpacaq irəliləyişlər olmuşdur. Humanitar elmlərin digər sahələri kimi burada da aparıcı yer tutan, ensiklopedik biliyi ilə seçilən A.Bakıxanov, M.F.Axundov, Mirzə Kazımbəy və b. idi.

A.Bakıxanovun 1833-cü ildə tamamlanan «Təhzib ül-əxlaq» əsəri müəllifin özünün yazdığı kimi, «islamın müqəddəs kitablarının, eləcə də yunan, ərəb və Avropa filosoflarının təlimlərinə əsaslanan əxlaq fəlsəfəsi» nümunəsi idi. Kitab fars dilində yazılmışdı. Onun mətni ilk dəfə 1888-ci ildə «Kəşkül» qəzetində çap edilmişdi. A.Bakıxanovun etik görüşlərini əks etdirən başqa bir əsəri isə 1837-ci ildə tamamladığı «Nəsayih» («Kitabi nəsihət») idi. Bu əsər qədim türk-uyğur söz ustadı Balasaqunlunun «Kitadqu bilik» poemasının təsiri altında yazılmış nəsihətlərdən ibarətdi.

Ensiklopedist-alimin «Eyn ül-mizan» əsəri isə onun özünün də qeyd etdiyi kimi, dialektika və məntiq məsələlərinə həsr olunmuşdu. Əsər ərəb dilində yazılmışdı, müqəddimə, iki fəsli və nəticədən ibarət idi. «Eyn ül-mizan»ın 1840-cı ildə üzü köçürülən nüsxəsi müəllif tərəfindən Kazan universitetinin professoru Mirzə Kazımbəyə hədiyyə edilmişdi.

Mirzə Kazımbəy istər Şərq, istərsə də Qərb fəlsəfi fikrinə dərindən bələd idi. Gəncliyində ən yaxşı müəllimlərin simasında Şərq sxolastikası ruhunda tərbiyə edilsə də, sonralar antik yunan və alman fəlsəfəsinə böyük maraq göstərmişdi. Onun fəlsəfi baxışlarının formalaşmasına ***Platonun*** irsi xüsusilə böyük təsir göstərmişdi. Tarixi əsərlərindən də göründüyü kimi, Mirzə Kazımbəy yunan fəlsəfəsindəki idealist cərəyana daha böyük

əhəmiyyət verirdi, buna görə də ***Heraklitin*** Milet məktəbinin, ***Empedokl*** və ***Demokritin*** materialist məzmunlu fəlsəfi irsi alimin diqqətini o qədər də cəlb etmirdi. Onun fəlsəfi axtarışlarına İsgəndəriyyə məktəbinin, neoplatonizm və neopifaqorizmin daha güclü təsiri olmuşdu. Təsadüfi deyil ki, Bab hərəkatının fəlsəfi mahiyyətini və ehkamlarını açıqlayarkən Mirzə Kazımbəy babiliklə Platon təlimi arasında müqayisə və paralellər aparmışdı. Yarımçıq qalmış «Dünyanın «təmiz» adlandırılan zövqləri və onların həqiqi səadətə qovuşmağa təsiri» adlı etik-fəlsəfi yazısında isə azərbaycanlı alim idealist alman fəlsəfəsinin ***Kant*** və ***Şellinq*** kimi görkəmli nümayəndələrinin yaradıcılığına müraciət edirdi. Alman filosofları kimi Mirzə Kazımbəy də inkişafı mənəvi proses sayır və dünyanın dərkində ilahi başlanğıcla birlikdə elmə də böyük əhəmiyyət verirdi. İslama dair silsilə əsərlərində alim VII-XI əsrlər Şərq, xüsusən də ərəb fəlsəfi fikrinin bir sıra görkəmli nümayəndələri barəsində maraqlı mülahizələr irəli sürmüşdü. İran tarixinə dair əlyazması şəklində qalmış tədqiqatlarında, habelə «Firdovsiyə görə fars mifologiyası» əsərində o, qədim dinlərin, xüsusən də zərdüştlüyün fəlsəfi əsasları barəsində fikirlərini əsaslandırmışdı.

XIX əsr Azərbaycan fəlsəfi fikrinin ən görkəmli nümayəndəsi M.F.Axundov idi. Onun «Kəmalüddövlə məktubları» fəlsəfi əsəri ilə Azərbaycanın fəlsəsi fikir tarixində birinci dəfə olaraq bu elm sahəsinin xalqın həyatı, mübarizəsi, mənəviyyatı ilə sıx bağlılığı problemi qoyulmuşdu. Böyük yazıçının fəlsəfi irsi də bədii yaradıcılığı kimi aydın sosial istiqaməti ilə fərqlənir. Müasirləri A.Bakıxanov və Mirzə Kazımbəydən fərqli olaraq M.F.Axundov təfəkkürün varlığa, şüurun təbiətə münasibətində ardıcıl materialist mövqedə dayanmış, xüsusən Şərq fəlsəfə irsindəki sxolastik meyllərə qarşı barışmaz mövqe tutmuşdu. İdealizmin tənqidini verməyə çalışarkən filosof-ədib ilk növbədə təbiətşünaslıq elminin uğurlarına, gəldiyi elmi nəticələrə əsaslanırdı. M.F.Axundovun fikrincə, materiya («maddə», «maddeyi-kəsraf») yoxluqdan əmələ gəlməyib və yoxluğa çevrilə bilməz; o, reallığın məcmusudur, yeganə, həqiqi və mütləq substansiyasıdır. Azərbaycan filosofu hərəkəti maddənin əsas atributu sayır, məkan və zamanın da həmin atributlar kimi gerçəkliyini, əvvəli və sonu olmadığı fikrini qəbul edirdi. Dünyanın fasiləsiz dəyişməsi maddənin ədəbi hərəkəti ilə bağlı şərh edilirdi. Axundov dualist başlanğıcı, ruhun ölməzliyi və onun müstəqil fəaliyyəti haqqındakı fikirləri uydurma adlandırırdı. Avropa maarifçiləri kimi M.F.Axundov da dünyanın dərkində əqlin, zəkanın, elmi biliklərin müstəsna rolunu qeyd edir, insanları sxolastik və mistikaya inandırmağa çalışanları kəskin tənqidə tuturdu. O, filosoflara «xalqa həqiqət, hüquq, əql və insanlıq yolu» göstərməyə, «xalqı həqiqət, tərəqqi və sivilizasiya yoluna» çıxarmağa borclu adamlar kimi yüksək tələbkarlıqla yana-



şırdı. M.F.Axundovun fəlsəfi baxışları onun Avropa fəlsəfi fikrinə yaxşı bələd olduğunu göstərməkdədir. Lakin bununla birlikdə böyük ədibin bir sıra məqamlarda Şərq fəlsəfi fikrinə, xüsusən də islamın yaratdığı mənəvi sərvətlərə kifayət qədər dəqiqlik və düzgünlüklə yanaşa bilmədiyini, bəzi hallarda ifrat inkarçılıq mövqeyi tutduğunu da qeyd etmək lazımdır.

Klassik Şərq və islam fəlsəfəsi, etika, estetika ilə bağlı müxtəlif problemlər Hacı Zeynalabdin Şirvaninin «Bustan ül-arifin» («Ariflər bağı»), «Kəşf ül-məarif» («Biliyin kəşfi»), Hacı Məmməd Şirvaninin «Əbdürhanfişərəfət ün-insan» («İnsan şərəfi haqqında dəlil») əsərlərində öz əksini tapmışdı. Ədəbiyyatın fəlsəfi tutumu, ən'ənəvi Şərq didaktikasının ciddi etik baxışlarla əvəzlənməsi güclənmişdi.

Elmi fikrin nisbətən dəqiq mənzərəsini yaratmaq üçün müsəlman hüquqşünaslığı (fiqh) və astrologiya (nücum) sahəsində görülən bir sıra işlərin də adını çəkmək lazımdır. Müsəlman hüququ sahəsində yalnız Rusiyada deyil, bütün Avropada ən nüfuzlu mütəxəssis kimi tanınan Mirzə Kazımbəy 1845-ci ildə Kazanda hənəfilər məktəbi üzrə müsəlman qanunşünaslığının qısa dərsliyi «Müxtəsər ül-vikqayət»i çap etdirmişdi. 50-ci illərdən sonra isə onun elmi yaradıcılığında şiəməzhəb müsəlmanların hüquqi məsələlərinin öyrənilməsi ön plana çəkilmişdi. Onun 1862-1867-ci illərdə Peterburqda çapdan çıxan «Şəra ül-İslam» («İslam qanunları») kitabının birinci cildi müsəlmanlarda ticarət və girov məsələlərinə, ikinci cild vərəsəlik hüququ problemlərinə həsr edilmişdi. Üçüncü – sonuncu kitabda ailə və vərəsəlik qanunları öz əksini tapmalı idi. 1870-ci ildə alimin vəfatından sonra «Müsəlman qanunları külliyyatı» hazırlayan Xüsusi Komitənin bütün səylərinə baxmayaraq həmin əsər üzərində işi başa çatdıra biləcək bir mütəxəssis tapılmamışdı. Bu da şərqşünas-hüquq nəzəriyyəçisi kimi Rusiya elmi üçün Mirzə Kazımbəyin əvəzedilməzliyini bir daha sübuta yetirir.

* * *

XIX əsrin 70-ci illərinə qədər elmi fikrin digər sahələri – dəqiq elmlər, yer haqqında elmlər, təbabət Azərbaycanda nəzərəçarpacaq inkişaf yolu keçməmişdi. Bu da bir tərəfdən həmin sahələrdə mövcud elmi ən'ənələrin qırılması, elmi məktəblərin dağılması, o biri tərəfdən isə bütövlükdə iqtisadi geriliyin, kənd təsərrüfatı və sənayenin zəif inkişafının nəticəsində cəmiyyətin özündə maraq və tələbatın olmaması ilə bağlı idi. Şübhəsiz, təbiət elmlərinin kapitalist iqtisadiyyatı ilə sıx bağlılığı da burada özünü göstərirdi. Azərbaycanda texniki biliklərin az yayılması və hətta bu sahədəki durğunluq sənaye sahələrinin hələ rüşeym səviyyəsində olması ilə əlaqədar idi.

Zəngin yeraltı və yerüstü sərvətlər Azərbaycana imperiyanın xammal bazası kimi maraq doğururdu. Azərbaycanın geoloji baxımdan öyrənilmə-

si, bölgələr üzrə onun təbii sərvətlərinin aşkara çıxarılması Qafqaz Dağ-Mədən İdarəsi tərəfindən həyata keçirilirdi. Bu tədqiqatlar daha çox həmin yataqların istismarını nəzərdə tuturdu. 60-cı illərdən başlayaraq mədən mühəndisləri Daşkəsən, Gədəbəy, Zəylik və digər bölgələrdə mis, kobalt, kükürd, alunit yataqlarını gələcək sənaye istismarı üçün geniş tədqiq etməyə başladılar. Həmin tədqiqatların nəticəsi kimi meydana çıxarılan elmi qənaət və müşahidələr 1868-ci ildən başlayaraq illik «Qafqazın geologiyası üçün materiallar» məcmuəsində çap olunurdu. 60-cı illərdən başlayaraq akademik ***Q.V.Abix*** Qafqazın, xüsusən də Azərbaycanın geoloji baxımdan öyrənilməsi sahəsində ciddi elmi araşdırmalar aparırdı.

Əsrin 50-ci illərindən etibarən neft yataqlarının istismarı və neft məhsullarının elmi əsaslar üzrə istehsalı sahəsində də müəyyən işlər görülürdü. Bu sahədə tanınmış rus kimyaçısı ***D.İ.Mendeleyev*** xüsusilə ardıcıl fəaliyyət göstərirdi. 1863-cü ildən başlayaraq o, Bakının neft ehtiyatlarının öyrənilməsi sahəsində tədqiqatlar aparır və Bakı yataqlarının dünyanın başlıca neft mərkəzlərindən sayılan *Pensilvaniyadan* qat-qat üstün olduğunu göstərirdi. D.İ.Mendeleyev xam neftdən neft məhsulları alınmasının daha səmərəli üsullarının işlənib hazırlanması sahəsində müəyyən xidmət göstərmişdi. Kerosin tullantılarından sürtkü yağlarının hazırlanması ideyası ona məxsusdur. Neft məhsullarının xüsusi çəkisini göstərən cədvəli də ilk dəfə D.İ.Mendeleyev tərtib etmişdi.

Rusiya İmperator Texniki Cəmiyyətinin Bakı şöbəsinin yaradılması neft geologiyası, neftçıxarma və neft istehsalı ilə bağlı tədqiqatların vahid mərkəzdə cəmləşməsinə imkan yaratmışdı. Cəmiyyətin Bakıdakı zəngin laboratoriyasında neft məhsullarının təmizlənməsi və analizi, habelə standartlaşdırma sahəsində ciddi tədqiqatlar aparılırdı.

Əsrin 70-ci illərinə doğru Bakıda neftçıxarmanın getdikcə geniş miqyas alması mütərəqqi qazma texnologiyasının tətbiqini tələb edirdi. Bu sahədə ***O.Lentsin*** işləyib hazırladığı mexanikləşdirilmiş qazma üsulu öz məhsuldarlığı və səmərəliliyi ilə seçilirdi.

Neftçıxarma və neft istehsalı sahəsində çalışan bir sıra azərbaycanlı ustalar texniki təhsilə malik olmasalar da, yüksək professionallıq və səriştə sayəsində qazma və neft emalı işinin təkmilləşdirilməsi baxımından elmi yeniliyi ilə diqqəti cəlb edən cəsarətli təkliflər irəli sürmüş və həyata keçirmişdilər. Məsələn, neft istehsalı sahəsində ilk azərbaycanlı texniklərdən olan ***Cavad Məlikov*** 1863-cü ildə öz layihəsi əsasında Bakıda xam neftdən kerosin istehsal edən qurğu və kiçik parafin zavodu tikdirmiş, habelə kerosin emalında soyuducu sistemin texnologiyasını işləyib hazırlamışdı.

Şübhəsiz, geologiya və neftçıxarma ilə bağlı aparılan tədqiqatlar Azərbaycanın yeraltı sərvətlərinin müstəmləkəçilik niyyəti ilə xammal



mənbəyi kimi öyrənilməsinə yönəlmişdi. Eyni sözləri Azərbaycanın kənd təsərrüfatı, fauna və florası ilə bağlı təsadüfi tədqiqatlar barəsində də demək olar. Belə tədqiqatlar ilk növbədə metropoliyanın siyasi və iqtisadi mənafei üçün aparılırdı. Lakin öz-özlüyündə bu tədqiqatlar Azərbaycan haqqında bilik qaynağına çevrilirdi. Bu baxımdan 1829-1832-ci illərdə «Tiflisskiye vedomosti» qəzetində çap olunan iri həcmli silsilə tədqiqatlar Azərbaycanın həmin dövrdəki-iqtisadiyyatı, təbii sərətləri, işçi qüvvəsi barəsində müəyyən bilgilər verməkdədir. Bunlardan «Azərbaycan vilayətinin gəlirləri haqqında», «İrəvan vilayətinin sərvətləri və istehsalı haqqında», «İrəvan əyalətinə statistik baxış», «Talış əyaləti» kimi tədqiqatları göstərmək olar. ***O.Svetskinin*** Naxçıvanın təbii sərvətləri, xammal ehtiyatları, bitki örtüyü barəsindəki geniş tədqiqatı 1834-cü ildə A.S.Puşkinin nəşr etdiyi «Literaturnaya qazeta»da çap olunmuşdu.

Rusiya Kənd Təsərrüfatı Cəmiyyətinin Qafqaz şöbəsinin yaradılması Qafqazın başlıca əkinçilik bölgəsi olan Azərbaycanda elmi biliklərin tətbiqi sahəsində müəyyən uğurlu nəticələrə gətirib çıxarmışdı. 60-cı illərin sonunda Cəmiyyətin təşəbbüsü ilə Tiflisdə Azərbaycan türkcəsində «Kənd qəzeti»nin nəşrinə təşəbbüs göstərilmişdi.

Rusiya Kənd Təsərrüfatı Cəmiyyəti Qafqaz şöbəsinin həqiqi üzvləri sırasında görkəmli hərbi xadim və yazıçı İsmayıl bəy Qutqaşınlı da var idi. 1849-cu ildə «Kavkaz» qəzetində onun baramaçılığın elmi təşkili ilə bağlı iki məqaləsi çap olunmuşdu. İ.Qutqaşınlı ilə birlikdə iri mülkədar, rus ordusunun general-leytenantı ***Cəfərqulu ağa Bakıxanov*** və böyük torpaq sahibi ***Rəhim bəy Qarabağlı*** da bu cəmiyyətin həqiqi üzvləri kimi geniş fəaliyyət göstərirdilər.

Azərbaycan faunasının elmi təsvirinin verilməsi sahəsində ilk təşəbbüs tanınmış rus bioloqu ***Y.İzmail-Kovalevskiyə*** məxsus idi. O, Kür çayı hövzəsini və Samux meşələrini tədqiq etmiş, ilk dəfə nadir tuqay meşələri barəsində elmi ictimaiyyətə məlumat vermişdi. XIX əsrin ikinci yarısından etibarən Şirvanın cənub-şərq hissəsinin, Qobustanın, Şəkinin florasının öyrənilməsi sahəsində rus alimləri tərəfindən bir sıra tədqiqatlar aparılmışdı.

XIX əsrin sonuna qədər Azərbaycanda təbiət elmlərinin, təbabətin, texniki biliklərin yayılması çox az nəzərə çarpırdı. Bu sahədə elmi kadrların yetişdirilməsinə qətiyyən əhəmiyyət verilmirdi. Təbii, bütün bunlara görə humanitar sahəyə nisbətən qalan elm sahələri zəif və qeyri-müəyyən inkişaf vəziyyətində idi. Humanitar elmlərin, xüsusən tarixşünaslıq və filologiyanın aparıcı yerə çıxması isə tamamilə qanunauyğun idi. Mənəvi birliyə nail olmaq, milli özünüdərk yoluna çıxmaq, öz tarixinə, dilinə, dininə, mənəvi sərvətlərinə yiyələnmiş bir toplum kimi davranmaq üçün Azərbaycan cəmiyyətinin bütün mənəvi gücünün səfərbər olması tələb edilirdi.

## 4. MƏTBUAT VƏ NƏŞRİYYAT

**MƏTBUAT.** Milli Azərbaycan mətbuatının tarixi birinci nömrəsi 1875-ci ilin iyul ayının 22-də çapdan çıxmış «Əkinçi» qəzeti ilə başlayır. Lakin həmin tarixə qədər Azərbaycan mətbuatını yaratmaq yolunda bir sıra təşəbbüslər göstərilmişdir. Eləcə də Azərbaycan ziyalılarının rus, türk, fars və s. qəzetlərində iştirakı xalqın mənafeyinə xidmət edə bilən ana dilli mətbuatın zəruriliyi fikrini daha da möhkəmləndirmişdi. Lakin bir tərəfdən Rusiyanın hakim millətçilik siyasəti, o biri tərəfdən isə yerli şəraitlə bağlı çətinliklər uzun müddət milli mətbuatın yaranmasına imkan verməmişdi.

Müxtəlif tarixi nəşrlərdə, filoloji araşdırmalarda, ensiklopediya və soraq kitabçalarında 1828-1832-ci illərdə Tiflisdə çap olunan «Tiflis əxbarı» qəzeti Milli Azərbaycan mətbuatının ilk nümunəsi kimi təqdim edilir. Lakin son tədqiqatlar göstərir ki, Qafqazda ilk rusdilli «Tiflisskiye vedomosti» qəzetinin Azərbaycan üçün nəzərdə tutulan dublikatı («Tiflis əxbarı») fars dilində çap edilirdi. Həmin qəzet eyni zamanda «Tbilisis utsekanı» adı altında gürcü dilində də buraxılırdı. Milli dillərdə çıxan dublikatlarda yalnız «Tiflisskiye vedomosti»dən tərcümə olunan və xüsusi senzor tərəfindən yoxlanılan yazılar çap edilirdi. Həmin yazıların böyük əksəriyyəti rəsmi hökumət sənədləri, fərmanlar və s. idi. Bir sıra məlumatlara görə, «Tiflis əxbarı»nın senzoru və çox güman ki, redaktoru Abbasqulu ağa Bakıxanov olmuşdu. «Tiflisskiye vedomosti»nin gürcü nəşri kifayət qədər abunəçi toplaya bilmədiyindən öz nəşrini 1830-cu ildə dayandırmışdı. Farsca dublikata gəldikdə isə o, rus nəşri ilə eyni vaxtda fəaliyyətə başlamış və onldan az sonra – 1832-ci ildə qapanmışdı.

Qəzet, əsasən Qafqaz və qismən də Rusiyada yayılırdı. Məsələn, 1829-cu ildə «Tiflis əxbarı»nın Qafqazda 126, Rusiyada isə 8 abunəçisi (gürcü.nəşrinin müvafiq surətdə 25 və 4 abunəçisi) olmuşdu. Qəzetdə rəsmi materiallar və tərcümələrdə bir sırada az sayda da olsa, Azərbaycanın yerli problemləri ilə bağlı yazılara da yer verilirdi. Tədqiqatçılar bəzi yazıların həm də Azərbaycan türkcəsində olmasını ehtimal edirlər. «Tiflis əxbarı»nın bütün sayları əldə olmadığından hələlik həmin ehtimalı dəqiqləşdirmək çətindir. Lakin bu qəzetin mətbəədə «tatar mürəttibləri» ***Əsgər Hüsenoğlu*** və ***Abbasoğlu*** tərəfindən yığılması «Tiflis əxbarı»nın yalnız fars deyil, həm də «tatar» qəzeti olduğunu düşünməyə əsas verir. Bir sözlə, əsasən fars dilində çap edilməsinə baxmayaraq, «Tiflis əxbarı»nın Azərbaycan əhalisi üçün nəzərdə tutulması, onun senzor və redaktorunun, eləcə də mürəttiblərinin azərbaycanlı olmaları, nəhayət qəzetdə Azərbaycan həyatını işıqlandıran müəyyən yazılara yer verilməsi onu milli mətbuat tariximizlə müəyyən ölçüdə əlaqələndirməyə əsas verir.

1841-1846-cı illərdə Tiflisdə «Zakavkazskiy vestnik» qəzetinin əlavəsi kimi Azərbaycan türkcəsində ayrıca vərəqə buraxılırdı. Burada rəsmi



hökumət xəbərləri ilə bir sırada bəzi ictimai xarakterli yazılar və ticarətə dair məlumatlar da çap olunurdu. Lakin naşı və qeyri-professional tərcümə səciyyəsi daşıyan həmin vərəqələri ciddi mətbuat nümunəsi saymaq mümkün deyildir.

Görkəmli alim, professor Mirzə Kazımbəy də 1834-cü ildə tələbəsi ***M.Nikolski*** ilə birlikdə Kazanda «Bəhrül-əsrar» («Sirlər dənizi») adlı qəzetin nəşrinə təşəbbüs göstərmişdi. Tatar dilində buraxılması nəzərdə tutulan həmin qəzetin bütün Rusiya türkləri üçün anlaşıqlı olacağı və türk xalqlarının ümumi mənafeyinə xidmət edəcəyi naşirlərin senzura komitəsinə təqdim etdikləri proqramdan da bəlli idi. Lakin məlum səbəblər üzündən bu nəşr də baş tutmamışdı.

50-ci illərdən başlayaraq rus dilində çıxan rəsmi «Kafkaz» qəzetində də ara-sıra Azərbaycan dilində yazılara təsadüf olunurdu. Lakin bütövlükdə ana dilli mətbuat yalnız «Əkinçi»nin tarix səhnəsinə gəlməsi ilə gerçəkləşdi.

Milli mətbuat olmadığından Azərbaycan ziyalıları XIX əsrin 30-cu illərindən başlayaraq rusdilli mətbuatdan geniş istifadə edirdilər. Xüsusən, 1846-cı ildən Qafqaz canişinliyinin çap etdiyi «Kavkaz» qəzetində azərbaycanlı müəlliflərin öz ölkələrinin tarixi, görkəmli şəxsiyyətləri barəsində onlarla məqaləsi çap olunmuşdu. Qafqazın rusdilli mətbuatı ilə bərabər Moskva və Peterburq şəhərlərində çap olunan bir sıra nüfuzlu qəzet və jurnallarda da Azərbaycan mövzusuna müəyyən yer ayrılırdı.

**KİTAB ÇAPI.** XIX əsrin 30-cu illərindən başlayaraq Azərbaycanda mətbəələr yaradılması və kitab nəşri sahəsində də müəyyən təşəbbüslər edilmişdir. Məs., 1835-ci ildə Şuşada nəşr olunan «Kitabi-mizanül-haqq» əsəri artıq həmin dövrdə bu şəhərdə mətbəənin təşkil edildiyini və burada digər dillərlə bir sırada türk və fars dillərində kitablar buraxıldığını göstərir.

Nəşriyyat işi XX yüzilə qədər Azərbaycanda geniş vüsət ala bilməmişdi. 1840-cı ildə M.F.Axundov və Mirzə Şəfi Vazehin dünyəvi ədəbiyyat və dərsliklər çap etmək məqsədi ilə Tiflisdə mətbəə yaratmaq fikri baş tutmadı. Əsrin 50-ci illərindən başlayaraq qəza şəhəri Şamaxıda, habelə Bakıda, Gəncədə bir sıra mətbəələrin olmasına baxmayaraq həmin mətbəələrdə Azərbaycan ədəbiyyatının heç bir diqqətəlayiq nümunəsi çap edilməmişdi. Bu cür mətbəələr bir qayda olaraq ya quberniya, ya da ruhani idarələrinin tabeliyində yerləşir və əsas etibarilə rəsmi yazılar, ya da dini ədəbiyyat çap edirdilər. Məsələn, 1858-ci ildə Şamaxıda iki mətbəə fəaliyyət göstərirdi. Onlardan biri qeyri-azərbaycanlılara məxsus idi, o birisi isə ruhani idarəsinin tabeliyində idi və əsasən dini ədəbiyyat çap edirdi. Lakin bu nəşrlər özü də ardıcıl deyil. 1850-ci ildən sonra Bakı şəhərində təsis edilən üç mətbəədən heç biri azərbaycanlıları təmin edə biləcək kitablar buraxmırdı.

Məhz bu səbəbdən həqiqi ədəbiyyatın mənafeyinə xidmət edən kitablar Azərbaycanın hüdudlarından kənarda – Varşavada, Kəlküttədə, Londonda, Bombeydə, Peterburqda, Leypsiqdə, Kazanda, Qahirədə, İstanbulda, Teymurxanşurada, Tiflisdə və başqa şəhərlərdə çap olunurdu. Bu şəhərlərdəki mətbəələrdə Nizaminin «Xəmsə»si, Füzulinin «Divan»ı, M.F.Axundov, A.Bakıxanov, Vaqif, İ.Qutqaşınlı, Nəbati və digər çağdaş azərbaycanlı müəlliflərin əsərləri, türk dilli dərslikləri, Azərbaycan poeziyası topluları, səhiyyə və kənd təsərrüfatı ilə bağlı kitabçalar və s. işıq üzü görmüşdü. 60-cı illərdən etibarən bədii və dini ədəbiyyatla bir sırada elmi-təcrübi səpkili kitabların nəşri sahəsində ilk addımlar atılmışdı. Azərbaycan milli kitabının ilk böyük nümunəsi, şübhəsiz, M.F.Axundovun 1859-cu ildə Tiflisdə, Qafqaz canişinliyinin mətbəəsində çap olunan «Təmsilat»ı oldu. Xalq həqiqi maarifə və mədəniyyətə qovuşdurmağın əsas yollarından birini kitab çapında görən və müəllimi Mirzə Şəfi Vazehlə birlikdə Tiflisdə litoqrafiya qurmağa təşəbbüs göstərən M.F.Axundov milli ədəbiyyat nümunələrinin nəşrinə xüsusi əhəmiyyət verirdi. Bu məqsədlə o, böyük müasiri və dostu Qasımbəy Zakirin külliyyatını çapa hazırlamış, bu nəşrə dərin və əhatəli bir müqəddimə də yazmışdı.

XIX əsrin başlanğıcında Azərbaycanda çapçılıq sahəsində başlıca mərkəz Təbriz idi. Mənbələrdə göstərildiyinə görə burada ilk çap dəzgahı 1812-ci ildə qurulmuşdu. 1817-ci ildə yerli ziyalı ***Ağa Zeynalabdin Təbrizi*** daş basması-litoqrafi üsul ilə işləyən mətbəə təsis etmişdi. Təbriz sakini ***Mirzə Cəfər Təxmilə*** 20-ci illərin əvvəllərində Moskvaya gedərək çapçılıq sənətinin sirlərinə yiyələnmiş və 1824-cü ildə özü ildə birlikdə Təbrizə həmin dövrə görə mükəmməl litoqrafiya dəzgahı gətirmişdi. 1830-cu ildə Təbrizdə çap maşını əsasında işləyən ilk mətbəə qurulmuşdu. Azərbaycan ələbiyyatının bir sıra nümunələri həmin mətbəədə çap edilərək türk və fars dillərinin işləndiyi geniş ərazidə yayılmışdı.

Litoqrafiya, yaxud yığma üsulu ilə çap edilmiş kitablarla bir sırada XIX əsrin birinci yarısında Azərbaycanda əlyazma kitablarına da təsadüf edilirdi. Bu kitabların üzü mahir xəttatlar tərəfindən köçürülür, bir sıra hallarda onlar yüksək zövqlə çəkilmiş miniatürlərlə bəzədilirdi. Bütövlükdə isə Azərbaycanda kitab çapının lazımi səviyyədə olmaması nəticəsində bu sahədə meydana çıxan mənəvi tələbat əsasən Yaxın Şərq ölkələrindən – Türkiyə, İran və Misirdən, habelə Hindistandan, Rusiyadan və Avropa ölkələrindən gətirilmiş kitablar hesabına ödənirdi.

**KİTABXANALAR.** Kitab çapının tədricən də olsa genişlənməsi, dünyəvi ziyalılar təbəqəsinin formalaşması XIX əsrin ikinci yarısından etibarən Avropanın qabaqcıl ölkələrində olduğu kimi Azərbaycanda da ümumi kitabxanaların təşkilinə imkan yaratdı. 50-ci illərin sonunda fəaliyyətə başlayan Şamaxı şəhər kitabxanası dünyanın müxtəlif ölkələrindən müxtəlif



dillərdə yüzdən çox dövri nəşr alırdı. 1868-ci ildə Gəncə şəhərində ilk ümumi kitabxana açılmışdı. Bundan başqa bir çox şəhər məktəblərinin də kiçik kitabxanaları vardı.

Ümumi kitabxanalarla bir sırada Azərbaycanda son dərəcə qiymətli əlyazmaların və çap məhsullarının toplandığı şəxsi kitabxanalar, habelə məscid kitabxanaları da mövcud idi. 1826-1828-ci illər İran-Rusiya və Rusiya-Türkiyə müharibələrində Ərdəbil və Axalsıx məscidlərindən ələ keçirilən kitabxanalar təhsil və mədəniyyət mərkəzlərindəki məscid kitabxanalarının zənginliyi barəsində müəyyən təsəvvür yaradır.

XIX əsr Azərbaycan mədəniyyətinin görkəmli nümayəndələrinin çoxu həm də ehtiraslı bibliofil idilər. A.Bakıxanov uzun illər boyu Şərq ədəbiyyatı və tarixini özündə əks etdirən zəngin kitabxana toplamışdı. Bu kitabxananın əksər hissəsini nadir əlyazmalar təşkil edirdi. A.Bakıxanovun məkub və yazışmaları onun hər bir əhəmiyyətli kitab və manuskripti ələ gətirmək üçün sözün həqiqi mənasında mübarizə apardığını, bu zaman heç bir qüvvə və maddi vəsaitini əsirgəmədiyini göstərir. Onun zəngin kitabxanasının şöhrəti Tiflisə və Peterburqa da çatmışdı. Elə buna görə də, Bakıxanovun ölümündən bir neçə gün sonra Qafqaz canişini M.S.Vorontsovun tapşırığı ilə qafqazşünas-alim N.V.Xanıkov həmin kitabxananı satın almaq üçün Qubaya gəlmişdi. *50-ci illərin əvvəllərində A.Bakıxanovun qadını Səkinə xanım bu nadir kitabxananı tam şəkildə Peterburq universitetinə bağışlamış və müqabilində çar I Nikolay tərəfindən brilyant sırğalarla mükafatlandırılmışdı.*

M.F.Axundovun və Mirzə Kazımbəyin də zəngin kitabxanaları vardı. Xüsusən Mirzə Kazımbəy əsas Şərq və Qərb dillərində humanitar elmlərin başlıca sahələrini əhatə edən nadir kitablar toplamışdı. Alimin ölümündən sonra onun kitabxanası da Peterburq universiteti tərəfindən satın alınmışdı.

Kitab mədəniyyətinin inkişafında, ilk növbədə Şərq dillərindəki əlyazma kitablarının kataloqa alınmasında Azərbaycan alimlərinin mühüm xidməti olmuşdu. Peterburq universitetinin professoru M.C.Topçubaşov akademiklərdən B.A.Dorn, X.D.Fren və F.B.Şarmua ilə birlikdə Peterburq ümumi kitabxanasında saxlanılan Şərq əlyazmalarının izahlı kataloqunu hazırlamışdı. 1851-ci ildə Peterburqda rus və fransız dillərində çap olunan bu kataloqda türk, ərəb, fars, urdu, Çin, Tibet və b. dillərdə yazılmış 901 manuskriptin əhatəli elmi təsviri verilmişdi. Həmin nəşr barəsində «Sovremennik»də ayrıca məqalə ilə çıxış edən Mirzə Kazımbəy kataloqu öz elmi keyfiyyətlərinə görə o dövrə qədər Avropa şərqşünaslığında və kitabşünaslığında mövcud olan belə tədqiqatların hamısından yüksək qiymətləndirirdi. Mirzə Kazımbəyin əslində Şərq kitabxanalarının və kitab mədəniyyətinin tarixinə həsr olunmuş bu silsilə yazılarında zəngin və çoxsaylı biliklər əsasında elmi kitabxanaşünaslığın bir sıra ciddi problemlərinə də toxunulurdu.

## 5. İNCƏSƏNƏT

**TEATR.** Milli professional teatrın ilk addımı 1873-cü ildə M.F.Axundovun H.Zərdabi tərəfindən tamaşaya qoyulan «Hacı Qara» pyesi ilə atılıb. Azərbaycanda uzun əsrlərdən bəri xalq teatrı öz ən'ənələrini davam etdirirdi. «Maral oyunu», «Kilimarası», «Əkəndə yox, biçəndə yox, yeyəndə ortaq qardaş» və s. kimi teatrlaşdırılmış oyunlar geniş yayılmışdı. Həmin oyunlar əsasən məişət mövzusunda dayanırdı, burada sağlam gülüş və yumorla bir sırada satirik əhvali-ruhiyyə də güclü idi. Bu cür meydan tamaşaları ilə bir sırada kukla teatrının başlıca ünsürlərini özündə birləşdirən «Qaragöz» oyunu, kölgə teatrı, aşıq repertuarının ayrılmaz tərkib hissəsi olan dastan tamaşaları da geniş yayılmışdı. Nəhayət, həvəskarların iştirakı ilə əsrin ortalarından başlayaraq Azərbaycanın bir sıra şəhərlərində rus dilində teatr tamaşaları göstərilirdi. İlk belə tamaşa 1848-ci ildə Şuşada verilmişdi. 1850-ci ildə isə Lənkərandakı teatr həvəskarları A.S.Qriboyedovun «Ağıldan bəla» komediyasını tamaşaya qoymuşdular. 1857-ci ilin sonunda quberniya mərkəzi Şamaxıda həvəskar artistlərin verdikləri tamaşalar şöhrət qazandı. Burada köhnə ambar binalarının birini yenidən quraşdırıb teatr binasına çevirdilər. XIX əsr Azərbaycan mədəniyyəti tarixində bu ilk teatr binasının layihəsini quberniya memarı ***Qasımbəy Hacıbababəyov*** hazırlamışdı. «Kafkaz» qəzeti Şamaxının mədəni həyatındakı bu mühüm yeniliklə bağlı yazırdı: «Qasımbəy heç vaxt quberniyadan kənara çıxmamışdı və teatr binası görməmişdi. Lakin bu, o qədər də qorxulu deyildi. Çünki Qasımbəy öz-özlüyündə savadlı, təcrübəli və istedadlı memar idi, ona görə bu təzə işi də başa düşürdü». Müasirlərdən birinin yazdığına görə Şamaxıdakı teatr binasında «səhnə həm uca, həm də geniş idi, amfiteatr şəklində olan zalda yüzə yaxın yer vardı, hər iki tərəfdə 14 loja düzəldilmişdi. İlk nümunə kimi Şamaxıya bundan artıq nə lazım idi? Halbuki Tiflisin də birinci teatrı manejdə düzəldilmişdi, özü də bizimkindən o qədər də yaxşı deyildi». Onu da ayrıca qeyd etmək lazımdır ki, Şamaxıdakı teatr binasının bütün xərclərini yerli zadəganlardan ***Atabəy Zeynalbəy*** oğlu öz üzərinə götürmüşdü. Teatrda ilk tamaşa 1858-ci il aprelin 17-də göstərilmiş və Şamaxı sakinlərinin böyük marağına səbəb olmuşdu. 1859-cu il zəlzələsində şəhərdəki əksər tikililər kimi bu ilk teatr binası da dağılmışdı.

Milli dramaturgiyanın meydana çıxması və M.F.Axundovun dram əsərlərinin ilk dövrlərdə rus dilində tamaşaya qoyulması da öz növbəsində Azərbaycan teatrının yaranmasında müəyyən yol oynamışdı. 1851-ci ildə ədibin «Hekayəti-Müsyö Jordan...» pyesi Peterburqu ev teatrlarından birində oynanılmışdı. Paytaxtda çıxan «Literaturnaya letopis» jurnalı bu münasibətlə yazırdı: «Truppa heyəti M.F.Axundovun «Müsyö Jordan» pyesini oxuyub çox sevindi. Artistlər əsərdə qarabağlıların iştirak edəcəyini öyrənincə məşqi səbirsizliklə gözləməyə başladılar. Pyes misilsiz bir əsər kimi qəbul olundu».



1852-ci ildə isə «Hekayəti-xırs quldurbasan» pyesi Tiflis teatrında göstərilmişdi. «Kafkaz» qəzeti həmin tamaşanı Tiflisin mədəni həyatında mühüm bir hadisə kimi qiymətləndirərək yazırdı: «Gələn cümə axşamı, yanvarın 31-də bu zamana qədər misli-bərabəri görünməmiş ədəbi-tarixi hadisə baş verəcəkdir. Biz ilk dəfə olaraq səhnədə tatar (Azərbaycan – *Red.*) xalqının adətlərini, tatar paltarlarını, tatar çadırlarını, bir sözlə bütün tatar həyatını doğru təsvirdə görəcəyik. Ən əhəmiyyətlisi isə budur ki, ilk dəfə olaraq afişada qüdrətli bir tatar dramaturqunun adına rast gələcəyik». M.F.Axundovun başqa bir pyesi – «Vəziri-xani-Lənkəran»da Tiflis teatrının səhnəsində müvəffəqiyyətlə tamaşaya qoyulmuşdu. Mövzusu Azərbaycan həyatından alınmış, azərbaycanlı müəllifin qələmindən çıxmış bu tamaşalar milli teatrın təşəkkürünə birbaşa təsir etməsələr də örnək və nümunə kimi diqqətəlayiq idilər.

Bütövlükdə teatr sənətindən danışarkən Azərbaycanda onun özünəməxsus repertuarı və ifaçılıq üsulları olan, islam dini tarixi və müsəlman müqəddəslərinin həyatına həsr olunmuş şəbih tamaşalarının da adını çəkmək lazımdır. Çoxəsrlik ən'ənələrə əsaslanan şəbihgərdanlıq öz rejissurası, ibrətamiz və tə'sirli ssenarisi, aktyor heyəti olan əsl dini teatr idi və bu baxımdan müəyyən mənada Qərbi Avropada geniş yayılmış misteriyalarla müqayisə oluna bilərdi.

**MUSİQİ.** Azərbaycan mədəniyyətinin tərəqqisi və yüksəlişi milli musiqi sahəsində də aydın nəzərə çarpırdı. Bu sahədə iki aparıcı istiqamət var idi. Bunlardan birincisi xalq musiqisi, ikincisi isə professional xanəndə və sazəndələrin yaradıcılığı ilə təmsil olunan muğam musiqisi idi. Hər birinin də özünəməxsus ən'ənələri, repertuarı, çalğı alətləri, ifaçılıq tərzi, sevənləri və dinləyənləri var idi. Birinci istiqamət daha çox aşıq yaradıcılığının timsalında Azərbaycanın qərb bölgələrində, Zəngəzurda, Borçalıda yayılmışdı. İkincisi isə iri mədəniyyət mərkəzləri olan şəhərlərdə özünə geniş dinləyici kütləsi toplaya bilmişdi. Aşıq musiqisi xalqın bütün təbəqələri üçün eyni dərəcədə aydın və anlaşıqlı idi. Onu elat camaatı da, əsnaf da, tərəkəmələr də başa düşür və sevirdilər. Muğam sənəti isə aşıq musiqisindən fərqli olaraq bir qədər elitar mahiyyətli idi, müəyyən musiqi biliyi və duyumu olan, klassik ədəbiyyatı anlayan dinləyicilər tələb edirdi. Lakin əvvəlki dövrlərdə olduğu kimi, XIX əsrdə də aşıq yaradıcılığı, habelə xalq musiqisi ilə muğam sənəti biri-birini tamamlayır və Azərbaycan türklərinin estetik zövqünün biçimlənməsində böyük rol oynayırdılar. Qafqaz xalqlarının musiqi mədəniyyətini tədqiq edən rus musiqişünası ***P.Vostrikov*** 1912-ci ildə «Sbornik materialov dlya opisaniya mestnostey i plemyon Kavkaza» (SMOMPK) məcmuəsində dərc etdirdiyi «Azərbaycan tatarla-

rında musiqi və mahnı» məqaləsində yazırdı: «Azərbaycanda oxumaq üçün əsas material xalqın adət-ən'ənələrini əks etdirən və xalqın özü tərəfindən yaradılan nəğmələrdir. Lakin xanəndələr təkcə xalq nəğmələri oxumaqla kifayətlənmirlər. Xalq mahnılarından başqa azərbaycanlıların muğamları da məşhurdur. Muğamların tərkibi çox müxtəlifdir. Oxumaq üçün söz seçmək xanəndənin özündən asılıdır. Azərbaycanlılar muğamı çox sevirlər. Burada heç bir yığıncaq, ailə şənliyi xanəndəsiz keçmir». Musiqiyə, sözə bələdlik baxımından Azərbaycanın Bakı, Şuşa, Gəncə, Şamaxı, Şəki kimi mərkəzlərində toy və məclislər bir neçə qismə bölünürdü. Məsələn, «ürəfa məclislərinə» yalnız Şərq musiqisinə, muğamata və klassik ədəbiyyata dərindən bələd olan seçmə adamlar dəvət edilirdilər. Həmin məclislərdə oyun havaları çalınmır, muğam dəstgahları mükəmməl şəkildə ifa olunurdu. «Əsnaf toylarına» ikinci dərəcəli müğənnilər dəvət olunur, burada muğamlarla oyun havaları və rəqslər, bədihəçilərin və meyxana söyləyənlərin çıxışları bir-birini əvəz edirdi.

Xalq musiqisi daha çox folklor motivlərinə dayanır, sadəliyi, səmimi çalarları isə seçilirdi. Xalq nəğmələrində həm lirik-intim duyğular, həm də ictimai əhvali-ruhiyyə, dünyanın qoluzorlularından narazılıq və şikayət motivləri öz əksini tapırdı. Musiqisinin oynaqlığına, mətninin sadəliyinə görə bu mahnılar tez əzbərlənir, dildən-dilə düşürdü. «Qayanın dibində bir quş olaydım», «Yaralıyam», «Qaladan qalaya mən gördüm onu», «Gül başmaq» kimi xalq mahnıları yalnız azərbaycanlılar deyil, Qafqazda yaşayan digər xalqlar arasında da oxunurdu. Həmin mahnılar, Qafqazda sürgün edilmiş rus və polyak zabitlərinin də diqqətini çəkmişdi. Azərbaycan xalq mahnılarının bəzi nümunələri keçən əsrin 30-cu illərinin sonunda İrəvan quberniyasında nota köçürülmüş və 1861-ci ildə Peterburqda çıxan «İllüstrasiya» jurnalında dərc olunmuşdu.

XIX əsrin ikinci yarısından etibarən xanəndəlik sənəti geniş inkişaf etməyə başlayır. Əvvəllər yalnız saray mühiti ilə kifayətlənən xanəndələr el şənliklərinə və məclislərə çıxmağa başladılar. Xanəndə, tarzən və kamançaçıdan ibarət Şərq üçlükləri meydana gəldi. Muğam ifaçıları qəzəl, müxəmməs, təcribənd, qoşma və s. müraciət edir, eyni zamanda yeni mahnı və təsniflər yaradırdılar. Xanəndəlik sənətinin inkişafı ilə əlaqəli şəkildə kamança, tar, dəf kimi musiqi alətləri daha da təkmilləşdirilir, ifaçılıqda yenilik meyli nəzərə çarpırdı. Məşhur tarzən Sadıqcan (1846-1902) bir musiqi aləti kimi tarı əsaslı şəkildə dəyişdirmiş, ondakı artıq pərdələri qırıb atmış, altı yeni sim əlavə etmiş, bütün Yaxın Şərq tarzənləri arasında ilk dəfə olaraq tarı sinəsi üzərində çalmağa başlamışdı.

Azərbaycan musiqi məktəbinin yetirmələri olan Hacı Hüsü, Səttar, Xarrat Qulu, Məşədi İsi, Keçəçi oğlu Məhəmməd kimi qüdrətli xanəndələr XIX əsrin 50-70-ci illərində yalnız Qafqazda deyil, İranda, Türkiyədə,



Rusiyada da şöhrət qazanmışdılar. Geniş və zəngin repertuara malik olan Səttar Azərbaycan mahnıları ilə bir sırada fars və gürcü musiqisinin də mahir ifaçısı kimi tanınmışdı. Müasirlərindən biri onun ifaçılıq məharətindən böyük heyranlıqla söz açaraq «Kafkaz» qəzetinin 1853-cü il nömrələrindən birində yazırdı: «Səttarın oxumalarında elə bir incəlik, gözəllik və cazibədarlıq vardır ki, bütün bunları not vasitəsilə ifadə etmək çətindir. O, qafqazlılarda həm kədər, həm də sevinc hissi oyadır». Səttarın Tiflisdə verdiyi Şərq konsertlərində dönə-dönə iştirak edən rus şairi Y.Polonski özünün

Sattar! Sattar! Tvoy plaç qortannıy,
Rıdayuşiy, qluxoy, molyaşiy dikiy krik –
Pod zvuki çianur i treli barabannoy,
Mne serdse rasterzal i v duşu mne pronik –

misraları ilə başlayan coşğun, ehtiraslı şeirində onun təkrarsız sənətindən yüksək heyranlıqla söz açmışdı. Səttarın adı və sənəti 1859-cu ildə Tiflisə gələn fransız yazıçısı ***A.Dümanın*** da diqqətini cəlb etmişdi.

Xanəndəlik sənəti Azərbaycanın müxtəlif bölgələrində bir sıra istedadlı sənətkarların adları ilə təmsil olunsa da, milli musiqinin beşiyi rus və Avropa mətbuatında «Qafqazın İtaliyası» adlandırılan Şuşa şəhəri idi. XIX əsrin 70-ci illərində təkcə Şuşada 70 nəfərə yaxın sazəndə fəaliyyət göstərirdi. ***Xarrat Qulu, Molla İbrahim, Kar Xəlifə*** kimi sənətkarların açdıqları musiqi məktəbləri professional xanəndə və çalğıçıların yetişdirilməsində mühüm rol oynamışdı. XIX əsr Azərbaycan mədəniyyəti tarixində son ensiklopediyaçılardan biri kimi tanınan şuşalı ***Mir Möhsün Nəvvab*** Şərq musiqisinin, xüsusən də muğamın nəzəri məsələləri ilə məşğul olurdu.

Məşhur mesenat ***Mahmud ağanın*** (1826-1896) diqqəti və qayğısı sayəsində Şamaxıda da musiqi məclisləri geniş yayılmış, gözəl ifaçılar və rəqqasələr yetişmişdi.

Şuşa, Şamaxı, Bakı, Quba, Gəncə və b. şəhərlərdə keçirilən açıq musiqi məclisləri, müsabiqələr Azərbaycan mühitində, azərbaycanlı zehniyyətində musiqinin son dərəcə böyük yer və rolundan xəbər verirdi. Bütövlükdə isə musiqiyə bu coşğun ümumxalq marağı və tələbatı həm onun səviyyəsinə müsbət təsir göstərir, həm də musiqi alətlərinin təkmilləşməsi və çalğıçıların yetişməsini şərtləndirirdi. Azərbaycan musiqisinin bütün Qafqazda aparıcı mövqe qazanması, hətta Tiflis, Bakı kimi artıq avropalılaşmaqda olan şəhərləri də uzun müddət Şərq muğamlarının təsirindən kənara çıxmağa qoymurdu.

**RƏSSAMLIQ.** XIX əsr Azərbaycan rəssamlığında ən'ənəvi Şərq miniatür sənətindən realist sənətə keçid ilə səciyyəvidir. O çağ rəssamlığının ilk görkəmli nümayəndəsi ***Mirzə Qədim İrəvani*** (1825-1875) idi. O, İrəvan

şəhərində doğulmuş, buradakı üsuli-cədid məktəbində və Tiflis progimnaziyasında oxumuşdu. Mirzə Qədim İrəvani xüsusi rəssamlıq təhsili almamışdı, yaradıcılığının ilk dövrlərində dekorativ sənətlə məşğul olmuş və bunu ağac üzərində bədii oyma ustası olan atasından öyrənmişdi. Müəyyən təcrübə qazandıqdan sonra rus və Avropa rəssamlarının əsərləri ilə yaxından tanış olmuşdu. Miniatürlərə xas olan şərtiliyin hələ qalmasına baxmayaraq Mirzə Qədimin çəkdiyi portretlər («Süvari», «Dərviş», «Rəqqasə») həyata yaxınlığı və məişət çalarlarının bolluğu ilə seçilirlər. 1850-ci illərdə o, İrəvan sərdarının sarayındakı dekorativ pannoları bərpa etmiş, sarayın güzgülü zalında yağlı boya ilə bir neçə portret («Fətəli şah», «Abbas Mirzə») çəkmişdi. Həmin portretlər tarixi mövzunun da Azərbaycan rəssamlığına ilk dəfə Mirzə Qədim İrəvani tərəfindən gətirildiyini göstərir. Rəssamın yaratdığı portretlər güclü milli koloriti, ifadəliliyi, fonun əlvanlığı və rəngarəngliyi ilə fərqlənirdi. Portretlərlə bir sırada o, çoxmövzulu rəsmlər də çəkmişdi («Şahzadə Aleksandr arvadı ilə», «Şah və vəzir»). Yaradıcılığa dekorativ-rəssam kimi başlayan Mirzə Qədimin dəzgah boyakarlığında zərif naxışlardan, mürəkkəb şəbəkələrdən, miniatürlərə xas olan cizgilərdən məharətlə istifadə olunmuşdur.

Mirzə Qədim İrəvaninin kiçik müasiri Mir Möhsün Nəvvab (1833-1918) boyakarlıq, xəttatlıq və kitab qrafikası sahələrində geniş fəaliyyət göstərmişdi. O, ornamental divar rəsmlərinin və tempera ilə işlənmiş bir sıra rəsm əsərlərinin müəllifidir. Mir Möhsün Nəvvab 1863-cü ildə üzünü köçürdüyü «Bəhr-ül-Həzən» («Qəm dəryası») adlı əlyazmaya dini-mistik məzmunlu rəngli rəsmlər çəkmişdi. Şairə Xurşud Banu Natəvanın məşhur «Gül dəftəri»ndə onun şeirlərinin ruhuna və mövzusuna uyğun çəkdiyi bir sıra natürmort və təbiət təsvirlərinə təsadüf olunur. Əlyazalarına çəkilmiş ayrı-ayrı rəsmlər Azərbaycan rəssamlığında peyzaj sənətinin əsasının da XIX əsrin ortalarında qoyulduğunu söyləməyə əsas verir.

Bu dövrdə xalq arasından yetişmiş nəqqaş-rəssamlar dekorativ sənətin inkişafında mühüm rol oynamışlar. Onların Azərbaycanın Şuşa, Şəki, Quba, Ordubad, Şamaxı şəhərlərinin memarlıq tikililəri üzərində çəkdikləri divar rəsmləri rənglərin təravəti və mövzunun maraqlı təsviri həlli ilə seçilirdi. Bu rəsmlərin bir qismində təbiəti, digərlərində isə döyüş səhnələrini, quşları, heyvanları, mifoloji varlıqları təsvir edən mövzular aparıcı yer tuturdu. Dekorativ-rəssamlar arasında qarabağlı ***Usta Qənbər***, şamaxılı nəqqaşlar ***Əliqulu, Qurbanəli, Mirzə Cəfər*** daha çox tanınırdılar.

XIX əsrin 30-cu illərindən başlayaraq bir sıra rus rəssamları Azərbaycanda olmuş, Azərbaycan mövzusunda maraqlı boya əsərləri yaratmışdılar. Rusiya Rəssamlıq Akademiyasının prezidenti knyaz ***Q.Q.Qaqarin*** müasiri A.Bakıxanovun rəsmi üçün eskizlər çəkmişdi. Həmin Akademiyanın digər üzvü ***V.İ.Moşkov*** Rusiya ilə İran arasındakı Türkmənçay sülh



müqaviləsinin bağlanmasını təsvir edən tablonun müəllifi idi. 1863-cü ildə Azərbaycanda olan rus rəssamı ***V.V.Vereşçagin*** xalqımızın həyatı, məişəti, etnoqrafik xüsusiyyətləri ilə bağlı olan bütöv bir silsilə əsərlər yaratmışdı. Rəssamın «Şuşada dini mərasim», «Dram tamaşasının (şiələr arasındakı şəbihgərdanlıq mərasimi nəzərdə tutulur -*Red.*) sonu», «Şuşadakı tatar evində zal», «Şuşada tatar məktəbi», «Şuşada məscid», «Məsciddə dua edən tatarlar», «Qazaxlı qoca qadın» və digər tablolar geyim və məişət ünsürlərinin zənginliyi, həmin dövrdəki Azərbaycan həyatı və məişətinin ifadəli etnoqrafik təsvir dəqiqliyi ilə seçilirdi.

**MEMARLIQ.** Son əsrlərdə Azərbaycan şəhərlərinin tənəzzülü memarlığa öz mənfi təsirini göstərmişdi. Feodal dağınıqlığı, iqtisadi böhran, ara müharibələri məscidlərin, sarayların, qalaların, müdafiə qurğularının tikilməsinə imkan vermirdi. Rus işğalından sonra nisbi sakitliyin bərqərar olması, Azərbaycanın ümumrusiya iqtisadi münasibətlərinə qoşulması şəhər həyatının inkişafı üçün şərait yaratdı. Bu dövrdə mülki memarlığın daha da təkmilləşməsi ilə bir sırada Azərbaycanda sənaye memarlığı ən'ənələri də yaranmağa başladı.

XIX əsrdə Azərbaycanın Bakı, Gəncə, Şamaxı, Şuşa, Quba, Lənkəran, Şəki və başqa şəhərlərində öz dövrünə görə iri miqyaslı tikinti işləri aparılırdı. Rus hərbi mühəndisləri və memarları bu şəhərlərin planlarını hazırlayır, gələcək tikintilərin planauyğun şəkildə, ticarətin, iqtisadiyyatın inkişafı və sanitariya-gigiyena qaydalarının tələbləri əsasında aparılması ilə bağlı təkliflər verirdilər. Təkcə 1807-1878-ci illər arasında Bakının 7 baş planı hazırlanmışdı. Gəncə, Şuşa, Şamaxı ilə də bağlı bu cür planlar var idi.

1859-cu ilə qədər Azərbaycanın əsas şəhəri quberniya mərkəzi Şamaxı sayıldığından burada tikinti-abadlıq işlərinə daha böyük diqqət yetirilirdi. İllik «Kafkazsaki kalendar» məcmuəsinin 1856-cı il məlumatına görə həmin dövrdə şəhərdə 3113 yaşayış evi, 5 tədris müəssisəsi, 9 dövlət binası, 4 karvansara, 4 bazar, 7 körpü, 15 hamam, 15 məscid və 3 kilsə vardı. Köhnə Şamaxının 1824-cü ildən sonra məskunlaşdırıldığını nəzərə alsaq, 30 il ərzində burada yeni və abad bir şəhər salınmışdı. Şamaxı bütün Qafqazda Tiflisdən sonra teatr binası olan ikinci şəhər idi. Şəhər planlı şəkildə tikilirdi. Eyni zamanda burada Şərq memarlığı üslubunda tikilmiş imarətlər və saraylar da vardı. Qafqaza səyahəti zamanı Şamaxıda, mesenat ***Mahmud ağanın*** evində olan A.Düma öz yol qeydlərində bu binanın arxitekturasından böyük heyranlıqla söz açmışdı. Bir sıra qədim Şərq şəhərlərindən fərqli olaraq yenidən tikilən Şamaxının düz küçələri, ayrı-ayrı yaşıl kvadratlar təşkil edən abad məhəllələri vardı.

Şamaxı zəlzələsindən sonra quberniya mərkəzinin Bakıya köçməsi, eyni zamanda Bakının dünyanın neft paytaxtına çevrilməsi Xəzər sahilin-

dəki bu şəhərin əhəmiyyətini artırdı və inkişafını sürətləndirdi. 1827-ci ildə keçmiş Bakı xanı Hüseynqulu xanın rus-İran müharibəsindən istifadə edərək şəhəri tutmaq cəhdindən sonra Qafqazın baş komandanı Yermolovun əmri ilə piyadaların və topçuların sərbəst hərəkəti üçün qala divarlarının bir hissəsi söküldü. 50-ci illərdən etibarən Bakı qala divarlarından kənarda inkişaf etməyə başlasa da, tikililərin sayına görə 1856-cı ildə o, Şamaxı, Şuşa və Şəkidən sonra Azərbaycanın dördüncü şəhəri idi. Lakin quberniya mərkəzi, üstəlik də liman və sənaye şəhəri olduqdan sonra Bakı görünməmiş sürətlə böyüməyə başladı. Azərbaycanın digər bölgələrindən fərqli olaraq burada Avropa şəhərsalma ən'ənələrindən daha geniş istifadə edilirdi. Tikilən yaşayış, ictimai və inzibati binalar monumentallığı, müasirliyi və memarlıq həlli baxımından seçilirdi. Həmin tikililərdə müxtəlif Avropa memarlıq məktəblərinin təsiri və Şərq memarlığının ən'ənələri aydın duyulurdu. 60-70-ci illərdə Bakıdakı bir sıra yaşayış evlərinin və ictimai binaların layihələrini azərbaycanlı memarlar ***Qasımbəy Hacıbababəyov və Məşədi Mirzə Qafar İsmayılov*** vermişdilər. Azərbaycan şəhərləri içərisində ilk dəfə olaraq Bakıda planlı şəkildə bağçalar, fəvvarələr tikilməyə başlamışdı. 60-cı illərlə qala divarlarının dənizə baxan cinahı uçurularaq yerində bulvar salınmışdı.

1856-cı ildə Şuşa Azərbaycanın ikinci böyük şəhəri sayılırdı. Alman qəzetlərindən birinin «Qafqazın Hibraltarı» adlandırdığı bu şəhərdə təxminən Şamaxıda olduğu qədər, 3040 ev var idi. Şuşanın 1855-ci ildə tərtib olunmuş baş planı şəhərin onilliklər boyu yaranan, ilk baxışda qarışıq görünən, əslində isə relyefə və təbii şəraitə uyğun gələn tikintisini nəzərdə tuturdu.

XIX əsrin ortalarında Azərbaycanda sənaye memarlığı, yeni məktəblərin, xəstəxana binalarının tikilməsi sahəsində də ilk addımlar atılmışdı. Bakıdakı meftayırma zavodları, Şəkidəki baramaaçan fabrik, Gədəbəydə Sim'ensin mis zavodu əsrin 60-cı illərinə doğru artıq bu sahədə müəyyən ən'ənələrin yaranmaqda olduğunu göstərirdi. İqtisadi inkişaf, şəhərsalmanın genişlənməsi, yeni körpülərin, mehmanxanaların, karvansaraların, ictimai binaların tikilişini sürətləndirirdi. XIX əsrin 70-ci illərində Bakıda və Şəkidə eyni zamanda ticarət mərkəzlərinə çevrilən böyük karvansaralar tikilmişdi.

Bu dövrdə milli memarlıq abidələrinin elmi tədqiqi və bərpası sahəsində də müəyyən işlər görülürdü. 50-ci illərdə Şəki xanlarının sarayı tam şəkildə bərpa edilmişdi. 60-cı illərdən etibarən Bakının Qala divarları yörəsində ciddi bərpa işləri aparılmış, tarixi Qoşa qala qapısı özünün ilkin görkəminə qaytarılmışdı. Əgər əsrin əvvəllərində Azərbaycan şəhərlərinin baş planlarının tərtibi, memarlıq abidələninin ölçülməsi və təsviri ilə daha çox rus hərbi mühəndisləri məşğul olurdularsa, 50-ci illərdən etibarən Bakı



və digər şəhərlərdəki abidələr artıq memarların diqqətini çəkirdi. Şirvanşahlar sarayı, xüsusilə də «Divanxana» 1859-cu ildə görkəmli rus memarı, akademik Qrimm tərəfindən ciddi tədqiq olunmuş, burada dəqiq ölçülər aparılmışdı. Qafqazın baş komandanının əmri ilə 1826-cı ildə Şamaxıdakı tarixi X əsrə gedib çıxan Cümə məscidinin me'marlıq xüsusiyyətlərinin və ölçülərinin müəyyənləşdirilməsinə təşəbbüs göstərilmişdi.

Şəhərsalmanın geniş vüsət alması azərbaycanlılar arasından istedadlı memarlarla bir sırada bənnalar, xarratlar, daşyonanlar, daş üzərində naxış açanlar, şəbəkə ustaları və s. yetişməsinə imkan yaratmışdı.

**TƏTBİQİ SƏNƏTLƏR.** Azərbaycanın ayrı-ayrı bölgələrində xalçaçılıq, misgərlik, şərbaflıq, zərgərlik, ağac üzərində oyma, bədii tikmə və s. tətbiqi sənət sahələri inkişaf edirdi. Xalçaçılıq xüsusilə geniş yayılmışdı, zəngin və çoxəsrlik ən'ənələrə əsaslanırdı. Azərbaycan xalçaları dünya bazarında xüsusilə yüksək qiymətləndirilirdi. Onlar möhkəmliyinə, naxış əlvanlığına, ilmələrin sıxlığına, rənglərin gözəlliyinə görə seçilirdilər. XIX yüzillikdə Azərbaycan xalçaçılıq sənəti naxış, kompozisiya, rəng və texniki xüsusiyyətlərinə görə dörd əsas məktəb üzrə inkişaf edirdi. Bunlar Qarabağ, Quba-Şirvan, Gəncə-Qazax və Təbriz xalçaçılıq məktəbləri idi. Azərbaycanda geniş və çoxçeşidli xalça məmulatı – xalı, palaz, kilim, şəddə, vərni, zili, cecim, sumax, xurcun, heybə, çuval, məfrəş, çul, habelə duz, qaşın, tənbəki torbaları toxunurdu.

Misgərlik əsasən Lahıcda, bədii parça və kələğayı istehsalı isə Şəkidə mərkəzləşmişdi. İri şəhərlərin çoxunda, xüsusən də Şəki və Şuşada ağac üzərində oyma və şəbəkəçilik geniş yayılmışdı. Tətbiqi sənət növləri ilə məşğul olanların çoxu ailə sexlərində yetişən, nəsildən nəsilə yaşadılan ənənələri qəbul və davam etdirən sıravi zəhmət adamları idilər. Bu baxımdan onların yaratdıqları tətbiqi sənət nümunələri xalqın mənəvi tələbatına və estetik zövqünə tam uyğun idi. Digər tərəfdən, tətbiqi sənətlər yalnız xalqın mənəvi dünyası ilə deyil, həm də onun gündəlik həyatı, güzəranı, məişəti ilə sıx bağlı idi, müəyyən tələbatların ödənilməsinə xidmət edirdi. XIX əsrin ikinci yarısından etibarən parçanın, bir sıra məişət əşyalarının Rusiyadan gətirilməsi, yaxud onların sənaye üsuluna keçilməsi tədricən tətbiqi sənət sahələrinin bəzilərinin süqutuna səbəb oldu.

XIX əsrin 70-ci illərinə qədərki Azərbaycan mədəniyyətinin keçdiyi yol göstərir ki, ölkənin siyasi həyatında baş verən köklü dəyişikliklər, Azərbaycanın dünyanın mədəni, iqtisadi əlaqələr sisteminə cəlb olunması milli mədəniyyəti özünün çoxəsrlik məzmun və ənənələrindən uzaqlaşdırmamış, yeni əsaslar üzərində yüksəlməsinə imkan yaratmışdı.

# BİBLİOQRAFİYA


Abbaslı Mirzə. Şah İsmayıl Xətainin ömür yolu miniatürlərdə, Bakı, 1981.

Abbaslı Mirzə. Şah İsmayıl Xətainin həyat yolu, Bakı, 1981.

Abu-Bekri Tihrani. Kitabi Diyarbekriyye, cilt I-II /Yayınlayanlar Necati Lugal, Faruk Sumer, Ankara 1962, 1964.

Adam Oleari. Moskoviya və Moskoviyadan keçməklə İrana, oradan da geriyə səyahətin təsviri/ Azərbaycan tarixi üzrə qaynaqlar, Bakı, 1989; 2007.

Ahmed-i Yesevi. Divani Hikmeden seçmeler/ Giriş, metin ve notları hazırlayan Kemal Eraslan. Ankara, 1991.

Aka İsmail. Diyarbakrda Akkoyunlu hakimiyyeti/ Türk kültürü, sayı 325, Ankara, 1990.

Aka İsmail. Timur ve Devleti, Ankara, 1991.

Aliyarov Suleyman, Vahabzade Bakhtiyar. Azerbaijan and the Nagorno Karabagh issue. Translated Audrey L. Altstadt./ Journal Institute of Muslim Minority Affairs, Vol.IX. N2, London, 1988.

Aliyarov Suleyman. Bergland Karabagh, Ankara, 1989.

Aliyarov Suleyman. On the Genesis of the Azerbaidzanian People (Toward a Formulation of the problem)/ Soviet Antropology and Archeology, New York, 1990.

Aliyarov Suleyman. Kurddan türeyiş efsanesinin tarihi coğrafyasına dair/ Türk Dünyası Araştırmaları. Prof. Dr. Bahaeddin Ögel'e Armağan. Sayı 65, İstanbul, 1990.

Aliyarlı Süleyman. Azerbaycan Milli Harekatının ilkin dönemleri/ Yeni Forum, sayı 271, Ankara, 1991.

Aliyarov Suleyman. Kitab-i Dedem Korkut kitab olmuşmu/ Türk Kültürü Araştırmaları. Prof. Dr. Muharrem Ergine Armağan, Ankara, 1992.

Aliyarov Suleyman. Kitab-ı Dedem Gorgud: tarihi-filoloji araştırma tecrübesi / Türk Dili Araştırmaları Yıllığı, Ankara, 1994.

Aliyarli Süleyman . The Republic of Azerbaijan: notes on the state borders in the past and the present /"Transcaucasian Boundaries" Geopolitics and International Boundaries Research Centre School of Oriental and African Studies University of London, 1996, Chapter VI, pp 113-133.

Aliyarli Süleyman . The Book of Deda Korkut and Prehistory of the Turks/ "The Turks", Vol. 1, Ankara, 2002.

Aliyarlı Süleyman. Azerbaycan'ın Devlet bağımsızlığı fikri: Tarihsel açıdan\ "Türk Dünyasına Bakışlar. Prof. Dr. Mehmet Saray'a Armağan," Da Yayıncılık, İstanbul, 2002.

Aliyarlı Süleyman . Dede Korkut Kitabı və Türk Tarih Öncesi/ "Türkler" Ansiklopedisi, III cilt, Yeni Türkiye Araştırma ve Yayın Merkezi, Ankara, 2002.

Aliyarlı Süleyman . Prof. Dr. Osman Fikri Sertkaya, Dede Korkut Kitabı, Dresden Nüshasının "Giriş" bölümü ( Metnin Transkripsiyonu ve Açıklama Notları) " Türkiyat Araştırmaları Dergisi", Sayı 21, Konya, 2007.





Aliyarlı Süleyman. M.Emin Resulzade gözüyle Türklük davası/ TDAV Tarih dergisi, sayı 252. İstanbul. Aralıq 2007.

Altstadt L. Audrey. The Azerbaijani Turks: Power and identitu under Russian Rule, Stanford: Hoover Institution Press, 1992

Axundov N. Qarabağ salnamələri, Bakı,1989.

Ambroco Kontarini. Gündəlik/ Azərbaycan tarixi üzrə qaynaqlar, Bakı 1989; 2007.

Antoni Cenkinson. Gündəlik/ Azərbaycan tarixi üzrə qaynaqlar, Bakı 1989; 2007.

Archeologische Mitteilungen aus Iran. Bd 1-13, Berlin, 1968-1980.

Arnold T.V. İntişar-i islam tarihi. Ankara, 1992.

Atlante storico, Balogna, 1966.

Atlas Historigue, Paris,1968.

Ayda A. Etrüskler Türk mü idi? Ankara,1974.

Ayda A. Türklerin ilk ataları, Ankara,1987.

Ayda A. Etrüskler ( Tursakalar) Türk idilər. Ankara, 1992.

Azərbaycan ədəbi dili tarixi, Bakı, 1991.

Azərbaycan filologiyası məsələləri(AFM), I buraxılış, Bakı, 1991; II buraxılış, Bakı, 1984; III buraxılış, Bakı, 1991.

Azərbaycan Renessansı və Nizami Gəncəvi, Bakı, 1984.

Azərbaycan tarixi: Uzaq keçmişdən 1870-ci illərə qədər. Süleyman Əliyarlının redaktəsi ilə, Bakı, "Azərbaycan", 1996.

Azərbaycan tarixi üzrə qaynaqlar. Süleyman Əliyarlının redaktəsi ilə, I nəşr, Bakı 1989; II nəşr, Bakı, 2007.

Azərbaycan tarixi, I cild, Bakı,1961. II cild, Bakı 1964.

Azərbaycan tarixi, yeddi cilddə. II cild, müəlliflər İ.Babayev, Z.Bünyadov, N.Vəlixanlı və b. Bakı, Elm, 1999.

Babayev İ.A,. Əhmədov Q.M. Qəbələ(tarixi-arxeoloji oçerk), Bakı,1981.

Bakıxanov A.Gülüstani-İrəm,Bakı ,1952.

Baykara Hüseyn. Azərbaycanda yenileşme hareketleri, Ankara,1966.

Baykara S. Kaynaklara görə Güney-Doğu Anadoluda Proto Türk izleri/ Türk Dünyası Araştırmaları,sayı 62, İstanbul, 1989.

Bayramlı Zabil. Azərbaycan Səfəvi dövlətinin quruluşu və idarə sistemi, Bakı,2006.

Behzadi İ.P. Ravəndinin "Rahət-üs-südur və ayət üs sürur" əsəri tarixi bir mənbə kimi,Bakı 1963.

Belyayev Y.A. Müsəlman təriqətləri, Bakı 1958.

(Berje Adolf). Qafqaz və Azərbaycanda məhşur olan şüəranın əşarına məcmuədir ki, Berje Adolf sahib-i cənabının ehtimamı ilə mətbu olunupdur, Leipsig, 1867.

Beydili Kemak. 1828-1829 Osmanlı-Rus savaşında doğu Anadoludan Rusiyaya göçürülen ermeniler. Belgeler/ Türk Tarih Belgeleri Dergisi,Cilt XIII, Sayı 17, Ankara,1988.

Bilgiç E. Sümerlilerin Tarih, Kültür ve Medeniyyetleri/ Dil ve Tarih-Coğrafya fakültesi, Atatürkün 100 Doğumyılına Armağan Dergisi, Ankara 1982.
Boyunağa Yılmaz. Tebliğinden günümüzə kadar islam tarihi. Cina Yayınları, 1985.
Burney C.A. The excavations at Uanik-tepe, Azerbaijan 1962. / "Iraq",vol.XXVI,N 2, 1961.
Burney C.A. The excavations at Uanik-tepe, North-west Iran / "Iraq",vol XXIII, part 1, 1961.
Burton-Brown, T. Theodore, Excavations in Azerbaijan, 1948, London, 1951a.
Bünyadov T.Ə.Azərbaycanda əkinçiliyin inkişafı tarixindən, Bakı, 1964.
Bünyadov Z.M., Aliyarov S.S "Kagan" titulu haggında/ "Azerbaycan Türkleri" dergisi, sayı 1. Istanbul, 1990.
Bünyadov Z.M. Azərbaycan Atabəylər dövləti, Bakı, 1985.
Bünyadov Z.M. Azərbaycan VII_IX əsrlərdə,Bakı, 1989.
Caferoğlu Ahmet. Azerbaycan edebiyatında istiklal mücadelesi izleri/ Azerbaycan Yurt Bilgisi, sayı 8-9, 1932.
Caferoğlu Ahmet. Türk kavımleri, Istanbul 1985.
Cəfərov Ə. Quruçay dərəsində. Bakı, 1990.
Charles F.Archives Royales de Mari, c.II, Paris, 1951.
Çay M.Abdulhalük.Türk Ergenekon bayramı Nevruz, Ankara, 1989.
Çay M.Abdülhalük.Türk Milli kültüründe hayvan motifleri,Ankara, 1990.
Dadaşov S.,Huseynov M.Bakının memarliq abideleri,Bakı,1955.
DadaşzadəM.Azerbaycan xalqının orta əsr mənəvi mədəniyyəti,Bakı,1985.
Daş dövrü və Azərbaycanda eneolit,Bakı,1984.
Dəlili H.Ə.Azərbaycanda cənub xanlıqları,Bakı,1979.
Dəlili H.Ə.Azərbaycan-Rusiya münasibətləri fars və azərbaycandilli sənədlərdə,Bakı,1976
Dəmirçizadə Ə. Azərbaycan ədəbi dilinin tarixi,I hissə, Bakı, 1979.
Dossin G.Archives Royales de Mari, c,I-IV, Correspondence de Samsi Addu, Paris,1950.
Dowsett C.J.F.,The History of the Caucasian Albanians by Movses Dasxuranci. Bulletin of the school of Oriental and Africian Studies, University of London, Vol. 25, № 1/3 (1962).
Dyson R.The Hasanlu Project/"Science",N 135,1962.
Ebu Osman Amr b.Bahr el-Cahiz. Hilafet ordusunun Menkibeleri ve Türklerin faziletleri/ çeviren Ramazan Şeşen,II baskı, Ankara 1988.
Ekinçi-Yusuf.Ahillik.Ankara,1984.
Ergin Muharrem.Orhun abideleri, İstanbul,1988,12 Baski.
Əbdürrəşid əl-Bakuvi. Abidələrin xülasəsi və qüdrətli hökmdarın möcüzəsi.Ərəbcədən çevirəni Ziya Bünyadov,Bakı1992.
Əbu Bəkr əl-Qütbü əl-Əhəri.Tarix-e Şeyx Üveys. Farscadan çevirəni M.D.Kazımov vəV.Z.Piriyev,Bakı, 1984.



Əbu Cəfər Məhəmməd ibn Cərir ət-Təbəri.Tarix ər-rüsul və-l-müluk/ Bünyadov Z.M. Azərbaycan VII-IX əsrlərdə,Bakı 1992.
Əbu Duləfin ikinci risaləsi/ Azərbaycan tarixi üzrə qaynaqlar, Bakı 1989., 2007.
Əbu Məhəmməd Əhməd ibn Əsəm Əl-Kufi.Kitab əl-Fütuh/ Azərbaycan tarixi üzrə qaynaqlar, Bakı 1989; 2007.
Əfəndiyev O. Azərbaycan Səfəvilər dövləti, Bakı, 1993.
Əhmədov Q. Orta əsr Beyləqan şəhəri, Bakı1979.
Əl Bələzuri. Kitab Fütuh əl-buldən/ Azərbaycan tarixi üzrə qaynaqlar, Bakı 1989; 2007.
Əl-İstəxri. Kitab məsalik əl-məmalik/ Azərbaycan tarixi üzrə qaynaqlar, Bakı 1989; 2007.
Əliyarov S.Azərbaycanda bidətçilik hərəkatına dair ədəbi mənbələrin araştırma təcrübəsindən/ "Azərbaycan Filologiyası Məsələləri" (AFM), I buraxılış, Bakı 1983.
Əliyarov S. İsgəndərnamə tarixi baxımdan/ "Azərbaycan" jurnalı,Bakı, 1983, N8
Əliyarov S. "Dədəm Qorqud" kitabında anaxaqanlığı tarixinin izləri/ AFM, II buraxılış, Bakı 1984.
Əliyarlı Süleyman. Korkut Kitabı və eski Türk Tarihi( Atilla tarihinin izleri/ Türk xalqlarının edebi geçmişi. "Türk Destanları" kitabında, "Qafkaz" Uniersiteti, Bakı, 2004.
Əliyarlı Süleyman. M.Ə.Rəsulzadə və tarih/ "Məhəmməd Əmin Rəsulzadə və ictimai-siyasi ideallar" kitabında, Xəzər Uniersiteti, Bakı, 2005.
Əliyarlı Süleyman. Etnogenezis və sonuncu çoxcildli akademik nəşr/ "Tarix və onun problemləri" əlavəN13, Bakı Dövlət Universiteti nəşr,2007.
Əliyarlı Süleyman. Etnogenezis və Azərbaycan tarixçiliyi/ İsaxanlı Hamlet-Elm və sənət məclisi, 1-10, Xəzər Universitəsi Nəşriyyatı, Bakı, 2008, s. 223-253.
Əliyeva Lalə. Qıpçaklar və Azərbaycan (etnogenezis konteksində), Bakı Universiteti nəşr, 2006.
Əliyev F.M.XVIII əsrin II yarısında Azərbaycan şəhərləri, Bakı 1960.
Əliyev V. Azərbaycanda tunc dövrünün boyalı qablar mədəniyyəti, Bakı 1979.
Əlqədari Həsən. Asari-Dağıstan, Bakı1903.
Fazili A. Atropatena er.əv. IV-er. VII əsri, Bakı 1992.
Fazili A. Azərbaycanın qədim və ilk orta əsrlər tarixi İran tarixşünaslığında (III-VII əsrlər), Bakı 1984.
Fərzəlibəyli Şahin.XV əsr Azərbaycan dövlətlərinin quruluşu (təkmilləşdirilmiş II nəşri), Bakı, 2003.
Fərzəliyev Şahin.Azərbaycan XV-XVI əsrlərdə (Həsən bəy Rumlunun Əhsənüt-təvarix əsəri üzrə) Bakı, 1983.
Fəzlullah Rəşidəddin. Cami ət-təvarix/ Azərbaycan tarixi üzrə qaynaqlar, Bakı 1989; 2007.

Fəzlullah Rəşidəddin.. Cami ət-təvarix, III-c. Elmi-Tənqidi mətn akad.Ə.Ə. Əlizadənin, Bakı, 1957.
Frasser B. Narrative of a Jorney into Khorasan in the years 1821 and 1822, London, 1885.
Gandyei Tourkhan. Il Canzoniere di Şah İsmail Hatai, Napoli, 1959.
Gazi Zahirüddin Muhammed Babur. Vekayi, cilt I-II, Ankara, 1987, 2 baskı
Genc Reşat. Kaşğarlı Mahmud'a görə XI yüzyılda Türk Dünyası, Ankara, 1997.
Godard A., Le tresor de Ziwiye. Haarlem, 1950.
Golden Peter, Khazar Studies, Volume 1-2, Budapest, Akademiai Kiado, 1980.
Göktürk Hilmi. Anadoluda Oğuz boyları. İstanbul, 1979.
Gölpınarlı Abdülbakı. Mevlana. Hayatı, sanatı, eserleri. İstanbul 1954.
Gölpınarlı Abdülbakı. Mevlana Şems-i Tebrizi ile altımış iki yaşında buluştu/ İstanbul Üniversitesi Şarkıyat Mecmuası, İstanbul, 1959.
Gürün Kamuran. Türk-Sovyet ilişkileri(1920-1953), Ankara, 1991.
Hacıyev T. Azərbaycan ədəbi dili tarixi. Bakı, 1975.
Hakemi A.Kaluraz et la civilization des Mardes/ Archaeologia vi vante, t.I, 1968.
Hamlin Carol «Dalma Tepe», Iran, 13, 1975.
Hamlin C. The early Second Millenium Ceramic Assemblage of Dinkha-Tepe| Iran; Vol /.12.1974.
Hangar F.Caucasus-Luristan.-Eurasia Septentrionalis antique, t.IX, Helsinki, 1934.
Heyət Cavad. Türklərin tarix və mədəniyyətinə bir baxış, Bakı, 1993.
Həbibullayev O.A. Kültəpə arxeoloji qazıntıları, Bakı, 1959.
Həmdullah Mustovfi Qəzvini. Zeyl-e tarix-e qozide/ Farscadan çevirənlər M.D.Kazımov və V.Z.Piriyev, Bakı, 1986.
Həsən bəy Zərdabi. Seçilmiş əsərləri. Tərtib və qeydlər Z.B. Göyüşovun, Bakı, 1960.
Hinz Walter. Uzun Hasan və Şeyh Cüneyd (çevireni Tevfik Bıyıklıoğlu),Ankara,1948.
Hommel F.Etnologie and Geographye des Alten Orient,Munchen,1925-1926.
Hovannisian R., Armenia on the Road to Independence,Los Angeles,1976.
Hovannisian R., The Republic of Armenia, The First Year,1918-1919,Berkeley, Los Angeles.1974.
Hüseynov M.M.Azerbaycan arxelogiyasi.Daş dövrü,Baki,1975.
İbn Əl-Əsir.Əl Kamil fi-t-tarix/Ərəbcədən çevirəni M.Əfəndizadə,Bakı.1959.
İbrahimov C. Azərbaycanın XV əsr tarixinə dair oçerklər.Bakı,1960.
İbrahimov C.Səfəvilərin Ərdəbil hakimiyyəti.Bakı,1960.
İmadəddin Nəsimi. Əsərləri, üc cilddə/Elmi-tənqidi mətn və müqəddimə Cahangir Qəhrəmanov,Bakı1973.
İran ve Horasan Selcukları tarihi. İmad ad-Din al Katib al İsfahaninin Zubdat al-Nuşra ve Nuhbat al Usra adlı kitabının tercümesi, İstanbul, 1943.



İslam Coğrafyasına görə Türkler ve Türk ülkeleri/ Hazırlayan. Ramazan Şeşen. Ankara, 1985.
İsmail Mızı-Ulu. Merkezi Gafgazın etnik tarihinin köklerine doğru/ çevirenler Süleyman Eliyarlı, Mehman Abdulla, İstanbul 1993.
İsmayılov Q. Quruçay və Köndələnçay vadisində qədim mədəniyyət izləri, Bakı, 1981.
İsmayılov M. Azərbaycan tarixi, Bakı, 1992.
İsmayılov Rəşidbəy. Azərbaycan tarixi, Bakı, 1993.
Jozef Tiflisi. Vaqiati-Mir Veis və Şah Hüseyn. Osmanlı dilindən çevirəni Şahin Fazil, Bakı 1991.
Kafesoğlu İbrahim. Harezmşahlar devleti tarihi, Ankara, 1992.
Kaplan Mehmet. Türk edebiyyatı üzerinde araştırmalar. Tip tahlilleri. İstanbul, 1985.
Karahan Abdülkadir. Füzuli. Mühiti, hayatı ve şahsiyyeti, Ankara, 1992.
Karahan Abdülkadir. Türk kültürü ve edebiyyatı, İstanbul, 1988.
Kastiliya elçisi Klavixonun gündeliyi/ Azərbaycan tarixi üzrə qaynaqlar, Bakı 1989; 2007.
Kərimov K.C.,Əfəndiyev R.S., Rzayev N.İ., Həbibov N.D. Azərbaycan incəsənəti, Bakı, 1992.
Kırzıoğlu M. Fahrettin. Gençe Karabağ/ Aran ve Şirvandan oluşan Kuzey Azərbaycanda islam fethi öncesi.Türklüğü tanıtan Albanlar tarihi (V-X yüzyıllar) XI Türk Tarih Kongresi, Ankara, 5-9 Eylül 1990.II cilt, TTKY, Ankara, 1994, s. 625-683.
Kırzıoğlu M. Fahrettin. Yukarı Kür ve Çoruk Boylarında Kıpçaklar. Ankara, 1992.
Kitabçı Zekeriya. Orta Asiyada islamiyyetin yayılışı, IV Baskı, Konya, 1998.
Kitabi Dədə Qorqud/ Tertibçiler F.Zeynalov və S.Əlizadə, Bakı, 1988.
"Kitabi-Dedem Qorgud" aşigi (H.F von Diezin arxivi). Tərtibçilər: Schimiede H.Achmet, Əliyarlı Süleyman, Arazova Roza. Bakı,Xəzər Universitəsi nəşr, 2002.
Köçərli Firudin bəy. Azərbaycan Ədəbiyyatı, I-II c. Bakı, 1981.
Köprülü M.Fuat. Osmanlı imperatorluğunun kuruluşu, Ankara, 1972.
Kuran-i Kerim ve Türkce anlamı (meal), Ankara, 1988.
Kuzqun Şaban. Hazar ve Karay Türkleri. Ankara, 1993.
Kurat Akdes Nimet. Türkiye ve Rusiya. Ankara, 1990.
Landsberger B. Ön Asya Kadim Tarihinin Esas Meseleleri/II Türk Tarih Kongresi Tebliğleri, İstanbul, 20-25 Eylül, 1937, Türk Tarih Kurumu Yayınları, İstanbul,1943.
Göyüşov R. B. Amaras-Ağoğlan, Bakı, 1975.
Mahmudov F.R. Əlikömək təpəsində arxeoloji qazıntıların ilkin yekunları/ Daş dövrü və Azərbaycanda eneolit, Bakı 1984.
Mahmudov F.R. Əlikömək təpəsinin boyalı qabları və onların bəzi cənub paralelləri/ Qədim və Orta əsr Şərqi və Aralıq dənizi hövzəsi, Bakı, 1989.

Mahmudov F.R. Talış və Muğanın qədim mədəniyyətinə aid arxeoloji materiallar/ Azərb.SSR EA Xəbərləri, 1970, N 2.
Mahmudov Y.M. Azərbaycanın Avropa ölkələri ilə əlaqələri(XV əsrin II yarısı), Bakı, 1986.
Makas Zeynel Abidin. Azərbaycanın tarihi ve kültürel coğrafyası, Ankara, 1990.
Melikoff Irene. Notes turcoi-caucasiennos. Babek of Hurrami et Seyyid Battal/Revue de Kartvelologie. Bedi Kartlisa. Volume XIII-XIV, Paris, 1962, s 72-88.
Memiş E.M.Ö. 3. bin yılında Türkler/ Türk dünyası Araştırmaları, sayı 53.İstanbul, 1988.
Mermer Ahmet. Karamanoğlu Mehmet beyin fermanından dil birligi/ Türk kültürü, sayı 355, Ankara, 1992.
Məmmədbəyli H.C. Nəsirəddin Tusi, Bakı, 1968.
Məmmədova F. Azərbaycanın (Albaniyanın) siyasi tarixi və tarixi coğrafiyası, Bakı 1993.
Məmmədova Ş. K. Qazi Əhməd Quminin Xülasət ət-təvarix əsəri Azərbaycan tarixinin mənbəyi kimi, Bakı 1992.
Məmmədov H.M. Osmanlı imperiyasının xarici siyasətində Azərbaycan xanlıqları/ Azərb. SSR Ea Xəbərləri, 1989, N3.
Məmmədov R. Naxşıvan şəhərinin tarixi oçerki, Bakı 1977.
Məmmədov X.S,. Əmiraslanov İ.R., Nəcəfov H. N., Mürsəliyev A.A. Naxışların yaddaşi . Bakı, 1981.
Məmmədov Z.C. Azərbaycanda XI-XIII əsrlərdə fəlsəfi fikir. Bakı, 1978.
Məmmədov Z.C. Azərbaycan fəlsəfəsi tarixi. Bakı, 1994.
Məmmədzadə G. Talanmış kitabxana- Azərbaycan, 23 may, 1991.
Mirşan K. Anadolu Proto Türkleri, Ankara, 1985.
Mirzə Adıgözəl bəy. Qarabağnamə, Bakı, 1992.
Mirzə Camal Cavanşir Qarabaği. Qarabağ tarixi. Bakı , 1959.
Moisey Kalankatuklu. Albaniya tarixi. Mxitar Qoş, Albaniya salnaməsi/ Tərtib edənlər akad. Z.M.Bünyadov və F.Məmmədova, Bakı. 1993.
Morgan J.De.Mission scientifique en Perse, T.IV, Etudes archeologiques, Paris, 1896.
Morgan J.De. Recherches an Talyche Persan-Mem.Del.en Perse, VIII, Paris, 1905.
Morgan J. De.La Prehistoire Orientale, T. III. Paris, 1927.
Muradəliyeva Elmira. Azərbaycan milli şüurunun qatlarında Rusiya işğalı/"Məhəmməd Əmin Rəsulzadə və ictimai-siyasi ideallar" kitabında, Bakı, Xəzər Uniersiteti, 2005.
Muradəliyeva Elmira. Müəllim haqqında söz/ " Azərbaycan tarixinin çağdaş problemləri" kitabında, Bakı, Xəzər Uniersiteti nəşr, 2000.
Muradova F.M. Qobustan tunc dövründə, Bakı, 1979.
Muscarella O.W., The Iron Age at Dinkha Tepe, Iran.-Metropolitan Museum Journal,Vol.9, N 4.1974.



Musəvi T.M. Bakı tarixinə dair orta əsr sənədləri, Bakı, 1967.
Musəvi T.M. Orta əsr Azərbaycan tarixinə dair fars dilində yazılmış sənədlər, Bakı, 1965.
Negahban E.O. A Preliminary report on Marlik excavations. Tehran, 1964.
Nemətova M.S. Əsrlərin daş yaddaşı, Bakı, 1987.
Neumann Karl Freidrich. Geschichte der Ubersiedlung von vierzigtausend Armeniern, welche im Yahre 1828. aus der Persischen Provinz Adarbaidscan. Leipzig, 1834.
Nəfisi S. Babək, Bakı, 1990.
Nəimi. Vəsiyyətnamə/ Azərbaycan jurnalı, 1970, N 5.
Nərimanov İ. H. Gəncəçay rayonunun arxeoloji abidələri, Bakı, 1958.
Nizamülmülk. Siyasətnamə/ Çev. R.Sultanov, Bakı, 1987; 1989 (ikinci nəşr)
Nuriyev A.B. Qafqaz Albaniyasının şüşə məmulatı və istehsal tarixi. Bakı, 1981.
Onullahi S.M. XIII-XVII əsrlərdə Təbriz şəhərinin tarixi, Bakı, 1982.
Oralsay B.Sumerli, Çin ve Türk ilişkiləri. Önasiya Mecmuası, sayı 55, 1970.
Osmanlı Devleti ile Azərbaycan Türk hanlıkları arasındakı münasebetlere dair Arşiv belgeleri (1578-1918), cilt 1, 2, Ankara, 1992, 1993.
Ögel Bahaeddin. Türk kültürünün gelişme çağları. İstanbul, 1988.
Ögel Bahaedin. Türk Mitolojisi, I cilt, Ankara, 1998, II cilt, Ankara, 1995.
Ögel Bahaeddin. Böyük Hun imperiyası, cild I-II, Bakı, 1992.
Övliya Çələbi. Səyahətnamə/ Azərbaycan tarixi üzrə qaynaqlar, Bakı. 1989; 2007.
Paksoy H. B. Türk tarihi, toplumların mayası ve uygarlık. / Annals of Yapan Association for Middle East Studies, Tokyo, 1992, N 7.
Peçevi İbrahim Efendi. Peçevi tarihi, c. I-II. Hazırlayan Prof. Bekir S. Baykal, Ankara, 1981-1982.
Piriyev V.Z. Azərbaycan Hülakilər dövlətinin tənəzzülü dövründə. Bakı, 1978.
Qarabağnamələr,c. 1-2, Bakı 1989,1991.
Qeybullayev Q. Qədim türklər və Ermənistan, Bakı 1992.
Qeybullayev Q. Azərbaycan türklərinin təşəkkülü tarixindən, Bakı, 1994.
Qumilyov L.N. Qədim Türklər, Bakı 1993.
Rəsulzadə Mehmet Emin., Kafkasya Türkleri/ hazırlayanlar: Yavuz Akpınar, İrfan M. Yıldırım, Selahettin Çağın, TDAV,İstanbul, 1993.
Rəsulzadə Mehmet Emin. İran Türkleri/ hazırlayanlar: Yavuz Akpınar, İrfan M. Yıldırım, Selahettin Çağın, TDAV,İstanbul, 1993.
Resulzade Mehmet Emin. Nizami, Ankara, 1951; İstanbul, 1991.
Sadi Bayram. Güney-Doğu Anadoluda Proto-Türk izleri, Ankara, 1988.
Salamzadə Ə.Əcəmi Əbubəkr oğlu və Naxçıvan memarlıq abidələri. Bakı, 1976.
Salamzadə Ə. Azərbaycan memarlıq abidələri, Bakı,1958.
Saray Mehmet. Azərbaycan türkleri tarihi, İstanbul, 1993.
Saray Mehmet. Türk-İran münasibetlerinde şiiliğin rolü, Ankara, 1990.

Schaeffer C.P.A. Stratigraphie comparee et chronologie de Lasie Occidentale, London, 1948.
Schmiede H.Achmet. Hunların Almaniyada Bıraktığı izler hakkında/ TDAV Tarih mecmuası, sayı 7, İstanbul, 1993.
Schiemide H.Achmet. "Tarihin nabzını yoklayan el" / " Azərbaycan tarixinin çağdaş problemləri" kitabında, Bakı, Xəzər Universitəsi nəşr, 2000.
Sevim Ali, Yücel Yaşar. Türkiye tarihi, 1-2, Ankara, 1990.
Sevim Ali, Yücel Yaşar. Türkiye tarihi, Fetih, Selcuklu ve beylikler dönemi, Ankara, 1989.
Seferoğlu Şükrü Kaya, Müderrisoğlu Adnan. Türk Devletleri Tarihi, Ankara, 1989.
Sertoğlu Midhat. Osmanlı Tarih Lüğatı. İstanbul, 1986.
Sədrəddin Əli əl-Hüseyni. Əxbar əd-Dövlət əs Səlcuqiyyə/ Azərbaycan tarixi üzrə qaynaqlar, Bakı. 1989; 2007.
Spuler Bertold.İran Moğolları. Ankara, 1987.
Sührəverdi Şihabəddin Yəhya. Filosofların görüşləri. Ərəbcədən çevirənlər Z.C. Məmmədov, T.B. Həsənov, Bakı 1989.
Sührəverdi Şihabəddin Yəhya.İşıq heykəlləri. Ərəbcədən çevirənlər Z.C. Məm-mədov, T.B. Həsənov, Bakı 1989.
Sümer Faruk. Kara Koyunlular, I cilt, Ankara, 1967.
Sümer Faruk. Safevi Devletinin kuruluşu ve gelişmesinde Anadolu Türklerinin rolü, Ankara, 1976.
Sümer Faruk. Az tanınmış bir Türk hökmdarı Uzun Hasan bey/ Türk Dünyası Tarih Dergisi, Sayı 19. İstanbul, 1988.
Sümer Faruk. Oğuzlar(Türkmanlar), İstanbul, 1992, IV Baskı.
Swietochowski Tadeusz. Müslüman Cemaatten ulusal kimliğe. Rus Azərbaycanı 1905-1920. İstanbul 1988.
Şah İsmail Xətai. Əsərləri (iki cilddə)/ Elmi tənqidi mətn və müqədimə Əzizağa Məmmədovun. Bakı, 1966.
Şeker Mehmet. Fatihlerle Anadolunun Türkleşmesi ve islamlaşması, Ankara, 1985.
Şəki xanlığının tarixindən/ red. F. Babayev, Bakı 1958.
Şərifli M.X. IX əsrin II yarısı XI əsrlərdə Azərbaycan feodal dövlətləri. Bakı, 1978.
Tahirzadə Ədalət. Kəsrəviçilik. Kökü, özəyi, ardıcılları, dirildilməsi/ Azərbaycan filologiyası məsələləri, II, 1984; III, 1991.
Tekindağ M.Ş. Yeni Kaynak ve vesikaların işığı altında Yavuz Selimin İran seferi/ Tarih dergisi, 1967, 3
Tekindağ M.Ş. Osmanlı Devletinin kuruluşunda Alplerin ve Babaların rolleri ile Osman beyin Müslümanlığı meselesi/ IX Türk Tarih kongresi. Bildiri özetleri, Ankara, 1981.
Tekindağ M.Ş. Şah Kulu Baba Tekeli İsyanı/Belgelerle Türk Tarih Dergisi, 1967, 3.
Tekin Talat.Orhon Yazıtları. Ankara, 1988.



Təbrizli Arakel. Tarixlər kitabı/ Azərbaycan tarixi üzrə qaynaqlar, Bakı. 1989; 2007.
Tərbiyyət Məhəmmədəli. Daneşməndani Azərbaycan/ Tərcümə edənlər İ.Şəms, Q.Kəndli, Bakı 1987.
Toqan Zeki Velidi. Tarihte usul. İstanbul, 1969.
Toqan Zeki Velidi. Ümumi Türk tarihine giriş, İstanbul, 1981.
Tuna Osman Nedim. Sumer ve Türk dillerinin tarihi ilgisi ile Türk dilinin yaşı meselesi, Ankara, 1990.
Türk Dünyası el kitabı, I-II ciltler, Ankara 1992.
Türklerin ve Moğolların eski dini. Yean Paul Roux (çeviren prof. Dr. Aykut Karancigil), İstanbul, 1994.
Uluçay Ç. Yavuz Selim nasıl padişah oldu/ Tarih dergisi, IX-XII sayları.
Uzunçarşılı İsmail Hakkı.Anadolu beylikleri ve Akkoyunlu, Karakoyunlu devletleri, Ankara 1984.
Uzunçarşılı İsmail Hakkı. Osmanlı Tarihi,II cilt, Ankara, 1975, IV cilt, I kısım, Ankara 1956.
Ülken Hilmi Ziya. İslam felsefesinin kaynakları ve tesirleri, Ankara, 1967.
Übeyd ibn Şəriyyə əl Cürhumi. Əxbar/ Azərbaycan tarixi üzrə qaynaqlar, Bakı. 1989; 2007.
Vahidov R.M. Mingəçevir III-VIII əsrlərdə, Bakı 1989.
Vanden Berghe L. Archeologie de Liran encien. Leiden, 1959.
Vəlixanlı N.M. Ərəb xilafəti və Azərbaycan, Bakı 1993.
Wilkinson C.W., Jvories from Ziwiye, Bern, 1975.
Xacə Nəsirəddin Tusi. Əxlaqi-nasiri/ Farscadan çevirən R.Sultanov. Bakı, 1980.
Xəlilov. C.Ə. Qərbi Azərbaycanın tunc dövrü və dəmir dövrünün əvvəllərinə aid arxeoloji abidələri, Bakı 1959.
Yan Streys. Səyahət/ Azərbaycan tarixi üzrə qaynaqlar, Bakı. 1989;2007.
Yan Tadeuş Kruşinski. Xristian səyahətinin Tarixi. Farscadan çevirən Şahin Fazil, Bakı, 1992.
Yaqut-Əl-Həməvi. Mucəm Əl-buldən/ Azərbaycan tarixi üzrə qaynaqlar, Bakı. 1989; 2007.
Yesai Həsən Cəlalyan. Alban ölkəsinin qısa tarixi(1702-1722)/ Qədim ermənicədən çevirən T.İ. Ter- Qriqoryan. Bakı 1992.
Young C. Recent Excavations at Godin Tepe, The Memorial Volume V, The International Congress Iranion Art and Archeology, 11-18. April 1962. Tehran, 1972.
Yücel Yaşar. Anadolu beylikleri hakkında araştırmalar, I-II. Ankara, 1991.
Zeynaloğlu Cahangir. Müxtəsər Azərbaycan tarixi, Bakı 1992.
Zeynəddin bin Həmdulllah Qəzvini. Zeyl-e tarix-e qozide. Farscadan çevirənlər M.D. Kazımov və V.Z. Piriyev, Bakı 1990.
Zəkuyev Ə. K. Bəhmənyarın fəlsəfi görüşləri, Bakı 1958.

Абаев В.И. О языковом субстрате/Доклады и сообщения института языкознания АН СССР, № 9,М,1959

Абдушелишвили. М.Т Новые данные к антропологии Северной Индии, М,1980.

Абдурахманов А.А. Азербайджан во взаимоотношениях России, Турции и Ирана, Баку, 1964.

Абибуллаев О. А. Энеолит и бронза на территории Нахичеванской АССР, Баку, 1982.

Абрамова М.П. К вопросу об аланской культуре Северного Казказа / СА, 1978, № 1.

Абу Рейхан Бируни, Фармакагнозия в медицине. Избранные произведения, т. IV./ Исследование, перев и примеч. У. И. Каримова, Ташкент, 1974.

Адам Олеарий. Описание путешествия в Московию и через Московию в Персию и обратно. Перевод А.М. Ловягина, СПБ, 1906.

Акимушкин О.Ф. О придворной китабхане Сефевида Тахмасиба в Тебризе/ СВ, М., 1980.

Акты, собранные кавказской Археографической комиссией, тт. I-XII. Под редакцией А. Берже, Тифлис, 1866-1904.

Алекперов А. Крашеная керамика Нахичеванского края и Ванское царство / СА, 1937, IV.

Алекперов А.К. Исследования по археологии и этнографии Азербайджана, Баку, 1960.

Алексеев В. П. В поисках предков, М, 1972.

Алиев В. Катакомба в Бабадервише / Изв . АН Азерб. ССР, 1969, № 4.

Алиев В. Культура эпохи средней бронзы Азербайджана, Баку, 1991.

Алиев И. Очерк истории Атропатены, Баку, 1989.

Алиев К.Г. Албаны-кочевники и басилевс Зобер/Изв АН Азерб. ССР, 1962, №8.

Алиев К.Г. Кавказская Албания (I в до н.э -I в н .э.), Баку, 1974.

Алиев К.Г. Античные источники по истории Азербайджана, Баку, 1986.

Алиев К. Античная Кавказская Албания, Баку, 1992.

Алиев С. М. Междоусобные войны и борьба за верховную власть в Иране после распада империи Надир шаха/Иран. История и культура в средние века и в новое время, М., 1980.

Алиев Ф. М. Антииранские выступления и борьба против турецкой оккупации в Азербайджане в первой половине XVIII в., Баку, 1975.

Алиев Ф. М. Миссия посланника русского государства А.П. Волынского в Азербайджане, Баку, 1979.

Али-заде А.А. К истории рудников и монетного обращения в Азербайджане в XIII-XIV вв./Изв Аз. Фан СССР, № 7, 1942.



Али- заде А.А. Некоторые сведения о Ширване/Изв АН Азерб. ССР, № 12, 1947.

Али-заде А.А. Из истории государства Ширваншахов/Изв. АН Азерб. ССР, № 8, 1949.

Али-заде А.А. Социально-экономическая и политическая история Азербайджана в XIII-XIV вв. Баку, 1959.

Альтман М.М. Исторический очерк города Гянджи, Баку, 1949.

Алияров С.С. К эпической биографии Алп Эрена / СТ, 1987, № 6.

Алияров С.С. К ономастике «Книги Коркута»/Исследования по исторической лексике азербайджанского языка, Баку, 1988.

Алияров С.С. «Книга Коркута»: проблема комплексного историко-филологического исследования / СТ, 1989, № 4.

Андронников И.Л. Тетрадь Василия Завилейского/ «Прометей», 1968, № 6.

Ан-Насави Шихаб ад-дин Мухаммад. Жизнеописание султана Джалал аддина Манкбурны. Перевод, предисловие, комментарии и примечания З.М.Буниятова, Баку, 1973

Аракел Даврижеци. Книга истории. Перевод с армянского Л.А.Ханларян, М., 1973.

Артамонов Л. К. Персия как противник в Закавказье, Тифлис, 1889.

Артамонов Л.К. Северный Азербайджана, ч. I , Тифлис, 1890.

Артамонов М. И. История хазар, Л., 1962.

Археологические исследования в Азербайджане, Баку, 1965.

Архитектура Азербайджана, Баку, 1952.

Асланов Г.М. Ваидов Р. М., Ионе Г.И. Древний Мингечаур, Баку, 1959

Ахмад ибн Асам ал-Куфи. Книга завоеваний (извлечения по истории Азербайджана VII-IX вв.) Перевод с арабского акад. З. М. Буниятова, Баку, 1981.

Ашурбейли С. Б. Скульптура Азербайджана древнего периода и периода средневековья / Труды Музея истории Азербайджана АН Азерб. ССР, том I, Баку, 1956.

Ашурбейли С.Б Ремесло и торговля раннесредневековых городов Азербайджана ТМИА, т. II, Баку, 1957.

Ашурбейли С.Б. Абд ар-Рашид Бакуви-азербайджанский ученый-географ начала XV в. / Изв. АН Азерб. ССР, № 5, 1958.

Ашурбейли С.Б. Сеяхат-наме Эвлия Челеби как источник по изучению социально-экономической и политической истории городов Азербайджана в первой половине XVII в. / XXV Международный конгресс востоковедов, М., 1960.

Ашурбейли Сара. Очерк истории средневекового Баку, Баку, 1964.

Ашурбейли С.Б. Католические миссионеры в Азербайджане в XVIII в./ Средневековый Восток, М., 1980.

Ашурбейли Сара. Государство Ширваншахов, Баку, 1983.
Ашурбейли С. История города Баку (период средневековья), Баку, 1992.
Бабаев И.А., Казиев С.М. Кабалинский клад монет эллинистической эпохи/ «Нумизматика и эпиграфика», 1971, т.9.
Бабаков О. Антропологический состав туркменского народа в связи с проблемой этногенезиса, Ашх., 1977
Бабаев И.А. Города Кавказской Албании в IV в до н.э.-III в.н.э. Баку, 1990.
Бакиханов А.К. Сочинения. Записки. Письма, Баку, 1983.
Бакыханов Аббас-Кули-ага. Гюлистан-и Ирам, Баку, 1991.
Бакулин Ф. Очерки торговли с Персией. Азербайджан, Мазендаран. Астрабад, СПБ, 1875.
Баладзори. Книга завоевания стран/ Перевод П.К. Жузе, Изв. ООИА, Баку, 1927.
Бартольд В.В. Краткий обзор истории Азербайджана. Сочинения, т. II, ч. 1, М., 1963.
Бартольд В.В. Место прикаспийских областей в истории мусульманского мира. Соч., т. II, ч.1.
Бартольд В.В. Улугбек и его время. Соч., т. II, ч.2, М., 1964.
Бартольд В.В. К вопросу о погребальных обрядах турков и монголов. Соч., т. IV, М., 1966.
Бартольд В.В. Турецкий эпос и Кавказ. Соч., т. V, М., 1968.
Бартольд В.В. Обзор истории тюркских народов. Соч., т. V.
Бартольд В.В. Двенадцать лекций по истории тюркских народов Средней Азии. Соч., т.V.
Бартольд В,В.Тян-Шанские киргизы в XVII-XIX веках. Соч, Т.1,ч. II, М, Изд. Вост. Лит, 1963.
Бартольд В.В. Тюрки (историко-этнографический обзор). Соч., т., V.
Бартольд В.В. К вопросу о полумесяце как символе ислама. Соч., т. VI, М., 1966.
Бартольд В.В. К вопросу о происхождении «Дербенд-наме». Соч., т. VIII, М., 1973.
Бахманяр ал-Азербайджани. Ат-тахсил/ Перевод А.Б. Сагадеева, Баку, 1983.
Бейлис В. М. Мас уд ибн Намдар и городское население Байлакана/ Изв Ан Азерб. ССР, 1966, № 3.
Березин И. Н. Путешествие по востоку. Путешествие по северной Персии, ч. II, Казань, 1852.
Березин И.Н. Сцены в пустыне. В каравансарае/ «Русский вестник», т. 25, кн. 2, 1860.
Бертельс Е. Э. Избранные труды. Низами и Физули, М., 1962.



Бертельс Е. Э. Ибранные труды. Суфизм и суфийская литература. М., 1965.
Бороздина В. Краткое описание путешествия Российского императороского посольства в Персию в 1817 г. СПБ, 1821.
Бунак В.В Человеческие расы и пути их образования/СЭ, 1956, №1.
Буниятов З. М. Еше раз о неизданных страницах «Истории Агван» Моисея Каганкатваци / Изв. АН Азерб. ССР, № 4, 1962.
Буниятов З. М. Обзор источников по Истории Азербайджана. Источники арабские, Баку, 1964.
Буниятов Т. А. Земледелие и скотоводство в Азербайджане в эпоху бронзы, Баку, 1957.
БутковП. Г. Материалы для новой истории Кавказа с 1722 по 1803 г., ч. I, СПБ, 1896.
Бушев П.П. Посольство Артемия Волынского в Иране в 1715-1718 гг., М., 1978.
Бушев П.П. История посольств и дипломатических отношений Русского и Иранского государств в 1613-1621, М., 1987.
Ваидов Р. М. Арехологическая характеристика эпиграфических памятников Мингечаура/ Изв. АН Азерб. ССР, 1958, № 4.
Велиев (Бахарлы) М. Г. Азербайджан (физико-географичекий, этнографический и экономический очерк), Баку, 1921.
Вопросы истории Кавказской Албании, Баку, 1962.
Гагемейстер. О европейской торговле в Турции и Персии/ «Журнал мануфактур и торговли», 1838, №1.
Гаджиев А.А. Ренессанс и поэзия Низами Гянджеви, Баку, 1980.
Гаджиев. А, Г. Древее население Дагестана, М. 1975.
Гарбузова В. С. Ашык-паша и становление турецкого литературного языка / Средневековый Восток, М., 1980.
Гейбуллаев Г. А. К этногенезу азербайджанцев, т. 1, Баку, 1991.
Гейдаров М.Х. Города и городское ремесло Азербайджана XIII-XIV веков, Баку, 1982.
Гейдаров М.Х. Социально -экономические отношения и ремесленные организации в городах Азербайджана в XIII-XVIII вв., Баку, 1987.
Гербер И. Г. Описание стран и народов вдоль западного берега Каспийского моря./ История, география и этнография Дагестана XVII-XIX вв. Под редакцией М.О. Косвена и Х-М. Хашаева, М., 1958.
Геюшев Р. Б. Христианство в Кавказкой Албании, Баку, 1984.
Гиндин Л. А. Славянские топонимы у Прокопия Кесарийского. / Этногенез народов Балкан и северного Причерноморья, М., 1984.
Глинка С. Описание переселения армян Алдербиджанских в пределы России, с кратким предварительным изложением исторических времен Армении, М., 1831.

Гмелин С.Г. Путешествие по России для исследования всех трех царств в природе, ч III, СПБ, 1785.
Голенко К.В. Раджабли, А.М. Али-Байрамлинский клад и некоторые вопросы обращения парфянских монет в Закавказье. / ВДИ, 1975, № 2.
Гордлевский В. А. Государство сельджукидов Малой Азии. Избранные сочинения, т. 1, М., 1960.
Гош Мхитар. Албанская хроника/ перевод и комментарии З.М.Буниятова, Баку, 1960.
Грантовский Э. А Ранняя история иранских племен Передней Азии, М., 1970.
Грибоедов А. С. Записки о переселении армян из Персии в наши области. Соч., т. 2, М., 1971.
Гукасян В., Асланов, В. Исследования по истории азербайджанского языка дописьменного периода, Баку, 1986.
Гуммель Я. И. Погребальный курган (N 1) около Еленендорфа, Баку, 1931.
Гусейнов М.М. Древний палеолит Азербайджана,Баку,1986.
Гусейнов Ширмамед. Публицистическое наследие и современность, Баку, Элм, 2007.
Дадашева С.А. Селевкидские монеты первой половины II века до н.э. на территории Кавказской Албании. /Изв. АН Азерб. ССР, 1975, № 3
Дадашева С.А. Местный чекан в монетном обращении Кавказской Албании. / ВДИ, 1980, № 2.
Дандамаев М.А. Иран при первых Ахеменидах, М., 1963.
Дандамаев М.А. Луконин В.Г. Культура и экономика Древнего Ирана, М., 1980.
Дебец Г.Ф. О принципах классификации человеческих рас / СЭ,1956, № 4.
Деде Коркут. Перевод академика В.В. Бартольда. Подготовили к печати: Гамид Араслы, М.Г. Тахмасиб, Баку, 1950.
Деконский А.Т. Экономический быт государственных крестьян Шушинского и Джебраильского уездов. / Материалы для изучения экономического быта государственных крестьян Закавказья, т. IV, ч. 1, Тифлис,1985.
Де Малевил Жорж. Армянская трагедия 1905. Перевод А. Кязимовой, Баку, 1990.
Джавадов И.Ш. О сражении кавказских албанцев и иберов против римлян в 66 г. до н.э. / ВДИ, 1973, № 1.
Джавелидзе Э.Д. У истоков турецкой литературы. Джалаль-ад-дин Руми, Тбилиси,1979.
Джафар-заде И.М. Элементы археологической культуры древней Мугани. / Изв. АН Азерб. ССР, 1946, № 9.



Джафар-заде И.М. Историко-археологический очерк старой Гянджи, Баку, 1949.
Джафар-заде И.М. Гобустан, Наскальные изображения, Баку, 1973.
Джафаров А.К. Мустьерская культура Азербайджана по материалам Тагларской пещеры, Баку, 1983.
Джафаров Г.Ф. Связи Азербайджана со странами Передней Азии в эпоху поздней бронзы и раннего железа,Баку, 1984.
Джафаров Ю.Р. Гунны и Азербайджан, Баку, 1985.
Дьяконов И.М. История Мидии с древнейших времен до конца IV века до н.э.,М.-Л., 1956.
Дьяконов И.М. Языки древней Передней Азии, М., 1967.
Дьяконов М.М. Очерк истории древнего Ирана, М., 1961.
Договоры России с Востоком политические и торговые. Собрал и издал Т. Юзефович, СПБ, 1869.
Дренякин Н. Т. Описание Ширвана. / История, география и этнография Дагестана XVII-XIX вв., М., 1958.
Заходер Б. Н. Каспийский свод сведений о Восточной Европе, т. I-II, М., 1962, 1967.
Зевакин Е. И. Азербайджан в начале XVII века. / «Известия общества обследования и изучения Азербайджана», № 8, вып. IV, Баку, 1929.
Ибрахим Эфенди Печеви. История / перевод с турецкого языка и примечания З. М. Буниятова, Баку, 1988.
Иванов М. С. Очерк истории Ирана, М., 1952.
Иващенко М. М. Кувшинные погребения Азербайджана и Грузии / Изв. АН Азерб. ССР, 1947, № 1.
Иессен А. А., Деген-Ковалевский Б. Е. Из истории древней металлургии Кавказа. / Изв. ГАИМК, вып. 120, М.-Л., 1935.
Иессен А. А. Кавказ и Древний Восток в IV-III тысячелетиях до н.э./ КСИА, вып. 93, 1963.
Ионе Г. И. Об обжигательных печах Мингечаура. / ВДИ, 1948, N 3.
Ионе Г. И. Гончарные печи Мингечаура. / КСИИМК, вып. 24, 1949.
Ионе Г. И. Мингечаурские кувшинные погробения с оружием. / КСИИМК, вып. 60, 1955.
Исмаилов Г. С. Археологические исследования древнего поселения Бабадервиш, Баку, 1977.
Исмаилов Ш. Очерки по истории азербайджанской философии, т. 1, Баку, 1966.
Исмаилов Ш. Философия Махмуда Шабустари, Баку, 1976.
Исмизаде О. Ш. Ялойлутепинская культура, Баку, 1956.
Исмизаде О. Ш. Кабала-столица древней Кавказской Албании. / ВИКА. Баку, 1962.

История Агван Моисея Каганкатваци, писателя Х века / Перевод с армянского К. Патканяна, СПб, 1861.
История армянского народа / Под ред. М. Г. Нерсесяна, Ереван, 1980.
История иранского государства и культуры. К 2500-летию Иранского государства, М., 1971.
Историческая география Азербайджана, Баку, 1987.
К проблеме этногенеза азербайджанского народа, Баку, 1984.
Кавказ и Восточная Европа в древности. М., 1973.
Казиев М., Эфендиев М., Алияров С. История Азербайджана, Баку, 1969.
Казиев С. М. Археологические раскопки в Мингечауре. /ВДИ,1948, №2.
Казиев С. М. Раскопки Мингечаура. / КСИИМК,вып. 24. 1949.
Казиев С. М. Альбом кувшинных погребений Мингечаура. Баку, 1960.
Казиев С. М. Из истории Кабалинского магала. / ВИКА, Баку, 1962.
Касимова Р. М. Антропологическое исследование черепов из Мингечаура (в связи с изучением этногенеза азербайджанского народа), Баку, 1960.
Касимова Р,М Антропологические исследования современного населения Азербайджана, Баку, 1975.
Касумова С. Ю. Южный Азербайджан в III-VII вв. Баку, 1983.
Кашкай М. А. Селимханов И. Р. Из истории древней металлургии Кавказа, Баку, 1973.
Кашкай С. М. Из истории Маннейского царства, Баку, 1977.
Керимов К. Султан Мухаммед и его школа, М., 1970.
Киракос Гандзакеци. История Армении / Перевод с древнеармянского Л. Ханларян. М., 1976.
Кишмишев С. О. Походы Надир-шаха... и события в Персии после его смерти, Тифлис, 1889.
Киланава Е.И К етногенезису Грузии (роль фактов индоевропейских и тюркских языков в изучении этнонимов Картвел-и, Эгр-и, Ибер-и, Колх-и) /Azərbaycan filologiyası məsələləri, I, Bakı, Elm, 1983.
Кляшторный С. Г. Версия древнетюркской генеологической легенды у Ал Бируни./ Средневековый Восток, М., 1980.
Книга моего деда Коркута. Огузский героический эпос / Перевод академика В.В.Бартольда, издание подготовили В.М.Жирмунский, А.Н.Кононов, М.-Л.,1962.
Книга Орудж бека Байата-Дон Жуана Персидского / Перевод с английского О. Эфендиева и А. Фарзалиева, Баку, 1988.
Колониальная политика Российского царизма в Азербаджане в 20-60- х гг. XIX в. /Редактор И. П. Петрушевский, ч. I, М.-Л., 1936; ч. II, М.-Л., 1937.
Корф Ф. Воспоминания о Персии: 1834-1835, СПБ, 1838.



Кочубинский А.А. Граф Андрей Иванович Остерман и раздел Турции/ Из истории восточного вопроса, Одесса, 1899.
Кошкарлы К.О. Античная и раннесредневековая торевтика из Азербайджана, Баку, 1985.
Крымский А.Е. Низами и его современники. Баку, 1981.
Куканова Н. Г. Русско-Иранские торговые отношения в конце XVII- нач XVIII в/ Исторические записки, т. 37, 1956.
Кулагина Л.М. Экспансия английского империализма в Иране в конце XIX -нач. XX в. М., 1981.
Кулизаде З. А. Хуруфизм и его представители в Азербайджане. Баку, 1970.
Кулизаде З. А. Мировоззрение Касима Анвара. Баку, 1976.
Кушнарева К. Х. Некоторые памятники эпохи поздней бронзы в Нагорном Карабахе / СА, 27, 1957.
Кушнарева К. Х.., Чубинишвили Т.Н. Древние культы Южного Кавказа (V-III тыс. до. н.э.), Ленинград, 1970.
Кушнарева К. Х. К вопросу о социальной интерпретации некоторых погребений Южного Кавказа /КСИА , вып. 134, 1973.
Кушнарева К. Х. Ходжалинский могильник/ ИФЖ, 1970, № 3(50)
Лайпанов К. Т., Мизиев И.М. О происхождении тюркских народов, Черкесск, 1993.
Латышев В,В. Известия древних писателей (греческих и латинских) о Скифии в Кавказе, т. 1,ч I-II,СПб, 1890, 1896.
Латышев В,В. Известия древних писателей (греческих и латинских) о Скифии в Кавказе, Т.2, ч. I-II СПб,1904, 1906.
Левиатов В.Н. Очерки по истории Азербайджана в XVIII веке, Баку, 1948.
Левиатов В.Н. Азербайджан с V в до н.э. по III н.э/ Известия АН Азерб. ССР, 1950, № 1.
Лысцов В.П. Персидский поход Петра I, 1722-1723 гг. М., 1951.
Мамедова Ф. История албан Моисея Каланкатуйского как источник по общественному строю раннесредневековой Албании, Баку, 1977.
Мамедов Айдын. Теоретические проблемы восстановления первичных корней в тюркских языках/ Azərbaycan filologiyası məsələləri, I, Bakı, 1984.
Мамедов Т.М. Албания и Атропатена по древнеармянским источникам (IV-VII вв) , Баку, 1977.
Мамедов Т.М. Кавказская Албания , Баку, 1992.
Маркова О.П. Россия, Закавказье и международные отношения в XVIII в. М., 1966.
Марр Н.Я. Албанская надпись./ КСИИМК, вып. XV, 1947.
Марр Н.Я. Избранные работы, т. IV, М., 1937.

Марр Н. Я О лингвистической поездке в Восточное Средиземноморье, Л., 1934.
Марр Н. Я. О языке и истории абхазов ,М-Л,1938.
Массон В.М. Средняя Азия и Древний Восток, М., 1964.
Масуд ибн Намдар. Сборник рассказов, писем и стихов, М., 1970.
Махмудов Ф.Р., Мунчаев Р.М., Нариманов И.Г. О древнейшей металлургии Кавказа/ СА, 1968, № 4.
Медведская И. Н. Об «иранской» принадлежности серой керамики раннежелезного века Ирана./ВДИ, 1977, № 2.
Меликишвили Г.А. Некоторые вопросы истории Маннейского царства./ ВДИ, 1949, № 1.
Меликишвили Г.А. К истории древней Грузии, Тбилиси, 1959.
Меликишвили Г.А. Новая урартская надпись из Иранского Азербайджана./ ВДИ, 1960, № 3.
Меликишвили Г.А. Урартские клинообразные надписи, М., 1969.
Меликишвили Г.А. Урартские клинообразные надписи, Открытия и публикации 1954-1970 гг./ ВДИ, 1971, № 3.
Меларт Дж. Древнейшие цивилизации Ближного Востока (перевод с английского), М., 1982.
Менгеç К, Г Восточные элементы в Слове о полку Игореве, Л, Наука, 1979.
Мец А. Мусульманский ренессанс / перевод, предисловие, библиография Д. Е.Бертельса, М.,1973.
Мизиев И.М Тринадцать слов из языка скифов / Azərbaycan filologiyası məsələləri, III, Bakı, Elm, 1991.
Мизиев И,М. Шаги к истокам этнической истории центрального Кавказа, Налъчик, 1986.
Миклухо-Маклай Н.Д. Географическое сочинение на персидском языке. / Ученые записки Института Востоковедения АН СССР, т.IX, М-Л., 1964.
Милов Л. В. Великорусский пахарь и особенности российского исторического процесса. М., РОССПЕН, 1998.
Мильман А. Ш. Политический строй Азербайджана в XIX-начале XX вв. Баку, 1966.
Минорский В.Ф. История Ширвана и Дербента, М., 1975.
Мирза Казем Бек. Баб и Бабиды . Религиозно-политические смуты в Персии в 1844-2852 гг. СПб, 1895.
Мунчаев Р.М.Кавказ на заре бронзового века, М., 1975.
Мурадалиева Эльмира .Города северного Азербайджана во второй половине XIX в Баку, 1991.
Мустафаев И.Д. Материалы по изучению пшениц, ржи, ячменя и эгилопсов Азербайджана, Баку, 1996.



Мухаммед Казим.Наме-ии алем араии Надири,М.,1996.
Нариманов И.Г. Археологические раскопки на Сарытапе./Изв.АН Азерб ССР, 1959, № 2.
Нариманов И.Г.,Исмаилов Г.С.Акстафачайское поселение близ г.Казаха./СА,1962, № 4.
Нериманов И.Г. Культура древнейшего земледелъческо-скотоводческого населения Азербайджана,Баку,1987.
Нариманов И.Г.,Махмудов Ф.Р.Энсолитические памятники на Мугани. /Изв.АН Азерб. ССР, 1967, № 2.
Новоселъцев А.П. Генезис феодализма в странах Закавказья,М.,1980.
Огранович И. Поездка в Персию в 1863 году. /Военный сборник, 1866, т. 52, отд. 2, № 11.
О некоторых статьях торговли в Персии./ Журнал мануфактур и торговли, 1843, № 8.
Описание Карабахской провинции, составленное в 1823 г. по распоряжению главнокомандующего в Грузии Ермолова, Тифлис, 1866.
Описание областей Адербижанских в Персии и их политического состояния, сделанное... полковником и кавалером Бурнашевым в Тифлисе 1786 г. Курск, 1793.
Орешкова С. В. Русско-турецкие отношения в нач. XVIII века. М 1971.
Очерки по древней истории Азербайджана, Баку, 1956.
Пайчадзе Г. Г. К истории Русско-Грузинских взаимоотношений, Тбилиси, 1960.
Пассек Т., Латынин Б.К вопросу о керамике из Ялойлу-Тепе./Изд. ООИА, Вып. 3, Баку, 1926.
Пассек Т.С. Джафарханский могильник./ ВДИ, 1946, № 2.
Пахомов Е.А.Краткий курс истории Азербайджана, Баку,1923.
Пахомов Е.А.Статуэтка из Моллаисаклинского селъбища и ее датировка./Изв.Аз.ФАН СССР, 1937, № 2
Пахомов Е.А.Кувшинные погребения из Мингечаура./Изв.Аз.ФАН СССР,1944,N 9.
Пахомов Е.А.Римская надпись I в н. э. и легион XII Фулъмината. / Изв. АН Азерб.ССР,1949,№ 1.
Пахомов Е.А.Чеканка в Албании подражаний монетам македонским или селевкидским в I в до н.э./ТМИА,1962.
Петрушевский И. П.,Азербайджан в XVI-XVII вв/ Сборник статей по истории Азербайджана, вып. I, Баку, 1949.
Петрушевский И. П.Внутренняя политика Ахмеда Ак-Коюнлу./ Сборник статей по истории Азербайджана, вып. 1, Баку, 1949.
Петрушевский И. П.Очерки по истории феодальных отношений в Азербайджане и Армении в XVI нач .XIX в Л., 1949.

Петрушевский И. П.Земледелие и аграрные отношения и Иране XIII-XIVвеков, М-Л., 1960.
Петрушевский И. П.Ислам в Иране в VII-XV вв. Л.,1966.
Пиотровский Б.Б.Археология Закавказья, Л.,1949.
Пиотровский Б.Б. Письмо в редакцию/ИФЖ АН АРМ. ССР, 1969, № 3.
Погребова М. Н. Иран и Закавказье в раннем железном веке, М., 1977.
Полное собрание русских летонисей,II т.М, 1962.
Полное собрание законов Российской империи, т. VI, СПб, 1830
Полное собрание законов Российской империи, собрание 2-е, тт. XIII, XIV, XV.
Потто В. Кавказская война в отдельных очерках, эпизодах, легендах и биографиях, т. 3, вып. 4, СПб, 1887
Путешественники об Азербайджане, т. I / Составитель З.И.Ямпольский, Баку, 1961
Пфейфер Г. Путешествие по Индии и Персии в страну душителей и огнепоклонников с описанием всех замечательных памятников и древних развалин, М., 1879.
Расулоглы Т. Циклопические сооружения на территории Азербайджана, Баку, 1993.
Рахмани А.А. «Тарих-и алам арай-и Аббаси» как источник по истории Азербайджана, Баку, 1960.
Рахмани А.А. Азербайджан в конце XVI и в XVII веке (1590-1700 гг.), Баку, 1981
Рашид-ад-дин. Сборник летописей, т. III. Пер. А.К.Арендса, М. -Л., 1946.
Рашид-ад-дин. Сборник летописей, т. 1, кн. 1-2/. Пер. А.А.Хетагурова, О.И.Смирновой, М. - Л., 1952.
Рашидаддин. Переписка. Перевод, введение и комментарри А.И.Фалиной, М., 1971
Рзаев Н.И.Искусство Кавказской Албании IV в до н.э.-VII в.н.э., Баку 1976.
Рзаев А.К. Очерки по истории политико-правовых учений в Азербайджане, Баку, 1983
Рехнер М.В.Торговля Русского государства со странами Востока в XVI веке, М., 1956
Рожкова М.К.Экономическая политика царского правительства на Среднем Востоке во второй половине XIX века и русская буржуазия, М. - Л., 1949.
Свод статистических данных о населении Закавказского края, извлеченных из посемейных списков 1886 г. Тифлис, 1893.



Селимханов И.Р.К.исследованию металлических предметов энеолитических памтников Азербайджана и Северного Кавказа. /СА, 1960, № 2
Семенов Л.С. К вопросу о значении Туркменчайского договора для истории Армении / ИФЖ, 1959, № 4
Серебров А.Г. Историко-этнографическое описание Дагестана 1796 г. / История, география и этнография Дагестана XVII- XIX вв. М., 1958
Симонович Ф. Р. Описание южного Дагестана. 1796. / История, география и этнография Дагестана. М., 1958
Собрание актов, относящихся к обозрению истории армянского народа, ч. I, М., 1833.
Соймонов Ф.И.О торгах за Каспийское море: древних, средних и новейших времен, СПб, 1765.
Соймонов Ф.И.Описание Каспийского моря и чиненных на оном Российских завоеваний, яко часть истории Петра великого, СПб, 1868
Соловьев С.М. История России с древнейших времен, кн. IX-X, М., 1963.
Состояние торговли в Персии. /Журн. «Вестник промышленности», т. VII, Н 3, 1860.
Степанос Таронский (Асогик). Всеобщая история / Перевод Н. Эмина, М., 1864.
Сысоев В.М. Начальный очерк истории Азербайджана (северного), Баку, 1925.
Тревер К.В.Очерки по истории и культуре Кавказской Албании, М. - Л., 1959.
Ульяницкий В.А.Русские консульства за границей в XIXвеке, ч. I, М., 1899.
Фадеев А.В. Россия и Кавказ в первой трети XЫX века. М., 1960.
Фрай Р.Наследие Ирана, М., 1972.
Халилов Дж. А., Бабаев И.А.О городах древней Кавказской Албании / СА, 1974, № 4.
Халилов Дж. А.Материальная культура Кавказской Албании (IV в. до н.э.- III в. н.э.), Баку, 1985.
Хамдаллах Казвини. Нузхат ал-кулуб (материалы по Азербайджану). Перевод З.М.Буниятова и И. П.Петрушевского, Баку, 1983.
Цагарели А. Грамоты и другие исторические документы XVIII столетия, относящиеся к Грузии, т. II, вып 2, СПб, 1902.
Чулков М.Д. Историческое описание российской империи при всех портах и границах от древних времен до ныне настоящего, т. I-IV, М., 1785-1786.
Шавров Н.Новая угроза русскому делу в Закавказье, СПб, 1911.

Шанидзе А.Г.Новооткрытый алфавит кавказских албанцев и его значение для науки. / Изв. Груз. ФАН СССР, 1938, т. IV.

Шанидзе А.Г. Язык и письмо Кавказских албанцев. Вестник Отд. Обществ. Наук АН Груз. ССР, 1960, № 1.

Шаниязов К.Ш. К этнической истории узбекского народа, Ташкент, 1974.

Шарифов Д. Раскопки близ с. Човдар Ганджинского уезда летом 1926. / Известия Азкомстариса, вып 2, Баку, 1929.

Шнитников Ф.А. Описание Кубинской провинции 1832 г. / История, география и этнография Дагестана., М., 1958.

Шопен И.Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи, СПб, 1852.

Шостакович С.В.Дипломатическая деятельность А..С.Грибоедова, М., 1960.

Эзов Г.А. Сношения Петра Великого с армянским народом, СПб, 1898.

Эзов Г.А.Начало сношений Эчмиадзинского патриаршего престола с русским правительством, Тифлис, 1901.

Этногенез народов Балкан и северного Причерноморья, М., 1984.

Эфендиев О.А. Образование азербайджанского государства Сефевидов в начале XVI века, Баку, 1961.

Эфендиев О.А.Азербайджанское государство Сефевидов, Баку, 1981.

Юсифов Ю.Б.Ранние контакты Месопотамии с северо-восточными странами. / ВДИ, 1987, № 1.

Юсифов Ю.Б. Киммеры, скифы и саки в древном Азербайджане. / «Кавказско-ближневосточный сборник», VIII, Тбилиси, 1988.

Юхт А.И. Торговля России с Закавказьем и Персией во второй четверти XVIII в. / «История СССР», 1961, № 1.

Юшков С.В.К вопросу о границах древней Албании. /Исторические записки АН СССР, 1937, т. I.

Ямпольский З.И. Древние авторы о языке населения Азербайджана. /Изв. АН Азерб. ССР, 1955, № 8.

Ямпольский З.И. К изучению летописи Кавказской Албании. / Изв. АН Азерб. ССР, 1957, № 9.

Ямпольский З.И.Древние религии Азербайджана, Баку, 1958.

Ямпольский З.И. Древняя Албания III-I вв. до н.э.Баку, 1962.

Ямпольский З.И. Вновь открытая латинская надпись у горы Беюкдаш /. Изв. АН Азерб. ССР, 1965, № 3.

Яновский А.О.О древней Кавказской Албании. / ЖМНП, III, 1846.



**A**

Abaqa – 286, 336
Abayev V. –175
Abbas bəy – 555
Abbas Mirzə – 571, 588, 591, 594, 597, 599, 601, 602, 609-612-617, 620, 635, 675, 677, 679, 683, 693, 694
Abbasabad – 616, 619, 622
Abbasqulu xan – 582
Abbasoğlu – 760
Abbasilər – 138, 140, 141, 143, 145, 147, 151-153, 206, 208, 209, 217, 226, 277
Abdal bəy Dədə – 301
Abdallı Qəni xan – 499
Abdulla M. – 6
Abdulla – 151, 154
Abdulla bəy – 527, 528
Abdulla bəy Asi – 727
Abdulla Çələbi – 544
Abdulla xan – 399
Abdulla xan Ustaclu – 461
Abdulla ibn Malik – 150
Abdulla Köprülü Paşa – 486
Abdulla Paşa – 492
Abdulan – 591, 601
Abduşelişvili M. –175
Abix G.V. – 757
Abitikna – 59
Abxar – 227
Abxaz – 64, 270
Abxazov – 616
Aboran – 563
Abovyan X. – 725
Abramzon S. –174
Abşeron – 119, 230, 239, 268, 356, 357, 526, 711, 712, 716, 717, 720
Abutalıb bəy – 689
Aciz – 727
Acıaxur – 656
Adad – Nirari – 32, 41, 52, 56
Adəm – 129
Adil bəy – 655
Adil şah – 511, 513, 519, 520
Adile Ayda – 162
Adınabazar – 603, 619, 620
Adurbadqan – 77
Afanasii Nikitin – 331, 332
Afina – 28
Afridun I – 219
Afşar – 69, 162, 205, 319, 324, 365, 398, 488, 501
Afşin – 145, 148, 153, 154, 208
Ağa Məhəmməd Qacar – 532, 534, 540, 552, 555, 556, 570, 572, 575, 750
Ağa Məsih Şirvani – 566
Ağa Mir Fəttah – 616, 617, 676, 678
Ağabəyim ağa – 556, 575, 726
Ağabəyli – 178
Ağacəri – 313, 319
Ağakişi bəy – 517, 519
Ağaəli bəy Naseh – 727
Ağalarov H. bəy – 729
Ağası xan – 526, 528, 529
Ağası Zöhrab oğlu – 659
Ağbulaq – 599
Ağbürc qalası – 498
Ağdam – 116, 122, 548
Ağdaş – 462, 492, 557, 563
Ağqoyunlu – 5, 205, 295, 312, 318, 320, 325, 327, 329, 331, 333, 461, 618
Ağoğlan – 591, 601.
Ağrı (Ararat) – 166, 178, 669
Ağstafa – 705
Ağsu – 115, 267, 296, 359

Ağsu qalası (Yeni Şamaxı) – 491, 500, 501, 598
Ağsunqurilər – 224
Ağvan çayı – 169
Ağvanlı – 170
Ağzıbir – 499
Ağzıböyük – 616
Ahsıkəndi –173
Ahşeri – 63, 64, 65
Axalkalaki – 618
Axalsıx – 618, 680, 681, 762
Axsitan – 261, 265
Axtıpara – 498
Axund – 719
Axundov M.F. – 723, 728, 734, 738, 742, 744, 749, 753, 756, 761, 763, 764
Axundov N. – 5
Akkad – 34, 35, 37
Akuşa – 462
Aqafangel – 48
Aqquşa – 552, 572
Agrippa – 46
Aquen –113,114,116,117,122,123
Aqvanlar məhəlləsi – 170
Alakənd – 611
Alanlar – 106, 107, 118, 158, 180, 208, 212, 215, 274, 310
Alar – 564, 647
Alatey, Alatei – 52, 57, 164
Alban, Aqvan, Albaniya – 44, 46, 75, 77, 80, 81, 91, 108, 110, 112, 130, 132, 136, 138, 141, 142, 153, 169, 234, 238, 327
Alban divarları – 169
Albanlar – 46, 77, 81, 95, 99, 156-158, 163-166, 169-172, 179, 180, 190, 191, 203
I Aleksandr – 575, 577, 580, 581, 586, 588, 594, 595, 597, 602, 608, 609, 700
Aleksandr Düma – 743, 766, 769
Aleksandr Hümboldt – 743
Aleksandr İrakli oğlu – 578, 579, 581, 582, 592, 612, 615
Aleksey Komnin – 220
Alekseyev – 718
Alekseyev V.P. – 156, 174
Aleksii III – 327
Aləmşah bəyim – 325, 364
Aliyə xatun – 351
Allabriya – 52, 54, 56, 58, 59
Allahqulu – 521
Allahyar xan – 616, 676
Alman dili – 723, 736
Almaniya – 4, 329, 461, 725, 746
Alp Arslan – 217
Alpan – 171, 553
Alpanlar – 171
Alpanlı Məhəmməd xan – 650, 652
Alpaut – 313, 319, 563
Alplar – 171
Altay – 176, 194
Alvan qapısı – 169
Alvandərə – 170
Ambroco Kontarini – 307, 330, 460, 461
Ameka – 52, 69
Amerika – 746
Amid – 118, 247
Ammian Marsellin – 46, 118
Amu Dərya – 217
Ana zağa – 17, 18
Anadolu – 162, 163, 164, 208, 217, 225, 268, 292, 295, 302, 313, 318, 320, 324, 329, 330, 344, 346, 365, 508, 576, 618, 628, 676, 717
Anaqdərə (Anakdərə) – 562, 652, 653, 655
Anariaka – 115
Anariaklar – 81, 82
Andia – 52, 53



Andirpatianu – 60
Andronik Komnin – 222
Anceykoviç M. – 743
Ani – 209
Ankara – 5, 284
Ankir – 105
Anqazana – 83
Anna (İoannovna) – 493, 676
Anşan – 74
Antalya – 330
Antiox – 83, 84
Antioxiya – 331
Antonii – 86, 87, 105
Antuan Ulrix – 353
Anubanini – 37
Api – 47
Appian – 102
Apraksin A. – 474
Apşaros – 164
Arabsaklı – 179
Aralli – 158
Aralıq dənizi – 211, 216, 219, 235, 247
Aran (Arran) – 110, 132, 135, 138, 139, 141, 145, 147, 151, 157, 172, 173, 181, 201, 206, 207, 217, 223, 224, 228, 232, 234, 239, 243, 273, 274, 275, 279, 286, 294, 296, 299, 312, 321, 491, 501
Aran Qarabağı – 520
Ararat – 619
Araz – 111, 114, 115, 134, 135, 139, 144, 148, 211, 215, 215, 228, 230, 234, 235, 240, 247, 248, 635, 669, 670, 673, 675
Arbela – 78
Aridu – 53
Arif Təbrizi – 566
Arif Şirvani – 566
Arikdenil – 41
I Argişti – 42, 57, 68, 164
II Argişti – 62
Arxi – 62
I Ariobarzan – 86
II Ariobarzan – 88
Ariovast – 88
Aristotel – 339
Arqun – 286, 355
Arqutinski – 675
Armed – 59
Armstronq – 683
Arpa xan – 286
Apparha – 35, 37, 38
Arrian – 45, 78, 79, 93, 169
Arsamen – 76
Arsax – 115, 116, 127
Arslan bəy – 753
Arslan şah – 223
Arşak II – 118
Arşaklılar – 118, 125, 165
Arşaq – 689
Artabazan – 83, 84
Artaşat – 87
Artaşes – 87
Artemi Volınski – 715
Artkin – 603
Arxangelsk – 4
Arzizu – 42, 52
Asan – 53
Asarhaddon – 44, 63
Asay – 118
Asim – 151
Asim bəy Yezid – 147
Asiya – 461, 467, 479, 496, 581, 583, 586, 618, 684, 699, 703, 704, 724, 725, 726, 740
Aslan bəy – 513
Aslandüz – 601
Aslanov – 651

Astara – 25, 28, 69, 365, 487, 509, 620
Astarabad – 324, 481, 488, 513, 647, 669, 693
Astiaq – 75
Asuagen – 118
Aşağı Qarasu – 619, 669
Aşağı Veysəlli – 359
Aşıq Paşa – 344
Aşkaya – 57
Aşkenaz – 44
Aşşur (Assuriya) – 38, 41, 44. 47, 51, 54. 68, 70. 72, 74
Aşşurlar – 38, 40, 52, 54, 61
Aşşurlen – 59
Aşşur – Uballit – 32
II Aşşurnasirpal – 52, 63, 64, 67, 68, 72
Aştarak – 616
Aşurbəyli S. – 173
Ata – 42, 52
Atay – 42
Atabəy Özbək – 271, 273, 275
Atabəylər – 205
Atrak – 220
Atrnersex – 133, 134
Atropaten – 50, 77, 90, 105, 107, 114, 117, 119, 123, 125, 128
Avaçıq – 564
Avar – 528, 578, 643
Avarıstan – 491, 499
Avnik – 317
Avrasiya – 481, 572, 573, 612, 687
Avropa – 112, 113, 211, 218, 220, 235, 241, 245, 246, 252, 461, 467, 469, 472, 479, 481, 482, 489, 572, 576, 582, 607, 609, 612, 617, 675, 679, 681, 684, 686, 688, 690, 700, 703, 704, 710, 715, 717
Ayınlu – 313
Aynaşah Sultan – 311
Ayrum – 563, 600
Ayniaka – 115
Aza – 59, 65
Azərbaycan – bütün bölümlər və mətn boyunca.
Azərilər – 81
Azər ibn Nəbih – 247
Azıx – 8, 12
Azov qalası – 467

## B

Bab – 696, 697
Baba bəy Şakir – 731, 732
Baba Dərviş – 23, 29
Baba Naxçıvani – 339
Babaxacə – 316
Babayev İ. – 6
Bab – əl – əbvab – 234
Babək – 145, 148, 155, 189
Babəl – 164
Babi (Şeyx Babalı) – 359
Babil (Babilistan) – 37, 70, 74
Babilik – 748, 755
Bağırov İ. – 741
Bağdad – 144, 146, 151, 155, 212, 213, 217, 238, 241, 254, 255, 256, 267, 277, 279, 282, 293, 296, 308, 314, 315, 319, 340, 349, 358, 399, 490, 496, 678
Bağro – 67
Baharlı boyu – 510
Baharlı Məhəmmədhəsən bəy – 578
Baharlı – 313, 319
Bahofen İ.Y. – 193
Bakı – 146, 213, 215, 222, 228, 233, 234, 239-241, 245, 246, 248, 267, 276, 299, 302, 303, 309, 331, 332, 344, 345, 351, 353, 356, 361, 366, 460, 462-464, 466, 467, 473, 475-479, 481, 487, 492, 525, 526, 532, 550, 552, 556, 558, 560, 561, 563, 568-571, 575-577, 585, 586, 592-594, 598, 601, 603, 609, 611, 612, 614, 630, 631, 635, 636, 646, 650, 652, 655, 658, 660, 662, 665, 667, 693, 708, 710, 716-718, 720-723, 743, 757, 758, 761, 765, 767-770
Bakı xanlığı – 525, 526, 530, 557
Bakıxanov Abbasqulu Ağa – 3, 4, 132, 302, 320, 324, 472, 476-478, 485, 488, 490, 491-496, 499, 509, 525, 528, 529, 531, 532, 571, 572, 596, 627, 628, 650, 652, 563, 665, 680, 721, 723, 726, 728, 732-734, 737, 738, 742, 743-746, 753, 754-756, 759 761, 762, 768
Bakıxanov Cəfərqulu Ağa – 758
Bakıxanovlar – 631
Baktriya – 80, 82, 83, 102
Baktrit tayfası – 131
Bakulin – 684
Bakur – 136, 142
Baqavan – 119
Baqdatti – 59
Baqrat IV – 212
Baqron – 170
Bala – 59
Balakən – 229, 247, 517, 570, 578-581, 583, 586, 598, 599, 643-645, 662
Balaxanı – 717
Balasacan (Balasakan) – 115, 144, 228
Balasaqunlu – 755
Balkanlar – 163, 587, 618
Balqar – 167
Balkar – 167
Ballıqaya – 521
Baltikyanı – 466, 754
Bar Hebrəüs – 148
Bariaks – 79
Barmaq (Beşbarmaq) – 114, 119, 179, 362, 461, 462, 653
Barsil (Basil) – 186
Bars bəy – 137
Bartold V.V. – 169, 174, 198, 200, 203, 285, 336
Bartolemeo Liopardo – 330
Baryatinski – 478, 481
Basillər – 568, 610
Baskakov N.A. – 203
Basoropeda – 92
Bastam – 71
Baschmakoff A. – 3
Baş Qafqaz – 643, 645
Baş qalaça – 29
Başıaçıq – 588
Battal – 150, 154, 155
Batum – 701
Bayandur – 172, 193, 319, 322, 359
Bayat – 4, 319, 509
Bayat qalası – 517, 519, 520, 523, 569
Bayezid Bistam – 339
Bayazit – 618, 681
Baybura (Baybure, Baypura) – 171
Bayram bəy Qaramanlu – 313, 364
Bayram Xoca – 313, 314
Bayraməli – 654
Bayramlu – 313
Baysunqur – 322

Baysunqur bəy – 326
Bayıl – 351, 352
Bedişqala – 653
Bekoviç Aleksandr (Dövlət Cirey Mirzə) – 461
Bekoviç – Çerkasski – 643
Behbud bəy – 595
Beqdili (beydili) – 179, 319
Bel – 462, 476
Beləsuvar – 17, 182
Bəl əmi – 131
Belinski V.Q. – 740
Benyamin – 127
Berens – 640
Berezin – 362, 684, 693, 753, 754
Berke xan – 278
Berje A. – 492, 737, 750, 751, 753
Berlin – 3
Bernştam A.N. – 171
Bertels – Y.E. – 140
Bestujev – Marlinski – 724, 742, 754
Beşbarmaq – bax: Barmaq
Beyləqan – 115, 127, 132, 133, 137, 139, 147, 148, 151, 206, 215, 226, 228, 233, 239, 243, 245, 247, 252, 272, 273, 281, 308, 351, 363
«Beyti-fəyamuşan» – 734
«Beytüs-səfa» – 734
Bəcirvan – 137
Bədr Şirvani – 347, 461, 737
Bədrəddin Əhməd Lələvi – 343
Bədrəddin – 358
Bəhaəddin Vələd – 340
Bəhmənyar – 149, 254, 336
Bəhmən Mirzə – 294, 737
«Bəhrul əsrar» qəz – 760
Bəlazuri – 81, 139, 180, 254
Bəlx – 282, 496
Bəlxab – 247
Bələncər – 132, 133, 137, 138
Bəkdüz – 142
Bərdə – 110, 111, 115, 117, 122, 126, 127, 130, 132, 133, 137-139, 144, 147, 151, 207, 209-211, 214, 215, 223, 228, 229, 233-235, 282, 317, 322, 358, 499, 502, 506
Bərdəsur – 564
Bərgüşat – 611
Bərgüşadlı – 179
Bərkuk – 345
Bərzənd – 144, 247
Bərzniş – 128
Bərmək – 562, 564
Bərçöl – 181
Bəttani – 254
Bəybaba Əliyar oğlu Fənа – 727
Bəyimsərov – 30
Bəzz – 140, 148-150, 153, 154, 189, 234, 242
Bibixanım – 356
Biçurin N.J. – 171
Bikə ağa – 596
Bilasakan – 45
Bilqiç E. – 161
Binab – 682
Bistam – 30
Bistam Cakirlu – 315, 316
Bisütun – 75
Biyəpiş Karkiya Mirzə Əli – 364
Bizans – 112, 114, 119, 126, 130-138, 141-143, 148, 153, 166, 208, 211, 212, 215-218, 220, 222, 228, 269
Bığır – 611, 676
Bluz Ovanes – 344
Boğazköy – 37, 164



Bodenşdedt – 734, 743
Bolqar (Bulqar) – 166, 167, 177, 191, 347, 348, 669
Bolqarlar (Bulqarlar) – 115, 126, 180, 214
Bolqarlı – 179
Bonyak Burçeviç – 194, 195
Borçalı – 181, 495, 502, 560, 584, 588, 610, 611, 615, 630, 633, 639, 663-666, 728, 732, 765
Borsunlu – 29-31
Bosna – 327
Bospor – 103
Boyəhmədli – 116
Boveyba – 131
Boz ok – 193
Börküyarıq – 219
Böri Tigin – 198
Böyük qalaca – 29
Böyük Moğol (Baburlu) dövləti – 496
Böyük Britaniya Kral Asiya Cəmiyyəti – 746
Böyük Karl – 232
Böyükxanım – 585
Bratiçev V. – 502, 506
Brest – Litovski – 677
Bruyer – 545
Brunsviq – 353
Brosse M.- 746, 754
Budaqov L. – 7123
Buduq – 562, 563, 631, 649, 650, 651, 653
Buğa əl-Kəbir – 153, 189
Buğurd – 221, 365, 366
Buxara – 284, 496
Buxarest – 601
Buku – 62
Bulac – 528
Bulqakov – 598
Bunak V. –174
Buntürk – 167, 177, 180, 191
Burqundiya – 331
Burdu oğlu Rüstəm – 208
Bursa – 307
Busr Afşin – 208
Buşğu – 52, 57, 71
Butkov P.Q. – 466, 476 478, 483, 489, 499, 555
Buzand – 166
Buzeyir – 12
Buzovna – 359
Bünyadov Z.M. – 200

## C

Cabani – 366
Cağatay – 178, 287, 304, 320
Cağatu – 52, 53, 66
Cahan Kudi Xatun – 358
Cahangir xan 693
Cahanhaz – 313, 315, 319, 320, 327, 346, 348, 349. 365
Cakatu – 623, 670
Cami – 720, 738
Canbəyim xatun – 351
Canı bəy – 299
Canqutaylı Əlisultan – 528
Car – 462, 465, 491, 492, 498, 499, 501, 506, 517, 578-581, 583, 586, 598, 599, 642-644
Car-Balakən – 524, 555, 631, 642, 643, 645, 655, 657, 705, 707, 709, 750
Car camaatı – 577, 578
Cavad xan – 531, 539, 543, 548, 550, 555, 571, 579, 580-587, 595, 600, 631, 635, 729, 730, 731
Cavad xanlığı – 527, 530

Cavanşir N. – 7
Cavanşir – 132, 133-136, 179, 182, 187, 495
Cavanşir mahalı – 563
Cavanşir tayfası – 510
Cavidan – 149, 150
Cebe Noyon – 271, 272, 287
Cebu – 186, 187
Ceq – 649
Cefri Deket – 461
Celme – 287
Cermux qalası – 522
Cəbrayıl – 591
Cəfər bəy – 654
Cəfər Paşa – 393
Cəfər bəy Bakıxanov – 650-652
Cəfərqulu ağa Cavanşir – 595, 597, 610, 664
Cəfərqulu xan Dunbuli – 571
Cəfərqulu xan Nəva – 726-728
Cəfərilər – 212
Cəfərxanlı – 26
Cəfərov S. – 741
Cəlair – 295, 299, 303-305, 314, 322
Cəlaloğlu – 617
Cəlaləddin Rumi – 303, 340, 341, 351
Cəmaləddin Buxari – 336
Cəmiyəti-Aliyeyi-Osmaniyyə – 744
Cəmşid – 201
Cəmşidli – 178
Cənik – 498
Cərrah – 186
Cənzə – 83
Cəzirə – 138, 271
Cibal – 271
Ckoir – 619, 620
Cinix – 642
Cinlitəpə – 24
Cığalzadə Sinan paşa – 399
Corc Barbaro – 329
Crabert (Ağdərə) – 325,495
Cuçi- 278, 287
Culfa – 25, 267, 467
Curcan – 234
Cüttəpə – 23
Cüveyni – 281, 294, 349

## Ç

Çağrı bəy – 216
Çaxnax – 176
Çaxırlı (Çaqirlu) – 182
Çakirlu – 319
Çalağantəpə – 20, 21
Çalbayır – 563
Çaldıran – 5
Çalxanqala – 26
Çapar Əli – 645
Çara Çay – 670
Çarlıq Rusiyası – 625, 631, 637, 641, 657, 660, 668, 671, 683
Çayld Q. – 17
Çebotaryov – 473
Çehrik – 696
Çepni – 319
Çernışev A.İ. – 664, 674, 745
Çernışevski N.Q. – 741
Çələbi xan – 539
Çıldır – 503
Çığan Moran – 296
Çiçianov P.D, – 540, 553, 576, 581, 583, 595, 598, 599, 631
Çiçişvili P. – 577
Çilblər (Silvlər) – 95
Çiləbörd – 521
Çilqan – 558
Çin – 80, 235, 292, 338, 347, 348, 746, 747



Çingiz xan – 271, 279, 287, 586
Çıraxlı – 176
Çıraq – 558, 626
Çoban – 295, 304
Çobanbaşı – 29
Çobanilər – 322
Çola – 114, 116, 126, 134, 179
Çormağun Noyon – 276, 277
Çorumlu – 345
Çölbiyanlı Bağırxan – 675
Çömçəli – 645
Çuxur Sə'd – 399, 496, 500

## D

Dada – 42
Dağıstan – 114, 121, 128, 399, 460, 462, 463, 466, 488, 485, 491, 492, 493, 495, 501-505, 509, 528, 534, 546, 547, 553, 572, 574, 576, 604, 645, 652, 653, 656, 666, 693, 708, 710, 730, 732, 745, 753
Dağkolanı – 176
Dağlılar – 642, 643, 652, 655
Dağlıq Qarabağ – 674
Daiks – 163, 164
Dalan Novruz – 296
Dali – 51
Damcılı – 9, 12, 15
Damğan – 313
Danabasan – 676
Danimarka – 545
Daniyel bəy İlisulu – 655
I Dara – 75, 91
III Dara Kodoman – 77
Dareytlər – 82
Darı (mahal) – 564
Darülirşad – 500, 678, 681
Dar üş – Şəfa – 336, 338, 355
Daşbulaq – 506
Daşlıtəpə – 29
Daşkəsən – 717, 757
Daşsalahlı – 10, 12
Daştəpə – 56
David Soslan – 226
IV David – 220, 221
David – 144
Dayaukku – 60
De Çin – 344
Deba Vela – 578
Debets Q. –174
Dehkarqan – 617
Delaporte L. – 164
Dementyev N. – 723
Demetre I – 220, 221, 224, 244
Demirçi Kurşad – 162
Derjavin – 742
Deşikdaş – 13
Deyləm – 119, 151, 209
Deysəm – 209
Dəbil – 223, 224, 226, 247
Dəclə – 78, 210, 217, 296
Dədə bəy – 364
Dədəli – 466
Dədəqulu oğlu Şeyx Məhəmməd – 302
Dəhraqan – 247
Dəqiqə – 260
Dəlidağ – 25
Dəməşq – 135, 136, 146, 151, 314, 316, 335, 339, 360
Dəmirçi – 584
Dəmirçilər – 359
Dəniz xan – 313
Dəndənəkan – 216
Dərbatlı – 359
Dərbənd (Dəmir Qapı) – 3, 111, 114, 119, 121, 125-128, 132, 133, 137-140, 146, 206, 228, 229, 232, 233, 237-240, 245-248, 253, 261,

267, 271, 272, 276, 282, 305, 306, 325-327, 331, 332, 361, 460-464, 466, 469, 470, 472-475, 478, 479, 481, 482, 484, 487, 489, 492, 497, 498, 500, 501, 503, 505, 506, 517, 527, 529, 530, 534, 536, 550-552, 557-559, 571, 572, 575, 592, 598, 599, 604, 630, 631, 632, 648, 650, 654, 662, 695, 710, 721, 732, 742, 743, 747, 753
Dərbənd xanlığı – 525, 526, 530, 551, 557
Dərəçiçək – 563
Dərəkənd – 563
Dərələyəz – 511, 564, 600, 603
Dərgahqulu bəy – 466, 477, 478
Dərman mahalı – 234
Dərviş Məhəmməd xan – 504
Dərviş Məhəmməd Paşa – 485
Dəryal keçidi – 119, 137, 212, 272, 577
Dəşti Qıpçaq – 286
Dəvəbatan – 491
Dibiç İ. – 678
Didqori – 220
Didavarlı – 179
Didurlar – 618
Diqur – 618
Din Məhəmməd – 697
Dinəvəri – 151
Diodor – 48
Diokletian – 129
Dion Kassii – 46, 75, 87, 89, 93, 102
Dionisii Perieget – 126, 165
Dits H.F. – 192
«Divani-Hikmət» poeziya məclisi – 733
Divanə İbrahim – 498
Diyala – 376 38
Diyarbəkir – 118, 225, 319, 322, 326, 327, 329, 352
Diyar Rəbi – 440
Dizmar – 234, 689
Dizak (Dizaq) – 495, 520, 589
Dizi Bala – 359
Dobratvorski – 647
Dodaq Məhəmməd – 600
Dodurqa – 319
Dohxarqan (Tufarqan) – 682
Dolqoruki V. – 478, 479, 486, 487
Dolu Aşıq Mustafa – 732
Dominiko de Bortalo – 354
Domisian – 105, 106
Don – 212, 612
Dondar – 177, 190, 191
Dorn B. – 359, 503, 680, 746, 750, 752, 754, 763
Dossi Ç. – 164
Dovşanlı – 30
Dövlətşah Səmərqəndi – 338, 341, 344
Drezden – 191, 335
Drığ – 647
Druvil – 692
D'erlanje R. – 349
Dubrovin N.F. – 577, 610, 613, 753
Duharlu – 313, 319
Duxobor – 710
Durdukka (Zurzukka) – 59
Dügər – 313, 319
Dünbuli – tayfası – 509, 512
Düperron Anketil – 90
Düzənlik Qarabağ – 557
Dvin – 130, 138, 209, 211, 223, 226, 275
Dyakonov İ.M. – 159
Dzirav – 119



## E

Eçmiədzin – 492, 616, 694
Edes – 117
Edil Dənizi (Xəzər) – 460
Əfendiyev O. – 4
Eftalitlər – 121, 122, 124
Eger-i (EGR-i) – 169
Ehsan xan – 637, 674
Ekbatan – 74, 79, 80
Elam – 70, 74
Eldənizlər – 221, 223-229, 234, 245, 246, 247, 258, 267
Elxanilər – 289, 290, 295, 305, 322, 338
Elxanlı – 627
Elxan Əbu Səid – 295
Elton C. – 493
Elulumeş – 35
Empedokl – 756
Enridavazir – 35
Enduşşe – 40
Entoni Cenkinson – 461
Engelbert Kempfer – 679
Erciş – 317
Erisinni – 64
Eristov – 616
Eristavi – 701
Enqur – 56
Erman – 159
Ermənistan – 45, 79, 83-88, 92, 93, 102, 116-121, 125, 134-138, 145, 151, 154, 165, 167, 172, 176-179, 187, 189, 202, 204, 207-211, 217, 223, 235, 277, 282, 305, 315, 319, 326
Erməni məlikləri – 752
Erməni vilayəti – 634
Erzinqatsi – 344
Esəntəmur – 180
Esənbuğa – 180
Esənqaya – 180
Esəntiqin – 180
Esxil – 77, 177, 193
Etna vulkanı – 240
Evliya Çələbi – 327, 357
Evklid – 336
Evetski O. – 754
Eybə sultan – 364
Eyler – 337
Eynəlqüzat Miyanəçi – 254, 257
Eyxfeld – 705

## Ə

Əbdi bəy Şamlı – 367
Əbdülbağı Gölpınarlı – 341
Əbdüləli bəy Dədə – 364
Əödüləziz əl-Bərdəyi – 254
Əbdülqadir Marağayi – 349, 350
Əbdülqədir – 556, 567
Əbdülqədir xan – 531
Əbdüllətif Əfəndi – 752
Əbdülməlik – 136, 137, 142, 143
Əbdülrəhman – 714
Əbdülfəttah – 366
Əbdürrəhman ağa Dilbaz oğlu – 726, 730, 731
Əbdürrəhman Cami – 349
Əbdürrəhman ibn Rəblə əl-Bəhili – 132
Əbdürrəşid ibn Saleh əl Bakuvi – 343
Əbdürrəzaq bəy Xoylu – 737
Əbdürrəzaq Dunbuli – 556
Əbdürrəzaq Səmərqəndi – 305
Əbdüssəməd bəy – 546
Əbu Abdulla Məhəmməd Təbrizi – 338
Əbubəkr – 224, 225, 226
Əbubəkr əl-Qütbü əl-Əhəri – 5, 296

Əbubəkr Məhəmməd Şirvani – 255
Əbubəkr Tihrani – 344
Əbu Cəfər (Əl-Mənsur) – 138, 143
Əbu Duləf – 144, 228, 229, 233, 234, 240, 242, 248
Əbu Həmid əl-Qərnati – 230, 246
Əbu Qasim İbn Divdad – 238
Əbu-l-Abbas Əs-Səffah – 138
Əbu-l-Əsvar Şavur – 212, 218, 268
Əbu-l-Qasım Tənnixi – 254
Əbu Məhəmməd Əbdulməlik ibn Hişam – 189
Əbu Məhəmməd Qəsirəddövlə – 214
Əbu Miaz Əbdayi – 255
Əbu Müslim – 147
Əbu Reyhan əl-Biruni – 254, 334
Əbu Sabit əl-Türki – 208
Əbu Sac Subuk – 146
Əbu Səid – 284, 320, 321
Əbu Tahir – 207
Əbu Turab Səfəvi – 513
Əbülfət ağa – 575, 589, 595, 597
Əbülfət xan Tuti – 552, 726, 727
Əbülfət Cəfər ibn Əli – 211
Əbülfət Raci – 733
Əbülqasim Nəbati – 731, 761
Əbülğazi – 178, 196
Əbülüla Gəncəvi – 256, 257, 263
Əbül Vəfa – 254
Əcəmi Əbubəkr – 267
Əcəm İraqi – 511
Əfqan Əşrəf – 487, 488
Əfqanıstan – 140, 465, 498, 508, 510
Əfəndiyev R. – 737
Əhər – 66, 80, 210, 225, 365, 500, 682, 685
Əhəmənilər – 75, 77, 81, 82, 91, 92, 100
Əhistan I – 221, 222, 226
Əhməd Ağaoğlu – 311
Əhmədalılar – 359
Əhməd bəy Cavanşir – 514, 520, 521, 530, 642, 548, 554
Əhməd Cəfəroğlu – 333
Əhməd xan – 635, 636
Əhməd xan Dunbuli – 516, 517
Əhməd xan Qaytağı – 566
Əhməd ibn Cüneyd – 151
Əhmədi bəy Türkman – 364
Əhmədli – 313
Əhməd paşa – 491
Əhməd Soltan – 509
Əhməd Şəmsəddin Təbrizi – 356
Əhriman – 90
Əxi Fərəc – 315
Əxi Qəssab – 316
«Əkinçi» qəzeti – 721, 759, 760
Əl Bab – 137
Əl-Bəlazuri – 133, 136
Əl-Cərrah – 137
Əl Cəzirə – 138, 291
Əl-Cibəl – 151, 224
Əl-Curhumi – 189, 190
Əl-Farabi – 254
Əl-Xarəzmi – 145
Əlxanlı (Alxanlı) – 179
Əl-İdrisi –173
Əl-İstəxri – 110, 140, 167; 227, 234, 238, 247, 248, 254
Əl-Kurki – 248, 252
Əl-Kindi – 151, 153, 248, 676
Əl-Ludzqana – 212
Əl-Məlikəl – Nazir – 360
Əl-Məs'udi – 148, 240, 247, 254
Əl-Mö'mun – 151, 152
Əl-Mötəsim – 152, 153, 154
Əl-Müqəddəsi – 172
Əl-Urman – 212
Əl-Yaqubi – 231, 233
Əl-Valid ibn Ukba – 132
Əliabad – 642, 644



Əli Ağa Avçıoğlu – 592
Əliçulla Məhəmməd – 645
Əli əs-Süleyrəmi – 223
Əli Əsgər Səmim – 694
Əli Paşa – 491
Əli Paşa Ağa Bakıxanov – 653
Əli Pənah – 596
Əlixan Şeqaqi – 509
Əlixanov-Avarlı M – 4
Əli ibn Əbu Talib – 134
Əlincə – 245, 267, 304, 305, 317, 318, 322
Əli Şahtəbrizi – 360
Əli ül-Əla – 342
Əli Qulu xan Müqəddəmə – 509
Əli Qulu xan Afşar – 511
Əli Qulu xan Şahsevənli – 546
Əli Quşcu – 344
Əli Mafiz Təbrizi – 356
Əli Mərdan xan – 513
Əli Murad xan – 541
Əlincə Çaymahalı – 564
Əliköməktəpə – 19, 20, 22, 26, 28, 32
Əli Kufi – 132, 137
Əliyarlı S. – 6
Əliyanlı – 179
Əliyev İ. – 161
Əlvənd Mirzə – 323, 367
Ələnd – 564
Ələkbərli – 179
Ələmut – 336
Əli Soltan – 465
Əməvilər – 134, 136-138, 141, 143, 145, 147, 236
Əmənbəy – 142
Əminəddin Təbrizi – 339
Əmir Altun – 305
Əmir Aslan xan – 512, 517
Əmir Aslan xan Dunbuli – 694
Əmir Əmiran Ömər – 225, 226
Əmirli – 319
Əmir Yarəhməd Qaraman – 317
Əmirəl-Ümərа – 727
Əmirxan – 612
Əmirxan Türkman – 398
Əmir Həmzə Üsmi – 518, 526, 528, 529
Ən-qəlib Qaraca dağı – 131
Ən-Nasir – 225
Ənvari – 720
Ənzəli – 534, 542, 593
Ərdəbil – 66, 80, 236-239, 242, 243, 247, 253, 267, 271, 272, 273, 281, 282, 302, 398, 476, 486, 487, 488, 490, 491, 500, 502, 519, 522, 531, 533, 546, 557, 559, 617, 646, 678, 679, 682, 684, 689, 694, 762
Ərdəbil xanlığı – 509, 512, 542
Ərəblər – 206, 207, 208, 217, 218, 230, 231
Ərəş Sultanlığı – 509, 517, 519, 557, 563
Ərəş – 465, 491, 506
Ərəşlu – 365
Ərcivan – 365
Ərş – 620
Ərzincan – 315, 365, 367
Ər-Razi – 337
Ərzurum – 302, 314, 503, 681, 699
Ərkivan – 564, 647
Ərəbistan – 748
Ərəb – 719, 720, 747
Əsəd ibn Yezid – 207
Əsəd bəy – 689
Əsgəran – 546, 589, 595, 599
Əsgər bəy – 509
Əsgər Hüseynoğlu – 765
Əsiləddin – 337
Əsiri – 347

Əşrusən (İsruşana) – 208
Ət-Tarik – 137
Əvəzəli Səfi Qulu oğlu – 744
Əzdilər – 210

F

Fadeyev A.V. – 594
Fanaspa – 83, 86
Fao Munçi (Çin) – 336
Farasman – 106
Farmer H. – 354
Fars – 74, 398, 488, 546, 747
Farslar – 74, 90, 131, 177, 189, 204, 205, 324, 373, 401, 665, 676, 695, 719, 723, 732, 736, 750, 752, 763
Fasis – 102
Fasiana – 168
Favel (Eftalit) – 186
Favnitida – 92
Favstos Bizanslı – 118
Fazil Fərideddin Şirvani – 255
Feodor Kotov – 461
Feyzi bəy – 595
Fezen – 655
Fəxrəddin Bəhram – 263
Fəxrəddin Marağai – 335
Fəxrəddin Tiflisi – 336
Fələki Şirvani – 256, 257
Fələstin – 28, 217, 219
Fərəc ət-Türki – 208
Fərat – 210, 296
Fərhad paşa – 398, 399
Fəriburz III – 277
Fərideddin Əttar – 339
Fərqanəli Xələf – 208
Fərrux Yasər – 317, 320, 322, 325, 326, 327, 365, 366
Fərzəliyev A. – 4, 5
Fətəli xan – 463, 502, 626, 724, 752, 753
Fətəli xan Afşar – 509, 512-516, 532, 541
Fətəli xan Qubalı – 519, 524-533, 536, 537, 539-541, 558, 560
Fətəli şah (Baba xan) – 556, 570, 574-576, 581, 588, 589, 592, 593, 599, 601, 609, 612, 646, 675, 693, 727
Fəzlullah Əbülfəzl Nəimi əl Hürufi – 303-305, 313, 318, 341, 342, 346, 348, 349
Fəzlullah ibn Ruzbihan Xunəci – 4, 309, 319, 321, 322, 323
Fəzlullah Rəşidəddin – 280, 287, 288, 292, 295, 338, 343
Fəzl ibn Məhəmməd – 211, 215, 267
Fiqaro Lüdviq – 331, 332
Finikiya – 51
Firdovsi – 178, 363, 720, 738, 741
Firidun bəy Köçərli – 727, 728, 730, 734, 752
Firuz – 121, 122
Firuz düşərgəsi – 15, 16
Fitdağ qalası – 593
Flakk Lutsi – 102, 103
Flavi – 106
Fleyşer – 191
Flor – 104
Florensiya – 355
Fon-Aşenberq – 655
Foyqt X. – 749
Fraat IV – 86, 87
Fraaspa – 83
Frank dövləti – 234
Fransa – 246, 252, 285, 308, 329, 331, 460, 472, 483, 489, 545, 572, 599, 601, 607, 612, 618, 687, 701, 714
Fren X. – 753, 754, 763



Fridrix Patççel – 693, 701
Füzuli – 203, 205, 738, 740, 761

G

Gavduşan – 529
Gelat – 224
Georgi III – 221, 222
Georgi IV – 272, 277
Georqi VII – 306
Georgi XII – 574, 575, 730
Georgiyevsk – 535, 538, 540, 576, 577
Gerşasp – 277
Gədəbəy – 252, 717, 757
Gələsən-görəsən – 505, 506, 507, 550
Gəncə – 18, 29, 30, 31, 127, 133, 145, 207, 211, 214, 217, 223, 228, 229, 234, 235, 247, 248, 252, 253, 255, 256-263, 267, 268, 272-276, 281, 282, 308, 317, 350, 352, 354, 367, 399, 465, 466, 468, 472, 483-486, 493, 495, 498, 500-503, 519, 522, 524, 531, 540, 553, 556, 559, 568, 570, 572, 575, 580-583, 590, 599-601, 603, 604, 609, 611-615, 631, 636, 674, 705, 714, 720-723, 729, 730, 750, 752, 761, 762, 765, 767-770
Gəncə-Gədəbəy – 25
Gəncə xanlığı – 510, 524, 531, 532, 540, 549, 550, 553, 556, 557, 561, 563
Gəncə vilayəti – 510, 517
Gəncəbasar – 313, 600
Gəncəli – 611
Gəncəli Kirakos – 276
Gəncəsar – 117, 471
Gənzə – 130
Gərgərud – 487
Gərkər – 692
Gərnibasar – 563
Gibb H. – 345
Gilan – 209, 210, 216, 217, 224, 464, 467, 473, 478, 479, 481, 484, 486, 487, 489, 493, 506, 513, 541, 542, 554, 593, 686, 693, 695
Gilan xanlığı – 534
Gilanşah – 213
Gildenştet Q.A. – 536
Gilgilçay – 45, 114, 119
Gilyom de Rubruk – 460
Gilzan – 43, 52, 53, 68, 69
Gimbut – 649, 652, 660
Gimirri – 172
Gindin A. – 160, 163
Gindar – 86
Girdman – 115, 132, 134
Girdmançay – 115
Gizevetter R. – 350
Gorqanrud – 646
Gorus – 132
Govurqala – 26
Gödək Əhməd – 323
Göktürk kağanlığı – 142
Gök Tenqri – 161
Gökyay O.Ş. – 198
Göhər ağa – 596
Göycə – 229, 313, 365, 511, 563, 674, 732
Göyçəli Əziz – 722
Göynük – 506, 563
Göytürk – 193, 196, 198, 201, 203
Göytəpə – 21, 23, 25, 26, 34

Gövdüşantəpə – 23
Gövhərxan Sultan - 311
Güllübəyim xanım - 722
Gülsəra – 247, 252
Gülşəni Bərdəi – 346
Gülüstan – 221, 351, 365, 367, 495, 521, 602, 603, 607, 608, 609, 617-619, 669, 692, 699, 704, 708
«Gülüstan» poeziya məclisi – 73
Gümrü – 611
Güney Dağıstan – 613
Güney Qafqaz – 657, 661, 664, 671, 672, 674, 676, 678, 683, 687, 699, 703, 713, 722
Günəştəpə – 23
Gürcüstan – 116, 117, 119, 147, 154, 169, 171, 210-212, 217, 218, 224, 227, 234, 238, 269, 271, 272, 275, 282, 296, 305, 306, 399, 465, 479, 480, 484, 485, 493, 495, 499, 502, 513, 518, 531, 537, 540, 544-550, 570, 572, 575-578, 580-584, 587, 599, 602, 604, 607, 614, 618, 633, 654, 677, 699, 705, 730, 750
Gürcülər – 219-222, 351, 658, 666, 701, 724
Gürcü-imereti – 662, 663
Gürgün bəy – 580
Gürgün xan – 730
Gürqan – 151

## H

Hacı Abdulla – 697
Hacıbababəyov Q. – 763, 764, 769
Hacı bəy – 558
Hacı Çələbi Qurban oğlu (Çələbi xan) – 504, 507, 509, 517, 518, 531, 541, 727
Hacı Davud – 466, 470, 478, 482, 485, 503
Hacı Əminər – 651
Hacı Firuz – 18, 21
Hacı Həsən Kəbirli – 596
Hacı Hüseynəli bəy Kəbirli – 596
Hacı Hüsü – 766
Hacı xan – 612, 656
Hacı Məhəmməd – 329
Hacı Məhəmmədəli Sufi oğlu Zərnəvani – 509
Hacı Məhəmmədəli Şirvani – 737
Hacı Məhəmməd Şirvani – 756
Hacı Məhəmməd – 652-656
Hacı Mirzə Ağası – 694
Hacı Mirzə Rəhim bəy – 540
Hacı Mirzə Məhəmməd – 684
Hacıkənd – 244
Hacılu – 313
Hacı Seyid Əbdülhəmid – 506, 762
Hacı Yəhya – 643
Hacı Zeynalabdin Şirvani – 754, 756
Hafiz – 463, 719, 720, 738
Haqverdi bəy – 647
Hamid – 329
Hammer Purqştal – 340
Hammurapl – 40
Hans Holbeyn – 354
Hans Memlinq – 354
Hanvey – 498, 491, 500, 502
Harford Cons – 599, 601
Haris ibn Şəddad – 131
Harrinqton – 494
Harruna – 53
Harun ər Rəşid – 138, 140, 144, 147, 150, 205, 208



Haşimilər – 146, 207
Haylandurlar – 126
Hay Yuli Sezar – 149
Hazaurt – 610
Helios – 109
Herakl – 90
Heraklid – 83, 755
Herat – 282, 348, 399, 488, 490, 686
Herber Yohan Qustav – 460, 462, 463, 476-478
Herodot – 43, 48, 50, 75, 158, 159, 177
Hersoqovina – 327
Hesiod – 47, 177
Het – 38
Heydər bəy (xan) Afşar – 499, 501
Heydər ibn Kavus Afşin – 150
Heydərqulu xan – 511, 517
Heydər Mirzə – 399
Heyran xanım – 733
Heysam ibn Xalid – 207
Həbəş (Həbəşistan) – 136, 141
Həftəvantəpə – 26, 72
Hələb – 328, 330, 346
Həlimə Bəyim ağa – 325
Həmədan – 123, 151, 216, 217, 226, 227, 228, 255, 256, 271, 272, 282, 315, 336, 487, 489, 682
Həməvi Yaqut – 157
Həmdullah Mustovfi Qəzvini – 5, 77, 157, 284, 355
Həmzəçimən – 603
Həmzə bəy – 327
Həmzə Hacılı – 319
Həmzə Mirzə – 398
Həmzətbəy – 643, 644, 645, 653
Hərəmi xan – 596
Həsən – 217
Həsən Cəlal – 117, 520
Həsən Əfəndi əl-Qədari – 3, 466
Həsənli – 31, 32, 41, 52, 66, 72
Həsənli Ə. – 7
Həsən bəy – 331, 553, 628, 653
Həsən bəy Rumlu – 311, 317, 321, 367
Həsən bəy Zərdabi – 463, 731, 763
Həsənağa bəy Sarıcalı – 596
Həsən Əzən – 328
Həsənəli (xan) 319, 465
Həsən xan – 571, 572, 622, 670
Həsən xan Qacar – 513
Həsən İxfa – 596
Həsənoğlu – 344, 345
Həştadsər – 153
Şəhtərxan (Hacı Tərxan) – 332, 467, 469, 470, 474-477, 480, 481, 537, 552, 553, 560, 577, 594, 598, 602, 536, 711, 746
Həzra – 359
Həzrət Məhəmməd – 131
Hicas – 339
Hidayət xan – 539, 534
Hillə – 496
Hilmili – 362
Hindarx – 626
Hind-Avropa – 158, 159
Hind-Çin – 28
İnd-Əfqan – 156
Hind-İran – 156, 159
Hindistan – 77, 80, 234, 235, 252, 332, 469, 472, 482, 495, 496, 499, 500, 646, 762
Hippokrat – 47, 177
Hira – 131
Hirkan (Xəzər) – 99
Hişam ibn Əbdülməlik – 137, 143
Hollandiya – 350, 354, 461

Holştin – 461
Homer – 47, 192
Hommel F. – 161
Honaşen – 592, 596, 597
Horadiz – 148
Horenli Movses – 165, 168
Horovlu – 148
Houtum Şilder – 335
Hörmurd – 90
Hörmüz – 121
Hroznı B. – 158
Hulakü (Hülakü xan) – 277, 279, 287, 295, 310, 336
Hubuşkiya – 44, 53, 62
Hunlar – 115, 118, 119, 121, 126, 134, 159, 165, 166, 167, 169, 177, 179-182, 186-188, 191, 193, 196, 203, 295
Hurri – 38, 43, 51, 81
Huri Peykər – 531
Huşəng – 201, 304
Hümam Təbrizi – 338
Hümmət bəy Cavanşir – 596
Hüseyn Baykara – 730
Hüseyn bəy – 481
Hüseyn bəy Lələ – 364, 367
Hüseyn bəy Salar – 727
Hüseynəli xan Qubalı – 509, 518, 525, 526
Hüseynəli xan Şəkili – 526
Hüseyn xan – 471, 519, 531, 538, 596, 612, 622, 635, 670, 724
Hüseyn xan Müştaq – 727
Hüseynqulu ağa – 584, 585
Hüseynqulu xan – 543, 555, 571, 594, 614, 631, 635, 636, 646, 694, 769
Hüseynli R. – 7
Hüseyn Sultan Təkəlü – 398

## X

Xacə Əli – 334
Xacbulaq – 24
Xaçmaz – 491, 654
Xaçın – 169, 359, 495
Xaçın məlikliyi – 520, 521
Xadim bəy Xüləfa – 364, 366, 367
Xadim Cəfər paşa – 398
Xakas – 48
Xaqani – 256, 258, 260, 261, 262, 351
Xala Məhəmməd – 645
Xalac – 178
Xalıq Koroğlu – 199, 202
Xalid ibn Yezid – 207
Xalxal – 121, 243, 309, 365, 509, 646, 682, 695
Xalxali – 178
Xanabat – 715
Xan Bikə xanım – 571
Xancan (bəy) – 364, 597
Xançoban mahalı – 640
Xançobanı tayfası -509
Xanıkov N.V. – 678, 750, 752, 762
Xankəndi – 18, 29-31, 252
Xanlar ağa – 590
Xanlıqlar kəndi – 730
Xanməmməd – 654
Xarəzm – 214, 217, 346
Xarəzmi – 254
Xarəzmşahlar – 226
Xarəzmşah Cəlaləddin – 275, 277
Xarəzmşah Təkəş – 225, 226
Xarrat Qulu – 766
Xatib ibn Harsama – 151
Xatib ibn Sədəqə – 147
Xədicə Bikə – 526
Xədicə bəyim – 325
Xədiviyyə – 339
Xəlil – 322
Xəlil – 347
Xəlilbəy – 332
Xəlil ibn Əhməd – 345
Xəlil xan – 398
Xəlilullah – 317, 320
Xəlilvənd – 497
Xəstə Qasım – 597
Xətib Bağdadı – 254
Xətib Təbrizi – 254
Xəzər (ölkəsi, dənizi) – 114, 119, 126, 130, 131, 132, 135, 137, 138, 140, 144, 186, 206, 207, 270, 669, 670, 710, 724
Xəzəryanı torpaqlar – 460, 463, 466, 467, 470, 472, 474, 478, 480-483, 486, 488, 489, 492, 769
Xəzərlər – 115, 126, 186, 189, 209-215, 217, 229, 230, 235, 237, 239, 240, 248
Xəzər – Volqa yolu – 467, 473
Xəzrə – 324, 652
Xırda xanım – 722
Xınıslı – 176
Xınalıq – 438, 562, 563
Xız – 705
Xilat – 224, 225, 271
Xilafət – 130-149, 151-155, 172, 189, 207-212, 212, 217, 218, 229, 230, 237, 240, 241, 253, 254, 256, 262, 269, 749
Xilə – 568
Xivə – 213
Xivəli Əbülgazi xan Bahadur – 196
Xoca Nepes – 468
Xocavənd – 166
Xodzko A. – 740
Xoxoniç – 468
Xondəmir – 314, 321, 325, 326
Xorasan – 151, 154, 211, 216, 217, 226, 233, 235, 320, 321, 324, 327, 330, 388, 395, 397, 399, 510, 511, 513, 546, 697
I Xosrov Ənuşirəvan – 124, 126
Xosrov II Pərviz – 131
Xoy – 69, 121, 216, 252, 272, 313, 358, 486, 504, 509, 516, 517, 571, 682, 683, 685, 694
Xoy (mahalı, xanlığı) – 512, 546, 564
Xoy – Mərənd – 86
Xoylu Cəfərqulu xan – 599
Xoylu Şahbaz xan – 516
Xristofor Kolumb – 746
Xubilay – 287
Xudadad xan – 694
Xudafərin – 211, 212, 267, 510, 546, 591, 612, 616
Xudat – 464, 466, 509, 529, 652, 653
Xudu – 24
Xuluq – 649, 652, 656
Xunan – 247
Xunəc – 243, 247, 248, 252
Xursan – 208
Xurşud Banu Natəvan – 595, 727, 733, 743, 768
Xurşud bəy – 500, 501
Xuzistan – 224, 225, 235, 236, 516
Xürrəm – 147
Xürrəm Keşiş – 150
Xşatrita – 49

## İ

İakov – 116
İbbən ibn Mənsur – 147
İberiya – 79, 117, 134
İbn əl Füzati Bağdadi – 335
İbn əl Əsir – 111, 148, 150, 152, 271, 272, 277

İbn əl Fəqih – 233
İbn Xordadbeh – 212, 231, 233, 254
İbn Bəttutə – 335
İbn Ən Nədim – 147, 149
İbn Fədlan – 186, 187
İbn Miskəveyh – 214
İbn Hövqəl – 110, 111, 114, 167, 172, 227, 230, 234-239, 242, 247, 248, 252, 254
İbn Rüşd – 254, 337
İbn Şəfra – 147
İbn Sina – 149, 254, 257, 336, 337, 339
İbrahim bəy – 594
İbrahim xan Afşar – 495, 498, 500
İbrahim xan – 463, 511, 556, 570, 598, 625, 626, 631, 724, 754
İbrahim xan Qacar – 612
İbrahim ibn Mərzban – 210
İbrahim xan Paşa – 482, 485
İbrahim Osman oğlu – 268
İbrahim Yınal – 216, 217
İda (Mazamua) – 52
İdil – 248
İççenko – 653, 654
İeremii – 127
İlanlıtəpə – 20
İlek xanlı (Qaraxanlı) – 627
İlizar – 188
İlisu – 644
İlluşumel (İlşu Nail) – 39, 164
İlya – 131
İlyas bəy-Xınıslu – 364, 653
İlyas Xoca – 305
İlyinski – 614, 645, 646
İmam Cəfər Sadiq – 496
İmam Hüseyn – 678
İmam Rza – 678
İmamqulu xan – 398, 462, 509
İmereti – 575, 604, 699
İmta – 35
İmişli İnallu – 17
İnanc Xatun – 225
İnallu – 319
İngiloy – 578, 643, 644
İngiltərə, Britaniya – 335, 348, 349, 482, 345, 493, 494, 545, 683, 686, 687, 688
İngilis – 687, 694
İnqeşuşşu – 35
İirk – 46
İoann Streys – 679
İoann Barbaro – 329, 330, 353, 355
İotapa (Yutba) – 88
İraklii – 724
İrakli II – 130, 517, 531, 539, 540, 566, 574, 730
İraq – 131, 225, 230, 234, 235, 279, 523
İraqi – Əcəm – 294, 312, 317, 312, 327, 349
İraqi – Ərəb – 284, 315, 317, 321, 326, 365
İran – 116-141, 216-247, 267, 271, 508-560, 573-593, 625, 699, 703-716, 500-505, 727, 732, 735, 743, 744, 747, 750, 762, 766, 768
İranzu – 58, 59, 65
İrəvan (Erivan) – 357, 464-498, 503, 511-563, 587-599, 600-623, 674
İrəvanlı Abram – 486
İrina – 137
İsa bəy – 654, 656
İsa bəy Həsən Əfəndi oğlu – 652
İsa ibn Məhəmməd – 151
İsfahan – 151, 216-267, 282, 330, 399, 469-499, 502, 508, 541, 684, 696



İsfəndiyar – 131, 311
İsgəndəriyyə – 129
İskəndər – 265, 278, 279
İskəndər bəy Hacınski – 753
İskəndər bəy Münşi – 309, 398
İskit-Saka – 177
İslandiya – 194
İsmayıl bəy Qutqaşınlı – 727, 729, 734, 743, 754, 758, 761
İsmayıl xan – 476, 480, 481, 609, 654
İsmayıl xan Ziyadxan oğlu – 731
İsmayıl Məmmədqulu – 651
İsmayılov M. – 741
İsmayılova S. – 7
İsmayıllı – 268, 610
İspaniya – 4, 160, 329
İsmət – 152
İsrail Ori – 468
İstanbul – 154, 324-349, 463-489, 678, 684, 685, 686, 692
İsveç – 469, 474
İşquz (Aşquz) – 44, 47, 63
İştar – 35
İştə – Daqan – 39, 40
İştaraura – 42, 165
İştaratti (Atrani) – 63, 71, 165
İşpakay – 44
İtaliya – 4, 246, 700, 715
İürk – 165
İvan III – 331
İvane Mxerqrdzeli – 244
İvanov V. – 159
İyirmi dörd soyu – 510
İzzəddin Keykavus – 340
İzzəddin Şirvani – 256, 258
İzibia – 59
İzmail – 582
İzmir – 330

## Q

Qaan – 738
Qablin – 64
Qacar – 205, 319, 324, 510, 614, 616, 617, 618, 727
Qacar kəndi – 626
Qadisiyə – 131, 133
Qafan – 563
Qafqaz – 114-151, 156, 157, 158, 159, 163-178, 181, 182, 188, 190, 193, 196, 200, 201, 204, 207, 208, 214-222, 229, 235-238, 243, 246, 267, 268, 270, 272, 274, 466-498, 508-598, 601, 699, 700-710, 761-765, 766, 720, 722, 760
Qax – 116, 169, 229, 247, 642
Qaqarin Q.Q. – 768
Qaqemeyster Y.A. – 754
Qala Suvar – 182
Qall – 163
Qalacıq – 26
Qalın Oğuz – 172, 190, 201
Qalliya – 149
Qaliley – 337
Qambayzadə X. – 7
Qamkrelidze T. – 159
Qanıx – 229
Qanlı təpə – 466
Qantau – 42, 165
Qanturalı – 148
Qanzak – 130
Qapan – 497
Qarabağ (xanlığı, məlikləri, türkləri) – 127, 132, 134, 229, 268, 306-367, 484-489, 500-623, 724, 727, 730-770
Qarabağ-Gəncə bəylərbəyliyi – 464, 465, 472, 495, 570
Qarabayat – 705

Qarabulaq – 30, 31
Qaraca dağ – 364, 367, 542
Qaracalı – 611
Qaraca İlyas Baybrutlu – 365
Qaraçəmən kəndi – 515
Qaradağ (tayfası, xanlığı) – 54-67, 69, 150, 210, 132, 500-542, 683-694
Qaradağ-Güləndər – 612
Qaradağlı Kazım xan – 516
Qarademirçi (eli) – 640
Qara dəniz – 211, 270
Qarahacılı – 23
Qara xan – 509
Qaraxanilər – 216
Qara İskəndər – 317, 318
Qarakilsə – 605
Qaraköpək təpə – 23, 26
Qaraqədir – 676
Qaraqoyunlu – 205, 295, 309-333
Qaraqaytaq – 332, 460, 466, 484, 499, 504, 576
Qaraman – 728
Qaramanlu – 313, 316, 328, 329, 333, 345
Qaramayor – 588
Qara Məhəmməd – 314, 315
Qarapiri bəy Qacar – 364, 367
Qarasu-Basar – 148, 166, 611
Qara sunqur – 244
Qaratiğin – 218
Qara Yusuf – 309, 326, 628
Qara Ziəddin – 617
Qardan – 599
Qarxın – 319
Qarni – 717
Qars – 492, 496, 503, 504, 506, 599, 699
Qasım bəy Zakir – 726, 728, 731, 732, 738, 742, 761
Qasım xan – 631
Qasım Mirzə – 311
Qastello Vekio – 353
Qaşqaylar – 324
Qavqamel – 45, 78, 94, 169
Qayalı – 10
Qazaxıstan – 275, 353
Qazax-Şəmşədil – 465, 510-568, 576-592, 600-611, 630, 667, 705, 710, 720, 728, 730, 770
Qazaka – 118, 124, 125
Qaraküra – 652
Qazan Alp (Salur Qazan) – 171, 172, 192, 193
Qazanbulaq – 182
Qazançı – 182
Qazangöl – 182
Qazan xan – 283, 295, 307, 362
Qazaniyə – 355, 359
Qazıqumuq – 517, 553, 643, 655, 656
Qazıqumuqlu Məhəmmədxan – 519: 528
Qazıqumuqlu Surxayxan – 571
Qazian – 676
Qazıbey – 366
Qazi Molla – 643
Qusar – 463
Quşçu – 558, 626
Quştəsfi Mussa – 279, 299, 363
Qutqaşen – 563, 657, 734
Qutluq İnanc – 225, 226
Quzey Dağıstan – 654
Quzey Qafqaz – 665, 724
Qüds – 116, 544
Qutbəddin Şirazi – 148, 336, 349
Qolitsin S. – 492
Qolovin – 662
Qori – 723
Qoşaqala qapısı – 770
Qoysu bəy 572
Qoytosir – 47
Qralovski Mateus – 743
Qriboyedov A.S. – 617, 641-681, 700-702, 740-742, 754, 763
Qriqori Əbdül Fərəc ibn əl İbri – 336
Qriqoryev İ. – 721, 723
Qrum – Qrjimaylo Q.E. – 171
Quba, Quba xanlığı – 23, 170, 171, 246, 354, 460, 493, 507-599, 601-614, 700-714, 720-770
Qubad I – 123, 124
Qubonin – 717
Qudamə ibn Cəfər – 231, 233
Qudoviç – 545-554, 574, 594-597, 599
Qudyal – 509, 649, 650
Qullar – 182
Qulyakov – 579, 586
Qum – 116, 282
Qumuq, Qazıqumuq – 462, 466, 491, 499, 500, 649
Qurban Niftalıyev – 651
Qurd Bulaq – 552
Quriya – 575
Quruçay – 9, 23
Qurucu IV David – 219, 220
Quruqobu – 584
Qış sarayı – 677
Qız qalası – 267
Qızlar = 534, 552
Qızılağac – 320, 485, 487, 711
Qızıl Arslan – 225-228, 261
Qızılbaşlar – 470, 646
Qızılbunda – 39, 69
Qızılqaya – 517, 518
Qızıl Orda – 278, 283, 290, 293, 306, 345
Qızıl Üzən – 623, 653, 670
Qiş (Giş) – 116
Qituxani – 62
Qivami Gəncəvi – 256, 258
Qiyasəddin Rəşidəddin oğlu – 338
Qlavani – 686
Qlazenap – 598
Qlinka S. – 671
Qney Pompey – 46, 85
Qobustan – 15, 16, 17, 18, 759
Qoca Əhməd Yasəvi – 352
Qoca Hacılı – 319
Qodar – 335, 358
Qodsel F. – 345
Qolitsin A.B. – 703
Qəbələ – 111-132, 206-268, 350, 359, 365, 462, 471, 491, 499, 509, 517
Qəbuli xanım – 481
Qəhdani – 189
Qəh-qəhə qalası – 395
Qəhrəman Mirzə – 695
Qəley Buğurd – 267
Qələndəri – 341
Qəmərkuh – 620
Qəmərli – 588
Qərbi Avropa – 627, 684, 699
Qəsəni mahalı – 526
Qəsri Şirin – 496
Qətran Təbrizi – 256, 258, 259
Qəzali – 337, 339
Qəza məktəbləri – 720, 721, 723
Qəznəvilər – 216
Qəzvin – 227, 398, 399, 469, 484, 506, 508, 676, 682
Qılınclı (eli) – 640
Qımır, Qımırlı – 43
Qınıq – 216
Qıpçaqlar – 167, 173, 174, 176, 222, 274
Qırxbulaq mahalı – 563
Qırxlı Məhəmmədəli xan – 499
Qırğız – 48
Qırmızı su (Krasnovodsk) – 469

## L

Ladinski P.A. – 665
Laerab – 35
Laqaş – 36, 38
Lahıc, Lahıcan – 364, 568, 593, 714, 771
Lahicanşahlıq – 207
Lazar Paraplı – 120
Lazarev – 579, 672, 675, 741
Lazaro Kvirino – 328
Lejandr A. – 337
Lemin – 771
Lemon – Qaupt K. – 358
Lerx – 362
Lerik – 268
Leyden – 350
Leyla təpə – 20, 22
Leypsiq – 340, 607, 703, 737, 761
Lev – 137
Levallua – 12
Ləki – 611
Ləmbəran – 222
Lənkəran – 228, 509, 599, 602, 611, 612, 614, 646, 647, 648, 667, 708, 710, 711, 720, 721, 743, 763
Lidaya – 40
Liman – 618
Livan – 28
London – 4, 710, 761
Lori – 520
Lovain – 28
Lpina, Lpinlər – 114, 115
Lukull – 86, 102
Lullube (Lullu) – 37, 38, 39, 40, 41, 42, 43, 51
Luristan – 326
Lutsenko – 648
Lütfəli xan – 542

## J

Jurmunski V.M. – 197
Jukovski N.S. – 702
Jül Vern – 743

## K

Kabalaka (Qəbələ) – 101
Kabarda – 325, 518
Kabchüsi – 158
Kafa (Krım) – 308
Kafiəddin Ömər ibn Osman – 260
Kağan Aslan – 198
Kağankatlı Moisey – 293
Kaxet – 209, 517, 574, 642, 643, 644
Kalxi – 69
Kaluqa – 656
Kambisena – 93, 115
Kanqlı – 178
Kanqlı Qoca – 178
Kankrin E.F. – 702, 703, 704, 705
Kant – 755
Kappadokiya – 85, 329
Karfajen – 85
Karamzin – 742
Karr – 86
Karaim – 741
Karkın (Karkınit) – 162
Karl Kox – 743
Karxemiş – 75
Karnyaqin – 585
Karlo-Krivello – 354
Karluk – 178
Kar Xəlifə – 766
Kartli-Kaxet – 179, 517, 538, 539, 545, 730
Kartli-Kaxet çarlığı – 575, 578, 579
Kartvel-i – 169
Karyaqin – 590, 591, 592
Karyandlı Skulaks – 162
Kasak (Kasal) – 138, 139
Kaspari A. – 587
Kaspii – 662, 663, 708, 712, 713, 714
Kaspiana – 92, 93, 115
Kaspilər – 165
Kastiliya – 302
Kaşan – 399
Kaşkarov – 701
Kaştariti – 74
Katerino Zeno – 329, 330, 353
Kavalyeri – 337
Kayı (Kalkos) – 162
Kayı oğlu Əhməd – 208
Kayseri – 137, 329, 345
Kayserili Prokopi – 160, 180
Kazan – 693, 719, 721, 728, 741, 746, 753, 756, 760, 761
Kazım – 627
Kazım ağa Salik – 726, 728
Kazımov M. – 5
Kazım xan – 509
Keçəçioğlu Məhəmməd – 766
Kempfer – 712
Kerman – 88, 321, 326, 685
Ketkart – 608
Keyqubad – 340
Keyumərs – 201
Kəbirli – 495, 510
Kəbirli mahalı – 503
Kəlbalı xan – 712
Kəlküttə – 340, 761
Kəndabad – 154
Kəngər – 178
Kəngərlər – 673, 674
Kəmaləddin Hüseyn Ərdəbili – 339
Kəmaləddin ibn Yunis – 339
Kəminə xanım – 727, 733
Kərbəla – 286, 678, 744
Kərim ağa Fateh – 727, 752
Kərim ağa – 558
Kərim xan – 622, 670
Kərim xan Zənd – 513, 514, 515, 516, 517, 523, 530, 532, 533, 534, 537, 541, 742
Kırzıoğlu M. Fahrettin – 3
Kiaksar – 74, 75
Kilanava B.İ. – 169
Kimeri – 172
Kiçik Ararat – 619
Kiçik Qaynarca – 535, 536
Kiçik Midiya – 75, 77, 79, 82
Kilsə dağ – 116
Kipr (Kıbrıs) – 329
Kirman – 399, 503
Kirman şah – 487, 609
Kirs dağı – 570
Kiyev – 212, 213, 214
Klaprot Y – 4
Klavdii Ptolomey – 126
Klavixo – 354
Klouson C. – 175
Knorrinq E.F. – 574, 575, 577
Kox – 165
Koxanov – 660
Kokarev – 717
Kolxida – 102, 103
Kolobova K.M. – 159
Kolumb – 337
Kononov A.N. – 203
Konrad N.J. – 739
Konstant II – 133, 134
Konstantin – 137
Konstantin II (Kaxet) – 316
Konstantinopol–135, 137, 212,
Konstantin Porfirogenet – 179
Konya – 339, 358
Korf F. – 684
Koroğlu dastanı – 720
Korniyenko – 647, 648

Kornikski – 705
Kotevan qalası – 528
Kotlyarevski P. – 591-597, 601
Kovalenko – 581
Kovalenski – 613
Kovrat – 611
Koryun – 127
Kozis – 103, 104
Krabe-Fon – 635
Kral Ferdinand – 4
Kraliça İzabell – 4
Krass – 105
Kretasi A. – 497
Krılov İ.- 744
Krım – 327, 330, 332, 499, 536, 599
Krım xanlığı – 536, 537
Krit – 338
Ktesifon – 120
Kuban – 724
Kufə – 139, 146
Kuhistan – 336
Kuklina İ.B. – 159
Kuşanlar – 120
Kutaisi – 224
Kutalmış – 217
Kutaysov – 641, 647, 658, 661, 704
Kuteyba – 137
Kutlu bəy – 327
Kül Tigin – 178, 196, 201
Kür çayı – 110, 111, 115, 121, 134, 135, 137, 139, 144, 206, 214, 215, 223, 228, 229, 230, 234, 510, 647, 715
Kürdmahmudlu – 179
Kürdüstan – 315, 319, 321, 326
Kürə – 643, 655, 656
Kürəkbasan – 563
Kürək-çayı andlaşması – 590, 593, 595, 596

## M

Macarıstan – 329
Madalılar (midiyalılar) – 78, 81
Madatov – 609, 610, 616, 635
Madiya – 170
Madrid – 4
Mağaviz – 521
Mahmudabad – 296, 320, 366
Mahmud ağa – 743, 767, 769
Mahmud (Uğurlu Məhəmməd oğlu) – 322
Mahmud ibn İlyas – 338
Mahmud Kaşqari – 28, 167, 171, 180, 199, 203, 333
Mahmud Qəznəvi – 211
Mahmud Paşa – 330, 681
Mahmudov F. – 6
Mahmudov Y. – 6
Makarov M. – 723
Makedoniyalı İskəndər – 137, 168, 169, 460
Makrizi – 304
Maku – 30, 66, 121, 313, 571, 682, 685, 692, 695, 696
Maku xanlığı – 509, 512
Maqneziya – 84
Maqsud Mirzə – 322
Malatya – 329, 336
Malazgird – 217
Malıbəyli – 169
Malkolm – 601
Manas – 173
Manna – 38, 39, 41, 42, 44, 51-59, 61-73, 80, 81
Mannalılar – 44, 54
Mani – 123
Mantiana – 43
Manyan – 489
Mar Apas Katina – 165, 166, 168
Marağa – 53, 139, 151, 157, 209, 210, 229, 233, 238, 243,



247, 248, 253, 267, 281, 282,305, 308, 313, 335, 336, 488, 489, 497, 5126, 558, 559, 682, 684, 685
Marağa xanlığı – 509, 512
Mardin – 312, 320
Mardlar – 81, 89
Mark Antoni – 86
Marko Polo – 353
Marko Rosso – 331
Marlıqtəpə – 30, 32, 43, 51, 66, 70, 71, 73
Marr N.Y – 175
Marta (Aləmşah bəyim) – 325
Martin Lüter – 334
Martuni – 169
Masazır – 711
Maskutlar (Masaha-Hunlar) – 46, 77, 83, 84, 91, 92, 100, 116
Massaget – 46, 45, 48, 75
Mastirqa – 46
Maşdakki – 60
Maştağa – 46
Matsex – 643
Mavazixatın – 564
Məvəraunnəhr – 216, 217
Maymun ibn Əhməd – 215
Maynic – 140, 233
Mazandaran – 224, 479, 481, 488, 499, 513, 541, 554, 636, 637
Meçerski B. – 481
Meçnikov – 641, 647, 658, 661, 704
Medem İ.F. – 529, 530, 533, 537
Mehdi – 143, 208, 696
Mehdiqulu ağa – 626
Mehdiqulu xan – 497, 570, 590, 596, 600, 610-612, 635, 661
Mehdiyev Q. – 585
Mehmandarovlar – 569
Mehmet II – 327, 328, 329
Mehmet bəy – 333
Mehmet Fuad Köprülü – 340, 344
Mehranilər – 115, 136, 142
Mehrəm bəy – 523, 524
Mehri – 563
Mehribanlı Baba bəy – 726
Mexov – 717
Melioranski P. – 345
Meliten – 154
Melnikov P.İ. – 757
Memiş E. – 162
Mendeleyev D.İ. – 757
Menşikov – 612, 617
Menua – 56
Mesopotamiya – 20, 21, 25, 38, 39, 43, 83, 84, 86, 102, 128
Mesrop Maştos – 127, 348
Messi – 52, 53, 56, 58, 59, 66, 68
Metatti – 59, 61
Metel Seler – 102, 103
Metsoplu Toma – 314
Meyneman – 611
Meynətəpə – 23
Məclisi-xase – 727
Məclisi-üns – 734
Məcmə-uş-şüəra – 734
Mədain – 130, 261, 360
Mədinə – 130, 131, 544
Mədrəsə – 719, 720
Məhəmməd Aqdaşı (Əvvabi) – 3, 747
Məhəmməd bəy Aşiq – 731
Məhəmməd bəy Batmanqılıc – 570, 571, 726
Məhəmməd bəy Türkman – 364
Məhəmməd bəy – 555, 536
Məhəmməd Cahan Pəhləvan – 223, 224, 227, 258
Məhəmməd Əli Mirzə – 609

Məhəmməd Əli Sultan – 500, 501
Məhəmməd Həsən ağa – 555, 570, 589, 590, 591, 726
Məhəmməd Həsən bəy Qorçu – 509
Məhəmməd Həsən xan (Şəki) – 531, 548, 549, 556, 570, 571, 579
Məhəmməd Həsən xan – 511, 514, 515, 522, 523, 543, 554, 625, 631
Məhəmməd Həsən xan Etimadüssəltənə – 737
Məhəmməd Hüseyn bəy – 476, 477
Məhəmməd Hüseyn xan (Quba) – 525
Məhəmməd Hüseyn xan Muştaq – 566
Məhəmməd xan Afşar – 512
Məhəmməd Xudabəndə – 398, 399
Məhəmməd ibn Basis – 153
Məhəmməd ibn Əbu Sac – 209
Məhəmməd ibn Hamid ət Tusi – 151
Məhəmməd ibn Mərvan – 136, 137
Məhəmməd ibn Şəddad – 211
Məhəmməd ibn Yəzid – 207, 243
Məhəmməd Kazım – 497, 498
Məhəmməd Keçəci – 317
Məhəmməd Mirzə – 528
Məhəmməd Peyğəmbər – 141, 303, 748, 752
Məhəmməd Səid xan – 526, 527
Məhəmməd şah – 690, 694
Məhəmməd Talıhlı – 554
Məhəmməd Yadigar – 324
Məhəmmədqulu bəy – 476, 477
Məhəmmədqulu xan-Səidli – 491
Məkkə (Hərəm) – 130, 131,190, 261, 734
Məkki ibn Əhməd əl Bərdəyi – 254
Məlik Allahqulu – 521
Məlik Əli – 519
Məlik Əşrəf – 271, 296, 299
Məlik Hacı bəy – 626
Məlik Qəhrəman – 521
Məlik Mahmud – 471
Məlik Məhəmməd xan – 526, 529
Məlik Mirzə xan – 521
Məlik Nəcəf – 504
Məlik şah II – 217, 219, 225, 232
Məlik Şahnəzər – 520, 524
Məlik Tahir – 305
Məlik Usub – 521
Məlikballı Qurban – 731
Məlikə Məhdi Ülya – 399
Məlikə Səlcuqşah Bəyim – 320
Məlikkənd Alpı – 676
Məlikov Cavad – 758
Məmlük – 360
Məmlük Misiri – 278, 320
Məmməd xan – 588
Məmmədquluzadə Cəlil – 732, 736
Məmmədhəsən Baharlı – 179
Məmmədli K. – 7
Məmməd Mirzə xan – 656
Məmməd-Riza bəy – 650
Mə'mun – 208
Mənsur – 315
Mənsur bəy Qıpçaq – 364
Mənsur Həllac – 300, 339, 346
Mənuçöhr I; II; III – 219, 220, 222, 317, 352
Mərdəkan – 268, 356, 357, 363
Mərənd – 151, 206, 227, 234, 305, 344, 682
Mərgəvər – 564
Mərkəzi Rusiya – 688
Mərv – 216, 255, 256, 282, 497
Mərzban ibn Məhəmməd – 209, 210, 214



Mərvan ibn Məhəmməd – 137, 138, 189
Məhsəti Gəncəvi – 256, 260, 737
Məskət qalası – 46
Məsləmə – 137, 139
Məsud – 232
Məsud Davud oğlu – 268
Məsudi – 81, 147, 148, 150, 151, 214, 232, 254
Məşğət (Maştağa) – 571
Məşhədi Məmməd – 656, 657
Məşədi Süleyman – 697
Məşhəd – 490, 678
Məşhur – 566
Məşrif – 31, 571
Məzdək – 123, 124
Məzyar – 151
Məzyədilər – 145, 146, 206, 207, 243
Mianduab – 56
Midiya (Mada) – 44, 58, 62, 64, 74, 75, 78, 79, 81, 82, 84
Midiya-Atrpatena – 77
Midilli – 330
Mihr Nerseh – 121
Miklər – 50, 76, 81, 82
Milak – 689
Mil düzü – 19, 21, 25, 34
Mil Qarabağ – 23, 166
Milet – 735
Miletli Hekatey – 50, 177
Miller V.F. – 158
Mingel – 319
Mingəçevir – 23, 29, 31, 32, 44, 97, 110, 111, 116, 128, 350, 592
Minsk – 577
Minqreli – Meqrel – 332, 575, 592, 604
Minorskaya T.A. – 5
Minorski V.F. – 5, 174, 345
Mir Həsən – 602, 607, 608, 635, 645, 648
Mir Mahmud – 480, 483
Mir Məhəmməd xan Qacar – 511
Mir Mustafa xan – 614, 645, 646
Mir Möhsün Nəvvab – 767, 758
Mirabbas – 646
Miranşah – 304, 305, 308, 312, 315, 754
Mircaniyə – 358
Mirxavan – 118
Mirismayıl – 646
Mirşan Kazım – 161
Miryəhya Qəzvini – 323
Mirzə – 719
Mirzə Adıgözəl bəy – 520, 549, 555, 577, 750, 752
Mirzə Baxış Nadim – 731, 732
Mirzə bəy Bayat – 529, 536
Mirzə Camal Cavanşir – 625, 628, 750, 752
Mirzə Cəfər Riyazev – 741
Mirzə Cəfər Təkmil – 761
Mirzə Cəlilli – 705
Mirzə Əbdülkərim İrəvani – 737
Mirzə Əbdülhəsən Vəzirov – 741
Mirzə Əhməd Mirzə Xudaverdi oğlu – 646, 648
Mirzə Əli bəy – 595
Mirzə Feyzullah – 592
Mirzə Fəzlullah – 695
Mirzə Haqverdi bəy Kəbirli – 596
Mirzə Heydər Vəzirov – 753
Mirzə xan – 566
Mirzə İsmayıl Qasir – 733
Mirzə Kazım bəy – 3, 4, 723, 738, 741, 746-749, 753-757, 760, 763
Mirzə Kərim Şüali – 733
Mirzə Məhəmməd Əliyev – 741

II Mirzə Məhəmməd xan – 571
Mirzə Məhəmməd xan – 509
Mirzə Məhəmməd Tağı – Qumru – 733
Mirzə Məhəmməd Təqi – Dərvəndi – 753
Mirzə Məhərrəm – 746
Mirzə Nəzrullah Bahar Şirvani – 733
Mirzə Rza – 497
Mirzə Salman – 398
Mirzə Tağı Afşar – 596
Mirzə Tağı xan – 580, 582
Mirzə Vəli Baharlı – 546
Mirzə Yaqub – 675, 676
Mirzə Yusuf Əhəri – 762
Mirzə Yusif Qarabaği Nersesov – 523, 587, 612, 615, 616, 693, 729, 737, 751
Mirzəcan bəy Mədətov – 727
Mitridat I; II – 84, 85
Mitridat (Atropaten hökmdarı) – 85
Mitridat-VI Yevpator – 85, 102
Miyanə – 233, 243, 247, 362, 682, 683, 685
Miyanə-Ərdəbil – 63, 80
Mizandarov İ. – 723
Miziyev İ.M. – 158
Moğolstan – 275, 278, 279, 309, 460
Moğol, Moğollar – 227, 488, 639
Misey Kağankatlı – 101-112, 116, 118, 119, 122, 123, 126, 127, 133
Moldova – 327
Molla Abdulla bulağı – 29
Molla Cəlil – 252
Molla Hacalı – 676
Molla İbrahim – 766
Molla Məhəmmədəli – 696
Molla Yusif – 691
Molokan – 710
Mommzen A. – 7
Mordvinov N.S. – 700
Mordtman A.D. – 202, 205
Moreya – 327
Moskva – 331, 332, 475, 479, 536, 688, 700, 709, 710, 717
Moşkov V.İ. – 768
Mömin Vaçaqan – 122
Möminə Xatun – 223, 358
Mötəsim – 145, 208, 277, 279
Mövlana (qazi) Məhiəddin Bərdəi – 299
Mövlana Şükrullah – 313
Müaviyə – 135, 151, 154
Muci – 568
Muğan – 115, 132, 133, 139, 140, 144, 150, 206, 210, 228, 229, 271, 296, 306, 465, 469, 487, 493-498, 500, 501, 506, 509, 527, 534, 545, 549, 553, 603, 608, 619, 669, 670, 708
Muğan – Talış – 31, 32, 48, 49, 66, 67, 68
Muğanlı – 642
Muxax – 642, 578
Muxtaroğlu V. – 6
Muqal – 644
Munis – 208
Munke kaan – 277, 279, 460
Murad bəy – 328
Murad padşah – 323, 329, 330
Muradxanov – 716
Murtuz Əli oğlu – 643, 645
Murtuza Qulu xan – 541, 542
Mussa – 215
Musin-Puşkin – 705
Mustafa ağa Arif – 726, 728
Mustafa xan (Şamaxı) – 543, 549, 550, 553, 556



Mustafa xan Talışlı – 554
Mustafalı – 611
Mustaras – 603
Mübarəki – 214
Müciréddin Beyləqani – 256, 258, 737
Mücum Kərim Vardani – 731
Müxlis Şirvani – 353
Müqəddəsi – 81
Müncik – 260
Mürşüdqulu xan Ustaclu – 399
Müşkur – 46, 462. 466, 649, 650, 651, 655, 707
Mütəvəkkil – 208

## N

Nabopalasar – 74
Nadir xan – 552
Nadir Mirzə – 682
Nadir şah (Nadirqulu xan) – 478, 488-498, 500-512, 514, 517, 521, 526, 535, 627
Nağaradağ – 29
Naxçıvan – 19, 21, 23, 26, 32, 44, 48, 89, 130, 132, 139, 151, 174, 178, 179, 182, 216, 223, 224, 226, 227, 233, 234, 243, 244, 245, 247, 267, 268, 272, 273, 294, 299, 304, 305, 312, 334, 344, 352, 357, 367, 483, 484, 497, 511, 516, 522, 554, 599, 603, 612, 616, 617, 619, 622, 623, 625, 629, 630, 634, 662, 670, 673, 674, 678, 707, 712, 719, 720, 758
Naxçıvan xanlığı – 524, 564
Naxçıvan mahalı – 564
Napoleon – 573, 607
Naramsin (Naram-Suen) – 35, 37, 164
Nardaran – 356, 357, 363
Nasir – 148, 336
Nasir Xosrov – 260
Naumov – 603, 473
Nazimov – 613
Neapol – 329, 330
Neapol krallığı – 573
Nebolsin – 596, 597, 599, 600
Necati tuqal – 344
Neçayev – 476
Nemətulla Bəvvab – 318, 351
Neplyuyev J. – 482, 483
Neron – 106
Nerses Bakur – 136
Nesselrode K.V. – 617, 699
Nestor – 154
Nesvetayev P.D. – 593-595
Nevr – 47
Neyxart A.A. – 159
Neyqard – 664
Nəcəf – 496
Nəcəf bəy Qaraçorlu – 498
Nəcibə bəyim – 596
Nəcməddin Qəzvini – 336, 339
Nəhavənd – 131
Nəhəcir – 27
Nəhr əs-Sakaliba – 138
Nəhr əs-Samur – 189
Nəqqaş Əliqulu – 768
Nəqqaş Qurbanəli – 768
Nəqqaş Mirzə Səfər – 768
Nəqşi-Rüstəm – 117, 118
Nəqşibəndi – 733
Nəmin – 692
Nərimanov N. – 737
Nəsəvi – 295
Nəsib bəy (Sultan) Borçalı – 588, 600
Nəsib Sultan – 631-633
Nəsimi – 203, 292, 300, 301, 342, 346, 347, 461

Nəsirəddin Tusi - 335-337
Nəsirəli xan - 509
Nəsrani - 263
Nəsrəddin şah - 684, 693, 698
Nəsrulla Mirzə - 500-502, 506
Nəzərəli xan Afşar - 675
Nəzərəli xan Şahsevən - 509
Nijni-Novqorod - 688, 709
Nikdiara - 52, 55
Nikitin A. - 741
Nikolay I - 117, 608, 611, 612, 614, 635, 644, 656, 658, 659-662, 664, 665, 675, 677, 702. 704, 706, 707
Nikolski M. - 760
Nil - 129
Ninəva - 74
Nippur - 35
Nisay - 79
Nişapur - 216, 255, 256
Nişat - 556
Nişli Məhəmməd ağa - 483
Niştadt - 472
Nizabat, Niyazabad - 462, 649, 710
Nizaməlmülk - 219
Nizami - 157, 176, 254-258, 262-266, 269, 295,296, 351-353, 518, 613, 719, 737, 748, 750
Nizarilər - 139
Nobel mükafatı - 7
Norman - 162, 213
Novqorod - 699
Novorossiysk - 723
Novoseltsev - A.P. - 191
Novruz - 656
Novu Xodonosor - 168
Nugdi - 654
Nuh - 77
Nuxa - 720, 722
Nullu - 645
Nur-Abad - 32
Nurəli xan - 553
Nurullah - 313
Nuru Yaşar oğlu - 7
Nusal xan - 528, 529
Nuşirəvan - 264
Nüşabə - 265, 353
Nyu-York - 349

## O

Obrezkov A. - 624
Odlar yurdu - 747
Oğlanqala - 26, 89, 268
Oğuz, oğuzlar - 142, 210, 211, 216, 218, 219, 256
Oğuzbulaq - 166
Oğuzkənd - 166
Oğuz xan - 313
Oks - 99
Oksodat - 78
Oksford - 337, 349, 350
Oktavian Avqust - 88, 105
Oqranoviç - 698
Olcaytu xan - 292, 295
Olçaytu Məhəmməd Xudabəndə - 302, 355, 359
Olduvay - 9
Oleari (Olearius) - 461
Olivye - 545
Onoqur (onoquz) - 181, 196
Onoqurlar - 167, 177,182,191, 295
Onullahi S. - 6
Oppi Statian - 86
Orbeliani - 579, 701
Ordubad - 166, 634, 497, 707, 713, 720, 721, 768
Orxistena (Arsax) - 93
Oroys - 95, 102. 103, 104, 109
Orta Asiya - 120, 123, 124, 137, 140, 141, 147, 151, 208, 216, 217, 218, 235, 247, 248, 252, 263, 267, 268, 499, 508, 746, 747
Ortaqapı - 649
Ortokoribantlar - 82
Oruc bəy Bayat - 4, 627
Osetinlər - 220
Osman ibn Əffan - 134
Osman Qara Yuluk - 319, 322, 345
Osman Nedim Tuna - 162
Osman paşa - 398
Osmanlı imperatorluğu - 5, 398, 399, 461, 463, 466, 467, 473, 482, 484, 485, 488, 490, 496, 503, 504, 534, 535, 536, 543, 545, 576, 576, 618, 701, 729, 735
Ost-Hind - 482
Osten-Saken - 617
Osterman - 483, 489
Oteçestvennıe Zapiski - 740, 742
Otluqbeli - 330
Otuz iki soyu - 445. 497 510
Ouzli - 601
Ozeretskovski Y.N. - 742, 754
Ovçular - 23

## Ö

Ögəl Bahaəddin - 13, 193
Ömər Gəncəyi - 255, 256
Ömər ibn Xəttab - 131, 132, 141
Ömər Mirzə - 312
Özbək Abdulla xan - 399
Özbək - 48, 224, 225

## P

Padar - 295, 646
Padarlı Abdulla - 732
Pakor - 107
Palovandov - 663
Panin N.İ. - 537
Pantimatlar - 82
Panziş - 67
Papa IV Sikst - 329
Papay - 47
Papravənd
Parda - 53, 71
Parfiya - 79, 82, 83, 85, 86, 88, 102, 105, 107, 117
Parikanlar - 82
Paris - 335, 337, 340, 344, 607
Parsua - 64
Parsuadan - 60
Parsumaş - 75
Partatua - 44, 63
Partav - 136
Pasarqad - 78
Paskeviç İ.F. - 610, 615, 616, 624
Paşaxatun - 364
Patroki - 85, 102
Pavel I - 573-577, 588 603, 612
Pavsiklər - 81, 82
Paypiçən - 171
Paytakaran - 115
Pekin - 336
Pelasq - 160
Perdikka - 78
Persepol - 78
Pestel P. - 671
Peterburq - 538. 675, 678, 680, 706, 723, 736. 739, 740, 741, 746, 747, 749, 750, 753, 756, 760, 761-763, 766
Petrov P.Y. - 740
Petruşevski İ.P. - 609
Pəhləvi - 263
Pənahabad - 558
Pənahəli Bəy Cavanşir - 504, 510
Pənahəli xan - 514-517, 519-523, 533, 569, 750, 751
Pənahlı - 179
Pənbək (Pambak) - 588, 603. 612

Pəribazar - 593
Pəricə xanım - 551, 552
Pikul, V - 674, 675
Pirallahı - 213, 717
Pir Qalaçası - 29
Pirbudağ - 319, 326, 349
Pireney - 252
Pirəkəşkül - 362
Pirhəsənli - 178
Pirhüseyin - 350
Pirişati - 53, 56
Piriyev; V - 5
Pirsaat - 176, 350, 552
Pişkin - 234
Platon - 338, 755
Plini - 45, 46, 50, 75, 91, 93, 94, 101
Plutarx - 86, 87, 89, 93, 102, 103, 104
Pokrovski M.N. - 613, 616
Polemon - 86, 87
Polibi - 79, 80-83
Polonski Y.P. - 742
Polşa - 329, 461, 467, 479, 577, 658, 734, 746, 754
Polyak - 740, 743
Pompey - 85, 101-104, 109
Pomponi Mela - 45, 46, 75
Ponomaryov - 632
Potto V. - 679, 680
Potyomkin P.S. - 674, 675, 724
Portyagin - 584
Pozen M.J. - 664
Pfeyfer - 684, 685
Prussiya - 573
Ptolomey - 45, 89, 93, 94, 164, 169, 336
Puluadi - 51, 52, 54, 58, 68
Puşkin A.S. - 710, 741, 742, 758
Pürnək - 319
Pyetro Della Valle - 679
Pyotr I - 463, 464, 466-484, 489, 493, 496, 498, 671, 715, 724
Pyotrın vəsiyyəti - 479

## R

Raiş - 189
Rali - 686
Ramana - 355
Rasim Əfəndi - 335, 354
Razin S. - 475, 482
Rekatala - 645
Rent - 52, 53, 54, 55, 613, 649
Repin - 600, 716
Rəbiə - 207
Rəb i Rəşidi - 355
Rəcəb - 652
Rəhim bəy - 540, 758
Rəsultəkin - 217
Rəsulzadə M.Ə. - 463
Rəşidəddin - 178, 193, 287, 335
Rəşt - 469, 474, 480, 489, 490, 591, 593, 688, 693
Rıbakov B.A. - 163
Rimski-Korsakov - 553
Rodos - 330
Roma - 337
Roma imperatorluğu - 46, 77, 84-89, 95, 98, 100-107, 109, 117, 119, 129, 159, 162, 329
Roman Diogen - 217
Rosmosok - 186
Rossi E. - 192
Rey - 271, 282
Rozen Q.K. - 648, 652, 655, 660, 661, 677, 702
Prışçev N. - 607, 608
Rudəki - 356, 720
Rudbarlı İbrahim xan - 525
Rui Qonsales de Klavixo - 302, 307, 308
Rum - 154, 278, 281, 293, 294, 296, 365, 510, 572, 625





Rumlu - 324, 328, 365
Rus - 42, 43, 44, 45, 46, 47, 48, 53, 55, 57, 58, 64, 66, 67, 640, 671, 672, 673, 674, 679, 680, 695, 701, 702, 703, 704, 705, 712
Rusiya - 34-37, 40-43, 45, 46, 50, 51, 52, 56-59, 62, 64, 66, 68, 69, 73, 76-78, 81, 83, 84, 86-88, 94, 95, 99, 307, 330-332, 345 353, 460, 463, 465-472, 476-483, 485, 487, 488, 490, 492, 493 495, 497, 502, 508, 524, 529, 530, 532-542, 545, 546, 548, 550, 551, 554, 559, 560, 566, 568, 572-596 598, 601-625, 627, 631, 723, 724, 725, 727, 728, 730, 732, 735, 739, 745, 746, 747, 750, 751, 754, 756, 757, 759, 760, 762, 766, 768, 771
Rusiya Arxeologiya cəmiyyəti - 740, 753
RusiyaCoğrafiya cəmiyyəti- 754
Rusiya Dövlət Duması - 731
Rusiya Elmlər Akademiyası - 745
Rusiya kənd təsərrüfatı cəmiyyəti - 758
Rusiya İmperator texniki cəmiyyəti - 757
Rusiya Rəssamlıq Akademiyası - 769
Russkiy invalid - 742
Russkoe slovo - 741, 742
Russkiy vestnik - 742
Rutbar - 640
Rutullu Ağa bəy - 656
Rüknəddovlə - 694, 695
Rüstəm - 315
Rüstəm Ağqoyunlu - 325, 326, 364
Rüstəm bəy Afşar - 516
Rüstəm bəy Qaramanlı - 364
Rüstəm Mirzə - 322, 323
Rüstəm padşah - 310
Rzaqulu bəy Cavanşir - 751
Rzaqulu Hidayət - 694
Rzaqulu Mirzə - 499

## S

Saatlı - 563
Sabirlər - 115, 119
Sacilər - 207, 208, 209, 231, 236, 238
Sacoğulları - 146, 208, 209
Sadıqcan - 766
Sadıq xan - 556, 571, 693
Sadıq xan Şəddadi - 542
Sadıq bəy Yadigar - 531
Sadıqülmülk - 689
Sahilan (Şəhilan) - 213
Sak (saka) - 45, 46, 48, 75, 170, 177
Sakandərə - 45
Sakantala - 45
Sakasena - 44, 45
Sakaşen - 182
Sakindel - 57
Sakkeri - 337
Saqartilər - 81, 82
Saqqız - 70
Salarilər - 209, 210, 211, 214, 215, 231, 236
Salahlı - 611
Saleh ibn Nuri - 344
Saliyə bəyim - 351
Salman ibn Rəbiə - 132, 133, 207
Salman Mümtaz - 752

Salmas – 214, 229, 242, 247, 358, 489, 504
Salmas mahalı – 564
Salmanasar I, II, III, – 42, 52, 53, 54, 55, 59
Saltıkov Şedrin M. – 680
Salvarti dağı – 510
Salyan – 296, 462, 463, 478, 481, 482, 485, 487, 497, 509, 525, 526, 529, 534, 552, 557, 711, 717, 721
I Sam Mirzə – 499, 500
II Sam Mirzə – 500-503
Samux – 563
Samur – 324
Samur çay – 655
Sanatruk – 179
Sanqaçal – 362
Sanqibutu – 52, 54, 58, 61, 67
Santa Mariya de Fiore – 355
Sankt-Peterburq – 352, 353, 463, 474, 477, 481, 485, 487, 488, 611, 613, 672, 681
Saraqur – 47
Saray (Sara) ada – 594
Saray Xatun – 320, 328
I Sarqon – 35, 39, 70
II Sarqon – 42, 58, 59, 60, 62, 66, 67, 68, 71, 72
Sarduri – 59, 60, 61, 68
Sarı Aslan (Həsən xan ) – 612
Sarıqamış – 619
Sarı Mustafa paşa – 486
Sarıcalı Dərgahqulu bəy – 522
Sarıtəpə – 29, 30, 76
Sarkıne – 168
Sarlaqab – 35
Sasani İmperatorluğu – 114, 116, 117, 118, 119, 120,121, 122, 123, 125, 128, 130, 132, 133, 138, 141, 143, 169, 178, 180, 181, 205, 218, 269
Sasanlı – 178, 205
Sasiaşu – 56
Satey – 118
Satuni – 37
Savalan – 364, 670
Savə – 336
Savə Şahsevənləri – 313
Selena – 109
Selevkilər – 79, 82, 83, 85
Semiramida – 56
Senkovski O. – 678, 740, 754
Semnan – 313
Serbiya – 327
Serebrov, Culfinski – 715
Sergeyev – 643, 644, 645
Sevastopol – 593
Seyid Yəhya Bakuvi – 342
Seyid Abbas – 509
Seyid Battal – 150, 154
Seyid İshaq – 342
Seyid Əli Məhəmməd (Bab) – 696, 747, 748
Seyid Kazım – 696
Seyidlər – 497
Seyid Yəhya Xəlvəti Şirvani – 339
Seyid Nizaməddin Şirazi – 339
Seyid Kərbala Məhəmməd – 613
Seyid Əzim Şirvani – 733, 734
Seyid Nigar – 733
Seyid - Məhəmməd – Riza – 746
Seyid Şərəf Xəlil Əfəndi – 744
Seyid Zülfüqar Şirvani – 737
Sə'd – 189
Sə'dari mahalı – 526
Sə'di – 463, 719, 720, 738
Sə'dlu (Sə'd-Saat Çuxuru) – 313, 318
Sədrəddin – 335



Səkinə xanım – 762
Səhənd – 67, 87
Səhl ibn Sunbat – 153, 154
Səid əl-Əzdi – 254
Səlcuqlar – 212, 216, 217, 218, 219, 220, 221, 222, 224, 223, 231, 232, 242, 243, 245, 263, 270
Səlcuq şah Qırxlı – 498
Səlcuqlu – 205
Səlim xan (Şəki) – 549, 550, 553
Səlim xan – 463, 571, 590, 591, 596, 599, 600, 631
Səlim – 564
Səlmas – 214, 229, 242, 247
Səmani – 147
Səməndər – 229, 248
Səmərqənd – 229, 267, 284, 304, 307, 336, 348
Səmərra – 148, 154
Sənariyə – 206, 208
Səncər vilayəti – 264
Sərab – 157, 243, 247, 279, 281, 282, 571
Sərab xanlığı – 509, 512
Sərdar Əliquli – 355
Sərdarabad – 616
Sərdərə – 676
Sərdər bəy Qırxlı – 498
Sərdəri – 611
Səripul – 37
Səririər – 208, 215, 248
Səfərli bəy – 555
Səfəvi (lər) – 5, 319, 320, 323, 324, 326, 364, 367
Səfəvi – 26, 205, 464, 465, 466, 468, 470, 473, 480, 481, 490, 500, 501
Səfəvi dövləti – 508
Səfi bəy – 500
Səfiəddin İshaq – 323
Səfiəddin Əbdülmömin Urməvi – 349, 350
Səfidrud – 228, 315
Səltənət bəyim – 596
Səttar – 766
Səudi Ərəbistan – 743
Sibir – 632, 656
Sidur – 37
Sidi Əli Orlat – 305, 306
Sidi Əhməd – 306
Simbirsk – 610, 664, 727
Simens – 717
Sinin – 73
Sinqala – 682
Sipəhbud – 210
Sippur – 37
Siracəddin Ürməvi – 339
Sisakan – 116
Silvlər – 115
Sivas – 345
Sınıxqala – 361
Sır Dərya – 216, 217
Sırt (mahal) – 562
Skandinaviya – 212, 213
Skif (iskit) – 43, 44, 45, 46, 47, 48, 74
Slavyan – 28
Suqovuşan – 484
Sodey – 93
Solovyov S.M. – 472
Soltan Əhməd – 497, 498
Sotis – 129
Sovucbulaq – 498, 682
Spaktion – 106
Stefanoviç – 686
Stefan Sünikli – 116
Stepanova N.S. – 722
Strjenitski V. – 743
Stivens – 696
Strabon – 44, 45, 47, 48, 77, 79,

80, 84, 89, 93, 94, 95, 96, 99, 100, 109
Strekalov – 644, 701
Su – 36, 37, 38, 41, 51
Subi – 52, 61
Subir (Subar) – 38
Suqovuşan – 484
Sufi Xəlil – 322
Sulduz – 18
Sultan Əhməd – 314, 315, 316
Sultan Əhməd Orlat – 305
Sultan II Əhməd – 313
Sultan Əhməd xan – 509
Sultanbud – 23
Sultan Əli – 326
Sultaniyyə – 284, 308, 344, 355, 369
Sultan Mehmet Fateh – 311, 319
Sultan Əbdülməcid – 744
Sultan I Mahmud – 503
Sultan IV Murad – 496
Sultan İldırım Bayezid – 306, 314
Sultan Üveys – 299, 313
Sultan Pirbudağ – 315, 316
Sultan Yaqub – 322, 323. 325
Sultan Şahrux – 317
Sulak – 167
Sultan Səlim – 463
Sumbatzadə Ə.S. – 157, 385
Sumer Faruk – 334, 344
Surxanqarı – 568
Surxay xan – 466, 471, 485, 490, 491, 499, 500, 501 502, 503, 572
Suriya – 28, 59, 338
Suriyalı Mixail – 148
Surikaş – 42, 52
Suvarlar – 167, 191
Suvar bulqarları – 181, 182
Suz – 78
Süheyl bin Sumbat – 154, 155
Sünik – 115, 116, 133
Sürməli – 563
Süruş – 738
Süleyman bəy Bicanoğlu – 322, 325, 331
Süleyman Qanuni – 463
Süleyman – 144, 264, 512
II Süleyman – 512
Süleyman Hacılı – 319

## Ş

Şabran – 119, 127, 132, 207, 222, 228, 245, 247, 299, 344, 460, 466, 499, 501, 507, 529, 562, 650, 707
Şadiabad – 259
Şafirov – 483
Şah I Abbas – 4, 490, 494, 578, 679
Şah III Abbas – 399
Şahbaz xan – 512, 514, 515, 517
Şahbulaq qalası – 522, 523, 591, 601
Şahdağ – 499
Şahi adası – 152
Şah III İsmayıl – 514
Şah İsmayıl Xətai – 203, 205, 324, 347, 367, 488, 500. 512. 678
Şah Ne'mətulla Vəli – 339
Şahnəzərov Y. – 723
Şahruh – 512
Şahsevənlər – 465, 468, 487, 497, 509, 670
Şahsultan Hüseyn – 464, 465, 466, 468, 473, 480, 481, 490, 503, 467
Şah Təhmasib – 627. 678
Şah II Təhmasib – 463, 476, 480, 483, 485, 488, 489. 490, 494
Şahtəpə – 19



II Şahverdi xan Ziyadoğlu – 510
Şakaşen – 133
Şaki – 462Şakir – 566
Şamaxı (xanlığı) – 96, 97, 100, 101, 107, 111, 139, 206, 207, 215, 221, 222, 243, 246, 247 253, 254, 266, 267, 272, 274, 278, 281, 296, 299, 303, 304, 305, 307, 308 320, 325, 331, 460, 461, 466, 467, 509, 519, 526-528, 722, 743, 761, 763-765, 767-700
Şam – 234, 235, 282, 296, 312, 317, 324, 345, 355
Şamaş – 73
Şamdan – 252
Şamlu – 365, 398
Şamxal Dişsiz Məhəmməd – 529
Şamxal Murtuzəli xan – 529
Şamşiaddad – 32, 40, 69, 164
Şapur I – 117, 118
Şarvan – 127
Şarkalişarri – 35
Şaray – 165
Şarmua F.B – 763
Şatiraraqa – 57
Şavur – 218
Şekspir – 738
Şergilov – 651
Şeş para – 462, 562
Şeşpər – 649, 707
Şevlen – 489
Şeybanilər – 206, 207
Şeybani xan – 5
Şeyx Cüneyd – 323, 324
Şeyx Dursun Padar – 359
Şeyx Əbu Abdulla Bakui – 737
Şeyx Əli xan – 462
Şeyx Əxi Qəssab – 312
Şeyx Əli xan – 462, 543, 550, 552, 553, 558, 571, 572, 594, 598, 600, 601 626, 631
Şeyx Heydər – 321, 364
Şeyx İbrahim Şeyxşah – 310
Şeyx İbrahim Qüdsi – 752
Şeyx İzəddin Həsənoğlu – 270
Şeyx Şaban – 643, 644
Şeyx Sə'di – 679
Şeyx Sədrəddin – 323, 348
Şeyx Səfi- 690
Şeyx Səfiəddin İshaq – 689, 680
Şeyx Şamil – 643, 652, 653, 654 655, 665, 748, 749
Şəbüstəri (Sədəddin Şeyx Mahmud) – 339, 340, 342
Şəddadilər – 211, 212, 215, 217, 243, 253, 267, 268
Şəki – 45, 109, 111, 114, 132, 137, 153, 206, 228, 229, 233, 237, 267, 268, 305, 306, 509, 517, 518, 522, 559, 564, 565, 568, 570, 571, 575, 576, 590, 592, 598, 599, 600, 601, 604, 611, 612, 614, 625, 626, 627, 707, 708, 709, 711, 713, 716, 717, 718
Şəkibəyli – 676
Şəkixanovlar – 569
Şəqaqi – 693
Şəmsəddin – 455, 461, 581, 583, 584, 630, 633, 636, 639, 663, 665, 666, 667, 707
Şəmsəddin Əflaki – 340
Şəmsəddin Lahici – 316, 364
Şəmsəddin Məhəmməd – 345
Şəmsəddin – 728
Şəmsəddin Eldəniz – 221, 222, 223, 224, 225, 232-242

Şəmsəddin Tuğrai – 272, 273, 275
Şəmsəddinli mahalı – 510, 531, 532
Şəmsəddin Xətib Xalxal – 342
Şəms Təbrizi – 340, 341
Şəmkir – 23, 127, 132, 133, 139, 147, 211, 224, 228, 247, 267, 276, 465, 557, 563, 582, 6124, 615
Şəmkirli Aşiq Hüseyn – 732
Şənb'i Qazan – 315
Şəhabəddin Əli Yəzdi – 305, 308, 350
Şərafəddin Harun – 349
Şərəfxan Bidlisi – 316, 321
Şərifəli Cəmyad oğlu – 656
Şərur – 563, 619, 669
Şıxlı – 728
Şıxmahmud – 712
Şihabəddin Sührəvərdi – 148
Şıxəli xan Zənd – 515
Şilan – 612
Şimr ibn əl Qəttaf – 189
Şimşad (Şəmkür) – 189
Şipov – 467, 474
Şirəli bəy – 655
Şir Qazı xan Xivəli – 468
Şiraz – 508, 516, 523, 533, 542, 696
Şirin bəy – 655
Şirvan – 6, 27, 29, 30, 33, 35-40, 47, 48, 51, 55, 58, 60, 61, 62, 132, 133, 139, 145, 146, 147, 151, 179, 201, 206, 207, 215, 218, 220, 221, 222, 224, 225, 228, 229, 232, 240, 246, 247, 262, 271, 274, 275, 277, 278, 304, 312, 313, 316, 327, 352, 364, 509, 510, 517, 518, 521, 522, 526, 528, 529, 531, 543, 546, 550, 555, 565, 566, 568, 570, 571, 572, 576, 676 688, 705, 706, 707, 708, 710, 711, 714, 727, 730, 734, 745, 753, 759, 770
Şirvan bəylərbəyliyi – 465
Şirvan Dərbəndi – 274
Şirvanşah I Fəriburz – 218, 219
Şirvanşahlar dövləti – 206-213, 215, 217, 218
Şirvanşahlar – 253, 257, 258, 261
Şirvanşah İbrahim – 304, 306, 312, 314, 315, 326, 328
Şirvanşah Sarayı – 770
Şirvanşah Mənüçöhr – 261
Şirvanşah I Gerşasp – 277
Şişqüzey – 10
Şiz – 233
Şomutəpə – 19
Şopen İ. – 157, 720, 776
Şortəpə – 23
Şötland – 171
Şuandahul – 59
Şulgi – 37
Şumer – 35-37
Şurakel (Şirəküvəz0 – 365, 603, 612
Şurdira – 64, 71
Şuşa – 514, 523, 524, 542, 547, 548, 549, 555, 556, 558, 559, 569, 720, 721, 722, 723, 750, 761, 763, 765, 766, 767, 768, 769, 770, 771
Şuşa qalası – 515, 523, 546, 554, 555, 569
Şuşa mağaraları – 15
Şuttar – 341
Şukrullah Şirvani – 343
Şükrulla Əhməd oğlu – 349
Şükürlü K. – 6



## T

Tabanlu – 319
Tabasaran – 462, 478, 498, 503, 575, 576, 643
Taceddin Əhmədi – 344, 361
Tadeuş Lado Zablotski – 743, 745
Tağlar – 9, 12, 13, 15
Tahirə – 697
Takayşvili S.E. – 168
Taqanroq – 467
Tal – 644
Tala – 491
Talı – 498, 578
Talış – 30, 35, 45, 46, 47, 57, 58, 60, 62, 69, 78, 89, 229, 324, 398, 571, 576, 591, 599, 601, 604, 608, 610, 613, 615, 619, 620
Talış xanlığı – 34, 454, 504, 533, 542, 546, 557, 562, 564
Talış kəndi – 521
Talış mahalı – 521, 563
Tarxanov – 639
Tarku – 484, 572, 575, 576, 598, 599
Tarqitay – 47
Tarqu – 53, 61
Tatalar – 501
Tataristan – 664
Tatlar – 119, 142, 156, 461
Tatsit – 88, 106
Tehran – 75, 84, 86, 93, 98, 216, 508, 514, 541, 542, 550, 556, 670, 727, 732
Telavi – 514
Tel əl-Amarna – 164
Telusina – 59
Temuçin – 287
Temur – 292, 302-306, 308, 309, 312, 313, 314, 317, 320, 326, 345
Teniçev E.Q. – 203
Tenqri – 161, 164, 192
Teodora (Dəspinə Xatun) – 325, 327, 328
Teofil – 126, 148, 153
Terek – 167, 345, 467, 534, 612, 724
Teurla – 51
Teymuraz – 502, 517, 518, 539
Teymur bəy – 628
Teymurləng – 586
Təbəri – 77, 120, 126, 131, 149, 150, 151, 153, 154, 189
Təbəristan – 119, 151, 224, 248
Təbərsaran – 208
Təbəsərənli Rüstəm – 528
Təbriz – 18, 25, 42, 53, 87, 117, 118, 140, 145, 150, 152, 206, 210, 211, 217, 218, 224, 226-229, 233, 234, 239, 243, 245, 248, 263-256, 258, 259, 261-267, 271, 272, 273, 275, 278, 284, 285, 296, 299, 305, 308, 309, 312, 314-320, 322, 333, 336, 338, 340, 344, 346, 350, 351, 352, 354, 461, 464, 465, 469, 484, 485, 487-490, 497, 499, 501, 502, 511, 512, 514-519, 522, 558, 559, 567, 612, 616, 617, 675-679, 682, 684, 685, 686, 688, 692, 693, 697, 698, 714, 761, 762, 770
Təbriz xanlığı – 512, 524, 542, 563
Təbrizli Məhəmməd Hüseyn bin Xələf – 77

Təhmasib Mirzə - 398
Təxli Himayə - 731
Təkəlü - 324, 398
Təmirxan Şura - 737, 761
Təpəyatağı - 23
Tərcan - 330
Tərgəvər - 564
Tərxan - 151
Tərnəküt - 520
Tərsus - 154
Tərşir - 398
Tərtər - 177, 191, 705
Tiberi - 105
Tiflis - 209, 211, 212, 220, 224, 234, 238, 239, 247, 492, 503, 510, 529, 538, 540, 546, 548, 550, 566, 575, 577, 579, 581, 582, 588, 591, 592, 594, 597, 602, 612, 614, 633, 644, 645, 649, 662, 663, 665, 676, 677, 678, 680, 681, 694, 700, 701, 717, 721-725, 733, 735, 736, 742, 743, 744, 750, 751, 759, 760, 761, 762, 765, 766, 767
Tiflis əxbari - 759, 760
Tifliskiye vedomosti - 745, 759
Tixanovski - 632
Tixvinski S. - 161
Tiqlatpalasar I - 41, 58
Tiqran II - 85, 102
Tiqranakert - 85
Tir - 51, 237, 652
Tirikan - 36
Tirk - 46
Tir Livi - 102
Toğrul - 216, 217, 218
Toğrul II - 223
Toğrul III - 224, 225, 226
Toxtamış - 303, 305, 306, 345
Toqanoğlu Əhməd - 208
Tolstoy S.N. - 741
Tomas Mor - 266
Tomaşek - 159
Tomris - 45, 75
Tomazo Kampanella- 266
Torçubaşov M.C. - 738, 739, 740, 743, 749, 753, 763
Tormasov - 599
Torpaqqala - 102, 107
Toskanelli - 337
Töyrətəpə - 19, 29
Trabzon - 308, 325.ö 327, 328, 329, 684, 686
Transqafqaz - 123, 130, 135-138, 165, 166, 167, 168, 169, 170, 173, 176-181, 185, 187, 189, 202, 203, 324, 468, 479, 480, 483, 484, 573, 575, 576, 587, 592, 601, 607-610, 612, 614, 615, 618, 640, 641, 642, 657, 658, 661, 662, 663, 708, 709, 712, 716, 723, 750
Triparadis - 79
Troya - 152
Tuba - 131
Tubban - 189
Tubu bəyim - 596, 598
Tuğ - 521
Tuğ qalası - 524
Tuğra xanım - 726
Tuişdu - 62
Tukulti - Ninurta - 4
Tuqdamme - 45
Tula - 688
Turan - 496
Tur Əli - 319, 327
Turfan - 194



Turhacı - 676
Tus - 336
Tuti Bikə - 529
Tutlar - 179
Tutsuvar - 182
Tülənqoyun - 611
Türk - 28, 46, 47, 48, 156, 157, 160, 162, 164, 166, 167, 172, 177-179, 189, 190, 192-196, 199, 200, 201, 202, 723, 725, 747, 763
Türk dili - 720, 723, 729, 732, 741
Türk dilli tayfalar - 115, 125, 126, 137, 146, 208-218, 220, 253, 269, 270
Türkiyə - 304, 308, 311, 314, 322, 328, 332, 464, 467, 479, 480, 482-488, 489, 493, 495, 503, 505, 510, 524, 529, 532-436, 541, 545, 554, 559, 560, 571, 572, 573, 576, 577, 585, 599, 600, 601, 602, 607, 608, 610, 612, 618, 619, 636, 640, 642, 666, 674, 676, 684, 690, 694, 696, 701, 703, 732, 733, 735, 743, 744, 746, 750, 754, 762, 766
Türklər, Azərbaycan türkləri - bölümlər və bütün mətn boyunca.
Türkman - 48, 398
Türkmənçay - 617, 618, 624, 634, 646, 657 669, 672, 675, 676, 677, 678, 680, 682, 687, 689 693. 712, 768
Türküstan - 468
Türkmənlər - 488
Türkmənistan - 170, 174, 434
Tver - 472

## U

Ualli - 64, 65
Uaşdirikka - 61
Uba Cərrah - 364
Ucan - 243
Ucan duzu - 515
Ucarud - 487
Uçax - 626
Udaki - 53, 55
Udinlər - 156
Ugede - 287
Uğurlu ağa - 580
Uğurlu xan - 465, 472, 498, 600, 612, 635
Uğurlu Məhəmməd - 311, 322, 329, 330
Uişdiş - 42, 52, 59, 61, 67
Uqişti - 57
Ulxu - 61, 67
Ullusunu - 59, 60, 65, 67, 72
Ulubəg - 319, 336
Ur - 36, 38, 39
Ural - 158, 176
Urartu - 38, 39, 41, 42, 43, 53, 54-62, 65, 66, 68, 69, 71, 74
Uraş - 56
Urdunanna - 36, 38
Urmeyate (Atmait) - 63
Urmiya (Urmu) - 12, 20, 25, 26, 31, 34, 35, 37, 38, 39, 42, 43, 51, 53, 54, 55, 57, 61, 62, 75, 80, 83, 88, 131, 152, 206, 231, 234, 235, 236, 237, 240, 244, 252, 267, 286, 349, 489, 509, 514, 515, 538, 559, 617, 623, 670, 682-686 690, 692, 695, 696
Urmiya xanlığı - 512, 515, 516, 532, 542, 575, 664

Urmiya qalası – 515
Urnayr – 116, 118
Uruk – 36
Usta Abdulla – 645
Usta Bəndər – 275
Usta Qənbər – 768
Ustaclu – 324, 365, 398
Ustaclu Sultan – 498
Uşaqan – 616
Uşkaya – 42. 61, 62, 68, 71
Uşulu – 62
Uşun Qoca – 171
Utı (Otena) – 50, 81, 82, 93, 101, 115, 116, 133
Utuhengal – 36
Uyqur – 50, 76
Uyrat – 295, 296
Uzbia (Ziviyə) – 63
Uzun Həsən – 307, 311, 319, 320, 321, 322, 325, 327, 328, 329, 330, 331, 334, 344, 361

## Ü

Übeyd – 20, 22
Übeyd İbn Şəriyyə əl Cürhumi – 190
Üç Ok – 193
Ügah – 558
Ürk – 165
Üsmi Əhməd xan – 499, 503, 504
Üveys – 299
Üzərliktəpə – 26, 27, 28, 72

## V

Vaçaqan I – 118
Vaçaqan II – 118
Vaçaqan III – 116, 117, 118, 128, 123, 125, 127
Vaçe I – 118
Vaçe II – 112, 116, 121, 122,126
Vahan Momikanyan – 178
Vaharşak – 165
Vakid ibn Amar ət-Tamani – 154
Vaxtanq Hüseynqulu xan – 469, 472, 484, 577
Vaqif M.P. – 546, 547, 555, 556, 563, 566, 567
Valaxiya – 337
Valarş – 122
Valerian – 117
Valid II – 138
Vallis – 337
Vallone – 9
Van – 216, 314, 319, 325, 486
Varsaqan – 54
Varsan – 137, 144, 228, 234, 239, 247
Varşava – 582, 651, 674, 705, 734, 762
Vartaşen – 716
Varyaqlar – 213
Vasilçikov S.V. – 642, 649
Vasil ibn Ata – 339
Vasili Papin – 331
Vasif ət-Türki – 208
Vaxtanq Qorqasal – 178
Vatikan – 192
Vatson – 85, 684, 694
Vazeh M.Ş. – 732, 733, 738, 743 744, 761
Vedibasar – 563
Velgic – 620, 646
Veltman M. – 744
Velyaminov – 634
Venesiya – 307, 328, 330, 331, 356, 460, 461
Ventris M. – 163
Vereşçaqin – 768
Verona – 353
Vehsudan – 210, 211, 217



Vəlibəyov Səfərəli bəy – 4
Vəli bəy Şahnamaz oğlu – 656
Vənənd – 165, 497
Vərəndə – 495, 520
Vəssaf – 295, 359
Vəzirov M.Ə. – 723, 741
Vəzirov N. – 737
Vxndr Bulqar Vənd – 165
Vidadi M.V. – 556, 566
Viktoriya Albert – 352
Vilyənku – 355
Vinfild – 340
Vitte – 717
Vişeslavçev P. – 703
Vladiqafqaz – 598
Vologes – 107
Volqa – 176, 186, 211, 212, 235, 246-248, 275, 331
Volınski A. – 464, 465, 468, 469, 470
Vorontsov M.S. – 665, 678, 746, 750, 762
Voronin – 718
Vostrikov – 765
Voynoviç – 541
Vyana – 620

## Y

Yağlavənd – 166
Yapəli – 652, 654, 655, 656
Yarlağaş – 35
Yarlaqab – 36
Yardımlı – 170
Yaloylu təpə – 48
Yakubovski A.Y. – 192
Yasan – 653
Yasi (Türküstan) – 353
Yasrib (Mədinə) – 130
Yan Streys – 464, 465
Yanzu (t) – 53, 63
Yankovski – 640
Yaxın Şərq – 618, 685, 726, 735, 737, 738, 754
Yaquti – 217
Yaqut əl Həməvi – 81, 110, 147, 230, 243, 245, 294
Yaqub bəy – 320
Yaqub Mirzə – 326
Yaniq təpə – 21, 23, 24, 26, 81
Yazman – 208
Yazıcıoğlu Əli – 196
Yeddibulaq – 669
Yeddi bulaq keçidi – 603
Yeqişe – 120, 126
I Yekaterina – 481
II Yekaterina – 462, 463, 529, 530, 536, 537, 539, 550, 551, 553, 674
Yegən Məhəmməd paşa – 496
Yelisey – 116
Yelizaveta-Yelizavetpol – 510, 586, 636, 637, 638, 640, 641, 674, 707 708, 709
Yemelyan Skvortsov – 537
Yeni Şamaxı – 635
Yeni Zaqatala – 644, 645
Yeremeyev D.Y. – 168
Yezid əs-Sülami – 138
Yezidlər – 206
Yermolov A.P. – 608, 609, 613, 634, 635, 638, 639, 665, 705, 769
Yezidiyyə – 215, 302
Yezid ibn Əbdülməlik – 137
Yerusəlim – 168
Yevstafi – 80
Yəhya bəy Dilqəm – 732
Yəqubi – 189, 212
Yəmən – 130, 189, 190, 210, 234

Yəzdigərd-II – 119, 120, 121
Yəzdigərd III – 133
Yuxarıbaş – 652
Yuxarı Qarabağ – 115
Yunan – 133, 135, 136, 265
Yunanıstan – 608
Yusuf Təbrizi – 352
Yusuf ibn Əbu Sac – 209
Yusuf ibn Tahir – 255, 256
Yusuf Mirzə – 330
Yusuf Ziyəddin Şirvani – 245

Z

Zahidə xatun – 225
Zakare Mherqrdzeli – 225
Zaqafqaziya – 99, 657, 661, 663, 693, 700, 703, 720, 745
Zaqatala – 45, 229, 643, 655, 721
Zaqros – 17, 34, 39, 63, 67, 90
Zalbəy – 513
Zavileyski – 641, 659, 672, 700, 701
Zamri – 52, 72
Zamua – 38, 39, 42, 52, 53, 54, 55, 67, 68, 69, 72
Zaporojye – 467
Zarembski – 655
Zavalişin – 593, 594, 598
Zeynal – 651
Zeynal Mirzə – 330
Zeynalabdin Şirvani – 565, 737
Zeynəddin ibn Həmdullah Qəzvini – 5, 174, 296
Zeynəddin Şirvavni – 351
Zeys – 109
Zəylik – 717, 757
Zəyəm – 465, 592, 615
Zəyəmçay – 121
Zəkəriyyə əl Qəzvini – 277, 296, 343, 344
Zəki xan Zənd – 533, 541
Zəki Vəlidi Toqan – 285, 296, 343
Zənbilə (Duvannı) – 213
Zəncan – 97, 98, 209, 227, 233, 247, 478, 682, 684, 695, 706
Zənd – 513, 515
Zəngəzur – 153, 170, 357, 563, 597, 765
Zəngibasar – 563
Zəngilan – 166
Zəlbünnisa bəyim – 571
Zərarənd – 242
Zərdabi – 610
Zərdüşt – 81, 85, 90, 747
Zərgərli – 646
Zərrintac – 697
Zığ – 712
Zibatra – 153
Ziyadoğlu Qacar Soyu (Ziyadoğulları) – 495
Ziyəddin oymağı – 510
Ziyadlı – 179
Ziyadgunəşli – 510
Zirektu – 52, 58, 59, 60, 61, 66
Zimbulatov – 481
Zirta (İzirtu) – 55, 63, 65, 71
Zirdakka – 67, 71
Ziviyə – 51, 70, 71, 72
Zober – 105
Zohab – 37, 64, 80
Zubov P. – 703
Zuldərə – 324, 328, 365
Zuvand – 620



## XRONOLOJİ GÖSTƏRİCİ*

| | |
|---|---|
| 120-30-cu minilliklər | – İbtidai icma quruluşunun formalaşması |
| 1,5 min il – 730 min il əvvəl | – Quruçay mədəniyyəti dövrü |
| 700 min il – 200 min il əvvəl | – Aşel dövrü |
| 700 min il – 500 min il əvvəl | – Erkən aşel dövrü |
| 400 min il – 100 min il əvvəl | – Orta aşel dövrü |
| 120 min il – 90 min il əvvəl | – Erkən mustye dövrü |
| 400 min il əvvəl | – Qafqaz və qonşu regionlarda ən qədim insanın – Azıxantropun (Azıx Adamı) yaşadığı dövr |
| 700 min il əvvəl | – Azıx mağarasında tapılan ən qədim ocağın yaşı |
| 100-40 min il əvvəl | – Orta paleolit və ya mustye dövrü |
| 40-14 min il əvvəl | – Üst paleolit dövrü |
| m.ö. XII-VIII minillər | – Mezolit dövrü |
| m.ö. VII-VI minillər | – Neolit dövrü |
| m.ö. V-IV minillər | – Eneolit dövrü |
| m.ö. IV minilin sonu – II minilliyin sonu | – Tunc dövrü |
| m.ö. IV minilin sonu – III minillik | – Erkən tunc dövrü. Kür-Araz mədəniyyəti |
| m.ö. III minilin II yarısı | – Əmlak və sosial bərabərsizliyin güclənməsi. Birinci böyük ictimai əmək bölgüsü |
| m.ö. III minilin sonu II minilin I yarısı | – Orta tunc dövrü. İkinci böyük ictimai əmək bölgüsü |
| m.ö. VI min. – I min. əvvəli | – Naxçıvan mədəniyyəti |
| m.ö. XIV-XI yüzillər | – Son tunc – erkən dəmir dövrü |
| m.ö. XIV-VIII yüzillər | – Xocalı-Gədəbəy mədəniyyəti |
| m.ö. XIV-VII yüzillər | – Talış-Muğan mədəniyyəti |
| m.ö. VII-V yüzillər | – İnkişaf etmiş dəmir dövrü |
| m.ö. III minilin II yarısı | – Azərbaycanda ilkin tayfa birləşmələri |
| m.ö. XXIV-XXIII yüzillər | – Kuti tayfa birləşməsinin yaşadığı dövr |
| m.ö. III min. II yarısı | – Kuti və zula dövlətlərinin yaranması |
| m.ö. 2316-2261-ci illər | – Akkad çarı Sarqonun hakimiyyəti |
| m.ö. 2236-2201-ci illər | – Akkad çarı Naram-Suenin hakimiyyəti |
| m.ö. 2225-2205-ci illər | – Kuti çarı Enridavazirin hakimiyyəti |

* T. e. n. *Boran Əzizov* tərtib etmişdir.

| | |
|---|---|
| m.ö. XXIII yüzilin sonu | – Enridavazirin başçılığı ilə kutilərin İkiçayarasında Akkad çarının qoşunlarını məğlub etməsi. İkiçayarasında kuti ağalığının başlanması |
| m.ö. 2204-2197-ci illər | – Kuti çarı İmtanın hakimiyyəti |
| m.ö. 2197-2192-ci illər | – Kuti çarı İnqeşusunin hakimiyyəti |
| m.ö. 2191-2185-ci illər | – Kuti Sarlaqabın hakimiyyəti |
| m.ö. 2184-2178-ci illər | – Kuti çarı Yarlaqaşın hakimiyyəti |
| m.ö. 2178-2173-cü illər | – Kuti çarı Elulumişin hakimiyyəti |
| m.ö. 2104-cü il | – İkiçayarasında Kuti hakimiyyətinin süqutu |
| m.ö. XXIII yüzil | – Lullu tayfaları haqqında ilkin məlumat |
| m.ö. XXIII yüzilin sonu | – Su tayfaları haqqında ilkin məlumat |
| m.ö. XXIV yüzil | – Turukki tayfaları haqqında ilkin məlumat |
| m.ö. 1792-1750-ci illər | – Babilistan hökmdarı Hammurapinin hakimiyyəti |
| m.ö. 1755-ci il | – Subarti-Kakmum-Turukkum hərbi ittifaqının yaranması |
| m.ö. 1307-1275-ci illər | – Asur hökmdarı I Adad-Nirarinin hakimiyyəti |
| m.ö. 911-891-ci illər | – Asur hökmdarı II Adadnerarinin hakimiyyəti |
| m.ö. 883-859-cu illər | – Asur çarı Aşşurnasirapalın hakimiyyəti |
| m.ö. 823-811-ci illər | – Asur çayı Şamsi-Adadin hakimiyyəti |
| m.ö. X yüzilin sonu – IX yüzilin I yarısı | – Urmu gölü yaxınlığında xırda dövlətlər |
| m.ö. 843-cü il | – Asur qaynaqlarında ilk dəfə Manna adı çəkilir |
| m.ö. IX yüzilin ortaları | – Manna dövlətinin yaranması |
| m.ö. 829-cu il | – Mannanın assurlar tərəfindən qarət edilməsi |
| m.ö. 810-783-cü illər | – Asur çarı III Adadnerarinin hakimiyyəti |
| m.ö. 779-773-cü illər | – Urartuluların hər il Mannaya soxulması |
| m.ö. 740-719-cü illər | – Manna hökmdarı İranzunun hakimiyyəti |
| m.ö. 719-cu il | – Mannada İranziya qarşı üsyan |
| m.ö. 718-716-cı illər | – Manna hökmdarı Azanın hakimiyyəti |
| m.ö. 716-680-ci illər | – Manna hökmdarı Ullusununun hakimiyyəti |
| m.ö. 715-ci il | – II Sarqonun Mannaya böyük yürüşü |



| | |
|---|---|
| m.ö. VII-VI yüzillər | – Mannada sənətin yüksəliş dövrü |
| m.ö. 675-650-ci illər | – Manna hökmdarı Ahşerenin hakimiyyəti |
| m.ö. 674-cü il | – Manna, iskit və midiyalıların Assuriyaya qarşı ittifaqı |
| m.ö. 669-627-ci illər | – Asur çarı Aşşurbanipalın hakimiyyəti |
| m.ö. 650-ci il | – Aşşurbanipalın Manna qoşununu məğlub etməsi |
| m.ö. 650-630-cu illər | – Manna hökmdarı Uallinin hakimiyyəti |
| m.ö. VI yüzilin əvvəlləri | – Mannanın çökməsi |
| m.ö. 673-cü il | – Assuriya ağalığına son qoyulması ilə Midiya dövlətinin yaranması |
| m.ö. 653-625-ci illər | – Midiya iskitlərin hakimiyyəti altında |
| m.ö. 624-584-cü illər | – Midiya hökmdarı Klaksarın hakimiyyəti |
| m.ö. 605-ci il | – Assuriyanın çökməsi |
| m.ö. 584-550-ci illər | – Midiya hökmdarı Astiaqın hakimiyyəti |
| m.ö. 550-330-cu illər | – Əhəmənilər hakimiyyəti |
| m.ö. 550-ci il | – Midiyanın çökməsi |
| m.ö. 530-cu il | – II Kuruşun (Kir) quzey Azərbaycana massaqetlərin üzərinə yürüşü və məğlub olması |
| m.ö. 336-323-cü illər | – Makedoniyalı İskəndərin hakimiyyəti |
| m.ö. 334-326-cı illər | – Makedoniyalı İskəndərin Şərqə yürüşü |
| m.ö. 331-ci il 1 oktyabr | – Qavqamel döyüşü |
| m.ö. 330-cu il | – Əhəməni imperatorluğunun çökməsi |
| m.ö. IV yüzil | – Albanlar haqqında qaynaqlarda ilk məlumat |
| m.ö. IV yüzilin sonu III yüzilin əvvəlləri | – Alban dövlətinin yaranması |
| m.ö. 328-ci il | – Atropatın yenidən Mada satrapı vəzifəsinə qaytarılması |
| m.ö. 328-321-ci illər | – Atropatena və ya «Atropat Midiyası» dövlətinin yaranması |
| m.ö. 321-281-ci illər | – Selevkilər sülaləsinin hakimiyyəti |
| m.ö. 220-ci il | – Azərbaycanın selevkilərdən asılılığı |
| m.ö. 69-65-ci illər | – Lukull və Pompeyin başçılığı ilə romalıların şərqə yürüşü |
| m.ö. 53-cü il | – Romalıların parfiyalılar tərəfindən məğlub edilməsi |
| I-II yüzillər | – Xristianlığın meydana gəlməsi |
| I-III yüzillər | – Roma-Parfiya qarşıdurması |

| | |
|---|---|
| 72-74-cü illər | – Alanların Atropaten və Alban torpaqlarına basqınları |
| 135 və ya 136-cı il | – Alanların Alban torpaqlarına yürüşü |
| III-V yüzillər | – Azərbaycanda feodal münasibətlərinin yaranması |
| III yüzil | – İran, Orta Asiya və başqa qonşu ölkələrdə Mani təliminin yayılması |
| 215-225-ci illər | – Alban hökmdarı I Vaçaqanın hakimiyyəti |
| 255-262-ci illər | – Alban hökmdarı I Vaçenin hakimiyyəti |
| IV yüzil | – Alban dövlətində xristianlığın rəsmi olaraq qəbul edilməsi |
| 387-ci il | – Roma ilə İran arasında barış |
| 487-488-ci il | – Aquyen kilsə məclisi |
| 438-457-ci illər | – II Yəzdiqirdin hakimiyyəti |
| 450-451-ci illər | – Alban, İber və başqalarının Sasani zülmünə qarşı üsyanları |
| 457-ci il | – Albanların hökmdar II Vaçenin başçılığı ilə Sasanlı zülmünə qarşı üsyanı |
| 481-484-cü illər | – Albanların və qonşu xalqların Sasanlı zülmünə qarşı üsyanı |
| 487-510-cu illər | – Alban hökmdarı III Vasaqanın hakimiyyəti |
| V yüzilin 80-ci illəri- 529-cu il | – Məzdəkilər hərəkatı |
| 571-572-ci illər | – Alban, İber və Ermənistanda sasanlılara qarşı üsyan |
| III-IV yüzillər | – Hun, xəzər, basil və başqa tayfaların Dərbənd keçidi ilə Azərbaycana yürüşü |
| VI-VIII yüzillər | – Xəzərlərin Alban torpaqlarına yürüşü və orada məskunlaşması |
| 603-625-ci illər | – İran-Bizans savaşları |
| 642-ci il | – Nihavənd döyüşü |
| 570-8 iyul 632-ci il | – Həzrəti Məhəmmədin anadan olduğu və yaşadığı illər |
| 632-634-cü illər | – Xəlifə Əbu Bəkrin hakimiyyəti |
| 634-644-cü illər | – Xəlifə Ömər ibn Xəttabın hakimiyyəti |
| 639-cu il | – Ərəb qoşunlarının Urmiya gölü tərəfindən Azərbaycana soxulması |
| 638-680-ci illər | – Aqvan hökmdarı Cavanşirin hakimiyyəti |
| 644-656-cı illər | – Xəlifə Osman ibn Əffanın hakimiyyəti |



| | |
|---|---|
| 651-ci il | – Sasani imperiyasının çökməsi |
| 654-cü il | – Cavanşirin Bizans imperatoru II Konstantinlə birinci görüşü |
| 656-661-ci illər | – Xəlifə Əli Əbu ibn Talibin hakimiyyəti |
| VII yüzilin II yarısı | – İslam dininin yayılması |
| 660-cı il | – Cavanşirin II Konstantinlə ikinci görüşü |
| 661-680-ci illər | – Xəlifə I Müaviyənin hakimiyyəti |
| 661-750-ci illər | – Əməvilər sülaləsinin hakimiyyəti |
| 662-ci il | – Cavanşirin Aqvana soxulan Xəzər qoşunlarını məğlub etməsi |
| 667-ci il | – Cavanşirin Dəməşqdə Xəlifə I Müaviyə ilə görüşü |
| 670-ci il | – Cavanşirin Dəməşqdə Xəlifə I Müaviyə ilə ikinci görüşü |
| 704/705-ci il | – Aqvan knyazlığının çökməsi |
| 709-cu il | – Ərəb-xəzər savaşının başlanması |
| 748-ci il | – Beyləqanda üsyan |
| 750-1258-ci illər | – Abbasilər sülaləsinin hakimiyyəti |
| 752-ci il | – Şəmkürdə üsyan |
| 778-ci il | – Xürrəmilərin ərəblərə qarşı birinci üsyanı |
| 786-809-cu illər | – Xəlifə Harun ər-Rəşidin hakimiyyəti |
| 808-ci il | – Savalan dağlarında, Qarabağda, Ərdəbildə və Muğanda xürrəmilərin çıxışları |
| 813-833-cü il | – Xəlifə əl-Məmunun hakimiyyəti |
| 822-ci il | – Babəkin Bərdə yaxınlığında ərəb qoşunlarını məğlub etməsi |
| 823/824-cü il | – Babəkin ərəb ordusunu məğlub etməsi |
| 828-ci il | – Babəkin Məhəmməd ibn Hamid ət Tusinin komandanlıq etdiyi ərəb qoşununu məğlub etməsi |
| 829/830-cu il | – Xilafətin sayca beşinci ordusunun Babək tərəfindən məğlub edilməsi |
| 830-cu il | – Həmədanın xürrəmilər tərəfindən ələ keçirilməsi |
| 833-842-ci illər | – Xəlifə Mö'təsimin hakimiyyəti |
| 835-]b bk | – Afşin Heydər ibn Kavusun ərəb ordusuna komandan qoyulması |
| 836-cı il | – Həştadsar dağında döyüş |
| 837-ci il, 26 avqust | – Bəzz qalasının süqutu |
| 838-ci il, 14 mart | – Babəkin edam edilməsi |

| | |
|---|---|
| 861-ci il | – Şirvanın müstəqillik qazanması |
| 879-941-ci illər | – Saçilər dövləti |
| 909-cu il | – Rusların Xəzərin Abaskun, Sara adalarına basqını |
| 941-981-ci illər | – Salarilər dövləti |
| 941-957-ci illər | – Salari Mərzban ibn Məhəmmədin hakimiyyəti |
| 944-cü il, 12-24 avqust | – Rusların Bərdəni qarət etməsi |
| 981-1116/1117-ci illər | – Rəvvadilər dövləti |
| 988-ci il | – Dərbənd əmirliyinin Şirvanşahlar dövlətinə birləşdirilməsi |
| 971-1088-ci illər | – Şəddadilər dövləti |
| 985-1030-cu illər | – Şəddadi hakimi əzl ibn Məhəmmədin hakimiyyəti |
| 988-1030-cu illər | – Sultan I Mahmudun hakimiyyəti |
| 1012-1088-ci illər | – Qətran Təbrizi |
| 1027-ci il | – Xudafərin körpüsünün tikilməsi |
| 1027-1382-ci illər | – Kəsranilər sülaləsi |
| 1030-1109-cu illər | – Xətib Təbrizi |
| 1030-cu il | – Rusların Xəzər sahillərinə basqını |
| 1038-ci il | – Bizans və Gürcüstanın Tiflis müsəlman əmirliyinin aradan qaldırılması cəhdinin boşa çıxması |
| 1032-1033-cü illər | – Alan, sərir və rusların Şirvana dağıdıcı basqınları |
| 1049-1067-ci illər | – Şəddadi hakimi Şavurun hakimiyyəti |
| 1063-cu il | – Gəncənin qala qapılarının düzəltdirilməsi |
| 1038-1063-cü illər | – Səlcuq imperatoru Toğrul bəyin hakimiyyəti |
| 1038-1157-ci illər | – Səlcuq imperiyası |
| 1040-cı il | – Dəndənəkan vuruşması |
| 1048-ci il, 18 sentyabr | – Səlcuqların Bizans, erməni və gürcü qoşunlarını məğlub etməsi |
| 1038-1044-cü illər | – Səlcuqların bütün Xorasanı ələ keçirməsi |
| 1043-cü il | – Xarəzmin tutulması |
| 1042-1051-ci illər | – Qərbi İranın səlcüqların əlinə keçməsi |
| 1054-cü il | – Sultan Toğrulun Təbrizə daxil olması |
| 1055-ci il | – Bağdadın tutulması |
| 1063-1072-ci illər | – Sultan Alp Arslanın hakimiyyəti |



| | |
|---|---|
| 1063-1096-cı illər | – I Fəriburzun hakimiyyəti |
| 1066-cı il | – Şirvanın Səlcuqlar tərəfindən tutulması |
| 1071-ci il, 26 avqust | – Məlazqird vuruşması |
| 1072-1092-ci illər | – Məlikşahın hakimiyyəti |
| 1092-1094-cü illər | – Sultan Mahmudun hakimiyyəti |
| 1094-1104-cü illər | – Sultan Börkuyarığın hakimiyyəti |
| 1096-1159-cu illər | – Görkəmli şair Əbülüla Gəncəvi |
| 1096-1099-cu illər | – Birinci Xaç savaşı |
| 1099-1131-ci illər | – Görkəmli filosof Eynəlqüzzət Miyanəçi |
| 1104-1105-ci illər | – II Məlikşahın hakimiyyəti |
| 1108-1118-ci illər | – Sultan Məhəmmədin hakimiyyəti |
| 1108-1127-ci illər | – Ağsunqürilər sülaləsi |
| 1108-1146-cı illər | – Fələki Şirvani |
| 1117-ci il | – Şirvanın talanması |
| 1118-1157-ci illər | – Sultan Səncərin hakimiyyəti |
| 1118-1194-cü illər | – İraq Səlcuq sultanlığı |
| 1120-1199-cu illər | – Əfzələddin Xaqani |
| 1120-1160-cı illər | – III Mənucöhrün hakimiyyəti |
| 1121-ci il | – Didqori vuruşması |
| 1122-ci il | – Tiflis müsəlman əmirliyinin ləğvi |
| 1123-1124-cü illər | – Gürcü qoşunlarının Şirvana basqınları |
| 1132-1134-cü illər | – Sultan II Toğrulun hakimiyyəti |
| 1136-1225-ci illər | – Atabəylər-Eldənizlər hakimiyyəti |
| 1136-1175-ci illər | – Şəmsəddin Eldənizin hakimiyyəti |
| 1139-cu il 30 sentyabr | – Gəncədə zəlzələ |
| 1141-1209-cu illər | – Nizami Gəncəvi |
| 1145-1234-cü illər | – Şihabəddin Əbuhəfs Sührəvərdi |
| 1160-cı il | – Şəmsəddin Eldənizin «Böyük Atabəy» titulu alması |
| 1160-1196-cı illər | – I Əhsitanın hakimiyyəti |
| 1161-1176-cı illər | – Sultan Arslan şahın hakimiyyəti |
| 1161-ci il | – III Georginin Gəncə və Dəbili qarət etməsi |
| 1162-ci il | – Əcəmi Əbubəkr oğlu tərəfindən Yusif ibn Kuseyir türbəsinin tikilməsi |
| 1163-cü il | – Atabəy Eldənizin Gürcüstana yürüşü |
| 1164 və 1166-cı illər | – Gürcülərin Azərbaycana hücumu |
| 1172-1200-ci illər | – Xarəzmşah Təkəşin hakimiyyəti |
| 1174-cü il | – Eldənizin Gürcüstana hücumu |
| 1175-ci il | – Rusların Azərbaycana basqını |
| 1175-ci il | – Nizami Gəncəvi «Sirlər xəzinəsi» əsərini tamamlamışdır |

| | |
|---|---|
| 1175-1186-cı illər | – Atabəy Məhəmməd Cahan Pəhləvanın hakimiyyəti |
| 1176-1194-cü illər | – Səlcuq sultanı III Toğrulun hakimiyyəti |
| 1175-ci il | – Paytaxtın Naxçıvandan Həmədana köçürülməsi |
| 1181-ci il | – Nizami Gəncəvi «Xosrov və Şirin» əsərini tamamlamışdır |
| 1186-1191-ci illər | – Qızıl Arslanın hakimiyyəti |
| 1186-cı il | – Əcəmi Əbubəkr oğlu tərəfindən Möminə xatun türbəsinin ucaldılması |
| 1188-ci il | – Nizami Gəncəvi «Leyli və Məcnun» əsərini yazmışdır |
| 1190-cı il | – Həmədan vuruşması |
| 1191-1210-cu illər | – Əbu Bəkrin hakimiyyəti |
| 1192-ci il | – Şirvanda zəzələ |
| 1197-ci il | – Nizami Gəncəvi «Yeddi gözəl» əsərini yazmışdır |
| 1198-1283-cü illər | – Siraəddin Ürməvi |
| 1201-1274-cü illər | – Nəsirəddin Tusi |
| 1203-cü il | – Dəbil şəhərinin qarət edilməsi |
| 1204-1462-ci illər | – Trabzon hökmdarlığı |
| 1206-1227-ci illər | – Çingiz xanın hakimiyyəti |
| 1210-1211-ci illər | – Gürcü qoşunlarının Azərbaycana basqınları |
| 1210-1225-ci illər | – Atabəy Özbəyin hakimiyyəti |
| 1220-ci il | – Moğolların Azərbaycana yürüşü |
| 1221-ci il | – Moğolların Təbriz və Beyləqanı tutması |
| 1222-ci il | – Xarəzmşah Cəlaləddinin Azərbaycana soxulması |
| 1225-1231-ci illər | – Azərbaycanda Xarəzmşah Cəlaləddinin ağalığı |
| 1225-ci il | – Eldənizlər dövlətinin süqutu |
| 1225-1243-cü illər | – Şirvanşah III Fəriburzun hakimiyyəti |
| 1230-1294-cü illər | – Səfiəddin Ürməvi |
| 1231-ci il | – Gəncədə usta Bəndərin başçılığı ilə üsyan |
| 1231-1239-cu illər | – Moğolların Azərbaycana ikinci yürüşü |
| 1235-ci il | – Moğolların Gəncəni tutması |
| 1239-cu il | – Dərbəndin Moğollar tərəfindən tutulması |
| 1252-1334-cü ilər | – Şeyx Səfiəddin İsaq |



| | |
|---|---|
| 1256-1258-ci illər | – Hülaqü xanın ön Asiyaya yürüşü |
| 1256-cı il | – Azərbaycanın istilası |
| 1258-1265-ci illər | – Hülaqü xanın hakimiyyəti |
| 1259-cu il | – Marağa rəsədxanasının tikilməsi |
| 1265-1282-ci illər | – Abaqa xanın hakimiyyəti |
| 1282-1284-cü illər | – Əhməd xanın hakimiyyəti |
| 1284-1291-ci illər | – Arqun xanın hakimiyyəti |
| 1284-1320-ci illər | – Mahmud Şəbüstəri |
| 1291-1295-ci illər | – Keyxatu xanın hakimiyyəti |
| 1295-1304-cü illər | – Qazan xanın hakimiyyəti |
| 1297-ci il | – Sultaniyyədə Olcaytu Xudabəndə məqbərəsinin tikilməsi |
| 1300-1304-cü illər | – Təbriz rəsədxanasının tikilməsi |
| 1303-cü il | – Qazan xanın islahatları |
| 1304-c1316-cı illər | – Sultan Məhəmməd Xudabəndənin hakimiyyəti |
| 1309-1310-cu illər | – Bakıda Cümə məscidinin ucaldılması |
| 1311-ci il | – Təbrizdə Əlişah camisinin ucaldılması |
| XIV yüzilin 20-30-cu illəri | – Qarabağlar məqbərəsinin tikilməsi |
| 1322-ci il | – Bərdə məqbərəsinin tikilməsi |
| 1334-1392-ci illər | – Şeyx Səfiəddin Musa |
| 1335-1336-cı illər | – Çobani əmiri Arpa xanın hakimiyyəti |
| 1339-1521-ci illər | – Zülqədər bəyliyi |
| 1339/40-1393-cü illər | – Fəzlullah Nəimi |
| 1344-1356-cı illər | – Əşrəf Çobanın ağalığı |
| 1344-1398-ci illər | – Qazı Burhanəddin |
| 1356-1434-cü illər | – Şah Qasım Ənvər |
| 1358-1372-ci illər | – Cəlayiri Sultan Uveysin hakimiyyəti |
| 1358-1410-cu illər | – Cəlayirlərin hakimiyyəti |
| 1369-1417-cu illər | – İmadəddin Nəsimi |
| XIV yüzilin ortaları | – Hürufilik təliminin güclənməsi |
| XIV yüzilin I yarısı | – Sultaniyyə məscidinin ucaldılması |
| 1370-1405-ci illər | – Teymurun hakimiyyəti |
| 1372-1382-ci illər | – Şirvanşah Huşəngin hakimiyyəti |
| 1380-1389-cu illər | – Qara qoyunlu Qara Məhəmmədin hakimiyyəti |
| 1382-1417-ci illər | – I İbrahimin hakimiyyəti |
| 1382-1538-ci illər | – Dərbəndilər sülaləsinin hakimiyyəti |
| 1386-cı il | – Teymur və Toxtamışın Azərbaycana hücumları |
| 1387-1450-ci illər | – Bədr Şirvani |

| | |
|---|---|
| 1387-ci il | – Qara Məhəmmədin Teymurla savaşı |
| 1387-1399-cu illər | – Əlincə qalasının müdafiəsi |
| 1388-ci il | – Qaraqoyunlu Qara Məhəmmədin Təbrizə girməsi |
| 1389-1420-ci illər | – Qaraqoyunlu Qara Yusifin hakimiyyəti |
| 1394-1434-cü illər | – Qara Yuluq Osman bəyin hakimiyyəti |
| 1395-ci il | – Terek çayı üzərində döyüş |
| 1402-ci il | – Ankara yaxınlığında döyüş |
| 1406-cı il, oktyabr | – Naxçıvan yaxınlığında Əbubəkrlə Qaraqoyunlu Qara Yusif arasında savaş |
| 1406-cı il | – Təbrizdə Şeyx Əxi Qəssabın başçılığı ilə üsyan |
| 1406-cı il, may-iyun | – Şirvanşah I İbrahimin Təbrizə gəlməsi |
| 1406-cı il, iyul | – Cəlairi Sultan Əhmədin Təbrizi tutması |
| 1408-ci il, 21 aprel | – Təbriz yaxınlığında Temurilərlə Qaraqoyunlular arasında savaş |
| 1410-cu il, 30 avqust | – Şənbi Qazan yaxınlığında döyüş |
| 1410-1468-ci illər | – Qaraqoyunlu dövləti |
| 1412-ci il, dekabr | – Kur sahilində I İbrahim və Qara Yusuf arasında savaş |
| 1417-1462-ci illər | – Şirvanşah I Xəlilullahın hakimiyyəti |
| 1422-1429 və 1431-1435-ci illər | – Qara İsgəndərin hakimiyyəti |
| 1438-1467-ci illər | – Cahanşahın hakimiyyəti |
| 1447-1459-cu illər | – Şeyx Cüneyd |
| XV yüzillik | – Şirvanşah sarayı kompleksinin tikilməsi |
| 1453-cü il | – İstanbulun II Mehmet tərəfindən tutulması |
| 1453-1478-ci illər | – Uzun Həsənin hakimiyyəti |
| 1458-ci il | – Qaraqoyunlu Cahanşahın Xorasanı tutması |
| 1459-1488-ci illər | – Şeyx Heydər |
| 1462-1501-ci illər | – Şirvanşah Fərrux Yasarın hakimiyyəti |
| 1463-1479-cu illər | – Osmanlı-Venesiya savaşı |
| 1463-cü il | – Venesiya-Ağqoyunlu anlaşması |
| 1464-1467-ci illər | – Venesiya diplomatı Katerino Zenonun Ağqoyunlu dövlətində olması |
| 1465-ci il | – Təbrizdə «Göy məscid»in tikilməsi |
| 1465-ci il | – Şirvanşah elçisi Həsən Bəyin Moskvaya səfəri |
| 1466-cı il | – Rusiya elçisi Vasili Papinin Şirvana səfəri |



| | |
|---|---|
| 1466-1467-ci illər | – Afanasii Nikitinin Azərbaycana səfəri |
| 1467-ci il, noyabr | – Muş düzündə savaş |
| 1468-ci il | – Uzun Həsənin Təbrizə daxil olması |
| 1471-ci il | – Ağqoyunlu elçilərinin Avropa dövlətləri ilə danışıqları |
| 1472-ci ilin yazı | – Venesiyanın Ağqoyunlu dövləti ilə hərbi ittifaq bağlaması |
| 1472-1473-cü illər | – Ağqoyunlu-Osmanlı savaşı |
| 1473-cü il, mart | – Venesiya diplomatı İosofat Barbaronun Ağqoyunlu sarayına səfəri |
| 1473-cü il, 1 avqust | – Malatya savaşı |
| 1473-cü il, 11 avqust | – Otluğbeli savaşı |
| 1473-cü il | – Venesiya elçisi Ambroco Kontarinin Ağqoyunlu sarayına gəlişi |
| 1478-1490-cı il | – Sultan Yaqubun hakimiyyəti |
| 1480-ci il | – Ağqoyunlu-Osmanlı savaşı |
| 1481-1512-ci illər | – Sultan II Bayazidin hakimiyyəti |
| 1483-cü il | – Təbrizdə «həşt behişt» saray dəstinin tikilməsi |
| 1488-ci il, 9 iyul | – Şahdağın ətəyində şirvanşahlarla qızılbaşlar arasında savaş |
| 1488-1495-ci illər | – Şeyx Sultanəli |
| 1490-1492-ci illər | – Ağqoyunlu Baysunqurun hakimiyyəti |
| 1493-1496-cı illər | – Ağqoyunlu Rüstəm padşahın hakimiyyəti |
| 1494-1556-cı illər | – Məhəmməd Füzuli |
| 1496-cı il | – Əhməd Ağqoyunlu, yaxud Gödək Əhmədin hakimiyyəti |
| XV yüzilin sonu | – Avropadan Hindistana gedən okean yolunun açılması |
| 1499-cı il | – Ağqoyunlu dövlətinin iki yerə bölünməsi |
| 1499-1500-ci illər | – İsmayılın Ərzincan səfəri |
| 1500-ci ilin sonu | – İsmayılın Cabani yaxınlığında Fərrux Yasəri məğlub etməsi |
| 1501-ci il | – Bakının tutulması |
| 1501-ci ilin yazı | – Şərur düzündə İsmayılın Ağqoyunlu Əlvənd Mirzəni məğlub etməsi |
| 1501-1524-cü illər | – Şah İsmayılın hakimiyyəti |
| 1503-cü il, 21 iyun | – Həmədan yaxınlığında Şah I İsmayılın Ağqoyunlu Sultan Muradı məğlub etməsi |

| | |
|---|---|
| 1504-cü il | – Türkiyə Sultanı II Bayezidin Səfəvilər dövlətini tanıması |
| 1509-cu ilin sonu | – Şah I İsmayılın Şirvana ikinci yürüşü |
| 1509-1510-cu illər | – Şah I İsmayılın İraq-ı Ərəbi tutması |
| 1510-cu il | – Şah I İsmayılın Bağdadı tutması |
| 1510-cu il, 1 dekabr | – Mərv yaxınlığında Şah I İsmayılın özbək Şeybani xanı məğlub etməsi |
| 1510-cu il | – Anadoluda Şahqulu Baba üsyanı |
| 1512-1520-ci illər | – Sultan Səlimin hakimiyyəti |
| 1514-cü il, 23 avqust | – Çaldıran savaşı |
| 1516-cı il | – Səfəvilərin Gürcüstana ilk yürüşü |
| 1520-1566-cı illər | – I Süleyman Qanuninin hakimiyyəti |
| 1521-ci il | – Gürcü çarlarının Səfəvilərdən asılılığı qəbul etmələri |
| 1524-1535-ci illər | – II Xəlilullahın Şirvanda hakimiyyəti |
| 1524-1576-cı illər | – I Təhmasibin hakimiyyəti |
| 1526-cı il | – Sultaniyyə yaxınlığında savaş. Div sultanının qələbəsi |
| 1528-ci il | – Div Sultan Rumlunun öldürülməsi |
| 1528-1531-ci illər | – Təkəli bəylərinin hökmranlığı |
| 1534-cü il | – Sultan I Süleyman Qanuninin Təbrizi tutması |
| 1584-1612-ci illər | – Rəssam, təzkirəçi Sadiq bəy Afşar |
| 1535-ci ilin yazı | – Sultan I Süleymanın Təbrizə ikinci yürüşü |
| 1538-ci ilin yayı | – Səfəvi qoşunlarının Şirvana daxil olması |
| 1538-ci il | – İbn Bəzzazın «Səffət əs-səfa (safların safı) əsərinin türkcəyə çevrilməsi |
| 1541-ci il | – I Təhmasibin Tiflisi tutması |
| 1542-ci il | – «Şühədanamə» əsərinin türkcəyə çevrilməsi |
| 1547-1549-cu illər | – Şirvanda Səfəvilərə qarşı üsyanlar |
| 1548-ci il | – Sultan I Süleymanın Azərbaycana üçüncü yürüşü. Təbrizin tutulması |
| 1551-ci il | – Şəkinin Səfəvi dövlətinə tam tabe etdirilməsi |
| 1551-1554-cü illər | – Səfəvilərin Osmanlı ərazisinə yürüşü |
| 1554-cü il | – Sultan I Süleymanın Azərbaycana dördüncü yürüşü |
| 1555-ci il, 29 mart | – Amasya barışığı |



| | |
|---|---|
| 1555-ci il | – Paytaxtın Təbrizdən Qəzvinə köçürülməsi |
| XVI yüz ilin 30-cu illəri | – Səfəvilərlə Şeybanilər arasında çəkişmələr |
| 1560-1634-cü illər | – Görkəmli tarixçi İsgəndər bəy Münşi |
| 1561-1563-cü illər | – Entoni Cenkinsonun Azərbaycanda olması |
| 1563-1565-ci illər | – Tomas Olkok, Corc Leni və Rizaul Çinin ticarət birliyinin Azərbaycanda olması |
| 1565-1567-ci illər | – Artur Edvardsın Azərbaycana səfəri |
| 1568-1569-cu illər | – Volqa Xəzər yolu ilə İngiltərə ticarət nümayəndəliyinin Azərbaycana gəlməsi |
| 1569-1574-cü illər | – İngiltərədən Azərbaycana Tomas Benster və Ceffrinin başçılığı ilə nümayəndələrin gəlməsi |
| 1571-ci il | – Venesiya elçisi Vincentso Alessandrinin səfəri |
| 1574-1596-cı illər | – Sultan III Muradın hakimiyyəti |
| 1576-1577-ci illər | – Şah II İsmayılın hakimiyyəti |
| 1578-1587-ci illər | – Şah Məhəmməd Xudabəndinin hakimiyyəti |
| 1578-ci il | – Çıdır savaşı |
| 1578-1579-cu illər | – Krım tatarlarının Şirvan və Qarabağa hücumları |
| 1580-ci il | – İngiltərədən Azərbaycana Xristofor Berrounun başçılığı ilə ticarət nümayəndəsinin gəlməsi |
| 1588-ci il | – Türkmən və təkəli tayfalarının qiyamı |
| 1587-1629-cu illər | – Şah Abbasın hakimiyyəti |
| 1590-cı il | – Paytaxtın Qəzvindən İsfahana köçürülməsi |
| 1590-cı il | – Səfəvi-Osmanlı bağlaşması |
| 1599-cu il | – Səfəvi elçiləri Oruc bəy Bayat və Hüseynəli bəy Bayatın Avropaya səfəri |
| 1600-cı il | – Səfəvi elçisi İffət bəyin Avropaya səfəri |
| 1603-cü il | – Səfəvi elçisi Fəthi bəyin Venesiyaya səfəri |
| 1603-cü il, 21 oktyabr | – Şah I Abbasın Təbrizə daxil olması |
| 1603-cü il | – Almaniya elçilərinin Səfəvi sarayına gəlməsi |

| | |
|---|---|
| 1603-cü il. Noyabr | – İrəvan qalasının mühasirəyə alınması |
| 1603-1611-ci illər | – Səfəvi-Osmanlı müharibələri |
| 1604-cü il | – Səfəvi elçisi Mehdiqulu bəyin Almaniyaya səfəri |
| 1604-cü il, 8 iyun | – Şah I Abbasın İrəvan qalasını tutması |
| 1605-ci il, 7 noyabr | – Şah I Abbasın Cığaloğlu üzərində qələbəsi |
| 1606-cı il. 5 iyul | – Gəncənin geri alınması |
| 1609-cu il | – Səfəvilərin Venesiya, Florensiya və Roma ilə danışıqları |
| 1612-ci il | – Səfəvi-Osmanlı bağlaşması |
| 1613-cü il | – Şah I Abbasın Gürcüstana yürüşü |
| 1615-ci il | – Səfəvi elçilərinin İspaniyaya səfəri |
| 1616-1618-ci illər | – Səfəvi-Osmanlı müharibələri |
| 1616-cı il | – İspan elçisi Don Qarsianın Səfəvi sarayına gəlməsi |
| 1617-ci il | – İtalyan səyyahı Pyetro della Vallenin Azərbaycana səyahəti |
| 1619-cu il | – Səfəvi-Osmanlı bağlaşması |
| 1621-ci il | – İngiltərə-Səfəvi müqaviləsi |
| 1623-1640-cı illər | – Sultan IV Muradın hakimiyyəti |
| 1625-ci il, 30 iyun | – Şah I Abbasın gürcülər üzərində qələbəsi |
| 1628-ci il | – Şah I Abbasın Ost Hind kompaniyasının nümayəndələrini qəbul etməsi |
| 1629-1642-ci illər | – I Səfi Mirzənin hakimiyyəti |
| 1634-cü il | – Sultan IV Muradın İrəvanı tutması |
| 1635-ci il, 21 aprel | – İrəvanın geri alınması |
| 1635-1639-cu illər | – Görkəmli alman alimi Holştin elçisi Adam Olearinin Səfəvi dövlətinə səfəri |
| 1639-cu il | – Osmanlı-Səfəvi bağlaşması |
| 1655-ci il | – Məsihi-Ruknəd-Din Məs'ud tərəfindən «Vərqa və Gülşa» poemasının yazılması |
| 1684-1760-cı illər | – Xəstə Qasım |
| 1703-1730-cu illər | – Sultan III Əhmədin hakimiyyəti |
| 1709-1809-cu illər | – Molla Vəli Vidadi |
| 1709-cu il | – Təbriz üsyanı |
| 1711-ci il | – «Xudabəndənin oğlu Şah Abbas zamanının tarixi» əsərinin yazılması |
| 1711-ci il | – Car vilayətində üsyan |



| | |
|---|---|
| 1717-1797-ci illər | – Molla Pənah Vaqif |
| 1722-ci il 15 iyun | – I Pyotrun türkcə «Bəyannamə» nəşr etdirməsi və Azərbaycan vilayətinə göndərməsi |
| 1722-1732-ci illər | – II Təhmasibin hakimiyyəti |
| 1722-ci il, 18 iyul | – I Pyotrun Xəzəryanı bölgələrə yürüşünün başlaması |
| 1723-cü il. 26 iyul | – Bakının ruslar tərəfindən işğalı |
| 1723-cü il, 12 sentyabr | – Saxta Rusiya-İran müqaviləsi |
| 1724-cü il, 24 iyun | – Türkiyə-Rusiya müqaviləsi |
| 1724-cü il, 10 noyabr | – I Pyotrun erməniləri Xəzəryanı vilayətlərə yerləşdirmək barədə buyuruğu |
| 1725-ci il, 11 fevral | – Erməniləri Xəzəryanı vilayətlərdə yerləşdirmək barədə Rusiya Xarici işlər kollegiyasının fərmanı |
| 1725-ci il | – Təbrizin Türkiyə qoşunları tərəfindən tutulması |
| 1725-ci il | – Sarı Mustafa paşanın Gəncəni tutması |
| 1725-ci ilin payızı | – Türkiyənin Gürcüstan, İrəvan və Azərbaycanı ələ keçirməsi |
| 1728-1729-cu illər | – Nadir xanın əfqanları İrandan çıxarması |
| 1729-cu il | – Birinci Rəşt bağlaşması |
| 1732-ci il, 16 yanvar | – Türkiyə-İran barışığı |
| 1732-ci il, yanvar | – İkinci Rəşt bağlaşması |
| 1733-cü il | – «Xanedane Səfəvi» tarixi əsərinin yazılması |
| 1734-cü il, oktyabr | – Gəncə qalasının mühasirəyə alınması |
| 1735-ci il, 10 mart | – Gəncədə Rusiya-İran bağlaşması |
| 1736-cı il, yanvar-fevral | – Muğan qurultayı |
| 1736-1747-ci illər | – Nadir şahın hakimiyyəti |
| 1738-ci il | – Car üsyanı |
| 1743-cü il | – Nadir şahın rəhbərliyi ilə Nəcəfdə qurultay keçirilmişdir |
| 1743-cü il | – Birinci və ikinci Sam Mirzə üsyanları |
| 1743-1746-cı illər | – Şəkidə Hacı Çələbinin başçılığı ilə üsyan |
| 1746-cı il, mart | – Hacı Çələbinin Nadir şahın hakimiyyətini tanıması |
| 1747-1804-cü illər | – Gəncə xanlığı |
| 1748-1822-ci illər | – Qarabağ xanlığı |
| 1748-1763-cü illər | – Pənahəli xanın hakimiyyəti |

| | |
|---|---|
| XVIII yüzilin ortaları | – Azərbaycanda müstəqil və yarımmüstəqil dövlətlərin yaranması |
| 1748-ci il | – Bayat qalasının tikilməsi |
| 1751-ci il | – Şahbulağın tikilməsi |
| 1751-ci il | – Carda Hacı Çələbi ilə Kartlı çarı Teymuraz və Kaxet çarı İrakli arasında savaş |
| 1752-ci il | – Gürcü çarları ilə Azərbaycan xanları arasında savaşlar |
| 1755-ci il | – Çələbi xanın ölümü |
| 1756-cı il | – Fətəli xan Afşarın Qarabağ yürüşü |
| 1758-1789-cu illər | – Quba xanı Fətəli xanın hakimiyyəti |
| 1759-1806-cı illər | – Qarabağ xanı İbrahim xanın hakimiyyəti |
| 1768/69-cu illər | – Şuşada böyük Cümə məscidinin tikilməsi |
| 1759-cu il, noyabr | – Dərbəndin Qubaya birləşdirilməsi |
| 1760-cı il | – Fətəli xan Afşarın Qarabağa yürüşü |
| 1762-ci il | – Fətəli xan Afşarın Azərbaycana yürüşü |
| 1762-1763-cü illər | – Kərim xan Zəndin Azərbaycana hücumu. Urmiyanın mühasirəsi |
| 1762-ci il | – Şəki xan sarayının tikilməsi |
| 1764-1772-ci illər | – Rusiya İmperator Akademiyasının həqiqi üzvü S.Q.Qmelinin gizli mə'lumat toplamaq üçün Xəzər sahili bölgələrə səfəri |
| 1767-ci il | – Bakı və Abşeron torpaqlarının Quba xanlığına qatılması |
| 1768-ci il, iyun | – Şamaxı xanlığının Quba və Şəki xanları tərəfindən bölüşdürülməsi |
| 1768-ci il | – Cavad xanlığının Quba xanlığına birləşdirilməsi |
| 1768-1774-cü illər | – Rusiya-Türkiyə müharibəsi |
| 1769-1884-cü illər | – Baba bəy Şakir |
| 1769-cu il | – Şamaxı qiyamı |
| 1773-1853-cü illər | – Mirzə Camal Cavanşir |
| 1773-1774-cü illər | – Birləşmiş qüvvələrin Quba xanlığına hücumu |
| 1774-cü il | – Xudat yaxınlığında Gavduşan döyüşü |
| 1780-1838-ci illər | – Zeynalabdin Şirvani |
| 1780-1781-ci illər | – Fətəli xanın Qarabağa yürüşü |



| | |
|---|---|
| 1783-cü il, 24 iyul | – Georgiyevsk traktatı |
| 1783-cü il | – Rusiyanın Krımı işğal etməsi |
| 1784-1857-ci illər | – Qasım bəy Zakir |
| 1784-cü il | – Fətəli xanın Güney Azərbaycana yürüşü |
| 1784-1869-cu illər | – Mirzə Cəfər Topçubaşov |
| 1785-1804-cü illər | – Cavad xanın xanlıq illəri |
| 1785-ci il | – Fətəli xanın Şəkini tutması |
| 1787-1891-ci illər | – Rusiya-Türkiyə müharibəsi |
| 1788/89-cu illər | – Əsgəran qalasının tikilməsi |
| 1791-1810-cu illər | – Şeyxəli xanın hakimiyyəti |
| 1792-1852-ci illər | – Mirzə Şəfi Vazeh |
| 1792-1852-ci illər | – Fazil xan Şeyda |
| 1794-cü il | – İran qoşunlarının Əsgəran qalası yaxınlığında məğlub olması |
| 1794-1846-cı illər | – Abbasqulu ağa Bakıxanov |
| 1795-ci il | – Ağa Məhəmməd şah Qacarın Azərbaycana yürüşü |
| 1795-ci il, iyun-avqust | – Şuşanın mühasirəsi |
| 1795-ci il, 21 avqust | – İran qoşununun Tiflisi tutması |
| 1796-1925-ci illər | – İranda Qacar monarxiyası |
| 1796-cı il | – Rus qoşunlarının Azərbaycana basqını |
| 1796-1801-ci il | – I Pavelin hakimiyyəti |
| 1797-ci il | – Ağa Məhəmməd şahın Azərbaycana ikinci yürüşü |
| 1797-ci il | – Ağa Məhəmməd şahın Şuşanı tutması və öldürülməsi |
| 1801-1825-ci illər | – I Aleksandrın hakimiyyəti |
| 1801-ci il, 12 sentyabr | – Şərqi Gürcüstanın, Qazax və Şəmşəddilin Rusiyaya birləşdirilməsi |
| 1802-1870-ci illər | – Mirzə Kazım bəy |
| 1802-ci il, 26 dekabr | – Georgiyevsk andlaşması |
| 1803-cü il, 29 mart | – Rus qoşunlarının Carı işğal etməsi |
| 1804-cü il, 3 yanvar | – Gəncənin rus qoşunları tərəfindən işğal edilməsi |
| 1804-1813-cü illər | – Rus-İran savaşı |
| 1805-ci il, 14 may | – Qarabağ xanlığını Rusiyaya ilhaq edən Kürəkçay andlaşması |
| 1805-ci il, 21 may | – Şəki xanlığının Rusiya tabeliyinə keçməsi |
| 1805-ci il, 27 dekabr | – Şirvan xanlığının Rusiyaya qatılması |

| | |
|---|---|
| 1806-cı il. 8 fevral | – General Çiçianovun Bakı ətrafında öldürülməsi |
| 1806-1812-ci illər | – Rusiya-Türkiyə savaşı |
| 1806-cı il | – Qarabağ xanı İbrahim xanın ailəsi ilə birlikdə öldürülməsi |
| 1806-cı il | – Şəki xanlığında rus işğalına qarşı üsyan |
| 1806-cı il, 22 iyun | – Dərbəndin işğalı |
| 1806-cı il, oktyabr | – Bakı və Quba xanlığının işğalı |
| 1806-cı il, 3 oktyabr | – Bakı xanlığının ləğv edilib Bakı dairəsinin yaradılması |
| 1809-1894-cü illər | – Mirmehdi Xəzani |
| 1810-cu il, aprel | – Əsgəran danışıqları |
| 1810-cu il | – Quba xanlığının ləğv edilib Quba əyalətinin yaradılması |
| 1810-1811-ci illər | – Quzey Azərbaycanda çar ordusuna qarşı çıxışlar |
| 1812-ci il, 16 may | – Rusiya və Türkiyə arasında Buxarest barışığı |
| 1812-1873-cü illər | – Əbülqasim Nəbati |
| 1812-1878-ci illər | – Mirzə Fətəli Axundov |
| 1813-cü il, 12 oktyabr | – Gülüstan müqaviləsi |
| 1813-cü il, 16-19 oktyabr | – Leypsiq altında «Xalqlar döyüşü» |
| 1814-cü il | – İngiltərə-İran bağlaşması |
| 1815-ci il, 1 oktyabr-8 iyun | – Vyana konqresi |
| 1818-ci il, 31 mart | – Qazax, Şəmşədil və Borçalıda ağa və kəndlilər arasında münasibətləri nizamlayan «Əsasnamə» |
| 1819-cu il | – Şəki xanlığının, Qazax və Şəmşədil sultanlıqlarının ləğv edilməsi |
| 1819-1820-ci illər | – Şəmşədildə rus ağalığına qarşı üsyan |
| 1820-ci il | – Şirvan xanlığının ləğv edilməsi |
| 1821-ci il | – Transqafqazda «İmtiyazlı gömrük» adlanan ticarət qanunu |
| 1822-ci il | – Qarabağ xanlığının ləğv edilməsi |
| 1824-cü il | – Quba bəylərinin torpaq hüquqlarını nizamlayan «Əsasnamə» |
| 1825-1855-ci illər | – I Nikolayın hakimiyyəti |
| 1826-cı il | – Talış xanlığının ləğv edilməsi |
| 1826-1828-ci illər | – Rusiya-İran savaşları |



| | |
|---|---|
| 1826-cı il | – Quzey Azərbaycanda «ümummüsəlman üsyanı» |
| 1826-cı il, sentyabr | – Şəmkir və Gəncə yaxınlığında rus ordusunun qələbəsi |
| 1827-ci il, yanvar | – Rus qoşunlarının Əhəri işğal etməsi |
| 1827-ci il, 20 aprel | – Xudafərin körpüsünün rus qoşunları tərəfindən tutulması |
| 1827-ci il, 26 iyun | – Naxçıvan qalasının ruslar tərəfindən tutulması |
| 1827-ci il, 1 oktyabr | – İrəvanın ruslar tərəfindən işğalı |
| 1827-ci il, 2 sentyabr | – Mərəndin işğalı |
| 1827-ci il, 13 oktyabr | – Rusların Təbrizi işğal etməsi |
| 1828-ci il, 28 yanvar | – Urmiyanın işğalı |
| 1828-ci il, 8 fevral | – Ərdəbilin işğalı |
| 1828-ci il, fevral | – Şeyx Səfi məqbərəsindən 166 dəyərli əlyazmanın Sankt-Peterburqa aparılması |
| 1828-ci il, 10 fevral | – Türkmənçay müqaviləsi |
| 1828-1830-cu illər | – İran və Türkiyədən 124 min erməninin Azərbaycan və İrəvana köçürülməsi |
| 1828-1829-cu illər | – Rus-türk savaşı |
| 1828-ci il, 25 dekabr | – İrəvan, Naxçıvan və Ordubadın tiyul torpaq sahibliyinin ləğv edilməsi |
| 1829-cu il, sentyabr | – Rusiya ilə Türkiyə arasında Ədirnə müqaviləsi |
| 1829-cu il | – Xanabad ipəksarıma manufakturasının tikilib işə salınması |
| 1829-cu il, 11 fevral | – Rusiyanın İranda baş elçisi A.S.Qriboyedovun öldürülməsi |
| 1830-cü il, 13 iyul | – Bəylər və ağalar haqqında Ali buyruq |
| 1830-cu il | – Car-Balakən camaatlarında üsyan |
| 1831-ci il | – Talışda üsyan |
| 1834-1882-ci illər | – Mirzə Nəsrullah Bahar Şirvani |
| 1835-1888-ci illər | – Seyid Əzim Şirvani |
| 1837-ci il | – Quba üsyanı |
| 1837-1897-ci illər | – Xurşud Banu Natəvan |
| 1837-1838-ci illər | – Şəki əyalətində çıxışlar |
| 1840-cı il, 10 aprel | – İnzibati və Məhkəmə islahatı. Komendant üsul-idarəsinin ləğvi |
| 1841-ci il, 13 fevral | – Qazax, Şəmşəddil və Borçalı məntəqələrinin tatar (türk) kəndlərinin ağaların idarəsindən azad edilməsi |

| | |
|---|---|
| 1841-1898-ci illər | – Fatma xanım Kəminə |
| 1844-cü il | – Qafqazda canişinliyin tə'sis edilməsi |
| 1846-cı il, 6 dekabr | – Bəylərin torpaq hüquqları, feodal kəndli münasibətləri haqqında qanun. Çarizmin yerli feodallarla ittifaqa girməsi |
| 1846-cı il | – Şamaxı quberniyasının yaradılması |
| 1847-ci il, 20 aprel və 28 dekabr | – Kəndli əsasnamələri . |
| 1848-1896-cı illər | – Nəsrəddin şahın hakimiyyəti |
| 1848-1852-ci illər | – Babilər hərəkatı |
| 1848-ci il | – Bibiheybətdə dünyada ilk dəfə buruq üsulu ilə neft quyusunun qazılması |
| 1855-1856-cı illər | – Gədəbəy misəritmə zavodunun tikilməsi |
| 1859-cu il | – Şamaxıda ümumi kitabxananın açılışı |
| 1863-cü il | – Bakıda neft emalı zavodunun işə düşməsi |
| 1868-ci il | – Yelizavetpol quberniyasının yaradılması |
| 1873-cü il | – Azərbaycan milli meatrının əsasının qoyulması |



## QISALTMALAR

Аз.ФАН – Азербайджанский филиал Академии Наук
АФМ – Azərbaycan filologiyası məsələləri
ВДИ – Вестник древней истории
ВИКА – Вопросы истории Кавказской Албании
ГАИМК – Государственная Академия истории материальной культуры
ЖМНП – Журнал Министерства народного просвещения
ИФЖ – Историко–филологический журнал АН Армянской ССР
КСИА – Краткие сообщения института археологии
КСИИМК – Краткие сообщения института истории материальной культуры
ООИА – Общество обследования и изучения Азербайджана
СА – Советская археология
СВ – Средневековый Восток
СТ – Советская тюркология
ТИИ – Труды института Истории АН Азербайджана
ТИИФ – Труды института истории и философии АН Азербайджана

**Nəşriyyatın direktoru:** *t. e. n.* ***Əliağa Cəfərli***

Texniki redaktoru: *Pərvanə İmran qızı*
Korrektoru: *Adil Əliyev*
Kompüter: *İradə Hüseynova, Nərgiz Kazımova*

Yığılmağa verilib 12.02.2009. Çapa imzalanıb 24.08.2009. Kağız formatı 60x84 $^1/_{16}$. Həcmi 54,5 ç. v. Ofset çapı. Qiyməti müqavilə ilə.

**«Çıraq» nəşriyyatında yığılıb səhifələnmiş və nəşrə hazırlanmışdır.**

Т3(2А)
А99